

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ENSİKLOPEDİYASI

İKİ CİLDDƏ

I cild

BAŞ REDAKTOR

**YAQUB MAHMUDOV**

"LİDER NƏŞRİYYAT"
BAKI-2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## REDAKSİYA HEYƏTİ

Yaqub MAHMUDOV (baş redaktor), İslam AĞAYEV, Tofiq BABAYEV (məsul katib),
Azər BAĞIROV, İradə BAĞIROVA, Firdovsiyyə ƏHMƏDOVA,
Anar İSGƏNDƏROV, Nigar MAKSVELL, Xeyrulla MƏMMƏDOV,
Elmira MƏMMƏDOVA, Mirheydər MİRZƏYEV, Ataxan PAŞAYEV (baş redaktor müavini),
Mehman SÜLEYMANOV, Kərim ŞÜKÜROV

**947.54 – dc 21**
**AZE**
**Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.** İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, 440 səh.

**ISBN 9952-417-14-2**

© "LİDER NƏŞRİYYAT", 2004

## REDAKSİYADAN

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının işıq üzü görməsi müstəqil Azərbaycan Respublikasının həyatında mühüm hadisədir.

Ensiklopediya Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bütün sahələrini əhatə edən ilk fundamental elmi soraq əsəridir.

İki cilddən ibarət olan Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının səhifələrində Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fikir tarixinin ən mühüm məqamlarını, azadlıq hərəkatının görkəmli nümayəndələrinin həyat və fəaliyyətini, Azərbaycan Xalq Cümhuriyyətini doğuran tarixi şəraiti, Cümhuriyyət xadimlərinin həyat və mübarizəsini, Azərbaycan xalqına qarşı həyata keçirilən kütləvi soyqırımlarını, Qafqaz İslam Ordusunun xilaskarlıq əməliyyatlarını, böyük dövlətlərin və qonşu ölkələrin Azərbaycanla bağlı qəsbkarlıq planlarını, Cümhuriyyət Parlamenti və Hökumətinin fəaliyyətini, dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və ölkənin ərazi bütövlüyü uğrunda mübarizəni, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarif həyatını, xarici dövlətlərdəki Azərbaycan diplomatik nümayəndəliklərinin fəaliyyətini, habelə Cümhuriyyətin süqutundan sonra istiqlal ideallarını yaşadan milli hərəkat, siyasi mühacirət və s. məsələləri işıqlandıran 1500-ə qədər termin-məqalə verilir.

Ensiklopediyada tarixi varislik prinsipinə əməl olunaraq, Azərbaycan Xalq Cümhuriyyətindən əvvəlki dövrdə dövlətçilik tarixinin ayrı-ayrı məsələlərinə, əhali və ərazi problemlərinə, çar Rusiyasının xüsusi məqsədlə həyata keçirdiyi inzibati-ərazi islahatları nəticəsində Azərbaycanın tarixi torpaqlarının bölüşdürülməsinə, o cümlədən Qərbi Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq siyasətinə, Cənubi Qafqaz ərazisindəki quberniyalar və qəzaların tarixinə, ümumiyyətlə Cümhuriyyət tarixi ilə bağlı bir sıra başqa məsələlərə və tarixi şəxsiyyətlərə dair materiallara da müəyyən yer verilmişdir.

Cümhuriyyət tarixinin ayrı-ayrı məsələləri yaxın keçmişdə saxtalaşdırıldığından və qəsdən təhrif olunduğundan, həmçinin bu dövrün bir çox problemləri indiyədək lazımınca araşdırılmadığından ensiklopediyada verilən məqalələrin böyük əksəriyyəti tədqiqat xarakteri daşıyır və yeni elmi baxışı əks etdirir.

Ensiklopediyada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün inzibati-ərazi bölgüsünü əks etdirən çoxsaylı rəngli xəritələr, mətndaxili ağ-qara və rəngli şəkillər, xəritələr, cədvəllər, diaqramlar, portretlər, hərbi əməliyyat planları və başqa illüstrasiya materialları verilir. Bunların bir çoxu ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında işıq üzü görür.

Tarixi varislik və dövlətçilik prinsipləri əsas götürülərək, həm də Şimali Azərbaycanda dövlət müstəqilliyinin bərpası, Yeni Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin ən önəmli məqamlarını əks etdirmək məqsədilə ensiklopediyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyev haqqında da ayrıca məqalələr verilir.

Bütün bunlarla yanaşı, redaksiya heyəti oxuculara onu da yetirməyi özünə borc bilir ki, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin doğru-düzgün araşdırılması və xalqa olduğu kimi çatdırılması uzun zaman yasaq olunduğundan, kommunist rejiminin hökmranlığı dövründə Cümhuriyyət tarixinə dair külli miqdarda sənədlər və materiallar məhv edildiyindən, xarici ölkələrə aparıldığından, ömrünü mühacirətdə başa vurmuş Cümhuriyyət xadimlərinə məxsus arxiv sənədləri və xatirələrin hələ heç də hamısı tədqiqat dövriyyəsinə daxil edilmədiyindən ensiklopediyadakı məqalələrin bəzilərində müəyyən boşluqlar və çatışmazlıqlar da ola bilər. Bu baxımdan, təbiidir ki, Cümhuriyyət tarixinə dair yeni sənədlər, məlumatlar əldə olunduqca və elmi araşdırmalar daha da dərinləşdikcə Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının yenidən nəşr olunmasına ehtiyac da yaranacaqdır.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının işıq üzü görməsi ölkədə milli ensiklopediya nəşrinə göstərilən dövlət qayğısının nəticəsidir. Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsi, Milli Arxiv İdarəsi, Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Tarix Muzeyi, İstiqlal Muzeyi, habelə digər elmi, dövlət və hökumət qurumlarının əməkdaşları, elm və mədəniyyət xadimləri, alim və mütəxəssislər ensiklopediyanın ərsəyə gəlməsində öz köməklərini əsirgəməmişlər.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC),** Azərbaycan Cümhuriyyəti, Azərbaycan Demokratik Respublikası - Azərbaycan xalqının çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində, Birinci dünya müharibəsi (1914-18) dövründə Şimali Azərbaycanda (Rusiya Azərbaycanında) yaranmış müstəqil dövlət (1918, 28 may - 1920, 28 aprel). Dünya tarixinin ən demokratik dövlət qurumlarından biri. Türk-müsəlman Şərqində ilk parlamentli respublika. Paytaxtı əvvəlcə Gəncə (1918, 28 may - 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr- 1920, 28 aprel) idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqr. 150 min *kv. km-ə* bərabər idi. 1918 ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə, əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Respublikası yaradıldı. AXC Hökuməti, həmçinin, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı da ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Respublikasının "siyasi mərkəzi" kimi tanımağa məcbur oldu. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min *kv. km-ni* əhatə edirdi. AXC-nin əhalisi 3,3 milyondan çox idi. Dövlət hakimiyyəti üç qoldan ibarət idi: Parlament, Hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayları çox az olan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular (türk-müsəlman əhali - 80, ermənilər -21, ruslar - 10, almanlar - 1, yehudilər - 1, gürcülər - 1, polyaklar - 1, Bakı həmkarlar ittifaqları - 3, Bakı Neft Sənayeçiləri İttifaqı - 2). İcra hakimiyyəti Hökumətə məxsus idi. Hökumət Parlament qarşısında cavabdeh idi. AXC Hökuməti 1918 il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920 il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransının qərara (1920, 11 yanvar) əsasən müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə (Türkiye, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, İsveçrə, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b.) səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti 1920 il aprelin 28-de beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya ilhaq olundu. Sosializm sistemi və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqda, Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi (1991, 18 oktyabr). Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

**Ərazi və əhali.** Ərazi. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi haqqında ilk dəfə *İstiqlal bəyannaməsində* bəhs edilmişdi. Həmin sənəddə göstərilirdi ki, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan tamhüquqlu müstəqil dövlətdir. Lakin yenicə yaranmış Cənubi Qafqaz respublikalarının əraziləri və sərhədlərinin konkretləşdirilməsi ciddi problemlərlə qarşılaşdı. Azərbaycan və Erməni Milli Şuraları arasında sərhəd məsələləri üzrə danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918 il 29 may tarixli iclasında müzakirə edildi. Səs çoxluğu ilə İrəvan Ermənistan Respublikasına güzəşt edildi və onun paytaxtı kimi tanındı. Həmin qərar qəbul olunarkən hər iki respublikanın gələcəkdə konfederasiya şəklində birləşəcəyi, Ermənistanın Qarabağın dağlıq hissəsinə olan əsassız iddiadan əl çəkəcəyi və başqa məsələlər nəzərə alınmışdı. Lakin tarix bu addımın yanlış olduğunu göstərdi. Ermənilər həmin güzəştlərdən istifadə edərək, yeni-yeni ərazi iddiaları irəli sürdülər. İrəvan quberniyasında, Qarayazıda olan Azərbaycan hərbi hissələrinin 24 saat müddətində oradan çıxarılması haqqında ultimatum verdilər, azərbaycanlılara qarşı yeni soyqırımları həyata keçirməyə başladılar və bununla, həmin əraziləri zor gücünə ələ keçirməyə cəhd göstərdilər.

Azərbaycanla Gürcüstan arasında da sərhəd mübahisələri vardı. Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qarayazı və Sığnax mahallarını Azərbaycana qaytarmaqdan boyun qaçırdı. Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918 il iyunun əvvəllərində Borçalıya daxil oldular. Ayın 14-də Azərbaycanın Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinəqarşı nota verdi, sərhəd məsələsinin siyasi yolla həll olunmasını təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədi. Cənubi Qafqaz respublikaları arasındakı ərazi mübahisələri daha kəskin şəkil almağa başladı. Buna görə də həmin problemin beynəlxalq İstanbul konfransında müzakirə edilməsi qərara alındı. 1918 ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda Azərbaycanın ərazisi müəyyənləşdirilirdi. Bu məsələ daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində də əks olunmuşdu. Həmin sənədə əsasən, Azərbaycan Xalq Cümhuriyyəti aşağıdakı əraziləri əhatə edirdi: ***Bakı quberniyası*** (Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası); ***Yelizavetpol*** (Gəncə) ***quberniyası*** (Yelizavetpol, yəni Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin, yəni Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı)); *İrəvan quberniyası* (Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); ***Tiflis quberniyası*** (Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi); ***Zaqatala mahalı; Dağıstan vilayəti*** (Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq-Tabasaran qəzasının bir hissəsi). Bundan başqa, Azərbaycan Cümhuriyyəti ***Tiflis quberniyasındakı*** Axalsıx qəzasının Batum, xüsusən Qars əyalətlərini də öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verirdi.

Lakin ərazi məsələlərini dinc yolla həll etmək mümkün olmadı. Birinci dünya müharibəsində məğlub olan Osmanlı imperiyası hərbi qüvvələrini Cənubi Qafqazdan çıxaran kimi ermənilər daha da fəallaşdılar, ərazi iddiası ilə 1918 ilin sonunda Gürcüstanla apardıqları müharibə nəticəsində Borçalı mahalında Lorini və onun ətraflarını zəbt etdilər. Ermənistan Azərbaycanın tarixi torpaqlarına olan iddialarını həyata keçirmək üçün Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə soyqırımlarını daha da genişləndirdi. Naxçıvanda bu siyasətin qarşısını almaq üçün 1918 ilin noyabrında Araz Türk Cümhuriyyəti yaradıldı və bu Cümhuriyyət sonra Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti ilə birləşdirildi. Cənubi Qafqaz dövlətləri arasındakı ərazi mübahisələrini müzakirə etmək üçün, nəhayət, 1919 il aprelin 25-də Tiflisdə konfrans çağırıldı. Lakin konkret nəticə verməyən Tiflis konfransı da iyunda işini dayandırdı.

Son dərəcə mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti ərazi və sər-həd məsələlərinə həyati əhəmiyyət verirdi. Cümhuriyyət Hökuməti Cənubi Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını öz nəzarəti altında saxlamağa çalışırdı. 1920 ilin ünvan - təqvimində Xarici İşlər Nazirliyinin təqdim etdiyi xəritə və məlumatlar əsasında Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini əks etdirən cədvəl nəşr olunmuşdu:

***Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi (kv. verst və kv. kilometr hesabı ilə)***

| *Ərazinin adı* | *Kv. verst* | *Kv. kilometr* | *Qeyd* |
|---|---|---|---|
| Bakı quberniyası | 34276,45 | 39075,15 | Mübahisəsiz ərazi |
| Gəncə quberniyası | 38922,22 | 44371,29 | |
| Zaqatala mahalı | 3502,24 | 3992,54 | |
| İrəvan quberniyası* | 8647,99 | 9858,69 | |
| **Cəmi** | **85348,90** | **97297,67** | |
| İrəvan quberniyası** | 6941,41 | 7913,17 | Mübahisəli ərazi |
| Tiflis quberniyası*** | 7618,56 | 8685,13 | |
| **Cəmi** | **14559,97** | **16598,30** | |
| **Yekun** | **99908,87** | **113895,97** | |

** İrəvan quberniyasının mübahisəsiz ərazisinə daxildir:Şərur-Dərələyəz qəzasının I və II polis sahələri; Naxçıvan qəzasının I, II, III və IV polis sahələri; Yeni Bəyazid qəzasının I və II polis sahələri.*

*** İrəvan quberniyasının mübahisəli ərazisinə daxildir: İrəvan qəzasının I, II, III və IV polis sahələri, Eçmiədzin qəzasının II və III polis sahələri; Sürməli qəzasının I, II və III polis sahələri; Yeni Bəyazid qəzasının III polis sahəsinin bir hissəsi;*

**** Mübahisəli zonanın tərkibinə Tiflis quberniyasının aşağıdakı hissələri daxildir: Tiflis qəzasının II və III polis sahələri; Sığnax qəzasının V polis sahəsi; Borçalı qəzasının I, II, III və IV polis sahələrinin bir hissəsi.*

Göründüyü kimi, Cümhuriyyətin ərazisi 113,9 min *kv. km*-*ə* bərabər idi (o cümlədən, mübahisəsiz ərazi 97,3 min *kv.km;* mübahisəli ərazi 16,6 min *kv. km).*

Azərbaycan Xalq Cümhuriyyəti yaşadığı qısa dövr ərzində ərazisini və sərhədlərini qorumaq sahəsində mühüm işlər gördü. Lakin *Aprel işğalı (1920)* və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrıseçkilik siyasəti nəticəsində Azərbaycan əraziləri daha da azaldıldı. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min *kv. km* müəyyən edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin 27,2 min *kv.km*-\ Azərbaycan xalqının əlindən alındı.

Əhali. Gülüstan(1813) və Türkmənçay (1828) müqavilələrindən Azərbaycan Xalq Cümhuriyyətinin yaranma-sınadək olan dövrdə Rusiya imperiyasının Cənubi Qafqazın türk-müsəlman əhalisinə qarşı yeritdiyi ayrıseçkilik siyasəti, deportasiyalar və soyqırımları nəticəsində Şimali Azərbaycan əhalisinin etnik tərkibi, sayı və yerləşməsi məqsədyönlü şəkildə dəyişdirildi, burada yaşayan azərbaycanlıların sayı xeyli azaldı. Rusiya işğalından sonra ermənilərin müxtəlif ölkələrdən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülməsi etnik-siyasi vəziyyətə ciddi




*Azərbaycanda zərb olunmuş və dövriyyədə işlədilmiş sikkələr*

1. Albaniya,gümüş tetradraxma (e.ə.3-1-ci əsrlər); 2. Albaniya, gümüş draxma (e.ə.3-1-ci əsrlər); 3. Atropatena, gümüş draxma (e.ə. 2-b.e.2-ci əsri); 4. Arran, gümüş dirhəm (7-ci əsr); 5. Azərbaycan, gümüş dirhəm (8-ci əsr); 6. Şirvanşahlar, II Yəzid [991-1027], gümüş dirhəm; 7. Sacilər, Deysəm [934-54], gümüş dirhəm; 8. Salarilər, Nuh və Vəhsudan [965-80], gümüş dirhəm; 9. Şəddadilər, Şavir [1049-67], gümüş dirhəm; 10. Qarasunqurilər, Qara Sunqur [?-1141], mis dirhəm; 11.Atabəylər, Qızıl Arslan [1186-91], mis dirhəm; 12. Ağsunqurilər, Körpə Arslan [1174-1208], mis fels; 13.Elxanilər, Əbu Səid [1316-35], gümüş dirhəm.







*Azərbaycanda zərb olunmuş və dövriyyədə işlədilmiş sikkələr*

1. Qaraqoyunlular, Cahan şah [1437-67], gümüş dirhəm; 2. Ağqoyunlular, Əlvend Mirzə [1499-1502], gümüş tangə; 3. Səfəvilər, I İsmayıl [1502-24], dörd şahı; 4. Səfəvilər, Məhəmməd Xudabəndə [1578-87], gümüş məhəmmədi; 5. Dərbənd xanlığı (18-19 əsrlər), gümüş abbası; 6. Quba xanlığı (18-19 əsrlər), gümüş abbası; 7. Bakı xanlığı (18-19 əsrlər), mis fulus; 8. Şirvan xanlığı (18-19 əsrlər), gümüş abbası; 9. Şəki xanlığı (18-19 əslər), gümüş abbası; 10. Gəncə xanlığı (18-19 əsrlər), gümüş abbası; 11. Qarabağ xanlığı (18-19 əsrlər), pənahabadi; 12. Naxçıvan xanlığı (18-19 əsrlər), gümüş abbası; 13. İrəvan xanlığı (18-19 əsrlər), gümüş abbası.

təsir göstərmiş, azərbaycanlıların ata-baba torpaqlarından deportasiyası həyata keçirilmişdir. Çar hökumətinin himayəsi və hərtərəfli köməyi ilə ermənilər tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımları törədilmişdi. Eyni zamanda, dövrün demoqrafiya-statistika qaynaqlarında da azərbaycanlılara dair məlumatlar qəsdən təhrif edilirdi. Bütün bunlara baxmayaraq, əvvəlki tarixi dövrlərdə olduğu kimi, 19-20 əsrin əvvəllərində, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti dövründə də azərbyancanlılar Qafqazda yenə əsas etnik amil olaraq qalmışdı. Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə təqdim etdiyi xüsusi memorandumda (1918, noyabr) Cənubi Qafqazın 237055 *kv. km*-lik ərazisində 7667370 nəfərin yaşadığı qeyd olunurdu ki, onların da etnik tərkibi belə idi: 3306000 (43,1%) müsəlman, 1786000 (23,3%) erməni, 1641000 (21,4%) gürcü. Həmin sənədə əsasən Azərbaycan Xalq Cümhuriyyəti ərazisində 2353000 nəfər yaşayırdı ki, bu da Cənubi Qafqaz əhalisinin 30,7%-nə bərabər idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Paris sülh konfransına təqdim etdiyi sənədlərə görə isə, Azərbaycan Xalq Cümhuriyyətinin həqiqi hakimiyyəti altında olan ərazi Qafqaz (Cənubi) ərazisinin 38%-ni, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7%-ni əhatə etdiyi bildirilirdi. Göstərilən sənədlərdə məhz həmin ərazi müvafiq olaraq Cənubi Qafqazın əhalisi də hesablanmışdı. Paris sülh konfransına təqdim olunmuş sənədlərə əsasən, ümumiyyətlə, Cənubi Qafqazın əhalisi 8081668 nəfərdən ibarət idi. Onların 4617671 nəfəri (57,1%) Azərbaycanda yaşayırdı. Azərbaycan əhalisinin 75,4%-ni (3481889 nəfər) azərbaycanlılar, 17,2%-ni (795312 nəfər) ermənilər, 0,6%-ni (26585 nəfər) gürcülər, 6,7%-ni (310885 nəfər) başqa xalqların nümayəndələri təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ölkə əhalisinin sayı və etnik tərkibinin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirirdi. Əhali haqqında daha bir məlumat Azərbaycan Xalq Cümhuriyyətinin ünvan-təqvimində xüsusi cədvəl halında dərc edilmişdi.

Göstərilən cədvəldən istifadə edərkən nəzərə almaq lazımdır ki, həmin cədvəl 1917 il üçün Qafqaz təqvimi əsasında tərtib edildiyinə görə, faktiki olaraq, 1916 ilə aid olan vəziyyəti əks etdirir. Digər tərəfdən, bu cədvəlin özündə də türk-müsəlman əhalinin sayı təhrif edilirdi. Bundan əlavə, cədvəldə verilən rəqəmlər Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadığı bütün ərazilərə deyil, qonşuların iddia irəli sürmədiyi mübahisəsiz ərazilərə aiddir. cədvəldə, eyni zamanda, Tiflis quberniyasına aid mübahisəli ərazi və orada yaşayan azərbaycanlı əhalinin sayı da öz əksini tapmamışdır. Beleliklə, aşağıda göstərilən cədvəl 1916 ildə Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisində yaşayan əhalinin, o cümlədən azərbaycanlıların sayını əks etdirir.

**Azərbaycan Xalq Cümhuriyyətinin əhalisi**

*(Qafqaz təqviminin 1917 il buraxılışının məlumatları əsasında tərtib edilmişdir)*

| Ə r a z i | Müsəlmanlar | | Ermənilər | | Gürcülər | | Ruslar | | Başqaları | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mütləq say | % | Mütləq say | % | Mütləq say | % | Mütləq say | % | Mütləq say | % | |
| Bakı quberniyası (şəhər əhalisi) | 47866 | 66,2 | 5.663 | 7,8 | - | - | 3788 | 5,2 | 15192 | 2,1 | 72509 |
| Bakı quberniyası (kənd əhalisi) | 693391 | 86,4 | 37258 | 4,6 | 30 | 0 | 68847 | 8,5 | 3711 | 0,5 | 803237 |
| Bütün Bakı quberniyası (şəhər rəisliyi daxil olmadan) | 741257 | 85,0 | 42921 | 4,9 | 30 | 0 | 72635 | 8,1 | 18903 | 2,0 | 875746 |
| Bakı şəhər rəisliyi | 198391 | 48,8 | 77166 | 19,0 | 8974 | 2,2 | 104599 | 26,0 | 16699 | 4,0 | 405829 |
| Bütün Bakı quberniyası (şəhər rəisliyi ilə birlikdə) | 939648 | 73,5 | 120087 | 9,3 | 9004 | 0,7 | 177234 | 13,8 | 35602 | 2,7 | 1281575 |
| Bütün Gəncə quberniyası | 797880 | 62,5 | 418859 | 32,9 | 1030 | 0,1 | 36777 | 2,9 | 20585 | 1,6 | 1275131 |
| Bütün Zaqatala mahalı | 85136 | 91,84 | 2530 | 2,73 | 4664 | 5,03 | 326 | 0,35 | 42 | 0,05 | 92698 |
| İrəvan quberniyasının bir hissəsi | 129586 | 61,0 | 80530 | 38,0 | 96 | 0,04 | 593 | 0,24 | 1653 | 0,72 | 212458 |
| **Bütün Azərbaycan Respublikası (Azərbaycan Xalq Cümhuriyyəti) üzrə, cəmi** | **1952250** | **68,2** | **622006** | **21,4** | **14794** | **0,6** | **214930** | **7,5** | **57882** | **2,3** | **2861862** |







Həmin dövrdə Azərbaycan Respublikasının mübahisəsiz ərazisində (97,3 min *kv. km)* yaşayan əhalinin ümumi sayı 2861862 nəfərə bərabər idi, yəni hər *kv. km-ə* 29,4 nəfər düşürdü. Müsəlmanlar (əsasən, Azərbaycan türkləri) əhalinin 68,2%, ermənilər 21,4%, gürcülər 0,6%, ruslar 7,5%, digər xalqların nümayəndələri isə 2,3%-ni təşkil edirdi. Yuxarıda verilən rəqəmlərə əsasən, 1916 ildə Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisində (113,9 min *kv. km)* əhalinin ümumi sayı 3,3 milyondan çox idi. Azərbaycan xalqı 1916 ildən sonrakı dövr ərzində də ermənilərin həyata keçirdiyi kütləvi soyqırımları və etnik təmizləmələr nəticəsində ağır demoqrafik sarsıntılar keçirmiş, sayca azalmışdı. Hesablamalar göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin əhalisi 1920 ilin aprel işğalı ərəfəsində azalaraq təqribən 2,6 milyon nəfərə enmişdi.

Digər tərəfdən, rəsmi məlumatlara görə 1920 ildə Azərbaycan Sovet Sosialist Respublikasının (86,6 min *kv. km)* əhalisi 1952000 nəfər idi. Bu fakt əsas götürülərsə, həmin dövrdə keçmiş Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisində təxminən 2189250 nəfər əhali yaşayırdı. Bu rəqəm 1916 ilin əvvəlinə olan vəziyyətlə müqayisə edildikdə aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində onun mübahisəsiz ərazisində yaşayan əhali 700 min nəfərədək azalmışdı. Birinci dünya müharibəsi (1914-18) dövründə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlarının acı nəticələri belə idi.

**Tarix.** Xalq Cümhuriyyətindən əvvəlki dövrdə Azərbaycan dövlətçiliyi. Dünya tarixində yeni - respublika tipli demokratik dövlət idarəçiliyi formasının geniş yayılmağa başladığı dövrdə yaranmış Azərbaycan Cümhuriyyəti xalqımızın tarixin ən qədim qatlarından başlanan dövlətçilik ənənələrinin qanunauyğun davamı idi.

Azərbaycan xalqı dünyanın ən qədim və ən zəngin dövlətçilik mədəniyyətinə malik xalqlarındandır. Azərbaycanın təqribən 5 min illik dövlətçilik tarixi vardır. Məlum olduğu kimi, Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl 4-cü minilliyin sonu - 3-cü minilliyin əvvəllərində yaranmağa başlamışdı.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdı. Eramızdan əvvəl 1—ci minillikdən başlayaraq eramızm 1-ci minilliyinin əvvəllərinədək Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüdrətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində mühüm rol oynamışlar.

Eramızın 3 əsrində Azərbaycam Sasani-İran imperatorluğu, 7 əsrdə isə Ərəb xilafəti işğal etdi. Lakin təqribən 600 il davam etmiş İran və ərəb hökmranlığı da Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi. 7 əsrdə islam dininin qəbul olunması ilə Azərbaycanın tarixi müqəddəratında əsaslı dönüş yarandı. İslam dini vahid xalqının və dilin təşəkkülünə güclü təkan verdi, Azərbaycan dövlətçiliyinin gələcək inkişafı üçün daha etibarlı zəmin yaratdı.

Xilafət dağıldıqdan sonra - 9 əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi: Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər və Şəki hakimliyi kimi yerli dövlətlər yarandı. Siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində güclü oyanış baş verməkdə idi. Azərbaycan tarixinin İntibah dövrü başlanırdı.

9 əsrin 70-ci illərindən başlayaraq, yarım əsrdən çox davam edən tarixi dövrdə bütün Azərbaycan torpaqlarının vahid Azərbaycan türk dövlətinin - Sacilər dövlətinin tərkibində olması ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxması və Azərbaycan xalqının formalaşması prosesinin daha da sürətlənməsinə müsbət təsir göstərdi. Sacilər dövləti özünün ən qüdrətli çağlarında Dərbənddən Zəncana, Xəzər sahillərindən Ani və Dəbil şəhərlərinə qədər geniş əraziləri əhatə edirdi. Sacilərin yeritdiyi uğurlu xarici siyasət Azərbaycanın ərazi bütövlüyünün, dövlətçiliyinin qorunub saxlanmasında, ölkə ərazisində etniksiyasi birliyin daha da möhkəmlənməsində mühüm rol oynadı.

11 əsrin ortalarında Yaxın və Orta Şərq tarixində mühüm dönüş dövrü başlandı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğu yarandı. Azərbaycan növbəti oğuz-türk dövlətinin — Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil oldu.

Səlcuq dövrü Azərbaycanın tarixi müqəddəratında həlledici rol oynadı. Sultan Alp Arslanın Malazgird vuruşmasında (1071, 26 avqust) Bizans imperatorluğunun hərbi qüvvələrini darmadağın etməsilə Azərbaycanı ələ keçirməyə çalışan xristian bloku iflasa uğradı. Bizans imperatorluğunun Cənubi Qafqazı bütünlüklə xristianlığın təsir dairəsinə salmaq planı baş tutmadı. Xristian amili, ümumiyyətlə, Cənubi Qafqazda tənəzzülə uğradı. Səlcuq axınları nəticəsində oğuz-türk tayfaları, qəti olaraq, Mərkəzi Asiya ilə yanaşı, bütün Cənubi Qafqazda və Ön Asiyada da başlıca etnik-siyasi amilə çevrildilər. Türk-islam amili bütün Yaxın və Orta Şərqin, o cümlədən Qafqazın bundan sonrakı tarixində uzun müddət müəyyənedici rol oynadı. Azərbaycan türk dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsinə çevrildi. Bu amil Azərbaycan dövlətçiliyinin təsir dairəsini daha da genişləndirdi.

Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər (Atabəylər) dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin daha da yüksəlməsində mühüm rol oynadılar.

Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Eldənizlər dövləti Azərbaycan xalqının etnik-siyasi tarixində xüsusilə böyük rol oynadı. Eldənizlərin hakimiyyəti dövründə Azərbaycan türklərinin hərbi-siyasi təsir dairəsi, Azərbaycan türk dili və mədəniyyətinin yayıldığı ərazi daha da genişləndi. Beləliklə, Ərəb xilafətinin tənəzzülündən sonra Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam imperatorluqlarının rolu artdı. Sacilər, Şirvanşahlar,












Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimliyi, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri eyniadlı dövlətlər təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular. Azərbaycan uzun zaman bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı oldu. Bu böyük türk-islam imperatorluqlarının bir çoxunu məhz Azərbaycan -türk əsilli sülalələr idare edirdilər.

15-18 əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Əfşar imperatorluqları bilavasitə Azərbaycan-türk sülalələri tərəfindən idare olunurdu. Bu mühüm amil ölkənin daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, Azərbaycanın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanının genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı.

Ağqoyunlu və Səfəvi sülalələrinin hakimiyyəti dövründə Azərbaycan Şərq ölkələri ilə yanaşı, Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış, uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqə saxlayırdı. Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və b. Azərbaycan hökmdarlarının saraylarında çoxsaylı Qərb diplomatları Azərbaycanla sıx qarşılıqlı əlaqələr yaratmaq üçün danışıqlar aparmışdılar. Azərbaycan Şərqlə Qərb arasındakı qarşılıqlı əlaqələrdə mühüm rol oynamaqda davam edirdi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan-türk sərkərdəsi Nadir şah (1736-47) keçmiş Səfəvi imperatorluğunun sərhədlərini daha da genişləndirdi. O, 1739 ildə, Dehli də daxil olmaqla, Şimali Hindistanı ələ keçirdi. Lakin Nadir şahın bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı.

Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperatorluq süquta uğradı. Azərbaycan torpaqlarında yenidən yerli dövlətlər yarandı. Beləliklə, 18 əsrin 2-ci yarısında Azərbaycan (həm Şimali, həm də Cənubi) xırda dövlətlərə — xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşadan ayrı-ayrı xanlar bir-biri ilə rəqabət apararaq, bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu heç bir nəticə vermədi. Siyasi pərakəndəlik daha da dərinləşdi. Bununla, Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli fürsət düşdü.

18 əsrin sonunda Azərbaycan-türk sülaləsi olan Qacarlar (1796-1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtilə Səfəvilərin və Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını, sul-


GÜRCÜSTAN
TİFLİS
Qori
Telavi
Borjomi
Bakuryani
Axalkalaki
Sulaveri
Qarayazı
Sıqnax
Balakən
Zaqatala
Qax
Nuxa
Dərbənd
Yalama
Qasımkənd
Xaçmaz
Qusar
Quba
Axtı
Dəvəçi
Ağstafa
Qazax
Toyuz
Şəmkir
Gəncə
Yevlax
Ağdaş
Göyçay
Ucar
Şamaxı
Kürdəmir
BAKI
Tərtər
Ağdam
Şuşa
Cəbrayıl
Gorus
Qarabulaq
Cavad
MUĞAN
Salyan
Göytəpə
Lənkəran
Astara
Naxçıvan
Culfa
Ordubad
Mehri
Baş Noraşen
İRƏVAN
Eçmiədzin
Yeni Bəyazid
Dilican
Aleksandropol
Qars
Ərdəhan
Qağızman
Alaşkert
İğdır
Basarkeçər
ERMƏNİSTAN
TÜRKİYƏ
İ R A N
QARABAĞ
ZƏNGƏZUR
Kür
Araz
Alazan
Samur
İori
AZƏRBAYCAN
RESPUBLİKASININ XƏRİTƏSİ
1920 İLDƏ
XARİCİ İŞLƏR NAZİRLİYİNİN
İNFORMASİYA ŞÖBƏSİNDƏ
"AZƏRBAYCAN RESPUBLİKASININ
UNVAN-TƏQVİMİ"
ÜÇÜN TƏRTİB EDİLMİŞDİR.
Sərhədlər
Azərbaycan Respublikasının
Gürcüstan Respublikasının
Türkiyə və İranın
Quberniya və vilayətlərin
Qəzaların
ŞƏRTİ İŞARƏLƏR
Ermənistanla mübahisəli ərazilər
Gürcüstanla mübahisəli ərazilər
Dəmir yolları
Çəkilməkdə olan dəmir yolları
Dəmir yol stansiyaları
Quberniya, qəza şəhərləri və kəndlər


CARTE
DE LA RÉPUBLIQUE DE
L'AZERBAÏDJAN
Dressée d'après les Documents Officiels,
par J. FOREST, Géographe
Échelle au 1:4 600 000
Signes conventionnels
CHEF-LIEU de GOUVERNEMENT ou de TERRITOIRE
Chef-lieu d'Arrondissement ou de District
FOREST
Edit. Géographe,
17, 19, rue de Buci, PARIS.
MER NOIRE
MER CASPIENNE
GEORGIE
DAGHESTAN
TIFLIS
BATOUM
KARS
ERIVAN
GANDJA
BAKOU
ARMENIE du CAUCASE
TURQUIE
PERSE
KOUTAIS
ZAKATAL
Derbend
Kouba
Noukha
Chemakha
Lenkoran
Choucha
Nakhitchevan
Alexandropol
Dilijan
Kazakh
Gori
Telav
Kars
Olti
Ardahan
Lenkoran
Astara
Djevad
Salian
Kour FL.
Khoi
MARAND
VAN
L. de Van
Alaschkird
Kara Kilissa
Bayazet
Ordoubad
Djoulfa
TRANS-CAUCASIE:
Territoire actuel de l'Azerbaïdjan
revendiqué


KAFKASYA AZERBAYCANI
Ölçüsü 1:3 200 000
Nüfusu- 3.500.000
Türkler- 83,4%
Demir yollar-1250 km.
Yapılmakda olan demir yollar
Demir yollar
Darbat demir yolu
Şose yollar
Petrol borusu
Projedeki demir yollar
TİFLİS
DAĞISTAN
GÜRCİSTAN
ERMENİSTAN
TÜRKİYE
Zakatala
Şeki
Kuba
Kazak
GENCE
Göyçay
Şemahı
BAKİ
Yeni Beyazit
Basar keçer
Terter
Ağdam
Şuşa
Karabulak
Görus
Nahçıvan
Ordubad
Salyan
Lenkeran
Belesuer
Sabirabad
Zerdab
Yevlak
Kurt Seban
Hüdaferin
Hemedan
Culfa
Kıvrak
Şah tahtı
Mahmut kendi
Ulu han
Zeglik
Demirçiler
Bay Ahmetli
Bayat
Hindarh
Bayramlı
Bayan
Taus kale
Tatılı
Kaymaklı
Poylu st.
Soğanlık
Ak tağla
Kulavar
Sacaklı
Telav
Kvare
Belegan
Tamaşı
Küllük
Leke Paşa
Aktı
Devreşi
Taquy
Sayadı
Konak kend
Kinalık
Lahic
Başkal
Hızı
Gilezi veteksesi
Pirşahı
Mestağa
Kala
Merdekan
Hasan
Yardımlı
Horan
Balbay
Kulubeyli
Kafkası Azerbaycanı Astara
İran Azerbaycanı Astara
Şeçifli
Alban
Daş başi
Teze kend
Cebrail
Gözleli
Sahseven
Qeyd: başlanğıc meredian Pulkovo rasadxanasına əsasən verilmişdir, bu meredian Qrinviç meredianına nisbətən 30° 19' 42", 09 şərqdədir.
64°
66°
42°


AZƏRBAYCAN RESPUBLİKASI
Siyasi-inzibati xəritə
Miqyas: 1:3 000 000
Azərbaycan Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2002-ci il
© Bakı kartoqrafiya fabriki
RUSİYA FEDERASİYASI
DAĞISTAN
TBİLİSİ
GÜRCÜSTAN
ERMƏNİSTAN
İRAN
Balakən
Zaqatala
Qax
ŞƏKİ
Oğuz
Qəbələ
Qusar
Xaçmaz
Quba
Dəvəçi
Siyəzən
Xızı
SUMQAYIT
Pirallahı
Xırdalan
BAKI
Neft Daşları
Qazax
Ağstafa
Tovuz
Şəmkir
GƏNCƏ
Naftalan
Goranboy
Xanlar
Gədəbəy
Daşkəsən
MİNGƏÇEVİR
YEVLAX
Ağdaş
Göyçay
İsmayıllı
Şamaxı
Ağsu
Marazə
Ucar
Zərdab
Kürdəmir
Bərdə
Tərtər
Kəlbəcər
Ağcabədi
Sabirabad
Hacıqabul
Xocalı
Ağdam
XANKƏNDİ
İmişli
Saatlı
ƏLİ BAYRAMLI
Laçın
Şuşa
Xocavənd
Beyləqan
Füzuli
Salyan
Biləsuvar
Neftçala
Cəbrayıl
Qubadlı
Zəngilan
Cəlilabad
Masallı
Yardımlı
Lerik
Lənkəran
Astara
Sədərək
Şərur
Şahbuz
NAXÇIVAN
Babək
Culfa
Ordubad
45°
46°
47°
48°
49°
50°
41°
40°
39°




tanlıqlarını yeniden mərkəzi hakimiyyətə tabe etdirmək siyasəti yeritməyə başladılar. Beləliklə, Qacarlarla həmin dövrdə Cənubi Qafqazı, o cümlədən Azərbaycanı işğal etməyə çalışan Rusiya imperatorluğu arasında uzunsürən müharibələr dövrü başlandı. Azərbaycan torpaqları iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi. Rusiya tərəfindən hərbi əməliyyatlara başçılıq edən və ərazi vədləri ilə şirniklǝndirilən ermeni və gürcü generalları əllərinə düşmüş fürsətdən istifadə edərək, Azərbaycanın dinc əhalisinə qarşı dəhşətli soyqırımları törətdilər. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən müstəqil Azərbaycan dövlətlərinin - xanlıqların və sultanlıqların varlığına son qoyuldu. Ölkə iki imperatorluq arasında bölüşdürüldü: Azərbaycanın şimalı (Şimali Azərbaycan) Rusiyaya, cənubu (Cənubi Azərbaycan) isə Azərbaycan-türk əsilli Qacarlar sülaləsinin idarə etdiyi İran şahlığına qatıldı. Azərbaycan xalqının şimalda ruslaşdırılması, cənubda isə farslaşdırılması dövrü başlandı.

Rusiya Şərqə doğru daha da irəliləmək, isti dənizlərə yol açmaq və Hindistana yetişmək üçün azərbaycanlıları Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxararaq siyasəti yeritməyə başladı. Bunun üçün, ilk növbədə, Cənubi Qafqazın xristian əhalisinə arxalandı, o cümlədən Azərbaycanın xristian-alban əhalisindən istifadə etdi. Müsəlman əhalinin zorla xristianlaşdırılmasına başlandı. Beləliklə, Bizans imperatorluğunun süqutundan sonra Cənubi Qafqazda xristian amili yenidən dirçəldildi. Rusiyadan xristian əhalinin Azərbaycana köçürülməsinə cəhd göstərildi. İlk zamanlar bu siyasət baş tutmadıqda, işğal olunmuş Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq bölgələrinə, həmçinin keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə ermənilər köçürüldü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan ərazisində - keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradıldı. Bununla, Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsası qoyuldu. Bundan əlavə, 1836 ildə Azərbaycan Albaniya dövlətinin yadigarı olan müstəqil Alban kilsəsi ləğv olundu və erməni Qriqorian kilsəsinin tabeçiliyinə verildi. Beləliklə, Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılması və erməniləşdirilməsi üçün daha əlverişli şərait yaradıldı. Ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Bütün bunlarla kifayətlənməyən çar Rusiyası daha çirkin siyasətə də əl atdı: erməniləri silahlandıraraq, türk-müsəlman əhalisi üzərinə qaldırdı və azərbaycanlılara qarşı kütləvi qırğınlar törətməyə başladı. Eyni zamanda, Rusiyadan xristian əhalinin Azərbaycana köçürülməsinə diqqət artırıldı.




İranın şahlıq rejimi də Azərbaycanın cənub torpaqlarında, mahiyyətcə, eyni cür siyasət həyata keçirirdi.

Çox çəkmədən, müstəqil yaşamaq ənənələrinə malik olan Azərbaycan xalqının həm şimalda, həm də cənubda azadlıq mübarizəsi gücləndi. Nəticədə, əvvəllər Azərbaycana yiyələnmək üstündə öz aralarında qanlı müharibələr aparmış Rusiya və İran dövlətləri Azərbaycan xalqının azadlıq mübarizəsinə qarşı "etibarlı" müttəfiqlərə çevrildi-



Əlimərdan bəy Topçubaşov



Fətəli xan Xoyski



İsmayıl xan Ziyadxanov



Əbdürrəhim bəy Haqverdiyev

lər. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı Rusiya ağalığına və Qacarlar İranının şahlıq rejiminə qarşı istiqlal mücadiləsini dayandırmadı, özünün müstəqil dövlətini yaratmaq üçün dəfələrlə ölüm-dirim savaşına qalxdı, şəhidlər verdi. Rusiyada Birinci rus inqilabı (1905-07), İranda isə 1905-11 illər inqilabı dövründə Azərbaycan xalqı özünün müstəqil dövlətçiliyini bərpa etmək, azadlığa çıxaraq dünyanın yeni inkişaf ahənginə uyğun olan demokratik idarəçilik sistemi yaratmaq uğrunda mübarizə aparırdı.

*P a r l a m e n t l i respublikaya d o ğ r u.* Bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan çar Rusiyası da Azərbaycan xalqının dövlətçilik ənənələrini məhv edə bilmədi. Əsarət altına salınmış türk-müsəlman xalqlarının milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridən Rusiya imperatorluğu Cənubi Qafqazı bu siyasətin ən dəhşətli, qanlı qırğın meydanına çevirmişdi. Bu qəddar siyasətin son məqsədi Cənubi Qafqazı Azərbaycanın türk-müsəlman əhalisindən "təmizləmək", bundan sonra İran və Türkiyəni aradan qaldırıb, rahatca isti dənizlərə çıxmaq, bununla da Rusiyanın tarixi arzusuna - Hindistana yetişmək niyyətinə nail olmaq idi. Məhz bu məqsədlə də, bir tərəfdən, İran və Türkiyədən kütləvi surətde köçürülən ermənilər Azərbay-can torpaqlarında, əsasən Qarabağın dağlıq bölgələrində, keçmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində yerləşdirilir, Rusiya imperiyasının ayrı-ayrı yerlərindən müxtəlif mənşəli xristian əhali Azərbaycan ərazisinə köçürülür, digər tərəfdən də, yerli əhalinin xristianlaş-dırılması və ruslaşdırılması siyasəti yeridilirdi. Ən dəhşətlisi isə bu idi ki, həmin qanlı siyasəti daha uğurla həyata keçirmək üçün ermənilərlə türk-müsəimanlar arasında qırğınlar törədilirdi.

Ölkənin şimal-qərb hüdudlarında da eyni cür siyasət yeridilirdi. Çarizm bu regionda gürcü feodallarını Azərbaycan torpaqlarını tutmağa şirnikləndirir, Azərbaycan və gürcü xalqları arasına nifaq salmağa çalışırdı. Bir sözlə, Şimali Azərbaycan çar Rusiyasının milli-müstəmləkəçilik və soyqırımları siyasətinin ən dəhşətli sınaq meydanına çevrilmişdi.

Buna görə də bütün Rusiya imperatorluğu ərazisində məhz qədim dövlətçilik ənənələrinə malik olan Şimali Azərbaycan çarizmin qəddar milli-müstəmləkə rejiminə qarşı milli müqavimət hərəkatının əsas mərkəzinə çevrildi. İdarə olunmağa deyil, idarə etməyə verdiş etmiş Azərbaycan xalqı özünün qabaqcıl ziyahlarının başçılığı il bütün Rusiyanın türk-müsəlman xalqlarının milli azadlıq hərəkatının önünə keçdi. Bu da səbəbsiz deyildi. Çünk ***"XlXəsrin sonu-XX əsrin əvvəlləri, dünyada yeni miinasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdi. Bu dövriin ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını biitiin Qafqazın iqtisadi mərkəzi etmişdi*** (Heydər Əliyev).

İqtisadi cəhətdən bütün Rusiya imperatorluğunun en iri və ən mühüm mərkəzlərindən biri olan Bakı, həm də öndə gedən ictimai-siyasi fikir mərkəzi idi.

20 yüzilliyin əvvəllərində Rusiya imperatorluğu dərin hərbi-siyasi və iqtisadi böhrandan xilas olmaq üçün islahatlar dövrünə qədəm qoyduqda, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən himayə olunan Azərbaycan ziyalıları hələ 1905 ildən başlayaraq, bütün başqa tələblərlə bərabər, ölkənin türk-müsəlman əhalisinin imperatorluğu mərkəzi hakimiyyət orqanlarında təmsil olunmasını, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb olunmasını tələb edir, bu sahədə ayrı-seçkiliyin, məhdudiyyətin aradan qaldırılması uğrunda mübarizə aparırdılar. Görkəmli hüquqşünas Əlimərdan bəy *Topçubaşov,* Əhməd bəy *Ağayev*, Adil xan *Ziyadxanov*, Əli bəy *Hüseynzadə,* Məhəmməd ağa *Şahtaxtlı* və bir çox digər milli ruhlu Azərbaycan ziyalıları bu hərəkatın önündə gedirdilər.

Şimali Azərbaycan çarizmə qarşı öz azadlığı uğrunda ayağa qalxan bütün məzlum Şərq xalqlarının mübarizə sim-voluna çevrilmişdi. Heç də təsadüfi deyil ki, Rusiya imperatorluğunun bütün türk-müsəlman əhalisini çarizmə qarşı birləşdirmək və bu məqsədlə vahid siyasi təşkilat yaratmaq ideyası da məhz Azərbaycanda doğulmuşdu. 1905 ildə ümumrusiya müsəlmanlarının Nijni Novqorodda keçirilmiş 1 -ci qurultayında "Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri"nə həsr olunmuş əsas məruzə ilə məhz Azərbaycanın nümayəndəsi Əlimərdan bəy Topçubaşov çıxış etmişdi. Yeni yaradılmış Ümumrusiya Müsəlmanları İttifaqının *("İttifaqi-müslimin")* Nizamnamə və Proqramının yazılmasında da azərbaycanlı nümayəndələr fəal iştirak etmişdilər.

Mürəkkəb və çətin şəraitdə aparılan gərgin mübarizə nəticəsində Azərbaycanın tanınmış ziyalıları Əlimərdan



*Məmməd Tağı Əliyev*



*Məmməd Yusif Cəfərov*



*Məhəmməd ağa Şahtaxtlı*



*Xəlil bəy Xasməmmədov*



*Əsədulla bəy Muradxanov*


Zeynal Zeynalov


Mustafa Mahmudov

bəy Topçubaşov, İsmayıl xan *Ziyadxanov,* Əbdürrəhim bəy *Haqverdiyev,* Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov 1906 ildə Rusiyanın ilk parlamentinə 1 -ci Dövlət dumasına deputat seçilmişdilər. Azərbaycan xalqını Rusiya parlamentində təmsil edən yüksək təhsil görmüş bu ziyalıların ikisi ixtisasca hüquqşünas idi: Əlimərdan bəy Topçubaşov Peterburq Universitetinin, İsmayıl xan Ziyadxanov isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdilər. Rusiya Dövlət dumasının ən böyük fraksiyalarından birinə - Müsəlman fraksiyasına sədr Əlimərdan bəy Topçubaşov seçilmişdi. Azərbaycanlı deputatlar Duma tribunasından çıxış edərək, Rusiya imperatorluğunun Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı ayrıseçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız azərbaycanlıların deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər. Deputat İsmayıl xan Ziyadxanovun Dövlət dumasında çıxış edərkən öz xalqı adından çar mütləqiyyətinin ünvanına söylədiyi və o zaman üçün son dərəcə böyük cəsarət tələb edən aşağıdakı fikirləri Cümhuriyyətə doğru gələn yolda oddan-alovdan keçmiş istiqlal mücahidlərinin doğma xalqı üçün kim olduqlarını çox aydın göstərir: ***"Biz (Azarbaycan) bir əsr əvvəl işğal edilmişik. Bizə heç bir hüquq verilməmişdir. Kölə halına salınmışıq. Milli varlığımıza təcavüz edilmişdir. Bir sıra ali məktəbə qəbul olunmağımıza qadağa qoyulmuşdur. Dövlət idarələrində türk məmurlarına rast gəlmək mümkiin deyildir. Torpaq azlığından əziyyət çəkirik. Lakin buraya (Azərbaycana) Rusiyadan axın-axın kəndlilər köçürülür. Bilavasitə dövlətin əli ilə törədilən milli qırğın zəminində qana boyanmış bu torpaqlarda rus kəndliləri iiçiin planlaşdırdığınız yaşayış məntəqələri quracaqsınız. Bu, hökumatin gizli surətdə hazırlayıb həyata keçirdiyı "parçala və hökmranlıq et!" idarə tərzindən başqa bir şey deyildir. İki ildən bəri qan dəryasında boğulan Vətənimdə insan cəsədlərinin üstündən keçirik. Artıq səbrimiz tükənmişdir".***

2-ci Dövlət dumasının üzvləri Fətəli xan *Xoyski,* Xəlil bəy *Xasməmmədov,* Mustafa *Mahmudov,* Məhəmməd ağa *Şahtaxtlı* və Zeynal Zeynalov da, öz sələfləri kimi, çarizmin bütün sahələrdə, o cümlədən dövlət idarəçiliyində yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə qarşı kəskin etirazlarını bildirirdilər.

Azərbaycandan olan deputatların bütün Rusiyanın türk-müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması, başqa səbəblərlə yanaşı, 1-ci və 2-ci Dövlət dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də növbəti, 3-cü Dumaya seçkilər zamanı imperatorluğun türk-müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmiş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Elə həmin səbəbə görə də, əvvəlkilərdən fərqli olaraq, 3-cü Dövlət dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bir deputat - Xəlil bəy Xasməmmədov təmsil edirdi. 4-cü Dövlət dumasında isə bütün Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi Məmməd Yusif *Cəfərov* idi.

Rusiyanm Dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli-istiqlal hərəkatının ən qabaqcıl nümayəndələri idilər. Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtlı isə Sorbonna Universitetinin dinləyicisi olmuş, Leypsiq Universitetinin fəlsəfə fakültəsini bitirmişdi.

Beləliklə, Birinci dünya müharibəsinin (1914-18) gedişində "xalqlar həbsxanası" olan Rusiya imperatorluğunun dağılması üçün real tarixi şərait yaranarkən, Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə görə, həm də qabaqcıl oğullarının ən müasir idarəçilik mədəniyyətinə yiyələnməsi baxımından müstəqil dövlət halında yaşamağa hazır idi.

İran şahlığının tərkibinə qatılmış olan və Qacarlar sülaləsi tərəfindən idarə edilən Cənubi Azərbaycandan fərqli



*Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov 2-ci Dövlət dumasının müsəlman deputatları arasında (oturanlardan soldan birinci Fətəli xan Xoyski; sağdan birinci Xəlil bəy Xasməmmədov). Tavriya sarayı.1907*

olaraq, Şimali Azərbaycan Rusiya ağalığı dövründə Rusiyanın və onun vasitəsilə Qərbin yeni - demokratik dövlət quruculuğu ənənələri ilə - parlament mədəniyyəti ilə yaxından tanış ola bilmişdi. ***"XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə***

*İstiqlal bəyannaməsinin elan olunması. Tiflis. Qafqaz canişininin sarayı. 1918, 28 may*



***qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçiin münbit zəmin yarandı"*** (Heydər Əliyev).

Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən Əlimərdan bəy Topçubaşov başda olmaqla, peşəkar hüquqşünaslar Rusiyanın Dövlət dumalarında zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar nifrət etdikləri və qəddar milli müstəmləkə zülmünün hökm sürdüyü Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların təmin olunduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət qurmaq ideyaları onların hələ Rusiya Dövlət dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da işi buna doğru aparırdı.

Azərbaycan Xalq Cümhuriyyəti – müsəlman Şərqində ilk parlamentli respublika. 1917 ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. Ölkədə demokratik respublika tipli dövlət forması yaratmaq üçün Müəssislər məclisinə seçkilər keçirilməsi qərara alındı. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə (bax *Xüsusi Zaqafqaziya Komitəsi)* yaratdı. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917 ilin oktyabrındakı hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Bolşevikler Müəssislər Məclisini buraxdıqdan sonra onlar 1918 il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini, başqa sözlə Zaqafqaziya parlamentini yaratdılar.

Zaqafqaziya seymində Müsəlman fraksiyasını Rusiyanın Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, həmçinin bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Xalqın seçdiyi deputatlardan ibarət olan *Zaqafqaziya seyminin Müsəlman fraksiyası,* əslində, Zaqafqaziya Müsəlman Şurası idi və bütün Cənubi Qafqazın müsəlman parlamenti funksiyasını yerinə yetirirdi.

Maraqlı və eyni zamanda qanunauyğun hal idi ki, Dövlət dumalarında olduğu kimi, Qafqazın ümumi mənafeyi ilə bağlı məsələlərdə Zaqafqaziya seyminin də ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918 il aprelin 22-də Zaqafqaziya seymi Cənubi Qafqazın müstəqilliyini elan etdi və *Zaqqfqaziya Demokratik Federativ Respublikası* yaradıldı. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə, gürcü nümayəndələri Seymdən çıxdılar və 1918 il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

Mayın 27-də Seymin Müsəlman fraksiyasının üzvləri də özlərinin ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü *Azərbaycan Milli Şurası,* daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində, Azərbaycanın ilk Parlamenti yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918 il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının sədri seçildi. Bu zaman Batumda danışıqlar aparan (bax *Batwn konfransı (1918))* Məhemmed Əmin *Rəsulzadə* qiyabi olaraq Milli Şuranın sədri seçildi. Həsən bəy Ağayev və Mir Hidayət Seyidov isə sədrin müavinləri təsdiq olundular. Azərbaycan Milli Şurasının mayın 27-də keçirilən iclasında, eyni zamanda, Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icra orqanının sədri seçildi. İcra orqanının tərkibinə Məmməd Həsən *Hacınski,* Nəsib bey *Yusifbəyli,* Xəlil bəy Xasməmmədov, Məmməd Yusif *Cəfərov,* Xudadat bəy *Məlik Aslanov,* Camo bəy *Hacınski,* Əkbər ağa *Şeyxülislamov,* Xosrov Paşa bəy *Sultanov* daxil idilər.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həsən bəy *Ağayev* (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu bəy *Məmmədbəyov,* Mehdi bəy *Hacınski,* Ələsgər bəy *Mahmudbəyov,* Aslan bəy *Qardaşov,* Sultan Məcid *Qənizadə,* Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər bəy Axundov, Məhəmməd *Məhərrəmov,* Cavad bəy *Məlik Yeqanov* və Hacı Səlim *Axundzadənin* iştirak etdiyi həmin iclasda Azərbaycanın *İstiqlal bəyannaməsi* qəbul edildi (Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov səsvermədə bitərəf qaldılar). Həmin dövrdə *Əqdnamə* və ya *Misaqi milli* adlanan bu sənədi Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Nəriman bəy Nərimanbəyov, Cavad bəy Məlik Yeqanov, Mustafa Mahmudov imzaladılar.

İstiqlal bəyannaməsi bütün türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi.Azərbaycan Milli Şurasının İstiqlal bəyannaməsində deyilirdi:

***1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.***

***2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.***

***3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.***

***4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan biitiin vətəndaşlarına siyasi hiiquqlar və vətəndaşlıq hüququ təmin edir.***



5. ***Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.***

6. ***Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.***

Azərbaycanın istiqlal mübarizəsi tarixinin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: ***"Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini biitün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını*** **müəyyən etmək, insanların hiiquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı".**

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi:

Fətəli xan Xoyski - ***Nazirlər Şurasının sədri və daxili işlər naziri;***
Xosrov Paşa bəy Sultanov - ***Hərbi nazir;***
Məmməd Həsən Hacınski - ***Xarici işlər naziri;***
Nəsib bəy Yusifbəyli - **Maliyyə və xalq maarifi naziri;**
Xəlil bəy Xasməmmədov - ***Ədliyyə naziri;***
Məmməd Yusif Cəfərov - **Ticarət və sənayə naziri;**
Əkbər ağa Şeyxülislamov - **Əkinçilik və əmək *naziri;***
Xudadat bəy Məlik-Aslanov - ***Yollar*** **və poçt-teleqraf naziri;**
Camo bəy Hacınski - **Dövlət nəzarəti naziri.**

Yenicə yaradılmış Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski 1918 il mayın 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi. Konstantinopol (İstanbul), Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen və Tokioya göndərilən həmin radioqramda, eyni zamanda, bildirilirdi ki, Cümhuriyyət Hökuməti, müvəqqəti olaraq, Yelizavetpolda (Gəncə) fəaliyyət göstərəcəkdir. Bundan əlavə, xarici işlər naziri M.H.Hacinski Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəydən məxfı teleqramla xahiş etdi ki. Avropa dövlətlərinin paytaxtlarındakı türk səfirlikləri Azərbaycanın həmin ölkələrdəki nümayəndəlikləri funksiyasını da öz üzərlərinə götürsünlər.

Beləliklə, Şimali Azərbaycanda 100 ildən artıq bir dövr ərzində davam etmiş azadlıq mübarizəsi nəticəsində, çox

*Mart soyqırımı (Bakı, 1918)*



*"Kaspi" qəzeti redaksiyasının ermənilər tərəfindən yandırılmış binası. Bakı. 1918, mart*



mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında xalqın qədim dövlətçilik ənənələri yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

Cümhuriyyət xadimlərinin çox böyük tarixi xidməti bu idi ki, onlar yurdun şimalında Rusiya işğalından sonrakı dövrdə unutdurulmuş müqəddəs "Azərbaycan" möhürünü xalqa qaytardılar. Xalqın dirçəldilən yeni dövləti dünyanın siyasət meydanına "Azərbaycan" adı ilə qədəm qoydu.

Cümhuriyyət xadimləri Azərbaycan tarixində parlament mədəniyyətinin də əsasını qoydular. Onlar İstiqlal bəyannaməsinin 6-cı bəndində ***"Azərbaycanın başında xalqın seçdiyi Milli Şura durur"*** fikrini qanuniləşdirməklə, Milli Şuranın ilk Azərbaycan Parlamenti olduğunu, həm də onun elan etdiyi Cümhuriyyətin Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər.


*General Əlağa Şıxlinski və Nuru paşa Qafqaz İslam Ordusunun əsgər və zabitləri arasında. Gəncə. 1918*

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı (bax *Bakı Xalq Komissarları Soveti).* Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun, Cənubi və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı qırğını - soyqırımını davam etdirirdilər (bax həmçinin *Mart soyqırımı, Şamaxı qırğınları, Quba qırğınları, Naxçıvanda soyqırımı, Zəngəzur qırğınları, Şərqi Anadoluda soyqırımı, Cənubi Azərbaycanda soyqırımı).* On minlərlə türk-müsəlman əhalia ancaq milli və dini mənsubiyyətinə görə qətlə yetirilir və əmlakları talan edilir, yüzlərlə yaşayış məntəqələri, maddi mədəniyyət abidələri, Azərbaycan xalqının əsrlər boyunca yaratdığı mənəvi sərvətlər yerlə yeksan olunurdu. Azərbaycan xalqının cəlladları olan S.Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən tamamilə məhv edilmək təhlükəsi qarşısında qalmışdı. Neft Bakısının ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət daha da kəskinləşməkdə və bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinib götürülmək! Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdilər.

1918 il iyunun 16-da Milli Şura və Hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü. Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ilk Hökumət böhranı baş verdi. Bu zaman *Batum müqavilələrinin (1918)* şərtlərinə əsasən, soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gələn və artıq Gəncədə olan *Qafqaz İslam Ordusunun* baş komandanı *Nuru paşa* ilə Milli Şura üzvləri arasında fikir ayrılığı yarandı. Hökumətin inqilabi tədbirlər həyata keçirəcəyindən ehtiyat edən Azərbaycan burjuaziyası və mülkədarları nümayəndələrinin işə qarışması və bunun nəticəsində Nuru paşa ilə Azərbaycan Milli Şurası və Hökuməti arasında ixtilaf yaranması vəziyyəti daha da ağırlaşdırdı. Çətinliklə qazanılmış istiqlalın itirilməsi təhlükəsi yarandı. İyunun 17-də M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Şuranın keçirdiyi qızğın müzakirələrdən sonra böhran, çox çətinliklə, aradan qaldırıldı. Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməyə məcbur oldu: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni -ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibi belə idi: Nazirlər Şurasının sədri - Fətəli xan Xoyski; nazirlər - Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan *Cavanşir,* Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy *Rəfibəyov,* Xudadat bəy Məlik-Aslanov, Ağa *Aşurov,* Əbdüləli bəy *Əmircanov,* Musa bəy *Rəfiyev.*

Azərbaycan Milli Şurası çətinliklə əldə olunmuş istiqlalın itirilməsindən ehtiyat edərək, o zaman həm də qərara aldı ki, qısa müddət ərzində Müəssislər Məclisi çağırılmalı və o vaxta qədər isə Fətəli xan Xoyski Hökuməti hakimiyyəti öz əlində saxlamalı, heç kimə güzəştə getməməlidir. Azərbaycan Milli Şurası, eyni zamanda, Hökumətin hüquq



*Azərbaycan milli ordusu zabitlərindən bir qrupu. Qarabağ. 1920*

və səlahiyyətlərini də konkret şəkildə müəyyənləşdirmişdi. Hökumət Azərbaycanın dövlət müstəqilliyini, mövcud siyasi azadlıqları ləğv edə bilməzdi və aqrar məsələ, həmçinin bunun kimi digər mühüm məsələlər barədə inqilabi qanunları dəyişdirmək hüququna malik deyildi. Qalan məsələlərdə isə Hökumətə müstəqil hərəkət etmək səlahiyyəti verilirdi. Müvəqqəti hökumət altı aydan gec olmayaraq Müəssislər Məclisi çağırmalı idi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti - Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı. Azərbaycan Milli Şurasının 1918 il mayın 27-dən iyunun 17-dək davam edən və cəmi 20 günlük ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq iki mühüm qərar qəbul edildi: birincisi - Azərbaycanın istiqlalı elan olundu və İstiqlal bəyannaməsi qəbul edildi; ikincisi - Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan Hökuməti formalaşdırıldı və 1813 ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı. Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda respublika quruluşu yaradıldı.

1918 il iyunun 17-də hakimiyyətə gələn Fətəli xan Xoyskinin başçılıq etdiyi Azerbaycan Xalq Cümhuriyyəti Hökuməti çox ağır bir beynəlxalq və daxili şəraitdə, faktiki olaraq, soyqırımı taleyini yaşayan Azərbaycan xalqını tarixin qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu. Vəziyyəti daha da mürəkkəbləşdirən bu idi ki, Bakıda S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin ermənilərdən ibarət olan silahlı qüvvələri Gəncəyə doğru yürüşə başlamışdılar. Artıq Göyçay ətrafında qanlı döyüşlər gedirdi. Belə bir şəraitdə, təcili olaraq, müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökümət yaranmış vəziyyətdən çıxmaq üçün elə ilk günlərdən qəti tədbirlərə əl atdı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu (bax *Dövlət bayrağı).* İyunun 26-da Müsəlman hərbi korpusu Əlahiddə Azərbaycan Korpusuna çevrildi və həmin korpusun komandirinə general rütbəsi verildi. Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri Hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da, faktiki olaraq, Azərbaycan silahh qüvvələrinin yaradılması demək idi (bax *Azərbaycan ordusu).* İyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu (bax *Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərar).* Dövlət quruculuğu daha da genişləndirildi. Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Milli orduya səfərbərlik keçirildi. İyul ayının 15-də *Fövqəladə Təhqiqat Komissiyası* yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci dünya müharibəsi (1914-18) dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarş törədilən soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb, cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə əslində, azərbaycanlılara qarşı soyqırımlarına hüquqi qiymət verilməsinin əsası qoyuldu. Bundan əlavə, Hökumətin



*M. Ə. Rəsulzadə*
*Milli Şuranın sədri*



*Ə.M.Topçubaşov*
*Parlamentin sədri*



*F.x.Xoyski*
*Nazirlər Şurasının sədri (1, 2, 3-cü kabinə)*



*N.b.Yusifbəyli*
*Nazirlər Şurasının sədri (4,5-ci kabinə)*



*H.b.Ağayev*
*Parlament sədrinin 1-ci müavini*



*M.Y.Cəfərov*
*Parlament sədrinin 1-ci müavini*



*Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun.*
*1918, 19 noyabr*

nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 11 -də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında qanun qəbul olundu (bax *Azərbaycan vətəndaşlığı haqqında qanun).* Tarixən çox qısa vaxt ərzində həyata keçirilən bütün bu tədbirlərə baxmayaraq, Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi Azərbaycan Xalq Cümhuriyyətinin haki-miyyətini ölkənin bütün ərazisində bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. Bu isə asan məsələ deyildi. Çünki Qafqaz İslam Ordusunun və Azərbaycan Hökumətinin hərbi planlarından xəbərdar olan S.Şaumyan Cümhuriyyət Hökumətinə əl-qol açmaq imkanı verməmək üçün Bakı Sovetinin, əsasən, ermənilərdən ibarət olan yaxşı silahlanmış bolşe-vik-daşnak qoşunlarına Gəncə üzərinə yürüş əmri vermişdi. Kürdəmir artıq daşnakların əlinə keçmişdi (1918, 12 iyun). Lakin Göyçay uğrunda gedən qanlı döyüşlərdə türk və azərbaycanlılardan ibarət Qafqaz İslam Ordusu xalq könüllülərinin fəal köməyi ilə bolşevik-daşnak hərbi birləşmələrini darmadağın etdi. İyunun 20-də Şamaxı azad olundu. Bakıya yol açıldı. Türk əsgərlərinin Azərbaycan hərbi qüvvələri ilə birlikdə həyata keçirdiyi müzəffər İstiqlal yürüşünün növbəti hədəfi Bakı idi.

1918 il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu və xalq könüllü dəstələrinin birləşmiş qüvvələri Bakını azad etdi. Şəhər S.Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirən və ingilis generalı Denstervilin hərbi qüvvələrinin müdafiə etdiyi daşnak və eser-menşevik tör-töküntülərindən - *"Sentro-kaspi diktaturası* "ndan təmizləndi.

1918 il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Cümhuriyyət Hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin iyunda qəbul edilmiş dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına sadiq qalan Xoyski hökuməti, eyni zamanda, Müəssislər Məclisinin çağırılması üçün hazırlıq görməyə başladı. Bu məqsədlə xüsusi komissiya yaradıldı. Milli Şuranın 1918 il 17 iyun tarixli qərarından hələ 6 ay keçməmiş, daha doğrusu, Hökumətin təkbaşına hakimiyyəti davam etdirmək səlahiyyəti olduğu halda, Fətəli xan Xoyskinin təşəbbüsü və müraciətinə əsasən, 1918 il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə başladı. Hökumətin sədri F. x . Xoyskinin təklifi ilə Azərbaycan Milli Şurası Müəssislər Məclisi çağırmaq işini öz üzərinə götürdü. Lakin Azərbaycan Hökuməti bütün bu tədbirləri olduqca mürəkkəb tarixi şəraitdə həyata keçirirdi. Məsələ burasında idi ki, Bakının azad olunması nəticəsində yaranmış əlverişli daxili vəziyyət uzun sürmədi. Birinci dünya müharibəsində (1914-18) məğlub olan Türkiyə *Mudros barışığına (1918)* əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu. Cənubi Qafqaz B.Britaniyanın təsir dairəsinə keçdi. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı general Tomsona Bakını tutmaq əmri verildi. İngilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918 il noyabrın 17-də general Tomsonun hərbi qüvvələri Bakıya daxil oldu. Bakıda Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı (bax *Bakıda ingilis general-qubernatorluğu).* Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. Azərbaycanın istiqlalının əleyhinə olan qüvvələr, xüsusən daşnaklar yenidən fəallaşdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratı üçün yaranmış həmin ağır şəraitdə Fətəli xan Xoyski Hökuməti müvazinətini itirmədi. Dövlət quruculuğu davam etdirildi. Azərbaycan Milli Şurasının 1918 il noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Azərbaycan parlamentçiliyi tarixinin çox mühüm qərarları qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyəti fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, son dərəcə demokratik inkişaf yolu tutdu. 19 noyabr tarixli həmin iclasda qeyd olundu ki, Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət olmadığı üçün Azərbaycan Milli Şurasında qeyri millətlər də təmsil olunmalıdır, daha doğrusu, Azərbaycan ərazisində yaşayan bütün



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binası (indiki Əlyazmalar İnstitutu)*

xalqlar Parlamentdə təmsil olunmalıdır. Azərbaycan Şurası ölkə əhalisinin (2 milyon 750 min nəfər) hər 24 nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 deputatdan ibarət olmalı idi. Onlardan 80 nəfər türk-müsəlman əhalini, 21 nəfər ermənilərі, 10 nəfər rusları, 1 nəfər almanları və 1nəfər yəhudiləri təmsil etməli idi. Hətta, sayları çox az olduğu üçün, Parlament seçkilərində iştirak edə bilməyən gürcülər və polyakların da hərəsinin Parlamentdə bir deputat təmsil olunması qərara alındı.

Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli iclasının qanununa əsasən, hələ 1917 ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman deputat birbaşa yeni yaradılacaq Parlamentin tərkibinə daxil edilirdi. Müsəlmanlar üçün nəzərdə tutulmuş qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi. Yeni Parlamentin formalaşdırılması 1918 il dekabrın 3-də başa çatdırılmalı idi.

Göründüyü kimi, 1918 ilin mart soyqırımından hələ cəmi yarım il keçməsinə baxmayaraq, Azərbaycan Parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına yol verildi. O zamankı tarixi şəraitdə atılan bu addım Azərbay-xalqının demokratik təbiətinə, insan haqlarına nə qədər dərin hörmətlə yanaşmasına parlaq sübutdur. Parlament demokratiyasının bu parlaq faktı M.Ə.Rəsulzadənin yeni Parlamentin çağırılması ilə bağlı olaraq 1918 il noyabrın 29-da xalqa etdiyi müraciətdə də əks olunmuşdu: "***... bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımıza bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı aqil və insani əsaslar üzərində quraq, bir-biriminizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birinə əl uzatmalı və yardım etməlidirlər".***

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan əhalisinə müraciətində bildirirdi ki, azlıqda qalan millətlərin və məmləkətin bütün vilayətlərinin nümayəndələrinin də təmsil olunacağı yeni ***Parlament yurdumuzun sahibi olacaq,onun müqəddəratını həll, Hökumətini təşkil və mənafeyini müdafiə edəcək.***

1918 il dekabrın 7-də saat 13.00-da H.Z.Tağıyevin qız-rməktəbinin binasında (hazırda Füzuli adına Əlyazmalar insitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış Parlament idi. Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli qanununa əsasən, Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə Parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da təmsil olundular. Cümhuriyyət Parlamentində yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali - 80, ermənilər -21, ruslar - 10, almanlar - 1, yəhudilər-1, gürcülər- 1, polyaklar- 1, Bakı həmkarlar ittifaqları - 3, Bakı Neft Senayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı - 2.

Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə geniş təbrik nitqi söylədi. "Müsavat" fraksiyasının təklifi ilə bu zaman səfərdə olan Əlimərdan bəy Topçubaşov, qiyabi olaraq, Parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Rəhim bəy Əlağa oğlu Vəkilov Parlamentin katibi təsdiq olundu. Ə.Topçubaşov Azərbaycanda olmadığı üçün Parlamentin fəaliyyətinə H.Ağayev rəhbərlik etdi. Parlamentin ilk iclasında Fətəli xan Xoyski Hökumətinin istefası qəbul edildi və yeni Hökumətin təşkil olunması qərara alındı. Yeni Hökumətin təşkili yenidən Fətəli xan Xoyskiyə tapşırıldı.

1918 il dekabrın 26-da F.x.Xoyski Parlamentdə öz proqramı ilə çıxış etdi və yeni Hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. Parlament Hökumətin proqramını qəbul etdi və F.x.Xoyskinin təşkil etdiyi Hökumətə etimad göstərilməsi barədə qərar çıxardı. Elə həmin gün Fətəli xan Xoyskinin başçılıq etdiyi yeni Hökumətin tərkibi elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin xalq tərəfindən müdafiə olunduğunu görən general Tomson dekabrın 28-də Fətəli xan Xoyski Hökumətini Azərbaycanın yeganə qanuni yerli hakimiyyət orqanı kimi tanıdı. Beləliklə, Cümhuriyyət Hökuməti ilə ingilis hərbi komandanlığı arasındakı münasibətlərdə yumşalma başlandı. Nəticədə şəhərdəki erməni hərbi birləşmələri tərksilah olundu və ləğv edildi.

Azərbaycan Parlamentinin fəaliyyətə başladığı dövrdəki tarixin çox mühüm ibrət dərslərindən biri də budur ki, Cümhuriyyət xadimlərinin, sülhsevər Azərbaycan xalqının özünün ilk Parlamentində ermənilərə 21, ruslara isə 10 yer ayırmasına baxmayaraq, onlar Parlamentin açılışında iştirak etmədilər. Bakıda fəaliyyət göstərən *Rus Milli Şurası* Azərbaycanın öz müstəqilliyini elan etməsilə "Vahid və bölünməz Rusiya"nın parçalanmasına yol açdığı üçün "Azərbaycanın Rusiyadan ayrılması faktını tanımadı" və Azərbaycan Parlamentini boykot etmək barədə qərar qəbul etdi. Lakin Azərbaycanda yaşayan rus-slavyan əhalisinin təzyiqi ilə, sonralar Rus Milli Şurası özünün həmin qərarını ləğv etməyə məcbur oldu.



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin bir qrup üzvü və aparat işçiləri. 1919

O zamankı tarixin digər mühüm ibrət dərslərindən biri də budur ki, həmin dövrdə Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər də Rus Milli Şurasını müdafiə etdilər və iki aydan çox müddət ərzində Parlamentin iclaslarında iştirak etmədilər. Parlamentə qatıldıqdan sonra isə həmişə Azərbaycan dövlətçiliyinə qarşı xəyanət mövqeyindən çıxış etdilər.

Bundan əlavə, ölkədə ali hakimiyyəti öz əlində cəmləşdirmiş və sayı 100 nəfərə çatmayan Parlamentdə 11 fraksiya və qrupun fəaliyyət göstərməsi də olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqil dövlət quruculuğuna ciddi əngəl törədirdi. Ayrı - ayrı fraksiya və qruplar bir çox hallarda özlərinin məhdud fraksiya və qrup mənafelərini ümummilli mənafedən üstün tuturdular. Məsələn, Parlamentin sosialist bloku "yoxsulların mənafeyini müdafiə etmək" pərdəsi altında, müntəzəm olaraq, Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsini təbliğ etmiş, Sovet Rusiyasında diplomatik nümayəndəlik açılması barədə qərar qəbul edilməsinə nail olmuş, nəhayət, Qırmızı Ordunun ölkəyə müdaxiləsinə tərəfdar çıxmışdı ki, bu da, mahiyyətcə, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq işi aparmaqdan başqa bir şey deyildi.

Digər tərəfdən, fraksiyalararası mübarizə nəticəsində aqrar məsələ haqqında qanun layihtsinin iclasdan-iclasa örürülməsi və nəticə etibarilə qəbul olunmaması da Azərbaycan Xalq Cümhuriyyətinin xalq içərisində nüfuzunu itirməsində və süqutunda az rol oynamadı.

Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 17 aylıq aramsız və gərgin fəaliyyəti ərzində həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

***Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximiz iki dövrə ayrılır: birinci dövr -1918 il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk deputatdan ibarət olan ilk Azərbaycan Parlamenti çox mühiim tarixi qərarlar qəbul etmişdir. İlk Parlament 1918 il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal bəyannaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə - Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal bəyannaməsi Azərbaycanın demokratiya və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu giin də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründd Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas 1918 il mayın 27-də Tiflisdə, son iclas — 1918 il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırmaq şərti ilə, bütiin qanunverici və icraedici hakimiyyəti Müvəqqəti Hökumətə vermişdir. Xalq Cümhuriyyəti Hökuməti 1918 il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Miiəssislər Məclisinin - geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və özfəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövriində Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət gbstərmişdir.***

***Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrii 1918 il dekabrın 7-dən 1920 il aprelin 27-dək - cəmi 17 ay davam etmişdir. İlk iclas 1918 il dekabrın 7-də, son iclas - 1920 il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Biitiin bu iclaslarda Azərbaycan Xalq Ciimhuriyyətinin Parlamenti İstiqlal bəyannaməsinin miiəyyən***




*Azərbaycan Xalq Cümhuriyyəti pul nişanları*


























*Bakı şəhər idarəsinin
və Xalq Komissarları
Sovetinin pul nişanları*




60 REPUBLIQUE d'AZERBAIDJAN COP
БАКИНСКАЯ ГОРОДСКАЯ УПРАВА
50 50
2 REPUBLIQUE d'AZERBAIDJAN RBL
1 REPUBLIQUE d'AZERBAIDJAN RBL
25 REPUBLIQUE d'AZERBAIDJAN RBL
5 REPUBLIQUE d'AZERBAIDJAN RBL


500
СЕРІЯ
1878
№
Двадцать третій
23
БИЛЕТЪ
ВНУТРЕННЯГО БЕЗПРОЦЕНТНАГО СЪ ВЫИГРЫШАМИ ЗАЙМА Г. БАКУ
20 августа 1919 г.
НА КАПИТАЛЪ
ВЪ ПЯТЬСОТЪ РУБЛЕЙ
Городской Голова
Членъ Управы
Главный Бухгалтеръ
БАКИНСКАЯ ГОРОДСКАЯ УПРАВА
1919



*Azərbaycan Xalq Cümhuriyyətinin IV Hökumət kabinəsi*

***etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun -qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.***

Birinci dünya müharibəsi (1914-1918) illərində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə fealiyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Qeyd olunmalıdır ki, Parlamentin bu sahədə qəbul etdiyi qanun və qərarların müzakirəsində Parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər.

Çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan xalqının milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin 1919 il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. 1991 ildə Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra Bakı Dövlət Universiteti öz tarixi missiyasını yenə şərəflə davam etdirdi və bu gün də davam etdirməkdədir (bax *Bakı Dövlət Universiteti).*

Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Parlamenti və Hökuməti, vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti Hökumətin təklifinə əsasən, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi. Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün M.Ə.Rəsulzadənin başçılığı ilə beş nəfərdən (Mehdi bəy *Hacınski,* Əhməd bəy *Pepinov,* Qara bəy *Qarabəyov,* Abdulla bəy *Əfəndiyev)* ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün se-



Əlimərdan bəy Topçubaşovun Paris sülh konfransı sədrinə Azərbaycanın müstəqilliyinin tanınması haqqında məktubu. 1919, 31 may

çilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar).*

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınmasından ötrü də böyük iş aparırdı. Bununla bağlı olaraq Cümhuriyyət Parlamenti 1918 il dekabrın 28-də Parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimi Ə.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında iştirak edən müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınmasına nail olsa da, 11 -ci Qırmızı ordunun Şimali Azərbaycanı işğal etməsilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı. Əlimərdan bəy Topçubaşov və onu müşayiət edən digər Cümhuriyyət xadimləri bir daha vətənə dönə bilmədilər və siyasi mühacir həyatı sürməyə məcbur oldular.

Azərbaycan Parlamentinin və Cümhuriyyət Hökumətinin fəaliyyətinin çox mühüm və daim diqqət mərkəzində duran hissəsi yaxın qonşularla münasibətlər və sərhəd məsələləri ilə bağlı olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama salındı (bax *Azərbaycan-Gürcüstan müqavilələri).* Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan-Ermənistan münasibətlərini isə normal məcraya yönəltmək mümkün olmadı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti fəaliyyətə başladığı ilk günlərdən, real vəziyyəti nəzərə alaraq və münasibətləri nizama salmaq məqsədilə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan *İrəvanı* ermənilərə güzəştə getdi və onların "siyasi mərkəzi" kimi tanıdı (1918, 29 may). Lakin buna baxmayaraq, Ermənistan Respublikası Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdü və qəsbkarlıq planlarından əl çəkmədi (bax *Azərbaycan-Ermənistan konfransı).*

Azərbaycan Cümhuriyyəti dövründə İranla da bir sıra müqavilə və sazişlər imzalandı və həmin sənədlər Parlamentdə təsdiq olundu. 1920 ilin martında İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdı (bax *Azərbaycan - İran müqavilələri).*

Azərbaycan Xalq Cümhuriyyəti, ümumiyyətlə, mövcud olduğu qısa tarixi dövr ərzində, son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitdə olduqca fəal xarici siyasət yeritdi. Azərbaycan dövləti 1920 il yanvarın 11-də Paris sülh konfransında Azərbaycan haqqında xüsusi qərar qəbul edilməsinə nail oldu. Həmin qərara əsasən, konfrans iştirakçısı olan ölkələr Azərbaycanı müstəqil dövlət kimi de-fakto tanıdılar.

Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Belçika, Hollandiya, Yunanıstan, Polşa, İsveçrə, İsveç, Danimarka, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və başqa ölkələrlə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər imzaladı (bax *Azərbaycan Xalq Cümhuriyyətinin xaricdə nümayəndəlikləri, Bakıda xarici diplomatik nümayəndəliklər).*

Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə, Parlamentin 155 iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (1918, 27 may - 19 noyabr), 145-i isə Azerbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (1918, 7 dekabr - 1920, 27 aprel) olmuşdur.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüza fikir mübadiləsi şəraitində müzakirə olunur, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi.

Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas zalı

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardı.

Parlamentin fəaliyyəti xüsusi olaraq bu məqsəd üçün hazırlanmış nizamnamə - "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" əsasında idarə olunurdu. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətinə belə qiymət verirdi: ***"Millət məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə - vəzifə yox idi. Parlament hakimimütləq idi".***

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti son dərəcə mürəkkəb beynəlxalq və daxili şəraitdə fəaliyyət göstərirdi. Hökumətin yeritdiyi xarici və daxili siyasətin nəticələrindən asılı olmayaraq, o zamankı beynəlxalq vəziyyətdə Şimali Azərbaycanın (habelə digər Cənubi Qafqaz respublikalarının) müstəqil dövlət halında yaşaması mümkün deyildi. Bakı neftinə yiyələnməyə can atan və ingilisləri regiondan sıxışdırıb çıxarmağa çalışan Sovet Rusiyası, Denikini məğlub etdikdən sonra yerli bolşevik təşkilatlarını səfərbərliyə alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün daxildə geniş pozuculuq fəaliyyətinə başlamışdı. Moskvadan göstəriş alan *Azərbaycan Kommunist (bolşeviklər) Partiyası* hakimiyyət çevrilişi həyata keçirmək üçün xüsusi qərargah yaratmışdı. Parlamentin və Hökumətin fəaliyyətini iflic vəziyyətinə salan "sosialistlər'", "Daşnaksutyun fraksiyası", "Erməni fraksiyası", "Slavyan-rus cəmiyyəti" və digər Parlament fraksiyaları sovet-bolşevik müdaxiləsindən ötrü əlverişli zəmin yaradılmasında fəal iştirak edirdilər. Bundan əlavə, Azərbaycandan yeni ərazilər qoparmaq üçün əlverişli şərait yarandığını görən ermənilər bolşevik Rusiyası ilə əlaqəyə girib Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə əlbir plan hazırladılar. Həmin plana əsasən Ermənistan Respublikası Qarabağda və Gəncəbasarda ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı qiyamlarını təşkil etdi. Bununla, Ermənistan Respublikası qiyamçılara kömək pərdəsi altında Azərbaycana qarşı müharibəyə başladı. Cümhuriyyət Hökuməti özünün bütün hərbi qüvvələrini Qarabağ cəbhəsinə yönəltməyə məcbur oldu. Beləliklə, ölkənin şimal sərhədləri bolşevik müdaxiləçilərinin üzünə açılmış oldu.

Sovet Rusiyası, eyni zamanda, hələ 1918 ilin noyabrından Bakını və bütün Cənubi Qafqazı ələ keçirmək üçün konkret hərbi hazırlıq tədbirləri görməyə başlamışdı. Rusiya hərbi-inqilab şurasının qərarı ilə 11-ci və 12-ci orduların, həmçinin Həştərxan – Xəzər donanmasının daxil edildiyi ayrıca Xəzər- Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi Qafqazı) işğal etmək üçün "Bakı əməliyyatı" adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı. V.İ.Lenin hələ 1920 il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermişdi. Martın 30-da isə Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə yaradılmış "operativ qərargah"ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi ki, "ən yaxın günlərdə ***Bakıda çevrilişə hazırlaşırıq.*** Hərəkat



*28 Aprel işğalı. 11-ci Qırmızı ordu hissələri Bakıda*

başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq". İşğal ərəfəsində - aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda (Mahaçqala) 11 -ci Qırmızı ordunun komandanlığı, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası nümayəndələrinin müşavirələri keçirildi. Müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planı təfsilatı ilə müzakirə edildi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün 11 -ci Qırmızı ordunun Azərbaycan sərhədini keçməsini nəzərdə tuturdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası veriləcəkdir.

İşğalçıların hərbi əməliyyat planına əsasən, müdaxiləçi sovet qoşunları müstəqil Azərbaycanın dövlət sərhədlərini bu zaman Anadoluda Qazi Mustafa Kamal Paşanın başçılıq etdiyi İstiqlal savaşına "köməyə getmək" pərdəsi altında keçməli idilər. Belə də oldu. 1920 il aprelin 26-dan 27-nə keçən gecə işğalçı 11 -ci Qırmızı ordu hissələri müharibə elan etmədən müstəqil Azərbaycan dövlətinin sərhədlərini keçdi və Bakıya hücum etdi. Bakı, eyni zamanda, dənizdən də mühasirəyə alındı. Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında mühüm obyektləri ələ keçirdilər.

Əslində Azərbaycan Xalq Cümhuriyyətinin devrilmiş olduğu həmin şəraitdə, işğalçıların diktəsi ilə hərəkət edən kommunistlərin nümayəndə heyəti Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşevikler) Partiyası Qafqaz Diyar Komitesinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum verdi. Bununla əlaqədar olaraq, hələ martın 30-da Nəsib bəy Yusifbəylinin istefasından sonra, yeni Hökumətin (VI kabinə) təşkil olunması tapşırılmış Məmməd Həsən Hacınskinin başçılığı ilə xüsusi komissiya (M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, S.Ağamalıoğlu) yaradıldı. Azərbaycan bolşevikləri ilə sıx əlaqə saxlayan M. H. Hacınski kommunistlərlə danışıqlar apardı. Göstərilən ultimatum və komissiyanın apardığı danışıqların nəticələri Məmməd Yusif Cəfərovun sədrliyi ilə Parlamentin sonuncu (145-ci) iclasında müzakirə olundu. İclas aprelin 27-də axşam saat 20.45-də başlandı ve 23.25-dək davam etdi. M.Ə.Rəsulzadənin təklifi ilə müzakirələr zamanı Parlamentin qapıları xalqın üzünə açıldı ***("Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə Parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə ciir təhliikəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək").*** Ultimatum barədə məlumat verən M.H.Hacınski bildirdi ki, hakimiyyət bu gün axşam kommunistlərə təhvil verilməlidir; AK(b)P-nin Mərkəzi Komitəsi bildirir ki, əks təqdirdə hakimiyyətin Qırrmzı Orduya təhvil verilməsi üçün əlindən gələni edəcəkdir. Kommunistlər həm də xəbərdarlıq edirlər ki, əgər biz bu gecə hakimiyyəti onlara təhvil verməsək, Parlamentdə təmsil olunan siyasi partiyalar, o cümlədən "Müsavat" partiyası qadağan olunacaqdır; M.H.Hacınski həmçinin, məlumat verdi ki, kommunistlər bizim təkliflərimizə baxmaqdan imtina etdi-



**İşğalçı 11-ci Qırmızı ordu Bakı vağzalında.**
**Şəkildə S.M.Kirov, Q.K.Orconikidze, M.Q.Yefremov, M.K.Levandovski, K.A.Mexonoşin və başqaları**

lər və xəbərdarlıq etdilər ki, hakimiyyətin könüllü surətdə təslim edilməyəcəyi halda, bunun nəticələri üçün bütün məsuliyyət Parlament üzvlərinin üzərinə düşür. Çıxışının sonunda M.H.Hacınski Parlament üzvlərini mövcud vəziyyətdə "millətin qurtuluşu naminə" yeganə düzgün qərar qəbul etməyə çağırdı. Lakin Səməd ağa Ağamalıoğlu, Qara bəy Qarabəyov, Aslan bəy Səfikürdski, Məhəmməd Əmin Rəsulzadə və Sultanməcid Qənizadə M.H.Hacınskinin hakimiyyətin kommunistlərə qeyd-şərtsiz təslim edilməsi təklifinə qarşı çıxdılar. Bununla belə, qan tökülməsinin qarşısını almaq üçün hakimiyyətin yalnız müəyyən şərtlərlə, hər şeydən əvvəl, Vətənin müstəqilliyinin saxlanılması şərti ilə kommunistlərə verilməsinə tərəfdar olduqlarını bildirdilər. Nəticədə, Parlament səs çoxluğu ilə aşağıdakı şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;

2. Azərbaycan Kommunist Firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;

4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlament və Hökumət üzvlərinin heyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Qırmızı Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;

7. Yeni hökumət, haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir ***("Kommunist"*** qəzeti, 1920, 6 may).

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti mühasirə şəraitində keçirdiyi həmin iclasında da özünün demokratik ənənələrinə və istiqlalçılıq ideyalarına sadiq qaldı.

Lakin işğalçılar Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin hakimiyyəti dinc yolla, qan tökülmədən kommunistlərə təhvil vermək haqqında qərarına məhəl qoymadılar. Beləliklə, Sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və 11 -ci Qırmızı Ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris sülh konfransının iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti - Azərbaycan Xalq Cümhuriyyəti aradan qaldırıldı və onun ərazisi işğal olundu (bax *Aprel işğalı (1920)).* Azadlığının və müstəqil dövlətinin müdafiəsinə qalxmış xalqın müqavimət hərəkatı qan içində boğuldu, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət

və hakimiyyət strukturları məhv edildi. Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatıldı.

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. ***"Azərbaycan Xalq Ciimhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Sultanməcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir"*** (Heydər Əliyev).

Azərbaycan Xalq Cümhuriyyəti, cəmi 23 ay yaşamasına baxmayaraq, sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, müsəlman Şərqində, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Birinci dünya müharibəsi (1914-18) dövründə Azərbaycan xalqı şimalda olduğu kimi, cənubda da öz milli dövlətçilik ənənələrini dirçəltmək üçün ayağa qalxdı. Yurdun bu hissəsində də Azərbaycan dövlətçiliyi dirçəldildi. Cənubi Azərbaycanda müstəqil və demokratik Azadıstan dövləti –"Azadıstan məmləkəti" quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli Hökumətinin başçısı oldu. Ölkənin şimalında olduğu kimi, cənubunda da milli-demokratik islahatlar keçirilməsinə başlandı. Şimalda olduğu kimi, burada da Azərbaycan xalqının azadlıq hərəkatı qan içində boğuldu.

Beləliklə, Birinci dünya müharibəsinin (1914-18) doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi, müstəqil yaşamağa layiq və qadir xalq olduğunu bir daha sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı.

**Ölkənin müdafiəsinin təşkili.** Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında duran başlıca vəzifələrdən biri ölkənin müdafiəsinin və ərazi bütövlüyünün təmin edilməsi idi. Ölkədə yaranmış son dərəcə ağır hərbi-siyasi şərait bunu tələb edirdi və Cümhuriyyətin elan edilməsinin elə ilk günlərindən həmin vəzifənin həlli istiqamətində lazımi addımların atılmasına başlandı. Hələ müstəqilliyin elan edilməsi ərəfəsində formalaşdırılmasına başlanmış *Müsəlman korpusunun* hissə və bölmələri də bu işə cəlb edildilər və artıq Gəncəyə doğru hərəkətə başlamış Bakı Sovetinin bolşevik-daşnak qoşunlarının qarşısını kəsmək üçün cəbhə xəttinə göndərildilər. Lakin hələ tam formalaş-mamış olan Müsəlman korpusu bolşevik-daşnak qoşunlarının və S.Şaumyanla əlbir olan quldur Andronikin yaxşı silahlanmış dəstələrinin müqavimətini qırmaq üçün kifayət qədər hərbi gücə malik deyildi. Yeni hərbi qüvvələrin formalaşdırılmasına isə vaxt yox idi. Belə bir vəziyyətdə Azərbaycan Hökuməti hərbi yardım üçün Osmanlı dövlətinə müraciət etdi. Nəticədə, soyqırımına məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında *Qafqaz İslam Ordusu* yaradıldı və *Nuru paşa* onun komandanı təyin edildi. Qafqaz İslam Ordusunun fəaliyyət dövrü ölkənin müda-fiəsinin təmin edilməsinin ilkin mərhələsini təşkil edir. Bu mərhələdə müstəqilliyin təminatçısı olacaq milli qoşun hissələrinin yaradılmasına rəhbərlik də türk hərbçilərinə həvalə olunmuşdu. Ancaq ölkə ərazisində ciddi döyüşlərin getdiyi bir vaxtda milli qoşun hissələrinin formalaşdırılması üçün normal şərait yox idi. Bununla belə, bütün imkanlar dövlət müstəqilliyinin qorunmasına səfərbər olundu. Hökumət tərəfindən *Hərbi vəziyyətin elan olunması haqqında qərar, Hərbi vəziyyətin elan olunması haqqında qərara əlavə* kimi mühüm sənədlər qəbul edildi, Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusu* adlandırıldı. Çağırış-səfərbərlik işləri yenidən quruldu, bir sıra bölgələrdə könüllü xalq dəstələri təşkil edildi. Bakı uğrunda döyüşlər zamanı ətraf kəndlərdə toplanmış könüllü dəstələr *Maştağa dəstəsində* birləşdirildi.

Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə mübarizəsi nəticəsində 1918 ilin iyun-avqust aylarında *Gəncə ermənilərinin tərksilah edilməsi* həyata keçirildi, *Qaraməryəm döyüşü, Kürdəmir döyüşü, Ağsu döyüşü, Şamaxı döyüşü, Salyan döyüşü* uğurla başa çatdırıldı. *Birinci Qafqaz Qırmızı Korpusunun* və ingilis hərbi qüvvələri tərəfindən müdafiə olunan *"Sentrokaspi diktaturası"nın* qoşunlarına sarsıdıcı zərbə endirirdi. 1918 il sentyabrın 15-də Bakı şəhəri azad edilərək müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi.

Azərbaycan Hökuməti Bakıya köçdükdən sonra ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün həyata keçi-



Əlağa Şıxlinski



Səməd bəy Mehmandarov

rilən qətiyyətli tədbirlərdən biri də *Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı* oldu. Bu hərəkatda iştirak edən qüvvələrin əsasını Azərbaycanın *Birinci piyada diviziyası* və türk hərbi bölmələri təşkil edirdi. Hərəkata rəhbərlik *Cəmil Cahid* bəyə tapşırılmışdı. Qısa müddət ərzində Qarabağda Azərbaycan hakimiyyəti bərqərar edildi, separatçı erməni daşnak qüvvələrinə ağır zərbə vuruldu.

*Mudros barışığının (1918)* şərtlərinə əsasən türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra ölkənin müdafiəsinin təşkilində yeni mərhələ başlandı. Bu mərhələdə bütün ağırlıq Azərbaycan Hökumətinin üzərinə düşdü. Türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə ölkənin müdafiəsini öz üzərinə götürməyə qadir olan müstəqil milli ordu hələ formalaşmamışdı. Bir tərəfdən əsas diqqətin döyüşlərin aparılmasına yönəldilməsi, digər tərəfdən də, milli ordu quruculuğuna rəhbərlik edən bəzi türk zabitlərinin əsaslandırılmamış struktur eksperimentlərinə, xidmətin təşkilində və çağırış-səfərbərlik işlərinin aparılmasında nöqsanlara yol vermələri Azərbaycan ordusu hissələrinin formalaşmasını ləngitdi. Bu vəzifənin həllinə nail olmadan ölkənin müdafiəsini də etibarlı şəkildə təşkil etmək mümkün deyildi. Ona görə də Nazirlər Şurası *Hərbi Nazirliyin yaradılması haqqında qərar* qəbul etdi. Hərbi nazir vəzifəsi ilk vaxtlar Hökumətin sədri Fətəli xan Xoyskiyə həvalə olundu. *Hərbi Nazirliyin* təşkili və ordu quruculuğuna birbaşa rəhbərlik isə əvvəlcə nazir müavini, 1918 il dekabrın 25-dən isə hərbi nazir təyin edilmiş Səməd bəy *Mehmandarova* tapşırıldı.

Hökumətin və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində ümumdövlət mənafelərini əks etdirən qarşılıqlı fəaliyyəti güclü hərbi qüvvələrin yaradılmasına yol açdı. Bu sahədə yeni siyasət formalaşdırıldı və onun bütünlüklə həyata keçirilməsi təmin edildi. Qısa müddətdə Hərbi Nazirliyin aparatı formalaşdırıldı. Buraya *Ümumi qərargah, Ləvazimat idarəsi, Topçu idarəsi, Hərbi-tibb idarəsi, Hərbi-baytar idarəsi, General-kvartirmeyster şöbəsi* və digər strukturlar daxil idi. Bundan başqa, *Hərbi Nazirliyin ştatı barədə qanun, Əxzi-əsgər (ça-ğırış) təşkilatının yaradılması haqqında qanun, Hərbi və polk məhkəmələrinin yaradılması barədə qanun* qəbul edildi. Kifayət qədər hərbi biliyə və təcrübəyə malik zabitlər olan Əlağa *Şıxlinski,* Həbib bəy *Səlimov*, Murad Gəray *Tlexas*, İbrahim ağa *Usubov*, Həmid bəy *Qaytabaşı*, İbrahim ağa *Vəkilov*, Süleyman bəy *Əfəndiyev*, Cavad bəy *Şıxlinski,* Feyzulla Mirzə *Qacar* və başqaları məsul vəzifələrə təyin edildilər.

Azərbaycanda milli ordu yaradılması, bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım idi. Nazirlər Şurasının sədri Fətəli xan Xoyski 1918 il dekabrın 26-da Azərbaycan Parlamentində çıxış edərkən ordunun üzərinə düşən vəzifəni



Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri

belə səciyyələndirirdi: *"Gərək hər bir dövlət daima özünü müdafiə etmək iiçün qüvvə hazırlasın. Ona görə bizim həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qiivvəmiz olsun "*. Hərbi nazir Səməd bəy Mehmandarov isə Hökumətin ordu quruculuğu ilə bağlı müəyyənləşdirdiyi vəzifələri belə açıqlayırdı: ***"...Azərbaycan qoşunları heç bir təcavüzkar məqsəd güdmür. O yalnız dövlət sərhədinin miidafiəsi, dövlət daxilində qanun və qaydanın qorunması, mümkün olacaq anarxiyanın aradan qaldırılması, bandaların soyqunçu basqınlarına son qoyulması məqsədilə yaradılmış və yaradılmaqdadır "***.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun əsgərləri



Parlament də ordunun formalaşdırılmasına, ölkənin müdafiəsinin təşkili məsələlərinə ciddi diqqət yetirirdi. Ordu quruculuğu və müdafiə məsələlərinin müzakirəsi zamanı Nazirlər Şurasının sədri və hərbi nazir vaxtaşırı Parlamentə dəvət edilirdi. Parlamentdə hərbi məsələlər üzrə xüsusi komissiya yaradılmışdı. Komissiyanın üzvləri, həmçinin digər millət vəkilləri müvafiq sənəd layihələrini hazırlayıb Parlamentin müzakirəsinə təqdim etməklə bərabər, hərbi hissələrə, obyektlərə, gərgin döyüş bölgələrinə gedir, ümumordu miqyaslı tədbirlərdə fəal iştirak edirdilər. Parlamentin fəaliyyəti dövründə ordu quruculuğu və ölkəmüdafiəsinin təşkili ilə bağlı 9 qanun qəbul edilmiş, *Azərbaycan-Gürcüstan hərbi-müdafiə sazişi (1919)* ratifikasiya olunmuş, Qarabağda və ölkənin şimalında yaranmış təhlükəli vəziyyətlə bağlı növbədənkənar müzakirələr aparılmışdır.

Ordu quruculuğundakı uğurların əsas səbəblərindən biri onun milli dəyərlərə söykənməsi idi. Azərbaycan dili orduda



*Azərbaycan Xalq Cümhuriyyətinin müsabiqəyə təqdim olunmuş "Müstəqillik" ordenlərinin eskizləri.*

*Eskizlər Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində saxlanılır.*




*Azərbaycan Xalq Cümhuriyyətinin müsabiqəyə təqdim olunmuş "Hərbi xidmətə görə" və "Dinc xidmətə görə" ordenlərinin eskizləri.*
*Eskizlər Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində saxlanılır.*

da dfövlət dili kimi qəbul edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün kurslar yaradıldı, həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi.

Azərbaycan ordusunun mənəvi durumuna, hər bir döyüşçünün mənsub olduğu xalqın tarixi keçmişini öyrənməsinə, qəhrəmanlıq nümunələri əsasında tərbiyələndirilməsinə böyük diqqət verildi. Bu baxımdan Səməd bəy Mehmandarov çox dəyərli fikir və təkliflər irəli sürdü. Həmin fikirlərin mahiyyəti bundan ibarət idi ki, Azərbaycanın qəhrəmanlıq tarixi həm araşdırılmalı, həm də xalq kütlələrinə çatdırılmalı idi. Hərbi nazir bu istiqamətdə aparılan işlərdə, eyni zamanda, ifratçılığa varmağın, milli tərbiyənin millətçiliklə əvəz olunmasının da tərəfdarı deyildi. Nazir Azərbaycan xalqının qəhrəmanlıq tarixinin kitablar halında çap edilərək qoşun hissələrinə çatdırılmasını vacib vəzifələrdən biri sayırdı.

Milli ordu quruculuğunda atılan ilk addımlardan biri də yeni hərbi geyim formasına keçilməsinin qərara alınması oldu. Milli üslubda hazırlanmış yeni hərbi geyim əsgər və zabitlərdə milli ruhun formalaşdırılmasına müsbət təsir göstərirdi. Bu məqsədlə xüsusi komissiya yaradılmışdı. Həmin komissiyaya general-leytenant Əlağa Şıxlinski rəhbərlik edirdi. Azərbaycan ordusu 1919 il yanvarın 11-dən yeni-milli hərbi formaya keçdi.

Milli hərbi kadrların hazırlanması da Hərbi Nazirliyin qarşısında duran mühüm vəzifələrdən idi. Bu məqsədlə hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış podpraporşiklər məktəbinin fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq, *Praporşiklər məktəbinə* çevrildi. Məktəbdə təlim-tərbiyə işləri də yenidən quruldu. 1919 ilin sonunda Praporşiklər məktəbinin əsasında *Hərbiyyə məktəbi,* Azərbaycan ordusu üçün milli hərbi kadrlar hazırlayan *İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi* və *Hərbi feldşer məktəbi* də açılmışdı.

Hərbi Nazirliyin fəaliyyəti sayəsində, çətinliklər olsa da, orduya çağırış işi yeni sistem əsasında quruldu. Nəticədə, əhali orduda xidmətə müsbət münasibət bəsləməyə başladı. Bir sıra məmurların qanunsuz hərəkətlərinə, varlıların rüşvət verərək, övladlarını hərbi xidmətdən azad etməsinə, fərarilik, zabitlər arasında intizamsızlıq hallarına baxmayaraq, ordu quruculuğunda müsbət dəyişikliklər üstünlük təşkil edirdi. Bunun bir səbəbi də o idi ki, Hərbi Nazirlik mənfi hallara qarşı digər müvafiq orqanlarla, xüsusilə Daxili İşlər Nazirliyi ilə əlbir mübarizə aparırdı.

Hərbi nazir Səməd bəy Mehmandarov ordu quruculuğundakı çətinliklərdən bəhs edərkən hələ 1918 ilin dekabrında göstərirdi ki, fərariliyin əsas səbəblərindən biri çağırış orqanlarının fəaliyyətinin düzgün qurulmaması ilə bağlıdır. O, açıqca bildirirdi ki, ***hərbi xidmətə yalnız rüşvət verib "canlarını qurtara bilməyən " şəxslər cəlb olunurlar və buna görə də qoşun hissələrində bir nəfər də olsun imkanlı adamın övladı yoxdur. İmkanlı adamların övladlarına yalnız Praporşiklər məktəbində rast gəlmək olardı ki, onlar da öz arzuları ilə təhsil almağa gəlmişdilər. Hərbi mükəlləfiyyətin əsas ağırlığı kasıbların üzərinə düşürdü.***

1918 il dekabrın 25-də Səməd bəy Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Müraciət Azərbaycan və rus dillərində çap edilərək əhali arasında yayıldı. Hərbi nazirin müraciətində türk qoşunlarının Azərbaycanda olduğu zaman çağırış işində yol verilmiş nöqsanlara, o cümlədən, hərbi hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, əsgərlərin ağır məişət şəraitinə toxunulur, onların aradan qaldırılması üçün görülən qətiyyətli tədbirlərdən bəhs olunurdu: ***"İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları, istər fəqir, istər dövlətli, əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyinəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğandöşək hazırlatmışam ".***

Həyata keçirilən bu tədbirlər Azərbaycan ordusunun formalaşdırılması işini xeyli sürətləndirdi.

Güclü ordu formalaşdırılması üçün vacib olan müxtəlif hərbi strukturun yaradılması, qoşunların ərzaq və digər vasitələrlə təmin olunmasının yaxşılaşdırılması, həmçinin zabitlərin maaşlarının vaxtaşırı artırılması həm Hökumətin, həm də Hərbi Nazirliyin daimi nəzarətində idi. Bu sahədə hərbi nazirliklə Nazirlər Şurası arasında sıx əlaqə yaradılmışdı. Hərbi nazir 1919 ilin aprelində ordunun formalaşdırılması üçün büdcədən ayrılacaq vəsaitin miqdarı barədə Hökumətə təklif verdi. Hökumət bu təklifi təsdiq etdi. Həmin vəsait 399,4 milyon manata bərabər idi ki, bu da dövlət büdcəsinin 27,7%-ni təşkil edirdi.

Ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsi üçün Azərbaycan Hökuməti həm də fəal xarici siyasət yeridirdi. Bu baxımdan, həm nüfuzlu dünya ölkələri ilə, həm də yaxın qonşularla qarşılıqlı əlaqələrin qurulmasına cəhd göstərilirdi. Belə ki, Azərbaycanla Gürcüstan arasında hərbi əməkdaşlıq gücləndirildi və bu əməkdaşlığı nizamlayan hüquqi baza kimi 1919 il iyunun 16-da iki respublika arasında hərbi saziş imzalandı. Sazişi Azərbaycan Hökuməti tərəfindən xarici işlər naziri Məmməd Yusif Cəfərov, hərbi nazir Səməd bəy Mehmandarov və Baş ərkani-hərbin (Baş qərargahın) rəisi Məmməd bəy *Sulkeviç* imzaladılar. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişə görə tərəflərdən hər hansı biri xarici müdaxiləyə məruz qalarsa, digəri ona kömək göstərməli idi. Tərəflərin razılığına əsasən, 2 həftə ərzində Ermənistana da bu sazişə qoşulmaq hüququ verilirdi. Ancaq Azərbaycan və Gürcüstan torpaqlarına göz dikən Ermənistan bu müqaviləyə qoşulmadı.

Göstərilən sazişdən əlavə, Azərbaycanla Gürcüstan arasında hərbi-texniki əməkdaşlıq haqqında da sənəd imzalandı. Həmin sənədə əsasən, Gürcüstan həm hərbi texnika və sursatla, həm də hərbi kadrların hazırlanması işində Azərbaycana kömək göstərdi. Gürcüstandan gətirilmiş silah, sursat və təchizat Azərbaycanın şimal sərhədlərini qoruyan qoşun bölmələrinin maddi-texniki imkanlarını xeyli yaxşılaşdırdı.

Hökumətin, o cümlədən Hərbi Nazirliyin gördüyü tədbirlər nəticəsində Azərbaycan ordusunun döyüş qabiliyyət

getdikcə güclənir, ölkənin müdafiə imkanları artırdı. 1919 ilin yayında Denikin qoşunlarının Azərbaycana hərbi müdaxiləsi təhlükəsi artdığı zaman, ölkənin ərazi bütövlüyünün qorunub saxlanması üçün bütöv müdafiə sisteminin yaradılmasına nail olundu, *Şimal sərhədinin müdafiə sistemi, Abşeronun müdafiə sistemi, Bakının müdafiə sistemi* quruldu, bu müdafiə sistemlərinin möhkəmləndirilməsi üçün kifayət qədər qüvvə və vəsait ayrıldı. 1919 ilin iyununda *Dövlət Müdafiə Komitəsi* yaradıldı və bununla da ölkənin müdafiəsinin təşkili konkret bir orqanda mərkəzləşdirildi. Nazirlər Şurası sədrinin rəhbərlik etdiyi bu orqan hərbi quruculuq sahəsində həm zəruri olan qərarlar qəbul edir, həm də özü bu qərarların icrasını təşkil edirdi.

Hökumətin gördüyü qəti tədbirlər nəticəsində texmi-nən il yanm ərzinde, mürəkkeb tarixi şəraitdə, iqtisadi və hərbi bazanm çox zəif olmasına baxmayaraq, kifayət qədər yüksək döyüş qabiliyyətinə malik bir ordu yaradıldı. Bu ordunun təşkili Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm nailiyyətlərindən biri idi.

1919 ilin avqustunda Azərbaycan ordusunun artıq kifayət qədər formalaşmış hərbi hissələri Lənkəran bölgəsinin Azərbaycan Hökumətinə tabe olmayan qiyamçılardan təmizlənməsi məqsədilə *Lənkəran əməliyyatını* uğurla yerinə yetirdilər. Qiyamçı qüvvələrin məğlub edilməsi və bölgədə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bərqərar olunması hərbi nazirin əmri ilə yaradılmış Lənkəran dəstəsinə tapşırıldı. Dəstənin komandanlığı general-mayor Həbib bəy Səlimova həvalə olunmuşdu.

Lənkəran dəstəsinin qətiyyətli və çevik fəaliyyəti nəticəsində sentyabrın 3-də bölgədəki rus hərbi qüvvələri tərk-silah edildilər. Bununla əlaqədar olaraq hərbi nazir Səməd bəy Mehmandarovun 1919 il 19 sentyabr tarixli 420 saylı əmrində deyilirdi: ***"Lənkəran şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan Hökumətinin hakimiyyətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Ümumi qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.***

***Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni bərk istilərdə bizim gənc ordumuz xəstələr və ar-xada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yol-boyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstə qayıdandan sonra Lənkərana olan şəxsi səfərim zamanı əmin oldum. Öz əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə hamıda güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi.***

***Azərbaycan ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən "sağ ol!" deyirəm".***

Azərbaycan ordusunun nəyə qadir olması Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq məqsədilə həyata keçirilən erməni-daşnak təcavüzünün aradan qaldırılması üçün aparılan *Qarabağ əməliyyatında* özünü bir daha bariz nümayiş etdirdi. Bu təcavüz Azərbaycanın işğalı və bölüşdürülməsi məqsədilə Sovet Rusiyası ilə erməni-daşnak qüvvələri arasındakı sövdələşmə nəticəsində həyata keçirilirdi. Erməni-daşnak qüvvələri bütün Qarabağı ələ keçirməyə cəhd göstərməklə, həm də Azərbaycanın şimal sərhədlərinin müdafiəsinin tamamilə zəifl ədilməsinə və



bununla da bolşevik işğalının asanlaşmasına əlverişli şərait yaratmalı idi.

Erməni qüvvələri Novruz bayramı günlərində, martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə hücuma başlasalar da, hərbi təşəbbüsü ələ ala bilmədilər. Birinci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski erməni silahlı dəstələrinin Əsgəran qalası üzərinə hücumu başlanandan sonra Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyliyə göndərdiyi teleqramında yazırdı: ***"Əsgərlər qalanın bir hissəsini hələ də əllərində saxlayırlar... ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq".***

Qarabağ müharibəsi Azərbaycan ordusunun və onun rəhbərliyinin müstəqillik dövründə rastlaşdıqları ən ağır və həm də ən şərəfli sınaq idi. Qısa müddətdə Azərbaycanın bütün müdafiə qüvvələri səfərbərliyə alındı. Vətənini və yurdunu sevən Azərbaycan oğulları ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün əsl qəhrəmanlıq nümunələri göstərirdilər. Azərbaycanın hərb tarixinə Qarabağ müharibəsi adı ilə daxil olmuş bu müharibənin uğurla başa çatdırılması Azərbaycan ordusu əsgərlərinin, zabit və generallarının Vətənə əsl xidmət nümunəsi idi. Hərbi nazir Səməd bəy Mehmandarovun strateji rəhbərliyi, general Əlağa Şıxlinskinin təşkilatçılıq qabiliyyəti, general-mayor Həbib bəy Səlimovun, general-mayor Cavad bəy Şıxlinskinin, general-mayor Teymur bəy Novruzovun və yüzlərlə digər zabitlərin şücaəti Azərbaycan ordusunun qüdrət və qabiliyyətini nümayiş etdirdi. Erməni silahlı qüvvələri göstərdikləri bütün cəhdlərə baxmayaraq, Qarabağın Azərbaycandan qoparılmasına nail ola bilmədilər.

Qarabağdakı güclü erməni təcavüzü dəf olunsa da, şimaldan yaxınlaşan hərbi müdaxilənin qarşısını almaq mümkün olmadı, çünki Azərbaycan ordusunun şimal sərhədlərini qoruyan hərbi hissələrin Qarabağın müdafiəsinə cəlb edilməsi nəticəsində buranın müdafiə imkanları çox zəifləmişdi. Qarabağdakı qüvvələrin yenidən şimala atılması üçün isə nə vaxt var idi, nə də imkan. Həm də, 1920 il aprelin 16-da Fətəli xan Xoyski bildirdi ki, Qarabağdan qoşunları heç bir vəchlə çıxarmaq olmaz, çünki bu, erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarına qarşı təcavüzünün yenidən güclənməsinə səbəb ola bilər.

1920 il aprelin 27-də Sovet Rusiyası hərbi qüvvələrinin Azərbaycan sərhədlərini pozması xəbəri alınan kimi, hərbi nazir Səməd bəy Mehmandarov *Birinci piyada diviziyasının* komandiri, general-mayor Cavad bəy Şıxlinskiyə teleqram göndərib şimal sərhədinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: ***"Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarı artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqramla bildirin. Biz taborları sabaha gözləyirik".***

Hərbi nazir Səməd bəy Mehmandarov bu əmri ilə, göründüyü kimi, şimal cəbhəsinin müdafiəsi üçün köməyi Qarabağdan deyil, Gəncə və Qazaxdan gözləyirdi. Çünki yaranmış vəziyyətdə Qarabağda olan qüvvələrin şimala gətirilməsi belə, Azərbaycan ordusu ilə müqayisədə çox böyük zərbə qüvvəsinə malik olan Qırmızı ordunun qarşısını ala bilməyəcəkdi. Həm də, erməni təcavüzkarlarına qarşı aparılan hərbi əməliyyatlarda Azərbaycan ordusu xeyli canlı qüvvə, maddi itkilər vermişdi. Şimal sərhədi boyunca müdafiədə dayanan azsaylı hərbi hissələr bütün qüvvələri ilə müqavimət göstərsələr də, sayca qat-qat çox olan və hərbi texnika ilə yaxşı təchiz olunmuş bolşevik müdaxiləçilərinin qarşısını saxlamaq mümkün olmadı.

İşğalçı ordunun əsas zərbə qüvvəsinin zirehli qatarlarla Bakıya girməsi və şəhərin giriş-çıxış yollarının tutulması ilə Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratı həll edildi və Azərbaycanın müstəqilliyinə son qoyuldu.

**Xarici siyasət.** Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən fəal xarici siyasət yeritməyə başladı. 1918 il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə, Almaniya, Avstriya - Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya xarici işlər nazirliklərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərdi.

Zaqafqaziya seyminin nümayəndələri ilə Türkiyə arasında Batum danışıqları iyun ayının 4-də hər üç respublika və Osmanlı dövləti arasında "sülh və dostluq" haqqında müqavilələrin imzalanması ilə nəticələndi. "Osmanlı imperator hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi" Azərbaycan Hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Müqavilənin 4-cü maddəsində deyilirdi: "Osmanlı imperator hökuməti Azərbaycan Cümhuriyyəti Hökumətinə qayda-qanun və ölkənin təhlükəsizliyinin təmin olunmasına ehtiyac duyduğu təqdirdə hərbi qüvvə ilə kömək etməyi öhdəsinə götürür". Osmanlı yardımından əsas məqsəd 1918 ilin yazında bolşeviklərin əlinə keçmiş Bakını azad etmək idi.

1918 il iyunun 17-də birinci Hökumət böhranından sonra yaradılmış yeni Hökumət kabinəsinin xarici siyasətdə ilk addımı Dördlər İttifaqı və Cənubi Qafqaz respublikalarının iştirakı ilə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına Məhəmməd Əmin *Rəsulzadə,* Xəlil bəy *Xasməmmədov* və Aslan bəy *Səfikürdskidən* ibarət heyətin göndərilməsi oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə 1918 il avqustun 23-də Əlimərdan bəy *Topçubaşovu* fövqəladə elçi və səlahiyyətli nazir kimi İstanbula göndərmişdi. Burada o, rəsmi görüşlər keçirmiş, Azərbaycanla bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmışdı.

İstanbulda vəziyyəti müşahidə edən Almaniya nümayəndələri yəqin etdilər ki, Azərbaycan Hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək fikrində deyildir. Belə olduqda, onlar Bakı barəsində



*Cümhuriyyət Hökumətinin İstanbul sülh konfransına göndərilən M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskiyə verdiyi etimadnamə. 1918, 17 iyun*



*Ə.M.Topçubaşovun Cümhuriyyət Hökumətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilməsi haqqında F.x.Xoyskinin M.Ə.Rəsulzadəyə məktubu. 1918, 23 avqust*

planlarını reallaşdırmaq üçün Sovet Rusiyası ilə gizli danışıqlara başladılar.

Sovet Rusiyasının işə qarışması Azərbaycan Hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Almaniya -Rusiya danışıqları davam etdiyi zaman *Bakı Xalq Komissarları Sovetinin* şəhəri əldə saxlamaq üçün çar polkovniki *L.Biçeraxovdan* yardım almaq ümidləri doğrulmadı. "Sentrokaspi"çilər və avqust ayının əvvəllərində *L.Denstervil* başda olmaqla Bakıya daxil olan ingilislər də şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya - Rusiya danışıqları 1918 il 27 avqust sazişinin imzalanması ilə nəticələndi (bax *Brest-Litovsk müqaviləsinə əlavə məxfi saziş).*

İstanbulda olan və Almaniya ilə Rusiya arasındakı gizli sövdələşmədən xəbər tutan Azərbaycan nümayəndələri 27 avqust sazişi ilə bağlı Almaniyanın Türkiyədəki səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya - Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. 1918 ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edirdi. Sentyabr ayının ortalarında Azərbaycan - Osmanlı hərbi qüvvələri Bakını yadellilərdən azad etdilər. Bakının azad edilməsi *Tələt paşanın* Berlində apardığı danışıqlara müsbət təsir göstərdi. Danışıqlar nəticəsində sentyabrın 23-də Almaniya-Osmanlı protokolu imzalandı. Protokola görə Almaniya 27 avqust sazişindən imtina edir, Azərbaycanı diplomatik cəhətdən tanıyacağını bildirir, onun müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağına yardım göstərəcəyini vəd edirdi. Türkiyə isə Sovet Rusiyası Azərbaycanın müstəqilliyini tanıyacağı halda, öz qoşunlarını Brest sülhü üzrə müəyyən edilmiş sərhədlərə çəkəcəyini öhdəsinə götürürdü.

1918 ilin payızında Almaniya - Türkiyə bloku məğlub oldu. Məğlubiyyət ərəfəsində Azərbaycan Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula gələn Əlimərdan bəy Topçubaşov oktyabr ayında Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. Oktyabrın 30-da yalnız Türkiyə üçün deyil, Azərbaycan üçün də son dərəcə ağır olan *Mudros barışığı (1918)* imzalandı. Barışığa görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli idi. Türkiyənin nəzarəti altında olan Cənubi Qafqaz dəmir yolu müttəfiqlərin nəzarətinə verilirdi. Türkiye, eyni zamanda,

Bakının müttəfiqlər tərəfindən işğal edilməsinə etiraz etməməli idi. Noyabrın 4-də Əlimərdan bəy Topçubaşov Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası verdi.

Mudros barışığına əsasən, 1918 il noyabrın 17-də ingilis generalı U.Tomsonun başçılıq etdiyi müttəfiq qoşunları Bakıya daxil oldular. Bundan az əvvəl isə Azərbaycan Hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini yenicə bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciət qəbul etdi. Müttəfiqlərin müdaxiləsi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Bakıdakı vəziyyətlə yaxından tanış olduqdan sonra, rus və erməni milli şuralarının ciddi səylərinə baxmayaraq, general U.Tomson bildirdi ki, Britaniya komandanlığı Azərbaycan Hökumətinə və onun baş nazirinə böyük hörmət bəsləyir, Xoyski "Bakıda ən bacarıqlı adamlardan biridir" və yeni koalisiya Hökuməti təşkil edilənə qədər onun Hökuməti ölkədə yeganə təsirli hakimiyyət olaraq qalır.

Yeni yaradılmış Hökumətin ilk addımı dekabrın 28-də *Paris sülh konfransına* göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyən etmək oldu. Hökumətin təqdimatı ilə təşkil edilmiş nümayəndə heyətinə tanınmış siyasi xadim, Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşov rəhbərlik edirdi. Bu zaman İstanbulda olan Əlimərdan bəy Topçubaşov Türkiyənin rəsmi dairələri və İstanbuldakı İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə faydalı görüşlər keçirirdi.

Azərbaycan nümayəndələri Parisə viza almaq üçün çətinliklərlə qarşılaşdılar. 3 ay İstanbulda gözlədikdən sonra nümayəndələr İstanbul — Səlanik - Pirey (Afina) - Neapol - Roma marşrutu ilə Parisə yola düşdülər.

1919 il mayın 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə Azərbaycan məsələsi ilk dəfə Paris konfransının Dördlər Şurasının iclasında müzakirə edildi. Parisə gəldikdən sonra Azərbaycan nümayəndələri may ayı ərzində Böyük Britaniya, Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər keçirdilər. Mayın 23-də İngiltərə nümayəndə heyətinin üzvü L.Mallet Əlimərdan bəy Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı. Mayın 28-də günün birinci yarısında Amerika diplomatı H.Morgentau, günün ikinci yarısında isə prezident V.Vilson Azərbaycan diplomatlarını qəbul etdi. Görüşdə Əlimərdan bəy Topçubaşov bildirdi ki, Azərbaycan nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan başqa birisini tanımayacaqdır. Danışıqlar zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi.

1919 ilin yazında Rusiya ağqvardiyaçılarının müvəqqəti qələbəsi müttəfiqlərin onlara olan meylini gücləndirdi. Rusiyadakı ağqvardiyaçı generalların müvəqqəti uğurları fonunda Parisdəki rus mühacirlərinin fəallaşması Azərbaycan nümayəndələrini daha çevik diplomatik addımlar atmağa sövq edirdi. Bu məqsədlə avqustun 19-da və 26-da sülh konfransının sədrinə məktubla müraciət olundu. Bu sənədlərdə Qafqazdakı vəziyyət ətraflı təhlil edilərək, konfrans qarşısında Denikinin Könüllü ordusu ilə bağlı üç mühüm tələb qoyulurdu: 1) Könüllü ordu Dağıstan vilayətinə münasibətdə müttəfiq komandanlığının müəyyən etdiyi demarkasiya xəttini pozmamalıdır; 2) Könüllü ordu ən qısa vaxtda Dərbənddən çıxmalıdır; 3) Könüllü ordunun əlinə keçən Xəzər donanmasının gəmiləri Azərbaycan Hökumətinə qaytarılmalıdır.

Könüllü ordu ilə bağlı Azərbaycan nümayəndələrinin Parisdə qarşılaşdığı çətinliklər 1919 ilin sonunadək davam etdi.

Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi çətinliklərdən biri də ermənilərin "Böyük Ermənistan" yaratmaq məqsədilə irəli sürdükləri ərazi iddialarına qarşı mübarizə ilə bağlı idi.Qərb ölkələrindən yardım alan və güclü xarici icmalara malik olan Ermənistan ilk günlərdən etibarən sülh konfransının qarşısında həlli mümkün olmayan tələblər qoymuşdu.

Ermənistan siyasətçiləri "erməni məsələsinin" Qafqazdan kənarda qüdrətli və qalib ölkələrin köməyilə həll ediləcəyinə, Ermənistan ərazisinin Türkiyə, Azərbaycan və Gürcüstanın əraziləri hesabına xeyli genişləndiriləcəyinə ümid bəsləyirdilər. Lakin Azərbaycan nümayəndələri Qərb ölkələrinin siyasi dairələri tərəfindən müdafiə edilən və bilavasitə Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönələn erməni iddialarını dəf etməyə nail oldular.

Bu dövrdə yeni yaranmış dövlətlər qarşılarına çıxan siyasi, iqtisadi və xüsusilə maliyyə çətinliklərini həll etmək üçün özlərinə siyasi cəhətdən güclü, iqtisadi cəhətdən varlı himayəçi dövlətlər axtarırdılar. Bu baxımdan köhnə və yeni Rusiyanın Azərbaycana formaca fərqli, mahiyyətcə eyni olan münasibəti Azərbaycan Xalq Cümhuriyyətini özünə böyük dövlətlərin simasında himayəçi axtarmağa sövq edirdi. Birinci dünya müharibəsində məğlub olana qədər Azərbaycan üçün himayəçi dövlət Türkiyə idi. Müharibədən sonra beynəlxalq vəziyyət köklü surətdə dəyişdiyindən bu cür himayəçi dövlət Fransa, Böyük Britaniya, ABŞ və ya İtaliya ola bilərdi.

Azərbaycana və ümumilikdə Qafqaz dövlətlərinə Fransa himayədarlığı o qədər də real deyildi. Fransa işgüzar dairələrinin Qafqaza marağı güclü olsa da, Klemanso hökumətinin "vahid və bölünməz Rusiya" ideyasına sədaqəti daha üstün idi.

İngilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919 ilin fevralında Lloyd Corc hökuməti onları Qafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı. Lakin ingilislər bunu elə etmək istəyirdilər ki, nə amerikalılar, nə də fransızlar bu regionda birtərəfli qaydada qüvvətlənməsinlər. Beləliklə, ingilislər tərəfindən ilk dəfə italyanların Qafqaza cəlb edilməsi ideyası irəli sürüldü. Bununla, həm de italyanların sülh konfransından narazılığı aradan qaldırıldı.

İyunun 28-də Böyük Britaniya hökuməti ingilis ordusunun Qafqazdan çıxarılacağı barədə Paris sülh konfransına rəsmi məlumat verdi. Müttəfiqlər Qafqazdan çıxan


№4

Délégation britannique
Paris
25 Juillet 1919.

Monsieur

Ə.M.Topçubaşovun Böyük Britaniyanın Paris sülh konfransındakı nümayəndə heyətinə məktubu.
1919, 25 iyul

ingilis orudusunu italiya ordusu ilə əvəz etmək haqqında qərar qəbul etdilər. *U.Orlandonun* başçılıq etdiyi İtaliya hökuməti Azərbaycanda və Gürcüstanda olmuş polkovnik M. Qabbanın məlumatını dinlədikdən sonra Qafqaza ordu göndərməyə razılıq verdi. Lakin iyunun 31-də İtaliyada hakimiyyətə gəlmiş yeni *F.Nitti* hökuməti bildirdi ki, Britaniya qoşunlarını əvəz etmək üçün Qafqaza İtaliya ordusu göndərilməyəcəkdir. Nitti hökumətinin bu qərarı avqust ayında həmin məsələnin yenidən qalxmasına səbəb oldu. Azərbaycan və Gürcüstan nümayəndələri Parisdə keçirdikləri birgə iclasda qərara gəldilər ki, yalnız Böyük Britaniyanın himayədarlığı Qafqaz respublikalarının mənafeyinə uyğundur. Bu məqsədlə ingilis nümayəndələri ilə aparılan danışıqlar müsbət nəticə vermədi. Avqustun axırında ingilis əsgərləri Azərbaycanı tərk etdilər.

Avropa dövlətləri ilə yanaşı, Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq, Amerikanın Qara dəniz boğazları, İstanbul və bütövlükdə, Qafqaz mandatını qəbul etməkdə marağı var idi. Bu məqsədlə iyulun 5-də ilk addımlar atıldı. Sülh konfransının "Onlar Şurası" Amerikanın təqdimatı əsasında polkovnik *V.Haskeli* Ermənistana ali komissar təyin etdi V.Haskelin Ermənistana müttəfiqlərin ali komissarı təyin edilməsi Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Ermənilər bu dəfə Azərbaycana olan ərazi iddialarını ABŞ vasitəsilə həll etmək istəyirdilər. Avqustun axırlarında Bakıda apardığı danışıqlarda V.Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. Bununla belə, V.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində - Naxçıvan və Şərur - Dərələyəzdə ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılsın (bax *"Haskel layihələri")*.

Oktyabrın 24-də Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması barədə V.Haskelin bəyanatı elan edildi və Amerika polkovniki Edmund Delli bu zonaya qubernator təyin edildi. Lakin Azərbaycan Hökumətinin ciddi müqaviməti, Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikalılar öz niyyətlərini reallaşdıra bilmədilər. Polkovnik Edmund Delli Naxçıvanda general-qubernator kimi deyil, sülh konfransının nümayəndəsi kimi fəaliyyətə başladı.

1919 ilin noyabrında Paris müzakirəsində V.Haskelin vəkalətinin Azərbaycana və Gürcüstana aid edilməsi barədə ABŞ-ın cəhdləri İngiltərə və Fransanın ciddi müqaviməti nəticəsində baş tutmadı. Keçmiş Rusiya imperiyasının hüdudlarında yaranmış yeni respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın baş naziri Lloyd Corcun 1919 ilin noyabrında İngiltərə parlamentinin icmalar palatasındakı çıxışı ilə başlandı. Lloyd Corcun çıxışında aydın hiss edilirdi ki, o, Azərbaycanın istiqlaliyyətinin tanınmasına və ona yardım göstərilməsinə tərəfdardır. Britaniya baş nazirinin belə mövqeyi Denikinin məğlubiyyətindən sonra bolşevizmin Yaxın və Orta Şərqə yayılmasının qarşısını almaq zərurətindən irəli gəlirdi. 1919 ilin noyabr-dekabr aylarında müttəfiqlər arasında aparılan danışıqlar Azərbaycanın müstəqilliyinin tanınmasını artıq reallaşdırmışdı. Bu məqsədlə və Böyük Britaniyanın təşəbbüsü ilə 1920 il yanvarın 10-da Paris sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Bir gün sonra, yanvarın 11-də müttəfiqlərin Ali Şurası İngiltərənin xarici işlər naziri Corc Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiqlər və Birlik ölkələri Azərbaycan Hökumətini de-fakto səviyyəsində tanıyırlar". Azərbaycanın istiqlaliyyətinin Paris sülh konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi. Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı artırdı. Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, İngiltərə, Fransa və İtaliya Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməyə başladı.1920 il martın 20-də Azərbaycanla İran arasında əməkdaşlığın bütün sahələrini, əhatə edən saziş və müqavilələr imzalandı (bax *Azərbaycan -İran müqavilələri)*. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdı. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə

konsul-agentlikləri yaradıldı. 1920 il aprelin ortalarında Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, Amerika Birləşmiş Ştatları, İsveçrə Respublikası, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis olunması haqqında qanun qəbul etdi. Azərbaycanda isə İngiltərənin, Belçikanın, Yunanıstanın, Gürcüstanın, Ermənistanın, Danimarkanın, İtaliyanın, Litvanın, İranın, Polşanın, Amerika Birləşmiş Ştatlarının, Ukrayna, Finlandiya, Fransa, İsveçrə və İsveçin nümayəndəlikləri fəaliyyətə başlamışdı (bax *Bakıda xarici diplomatik nümayəndəliklər)*. Aprel işğalı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyəti təcrid olunmuş vəziyyətdən çıxıb geniş beynəlxalq əlaqələr sisteminə daxil olmuşdu.

1919 ilin yayında Azərbaycanla Gürcüstan arasında imzalanmış "İttifaq müqaviləsi" Denikin təhlükəsinə, rus təcavüzünə qarşı müqaviməti gücləndirmişdi. Lakin vətəndaş müharibəsinin gedişində bolşeviklərin qazandığı qələbələr Sovet Rusiyasının mövqeyini möhkəmləndirdi. Hərbi qələbelər, öz növbesində, qonşu dövlətlərə diplomatik təzyiqi gücləndirir və bolşevik təbliğatı üçün əlverişli şərait yaradırdı. Azərbaycanın timsalında bu təzyiq 1920 ilin yanvarından aprelinədək diplomatik qarşıdurma həddinə çatan notalar mübadiləsində öz əksini tapmışdı. Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) xarici işlər komissarı *GY.Çiçerin* 1920 il 2 yanvar tarixli notasında əslində Azərbaycan Hökumətindən Denikinə qarşı tələsik müharibəyə girməyi tələb edirdi (bax *Çiçerin notaları).*

G.Çiçerinin notası alınan gün, yanvarın 6-da Nəsib bəy Yusifbəylinin sədrliyi ilə Azərbaycan Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi. İclasda xarici işlər naziri Fətəli xan Xoyski Sovet Rusiyasının Azərbaycanla və Gürcüstanla hərbi saziş bağlamaq təklifi barədə məruzə etdi.

Gürcüstanla məsləhətləşmədən sonra yanvarın 14-də Azərbaycanın xarici işlər naziri Fətəli xan Xoyski G.V.Çiçerinə cavab notası göndərdi. Notada göstərilirdi ki, Denikinin uzun müddət Azərbaycan üçün təhlükə törətməsinə və ona qarşı Azərbaycan - Gürcüstan hərbi-müdafiə sazişi bağlanmasına baxmayaraq, Denikinə qarşı mübarizə Rusiyanın daxili işidir; Azərbaycan Respublikası Sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə danışıqlara başlamağa hazırdır.

Azərbaycan tərəfi bu fikirdə idi ki, danışıqlara başlamaq üçün Sovet Rusiyası rəsmi şəkildə Azərbaycan Respublikasını tanımalı idi. Bu Azərbaycanın milli müstəqilliyinin qorunmasına təminat ola bilərdi. Lakin Azərbaycanın bu mövqeyi Sovet Rusiyasını təmin etmirdi. RK(b)P MK-nın Siyasi Bürosu Fətəli xan Xoyskinin cavabını, ümumiyyətlə, Azərbaycan Hökumətinə münasibət məsələsini yanvarın 17-18-də keçirilən iclasında müzakirə etdi. G.Çiçerinin məruzəsi və V.İ.Leninin teklifi üzrə iclas Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə ruhunda qərar qəbul etdi. Qərarda göstərilirdi: "Xalq xarici işlər komissarlığma tapşırılsın ki, Azərbaycan Hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti yeritsin, çünki o, Denikinə qarşı birgə hərbi əməliyyat aparmaq təklifimizi rədd etmişdir və Xəzər dənizində bizə qarşı çıxan İngiltərə hərbi qüvvələrinə xidmət göstərir. Hər bir millətin zəhmətkeş kütlələrinin öz müqəddəratını təyin etməsi hüququnu dönmədən qəbul etdiyimizi tam müəyyən şəkildə qeyd etməklə, xalq xarici işlər komissarlığı Azərbaycan Hökumətinin bu cür davranışına qarşı qəti protest etməlidir".

Belə bir vəziyyətdə, yanvarın 19-da müttəfiqlərin ordu göndərmədən, yalnız silah və hərbi sursat vasitəsilə Azərbaycanı və Gürcüstanı müdafiə edəcəyi barədə qərarının elan edilməsi bolşevik təcavüzü üçün əlverişli şərait yaradırdı. Qafqazı, ilk növbədə, Azərbaycanı və Gürcüstanı bolşevik təcavüzündən xilas etmək üçün buraya ordu göndərilməsi çox zəruri idi. 1920 ilin əvvəllərində Denikinin məğlub olması, Sovet Rusiyasının fəallaşması, Azərbaycana qarşı erməni təcavüzünün baş qaldırması fonunda yaranmış şəraitin araşdırılması göstərir ki, yanvarın 19-da müttəfiqlərin qəbul etdiyi qərar düzgün qərar deyildi. Həmin qərarın qəbul olunduğu iclasın sənədləri ilə tanışlıq göstərir ki, marşal Ferdinand Foş başda olmaqla hərbi ekspertlər Şurası və peşəkar hərbçilərin hamısı Azərbaycana və Gürcüstana ordu göndərilməsini zəruri hesab edirdilər. Yalnız Lloyd Corc başda olmaqla, bəzi siyasətçilərin təzyiqi ilə Azərbaycana və Gürcüstana münasibətdə belə yarımçıq qərar qəbul edilmişdi.

Sovet Rusiyası Antanta ölkələrinin Azərbaycana və Gürcüstana ordu göndərib-göndərməməsi məsələsi ilə ciddi şəkildə maraqlanırdı. Hələ 1919 ilin axırlarında ingilis nümayəndəsi O.Qredi ilə danışıqlar aparan RSFSR xalq xarici işlər komissarlığının Kopenhagendəki müvəkkili M.M.Litvinov yanvar ayında G.V.Çiçerinə göndərdiyi teleqramda bildirirdi ki, İngiltərə hökuməti Qafqaza güclü ordu göndərmək barədə şayiələri təkzib edir.

1920 ilin yanvarında Azərbaycanın istiqlaliyyəti Antanta dövlətləri tərəfindən tanındıqdan az sonra, yanvarın 23-də G.V.Çiçerindən ikinci nota alındı. Bu nota daha hədələyici məzmuna malik idi. G.V.Çiçerinin notasında Fətəli xan Xoyskinin birinci notaya 14 yanvar tarixli cavabı təhlil edilir, Azərbaycan Hökumətinin Rusiyanın daxili işlərinə qarışmamaq mövqeyi Denikinlə mübarizədən imtina kimi qiymətləndirilirdi.

1920 ilin fevral-mart aylarındakı notalar mübadiləsi də təxminən əvvəlkilərlə eyni məzmunda idi. Fərqli cəhət bundan ibarət idi ki, Qırmızı Ordu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmış, yaranmış təhlükə ilə bağlı Hökumət daxilində müxtəlif fikirlər meydana çıxmışdı. Bundan əlavə, 1920 ilin fevralında yaradılmış AK(b)P mövcud vəziyyətdən dövlət çevrilişi üçün istifadə etməyə cəhd göstərirdi.

Sovet Rusiyasının Azərbaycan Respublikasına münasibəti siyasi mülahizələrdən çox iqtisadi amillərlə bağlı idi. 1920 ilin yazında vətəndaş müharibəsi, əsasən, başa çatmış, fəlakətli dərəcədə dağılmış təsərrüfatı bərpa etmək kimi çətin bir vəzifə qarşıya çıxmışdı. Təsərrüfatın bərpa edilməsi isə, ilk növbədə, neft məsələsi ilə bağlı idi. Əslində,

elə 1920 ilin yanvarından başlanan diplomatik qarşıdurmanın arxasında da Bakı neftinə sahib olmaq iddiaları dururdu. V.İ.Leninin martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın göstərilmişdi. Teleqramda deyilirdi: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyətinin hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında baş komandanla şərtləşin". Keçmiş Sov.İKP MK yanında marksizm-leninizm institutunun mərkəzi partiya arxivində bu teleqramın əlyazması ilə yanaşı, onun surəti də saxlanılır. Teleqramın surətində Q.K.Orconikidze bu sözləri yazmışdır: "Teleqram Bakıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı...". Sovet Rusiyasının hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri müqabilində Azərbaycan Hökumətini devirmək işində öz yardımını təklif edirdilər. Şübhəsiz ki, mart ayının ortalarında Qarabağda plana uyğun şəkildə erməni qiyamının baş verməsi və Azərbaycan ordusunun Qarabağa cəlb edilməsi əvvəlcədən hazırlanmış təxribat planının nəticəsi idi.

1920 ilin martında Qarabağın dağlıq hissəsində Azərbaycan Cümhuriyyətinə qarşı qaldırılan qiyamda, Qazağa və Naxçıvana Ermənistan tərəfindən edilən təcavüzdə məqsəd Azərbaycanın nizami ordu hissələrini Bakıdan çıxartmaq idi. Daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırmaq üçün ordu hissələri təcili Bakıdan və Dağıstan sərhədlərindən Qarabağın dağlıq hissəsinə gətirilməyə başladı.

Xarici təhlükə ilə yanaşı mart ayının axularında Hökumətin istefa verməsi də böhranın dərinləşməsində az rol oynamırdı. Lakin yeni Hökumət yaradılmadığı üçün köhnə kabinet hələlik öz fəaliyyətini davam etdirirdi. Aprel ayının ortalarında Qırmızı Ordu hissələrinin Azərbaycan sərhədlərində toplaşması Azərbaycan Hökumətinin ciddi narahatlığına səbəb olmuşdu. Aprelin 15-də Fətəli xan Xoyski G.Çiçerinə göndərdiyi te'eqramda yazırdı ki, Dağıstan denikinçılərdən təmizləndikdən sonra Azərbaycan xalqı bu ümiddə idi ki, şimaldan təhlükə qurtarmışdır; o, qardaş dağlı xalqları və xalqların öz müqəddəratını təyin etmək hüququna təminat vermiş Rusiya ilə dostcasına yaşayacaqdır. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri yaxmlığındakı Dərbənd rayonunda və Dağıstanın hüdudlarında sovet hökumətinin fikrindən xəbərsizdir, ona görə xahiş edir ki, yuxarıda göstərilən rayonlarda ordunun toplanmasının səbəbləri haqda məlumat verilsin. Bu teleqramdan iki gün sonra RSFSR xarici işlər nazirinin müavini L.M.Qaraxandan Sovet Rusiyasının ticarət-iqtisadi münasibətlərə dair danışıqlara hazır olması barədə alınan teleqram taktiki mülahizələrlə bağlı idi.

Lakin aprelin 18-də Quba qəza rəisi daxili işlər nazirliyinə göndərdiyi gizli teleqramda Azərbaycanın sərhədlərində toplanmış sovet hərbi hissələrinin hərbi hazırlıq planları barədə məlumat verirdi. Aprelin 21-də Qafqaz cəbhəsi komandanlığının 11-ci ordu rəhbərliyinə və Volqa - Xəzər donanmasına göndərdiyi 490 nömrəli direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur. Ona görə 11 -ci orduya və Volqa - Xəzər donanmasına Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprelin 27-də Azərbaycan sərhədini keçib, beş gün ərzində Yalama - Bakı əməliyyatını yerinə yetirsinlər. Aprelin 23-də bu direktivdə dəyişiklik edildi və sərəncam verildi ki, 11-ci ordunun son vəzifəsi Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir.

Aprelin 26-da Ermənistan hökuməti barışıq imzalamaq xahişi ilə çıxış etdi. Lakin gec idi. Azərbaycanın taleyi artıq Moskvada həll edilmişdi. Ölkə daxilində təxribatçılıq işi ilə məşğul olan bolşeviklər öz fəaliyyətlərini 11 -ci Qırmızı ordunun komandanlığı ilə, xüsusilə hərbi-inqilab şurasının üzvü Q.K.Orconikidze ilə sıx əlaqələndirirdilər. A.İ.Mikoyan başda olmaqla, yerli bolşeviklər 11 -ci Qırmızı ordunun Azərbaycanı işğal etmək planlarının həyata keçirilməsində, işğal əməliyyatının vaxtının müəyyənləşdirilməsində fəal iştirak edirdilər. Q.K.Orconikidzenin keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi yanında marksizm-leninizm institutunun mərkəzi partiya arxivində saxlanılan əlyazmasında göstərilir ki, "Bakıya hücum əməliyyatı hazırlanmışdı və Levandovskinin başçılığı ilə aprelin 25-26-da Azərbaycan sərhədlərini aşdıq". Hərbi qüvvələr, əsasən, Qərb cəbhəsində olduğu üçün Qırmızı Orduya qarşı əsaslı müqavimət göstərmək mümkün olmadı. Səməd bəy Mehmandarovun aprelin 27-də əlavə qüvvələr göndərilməsi üçün ordunun yerləşdiyi Qərb cəbhəsinə vurduğu təcili teleqramın da heç bir əhəmiyyəti olmadı. 1920 ilin aprelində baş vermiş ciddi Hökumət böhranının özü də 11 -ci Qırmızı ordunun Bakıya daxil olması üçün əlverişli şərait yaradırdı.

Azərbaycan Hökuməti aprelin 27-də respublikanın Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə müttəfiqlərin Tiflisdəki nümayəndələri qraf de Martelə, polkovnik Qabbaya və K. Lyükkə təcili məlumat göndərdi. Azərbaycan Hökuməti müttəfiqlərin nümayəndələrindən xahiş edirdi ki, Azərbaycana yenidən hücum etməməsi üçün Ermənistan hökumətinə təsir göstərsinlər, çünki baş vermiş təcavüz aktı ilə əlaqədar Hökumət öz qoşunlarını Qarabağdan və Ermənistanla sərhəd olan rayonlardan çıxarır. Müttəfiqlərin nümayəndələri elə həmin gün Ermənistan hökaməti ilə əlaqəyə girdilər. Aprelin 28-də Ermənistan hökuməti bildirdi ki, onların orduları dayandıqları mövqelərdən irəliləməyəcəklər, Azərbaycana hücum etməyəcəklər. Bunun müqabilində onlar bir sıra şərtlər irəli sürürdülər.

Aprelin 27-si gündüz saat 4-də Azerbaycan bolşevikləri 11-ci ordu dəstələrinin Biləcəri stansiyasında dayandığına arxalanaraq, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə Konfransı adından Parlamentə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər. Parlament hakimiyyəti dinc yolla

bolşeviklərə vermək barədə qərar qəbul etdi. 11 -ci ordu Bakıya daxil oldu, Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu.

Aprelin 28-də San-Remo konfransında iştirak etmiş Azərbaycan nümayəndələri bu xəbəri alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada qeyd olunurdu: "Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir". Bu məzmunda notalar və müraciətlər dəfələrlə *Millətlər Cəmiyyətinə,* dünya siyasətini müəyyən edən dövlətlərə verildi. Lakin bunların elə bir əhəmiyyəti olmadı. Antanta ölkələri Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Aprel işğalı ilə sona çatdı. Onun Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər.

**Sosial-iqtisadi vəziyyət.** Cümhuriyyət Hökuməti ictimai-siyasi həyatın digər sahələrində olduğu kimi, müstəqil milli iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərildiyi kimi, ***"Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər xalqımızın tarixində dərin iz buraxmışdır"*** (Heydər Əliyev). Azərbaycan Xalq Cümhuriyyəti müstəqil Azərbaycan ideyasını müstəqil Azərbaycan iqtisadiyyatı yaratmaqla reallığa çevirmək üçün ciddi addımlar atdı. İstiqlalın görkəmli öndərləri olan Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov və başqalarının sosial-iqtisadi baxışlarında elə bir demokratik cəmiyyətin qurulması nəzərdə tutulurdu ki, orada vətəndaşlar arasında siyasi bərabərliyin bərqərar edilməsi ilə yanaşı, sosial ədalətsizlik də aradan götürülsün. ***"Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır"*** (M.Ə.Rəsulzadə) konsepsiyası Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daim diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında mülkiyyət plüralizmi-dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu.

Bolşevizmdən fərqli olaraq, Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, hesab edirdilər ki, ***"bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür".***

Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq xüsusi mülkiyyətin yoxluğu qədər zərərli sayılırdı. "Hər bir əkinçi özünün əkib-biçə biləcəyi miqdarda torpağa sahiblik etməlidir!" prinsipini əsas götürən Azərbaycan islahatçıları geniş torpaqları ölü halında buraxan torpaq sahiblərinin mülkiyyət haqqını rədd edirdilər.

Bu cür torpaq sahələri əvvəlki sahiblərindən alınıb, əkinçi vətəndaşlar arasında yenidən bölüşdürülməli idi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi.

Respublikanın iqtisadi qanunvericiliyinə görə, dövlət mülkiyyətinə, qismən də bələdiyyə mülkiyyətinə "dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər", həmçinin "dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında Parlamentə təqdim olunmuş "Müsavat" fraksiyasının və əkinçilik nazirliyinin mövqeyini əks etdirən qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi, müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi. Həm də, xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

"Müsavat" fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz paylanması, digər qanun layihəsində isə müəyyən əvəz müqabilində verilməsi nəzərdə tutulurdu. Birinci qanun layihəsində əvvəlki sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə, yerli şəraitdən asılı olaraq, müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyənləşdirilmişdi.

Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət Hökuməti bir sıra cari təsərrüfat məsələlərinin həllində mühüm uğurlar qazanmışdı. Neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış *Bakı - Batum neft kəməri* bərpa olunmuş, *Bakı -Culfa dəmiryolu* inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, *Azərbaycan Dövlət Bankı* yaradılmış, milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi.

Müstəqil dövlətin atributu kimi, milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. 1918 ilin əvvəlindən Bakıda yeni kağız pullar - "Bakı bonları" buraxıldı (bu zamanadək tədavüldə "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənirdi). Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan Hökumətin iqtisadi siyasətinin əsas məsələsi oldu. Çünki milli valyuta inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki

dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparmalı olurdu. Bu məqsədlə müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı. 1919 ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı. Maliyyə Nazirliyinin 1919 il 20 iyul tarixli qərarı ilə əmtəələrin sərbəst ixracına nail olunması nəzərdə tutulurdu; Parlament xəzinəyə müəyyən rüsum (ixrac olunan xammalın dəyərinin 25 faizi qədər) keçirmək şərti ilə xammal ixracına icazə verilməsinə dair qanun (1919, 11 dekabr) qəbul etdi. Xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxıldı. Qüvvədə olan 1914 il 15 noyabr tarixli qanunun 1919 il 20 oktyabr tarixli qanunla əvəz edilməsi, bu sahədə məsuliyyəti artırdı. Ölkənin sərhədləri daxilində mal mübadiləsini tənzimlə-mək məqsədilə 1919 ilin avqust ayından Azərbaycana xaricdən gətirilən bir sıra zinət şeylərinə müvəqqəti olaraq xüsusi gömrük tarifləri tətbiq olundu. Eyni zamanda daxili bazarı tənzimləmək məqsədilə Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük qaydalarının tətbiq edilməsi haqqında qanun qəbul edildi (1920, 9 fevral). Hökumət çevik vergi siyasəti yeridir, dövlət xərclərinin ixtisar edilməsi istiqamətində tədbirlər görürdü. Bu məqsədlə xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı müəyyənləşdirilmiş (bu siyahıya 200-dən çox məhsulun adı daxil edilmişdi), xarici sərmayəçilərə və Azərbaycana sərmayə qoymaq arzusunda olanlara güzəştli şərtlərlə Bakı bonları təklif olunmuşdu.

Yeni əsaslarda beynəlxalq iqtisadi əlaqələrin qurulması da Hökumətin qarşısında duran mühüm məsələlərdən idi. *İstiqlal bəyannaməsində* xarici ölkələrlə, xüsusilə yaxın qonşularla iqtisadi əlaqələr yaratmaq və bu əlaqələri geniş-ləndirmək nəzərdə tutulurdu. Təsadüfi deyil ki, Parlamentin fəaliyyətində mühüm rol oynayan "Müsavat" partiyası öz məramnaməsində Azərbaycanın müstəqilliyinə, onun xaricdən müdafiəsinə və hüquqi cəhətdən tanıdılmasına nail olmaq üçün iqtisadiyyata, iqtisadi əməkdaşlığa böyük əhəmiyyət verirdi. Cümhuriyyətin iqtisadi platformasında xarici ölkələrlə iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu cür əməkdaşlığı dünya normaları əsasında həyata keçirmək nəzərdə tutulurdu.

Ölkə iqtisadiyyatında inflyasiyanın qarşısını almaq üçün Hökumət bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Zəruri tədbirlər sırasında əmtəələrin sərbəst ixracına nail olunması da var idi. Xaricdən Azərbaycana gətirilən spirtli içkilərə, balıq məhsullarına gömrük rüsumlarının artırılması haqqında 1919 ilin avqust ayında Parlamentin maliyyə-büdcə komissiyasında bəyənilən qanun layihələri də daxili bazarın qorunması və inflyasiyanın qarşısının alınmasına xidmət edirdi.

Xarici iqtisadi-ticarət fəaliyyətinin iqtisadiyyatın sağlamlaşdırılması və pul tədavülünün tənzimlənməsində rolu Parlamentin 1919 il 24 noyabr tarixli iclasında geniş müzakirə olunmuşdu. Hökumətin iqtisadi platformasında Cümhuriyyətin yaranmasından əvvəl formalaşmış iqtisadi əlaqələrə münasibət, əsasən, birmənalı idi. Bu əlaqələri kəsmək yox, müstəqil dövlətin iqtisadi əlaqələri kimi genişləndirmək məqsədəuyğun sayılırdı. Azərbaycanda fəaliyyət göstərən xarici kapital nümayəndələri ilə münasibətləri yeni əsaslarda inkişaf etdirmək üçün konkret addımlar atılırdı. Məsələn, Azərbaycan Hökumətinin 1919 il oktyabrın 18-də qəbul etdiyi qərarda Böyükşor gölünün bir hissəsinin Nobel qardaşları birliyinə icarəyə verilməsi haqqında vaxtı bitmiş müqavilənin bərpa olunması göstərilir, bu müqavilənin şərtlərində edilən yeni dəyişikliklər əsaslandırılırdı.

Ümumiyyətlə, Azərbaycanda xarici kapital və konsessiya məsələsində həm Parlamentin və həm də xarici kapital nümayəndələrinin fikirləri uyğun gəlirdi. Fransız kapitalistlərinin nümayəndəsi Manronun fikrincə, xarici kapitalın, o cümlədən fransız kapitalının Azərbaycana gəlməsi gənc müstəqil dövlətin yaşamasını, onun məhsuldar qüvvələrinin inkişaf etməsini təmin edərdi.

Hökumət başçısı Nəsib bəy Yusifbəylinin Parlamentin 1919 il 22 dekabr tarixli iclasında elan etdiyi bəyannamədə güclü iqtisadiyyatın yaradılması zərurəti Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi göstərilirdi. Hökumətin xarici ticarət siyasətində köklü dəyişiklik etmək nəzərdə tutulurdu. İndiyədək ticarət siyasətində idxalı artırmaq və ixracı, imkan daxilində, azaltmaq üstünlük təşkil edirdisə və nəticədə pul qiymətdən düşürdüsə, artıq indi ixracı stimullaşdırmaq istiqamətində tədbirlərin həyata keçirilməsinin mümkünlüyündən və zəruriliyindən bəhs olunurdu.

Azərbaycan Hökumətinin xarici iqtisadi fəaliyyətində reallaşdırmağa çalışdığı başlıca vəzifələrdən biri əhalinin zəruri mallara olan ehtiyacını təmin etməkdən və xəzinənin gəlirlərini artırmaq üçün əlavə mənbələr axtarıb tapmaqdan ibarət idi. Belə əlavə mənbələrdən biri də gömrük gəlirləri idi. Bu və ya digər məhsulun xaricə satışına icazə verilməsi və ya onun qadağan edilməsi zamanı həmin məhsulun əhali üçün nə dərəcədə gərəkli olması, Hökumətə nə qədər gəlir gətirməsi halları diqqətlə nəzərə alınırdı. Hökumətin hazırladığı 1919 il 20 fevral tarixli qanun layihəsi ilə xaricə konyak, üzüm və tut spirtinin ixracına icazə verilirdi (Cümhuriyyət dövründən qabaq xaricə spirtli içkilərin satışı qadağan olunmuşdu. Bu da təsərrüfatların və Hökumətin maliyyəsinə olduqca mənfi təsir göstərmişdi). Hökumət hesab edirdi ki, xaricə spirt satışında nəinki dövlət xəzinəsi və araq çəkməklə məşğul olan adamlar, həmçinin bütün əhali maraqlıdır. Öz təsərrüfat məhsulları olan üzümü və tutu şərab zavodlarına satmaq onlara əlverişli idi. Bu qanun layihəsini işləyib hazırlayarkən Hökumət onu da nəzərdə tuturdu ki, əhali üçün spirt ancaq texniki və tibbi məqsədlər üçün zəruridir. Xaricə satışına icazə verilən 85 dərəcəli konyak spirti və 40-45 dərəcəyə qədər olan üzüm və tut spirti isə bu məqsəd üçün yaranır. Buna görə də onun xaricə satışından əhaliyə heç bir ziyan dəyə bilməz.

Parlamentin Azərbaycan Cümhuriyyətinin sərhədlərindən kənara xammal ixracının şərtləri haqqında qəbul etdiyi

qanun da (1919, 11 dekabr) Cümhuriyyətin xarici iqtisadi fəaliyyəti üçün çox əhəmiyyətli idi. Bu qanuna görə, pambıq, yun, ipək, frizon (ipək istehsalında tullantı), barama kimi xammalların azad şəkildə ixracına xammalın dəyərinin 25 faizinin əvəzsiz olaraq xəzinənin hesabına keçirilməsi şərtilə icazə verilirdi. Bu, xarici valyuta əldə etməyə və ya əmtəə mübadiləsi qaydası ilə dövlətə lazım olan zəruri məhsulları almağa imkan verirdi. Bu qaydada xammal ixracının nisbətən səmərəli bir tədbir kimi ortaya çıxması çoxlu mübahisələrin, fikir ayrılıqlarının təsiri nəticəsində aşkar oldu. Ticarət və sənayə nazirliyi ilk vaxtlar valyuta əmtəələrinin xarici bazarlarda satışını özünün xüsusi agentləri vasitəsilə təşkil etməyə çalışırdı. Lakin bu agentlərin Qərb bazarlarının qayda-qanununu kifayət qədər bilməməsi və həmin qaydaların hələ Hökumət üçün də qaranlıq olması nazirliyin bu tədbirdən daşınmasına səbəb oldu. Göstərilən dövrdə xarici valyuta əldə etmək məqsədilə bu cür əmtəələrin azad satışına icazə verilməsi, azad ticarət prinsipinin tətbiqi kimi mülahizələr də mövcud idi. Lakin həmin mülahizələr onların tətbiqində ciddi çətinliklər ucbatından həyata keçirilmədi. Məsələn, bütün qonşu respublikalarda əmtəə mübadiləsi sistemi üstünlük təşkil etdiyindən azad ticarət prinsipinə keçid əlverişli ola bilməzdi. Belə şəraitdə azad ticarətin yalnız Azərbaycanda tətbiqi respublikadan hər şeyin ixracına səbəb olar, idxal isə minimum həddə enərdi. Qonşu respublikalar Azərbaycan əmtəələrindən özlərində əmtəə mübadilələri əməliyyatları üçün istifadə etmiş olardılar. Bütün bunların nəticəsində, Azərbaycan Hökuməti, xəzinəyə müəyyən rüsum keçirmək şərti ilə, xammal ixracına icazə vermək qaydasını üstün tutdu. Xammal ixracına dair bu cür qaydanın işlənib hazırlanması o dövrdə iqtisadi fikrin mühüm nailiyyəti idi.

Azərbaycan Xalq Cümhuriyyəti xarici-iqtisadi siyasət sahəsində fəaliyyətini ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşdırmır, onların həyata keçirilməsi istiqamətində də mühüm addımlar atırdı. Məsələn, xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə şəraitində 20 milyon manatlıq fond yaradılmış və Hökumətin 1919 il 12 fevral tarixli qərarı ilə bu fonddan ilkin ehtiyaclar üçün 10 milyon manat həcmində kredit buraxılması qərara alınmışdı. Eyni zamanda, *Ticarət və Sənaye Nazirliyinin* nəzdində "Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi" fəaliyyət göstərirdi. Xüsusi əsasnamədə göstərilirdi ki, əmtəə mübadiləsi komitəsinin mühüm vəzifələrindən biri respublikanın iqtisadi və maliyyə vəziyyətinin əsasını təşkil edən neft ixracını və satışını təşkil etməkdir. Əmtəə mübadiləsi komitəsinin 1919 il 15 mart tarixli plenar iclasındakı geniş diskussiya bütün əmtəələrin iki böyük qrupa ayrılması ilə nəticələndi: xaricə ixrac edilməsinə, ümumiyyətlə, icazə verilməyən əmtəələr və ya komitənin ixrac etmək səlahiyyəti olmayan əmtəələr; komitənin icazəsi ilə ixrac edilməsinə icazə verilən əmtəələr.

Bundan dərhal sonra Ticarət, Sənaye və Ərzaq Nazirliyi ixraca dair Əsasnamə təsdiq etdi. Əsasnamədə ixracına icazə verilməyən əmtəələrə taxıl, un, çörək, yarma, yem, at, iri və xırda buynuzlu mal-qara, ət və onun bütün növləri, qənd, külçə və pul şəklində qızıl və gümüş, dəmir, soyuq

*Bakının neft mədənləri*



silahlar və s. daxil edilirdi. Nazirliyin xaricə satışına icazə verdiyi əmtəələrə düyü, makaron, hər cür toxum və tərəvəz, çay, qəhvə, bitki yağı, şərab, duz, sabun, meşə materialları, neft və neft məhsulları, qızıl və gümüş məmulatı, maşın və alətlər və s. aid edilirdi. Əsasnamədə bu iki qrupa aid olmayan bütün əmtəələrin azad satışına icazə verildiyi göstərilirdi.

Hökumət 1919 il iyunun 28-də xüsusi sərəncamla əmtəələrin ixracına dair qaydaları təsdiq etmişdi.

Qonşu dövlətlərlə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti, hələ özünün mükəmməl iqtisadi bazasını yaradıb başa çatdırmadığı halda, humanizm prinsiplərindən çıxış edərək, Dağıstana 50 mln. manat məbləğində yardım göstərmişdi ki, bu da respublikanın büdcə məxaricinin 1/8 hissəsini təşkil edirdi.

Cümhuriyyətin xarici iqtisadi əlaqələrinin formalaşması baxımından Gürcüstanla bağlanan müqavilə mühüm əhəmiyyətə malik idi. 1918 il dekabrın 26-da bir illik müddətə bağlanan bu müqaviləyə əsasən, böyük ehtiyac olan məhsulların, bu respublikaların tələbatları çərçivəsində gömrük vergiləri qoyulmadan alınıb-satılmasına,habelə Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacları üçün müəyyən hədd həcmində neft, mazut, kerosin və yağların rüsumsuz ixracına icazə verilirdi. Müqavilədə göstərilirdi ki, gürcü əhalisi üçün kerosin buraxılması 1 milyon puddan, neft və neft məhsullarının ümumi satışı isə 20 milyon puddan çox olmamalıdır. Gürcüstanın bəzi məhsullarının (daş kömür, meşə materialları və s.) neftin dəyərinin 1/10 hissəsi həcmində Azərbaycana gömrüksüz satılması nəzərdə tutulurdu. Müqaviləyə görə, alınan məhsulların başqa ölkələrə satışına icazə verilmirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Rusiya ilə iqtisadi əməkdaşlığa da böyük əhəmiyyət verir, neft, pambıq və başqa ixrac məhsulları üçün Rusiya bazarının əhəmiyyətini nəzərə alırdı.

1920 il martın 30-da Sovet Rusiyası və Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalanmışdı. Lakin Rusiya Azərbaycanı qane edə biləcək bir sıra şərtlər vəd etsə də, onlara əməl etmədi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi proqramında xarici iqtisadi-ticarət strategiyası mühüm yer tuturdu. Bu baxımdan Paris sülh konfransının Ali Şurasına Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim olunan memorandum böyük əhəmiyyət kəsb edirdi. Sənəddə iqtisadi əlaqələrin pozulması nəticəsində Azərbaycanda yaranmış iqtisadi-maliyyə böhranı faktlarla səciyyələndirilir, onun aradan qaldırılması üçün müəyyən məbləğ borc alınması, borcların isə Cümhuriyyətin real malik olduğu neft, pambıq, yun, ipək hesabına ödənilməsi öhdəyə götürülürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də neft sənayesi iqtisadiyyatın öncül sahəsi sayılırdı, çünki bu zaman neft dünyanın ən önəmli hərəkətverici qüvvəsi idi. Odur ki, Parlament və Hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını öyrənirdi. Təbii sərvət iqtisadi inkişaf üçün maddi baza olsa da, iqtisadi qüdrət və gücün təbii sərvətdən asılılığının həmişəlik olmadığı və gələcəkdə dəyişəcəyi Azərbaycan Xalq Cümhuriyyətinin istinad etdiyi başlıca iqtisadi müddəalardan biri idi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində təcrübəsi də maraq doğurur. Cümhuriyyət dövründə dövlət sektoruna dövlətin iqtisadiyyata təsir amili kimi baxılır, mülkiyyətin çoxnövlüyü təmin edilərkən dövlət mülkiyyətinə xüsusi əhəmiyyət verilirdi. Belə hesab olunurdu ki, dövlətin gücü təkcə və hətta başlıca olaraq, onun qanunvericilik fəaliyyətində deyil, dövlət mülkiyyətinin güclü olmasındadır. Dövlət milliləşdirmə və əksmilliləşdirmə tədbirlərini həyata keçirməklə yanaşı, əmək münasibətlərinin qaydaya salınmasını da təmin edirdi. Daxili və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün iqtisadi-hüquqi qanunların hazırlanmasına, onların yerinə yetirilməsinə də böyük əhəmiyyət verilirdi. Az vaxtda yalnız maliyyə, vergi, bank-kredit sahələri üzrə 82-dən çox qanun layihəsi işlənib hazırlanmış, bir çox qanunlar təsdiq olunmuşdu.

İlk dəfə tərtib olunan müstəqil dövlət büdcəsi iqtisadi tənzimləmə və gəlirlərin bölgüsü işinin yoluna qoyulmasında və ümumiyyətlə, makroiqtisadi tarazlıq yaradılmasında müstəsna əhəmiyyət kəsb etdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövlət əhəmiyyətli mühüm məsələlərin həllində geniş konsensusa nail olmağa çalışırdı. Parlamentin qanunlar vasitəsilə həyata keçirdiyi ümumi tənzimləmə tədbirləri dövlətin timsalında qeyri-mərkəzləşdirilmiş demokratik özünüidarə formalarına əsaslanan tədbirlərlə əlaqələndirilirdi.

Hökumətin iqtisadi proqramı qarşılıqlı razılaşma əsasında ayrı-ayrı partiyaların məramnamələrində qoyulan iqtisadi məsələlərə uyğun işlənib hazırlanırdı. Bəzən alternativ variantların mövcudluğu daha səmərəli fəaliyyət istiqamətinin müəyyən olunmasını tələb edirdi. Bununla əlaqədar Parlamentdə iqtisadi təmayüllü bir neçə komissiya-maliyyə, büdcə, fəhlə, aqrar, ölkənin məhsuldar qüvvələrindən istifadə komissiyaları yaradılmışdı. Dövlət və Hökumət strukturunda olan Əkinçilik, Əmlak, Ərzaq, Dövlət nəzarəti, Maliyyə, Ticarət və Sənaye nazirlikləri, Milli Bank, Azərbaycan Xəzinə Palatası, Aksiz Palatası, Əmək müfəttişliyi kimi qurumlar dövlətin iqtisadi tənzimləmə fəaliyyətinin həyata keçirilməsində mühüm rol oynayırdılar.

Dövlətin mühüm iqtisadi tənzimləmə aləti mütərəqqi gəlir vergisi hesab olunurdu. Bu vergi müəssisə və təşkilatlarda qazanılan mənfəətin 30%-ni təşkil edirdi. Dolayı vergi kimi şərab, tütün və neft məhsullarına qoyulan aksizlər aktiv iqtisadi tənzimləyici rolunu oynayırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində sosial yönüm xüsusi diqqət mərkəzində idi. Bu, təsdiq olunan qanunlarda, həyata keçirilən konkret tədbirlərdə özünü göstərirdi.

Dövlətin sosial siyasəti iki baxış üzərində qurulmuşdu. Birincisi, hər bir cəmiyyət üzvünün (Azərbaycan vətəndaşının) iqtisadi fəallıq göstərməsi və gəlir əldə etməsi üçün

şərait yaratmaq, beləliklə, yoxsulluğu minimum həddə endirmək. İkincisi, cəmiyyət üzvlərinə elə bir gəlir əldə etməyə təminat verilsin ki, onlar bu gəlirlə özlərinin ictimai-zəruri ehtiyaclarını ödəyə bilsinlər. Qısa bir müddətdə ölkədə həm sosial müdafiə, həm də sosial təminat sistemləri formalaşdırılır və inkişaf edirdi.

Dövlətin sosial siyasətini reallaşdırmaq üçün aşağıdakı əsas göstəricilərə nail olunması nəzərdə tutulmuşdu: ümumi daxili məhsulda istehlak fondunun payının artırılması, əhalinin hər nəfərinə görə istehlak fondunun, ümumi daxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması; əmək şəraitinin yaxşılaşdırılması; təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsi. Lakin mürəkkəb beynəlxalq və daxili vəziyyət, iqtisadi çətinliklər, yoluxucu xəstəliklər, keçmiş İrəvan quberniyası ərazisində ermənilər tərəfindən soyqırımına məruz qalan 150 mindən çox türk-müsəlman əhalinin öz tarixi vətənlərindən didərgin düşüb Cümhuriyyətə pənah gətirməsi, əhalinin çoxluğunu təşkil edən kəndlilərin həyat şəraitini yaxşılaşdırmağın əsas amili olan torpaq məsələsinin həll olunmaması və s. sosial vəziyyəti xeyli çətinləşdirirdi. Belə ağır şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirirdi.

Qaçqınların maddi ehtiyaclarının ödənilməsi və yerləşdirilməsi, onlara tibbi xidmət göstərilməsinin təşkili və bununla bağlı başqa məsələlərə xüsusi qayğı göstərilirdi. Hökumətin "Qaçqınlara yardımın təşkil edilməsi haqqında" (1918, 13 iyul), "Qaçqınların yerləşdirilməsi məsələsini nizama salmaq üçün Şamaxı qəzasına komissiya göndərilməsi haqqında" (1919, 17 fevral), "Qaçqın və köçkünlərin vəziyyətinin, onların daimi yaşayış yerlərinə qayıtması məsələsinin aydınlaşdırılması üçün mərkəzi komissiyanın yaradılması haqqında" (1919, 23 iyun), "Qaçqınların yerləşdirilməsi üçün təcili tədbirlərin görülməsi haqqında" (1919, 8 noyabr) qərarları və s., Parlamentin "Qaçqınların ehtiyacları üçün 21 milyon manat pul ayrılması haqqında" (1920, 8 yanvar), "Epidemiya ilə mübarizə və qaçqınlara tibbi yardım göstərilməsi üçün epidemiyaya qarşı 12 mübarizə dəstəsinin yaradılması haqqında" (1920, 26 fevral) qanunları bu istiqamətdə atılan mühüm addımlardan idi. Ölkədəki ağır vəziyyətə baxmayaraq, Azərbaycan Hökuməti Gürcüstan və Ermənistan ərazilərində yaşayan azərbaycanlı əhaliyə də müntəzəm yardım edirdi.

1919 ilin əvvəllərindən 1920 ilin əvvəllərinə qədər təkcə Ermənistanın azərbaycanlı əhalisinə yardım göstərilməsinə aid 6 qərar qəbul edilmişdi. Qeyd etmək lazımdır ki, öz tarixi ənənələrinə sadiq qalan Azərbaycan Hökuməti, milliyyətindən asılı olmayaraq, sosial vəziyyəti ağır olan bütün insanlara yardım göstərirdi. Məsələn, Hökumət 1919 ildə Müsəlman qadın xeyriyyə cəmiyyəti ilə yanaşı, Rus xeyriyyə cəmiyyətinə, Yəhudi xeyriyyə cəmiyyətinə, Erməni və Yəhudi Milli Şuralarına və digər cəmiyyətlərə uşaqların, qocaların və b. imkansız adamların saxlanılması üçün xeyli vəsait ayırmış, 1920 ilin fevralında Gürcüstanda baş verən zəlzələ nəticəsində ziyan çəkmiş əhaliyə yardım etmişdi.

Yoluxucu xəstəliklər, həkim və başqa tibb kadrlarının, dərmanların çatışmaması səhiyyə sistemində vəziyyəti son dərəcə ağırlaşdırmışdı. Bu sahədə vəziyyəti qaydaya salmaq məqsədilə bir sıra qanun və qərarlar qəbul edilmişdi. Hökumətin 1918 il 27 iyun tarixli qərarı ilə yoluxucu xəstəliklərlə mübarizə üçün Gəncə şəhər özünü-idarəsinə əvəzsiz suda verilmişdi. Parlamentin 1919 il 25 yanvar, 17 mart, 2 iyun tarixli qanunları ilə Bakı, Gəncə, Şəki və Quba şəhər özünüidarələrinə faizsiz borclar verilməsi nəzərdə tutulurdu. Hökumətin 1919 il 1 noyabr tarixli qərarı ilə Gəncə əhalisinə tibbi yardım göstərmək üçün 500 min manat vəsait ayrılmışdı. Hökumət, həmçinin, müalicə müəssisələrini dərmanla təmin etmək üçün vəsait ayrılması haqqında qərarlar qəbul etmişdi (1919, 5 noyabr, 3 dekabr və s.)

Beşinci Hökumət kabinəsinin təsdiqindən sonra Parlament üzvləri qarşısında yeni Hökumətin gələcək vəzifələri haqqında çıxış edən baş nazir Nəsib bəy Yusifbəyli xalq səhiyyesi sahəsində yaranmış ağır vəziyyəti yaxşılaşdırmaq üçün bir sıra tədbirlərin heyata keçirilməsini - bataqlıq və göllərin qurudulmasını, içməli suyun keyfiyyətinin yaxşı-laşdırılması üçün müəyyən işlərin görülməsini, tibbi kadrlar hazırlanmasım, onlarm sayca artırılmas mı zəruru hesab etdi. Lakin bürün bu işlərin yerinə yetirilməsi üçün tələb olunan külli miqdarda maliyyə vəsaitini tapmaq isə çox çətin idi.

İnflyasiya ilə əlaqədar olaraq əhalinin müxtəlif təbəqələrinin maaşlarının artırılması məsələsi Hökumətin sosial siyasətinin mühüm istiqamətini təşkil edirdi. Cümhuriyyət Hökumətinin 1918 il 3 iyul, 21 sentyabr, 13 oktyabr, 1919 il 10 fevral, 21 aprel, 1920 il 5 yanvar tarixli qərarları ilə Hökumət qulluqçularının (hərbi və mülki idarələrin işçiləri) maaşlarının artırılması nəzərdə tutulurdu. Bu məqsədlə Parlament "Qulluqçulara müavinət verilməsi haqqında" (1919, 10 yanvar), "Dəmir yolu qulluqçularının vəziyyətini yaxşılaşdırmaq haqqında" (1919, 4 fevral), "Daxili İşlər Nazirliyi işçilərinin əmək haqqının müvəqqəti artırılması haqqında" (1919, 7 aprel), "Hökumət qulluqçularının maaşlarına müvəqqəti əlavələr haqqında" (1919, 12 may), "'Bahalıqla əlaqədar mülki və hərbi təyinatlı Hökumət idarələrində qulluqçuların maaşlarına əlavələr haqqında" (1920, 15 mart) və b. qanunlar qəbul etmişdi.

Parlamentin 1919 il 12 may tarixli müvəqqəti qanunu ilə ibtidai məktəb müəllimlərinin maaşları artırılmış, 1919 il 23 iyun tarixli qanunu ilə isə aşağı yaşayış minimumu qaldırılmışdı.

Hökumətin "Kasıb ailələrdən olan uşaqlara yardım edilməsi haqqında" 1919 il 12 fevral tarixli qərarı və Parlamentin "Bakı şəhərində 1-ci qadın milli gimnaziyası nəzdində uşaq bağçasının açılması haqqında" 1920 il 1 mart tarixli qanunu bu sahədə həyata keçirilməsi nəzərdə tutulan diqqətəlayiq tədbirlərdən idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Parlamenti fəhlələrin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində də bəzi işlər görmüşdü. 1919 ilin yanvarından

bahalıqla əlaqədar olaraq, fəhlələrin maaşı artırılmış, Hökumət fəhlələrin maaşlarını ödəmək üçün neft sənayeçilərinə maliyyə yardımı verilməsi və onun qaydaları haqqında qərarlar (1919, 16-17 mart) qəbul etmişdi. Hökumətin sosial siyasətindəki əsas məsələlərdən biri fəhlə qanunvericiliyinin formalaşdırılmasından ibarət idi. Əmək Nazirliyinin tələbi ilə Parlament bu nazirliyin nəzdində fəhlə məsələsinə aid xüsusi məşvərət şurasının təsis olunması haqqında qanun qəbul etmişdi (1919, 10 mart). Məşvərət şurası əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olurdu. Məşvərət şurası beş nəfər fəhlədən və beş nəfər də sahibkardan olmaqla, on nəfərdən ibarət idi. Onun əməyin mühafizəsi və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən bütün tədbirlər üzrə qüvvədə olan qanunların icra olunmasına nəzarət etmək hüququ var idi. Lakin Parlamentin açılışında "Müsavat" partiyasının bəyan etdiyi 8 saatlıq iş günü, fəhlələrə ildə bir aylıq məzuniyyət verilməsi, gecə xidmətinin qadağan olunması,16 yaşınadək uşaqların işləməsinin qadağan olunması, 16-18 yaşlarında olanların 6 saatdan artıq işlədilməməsi, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə qəbul edilməməsi, hamilə qadınlara güzəştlər edilməsi, müessisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, fəhlələrin sığorta edilməsi, müəssisələrdə tibb təşkili kimi vəzifələri reallaşdırmaq mümkün olmadı.

Hökumət fəhlə məsələsi üzrə qanun layihələri paketini hazırlayıb müzakirə üçün Parlamentə təqdim etmişdi. Lakin bu layihələr uzun müddət deputatların diqqətindən kənarda qalmış və parlamentin iclaslarına çıxarılmamışdı.

Nəticədə, Parlamentin 1919 il 8 yanvar tarixli açılış iclasında əmək nazirinə ünvanladığı sorğusunda fəhlələrin ağır vəziyyətindən bəhs edən Məhəmməd Əmin Rəsulzadənin dediyi ***"Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər"*** sözləri özünü doğrultdu.

Digər tərəfdən, fəhlə və dövlət qulluqçularının məvacibinin həcminin dəfələrlə qaldırılması haqqında Hökumətin qəbul etdiyi qərarlar büdcədə böyük kəsir yaradırdı və bu kəsirin də ödənməsi tarif normalarının artırılması və əlavə kağız pulların kəsilməsi hesabına həyata keçirilirdi. Bütün bunlar həm də bahalığa və inflyasiyaya, zehmətkeşlərin sosial vəziyyətinin pisləşməsinə səbəb olurdu.

Sosial-iqtisadi sahədə xeyli işlər görülsə də, fəhlə məsələsinin, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün ən vacib məsələlərdən olan *Aqrar məsələnin* həll olunmaması əhalinin vəziyyətini pisləşdirirdi. Bundan istifadə edən sosialistlər fraksiyası və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası əhali içərisində narazılığı artırmaq üçün öz pozuculuq fəaliyyətlərini daha da genişləndirmiş və *Aprel işğalı (1920)* ərəfəsində Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi üçün əlverişli zəmin yarada bilmişdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qarşısına qoyduğu sosial-iqtisadi inkişaf proqramının tam həyata keçirilməsinə Aprel işğalı (1920) imkan vermədi.

**Nəqliyyat.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ərəfəsində ölkədə quru və su yolları, xüsusən də dəmir yolu və boru kəmərləri nəqliyyat əlaqələrində mühüm rol oynayırdı. Bu dövrdə dəmir yollarının ümumi uzunluğu 954,2 *km* idi. Onun 498,2 *km-i* Bakı - Böyük Kesik,

*Bakı dəniz limanı*





Azərbaycan Xalq Cümhuriyyəti dəmir yol məktəbinin ilk məzunları

187,8 *km-i* Biləcəri - Yalama, 189,2 *km-i* Uluxanlı - Culfa, *51,2km-i* Ələt - Zubovka (indiki Əli Bayramlı şəhəri), 27,1 *km-i* Bakı - Balaxanı, Sabunçu – Suraxanı xətlərinin payına düşürdü. Həmin dövrdə iqtisadi və ticarət əhəmiyyətli şose və torpaq yolların sıx şəbəkəsi də mövcud idi. Bu tipli yolların ümumi uzunluğu 4169,1 *km*, o cümlədən şoseləşdirilmiş yolların uzunluğu 1507,3 *km* idi və bölgələr üzrə aşağıdakı kimi bölünmüşdü:

Bakı quberniyası - 1507,3 *km*, o cümlədən şose - 484 *km;* Gəncə quberniyası - 1966,1 *km*, o cümlədən şose-682,7 *km;* Zaqatala mahalı - 384,8 *km*, o cümlədən şose - 131,2 *km;* Naxçıvan və Şərur - Dərələyəz qəzaları - 401,1 *km*, o cümlədən şose - 309,4 *km*.

Bu yollarla qəza mərkəzlərindən dəmir yolu stansiyalarına və əksinə yük, sərnişin daşınmaları üçün dördtəkərli furqon tipli arabalardan və avtomobillərdən istifadə olunmasına başlanmışdı.

Bəhs olunan dövrdə Azərbaycanın əsas su yolları Bakıdan Xəzər vasitəsilə Salyan, Lənkəran, Ənzəli, Port-Petrovsk (Mahaçqala), Həştərxan istiqamətlərində idi. Xəzər ticarət donanmasında 17 böyük buxar gəmisi vardı. Dənizdən Yevlax stansiyasına kimi 554,7 *km-lik* məsafədə Kür çayından da gəmi gediş-gəlişi vardı. Kür çayı ilə Salyanla Yevlax arasında 10 gəmi işləyirdi.

Birinci dünya müharibəsi (1914-18) ərəfəsində Azərbaycanda istifadədə olan neft kəmərlərinin ümumi uzunluğu 834,7 *km-ə* çatırdı. Onun 525,9 *km-i* Bakı-Batum neft kəmərinin Azərbaycan sahəsinin, 263,5 *km-i* Abşeron yarımadasındakı neft kəmərlərinin, 44,3 *km-i* Dəllər-Gədəbəy neft kəmərinin payına düşürdü.

Müharibə dövründə, xüsusən də 1917 - 18 illərdə xalq təsərrüfatında baş verən böhran və dağıntılar nəqliyyata ağır zərbə vurdu. Hökumət başçısı Fətəli xan Xoyski Azərbaycan Parlamentinin 1918 il 26 dekabr tarixli iclasındakı çıxışında bildirmişdi ki, yaxın keçmişdə ölkənin dəmir yollarına güclü zərbələr dəymişdir. Birinci zərbə 1917 ilin sonu -1918 ilin başlanğıcında Qafqaz cəbhəsindən qayıdan 500 minlik Rusiya qoşunları keçib gedəndə vuruldu. Hərbçilər dəmir yollarını, qatarları söküb dağıtdılar. Digər zərbə hərc-mərclik və özbaşınalıq nəticəsində yaranmış sahibsizlik və təsərrüfatsızlıq nəticəsində dəydi. Ən ağır zərbə isə Bakı uğrunda döyüşlər zamanı vuruldu. Bakı Xalq Komissarları Sovetinin daşnak-bolşevik qoşunları türk və Azərbaycan Xalq Cümhuriyyəti hərbi qüvvələrinin Bakıya doğru irəliləməsinə mane olmaq üçün Ələt-Culfa dəmir yolunda relsləri sökdürdülər, Kür çayı üzərindən salınmış Qafqazda ən böyük dəmir yolu körpüsünü yandırdılar. Gəncə ilə Bakı arasındakı dəmir yolu magistralında da ziyankarlıqlar törədildi. Dəmiryolçuların içərisində qeyri-azərbaycanlıların çoxluq təşkil etməsi bütün bu düşmən ziyankarlıqlarının törədilməsinə əlverişli şərait yaradırdı.

Müharibə və hərc-mərclik su nəqliyyatına da ağır zərbə vurdu. Ticarət gəmilərinin xeyli hissəsi Azərbaycan sərhədlərindən çıxarılıb aparıldı və ya yararsız hala salındı. Qalan ticarət gəmiləri və Bakı limanı 1918 il noyabrın 29-dan ingilis komandanlığının sərəncamına keçdi. Ticarət donanmasını idarə etmək üçün Bakıda "İngiltərə dəniz nəqliyyatı" şirkəti yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq təsərrüfatının bu vacib sahəsinin bərpasına və inkişafına xüsusi diqqət yetirməyə başladı. Bu məqsədlə Yollar Nazirliyi yaradıldı. Bu nazirlik ilk vaxtlar dəmir yolu nəqliyyatına rəhbərlik edirdi. Azərbaycan Parlamentinin 1919 il 17 mart tarixli qərarı ilə bütün şose və torpaq yolları, onların üzərindəki süni qurğular, yol inşası və bərpası işləri də Yollar Nazirliyinin sərəncamına verildi. Həmin il aprelin 2-də verilən qərarla ölkədəki avtomobil emalatxanaları və anbarları da Yollar Nazirliyinin ixtiyarına keçdi.

Yollar Nazirliyi dəmir yolu nəqliyyatını sahmana salmaq üçün parovoz və vaqon parkının təmiri, yeni neqliyyat vasitələrinin alınması, dəmir yolu qulluqçularının məvaciblərinin artırılması, onlara güzəştli şərtlərlə ərzaq verilməsi, parovoz maşinistlərinə və onların köməkçilərinə həqiqi hərbi xidmətdən möhlət verilməsi, dəmir yolu stansiyalarının qaydaya salınması, mühafizəsinin təmin edilməsi və s. kimi mühüm tədbirlər gördü (bax *Azərbaycan dəmir yolu* məqaləsinə). Bütün bu tədbirlər tezliklə öz bəhrəsini verdi. Artıq 1919 il iyulun 15-dən Bakı - Batum istiqamətində gündə 4 cüt qatarın, həmin ilin sonundan isə Bakı - Port-Petrovsk (Mahaçqala) istiqamətində də ciddi qrafik üzrə gündə 4 cüt qatarın hərəkəti təmin edildi.

1918 il oktyabrın 30-da Bakı ticarət limanı idarəsinin fəaliyyəti bərpa edildi. Ticarət gəmiləri ilə Bakı ilə Port-Petrovsk (Mahaçqala), Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınması təşkil edildi. Hökumətin ciddi səyləri nəticəsində 1919 ildə *Bakı-Batum neft kəməri* də bərpa edilib istifadəyə verildi. 1919 ilin avqust ayında ingilis qoşunları Azərbaycandan çıxdıqdan sonra Bakı limanı və ticarət donanması da Cümhuriyyət Hökumətinin sərəncamına keçdi, ölkənin ticarət gəmiləri Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı altında üzməyə başladılar.

Azərbaycan Hökuməti şose yollarının bərpası üçün 1919 il fevralın 17-də Yollar Nazirliyinin sərəncamına 1 milyon manat kredit ayırdı. Həmin il aprelin 24-də isə bilavasitə Yevlax-Şəki şose yolunun təmiri və seldən

qorunması üçün bənd tikilməsinə 210 min manat vəsait verildi. Hökumət nəqliyyat vasitələrinin təmiri və normal istismarı məsələlərini daim diqqət mərkəzində saxlayırdı. 1919 il aprelin 28-də Bakıda avtomobillərin ilkin təmiri və avtomobil zavodunun saxlanması üçün 175 min manat vəsait ayrıldı. Həmçinin, Yollar Nazirliyinə tapşırıldı ki, avtomobil zavodunun gəliri və xərcləri haqqında əsaslı məruzə hazırlasın.

Azərbaycan Xalq Cümhuriyyəti olduqca çətin və mürəkkəb şəraitdə həyata keçirdiyi tədbirlərlə ölkədə nəqliyyatın işini, əsasən, qaydaya sala bildi. Dəmir yolu və su nəqliyyatı, neft kəmərinin istismarı dövlət xəzinəsinə gəlir gətirməyə başladı.

**Səhiyyə**. Rusiya imperiyasının yeritdiyi ayrı-seçkilik siyasəti nəticəsində müstəmləkə əsarəti altında olan digər milli ucqarlarda olduğu kimi, Azərbaycanda da əhaliyə tibbi xidmət çox aşağı səviyyədə idi. Əhalinin sağlamlığını qoruyan dövlət sistemi yox idi. İqtisadi və sosial gerilik, məişət *və* əmək şəraitinin aşağı səviyyədə olması, əhali arasında kəskin yoluxucu xəstəliklərə (malyariya, traxoma, vərəm və s.) qarşı profilaktik tədbirlərin, demək olar ki, həyata keçirilməməsi nəticəsində tez-tez ağır epidemiyalar, kütləvi ölüm halları baş verirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı gündən əhalinin sağlamlığı qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər görmüşdür. Bu sahədə ən böyük uğurlardan biri ölkənin səhiyyə sisteminin yaradılması və təşkili işlərinə bilavasitə rəhbərlik edən dövlət icra orqanının - Səhiyyə Nazirliyinin yaradılması idi. 1918 il iyunun 7-də Fətəli xan Xoyski tərəfindən təşkil edilmiş 2-ci hökumət kabinəsi Gəncədə fəaliyyət göstərərkən *Müsəlman Milli Şurası* nəzdindəki qaçqın şöbəsi əsasında Azərbaycan Cümhuriyyəti Xalq Səhiyyəsi və Himayədarlıq Nazirliyi yaradıldı. Azərbaycanın ilk ali təhsilli cərrah həkimlərindən olan Xudadat bəy Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyətinin xalq səhiyyəsi və himayədarlıq naziri təyin edildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıda fəaliyyətə başlayarkən (1918, sentyabr) bu nazirlik əsasında 2 yeni nazirlik yaradıldı: Xalq Səhiyyə Nazirliyi və Himayədarlıq və Dini Etiqad İşləri Nazirliyi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Parlament və Hökumət, xüsusən də Xalq Səhiyyə Nazirliyi əhalinin sağlamlığına mənfi təsir göstərən antisanitariya ilə ciddi mübarizə aparmağa, xarici mühit və məişət şəraiti ilə bağlı mənfi amilləri aradan qaldırmaqla yoluxucu xəstəliklərə, ağır epidemiyalara qarşı profilaktik tədbirlər həyata keçirməyə başladı. Az vaxt içərisində Gəncə yaxınlığındakı Zəyəm və Zurnabad kəndlərində taun (yoluxucu xəstəlik) əleyhinə məntəqə təşkil olundu. Səhiyyə şəbəkəsinin genişləndirilməsinə başlandı. Kənd yerlərində xəstəxanalar, ambulatriyalar, feldşer məntəqələri və s. müalicə müəssisələri açıldı, yeni tibb ocaqlarının bünövrəsi qoyuldu. Dövlət tibb müəssisələrini dava-dərmanla, avadanlıqlarla təmin etmək məqsədilə lazımi tədbirlər görüldü. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sağlamlığın mühafızəsinə dair vəzifələr və tədbirlər barədə bir sıra qanun və qərarlar qəbul etdi.

Cümhuriyyət Hökuməti tibb xidməti heyətini genişləndirmək məqsədilə səhiyyə sistemində qısamüddətli tibb işçiləri kursları açdı. Bütün bunların nəticəsi idi ki, Xalq Cümhuriyyəti dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası fəaliyyət göstərirdi. Onların hərəsində 1 həkim, 2 feldşer və xidmətçi tibb bacıları işləyirdi. Bu tibbi personal 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi.

Cumhuriyyətin səhiyyə naziri Xudadat bəy Rəfibəyli həmkarları arasında



Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin bütün səhiyyə qüvvələri erməni-daşnak quldur dəstələrinin törətdikləri qanlı faciələr, vəhşiliklər nəticəsində didərgin və qaçqın salınmış soydaşlarımızı yerləşdirmək, yaralılara və xəstələrə tibbi yardım göstərmək sahəsində fəal iştirak edir, mümkün olan bütün tədbirləri görürdülər. Bununla əlaqədar, Cümhuriyyət Hökuməti Gəncə mahalında, Şamaxı, Şuşa və b. yerlərdə xəstəxanaların açılmasına, ambulatoriyaların təşkilinə, tibb müəssisələrinin lazımi dava-dərman və avadanlıqlar ilə təchizinə dair əlavə vəsaitin ayrılması üçün qərarlar qəbul etmişdi. Qaçqınların daha çox olduğu yerlərdə epidemiyaların qarşısının alınması, sanitariya tədbirlərinin həyata keçirilməsi üçün əlavə 15 yeni həkim nəzarəti dəstəsi yaradılmışdı. Bundan əlavə, dövlət, digər hərbi strukturların, təşkilat, idarə və müəssisələrin vəsaitinin bir hissəsi səhiyyənin təşkilinə və inkişafına sərf edilirdi.

Orduda tibb işçilərinə rəhbərlik etmək üçün Hərbi Nazirliyin tərkibində hərbi-sanitar (xəstə) hissəsi adlı bölmə yaradılmışdı. Ordunun sıraları genişləndikdə, Hökumətin razılığı ilə, həmin bölmə ayrıca idarəyə çevrildi və onun ştatı artırıldı. Hərbi-tibb kadrları olmadığı üçün ordu strukturundakı tibb ştatları Səhiyyə Nazirliyinin sərəncamında olan həkimlər hesabına komplektləşdirilirdi. Həkimlər ya könüllü şəkildə Hərbi Nazirlik sistemində işləməyə cəlb olunur, ya da icbari qaydada səfərbərliyə alınırdılar. Səfərbərliyə alınan həkimlərə müvafiq məmur rütbəsi və dövlət vəsaiti hesabına xüsusi geyim verilirdi.

Hökumətin qayğısı nəticəsində tibb xidmətinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə əsgər xəstəxanaları, Şuşada, Gəncədə, Bakıda hərbi xəstəxanalar açıldı. Xalq Cümhuriyyəti Hökuməti orduda tibb xidmətinin yaxşılaşdırılması, tibb obyektlərinin dava-dərmanla təmin edilməsi üçün 1919 ilin sonlarında 2 milyon 200 min manat vəsait ayırdı. Hərbi-sanitar kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün hərbi nazirin əmri ilə hərbi hissələrdə 2 aylıq sanitar kursları açıldı. 1920 ilin əvvəllərində isə Şuşada hərbi-feldşer məktəbi fəaliyyətə başladı.

Ali təhsilli tibb kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün ölkənin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetində tibb fakültəsi təşkil olundu (1919). Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti xarici ölkələrin ali təhsil ocaqlarında da tibbi kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə Parlamentin 1919 il sentyabrın 1-də qəbul etdiyi qanuna görə, Avropa ölkələrinə təhsil almağa göndərilən 100 nəfər arasında tibb elminə yiyələnəcək tələbələr də vardı.

Bu dövrdə qeyri-hökumət tibbi cəmiyyət, birlik və təşkilatlarının da fəaliyyəti geniş vüsət almışdı. *Bakı şəhəri həkimlər cəmiyyətinin* əsas fəaliyyət istiqaməti sənayə gigiyenası, yatalaq epidemiyasının aradan qaldırılması olmuşdur. Cəmiyyət Bakı Dövlət Universiteti tibb fakültəsinin avadanlıqla təchiz edilməsinə yardım göstərmək üçün Avropanın (İtaliya, İsveçrə, Almaniya) aparıcı klinikaları ilə əlaqə yaratmışdı. Bakının tanınmış həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə məruzələr edirdilər. Onun nəzdində boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara vaxtaşırı yardım göstərmək məqsədilə *Həkimlərə yardım bürosu* yaradılmışdı. 1919 ildə Bakıda təsis edilmiş qeyri-hökumət tibb cəmiyyətlərindən biri də *Uşaq həkimləri dərnəyi* idi. Dərnək uşaqlar və yeniyetmələr arasında yayılmış yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərir, təbliğat və təşviqat işi ilə məşğul olurdu. 1920 ilədək Azərbaycanda, artıq 353 həkim, 450 orta tibb işçisi, 1123 yerlik xəstəxana var idi.

*Xudadat bəy Rəfibəyli yaralı rus əsgərləri arasında. 1918*





آذربايجان جمهوريتى

حكومتك قانون و بناكذارلقارى مجمعى .

١٥ تشرين‌ثانى ١٩١٩ نومرو ١ باكو شهرى

٢٨. دولتى لسان توركجه قبول ايديله‌رك موقتاً حكومت موسسه‌لرنده روس لسانى استعماله مساعده ايديلمه‌سى حقنده.

حكومت ٢٧ ايون ١٩١٨ ده قرار ويردى:

دولتى لسان تورك دلى قبول ايديله‌رك. اداره‌ده بتون محكمه، اداره داخليه و سائر دوائر وظيفه‌لرى باشنده دورانلر بو لسانى بيلنلر اولانه قدر حكومتى موسسه‌لرده روس ديلى استعماله‌ده مساعده ايديلسين .

*Azərbaycan Cümhuriyyəti Hökumətinin Azərbaycan-türk dilinin dövlət dili elan olunması haqqında qərarı. 1918, 27 iyun*

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yaxın gələcəkdə, xüsusilə 1920 il ərzində kənd yerlərində əhaliyə tibbi xidməti yaxşılaşdırmaq məqsədilə qəzalarda kənd xəstəxanalarının sayını 2 dəfə artırmağı, ölkəyə lazım olan dərman preparatlarının təchizi işini yaxşılaşdırmağı, tibb müəssisələrini mərkəzləşdirilmiş şəkildə dava-dərmanla təmin etməyi planlaşdırmışdı. Lakin 1920 il aprelin 28-də Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bütün bu planların həyata keçirilməsinə imkan vermədi.

**Dil siyasəti.** Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət Hökuməti 1918 il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Qeyd edilməlidir ki, dövlət dili haqqında qərar Hökumətin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin dövlət dili məsələsinə necə mühüm diqqət yetirdiyini aydın göstərir.

Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, Hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi (bax *Azərbaycan dilinin dövlət dili elan olunması haqqında qərar)*. Lakin bu real şəraitdən doğan müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdu.

Qərardan sonra daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinin müxbiri ilə müsahibəsində bildirmişdi ki, ***"Azərbaycan müəssisələrində rus dilinin işlədilməs... hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar".***

Hökumət qeyri millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənməsi üçün tədbirlər görürdü. 1919 ilin sentyabrında türk dilinin öyrədilməsi üçün kurslar təşkil edilmişdi və bu məqsədlə 351 min manat vəsait ayrılmışdı.

Parlament üzvləri Azərbaycan türk dilinə vaxtaşırı münasibət bildirirdilər. Parlamentin 1919 il avqustun 21-də keçirilən iclasında gündəlikdəki məsələ - Bakı Universitetinin açılması ilə bağlı deputatların çıxışlarında dil məsələsinə xüsusi diqqət yetirilmişdi. Çıxış edənlərin, demək olar ki, hamısı universitetdə, ölkənin bu ilk ali məktəbində tədrisin hansı dildə aparılması məsələsinə böyük əhəmiyyət vermişdilər.

Bakı Universitetinin açılması məsələsinə həsr olunan təkcə elə bu iclasda Azərbaycan dilinin dövlət dili kimi inkişafı, onun tədris və təhsil işində yeri haqqında ciddi mülahizələr səslənmişdi. Parlamentdə sol müstəqil Abdulla bəy *Əfəndizadə* deyirdi: "İndiki darülfununu yetişdirən müəllimlər gərək türk dilinə aşina olsunlar. Ona görə də lazımdır ki, darülfünuna elə müəllimlər dəvət edək ki, türk dilini yaxşı bilsin... Hər şöbədə, necə ki, qeyd olunubdur, türk dili məcburi olsun. Bir məcburi deməklə olmaz. Gərək bunun proqramı olsun...". Tədrisdə ana dili məsələsinə böyük əhəmiyyət verən məclis üzvü universitet məzunlarını nəzərdə tutaraq, bu məsələnin vacibliyini bir daha vurğulayır: "Bir şəxs ki, darülfünunu ikmal etdi... edadidə tədris edəndə də darülfunundan özünə götürdüyü elmləri lazımdır ki, gözəl ədəbi türk dilində tədrisə müqtədir olsun". Göründüyü kimi, A.Əfəndizadə tədris işində dövlət dilinin zəruriliyinin tam tələbkarı kimi çıxış etmişdi.

Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasının üzvü Yusif bəy *Əhmədzadə* də eyni fikirdə idi: "Biz istərdik ki, hər bir təsisat ki, yapırız, onu öz dilimizdə yapa idik. Lazımdır ki, hər bir millət çalışıb yoldaşa elmdə bərabər olsun. Güman ediyorum ki, hər bir tesisat öz dilimizdə ola".

"Əhrar" fraksiyasına daxil olan məclis üzvü Muxtar Əfəndizadə məsələni qəti qoyur: "Qonşularımız erməni və gürcülər bizə gülüyorlar: "Bizim (yəni erməni və gürcülərin) məmləkətdə ana dili işlədigi halda, hənuz rus dili işlənir". Parlament üzvlərinin bu çıxışları, istisnasız olaraq, Hökumətin "Dövlət dili haqqında qərarı"na uyğun idi.

Ana dilinin dövlət dili elan edilməsi ilə əlaqədar olaraq, təhsil müəssisələrinin milliləşdirilməsi qarşıda duran əsas məsələlərdən idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul etdi. Qərara görə, bütün ibtidai tədris müəssisələrinde tədris ana dilində aparılır, eyni zamanda, dövlət dili

icbari qaydada tədris olunurdu (bax həmçinin *Xalq maarifi* bölməsi).

1918 il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyəti hərbi naziri Səməd bəy Mehmandarovun 34 saylı əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili qəbul edilmişdi. Bununla bağlı, hərbi nazir orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində, heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər. Azərbaycan dilinin öyrədilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb olundu. Hökumət 1919 il fevralın 11-də Azərbaycan milli ordusunda türk dilində süvari qoşunları nizamnaməsinin təsdiqi haqqında qərar qəbul etmişdi.

Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyskinin çıxışlarında dövlət dili sahəsində görülən işlər barəsində vaxtaşırı verilən məlumatlar ana dilinin Hökumətin daim diqqət mərkəzində durduğunu göstərirdi: ***"Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır" və yaxud "İmdi şükürlər olsun bir çox ədliyyə idarələrinə türk dili bilən adamlar təyin edilmişlər".***

Azərbaycan dilinin sözün əsl mənasında dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Parlamentinin dilində əksini tapmışdır. Dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilməsi Parlamentə aid deyildi. Ona görə də Parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, Parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli Parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə, Parlamentin iclaslarından birində bu məsələ ayrıca müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən, Parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilmişdi. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə Parlamentin sədr müavini Həsən bəy Ağayev, adətən, belə bir məzmunda dərkənar qoyurdu: ***"Ərizə türkcə lisanda olmadığı iiçün əncamsız qalır".***

İlk Azərbaycan Parlamentinin dilinin özünəməxsusluğunda bir məsələni xüsusilə qeyd etmək gərəkdir: dövlətin bu ali orqanında yazılı dillə şifahi nitq arasında ciddi fərq olmuşdur. Bəzi istisnalar nəzərə alınmazsa, sənədlərin, təkliflərin dili ümumi, bəlkə də, məcburi bir prinsipə əsaslanmış, şifahi nitqdə isə, bir qayda olaraq, sərbəstliyə imkan verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlament dilində çıxış etiketi də dil baxımından maraqlıdır. İclas protokollarında Parlament üzvlərinin aşağıdakı müraciət formalarına rast gəlinir: ***"Həzərat", "Möhtərəm parlament əzası", "Əfəndilər", "Möhtərəm məbuslar", "Möhtərəm məclis üzvləri", "Möhtərəm Azərbaycan parlament əzası", "Möhtərəm əzalar", "Möhtərəm parlament əzaları", "Möhtərəm məclis əzaları", "Möhtərəm parlament iizvləri".***

Azərbaycan Cümhuriyyəti Parlamentində iclasların gedişi və protokollardakı remarkaların dili xeyli sadə və bir çox cəhətdən indiki parlamentdəkindən az fərqlənirdi. Bununla belə, özünəməxsusluqlar çox idi.

İclasların gedişində, bəzi gərginliklər nəzərə alınmazsa, dil etiketi yetərincə gözlənilirdi. Nəinki təhqiredici, hətta kobud, qəzəbli müraciətlər, hədələr ölkənin ilk Parlamentinin iclaslarına yad olmuşdur.

**Mətbuat.** Azərbaycan mətbuatı tarixində 1918-20 illər, bütün əvvəlki dövrlərə nisbətən, ən yüksək inkişaf mərhələsidir. Bu dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından, milli mədəniyyətin mühüm tərkib hissəsi kimi, Azərbaycan həyatının canlı salnaməsinə çevrildi. İki il içərisində ölkədə 100-ə yaxın adda qəzet və jurnal çıxmışdır. Cümhuriyyət dövrü mətbuatının səciyyəvi xüsusiyyəti təkcə onun say göstəricisində deyil, hər şeydən əvvəl ideya-məzmun zənginliyində idi.

1918-20 illər mətbuatını ideya istiqaməti baxımından təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: Azərbaycan Xalq Cümhuriyyəti ideyalarını təbliğ edən milli mətbuat, Cümhuriyyət Hökumətinə müxalifətdə olan bolşevik mətbuatı, bolşevik mətbuatı ilə müxalifətdə olan eser-menşevik mətbuatı, ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün canfəşanlıq edən erməni-daşnak mətbuatı, özünü bitərəf adlandıran və heç bir siyasi partiyaya mənsub olmayan informatik qəzetlər, jurnallar. Lakin onların içərisində daha real həyat qüvvəsinə və geniş oxucu auditoriyasına malik olanı Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını təbliğ edən və dəstəkləyən mətbuat idi.

Cümhuriyyət Hökuməti dövründə Bakı, Gəncə, Şuşa, Tiflis, İrəvan və digər mədəni-inzibati mərkəzlərdə çıxan mətbuat nümunələri təkcə Azərbaycan-türk dilində deyil, rus, gürcü, erməni, polyak, fars, alman və qeyri dillərdə də nəşr edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-19), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat orqanları nəşr olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin bütün digər ictimai-siyasi qurumları kimi, onun dövri mətbuatı da birdən-birə yaranmamışdı. Hələ 19 əsrin 1-ci yarısında Azərbaycanda milli və ümumbəşəri ideaalların məfkurəçiləri və təbliğatçıları olmuş Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə kimi yazıçı, mütəfəkkir və ictimai xadimlər tərəqqinin başlıca yolunu, milli istiqlalın təntənəsini dövri mətbuat nəşr etməkdə, mənəvi və əxlaqi qurumları inkişaf etdirməkdə görürdülər. Bu yolun davamçısı olan Həsən bəy

Zərdabi öz böyük sələflərinin arzularını yerinə yetirmiş, 1875 ildə *"Əkinçi"* qəzetinin timsalında ilk milli mətbuatı yaratmışdı. "Əkinçi" qəzetinin milli maarifçilik ənənələrinin davamı olaraq, 19 əsrin sonlarında Tiflisdə Cəlaləddin və Səid Ünsizadə qardaşlarının "Ziya" (1879-80), "Ziyayi-Qafqaziyyə" (1880-84) və "Kəşkül" (1883-91), 20 əsrin ilk illərində isə Məhəmməd ağa Şahtaxtlının "Şərqi-Rus" (1903-05) qəzetləri meydana çıxmışdır. Rusiyada 1905 il inqilabından sonra Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayevin "Həyat" (1905-06) qəzeti, Əli bəy Hüseynzadənin "Füyuzat" (1906-07) jurnalı milli idealları yeni tarixi mərhələdə davam etdirmişlər.



Cümhuriyyətə gələn yolda Azərbaycan mətbuatının inkişafında "Molla Nəsrəddin"-in təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları imperializmin müstəmləkəçilik siyasətinə, geriliyə, mövhumata, cəhalətə, xurafata qarşı mübarizədə, maarif və mədəniyyətin tərəqqisində mühüm rol oynadı. Beləliklə, 19 əsrin sonları - 20 əsrin əvvəllərinin bütün bu dövri mətbuat nümunələri Azərbaycanda milli-ictimai fikrin, azadlıq ideyalarının oyanışında müstəsna əhəmiyyət kəsb etmişdir.

Azərbaycan və ümumtürk milli məfkurəsinin formalaşmasında və inkişafında mühüm rol oynayan Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qaspralı və digərləri milli mətbuatın tərəqqisinə də güclü təsir göstərdilər.

Azərbaycan Xalq Cümhuriyyəti mətbuatının həqiqi sələfləri 1911 ildən sonra meydana gəlmişdilər. Hələ 1912 il martın 6-da bir qrup ziyalı Bakıda Orucov qardaşlarının mətbəəsində gələcək Xalq Cümhuriyyətinin ictimai-siyasi məramlarını ilk dəfə konsepsiya şəklində təbliğ edən "İqbal" (1912-15) gündəlik qəzetinin nəşrinə başlamışdılar. 1915 il aprelin 27-nə kimi davam edən, 923 sayı çıxmış bu qəzeti müxtəlif vaxtlarda Sənatulla Eynullayev (İbrahimov), Seyid Hüseyn Sadıq (Kazımoğlu), Məhəmməd Əmin Rəsulzadə və M.Ə.Əbdüləzizzadə redaktə etmişlər. "İqbal" qəzetinin fəaliyyətində Azərbaycan milli fikrinin Əlabbas Müznib, Üzeyir Hacıbəyli, Əli Razi, Səməd Mənsur, Əlipaşa Səbur, Hüseyn Cavid və b. görkəmli xadimləri yaxından iştirak etmişlər.

1914 il oktyabrın 15-də Ə.Müznibin redaktorluğu ilə digər bir milli mətbuat nümunəsi - "Dirilik" jurnalı nəşrə başlayır. Burada Ə.Müznibin və M.Ə.Rəsulzadənin Azərbaycan xalqını özünüdərkə hazırlayan poetik və publisist əsərləri dərc edilmişdir.

1915 il oktyabrın 2-də Bakıda, ilk dəfə olaraq, milli proqramlı *"Açıq söz"* qəzetinin nəşrinə başlanır. "Açıq söz", əslində, qeyri-leqal şəkildə fəaliyyət göstərən "Müsavat" partiyasının orqanı idi. Bu qəzetin də rəhbərləri və yazarları "İqbal" və "Dirilik" qəzetlərinin əsas müəllifləri idilər. "Açıq söz" qəzeti İsa bəy Aşurbəyovun keçmiş "Kaspi" mətbəəsində, Məmmədəli Rəsulzadənin müdirliyi və Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə çıxırdı. "Açıq söz" qəzeti Azərbaycanın ictimai-siyasi fikir tarixində, ilk dəfə olaraq, xalqın istiqlal uğrunda gələcək mübarizə konsepsiyası olan ***"Türkləşmək, islamlaşmaq, müasirləşmək"*** şüarını açıq şəkildə təbliğ edirdi. "Açıq söz"ün səhifələrində 20 əsr Azərbaycan milli fikrinin ən görkəmli xadimləri - Seyid Hüseyn, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə, Həsən bəy Ağayev, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, Əlabbas Müznib, gənc şair və dramaturqlar - Cəfər Cabbarlı və Mirzəbala Məmmədzadə çıxış edirdilər. "Açıq söz" Cümhuriyyət dövrü ərəfəsində Azərbaycan həyatının mühüm ictimai-siyasi hadisələrinin canlı salnaməsi idi. Bu qəzet xüsusilə Rusiyada 1917 il inqilabı dövründə Azərbaycan xalqının milli müstəqilliyi yolunda başlıca maneələr olan rus-bolşevik və erməni-daşnak irticasına qarşı fikir mübarizəsinin başında dururdu. M.Ə.Rəsulzadə "Açıq söz"ün ilk sayında dərc olunmuş proqram məqaləsində yazırdı: ***"Müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və böylə bir silahdan məhrum qalan camaatlar kimsəyə söz eşitdirməyəcəklər"*** ("Açıq söz", 1915, 2 oktyabr).

Bu dövrün "İqbal", "Dirilik", "Təkamül", "Açıq söz", "İstiqlal" və s. mətbuat orqanları Azərbaycanın mədəni həyatına böyük təsir göstərir, xalqı milli mədəniyyətə, milli şüura yiyələnməyə çağırır, beləliklə, milli məfkurənin formalaşmasına əvəzsiz yardım edirdilər. Milli-siyasi birliyə çağırış Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində bütün Azərbaycan milli mətbuatının başlıca şüarına



*İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov*

çevrildi. Sənətulla Eynullayev "Açıq söz" qəzetinin 15 mart tarixli sayında Bakıda yaxınlaşmaqda olan rus-bolşevik və erməni-daşnak təcavüzü barədə yazırdı: ***"Dəhşətli saat gəlir, birlik gərək!"***. Müəllif Azərbaycan xalqının siyasi partiyalarını xarici irticaya qarşı milli birliyə çağırır və xəbərdarlıq edirdi: əks halda, ***"Baş kəsildikdə, saqqalla bərabər gedəcəkdir"***.

"Müsavat" partiyası Azərbaycan xalqını milli mübarizələrə hazırlamaq üçün 1917 il iyulun 10-da "Müsavat" adlı qəzetin nəşrinə başladı. Cəmi altı sayı işıq üzü görmüş bu qəzet ***"Yaşasın Cümhuriyyəti-ənam, var olsun milli-məhəlli muxtariyyət!"*** şüarı ilə çıxırdı.

1917 ilin oktyabrından sonra "Müsavat" partiyasının siyasi proqramında dəyişiklik edilərək, *"milli muxtariyyət"* tələbi *"milli müstəqillik"lə* əvəz olunduqda "Müsavat" qəzetinin nəşri dayandırılır və 1918 il fevralın 4-dən "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin nəşri-əfkarı" başlığı ilə "İstiqlal" qəzeti çıxmağa başlayır.

1918 ilin əvvəllərində Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizə özünün ən yüksək həddinə çatır. Rus-bolşevik və erməni-daşnak irticası "Müsavaf"ın hakimiyyətə gəlməsinə mane olmaq üçün dəridən-qabıqdan çıxır, ölkədə hərc-mərclik, fitnə-fəsadlar, soyqırımları törətməyə başlayır. 1918 il martın 31-də Bakıda, habelə Azərbaycanın müxtəlif bölgələrində erməni-daşnak və rus-bolşevik qaragüruhçuları tərəfindən türk-müsəlman əhaliyə qarşı törədilən kütləvi soyqırımları bu dövr Azərbaycan milli mətbuatının başlıca mövzusu idi. Milli mətbuatın şüurları oyatmaq fəaliyyəti, apardığı maarifçilik təbliğatı yaxın oynayırdı.

"İstiqlal" qəzetinin məramı onun başlığında verilən məşhur epiqrafda aydın ifadə edilirdi:

***Millət yoludur, haqq yoludur tutduğumuz yol.***
***Ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!***

(Tofiq Fikrət)

"İstiqlal"da Əhməd Cavad, Mirzəbala Məmmədzadə, Seyid Hüseyn, Abdulla Şaiq, Hüseyn Mirzəcamalov, Fərhad Ağazadə, Əli Yusif, Xəlil İbrahim və başqa müəlliflər çıxış edirdilər. Beləliklə, yeni dövrdə Azərbaycan xalqının milli özünüdərkində Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadədən başlamış, Mirzə Cəlil və Mirzə Ələkbər Sabirə qədər yaradıcı ziyalılar böyük rol oynamışlar. Artıq Cümhuriyyət qurularkən millət özünü, soykökünü, görkəmli adamlarını tanıyır, milli idarəçiliyi milli məfkurənin təzahürü kimi qəbul edirdi.

Azərbaycanda milli istiqlal elan edildikdən sonra, milli mətbuatın qarşısında yeni vəzifələr durdu. Əsas vəzifə Xalq Cümhuriyyətinin qorunub saxlanmasından, daxili və xaric təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan ibarət idi Yeni tarixi vəzifələri həyata keçirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti 1918 ilin aprelindən *"Azərbaycan"* qəzetini nəşr etməyə başladı. Qəzetin müxtəlif vaxtlardı redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan *"Azərbaycan"* qəzetinin başlıca məramı yenicə qurulmuş milli Hökuməti müdafiə etmək idi. Cümhuriyyətin bütün




siyasi-ictimai, iqtisadi və mədəni təsisatlarının tarixi mənzərəsi bu qəzetdə öz əksini tapmışdır. "Azərbaycan"ın ilk 4 sayı Gəncədə çıxmış, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Dörd səhifəlik qəzetin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Qəzetin ilk nömrəsində Bakının azad edilməsi (1918,15 sentyabr) ilə bağlı xəbərlər, Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türk nəğməsi" şeri də dərc edilmişdir.

"Azərbaycan" qəzetinin sentyabrın 19-da rus dilində çapdan çıxmış sayında Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksutyun" partiyasının Azərbaycan xalqına qarşı düşmənçilik siyasətini ifşa edir və ermənilərə xəbərdarlıqla yazırdı: ***"...hələ nə qədər ki, gec deyil, erməni xalqı öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır".***

Paris sülh konfransında (1919-20) iştirak etmək üçün Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir qismində "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərar, sərəncam, fərman və digər normativ sənədlərinin xüsusi nəşrlərdə verilməsi "Azərbaycan" qəzetinin səhifələrində daha çox nəzəri məqalələrin, Azərbaycana, həmçinin dünya və region ölkələrinə aid xəbərlərin, oxucuları maraqlandıran başqa yazıların dərc edilməsinə imkan yaradırdı.

*Azərbaycan Milli Şurasının,* xüsusilə onun Azərbaycan Parlamentinin çağırılması sahəsindəki fəaliyyəti "Azərbaycan" qəzetinin səhifələrində geniş əks olunmuşdur. Azərbaycan Parlamenti 1918 il dekabrın 7-də işə başladıqdan sonra isə qəzet onun fəaliyyətini daha geniş işıqlandırmış, Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc etmişdir. Bundan başqa, qəzetdə "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və s. kimi daimi rubrikalar da var idi.

Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmməd ağa Şahtaxtlı, Adil xan Ziyadxanov, Əlabbas Müznib, Şəfiqə Əfəndizadə, İstanbulda təhsil alan Əmin Abid və b. "Azərbaycan" qəzetinin səhifələrində dərc olunan məqalələri, əsərləri Azərbaycan tarixinin, mədəniyyətinin, maarifinin inkişafına, milli şüurun oyanmasına, milli özünüdərkin təşəkkülünə yardım etmiş, azərbaycançılıq, istiqlalçılıq, türkçülük, islamçılıq, müasirlik məfkurəsinin təbliğində mühüm rol oynamışdır. Qəzet səhifələrində Məhəmməd Hadi, Əhməd Cavad, Seyid Hüseyn, Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli və b. vətənpərvər, yurdsevər şair və ədiblərin milli müstəqillik hissləri aşılayan, ***"vətən qayğısı və millət duyğusunu hərşeydən üstün tutmağa"*** çağıran əsərlərinə geniş yer verilirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ideologiyanın təşəkkülündə və inkişafında Üzeyir bəy Hacıbəylinin böyük xidməti olmuşdur. İctimai-siyasi həyatda gedən proseslərin fəal iştirakçısı olan peşəkar jurnalist kimi, o, dövri mətbuatda milli mədəniyyətimizin bu və ya digər sahələrinə dair məqalələrlə çıxış etmiş, milli azadlıq və istiqlalçılıq konsepsiyasını yaradıcılığının başlıca məramı saymışdır.

Ü.Hacıbəyli öz yazılarında erməni-daşnak quldurlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının, Qarabağ ermənilərinin Azərbaycan Hökumətinə tabe olmaq istəməmələrinin siyasi mahiyyətini açır, bütün bunların əsl səbəbkarı olan rus-bolşevik-daşnak qüvvələrini ifşa edirdi.

Qəzet Azərbaycan Xalq Cümhuriyyətinin dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirirdi. Azərbaycanın 1918-20 illər tarixinin öyrənilməsində bu qəzetin müstəsna əhəmiyyəti vardır.

Azərbaycan Hökuməti və Parlamenti mətbuatın və nəşriyyatların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra qərarlar qəbul etmişdi. Parlamentin 1919 il 30 oktyabr tarixli qərarı ilə qəbul etdiyi ***"Mətbuat haqqında nizamnamə"də göstərilirdi ki, "Mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması iiçün, habelə çap məhsulunun nəşri və satılması üçün Hökumət idarələrinin heç bir icazəsi tələb olunmur".*** Dövri nəşrlərin təsis olunması üçün ancaq öz məqsədləri barədə mətbuat işləri üzrə baş müfəttişə ərizə təqdim edilməsi kifayət idi. Nizamnaməyə əsasən, mətbuat orqanı ancaq qüvvədə olan qanunları pozub, cinayət törətdikdə məhkəmənin qərarı ilə məsuliyyətə cəlb edilə bilərdi. Cümhuriyyət Hökuməti mətbuat azadlığını milli şüurun, milli mədəniyyətin inkişafı üçün mühüm şərtlərdən biri hesab edirdi. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti yaranana qədər çar Rusiyası tərkibində olan Azərbaycanda mətbuat azadlığı yox idi. Ana dilində yazıb oxumaq böyük maneələrlə qarşılaşır, qəzet və jurnallar ciddi senzuraya məruz qalırdı. Çarizmin Azərbaycan xalqını uzun müddət milli müstəmləkə əsarətində saxlaması milli şüurun, milli mədəniyyətin inkişafına ağır zərbə vurmuşdu. ***Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və***

***kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olunmuşdu.***

Azərbaycanın 1918-20 illərdəki dövri mətbuatı əhalinin müxtəlif zümrələrinin maraqlarını əks etdirirdi. Belə ki, gənclərə məxsus "Gənclər yurdu", tələbə və müəllimlərə aid "Əfkari-mütəəllimin", elm və incəsənət xadimlərinin "Mədəniyyət" kimi qəzet və jurnalları nəşr olunurdu. Onların səhifələrində milli dirçəliş naminə təhsil, elm, maarif və mədəniyyətin inkişafına, milli ruhlu yeni nəslin yetişdirilməsinə, eyni zamanda, ölkədə baş verən ictimai-iqtisadi, siyasi hadisələrə dair məqalələr dərc olunurdu.

1919 il martın 11-də nəşrə başlayan *"Övraqi-nəfisə"* jurnalı Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənətdən bəhs edən ilk dövri mətbuat orqanı idi. 1919 ilin mart-avqust aylarında Bakıda cəmi 6 nömrəsi nəşr edilmiş həmin jurnalın redaktoru Əlabbas Müznib, naşiri bəstəkar Zülfüqar bəy Hacıbəyli, rəssamı Əzim Əzimzadə idi. Jurnalın səhifələrində Firidun bəy Köçərli, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Zülfüqar Hacıbəyli, Əlabbas Müznib, Əmin Abid, Məhəmməd Hadi və başqa müəlliflər çıxış edirdilər. Jurnalda musiqi, teatr, memarlıq abidələri haqqında məqalələr və fotoşəkillər dərc olunur, aktyorların həyatı və səhnə fəaliyyəti barədə yazılar verilirdi. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımına, qanlı daşnak irticasına dair yazılar da topluda geniş yer tuturdu. "Övraqi-nəfisə"də milli özünüdərkin, milli ruhun aşılanması, türkləşmək, islamlaşmaq, müasirləşmək ideyalarının təbliği məsələləri böyük əhəmiyyət kəsb edirdi. Jurnalın 5-ci sayında yazıldığına görə, "Övraqi-nəfisə" kağız qıtlığı üzündən bağlanmışdı.

İlk nömrəsi 1920 ilin əvvəlində çıxmış "Qurtuluş" jurnalı da ədəbi-mədəni sahədə xeyli iş görmüş, Azərbaycan xalqının milli mədəniyyətinin təbliğinə çalışmışdır. Vətənpərvər və milliyyətçi ziyalılardan Abdulla Şaiq, Hüseyn Cavid, Salman Mümtaz, Feyzulla Sacid, Əli Yusif, Əbdürrəhman Dai və başqaları topluda əməkdaşlıq etmişlər.

1918-20 illərdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə müxalifətdə olan mətbuat içərisində ən fəalı və güclüsü bolşevik mətbuatı idi. Bu mətbuat həmin illərdə Şimali Azərbaycanın Sovet Rusiyası tərkibinə qatılması uğrunda mübarizə aparırdı. Rusiyadan təkcə ideoloji deyil, həm də maddi-texniki cəhətdən yardım alan Azərbaycan bolşevikləri geniş mətbuat şəbəkəsi yaratmağa nail olmuşdular. Bolşeviklər 1917-20 illərdə Azərbaycanda qırxdan artıq adda qəzet və jurnal çıxarmışlar. Bolşevik mətbuatını çox hazırlıqlı siyasi qüvvələr idarə edirdi.

Bolşevik mətbuatının aparıcı orqanı "Hümmət" qəzeti idi. Qəzet 1917-18 illərdə yazıçı və publisist Məmməd Səid Ordubadi və inqilabçı-publisist Dadaş Bünyadzadənin redaktorluğu ilə çıxırdı. Bolşevik mətbuatının ən fəal nümayəndəsi Əliheydər Qarayev idi. O, 1918 ildə bir müddət Tiflisdə Gürcüstan menşevik hökuməti daxilində "Hümmət" partiyasının millətçi fraksiyasına məxsus "Al bayraq" adlı qəzetin redaktoru olmuş, 1919 ildən Bakıya gəlib, bolşeviklərlə fəal əməkdaşlığa başlamışdı. Ə.Qarayev 1918-20 illərdə rus və Azərbaycan dillərində nəşr edilən "Al bayraq", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Bednota", "Raboçaya pravda", "Qolos truda", "Məşəl", "Oktyabr inqilabı" kimi qəzet və jurnalların redaktoru olmuşdur. Bütün bu dövri metbuat orqanları zahirən nə qədər rəngarəng olsa da, məzmunca bir o qedər yekrəng idi. Bolşevizmə xidmət edən bu mətbuat sosializm ideyalarını təbliğ edir, kütlələri sosialist inqilabı uğrunda mübarizəyə çağırır, xalqın milli birliyini, ənənəvi ideallarını sinfi qarşıdurma ideyası ilə zəhərləyirdi. 1918-20 illərdə Bakıda yerli bolşeviklərlə bir mövqedə dayanan və Azərbaycanda Milli Hökumətlə müxalifətdə olan "Bakinets" (1907-20), "Bakinskayajizn", "Bakinskiy raboçiy" (1906-20, RSDFP Bakı komitəsinin orqanı), "Bakinskoye slovo", "Bakinskoye utro", "İskra", "Nabat" (1919), "Naşa jizn" (1919), "Proletariy" və s. rus-dilli qəzet və jurnallar da çıxırdı. 1918-20 illərdə Azərbaycanda erməni dilində çıxan qəzet və jurnallar içərisində milli Hökumətə qarşı qatı düşmənçilik mövqeyindən çıxış edən "Artsax", "Aparaj" və s. qəzet və jurnallar xüsusilə fəallıq göstərirdi. Rus dilində çıxan daşnakyönlü "Znamya truda", "Yedinaya Rossiya" ("İskra"), "Naşe vremya", "Vperyod" kimi qəzetlər Milli Hökumətin əleyhinə təbliğatda heç də onlardan geri qalmırdı. Bu nəşrlərin redaksiya heyətləri Azərbaycan xalqının milli mənafelərinə xidmətdən və onu təmsil etməkdən çox uzaq idi. Onlar milli partiyalara, hər cür milli ideyaya, milli özünüdərkə qarşı qızğın mübarizə aparır, fəhlələri hər vasitə ilə milli azadlıq hərəkatından uzaqlaşdırmağa çalışır, xalqın hürriyyət və Cümhuriyyət arzularına qarşı çıxırdılar. Sosialist və bolşevik mətbuatı Bakıda və Azərbaycanın bir çox şəhər və kəndlərində erməni-bolşevik quldurlarının türk-müsəlman əhaliyə qarşı 1918 il mart qırğınını, sonrakı soyqırımları daha da qızışdırır, yeni təxribatlara əl atırdı. "Znamya truda" qəzeti yazırdı ki, "Bakıdakı mart hadisələrinin milyon izahı var". "Vperyod" qəzeti isə müsavatçıların guya rusları Azərbaycandan sıxışdırıb çıxartdığını iddia edirdi.

1918-20 illərdə Bakıda gürcü, yəhudi, polyak, fars və başqa dillərdə də, əslində, Milli Hökumətə qarşı çıxan, ayrı-ayrı xarici qüvvələrin mənafeyini müdafie edən bir sıra dövri mətbuat orqanları nəşr edilirdi.

*Hacı Zeynalabdin Tağıyevin qız məktəbi. Bakı*



Bu

illərdə Azərbaycanda milli ideyalı *"Şeypur"* və *"Zənbur"* adlı satirik jurnallar çıxırdı. İlk nömrəsi 1918 il oktyabrın 5-də çıxmış "Şeypur"un naşiri Səməd Mənsur, redaktoru Məmmədəli Sidqi idi. 1919 ilin aprelindən nəşr edilən "Zənbur"da Məmmədəli Sidqi, Əli Nəzmi, Səməd Mənsur, Balaqardaş Səttaroğlu və başqa müəlliflərin gizli imzalarla şeir və publisist yazıları dərc olunurdu. Jurnaldakı rəngli karikaturalar rəssam Əzim Əzimzadəyə məxsus idi. Həftədə bir dəfə çıxan "Zənbur"un cəmi 24 nömrəsi nəşr edilmişdir.

1918-20 illərin satirik mətbuatı mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" ədəbi məktəbinin satira ənənələrindən faydalanaraq, azadlıq və istiqlal düşmənlərini, imperializmin müstəmləkəçilik siyasətini, geriliyi, cəhaləti və xurafatı satira atəşinə tutur, xalqı elmi biliklərə yiyələnməyə, müasirləşməyə səsləyirdi.

Ümumiyyətlə, 1918-20 illərin mətbuatı o dövrə qədərki Azərbaycan milli mətbuatının demokratik ənənələrinin yekun mərhələsi idi. Bu dövrün mətbuatında Azərbaycanın milli, ictimai-siyasi fikri, 1905 il inqilabından sonra çarizmin müstəmləkəçilik siyasətinə qarşı xalqın etirazı, 1911 ildən sonra milli muxtariyyət ideyası, Rusiyada 1917 il oktyabr çevrilişindən sonra isə milli istiqlal idealları öz əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün milli mətbuatı bütün bu tarixi mübarizələrin salnaməsidir.

**Xalq maarifi.** Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifinin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirirdi. Çünki çar hakimiyyəti Rusiyanın müstəmləkə əsarəti altında olan xalqlarının milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmuşdu. Çar Rusiyasında xalq məktəbləri dövlət orqanizmində "yaman şişi" xatırladırdı. Hökumət, bir tərəfdən, xalq təhsilinin inkişafı ilə razılaşmağa məcbur olurdu. Çünki dünyada elm və texnikanın sürətlə inkişafı Rusiyada da maarifin və xalq təhsilinin tamamilə yenidən qurulmasını tələb edirdi. Digər tərəfdən, çarizm xalqın oyanmaqda olan şüurunun qarşısını almaq üçün xalq maarifi işini məhdud çərçivədə saxlamaq istəyirdi. Çar Rusiyasında xalq maarifi və onun əsas daşıyıcısı olan müəllimlər hökumət tərəfindən hər cür həqarə və təqiblərə məruz qalırdı.

Milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda, vəziyyət daha dözülməz idi. Burada zorla ruslaşdırma siyasət yeridilir, təhsil, əsasən, rus dilində aparılır, milli dil və mədəniyyətin inkişafına hər cür əngəllər törədilirdi.

1918 il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci Hökumət kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Şimali Azərbaycanda fəaliyyət göstərə keçmiş maarif şəbəkəsi gənc respublikanın xalq maarifi sahəsində qarşıya qoyduğu tələblərə cavab verə bilmədiyindən, nazirlik bu sahədə islahatlar keçirmək üçün təkliflər hazırlayıb Hökumətə təqdim etdi. İslahatdan məqsəd gənc respublikanın məhdud iqtisadi imkanları daxilində xalq maarifini, qısa müddətdə, sürətlə inkişaf etdirmək idi. Bunun üçün xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv olundu. Bütün respublikada məktəb və maarif işinin idarə olunması Xalq Maarifi Nazirliyinin və xalq məktəbləri təlimatçılarının ixtiyarına verildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncəyə köçdükdən sonra iyunun 30-da Hökumətin xüsusi qərarı ilə *Xalq Maarifi Nazirliyinin* ştat tərkibi təsdiq olundu. Nazirliyin səlahiyyətinə xalq maarifinə aid qanun layihələri hazırlamaq, respublikada elmin və maarifin inkişafına dair tədbirlər planı müəyyən etmək və s. daxil idi. Nazirliyin məktəblər idarə nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili işləri üzrə üç müstəqil şöbə yaradılmışdı.

*Bakı rus-tatar (Azərbaycan) məktəbi. Ortada Abdulla Şaiq*



Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin xalq maarifinin inkişafina çox mühüm təkan verən ilk tədbirlərindən biri 1918 il 27 iyun tarixli qərar oldu. Həmin qərara əsasən, Azərbaycan-türk dili dövlət dili elan edildi. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna göre də inzibati idarə orqanları, məhkəmə işi və s. sahələrdə Äzərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər, müvəqqəti olaraq, rus dilindən istifadəyə də yol verilirdi. Cümhuriyyət Hökuməti milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan Hökumətinin 1918 il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçiril-məlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflerdə rus şöbələri açılır və burada Azərbaycan dili intensiv surətdə tədris olunurdu ki, 2 ildən sonra həmin şagirdlər artıq Azərbaycan dilində təhsillərini davam etdirə bilsinlər. 5-ci sinifdən sonra şagirdlər məktəbi qurtarana qədər tədris prosesi rus dilində aparılır, Azərbaycan dili isə həmin siniflərdə məcburi fənn kimi tədris olunurdu. Bu siniflərdə Azərbaycan dilinin tədrisi həftədə 4 saatdan az olmamalı idi.

Azərbaycan Hökuməti tədris işini milliləşdirərkən azsaylı xalqların uşaqlarının da mənafeyini nəzərə almışdı. Hökumətin 1918 il 7 sentyabr tarixli qərarı ilə sinifdə başqa millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda, onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçilməli idi. Bununla belə, məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq Azərbaycan dilini bilməyən çoxlu uşaq təhsildən kənarda qalırdı. Buna görə də, Azərbaycan Hökuməti 1918 il noyabrın 13-də özünün xalq təhsili haqqındakı əvvəlki qərarlarında dəyişikliklər etdi. Yeni qərara görə, bir orta təhsil müəssisəsi olan şəhərlərdə Xalq Maarifi Nazirliyinin icazəsi ilə, yuxarı hazırlıq siniflərindən başlayaraq, paralel surətdə rus bölməsinin də açılmasına icazə verilirdi. Eyni tipli bir neçə təhsil ocağının fəaliyyət göstərdiyi şəhərdə onların bir hissəsi milliləşdirilir, qalan hissəsində isə təhsil rus dilində aparılırdı. Lakin həmin məktəblərin hamısında Azərbaycan dili məcburi fənn kimi tədris olunmalı idi. Həmin qərarla azərbaycanlı uşaqlardan yalnız milliləşdirilmiş, yaxud milliləşdirilməsi nəzərdə tutulan məktəblərdə oxumaları tələb olunurdu.

Azərbaycan Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, artıq 1919 ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919 ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. 1919 ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarifi Nazirliyinin sərəncamına keçirildi. Həmin il avqustun 11 -də Xalq Maarifi Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək Bakıdakı birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı. 1919 ildə Xalq Maarifi Nazirliyi Göyçay şəhərində realnı məktəb, Bakıda qız, Nuxada kişi və qız, Şuşada kişi məktəb və seminariyaları açmaq barədə Azərbaycan Parlamentinə qərar layihələri təqdim etdi. Parlament respublikanın imkanlarını nəzərə alaraq, onlardan ancaq birini həyata keçirdi. 1919 ildə Göyçayda realnı məktəb açmaq haqqında qanun layihəsi təsdiq olundu.

*Hacı Zeynalabdin Tağıyevin qız məktəbi. Bakı. Hacı Zeynalabdin Tağıyev, arvadı Sona xanım, Həsən bəy Zərdabi, arvadı Hənifə xanım şagirdlər arasında*



1919-20 tədris ilində Azərbaycanın orta məktəblərində, müəllim seminariyalarında oxuyanlar istisna olmaqla, 9611 şagird təhsil alırdı ki, onların da 3115—i azərbaycanlı, 6496 nəfəri isə başqa millətlərin nümayəndələri idi. Bakı kommersiya və politexnik məktəbləri, buradakı 3-cü və 4-cü kişi, 2-ci, 3-cü və 4-cü qız gimnaziyalarından başqa, qalan bütün orta ixtisas təhsili müəssisələri milliləşdirilmişdi. Azərbaycan Hökumətinin 1918 il 28 avqust və 13 noyabr tarixli qərarlarına uyğun olaraq, Bakıdan başqa, Azərbaycanın digər şəhərlərindəki milliləşdirilmiş məktəblərdəki milliləşdirilmiş siniflərlə yanaşı, tədrisin rus dilində aparıldığı siniflərdə də icbari surətdə həftədə 3-4 saat Azərbaycan dili dərsləri keçilirdi.

Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycandakı mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim kadrları dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi.

1918 il iyulun 23-də Azərbaycan Hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxşı tanış olan Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu.

Tədris müəssisələrinin milliləşdirilməsini daha uğurla həyata keçirmək üçün 1919 ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli müəllim kadrları ilə təmin etmək məqsədilə qısamüddətli pedaqoji kurslar təşkil olundu. Hökumətin qərarına görə, bu məqsədlə Xalq Maarifi Nazirliyinin sərəncamına 2 milyon 390 min manat vəsait ayrıldı. Bakı, Gəncə və Nuxada kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada kişi pedaqoji kursları açıldı. Hər kursda ən azı 50 nəfər müdavim təhsil alırdı. Kursları bitirənlərin, demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Bundan əlavə, Türkiyədən 50 nəfərə yaxın müəllim dəvət edildi.

Cümhuriyyət Hökuməti məktəb dərsliklərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirirdi. Bunun üçün maarif nazirliyinin xüsusi komissiyası təşkil edilmişdi. 1919 ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Səməd ağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ağa bəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və b. fəal iştirak edirdilər. Məktəblər Türkiyədən alınmış dərsliklər və tədris vəsaitləri ilə də təmin olundu. Azərbaycan Parlamenti 1919 il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırdı.

*Hacı Zeynalabdin Tağıyevin qız məktəbinin müəllimləri*



Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən ümdə vəzifələrdən biri də Azərbaycanda ali təhsilin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi. Hökumət bu məsələni, bir tərəfdən, ölkədə ali təhsil müəssisələri yaratmaq, digər tərəfdən, azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssisələrinə göndərməklə həll etməyə çalışırdı.

Azərbaycan Hökuməti Xalq Maarifi Nazirliyi qarşısında, ilk növbədə, üç ali məktəbin - Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyasının açılması məsələsini qoymuşdu. Bakıda Kənd Təsərrüfatı İnstitutu açmaq məsələsi Hökumətin 1919 il 5 mart tarixli iclasında bəyənilmiş və Xalq Maarifi Nazirliyinə bu məsələ ilə əlaqədar qanun layihəsi hazırlayıb Parlamentə təqdim etmək tapşırılmışdı. Lakin o dövrdəki tarixi şərait yalnız bir ali məktəbin - Bakı Dövlət Universitetinin açılmasına imkan verdi.

Bakıda universitet açılmasına böyük dövləti əhəmiyyət verən Cümhuriyyət Hökuməti bu məsələni 1919 il 8 aprel tarixli iclasında müzakirə etdi. Qəbul olunan qərarda, bütün imkanlardan istifadə edərək, 1919-20 tədris ilinin əvvəlində Bakıda universitet açılması məqsədilə Xalq Maarifi Nazirliyinə tapşırıldı ki, ümumi həcmi 10 milyon manatdan çox olmamaq şərtilə, smeta hazırlayıb Hökumətə təqdim etsin. Hökumətin qərarına əsasən, Bakı Universiteti kommersiya məktəbinin binasında yerləşdirilməli idi. Həmin il



*Bakıda qızlar məktəbi. 1919*

mayın 19-da Azərbaycan Hökuməti yenidən Bakı Universitetini açmaq üçün təşkilat komissiyası yaratmaq və vəsait ayırmaq haqqında məsələ müzakirə etdi, universitet komissiyası haqqında əsasnaməni bəyəndi. Mayın 21-də komissiyanın birinci iclası keçirildi. Xalq maarifi naziri vəzifəsini icra edən Camo bəy Hacınski iclasda Azərbaycan Hökumətinin dövlət universiteti açmaq haqqında qəti qərara gəldiyini və təşkilat komissiyasının bu çətin işi uğurla yerinə yetirmək üçün bütün imkanlardan istifadə edəcəyinə ümidvar olduğunu bildirdi. O, bəyan etdi ki, Azərbaycan Hökuməti universitetin Azərbaycan xalqının həyatında çox böyük mədəni və siyasi əhəmiyyətini nəzərə alaraq,onun açılması və lazımi avadanlıqlarla təchizi üçün heç nəyi əsirgəməyəcəkdir.

Komissiyaya ali məktəb işinin təşkilində böyük səriştəsi olan prof. V.İ.Razumovski rəhbərlik edirdi. Universitet komissiyası haqqında əsasnaməyə görə, komissiyaya Xalq Maarifi Nazirliyindən Məhəmməd ağa Şahtaxtlı, şəhər bələdiyyə idarəsindən Əlicabbar Orucəliyev və Bakı Neft Sənayeçiləri Şurasından A.N.Saparov daxil oldular. 1919 il mayın 23-dən sentyabrın 9-na qədər komissiyanın 35 iclası keçirildi.

Azərbaycan dilini bilən yüksək ixtisaslı mütəxəssis kadrların olmaması üzündən Bakı Universitetində təhsil rus dilində aparılmalı idi. Bu isə böyük mübahisəyə səbəb oldu. Məhəmməd ağa Şahtaxtlı "Azərbaycan" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı ki, universitetdə təhsilin rus dilində aparılmasından qorxmaq lazım deyil; universitet təhsilinin həyata keçirilməsi Azərbaycanda yüksək ixtisaslı milli kadrların yetişməsinə zəmin yaradacaq, nəticədə, milli kadrlar yetişdikcə, universitetdə təhsil tədricən Azərbaycan dilinə keçiriləcəkdir.

1919 il sentyabrın 1-də Azərbaycan Parlamenti, nəhayət, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. Qanunda universitetin 4 fakültədən: ***tarix-filologiya*** (Şərq şöbəsi də daxil olmaqla), ***fizika-riyaziyyat, hüquq*** və ***tibb*** fakültələrindən ibarət olduğu göstərilirdi. 1919-20 tədris ilində isə yalnız iki fakültə - tibb fakültəsinin əvvəlinci kurslarını, tarix-filologiya fakültəsinin isə birinci kursunu açmaq mümkün oldu. 1919 il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı. Tarix-filologiya fakültəsində Məhəmməd Əmin Rəsulzadə və maarif naziri Rəşid Qaplanov Osmanlı ədəbiyyatından, Məhəmməd ağa Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular. 1919-20 tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi (geniş məlumat üçün bax *Bakı Dövht Universiteti).*

Cümhuriyyət dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamağın digər yolu azərbaycanlı gənc-lərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi idi.

Azərbaycan Parlamenti 1919 il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20 tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun üçün 7 milyon manat vəsait ayrıldı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin



*Almaniyada təhsil alan azərbaycanlı tələbələrdən bir qrup. 1920*

olundu və 1000 frank yol xərci ayrıldı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanh tələbələr haqqında qərar).* Dövlət hesabına təhsil alacaq tələbələr ali məktəbi bitir-dikdən sonra dörd il icbari qaydada Azərbaycan Hökumə-tinin təyinatma əsasən göndərildiyi yerdə işləməli idilər.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifi sahə-sində həyata keçirdiyi mühüm tədbirlərden biri də ibtidai təhsil müəssisələri şəbəkəsini genişləndirmek idi. İbtidai məktəbi qurtaran şagirdlər təhsillərini ali-ibtidai və orta təhsil məktəblərində davam etdirə bilərdilər. Təkcə 1919 ildə Azerbaycanda dövlət hesabına 15 ali-ibtidai məktəb fəaliyyət göstərirdi.

Yaşlılar arasmda savadsızhğın ləğv edilməsi də Azər-baycan Xalq Cümhuriyyəti Hökumətinin həyata keçirdiyi mühüm tədbirlərdən idi. 1919 il sentyabrın 15-dən etibarən Bakı, Gəncə, Şuşa, Nuxa, Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən kurslar açıldı. Bu kurslar üç bölməyə aynhrdı. Birinci bölmə Azərbaycan dilini və yaz-mağı tamamilə bilməyənlər, ikinci bölmə dili bilib yazmağı bilməyənlər, üçüncü bölmə isə dili ve yazmağı bilib, xüsusi terminləri, Azərbaycan dilində dərs demək üsulları və vasi-tələrini öyrənmək istəyənlər üçün idi. Bu kurslarla yanaşı, Bakıda Parlamentin üzvü Abdulla bəy Əfəndizadənin reh-bərliyi ilə milli məktəblər üçün xüsusi müdərris kursları açıldı. Bu kurslarda, əsasən, Azərbaycan dilinin tədrisi qay-daları öyrədilirdi.

Bakıda birinci realnı məktəbin binasmda açılan kurslara Bakı müəllimlər seminariyasmın direktoru Rəşid bəy Əfən-diyev rəhbərlik edirdi. Sultanməcid Qənizadə və bir neçə

Parlament üzvünün iştirakı ilə 1919 il sentyabrın 17-də Bakıda açılan kurslarm 500 nəfərə qədər müdavimi vardı ki, onların da çoxu nazirliklərin və digər Hökumət idarələ-rinin əməkdaşları idi.

1919 ilin noyabnndan Bakıda azərbaycanlı fəhlələr üçün xüsusi texniki axşam kursları açıldı. Kursların təşki-lində onun müdiri mühəndis-texnik Əliheydər Babayev xü-susi fəallıq göstərmişdi. Xalq Maarifi Nazirliyi kursun işlə-rinə yaxından kömək göstərirdi. Nazirlik ölkədə xalq ma-arifmin inkişafma dair geniş tədbirlər plam hazırlamışdı. Hökumət bu plam bəyənmiş və həyata keçirilməsinə razılıq vermişdi. Hemin plana əsasən, təhsil almaq üçün maddi im-kanı olmayan 650 şagirdə təqaüd təyin olunması, Bakıda

*Fransada təhsil alan azərbaycanlı tələbələrdən bir qrup. 1920*






*"Nicat" xeyriyyə cəmiyyətinin üzvləri*

qızlar üçün 25 nəfərlik pansionatın təşkili, Xalq Maarifı Nazirliyi nəzdində pedaqoji və elmi-bədii jurnalların nəşr edilməsi, Gəncə, Qazax, Şuşa və Nuxada kişi, Bakı, Nuxa və Gəncədə isə ikiillik qadın kurslannın açılması, xaricdən gətirilən tədris-çap mehsullarmın gömrük xərclərindən azad olunması və s. nəzərdə tutulmuşdu.

Cümhuriyyət dövründə xalq maarifinin inkişafı ilə bağlı görülən mühüm tədbirlərlə yanaşı, maarifi və milli mədəniyyəti təbliğ edən və yayan cəmiyyətlərin, xeyriyyəçi təş-kilatların, ittifaqların fealiyyəti də geniş vüsət almışdı. Xalqın maariflənməsi yolunda fəaliyyət göstərən bütün bu qurumlar milli özünüdərkin dirçəldilməsi yönümündə mədəni-maarif tədbirləri həyata keçirirdilər. 1919 ildə Bakıda *Müsəlman Şərqini öyrənən cəmiyyət* təsis edilmişdi. Bakı Universitetinin nəzdində yaradılmış həmin cəmiyyet Azərbaycan tarixini, ədəbiyyat və mədəniyyətini öyrunmək və təbliğ etmək sahesində xeyli iş görmüşdü. Xalqın qədim dövr mədəniyyətini araşdırmaq məqsədilə 1920 ilin əvvəl-lərində Xalq Maarifı Nazirliyində arxeologiya şöbəsi yara-dılmışdı. "Yaşıl qələm" ədəbi birliyi, İslam incəsənətini və mədəniyyətini mühafizə cəmiyyəti, *"Türk ocağı"* və s. cəmiyyətlər də fəaliyyət göstərirdi.

Cümhuriyyət dövründəki milli cəmiyyətlər içərisində 1918 ilin oktyabrında yaradılmış 'Türk ocağı" mərkəzinin fəaliyyeti daha əhəmiyyətli olmuşdur. Cəmiyyətin əsas məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan türk xalqları arasında mədəni əlaqələri inkişaf etdirmək, onları bir-birinə ya-xınlaşdırmaq, qarşılıqlı yardımı daha da möhkəmləndirmək idi.

Cümhuriyyət Hökuməti xalqın milli ənənələr, vətən-pərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də bir sıra tədbirler həyata keçirmişdi. 1919 ilin dekabrında *"İstiqlal" muzeyinin* açılması Azərbaycan mə-dəniyyəti tarixində mühüm hadisə oldu. Burada milli deko-rativ sənət nümunələri, xalça və bədii tikmələr, silahlar, əlyazmalar, Quranın nadir nüsxələri, müxtəlif mövzularda qiymətli kitablar toplanmışdı. Muzeyin açılışının Azərbay-can Parlamentinin fəaliyyətinin bir illiyi gününə - 7 dekabra təsadüf etməsi də rəmzi məna kəsb edirdi.

Cümhuriyyət Hökuməti əhalinin maariflənməsində, elmi biliklərə yiyələnməsində mühüm rol oynayan kitab-xana şəbəkəsinin genişlənməsinə xüsusi diqqət yetirirdi. Bu məqsədlə Bakıda dövlət və kütləvi xalq kitabxanalarının açılması haqqında layihələr işlənib hazırlandı.

1919 ildə Balaxanı - Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı. Həmkarlar ittifaqlarının nəzdində kitabxanalar təşkil olunurdu. Bunlardan ən böyü-yü, əsasən, gənclərin və yeniyetmələrin birləşdikləri mət-bəə işçiləri həmkarlar ittifaqının nəzdində Bakıda (kitab fondu 2000 cild) açıldı.

Azərbaycan dilində ilk böyük kitabxana - Milli kitab-xananın yaradılması sahesində xeyli iş görüldü. Onu Bakı-nın mərkəzi hissəsində açmaq nəzərdə tutulmuşdu. Milli kitabxanada Azərbaycana aid kitabları, qəzet və jurnalları, əlyazmaları və digər qaynaqları toplamaq üçün Hökumət tərəfindən İstanbul, Qahirə, Beyrut və Avropanın bir sıra paytaxt şəhərlərinə mütəxəssislər ezam edildi. Bakı Dövlət Universitetinin təsis olunması ile əlaqədar burada tələbə



*"Nəşri-maarif" cəmiyyətinin Balaxanı məktəbi*

lərin və müəllim heyətinin istifadəsi üçün kitabxana yara-dıldı. 1919 ildə kitabxananm fondunda 250 nüsxə çap vahidi olmuşdur. Kitabxanada nadir kitablar, qiymətli əlyazmaları, şərqşünaslığa, o cümlədən azərbaycanşünaslığa aid əsərlər toplanırdı.

Kütlələrin maariflənməsi üçün "Kooperasiya ittifa-qı"nm kitabxanalan, eləcə də "İqla" cəmiyyəti nəzdinde olan kitabxanalar da mühüm əhəmiyyət kəsb edirdi. "Kooperasiya ittifaqı"nın kitab anbarı bütün şəhərdə özii-nün rayon şöbələrini açırdı.

Azərbaycan Hökuməti tərəfindən kitabxana işinin inkişafma böyük yardım göstərilirdi. Müxtəlif nazirliklər öz əmekdaşları üçün kitabxanalar açırdılar. Xalq Maarifı Na-zirliyi qurumları respublikada kitabxana işinin inkişafı sahəsində xeyli iş gördülər. Məsələn, Ədliyyə Nazirliyi hüquq kitabxanası yaratmaq məqsədilə dövlət fondundan 50000 manat aynlmasına nail oldu. Səhiyye Nazirliyi öz nəzdində kitabxananın açılmasına 10000 manat ayırdı.

Azərbaycan Cümhuriyyəti Parlamentinin 1919 il sen-tyabnn 18-də qəbul etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk dilində yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifı Nazirliyinin sərəncamına 1 mil-yon manat verildi.

*Aprel işğalı {1920)* ərəfəsində Azərbaycanda artıq kitab fondu 95000 nüsxə olan 11 kitabxana vardı. Lakin 1920 ilin əvvəllərində regionda vəziyyətin mürəkkəbləşməsi və hə-min il aprelin 27-də Şimali Azərbaycanm Sovet Rusiyası tərəfindən işğalı nəticəsində ölkədə xalq maarifinin inkişafı sahəsində nəzərdə tutulan çoxsaylı tədbirlərin həyata keçi-rilməsi yarımçıq qaldı.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifinin inkişafında və mədəni quruculuq sahəsində qısa müddət ərzində həyata keçirdiyi mühüm tədbirler sonralar respub-likada xalq maarifmin təşkilində mühüm rol oynadı.

**Ədəbi mühit.** Dünyanın ən zəngin ədəbiyyatlanndan birini yaratmış Azərbaycan xalqı tarix boyu haqq-ədalət, bərabərlik, azadlıq idealları ilə yaşamış, bu ideallar uğrunda daim mübarizə aparmışdır. Həmin ideallar və onlar uğrun-dakı mübarizə xalqın əsrlərcə yaratdığı edəbiyyatda - istər folklorda, istərsə də yazılı bədii əsərlərdə əksini tapmışdır. "Kitabi-Dede Qorqud", "Koroğlu" eposlarmda, digər qəh-rəmanlıq dastanlannda, Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və b. ədəbiyyat korifeylerinin eserlərində ümumbəşəri ide-allar, humanizm, haqq-ədalət, o cümlədən insan haqları, azadhq və vətənpərvərlik ideyaları tərennüm edilmişdir. Bütün bunlar 19 əsrdən etibarən azərbaycançıhq ideyala-rının meydana gəlməsinə zəmin yaratmışdır. Bu dövrdə milli birlik, müstəqil dövlətçilik idealları üzərində daha ar-dıcıl, daha dərindən düşünme - milli özünüdərk Azərbay-can xalqının daxili ehtiyacı idi. 19 əsrin sonu - 20 əsrin əv-vəllərində, hətta sonralar da, bütün milli azadhq hərəka-tlarmın ideoloji əsasmda Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Cəmaləddin Əfqani, Həsən bey Zərdabi və bu dövrün digər görkəmli yaradıcı ziyalıları dayanırdı. Bu ideyalar, nəhayət, 20 əsrin əwelinde azerbaycançıhq ideologiyasının təşəkkülünə daha güclü təkan verdi. Azər-baycançılıq ideologiyası, Azərbaycanda milli dövlətçilik tə-fəkkürü dövrün Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nerimanov, Əbdürrehim bəy Haqverdiyev, Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli ve onlarca digər yazıçı, publisist və maarif xadimlərinin əsərlərində, konkret fealiyyetlerində əksini tapdı. Bu dövrün ədəbiyyatında xalq kütlələrinin azadlıq istəyi, inqilabi hərəkatın güclənmesi, milli şüurun güclü oyamşı ilə əlaqədar olaraq tənqidi rea-lizm aparıcı istiqamətə cevrildi. Həmin dövrdə Azərbay-canda geniş vüsət alan istiqlaliyyət uğrunda siyasi mübarizə ilə bağlı azerbaycançıhq ideologiyası məzmunca və keyfıy-yətcə yeni mərhələyə qədəm qoydu və Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə yüksək zirvəyə çatdı. Azər-baycanın şimalmda müstəqil dövlətçilik ənənelerinin dirçe-lişi və xalqın milli təfəkküründə baş verən oyanış, mədə-niyyətin müxtəlif sahələrində olduğu kimi, ədebi mühitdə də böyük canlanmaya səbəb oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalquun tarixi, siyasi və mənevi-psixoloji həyatında, o cümlədən o dövriin ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır. Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur. Araşdır-malar göstərir ki, hətta ay da, ulduz da rəmz ve obraz kimi rəsmiləşən milli simvolikaya - üçrəngli bayrağa və gerbə poeziyadan, romantik nəsrden ve inqilabi publisistikadan keçərək gəlmişdir.

Aşkar həqiqətdir ki, Cümhuriyyət dövrünün ədəbiyya-tını ilk dəfə araşdıran və dəyərlendirənlər də elə Cümhu-riyyeti və onun mədəniyyətini yaradanların özləri olmuşlar. Ədəbi prosesi tənzim edənlər və yaradanlar - Məhemməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Parlamentin sedri Əlimərdan bəy Topçubaşov, sədr müavini Həsən bəy Ağayev, Cümhuriyyət hökumətinin sədri Fətəli xan Xoyski, həmçinin Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üze-yir və Ceyhun bəy Hacıbəyli qardaşları, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Əhməd Cavad,



*Azərbaycanın maarifçi ziyalıları: Əlisgəndər Cəfərzadə, Cəlil Məmmədquluzadə, Ələddin Əfəndizadə, Sultanməcid Qənizadə, Ömər Faiq Nemanzadə və Qurbanəli Şərifzadə*

Abdulla Şaiq, Salman Mümtaz, Əlabbas Müznib və başqa-ları idilər. Xüsusən, "Cümhuriyyət şairi" Əhməd Cavadın, Əli Yusif, Ümmügülsüm, Əmin Abid (Gültəkin), Cəfər Cabbarlı, Bədri Seyidzadə, Mürşid, Davud (Ağamirzadə), Əli Şövqi kimi gənclərin şeirləri el arasında sürətlə yayılır, marşa, himnə, nəğməyə çevrilirdi. Azerbaycamn istiqlalma, milli dövlətə, bayrağa və gerbə, türkçülük idealma, ümum-bəşəri və islami dəyərlərə həsr olunmuş en yaxşı ədəbi-bədii, elmi-publisistik, fəlsefi-tarixi əsərlər məhz Cümhu-riyyət dövründə yaranmışdır. Azərbaycanın tam müstəqil-liyi və istiqlah ideyası əksər ziyalıları bir bayraq altında birləşdirir və ədəbi hərəkat da en çox bu yöndə irəliləyirdi. Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Ceyhun bəy Hacıbəyli kimi xadimlər Avropada və Rusiyada vüsət tapan xristian birliyi hərəkatı müqabilində "türkləşmə, islamlaşma və müasirləşmə" ide-yasını irəli sürür və onun qələbəsinə çalışırdılar. Bu ideya Azərbaycanda siyasi, sosioloji ve fəlsəfi istiqamətə yönəlir, azərbaycançılıq təlimi ilə qaynayıb-qarışırdı.

Məhəmməd Əmin Rəsulzadə 1919 ildə "Azərbaycan" qəzetində yazıçı və şairləri bu ideyanı əks etdirməyə çağırır və yazırdı: ***"Mətbuatın, ədəbiyyatın millətin qəlbinə mil-liyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlum-dur...***

***Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayımz, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyat eşqi təlqin*** *ediniz".*

Nəriman Nərimanov, Dadaş Bünyadzadə,Tağı Şahbazi, Məmməd Səid Ordubadi, Sultanməcid Qənizadə, Əlisgəndər Cəfərzadə və başqaları M.Ə.Sabirin şərəfinə Bakıda ucaldılacaq abidənin önündə



1918-20 illərdə gənc edebi qüvvələrin bir amal uğ-runda təcrübəli nəsillərə birləşmək arzusu duyulurdu.

***"Gəliniz əsrlərlə millətin ürəyində daş bağlayan dərdlərini açıb tökək!"*** - deyən Mirzə Cəlil güneyli, quzeyli Azər-baycanın taleyini düşünürdü.

Cümhuriyyətin əvvəlcə Ukraynada, sonra isə Türki-yədə rəsmi elçisi olan Yusif Vəzir Çəmənzeminli "Bu gün yazıçıya nə gərəkdir?" sualına belə cavab verirdi: "Dil azadlığı, qələm azadlığı!". Başqa görkəmli sənət ustalan da

Cümhuriyyətin verdiyi qələm azadhğından bəhrələnirdilər. Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu və başqaları pedaqoji işdə, publisistika sahəsinde, dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular. Firidun bey Köçərlini, Yusif Vəzir Çəmənzəminlini, Seyid Hüseyni və Salman Mümtazı daha çox ədəbiyyat tarixi məsələləri dü-şündürürdü. Belə ki, Yusif Vəzir "Litva tatarlarının tarixi", "Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər" kitablarım yazır, Salman Mümtaz Azerbaycanın klassik şairlərinin əsərlərini toplayırdı. Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar, Ömer Faiq, Eynəli bəy Sultanov, Hüseyn Minasazov və başqaları Tiflisdə çalışırdılar.

1919 il avqustun 26-da "Yaşıl qələm" ədəbi birliyi yığmcağmın Parlament binasmda keçirilməsi, Məhəmməd Əmin Rəsulzadənin orada iştirakı və çıxışı da milli dövlətin ədəbiyyata və ədəbiyyat xadimlərinə qayğısmdan xəbər verirdi. Seyid Hüseynin sədrliyi ilə keçən iclasda birliyin məramnaməsi qəbul edildi. Salman Mümtazın təklifı ilə məramnaməyə ***"itib-batmış türk lüğətlərinin toplanması"*** da bir bənd kimi artırıldı.

Yeni quruluşun tələblərinə ən çox publisistika və lirik şeir kimi kiçik və çevik janrlarda yazılan əsərlər uyğun gəlirdi. İstiqlal dövrü ədəbiyyatmın ən geniş yayılmış qolu poeziya idi. Xalqm 20 əsrin əvvəlindən uğrunda mübarizə apardığı milli istiqlal ideallarmm artıq qalib gəldiyi dövrün poeziyası olan Cümhuriyyət şeri bu ideallarm qorunub saxlanması uğrunda mübarizənin əksi idi. Azərbaycan şair-lərinin 1918-20 illərdə istiqlala qoşduqları himn, marş və mahmlar bütöv bir silsilə təşkil edir. Məhəmməd Əmm Rəsulzadə elə o günlərdə şairləri bu işə həvəsləndirmək üçün yazırdı: ***''Bir alay əsgərin milli nəğmələr ötərək bir-dəfəlik keçişi mətbuatın 10 sənəlik təbliğatından əhali üzə-rində daha böyiik təsir buraxır".***

Cümhuriyyətin bayrağındakı rənglərin - türkçülük, müasirlik və islam ideallarmın, türk və islam tarixinin tə-rənnümü, ilk müstəqil, suveren milli dövlətin dəstəklən-məsi, onun salnaməsinin yaranması, milli dövletçilik ideo-logiyasınm ifadesi, təsbiti, ordunun hərbi uğurlarınm bədii təminatı, ermənilərin Qarabağ qiyamı, Azərbaycanda ermə-nilərin dinc əhaliyə qarşı törətdikləri soyqırımları, vəhşi-liklər, ərazinin qəsb və talan olunması, daşnakların Bakıda tarixi abidələri, elm və mədəniyyət ocaqlarını yandırması, mart qırğmları, milli keçmiş və islam tarixində şehidlik və qəhrəmanlıq səhifələrinin mədhi və yada salmması, şimal-dan yaxmlaşan qara buluddan və vətənin başı üstünü al-maqda olan təhlükədən doğan həyəcan və təşviş istiqlal dövrü poeziyasının ümdə mövzuları idi.

**Milli** intibah, hürriyyət düşüncəsi ve istiqlal ovqatı Cümhuriyyət romantizminin parlaq nümayendesi Məhəm-məd Hadinin də şeirlərinin leytmotivini təşkil edir. Milli müstəqillik və azadlıq uğrunda mübarizə aparan şair Azər-baycan Xalq Cümhuriyyətinin qurulmasmı ruh yüksəkliyi i'lə qarşılamış, ona "Şühədayi-hürriyyətimizin ərvahına it-

*Cəfər Cabbarlı ziyalılar arasında*



haf', "Əsgərlərimizə, könüllülərimizə", "Məfkureyi-aliy-yəmiz" ("Azərbaycan dövləti-növzadımıza") şeirlərini həsr etmişdir. Məhəmməd Hadi sonuncu şerdə xalqm milli istiq-lal ruhunu və əzmini ifadə edərək yazırdı:

*Çıxsın dilərsə, qarşımıza həp məzarımız, Dönməz məzaridən bu dili-əzmkarımız... Vicdani-millətə yazılıbdır bu ayəmiz, Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz.*

("Məfkureyi-aliyyəmiz")

Bu əhvali-ruhiyyə şairin "Zəfəri-nahiyyəyə doğru", "Aydınhq bir gecedə təfəkkür dəqiqələri", "Kor - soqqur", "Baharm ilhamları və ictimai rəmzlər", "Hərarətli şeir və yaxud qızdırmalı hahmda saçmalarım" şeirlərində də davam eləyir. Məhəmməd Hadi "Şühədayı - hürriyyətimizin ərva-hma ithaf' şerində ***"Sizinlə buldu bu millət şərəfli istiqlal",*** - deyə Azərbaycanm müstəqilliyi uğrunda mübarizedə şəhid olmuş vətən övladlarımn müqəddes ruhunu həzin təranələrlə oxşayır, "Əsgərlərimizə, könüllülərimizə" sil-silə şeirlərində isə yurddaşlarını bu istiqlalm qorunmasma çağırırdı.

Müsavat və istiqlal amalları A.Şaiqin "İntizar qarşısm-da", "Arazdan Turana", "Yeni ay doğarkən", "Vətənin ya-mq səsi", "Türk ədəmi-mərkəziyyət fırqəsi" ("Marş") şeirlərində də əksini tapmışdır. ***"Birləşəlim, türk oğlu, bu yol millət yoludur",*** - deyən şair hamım milli birliyə səsləyir, Azərbaycan istiqlalmm qorunmasma, vətən yolunda əzmkarlığa çağırırdı:

*Ildırımlar gurlasm,*
*Buludlanm hazırlansın tufana!*
*Dağım, daşım boyansın həp al qana,*
*Şimşəklərim parlasm...*
*"Ölüm " deyə, "Vətən " deyə coşarız.*
*Bu torpaqlar qammızla boyansa,*
*Nəfəsimiz qalınca öc alarız.*

Eyni motiv o dövrdə nəşr olunmuş "Milli şərqilər" (1919) adh seçmə şeirlər toplusunun da əsas mövzusunu və vahid ideya-bədii pafosunu təşkil edirdi:

*Türküstan yelləri öpüb alnını,*
*Söyləyir dərdini sana, bayrağım!*
*Üçrəngli əksini Quzğun dənizdan*
*Ərməğan yollasın yara, bayrağım!*

(Əhməd Cavad, "Azorbaycan bayrağına")

Cəfər Cabbarhmn istiqlal mövzulu şeirləri 1918-20 illərin inqilabi və romantik əhval-ruhiyyəsini xüsusilə qabarıq ifadə edən fəlsəfı-rəmzi nümunələr idi. Şair "Yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim" dediyi məşuqəyə eşq elan edir və onun tarixi simvolikasım belə açırdı:

*Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,*
*bir türk oğlu olmalı.*
*Yaşıl boya islamlığm sarsılmayan inamı, ürəklərə dolmalı.*
*Al boya da azadlığın, təməddünün gümanı,*
*mədəniyyət bulmalı. Səkkiz guşə bu ulduz da səkkiz hərfli "Odyurdu".*
*Əsarətin gecəsindən fiirsət bulmuş quş kimi*
*səhərlərə uçmusdur.*
*Bu hilal da türk bilgisi, düzgün sevgi nişanı,*
*yurdumuzu qucmuşdur.*

Gənc şairin "Sevdiyim", "Sevimli ölkəm", "Salam" şeirlərində də müstəqil Azərbaycan, türkçülük, turançılıq ideyaları tərənnüm edilirdi.

Cümhuriyyətin ilk qadın şairi Ümmügülsümün şeirləri vetənin sabaha uçuş və döyüş cəngisi kimi səslənirdi:

*Annəciyim, mənim bu yaşıl dağlar,*
*Mənsiz nəşə bulmaz çiçəkli bağlar.*
*Mənsiz bülbül ötməz, çəmənlər ağlar,*
*Yurduma buraxmam alçaq düşməni...*
*Ey buzlu şimaldan qopan ruzigar,*
*Toxunma qəlbimə, atəşi parlar.*
*Saqın, gəlmə, səni nəfəsim boğar,*
*Dəf ol, vətənimdə görəməm səni...*

("Çəkil, dəf ol")

Bu dövr poeziyasmda "Cümhuriyyət şairi" Əhməd Cavadm səsi daha gur eşidilirdi. Əhməd Cavadın həyat və yaradıcıhğmm ən parlaq və məhsuldar dövrü 20 əsrin 10-cu illerinin ortalarına və Azərbaycan Xalq Cümhuriyyəti döv-rünə təsadüf edir. Bu illərdə onun "Qoşmalar" (1916) və "Dalğa" (1919) adlı şeir topluları nəşr edilmişdir. Həmin dövrdə

*Abdulla Şaiq, Hüseyn Cavid, Əhməd Cavad və Seyid Hüseyn.*
Rəssamı Əyyub Məmmədov. 1982





*Azərbaycan ziyalılarının nümayəndələri*

Əhməd Cavadın fəaliyyəti bilavasitə M.Ə. Rəsulzadə ilə bağlı olmuşdur. Əhməd Cavad məhz M.Ə.Rəsulzadənin təklifl ilə "Müsavat" partiyasına daxil olmuşdur.

Daim ictimai-siyasi hadisələrin mərkəzində olan Əhməd Cavad Cümhuriyyətin qurulmasını "Azərbaycan, Azərbaycan!" və "Canım-gözüm, gözüm-canım Azərbaycanım" şeirləri ilə alqışlamışdır. 28 May - istiqlal günü, milli ordu, türk birliyi, üçrengli, səkkiz guşəli ay-ulduzlu bayraq onun şeirlərinin əsas atributları idi.

Azərbaycan hərbi birlikləri ilə türk ordu hissələri Bakıya daxil olduqda, Əhməd Cavad əsgər yoldaşlan ilə bərabər Bakmın Yasamal dağındakı səngərlərdə düşmənlə vuruşurdu. "Bismillah" şerini də o, həmin döyüş meydanın-da yazmışdır:

*Atıldı dağlardan zəfər topları,*
*Yürüdü irəli əsgər, Bismillah.*
*O, Xan sarayından çiçəkli bir qız,*
*Bəkliyor bizləri zəfər, Bismillah.*
*Ey hərbin taleyi, bizə yol ver, yol.*
*Sən ey coşan dəniz, gəl türkə ram ol.*
*Sən ey sağa, sola qılınc vuran qol,*
*Qollarma qüvvət gəlir, Bismillah.*

Şair "Ey əsgər" şerində Azərbaycan əsgərinin döyüşdə göstərdiyi şücaəti belə tərənnüm edirdi:

*Dağa-daşa sancağını öpdürüb,*
*Duman kimi bu dağları bürüyən.*
*Dənizlərə salam rəsmi yapdırıb,*
*Göylərdəki bulud kimi yürüyən.*
*Yürü-yürü, batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

Əhməd Cavadın ikinci şeir kitabı olan "Dalğa"da (1919), əsasən, istiqlal dövründə yazdığı şeirləri toplan-mışdı. Şair tükənməz ilhamını sonsuz, ülvi məhəbbətlə sevdiyi Azərbaycan milli istiqlalının tərənnümünə həsr etmişdi ("Nədən yarandın", "Azerbaycan bayrağına", "Al bayrağa", "Gəlmə", "Bakı deyir ki...", "Qardaş", "İngilis" və s. şeirlər).

***"Mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm ",*** -deyən Əhməd Cavad milli azadhğı təhdid edən şimal yelinə, azad dağları bürümək istəyən dumana, milli dövləti devirmeye çalışan təcavüzkar qüvvələrə qəzəblə xəbərdar-lıq edirdi:

*Bu dağlar mənimdir, yeni gün gördü,*
*Boğar səni ahım, ey duman, gəlmə!...*
*Sən ey gözlərimə batan quruntu,*
*Sağlam bir imanə səndən nə qorxu?!*
*Bəslərsə vicdanlar pək böyük duyğu,*
*Yıxılmaz qaladır hər vicdan, gəlmə!*

("Gəlmə")

Əhməd Cavad ömrünün sonuna qədər milli istiqlal ideallarına sadiq qalmış və bu yolda şəhid olmuşdur. Bunu onun Cümhuriyyətin süqutundan, Aprel işğalından (1920) sonra yazdığı əsərlər də sübut edir. 1925 ildə yazdığı "Göy-göl" şerində şair müstəqil Azərbaycanın dövlət bayrağındakı ay-ulduza işarə edərək deyirdi:



Görkəmli Azərbaycan ədibləri

*Sənin gözdlliyin gəlməz ki saya, Qoynunda yer vardır ulduza, Aya, Oldun sən onlara mehriban daya, Fələk büsatmı quralı, Göygöl.*

Şair bu şerə görə həbs olunmuşdu.

Milli istiqlahn qorunmasına çağınş ruhu Ə.Müznibin "Azərbaycan", Balaqardaş Mürşidin "Əsgər şeirləri" silsi-ləsi ("Əsgər hərbə gedərkən", "Ana deyir", "Bu günün gənclerinə", "Qarabağda helak olmuş arkadaşımın ruhuna ithaf'), Davudun "Əsgər şərqisi", "Məqsədimiz", "Azər-baycan ordusuna", "Bir əsgərin dilindən", Ümmügülsümün "Əsgər anasma", "Bir mayıs günündə", Əli Şövqinin "Azərbaycana", Ümid Gəncəlinin "Azərbaycan vətən şər-qisi", Əli Yusifin "Bayraq", "Azərbaycanlıya" əsərlərində də güclü idi. Mürşid "Sühədayı-Vətən" şerində yazırdı:

*Sən dəfəxr et, bambaşqadır bu ölüm, Bənzəməzsən sən bir adi ölmüşə. Cismin əgər gömülmüssə məzara, Ruhun millət qəlbindədir həmişə.*

İstiqlal poeziyasmda orijinalhğı ilə seçilən gənc sima-lardan biri də istedadlı şair Əli Yusif idi. İstiqlalı böyiik se-vinclə, ruh yüksəkliyi ilə qarşılayan gənc şair istibdad zən-cirindən qurtarmağı Azerbaycan üfüqündə doğan sönməz ulduz kimi mənalandırır, ilk dəfə milli dövlət elan edil-məsindən qürurla öyünürdü:

*Ey vətəndaş, bu gün sənin taleyinə Bir əbədi sönməyəcək ulduz doğur.*

*..Bıından sonra Azərbaycan ölkəsində, Azadhğın, istiqlalın kölgəsində Sənin dəxi bir müqəddəs vətənin var, Bayrağın var, buludlardan uca qalxar'.*

1918-20 illərdə Cümhuriyyət şeri nümunələri, əsasən, "Azerbaycan", "Açıq söz", "Müsavat", "Bəsirət", "İstiq-lal" qəzetlərində, "Övraqi-nəfisə", "Qurtuluş" jurnalların-da dərc olunurdu. Bu illərdə Ə.Cavadm "Dalğa", türk şairi Feyzulla Sacidin "Fəryad" kitablan, habelə "Milli şərqilər", "Ordu marşlan" topluları nəşr edilmişdir.

Poeziyadan fərqli olaraq, yeni həyatı öyrənmək, mü-rəkkəb ictimai-siyasi durumu qavramaq və sənətə gətirmək prosesinin mürəkkəbliyi ilə əlaqədar olaraq bu dövrün nəs-rində yeni quruluşla bilavasitə bağh olan, onu alqışlayan, onun tələblərinə cavab verən əsərlər az olsa da, ənənəvi ailə-məişət və tarixi mövzularda yazılan bir çox nəsr əsər-lərində dövrün ictimai-siyasi, milli-mənəvi problemlərinin bədii əksinə, cərəyan edən hadisələrin mahiyyətinə nüfuz etməyə müəyyən cəhdlər göstərilirdi.

"Molla Nəsrəddin" jurnalı ilə ədəbi hərəkatı canlan-dıran Cəlil Məmmədquluzadə bu illərdə "Konsulun arvadı", "Qəssab", "Xanm təsbehi", "Nigarançılıq", "Rus qızı", "Zırrama" hekayələrində ənənəvi sosial, ailə-məişət mövzuları ilə yanaşı, vətenin, millətin taleyi, insan, o cüm-lədən qadm hüquqlan kimi ən ümdə problemlərə de toxu-nurdu. Bu hekayələrdə zamamn ruhuna uyğun olaraq, öldü-rücü satiradan daha çox yumşaq, düşündürücü yumor güclü idi. Əlamətdar cəhətdir ki, bu hekayələrdə ədib ziyalı anla-yışma yeni, müasir baxımdan yanaşırdı. Cəlil Məmməd-

quluzadə bu dünyaya gözünü Azərbaycan dərdi ilə, bu mil-lətin özünüdərki arzusu ilə açmışdı. İlk irihəcmli nəsr əsəri olan "Danabaş kəndinin əhvalatları" povestində bu dərdin yüksək bədii ifadəsi öz əksini tapmışdır. Milletin geriliyini və onun bu gerilikdən qurtulması yollarmı göstərməyə çalı-şan Mirzə Cəlil belə məqamlarda tipikliye daha çox diqqət yetirirdi.

"Molla Nəsrəddin" edəbi məktəbinin nümayəndəsi Əbdürrəhim bey Haqverdiyevin "Şair" hekayəsində milli dövlət quruculuğu dövründe ziyalı problemi müstəqil döv-lət üçün milli kadrlar yetişdirilmesi problemi ilə səsleşirdi. Əsərin qehrəmam Mirzə Səfər mühəndis və həkim oğlan-larına xalqa özü kimi namusla xidmət göstərməyi vesiyyət edir.

Abdulla Şaiqin "Əsrimizin qəhrəmanları" romanında Azərbaycan gənclərinin həyatı, arzu və amalları, dünyaba-xışı və əməlləri ön plana çəkilir. Müəllifin ilk bölümlərini hələ 1909 ildə yazdığı bu əsərə 9 ildən sonra, 1918 ildə yenidən qayıtmasınm bir səbəbi də bu dövrdə milli istiqlal arzularımn gerçəkləşməsi imkanmın güclənməsi və bu yol-da gənclərə olan ümidi, inamı ilə bağlı idi.

Ağababa Yusifzadənin romantik ruhlu "Sınıq qanad" əsəri 1918-20 illərdə Abdulla Şaiqin "Əsrimizin qehrə-manlarr'ndan sonra meydana çıxan ikinci roman nümunə-sidir. Əsər ənənəvi məhəbbət mövzusunda olsa da, burada örtülü şəkildə ictimai məsələlərə də toxunulur. Müəllif göstərirdi ki, *dbvlətin milli kadrlara ehtiyacını ödəmək, istedadh gənclərə arxa durmaq üçün varlılar da vətən-daşlıq qeyrəti göstərməli, onlara arxa olmahdırlar; millətin müstəqilliyi və xoşbəxtliyi hamının birliyindən, bir-birinə yardıntından asıhdır.*

Azərbaycanm müsteqilliyə can atması Antanta döv-lətlərini, rus bolşeviklərini və daşnakları təşvişə salmışdı. Bolşevik Rusiyası hər tərəfdən Azərbaycana qarşı fıtnələr törədir, erməni daşnaklanndan istifade edirdi. Belə fıtnə-lərdən ən böyüyü 1918 ilin martmda erməni daşnaklarmın Bakıda, həmçinin Azərbaycamn başqa yerlərinde azerbay-canlılara qarşı törətdikləri soyqırımları idi. Bakı sovetinin əsasən daşnak quldurlarından ibarət olan qoşunları Bakıda minlərlə azərbaycanlını qətlə yetirdiler, qədim binaları, məscidləri dağıtdılar, əlyazmalarmı, kitabxanaları yandırdı-lar. Məhəmməd Əmin Resulzade, Əlimərdan bəy Topçu-başov, Üzeyir bəy Hacıbəyli, Mirzəbala Məmmədzadə, Seyid Hüseyn, Abdulla Şaiq kimi qabaqcıl Azərbaycan ziyalıları öz əsərlerində bu vəhşiliyi lenətləyirdilər.

Bakıda ermeni daşnaklarının vəhşicəsinə yandırdıqları abidelərdən biri də milyonçu Musa Nağıyevin oğlu İsma-yıhn xatirəsinə ucaltdırdığı İsmailiyye binası idi. Binanm yandırılması bir yana, millətə qənim kəsilən daşnaklar İs-mailiyyənin sökülməsinə çalışırdılar.

Azərbaycanlılara qarşı hazırlanan bu qəsdin üstünü aç-maq üçün Seyid Hüseyn "Hezin bir xatirə. İsmailiyyə" hekayəsini yazmışdı. Dərin lirizmi, güclü vətəndaşlıq duy-ğusu və publisistik ruhu ilə seçilen bu hekayə İsmailiyyənin tarixi bədii salnaməsidir. Vətəndaş yazıçrya görə, binanın xalq qarşısındakı bir-birindən dəyərli xidmətlərindən ən qiymətlisi onun siyasi cəreyanlar meydanına çevrilərək, xalqın milli-mənəvi tarixində əvəzsiz rol oynamasıdır. Qabaqcıl Azərbaycan ziyalıları bu binanı xalqm, millətin amal və əməl dayağı, müqeddəs və toxunulmaz məbədi sayır, azadlıq və istiqlal rəmzi kimi dəyərlendirirdilər. He-kayənin sonluğu son dərəcə həyəcanlı və dərin vətəndaş narahatlığı ilə dolu çağırış notları ilə bitir:

*"Ey bakıh qardaş, ey azərbaycanh vətəndaş, niyə dayanıb baxıyorsan? Coş! İsmailiyyənin, hər vaxt böyük salonunda öz gələcəyin iiçün gün ağladığın İsmailiyyənin qarşısına gəl. Onu səndən ayırırlar. Onu lüzumsuz bir meyit kinti dəfn ediyorlar. Həm də sənin gözünün qaba-ğında dəfn ediyorlar. Halbuki onun məhzun gözləri səni gözləyir, sənin həsrətini çəkir".*

Maraqlıdır ki, Seyid Hüseynin bu hekayəsinden sonra "Yaşıl qələm" ədəbi birliyi "İsmailiyyə" müsabiqəsi elan edərək, hemin mövzuda, hemçinin Azərbaycan bayrağına həsr olunan bir neçə poetik əsərin de üzə çıxmasına nail olur, başlıcası isə, "İsmailiyye"nin dağıdılmasımn və onun timsalında azərbaycanhlann azadlıq və milli istiqlaliyyət duyğularımn qırılmasınm qarşısı alınır.

Bu mövzuya bir də qayıdan Seyid Hüseyn 1920 ildə "İsmailiyye" adlı yeni hekayə də yazmışdır. Həmin yazıda da binanm xaincəsinə və alçaq niyyətlə yandırıldığı, bundan doğan vətəndaş qəzəb və hiddəti dərindən duyulmaqdadır. "İsmailiyyə" Cümhuriyyət dövrü ədəbiyyatında zamanm ən başlıca probleminə toxunmaqla milli dövlətçiliyi, milli Hö-kuməti, "üçrəngli, səkkizguşə ulduzlu" bayrağı belə böyük ürəklə alqışlayan, xalqı onun qədrini bilməye çağıran yega-nə bədii nəsr əsəri idi.

Cümhuriyyət dövrü ədəbi prosesinin canlanmasında dramaturgiya da ehəmiyyətli yer tuturdu. Bu dövr drama-turgiyası müasirliyi ilə seçilirdi. Azərbaycanm o zamankı durumu və gələcək müqəddəratı ilə sıx bağlı olan məsə-lələr - milli oyanış, milli azadlıq hərəkatı, istiqlaliyyət, müstəqil dövlətçilik məsələləri, əski inanclara, xalqın yad-daşma qayıdış kimi duyğular onun en yaxşı nümunəlerinin əsas mövzusu idi. Bu dövr dramaturgiyasında Azərbaycan, Turan, Qafqaz, Türk dünyası obrazları çox qabarıq verilmiş-dir.

Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi tanınmış sənətkarlar daha məhsuldar çalışırdılar. Azər-baycan dramaturgiyasımn şah əsərlərindən olan "Anamın kitabı" (C.Məmmədquluzadə), "İblis" (H.Cavid), "Aydm" (C.Cabbarlı) məhz bu dövrdə yaranmışdır. Cəfər Cabbar-lının "Ədirnə fəthi" və "Trablis müharibəsi", yaxud "Ul-duz" pyeslərinin mövzusu Yaxm və Orta Şərqdə, o cüm-lədən Türkiyədə milli azadhq hərəkatmdan götürülmüşdür. Xüsusilə "Ədirnə fəthi" Balkan müharibələri dövründə türk xalqınm istiqlal mübarizəsi ilə zəngin tarixinin parlaq bir səhifəsindən bəhs edir. Öz ölkəsinin və xalqımn istiqlaliy-yət və azadlıq yollan barədə düşünən C.Cabbarlı həmin əsərləri ilə bu ideyaları alqışlayırdı. Müəllif milli istiqlal və dövlətçilik amallannın gerçəkləşdiyi, tarixi yetkinlik çağ-



*Nigar Rəfibəyli, Rəsul Rza, Abdulla Faruq və başqaları*

larının yaxınlaşdığı ərəfədə qardaş türk xalqınm istiqlal savaşmdan nümunə götürməyə çağırır, vətənpərverlik hissini oyatmağa çalışırdı. İsa bəy Aşurbəylinin istiqlal möv-zusunda yazdığı "Azerbaycan" pyesi də böyük maraqla qar-şılanmışdı.

Mirzə Cəlilin bu illərdə "Kamança", "Anamın kitabı" kimi əsərlərlə yeni mövzulara üz tutması böyük əhəmiyyət kəsb edirdi. Bu əsərlərdə o, hadisələri qavramaqda ve də-yərləndirməkdə mütəfəkkir vətəndaş kimi çıxış edirdi. "Anamın kitabı"nda ədibin vətən, millət, ana dili anlayış-larmın ideya-estetik tutumu Cümhuriyyət istəkleri ilə tam səsləşirdi. Müəllifin milli özünəqayıdış, milli özünüdərk ideyası üç qardaşın münasibətlərində, rəmzi obraz kimi verilən "Anamm kitabı"nm yozumunda üze çıxır. Pyesdə son dərəcə mühüm bir mövzu-tarixi ədalətsizlik nəticə-sində parçalanmış, ayrı düşmüş Azərbaycan xalqmın bir-ləşmesi ideyası yüksek bedii şəkildə ümumiləşdirilmişdir. "Kamança"da isə çarizmin, eləce də bolşeviklərin təhriki və daşnaklarm bilavasitə iştirakı ilə azərbaycanlılara qarşı törədilən qırğınların ibrətli tarixi bədii əksini tapmışdır. Əsərdə Azərbaycan xalqınm yüksək insanpərverliyi, en ağır cinayətləri belə bağışlaya bilməsi rəmzi baş qəhrəman Kamança obrazında son dərəcə təsirli ifadə olunmuşdur.

Hüseyn Cavidin bütün zamanlarm ən kəskin və əbədi bir probleminin - xeyirlə şərin, iblislə bəşərin əzəli və əbədi mübarizəsinin yüksək bədii-fəlsəfi şəkildə ümumi-ləşdirildiyi "İblis", C.Cabbarlınm ***"pulun şeytana namaz qıldırdığı"*** altun dünyasmda insan arzularınm daşlara çır-pılıb puç olduğunu yüksək sənətkarlıqla əks etdirən "Aydm" faciələri təkcə o dövrün deyil, ümumiyyətle, Azər-baycan dramaturgiyasının nailiyyəti idi.

Bütövlükdə, bu illərdə yaranan pyeslər milli-mənəvi, inqilabi-fəlsəfi tutumu, mövzu və ideyası ilə birlikdə janr, üslub və obrazlar aləmi ilə də seçilirdi. Seyid Hüseyn və başqa tənqidçilər, haqlı olaraq, həmin pyesləri ədəbi mühitə yeni nəfəs gətirən əserlər kimi dəyərləndirirdilər.

1918-20 illərdə Azərbaycanda ideoloji mübarizənin bütün ağırlığı dövri metbuatın kesərli silahı olan publisis-tikanm üzərinə düşürdü. Azərbaycan publisistikası ideya-mövzu cehətdən çox rengarəng və zengin idi: çarizm əsa-rətindən yenicə qurtulmuş Şimali Azərbaycanın milli müs təqilliyinin qorunub saxlanması, milli ordunun yaranması, ölkədə demokratik parlament seçkiləri ve islahatlarm keçirilməsi, bolşevik və Denikin təhlükəsinin dəf edilməsi, Qarabağda erməni millətçilərinin törətdiyi müharibə yangı-nmm söndürülmesi, ölkə daxilindəki təfriqəçilik, Bakı nefti uğrunda xarici imperialistlerin didişməsi və s. publisisti-kanın toxunduğu əsas məsələlər idi. Milli publisistikanm esasında xalqın gələcəyi ilə bağh böyük siyasi-ictimai kon-sepsiya dayanırdı. Bu konsepsiya 20 əsrin əvvəllərində Azərbaycanda intişar tapmış "türkleşmək, islamlaşmaq, müasirləşmek" ideahnda təcəssüm olunurdu.

1918-20 illər milli publisistikasımn ön sırasmda "Azər-baycan" qəzeti, onun əsas redaktorlarından olmuş Üzeyir bəy Hacıbəyli dururdu. Üzeyir bəyin publisistikasmda milli birliye, milli həmrəyliyə çağırış, daxili siyasi pərakəndə-liyin tənqidi daha geniş yer tuturdu ("Mühüm mesələlər", "Partiyalanmıza", "Teessürat", "İstiqlal və istiqbal ümidi", "Qara təhlükə", "Bir yaş", "Seddi-İskəndər" və s. məqa-lələr). O, Azerbaycanın istiqlalım hədələyənlərin təkcə er-məni daşnaklan ve rus şovinist generalı Denikindən ibarət olmadığmı xalqa başa salır, *"diinənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəməyən, lal edilmiş bir millətin dilinin bu gün açılıb söz söyləməsini eşitmək istəməyən, bir əsrdən artıq məhkum qalan bir mil-lətin bu giin müstəqil və azad olmasını qəbul etmək istə-məyən " "içimizdəki denikinlər"* - Azərbaycanm milli müs-təqilliyini görmək istəməyən müxalifətçi partiyalar barədə məlumat verirdi.

1918-20 iller Azərbaycan publisistikasmın ən parlaq nümunələri Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur. Cümhuriyyətin ilk günlərində qələmə aldığı "Azərbaycan paytaxtı" adlı tarixi-publisistik yazısı indi də öz ictimai təsir qüwəsini saxlamaqdadır. Azərbaycan türklərinin tarixi keç-mişindən, yaşadığı ərazinin coğrafi hüdudlarmdan behs edən silsilə məqalələrdən ibarət bu yazı vətəni, milləti sevməyə çağırırdı. Məhəmməd Əmin Rəsulzadənin siyasi məqalələri ideya-məzmun zənginliyi ile yanaşı, həyat fakt-larını seçmek və onları ümumiləşdirmək bacarığı ilə də fərqlənirdi. Bu cəhətdən onun "Samoupravleniye" ("Özü-nüidarə") adlı məqaləsi Azərbaycanı daxili-siyasi çəkiş-mələrlə parçalamağa çalışan müxalif partiyalara kesərli cavab idi. M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentindəki çıxışları natiqlik sənətinə və publisistikaya gözəl nümu-nədir. Bu çıxışlarında o, respublikadakı ağır siyasi-iqtisadi durumun səbəblərini açır, xalqın gələcəyə inamını səfərbər edirdi.

Yusif Vəzir Çemenzəminlinin Azərbaycanda müstəqil dövlətin qurulması ərəfəsində "Açıq söz" qəzetində çap etdirdiyi "Türk millətinə xitab" adlı silsilə məqalələri xal-qımızm milli azadlıq şüurunun oyamşmda mühüm rol oyna-mışdır. Müəllif Rusiya imperiyasmın dağılmasmdan sonra yaranmış imkandan istifadə etməyə, milli azadlıq amalı uğ-runda bürün siyasi qüvvələri birləşməyə çağırırdı. Yazıçı bütün müxalif qüvvələrə müraciətlə yazırdı: *"İndi əqidə davası eləməkzamam deyil...".* Yusif Vəzirin 1919 ilin ağır



*"Hacıbəyli qardaşları"nın opera və operetta truppası. 1919*

erməni-daşnak təcavüzü dövründə yazılmış "Ermənilər və biz" publisist məqaləsində bu təcavüzün tarixi kökləri və siyasi-ictimai dayaqları təhlil edilir, onun iki yüz illik tarixi araşdırılırdı.

Ceyhun bəy Hacıbəyli, Hüseyn bəy Mirzəcamalov, Fərhad Ağazadə, Əlabbas Müznib və başqalarının yazılarında ən mühüm ictimai-siyasi məsələlər çox sərrast şəkildə, vətəndaşlıq mövqeyindən işıqlandırılırdı. Bu dövrdə Azərbaycan publisistikası cəmiyyətə təsir etmək üçün daha çox tarixi yaddaşa müraciət edir, keçmişin qəhrəmanhq ənənələrini yada salır, xalqı milli özünüdərkə çağırırdı. Lakin 1920 ilin Aprel işğalı nəticəsində Cümhuriyyət dövrünün istiqlalçı ədəbi qüvvələrinə ağır zərbə vuruldu. Qanlı repressiyalar, təqiblər Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış yeni ədəbi oyanışın, müvəqqəti olaraq qarşısını aldı.

**Teatr və musiqi.** T e a t r. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. İctimai həyatda teatrın rolu artdı.

Əsası 1873 ildə qoyulmuş peşəkar Azərbaycan teatr sənəti 20 əsrin əvvəlində milli mədəniyyətin ən sürətlə irəliləyən sahələrindən idi. 1900 ildə Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə ilk daimi teatr truppası yarandı. *"Nicat"* mədəni-maarif cəmiyyətinin nəzdində yaradılan teatr bölməsi (1906), qabaqcıl teatr xadimlərinin bir truppada birləşdirilməsi milli teatrın inkişafında mühüm rol oynadı. 1912 ildən "Səfa" cəmiyyətinin teatr bölməsi fəaliyyət göstərirdi.

Azərbaycan teatr sənətinin korifeyləri Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Sidqi Ruhulla və b. çox çətin şəraitdə fəaliyyət göstərsələr də, həqiqi xalq sənəti uğrunda fədakarlıqla və inamla mübarizə aparırdılar.

Azərbaycan teatrının qabaqcıl nümayəndələri cəmiyyətin mütərəqqi qüvvələrinin yardımına arxalanaraq, teatrın ideya-bədii səviyyəsini qaldırmaq və onu təşkilati cəhətdən möhkəmləndirmək üçün pərakəndə teatr truppalarının birləşdirilməsinə çalışırdılar. Məhz bunun nəticəsində aktyorların yaradıcılığının inkişafına, onların peşəkarlığının yüksəldilməsinə qayğı göstərən "Müsəlman artistləri cəmiyyəti" yaradıldı. Bütün bu truppalar milli dramaturgiyanın və dünya dramaturgiyasının ən yaxşı əsərlərini uğurla tamaşaya qoyurdular.

Lakin 1918 il mart soyqırımı zamanı Bakıda olan teatr və aktyor truppaları pərakəndə hala düşmüş, demək olar ki, fəaliyyətlərini dayandırmışdılar. Yalnız Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Bakıda teatr truppalarının yenidən təşkil olunmasına şərait yarandı. Cümhuriyyət dövründə Bakıda fəaliyyətini bərpa etmiş ilk truppa *"Hacıbəyli qardaşları"* olmuşdur. Truppa tanınmış sənətkarlardan Hacağa Abbasov, Mirzağa Əliyev, Əhməd Ağdamski, Cəlil Bağdadbəyov, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Muxtar Məhəmmədzadə, Rza Darablı, Sidqi Ruhulla, Ələkbər Hüseynzadə, Məmmədtağı Bağırzadə, Bağır



Azərbaycan Dövlət Teatrının möhürü, 1918



“Mikado” (indiki S.Vurğun adına Dövlət Rus Dram Teatrı) teatrının binası

Cabbarzadə, Əbülhəsən Anaplı, Əhməd Anatollu, Mir Mahmud Kazımovski, Məğfurə xanım, Yeva (Yevgeniya) Olenskaya, Semnur xanım Mina xanım və başqalarını bir yerə toplayaraq, həftədə üç gün növbə ilə dram, komediya, opera və operetta tamaşaları göstərir, repertuarını zənginləşdirmək qayğısına qalırdı.

"Hacıbəyli qardaşları"nın teatr truppasında Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Pəri-cadu", "Ağa Məhəmməd şah Qacar", Şəmsəddin Saminin "Gaveyi-ahəngər", Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar", Mehdi bəy Hacınskinin "Sultan Əbdülhəmidin "xəl"i və yaxud zülm və istibdadın axırı", Cəfər Cabbarlının "Ənvər bəyin Ədirnə fəthi", İsa bəy Aşurbəylinin "Azərbaycan" kimi dram əsərləri, Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", Zülfüqar Hacıbəylinin "Aşıq Qərib", "Evliykən subay", Müslüm Maqomayevin "Şah İsmayıl" kimi operaları və operettaları dəfələrlə göstərilmişdir.

Cümhuriyyət dövründə Azərbaycanın digər şəhər və qəzalarında da teatr truppaları təşkil olundu. Şuşada Hacıbəyli qardaşlarının teatr müdiriyyətinin filialı yaradıldı.

Bu dövrdə tamaşaların göstərilməsi üçün daimi teatr binasının olmaması (musiqili tamaşalar şəxsi teatrların səhnəsində göstərilirdi), mürtəcə qüvvələrin Azərbaycan teatrının tərəqqisinə əngəl törətməsi və s. çətinliklərə baxma-

Tağıyev teatrının binası



İsmayıl bəy Rüstəmbəyovun “Dövləti-bisəmər” dramının məramnaməsi. 1918, 19 dekabr





*Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının məramnaməsi. 1919, 27 may*



*Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə" dramının məramnaməsi. 1919, 17 sentyabr*

yaraq, ölkənin mədəni həyatı canlanır, yenilik abhavası aydın hiss edilirdi. Cümhuriyyət Hökumətinin teatrın inkişaf etdirilməsində məqsədyönlü işlərindən biri də Azərbaycan Dövlət Teatrının təşkili oldu. Azərbaycan professional teatrının tarixi 1873 ildən başlansa da, yalnız Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Teatrı statusu aldı.

Cümhuriyyət Hökumətinin 1918 il 9 oktyabr tarixli qərarına əsasən teatr işi maarif nazirliyinin sərəncamına verildi. Oktyabrın 18-də isə Hökumət Dövlət Teatrının təşkili haqqında xalq maarifi nazirinin məruzəsini dinləyərək, Mayılov qardaşları teatrının binasını (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) həmin teatr üçün almaq barədə qərar qəbul etdi. Qərarda Bakıda dövlət teatrının yaradılmasının vacibliyi və bunun üçün Mayılov qardaşları teatrı binasının daha münasib olduğu nəzərə alınaraq, xalq maarifi nazirinə teatrın binasını məcburi surətdə, lakin ədalətli qiymətlə nazirliyin sərəncamına almaq və bundan sonra onu Dövlət teatrı adlandırmaq tapşırılırdı. Azərbaycan səhnə sənətinin xadimləri yeni yaradılmış teatrın tərkibinə daxil oldular.

Azərbaycan Dövlət Teatrının açılışı və fəaliyyəti Xalq Cümhuriyyəti dövründə mədəni həyatın ən parlaq səhifələrindən biri idi. Əgər bu vaxta qədər "Hacıbəyli qardaşları" truppası, əsasən, opera və operetta tamaşaları göstərmişdisə, Dövlət Teatrı təşkil edildikdən sonra onun repertuarı zənginləşmiş, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı və digər görkəmli dramaturqların əsərləri ilə yanaşı, dünya klassiklərinin əsərləri də səhnəyə qoyulmuşdur.

Dövlət Teatrının açılmasını, onun tarixi əhəmiyyətini və vəzifələrini, aktyorluq sənəti və teatr qarşısında meydana çıxan bir sıra məsələləri etraflı şəkildə işıqlandıran ictimai xadim, publisist Mirzəbala Məmmədzadə "Hökumət və teatro" məqaləsində milli və qüdrətli bir səhnəyə malik olmaq üçün yüksək səviyyəli əsərlər meydana qoya biləcək yazıçıların, həmçinin həmin səhnə əsərlərini mükəmməl sənətkarlıqla xalqa çatdırmağa qadir olan aktyorların yetişdirilməsini zəruri sayır və onların hər ikisinin mövcud olduğunu bildirirdi.



1



2



3



4



5



6



7

*1. Hüseyn Ərəblinski Otello (V.Şekspir, "Otello") rolunda.*
*2. Əbülhəsən Anaplı Vəli (Üzeyir Hacıbəyli, "Arşın mal alan") rolunda.*
*3. Hüseynqulu Sarabski Məcnun (Üzeyir Hacıbəyli, "Leyli və Məcnun") rolunda.*
*4. Əhməd Ağdamski Leyli (Üzeyir Hacıbəyli, "Leyli və Məcnun") rolunda.*
*5. "Arşın mal alan" (Üzeyir Hacıbəyli) tamaşasından səhnə.*
*6. "Əsli və Kərəm" (Üzeyir Hacıbəyli) operasından səhnə.*
*7. Mirzağa Əliyev Məşədi İbad (Üzeyir Hacıbəyli, "O olmasın, bu olsun") rolunda.*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət Teatrının binasında opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsertlərlə yanaşı, mühüm dövlət tədbirləri də keçirilirdi. Dövlət Teatrının pərdələri ilk dəfə 1918 il noyabrın 4-də Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açıldı.



Zülfüqar, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları. 1918

1919 il avqustun 22-də Bakı "Türk aktyorları ittifaqı" idarəsi ilə "Hacıbəyli qardaşları" müdiriyyətinin birgə iclasında "milli səhnəmizi daha müntəzəm bir hala salmaq" məsələsi müzakirə edilmiş, repertuardakı istər dramatik, istərsə də musiqili əsərləri həyat gerçəkliyinə uyğunlaşdırmaq, müqtədir aktyor və aktrisalar hazırlamaq, onların peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə dörd şöbədən ibarət "bədaye kursları"nın təsis edilməsi qərara alınmışdı. Onun dram şöbəsinə Abbas Mirzə Şərifzadə, Hüseynqulu Sarabski, komediya şöbəsinə Mirzağa Əliyev, musiqi şöbəsinə Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları, Müslüm Maqomayev, Qurban Pirimov, ədəbiyyat şöbəsinə isə Əlabbas Müznib və Rza Zəki müəllim təsdiq olunmuşdular. Kurslara azərbaycanlı həvəskar aktyorlar, habelə müxtəlif millətlərdən olan aktrisalar cəlb edildilər.

Azərbaycan Hökuməti müsəlman teatr truppasını öz himayəsinə götürməyi qərara almışdı. Nazirlər Şurası 1919 il 17 noyabr tarixli iclasında maarif nazirinin türk opera-dram teatrının təşkili haqqında məruzəsini dinləyərək, Dövlət Türk Opera-Dram Teatrının yaradılmasını nəzərdə tutan qanun layihəsini bəyəndi və dövlət teatrının bərpası üçün 300 min 605 manat vəsait ayırdı. Beləliklə, Azərbaycan türk teatrı milliləşdirildi və dövlətin himayəsinə verildi. Bağlanılan müqavilələrin və dövlət xidmətinin şərtləri ilə tanış olmaq üçün aktyor və aktrisaların dövlət teatrına dəvət olunmasına başlandı.

Xalq Maarifi Nazirliyi teatrın inkişafına qayğı göstərərək, Parlamentə teatr kollektivləri və digər mədəniyyət müəssisələri üzərinə qoyulmuş vergilərin ləğv olunması barəsində məruzə təqdim etdi. Məruzədə həmin vergilərin hədsiz dərəcədə çox olmasını təsdiq edən faktlar göstərilirdi. Nəticədə, Parlament teatr tamaşalarına və digər kütləvi tamaşalara qoyulmuş dövlət vergilərini yarıbayarı azaltdı.

1919 il oktyabrın 24-də teatr mövsümünü Azərbaycan Dövlət Dram Teatrının opera və operetta truppası açdı. Parlament və Hökumət üzvlərinin iştirak etdiyi açılışda İsa bəy Aşurbəyovun *"Azərbaycan "* adlı tarixi pyesi böyük uğurla oynanıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyətin inkişafına göstərdiyi qayğı nəticəsində milli teatrın inkişafında müəyyən nəzərəçarpan uğurlar qazanıldı. "Dəmirçi Gavə", "Nadir şah", "Ölülər", "Yağışdan çıxdıq, yağmura düşdük", "Bəxtsiz cavan", "Əlli yaşında cavan", "Şamdan bəy", "O olmasın, bu olsun", "Ağa Məhəmməd şah Qacar", "Şah İsmayıl", "Pəri-cadu", "Otello", "Qaçaqlar", "Dağılan tifaq", "Əlmənsur", "Hacı Qara", "Bədbəxt milyonçu", "Vətən, yaxud Silistrə", "Ev tərbiyəsinin bir şəkli", "Evliykən subay", "Arşın mal alan" əsərləri milli teatrın repertuarında ən yaxşı tamaşalar idi.

Xeyriyyə tamaşalarının təşkili teatrın fəaliyyətində, bir növ, ənənəyə çevrilir, "Azərbaycan" qəzetində həlak olmuş döyüşçü ailələrinin xeyrinə təşkil olunan teatr tamaşaları barəsində tez-tez elanlar verilirdi. Bu işdə Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının truppası xüsusi fəallıq göstərirdi. Dövlət teatrının direktoru Zülfüqar Hacıbəyli tərəfindən təşkil edilmiş xeyriyyə tamaşasından Azərbaycan ordusunun bölməsinə 22292 manat 80 qəpik pul vəsaiti köçürülmüşdü. Ağdaşda yerli ziyalıların təşkil etdikləri xeyriyyə tamaşasından toplanmış vəsait Dağıstanın "Qızıl Aypara Cəmiyyəti"nə göndərilmişdi.

Azərbaycan teatrının repertuarında müstəqillik uğrunda mübarizə tarixinə həsr olunmuş dram əsərləri mühüm yer tuturdu. Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə", İsa bəy Aşurbəyovun "Azərbaycan", Cəfər Cabbarlının "Bakı müharibəsi", "Ədirnə fəthi" kimi vətənpərvərlik ruhlu əsərləri oynanılırdı.

Teatrda tamaşaya qoyulan əsərlərin keyfiyyətinə, cəmiyyətin bədii zövqünün düzgün formalaşmasına ciddi diqqət yetirilirdi. Səhnə əsərlərinin seçilməsi və onların ədəbi və bədii keyfiyyətlərinə lazımi diqqət yetirilməsi üçün xüsusi ədəbi komissiya yaradılmışdı.

Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayırdı. Rəsmi Hökumət qəzetlərinin səhifələrində teatr tamaşaları haqqında elanlar, rolların ifaçıları barədə məlumatlar və digər zəruri informasiyalar çap olunurdu. Hüseyn Ərəblinskinin faciəli surətdə ölümünün cəmiyyət və Hökumət dairələrində doğurduğu əks-səda dövlətin teatra necə böyük əhəmiyyət verdiyini göstərirdi. Böyük aktyor və rejissorun matəm mərasimindəki çıxışında Məhəmməd Əmin Rəsulzadə onun fəaliyyətini yüksək qiymətləndirmiş, Azərbaycanda səhnə sənətinin inkişafında və çiçəklənməsində böyük xidmətlərini qeyd etmişdi. O, Hüseyn Ərəblinskinin ən böyük xidmətinin xalqa azadlıq və müstəqillik ruhunun və



*Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Hüseynqulu Sarabski və Hənəfi Terequlov*



*Əzim Əzimzadə "Oxutmuram, əl çəkin" (Mirzə Ələkbər Sabir, "Hophopnamə")*

ideyalarının aşılanması ilə bağlı olduğunu, Azərbaycanın müstəqilliyi ideyasının mədəniyyət xadimlərinin fəaliyyəti hesabına gerçəkləşdiyini xüsusi olaraq vurğulayırdı.

Cümhuriyyət dövründə Azərbaycanın digər mədəniyyət mərkəzlərində də teatr sənəti inkişaf etməkdə idi. Naxçıvan teatrı bunların içərisində xüsusilə fərqlənirdi. Naxçıvan teatrının (təməli 19 əsrin 80-ci illərinin əvvəllərində qoyulmuşdur) təşəkkülündə dövrün ictimai-siyasi və fəlsəfi fikrinin inkişafı şəraitində yetişən maarifpərvər ziyalılarımızdan Cəlil Məmmədquluzadə, Böyük xan Naxçıvani, Əliqulu Qəmküsar, Rza Təhmasib, Rza İsfəndiyarlı, Mir Həsən Mirişli və b.-nın mühüm xidməti olmuşdur. "Ölülər", "Evliykən subay", "Arşın mal alan", "Dağılan tifaq", "Hacı Qara", "Bəxtsiz cavan" və digər əsərlər tamaşaya qoyuldu. Aktyorlar Mirzə Ələkbər Sabirin və onun ədəbi məktəbinin davamçıları olan şairlərin satiraları əsasında səhnəciklər hazırlanmasına da xüsusi diqqət yetirirdilər.

Bu illərdə Rza Təhmasibin rejissorluğu ilə Cəlil Məmmədquluzadənin "Ölülər" komediyası tamaşaya qoyuldu və Naxçıvanın mədəni həyatında böyük hadisəyə çevrildi. "Ölülər" Naxçıvan teatrının səhnəsində görünməmiş uğur qazandı. Qüdrətli aktyor Rza Təhmasibin və mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın böyük məharətlə yaratdıqları İsgəndər və Şeyx Nəsrullah obrazları Azərbaycanın teatr tarixinə qızıl hərflərlə yazıldı. 1919 ilin martında Əliqulu Qəmküsar Tiflisdə qaraguruhçular tərəfindən xaincəsinə qətlə yetirildi.

Azərbaycan teatrının müqtədir ustadları Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Sidqi Ruhulla və b. Naxçıvana gələrək yerli aktyor və rejissorlarla birlikdə tamaşalar göstərir, dəyərli məsləhətləri ilə teatrın tərəqqisinə yaxından kömək göstərirdilər. 1919 ildə Naxçıvan teatrı Təbrizdə qastrol səfərində də olmuşdur.

Azərbaycan teatrının qonşu ölkələrin incəsənət xadimləri ilə tarixi əlaqələri davam edir və genişlənirdi. 1918 ilin oktyabrında Tiflisdəki Azərbaycan teatr truppası Türkiyəyə qastrola yola düşdü. Onun tərkibində Mir Seyfəddin Kirmanşahlı, Mustafa Mərdanov, İbrahim İsfahanlı və başqa səhnə xadimləri çıxış edirdilər. Azərbaycan artistlərinin qastrolları təkcə İstanbulda 3 aydan çox çəkmişdi. Türkiyə qəzetləri yazırdı ki, ***"Qafqazın zəngin səhnələrində tamaşalar verməyə alışmış aktyorlar qətiyyən Avropanı yamsılamadan, öz milli xəzinələrindən götürülmüş və bizim ruhumuza tamamilə uyğun olan tamaşalar verirlər".***

"Hacıbəyli qardaşları" teatr truppası Qafqazın bir çox şəhərində, İranda qastrolda olmuş, Rəşt və Ənzəli şəhərlərində teatr tamaşaları göstərmişdi. 1920 ilin yazında Bakıdan Təbrizə teatr xadimləri qrupu göndərilmişdi. Təbrizdə Şeyx Məhəmməd Xiyabani onları qəbul etmiş, kömək göstərmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti illərində maarif xadimləri, yaradıcı ziyalılar, ədib və mühərrirlər (Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Seyid Hüseyn, Hacı İbrahim Qaşımov, Xəlil İbrahim, Mehdi bəy Hacınski və b.) teatr tənqidi ilə məşğul olur, bu sahədə baş verən prosesləri diqqətlə izləyir, yeni tamaşalar, rejissor işi və aktyor oyunu barədə fikirlər söyləyir, teatr sənətinin inkişaf problemlərinə dair məqalələr dərc etdirirdilər. Cümhuriyyət illərində teatr sahəsində həyata keçirilən mühüm tədbirlər sonralar Azərbaycanda teatr sənətinin inkişafında mühüm rol oynadı.

M u s i q i. Azərbaycan teatrı milli opera sənətinin yaranmasında xüsusi rol oynamış və ilk Azərbaycan operaları məhz bu teatrın səhnəsində tamaşaya qoyulmuşdu. "Leyli və Məcnun" operasının tamaşaya qoyulduğu 1908 il yanvarın 12-si Azərbaycan musiqisi tarixində milli Azərbaycan operasının yarandığı gün oldu. Üzeyir bəy Hacıbəyli ilk "Leyli və Məcnun" operasından sonra "Şeyx Sənan", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu" kimi digər muğam operalarını da yaratdı. O, Azərbaycanda musiqili komediya janrının da banisidir. Onun "Ər və arvad", "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Arşın mal alan" musiqili komediyalarında Azərbaycan xalqının adət-ənənələri, həyat və məişəti öz əksini tapmışdır.

Üzeyir bəy 1919 ildə "Dağıstan" ("Qaytağı"), tərəkəməsayağı "Azərbaycan" adlı xoreoqrafik əsərlərini bəstələmişdi ("Azərbaycan" əsəri professional milli baletimizin ilk nümunəsi sayılır). O dövrün mətbuatından məlum olur ki, həmin xoreoqrafik əsər səhnə üçün hazırlanırdı. Bəstəkar teatrın, o cümlədən, musiqili teatrın xalqın maariflənməsində, bədii zövqünün inkişafında oynadığı böyük rolu nəzərə alır və opera yaradıcılığı ilə yanaşı, öz fikirlərini mətbuatda da açıqlayırdı.

Milli musiqi janrlarının yaranması yolunda Üzeyir bəy Hacıbəyli ilə çiyin-çiyinə çalışan böyük sənətkarlardan biri də Müslüm Maqomayev idi. Teatr fəaliyyətinə orkestrin skripkaçısı kimi başlayan Müslüm Maqomayev tezliklə orkestrin dirijoru olmuş və Azərbaycan opera sənətinin daha bir klassik əsərini - "Şah İsmayıl" operasını yaratmışdır. 1916 ildə yazılmış bu opera məhz 1919 ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə səhnəyə qoyulmuş və böyük uğur qazanmışdı.

Azərbaycanın musiqi-konsert həyatı da getdikcə canlanırdı. Bir çox görkəmli musiqiçilər Bakıya qastrol səfərlərinə gəlir, xarici və yerli aktyorların qüvvəsilə rus və italyan bəstəkarlarının operaları tamaşaya qoyulur, simfonik konsertlər verilirdi. Xalqın maariflənməsində, milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında, milli mədəniyyətin inkişafında bütün bunların böyük əhəmiyyəti var idi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən istiqlal hərəkatı fədailəri, ziyalılar milli mənlik şüurunun, milli ruhun və ideologiyanın dirçəldilməsi sahəsində, tarixi və milli varislik ənənələrinin təbliği və tədqiqində önəmli rol oynadılar. 1918 ilin sonlarında Bakıda *"Türk gecələri"* konsertlərinin təşkili də bununla əlaqədar idi.

Geniş proqramlı "Türk gecələri"ndə türk xalqlarının musiqisinə və ədəbiyyatına geniş yer verilir, "Azərbaycanın müstəqilliyi", "Türk qadınının dünyası", "Türk tipləri", "Milli birlik" və s. tamaşalar göstərilir, tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şair və yazıçıları, artist və rəssamları iştirak edirdilər. Gecələrdə türk xalqlarının etnoqrafiyasına və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər nümayiş etdirilirdi. "Türk gecələri" konsertlərində Azərbaycan Hökumətinin üzvləri və digər siyasi xadimlər də iştirak edirdilər.

Görkəmli teatr və musiqi xadimləri Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Cahangir Zeynalov, Sidqi Ruhulla, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyli və başqaları müxtəlif teatr və konsert tamaşaları təşkil edirdilər.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xalq xanəndələri və el aşıqları müstəsna rol oynamışlar. Xalq içərisindən çıxmış, öz gözəl səsi və sənəti ilə nəinki Azərbaycanda, həmçinin bütün Qafqazda və Yaxın Şərqdə də məşhur olan *Qaryağdı oğlu Cabbar, Keçəçi Məhəmməd,* Seyid *Şuşinski,* Məcid *Behbudov* və başqaları ölkənin mədəni həyatında, bayramlarda, xeyriyyə konsertlərində və başqa el şənliklərində yaxından iştirak edirdilər. Bu illərdə, eyni zamanda, ustad aşıqlardan Abbasqulu, Nəcəfqulu və Ələsgərin iştirakı ilə "Şərq konsertləri" verilirdi. Azərbaycanda xanəndəlik sənətinin yüksəlişi ilə əlaqədar olaraq çalğı musiqisi də inkişaf etmiş, Məşədi Cəmil *Əmirov,* Qurban *Pirimov* və başqa ustad tarzənlər yetişmişdir.

Fitri istedada, güclü və gözəl səsə, yüksək aktyorluq məharətinə malik olan Fatma *Muxtarova* bir çox məşhur müğənnilərlə çıxış etmiş, böyük şöhrət qazanmışdır.

Bu dövrdə Azərbaycanın musiqi həyatında "Beynəlmiləl", "Marselyoza" kimi inqilabi mahnıların, Koroğlu, Qaçaq Nəbi, Səttarxan haqqında tarixi mahnıların xalq arasında yayılması təsadüfi deyildi. Dövrün ümumi əhvali-ruhiyyəsi, xalqın inqilabi fəallığı, demokratik meyllər belə mahnıların özünəməxsus melodiyalarında öz ifadəsini tapırdı. Üzeyir bəy Hacıbəyli "Azərbaycan marşı"nı (sözləri Əhməd Cavadındır) məhz həmin mahnıların təsiri altında yazmışdı. Bu əsərdə bəstəkar Cümhuriyyət dövründə xalqının qəlbində baş qaldıran vətənpərvərlik hisslərini, mütərəqqi ideyaları, milli qüruru ifadə etmişdi. Üzeyir Hacıbəyli tərəfindən yazılmış "Azərbaycan marşı" 1992 il 27 may tarixli fərmanla Azərbaycan Respublikasının Dövlət himni kimi qəbul olundu, 1993 il martın 2-də isə onun Əsasnaməsi təsdiq edildi.

**Təsviri sənət və memarlıq.** Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi önəm verirdi. Ən mühüm dövlət atributlarından biri kimi Dövlət bayrağının qəbul edilməsi daha tez həyata keçirildi. Əli bəy Hüseynzadənin məşhur "türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarı bu işdə əsas götürülmüşdü. Cümhuriyyət Hökuməti 1918 il noyabrın 9-da "yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizgüşəli ulduzdan ibarət" bayrağın milli bayraq kimi təsdiq olunması haqqında qərar qəbul etdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 il martın 23-də dövlət gerbinin və rəsmi sənədlərdə üzərində dövlətin adı və gerbi təsvir edilən dövlət möhürünün layihələrini hazırlamaq məqsədilə müsabiqə elan olunması barədə qərar qəbul etmişdi. Çox güman ki, müsabiqəyə göndərilən layihələrin heç biri bəyənilmədiyindən qəbul edilməmişdi. Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi ordenlər, milli himn, dövlət gerbi və möhürü üçün layihələrin hazırlanması üçün yeni müsabiqə elan olunması barədə qərar çıxardı.

Dövlət gerbinin, orden və medalların hazırlanmasında ilk peşəkar heykəltəraş Zeynal *Əlizadə* iştirak edirdi. Onun layihəsinə əsasən buraxılmış döş və xatirə medallarında Parlament binası, bayraqlar, aypara, səkkizguşəli ulduz, günəşin doğması, gül çələngləri həkk olunmuşdu. Ən yaxşı layihə Hökumət mükafatı üçün nəzərdə tutulmuşdu. Lakin 1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal olunması nəticəsində milli dövlətçiliyin süqutu bu tədbirlərin başa çatdırılmasına imkan vermədi. 1991 ildə Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlan-



***Bakı şəhərinin azad edilməsində şəhid düşmüş Azərbaycan və türk əsgərlərinin şərəfinə ucaldılacaq abidənin layihəsi.***
Memar Zivər bəy Əhmədbəyov

mış gerb layihəsi təkmilləşdirildi.1993 il 19 yanvar tarixli Konstitusiya qanunu ilə Dövlət gerbinin rəngli və ağ-qara təsviri, fevralın 23-də isə Əsasnaməsi təsdiq edildi.

Milli rəssamlıq sənətinin inkişafına xüsusi əhəmiyyət verilirdi. 1919 ildə nəşr olunan *"Zənbur"* jurnalında Azərbaycan satirik qrafıkasının banisi Əzim *Əzimzadənin* zamanın ictimai-siyasi problemləri ilə səsləşən karikaturaları dərc olunurdu. Karikaturalardan birində silahlı Denikini, Kolçakı və Androniki ciblərində gəzdirən ingilis qəsbkarları təsvir olunmuşdu. Onun rəsmlərində cəhalət, nadanlıq, qaniçən erməni-daşnak quldurlarının vəhşi və iyrənc əməlləri ifşa edilirdi. Bu mövzu rəssam Bəhruz *Kəngərlinin* də yaradıcılığında əhəmiyyətli yer tuturdu. Onun erməni-müsəlman münaqişəsini əks etdirən məşhur "Qaçqınlar" silsiləsi realist Azərbaycan rəssamlıq sənətinin nailiyyəti idi. Əzim Əzimzadə "Otello", "Aşıq Qərib", "Dəmirçi Gavə" tamaşalarının bədii tərtibatı üçün dekor və geyim eskizləri hazırlamışdı. Bəhruz Kəngərli Naxçıvan teatrında "Hacı Qara", "Ölülər", "Dağılan tifaq", "Pəri-cadu" və s. tamaşalara tərtibat vermişdi. Milli mədəniyyətin tərəqqisi və inkişafı yolunda ilk ciddi addımlar atılmışdı. Əli bəy Hüseynzadənin "Şeyxülamın portreti" və "Bibiheybət məscidi" tablolarını xüsusilə qeyd etmək lazımdır. Bu dövrdə rəssamlar plakat sahəsində də diqqətəlayiq əsərlər yaratmışlar.

Memarlıq və heykəltəraşlıq sənəti sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdi. Bakı Texniki Məktəbinin nəzdində heykəltəraşlıq sinfinin açılması nəzərdə tutulmuşdu. 1918 ildə Bakının erməni-daşnak quldurları tərəfindən yandırılmış möhtəşəm binaları - Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi, "İsmailiyyə" Azərbaycan Xalq Cümhuriyyəti dövründə şəhərin baş memarı vəzifəsində çalışan görkəmli memar Zivər bəy Əhmədbəyovun layihələri əsasında bərpa olunmuşdu. Erməni millətçilərinin basqını nəticəsində xarabalığa çevrilmiş Şamaxı şəhərini bərpa etmək üçün Zivər bəyin təşəbbüsü ilə "Yeni Şirvan cəmiyyəti təsis olunmuşdu. O, mühəndis Ömər bəy Avuyevlə birlikdə "İslam incəsənətini sevənlər və qoruyanlar cəmiyyəti"ni də yaratmışdı. Zivər bəy Əhmədbəyov, memar Nəbioğlu Qacar, mühəndis Məmməd Həsən Hacınski və Hacı bəy Axundov Şirvanşahlar Sarayı kompleksin tədqiqi sahəsində fəaliyyət göstərmişlər. Sənətşünaslardan Məhəmməd *Ağaoğlu,* Hüseyn bəy *Mirzəcamalov,* memar Nəbioğlu Qacar islam mədəniyyəti, muzeyşünaslıq qədim maddi mədəniyyət nümunələrini qorumaq sahəsində fəal çalışmışlar.

1920 il yanvarın 1-də "Türk aktyorları ittifaqf"ı yığıncağında məşhur aktyor, peşəkar milli teatr sənəti banilərindən biri Hüseyn Ərəblinskinin qəbri üzərində monumental abidənin ucaldılması qərara alınmışdı. Zivər bəy Əhmədbəyov şəhərin daşnaklar və eser-menşeviklərdən ibarət "Sentrokaspi" hökumətindən azad edilməsi (1918, 15 sentyabr) zamanı şəhid olmuş azərbaycanlı türk əsgərlərinin xatirəsini əbədiləşdirmək üçün Çənbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabanı) ucaqdılacaq türbənin görünüşündə orta əsr Azərbaycan memarlıq incilərindən məharətlə istifadə olunmuşdu. Bakı müsəlman xeyriyyə cəmiyyətinin təşəbbüsü ilə tikiləcək bu abidənin inşaat işləri 1919 il sentyabrın 15-də başlamalı və 1920 ilin sentyabrınadək başa çatmalı idi. Belə abidələri Gəncədə də ucaltmaq, o cümlədən burada Nizami Gəncəviyə o dövr üçün müasir üslubda abidə ucaltmaq nəzərdə tutulurdu. Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirinin müavini Adil xan Ziyadxanov Tehranda nəşr olunmuş memuarlarında bu abidənin layihəsinin mövcud olduğunu xatırlayır. Digər bir qaynaqda Xalq Maarifi Nazirliyi tərəfindən Gəncədə Nizami məqbərəsinin tikintisinə 500 min manat vəsait ayrıldığı bildirilir.

Səyyahların diqqətini cəlb edən Bibiheybət məscidi memarlıq abidəsi Azərbaycanda *Aprel işğalından (1920)* sonra vəhşicəsinə dağıdılmışdı. Həmin abidə prezident Heydər Əliyevin xüsusi qayğısı sayəsində və Əli bəy Hüseynzadənin tablosu əsasında 2000 ildə bərpa olunmuşdur.

Ölkənin mədəni yüksəlişində kadrların həlledici rolunu nəzərə alan Cümhuriyyət Hökuməti müxtəlif sahələr üzrə ali təhsilli peşə sahiblərinin hazırlanmasına xüsusi qayğı göstərirdi. Azərbaycan Parlamentinin 1919 il 1 sentyabr tarixli qərarı ilə 100 nəfər azərbaycanlı gənc Avropanın ali məktəblərində təhsil almağa yola salındı. Onların içərisində rəssamlıq, heykəltəraşlıq və memarlıq ixtisaslarına yiyələnmək üçün göndərilən tələbələr də vardı.

*Əd:*. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabat), c.1,2, B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.4,5,6, B., 2000; 2001; Fətəli xan Xoyski. Həyat və fəaliyyeti (sənədlər və materiallar),B., 1998; Məmmədzadə Mirzə Bala, Milli Azərbaycan hərəkatı, B., 1992; Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, B,, 1990; y e n ə o n u n, Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi, B., 1991; y e n ə o n u n, Əsərləri (toplayanı, tərtib və transliterasiya edəni prof. Ş.Hüseynov), c.l (1903-09), c.2 (1909-19...), B., 1992; y e n e o n u n, Bolşeviklərin Şərq siyasəti, B., 1994; Şeyxzamanlı N., Azərbaycan istiqlal mücadiləsi xatirələri, B., 1998; Topçubaşov Ə.M., Azərbaycanın təşəkkülü, Azərbaycan EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). 1990, № 3; Azərbaycan Demokratik Respublikası: tarix, ictimai-siyasi və mədəni həyat, B., 1992; "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri". Beynəlxalq sessiyanın materialları (mart-may, 2003), B., 2003, № 1-17; Azərbaycan Xalq Cümhuriyyəti və müasir dövr, B., 1999; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Azerbaycanda dövlətçilik və onun rəmzləri (tərtib edəni və mətnin müəllifi N. Vəlixanlı), B., 2000; Axundov N., Azərbaycanın dövri mətbuatı (1832-1920), B., 1987; Baykara H., Azərbaycan istiqlal mü-barizəsi tarixi, B., 1992; Əliyev I,, Məhərrəmov E., Azərbaycan Res-publikasımn Dövlət rəmzləri, B., 2000; Hacıyev A., Qars və Araz-Türk Respublikalarının tarixindən, B.,1994; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci iller), B., 1993; Hüsey-nov Ş., Müstəqilliyin çətin yolu, B., 1996; İsgəndərov A., 1918-ci il mart qırğınının tarixşiinaslığı, B., 1997; Qasımov C, Repressiyadan deportasiyaya doğru, B., 1998; Quliyev V., Azərbaycanı dünyaya tanıdan cümhuriyyət. B., 1998; Mahmudov Y., Azərbaycanın dövlətçilik tarixindən, "Azərbaycan Respublikası 1991-2001" kitabında, B., 2001; y e n ə o n u n, Azərbaycanın dövlətçilik və parlament ənənələri tarixindən, "Müstəqil dövlətimiz və parlamentimiz" kitabında, B., 2001; Məmmədov X., Azərbaycan milli hərəkatı (1875-1918), B., 1996; Mərdanov M,, Quliyev Ə., Azərbaycan Respublikasının dövlət rəmzləri, B., 2001; Musayev I., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996; y e n ə o n u n, Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l, (mart 1917-1920-ci illər), B., 2003; Müstəqil dövlətimiz və parlamentimiz,B.,2001; N ə c ə f o v B., ADR (daxili və xarici siyasət). B., 1992; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər), B., 1990; yenə onun Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Nəzirli Ş., *Arxivlərinin* sirri açılır, B., 1999; yenə onun, Cümhuriyyət generalları, B Oruclu M., Azərbaycanda və mühacirətdə müsavat partiyasının fəaliyyəti; (1911-1992), B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi 2001; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə; aparan yollar, B., 2004; Süleymanov M., Azərbaycan ordusu 1920), B., 1998; yenə onun, Qafqaz İslam Ordusu və Azərbaycan 1999; Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat yüzilliyin sonu - XX yüzilliyin əvvəli), B., 1999; Tahirli A., Azərbaycan mühacirəti, B., 2001; yenə onun, Azərbaycan mühacirət mətbuatı, h. 1-2, B., 2002-2003; Yaqublu N., Azərbaycan milli mücadiləsi və M.Ə.Rəsulzadə, B., 2001; yenə onun, Müsavat partiyasının tarixi, B., Vəkilov R.Ə., Azərbaycan respublikasının yaranma tarixi, B. Адрес-календары Азербайджанской Республики на 1920 г., B., 1920; Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Парламент (стенографические отчеты), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Республика. Документы и материалы (1918-192 гг.), Б., 1998; Т о п ч и б а ш е в А. М.., Меморандум, Б., 1993; y e n ə o n u n , Дипломатические беседы А.А. Т о п ч и б а ш е в а в Стамбуле (Записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики (1918 -1919 гг.), Б., 1994; Гаджибейли Дж., Избранное, Б., 1993; Азербайджанская Республика (1918 -1920 гг.), Б., 1998; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика. Страницы политической истории 1918 – 1920 гг., Б., 1994; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997; Балаев А., Азербайджанское национально – демократическое движение 1917 – 1920 гг., Б., 1990; Дарабади П.Г., Военные проблемы политической истории Азербайджана в начале в XX века, Б., 1991; Исторические факты о деяниях армян на азербайджанской земле (редакторы – согставители Тамилла Мусаева и Адиль Мамедов), Б., 2003.

# A

**ABBAS SƏHHƏT,** Abbasqulu Əlabbas oğlu M e h d i z a d ə (1874,Şamaxı- 11.5.1918, Gəncə)- şair, nasir, dramaturq, publisist, maarif xadimi. Ruhani ailəsində doğulmuşdur. Şamaxıda məhəllə məktəbində (1881-93), Məşhəddə (İran) mədrəsədə (1894), Tehranda "Mədrəseyi-nizamiyyeyi-Nasiriyyə" darülfünununda (1894-1900) təhsil almış, göz



həkimi ixtisasına yiyələnmiş Qaşqay (İran) xanı Zərğamüssəltənənin sarayında həkim (1900- 01), Şamaxı realnı məktəbində azərbaycan dili müəllimi (1906- 18) işləmişdir. Abbas Səhhət ədəbi yaradıcılığa 19 əsrin sonunda başlamış, 20 əsrin əvvəlində lirik-romantik ("Oxucularıma", "Dilbəri-hürriyyətə", "Şikayət", "Tərcümeyihalım, yaxud hülulum", "Şair, şeir pərisi və şəhərli"), realist-satirik ("Əkinçi nəğməsi", "Özlərini sevənlərə", "Alimnümalar", "Kəlniyyət" satiraları) şair, tərcüməçi (A.S.Puşkindən, M.Y. Lermontovdan, İ.A.Krılovdan, Qərbi Avropa şairlərindən tərcümələr), nasir ("Bədbəxt ailə", "Qaragünlü Həlimə", "Volqa səyahəti"), dramaturq ("Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi", "Yoxsulluq eyib deyil", "Tağı və Nağı"), publisist ("Təzə şeir necə olmalıdır?", "Qara xəbər", "Məktəblərdə ana dili") kimi çoxşaxəli fəaliyyət göstərmişdir. Abbas Səhhətin "Sınıq saz" (1912), "Məğrib günəşləri" (1912), "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi" (1914) kitabları, "Yeni məktəb" (1909), Mahmud bəy Mahmudbəyovla birgə "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərslikləri nəşr olunmuşdur. Yaxın dost olduğu Sabirin əsərlərini toplayaraq, ilk dəfə "Hophopnamə" adı ilə nəşr etdirmişdir (1912). Abbas Səhhətin əsərlərinin əsas qəhrəmanı vətəndir, millətdir:

***Hər kimin qəlbi, ya vicdanı deyildir satılıq,***
***Hər kimin daş kimi yoxdur ürəyində qatılıq,***
***Millətin halını gördükcə gərəkdir yansın***
***Dərdinə qalmağı daim özünə borc bilsin.***
***Vətən uğrunda gərək şəxs fədakar olsun,***
***Böylə mövsümdə yatan kimsələrə ar olsun.***
***... Ya ər ol ortaya çıx, gəl kömək et qardaşına,***
***Ya gedib evdə otur, həm də ləçək sal başına.***

Başqa bir şerində vetənperver şair belə deyir:

***Şişə çəkməkdə diriykən ətimi,***
***Atmaram mən Vətəni, millətimi...***

Maarifçilik, islamçılıq və türkçülük baxışları zəminində istiqlaliyyət, siyasi azadlıq, milli müstəqillik uğrunda mübarizə Abbas Səhhət yaradıcılığının leytmotivini təşkil edir. Şairin "Fəryadi-intibah, yaxud amali-vətənpərvəranə", "Dilbəri-hürriyyətə", "Qəzet nədir?", "Bəradərim Abdulla Şaiq cənablarına", "Beradərim Firidun bəy Köçərli cənablarına", "Şair, şeir pərisi və şəhərli", "İrəli" və s.əsərlərində intibaha çağırş nidaları qabarıq surətdə ifadə olunmuşdur:

***Böylə qoyulmuş aləmin binası,***
***Dəyişməkdir tərəqqinin əsası.***
***Bəxt, qismət kimi əlfazı unut,***
***Səy eylə, bazuyu-iqbalını tut.***

1917 il Fevral inqilabından sonra Abbas Səhhətin istiqlal haqqında düşüncələri konkretləşir, onların əməli surətdə həyata keçirilməsi üçün axtarış dövrü başlanır. Ədibin yaradıcılığında, xüsusilə publisistikasında cümhuriyyət quruluşunun təbliği ön plana keçir, Oktyabr çevrilişindən sonra isə ölkədə yaranmaş hərc-mərclikdən xilas olmaq üçün "mükəmməl, adil, tərəqqipərvər bir Hökumətimizin" qurulması zəruri siyasi tələb kimi irəli sürülürdü.

"Millət məclisi" məqaləsində isə Abbas Səhhət maarifçilik dünyagörüşündən çıxış edərək, "cümhuri" idarəyə malik olmaq üçün vətəndaşlarda "cümhuriyyəti ruh" tərbiyə etməyi başlıca şərt sayırdı. Şairin fikrincə, "öz hüquq və vəzifəsinə, bəşəriyyət haqqına, insanlıq vəzifəsinə" bələd olmayan xalq qazandığı azadlığı qoruyub saxlaya bilməz. Şair ziyalıları səfərbər edib xalqın arasına göndərməyi, "vaxt və zamana münasib vəzifə və hüquqi-

bəşər haqqında, hürriyyət və məşrutiyyət babında sadə və asan bir dil ilə camaata bəyanat verməyi" lazım bilirdi. O, əhalini siyasi cəhətdən maarifləndirdikdən sonra hürriyyətin "möhkəm və payidar" olacağına inanırdı. Abbas Səhhət özünü belə amal uğrunda mübarizəyə hazırlayırdı.

1918 ilin martında erməni-daşnak quldur dəstələrinin Şamaxıda törətdiyi soyqırımından sonra başlanan qaçqın həyatı, üzləşdiyi məşəqqət və nəhayət, yatalaq xəstəliyi şairin ölümü ilə nəticələndi. O, cümhuriyyət barədə arzularını həyata keçirmək üçün əməli fəaliyyət göstərə bilmədi.

Əsərləri: Əsərləri, B., 1950; Seçilmiş əsərləri, 2 cilddə, B., 1975-76.

*Əd.*: Mir Cəlal, Abbas Səhhət haqqında, "Abbas Səhhət. Əsərləri" kitabında, B., 1935; Mirəhmədov Ə., Aşiq kimi, onun "Azərbaycan ədəbiyyatına dair tədqiqlər" kitabında, B., 1983; T a l ı b z a d ə K., Abbas Səhhət, B., 1986.

**ABBASAĞA NAZİR,** Q a y ı b o v Abbasağa Mirzə Nəbi əfəndi oğlu (9.10.1849, Qazax mahalının Salahlı k. - 30.12.1919, Qazax) - şair. Ruhani-şair ailəsində doğulmuşdur. Salahlıda Mirzə Hüseyn Qayıbovun xüsusi məktəbində, Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdindəki məktəbdə təhsil almış, Şərq və rus ədəbiyyatını, dini və dünyəvi elmləri, Azərbaycan, rus, fars və ərəb dillərini öyrənmişdir. Salahlı kənd məktəbində müəllim (1869-73), Tiflisdə Qafqaz Ruhani İdarəsində katib köməkçisi, katib və baş katib (1874-1910) işləmişdir.

Yaradıcılığa lirik şair kimi başlamış, Hafizin və Füzulinin təsiri altında qəzəllər, Ömər Xəyyam üslubunda rübailər yazmışdır. Avtobioqrafik "Bəyanihal" poemasının (1907), didaktik "Molla və şeytan" (1911), "İki qardaş" (1912) mənzum hekayələrinin, Mirzə Fətəli Axundzadəyə, Lev Tolstoya, İsmayıl bəy Qaspralıya həsr olunmuş şeirlərin, "Qış", "Millətə bax, millətə!" satiralarının müəllifidir. Firdövsinin "Şahnamə" epopeyasından "Rüstəm və Söhrab" dastanını, L.Tolstoyun "İnsana çoxmu torpaq lazımdır?" hekayesini nəzmlə tərcümə etmişdir.

Abbasağa Nazirin "Təraneyi-milliyyə" müsəddəsi 20 əsrin əvvəlində milli şüurun oyanmasına, müstəqillik düşüncəsinin formalaşmasına qüvvətli təsir göstərmişdir:

***Gözün aç xabi-qəflətdən oyan millət, oyan millət,***
***Nəzər qıl bircə ətrafə, aman millət, aman millət.***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Salahlı kəndindən Qazax şəhərinə köçmüş, "Müsavat"ın Qazax mahalı üzrə sədri Firidun bəy Köçərli ilə sıx əlaqə saxlamışdır.

*Əd.:* Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər), 3 cilddə, c. 2, B., 2002; Köçərli F., Milli şairimiz Abbasağa Qayıbzadə Nazir, "Səda" qəzeti, 1909, 20, 26 noyabr; 2, 4 dekabr; Mustafayev M., XIX əsr Azərbaycanın şeir nümunələri, B., 1983; Məmmədov X., Azərbaycan ədəbi tənqidi: XIX-XX əsrlərin hüdudunda, B., 1999.

**ABBASOV** Hacağa Mütəllib oğlu (16.6.1888, Bakı yaxınlığındakı Maştağa k. - 7.5.1975, Bakı) - aktyor, Azərbaycan xalq artisti (1932). İlk təhsilini Bakı rus-tatar məktəbində almış, Hüseyn Ərəblinskinin teatr dərnəyinin üzvi olmuşdur. İlk rolu Molla İbrahimxəlildir (1905; "Molla İbrahimxəlil kimyagər", M.F.Axundzadə). 1906-09 illərdə Petrovsk-Portda (indiki Mahaçqala) pedaqoji kursda oxuyarkən azərbaycanlılardan ibarət aktyor truppası yaratmış, Teymurxanşurada teatr açmışdır. 1909 ildə Bakıya qayıtmış, Balaxanıda Mirzə Ələkbər Sabirlə birlikdə müəllimlik etmiş, Müsəlman Artistlər Birliyinin fəal üzvlərindən olmuşdur. Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppasının tərkibində bir sıra rolların mahir ifaçısı olmuşdur.



1918 ildə erməni-daşnak quldurlarının Azərbaycanda törətdikləri qanlı mart soyqırımlarından sonra İrana getməyə məcbur olmuş Hacıbəyli qardaşlarının truppası Bakıya qayıdaraq yenidən fəaliyyətə başlamışdı. H. Abbasov Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) milli dirçəliş naminə teatr sənətinin inkişafına yaxından köməklik göstərmiş, gənc aktyorların peşəkarlıq səviyyəsinin artmasında və püxtələşməsində mühüm rol oynamışdır. Azərbaycan milli teatrının təşəkkülündə H. Abbasovun mühüm xidməti olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra H.Abbasov Bakı Azad Tənqid-Təbliğ Teatrının təşkilatçılarından və fəal iştirakçılarından idi. 1925-29 illərdə Azərbaycan Dövlət Dram Teatrında, 1930-37 illərdə Bakı Teatr Texnikumunda direktor, Azərbaycan İncəsənət İşləri İdarəsi teatr şöbəsinin rəisi və s. vəzifələrdə çalışmışdır. H.Abbasovun ifaçılıq diapazonu geniş və çoxcəhətli olmuşdur. Rolları: Şeyx Nəsrullah ("Ölülər", C.Məmmədquluzadə), Məşədi İbad, Soltan bəy, Kəblə Qubad ("O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad", Ü.Hacıbəyli), Hacı Qənbər, Ağakərim xan ("Yağışdan çıxdıq, yağmura düşdük", "Ağakərim xan Ərdəbili", N.B.Vəzirov) və s. H.Abbasov bir sıra kiçik həcmli pyesin müəllifidir: "Ağa Məhəmməd şah Qacar və ya Molla Pənah Vaqif", "Bakının fəthi", "Sabirin məhkəməsi", "Əsgər oğluma", "İnqilab şərarələri", "Rus macərası" və s. Süleyman Sani Axundov, Maksim Qorki, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Lev Tolstoy, Cəfər Cabbarlı və b. haqqında xatirələr yazmışdır ("Xatirələrim", B., 1968).

**ABBASZADƏ** Mirzə Abbas (1860-1920) - maarif xadimi, müəllim. İlk təhsilini mədrəsədə almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Gənc yaşlarında Gəncədəki ruhani məktəblərində, altısinifli şəhər məktəbində, ali ibtidai məktəbdə türk (Azərbaycan) dilindən dərs demişdir. 19 əsrin sonlarında türk (Azərbaycan) dilində əlifba kitabını çap etdirmişdir. Abbaszadənin 1913 ildə Bakıdakı "Kaspi" mətbəəsində "Birinci il" adlı əlifba kitabı nəşr olunmuşdur. Gəncədəki xeyriyyə cəmiyyətinin, dram dərnəyinin, "Nəşri-maarif"in yaradılmasında və fəaliyyətində mühüm

rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə yeni məktəblərin açılmasında, türk (Azərbaycan) dilinin tədris olunmasında əvəzsiz xidmətlər göstərmişdir. Bu fəaliyyətinə görə 1920 ilin əvvəlində, anadan olmasının 60, əlifba kitabının nəşr olunmasının 20 illik yubileyləri Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qeyd edilmişdir. Onun "Farsca lüğət", "Şəriət dərsi", "Arvad ağısı" əsərləri oxucular və şagirdlər tərəfindən rəğbətlə qarşılanmışdır. "Azərbaycan" qəzetində Abbaszadəni 60 illik yubileyi ilə təbrik edən *Əhməd Cavad* onu əvəzsiz pedaqoq, xeyirxah insan adlandırmışdır.

Abbaszadə Gəncə üsyanı (1920) ərəfəsində evində ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, onun külliyyatı, əlyazmaları talan və məhv edilmişdi. Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında istiqlal qurbanları sırasında Mirzə Abbas Abbaszadənin də adını ehtiramla yad etmişdir. Gəncədəki mərkəzi küçələrin birinə Abbaszadənin adı verilmiş və büstü qoyulmuşdur.

Əd.: İ s a y e v Ə., Gəncə və gəncəlilər, B., 1991.



**ABDİNOV** Bəhram Əlövsət oğlu (avqust, 1896, Dərbənd - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına göndərilmiş tələbələrdən biri. Dərbənd realnı məktəbini bitirmiş (1913), Moskvada Kənd Təsərrüfatı İnstitutunun balıq sənayesi şöbəsində oxumuşdur (1915). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarı ilə kənd təsərrüfatı sahəsində təhsilini davam etdirmək üçün Almaniyanın Bonn şəhərinə göndərilmişdir.

Azərbaycanda sovet hakımıyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının 1923*-25 illər üçün məlumatında Bəhram Abdinovun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi.

Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**ABDULLA ŞAİQ,** Abdulla Mustafa oğlu Talıbzadə (24. 2. 1881, Tiflis - 24.7.1959, Bakı) - şair, yazıçı, tərcüməçi, ədəbiyyatşünas, maarif xadimi. Ruhani ailəsində doğulmuşdur Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsi nəzdində altısi-nifli məktəbdə (1888 - 93), Məşhəddə (İran) mədrəsədə (1894-1900) Azərbaycan, fars dillərində təhsil almış, dini, dünyəvi elmləri, Şərq və rus ədəbiyyatını öyrənmişdir. 1901 ildə imperator III Aleksandr kişi gimnaziyasında komissiya qarşısında imtahan verərək, ibtidai məktəb müəllimi adını almış, Sabunçu və Bakı məktəblərində Azərbaycan dili və şəriət fənlərini tədris etmişdir.

Abdulla Şaiq 20 əsrin əvvəllərində geniş ictimai və ədəbi fəaliyyətə başlamış, "Həyat", "İrşad", "Dəbistan", Rəhbər", "Məktəb", "Füyuzat", "İqbal", "Yeni iqbal", "Açıq söz", "Qardaş köməyi" kimi qəzet və jurnallarda müxtəlif mövzularda bədii, elmi-publisistik yazılar dərc etdirməklə milli şüurun dirçəlişinə yardım göstərmişdir.

Abdulla Şaiq Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən birinci (1906), ikinci (1907) qurultaylarının iştirakçısı olmuş, ikinci qurultayın katiblik xidmətini yerinə yetirmiş, idarə heyətinin qərarı ilə Mahmud bəy Mahmudəyov, Ə.Əbdürrəhmanbəyzadə, S.Axundzadə, A.Əfəndizadə, F.Ağazadə ilə birgə "İkinci il" dərsliyinin tərtibinə cəlb edilmişdir. Ədib "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1910), "Gülşəni-ədəbiyyat" (1910), "Gülzar" (1912) və s. dərsliklərini nəşr etdirməklə məktəblərin milli ruhlu dərsliklərlə təmin olunmasında misilsiz xidmət göstərmişdir. Onun pedaqoji və ədəbi fəaliyyəti milli zəmində köklənmişdir. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Mirzə Fətəli Axundzadə, Əli bəy Hüseynzadə,Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid və b. şair və ədiblərin mövzusu xalq həyatından götürülmüş əsərləri Azərbaycan məktəbinə Abdulla Şaiqin dərslikləri vasitəsilə daxil olmuşdur. O, gəncliyin milli hisslərini coşduran ilk ədəbiyyat müəllimi kimi tanınmışdır.

1917 ildə maarif sahəsində milliləşmə başlayarkən, Abdulla Şaiq birinci realnı məktəbində "türk sinfi" yaratmış, bütün fənlərin ana dilində tədrisinin bünövrəsini qoymuşdur. Abdulla Şaiq Azərbaycan Xalq Cümhuriyyəti illərində nümunə məktəbində və darülmüəllimində işləmiş, fəaliyyətini daha da genişləndirmişdir. Maarif Nazirliyinin ilk dəfə nəşr etdirdiyi beş dərslikdən ikisinin - "Ədəbiyyat dərsləri" (Hüseyn Cavidlə birgə, 1919) və "Türk çələngi"nin (1919) müəllifi Abdulla Şaiqdir. O, Osmanlı-türk və Azərbaycan ədəbiyyatı nümunələrindən istifadə etməklə ilk milli dərslik örnəklərini yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Abdulla Şaiqin bədii yaradıcılığı yeni məzmun kəsb etmiş, əsərlərində ("Vətənin yanıq səsi", "Yeni ay doğarkən", "İki mücahid", "Qüvvət", "Arazdan Turana") müstəqillik, milli istiqlaliyyət, turançılıq, türkçülük ideyaları tərənnüm olunmuşdur. Onun "Marş" şerindən aşağıdakı misralar maraqlıdır:

***Birləşəlim, türk oğlu, bu yol millət yoludur,***
***Ünlə, zarla, şanla tariximiz doludur.***

Türk oğullarını birliyə çağıran şairin işıqlı gələcəyə inamını artıran əsas səbəblərdən biri Turan bayrağının öz yerində möhkəm qərar tutmasıdır:

***Dalğalanır üstümdə şanlı Turan bayrağı,***
***Alovlanır qəlbimdə Ərgənokon ocağı.***
***Haydı, yola çıxalım, haqsızlığı yıxalım,***

***Turanda gün doğunca zülmətlə çarpışalım!***
***Arş irəli, irəlidə cənnət kibi çəmən var,***
***Günəş orda həp doğar, səadət orda parlar!***
***Türk firqəsi Müsavat,***
***Açalım quş tək qanad.***
***Sarılıb hürriyyətə***
***Bulalım şanlı həyat***

Beləliklə, Abdulla Şaiqin yaradıcılığında milli mübarizə həm də siyasi məzmun kəsb edirdi. Müəllif bu mübarizənin uğurlarını konkret bir partiyanın - "Müsavat "ın ətrafında sıx birləşərək, şanlı həyat quruculuğuna doğru quş tək qanad açmaqda görürdü.

Başqa bir şerində Abdulla Şaiq öz yurddaşlarını Azərbaycan istiqlalını, vətəni qorumağa çağırırdı:

***Şu diyarın dağlarında, daşında***
***Qurtarıcı qəhrəmanlar az deyil.***
***O əllər ki, səni bu gün qurtarmaz,***
***O dillər ki, səni bu gün də anmaz,***
***O ürək ki, sənin üçün çarpamaz,***
***O ayaq ki, Vətən üçün qoşamaz,***
***Al qanına boyansın!***
***Sevgilisi baş ucunda yas qursun,***
***Anaları ağı desin, saç yolsun,***
***Sənin kimi ağlasın!***

Abdulla Şaiq lirik-romantik şeirlərin ("Vətən", "Niyə uçdu?", "Hürriyyət pərisinə", "Yad et", "Nişanlı bir qız", "Dağlar"), hekayələrin ("Məktub yetişmədi", "Köç", "Göbələk", "Vəzifə", "Əsəbiliyim", "İblisin hüzurunda"), roman və povestlərin ("Əsrimizin qəhrəmanları", "Araz", "Dursun", "Xasay"), uşaqlar üçün bir sıra məşhur şeirlərin ("Xoruz", "Keçi", "Uşaq və dovşan", "Təmizlik"), mənzum nağılların ("Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıq-tıq xanım"), poemaların ("Qoçpolad", "Zəhmət və zinət", "İki familiyanın məhvi"), pyeslərin ("Qafqaz çiçəyi", "Gözəl bahar", "İdeal və insanlıq", "Eloğlu", "Nüşabe", "Vətən") müəllifidir.Füzuli, Nəsimi, Vaqif, Mirze Feteli Axundzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Hüseyn Cavid, Məhəmməd Hadi və b. haqqında elmi məqalələr dərc etdirmiş, Nizami, Şekspir, Defo, Puşkin, Lermontov və b.-dan tərcümələr etmişdir.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri, 3 cilddə, B., 1957-60; Seçilmiş əsərləri, 5cilddə, c.1-3,B,, 1966-73.

*Əd:.* M i r ə h m ə d o v Ə., Abdulla Şaiq, B., 1956; İsmayılov Y., Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı, B., 1962.



**ABDULLAYEV** Ağəli Rəsul oğlu (1897, Ağdaş - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol (Gəncə) Mixail peşə məktəbinin kənd təsərrüfatı şöbəsini (1915), həmçinin Tiflis orta mədəni-texniki məktəbinin aqronomluq şöbəsini bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən kənd təsərrüfatı sahəsində təhsilini davam etdirmək üçün İtaliyaya göndərilməsi qərara alınmış, lakin naməlum səbəblər üzündən bu səfər baş tutmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ABŞERONUN MÜDAFİƏ SİSTEMİ** - Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı 1919 ilin yayında Bakı ətrafında həyata keçirilmiş hərbi-istehkam tədbirləri. Məqsəd ölkənin şimal sərhədindəki müdafiə xəttini möhkəmləndirmək, düşmənin paytaxta daxil olmasının qarşısını almaq idi. Bunun üçün Bakı ətrafında müdafiə mövqelərinin yaradılması, Qafqaz İslam Ordusu hissələrinin Bakıya hücumu zamanı şəhər ətrafında qazılmış səngərlərin bərpası və təkmilləşdirilməsi, tikanlı məftil zolağının düzəldilməsi, Abşeronun müxtəlif məntəqələri arasında telefon rabitəsinin qurulması nəzərdə tutulmuşdu. Abşeronun müdafie sisteminin yaradılmasında Azərbaycan - Gürcüstan hərbi-müdafiə sazişinə (1919) uyğun olaraq Bakıya gəlmiş gürcü hərbi istehkamçıları da iştirak edirdilər.

Abşeronun müdafiə mövqeləri Badamdar-Masazır gölü - Novxanı xətti boyunca yerləşdirilməklə 7 dayaq qrupundan ibarət idi: 1) Badamdar qrupu, 2) Atəşgah qrupu, 3) Aralıq qrup, 4) Şubanıdağ qrupu, 5) Xırdalan qrupu, 6) Göl qrupu, 7) Novxanı qrupu. Bütün bu mövqelərin müdafie imkanlarının artırılması üçün lazımi qüvvə və vəsait də ayrılmışdı. Bütünlükdə, Abşeronun müdafiə sistemi üçün 8 tabor piyada qüvvəsi, 64 ədəd pulemyot, 16 ədəd top nəzərdə tutulmuşdu. Bunlardan əlavə, dəniz sahilinin qorunması üçün 6 ədəd top ayrılmışdı.

Denikinin hücum təhlükəsi aradan qalxdığı və 1920 ilin yazında Qarabağda erməni təcavüzü başladığı üçün Abşeronun müdafiəsinə xüsusi qüvvələr ayrılması mümkün olmadı. Şimal sərhədi boyunca və Bakı ətrafındakı qüvvələr Qarabağda erməni qoşunları ilə mübarizəyə səfərbər olunduğundan, *Aprel işğalı (1920)* zamanı Abşeronun müdafie sistemini işə salmaq və təcavüzkarlara müqavimət göstərmək mümkün olmadı.

**"AÇIQ SÖZ"** - Bakıda nəşr olunmuş gündəlik ictimai-siyasi, ədəbi qəzet. "İqbal" (1912-15) qəzetinin davamı olub, "Müsavat" partiyasının rəsmi orqanına çevrilmişdi. "Açıq söz" qəzetinin ilk sayı 1915 il oktyabrın 2-də "İqdam" mətbəəsində çap edilmişdir. Qəzetin sonuncu sayının nə vaxt çıxması barədə fikirlər müxtəlifdir.

Bəzi mənbələrdə ("Azərbaycanda dövri mətbuat (1832-1920)", B., 1965) qəzetin 1918 il martın 18-də sonuncu - 704-cü sayının çıxdığı göstərilsə də, "Açıq söz" 1918 il 6 oktyabr tarixli 718-ci sayında özündən asılı olmayan səbəblərə



görə fasiləyə yol verdiyi üçün oxuculardan üzr istəyərək yazırdı: ***"Qanh mart hadisəsi zamanı mətbəəmiz fəhlə şurası və erməni qoşunları tərəfindən talan edilib yandırıldığı iiçün qəzetimiz dayandırılmağa məcbur olunmuşdu".***

"Azərbaycan dövri mətbuatı. 1832-1920" kitabında (1987) "Açıq söz" qəzetinin 724 sayının çıxdığı göstərilir. Digər məlumatlara görə, qəzetin 750 sayı işıq üzü görmüşdür.

"Açıq söz" qəzetinin naşirləri və redaktorları müxtəlif vaxtlarda Məhəmməd Əmin *Rəsulzadə,* Məmmədəli *Rəsul-zadə,* Üzeyir bəy *Hacıbəyli,* Orac, Qənbər və Abuzər *Orucov qardaşları* olmuşlar.

Qəzetin ilk sayında, sərlövhə altında "Türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarı və "gündəlik türk qəzetidir" sözləri yazılmışdı. "Açıq söz"də ilk dəfə "müsəlman", "tatar", "tuzem" sözləri əvəzinə Azərbaycan xalqının adı ilə bağlı "türk" sözü işlədilirdi.

Qəzetin məramı onun 1-ci sayında dərc edilmiş proqram səciyyəli baş meqalədə belə ifadə olunmuşdu: ***"Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti - əsrimizin millətçilik əsri olduğunu sübut etdi.***

***Özlərini lazımınca bilib, istiqlal üçiin müəyyən bir ideal, məfkurə bəsləyən millət, şübhəsiz ki, böyük bir qiivvət təşkil edir... Ayrı-ayrı millətlər, bir millət olaraq yaşaya bilmək üçün, hər şeydən əvvəl, özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək, böyük bir məfkurəyə... sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və belə bir silahdan məhrum olan cəmaətlər kimsəyə söz eşitdirə bilməyəcəklər".***

"Açıq söz" qəzetində Rusiyanın daxilində gedən ictimai-siyasi proseslər, Azərbaycan həyatının bütün sahələri barədə müntəzəm surətdə məlumatlar, milli dirçəliş, muxtariyyət məsələlərinə dair yazılar dərc olunur, Birinci dünya müharibəsinin gətirdiyi bəlalar və dəhşətlər hərtərəfli və obyektiv işıqlandırılırdı. Qəzetin dolğun və rəngarəng çıxmasında, mövzu genişliyində ədib, jurnalist və ictimai xadimlərdən Nəriman *Nərimanov,* Əhməd bəy *Ağayev, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq,* Tağı *Şahbazi,* Yusif Vəzir *Çəmənzəminli,* Nəcəf bəy *Vəzirov,* Əbdürrəhim bəy *Haqverdiyev, Ömər Faiq* Nemanzadə, Üzeyir bəy Hacıbəyli, Sənətullah *Eynullayev, Əzim Əzimzadə* və b.-nın böyük xidmətləri olmuşdur.

"Açıq söz" xalqı milli varlığını və hüququnu qorumaq, milli azadlığa və müstəqilliyə nail olmaq üçün bir fikir və əməl ətrafında birləşməyə, məfkurə birliyinə çağırırdı. Qəzet bu amal və bu qayə ilə milləti oyatmağa başlamışdı.

1917 ilə doğru Azərbaycanda xüsusi bir "açıqsöz"çülər nəsli yaranmışdı. Azərbaycanın və bütün Qafqazın digər şəhərlərindəki gənclər, hətta Rusiya ali məktəblərində təhsil alan tələbələr içərisində "Açıq söz"ün yaydığı milliyyətçi fikirlər ətrafında cəmiyyət və dərnəklər yaranmışdı. 1917 ildə Bakıda gizli çağırılmış tələbə qurultayı "Açıq söz" qəzetini özünün orqanı elan etməyi qərara almış və həmin qərarı xüsusi heyət vasitəsilə qəzetin baş redaktoru M.Ə.Rəsulzadəyə bildirmişdi. Fevral inqilabından (1917) sonra bu cəmiyyətlər mütəşəkkil halda "Müsavat" partiyasına daxil olmuşdular.

"Açıqsöz"çülər Fevral inqilabına qədər milli-məhəlli muxtariyyət şüarı ilə çıxış edirdilərsə, mütləqiyyətin süqu-tundan sonra onların mövqeyində dönüş yarandı. Bu zaman "Müsavat" partiyası qəzetdə dərc olunmuş proqramında ya-zırdı: ***"Milli və vətən vəzifəmizi hüsni ifa etmək iiçün yeganə bir vasitə vardır ki, o da Məclisi-Müəssisana hazırlaşmaq və oraya hazır proqram və aydın məramla getməkdən ibarətdir"*** Qəzetin 1918 il 15 mart tarixli 702-ci sayında tanınmış jurnalist Sənətullah Eynullayev "S.İbrahim" imzası ilə yazdığı "Dəhşətli saat gəlir, birlik gərək" məqaləsində Bakı faciəsindən 3 gün əvvəl siyasi partiya rəhbərlərini xəbərdar edirdi: ***"Başqa millətlərin cəmi partiyaları bu gün məlum məsələlər xüsusunda sözlərini bir etdilər. Müsəlman partiyaları da milləti fəlakətdən xilas etmək xatirinə birləşməyə borcludurlar. Çünki baş kəsildikdə saqqalla bərabər gedəcək olduğundan dəhşətli saatlərdə partiya fərqinə baxmayacaq, proqram və partiyalar da millətlə bərabər gedəcəkdir. Dəhşətli saat gəliyor, birləşiniz".***

*Əd.:* Axundov N., Azərbaycanda dövri mətbuat (biblioqrafiya), B.,1965; y e n ə o n u n, Azərbaycanın dövri mətbuatı (1832-1920), B., 1987; Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı, B., 1992.

**ADIGÖZƏLOV** Əsgər ağa Haqverdi ağa oğlu - Azərbaycan yazıçısı, maarifçi, teatr xadimi və ictimai xadim. Tarixçi Mirzə Adıgözəl bəyin nəvəsi (bax *Gorani* Əsgər ağa).

**"ADRES-KALENDAR AZERBAYDJANSKOY RESPUBLİKİ NA 1920 QOD"** ("Azərbaycan Respublikasının 1920 il üçün ünvan-təqvimi") - məlumat-soraq kitabı 1920 ilin əvvəllərində nəşr edilmişdir.1919 il iyulun 28-də Hökumət rus və Azərbaycan dillərində məlumat kitabının nəşrini bəyənmiş və Parlamentə "Azərbaycan Cümhuriyyətinin ünvan-təqviminin nəşri üçün Himayədarlıq Nazirliyinə 122 min manat vəsait ayrılması haqqında" qanun layihəsi təqdim etməyi qərara almışdı.

Ünvan-təqvim aşağıdakı bölmələri əhatə edirdi: soraq məlumatı; ticarət-sənaye bölməsi; malların ölkədən kənara aparılması qaydaları; kooperativlər; Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi; Hökumətin ən mühüm qanun və qərarlarının mətnləri; Parlamentin və nazirliklərin fəa- liyyəti haqqında məlumatlar; Hökumət idarələrinin və ictimai idarələrin şəxsi heyəti; milli təşkilatlar; dini qurumlar; ictimai təşkilatlar; həmkarlar ittifaqları; cəmiyyətlər və itti faqlar; dövri nəşrlər, kitabxanalar, muzeylər, teatrlar, kinolar, klublar; həkimlərin, müalicəxanaların və apteklərin siyahıları.

Ünvan-təqvimin üzərində türk və rus dillərində olunduğu bildirilsə də, türk (Azərbaycan) dilində nəşr həyata keçirilməmişdi.

Qərarda məlumat kitabında Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti üzvlərinin portretlərini, Parlament binasının şəklini və onun iclaslarından foto şəkilləri verməк nəzərdə tutulmuş, lakin çap olunmamışdır.

Nəşrin satışından gələn bütün gəlir Azərbaycan Cümhuriyyəti Himayədarlıq Nazirliyinin uşaq evlərinə sərf olunmalı idi. Aprel işğalından (1920) sonra nəşri dayandırıllmışdır.

*Əd.:*Адрес-Календарь Азербайджанской Республики на., 1920 г., под ред. А.И.Старовского, Б., 1920.

**AĞ QVARDİYA** - 1) Rusiyada Romanovlar mütləqiyyətinin əleyhinə çevrilmiş inqilabi hərəkata qarşı mübarizə məqsədilə Finlandiyada yaradılmış burjua milisi (1906). Fərqləndirici əlaməti qola bağlanan ağ sarğı idi; 2) Rusiyada Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə (1918 -1920) illərində burjua-mülkədar rejiminin bərpası uğrunda vuruşan hərbi hissələrə verilən ad. Sovet ədəbiyyatı publisistikasında, habelə danışıqda bəzi əksinqilabi milli - hərbi hissələrə (ağ finlərə, ağ çexlərə, ağ polyaklara v və ümumiyyətlə, əksinqilabçılara da Ağ qvardiya deyilən İnqilabçı xalqın, inqilabın rəmzi olan qırmızı rəngdən fərqli olaraq, ağ rəng "rəsmi qayda-qanun" tərəfdarlarının rəmzi sayılır. Adı da buradandır.



**AĞABBABƏYOV-MUĞANLİNSKİ** Adil Abbasəli oğlu (13.12.1898, İrəvan -?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələrhaqqında qərar) əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri.* İrəvan kişi gimnaziyasını bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, hüquq sahəsində təhsil almaq üçün Alamaniyanım Leyspiq Universitetinə göndərilmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Ağabbabəyovun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**AĞABBABƏYOV-MUĞANLİNSKİ** Əsildar Abbasəli oğlu (14.9.1900, İrəvan -?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İrəvan gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən hüquq sahəsində təhsil almaq üçün Almaniyanın Leypsiq Universitetinə göndərilmişdir. *Azərbaycanlı Tələbələr İttifaqının* üzvü, təhsil illərində isə rəhbəri olmuşdur. Təhsilini başa vurduqdan sonra 1927 ildə Azərbaycana qayıtmış, l930-33 illərdə Azərbaycan Dövlət Bankında məsləhətçi, qrup rəhbəri işləmişdir.1933 ildə həbs olunmuşdur. 1934 ildə Bakının ali məktəblərində alman dilini tədris etmişdir. 1935 ildə yenidən repressiyaya məruz qalmış, Qaraqanda vilayətinə sürgün edilmişdir.

**Ağabəyov** Rza bəy (? - ?) — Azərhavcan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una (1918, 19 noyabr) əsasən Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsa-vat" və bitərəflər fraksiyasını təmsil edirdi.

**AĞABƏYZADƏ** Məhəmməd Sadıq İsmayıl oğlu (15.3.1865, Göyçay - 9.11.1944, Lvov) - hərbi xadim, general-mayor. Azərbaycan Xalq Cümhuriyyətini (1918 - 20) daxili işlər orqanlarının fəal təşkilatçılarından olmuşdur. Bakı realnı



məktəbini bitirmişdir (1882). 1886 ildə Peterburq Hərbi Piyada və Artilleriya Məktəbini (eyni zamanda, Hərbi Nazirliyin Baş qərargahının Şərq dilləri kursunda qiyabi oxumuşdur) qurtardıqdan sonra Ağabəyzadə zabit kimi xidməti fəaliyyətə başlamış, əvvəl Rusiya ordusunun Qafqazdakı artilleriya bölmələrində, daha sonra isə 1913 ilə kimi Türküstan və Zakaspi vilayətinin hərbi hissələrində xidmət etmişdir. 1913 ildə tə-qaüdə çıxaraq, Göyçaya qayıdan Ağabəyzadə Birinci dünya müharibəsi başladıqdan sonra yenidən orduya səfərbər olunmuşdur.

1917 ildə çar mütləqiyyətinin süqutundan və bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra Sovet Rusiyasının müharibədən çıxdığını və ordunu buraxdığını elan etməsi ilə əlaqədar olaraq ordudan tərxis olunmuş Ağabəyzadə general-mayor rütbəsində Göyçaya qayıtmışdır.

1918 il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra, Ağabəyzadə oktyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri əvəzi kimi xidmətə dəvət olunmuşdur. 1920 il yanvarın 23-dən təqaüdə çıxana qədər daxili işlər nazirinin müavini vəzifəsində çalışmış Ağabəyzadə çox vaxt daxili işlər naziri olmadıqda nazir vəzifəsini icra etmişdir. Xalq Cümhuriyyəti hakimiyyəti zamanı ölkə daxilində qayda-qanunun yaradılmasında, daxili işlər orqanları strukturunun formalaşdırılması və fəaliyyətinin təşkilində Ağabəyzadənin xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, 1920 ilin noyabrında İstanbula mühacirət etmiş Ağabəyzadə

burada əmisi oğlu Əli bəy Hüseynzadə ilə görüşmüşdür. 1921 ilin əvvəllərində Parisə gedərək orada yaşamışdır.

1927 ildən Lvov Universitetinə müəllim dəvət edilən Ağabəyzadə ömrünün sonuna qədər burada Şərq dillərindən və tarixindən, ədəbiyyat və mədəniyyətindən mühazirələr oxumuş, proqram-dərsliklər hazırlamışdır. Lvov Universitetinin professoru Ağabəyzadənin Ukraynada şərqşünaslıq elminin təşəkkülündə əhəmiyyətli xidməti olmuşdur.

*Əd.:* Əlyarlı İ.M., Behbudov T.R., Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər), B., 1998; yenə onların, Azərbaycan daxili işlər orqanlarının tarixi (ensiklopedik soraq kitabı), birinci kitab, B., 2003

**AĞALAROV** Fərhad Əbülfət oğlu (1868, Tiflis yaxınlığındakı Qaracalı k. -?) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun polkovniki. Hərbi xidmətə çar ordusunda başlamışdır. Azərbaycanın müstəqilliyinin elan edilməsi ərəfəsində Ağalarov İrandakı rus hərbi qüvvələrinin tərkibində idi. Azərbaycan Xalq Cümhuriyyəti ordusunda 1 -ci tatar süvari alayının komandiri təyin olunmuşdu. 1918 il noyabrın 17-də ingilis qoşunları Bakıya daxil olduğu üçün Azərbaycan hərbi qüvvələrinin tərkibində şəhəri tərk etmişdi. 1919 ilin aprelində yenidən təntənəli surətdə Bakıya daxil olan Azərbaycan hərbi qüvvələrinin ilk dəstəsinin rəhbəri Ağalarov idi. Ağalarov tezliklə Bakı qarnizonunun rəisi, avqustun 30-da isə Bakı limanının komendantı təyin edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin süqutunadək bu vəzifədə çalışmışdır. *Aprel işğalından (1920)* sonra Ağalarov həbs edilmiş, sonra azadlığa buraxılmışdır. Bir müddət Qırmızı orduda xidmət etmişdir. 1921 ilin əvvəlində yenidən həbs edilərək, Bakıda qarnizon rəisi olduğu vaxt bolşevikləri təqib etməkdə ittiham olunmuşdur. Xolmoqor həbs düşərgəsinə beş illiyə sürgün edilməsi haqqında hökm çıxarılmışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

*Əd:.* Süleymanov M., Azərbaycan ordusu (1918-20), B., 1998; Elşad Qoca, Cəllad etirafı, B.,1999.

**AĞAMALIOĞLU** Səməd ağa Həsən oğlu (27.12.1867, Qazax rayonunun Qıraq Kəsəmən k. - 6.10.1930, Moskva) - dövlət xadimi, maarifçi-publisist, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər fraksiyasının lideri.



Vladiqafqaz hərbi progimnaziyasını bitirmiş (1887), yerölçən ixtisasına yiyələnmişdir. 1917-ci ilin aprelindən Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının Birləşmiş Gəncə Komitəsi İcraiyyə Komitəsinin və Gəncə Fəhlə və Əsgər Deputatları Sovetinin üzvü olmuşdur. 1918 ilin fevralında Tiflisə köçmüş, yerli menşevik "Hümmət" təşkilatının üzvü, təşkilatın orqanları - "Gələcək" və "Probujdeniye" qəzetlərinin redaktoru, Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü kimi fəaliyyət göstərmişdir. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una (1918, 19 noyabr) əsasən seçkisiz Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdir. Parlamentdə sosialistlər fraksiyasının lideri, aqrar komissiyanın sədri idi. Sovet hakimiyyətinin tərəfdarı olan Ağamalıoğlu Cümhuriyyət Parlamentində G.V.Çiçerinin Denikinə qarşı ittifaq bağlamaq haqqında notasının müzakirəsi zamanı ***"Bu doğrudur ki, bolşeviklərlə ittifaq bağlamaq müsavatçılar üçün çətin bir şeydir. Məgər müsavat Hökumətini saxlamaq çox vacibdirmi? Ölkəni sovetləşdirərik, qurtarıb gedər!",*** - deyərək mövqeyini açıqlamışdır. O, Azərbaycanın Qırmızı ordu tərəfindən işğalına köməklik göstərmiş, *Aprel işğalından (1920)* sonra *Gəncə üsyanının (1920)* yatırılmasının təşkilində fəal iştirak etmişdir. Azərbaycan Sovet Sosialist Respublikasında xalq torpaq komissarı (1920-22), Mərkəzi İcraiyyə Komitəsinin sədri, ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri, SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin üzvü (1922-29) olmuşdur. Ağamalıoğlu Azərbaycanda və SSRİ-nin digər türk-müsəlman respublikalarında yeni latın əlifbasına keçilməsinə rəhbərlik etmiş, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri olmuşdur. Türk xalqlarının mədəni həyatı, türk əlifbasına keçidlə bağlı publisist kimi də fəaliyyət göstərmişdir. Moskvada dəfn olunmuş, cənazəsinin qalıqları Bakıya – Fəxri Xiyabana köçürülmüşdür.

Əsərləri: Azərbaycanın siyasi vəziyyəti (1919); Bizim yolumuz hayanadır? (1924); Türk aləmində mədəni məsələlər (1924); Türk-tatar xalqlarının təxirəsalınmaz mədəni ehtiyacları (1925); Yeni türk əlifbasının müdafiəsində (1927) və s.

*Əd.:* Nəcəfov X., Səmədağa Ağamalıoğlu. B., 1966; y e n ə o n u n, S.Ağamalıoğlunun ictimai-siyasi və ateist görüşləri, B., 1968.

**AĞAOĞLU** Məhəmməd (24.8.1896 - 4.6.1949) -görkəmli Azərbaycan alimi, sənətşünas. 1916 ildə Moskva Universitetinin Şərq şöbəsini bitirdikdən sonra, Bakıda işləmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Ağaoğlu bir sıra maarif-mədəniyyət və sənət ocaqlarının yaradılmasında, muzeyşünaslıq, qədim maddi mədəniyyət nümunələrini qorumaq sahəsində fəal çalışmış, *"Yaşıl qələm" cəmiyyəti* idarə heyətinin üzvü, sənətşünas Hüseyn bəy *Mirzəcamalovla* birlikdə ilk milli "İstiqlal" *muzeyinin* təşkil edilməsinin təşəbbüsçüsü olmuşdur (1919, 7 dekabr). Şərq xalqlarının incəsənətini öyrənmək məqsədilə xarici ölkələrə getmiş və vətənə qayıtmamışdır. İran, İraq, Türkiyə, Almaniya və İngiltərə muzeylərində çalışaraq, qiymətli araşdırmalar aparmışdır. 1929 ildən ABŞ-da yaşamış, əvvəlcə Detroyt İncəsənət İnstitutunun, sonra Miçiqan Universitetinin professoru kimi fəaliyyət göstərmiş, 1933 ildən isə "Art İslamica" ("İslam incəsənəti") məcmuəsinin redaktoru olmuşdur. Ağaoğlu Azərbaycan, Türkiyə, İran və b. Şərq ölkələrinin incəsənət tarixini tədqiq etmiş, Şərq miniatürü, xalça, bədii metal və parça sənətinə dair qiymətli əsərlər yazmışdır. Ağaoğlunun Azərbaycan, rus, türk, fars, ərəb, alman, ingilis, qədim yunan və latın dil- lərini mükəmməl bilməsi Şərq xalqları incəsənətinin təd-

qiqində ona böyük kömək etmişdir. Ağaoğlu Şərq xalqlarının orta əsr incəsənətinə dair "İslam sənəti tarixi" (1928), "XV əsr İran kitab cildləri" (1935), "Səfəvi xalçaları və parçaları" (1941) kimi bir neçə kitabın, həmçinin "İslam incəsənətinin xarakteri haqqında qeydlər", "Türk incəsənəti tarixi" və s. elmi məqalələrin müəllifidir.



**AĞASIBƏYLİ** Yusif bəy Süleyman oğlu (20.12.1896, Gəncə - 1989, Gəncə) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol (Gəncə) kişi gimnaziyasını bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, elektrotexnika sahəsində təhsil almaq üçün Almaniyanın Drezden Texniki Universitetinə göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı tələbələr İttifaqının 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Təhsilini başa vurduqdan sonra Almaniyada qalıb işləmişdir. Ağasıbəyli [931 ildə Gəncəyə qayıtmış, yağ emalı zavodunda baş mexanik vəzifəsində işləmişdir. 1937 ildə həbs edilmiş, 1956 ildə bəraət almışdır.



**AĞASİYEV** Qazıməmməd Ağası oğlu (1882, Axtı k. -1918, Dağıstan, Qasımkənd) - fəhlə hərəkatı iştirakçısı. Azərbaycanda və Dağıstanda sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparmışdır. 1896 ildə Bakıya gəlmiş, Balaxanı, Bibiheybət neft mədənlərində işləmişdir. 1904 ildə RSDFP-yə daxil olmuşdur. 1905 ildə Bakı Fəhlə Deputatları Sovetinin üzvü seçilmişdir. Dağıstandan olan ləzgi fəhlə və kəndlilər arasında inqilabi iş aparan "Faruq"("Ədalət carçısı") sosial-demokrat qrupunun yaradıcılarından idi. 1908 ildə Neft Sənayesi Fəhlələri İttifaqının Bibiheybət şöbəsinin idarə heyətinə seçilmişdi. Həmin il Bakıdan sürgün edilmiş, Gəncədə inqilabi iş aparmış, həbs olunmuşdur. Həbsdən sonra Dağıstanda inqilabi işi davam etdirmişdi. 1910 ildə yenidən Bakıya qayıtmışdı. Birinci dünya müharibəsi illərində (1914-1918) DFP Bakı Komitəsinin göstərişi ilə Dağıstanda müharibə əleyhinə təbliğat aparmışdı.1917 il Fevral inqilabından sonra Bakıda inqilabi işi genişləndirmiş, Bakı Sovetinin üzvü seçilmiş, Bakıda sovet hakimiyyətinin qələbəsində yaxından iştirak etmişdi. 1918 ilin martında erməni-bolşevik quldurları tərəfindən türk-müsəlman əhalisinə qarşı soyqırımı zamanı Bakı Sovetinin tərəfində vuruşmuşdu. Bakı Xalq komissarları Soveti tərəfindən Dərbəndə göndərilmiş, Dərbəndin və Cənubi Dağıstanın komissarı təyin olun-muşdu. Dərbənd Biçeraxovun qüvvələri tərəfindən işğal olunduqda Ağasiyev sovet hakimiyyəti uğrunda mübarizəni davam etdirmişdir. 1918 ilin mayında Şimali Qafqazın istiqlaliyyəti elan edilmiş, oktyabrın 13-də hökumət Dərbəndə köçmüşdü. Ağasiyev Milli Hökumətə qarşı mübarizə gedişində öldürülmüşdür.

*Əd.* Göyüşov A., 1917-1920 illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.



**AĞAYEV** Balağa Məmməd Hənifə oğlu (1899, Bakı qəzası - ?) – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)*ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1919 ildə Bakıdakı kommersiya məktəbini bitirmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən tibb sahəsində təhsil almaq üçün Fransanın Paris Universitetinə göndərilmişdir. Sonrakı taleyi barədə məlumat hələlik aşkar olunmamışdır.

**AĞAYEV** Bəhram Cəfər oğlu (1884, Cənubi Azərbaycanın Sarab vilayətinin Şihirgün k. - 7.11.1956, Bakı) –fəhlə hərəkatı iştirakçısı. Azərbaycanda sovet hakimiyyeti qurulması uğrunda fəal mübarizə aparmışdır. 1899 ildə Bakıya gəlmiş, Balaxanı neft mədənlərində işləmişdi. 1903 ildə inqilabi hərəkata qoşulmuş, 1904 ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasına daxil olmuşdu. 1904 il dekabr tətilində, 1905-07 illər Birinci rus



inqilabında iştirak etmişdi. Cənubi Azərbaycandan olan fəhlələr içərisində inqilabi iş aparmaq üçün yaradılan İran sosial-demokrat təşkilatının banilərindən idi. 1907-11 illər İran inqilabında iştirak etmiş, 1912 ildə Bakıya qayıtmışdır. Birinci dünya müharibəsi (1914-18) illərində müharibə əleyhinə çıxışlarına görə həbs edilərək Astaraya (İran) sürgün olunmuşdu. Sonralar yenidən Bakıya dönərək, inqilabi fəaliyyətini davam etdirmişdir. "Ədalət" bolşevik təşkilatının rəhbərlərindən idi. 1917 ilin dekabrında Bakı sovetinə seçilmişdi. Azərbaycanda sovet hakimiyyətinin qurulması uğrunda fəal mübarizə aparmış, 1918 ilin mayında Lənkəranda Sovet hakimiyyəti orqanlarının təşkilində iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı çıxdığına görə həbs olunmuşdur. Gəncə həbsxanasından qaçdıqdan sonra Bakıya gəlmiş, RK(b)P Bakı Komitəsinə seçilmişdir. 1919 ilin martında Bakı Komitəsi tərəfindən Muğanda sovet hakimiyyətinin qurulması işinə cəlb edilmişdi. Apreldə Muğanda sovet hakimiyyəti qurulmuş, may ayında Muğanın kəndli deputatlarının fövqəladə qurultayında

(Lənkəran) sədr seçilmişdi. Lakin oyuncaq Muğan Sovet Respublikası tezliklə ləğv edilmiş, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ərazi bütövlüyü bərqərar edilmişdi.Ağayev bundan sonra da sovet hakimiyyəti uğrunda müba-rizəni davam etdirmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet hakimiyyətinin qurulmasından sonra müxtəlif vəzifələrdə çalışmışdır. Ağayev Gilan inqilabının iştirakçısı olmuşdur. Sovet dövründə partiyadaxili ixtilaflarda Nəriman Nərimanova qarşı çıxan qrupun fəallarından idi.

*Əd.:* Əlizadə N., Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən, B., 1963 Активные борцы за Советскую власть в Азербаджане, Б.,1957.

**AĞAYEV** (Ağaoğlu) Əhmədbəy Mirzə Həsən oğlu (1869, Şuşa - 1939, İstanbul) - Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, yazıçı, hüquqşünas, şərqşünas-islamşünas alim. Əsilzadə ailəsində anadan olmuşdur; valideynləri Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın nəslindəndir. İlk təhsilini Şuşadakı rus məktəbində və Tiflis gimnaziyasında almışdır. Peterburq Mühəndis-Texniki İnstitutuna daxil olmuş, lakin təhsi-lini yarımçıq qoymuş, Parisə gedərək, hüquq məktəbini və Sorbonna Universitetini bitirmişdir.Burada Şərq xalqlarının tarixini, ərəb, fars və türk dillərini mükəmməl öyrənmiş, 1890 ildə Şərq fəlsəfəsinə və ədəbiyyatına dair ilk elmi məqaləsini nəşr etdirmişdir. Bunun ardınca müxtəlif məcmuələrdə digər yazıları da dərc olunmuşdur. Əhməd bəy Ağayev 1892 ildə, 23 yaşında Londonda keçirilən Beynəlxalq şərqşünaslıq konqresində "Şiə məzhəbinin mənbələri" mövzusunda məruzə etmiş, məruzə konqresin qərarı və Kembric Universitetinin vəsaiti ilə bir neçə Qərb dillərində dərc olunmuşdur. Bu əsərinə görə İran şahı ona firuzə qaşlı üzük bağışlamışdı. Həmin dövrdə Əhməd bəy Ağayev Fransada yaşayan gələcəyin "Gənc türkləri", habelə Şərqin böyük mütəfəkkiri, ictimai-siyasi xadimi, avropalıların "müsəlman dünyasının mümtaz siması" adlandırdığı Şeyx Cəmaləddin Əfqani ilə tanış olmuşdu. Bu tanışlıq onun dünyagörüşünə, ictimai-elmi fəaliyyətinə güclü təsir göstərmişdir. Bu illərdə Ağayev vətənlə də əlaqələrini kəsməmiş, Tiflisdə rus dilində nəşr olunan "Kavkaz" qəzetində ardıcıl olaraq məqalələr dərc etdirmişdir.



1894 ildə vətənə qayıdan Əhməd bəy Ağayev Azərbaycan dilində "Məşriq" qəzetini çıxarmaq üçün hökumətdən icazə istəsə də, rədd cavabı almışdır. 1896 ildə Şuşaya gedərək, realnı məktəbdə fransız dilindən dərs demiş, qiraətxana-kitabxana açmış, ilk teatr tamaşaları təşkil etmişdir. 1897 ildə məşhur milyonçu-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gələrək, realnı məktəbdə fransız dili müəllimi işləmiş, "Kaspi" qəzetində əməkdaşlıq etmiş, Əlimərdan bəy Topçubaşovun redaktorluğu (1898-1907) dövründə qəzetin ədəbi şöbəsinin müdiri olmuşdur. "İslama görə və islam aləmində qadın", "İslam, axund və hatifülqeyb" kitablarında, habelə "Kaspi"də dərc etdirdiyi "Müsəlman söhbətləri", "Müsəlman xalqlarının vəziyyəti" adlı silsilə məqalələrində Əhməd bəy Ağayev müsəlman xalqlarının düşdüyü acınacaqlı vəziyyəti təhlil edir, bunun səbəblərini göstərir, müsəlman xalqlarına böhtan atan əcnəbi müəlliflərə tutarlı cavablar verərək, islam dünyasının şair, alim və mütəfəkkirlərindən söhbət açırdı. Bu illərdə Məhəmməd ağa Şahtaxtlının Tiflisdə nəşr etdirdiyi "Şərqi-Rus" qəzetində, habelə Kəlkətə (Kəlküttə) və Qahirə metbuatında da məqalələri dərc olunmuşdur. O, "Nicat", "Nəşri-maarif", "Səadət" kimi xeyriyyə cəmiyyətlərinin təşkilində və fəaliyyətində də yaxından iştirak etmişdir. 1905 ilin iyunundan Əli bəy Hüseynzadə ilə birlikdə Azərbaycanda milliyyətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynamış "Həyat" qəzetinin redaktoru idi. 1905 il dekabrın 19-dan "İrşad" qəzetini, 1907 ildə isə, eyni zamanda, rus dilində "Proqress" qəzetini nəşr etdirmişdir. 1908 ilin iyunundan "Tərəqqi" qəzetini çıxarmağa başlamış və Türkiyəyə gedənə qədər (1909) onun naşiri olmuşdur.

Əhməd bəy Ağayev 1905 ildə erməni-daşnak quldurlarının çarizmin fitvası ilə Azərbaycan xalqına qarşı törətdiyi soyqırımları zamanı dərc etdirdiyi məqalələrində bu faciələrin əsl günahkarları olan çar hakimiyyəti orqanlarının və erməni-daşnakların iç üzünü açıb göstərirdi. O, Qafqaz canişininin milli qırğınların kəskinləşməsi ilə əlaqədar 1906 il fevralın 20-də Tiflisdə çağırdığı "barışdırıcı qurul-tay"da Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyov və İsgəndər bəy Hacınski ilə birlikdə Bakı şəhərinin ali sosial təbəqələrinin nümayəndəsi kimi iştirak edərək, Azərbaycan tərəfinin proqramını bəyan etmişdi. Əhməd bəy Ağayev qurultaydakı çıxışında xalqların hüquq bərabərliyinin təmin edilməsini, Azərbaycan xalqına qarşı milli qırğınlara dərhal son qoyulması üçün "Daşnaksutyun" partiyasının və digər erməni təşkilatlarının buraxılmasını, əks halda, Azərbaycan tərəfinə də müdafiə olunmaq üçün ordu yaratmağa icazə verilməsini cəsarətlə tələb etmiş, gətirdiyi tutarlı dəlillərlə, faktlarla milli qırğınlara bais olan erməni liderlərini susdurmuşdur.

Həmin hadisələrdən sonra Əhməd bəy Ağayev Azərbaycan xalqının hüquqlarını qorumaq məqsədilə 1906 ildə "Difai" partiyasını yaratmışdı. O, Bakı müsəlman sahibkarlarının xahişi ilə iki dəfə şəxsən II Nikolayın və onun nazirlərinin qəbuluna getmiş, Rotşild, Nobel kimi neft maqnatlarının Bakının neft yataqlarına sahib olmasına mane olmağa çalışmışdır. Əhməd bəy Ağayevin bu səfərləri və fəaliyyəti sayəsində azərbaycanlıların Bakı ətrafındakı neftli torpaqlardan köçürülməsi dayandırılmışdır.

Təqiblər üzündən 1909 ildə Türkiyəyə mühaciret edən Əhməd bəy Ağayev burada "Gənc türklər'lə yaxınlaşmış, "İttihad və tərəqqi" partiyasına daxil olmuşdu. O, elmi, ictimai və publisistik fəaliyyətini davam etdirərək, "Tərcümani-həqiqət" qəzetinin redaktoru, "Türk yurdu" jurnalının

yaradıcılarından olmuş, türkçülük hərəkatının əsas ideoloqlarından biri kimi, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Yusif Akçura, Həmdullah Sübhi və b. ilə çiyin-çiyinə çalışmış, Afyon-qarahisardan Osmanlı parlamentinə deputat seçilmişdir. 1915 ildə Rusiyada yaşayan azsaylı xalqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi çıxış etmişdir. O, Əli bəy Hüseynzadə, Əbdürrəşid İbrahimov və Yusif Akçura ilə birlikdə Rusiya imperiyasında yaşayan türk xalqlarının dözülməz vəziyyəti ilə bağlı ABŞ prezidenti V.Vilsona təqdim olunan müraciəti imzalamışdır

Ağayev 1918 ildə xalqın bolşevik-daşnaklara qarşı mübarizəsinə kömək üçün göndərilmiş *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşanın siyasi müşaviri kimi Azərbaycana gəlmişdir. Həmin il iyunun 16-da Milli Şura və Hökumət Tiflisdən Gəncəyə köçərkən bu Hökumətin həyata keçirmək istədiyi tədbirlərin "həddindən artıq demokratik istiqamətindən" narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının təsiri altında Gəncədə real hakimiyyətə malik olan Türkiyə qoşunları komandanlığı ilə Milli Şura arasında anlaşılmazlıq yarandıqda Nuru paşanın yanında böyük nüfuzu olan Əhməd bəy Ağayev qarşılıqlı güzəştlər əsasında ümumi razılığa gəlməkdə vasitəçilik etmişdi. Onun təklifinə görə, Milli Şura buraxılmalı və bütün hakimiyyət yeni yaradılacaq Hökumətə həvalə olunmalı idi.1918 il iyunun 17-də bu məsələni müzakirə edən Milli Şura yeni Hökumət təşkil etməyə və özünün bütün səlahiyyətlərini müvəqqəti olaraq ona verməyə razı olmuşdu.

Əhməd bəy Ağayev Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdi. 1918 ildə general Tomsonla danışıq aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibində Ənzəliyə göndərilmişdi. Həmin il dekabrın 28-də Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə qatılmış, lakin İstanbulda "türk jurnalisti və Türkiyə parlamentinin deputatı" kimi təqdim olunaraq, ingilislər tərəfindən həbs edilmiş, "İttihad və tərəqqi" partiyasının rəhbərləri ilə birlikdə Malta adasına sürgün olunmuşdu. Sürgün olunanlar Atatürkün təşəbbüsü ilə ingilis hərbi əsirləri ilə dəyişdirilərkən, Ağayev də 26 aylıq sürgündən sonra, 1921 il mayın 28-də İstanbula qayıdaraq, yenidən milli hərəkata qoşulmuş və qurtuluş savaşının fəal iştirakçılarından olmuşdur.

20-ci illərdə Türkiyənin dövlət mətbuat bürosuna müdir təyin edilən Əhməd bəy Ağayev Qars bölgəsindən iki dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmiş, Ankara Universitetinin professoru, eyni zamanda, "Hakimiyyəti-milliyyə" qəzetinin redaktoru olmuşdur.

Əhməd bəy Ağayevin dünyagörüşü və ictimai fəaliyyəti səmərəli, mürəkkəb, həm də, müəyyən dərəcədə, ziddiyyətli olmuşdur. Həyatının müxtəlif dönəmlərində dünyagörüşü və siyasi düşüncəsi üç ana xətt üzərində cəmlənmişdir: İslamçılıq, Qərbçilik və Türkçülük. O, Qərb mədəniyyətindən öyrənmək fikrini yazılarında ardıcıl olaraq irəli sürmüş, İslama baxışlarında demokratik mövqedən çıxış etmişdir. Əhməd bəy Ağayev Azərbaycan türklərində milliyyətçilik və türkçülük şüurunun oyanmasında və güclənməsində çox mühüm rol oynamışdır. Sovet dönəmində ona qatı "panislamist", "pantürkist" damğası vurularaq, adı və əsərləri qadağan edilmişdi. Həyatının və əsərlərinin geniş surətdə öyrənilməsinə son illərdə başlanmışdır.

Ə s ə r l ə r i: Şiə məzhəbi və onun mənbələri, London, 1892; İslama görə və islam aləmində qadın, Tiflis, 1901; Üç mədəniyyət, Ankara, 1927; İngiltərə və Hindistan, Ankara, 1927; Sərbəst insanlar ölkəsində, Ankara, 1930; Hüquq tarixi, İstanbul, 1932; Dövlət və fərd, İstanbul, 1932; Etrusk mədəniyyəti vo bunların türk mədəniyyəti üzərinə təsiri, İstanbul, 1933; Mən neyəm?, Ankara, 1939; Könülsüz olmaz, Ankara, 1941; İran və inqilabı, Ankara, 1941; İxtilalmı, inqilabmı?, Ankara, 1942; Sərbəst firqə xatirələri, Ankara, 1949; Əsərləri, B., 1992.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Ağaoğlu S., Babamdan xatirələr, İstanbul, 1939; yenə onun, Babamın arkadaşları, Ankara, 1957; Talıbzadə K., XX əsr Azərbaycan ədəbi tənqidi, B.,1966; yenə onun, Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920 illər), B., 1984; Mirəhmədov Ə., Əhməd bəy Ağayev, "Fikrin karvanı" kitabında, B., 1984; Quliyev V., Ağaoğlular, B., 1997; Hüseynov Ş., Əhməd bəy Ağaoğlunun dünyagörüşü, B., 1998; Səidə Əliqızı, Əhmədbəy Ağayev və islam dini, "Filologiya məsələləri" məcmuəsi, B., 2002 №2; yene onun, Əhməd bəy Ağayevin maarifçilik fəaliyyəti haqqında, "Tarix və onun problemləri" jurnalı, 2002, № 3; yenə onun, , Общественно – политическая и публицистическая деятелбность Ахмедбека Агаева в начале XX века , "Tarix və onun problemləri" jurnalı, 2001, № 2.

**AĞAYEV** Həsən bəy Məşədi Hüseyn oğlu (1875, Gəncə - 19.7.1920.ı Tiflis) – görkəmli ictimai – siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. Orta təhsilini Gəncədəki klassik gimnaziyada almışdı. Hacı Zeynalabdin Tağıyevin maddi köməkliyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş və 1901 ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Həsən bəy Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet ve jurnallarda meqalələr də dərc etdirmişdi."Hümmət" təşkilatının tapşırığı ilə Azərbaycan dilinə tərcümə etdiyi "Silk, sinif, firqə" kitabçası Tiflisdə Cəlil Məmmədquluzadənin "Qeyrət" mətbəəsində çap olunmuşdur (1906). Həmin kitabçanın nəşrinə təqiblərə məruz qalan Ağayev İrana mühacirət edərək, bir müddət orada yaşamışdır.



Mühacirətdən qayıtdıqdan sonra Gəncədə rus dilində çıxan "Yujnıy Kavkaz" qəzetinin redaktoru, müsəlmanlar arasında maarifçiliyi yayan cəmiyyətin rəhbəri olmuşdur. *1914* ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır. 1917 ildə Rusiyada baş vermiş Fevral demokratik inqilabı Azərbaycanın digər görkəmli ictimai-siyasi xadimləri , Ağayevin də sonrakı həyat və fəaliyyətində həlledici rol oynamışdır. Yeni şəraitdə Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılmış "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın yaradıcılarından biri də Həsən bəy idi. Həsən Ağayev 1917 ilin aprelində Bakıda çağırılmış Qafqaz əlmanları qurultayında iştirak etmiş və Rusiya daxilində Azərbaycana muxtariyyət verilməsinin ardıcıl tərəfdarlarından olmuşdur.

1917 ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə Nəsib bəy Yusifbəylinin "Türk Ədəmi-Mərkəziyyət Partiyası" birləşərək, "Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası adlandırılmışdır. "Müsavat"ın 1917 il oktyabrın 26-31-də keçirilmiş birinci qurultayında Həsən bəy partiyanın mərkəzi komitəsinin üzvü, ilin axırlarında isə Ümumrusiya Müəssislər məclisinə nümayəndə seçilmişdir. Rusiyada oktyabr çevrilişi ilə əlaqədar olaraq Cənubi Qafqazdan Ümumrusiya Müəssislər məclisinə seçilmiş nümayəndələr onun iclasına gedə bilməmiş, 1918 il fevralın 10-da Tiflisdə toplaşaraq Cənubi Qafqazda ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini yaratmış, aprelin 22-də isə Cənubi Qafqazın suverenliyini elan edərək, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətini yaratmışdılar. Zaqafqaziya seymində Müsəlman fraksiyasının üzvü olan Həsən bəy bütün tədbirlərdə fəal iştirak etmişdir. Zaqafqaziya seymi və hökuməti bu ərazidə yaşayan millətlərin milli maraqlarına cavab vermədiyindən həmin il mayın 25-də buraxılmışdı. Mayın 27-də Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etmiş və Şuranın rəyasət heyətini seçmişdi. Bu vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə Şuranın sədri, Həsən bəy Ağayev isə onun müavini seçilmişdilər.

Azərbaycan Milli Şurasının 1918 il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. 1918 il iyunun 16-da Azərbaycan Milli Şurası və Hökuməti Gəncəyə köçmüşdür. İyunun 17-də burada keçirilən ilk iclasında Milli Şura, yaranmış vəziyyətlə əlaqədar olaraq, fəaliyyətini müvəqqəti olaraq dayandırmış, bütün hakimiyyəti yeni yaradılmış Hökumətə vermişdir. Azərbaycan Parlamentinin 1918 il dekabrın 7-də Bakıda təntənəli açılışına qədər Həsən bəy Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi vəzifəsində çalışmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasında Hesən bəy Parlament sədrinin birinci müavini seçilmişdir. Parlamentin sədri seçilmiş Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından ona rəhbərliyi Həsən bəy həyata keçirmişdir. O, 1919 ilin dekabrında yenidən Parlament sədrinin birinci müavini seçilmiş və 1920 il fevralın 2-nə qədər ona rəhbərlik etmişdir. Həsən bəyin bilavasitə təşəbbüsü və fəal iştirakı ilə Parlament bir sıra mühüm qanunvericilik aktları qəbul etmişdir. Azərbaycan Parlamentinə rəhbərliyi zamanı Həsən bəyin yüksək təşkilatçılıq qabiliyyəti, dərin biliyi, insanlarla həssas münasibəti təkcə Parlament daxilində deyil, sadə xalq arasında da ona böyük hörmət və nüfuz qazandırmışdı. Vəzifəsindən istefa verərkən, mühüm xidmətləri nəzərə alınaraq, bütün Parlament üzvlərinin imzası ilə ona təşəkkür elan edilmişdir.

*Aprel işğalından (1920)* sonra Tiflisə mühacirət edən Həsən bəy Ağayev həmin il iyulun 19-da muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Tiflisin müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stetnoqrafik hesabatlar), c.1-2, B., 1998; Məmmədzadə M., Doktor Həsən bəy, "Azəri türkü" məcmuəsi, 1928, № 3; Əliyev M., Həsən bəy Ağayev, "Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti (1918-1920)" kitabında, B., 1990; İsayev Ə., Qeyrət və hünər tarixi, “Azərbaycan" qəzeti, 2003, 22 may.



**AĞAZADƏ** Fərhad, Şərqli (Ağazadə Fərhad Məşədi Rəhim oğlu; 12.8.1880, Şuşa - 4.1.1931, Bakı) - görkəmli maarif xadimi, dilçi, metodist, publisist. Şuşada məhəllə və özəl "Rus-müsəlman" məktəbində (1887-95) oxumuş, Qori Müəllimlər Seminariyasını bitirmişdir (1900). Yelizavetpol quberniyasının Xaldan (1900-01), Şuşa (1901-02), Gorus (1902-05), Gəncə (1905) ibtidai məktəblərində müəllim, Bakıda birinci "rus-müsəlman" məktəb müəllim və müdir (1905-09), "Səadət" məktəbində müdir müavini işləmişdir. Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən birinci (1906), ikinci (1907) qurultaylarının təşkilatçılarından və fəal iştirakçılarından olmuş, qurultayın idarə heyətinin tapşırığı ilə beş nəfər müəllimlə birlikdə "İkinci il" dərsliyini tərtib və nəşr etdirmişdir (1908). Məktəblər üçün "Ədəbiyyat məcmuəsi" (1914) dərsliyinin müəllifidir. Mirzə Fətəli Axundzadə, Mirzə Rza Daniş və Məhəmməd ağa Şahtaxtlıdan sonra əlifba islahatı uğrunda mübarizənin müstəqil mərhələsi Ağazadənin adı ilə bağlıdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Maarifi Nazirliyi nəzdindəki Əlifba komissiyasının işində iştirak etmiş, dövri mətbuatda mühüm ictimai-siyasi məsələləri çox sərrast şəkildə, vətəndaş mövqeyindən işıqlandıran yazıları çap olunmuşdur.

1922 ildə təşkil olunmuş "Yeni türk əlifbası komitəsi"nə üzv seçilən və orada işə dəvət olunan Ağazadə layihələr tərtib etmiş, S.Axundzadə, M.C.Məmmədzadə ilə birlikdə "Yeni türk əlifbası" dərsliyini yazmış (1922), "Kommunist" və "Yeni yol" qəzetlərində, "Maarif işçisi", "Yeni məktəb" jurnallarında məqalələr dərc etdirərək latın qrafikasının təbliği və tədrisi işində böyük xidmət göstərmişdir. "Nə üçün ərəb hürufatı türk dilinə yaramır?" (1922) əsəri əlifbanı dəyişmək uğrunda gedən mübarizənin tarixi haqqında zəngin məlumat verən dəyərli tədqiqatdır. Müəllif əsərdə Cümhuriyyət illərində əlifba islahatı ətrafındakı müzakirələrə yer ayırmışdır. O, yazırdı: ***"1919-cu ildə Hökumət özii müdaxilə edib maarif nəzarəti yanında komisyon təşkil etmişdir. Bir neçə şəxslərin tərtib etdiyi layihələr həmin komisyonda mövqeyi-müzakirəyə qoyulmuşdu. Komisyonda işləmişlər: Qaplanov, Həmid bəy Şahtaxtinski, Şahsuvarov, Sultanməcid Qənizadə, Rəşid bəy Əfəndizadə, Mahmud bəy Mahmudbəyov, doktor Qarabəyov, Axund Yusif Talıbzadə, İsa bəy Aşurbəyli və bir çox müəllimlərdən başqa ziyalılar da olmuşlar. İclasların birində Axund Yusif Talıbzadə təklif edir ki, latın hürufatını təcrübədən keçirmək bir illik müddətinə qəbul edilsin. Buna cavab olaraq, Sultanməcid Qənizadə cənabları etiraz edir ki, bir illik təbəddülatın mənası ola bilməz. Əvvəlcə əlifba yaradılmalıdır, sonra məktəb, sonra da iisuli - təlim. Bunu deyib əlifbamızın qüsurlarından bir çoxunu Qənizadə cənabları zikr edir, sair natiqlər də məsələyə müdaxilə edirlər. Bir çox danışıqdan sonra "Hürufatın reforması zamanı gəlib çatmışdırmı?" sualı səsə qoyularkən bir şəxsdən başqa hamının təsəvvürü "çatmışdır" olur".*** ("Nə üçün ərəb hürufatı türk dilinə yaramır?", B., 1922, s.174-175). Ağazadə müzakirəyə təqdim olunmuş layihələrdən danışır, Abdulla bəy Əfəndizadənin layihəsinin qəbul olunması və onun əsasında müstəqil respublikanın nəşr olunmuş ilk dərsliyi - "Son türk əlifbası" haqqında məlumat verir. "Əkinçi" qəzeti (1925), "Türk qrameri" (1926), "Firidun bəy Köçərlinin bioqrafiyası" və s. əsərlərin müəllifidir.

Ə s ə r l ə r i: İkinci il (M.Mahmudbəyzadə, Ə.Əbdürrəhmanbəyzadə, S.Axundzadə, A.Talıbzadə, A. Əfəndizadə ilə birgə), Tiflis, 1908; Ədəbiyyat mecmuəsi, B., 1912; Nə üçün ərəb hürufatı türk dilinə yaramır?, B., 1922; "Əkinçi" qəzeti, B., 1925.

*Əd.:* Abdullayev A., Azərbaycan dilinin tədrisi tarixindən, B., 1966; Ağayev Ə., Fərhad Ağazadənin pedaqoji görüşləri, B., 1987.



**AĞDAMSKİ** (əsl familiyası Bədəlbəyli) Əhməd Beşir oğlu (5.1.1884, Şuşa - 1.4.1954, Ağdaş) - opera artisti, Azərbaycanın əməkdar incəsənət xadimi (1943). Səhnə fəaliyyətinə *"Nicat"* xeyriyyə cəmiyyətinin teatr truppasında başlamış, o dövrdə Azərbaycanda qadın artistlərin olmadığına görə opera ve musiqili komediya tamaşalarında, əsasən, qadın rollarında çıxış etmişdir. Azərbaycan teatr sənətinin 1918-20 illərdəki yeni inkişaf mərhələsində Ağdamski aktyor-müğənni kimi “Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi"ndə Leyli, Əsli, Gülnaz, Gülçöhrə, ("Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun" (Məşədi İbad), "Arşın mal alan", Üzeyir Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Zülfüqar Hacıbəyli) rollarını ifa etmişdir. Dram tamaşalarında da çıxış etmişdir. 1921 ildən pedaqoji fəaliyyət göstərmişdir.

**AĞDAŞ QƏZASI** - 1919 ilin sonlarından Ərəş qəzasının dəyişdirilmiş adı (bax *Ərəş qəzası).*

**AĞSTAFA MÜQAVİLƏSİ** - Azərbaycan Sovet Sosialist Respublikası ilə Gürcüstan Demokratik Respublikası arasında "sülh və dostluq" müqaviləsi. 1920 il iyunun 12-də Azərbaycanın Ağstafa stansiyasında imzalanmışdır. Ağstafa müqaviləsinin bağlanmasına ehtiyac Şimali Azərbaycanda Bolşevik işğalından dərhal sonra yaranmışdı. Belə ki, aprelin 28-də sovet qoşunlarının Şimali Azərbaycana müdaxiləsi nəticəsində yaranmış vəziyyətdən istifadə edən Gürcüstan hökuməti Azərbaycan sərhədinə qoşun çıxardı. Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Gürcüstan elə həmin gün Poylu körpüsünü, Poylu stansiyasını, həmçinin Tiflis-Qazax yolu üzərindəki körpünü tutdu və Ağstafa istiqamətində hücuma keçdi. Azərbaycan Hökumətinin diplomatik səylərinə baxmayaraq, sərhəddə yaranmış gərginliyi xeyli müddət aradan qaldırmaq mümkün olmadı. Azərbaycan Hökuməti sərhəd məsələlərinin müzakirəsi məqsədilə danışıqlara başlamaq üçün razılıq əldə edilməsinə yalnız 1920 il mayın sonlarında nail oldu və bununla əlaqədar xüsusi komissiya yaratdı. Həmid Sultanov Azərbaycan nümayəndə heyətinin rəhbəri təyin edildi. Danışıqlar 1920 il iyunun 3-də Ağstafada başladı. İlkin danışıqlar 4 gün davam etdi. Həmin günlər nümayəndə heyətləri arasında gərgin mübahisələr baş verdiyindən nəticə əldə olunmadı. Gürcüstan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkmirdi. Azərbaycan tərəfi bu iddiaların əsassız olduğunu, Gürcüstanın bir çox vilayətlərinin əhalisini azərbaycanlılar təşkil etdiyi halda, Azərbaycanın öz qonşusuna qarşı heç bir ərazi iddiası qaldırmadığını göstərirdi. Mehriban qonşuluq siyasətini əsas tutan Azərbaycan tərəfı 1920 il aprelin 27-nə qədər qüvvədə olan sərhəd xəttinin bərpa olunmasını təklif edirdi. Gürcüstan tərəfi isə Poylu və Qırmızı körpü ətrafındakı ərazilərin, vaxtilə xüsusi məqsədlə Tiflis quberniyasına daxil edilmiş Zaqatala vilayətinin və digər ərazilərin Gürcüstana birləşdirilməsini tələb edirdi. Danışıqların növbəti mərhələsində tərəflər müəyyən məsələlərdə razılığa gəldilər və bunun nəticəsi kimi 18 maddədən və ona əlavə olan 4 maddəli sazişdən ibarət müqavilə imzalandı. Sənədləri Azərbaycan tərəfindən Azərbaycan İnqilab Komitəsi sədrinin müavini, xalq xarici işlər komissarı Mirzə Davud Hüseynov, Gürcüstan Demokratik Respublikası tərəfindən hərbi nazir G.S.Lordkipanidze, Müəssislər Məclisinin sədri S.Q.Mdivani və A.S.Andronikov imzaladılar. Müqaviləyə görə, iki respublika arasında bütün hərbi əməliyyatlar dayandırılır, tərəflər bir-biri ilə möhkəm sülh və dostluq münasibətləri qurur, hərbi əsirləri qaytarırdılar. Müqaviləyə görə, sərhəd xətti Borçalı və Qazax qəzaları arasından, Bartış dağından şimal-şərqdəki inzibati sərhəddən, Qızılqaya dağının cənub-şərqindəki bulaqlara qədər olan sahədən, Tərs dağı yüksəkliklərinin şərq yamacından,Qırmızı körpünün ortasından, Xram və Kür çayları boyu uzanan köhnə sərhəd zolağından, Poylu körpüsünün ortasından, şimal-şərq istiqamətindəki köhnə inzibati sərhəd zolağından, köhnə cənub-şərq inzibati zolağından Palantökən dağına qədər, oradan da Zaqatalaya qədər uzanan şimal-qərb sahəsindən keçirdi. Tərəflər arasında bir il müddətində qüvvədə olacaq bitərəf zonalar yaradılırdı. Poylu və Qırmızı körpünün qarşısındakı sahə, həmçinin Kür çayının Azərbaycan ərazisindəki sol sahili müqavilə imzalandıqdan sonra bir il müddətində bitərəf zona kimi qalmalı idi. Həmin zonanın sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: Qazax qəzasında İncəsu çayı, Borçalı və Qazax qəzalarının inzibati sərhədi; Qazax qəzasında Qızılhacılı, Peykanlı, Xələfli, Şəkərli stansiyaları, Kür çayının əyintisi, oradan düz xətlə Çobandağ yüksəkliyinin qərb küncündən keçən, sonra isə Çobandağ yüksəkliyinin cənub-şərqinə və Sığnax qəzasının sərhədinə qədər uzanan xətt. Bu zonada heç bir tikinti işi aparıla və hərbi hissə yerləşdirilə bilməzdi.

Bu şərtlərə əməl olunmasına nəzarət etməkdən ötrü, hər tərəfdən iki nəfər olmaqla, dörd nəfərlik qarışıq komissiya yaradıldı. Onun idarə olunması hüququ Azərbaycana verilirdi. Qırmızı körpünün Azərbaycan tərəfində qalan hissəsi

Azərbaycan, qarşı tərəfi isə Gürcüstan tərəfindən qorunmalı idi. Tərs və Babəkar dağları ilə əlaqə saxlamaq üçün Gürcüstana körpüdən sərbəst istifadə etmək hüququ verilirdi. Zaqatala dairəsinin gələcəyi Gürcüstanla Rusiya arasında yaradılacaq arbitraj komissiyasında həll edilməli idi. Məsələ tam həllini tapana qədər tərəflərdən heç biri Zaqatala dairəsinə yeni hərbi hissələr gətirməməli idi. Gürcüstan və Azərbaycan bir-birinin müstəqilliyini və suverenliyini qeyd-şərtsiz tanıyır və bir-birinin daxili işlərinə qarışmaqdan qarşılıqlı surətdə imtina edirdilər. Tərəflər suveren dövlətlər kimi, bir-birinin gerb və bayraq rəmzlərini tanıyırdılar. Müqavilə bağlandıqdan dərhal sonra konsulluq səviyyəsində diplomatik münasibətlər qurulmalı, imzalanacaq xüsusi saziş ona aid olan normaları müəyyənləşdirməli idi: tərəflər öz ərazilərində Azərbaycan və Gürcüstan hökumətlərinə iddia irəli sürən hər hansı qrup, təşkilat və şəxslərin fəaliyyət göstərməsinə icazə vermirdilər;həmin qrup, təşkilat və ya şəxslərə yardım etməyəcəkləri barədə öz üzərlərinə öhdəlik götürürdülər; bir-biri üçün əlverişli ticarət və iqtisadi şərait yaradırdılar; ticarət-tranzit müqaviləsi imzalananadək azad tranzit prinsipi həyata keçirilməli idi. Vətəndaşların əmlakları qarşılıqlı surətdə qaytarılmalı, onlara aid məsələləri qarışıq komissiya həll etməli idi. Saziş imzalananadək Azərbaycan heyvandarları Gürcüstan yaylaqlarından sərbəst istifadə edə bilərdilər; ictimai və xidməti vəzifəsindən asılı olmayaraq, bütün vətəndaşlar vətənlərinə sərbəst qayıda bilərdilər; müqavilə imzalandığı andan qüvvəyə minirdi və ratifikasiya olunmalı idi.

Əlavə sazişdə Azərbaycanın Gürcüstana neft və neft məhsulları göndərməsi, əvəzində Gürcüstanın Azərbaycana ekvivalent miqdarda və məbləğdə manufaktura və kağız verməsi, tərəflərin bərabər qaydada ayırdığı vəsait hesabına Gürcüstanın Poylu körpüsünü bərpa etməsi, vətəndaşlara vurulan ziyanın ödənilməsi məsələləri tənzimlənirdi.

*Əd.* Qasımov M., Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər), B., 1998.

**AĞSU DÖYÜŞÜ** - *Qafqaz İslam Ordusu* qüvvələri ilə S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin Qırmızı ordu hissələri arasında 1918 il iyulun 5-6-da Ağsu ətrafında baş vermişdir. Döyüşdə Qafqaz İslam Ordusunun 10-cu və 13-cü piyada alayları, 10-cu alayın tabeliyinə verilmiş Azərbaycan süvari bölmələri iştirak edirdilər. İyulun 6-da düşmən qüvvələrinin müqavimətini qıran 13-cü alay Ağsuya daxil oldu və hücumu Şamaxı yoxuşuna qədər davam etdirdi. 10-cu alay isə Ağsunun şimalından irəliləyərək, qaçan düşmənə ciddi zərbə endirdi. Gürçüvanı azad edərək, orada mövqe tutdu. Döyüşün gedişində 1 səhra topu, 1 cəbbəxana arabası, 5 pulemyot, 30-a qədər müxtəlif silah və daşnakların talan etdiyi yerli əhalinin əmlakı ilə dolu 15-ə qədər araba ələ keçirildi. Ağsu döyüşü Qaraməryəm döyüşündə qazanılmış qələbəni möhkəmləndirdi.

*Əd:*. Süleymanov M., Qafqaz İslam ordusu, B., 1999.

**AXICANOV** Museyib bəy (?-?)- Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri, Azərbaycan Parlamentinin üzvü. *Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının* süqutundan (1918, 26 may) sonra isə Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanunu"na* (1918, 19 noyabr) əsasən Azərbaycan Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. "Müsavat" və bitərəflər fraksiyasının üzvü idi.

**AXUNDOV** Bəhram bəy Cəfər oğlu (1872, Şuşa- 1932, Bakı) - Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Fransada təbiətşünaslıq və tibb təhsili almış (1893-1895), "İttihad" məktəbində həkim işləmişdir. 20 əsrin əvvəllərində Bakının ictimai həyatında fəal iştirak etmiş, *"Nicat" və "Səfa"* cəmiyyətlərinin üzvü olmuşdur. Cümhuriyyət dövründə Parlamentə seçilmiş, bitərəflər fraksiyasını təmsil etmişdir. 1919 ildə Azərbaycan Hökuməti ona xaricə təhsil almağa gedən tələbələrin sağlamlığına nəzarət etmək tapşırığı vermişdir. *Aprel işğalından {1920)* sonra müxtəlif səhiyyə müəssisələrində həkim işləmiş, "Əmək qəhrəmanı" adına layiq görülmüşdür.

**AXUNDOV** Cəfər (? - ?) – Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının süqutundan (1918, 26 may) sonra isə Azərbaycan Milli Şurasının üzvü olmuşdur (1918, 27 may). Azərbaycanın İstiqlal beyannaməsinin qəbulunda (Tiflis, 1918, 28 may) iştirak etmiş, səsvermədə bitərəf qalmışdır. Tiflisdə menşevik "Hümmət" təşkilatının rəhbərlərindən biri idi.

**AXUNDOV** Əjdər (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, öz hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Axundov Fransaya yola düşməzdən əvvəl Bakı Dövlət Universiteti tibb fakültəsinin 1-ci kursunda oxumuşdur. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, tibb sahəsində təhsilini davam etdirmək üçün Fransaya göndərilmişdir.

Təhsil haqqını ödəmək üçün o, Fransanın Dinar kurort şəhərində bir ailədə qulluqçu kimi işləmək məcburiyyətində qalır. Ceyhun Hacıbəyliyə yazdığı axırıncı məktubundan vəziyyətinin son dərəcə ağır olduğu görünür.

**AXUNDOV** İsgəndər bəy (?-?)- milli azadlıq hərəkatının iştirakçılarından biri, Azərbaycan Xalq Cumhuriyyəti Parlamentinin üzvü. Parlamentdə "İttihad" fraksiyasını təmsil etmişdir.

**AXUNDOV** İsmayıl Əbdülxalıq oğlu (25.1.1897, Şamaxı - 1952, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş



tələbələrdən biri, görkəmli alim, Azərbaycanda tibb elminin tanınmış təşkilatçılarından biri. Bakı kişi gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Almaniyanın Münxen Universitetinə göndərilmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Axundovun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi.

Görkəmli həkim-cərrah Mustafa *Topçubaşov* Almaniyada olarkən İsmayıl Axundovdan cərrahlıq ixtisasından epidemioloq ixtisasına keçməsini xahiş etmişdi. Bunun səbəbi Azərbaycan əhalisini əldən salan malyariya xəstəliyinə qarşı mübarizədə ixtisaslı həkim kadrlarının çatışmaması idi. Təhsilini başa vurduqda müəllimi, məşhur epidemioloq Martini İsmayıl Axundovu rəhbərlik etdiyi Hamburq Tropikologiya İnstitutuna dəvət etmişdir. Onun rəhbərliyi altında təcrübə keçən doktorant İsmayıl Axundov tədqiqatlarını dərinləşdirərək, dissertasiya yazmış, Afrikada uzunmüddətli ezamiyyətdə olmuşdur. Hamburqa dönərkən Axundovun verdiyi hesabat prof. Martininin elmdə yeni bir istiqamət proqnozlaşdırmasına imkan vermişdir.

O, Fransa, Əlcəzair və İsveçrədə keçirilən simpoziumlarda çıxış etmiş, 1927 ildə müvəffəqiyyətlə dissertasiya müdafıə edərək, elmlər doktoru olmuşdur.1928 ildə Bakıdan vətənə qayıtmaq təklifi almışdır. Ümumxalq fəlakətinə çevrilmiş malyariya ilə mübarizədə ölkənin tropikoloq mütəxəssislərə böyük ehtiyacı var idi.

Təcrübəli həkimalim kimi vətənə dönən İsmayıl Axundov Azərbaycanda tropikologiya sahəsində ilk professor olmuşdur. Almaniyada aldığı biliklərin əməli tədbiqinə başlamış, malyariya ilə mübarizədə mühüm rol oynamışdır. Onun görkəmli kimyaçı Yusif Məmmədəliyevlə birgə yaradıcılıq əməkdaşlığı malyariyaya qarşı kimyəvi terapiya müalicə üsulu, yeni preparatların yaradılması kimi uğurlu nəticələr vermişdir. Tələbəsinin fəaliyyətini uzaq Almaniyadan izləyən prof. Martini Axundovun malyariya ilə mübarizədəki uğurlarına sevinmiş, məktublarının birində hər iki alimin birgə əməyini yüksək dəyərləndirmişdir.

Axundov Bakı Epidemiologiya və Mikrobiologiya İnstitutunda parazitoloq-entomoloq işləmiş, Azərbaycan Tibb İnstitutunun tropik xəstəliklər kafedrasının müdiri, Bakı tropik stansiyasının direktoru, İkinci dünya müharibəsi dövründə Cənubi Qafqaz cəbhəsinin baş epidemioloqu olmuşdur. 40-dan çox elmi əsərin müəllifidir. 30-cu illərdə mütərəqqi Azərbaycan ziyalılarına qarşı repressiyalar başlandığı dövrdə, İsmayıl Axundovun Belçikada təhsil almış böyük qardaşı professor Ağa Axundov həbs edilmişdir. O,qardaşının həbs olunduğu gün, özünün də repressiyaya məruz qalacağından ehtiyat edərək, Almaniya ilə bağlı sənədlərinin çox hissəsini yandırmışdır.

Ə s ə r i: “Малярия и Culicidae в Азербайджане”, Б ., 1940.

*Əd:*Дулаева З., Страницы истории национальной интеллигенции, "Azərbaycan Tarixi Muzeyi - 2003", B., 2003.

**AXUNDOV** Məmmədsadıq Axund Molla Ruhulla oğlu (1887, Həştərxan - ?, Bakı) - ictimai xadim, publisist, maarifçi alim, tərcüməçi. Rusiya Sosial-demokrat Fəhlə Partiyası "Hümmət" təşkilatının fəal üzvlərindən biri. Ruhani-müəllim ailəsində doğulmuşdur. Bakıda 2-ci dərəcəli rus-müsəlman məhəllə məktəbini (1902), sənət məktəbini (1903) bitirmişdir.

Məhəmməd Əmin və Məmmədəli Rəsulzadələrin, Seyid Hüseyn Sadıqzadənin yaxın qohumu olan Axundov 1911 il martın 19-da panislamizmin təbliğində ittiham olunaraq həbs edilmişdir. Evində axtarış zamanı panislamizmin təbliği ilə bağlı heç bir fakt aşkar edilmədiyinə görə iki aydan sonra azad olunmuşdur. Axundov Azərbaycan Xalq Cümhuriyyəti illərində müxtəlif ictimai işlərdə çalışmış, "Novxanı" adlı istehlak cəmiyyətinin sədri olmuş, "Mərkəzi müsəlman valideyn şurası"nın katibi seçilmişdir.

Jurnalistlik fəaliyyətinə "İrşad" qəzetinin redaksiyasında başlamış, "Təkamül", "Tərəqqi", "Yeni Füyuzat", "Təzə xəbər" və b. mətbuat orqanlarında işləmiş, müxtəlif mövzularda məqalələr dərc etdirmişdir. "Ümumi mənfəətli cib dəftərçəsi və müsəlmani-rumi təqvim" (1910) tərtib etmiş, Azərbaycan dilinin qrammatikasına dair iki hissədən ibarət "Rəhbəri sərf” (Qafur Rəşad Mirzəzadə ilə birlikdə) adlı dərslik (1910-17) yazmış, "Zemstvo nədir, camaatdan ötrü nə iş görmüşdür və Zemstvo nə cür gərək olsun?" (İ.P.Belokonski, 1909), "Əlibaba və qırx quldur" və s. əsərləri tərcümə etmişdir (1910-16).Tanınmış ruhani, ictimai xadim və yazıçı olan atasının 1912 ildə qətlə yetirilməsi ilə əlaqədar mətbuatda dərc olunmuş materiallardan ibarət "Şəhid mərhum Fazil Əlhac Molla Ruhulla Axundun əhvalatına dair məcmuədir" kitabını nəşr etdirmişdir (1913).



*Əd.:* Azərbaycan kitabı (biblioqrafiya), 3 clddə, c.l, B., 1963.

**AXUNDOV** Mirzə Əbdülxalıq Hacı Abdulla oğlu (1863, Bakı - 1950, Tehran) - ictimai xadim, yazıçı, publisist, ilk azərbaycanlı tibb elmləri doktoru. Bakıda mədrəsədə və gimnaziyada təhsil almış, Almaniyanın Erlangen şəhərində tibb universitetini (1888) bitirmişdir. Göz bəbəyinin kliniki tədqiqi əsərinə görə tibb doktoru adını almışdır. Əsər iki sonra Erlangendə ayrıca kitab şəklində çapdan çıxmışdır. Vətənə qayıtdıqdan sonra Axundov Azərbaycanda ictimai həyatın yeniləşməsi uğrunda mübarizəyə qoşulmuş, Bakıda göz xəstəlikləri məntəqəsi açmağa təşəbbüs göstərmiş, bununla hazırda Bakıdakı göz xəstəxanasının əsasını qoymuşdur. O, həmin dövrdə 10 əsr görkəmli Şərq əttarı Əbu Mənsur Müvəffəq bin Əli əl-Hərəvinin əsərini klassik ərəb dilindən alman dilinə tərcümə edərək, onu geniş şərhlərlə 1892 ildə Derpt (Estoniyanın Tartu şəhəri) Universitetində tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya kimi müdafiə etmişdir.

Əsər bir il sonra Derpt Universitetinin "Əsərlərin"də, həm də Almaniyanın Halle şəhərində ayrıca kitab şəklində çap olunmuş, uzun müddət rus və Avropa farmakoloqlarının stolüstü kitabına çevrilmişdi. Axundov 19 əsrin sonu - 20 əsrin əvvəllərində Bakıda müasir üslübda kitabxana, xəstəxana, mətbəə, apteklər, xeyriyyə cəmiyyətləri yaratmış, milli özünüdərkin yüksəlməsi uğrunda geniş maarifçilik işləri aparmışdır. 1901 ildə ailə-məişət mövzusunda "Əvvəli hənək, axırı

dəyənək" adlı pyesi çapdan çıxmış və səhnədə oynanılmışdır. 1909-10 illərdə "Molla Nəsrəddin" jurnalının ictimai ideallarını əsas götürən "Zənbur" adlı satirik jurnal nəşr etdirmişdir.

Azərbaycan demokratik fikrinin görkəmli nümayəndələri Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əlabbas Müznib, Abbas Səhhət, Əzim Əzimzadə və b. jurnalın ətrafında cəmlənmişdi. Axundovun özünün bu jurnalda "Palazqulaq", "Zorba", "Cümləqayğu", "Sövdüməli-Dünyamalı", "Vərzad", "Toxmaq", "Çərənçi" və s. imzalarla şeirləri və publisistik yazıları çıxmışdır. Onun "Zənbur"da nəşr olunan əsərlərində Azərbaycan xalqının ictimai-siyasi və sosial problemlərindən geniş söhbət açılırdı. Yazılarının birində o, Rusiya Dövlət dumasının şovinist deputatı Purişkeviçin "Rusiyada ruslardan başqa heç kəs ola bilməz!" sözlərini misal çəkərək, onun müstəmləkə xalqlarına düşmən münasibətini pisləyirdi.

20 əsrin əvvəllərində Azərbaycanda müasir tibb elminin xalq kütlələri içərisində təbliğində Axundovun xidməti böyükdür. Onun 1914-19 illərdə çap etdirdiyi "Müalicə kitabı" (1914), "Uşaq hifz səhiyyəsi" (1916), "Həzm üzvlərinin azarları" (1919) və digər əsərlərindən geniş istifadə olunmuşdur.

Əbdülxalıq Axundov 20 əsrin əvvəllərində Bakıda vəba və cüzam xəstəlikləri ilə mübarizə aparmış,vəbaya qarşı mübarizədə göstərdiyi qeyri-adi fədakarlığa görə ona "əsilzadə zadəgan" fəxri titulu verilmiş, o, Bakı şəhər idarəsinə deputat seçilmişdi. Azərbaycanda universitet açılmasına illərlə səy göstərmişdir.

Axundov Azərbaycan Xalq Cümhuriyyəti dövründə -1919 ildə yenidən çıxardığı "Zənbur" jurnalında Azərbaycanın milli istiqlalını müdafiə etmiş, ona əks qüvvələri tənqid etmiş və onlara qarşı mübarizə aparmışdır. *Aprel işğalının (1920)* ilk günlərində bolşeviklər tərəfindən imarətləri və var-dövləti gözləri qarşısında vəhşicəsinə talan edildikdən sonra o, bolşevik zorakılığına etiraz əlaməti olaraq N.Nərimanovdan rəsmi icazə alıb, İrana köçmüşdür. Əvvəlcə Rəştdə, sonra isə Ərdəbildə və Tehranda yaşamış, həkimliklə məşğul olmuşdur. Bəzi məlumatlara görə, 30-cu illərdə şah sarayının daimi məsləhətçisi olsa da, saraya yaxınlıq etməmişdir. Tehranda vəfat etmiş və İranın ən məşhur adamlarının dəfn olunduğu Qum şəhərində torpağa tapşırılmışdır.

Əd.: Ağayev İ., Satirik "Zənbur" jurnalı, B., 1969; yenə onun, Bir taleyin tarixi, "Azərbaycan" jurnalı, 1991, № 6.

**AXUNDOV** (A x u n d z a d ə) Mirzə Məhəmməd Mirzə Kərim oğlu (1875, Gəncə - 1923, Gəncə) - maarif və teatr xadimi, yazıçı, filoloq alim. Ruhani ailəsində doğulmuşdur. İlk savadı atasından almış, Şah məscidindəki mədrəsədə, şəhər gimnaziyasında oxumuşdur (1882-94). Gəncə sənət məktəbində və "Məktəbi-ruhaniyyə"də müəllimlik etmişdir (1894-1908). Gəncədə "Sənayeyi-nəfisə" ədəbi dərnəyinin "Nəşri-maarif" cəmiyyətini "Difai" təşkilatının yaradılmasında iştirak etmişdir. 1908 ildə evində axtarış aparılmış. "bir mauzer tüfəng və bir tapança", "Difai" təşkilatına məxsus möhür tapılmış, həbs edilərək beş il Zakaspi vilayətinə sürgün olunmuşdur. Zakaspidən polis nəzarəti altında İrana aparılmışdır. Orada Səttar xan hərəkatında iştirak etmişdir. Qürbətdə ikən Əli Nəzmiyə göndərdiyi "Nələr çəkdim bu qürbətdə, əzizim" mənzum məktubunda Axundov sürgün həyatının ağırlığından və əzablarından bəhs etmişdir.



1913 ildə sürgündən qayıtdıqdan sonra siyasi, pedaqoji və ədəbi fəaliyyətini davam etdirmiş,1917 ilin iyununda *"Müsavat"la "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın* birləşmə qurultayında yaradılmış ilk Mərkəzi Komitənin üzvü olmuşdur. 1918 il iyunun 16-da Tiflisdən Gəncəyə köçmüş Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin işinin təşkilində Axundov fəal rol oynamışdır. 1918 ilin sentyabrında Hökumət üzvləri ilə birlikdə Bakıya köçmüş, burada birləşmiş "Türk Ədəmi-Mərkəziyyət Müsavat" partiyasının katibi işləmişdir. Axundov partiya işinin təşkilinə və partiyadaxili ziddiyyətlərin aradan qaldırılmasına böyük əmək sərf etmişdir. "İstiqlal" qəzetində dərc olunmuş "Firqə həyatı" başlıqlı bir xəbərdə deyilirdi: ***"Gəncədə təşkilat mərkəziyyətində işləyən camaat firqə xadimlərimizin əksərən Bakıya köçmələrindən naşı məəttəl bir halda idi. Fevral ayının 2-dən etibarən mərkəzi komitə tərəfindən məxsusi sürətdə göndərilən mərkəzi komitə katibi Mirzə Məhəmməd Axundzadə cənabları ilə Məhəmmədbağır Şeyxzamanov cənabları tərəfindən Gəncə komitəsi təkrar təşkil edilmişdir"*** ("İstiqlal" qəzeti, 1919, 26 şubat, №3). *Aprel işğalından {1920)* sonra Axundov Gəncəyə dönmüş, uşaq evində müdir və seminariyada müəllim işləmişdir.

Axundov yaradıcılığa 19 əsrin 90-cı illərində başlamış, müxtəlif janrlarda əsərlər yaratmışdır. Maarifçilik ideyalarının yayılmasında teatrın rolunu yüksək qiymətləndirən Axundov dramaturgiyaya önəm vermiş, məişət mövzusunda "Məhəbbətsizlik, yaxud ata-ananın təqsiri", "Analıq", "Yaşına-yaşına, çıxdı ocaq başına", "Sonrakı peşmançılıq

fayda verməz", tarixi mövzuda "Səd Vəqqas" pyeslərini, "Röyam, yaxud həqiqətə təsadüf" əsərini yazmışdır. Poeziya Axundovun yaradıcılığında xüsusi yer tutmuşdur. 1906 ildən başlayaraq "Yoncasatan", "Mollapərəst", "Hacıkəndli", "Hatif", "Qeybi", "Gəncə şairi", "Nadi" və digər imzalarla "Molla Nəsrəddin" jurnalında kəskin satiralar dərc etdirmişdir. Əsrin hadisələrinə həssas münasibət bəsləmiş, "Şərqi-Rus", "Həyat", "İrşad", "İqbal", "Açıq söz" və s. dövri nəşrlərdə müxtəlif problemlərə dair publisist yazılar dərc etdirmişdir. Ədibin 20 əsrin əvvəllərində Gəncədə baş verən ictimai proseslərə dair polemik məqalələri, sürgündən göndərdiyi "Qürbət məktubları" xüsusi maraq doğurmuşdur. Məktəblərin dərsliklərlə təmin olunmasına xeyli əmək sərf etmiş, "Sərfi-türki" (1896), "Əqaidül-müslimin" (h.I-II, 1908) kitablarına nəşr etdirmişdir. Ədəbiyyatşünas və sənət nəzəriyyəçisi kimi Axundovun xidmətləri xüsusilə böyükdür. O, Nizami ("Şeyx Nizami", 1909) və teatr sənəti ("Teatro nədir", 1909) haqqında ilk monoqrafiyaların müəllifidir. Folklor nümunələrini toplayıb, nəşr etdirmişdir ("Məclis yaraşığı", 1910). Türk dramaturgiyası nümunələrinin (N. Kamalın "Vətən, yaxud Silistrə", Bedrəddin Həsənin "Nədamət" pyesləri), U.Şekspirin "Venesiya taciri", N.V.Qoqolun "Evlənmə" pyeslərini ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir.

Əsərləri: Teatro nədir, "Azərbaycan incəsənəti", c.ll, B., 1965; Dram əsərləri (transliterasiya, tərtib edəni və ön sözün müəlifi f.e.n. R.Sadıxov), B., 2003.

*Əd.:* Muradov C, Unudulmuş sənətkar, ADU-nun "Elmi əsərləri" (Dil və ədəbiyyat seriyası), 1969; Şükürov S., Gəncə məktəblərinin tarixindən, B., 1990; Məmmədov X., Mirzə Məhəmməd Axundov, "Ana sözü" jurnalı, 1992, № 1, 2; № 5-6.

**AXUNDOV** Murtuza (?-?)- Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una (1918,19 noyabr) əsasən, Quba şəhərindən Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasını təmsil etmişdir.

**AXUNDOV** Ruhulla Əli oğlu (13.1.1897, Bakı yaxınlığındakı Şüvəlan k. - 1938) - siyasi və dövlət xadimi, publisist, alim. Müəllim ailəsində doğulmuşdur. Mədrəsədə, realnı məktəbdə, ticarət məktəbindəoxumuşdur. İngilis, fransız,



fars və s. dilləri öyrənmişdi. Əmək fəaliyyətinə 1916 ildən "Orucov qardaşları mətbəəsi"ndə başlamış, korrektor, tərcüməçi işləmişdir. Siyasi fəaliyyətə 1917 il Fevral inqilabından sonra başlamış, "sol" sosialist-inqilabçılar (eserlər) qrupunun fəal üzvü olmuşdur. 1918 ildə "Bakı ətrafı fəhlə, əsgər və matros deputatları şurasının əxbarı" qəzetinin redaktoru idi. Zaqafqaziya, Dağıstan və Türküstan həmkarlar ittifaqları qurultayının işində fəal iştirak etmiş (1919, aprel), qurultayda bolşeviklərə tərəfdar çıxmış ***"Mən sizi qızıl Moskva ilə yan-yana getməyə çağırıram",*** - demişdir. 1919 ilin mayında "Hümmət"ə daxil olmuşdur. Həmin ilin avqustundan nəşrə başlayan "Kommunist" (Azərbaycan dilində) qəzetinin ilk redaktoru, həm də "Hürriyyət" qəzetinin redaktorlarından biri idi.

1919 ilin yayından bolşevik partiyasının əsas sənədlərini Azərbaycan dilinə tərcümə etmişdir. AK(b)P-ni yaratmaq haqqında RK(b)P MK-da məruzə etmək üçün 1920 ilin yanvarında bir qrup kommunistlə Moskvaya getmişdir. *Aprel işğalından (1920)* sonra Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin kəndlərdə iş üzrə şöbə müdiri, AK(b)P Bakı Komitəsinin katibi, "Bakinski raboçi" və "Kommunist" qəzetlərinin redaktoru, 1924-30 illərdə AK(b)P MK katibi, Azərbaycan SSR xalq maarifi komissarı, "Azərnəşr"in direktoru olmuş, 1930 ildə ÜİK(b)P Zaqafqaziya ölkə komitəsinin katibi seçilmişdir. AK(b)P daxilində "sol" qrupun nümayəndəsi kimi milli məsələdə N. Nərimanova qarşı çıxmışdır.

Ömrünün son illərində SSRİ EA-nın Azərbaycan filialında, AK(b)P MK yanında Partiya Tarixi İnstitutunda işləmiş, Azərbaycan SSR XKS yanında İncəsənət işləri idarəsinin rəisi olmuşdur. V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə ilk tərcüməçilərindən idi. Azərbaycan dilində siyasi terminologiya yaradılmasında və yeni əlifbaya keçilməsində fəal iştirak etmişdir. Tarix, ədəbiyyat və incəsənətə dair bir sıra əsərlərin müəllifi, ikicildlik "Rusca-türkcə" lüğəf'in (1928-29) tərtibçilərindən biri və redaktoru olmuşdur. Repressiyaya məruz qalmış, M.Ə.Rəsulzadənin təbirincə ***"Azərbaycanın sovetləşdirildiyi ilk gündən başlayaraq müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov "pantürkizmin zəhərli bir nümayəndəsi və "Müsavat" partiyasının zavallı bir aqenti"*** kimi günahlandırılmışdır.

*Əd.:* Mədətov Q., Ruhulla Axundov, B., 1957; Ашнин Ф. Д., Алпатова В.М., Дело Рухуллы Ахундова, «Восток»,М., 2000, № 2.; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика. Страницы политической истории 1918-1920 гг., В., 1994.



**AXUNDOV** Süleyman Sani, Axundov Süleyman Rzaqulu oğlu (21.8.1875, Şuşa - 29.3.1939, Bakı) - yazıçı, maarif xadimi. Bəy ailəsində doğulmuşdur. Qori Müəllimlər Seminariyasını bitirmişdir (1894) Bakıda 3-cü "rus-müsəlman" məktəbində (1894-97; 1901-05)müəllim, 4-cü "rus-müsəlman" məktəbində (1911-18), Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) 4-cü türk məktəbində, sovet hakimiyyəti illərində 77 saylı 1-ci dərəcəli məktəbdə (1920), 19 saylı məktəbdə (1921-35) müdir işləmişdir. 1920 ilin iyununda N.Nərimanovun təklifi ilə Şuşaya göndərilmiş, dövlət hərbi ləvazımatını hesaba alan komissiyada, ilk sovetlərin təşkilində iştirak etmiş, 1921 ildə Qarabağ vilayət inqilab komitəsi xalq maarifi şöbəsinə (1920, 9 avqust - 1921, fevral) rəhbərlik etmişdir.

Axundov Qafqaz müsəlman müəllimlərinin Bakıda I (1906) və II (1907) qurultaylarında iştirak etmiş, Fərhad Ağazadə və Abdulla bəy Əfəndizadə ilə tərtib etdiyi əlifba layihəsini müzakirəyə çıxarmış, idarə heyətinin qərarı ilə "İkinci

il" dərsliyinin tərtibi işinə cəlb olunmuşdur. Bakı teatr truppasında, "Nicat" cəmiyyətinin teatr bölməsində aktyorluq etmişdir. Bədii yaradıcılığa 19 əsrin axırlarında "Tamahkar" komediyası ilə başlamış, Birinci rus inqilabı illərində azadlıq ideyalarını, xalq hakimiyyətini tərənnüm edən "Qonaqlıq", "Yuxu", "Kövkəbi-hürriyyət", "Tutuquşu" hekayələrini yazmış, Şəmsəddin Saminin istibdada qarşı xalq üsyanını təsvir edən "Dəmirçi Gavə" pyesini tərcümə etmişdir. 1913-14 illərdə "Qorxulu nağıllar" hekayələr silsiləsini yaratmışdır. Sovet hakimiyyəti illərində bədii nəsr ("Qan bulağı", "Cəhalət qurbanı", "Namus", "Ümid çırağı", "Nə üçün", "Zarafat", "Mister Qreyin köpəyi", "Qatil uşaq", "Molla Qasım"), dramaturgiya ("Laçın yuvası", "Eşq və intiqam") sahəsində çalışmışdır.

Əsəri: Seçilmiş əsərləri, 2 cilddə, B., 1968.

*Əd.:* Vəliyev M.,Süleyman Sani Axundov, B., 1956; Vəlixanov N., Süleyman Sani Axundov, B., 1968; Mirəhmədov Ə., Mükafatını vicdanından almışdır.,., "Azərbaycan" jurnalı, 1975, №12; Məmmədov X., S.S.Axundov haqqında yeni materiallar, "Azərbaycan müəllimi" qəzeti, 1975, 19 dekabr.

**AXUNDZADƏ** Cavad Məhəmmədəli oğlu (?-?)-şair, müəllim və Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai xadimi, Azərbaycan Respublikası Dövlət himni mətninin müəllifi (bax *Əhməd Cavad)*

**AXUNDZADƏ** Hacı Səlim Mirzə İsmayıl Qasir oğlu(1872, Lənkəran - 15.12.1930, İran, Ənzəli) - ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. “Müsavat”və bitərəflər fraksiyasını təmsil etmişdir. İlk təhsilini atası, şair Mirzə İsmayıl Qasirin (1805-1900) Lənkəranda açdığı üsuli-cədid məktəbində almış, sonra gimnaziyada oxumuşdur. Daha səkkiz il Ərdəbildə, Zəncanda, Nəcəfdə təhsilini davam etdirmiş, ilahiyyat elmlərinə yiyələnmişdir. Lənkərana qayıtdıqdan sonra, şəhər polis idarəsində, sonralar isə mülkədar Əskər xan Talışinskinin yanında katib işləmiş, bir müddət mollalıq etmişdir. 1911 ildən şəhər gimnaziyasında şəriətdən və fransız dilindən dərs demişdir. 1915 ilin əvvəllərində Türkiyəyə getmişdir. 1917 ilin yayında vətənə qayıtdıqdan sonra "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" partiyasına daxil olmuşdur. Partiyanın birinci qurultayında (1917, 26-31 oktyabr) iştirak etmiş, Zaqafqaziya komissarlığında fəaliyyət göstərmiş, Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü olmuşdur. Axundzadə Azərbaycan Milli Şurasının üzvü idi. 1918 ildə daşnak cəlladı Andronik Zəngəzurda azərbaycanlı əhalini amansızcasına qətlə yetirdikdə, Axundzadə mahalın erməni quldurlarından təmizlənməsində önəmli fəaliyyət göstərmişdir. Axundzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmiş, "Müsavat" partiyasının ikinci qurultayında (1919, 2-11 dekabr) yaxından iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən mədəni-maarif tədbirlərinin təşkilatçılarından olmuşdur. *Aprel işğalından (1920)* sonra İranın Ənzəli şəhərinə köçmüş, orada hökumət məktəbində şəriətdən dərs demişdir. Axundzadə İrandakı müsavatçıların fəaliyyətinə rəhbərlik edənlərdən olmuşdur.



*Əd.:* Əliyev M, Hacı Səlim Axundzadə, "Odlar yurdu" qəzeti, 1990, № 24; Oruclu M., Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**AXUNDZADƏ** (Axundov) Mirzə Fətəli Məhəmmədtağı oğlu (12.7.1812, Şəki - 10.3.1878, Tiflis) - ictimai xadim, yazıçı, mütəfəkkir. Azərbaycan dramaturgiyası, bədii nəsri, ədəbi tənqidi və publisistikasının banisi, Şərqdə milli azadlıq ideyalarının ilk təbliğatçısı. Mollaxanada oxumuş, atalığı Axund Hacı Ələsgərdən, gəncəli Molla Hüseyn Pişnamazzadədən, şair Mirzə Şəfi Vazehdən xüsusi dərslər almış, fars dillərini, xəttatlığı, şəriət elmlərini öyrənmişdir. 1833 ildən Nuxa (Şəki) qəza məktəbinə daxil olmuş, bir il rus dilində təhsil almışdır. Axundzadə 1834 ildə Axund Ələsgərin təşəbbüsü ilə Tiflisə köçərək Qafqaz canişinliyi Baş idarəsinin dəftərxanasında mülki işlər üzrə baş tərcüməçinin köməkçisi, 6 aydan sonra isə tərcüməçi işləmişdir. 1852 ildə Qafqaz canişininin baş tərcüməçisi, 1858 ildə canişinliyin Baş siyasi idarəsinin tərcüməçisi təyin olunmuş, Rusiya ilə İran və Türkiyə arasında məsul diplomatik danışıqlarda və inzibati tədbirlərin həyata keçirilməsində iştirak etmişdir. 1836-40 illərdə Tiflis qəza məktəbində Azərbaycan və fars dilləri müəllimi işləmişdir. Axundzadə Tiflisdə diyarın elmi təşkilatlarının işində fəal iştirak etmiş, 1851 ildən Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvü seçilmiş, 1864 ildən Qafqaz arxivlərini tədqiq edən "Qafqaz Arxeoqrafiya Komissiyası"nın tədqiqat işlərinə cəlb edilmişdir. 1873 ildə ona polkovnik rütbəsi verilmişdir. Ömrünün sonunda siyasi etibarsızlıqda ittiham edilərək işdən çıxarılmışdır.



Axundzadə məsul dövlət işlərini yerinə yetirməklə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuş, 1850-55 illər arasında mövzusu xalq həyatı və məişətindən alınmış "Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur", "Sərgüzəşti-vəziri xani-Lənkəran", "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti mərdi-xəsis" ("Hacı Qara"), "Mürafiə vəkillərinin hekayəti" adlı altı



Mikayıl Abdullayev. *Mirzə Fətəli Axundzadənin portreti. 1962.*
Rüstəm Mustafayev adına İncəsənət Muzeyi. Bakı

Komediya, 1857 ildə "Aldanmış kəvakib" povestini yazmaqla Azərbaycan ədəbiyyatında yeni mərhələnin başlanğıcını qoymuş, realizmin ədəbi prosesin əsas yaradıcılıq metoduna çevrilməsi uğrunda yorulmadan mübarizə aparmışdır. Axundzadə "Fehristi-kitab", "Nəzm və nəsr haqqında", "Mollayi Ruminin və onun təsnifinin babında", "Kritika. Yüksək İranın "Millət" qəzetinin münşisinə", "Mirzə Ağanın pyesləri haqqında kritika", "Tənqid risaləsi" məqalələrində və məktublarında yeni dövrdə müsəlman Şərqi xalqları ədəbiyyatının inkişaf yollarını müəyyənləşdirmişdir. "Puşkinin ölümünə Şərq poeması", "Zakirə məktub" ları, "Yeni əlitba haqqında mənzumə"si və s. şeirləri ona yüksək istedada malik şair şöhrəti gətirmişdir. "Kəmalüddövlə məktubları"nda islam ölkələrində iqtisadi və mədəni tərəqqi yolunda buxova çevrilən fanatizmin kökləri açıqlanmış, xalqı xoşbəxtliyə aparan yollar göstərilmiş, kapitalizm dövründə tərəqqi hərəkatının banisi və başçısı kimi tarixin yaddaşına həkk olunmuşdur.

Axundzadə Azərbaycan xalqının tarixi taleyində həlledici rol oynayan mürəkkəb və ziddiyyətli bir tarixi mərhələnin əvvəlində fəaliyyətə başlamışdır. O, əski Şərq feodal-patriarxal həyat tərzinin dağılmağa, müasir Qərb burjua-kapitalist münasibətlərinin formalaşmağa başladığı Azərbaycan mühitində islahatçı kimi formalaşmışdır. Tarix M.F.Axundzadənin qarşısında olduqca çətin bir vəzifə-inzibati cəhətdən Rusiya imperiyasına tabe olan, rus təbəəliyini və vətəndaşlığını qəbul edən, lakin mənəvi cəhətdən orta əsrlər Şərq zehniyyətinin təsirindən xilas ola bilməyən həmvətənlərinin yeni dövrdə inkişaf yollarını müəyyənləşdirmək, mədəni tərəqqi proqramını işləyib hazırlamaq vəzifəsini qoymuşdu. "Həramibaşıların tayı olan" müstəbid hökmdarların, zalım mülkədarların, dini istibdadın, ruhanilərin zülmü altında əzilən, mənəvi korluq üzündən ərəblərin "ölülərinə bəndəçilik etməklə fəxr edən" "Şərq məzlumlarını cəhalət qaranlığından elmin işıqlığına çıxarmaq", "əsarətdə və zindanda olan fikirləri azad etmək", cəmiyyətdə "təfəkkür sahiblərinə yol açmaq", ümumiyyətlə, bəşəriyyətə xidmət göstərmək mütəfəkkirin sosial tərəqqi üçün tərtib etdiyi məramnamənin əsas müddəalarını təşkil edirdi. O, məktublarından birində məramını açıqlayaraq yazırdı: ***"Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadhğı, rifahı və sərvətinin artması üçün islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətinin bərpa edilməsi iiçün ədalətə rəvac verməkdir".*** (Əsərləri, 3 cilddə, c.3, B., 1962, s.340-341).

Məqsədini həyata keçirmək uğrunda mübarizədə Axundzadə kapitalizmin inkişafı ilə təşəkkül tapan, əqli və mənəvi həyatın bütün sahələrinə işıq gətirən təzə əsrin məfkurəsinə, maarifçilik fəlsəfəsinə əsaslanır, köhnə dünya və onun əzici qanunlarına, cəhalət və nadanlıq səltənətinə onun şüarları ilə hücuma keçir və bu yolla qələbə çalacağına inanırdı. Məktublarında mübarizə üsullarından söhbət açaraq yazırdı: "**Mən** ***xalqımın elə bir üzvüyəm ki, fikrim,***

***dəvat və qələmimdən başqa bir şeyə əlim çatmır və əlimdən gələn işi görmüşəm"*** (y e n ə o r a d a, s.130). O, yeni dövrün mütərəqqi fikirlərindən, xüsusilə 18 əsr Avropa filosoflarının, 19 əsr rus inqilabçı demokratlarının mübarizə vasitələri və üsullarından istifadə etmək və əqidələrini yaymaqla müsəlman cəmiyyətinin dünyaya baxışında dönüş yaradacağına, xalqı mənəvi intibaha gətirib çıxaracağına inanırdı. Məktublarından birində yazırdı: ***"Kəmalüddövlənin müəllifi də Avropa filosoflarının əqidəsində olan bir adamdır. Yəni, liberaldır. Tərəqqi və mədəniyyət tərəfdarlarından sayılır. Onun məqsədi bundan ibarətdir ki, xalqın içərisində bütün siniflərə mənsub olan adamlar elmlərin və sənayenin tərəqqisinə nail olsunlar. Bu məqsədinə çatmaq üçün o, öz imkanları daxilində, bir neçə vasitəyə əl atmalıdır... O istəyir ki, onun xalqının qəlbində də qeyrət, namus, ədalət, bərabərlik, xalqı və vətənini sevmək hisslərinin toxumu əkilsin. O, xalqın içərisində olan nifaq və ədavətin birlik və səmimiyyətə çevrilməsini, zəlillik, yoxsulluq və dilənçiliyin aradan qaldırılmasını arzu edir"*** (y e n ə o r a d a, s.275-276). Ədib başqa bir məktubunda deyirdi: ***"Yeganə arzum budur ki, müsəlman tayfaları da basqa xalqlar kimi savadlanmaq imkanı əldə edib, məişət işlərində məlumat sahibi olsunlar"*** (y e n ə o r a d a, s.85).

Dünyagörüşünün maarifçilik mərhələsində M.F.Axundzadə cəmiyyəti dəyişmək, yeni bir dünya yaratmaq məsələsində mütərəqqi ideyaların xalq arasında təbliğinə böyük ümid bəsləyirdi. Bundan ötrü ədib elm və maarifin "yuxarıdan tutmuş aşağıya qədər, kasıbdan tutmuş əşrafa qədər xalqın bütün təbəqələri arasında istisnasız olaraq yayılması"nı birinci şərt hesab edirdi. O, belə bir əqidədə idi ki, müasir mütərəqqi ideyaları təbliğ etməklə cəmiyyətin mənəvi həyatında dönüş, ölkədə demokratik qaydaların tətbiqi üçün zəmin yaratmaq mümkündür. Onda "çoban da, əkinçi də, tacir də, əttar da nazirlərin malik olduqları imkan və bacarığa malik" olar.

Axundzadə vətəndaşların hüquqlarını onlara başa salıb, "xalqın dövlət başçılarının gördükləri tədbirlərdə iştirakını təmin etmək üçün" maarifçilik məramnaməsini tətbiq etməyi, iqtisadi və mənəvi həyatın bütün sahələrində islahatlar keçirməyi, ilk növbədə. əlifbanı dəyişməyi, məktəbi və ədəbiyyatı, mətbuatı əsrin faydalı fikirlərinin təbliğindən ötrü əlverişli hala salmağı başlıca şərt sayırdı. O, həmin tədbirlərin həyata keçirilməsi nəticəsində ümumxalq rifahı və azadlığının təmin olunmasına dərin inam bəsləyir, bütün qüvvə və bacarığını bu amalın həqiqətə çevrilməsi uğrunda mübarizəyə sərf edirdi.

M.F.Axundzadənin maarifçilik məramnaməsində müsəlman xalqlarının müasir dövrdə inkişafı üçün bütün tədbirlər əhatə olunmuşdur. Lakin o, əlifbanın dəyişdirilməsini bütün bunların həyata keçirilməsi üçün təməl və başlanğıc sayırdı. Böyük mütəfəkkir yazırdı: ***"Təbiidir ki, dəmiryol sizin vətəninizi abad və asudə edəcəkdir. Lakin sizin xalqın tam səadəti başqa şərtlər və başqa vəziyyətdən asılıdır ki, onların da ümumi əsası elmləri inkişaf etdirməklə Kəmalüddövlənin fikirlərini xalq arasında yaymaqdır. Bunların hər ikisi də əlifbanın dəyişdirilməsi ilə bağlıdır... Çünki bütün işlərin əsası bilikdir; bilik isə əlifbanın asan olub-olmamasından asılıdır".*** Ona görə dərin inamla yazırdı: ***"Dəmiryolu vacibdir, lakin köhnə əlifbanı dəyişdirmək ondan daha vacibdir. Teleqraf vacibdir, lakin köhnə əlifbanı dəyişdirmək ondan da vacibdir*** (y e n ə o r a d a, səh.199). Əlifbanın dəyişdirilməsi Axundzadənin maarifçilik məramnaməsində təkcə mədəni inkişafı sürətləndirmək işinə xidmət göstərmirdi. O, ərəb əlifbasının dəyişdirilməsinə eyni zamanda din bayrağı altında xalqların dövlətçilik ənənələrini dağıdan, mədəniyyətlərini məhv edən ərəb istilasının təzahürü saydığı mənəvi əsarətdən xilas olmaq vasitəsi kimi baxırdı. O, ürək ağrısı ilə yazırdı: ***"Ərəblər bizim minillik səltənətimizi zavala uğratdılar. Şan-şöhrətimizi bada verdilər, vətənimizi xarabazara çevirdilər və biitün bunlara əlavə olaraq bizim boynumuza elə bir əlifba da bağlamışlar ki, onun sayəsində hətta indi savad sahibi olmaq belə bizim üçün ən çətin işlərdən olmuşdur. Bu qövmiin bizim başımıza gətirdiyi müsibətləri təsəvvürə gətirən hər bir həssas adamı ağlamaq tutur"*** (y e n ə o r a d a, s.174).

19 əsrin ortalarından etibarən Qafqazda və digər müsəlman Şərqi ölkələrində baş verən siyasi proseslər Axundzadənin görüşlərinin inkişafına ciddi təsir göstərirdi. O, maarifçi demokratiyadan inqilabi demokratiyaya doğru irəlilədi.

1864 ildə yazıb, əlyazması halında dünyanın bir çox ölkələrinə yaydığı "Kəmalüddövlə məktubları"nda cəmiyyəti yeniləşdirmək üçün inqilabi çevrilişə ehtiyacın zəruriliyi ideyasını qavrayan Axundzadə belə bir qənaətə gəlirdi ki, "bu dünya başqa şəkil almasa", yəni cəmiyyətdə əsaslı dəyişikliklər baş verməsə, "insanların... bərabərliyi mümkün" olmaz. O, cəmiyyət üçün "tam azadlığ"ın zəruriliyi məsələsini irəli sürərək yazırdı:[1] ***'Tam azadlıq iki növ azadlıqdan ibarətdir: birinci ruhuni azadlıqdır, o biri cismani azadlıqdır".*** Onun fikrincə, xalqın ruhani azadlığını din rəhbərləri, cismani azadlığını isə despot hökmdarlar əllərindən almışlar.

Görkəmli mütəfəkkir Volter, Russo, Monteskyö, Mirabo və Radişşev kimilərin didaktik moizələrinin cəmiyyətin dəyişdirilməsinə yardım edə bilməyəcəyi haqqında qəti qənaətə gəlmişdi. O, məzlumları hakim təbəqəyə qarşı üsyana çağıraraq yazırdı: ***''Nəhayət, hazırkı əsrin əvvəllərinə yaxın Avropanın...filosofları... anlamışlar ki, ziilmä aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyildir. Bəlkə, əksinə, məzluma demək lazımdır ki, ey nadan, sən ki, qüdrət, say və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur"*** (y e n ə o r a d a, s.258).

M.F.Axundzadənin maarifçi demokratiyadan inqilabi demokratiyaya qədər inkişaf edən görüşləri və cəmiyyəti cəbr yolu ilə dəyişmək haqqında mülahizələri 19 əsrin sonu - 20 əsrin əvvəllərində Şərqdə milli azadlıq mübarizəsinin inkişafına güclü təkan verdi. O, Cümhuriyyətin qurulmasında da ideoloji qida mənbəyi rolunu oynadı.

Əsərləri: Əsərləri, 3cüddə, B., 1958-62; Əsərləri, 3 cilddə. B., 1988.

*Əd.:* Cəfərov C, M.F.Axundovun dramaturgiyası, B., 1953; Qasımzadə F., MF.Axundov. Həyat və yaradıcılığı, B., 1962; Məmmədzadə H., M.F.Axundov və Şərq, B., 1971; Məmmədov N., M.F.Axundovun realizmi, B., 1978; Rəfili M., Mirzə Fətəli Axundov, B., 1990; Talıbzadə K., Azərbaycan ədəbi tənqidinin tarixi, B., 1984; Гусейнов Г., Из истории общественной и философской мысли в Азербайджане XIX века, B., 1958; Мамедов Ш., Мировоззрение М.Ф.Ахундова,М., 1962; Джафаров Дж., М.Ф.Ахундов. Критика – биографический очерк, М., 1962; Караев Я., Мирза Фатали Ахундов, B., 1987.

**AXUNDZADƏ** Mirzə Sadıq (?-?) Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Parlamentdə "Musavat və bitərəflər" fraksiyasını təmsil etmişdir.

**AXUNDZADƏ** Rəşid bəy (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun*"una əsasən Salyandan Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdir. Axundzadə 1919 il yanvarın 1-dən fevralın 5-dək Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin işlər idarəsinin müdiri olmuş, Hökumətin 1919 il 5 fevral tarixli qərarı ilə Bakı qubernatoru təyin edilmiş və 1919 il avqustun 25-dək bu vəzifədə işləmişdir.

**AXUNDZADƏ** Səməndər Zəki oğlu (1898, Quba -1933) – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil



almaq üçün xaricə göndərilmiş tələbələrden biri. Bakı realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Frayberq Akademiyasına (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına ali təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Axundzadənin təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Təhsilini başa vurduqdan sonra vətənə dönmüş, Azərbaycan SSR Dövlət Plan Komitəsində ağır senaye bölməsində işləmişdir. Repressiya olunmuşdur.

**AKÇURA** Yusif (1876, Simbirsk - 1935, İstanbul) –görkəmli tatar tarixçisi, yazıçı və siyasi xadimi. "Pantürkizmin atası" kimi məşhur olmuşdur. Kiçik yaşlarında atasını itirdikdən sonra, 1883 ildə anası ilə İstanbula getmiş, burada orta (1886-92) və ali hərbi təhsil (1892-96) almışdır. "Gənc türklər"lə əlaqəsinə görə 1897 ildə Sultan II Əbdülhəmidin əmri ilə Tripoli şəhərinə (Liviya) sürgün edilmişdir. Oradan qaçaraq Parisə gəlmiş, Siyasi Elmlər Akademiyasına daxil olmuş (1899-1903), "Gənc türklər"in Paris və Qahirədə çıxan "Məşvərət" və "Şurayi Ümmət" qəzetlərində tez-tez çıxış etmiş, "İttihad və tərəqqi"nin 1902 ildə Parisdə keçirilən qurultayında Osmanlı imperiyasının işlərinə hər hansı xarici müdaxilənin əleyhinə olmuşdur. Parisde təhsilini başa çatdırdıqdan (1903) sonra Kazan şəhərinə gələn Akçura özünün məşhur "Üç tərzi-siyasət" ("Üç yol siyasət") məqaləsini yazmış və Qahirədə "Türk" qəzetində dərc etdirmişdir. (1904). Məqalədə osmançılıq islam birliyi və türkçülük cərəyanları araşdırılır və sonuncu ən doğru yol kimi göstərilirdi. Akçura tatar gəncliyinin milli şüurunu gücləndirmək üçün coğrafiya və Osmanlı türk ədəbiyyatından keçdiyi dərsləri ümumiləşdirərək, 1906 ildə Kazanda "Elmlər və tarix" adlı kitabça nəşr etdirmişdir. O, "Kazan müxbiri" qəzetinin baş redaktoru olmuş, Nijni Novqorodda Rusiya müsəlmanlarının birinci qurultayında (1905, avqust), kadet-konstitusiyaçı demokrat) partiyasının qurultayında, (1906, yanvar), Rusiya müsəlmanlarının üçüncü qurultayında (1906, avqust) fəal iştirak etmişdir. 1907 ilin iyununda Avropaya, Misirə getmiş, nəhayət Krıma gələrək, *İ.Qaspralının* "Tərcüman" qəzetində fəaliyyət göstərmişdir.



1908 ilin iyulunda yenidən İstanbula qayıdan Akçura müxtəlif ali hərbi məktəblərdə, 1912-13 illərdə İstanbul Universitetində dərs demişdir. 1908 ildə türkçü cəmiyyət "Türk dərnəyi"nin, "Türk yurdu" (1911, avqust) və "Türk ocağı" (1912, mart) cəmiyyətlərinin yaradılmasında iştirak etmiş, 1915 ildekabrın 10-da Rusiya müsəlmanlarının hüquqlarını Mərkəzi Avropa dövlətlərinin nəzərinə çatdırmaq məqsədilə Əli bəy Hüseynzadə, krımlı Məhəmməd Əsəd Çələbizadə, buxaralı Beccan Müqkiməddindən ibarət "Turan heyəti"nin tərkibində Avropaya getmiş, Sofiya, Budapeşt, Vyana və Berlində bir çox rəsmi şəxslərlə görüşlər keçirmişdi. Akçura və Əli bəy Hüseynzadə tərəfindən hazırlanmış "Rusiyadakı müsəlman türk-tatar xalqlarının haqlarını qoruma komitəsinin mühtiresi" adlı müraciət Avropa dövlətlərinin hökumətlərinə təqdim edilmişdi. Nümayəndə heyəti Macarıstanın rəhbərlərindən biri olan K. Tussa ilə, Vyanada xarici işlər naziri, Almaniya hökuməti üzvləri, İsveçrədə V.İ.Leninlə görüşmüşdü. 1916 il mayın 18-də Akçura Əli bəy Hüseynzadə, Əbdürrəşid İbrahimov, Əhməd bəy Ağaoğlu ilə birlikdə ABŞ prezidenti Vudro Vilsona "Rusiya müsəlmanlarının hüquqlarının müdafiə olunması" adlı müraciət göndərmişdi. 1916 il iyunun 27-29-da Millətlər Birliyinin Lozannada toplanan III konfransına qatılan türk-tatar heyətinin tərkibinə Akçura da daxil idi. Komitənin üzvləri Türkiyə, Bolqarıstan, Almaniya, Avstriya-Macarıstan və İsveçrədə mətbuat konfranslarında ictimai diqqəti Rusiyadakı türklərin vəziyyətinə yönəltmək istəyirdilər.

Akçura 1917 ilin yayından Osmanlı Qızıl Ay cəmiyyətinin xətti ilə Rusiyadakı Osmanlı əsirlərinin taleyi ilə məşğul olan missiyada fəaliyyət göstərmişdir. Akçura Brest-Litovsk sülh danışıqlarını aparmaq üçün nümayəndə heyə-

tinə qoşulmuş və Qızıl Ay cəmiyyətinin türk nümayəndəsi kimi Petroqradda və Moskvada əsirlərin mübadiləsinə dair qarışıq komissiyanın işində iştirak etmiş (1918 il, yanvar-fevral), 1919 ilin avqustunda Türkiyəyə qayıtmış, milli müqavimət qüvvələrinin tərəfində, həmin ilin oktyabrında Milli Türk Partiyasının yaradılmasında iştirak etmişdir. 1921 ilin aprelində İstanbulu tərk etmiş, Ankarada milli azadlıq hərəkatına qoşulmuş, Ankarada əvvəlcə milli təhsil nazirliyinin tərcümə şöbəsində, sonra xarici işlər nazirliyində Şərq məsələləri üzrə müşavir işləmişdir. 1923 ildə İstanbuldan, 1934 ildə isə Qarsdan Türkiyə Böyük Millət Məclisinə üzv seçilmişdir. Akçura 1925 ilə qədər daxili siyasi mübarizələrdə fəal iştirak etmiş, Cümhuriyyət Xalq Partiyasına qoşulmuş, Ankara hökumətinin xarici siyasətinin hazırlanmasında iştirak etmişdir. Müharibədən sonra iqtisadiyyatda dövlətçilik (etatizm) prinsipini dəstəkləmişdir. Atatürk Akçuranın fəaliyyətini yüksək qiymətləndirmiş, onu mədəniyyət və siyasət məsələləri üzrə müşavir təyin etmişdir.

Akçura 1925 ildən sonra tarixi araşdırmalarla məşğul olmuş, Türk Ocaqlarında fəaliyyət göstərmiş, 1931 ildə türk Tarixinin Tədqiqi Cəmiyyətinin yaradılmasında iştirak etmişdir. Bu cəmiyyət sonra Türk Tarix Qurumu adlanmış, Akçura 1932 ildə Qurumun ilk sədri təyin olunmuş və ömrünün sonuna qədər ona başçılıq etmişdir.

Əsərləri: "Elmlər və tarix", Kazan, 1906; Üç siyasi sistem, Qahirə, 1907; İstanbul, 1911; Türk, german və slavyanların tarixi münasibətləri, İstanbul, 1914; Rusiyanın müsəlman türk-tatarlarının hazırkı durumu və arzuları, Lozanna, 1916; Şərq məsələsinə dair siyasi tarix qeydləri, Istanbul, 1920; Müasir Avropada siyasi və ictimai fikirlər və fikir cərəyanları, İstanbul. 1923; Siyasət və iqtisad haqqında bir sıra çıxışlar və məqalələr, İstanbul, 1924; Türkçülük, Türklük fikri, Türkçülük cərəyanı, Türk ocakları Türk kültür yayınları, İstanbul, 1978; Yeni türk devletlerinin öncülleri, Ankara, 1981 və s.

Əd:Kurat A.H.,Türkiyə və Rusiya, Ankara, 1970; Ahmet Temiz, Yusif Akçura, Ankara, 1987; Ziya Göyalp,Türkçülüyün əsasları, B., 1991.

**AKSİZ İDARƏLƏRİNİN YARADILMASI HAQQINDA QƏRAR** - dövlətin müstəqil maliyyə-iqtisadi mexanizminin yaradılması məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il oktyabrın 8-də qəbul etdiyi qərar. Həmin qərara əsasən Zaqafqaziya Aksiz İdarəsinin Azərbaycandakı müvafiq qurumları ləğv edilmiş, əvəzində üç aksiz idarəsi yaradılmışdı: biri Gəncədə yerləşməklə, Gəncə quberniyası və Zaqatala mahalı üzrə, ikisi isə Bakıda yerləşməklə Bakı quberniyası üzrə ümumi aksiz və neftdən rüsumlar toplayan aksiz idarələri. Baş Aksiz İdarəsi Maliyyə Nazirliyinin nəzdində idi. Hökumətin həmin qərarına əsasən, Azərbaycan ərazisinə aid olan bütün ümumi və özəl işlər Tiflisdə yerləşən Zaqafqaziya Aksiz İdarəsindən alınaraq, Cümhuriyyətin müvafiq idarələrinin səlahiyyətinə verildi. Ölkənin öz aksiz idarələrinin yaradılması barədə qərar və bu qərarın yerinə yetirilməsi Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində həyata keçirdiyi mühüm addımlardan biri idi.

**AQRAR MƏSƏLƏ** - Azərbaycan Xalq Cümhuriyyətinin torpaq mülkiyyəti formaları, torpaqdan istifadə qaydaları və bu sahədə istehsal münasibətlərinin yenidən qurulması sahəsində həllinə çalışdığı islahatlar proqramı.Cümhuriyyət dövründə torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlərdən biri idi. Onun həlli həm sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, həm də ölkə əhalisinin əksəriyyətini təşkil edən kəndlilərin yeni hakimiyyətə etimadının artmasına səbəb olardı.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ərəfəsində ölkədə kapitalist münasibətləri genişlənməkdə idi. Kənddə təbəqələşmə gedirdi. 1917 ildə Şimali Azərbaycan kəndində yoxsul təsərrüfatları 54,4, ortabablar 34, qolçomaqlar 6% təşkil edirdi. Dövlət və mülkədar torpaq sahibliyi üstün idi. Bütün kənd təsərrüfatının 29,5%-i mülkədarlara, 68,7%-i dövlətə məxsus olduğu halda, yalnız 1,8%-i kəndlilərin payına düşürdü. Torpaqsız və aztorpaqlı kəndlilər mülkədarlardan icarəyə torpaq götürməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə bütün qəzalarda torpaqdan istifadənin əsas forması idi. Mülkədar təsərrüfatlarında muzdur əməyindən geniş istifadə olunurdu. Zaqafqaziya komissarlığının 1917 il dekabrın 16-da təsdiq etdiyi Əsasnaməyə və Zaqafqaziya seyminin 1918 il 7 mart tarixli qanunu ilə təsdiqlənmiş təlimata uyğun olaraq, Azərbaycan ərazisində yaradılmış və fəaliyyət göstərən torpaq komitələri öz işlərini düzgün qura bilmədiklərindən kənd əhalisinin etibarını qazana bilməmişdilər. Digər tərəfdən, ölkədə yaranmış hakimiyyətsizlik və anarxiya nəticəsində həm dövlət, həm də mülkədar torpaqları ayrı-ayrı şəxslər tərəfindən zəbt olunmuşdu. Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti xalqın və dövlətin həyatı maraqlarına cavab verə biləcək torpaq islahatı keçirmək qərarına gəldi. Bu məqsədlə Fətəli xan Xoyskinin başçılıq etdiyi birinci Hökumət 1918 il iyunun 22-də verdiyi dekretlə Zaqafqaziya seyminin qəbul etmiş olduğu aqrar qanunun Azərbaycan ərazisində həyata keçirilməsini dayandırdı. Qərarda deyilirdi: **1.** Zaqafqaziya seyminin qəbul etdiyi torpaq islahatı haqqında qanunun icrası Müəssislər Məclisi çağırılana qədər dayandırılsın**; 2.** İndiyədək həm xüsusi, həm də dövlət torpaqlarının tutulması halları aradan qaldırılsın; **3.** Torpaq pulu ödənişləri haqqında Hökumətə məruzə təqdim edilsin; **4.** Torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi haqqında Hökumətə məruzə təqdim edilsin. Azərbaycan Cümhuriyyətinin üçüncü Hökumət kabinəsinin formalaşmasından sonra (1918, dekabr) ilk çıxışında Hökumət başçısı F.x.Xoyski millətin tərəqqisi üçün ona siyasi və iqtisadi sərbəstlik verilməsinin zəruriliyini vurğuladı. Bu fakt sübut edir ki, Cümhuriyyət xadimləri ictimai-iqtisadi tərəqqinin aqrar məsələnin uğurlu həllindən asılı olduğunu düzgün qiymətləndirirdilər. Bu məsələ Hökumətin bəyanatında da xüsusi yer tuturdu. Bəyanatda qeyd olunurdu ki, kəndlilərin və fəhlələrin təmin olunması qayğısı Hökumətin ən başlıca vəzifəsi olmalıdır. Torpaq kəndliyə havayı verilməlidir.

Lakin aqrar islahatın keçirilməsi üçün müvafiq qanun qəbul edilməli idi. Odur ki, qanun layihəsi hazırlamaq üçün iki istiqamətdə Parlament komissiyası çərçivəsində və

Hökumət səviyyəsində fəaliyyətə başlandı. 1919 il fevralın 4-də torpaq islahatı haqqında Parlamentin qanun layihəsini hazırlamaq üçün menşevik-hümmətçi Səməd ağa Ağamalıoğlu başda olmaqla Parlament komissiyası yaradıldı. Komissiyanın 9 nəfər üzvündən 4-ü "Müsavat"ı (Mustafa Mahmudov, Məmməd bəy Şeyxzamanov, Murtuz Axundzadə və Nəriman bəy Nərimanbəyov), qalan 5 nəfəri isə "İttihad"ı (Bəhram bəy Vəzirov), sosialistlər blokunu (Rza bəy Qaraşarov), "Əhrar"ı (Hacı Hüseyn Əfəndiyev), "Daşnak-sutyun"u (Arşak Malxazyan) və Slavyan-rus cəmiyyətini (M.N.Vinoqradov) təmsil edirdi. Komissiya üzvlərinin müxtəlif partiyalara mənsub olması qanun layihəsinin hazırlanmasını lap əvvəlcədən uğursuzluğa düçar etdi. Çünki onların aqrar məsələyə aid yekdil və aydın proqramları yox idi. Buna görə də yeni layihə hazırlaya bilməyən komissiya Zaqafqaziya seyminin 1918 il martın 7-də qəbul etdiyi aqrar qanunun əsas müddəaları ilə kifayətlənmək məcburiyyətində qaldı. Vaxtilə qəbul olunmuş həmin qanunun müəlliflərindən biri də məhz Səmədağa Ağamalıoğlu idi. Qanun layihəsinin hazırlanması və bu məqsədlə aparılan müzakirələr kənddə narazılığın artdığı şəraitdə həyata keçirilirdi.

Hazırlanmaqda olan qanun layihəsinin uğursuzluğu Parlament komissiyasının 1919 il 23 aprel tarixli iclasında özünü göstərdi. Gündəliyə mülkədar və sahibkar torpaqlarının, həmçinin digər torpaqların müsadirəsi və ya ləğvi məsələsi qoyulmuşdu. Müzakirə zamanı komissiya üzvləri arasında elə ilk andan ciddi fikir ayrılığı yarandı. "İttihad" fraksiyası adından çıxış edən Bəhram bəy Vəzirov mülkədar və sahibkar torpaqlarının pulla satın alınmasına tərəfdar olduğunu bildirdi. "Bitərəflər fraksiyasının bir qrupu" da ittihadçıları müdafiə etdi. Onların nümayəndəsi torpaq sahiblərinə dəyən zərəri ödəmək üçün xüsusi fond yaradılmasını təklif etdi. "Müsavat"çıların sağ cinahı bitərəflərin torpağı satın almaq haqqındakı ideyalarını müdafiə edərək bildirdi ki, müsadirə variantı torpaq sahiblərinin ciddi etirazına səbəb olar və aqrar bölmənin dağılmasını stimullaşdıra bilər. "Müsavat"ın sol cinahının nümayəndəsi Mustafa Mahmudov onunla razılaşmadı və partiya yoldaşını partiyanın proqramı ilə kifayət qədər tanış olmamaqda günahlandırdı. Sosialist bloku və hümmətçi menşeviklər eyni mövqedən çıxış edirdilər: torpaq müsadirə edilməli və heç bir ödənc alınmadan kəndlilərə paylanmalıdır. Uzun müzakirələrdən sonra keçirilən səsvermə sosialistlərin xeyrinə nəticələnsə də, layihənin müzakirəsi uzandı.

1919 il avqustun sonu - sentyabrın əvvəllərində, nəhayət, komissiya layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi: 1. Cümhuriyyət ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir; 2. Torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir; 3. Torpaq sahiblərinin mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə onların öz istifadəsində qalır: 1 -ci dərəcə torpaqlar -7 *desyatin* (bağlar və becərilən sahələr); 2-ci dərəcə torpaqlar - 15 desyatindən 20 desyatinədək (əkin yerləri); 3-cü dərəcə torpaqlar - 40 desyatindən 50 desyatinədək (otlaqlar). Qalan bütün torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında həmin qanun layihəsinin son variantı Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində təsdiq olunmalı idi.

Torpaq haqqında məsələ, ilk dəfə, Parlamentin 1919 il avqustun 21-də keçirilən 67-ci iclasının gündəliyinə daxil edildi. Səməd ağa Ağamalıoğlu məruzəçi təyin olundu. Lakin müzakirə təxirə salındı. Qanun layihəsinin müzakirəsi növbəti dəfə 1919 il oktyabrın 2-də 81-ci iclasın gündəliyinə daxil edildi. Lakin əkinçilik nazirinin müavini X.Sultanovun təklifi ilə ona baxılması bu dəfə də dayandırıldı. Əkinçilik nazirliyi torpaq komissiyasının layihəsi ilə yanaşı, özünün alternativ qanun layihəsinin də müzakirəyə təqdim olunmasını məqsədəuyğun saydı. Əkinçilik Nazirliyinin nümayəndəsi Parlamentdən xahiş etdi ki, bu məsələyə baxılması nazirliyin qanun layihəsi təqdim olunanadək təxirə salınsın. Beləliklə, aqrar məsələnin həlli gündəlikdən çıxarıldı.

Parlamentin 1919 il noyabrın 9-da keçirilən 95-ci iclasında sosialistlər bloku fraksiyası əkinçilik nazirliyinin işindəki nöqsanlar barədə Parlamentə sorğu verdi. Bu məsələnin müzakirəsi zamanı çıxış edən Səməd ağa Ağamalıoğlu, Əliheydər Qarayev, İbrahim Əbilov və b. Cümhuriyyət Hö-

**Kateqoriyalar üzrə torpaq sahibliyi**

(desyatin hesabı ilə; / *des. = 1,0925 ha)*

| Quberniyalar | Ərazi | Yararlı torpaq (k/t və meşə üçün) | Yararsız torpaq (şəhərlər, yaşayış məntəqələri və s.) | Nadel (pay) torpaqları | Dövlət torpaqları | İcarə kəndli torpaqları | Xüsusi mülkiyyətdə olan 25 desyatindən artıq |
|---|---|---|---|---|---|---|---|
| Bakı | 3570453 | 2590453 | 979782 | 1424205 | 840216 | 5546 | 313982 |
| Gəncə | 4054078 | 3317923 | 736155 | 1400412 | 1079256 | 35858 | 794108 |
| Zaqatala | 364793 | 289566 | 75226 | 140866 | 87836 | 1569 | 59296 |
| Y e k u n | 7989106 | 6197942 | 1791198 | 2965483 | 2007309 | 42973 | 1168386 |

kumətini torpaq məsələsinin həllini gecikdirməkdə günahlandırdılar. Səməd ağa Ağamalıoğlu bildirdi ki, yer və torpaq məsələsi "Hökumətin möhkəm politikası olmasını tələb edən böyük və mühüm məsələdir".

Əkinçilik Nazirliyi qanun layihəsini hazırlamaq üçün ölkənin torpaq fondunu ciddi təftiş etdi.Bunu nazirliyin hazırladığı qanun layihəsinə əlavə edilmiş izahat məktubu və çoxlu statistik məlumatlar da sübut edir. Həmin məlumatlar əsasında tərtib edilmiş aşağıdakı cədvəl Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi haqqında da müəyyən təsəvvür yaradır.

Qanun layihəsi hazırlananadək nazirlik vaxtilə Azərbaycana köçürülmüş xristian əhalisinin, o cümlədən ermənilərin tərk etdikləri torpaqları, həmçinin sahibləri tərəfindən atılmış malikanələri müvəqqəti olaraq dövlətin sərəncamına verirdi. Həmin torpaqlar Əkinçilik, Daxili İşlər və Maliyyə Nazirlikləri nümayəndələrindən ibarət qəza komissiyaları tərəfindən kənd icmalarına və ayrı-ayrı kəndlilərə, bunlar olmadıqda isə həmin ərazidə yaşamayan kənar şəxslərə icarəyə verilirdi. Məsələn, Əkinçilik Nazirliyinin sərəncamına uyğun olaraq, Muğanda 5 min *desyatin* suvarılan torpaqlar 1919 ildə səpin aparmaq üçün bir il müddətinə kənd icmalarına icarəyə verilmiş, icarə haqqı isə natura ilə alınmışdı. Lakin bu təcrübə ümidləri doğrultmadı: nə xəzinə gözlənilən gəliri ala bildi, nə də kəndlilər icarəyə ciddi maraq göstərdilər.

1919 il iyunun 6-da Əkinçilik Nazirliyinin nəzdində aqrar islahatlar şöbəsi yaradıldı. Şöbəyə tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar layihəsini Nazirlər Şurasına təqdim etsin. 1919 ilin avqustunda nazir müavini X.Sultanovun rəhbərliyi ilə "Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında" və "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında" qanun layihələrinin hazırlanması başa çatdırıldı.

Qanun layihələrində əksini tapan əsas məsələlər xüsusi sahibkar torpaqlarının əhalinin hansı kateqoriyasından, nə qədər və hansı şərtlərlə alınıb dövlət torpaq fonduna keçirilməsi ilə bağlı idi. Burada xüsusi sahibkar torpaqlarının verəcəyi gəlir hesabına əvəz ödənilməklə, özgəninkiləşdirilməsi nəzərdə tutulurdu. Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzi ödənilmədən müsadirə etmək xüsusi mülkiyyəti ləğv etməyə bərabərdir. Buna görə də qanun layihəsində torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsi məqbul sayılır. Eyni zamanda, torpaq sahibinin özünə saxladığı sahənin ölçüsü malikanənin dəyəri və xarakterindən asılı olaraq müəyyən edilirdi və kənd yerlərində suvarılan torpaq sahəsi 100 *desyatindən,* şəhər yerlərində isə 5-7 *desyatindən* artıq olmamalı, həyətyanı torpaq sahələri bu normalara daxil edilməməli idi.

Lakin Əkinçilik Nazirliyinin hazırladığı bu qanun layihələri də Parlament komissiyasının hazırladığı layihə kimi uğursuz oldu. Belə ki, Azərbaycanda baş vermiş Hökumət böhranı nəticəsində onlar heç müzakirəyə də çıxarılmadı.

Baş nazir Nəsib bəy Yusifbəylinin təşkil etdiyi yeni Hökumət kabinəsi yeni aqrar siyasət kursu işləyib hazırlamaq əzmində olduğunu bəyan etdi. Yeni əkinçilik naziri sosialist Əhməd Cövdət bəy Pepinov isə nazirliyin hazırlamış olduğu əvvəlki iki qanun layihəsini təkmilləşdirmək üçün Parlamentdən geri aldı.

1920 il martın əvvəllərində Əkinçilik Nazirliyi "Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması haqqında qanun"un yeni layihəsi üzərində işi başa çatdırdı və baxılmaq üçün Nazirlər Şurasına təqdim etdi. Yeni qanun layihəsi Gürcüstan sosialdemokrat hökumətinin Azərbaycan sosial-demokratları tərəfindən bəyənilən aqrar qanunu əsasında hazırlanmışdı. Bu layihə kənd yerlərində olan xüsusi sahibkarların-hüquqi şəxslərin bütün torpaqlarının, o cümlədən monastır, vəqf, məscid və kilsə torpaqlarının, habelə şəhər ərazisinin şəhər mülkiyyətinə daxil olmayan sahələrinin sahiblərindən alınıb əvəzi ödənilmədən dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Mülkiyyəti əlindən alınan sahibkarların ixtiyarında saxlanan torpaq sahəsinin ölçüsü həmin yerlərin təsərrüfat şəraitinə uyğun olaraq, kənd yerlərində becərilən bitki təsərrüfatları üçün 7-10 *desyatin,* taxılçılıq təsərrüfatı üçün 15-20 *desyatin,* maldarlıq təsərrüfatları üçün 40-50 *desyatin,* şəhərdə isə müvafiq olaraq 1,5-3 *desyatin,* 3-5 *desyatin,* 10-12 *desyatin* müəyyən edilirdi. Sahibkarların mülk və bağları da bura daxil idi.

Parlament komissiyası torpağın sahibkarlardan əvəzsiz olaraq alınmasında israr edirdi. Buna görə də nazirliyin hazırladığı layihənin Parlamentə təqdim olunması ləngidilirdi. Ölkədə vəziyyət gərginləşməkdə davam edirdi. Hökumət isə hələ də aqrar qanun layihəsinin müzakirəsinə başlamamışdı. Bunun əsas səbəbi təkcə partiyalar arasındakı ixtilafla, yaxud ölkənin ağır iqtisadi vəziyyəti ilə bağlı deyildi. Aqrar məsələnin özü mahiyyətcə çox mürəkkəb, həlli çətin olan problem idi. Bu məsələdə hakim "Müsavat" partiyasının özünün də aydın proqramı yox idi. Hələ "Müsavat" partiyasının 2-ci qurultayında (1919,dekabr) partiyanın rəhbərliyi həmin məsələ ilə bağlı kəskin tənqid edildiyi vaxt Məhəmməd Əmin Rəsulzadə göstərmişdi ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər. Partiya qurultayı aqrar məsələyə təkrar baxaraq, onun aqrar siyasət komissiyasında hazırlanmış layihəsinin Parlamentdə müzakirəyə çıxarılması haqqında qətnamə qəbul etsə də, bu qərar xeyli vaxt icra olunmadı. "Müsavat" fraksiyası yalnız 1920 il fevralın 16-da partiyanın aqrar məsələ barədə qurultayda bəyənilmiş qanun layihəsini Parlamentin növbəti 123-cü iclasında müzakirəyə təqdim etdi.

"Müsavat" fraksiyasının təqdim etdiyi qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin bu layihədə kənd yerlərində sahibkarların mülkiyyətində, bağ və həyətlər də daxil olmaqla, 25-75 *desyatin* torpaq saxlanılması, şəhər yerlərində isə bu sahənin becərilən bitkilərin

xüsusiyyətindən və eləcə də əhalinin torpağa olan ehtiyacından asılı olaraq, 5 *desyatindən* 7,5 *desyatinədək* məhdudlaşdırılması nəzərdə tutulurdu.

Parlament sonuncu qanun layihəsinə baxıb, müzakirəyə təqdim etmək üçün aqrar komissiyaya 10 gün möhlət verdi. Lakin aqrar komissiya Hökumət böhranları ilə əlaqədar olaraq, öz fəaliyyətini, demək olar ki, dayandırmışdı. Buna görə də həmin komissiyanın sədri Səməd ağa Ağamalıoğlu təklif etdi ki, komissiyanın işini bərpa etmək üçün onun tərkibi sosialistlərdən ibarət yeni üzvlər cəlb olunmaqla dəyişdirilib möhkəmləndirilsin. Lakin Parlament onun təklifini qəbul etmədi. Aqrar komissiya "Müsavat" fraksiyasının hazırladığı qanun layihəsini müzakirə etdiyi birinci iş günündə "müsavat"çı Rüstəmbəyov komissiyanın sədr müavini seçildi. Bu addım komissiyada "müsavat"çıların mövqeyini gücləndirdi. Səməd ağa Ağamalıoğlu siyasi qüvvələrin komissiyadakı tarazlığını pozmağa və nazirliyin layihəsini təkrar müzakirəyə qaytarmağa cəhd göstərdi. Lakin təklifi uğur qazanmadı və "Müsavat"ın layihəsi əsas kimi saxlanıldı. Bununla belə, aqrar komissiya Parlamentin ona verdiyi tapşırıqları yerinə yetirə bilmədi. Aqrar qanun layihələrindən heç biri qanun statusu almadı. Aqrar islahatın keçirilməsi mümkün olmadı. Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün ən vacib məsələlərdən biri həll olunmadı. Bundan istifadə edən sosialistlər fraksiyası və AK(b)P əhali içərisində narazılığı artırmaq üçün öz pozuculuq fəaliyyətlərini daha da genişləndirdilər və *Aprel işğalı (1920)* ərəfəsində Azərbaycan Cümhuriyyətinin devrilməsi üçün əlverişli zəmin yarada bildilər.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə. c. 5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), 1-2, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Азербайджанская Демократическая Республика ( (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**"AL BAYRAQ"** - leqal bolşevik qəzeti, "Hümmət" partiyasının orqanı. İlk və yeganə nömrəsi 1920 il martın 31-də Bakıda Azərbaycan dilində çıxmışdır. Redaktoru Əliheydər Qarayev idi. Qəzet Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyətini tənqid edir, Birinci dünya müharibəsində iştirak edən dövlətlərin işğalçılıq siyasətinə qarşı çıxır, bolşevizmə xidmət edərək, kütlələri sosialist inqilabı uğrunda mübarizəyə çağırırdı. "Al bayraq" qəzeti dövlətə qarşı çıxış etdiyi üçün Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən bağlanmışdır.

**ALEKSANDROPOL** - Gümrü şəhərinin keçmiş (1837-1924 illərdə) adı.

**ALEKSANDROPOL MÜQAVİLƏSİ (1920)** - Türkiyə ilə Ermənistan arasında müharibəni dayandırmaq və uzunmüddətli sülh yaratmaq məqsədilə bağlanmış müqavilə (bax *Gümrü müqaviləsi (1920))*.

**ALMAN MİLLİ ŞURASI** - Azərbaycandakı alman koloniyalarının mənafeyini müdafiə etmək məqsədilə fəaliyyət göstərmiş qurum. 1918 il noyabrın 19-da yaradılmışdı. Şura, ilk növbədə, almanların Azərbaycandakı əmlakının qorunması məsələləri ilə məşğul olurdu. Sayları az olduğundan seçki senzinə uyğun gəlməmələrinə baxmayaraq, milli təmsilçilik prinsipinə uyğun olaraq Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli qərarı ilə alman əhalisindən də bir nümayəndəni Parlamentin tərkibinə daxil etmək və onun seçimini alman milli təşkilatlarına həvalə etmək nəzərdə tutulmuşdu. Azərbaycan Parlamentində mill azlıqların nümayəndələri üçün ayrılmış 4 yerdən birini alman azlığının nümayəndəsi mandatını Yelenendorfdan (indiki Xanlar) olan deputat Lorens Yakov Kun aldı. Onun Parlamentdəki, xüsusilə aqrar komissiyasındakı işi, əsasən alman koloniyalarının mənafelərinin müdafiəsinə yönəlmişdi.

**ALMANİYA-RUSİYA SAZİŞİ (1918)** - Almaniya ilə Rusiya Sovet Federativ Sosialist Respublikası arasında 1918 il avqustun 27-də bağlanmış Brest-Litovsk müqaviləsinə məxfi əlavə.

**ALMAS İLDIRIM,** İldırım Əbdülməhəmməd oğlu Almaszadə (24.3.1907, Bakı yaxınlığındakı Qala k.-I 14.1.1952, Türkiyə, Qalabucaq ş.) - Azərbaycan istiqlal şairi. Bakıda İttihad məktəbini bitirmiş (1925), 1927 ildə Bakı Dövlət Universitetinin Şərq fakültəsinə daxil olmuş, lakin "tacir oğlu" olduğu üçün oradan çıxarılmışdır. "Cığırdaş" şair, "müsavatçılara aşiq və Türkiyə çavuşlarının həqiqi şagirdi", bolşevizm ideologiyası üçün "zərərli bir insan" kimi təqib olunan Almas İldırım 1928 ildə Dağıstana, sonra isə Türkmənistana sürgün edilmişdir. 1933 ildə İrana, oradan da 1934 ildə Türkiyəyə mühacirət etmiş, müəllimliklə məşğul olmuşdur.



Yaradıcılığa 20-ci illərdə başlamış, "Yaşıl yarpaq", "Gənc qızıl qələmlər" ədəbi təşkilatlarının üzvü olmuşdur. İlk şeri ("A dağlar") 1923 ildə İstanbulda çıxan "Həyat" jurnalında dərc olunmuşdur. "Dün, bu gün" (S.Rüstəmlə müştərək, 1926), "Dağlar səslənirkən" (1930) kitablarındakı lirik və ictimai-siyasi ruhlu şeirlərində ("Nəriman", "Müstəmləkə olmuş Şərqə", "9 yanvar", "Potyomkin" və s.) dövrün nəbzi güclüdür. "Dağlar səslənirkən" kitabı "kommunizmə zidd fikirlər" olması bəhanəsi ilə müsadirə edilərək satışdan yığışdırılmışdı. Türkiyədə yaşadığı illərdə, əsasən vətən həsrəti, onun tarixi taleyi mövzularında yazıb-yaratmış, istiqlal şairi kimi tanınmışdır:

***Hanı məni gül qoynunda doğuran,***
***Xəmirimi göz yaşıyla yoğuran,***
***Beşiyimdə "layla balam" çağıran,***
***Azərbaycan, mənim baxtsız anam oy!..***
***Neçə bir il həsrətinlə yanam oy?!***

***Könlümə tək Kəbə yapdım səni mən,***
***Sənsiz nedəm qürbət eldə günü mən,***

***Sənsiz nedəm Allahı mən, dini mən,***
***Azərbaycan, mənim tacım, taxtım oy!..***
***Oyanmazmı kor olası baxtım oy?!***

Almas İldırımın bu dövr yaradıcılığı Azərbaycan mühacir poeziyasının parlaq nümunələrindəndir: "Boğulmayan bir səs" (1936), "Azərbaycan mahnıları" (1938), "Bayatılar" (1943, 1947), "Seçilmiş şeirləri" (nəşri 1953), "İgidlərə səsləniş" (nəşri 1990) kitabları, "Qara dastan", "Bir gün gələcək", "Sürgün" və s. poemaları. Almas İldırım haqqında "Azərbaycanfilm" kinostudiyasında sənədli film çəkilmişdir (rej. Z.Məhərrəmov, 1990). Bakıda adına küçə var.

Əsərləri: Azərbaycanın didərgin salınmış övladı - şair Almas İldırım şeirlərilə, B., 1990; Qara dastan. Şeir və poemalar (tərtibçi Maarif Teymur), B., 1994.

*Əd.:* Cəfər Rəmzi, İldrım Almaszadə, "Ədəbiyyat və İncəsənət" qəz., 1988, 18 mart; Osmanoğlu M., "Yurd üçün qanlı bir çiçək olmadım...", "Gənclik" jurnalı, 1988, №10; Teymurov M., "Azərbaycan. Mənim tacım, taxtım oy", "Azərbaycan gəncləri", 1989, 19 sentyabr; Vəliyev K., "Əlvida, ey gözəl Bakı, əlvida!", "Açıq söz", 1990, №l; Nəbi Xəzri, "Allahım, mən neçin şair doğuldum", "Əİ", 1990, 30 noyabr; Nəbiyev B., Didərgin şair, B., 1995.

**ANAPLI** (Məmmədov) Əbülhəsən (1894, Quba -1921, Bakıda dəfn edilmişdir) - aktyor. 1910-11 illərdə "Səfa" və "Nicat" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, 1916 ildən Zülfüqar və Üzeyir "Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi"ndə fəaliyyət göstərmiş, Qafqazın, İranın bir çox şəhərində qastrol səfərlərində olmuşdur. Komik aktyor olan Anaplı Xalq Cümhuriyyəti dövründə (1918-20) Azərbaycan dramaturgiyasının ən yaxşı nümunələrində -"Hacı Qara"da (M.F.Axundzadə) Kərəməli, "Evliykən subay"da (Z.Hacıbəyli) Qaraçı, "Arşın mal alan"da və "Məşədi İbad"da (Ü.Hacıbəyli) Vəli, Hambal və s. rolları ifa etmişdir.



Bu illərdə o, eyni zamanda musiqili teatr səhnəciklərində çıxış etmiş, milli teatr sənətimizin təbliğatçılarından olmuşdur. "Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi" Əbülhəsən Anaplının şərəfinə "Cəhənnəm" tamaşasını göstərmişdir. Qarabağda qastrolda olarkən erməni-daşnak qaraguruhçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir.

**"ANARXİYA"** - Bakıda fəaliyyət göstərmiş ən iri anarxist təşkilat. 1905 ildə yaradılmış bu təşkilata erməni terrorçu "Hnçak" partiyasının keçmiş üzvü S.Kalaşyants başçılıq edirdi. Kalaşyantsın (ədəbi təxəllüsü A.Sevuni) 1906 ilin əvvəlində nəşr etdirdiyi "Mübarizəyə və anarxiyaya doğru" kitabçasında anarxizm hərəkatının prinsipləri şərh olunmuşdu. 1905 ildə erməni-daşnakların azərbaycanlılara qarşı törətdikləri qırğından sonra anarxistlərin təsiri xeyli gücləndi. Bu zaman vəzifəli şəxslərə və sənayeçilərə qarşı terror aktları geniş hal aldı ki, bu da anarxistlərin fəaliyyəti üçün əlverişli şərait yaratdı. Anarxistlərin başlıca prinsipi onların insan azadlığına zidd saydıqları hər hansı dövlət hakimiyyətinin məhv edilməsi idi. Əsası hələ M.Bakunin və P.Kropotkin tərəfindən qoyulmuş anarxist təsəvvürlərə görə, Rusiyada xalqın iradəsi ilə anarxizm ideyalarına əsaslanan inqilab labüddür. Sonra isə dövlətçiliyin xarabalıqları üzərində kollektiv əməyə və mülkiyyətə əsaslanan azad şəhər və kənd icmaları yaradılmalıdır. O dövr anarxistlərinin fəaliyyətində iki əsas cərəyan özünü göstərirdi - Kropotkinin ardıcılları anarxist-kommunistlər və həmkarlar təşkilatlarında işləyən anarxist-sindikalistlər. Kropotkin deyirdi ki, "bizim kommunizmimiz-anarxist, hökumətsiz kommunizmdir, azad insanların kommunizmidir".

Bakı anarxistlərinin sosial tərkibinin xüsusiyyəti onda idi ki, onların sıralarına fəhlələrdən başqa, sonralar xeyli sayda sinfi simasını itirmiş ünsürlər, o cümlədən erməni quldurları da qoşulmuşdu. Təşkilata bir neçə sosial-demokrat və "Hnçak" partiyasının üzvləri də daxil olmuşdu. Anarxistlərin Bakıda ilkin fəaliyyət istiqamətlərindən biri anarxizm banilərinin ideyalarının təbliği, broşür və intibahnamələrin nəşri idi. Bu məqsədlə mətbəə də yaradılmışdı. Lakin əməli fəaliyyətdə onlar əsasən ekspropriasiya və terrorçuluqla məşğul olurdular. Azərbaycan xalqına qarşı qırğınlar törətməyə çalışan ermənilər bu işdə xüsusi fəallıq göstərirdilər. Fərdi terrorla yanaşı, iqtisadi təxribat da törədilirdi. Siyasi və iqtisadi tələblərlə bağlı olan "məfkurəli anarxizm" tədriclə prinsipsiz ekspropriatorluğa, zorakılıqla pul qoparmağa, soyğunçuluğa çevrildi. 1906 ilin sentyabrında daşnaklar anarxistlərin öldürdüyü Mantaşov zavodunun direktoru, "Daşnaksutyun" partiyasının üzvü C.Doluxanovun qisasını alaraq S.Kalaşyantsı qətlə yetirdilər. Buna cavab olaraq anarxistlərin yaraqlılar dəstəsi "Daşnaksutyun"a müharibə elan etdi. Nəticədə 1906-07 illərdə 17 daşnak və 11 anarxist öldürüldü. 1908-09 illərdə Bakıda anarxistlərin həbsi kütləvi xarakter aldı və nəticədə anarxizm hərəkatı xeyli itki verərək, əslində, Azərbaycanın siyasi səhnəsindən çıxdı.

*Əd.:* К о м и н В.В., Анархизм в России, Калинин, 1969; Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века, В., 1997.

**ANAŞKİN** İvan İvanoviç (1880, Tambov quberniyası -1938) - fəhlə hərəkatı iştirakçısı. Azərbaycanda sovet hakimiyyəti qurulması uğrunda mübarizə aparmışdır.1901 ildə Bakıya gəlmişdir. 1905 ildən Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) və Bakı fəhlə deputatları sovetinin üzvü olmuşdur. 1917 il Fevral inqilabından sonra RSDFP-nin bolşevik Bakı komitəsinin, qırmızı hərbi drujinanın üzvü, Bakının Qaraşəhər rayonu fəhlə deputatları sovetinin sədri, Bakı Fəhlə Konfransı rəyasət heyətinin üzvü olmuşdur. 1919 ilin aprelində Zaqafqaziya həmkarlar ittifaqları ölkə şurasının sədri, həmin ilin mayında RK(b)P Qafqaz ölkə komitəsinin üzvü seçilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra dövlət əleyhinə geniş

pozuculuq fəaliyyəti göstərmişdir. Belə ki, Azərbaycan Hökumətinin yasaqlarına baxmayaraq, tətil komitəsinin əsas rəhbərlərindən biri olan Anaşkin ardıcıl tətillər təşkil etmiş, fəhlələri Hökumətə qarşı itaətsizliyə çağırmışdır. Bununla əlaqədar, dəfələrlə həbs olunmuşdur. 1920 ilin yazında Moskvaya, III Ümumrusiya həmkarlar ittifaqları qurultayına nümayəndə göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti elan edildikdən sonra Bakıya qayıtmış, partiya və təsərrüfat işlərində çalışmış, 1928 ildən AK(b)P MK-nın Mərkəzi Nəzarət Komissiyasında işləmişdir. Bir müddət Saratovda fəaliyyət göstərdikdən sonra, yenidən Azərbaycana qayıtmış, neft sənayesində texniki təhlükəsizlik üzrə institutun direktoru işləmişdir. Repressiya olunmuşdur.

**ANATOLLU** (Səfərov) Əhməd Muxtar oğlu (1894-1963) - aktyor, peşəkar məzhəkə ustası, Azərbaycanın əməkdar artisti (1940). Səhnə fəaliyyətinə 1911 ildə "Səfa" mədəni maarif cəmiyyətinin teatr truppasında başlamışdır. Müsəlman Artistlər Birliyinin fəal üzvlərindən olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Üzeyir və Zülfüqar "Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi"ində fəaliyyət göstərmiş, bir çox şəhərlərdə qastrol səfərlərində olmuşdur. Eyni zamanda müstəqil surətdə çıxış etmiş, bayram və el şənliklərində, şəhər yoxsullarına, kasıb tələbələrə maddi yardım göstərmək məqsədilə təşkil olunmuş xeyriyyə konsertlərində iştirak etmişdir. 1920 ildən Azərbaycan Opera və Balet Teatrında, Azərbaycan Dram Teatrında və Musiqili Komediya Teatrında işləmişdir. Ü.Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun" ("Məşədi İbad") musiqili komediyalarında Vəli və Hambal, "Koroğlu" operasında Təlxək rollarında oynamışdır.

**ANTANTA** (fr. entente - "razılıq") - Almaniya tərəfindən gözlənilən təcavüzə qarşı 1904-07 illərdə yaradılmış B.Britaniya-Rusiya-Fransa ittifaqı. İttifaqın adı 1904 il ingilis-fransız müqaviləsinin mətnində fransız sözü olan "entente cordial" ("antant kordivl" kimi tələffüz edilir) - "qəlblər və ya ürəklər razılığı" kimi izah edilmişdir. Sonralar ona 20-dən çox dövlət qoşulmuşdur. Birinci dünya müharibəsi illərində B.Britaniya, Fransa və Rusiyaya qoşularaq Almaniya blokuna (Almaniya, Avstriya - Macarıstan, Osmanlı imperiyası, Bolqarıstan) qarşı vuruşan dövlətlər də Antanta ölkələri adlandırılmışdır. Rusiya və Rumıniya Birinci dünya müharibəsi illərində Almaniya bloku ölkələri ilə separat sülh bağlayaraq, ittifaqın tərkibindən çıxmışlar. Sovet Rusiyasının müharibədən çıxması, B.Britaniya və Fransanın sovet hakimiyyətinə qarşı kəskin reaksiyası nəticəsiz qalmadı. Antanta blokunda müttəfiqlərarası köklü parçalanma baş verdi. 1917 il dekabrın 23-də B.Britaniya ilə Fransa arasında bağlanmış məxfi konvensiyaya görə müttəfiqlər keçmiş Rusiya imperiyasının ərazi bölgüsünü aparmış, Qafqaz ingilis nüfüz sahəsinə aid edilmişdi. Qafqaz, Xəzər hövzəsi, xüsusən də Bakı bölgəsi Antanta ilə Almaniya bloku, həmçinin Antanta ilə Sovet Rusiyası arasında mübarizə obyekti olmuşdur. Bu prinsipial məsələni İ.Stalin daha açıq ifadə etmişdi: "Qafqazın inqilab üçün mühüm əhəmiyyəti onun yalnız xammal, yanacaq, ərzaq mənbəyi olması ilə deyil, həm də Avropa və Asiya, xüsusilə Rusiya və Türkiyə arasındakı mövqeyi və mühüm iqtisadi və strateji yollara (Batum-Bakı, Batum-Təbriz, Batum -Təbriz-Ərzurum) malik olması ilə müəyyən edilir... Qafqazda, nəhayət, kim möhkəmlənəcək, neftdən və Asiyanın dərinliyinə aparan ən mühüm yollardan kim istifadə edəcək, inqilab, yoxsa, Antanta - bütün məsələ bundadır". Antanta dövlətləri Osmanlı - Almaniya qoşunlarının irəliləməsindən, Osmanlı ordusunun İran, Qafqaz, Türküstan istiqamətində həmləsindən, Bakı neftinə sahib ola biləcəklərindən bərk ehtiyat edirdi. Antanta dövlətlərinin nümayəndələri Zaqafqaziya komissarlığının yaradılması prosesində iştirak etmişlər. B.Britaniya hökuməti Zaqafqaziya Federasiyasını bütünlüklə dəstəkləməyi qərara almış və Qafqazla bağlı nəzərdə tutduğu geniş strateji planı həyata keçirmək məqsədilə bölgəyə hərbi missiya göndərməyi qərarlaşdırmışdı (bax *Böyük Britaniyanın hərbi ekspedisiyası).* Lakin general Denstervilin başçılıq etdiyi B.Britaniya hərbi ekspedisiyası iflasa uğramış, qısa müddətdən (1918,4 avqust-14 sentyabr) sonra Bakını tərk etməyə məcbur olmuşdu. Birinci dünya müharibəsi Almaniya bloku dövlətlərinin bir-birinin ardınca məğlubiyyəti və barışıq imzalanması ilə başa çatdı. Antanta Birinci dünya müharibəsi illərində qarşıya qoyduğu başlıca məqsədə - Almaniyanın darmadağın edilməsinə nail oldu.

1918 il 30 oktyabr Mudros (Mondros) barışığına görə Osmanlı qüvvələri tezliklə Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etməli, Antanta qüvvələri Bakını işğal etməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə səlahiyyətli nümayəndəsi kimi Əlimərdan bəy Topçubaşov İstanbulda Mudros barışığının Azərbaycana aid hissəsi ilə bağlı bir neçə dəfə etiraz notaları ilə çıxış etmişdir. Antanta qüvvələrinin baş komandanı və nümayəndəsi kimi general U.Tomsonun başçılığı altında ingilis qoşunları 1918 il noyabrın 17-də Bakıya daxil olmuşdu (bax *Tomson bəyannaməsi).* Antanta dövlətlərinin Azərbaycandakı nümayəndələri bəyanatlarında Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında iştirak edəcəyini bildirmişdilər. Lakin Antanta dövlətlərinin Qafqaz respublikaları ilə bağlı mövqeləri fərqli olmuşdur. Sülh konfransında yüksək nüfüza malik olan böyük dövlətlər içərisindən məhz Fransa yeni yaranmış Qafqaz respublikalarının müstəqilliyinin tanınması əleyhinə olmuşdur. Fransa hökuməti Azərbaycanla iqtisadi əlaqələr yaratmağa meyl göstərsə də, Azorbaycan və Gürcüstanı nə hüquqi, nə də faktiki cəhətdən tanımaq istəmirdi, ermənipərəst siyasət yeridirdi. İtaliyanın Qafqaza münasibəti ingilislərin mövqeyi ilə sıx bağlı olmuşdur. İngilis qoşunları Qafqazdan çıxmaqla yanaşı, nə ABŞ-ın, nə də Fransanın bu regionda birtərəfli qaydada qüvvətlənməsinə yol vermək istəmirdilər. Bu məqsədlə italyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə ingilislər tərəfindən irəli sürüldü. Belə ki, İtaliyanın Qafqazda ingilisləri əvəz etməsi Yaxın Şərqdə mövcud olan qüvvələr nisbətini pozmurdu. İngilislərlə italyanlar arasında aparılan danışıqlar 1919 il martın 24-də

gizli saziş imzalanması ilə nəticələndi (bax *İngiltərə-İtaliya sazişi).* 1919 il mayın 10-da B.Britaniya komandanlığı ingilis hərbi şurasının Cənubi Qafqazdan çıxmaq qərarı barədə Azərbaycan və Gürcüstan hökumətlərinə məlumat verdi. Mayın 10-da İtaliyanın bir hərbi korpusu artıq Batuma daxil olmuşdu. Mayın 16-da fövqəladə İtaliya missiyası, mayın 22-də hərbi ekspertlər qrupu Bakıya gəldi. İtaliya hökuməti Qafqaza ordu göndərilməsinə tərəfdar olduğunu bildirdi. İyunun 28-də B.Britaniya hökuməti ingilis ordusunun Qafqazdan və ümumilikdə, keçmiş Rusiya ərazisindən çıxardılması haqqında Paris sülh konfransına rəsmi şəkildə məlumat verdikdə Antanta dövlətləri Qafqazdan çıxan ingilis ordusunu İtaliya ordusu ilə əvəz etmək haqqında qərar qəbul etdilər. Lakin İtaliyada hökumət kabinəsinin dəyişməsi nəticəsində yeni yaradılmış F.Nitti hökuməti İtaliyanın Qafqaza ordu göndərməsindən imtina etdi. F.Nittinin belə qərar qəbul etməsi Azərbaycanı və Gürcüstanı çətin vəziyyətə salırdı. İtaliyanın əvvəlki baş naziri Orlandodan fərqli olaraq, Nitti "Böyük Ermənistan" yaradılması, Türkiyənin parçalanması ideyasını Antanta dövlətlərinin avantürası hesab edirdi. İngilis qoşunlarının Qafqazdan çıxarılması ilə B. Britaniya Hökuməti O.Uordrop başda olmaqla, Qafqaza özünün siyasi missiyasını göndərdi. Uordropun rəhbərlik etdiyi ingilis missiyasından başqa, mayor de Nonankurun rəhbərlik etdiyi Fransa, polkovnik Haskelin rəhbərlik etdiyi Amerika, polkovnik Qabbanın rəhbərlik etdiyi İtaliya missiyaları Qafqaza gəldilər. Antanta dövlətlərinin işgüzar nümayəndələri də Qafqazla, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti ilə əməkdaşlıq etmişdilər.

Versaldakı Azərbaycan nümayəndələri Antanta Ali Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınması yönündə ardıcıl, intensiv fəaliyyət göstərmişdir və nəhayət, Antanta dövlətlərinin təşəbbüsü ilə çağırılmış Paris sülh konfransının Ali Şurası blokun aparıcı dövlətlərindən biri olan B.Britaniyanın təklifi ilə 1920 il yanvarın 11-də Azərbaycanın dövlət müstəqilliyini de-fakto olaraq tanımışdır. Lakin Antanta dövlətlərinin Cənubi Qafqaz respublikalarına yardım xarakterli bütün vədləri deklarativ məzmun daşımış və öz qüvvələrinin ümidinə qalan bu dövlətlər Sovet Rusiyası tərəfindən işğal olunmuşdur.

*Əd.:* Həsənov C, Azərbaycan bcynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, 2-ci hissə (1917-ci il noyabr- 1918-ci il noyabr), B., 2001; y e n ə o n u n, Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, 1-ci hissə (1918-1945-ci illər), B., 2003.

**ANTANTA ALİ ŞURASI** - Paris sülh konfransına (1919-20) rəhbərlik etmiş ali orqan (bax *Versal Ali Şurası).*

**APREL İŞĞALI (1920)** - beynəlxalq hüquq normalarını kobudcasına pozan təcavüzkar sovet qoşunları tərəfindən *Azərbaycan Xalq Cümhuriyyəti* ərazisinin işğalı və müstəqil Azərbaycan dövlətinin aradan qaldırılması. 1920 il aprelin 27-də həyata keçirilmişdir. Sovet tarixşünaslığında Aprel işğalı saxtalaşdırılaraq, əvvəlcə "çevriliş", sonradan isə "inqilab" adlandırılmışdır. 20 yüzilliyin 20-ci illərinin kommunistləri "Aprel çevrilişi" ifadəsini işlədərkən, tarixi reallığı - Aprel işğalını inkar edir və qürrələnirdilər ki, "...biz sovet hakimiyyətini hazır şəkildə aldıq, onu bizə boşqabda gətirdilər". Aprel işğalı kommunistlər üçün asanlıqla başa gəlsə də, onun hazırlanma mexanizmi uzun müddət formalaşdırılan məkrli siyasətin nəticəsi idi. Sovet Rusiyası Qafqaza, xüsusilə də Azərbaycana dair siyasətində, əslində, çar Rusiyasının varisi kimi çıxış edirdi. Bakı bolşeviklər üçün təkcə nefti, habelə müstəsna iqtisadi potensialı ilə deyil, həm də bütün Yaxın və Orta Şərqin siyasi mərkəzi kimi əhəmiyyətli idi. 1918 ildə daşnak-bolşevik S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti süqut etsə də, Bakı uğrunda mübarizə daim diqqət mərkəzində idi: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin" (V.İ.Lenin). 1919 ilin fevralında mərkəzdən "...bakılıların əhvali-ruhiyyəsindən sürətli və həlledici hərəkət üçün istifadə" etmək göstərişi alan Xəzər-Qafqaz cəbhəsinin hərbi-inqilab şurası məqsədyönlü və təxirəsalınmaz tədbirlər görməkdə idi. Bakı bolşevikləri 1919 ilin yazından Hökumət əleyhinə fəaliyyətlərini daha da genişləndirdilər: ingilis əsgərləri arasında təbliğat apararaq, onların vətənə dönmək tələbi ilə çıxış etmələrinə nail oldular; Azərbaycan ordusu və donanmasının "inqilabiləşdirilməsinə" səy göstərildi; fəhlələrdən ibarət hərbi drujinalar yaradıldı və onların hərbi sursatla təchiz olunması intensivləşdirildi; hakimiyyətə qarşı ideoloji təbliğat genişləndirildi; Qarabağda ermənilərin sifarişli qiyamı təşkil olundu və bununla Hökumət böhranına zəmin yaradıldı. Bu dövrdə, hətta Türkiyənin mənafeyi naminə "canıyananlıq" da nümayiş etdirildi. Bütün bunlara baxmayaraq bolşeviklər Sovet Rusiyasının müdaxiləsi olmadan daxildə üsyanın qələbə çalacağına əmin deyildilər. Beləliklə, 1920 ilin yanvarında istiqlaliyyətinin de-fakto tanındığı Azərbaycan Xalq Cümhuriyyəti üçün xaricdən gözlənilən yeganə ciddi təhlükə bolşevik təcavüzü idi. Odur ki, Sovet Rusiyasının Denikin ordusuna qarşı hərbi ittifaq bağlamaq haqqında nota xarakterli təklifi Azərbaycan Hökuməti və siyasi partiyaları tərəfindən birmənalı qarşılanmadı. Bolşeviklərin xarici siyasətini düzgün qiymətləndirən Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan *Xoyski* G.Çiçerinin təklifini rədd etdi. Azərbaycan sosialistləri və "ittihad"çıları Çiçerinin notasına müsbət cavab verilməsini tələb etdilər. Hakimiyyətdaxili mübarizənin gücləndiyi bir dövrdə Rusiyanın təzyiqi də artırdı. Sovet Rusiyası Azərbaycan Hökumətinə yeni notalar göndərməkdə davam edirdi. Beynəlxalq vəziyyəti nəzərə alan G.Çiçerin 1920 ilin martında V.İ.Leninə yazmışdı: "Azərbaycana qarşı zorakılıq aktı beynəlxalq münasibətlərdə dostlarımızı bizə qarşı qoyar... Bizi imperialist hesab etmələrinə yol verməməliyik". Odur ki, bolşeviklər xarici müdaxiləni pərdələmək məqsədilə Azərbaycanın milli hökumətini devirmək üçün ölkənin öz daxilində silahlı üsyana hazırlığa başladılar. 1920 il fevralın 11-12-də RK(b)P Bakı komitəsi, "Hümmət" və "Ədalət" təşkilatlarının qurultayı oldu. Ölkədə fəaliyyət göstərən

bütün kommunist təşkilatlarını vahid "Azərbaycan Kommunist (bolşeviklər) Partiyası" adı altında birləşdirmək qərara alındı. AK(b)P-nin I qurultayı qanuni Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini zorakıhqla devirmək xətti götürdü. Lakin bolşeviklərin bir qismi silahlı üsyanın uğurla nəticələnəcəyinə şübhə ilə yanaşmaqda davam edirdi. Stalin yazırdı: "Bu üsyanın heç bir şansı yoxdur. Buna görə də Azərbaycanın sərhədlərini keçmək lazım gələcəkdir". Belə bir tarixi şəraitdə Antantanın Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərməməsi, Rusiya tərəfindən müdaxilə təhlükəsinə qarşı Gürcüstan və Azərbaycanın hərbi qüvvələrini əlaqələndirmək cəhdlərinin nəticəsiz qalması, ermənilərin xaricdən sifarişlə qaldırdıqları qiyam, istiqlal mübarizəsi aparan Türkiyənin Sovet Rusiyası ilə sıx əlaqələr qurmaq siyasəti və Azərbaycanın öz daxilində siyasi durumun sabit olmaması respublikanı xarici təcavüzlə təkbətək qoydu. Digər tərəfdən, hələ Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin hakimiyyətdə olduğu bir zamanda, aprelin 26-dan 27-nə keçən gecə Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin adından hərbi yardım xahişilə Moskvaya radioteleqram göndərildi. Radioteleqramda deyilirdi ki, "Bakıda çevriliş baş vermişdir və biz Qırmızı qoşunların Bakıya yeridilməsini xahiş edirik". Həmin mühüm fakt Azərbaycanda Aprel işğalının sovet ordusu tərəfindən həyata keçirildiyini və məhz xarici hərbi təcavüz baş tutduğunu sübut edir. Bunu, eyni zamanda, digər tarixi sənədlər də açıq-aşkar, birbaşa təsdiqləyir.

Beləliklə, Azərbaycanın işğalı məqsədilə qabaqcadan hazırlanmış Bakı əməliyyatının həyata keçirilməsi daha da sürətləndirildi və beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Azərbaycanın hüdudlarını keçən 11 -ci Qırmızı ordunun birbaşa hərbi müdaxiləsi Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratını həll etdi. Azərbaycan Parlamenti baş vermiş fakt qarşısında qalaraq, reallıqla hesablaşmağa məcbur oldu. Ərazisində təcavüzkar xarici hərbi qüvvələrin 11 -ci Qırmızı ordu hissələrinin olduğu bir şəraitdə, açıq silahlı təzyiq altında qalan Azərbaycan Parlamenti 1920 il aprelin 27-də AK(b)P MK, RK(b)P Qafqaz Ölkə Komitəsinin Bakı bürosu və Bakı Fəhlə Konfransı adından kommunistlərin təqdim etdikləri ultimatumu gündəliyə çıxardı və qızğın müzakirələrdən sonra, axşam saat 11 radələrində, hakimiyyətin aşağıdakı şərtlərlə Azərbaycan İnqilab Komitəsinə verilməsi barədə qərar qəbul etdi: 1) Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun imdadına gedəcək; 2) Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq; 3) Azərbaycan ordusu buraxılmayacaq; 4) Azərbaycanın siyasi partiyalarının hürriyyət və sərbəstliyi mühafizə ediləcək; 5) keçmiş dövlət xadimləri, Hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək, dövlət idarələri qulluqçularının iş yerləri saxlanılacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək; 6) azad şəraitdə toplanacaq Azərbaycan şuraları hakimiyyətin idarə formasını təyin edəcək.

Göründüyü kimi, 1920 ilin 28 apreli ərəfəsində Azərbaycanda siyasi və iqtisadi böhran mövcud olsa da, dövlət çevrilişi və ölkənin xarici hərbi qüvvələr tərəfindən işğalı daxildən qaldırılmış üsyan nəticəsində baş vermədi. Bunun

*İşğalçı 11-ci Qırmızı ordu hissələri Bakı küçələrində. 1920 il, aprel*



üçün "inqilabi şəraitin yetişməsi"ni iddia və təbliğ edən ilkin şərtlər, əslində, yox idi. Aprel işğalı xarici qüvvənin -11-ci Qırmızı ordunun əvvəlcədən və planlı surətdə hazırlanmış "ildırım sürətli öldürücü" yürüşü nəticəsində baş verdi. Bunu ilk vaxtlarda bolşeviklərin özləri də etiraf edirdilər: "Müsavat hakimiyyəti devrilibsə, bu o demək deyildir ki, bizim partiyamız güclü idi. Bu ona görə belə oldu ki, Qırmızı ordu güclü idi. "Əgər 11-ci Qırmızı ordu sutkada 25 *km* irəliləyirdisə, Azərbaycanda bu sürət sutkada 50 *km* oldu". Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyi Cümhuriyyətin devrilməsindən xəbər tutan kimi, aprelin 28-də San-Remo konfransına bu barədə nota təqdim etdi. Lakin nə bu, nə də sonrakı müraciətlər heç bir nəticə vermədi. 23 ay fəaliyyət sürməsinə baxmayaraq, Azərbaycan xalqının dövlətçilik tarixində xüsusi yeri olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Aprel işğalından 71 il sonra "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı"nda (1991 il 18 oktyabr) bu tarixi təcavüzə siyasi qiymət verildi: **"1920 *il aprelin 27-28-də RSFSR-in XI Qırmızı Ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin*".**

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə,. c.5, B., 2001; Azərbaycan Respublikası (1991-2001), B., 2001; Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, c.l, B., 1986; Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, B., 1990; Cəbiyev H.R., 23 saat Yalamadan Bakıya (bax Sovet hakimiyyəti uğrunda. Xatirələr məcmuəsi, B., 1967); Əhmədova F., Nəriman Nəri-manov - ideal və gerçəklik, B., 1998; Mahmudov Y.M., Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti, B., 2002; Ефремов М., Взятие Баку, Военный вестник,1922, №7; Ратгаузер Я., Борьба за Советский Азербайджан. К истории апрельского переворота, Б., 1928; Дарабади П., Военные проблемы политической истории Азербайджана в начале XX века, Б., 1991;Насиров Т., Борьба за власть большевиков Азербайджана (1917-1920), Б.,1993; Худиев Р., Оккупация Азербайджана Советской Россией в апреле 1920 г. "Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi" konfransının materialları kitabında, B., 1995.

**ARAZ TÜRK CÜMHURİYYƏTİ,** Türk Araz Cümhuriyyəti, Araz Cümhuriyyəti - Azərbaycanın Naxçıvan bölgəsində və onun çevrəsindəki ərazilərdə yaradılmış dövlət qurumu.

1918 ilin noyabrından 1919 ilin martınadək fəaliyyət göstərmiş Araz Türk Cümhuriyyəti Naxçıvan, Şərur-Dərələyəz və Ordubad mahallarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. Azərbaycan torpaqlarını əhatə etmişdir. Mərkəzi Naxçıvan şəhəri idi.

Araz Türk Cümhuriyyətində də siyasi durumun mürəkkəbliyinə görə geniş fəaliyyət göstərə bilməyən bir sıra dövlət strukturları-hakimiyyət orqanları mövcud olmuşdur. Onun parlamenti bölgədəki müsəlman milli şuralarının üzvlərindən ibarət idi. Araz Türk Cümhuriyyəti hökumətinə -Nazirlər Şurasına Əmir bəy Əkbərzadə başçılıq edirdi. Hökumətin tərkibinə isə İbrahim bəy Cahangirzadə - hərbi nazir; Əli bəy Qəmbər Bənyari - inzibati-ərazi işləri üzrə nazir; Həsən ağa Səfazadə - xarici işlər naziri; Məmməd Bəyzadə - ədliyyə naziri; Mirzə Hüseyn Mirzə Həsənzadə və Müfti Xoca Ekit Əfəndi daxil idilər. General Əli Əşrəf bəy hökumətə yardımçı olaraq seçilmişdi.

Cümhuriyyətin meydana gəlməsi bölgədə ağır tarixi-siyasi şəraitlə sıx bağlı olmuşdur. Osmanlı ordu hissələrinin

*İşğalçı 11-ci Qırmızı ordu hissələri Bakıda. 1920 il, aprel*



bölgəni tərk etmələri və mahalın türk-müsəlman əhalisinin erməni-daşnakların təcavüzü, soyqırımı siyasəti ilə üzüzə qalması, burada güclü dövlət qurumunun və nizami hərbi qüvvələrin təşkilinə ciddi ehtiyac yaratmışdı. Belə bir ağır şəraitdə bölgənin türk-müsəlman əhalisinin başbilənləri və öndə gedənləri məhəlli siyasi-dövlət qurumu yaratmaq qənaətinə gəldilər. Onların bu qənaəti, əsasən, aşağıdakı səbəblərlə izah olunurdu: birincisi, erməni-daşnakların bölgəyə dair əsassız ərazi iddialarını gerçəkləşdirmələrinə, burada öz hakimiyyətlərini yaratmalarına, yerli türk-müsəlman əhalisinin soyqırımına imkan verməmək, ikincisi, həmin dövrdə Qafqazda gedən proseslər və baş verən hadisələrlə əlaqədar Azərbaycandan müvəqqəti olaraq ayrı düşən Naxçıvan mahalının tezliklə Azərbaycan Xalq Cümhuriyyətinə qatılmasına nail olmaq.

Ordubad Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadənin Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərdiyi 1918 il 22 dekabr tarixli bəyanatından bəlli olur ki, bölgədə siyasi birliyin - Araz Respublikasının yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmişlər və onların təklifi ilə bu prosesə ordubadlılar da qoşulmuşlar. Mir Hidayət Seyidzadə bu mühüm təşəbbüsü dəstəkləmələrini aşağıdakılarla əsaslandırmışdı: Tiflisə və Gəncəyə yolların bağlanması; türklərin Ordubaddan getmələri ilə əlaqədar olaraq şəhərə yardım - ərzaq gətirilməsinin dayandırılması; bir sıra əngəllərin təşkilatı (Milli Komitəni) zəiflətməsi və kimə tabe olmağın, kimdən göstəriş almağın bilinməməsi; Naxçıvan və Şərur müsəlmanlarının da bu cür vəziyyətə düçar olmaları və müsəlman - Araz dövlətini yaratmaq qərarına gəlinməsi; Araz hökumətinin də Gəncə Hökuməti (Azərbaycan Xalq Cümhuriyyəti) ilə yaxınlaşmaq istəməsi. Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri Məmməd Yusif Cəfərovun hökumətin Baş naziri Nəsib bəy Yusifbəyliyə ünvanladığı 1919 il 17 iyun tarixli məktubundan isə aydın olur ki, Osmanlı qoşunları Azərbaycandan getdikdən sonra Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğal olunmaq təhlükəsi mahalın yerli əhalisinin Araz Cümhuriyyətini yaratmaqla, özünün müvəqqəti (yəni Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşənədək) müstəqilliyini elan etməsiylə nəticələnmişdir.

Araz Türk Cümhuriyyətinin Nazirlər Şurasının sədri Əmir bəy Əkbərzadə bölgə əhalisi arasında və siyasi dairələrdə çox bacarıqlı, vətənpərvər və millətsevər bir şəxsiyyət kimi dəyərləndirilirdi. Osmanlı dövlətinin Araz Türk Cümhuriyyəti hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Kəlbalı xan, Cəfərqulu xan, Abbasqulu xan və b. da Cümhuriyyətin fəaliyyətinə yaxından yardım göstərənlərin sırasında idilər.

Araz Türk Cümhuriyyətinin hərbi naziri İbrahim bəy Cahangirzadənin rəhbərliyi ilə qısa müddətdə silahlı qüvvələr yaradılmışdı. Bu hərbi hissələr - könüllü xalq dəstələri 20 tabordan (batalyondan) ibarət idi. Həmin taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, digərləri isə Ordubad, Vedibasar, Qəmərli və s. ərazilərdə yerləşdirilmişdi. Tabor komandirlərindən Kəblə Muxtar (Nehrəm), Kəblə Kərim (Cəhri), İbrahimxəlil Axundov (Ordubad), Həsən Şahverdioğlu (Şərur-Dərələyəz) və b. Araz Türk Cümhuriyyəti ərazilərinin erməni quldur dəstələrinin silahlı basqınlarından müdafiəsində xüsusilə fərqlənmişdilər. Araz Türk Cümhuriyyətinin hərbi hissələrinin yaradılmasında və onların fəaliyyətinin təşkilində Osmanlı dövlətinin 9-cu ordusunun komandanı Yaqub Şevqi paşa və 9-cu diviziya komandiri polkovnik Rüştü bəyin böyük əməyi olmuşdu. Araz Türk Cümhuriyyəti Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış və ona qatılmaq üçün yollar aramışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən də müvafiq işlər görülmüşdü. "Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təsisi haqqında qanun"da Azərbaycan Parlamentinə Naxçıvan, Şərur və Ordubaddan üç nəfər millət vəkilinin seçilməsi nəzərdə tutulmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışında Araz Türk Cümhuriyyətinin rəsmi nümayəndəsi Paşa Əliyev də iştirak etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təşkili Araz Türk Cümhuriyyətinin türk-müsəlman əhalisi tərəfindən razılıqla qarşılanmışdı. Ordubaddan səlahiyyətli müvəkkil A.Hacıyevin imzası ilə Azərbaycan Parlamentinə ünvanlanan təbrik teleqramında həmin mahalın əhalisi bu qurumu özlərinin ali qanunverici hakimiyyət orqanı kimi qiymətləndirmiş və ona hər cür yardım göstərməyə hazır olduqlarını bildirmişdi.

Araz Türk Cümhuriyyəti Bakıda fəaliyyət göstərən bir sıra ictimai siyasi qurumlarla da sıx əlaqələrə malik olmuşdur. Onun nümayəndəsi P.Bayrambəyov İrəvan quberniyası ictimai xadimlərinin 1919 il yanvarın 2-də keçirilən müşavirəsində iştirak və çıxış etmişdir. P.Bayrambəyov öz çıxışında keçmiş İrəvan mahalı müsəlmanlarının faciəli durumu və Araz Cümhuriyyətinin yaranması tarixi barədə ətraflı məlumat vermişdi. Həmin müşavirənin qərarında Ermənistan Respublikasında türk-müsəlman əhaliyə qarşı yeridilən soyqırımı siyasətinə son qoyulması üçün tədbirlər görülməsi, bu məqsədlə də bölgəyə qarışıq tərkibli komissiya göndərilməsi, Bakıdakı ingilis general-qubernatoru Tomsonla müzakirələr aparılması, müvafiq qurumlara memorandumlar verilməsi və s. nəzərdə tutulurdu. Keçmiş İrəvan quberniyası müsəlmanlarının yenicə yaradılan "Həmyerlilər" cəmiyyətinin toplantısında (1919, 6 yanvar) isə Mirabbas Mirbağırovun xüsusi səlahiyyətlərlə bölgəyə ezam olunması və P.Bayrambəyovun Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyski ilə görüşünün keçirilməsi razılaşdırıldı. Qaçqınlara ayrılan bir milyon manat vəsaitdən 900000 manat Naxçıvana aparılmaq üçün P.Bayrambəyova verilmişdi.

Araz Türk Cümhuriyyətinin geniş səlahiyyətlərə malik olan və Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə ezam edilən xüsusi nümayəndə heyəti 1919 il martın 8-də Naxçıvandan Bakıya gəlmişdi. Tərkibinə görkəmli şair və dramaturq Hüseyn Cavidin də daxil olduğu həmin nümayəndə heyəti Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi ilə müəyyən məsləhətləşmələr aparmışdı. Özünün çox ağır iqtisadi-

maliyyə vəziyyətinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 ilə aid dövlət büdcəsində yalnız Ələt-Culfa dəmiryolunun tikintisinə 100026000 çervon vəsait ayırmışdı.

Çox qısa bir zaman kəsiyində mövcud olan və fəaliyyət göstərən Araz Türk Cümhuriyyəti, əsasən, Naxçıvan bölgəsi və çevrəsinin ermənilərin güclü hərbi və siyasi - diplomatik təzyiqinə məruz qalması, bu dövrdə Azərbaycanda sözükeçən başlıca xarici qüvvənin (ingilislərin) Araz Türk Cümhuriyyətini dəstəkləməməsi və əslində, ermənipərəst mövqe tutması, Azərbaycan Xalq Cümhuriyyətinin Araz Türk Cümhuriyyəti ilə geniş əlaqələr yarada və ona yetərincə hərbi, siyasi, maliyyə yardımı göstərə bilməməsi və s. səbəblərə görə süquta uğradı. Araz Türk Cümhuriyyətinin süqutu ermənilərin 1919 ilin əvvəlində bölgəyə hücumları ilə bağlı yaranan ağır və mürəkkəb şəraitlə də əlaqəli idi.

İrəvan quberniyası müsəlmanları "Həmyerlilər" cəmiyyətinin 1919 ilin yanvar-fevralında bölgəyə göndərdiyi Mirabbas Mirbağırovun öz səfəri barədəki məruzəsindən məlum olur ki, birincisi, ermənilərin Qəmərliyə hücumu zamanı Araz Türk Cümhuriyyəti dağılmışdı, ikincisi, Kəlbalı xan 400 nəfərədək olan Naxçıvan dəstəsini toplayıb Şərur əhalisinin köməyinə getmiş, erməniləri darmadağın etdikdən sonra bölgədə Cəfərqulu xan, Kəlbalı xan və Kərim xan İrəvanskidən ibarət diktatura hökuməti yaranmışdı.

Araz Türk Cümhuriyyətinin yaradılması və qısamüddətli fəaliyyəti böyük tarixi əhəmiyyətə malik idi. Bu Cümhuriyyət Şimali Azərbaycan üçün çox ağır və gərgin bir dövrdə Naxçıvan bölgəsi və çevrəsinin türk-müsəlman əhalisinin erməni işğalçılarına qarşı mübarizəyə səfərbərliyə alınmasında mühüm rol oynadı. Ən başlıcası isə, bu ərazilərin erməni daşnaklarının əlinə keçməsinə imkan verməməklə Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyü təmin edildi.

*Əd.:* Musayev İ., Azəıbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996; y e n ə  o n u n, Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, 1-ci hissə, B., 2003.

**ARXİV İŞİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət və hökumət orqanlarının sənədlərin saxlanması məqsədilə gördükləri tədbirlər. Çarizm dövründə Şimali Azərbaycanda vahid arxiv sistemi yox idi. Çar hökumətinin süqutu və 1917-18 illərdə baş verən mürəkkəb hadisələr dövlət və hökumət idarələrinin, sahibkarlara məxsus fabrik, zavod və digər müəssisələrin sənəd və materiallarının toplanması və saxlanması işini çətinləşdirmişdi. Bu vəziyyət Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin nəzərindən yayınmadı. Dövlət nəzarəti idarəsi 1918 il noyabrın 3-də Azərbaycan dövləti ərazisindəki, demək olar, bütün dövlət təşkilatlarının kargüzarlıq və qeydiyyat işinin müharibə və inqilabi şəraitlə əlaqədar olaraq bərbad vəziyyətə düşdüyünü və əsaslı surətdə qaydaya salınmalı olduğunu bildirdi. Azərbaycan Hökuməti çətin şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bu məsələyə xüsusi diqqət yetirirdi. Hökumətin Tiflisdə yaradılması, bir müddət orada fəaliyyətdən sonra Gəncəyə köçürülməsi, nəhayət, Bakıda fəaliyyətə başlaması formalaşmaqda olan dövlət hakimiyyəti orqanlarının kargüzarlıq sənədlərinin mühafizəsində çətinlik yaradırdı. Lakin bu sahəyə qayğı işin təşkilinə müsbət təsir göstərirdi. 1918 ilin oktyabrında sığorta cəmiyyəti idarələrindən biri binasını dəyişərkən keçmiş hərbi-sənaye kompleksinin atılmış arxiv sənədləri aşkar edilmişdi. Onların siyahısı dərhal tutulmuş, pərakəndə sənədlər yığılıb rəflərə qoyulmuş, bir hissəsi bağlanıb ayrıca otağa yerləşdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi haqqında Əsasnamədə də arxiv işinə böyük əhəmiyyət verilirdi. Həmin Əsasnaməyə görə Xarici İşlər Nazirliyi dəftərxanası tərkibində arxiv yaradılırdı. Burada Azərbaycanda baş verən mühüm hadisələrə aid aktlar və sənədlər, habelə qaytanlanan kitablar və nazirliyin bütün şöbələrinin sənədləri mühafizə edilirdi. Arxivariusa Cənubi Qafqaza, başlıca olaraq, Azərbaycana aid aktları, sənədləri və digər kağızları toplayıb sistemləşdirmək tapşırıldı. Beləliklə, kargüzarlıq xidmətinə və arxivə vahid sistem kimi baxılırdı. Sənədlər kompleksi bu və ya digər qərarların qəbul edilməsində mühüm rol oynamalı idi. Qəza təşkilatlarında və yerlərdə də kargüzarlıq yüksək səviyyədə aparılırdı. Cavad qəzası polis idarəsində tərtib edilmiş işin titul vərəqi və sərlövhəsi diqqəti cəlb edir. Burada idarənin tam adı səliqə ilə yazılmış, kargüzarlıq nömrəsi qoyulmuş, işin dəqiq sərlövhəsi, sənədlərin ilk və son tarixləri göstərilmişdir. Məruzə və məktublarda dərkənar, qeydiyyat ştampları, sənədlərin daxil və xaric olma nömrələri, tarix və s. qoyulmuşdur. Tərtib edilmiş sənədlərin hamısında kargüzarların imzası zəruri idi. Sənədlərin tərtibində xüsusi blankdan geniş istifadə olunurdu. Onlar tərtib üsuluna və keyfiyyətinə görə yüksək tələblərə cavab verirdi.

Azərbaycanda dövlət arxivləri yalnız Aprel işğalından (1920) sonra yaradılmışdır. 1920 il dekabrın 13-də Azərbaycan İnqilab Komitəsi "'Azərbaycan SSR-də arxiv işinin mərkəzləşdirilməsi və Respublika Xalq Maarifi Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında" dekret verdi. Bu dekretlə Azərbaycanda arxiv işinin mərkəzləşdirilməsinin əsası qoyuldu.

**ASLANOV** Teymur bəy Zəkəriyyə oğlu (5.1.1890, Şuşa - 16.8.1964, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kişi gimnaziyasını əla qiymətlərlə bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tarix-filologiya sahəsində almaq üçün Fransanın Paris Universitetinə (Fransa) göndərilmişdir. Teymur bəy 1921 ildə Almaniyaya köçmüş, Kotbus şəhərindəki toxuculuq mühəndisləri ali məktəbini bitirmişdir (1924).



Vətənə qayıtdıqdan sonra Gəncə toxuculuq kombinatında mühəndis, 1931-32 illərdə Azərbaycan SSR Xalq Yüngül Sənaye Komissarlığında (XYSK) mühəndis, 1933 ildən Gəncə toxuculuq kombinatının direktor müavini və direktoru işləmişdir. Yenidən XYSK-da fəaliyyətə başlayan Aslanov 1939 ilin yazında Moskvadan ezamiyyətdən qayıtdıqdan sonra həbs olunmuş, Kotlasda (Arxangelsk vilayəti) cəza çəkmişdir. 1950 ildə ona Qazaxıstana köçməyə icazə verilmiş, Balxaş şəhərində dəmir-beton məmulatları kombinatının tikintisinə rəhbərlik etmişdir. 1956 ildə bəraət almış, ömrünün sonuna kimi Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası Yüngül Sənaye İdarəsində işləmişdir.

**AŞURBƏYOV** İsa bəy Mehdiqulu oğlu (1878, Bakı -1.10.1938, Bakı) - ictimai-siyasi xadim, xeyriyyəçi, jurnalist, naşir. Azərbaycanın tanınmış milyonçu xeyriyyəçilərindən olan Mehdiqulu bəy Aşurbəyovun yeganə övladı idi. Aşurbəyov gənclik illərində sosial-demokrat ideyalarına meyl etmişdir. O, 1910 ildə Bakı şəhər dumasının, həmçinin "Nicat" və kimsəsiz uşaqları aclıqdan və ölümdən xilas edən "Bir damla süd" xeyriyyə cəmiyyətinin, Birinci dünya müharibəsi (1914-18) illərində isə "Əsir düşmüş türk əsgərlərinə yardım komitəsi"nin üzvü seçilmişdi. Müxtəlif vaxtlarda "Difai", "İttihad" və "Hümmət" partiyalarının üzvü olmuşdur.

Aşurbəyov tanınmış xeyriyyəçi idi. O, Əhməd bəy Ağayevin "İrşad" qəzetini maliyyələşdirirdi. Üzeyir Hacı-bəylinin "Leyli və Məcnun" operasının ilk tamaşalarından biri Aşurbəyovun Persidski (indiki Murtuza Muxtarov) küçəsindəki evində olmuşdur. 1912 ildə Aşurbəyov Hacı Zeynalabdin Tağıyevin "Kaspi" qəzetinin mətbəəsində fəaliyyət göstərmiş, sonradan həmin mətbəəni icarəyə götürərək, şəxsi mülkünün zirzəmisində yerləşdirmiş, Mirzə Ələkbər Sabirin satirik şeirlərini, müəllimlər üçün həftəlik "Şəlalə" və "Vodopad", şagirdlər üçün isə "Məktəb" jurnallarını Azərbaycan və rus dillərində nəşr etdirmişdir.

1918 ildə mart soyqırımı zamanı Aşurbəyov şəxsi əlaqələrindən istifadə edərək, türk qoşunlarının Bakıya daxil olmasına fəal kömək göstərmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Maarifi Nazirliyinin nəzdindəki nəşriyyata rəhbərlik etmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra yenidən nəşriyyata rəhbərlik etməyə dəvət olunmuş, lakin keçmiş fəaliyyətinə görə tezliklə tutduğu vəzifədən uzaqlaşdırılmışdır. Ərəb və fars dillərini mükəmməl bildiyinə görə SSRİ EA Azərbaycan Filialına işə dəvət edilmiş və 1937 il dekabrın 31-dək (türk qoşunlarının Bakıya dəvət olunmasında iştirakına görə həbs olunanadək) tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1938 ilin oktyabrında "xarici ölkələrlə casusluq əlaqələrinə və millətçi hərəkatda iştirakına görə" məhkəmənin qərarı ilə güllələnmişdir.

**AŞUROV** Ağa Hacı Aslan oğlu (1880, Bakı - 1936, Rostov) - ictimai-siyasi və dövlət xadimi. Bakı gimnaziyasını bitirmişdir. Almaniyada mühəndis-texnoloq ixtisası üzrə ali təhsil alıb Bakıya qayıtmış, şəhər bələdiyyə idarəsində işləmişdir. Bakının abadlaşdırılması və tərəqqisi üçün həyata keçirilən bir sıra tədbirlərə başçılıq etmişdir. 1908 ildə Aşurovun rəhbərliyi ilə Bakıda yeni elektrik stansiyasının tikilməsi barədə müqavilə bağlanmışdır. Bakıya Şollar su kəmərinin çəkilməsində geniş fəaliyyət göstərmişdir. Aşurov "Nəşri-maarif" cəmiyyətinin rəhbərlərindən biri olmuş, şəhər dumasının üzvü seçilmişdir.

Aşurov 1906 ildə Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə Ümumrusiya müsəlmanlarının Nijni-Novqorodda keçirilən 3-cü qurultayında iştirak etmiş və qurultayın rəyasət heyətinin tərkibinə seçilmişdir. Milli hərəkatın fəal üzv-lərindən olan Aşurov Fevral inqilabından (1917) sonra Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmiş, Qafqaz müsəlmanlarının Bakı qurultayında iştirak etmişdir. 1918 ilin mart qırğınları zamanı hərbi əməliyyatları dayandırmaq üçün müsəlman nümayəndə heyətinin tərkibində İnqilabi Müdafiə Komitəsinin, Erməni Milli Şurasının üzvləri və İranın Bakıdakı konsulu Həbibulla xanla danışıqlar aparmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin ikinci Hökumətində bitərəf Aşurov ticarət və sənaye naziri işləmiş, eyni zamanda, 1918 il oktyabrın 6-dək Ərzaq Nazirliyinə rəhbərlik etmişdir. Cümhuriyyətin mövcudluğunun ilk mərhələsində dövlətin ticarət-sənaye və ərzaq siyasətini, əsasən, Aşurov müəyyən etmişdir. İqtisadi böhranla mübarizədə Aşurov xüsusi rol oynamış, iqtisadiyyata dövlət nəzarəti sisteminin yaradılması yönündə əzmlə çalışmış, möhtəkirliklə, fəaliyyətləri dövlət maraqlarına zidd olan xüsusi mülkiyyətçilərlə mübarizədə qətiyyətli və sərt tədbirlərin tərəfdarı olmuşdur.

Aşurov dövlətin müstəqil iqtisadi xəttinin prinsipial müdafiəçisi idi. 1918 il oktyabrın 6-da Hökumətdə bəzi dəyişikliklərlə əlaqədar poçt və teleqraf naziri təyin olunmuşdur. Aşurov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmiş, "Müsavat" və bitərəflər fraksiyasında təmsil olunmuşdur. 1918 il dekabrın ortalarında bütün Hökumət kabinəsi ilə birlikdə istefaya çıxmışdır. O, Cümhuriyyət dövründə Bakıda həyata keçirilən bir sıra mədəni-maarif tədbirlərinin də təşkilatçılarından olmuşdur.

Aşurov 1920 il aprelin 27-də bolşeviklərin hakimiyyəti təslim etmək tələbinin əleyhinə səs verən yeganə parlament üzvü idi. Buna görə də ertəsi gün hakimiyyətə gələn bolşeviklər onun həbs edilməsi barədə göstəriş versələr də, ələ keçirə bilməmişdilər. Aşurov Türkiyəyə mühacirət etməyə cəhd göstərmiş, bu baş tutmadıqda, Rostov şəhərinə köçüb, orada ixtisası üzrə mühəndis-texnoloq işləmişdir. Rostovun tatar qəbiristanlığında dəfn olunmuşdur.

" **ATAMALIBƏYOV** Abbas Seyfulla bəy oğlu (26.2.1895, Tiflis - 1971, ABŞ, Klivlend) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri, Azərbaycan siyasi mühacirətinin tanınmış nümayəndəsi. İlk təhsilini Şamaxıda, Tiflisdə almışdır. Topçu zabit olmaq istəyən Atamalıbəyovun görmə qabiliyyəti zəif olduğundan onu hərbi məktəbə qəbul etməmişdilər. 1914 ildə Peterburq Poli-



texnik İnstitutunun dəniz mühəndisliyi fakültəsinə qəbul olunmuş, bu dövrdə sağ eserlərə qoşulmuş, müsəlman həmyerlilər komitəsinin sədri seçilmişdi. Rusiyada inqilabi hərəkatda yaxından iştirak etmiş, hərc-mərclik yarandığından Qafqaza dönmüş, eserlər partiyasında siyasi fəaliyyətini davam etdirmişdir. Atamalıbəyov Azərbaycan Milli Şurasının və Cümhuriyyət Parlamentində “”Sosialistlər bloku” fraksiyasının üzvü idi.

Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini gəmiqayırma sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycan Xarici İşlər Nazirliyi Paris sülh konfransında (1919-20) Azərbaycan nümayəndə heyətinin üzvü M.Məhərrəmovu əvəz etmək üçün Atamalıbəyovu Fransaya ezam etmiş və o, nümayəndə heyətinin tərkibində katib kimi fəaliyyət gös-tərmişdir. *Aprel işğalından (1920)* sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Atamalıbəyovun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi.

Parisdə siyasi fəaliyyətini davam etdirmiş Atamalıbəyov, mühacirət dairələrində tanınan siyasətçilərdən olmuşdur. Fransa hökumətinin SSRİ-yə qarşı siyasətinin mühacirlər üçün yaratdığı əlverişli imkanlardan istifadə edərək, Parisdə Siyasi Elmlər Məktəbini bitirmişdir. Azərbaycan mühacirətində Məhəmməd Əmin Rəsulzadəyə müxalif olan qrupa mənsub idi. Qərargahı Cenevrədə olan Millətlər Cəmiyyətinin, siyasi tədbir və müzakirələrində vaxtaşırı iştirak etmişdir. Əlimərdan bəy Topçubaşovun vəfatından (1934) sonra Parisdə cəmləşən Azərbaycan mühacirətinin rəhbəri idi. Əməkdaşlıq etdiyi "Revyu de Prometey", "O" jurnallarında Cənubi Qafqaza dair məqalələri dərc olunmuşdur.

Fransa almanlar tərəfindən işğal olunduqdan sonra Berlində yaşamış, orada Qırmızı Xaç Komitəsində çalışmış, azərbaycanlı əsirləri xilas etmək üçün böyük işlər görmüşdür.Siyasi fəaliyyətini burada da davam etdirən Atamalıbəyov Azərbaycan legionu ilə Hitlerin ordu qərargahı arasında əlaqə saxlayan üç nəfərdən ibarət qrupa (Ə.Fətəlibəyli-Düdənginski və F.Əmircanla birlikdə) daxil olmuşdur. 1944 ilin oktyabrında Qafqaz Şurasının yaradılmasının təşəbbüsçülərindən olmuş, Şuranın 1947 ildə Lozannada keçirilən toplantısında iştirak etmişdir. Sonralar bir müddət Çilidə, MƏR-də, 1967 ildən isə ABŞ-da yaşamışdır. Ömrünün sonunadək Azərbaycanın istiqlalı uğrunda mübarizə aparmış, vətəninə qovuşacağına inamını itirməmişdir. Uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir. Ölümündən bir az əvvəl fransızca yazmağa başladığı xatirələri yarımçıq qalmışdır.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; İbrahimli X., Azərbaycan siyasi mühacirəti, B., 1996; İsmayıl Umudlu, Səksən il yol gələn görüş, "Ayna" qəzeti, 2002, 7 iyun.

**ATATÜRK,** Qazi Mustafa Kamal (1881, Səlanik (S a l o n i k i ) - 10.11.1938, İstanbul) -ümumdünya tarixinin nadir tarixi şəxsiyyətlərindən biri. Dahi dövlət xadimi və görkəmli sərkərdə. Türk xalqının xarici hərbi müdaxiləçilərə qarşı Milli İstiqlal Savaşının (1919-22) qalibi, türk dövlətçiliyinin xilaskarı, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti (1923-38). Sakarya vuruşmasında (1921, 23 avqust -13 sentyabr) müdaxiləçi yunan ordusunu darmadağın etdiyinə görə Türkiyə Böyük



Millət Məclisi (TBMM) Atatürkə marşal rütbəsi və"qazi" ("qalib") fəxri adını vermişdir. Atatürk soyadı ona Türkiyədə familiya qəbulu ilə bağlı olaraq 1934 ildə TBMM tərəfindən verilmişdir.

Atatürk uşaqlıqdan hərbi biliklərə meyl göstərmiş, bu sahədə ibtidai təhsil almış, İstanbulda hərbi məktəb (1902) və hərbi akademiya (1905) bitirmiş, Suriyada (1905-07) və Makedoniyada (1907-09) hərbi xidmətdə olmuş, İtaliya -Türkiyə (1911-12) və İkinci Balkan (1913) müharibələrində iştirak etmişdir. Türkiyənin Bolqarıstanda hərbi attaşesi (1913-14) olmuşdur. Birinci dünya müharibəsində (1914-18) iştirak etmiş, Dardanel boğazının müdaxiləçilərdən müdafiə olunmasında (1915) mühüm rol oynamışdır. 1916 ildə ona general rütbəsi və "paşa" titulu verilmişdir. Osmanlı dövlətinin müstəqil dövlət kimi varlığına, əslində, son qoyan *Mudros barışığı (1918)* ilə razılaşmayan Atatürk 1919 il mayın 19-da Samsunda ***"mübarək Vətəni və milləti parçalanmaq təhlükəsindən qurtarmaq, yunan və erməni istəklərinə qurban verməmək*** **üçün"** milli qurtuluş savaşına başlamış və sonradan onun adı ilə adlanan "kamalçılar hərəkatı”nın rəhbəri olmuşdur. Antanta orduları İstanbulu ələ keçirəndən (1920, 16 mart) və ingilislər "Məclisi-Məbusan"ı ("Deputatlar Palatası") dağıtdıqdan sonra, Atatürk 1920 il aprelin 23-də Ankarada yeni Parlament - Türkiyə Böyük Millət Məclisini yaratmışdır. Atatürk TBMM-in və onun təşkil etdiyi hökumətin başçısı (prezident seçkilərinədək) olmuşdur**.** "**Ya** ***istiqlal, ya ölüm!”*** çağırışı ilə işğalçılara qarşı milli azadlıq mübarizəsinə başçılıq edən Atatürk İstiqlal Savaşını uğurla başa çatdırmış (1922), müdaxiləçilərin ölkədən qovulmasına və Türkiyənin ərazi bütövlüyünün bərpa edilməsinə nail olmuşdur. İşğalçıların ordularını darmadağın edən Atatürk, bununla böyük dövlətlərin Türkiyə ərazisini bölüşdürərək, dünyanın sonuncu türk dövlətini yox etmək planlarını, habelə mərkəzi hakimiyyətə qarşı çıxan və xaricdən kömək alan erməni-daşnak quldurlarının Şərqi Anadoluda "Böyük Ermənistan" yaratmaq niyyətlərini puça çıxarmışdır.

İstiqlal savaşı uğurla başa çatdıqdan və Türkiyə Cümhuriyyət (respublika) elan olunduqdan (1923, 29 oktyabr)

sonra Atatürk son dərəcə mürəkkəb tarixi şəraitdə öz Vətəninin gələcəyi üçün yeganə düzgün yol olan strategiya müəyyən etdi: ***"Yurdda sülh, cahanda sülh!"***. Dahi dövlət xadimi olduqca müdrik, uzaqgörən xarici siyasət yeritməklə və cəsarətli daxili islahatlar həyata keçirməklə Türkiyəni müasir inkişaf yoluna çıxardı və çağdaş dünyaya qovuşdurdu. Bu gün demokratik, hüquqi, dünyəvi dövlət kimi dünya birliyində böyük nüfuz qazanan və türk-islam dünyasının önündə gedən qüdrətli Türkiyə Cümhuriyyəti Atatürk ideyalarının və onun əməli fəaliyyətinin parlaq bəhrəsidir. Atatürkün dahiliyi onda idi ki, o, yaşadığı dövrdə dağılmış Osmanlı imperiyasının xarabaları üzərində yenicə yaranan, lakin hələ çox zəif olan Türkiyə Cümhuriyyətinin o zaman öhdəsindən gələ bilməyəcəyi ağır beynəlxalq hərbi-siyasi qarşıdurmalara girməsinə yol vermədi. Dahi siyasətçi qurmaqda olduğu gənc və hələ cana gəlməkdə olan Türkiyə Cümhuriyyətini qoruyub saxlamaqla, əslində, ümumtürk dövlətçiliyini tarix səhnəsindən silinməyə qoymadı. Atatürk, bununla, həm də, əsarətdə olan dünya türkləri üçün yeganə ümid yerini - Türkiyə dövlətini qoruyub saxladı. O, istiqlal savaşının ilk illərində gələcək üçün ürəyində tutduğu bu siyasi düşüncələrini 1933 ildə Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə keçirilən bayram şənliyində açıqladı: ***"...Bu gün Sovet Rusiyası dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah necə olacağını heç kəs qəti söyləyə bilməz. Tipki Osmanlı imperatorluğu kimi, tipki Avstriya-Macarıstan imperatorluğu kimi bu dövlət də parçalana bilər. Bu gün əlində sımsıx tutduğu millətlər, ovuclarından çıxıb qaça bilərlər... O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq..."***.

Atatürkün nə qədər dahi şəxsiyyət və uzaqgörən diplomat olduğunu zaman özü sübut etdi. Onun odalov içərisində yaratdığı Türkiyə Cümhuriyyəti yaşadı və qüdrətli dövlətə çevrildi. Lakin Osmanlı və Avsrtiya-Macarıstan imperatorluqları kimi Sovet imperatorluğu da dağıldı. Bu imperatorluğun öz ovucu içərisində "sımsıx saxladığı" türk xalqları azadlığa çıxdılar. Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti isə bu gün, onun vaxtilə düşündüyü kimi, qardaş türk cümhuriyyətlərinə hərtərəfli yardım göstərir.

Öz xalqının istiqlal savaşına başçılıq edən Atatürk Türkiyənin ənənəvi xarici siyasətinə yenilik gətirdi: Osmanlı imperatorluğunun iflasa uğramış xarici siyasət xəttindən cəsarətlə uzaqlaşdı, Rusiyada 1917 il Oktyabr çevrilişindən sonra beynəlxalq münasibətlərdə baş vermiş reallıqları nəzərə aldı. O, istiqlal savaşının qələbəsinin təmin olunmasına yönəlmiş xarici siyasət yeritməyə başladı. Bu məqsədlə bolşevik Rusiyası ilə yaxınlaşdı. Bütün sahələrdə, o cümlədən hərbi əməliyyatlarda, Sovet Rusiyası ilə əlbir fəaliyyət göstərməyə hazır olduğunu bildirdi və maliyyə yardımı üçün V.İ.Leninə müraciət etdi. V.İ.Lenin Atatürkü türk xalqının istiqlal mübarizəsinin uzaqgörən və müdrik bir rəhbəri kimi yüksək qiymətləndirdi. Bəhs olunan dövrdə böyük dövlətlərin hərbi müdaxiləsinə və güclü xarici siyasi təzyiqlərinə məruz qalan Atatürk Türkiyəsi ilə V.İ.Leninin başçılıq etdiyi bolşevik Rusiyasının bir-biri ilə yaxınlaşması tarixi zərurət idi. Yaxın keçmişdə aralarında çox kəskin ziddiyyətlər olmasına baxmayaraq hər iki ölkə təcavüzə məruz qalmışdı, hər iki ölkədə yeniləşmə gedirdi və onların ümu-

*Atatürk, Kazım Qarabəkir paşa və Fövzi Çakmaq paşa ilə birlikdə*





Atatürk və İbrahim Əbilov

mi düşmənlərə qarşı bir-birinə arxa durması təbii hal idi. Digər tərəfdən, Cənubi Qafqazı, xüsusilə Bakı neftini ələ keçirmək üstündə İngiltərə-Rusiya rəqabətində ingilislərin qələbəsi Türkiyəni heç cür təmin edə bilməzdi. Çünki Mudros barışığı ilə Osmanlı imperatorluğunu diz çökdürmüş İngiltərə, həmçinin digər Avropa dövlətləri - Fransa, İtaliya və Yunanıstan birləşərək, "xəstə adamı" (yəni Osmanlı dövlətini) tamamilə məhv edib Türkiyə ərazisini bölüşdürməyə çalışırdılar və bu məqsədlə Anadolunun işğalına başlamışdılar. Bəhs olunan dövrdə İngiltərə, artıq Türkiyənin Şərq qonşusu olan İranı da özündən asılı vəziyyətə salmışdı. Belə bir şəraitdə ingilislərin üstəlik Şimali Azərbaycanı da ələ keçirib Bakı neftinə yiyələnməsi və Cənubi Qafqazda möhkəmlənməsi Türkiyənin vəziyyətini daha da ağırlaşdıra bilərdi. Odur ki, yaranmış real tarixi şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinə kömək edə bilməyən və onun süqutunun labüd olduğunu yəqin edən Atatürk İngiltərə-Rusiya rəqabətindən başçılıq etdiyi istiqlal savaşının xeyrinə istifadə etmək qərarına gəldi: Türkiyə bolşevik Rusiyasının Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı işğal etmək siyasətilə razılaşmalı oldu. Atatürk bununla, həm də, bolşevik asılılığına keçəcək Azərbaycandan Türkiyə-Rusiya əlaqələrini genişləndirmək üçün bir vasitəçi kimi istifadə etmək niyyətində idi. Bununla yanaşı, Atatürk özünün Rusiya siyasətində qardaş türk xalqlarının böyük əksəriyyətinin bu dövlətin ərazisində yaşaması amilini də nəzərə alırdı. Bütün bunlardan əlavə, Sovet Rusiyası ilə yaxınlaşmaq siyasəti yeridərkən, Atatürkün bir mühüm məqsədi də vardı. O, erməni amilini də diqqət mərkəzinə götürmüşdü: dahi siyasətçi çar generallarının köməyi ilə erməni quldur dəstələrinin ələ keçirdikləri Şərqi Anadolu torpaqlarını daşnaklardan təmizləyərkən bolşevik Rusiyasının bitərəfliyini təmin etməyə çalışırdı.Bunları nəzərə alan Atatürk Sivas konqresindən (1919, sentyabr) sonra öz elçisi Xəlil paşa vasitəsilə maliyyə yardımı və silah-sursat almaq üçün Rusiyaya müraciət etdi. Xəlil paşaya verilmiş ən mühüm tapşırıq isə bundan ibarət idi ki, o, bolşevikləri Türkiyə sərhədinə yaxınlaşmağa tələsdirməli idi. Əks təqdirdə, vəziyyət ingilislərin xeyrinə dəyişə bilərdi. Bu zaman Qafqazda fəaliyyətə başlayan Xəlil paşa Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşadan da eyni cür göstəriş aldı. Beləliklə, Xəlil paşanın missiyası uğurla nəticələndi. 1920 ilin əvvəlində Anadoluya ilk bolşevik yardımı çatdırıldı. Bununla Cənubi Qafqazda hadisələrin gedişi bolşeviklərin xeyrinə dəyişdi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin taleyi də həll olundu.

Yaranmış mürəkkəb və real tarixi şəraitdə Türkiyə Qafqazın bolşeviklər tərəfindən işğalı faktı ilə razılaşmalı olsa da, Atatürk Azərbaycanı daim diqqət mərkəzində saxlayırdı.Onun göstərişinə əsasən, Türkiyənin Şərq cəbhəsi komandanı Kazım Qarabəkir paşa bölgədə baş verənləri diqqətlə izləyir, Sovet Azərbaycanının müvafiq strukturları, 11-ci Qırmızı ordunun komandanlığı və bu zaman Qafqazda fəaliyyət göstərən Xəlil paşa ilə sıx əlaqə saxlayırdı.

Atatürkün qabaqcadan düşündüyü kimi, həqiqətən də, Azərbaycan sovet hakimiyyətinin ilk illərində Türkiyə - Rusiya qarşılıqlı əlaqələrinin genişlənməsində və həyata keçirilməsində mühüm rol oynadı. Atatürkün göstərişi ilə Azərbaycan və digər Cənubi Qafqaz Sovet Respublikaları hökumətləri yanında Türkiyə nümayəndəliyi açıldı (1920). Məmduh Şövkət bəy hər üç respublikaya səlahiyyətli nümayəndə göndərildi. Ankarada Azərbaycan səfirliyi fəaliyyətə başladı (1921).

Azərbaycan xalqı Atatürkün başçılıq etdiyi istiqlal savaşına böyük rəğbət və ümid bəsləyir, Cümhuriyyət dövründə (1918-20) olduğu kimi, qardaş xalqa yenə də əlindən gələn maddi və mənəvi köməyi əsirgəmirdi. Görkəmli dövlət xadimi Nəriman Nərimanov bu işdə xüsusi fəallıq göstərir, Atatürkə ünvanladığı məktubunda ***"Azərbaycan dövləti adından"*** qəhrəman türk ordusunun tezliklə qələbə bayrağını Türkiyənin tarixi paytaxtı olan İstanbul üzərində dalğalandırmasını arzulayırdı. Nərimanov, eyni zamanda, Atatürkün başçılığı ilə Türkiyədə gedən İstiqlal Savaşına lazımi köməklik göstərmək üçün V.İ.Leninlə sıx əlaqə saxlayır, öz məsləhətlərini və təkliflərini verirdi. Atatürklə sıx əlaqə yaratmış Nərimanov, Moskvadan asılı olmasına baxmayaraq, həlledici məqamlarda Türkiyəni cəsarətlə müdafiə edirdi. Moskvaya göndərilən türk diplomatlarına lazımi məsləhətlər verir, təlimatlandırırdı. Nərimanov, xarici işlər naziri G.V.Çiçerin də daxil olmaqla, Kremldəki Türkiyə və Azərbaycan əleyhinə olan ermənipərəst qrupların bitərəfləşdirilməsində və V.İ.Leninin ***"türklər üçün ölüm-dirim məsələsi"*** olan erməni məsələsində Atatürkü dəstəkləməsində xüsusilə böyük rol oynamışdı. Bu zaman Bakıdakı ingilis əsirlərinin azad olunması məsələsi gün-

dəmə gəldikdə, Azərbaycan ancaq Malta adasında olan türk əsirlərinin azadlığa buraxılacağı halda bu addımı atacağını bildirmişdi. Qardaş xalqın dar ayaqda olduğu bir vaxtda Sovet Azərbaycanının atdığı bu addım Türkiyə Böyük Millət Məclisində böyük coşğu ilə qarşılanmış və məclis ***"Türkiyənin milli namusunu müdafiə etməlı fədakarlığını və qardaşlığını göstərən sevgili Azərbaycana Hökumət naminə təşəkkürünü bildirmişdir".***

Azərbaycan-Türkiyə münasibətləri genişlənməkdə idi. Azərbaycan Atatürkün başçılıq etdiyi istiqlal ordusuna yanacaq və maliyyə vəsaiti ilə təmənnasız yardım göstərirdi. Türkün bir dövlət xadimi Nəriman Nərimanov, digər dövlət xadimi Mustafa Kamal paşa Atatürkün borc pul almaq üçün yazdığı məktuba belə cavab vermişdi: ***"Paşam, qardaş qardaşa borc verməz, əl tutar!"***

Azərbaycanla münasibətlərin daim genişlənməsinə qayğı göstərən Atatürk 1921 il oktyabrın 22-də Sovet Azərbaycanının Türkiyədəki böyük elçisi İbrahim Əbilovu çox böyük ehtiram və səmimiyyətlə qarşılamış, səfirin etimadnaməsini qəbul etdiyi mərasimdə demişdir: ***"...Azərbaycan türklərinin qardaşlıq salamını qardaşcasına qəbul etdiyim üçün bəxtiyaram... Rumeli və Anadolu xalqı azəri qardaşlarının qəlbinin öz qəlbləri kimi çarpdığını bilirlər... Azəri türklərinin dərdləri öz dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların hür və müstəqil olaraq yaşamaları bizi həddindən artıq sevindirir...".*** Atatürk Ankarada Azərbaycan böyük elçiliyinin açılışı mərasimində çıxış edərkən Sovet Azərbaycanının Türkiyə-Rusiya dostluq əlaqələrindəki mühüm roluna bir daha işarə edərək onun Türkiyənin ***"digər dostları ilə təmas nöqtəsində bulunduğunu"*** vurğulamışdı. Atatürk Azərbaycan səfirinə xüsusi səmimiyyət göstərmiş və özünün Rusiya ilə bağlı bütün qəbullarında onun iştirakını təmin etmişdir.

Cənubi Qafqazı ələ keçirmiş bolşevik rejimi də, öz növbəsində, Atatürkün bu bölgə ilə, xüsusilə Azərbaycanla bağlı siyasətini diqqətlə izləyirdi. Elə buna görə də Moskva Atatürkün Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda ikitərəfli müqavilələr bağlamaq planlarına ciddi müqavimət göstərdi. Nəticədə, 16 mart 1921 ildə Moskvada Sovet Rusiyası ilə Türkiyə arasında "dostluq və qardaşlıq" anlaşması imzalandı. Bununla, sovet-bolşevik rejiminin tələbi ilə Türkiyə ilə Azərbaycan arasında Qərbi Azərbaycan torpaqları hesabına bir erməni dövlətinin yaradılması rəsmi olaraq hər iki dövlət tərəfindən təsdiqlənmiş oldu.

Atatürk Azərbaycanın Naxçıvan bölgəsi ilə bağlı erməni iddialarının diplomatik vasitələrlə dəf edilməsi sahəsində də çox mühüm rol oynamışdır. Atatürk hələ qurtuluş savaşına başladığı ilk aylarda Naxçıvanın tanınmış adamları ilə əlaqə saxlamış, Naxçıvan nümayəndələrinin Ərzurum konqresinə (1919, 23 iyul - 7 avqust) qatılması üçün ciddi səylər göstərmişdir. Atatürkün Naxçıvan məsələsindo tutduğu prinsipial mövqe nəticəsində Türkiyə ilə Ermənistan Respublikası arasında bağlanmış Gümrü müqaviləsinə (1920, 2 dekabr) əsasən, Ermənistan Naxçıvan mahalına

*İbrahim Əbilov Türkiyənin dövlət xadimləri arasında*





*Azərbaycan Prezidenti İlham Əliyev Atatürk mərkəzini açarkən. Bakı. 2004, aprel*

olan əsassız iddialarından əl çəkməyə məcbur oldu, müasir Naxçıvan Muxtar Respublikasının ərazisi formalaşdırıldı və bu ərazi, yerli idarəçilik yaradılmaqla, müvəqqəti olaraq Türkiyənin himayəsi altına keçdi.

Dahi siyasətçi Türkiyənin Naxçıvan məsələsi ilə bağlı xarici siyasət xəttini Gümrü müqaviləsindən sonra da davam etdirdi. 1921 ilin fevralında RSFSR ilə diplomatik danışıqlar aparmaq üçün xarici işlər naziri Yusif Kamalın başçılığı ilə Moskvaya yola düşən Türkiyə diplomatlarına Atatürk ciddi surətdə tapşırmışdı: ***"Naxçıvan - tiirk qapısıdır. Bıını xüsusi nəzərə alaraq, əlinizdən gələni ediniz".*** Martın 16-da iki dövlət arasında imzalanmış "dostluq və qardaşlıq" müqaviləsinə əsasən Naxçıvan vilayəti muxtar ərazi kimi Azərbaycanm himayəsi altına keçdi. Muxtar ərazinin sərhədləri müəyyən edildi və şərt qoyuldu ki, Azərbaycan Naxçıvana olan himayə hüququnu heç bir üçüncü dövlətə güzəştə gedə bilməz. Moskvada aparılan danışıqların uğurla nəticələnməsində Nəriman Nərimanovun tapşırığı ilə hərəkət edən Behbud ağa Şahtaxtinski (Azərbaycan Sovet Sosialist Rcspublikasının Rusiya Sovet Sosialist Respublikasında fövqəladə nümayəndəsi) mühüm rol oynadı. Moskva müqaviləsində Naxçıvan barədə əldə olunmuş razılığı 1921 il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında RSFSR-in iştirakı ilə bağlanmış Qars müqaviləsi də təsdiq etdi. Naxçıvan, qəti olaraq, Azərbaycanın himayəsi altında muxtar əraziyə çevrildi.

Atatürk, həmçinin Azərbaycan SSR-in Türkiyədəki səfıri İbrahim Əbilovu Ankarada qəbul edərkən Azərbaycanın öz milli hüdudları daxilində, o cümlədən Naxçıvan mahalında azad və müstəqil yaşaması üçün Türkiyənin bütün tədbirləri görəcəyi barədə bir daha, təminat vermişdi. Atatürkün ardıcıl və ciddi səyləri sayəsində Türkiyənin Naxçıvan məsələsində yeritdiyi prinsipial xarici siyasət xətti və bunun nəticəsi olan Moskva və Qars müqavilələri istər sovet dövründə, istərsə də ondan sonra bu qədim Azərbaycan torpağının məhz Azərbaycanın tərkibində qalması üçün mühüm beynəlxalq hüquqi təminat rolu oynamışdır. Həmin müqavilələr bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

20 yüzilliyin 90-cı illərində ağır blokada şəraitinə düşmüş Naxçıvan üçün yeni təcavüz təhlükəsi yarananda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev Moskva və Qars müqavilələrinin şərtlərindən məharətlə istifadə etdi. Daşnakların Naxçıvanla bağlı yeni planları da baş tutmadı.

Böyük Atatürkün əziz xatirəsi Azərbaycanda həmişə ehtiramla yad edilir. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev özünün müvafiq çıxışlarında Atatürkə yüksək qiymət vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001 il 9 mart tarixli sərəncamı ilə Azərbaycanda Atatürk mərkəzi yaradılmışdır. Azərbaycan Res-

publikasında Atatürk irsinin araşdırılmasına böyük maraq göstərilir.

*Əd.:* Azərbaycan - Türkiyə münasibətləri. 1920-1922. Sənədlər və materiallar, B., 2002; Əhmədova F., Nəriman Nərimanov-ideal və gerçəklik, B., 1998; Əliyev Ə., Əlincə yaddaşı: Naxçıvan-1914-92, B., 1997; Hüseynov Q.H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970; Qurbanov Ş., Atatürk və Nərimanov, B., 2003; Aygün Attar, Atatürkün Kafkazya politikası, Türkler, 21 cilddə, c.16, Ankara, 2002; Yaşar Akbıyık, Atatürk'ün hayatı, yenə orada; Utkan Qocatürk, Atatürk, B., 1991; Gümrü, Moskva, Qars müqavilələri və Vaxçıvanın taleyi, B., 1999.

**ATAYEV** Əlirza Əsgər oğlu (1898, Gəncə - 1962, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti dəftərxanasının rus dili üzrə redaktoru (1919-20), görkəmli elm təşkilatçısı, həkim (mama-ginekoloq), tibb elmləri doktoru (1930), professor (1936). Gəncə rus-tatar (Azərbaycan) gimnaziyasında təhsil almış, 1917 ildə Tiflis ali kurslarının tələbəsi olmuşdur. Təhsilini davam etdirmək üçün 1921 ildə Azərbaycan Sovet Sosialist Respublikasının təqaüdçüsü kimi 1-ci Moskva Dövlət Universitetinin tibb fakültesinə göndərilmişdir. Universiteti bitirdikdən sonra 3-cü Moskva Universitetinin



kafedrasında bir il ordinator işləmiş, sonra Azərbaycan Hökuməti tərəfindən gənc mütəxəssislərdən ibarət qrupun tərkibində ixtisasını təkmilləşdirmək üçün Almaniyaya göndərilmiş, 2 il Leypsiq Universitetinin mamalıq-ginekologiya klinikasında çalışmışdır.

1925 ildə Bakıya qayıtdıqdan sonra qadın, ana və uşaqların sağlamlığının mühafizəsinə dair Azərbaycan dilində ilk dəfə məqalələr yazmış, 1000 sözdən ibarət mamalıq-ginekologiya terminləri lüğətini nəşr etdirmişdir. Atayev 1936 ildə Azərbaycan Tibb İnstitutunun mamalıq və ginekologiya kafedrasının professoru seçilmiş, Xalq Səhiyyə Komissarlığı Həkimləri Təkmilləşdirmə İnstitutunun mamalıq və ginekologiya kafedrasının müdiri təyin olunmuşdur.

1937 ildə repressiyaya məruz qalmış, 8 il müddətinə Sibirə (Maqadan) sürgün olunmuşdur. Sürgündən sonra Maqadanda və Penzada şəhər xəstəxanasında və sanitar idarəsində işləmişdir. 1948 ildə SSRİ Səhiyyə Nazirliyi tərəfindən Penza vilayət xəstəxanasına məsləhətçi göndərilən Atayev tezliklə Penza vilayətinin baş mama-ginekoloqu seçilir və burada onun təşəbbüsü ilə Ümumittifaq mamalıq və ginekoloqlar elmi cəmiyyətinin filialı yaradılır. 1956 ildə Atayevə bəraət verilmiş, lakin o, ağır xəstəliyə tutulduğundan elmi fəaliyyətini dayandırmalı olmuşdur.

*Əd:.* Житие профессора Атаева, газ. "Вышка", 1990, 13 мая; Али Рза Аскер оглы Атаев – 100 лет, "Sağlamlıq", №10, Б., 1998.

**AVROPA, AMERİKA VƏ SOVET RUSİYASINDA, DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN TƏSİS EDİLMƏSİ VƏ PARİS SÜLH KONFRANSINDA AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BURAXILMASI HAQQINDA QANUN** - Azərbaycanın *Paris sülh konfransında (1919-20)* böyük dövlətlər tərəfindən de-fakto tanınmasından (1920, 11 yanvar) sonra xarici ölkələrlə əlaqələrin genişləndirilməsi məqsədilə Azərbaycan Parlamentinin 1920 il aprelin 22-də qəbul etdiyi mühüm sənədlərdən biri. Bundan əvvəl Azərbaycan Hökuməti 1920 il yanvarın 7-də Böyük Britaniya, ABŞ, İsveçrə, İtaliya və Polşa hökumətləri yanında Azərbaycanın diplomatik nümayəndəliklərinin təsis olunması haqqında qərar qəbul etmişdi. Qərara əsasən, xarici işlər nazirinə diplomatik vəzifələrə namizədləri müəyyənləşdirmək və nümayəndəliklərin saxlanması üçün smeta hazırlamaq tapşırılmışdı. Xarici İşlər Nazirliyinin hazırladığı qərar layihəsini Cümhuriyyət Hökuməti özünün 1920 il 5 mart tarixli qərarı ilə bəyənmiş və təcili olaraq Parlament müzakirəsinə vermişdi.

Azərbaycan Parlamentinin 1920 il aprelin 22-də qəbul etdiyi qanunla həmin il aprelin 1 -dən Fransa Respublikası, Əlahəzrət B.Britaniya kralı, İsveçrə Respublikası, Əlahəzrət İtaliya kralı, Şimali Amerika Birləşmiş Ştatları, Almaniya, Polşa Respublikası, Sovet Rusiyasının hökumətləri yanında 6 ay müddətinə nəzərdə tutulmuş müvəqqəti ştat cədvəllərinə uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəliklərinin təsis edilməsi nəzərdə tutulurdu. Hökumətin müvafiq qərarlarında Azərbaycan Xalq Cümhuriyyətini rəsmən tanımayan Sovet Rusiyasında diplomatik nümayəndəliyin təsis edilməsi nəzərdə tutulmamışdı. Lakin Parlamentdə keçirilən müzakirələrdə sosialistlər fraksiyası nümayəndələrinin təkidi ilə Rusiyaya da nümayəndəlik göndərilməsi qərara alındı.

Bu qanunla Azərbaycan Hökumətinin 1918 il dekabrın 28-də Paris sülh konfransında fəaliyyət göstərmək üçün təsis etdiyi Azərbaycan nümayəndəliyi də ləğv olundu. Adı çəkilən səkkiz nümayəndəliyin fəaliyyətinin təmini üçün 1920 il aprelin 1-dən 6 ay müddətinə yüz on səkkiz min üç yüz iyirmi (118320) funt sterlinqin ayrılması da qərarda göstərilirdi.

**AYOLLO Q.Q.** - Bakı menşeviklərinin liderlərindən biri. 1917 il martın 7-də Bakı rayonu Fəhlə Deputatları Sovetinin 1-ci iclasının sədri olmuşdur. 1917-18 illərdə Bakı Sovetinin deputatı olan Ayollo bolşeviklərə qarşı fəal mübarizə aparmışdır. "Sentrokaspi diktaturası" hökumətinin tərkibinə daxil idi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920) sonra mühacirət etmişdir.

**AZADISTAN,** A z a d l ı q ö l k ə s i, A z a d ı s t a n m ə m l ə k ə t i - Azərbaycanın cənubunda şahlıq rejiminə qarşı Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli azadlıq hərəkatı nəticəsində yaradılmış respublika tipli demokratik dövlət qurumu, Milli Hökumət (1920, aprel - sentyabr).

Birinci dünya müharibəsinin (1914-18) doğurduğu tarixi şəraitdə Azərbaycanın şimalında ***(Şimali Azərbaycanda)*** olduğu kimi, ölkənin cənubunda ***(Cənubi Azərbaycanda)*** da xalq öz milli dövlətçilik ənənələrinin dirçəlişi uğrunda mübarizəyə qalxdı.

Müharibə illərində İran ərazisi, o cümlədən ölkənin şimal-qərbini əhatə edən Azərbaycan (Cənubi Azərbaycan) torpaqları da xarici dövlətlərin hərbi əməliyyat meydanına çevrilmişdi. İran irticası və yadelli işğalçıların ağalığı xalqın onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırmış, ölkə daxilindəki ziddiyyətləri son həddə çatdırmışdı. Rusiyada 1917 il Fevral inqilabı nəticəsində çar mütləqiyyəti devrilsə də, rus qoşunları hələ də Cənubi Azərbaycanı işğal altında saxlayırdılar. Şahlıq rejiminə və xarici işğalçılara qarşı bütün İranı bürüyən xalq hərəkatı - konstitusiyalı quruluş və demokratik dəyişikliklər uğranda mübarizə, çox çəkmədən,Cənubi Azərbaycanda milli azadlıq hərəkatı xarakteri almağa başladı.

Rusiyada baş verən hadisələr, Azərbaycanın şimalında azadlıq hərəkatının qələbəsi, milli dövlətçilik ənənələrinin dirçəlişi və Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi islahatlar ölkənin cənubunda milli azadlıq hərəkatını daha da qüvvətləndirdi. Cənubi Azərbaycanda milli azadlıq hərəkatına 1905-11 illər İran inqilabının fəal iştirakçısı olan Şeyx Məhəmməd Xiyabani (1879-1920) rəhbərlik edirdi.

Xiyabaninin başçılıq etdiyi azadlıq mücahidləri daxili irticaya və yadelli işğalçılara qarşı mübarizə aparmaqla bərabər, ölkə miqyasında yeniləşmə - demokratik dəyişikliklər aparılmasına da tələb edir, bütün İranda xalq inqilabının qələbəsinə, şahlıq rejiminin aradan qaldırılmasına və respublika tipli demokratik dövlət yaradılmasına çalışır, yeni yaradılacaq demokratik İran dövlətinin tərkibində Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə edirdilər. Cənubi Azərbaycan əhalisinin vahid cəbhə halında azadlıq mücadiləsinə qalxmasında Azərbaycan Demokrat Firqəsi (ADF) mühüm rol oynayırdı. ADF-nin Mərkəzi Komitəsinə Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi.

Xiyabaninin göstərişi ilə hərəkət edən demokratlar Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. Azərbaycan şəhərlərində əhalini mitinqlərə qaldırır, ingilispərəst İran hökumətinin istefasını və ölkədə demokratik islahatlar keçirilməsini tələb edirdilər. Milli azadlıq hərəkatının genişlənməkdə olduğu bir şəraitdə - 1918 ilin əvvəllərində rus qoşunları Cənubi Azərbaycandan çıxarıldı. Bundan istifadə edən İngiltərə öz hərbi qüvvələrini Cənubi Azərbaycanda yerləşdirməyə başladı. İngilislər Bakı neftinə can atırdılar. İngiltərə hökuməti, əlavə olaraq, general Denstervilin başçılığı ilə İrana yeni hərbi qüvvələr də göndərdi. General Denstervilə Ənzəlini, Rəşti və Bakını ələ keçirmək barədə göstəriş verilmişdi.

İngilislərin, guya "türk təhlükəsini" "qabaqlamaq" məqsədilə, Cənubi Azərbaycanın Türkiyə ilə həmsərhəd rayonlarını ələ keçirmələri və bununla bütün İranı nəzarət altına almaları ölkədə narazılığı daha da artırdı. Cənubi Azərbaycanda milli azadlıq hərəkatını daha da gücləndirdi.

***Belə bir şəraitdə keçmiş rus zabitləri tərəfindən silahlandırılmış erməni quldurları Şərqi Anadoluda və Şimali Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanın Türkiyə ilə sərhəd bölgələrində də Azərbaycan türklərinə qarşı soyqırımına başladılar. Fransız zabitləri və Amerika missionerləri tərəfindən qızışdırılan aysorlar və kürdlər də Azərbaycan xalqına qarşı törədilən bu qanlı qırğında fəal iştirak edirdilər. Yaranmış ağır vəziyyətdə qardaş Türkiyənin hərbi qüvvələri Cənubi Azərbaycan türklərinin köməyinə çatdı. 1918 ilin martından başlayaraq Maku, Urmiya və Salması işğalçılardan və erməni-aysor-kürd quldurlarından təmizləyən türk hərbi hissələri Təbrizə daxil oldular. Beləliklə, Cənubi Azərbaycan ərazisində də azərbaycanlılara qarşı həyata keçirilən soyqırımının qarşısı alındı***

Lakin Türkiyə üçün yaranmış çox ağır beynəlxalq şəraitdə türk hərbi qüvvələri 1918 ilin noyabrında Cənubi Azərbaycanı tərk etməli oldular. Bundan istifadə edən ingilislər Təbriz də daxil olmaqla, bütün Cənubi Azərbaycanı işğal etdilər. Beləliklə, İran ərazisi tamamilə ingilislərin nəzarəti altına keçdi. Bununla, bölgədə ermənilərin də mövqeyi möhkəmləndi. Beləliklə, Azərbaycan türklərinin başı üstünü yenidən soyqırımı təhlükəsi aldı. Xalqını birləşərək, özünü müdafiə etməkdən başqa çıxış yolu qalmamışdı.

Yaranmış bu ağır şəraitdə ***1919 il avqustun 9-da*** işğalçıların təzyiqi altında İranla İngiltərə arasında saziş bağlandı. Sazişin şərtlərinə əsasən İran İngiltərədən asılı dövlətə çevrilirdi. Odur ki, 9 avqust sazişi xalq hərəkatını daha da alovlandırdı. Bütün İran, o cümlədən Cənubi Azərbaycan bu alçaldıcı sazişə qarşı ayağa qalxdı. Cənubi Azərbaycanın hər yerində izdihamlı mitinqlər və nümayişlər başlandı. 1919 ilin oktyabrında üsyana qalxan Təbriz mücahidləri İran valisini şəhərdən qovdular. Bundan çox keçməmiş, Təbriz əhalisinin tələbi ilə ingilis hərbi hissələri də şəhərdən çıxarıldı.

*Milli azadlıq hərəkatı getdikcə daha ardıcıl xarakter aldı və özünün həlledici mərhələsinə daxil oldu. 1920 il aprelin 7-də Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Təbrizdə silahlı üsyan başlandı. Bütün Təbriz əhalisi üsyançıların müdafiəsinə qalxdı. Üsyanı yatırtmaq üçün mərkəzdən göndərilmiş polis dəstələri buna cəsarət göstərməyərək, şəhəri tərk etdilər. Xalqın misli görünməmiş fəallığı nəticəsində 1920 il 7 Aprel üsyanı qan tökülmədən qalib gəldi. Üsyanın qalib gəldiyi 7 Aprel günü xalq qarşısında çıxış edən Şeyx Məhəmməd Xiyabani həmin gündən etibarən Azərbaycanın adının dəyişdirilərək "Azadıstan" ("Azadıstan məmləkəti", "Azadlıq ölkəsi") adlandırılacağını bəyan etdi.*

Təbriz üsyançıları dərhal əməli fəaliyyətə başladılar. Mərkəzdən göndərilmiş dövlət məmurları və hərbi qulluqçular vəzifələrindən kənar edildilər. Bütün dövlət idarəçiliyi ADF fəallarının əlinə keçdi. Beləliklə, bütün İran ərazisində demokratik dəyişikliklər və yeniləşmə uğranda başlanmış hərəkat, nəticə etibarilə, milli azadlıq hərəkatına çevrildi. Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin dirçəldilməsinə başlandı. Xalq azadlığa can atır, özünün müstəqil, milli dövlətini yaratmaq istəyirdi.

Təbrizdə silahlı üsyan qələbə çaldıqdan sonra Xoy, Ərdəbil, Astara, Marağa, Əhər və Zəncanda da üsyanlar baş

verdi. Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatı İranın başqa yerlərində də daxili irticadan və ingilislərdən narazı olan qüvvələr tərəfindən rəğbətlə qarşılandı.

İrticaya və ingilis ağalığına qarşı ümumxalq narazılığının bütün İranı əhatə etdiyi şəraitdə Təbriz üsyançıları daha qəti addımlar atmağa başladılar. ***1920 il iyunun 23-də*** Təbrizdə Ş.M.Xiyabaninin başçılığı ilə ***Milli Hökumət*** yaradıldı. ADF fəallarından ibarət olan Milli Hökumətin tərkibinə əhalinin müxtəlif təbəqələrinin nümayəndələri daxil idi.

Milli Hökumətin fəaliyyətə başladığı 24 İyun günü Təbrizdə ümumxalq bayramına çevrildi. Bütün müəssisələrdə, tədris ocaqlarında iş dayandırıldı, bazarlar, dükanlar bağlandı. Milli Hökumətin qərarı ilə, İran valisi də daxil olmaqla, mərkəzdən göndərilmiş bütün dövlət məmurları Təbrizdən çıxarıldılar. Bu, faktiki olaraq, Cənubi Azərbaycanda mürtəce şahlıq rejiminin-İran hakimiyyətinin devrilməsi və milli dövlətçilik ənənələrinin dirçəlişi demək idi. Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi Milli Hökumət isə müstəqil demokratik respublika funksiyasını yerinə yetirirdi.

Bununla belə, xalqın tamamilə müstəqil yaşamaq əzminə baxmayaraq, Milli Hökumət təkcə Cənubi Azərbaycanın deyil, bütün İranın demokratikləşdirilməsi və ölkədə konstitusiyalı quruluş yaradılması, daxili irticaya və ingilis ağalığına son qoyulması uğrunda mübarizə xəttini davam etdirir, Cənubi Azərbaycana qarşı yeridilən ayrıseçkilik siyasətinə qarşı çıxırdı. Beləliklə, xalqın tam müstəqilliyə can atmasına və faktiki olaraq, özünün müstəqil demokratik respublikasını yaratmasına baxmayaraq, Milli Hökumət Cənubi Azərbaycanın tam müstəqilliyi uğrunda deyil, yeni yaradılacaq demokratik İranın tərkibində milli muxtariyyət hüququ əldə etmək uğrunda mübarizə aparırdı. Milli Hökumətin rəhbərləri inanırdılar ki, Təbrizdən sonra bütün İran ayağa qalxacaq, şahlıq idarə üsulu devriləcək, xalq hakimiyyətə gələcək və bütün ölkədə respublika quruluşu bərqərar olacaqdır; yeni yaradılacaq ümumiran xalq hökumətinin təşkilində və tərkibində azərbaycanlılar mühüm rol oynayacaqlar. Xiyabani əmin idi ki, ***"Təbriz İrana nicat verəcəkdir!".***

Beləliklə, qarşısına İrandan ayrılıb müstəqil Azərbaycan dövləti yaratmaq kimi siyasi vəzifə qoymayan Milli Hökumət iqtisadiyyat, maarif, səhiyyə və s. sahələrdə islahatlara başladı. İlk növbədə dözülməz vəziyyətə düşmüş yoxsul əhalinin, o cümlədən təbrizlilərin vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif xarakterli tədbirlər görüldü. Savadsızlığın ləğvinə başlandı. Milli məktəblər, xəstəxanalar açıldı. Təbrizdə yoxsul uşaqları üçün pulsuz qız məktəbi fəaliyyətə başladı. Yeni açılmış milli məktəblərdə dərs demək üçün Bakıdan, Türkiyədən, habelə Tiflisdən müəllimlər dəvət olundu. Milli qvardiya yaradılması üçün hazırlıq işlərinə başlandı. Milli Hökumətin öz jandarm və polis dəstələri yaradıldı. Polis məktəbi açıldı. Eyni zamanda yeni iş yerləri açılması, pul islahatı keçirilməsi, bank-maliyyə sistemi yaradılması, bələdiyyə seçkiləri keçirilməsi üçün hazırlıq işləri görülməsinə, torpaq islahatına başlandı. Bu məqsədlə yeni idarələr, müəssisələr, nazirliklər yaradıldı.

Göründüyü kimi, Milli Hökumətin həyata keçirdiyi bütün tədbirlərin, habelə nəzərdə tutulan islahatların özü də, əslində, Cənubi Azərbaycanda Respublika tipli müstəqil, demokratik dövlət yaradılmasına yönəlmişdi. Yaradılmaqda olan müstəqil Azərbaycan dövləti ***Azadıstan məmləkəti*** adlanırdı. Buna müvafiq olaraq bütün rəsmi sənədlərdə, blanklarda, habelə nazirliklərin, idarə və müəssisələrin adı əks olunan lövhələrdə Azərbaycan adı ***"Azadıstan"la*** əvəz olundu. azərbaycanlıların ulu vətəni olan qədim ***"Azərbaycan"*** adının dəyişdirilməsi səhv addım olsa da, ölkəmizin cənubunda respublika tipli yeni dövlətin yaradılması xalqın mürtəce şahlıq rejimindən qurtularaq azad, müstəqil yaşamaq, qədim dövlətçilik ənənələrini dirçəltmək arzularını əks etdirirdi.

Xiyabani öz doğma xalqını daim maariflənməyə, inkişaf naminə mübarizəyə çağırır, müstəqilliyin, azadlığın yalnız bu yolla əldə olunacağına inanırdı. O, Təbrizin şəhər bağında təşkil olunmuş yığıncaqlarda öz mütərəqqi fikirlərini təbliğ edirdi. Şeyx Məhəmməd Xiyabaninin 15 iyun 1920 ildə söylədiyi nitqində onun mübarizəsinin əsas ideyaları öz əksini tapmışdır:

***"Mənliyini sevmək təbii və ümumi bir qanundur. Hər bir adam, hər bir canlı bəşər özünü başqasından çox sevər. Buna görə də bir cəmiyyət öz rifah halını yaxşılaşdırmağı başqasından gözləməməlidir. Xüsusilə özünə nisbətən rabitə və yaxınlığı olmayanlardan yardım və xidmət gözləmək yersizdir. Öz şəxsiyyətinə hörmət etmək, ona inanmaq da mənliyini sevməklə bir sırada qoyulmalıdır. Bir xalq, bir cəmiyyət təkəbbürlü və özündən bədgüman olmamalıdır. İnsan öz şəxsi etimadının əsasını laxladan alçaqlığı, acizlik qədər təvazökarlığı qəbul etməməlidir. Bəşəriyyət bütün üzvlərinin birlikdə olan fəaliyyətinə və yardımına möhtacdır. Elə təsəvvür edilməməlidir ki, dünyada yaşayan kiçik bir xalq bəşəriyyətə xeyir verə bilməz və onun varlığına etinasız münasibət bəsləmək olar. Çox təəssüf olsun ki, biz öz qədr və qiymətimizi çox az bilmiş, bəlkə də özümüzdə olan mənlikdən xəbər tutmamışıq. Bu, fərdlərin həyatında təcrübədən keçirilmişdir. Yüksək xüsusiyyətə malik olan, ali fikirlərə xidmət edən, öz dərəcə və heysiyyətini qiymətləndirən və bunun qorunması üçün çalışan şəxslər həmişə yüksək məqama çatmışlar. Məhz buna görədir ki, bir çox ədib və filosoflar öz şəxsiyyətləri naminə ali dərəcəyə çatmış və padşahları belə öz zəhmət və qüdrətlərinə hörmət göstərməyə məcbur etmişlər. Onlar saraylarda ən parlaq yer tutmuşlar. Xalqlar dəxi bu əzəməti, mənəvi qüvvəni, mənliyi və öz varlığına etimadı üzə çıxarmaqla tərəqqi və inkişafa nail ola bilərlər. Azad və müstəqil olmaq istəyən bir xalq, öz həyatına və ictimai məsələlərə laqeyd qala bilməz. Biz dəxi mütərəqqi xalqlar cərgəsinə çatmaq üçün öz fikir və hissiyyatımızı onların dərəcəsinə qaldırmalıyıq.***

***Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır.***

***Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir".***

Cənubi Azərbaycanda milli azadlıq hərəkatı dərinləşməkdə idi. Azərbaycan xalqı, ölkənin şimalında olduğu kimi, cənubunda da, faktiki olaraq, özünün respublika tipli demokratik dövlətini yaratmağa başlamışdı. ***Azadıstan*** məmləkətinin uğurları bütün İranı hərəkətə gətirmişdi. Lərzəyə düşən şahlıq rejimi, həmçinin İranı öz asılılığında saxlamağa çalışan və Bakı neftinə can atan ingilislər real təhlükə qarşısında qalmışdılar. Odur ki, İran irticası və ona yaxından kömək edən ingilislər Tehranda Milli Hökumətə qarşı qəsd hazırlamağa başlamışdılar. Tehran rejimi bir tərəfdən, Milli Hökumətin başını qarışdırmaq üçün Ş.M.Xiyabani ilə danışıqlar aparır, müxtəlif vədlər verir, digər tərəfdən isə Təbrizə hücum planı hazırlayırdı. Bütün hazırlıq işləri başa çatdırıldıqdan sonra 1920 il sentyabrın 12-də təpədən dırnağadək silahlanmış irtica qüvvələri Təbrizə hücum etdilər. Təbriz üsyançıları iki gün ərzində qəhrəmancasına müqavimət göstərdilər. Lakin sayca çox olan və yaxşı silahlanmış nizami hökumət qüvvələri üstünlüyü ələ ala bildi. Sentyabrın 14-də Xiyabani öldürüldü və üsyan qan içində boğuldu. Beləliklə, Azərbaycan xalqının istiqlal mübarizəsinin daha bir parlaq səhifəsi tarixə qovuşdu. ***Şimali Azərbaycanda Sovet Rusiyasının qanlı bolşevik rejimi Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyduğu kimi, Cənubi Azərbaycanda da İranın irticaçı şahlıq rejimi Azadıstan məmləkətini qan içində boğdu. Vaxtilə Güliistanda və Türkmənçayda Azərbaycanı öz aralarında iki yerə parçalamış qüvvələr onun azadlığa çıxmasına yol vermədilər. Yenə də Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın tərkibində qaldı.***

*Əd.:* Həbibov Ə., Cənubi Azərbaycanda azadlıq hərəkatı, B., 1988; Tağıyeva Ş.Ə., 1920-ci il Təbriz üsyanı, B., 1990.

**AZADLIQ ÖLKƏSİ** – Azərbaycanın cənubunda şahlıq rejiminə qarşı Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında milli azadlıq hərəkatı nəticəsində yaradılmış respublika tipli demokratik dövlət qurumu, Milli Hökumət (1920, aprel - sentyabr) (bax *Azadıstan).*

**"AZƏRBAYCAN"** - qəzet, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı. Gəncədə, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. 4 nömrəsi Gəncədə, sonrakı nömrələri isə Bakıda çıxmışdır. Qəzetin ilk nömrəsi 1918 il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilmişdir. Dörd səhifədən ibarət olan bu nömrənin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Gəncədə buraxılan axırıncı (dördüncü) nömrənin üç səhifəsi rus, bir səhifəsi isə Azərbaycan dilində idi. Qəzetin Gəncədə Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı ***"Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır"*** yazısı da verilmişdir. Qəzetin birinci nömrəsində "Heyəti-təhriyyə" ("Redaksiya heyəti") imzası ilə böyük bir yazı verilmişdir. Bu nömrədə Bakının azad edilməsi ilə bağlı xəbərlər daha çox diqqəti cəlb edir: "Dünən gecə Azərbaycan Cümhuriyyəti Hökuməti adına Qafqaz İslam Ordusunun komandanı Nuru paşa həzrətləri tərəfindən belə bir teleqram gəlmişdir: ***"Bismillahir rəhmanir rəhim! Bakı şəhəri 15.09.18, saat 9-a işləmiş igid ordu hissələrimiz tərəfindən zəbt olundu. Qafqaz, İslam Ordusunun komandanı Fərrux Nuri".***

"Azərbaycan" qəzetinin həmin nömrəsində Azərbaycan Cümhuriyyəti Hökumətinin sədri F.x.Xoyskinin adından Nuru paşaya cavab teleqramı da dərc olunmuşdur: *"Qafqaz İslam Ordusunun komandanı Səadətli Nuru paşa həzrətlərinə. Təhtikomandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətin zati-həmiyyət-pərvəranələrinə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm, əfəndim. Heyəti-vükəla rəisi Fətəli xan".*

Qəzetin yuxarıda göstərilən nömrəsində Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türk nəğməsi" şeri də dərc olunmuşdu:

***Türkün tökülən qanları bihudə gedərmi?***
***Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?***
***Dörd ildə verilmiş bu qədər can hədər olmaz,***
***Məfkurə yolunda tökülən qan hədər olmaz***


آذربایجان
— اعلان —



Ceyhun bəy Hacıbəyli



Şəfi bəy Rüstəmbəyli



Üzeyir bəy Hacıbəyli



Xəlil İbrahim

***Qiymətli olan xuni-şəhidan hədər olmaz,***
***Dul qalmış köhəni-nisvan hədər olmaz.***
***Bax sən sonuna, hümməti-türkan hədər olmaz,***
***Bədbəxt olan əfqani-yetiman hədər olmaz.***
***Türkün tökülən qanları bihudə gedərmi?***
***Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?***

"Azərbaycan" qəzetinin Bakıda Azərbaycan dilində nəşr olunmuş beşinci nömrəsi 1918 il oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də buraxılmışdır. Bu nömrədən etibarən qəzetin adı altında ***"Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir"*** sözləri yazılmağa başlamışdır. Qəzet Azərbaycan dilində çıxan altıncı nömrəsindən, rus dilində isə beşinci nömrəsindən "mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli" imzaları ilə buraxılmışdır. Həmin il noyabrın 28-dən isə Azərbaycan dilində olan nömrələr Ceyhun bəy Hacıbəylinin, rus dilində olan nömrələr Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə nəşr edilmişdir.

1918 il dekabrın 31-nə qədər "Azərbaycan" qəzetinin Azərbaycan dilində 75 nömrəsi, rus dilində isə 70 nömrəsi işıq üzü görmüşdü.

1919 il yanvarın 16-da buraxılmış 89-cu nömrəsindən etibarən "Azərbaycan" qəzetini Üzeyir bəy Hacıbəyli imzalamışdır. Həmin il iyulun 4-də çapdan çıxmış 216-cı nömrəsindən qəzetə "müvəqqəti müdir Xəlil İbrahim" rəhbərlik etmişdir. 1919 il sentyabrın 3-dən 1920 il aprelin 28-nə kimi Üzeyir bəy Hacıbəyli yenidən qəzetin redaktoru olmuşdur. "Azərbaycan" qəzetinin 1918 il sentyabrın 15-dən1919 il dekabrın 31-nə qədər 358 nömrəsi, 1920 il yanvarın 1-dən aprelin 28-nə qədər isə 85 nömrəsi çap olunmuşdur. Bütövlükdə 1918-20 illər arasında qəzetin cəmi 443 nömrəsi çıxmışdır.

"Azərbaycan" qəzetinin sentyabrın 19-da rus dilində çapdan çıxmış ikinci nömrəsində Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksutyun" partiyasının şovinist siyasətini tənqid edərək yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı nəhayət "Daşnaksutyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, hələ nə qədər ki gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır".

Qəzetin Gəncədə çıxmış dördüncü nömrəsinin Azərbaycan dilindəki səhifəsində Abid imzalı müəllifin "Yerini bulmuş arzular" başlıqlı geniş məqaləsi verilmişdir. Məqalədə 19 əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edildiyi dövrdən başlayaraq, xalqın başına açılmış müsibətlərdən, Azərbaycan xalqının yadelli işğalçılara qarşı azadlıq mübarizəsindən və nəticədə öz istiqlalına nail olmasından bəhs olunurdu.

*Paris sülh konfransında (1919-20)* iştirak etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir kimi "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilmişdi. Qəzetin 1919 il 9 yanvar tarixli 83-cü nömrəsində Ceyhun bəy Hacıbəyli oxuculara müraciətində yazırdı: ***"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzeti-***



Цѣна номера 1 руб.

Изданіе годъ первый

АЗЕРБАЙДЖАНЪ

Выходитъ два раза въ недѣлю.

Плата за объявленія: За строку на 1 стр. 3 р. на 2-й и 4-й 2 р.

Редакція для личныхъ объясненій открыта отъ 10 час. до 2 час. дня.

Подписная цѣна:

№ 1 Воскресенье 15 Сентября 1918 года № 1

***mizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq, cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.***

***Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə, qəzetə ida-rəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim".***

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərar, sərəncam, fərman və digər normativ sənədlərinin xüsusi nəşrlərdə verilməsi "Azərbaycan" qəzetinin səhifələrində daha çox nəzəri məqalələrin, Azərbaycana, həmçinin dünya və region ölkələrinə aid geniş xəbərlərin, oxucuları maraqlandıran başqa yazıların dərc edilməsinə şərait yaradırdı.

Öz işini 1918 il noyabrın 16-da yenidən bərpa edən Azərbaycan Milli Şurasının, xüsusilə onun Azərbaycan Parlamentinin çağırılması sahəsindəki fəaliyyəti "Azərbaycan" qəzetinin səhifələrində geniş işıqlandırılırdı. Qəzetdə Milli Şuranın sədri Məhəmməd Əmin *Rəsulzadənin* Parlamentin çağırılması ilə əlaqədar noyabrın 19-da "Bütün Azərbaycan əhalisinə müraciət"i, Şurada gedən müzakirələrin materialları və qəbul olunmuş qərar da dərc edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918 il dekabrın 7-də işə başladıqdan sonra qəzet onun fəaliyyətini geniş işıqlandırmış, Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları ***"Azərbaycan Məclisi-Məbusanında"*** rubrikası altında dərc etmişdir. Bundan başqa, qəzetdə ***"Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi"*** və digər daimi rubrikalar da var idi.

"Azərbaycan" qəzetinin səhifələrində Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, *Xəlil İbrahim,* Fərhad *Ağazadə,* Hacı İbrahim *Qasımov,* Məhəmməd ağa *Şahtaxtlı,* Adil xan *Ziyadxanov,* Əlabbas Müznib, Şəfiqə *Əfəndizadə,* İstanbulda təhsil alan *Əmin Abid* və b.-nın Azərbaycanın tarixinə, mədəniyyətinə, maarifinə, siyasi vəziyyətinə və s. aid silsilə məqalələri dərc olunurdu. Qəzetin səhifələrində Məhəmməd *Hadi, Əhməd Cavad* və b. şairlərin şeirlərinə də geniş yer verilirdi.

Qəzetdə erməni-daşnak qulduru Andronikin Zəngəzur, Naxçıvan və Qarabağda Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, vəhşiliklər, Ermənistan Respublikası ərazisində yaşayan azərbaycanlıların acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba torpaqlarından qovulması haqqında çoxlu məlumatlar dərc edilmişdi.

1919 ilin mayında Azərbaycanın istiqlaliyyətinin elan olunmasının birinci ildönümü, həmçinin 1920 il yanvarın 11-də Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin *de-fakto* tanınması münasibətilə "Azərbaycan" qəzetində çoxlu təbriklər, məqalələr və s. materiallar dərc olunmuşdu.

"Azərbaycan" qəzeti 1918-20 illər ərzindəki saylarında Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində "Azərbaycan" qəzetində dərc olunmuş materialların, ilk mənbə kimi əhəmiyyəti böyükdür.

"Azərbaycan" qəzeti o zaman öz istiqlalına qovuşmuş Azərbaycan xalqının milli oyanışında çox mühüm rol oynamışdır.

*Əd.:* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**AZƏRBAYCAN CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN XƏBƏRLƏRİ"** - qəzet, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin rəsmi orqanı. "Azərbaycan Cümhuriyyəti Hökumətinin xəbərləri"nin nəşrinə başlamaq haqqında qərar 1918 il iyulun 3-də qəbul edilmişdir. "Xəbərlər"in avadanlıqla təminatı ərzaq nazirliyinə, nəşri Xalq Maarifi Nazirliyinə həvalə edilmişdi. İlk nömrəsi 1919 il yanvarın 25-də çıxmışdır. 1919 il iyulun 19-dan həftədə bir, 1920 il yanvarın 1-dən isə həftədə iki nömrəsi Azərbaycan və rus dillərində buraxılırdı. "Xəbərlər"də, əsasən, Hökumətin qərarları, nazirliklərin sərəncam, əmr və təlimatları, ayrı-ayrı şəxslərin vəzifəyə təyin və ya azad edilmələri barədə məlumatlar, elanlar və s. dərc edilirdi.

**"AZƏRBAYCAN CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN QANUN VƏ BİNAGÜZARLIQLARI MƏCMUƏSİ"** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qanunvericilik və binagüzarlıq sənədlərinin dərc olunduğu toplu. "Məcmuə"ni nəşr etmək üçün Azərbaycan Hökumətinin 1919 il iyunun 25-də qəbul etdiyi qərarla "Azərbaycan Cümhuriyyəti Hökumətinin xəbərləri" nəşriyyatı yanında xüsusi şöbə yaradılmışdı. Həmin şöbə "Metropol" mehmanxanasında (indiki Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi) yerləşdirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Məcmuə"-nin Azərbaycan və rus dilləridə ayrı-ayrılıqda 4 nömrəsi nəşr olunmuşdur. "Məcmuə"nin ilk nömrəsi 1919 il noyabrın 15-də, son nömrəsi isə 1920 il yanvarın 1-də buraxılmışdır. Buraya Azərbaycan Milli Şurası və Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən 1918 il mayın 28-dən həmin ilin oktyabrın 31 -nə qədər qəbul olunmuş 298 qanunvericilik və binagüzarlıq sənədi daxil edilmişdir.

**AZƏRBAYCAN, DAĞISTAN VƏ ZAKASPİ HƏMKARLAR İTTİFAQLARININ QURULTAYI** - 1919 il aprelin 7-15-də Bakıda keçirilmişdir. Qurultay bolşeviklərin təsiri altında olan Azərbaycan həmkarlar ittifaqlarının təşəbbüsü ilə çağırılmışdır. Qurultayda Bakı, Gəncə, Tiflis, Port-Petrovsk, Dərbənd, Krasnovodsk və Qızıl Arvaddan olan 30 həmkarlar ittifaqından 146 nümayəndə iştirak edirdi. Qurultayda İ.Anaşkin həmkarlar ittifaqlarının vəzifələri haqqında məruzə etdi. Bütün məsələlər üzrə bolşeviklərin təklif etdiyi qətnamələr qəbul edildi. Qurultayın bolşevik fraksiyası bitərəf nümayəndələrin əksəriyyətini öz tərəfinə çəkərək həmkarlar ittifaqları hərəkatında kommunist partiyası proqramının qəbul edilməsinə nail oldu. Azərbaycan

sol eserlərindən bəziləri də qurultayda bolşeviklərə tərəfdar çıxdılar. Qurultay fəhlələri sovet hakimiyyəti uğrunda mübarizə yolunu tutmağa çağıran qətnamə qəbul etdi. Qurultayda seçilən Qafqaz ölkə həmkarlar ittifaqları mərkəzinin heyətinə bolşeviklərdən B.Ağayev, İ.Anaşkin, F.Qubanov, Ə.Qarayev və b. keçdilər. Qurultayın bolşevik platformasında dayanması menşevik və eserlərin həmkarlar ittifaqlarından sıxışdırılması prosesini sürətləndirdi. 1919 ilin yayında Bakıdakı həmkarlar ittifaqlarının, demək olar ki, hamısının idarə heyətində kommunistlər çoxluq təşkil edirdilər, sentyabrda isə onlar sağ sosialistlərin son dayağı olan Bakı həmkarlar ittifaqları şurasını ələ keçirdilər. Beləliklə, bolşeviklər həmkarlar ittifaqları üzərində tam nəzarətə nail oldular. Bununla, Şimali Azərbaycana sovet-bolşevik müdaxiləsi üçün zəmin hazırlamaq yolunda daha bir addım atılmış oldu.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Борьба за победу советской власти в Азербайджане 1918-1920. Документы и материаль, В., 1967.

**AZƏRBAYCAN - DAĞISTAN İTTİFAQI** Dağtstanın Azərbaycanla birləşmək uğrunda mübarizəsi. 1919 il aprelin əvvəlində Denikinin Könüllü ordusu Terek vilayətinin işğalını əsasən başa çatdırdı. Bundan sonra Dağıstanda Dağlılar Respublikasından ayrılıb Azərbaycana birləşmək ideyası sürətlə yayılmağa başladı. Dağıstanın ictimai xadimləri Azərbaycan Xalq Cümhuriyyətinin Dağlılar Respublikasındakı diplomatik nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyevə müraciətlər edərək, bu haqda Azərbaycan Hökumətinin prinsipial razılıq verməsini xahiş etdilər. Haqverdiyevin aprelin 15-də xarici işlər naziri Məmməd Yusif Cəfərova göndərdiyi məlumatda bildirilirdi ki, Dağıstanın 10 dairəsindən 4-ü açıq şəkildə Azərbaycana birləşmək tərəfdarıdır, qalanları isə gizlicə bunu arzu edirlər. Dağıstanlı zabitlər, o cümlədən Dağlılar Respublikası Hökumətində hərbi nazirin müavini olmuş general H.M.Xəlilov da bu mövqedən çıxış edirdilər.

Könüllü ordunun cənuba doğru irəliləməsi ilə əlaqədar Dağıstanda Azərbaycanla birləşmək tərəfdarları sürətlə artırdı. Kürə, Qaytaq, Tabasaran, Avar və Dərbənd bölgələrini təmsil edən nümayəndələr tarixən, həm də iqtisadi cəhətdən Azərbaycanla sıx bağlı olduqlarını bildirir və siyasi ittifaq yaradılmasını zəruri sayırdılar. Aprelin 29-da Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsi Dağlılar Respublikası parlamenti üzvlərinin, zabitlərin, ruhanilərin və ziyalıların birgə iclasında müzakirə edildi. Zabitlər Könüllü orduya qarşı mübarizənin davam etdirilməsini və hərbi əməliyyatlar başa çatdıqdan sonra Dağıstanla Azərbaycanın federasiya və ya konfederasiya formasında birləşməsini təklif etdilər. Dağıstan deputatlarının lideri M.Q.Dibirov, nüfuzlu din xadimi Şeyx Uzun Hacı da bu təklifə tərəfdar çıxdılar.

Mayın 5-də Bakıdakı müttəfiq qoşunlarının komandanı general U.Tomson da Fətəli xan Xoyski ilə görüşündə Dağıstanın iqtisadi, topoqrafik və digər cəhətlərdən Azərbaycanla bağlı olduğuna görə, onun Cümhuriyyətə birləşdirilməsini labüd saymışdı.

Müttəfiqlərin bu görüşləri, xüsusən də Dağıstanın öz taleyini Azərbaycanla bağlamaq üçün addımlar atması Denikinin bölgədə fəallaşmasına, təxribatçılıq fəaliyyətini gücləndirməsinə səbəb oldu. Əhalinin rəğbətini qazanmaq üçün Dağıstana yerli özünüidarəçilik veriləcəyi vəd edildi, Könüllü ordunun bölgədə başlıca vəzifəsinin bolşeviklərə qarşı mübarizə aparmaq olduğu bildirildi. Yüksək rütbəli dağlı zabitlərinin Şimali Qafqazın müsəlman bölgələrinin idarəsinə cəlb edilməsi isə zabit heyətinin mövqeyində dəyişiklik yaratdı.

Belə bir şəraitdə mayın 12-də P.Kotsevin başçılıq etdiyi Dağlılar Respublikası hökuməti istefa verdi. Parlament zabitlərin təzyiqi ilə yeni hökumətin təşkilini general H.M.Xəlilova tapşırdı. Xəlilov Denikinin nümayəndəsi ilə danışıqlara girdi və Dağlılar Respublikası hökumətini buraxdı. Mayın sonunda Dağıstan Könüllü ordu tərəfindən müqavimətsiz tutuldu.

Əbdürrəhim bəy Haqverdiyev iyunun 7-də Dağıstanda baş verən hadisələr haqqında Azərbaycan Hökumətinə göndərdiyi məlumatda Denikinin bölgədə cəmi 1 mindən çox hərbi qüvvəyə malik olduğunu bildirir və yerli əhalinin arzusunu nəzərə alıb, Port-Petrovska (indiki Mahaçqala) qədərki ərazini Azərbaycana birləşdirmək üçün hərəkətə keçməyə çağırırdı. Britaniya hökumətinin iyunun 11-də bəyan etdiyi demarkasiya xəttinə görə də Könüllü ordu Port-Petrovskdan 5 mil cənubda dayanmalı idi.

Azərbaycan Hökuməti Dərbəndi və demarkasiya xəttinə qədərki Dağıstan ərazisini denikinçilərdən təmizləmək üçün dərhal diplomatik və hərbi hazırlığa başladı. Lakin Denikin ordusu Cənubi Dağıstanı tərk etməkdən qəti boyun qaçırdığı üçün avqustun 4-də Britaniya hökuməti demarkasiya xəttini Dağıstanın cənub sərhədinə çəkərək, bölgəni bütünlüklə Könüllü ordunun təsir dairəsinə aid etdi.

Azərbaycan Hökuməti yaranmış vəziyyəti nəzərə alaraq, Dağıstanın birləşdirilməsi ilə bağlı hazırlığı dayandırmalı oldu.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), B., 1998; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**AZƏRBAYCAN DƏMİR YOLU** Azərbaycan Xalq Cümhuriyyətinin dəmir yol şəbəkəsi. Cümhuriyyət Hökumətinin qərarı ilə 1918 il iyunun 1-dən ölkə ərazisindəki bütün dəmir yol xətləri müstəqil Azərbaycan dəmir yoluna çevrildi. Azərbaycan Dəmir Yolu İdarəsi yaradıldı. Həmin dövrdə Azərbaycan dəmir yollarının ümumi uzunluğu 954,2 *km* (894,4 *versi)* idi. Onun 498,2 *km-i* (467 *versi)* Qərb (Bakı - Böyük Kəsik), 187,8 *km-i* (176 verst) Şimal (Biləcəri - Yalama), 189,9 *km-i* (178 verst) Cənub-qərb (Uluxanlı - Culfa), 51,2 *km-i* (48 verst) Cənub (Ələt - Zubovka) istiqamətlərinin, 27,1 *km-i* (25,4 verst) "neft sahəsi"nin (Bakı - Balaxanı - Sabunçu - Suraxanı) payına düşürdü.

1918 ilin sentyabrında Azərbaycan Dəmir Yolu İdarəsinin sərəncamında cəmi 235 parovoz (o cümlədən işlək 52, təmirdə 14, təmir gözləyən 169) və 4092 vaqon (o cümlədən 2075 yük vaqonu, 2017 vaqon-sistern var idi; onların 52%-i istismara yararlı idi) vardı.

Müstəqil Azərbaycan Hökuməti təşkil edildiyi ilk gündən ölkənin yol təsərrüfatına rəhbərlik üçün Yollar Nazirliyi yaradılmışdı. Yollar naziri vəzifəsini bütün Hökumət kabinelərində Xudadat bəy Məlik-Aslanov icra etmişdir.

1918 il iyunun 4-də Batumda Azərbaycan, Osmanlı, Gürcüstan və Ermənistan hökumətləri arasında Cənubi Qafqaz dəmir yollarının vaqon-parovoz parkını bölüşdürmək barədə saziş bağlandı. Azərbaycan tərəfindən Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacinskinin imzaladıqları həmin sənədə görə, Cənubi Qafqazın vaqon-parovoz parkı tərəflər arasında, sazişi imzalayan ölkələrin ərazisindən keçən dəmir yolu xətlərinin uzunluğuna uyğun olaraq, bölüşdürülməli idi. Lakin Cənubi Qafqaz respublikaları arasında ərazi mübahisələri olduğuna görə sazişin müddəaları reallaşmadı. Buna görə də, Azərbaycan Xalq Cümhuriyyəti 1918 il dekabrın 26-da Gürcüstanla ayrıca müqavilə bağladı. Müqaviləyə əsasən, Azərbaycan tərəfi Gürcüstan dəmir yolunun normal istismarı üçün mazut və digər neft məhsulları verməyi öhdəsinə götürdü. Gürcüstan isə bunun müqabilində Azərbaycan dəmir yolunu zəruri material və avadanlıqla təmin etməli idi.

1919 il martın 8-də Azərbaycanla Gürcüstan arasında dəmiryolu rabitəsi haqqında ayrıca bir saziş də imzalandı. Bu sazişə əsasən, 1918 il mayın 26-dək hər iki dövlətin ərazisində olmuş bütün parovoz və vaqonlar, bu məsələ arbitraj komissiyasında həll edilənə qədər, həmin dövlətlərin öz istifadəsində və sərəncamında qalmalı idi. Eyni zamanda, Azərbaycan dəmir yolunun əsaslı və xüsusi təmir barədə sifarişləri Tiflis dəmiryolunun baş emalatxanalarında yerinə yetirilməli idi.

1919 il aprelin 17-də Azərbaycan Dəmir Yolu İdarəsi Batumda öz ticarət agentliyini yaratdı. Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi Teymur bəy Məlik-Aslanov və E.Matiyeviç ("F.A.Matiyeviç və Ko" Ticarət evinin nümayəndəsi) arasında imzalanmış sazişə əsasən, "F.A.Matiyeviç və Ko" Ticarət evi Azərbaycan dəmir yolunun Batumda nümayəndəsi təyin edildi və Azərbaycan Dəmir Yolu İdarəsinin və dəmiryolunun kommersiya agentliyinin müştərilərinin bütün sifarişlərinin icrası ona tapşırıldı.

Azərbaycan Hökuməti dəmir yolu nəqliyyatının normal fəaliyyət göstərməsini və inkişafını təmin etmək üçün digər tədbirlər də həyata keçirdi. 1918 il iyunun 25-də Azərbaycan dəmir yolunun mühafizə xidməti Daxili İşlər Nazirliyinə tabe edildi, dəmir yolu jandarm idarəsi yaradıldı və dəmir yolu xətlərinin, stansiyaların, körpülərin mühafizəsi, sərnişinlərin və yüklərin təhlükəsizliyinin təmin olunması ona həvalə olundu.

1918-20 illərdə dəmir yolu xətlərinin, hərəkət vasitələrinin təmiri işi qaydaya salındı. Dəmir yolunun xidmətinin müvafiq qulluqçularla, təmir emalatxanaları və depoların usta və ixtisaslı fəhlələrlə komplektləşdirilməsi həyata keçirildi. 1920 ilin yazında Azərbaycan dəmir yolunda çalışanların ümumi sayı 11 min nəfərə çatırdı. Azərbaycan Parlamenti 1919 il fevralın 4-də dəmiryolçuların məvaciblərini artırmaq haqqında qanun qəbul etdi. Qanuna görə, 1919 il yanvarın 1-dən dəmir yolu işçilərinin əmək haqqı orta hesabla 60%, bəzi kateqoriyalardan olan dəmiryolçuların məvacibi isə 90-95% artırıldı. Azərbaycan Parlamentinin 17 aprel 1919 il tarixli qərarı ilə Azərbaycan dəmir yolunda qulluq edən parovoz maşinistlərinə və onların köməkçilərinə həqiqi hərbi xidmətdən möhlət hüququ verildi. Azərbaycan Hökuməti 1919 il fevralın 17-də ölkə ərazisindəki bütün dəmir yolu stansiyalarının qaydaya salınması haqqında qərar qəbul etdi. Bundan əlavə, Hərbi Nazirlik həmin il martın 28-də Bakı, Biləcəri və Xaçmaz stansiyalarında komendantlıqlar yaratdı. Ələt - Culfa dəmir yolunun inşasını davam etdirmək üçün 1919 ilin dövlət büdcəsindən 100 milyon manat vəsait ayrıldı.

1919 il oktyabrın 20-də Azərbaycan Parlamentinin iclasında çıxış edən yollar naziri Xudadat bəy Məlik-Aslanovun məlumatına görə, son dövrdə alınan 50-dən çox parovoz dəmir yolunun buraxıcılıq qabiliyyətini 2 dəfə artırmağa imkan vermişdi. 1919 ildə dəmir yolu nəqliyyatının aylıq gəliri 5 milyon manatdan 40 milyon manata qədər artmışdı. 1920 ilin başlanğıcında Azərbaycan dəmir yolunun 300 parovozu, 4000 sərnişin vaqonu, 2300 örtülü yük vaqonu, 2000 vaqon-platforması, 1600 vaqon-sisterni vardı. Azərbaycan Hökuməti vaqon-parovoz parkını daha da artırmağı, dəmir yolu təsərrüfatının inkişafı üçün digər vacib tədbirləri həyata keçirməyi planlaşdırırdı. Lakin *Aprel işğalı (1920)* bu planları yarımçıq qoydu.

*Əd.:*Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Vəliyev (Baharlı) M.H., Azərbaycan Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; Əliyev Q., Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr - XX əsrin ilk onillikləri), B., 2001.

**AZƏRBAYCAN DİLİNİN DÖVLƏT DİLİ ELAN OLUNMASI HAQQINDA QƏRAR** - Rusiya işğalından (1813) bəri Şimali Azərbaycanda Azərbaycan türk dilinin dövlət dili kimi işlədilməsi haqqında ilk sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 27 iyun tarixli həmin qərarına əsasən, Azərbaycan türk dili bütün ölkə ərazisində dövlət dili elan edildi. Lakin bütün məhkəmə inzibati idarəçilik və digər vəzifələrin başında duranlar bu dili lazimi səviyyədə öyrənənədək Hökumət idarələrində rus dilindən də istifadə olunmasına yol verilirdi. Qərarın icrası ilə bağlı, milli kadrlar hazırlanmalı, bu sahədə tədris işi yenidən qurulmalı idi. Təhsilin milliləşdirilməsi bu sahədə atılan ilk addımlardan oldu. Azərbaycan Hökumətinin 1918 il 28 avqust tarixli qərarına əsasən bütün ibtidai tədris müəssisələrində təhsil ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan türk dilinin tədrisi icbari surətdə həyat keçirilməli idi (bax həmçinin *Azərbaycan Xalq Cümhuriyyəti* məqaləsinin *Dil siyasəti və Xalq maarifi* bölmələrinə).

**AZƏRBAYCAN DÖVLƏT BANKI (ADB)** - Azərbaycan Xalq Cümhuriyyəti maliyyə siyasətinin həyata keçirilməsini təmin edən mühüm dövlət qurumu. Dövlətin maliyyə-iqtisadi müstəqilliyinin təmin olunması məqsədilə yaradılmışdı. Belə ki, Rusiya Dövlət Bankının Bakıdakı şöbəsi Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qarşısında duran mühüm dövlətçilik vəzifələrini yerinə yetirə bilməzdi. Buna görə də Hökumət 1919 il martın 7-də ADB-nin təşkili barədə layihəni bəyəndi və bankın nizamnaməsini hazırlamağı maliyyə nazirinə tapşırdı. 1919 il mayın 20-də ADB-nin nizamnaməsi Nazirlər Şurasına təqdim olundu.

Nizamnamə hazırlanarkən Rusiya Dövlət Bankının nizamnaməsi əsas götürülmüş, lakin bir sıra dəyişikliklər və ixtisarlar edilmişdi. Məsələn, banka qanunvericilik qaydasında müəyyən olunmuş əsaslarla pul nişanları buraxmaq hüququ verilmişdi; mərkəzi idarənin və onun ayrı-ayrı qurumlarının tərkibi ixtisar olunmuş, eyni zamanda, mərkəzi idarə Bakı şəhərindəki əməliyyat şöbəsi ilə birləşdirilmişdi; bankın yerli strukrurlarının şöbə və agentlik hesab edilməsi məqbul sayılmamış, yaradılması nəzərdə tutulan strukturların hamısı bölmə adlandırılmışdı. Onların ştat cədvəli, hüquq və vəzifələri də buna müvafiq olmalı idi.

Nizamnaməyə görə, ADB-nin vəzifələri kommersiya banklarının vəzifələrindən geniş idi və o dövlet xarakterli bir sıra tapşırıqları, o cümlədən pul emissiyasının yerinə yetirməsi dövlətin maliyyə aparatı kimi müvafiq hallarda digər ölkələrin eyni orqanları ilə sazişlər bağlanması, valyuta məsələsinin tənzimlənməsi və s. funksiyaları yerinə yetirməli idi.

ADB haqqında hazırlanmış qanun layihəsi 1919 il mayın 26-da Hökumət tərəfindən bəyənildi və Parlamentin təsdiqinə verildi. Layihə təsdiq olunana qədər isə, iyunun 2-də Hökumət Dövlət bankı haqqında məsələnin müzakirəsi üçün özünün və Bakıdakı Britaniya qoşunları komandanlığının nümayəndələrindən ibarət komissiyanın təşkili barədə qərar qəbul etdi. İyunun 9-da Hökumət Dövlət bankının bütün aktiv və passivləri ilə birlikdə Azərbaycan Hökumətinə verilməsi barədə Britaniya komandanlığı qarşısında məsələ qaldırdı. Avqustun 25-də qəbul olunmuş qərara əsasən, Maliyyə Nazirliyinin kredit şöbəsinin neft sənayeçilərinə ayırdığı borclar ADB-yə verildi.

Bankın təsis edilməsi ölkənin iqtisadi-təsərrüfat həyatını möhkəmləndirmək zərurətindən irəli gəlmişdi. Kredit banklarına ümidini itirən əhali əmanətlərini oraya qoymurdu. Bu da əhalidə çox böyük məbləğdə dövriyyədən çıxmış pulun yığılıb qalmasına səbəb olmuşdu. Nəticədə, əlavə kağız pul kəsilməsi zərurəti doğurur, manatın alıcılıq qabiliyyətinə mənfi təsir göstərirdi.

ADB-nin məqsədi pul tədavülünü asanlaşdırmaq, milli ticarət, sənaye və kənd təsərrüfatına yardım etmək, habelə pul sistemini möhkəmləndirmək idi. İlk vaxtlar bankın əsas kapitalı 500 milyon, ehtiyat kapitalı isə 20 milyon manata bərabər idi. Əsas kapitalı yaratmaq üçün Hökumət ADB-yə, əlavə olaraq, 50 milyonluq Azərbaycan və Zaqafqaziya əsginası verdi. Beləliklə, bank kağız pul kəsmək üçün müstəsna hüquqa malik oldu.

ADB-yə bankirlər şurası rəhbərlik edirdi. 1919 il sentyabrın 18-də Dövlət bankının nizamnaməsi təsdiqləndi, sentyabrın 30-da onun təntənəli açılışı oldu. 1919 il sen-

*Azərbaycanın Dövlət Bankının təntənəli açılışı barədə akt. 1919, 30 sentyabr*


Актъ
Торжественнаго Открытія
Азербайджанскаго Государственнаго
Банка
30 Сентября 1919 года

Ленту, преграждавшую вход в кладовую Азербайджанскаго Государственнаго Банка, которая была перерезана при торжественном открытии Банка 30 Сентября 1919 года Председателем Совета Министров Азербайджанской Республики Насиб-беком Усубековым. —

tyabrın 1 -dən fəaliyyət göstərən Gəncə bankı isə oktyabrın 25-də qəbul olunmuş qanunla Dövlət bankının şöbəsi statusunu aldı.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998.

**AZƏRBAYCAN DÖVLƏT BANKININ GƏNCƏ ŞÖBƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti maliyyə sisteminin mühüm tərkib hissəsi. 1919 il oktyabrın 25-də yaradılmışdır. Gəncə həm geniş bir quberniyanın inzibati mərkəzi, həm də iri əkinçilik və sənaye rayonunun mərkəzi idi. Quberniyada pambıqçılıq və onunla əlaqədar sənaye sahələri (pambıqtəmizləmə, yağ emalı) xeyli inkişaf etmişdi. Bağçılıq və üzümçülük məhsulları həm ticarət dövriyyəsini artırır, həm də iri sənayeni xammalla təmin edirdi. Bəzi yerlərdə mədən senayesi (mis), habelə ipəkçilik inkişaf etmişdi. Əkinçilik və maldarlıq məhsulları da ticarət dövriyyəsini kifayət qədər canlandırırdı. Əhalinin əlində xeyli nağd pul toplanmışdı və bu, tədricən cari hesablara qoyulmaqla, bank əməliyyatlarına cəlb olunmalı idi. Bankın nəzdində və digər yerlərdə əmanət kassalarının açılması əhalinin vəsaitinin bank əməliyyatlarına cəlb olunmasını sürətləndirməli idi. Bu şərtlər Azərbaycan Parlamentinin 1919 il oktyabrın 25-də keçirilən 88-ci iclasında Dövlət Bankının Gəncə şöbəsinin açılması haqqında qərar qəbul etməsinə səbəb oldu. Hidayət bəy Niyazov Azərbaycan Dövlət Bankı Gəncə şöbəsinin müdiri, Mirmahmud Ağamirov nəzarətçi vəzifəsini icra edən, Qafar Ələkbərov böyük mühasib, Yəhya Nəbiyev isə kassir təyin olundu.

Dövlət Bankının Gəncə şöbəsinin açılması ölkənin bu bölgəsində bank-maliyyə əməliyyatlarının canlanmasına müəyyən təsir göstərdi (bax*Azərbaycan Dövlət Banıı).*

**AZƏRBAYCAN DÖVLƏT BANKININ YARADILMASI HAQQINDA QƏRAR** – Azərbaycan Xalq Cümhuriyyəti dövlət maliyyə sisteminin yaradılması məqsədilə verilmiş qərar. Maliyyə nazirinin təqdim etdiyi layihə əsasında 1919 il mayın 26-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmişdir. Qərar Azərbaycan Parlamentində təsdiq olunana qədər maliyyə nazirinə nəzərdə tutulan vəzifələrə müvafiq şəxsləri dəvət etməklə bankın təşkili işinə başlamaq tapşırılmışdı.

**AZƏRBAYCAN ERMƏNİSTAN KONFRANSI** -Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistan Respublikası arasındakı mübahisəli məsələləri, o cümlədən sərhəd məsələlərini müzakirə etmək məqsədilə 1919 il dekabrın 14-21-də Bakıda keçirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti konfransın keçirilməsi üçün bir sıra hazırlıq işləri görmüşdü. 1919 il oktyabrın 29-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi konfransın keçirilməsi ilə bağlı Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinin 1919 il 7 oktyabr tarixli teleqramına cavab olaraq birdirmişdi ki, Cümhuriyyət Hökuməti öz qonşuları ilə mehriban münasibətlər qurmağa, bütün mübahisələri razılıq əsasında həll etməyə səy göstərir. Azərbaycan Hökuməti hələ 1919 ilin aprelində Ümumqafqaz konfransının çağırılmasına dair Gürcüstan hökumətinin təklifinə də razılıq vermiş və öz nümayəndələrini göndərmişdi. Konfransın işi yarımçıq qaldığından, Azərbaycan Hökuməti avqustda onun işinin yenidən bərpa edilməsinə razılıq vermişdi. Azərbaycan Hökuməti, eyni zamanda, hər iki dövlətə aid mübahisəli məsələlərin həlli üçün Ermənistan -Azərbaycan iclasının çağırılması haqqında Ermənistan hökumətinin təklifini də qəbul etmiş, erməni tərəfinin təklifində göstərilən məsələlərin gündəliyə daxil edilməsinə etiraz etməmiş, iki dövlət arasında təkcə müvəqqəti demarkasiya xəttinin yaradılması məsələsini deyil, Azərbaycan və Ermənistan respublikaları arasındakı bütün sərhəd mübahisələrinin qəti həlli məsələsini müzakirə etməyi zəruri saymışdı.

Müvafiq hazırlıq işləri aparıldıqdan sonra Cümhuriyyət Hökuməti konfransın çağırılması üçün Bakı şəhərini daha münasib bilmiş və Ermənistan hökuməti nümayəndələrini Bakıya dəvət etmişdi. Konfrans ərəfəsində, 1919 il noyabrın 23-də Azərbaycan və Ermənistan respublikaları arasında saziş imzalandı (bax *Azərbaycan - Ermənistan sazişi (1919)).* Onun 4-cü bəndinə əsasən, hər iki hökumət qarşıdakı konfransa bərabər sayda nümayəndə göndərməli idi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən konfransın sədri Fətəli xan Xoyski, nümayəndələri Məmməd Həsən Hacinski və Rəhim bəy Vəkilov, Ermənistan tərəfindən isə nümayəndə heyəti Arutünyants (sədr), knyaz Arqutinski-Dolqorukov və Bekzadyandan ibarət idi.

Konfransın ilk iclası Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Məmməd Yusif Cəfərovun çıxışı ilə açıldı. O, açılış nitqində, Cənubi Qafqazın müstəqil respublikalara parçalanması ilə bu respublikalar arasındakı münasibətlərdə, onların ərazilərinin müəyyən olunmasında bir çox həll olunmamış, mübahisəli məsələlərin qaldığını bildirdi. İlk iclasda Fətəli xan Xoyski və Arutünyants nümayəndə heyətlərinin rəhbərləri kimi konfransı salamladılar. Müttəfiqlərin Ermənistandakı ali komissarı polkovnik Haskelin, Gürcüstanın Azərbaycandakı diplomatik nümayəndəsi Alşibayanın, Bakıdakı Erməni Milli Şurasının, Azərbaycan Parlamentində "Daşnaksutyun" fraksiyasının təbrik teleqramları dinlənildi. Hər iki nümayəndə heyətinin sədrlərindən ibarət rəyasət heyəti və iclaslara sədrlik qaydası müəyyənləşdirildi.

Konfransın dekabrın 15-də keçən növbəti iclasında müzakirə ediləcək məsələlərin qoyuluşu ətrafında fikir ayrılığı yarandı. Fətəli xan Xoyskinin ilk növbədə ərazi problemlərini müzakirə etmək təklifi və Məmməd Həsən Hacinskinin sərhəd mübahisələrinin 23 noyabr sazişinə uyğun olaraq həll edilməsini konfransın əsas vəzifəsi sayması Ermənistan tərəfindən (Arutünyants və Bekzadyan) etirazla qarşılandı. Onlar ərazi mübahisələrinin qəti həlli üçün hələ lazımi şərait və vaxtın yetişmədiyini bildirdilər. Erməni tərəfi, ilk növbədə, iqtisadi-maliyyə səciyyəli məsələlərin müzakirəsini təklif edirdi. Məmməd Həsən Hacinski Qafqaz Konfederasiyası yaradılmasını bir çox

problemlərin həllində əsas çıxış yolu olduğunu vurğuladı. Dekabrın 17-də keçirilən iclasda əsas müzakirə Məmməd Həsən Hacınskinin qaldırdığı Cənubi Qafqaz Respublikaları Konfederasiyası məsələsinin konfransın gündəliyinə çıxarılması ətrafında getdi. Erməni nümayəndə heyəti bu məsələdə hökuməti tərəfindən səlahiyyətli olmadığını, lakin konfederasiya məsələsini prinsipcə dəstəkləyə biləcəklərini bəyan etdi. Konfederasiya məsələsi Azərbaycan tərəfindən ümumi iclasda da irəli sürüldü. Erməni nümayəndə heyəti bu təklifi dəstəklədi. Nəticədə, müvafiq qətnamə qəbul edilməsi qərara alındı. Həmin məsələnin növbəti Tiflis konfransının müzakirəsinə çıxarılması və hazırlanması üçün Cənubi Qafqaz respublikaları hökumətlərinə müvafiq təklif verilməsi nəzərdə tutuldu. Ərazi məsələsinə gəldikdə, bu məsələnin müzakirəsi 17 dekabr iclasında da baş tutmamış, növbəti iclasa saxlanılmış, məhkəmə-hüquq münasibətlərinə və konsulluq agentliklərinin təsis edilməsinə dair məsələlərin isə konfransın gündəliyinə salınması qərara alınmışdı. Fətəli xan Xoyskinin sədrlik etdiyi 19 dekabr iclasında konfederasiya məsələsinə yenidən önəm verilmiş, konfransın sonuncu - 21 dekabr tarixli iclasında tərəflər arasında əvvəlki iclaslarda razılaşdırılmış formada əlavə məsələlər müzakirəyə çıxarılmışdı. Ərazi, qaçqınlar, ticarət və dəmir yollarına dair müqavilələrin bağlanması məsələlərinə əlavə olaraq, hər iki respublika vətəndaşlarının məhkəmə-hüquq münasibətlərinə dair, həmçinin, Azərbaycan və Ermənistanın müxtəlif şəhərlərində konsulluqların təsisi məsələləri də konfransın gündəliyinə daxil edilmişdi.

Konfrans Bakıdakı işini yekunlaşdıraraq, konfederasiya məsələsi ilə yanaşı,qalan məsələlərin də müzakirəsini Tiflis konfransına keçirməyi qərarlaşdırdı (bax *Zaqafqaziya konfransı).* Konfrans bəyan etdi ki, hər iki respublika arasında hərbi əməliyyatlar dayandırılmalı və bütün mübahisəli məsələlər sülh yolu ilə həll olunmalıdır. Ümumiyyətlə isə, konfrans iki dövlət arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi, mübahisəli sərhəd-ərazi məsələlərinin, o cümlədən Zəngəzur probleminin həllində əməli addımlar atmadı, tərəflər arasındakı ziddiyyətləri həll edə bilməyərək, işini yarımçıq dayandırdı.

*Əd.:*Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Азербайджанская Демократическая Республика. Документы и материалы (1918-1920), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c,5, B., 2001;

**AZƏRBAYCAN-ERMƏNİSTAN SAZİŞİ (1919) -** noyabrın 23-də Tiflisdə imzalanmışdır. Cənubi Qafqazda müstəqil respublikalar yarandıqdan sonra qarşıda ərazi-sərhəd məsələlərinin həll edilməsi məsələsi dururdu. Ermənistan Respublikası istər Azərbaycana, istərsə də Gürcüstana qarşı ərazi iddialarını təcavüzkarlıq və etnik təmizləmə siyasəti ilə həyata keçirməyə çalışırdı. 1919 ilin payızında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları daha kəskin şəkil aldı. Azərbaycan Hökumətinin dövlətin ərazi bütövlüyünü qorumaq üçün həyata keçirdiyi tədbirlər ermənilərin hərbi-diplomatik fəaliyyətini puça çıxardı. ABŞ-ın və İngiltərənin Qafqazdakı nümayəndələri bölgədə hərbi vəziyyətin kəskinləşməsinin Paris sülh konfransının işinə maneçilik göstərəcəyi barədə narahatlıqlarını Azərbaycan və Ermənistan hökumət başçılarına bildirdilər. ABŞ nümayəndəsi C.Rey tərəflər arasındakı mübahisəli məsələləri dinc yolla həll etmək üçün Tiflisdə konfrans keçirilməsini təklif edirdi. Noyabrın 20-22-də Tiflisdə Azərbaycan və Ermənistan hökumət başçıları Nəsib bəy Yusifbəyli və A.Xatisyanın başçılığı ilə nümayəndə heyətlərinin görüşləri keçirildi. Noyabrın 23-də isə vasitəçi-təminatçılar olan müttəfiqlərin Qafqazdakı Ali komissarının müavini C.Rey və Gürcüstanın xarici işlər naziri Y.Gegeçkorinin iştirakı ilə tərəflər arasında saziş imzalandı.

Saziş beş maddədən ibarət idi: 1-ci maddəyə görə, Ermənistan və Azərbaycan hökumətləri baş verən toqquşmaları dayandırmağı və yenidən silah gücünə əl atmamağı öhdələrinə götürürdülər; 2-ci maddə ilə tərəflər Zəngəzura gələn yolların düzəldilməsi və açılması, bu yollarda hərəkətin təhlükəsizliyi üçün təsirli tədbirlər görülməsinə razılaşırdılar; 3-cü maddədə tərəflər, sərhədlər haqqında məsələlər də daxil olmaqla, bütün mübahisələri dinc yolla həll etməyi öhdələrinə götürürdülər. Dinc yolla razılığa gəlmək mümkün olmadıqda, hər iki tərəf Amerika polkovniki Reyi münsiflər məhkəməsi sifəti ilə bitərəf şəxs kimi qəbul edir və onun qərarlarını məcburi yerinə yetirməyə razılaşırdılar; 4-cü maddədə noyabrın 26-da Bakıda Azərbaycan -Ermənistan konfransının keçirilməsi qərara alınırdı; 5-ci maddə sazişi imzalandığı gündən qüvvədə sayır və parlamentlərin təsdiqindən sonra hüquqi qüvvəyə mindiyini təsbit edirdi. Lakin real tarixi faktlar göstərdi ki, Ermənistan bu sazişlə üzərinə düşən öhdəlikləri yerinə yetirmədi. Erməni tərəfinin günahı üzündən noyabrın 26-da keçirilməsi nəzərdə tutulan Azərbaycan - Ermənistan konfransı yalnız dekabrın 4-21-də baş tutdu. Bu konfransda da əməli qərarların qəbul edilməsi mümkün olmadı. 1920 ilin aprelində Cənubi Qafqaz dövlətlərinin Tiflisdəki konfransı zamam aparılan müzakirələr də müsbət nəticə vermədi.

Azərbaycanda *Aprel işğalının (1920)* həyata keçirilməsi ilə 1919 il Azərbaycan - Ermənistan sazişi əhəmiyyətini itirdi.

*Əd:* Nəsibzadə N., Azerbaycanın xarici siyasəti (1918-1920); B., 1996; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, 1-ci hissə, B., 2003.

**AZƏRBAYCAN-GÜRCÜSTAN HƏRBİ-MÜDAFİƏ SAZİŞİ (1919)** - Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı iki respublika arasında qarşılıqlı müdafiə haqqında 1919 il iyunun 16-da Tiflisdə imzalanmış sənəd. Sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Məmməd Yusif Cəfərov, hərbi nazir Səməd bəy Mehmandarov, Baş ərkani-herb (qərargah) rəisi general-leytenant Məmməd bəy Sulkeviç, Gürcüstan tərəfdən xarici işlər naziri Y.P.Gegeçkori, hərbi nazir N.Ramişvili, hərbi nazirin müavini general-mayor Gedevanov və general Odişelidze üç il

müddətinə imzalamışdılar. Tərəflər onlardan birinin və ya hər ikisinin müstəqilliyinə və ərazi bütövlüyünə yönəlmiş hər hansı təcavüzə qarşı sərəncamlarında olan bütün silahlı qüvvələr və hərbi vasitələrlə birgə çıxış etməyi öhdələrinə götürürdülər. Qonşu dövlətlərdən hər hansı biri əvvəlinci bəndə uyğun olaraq başlanmış hərbi əməliyyatlar zamanı sərhəd mübahisələrini silah gücünə həll etmək üçün müqavilədə iştirak edən tərəflərin birinə, yaxud ikisinə hücum edərsə, həmin tərəf vuruşan tərəf kimi tanınır. Sazişə görə, tərəflər bir-birindən ayrı separat sülh bağlamamalı, sərhəd mübahisələri danışıqlar yolu ilə həll edilməli idi. Tərəflər, həmçinin, qabaqcadan xəbərdarlıq etmədən digər dövlətlə hərbi saziş bağlamamağı, hər iki dövlətin suveren hüquqlarının və müstəqilliyinin qorunmasına yönəlmiş diplomatik danışıqlarda həmrəy çıxış etməyi də öz üzərlərinə götürürdülər. Ermənistanın da bu sazişə qoşulmaq hüququna malik olması və iki həftə ərzində buna öz münasibətini açıqlaması barədə razılıq əldə ohmmuşdu. Ancaq Ermənistan sazişə qoşulmadı.

Sənədə əlavə olaraq, hərbi-texniki sazişin də imzalanması iki respublika arasında hərbi-texniki əməkdaşlığı genişləndirdi. Qonşu respublikadan mümkün olan hərbi texnikanın, vəsaitlərin, ərzağın alınması üçün hərbi nazirin əmri ilə xüsusi komissiya yaradıldı və ona rəhbərlik general-mayor Murad Gəray Tlexasa həvalə olundu.Komissiyanın fəaliyyəti nəticəsində qısa zamanda Gürcüstandan 12 ədəd dağ topu, dağ topları üçün 10 qutu partladıcı maddə, 3000 ədəd tüfəng, toplar və tüfənglər üçün çoxlu sayda ehtiyat hissələr, 8 ədəd yüngül top, həmin toplar üçün 16 qutu partladıcı maddə, 4 min pud qənd, 12885 manat dəyərində dərman və tibb ləvazimatı, topoqrafiya əşyaları alınaraq Azərbaycana göndərildi. Qarşılıqlı əməkdaşlığın genişlənməsi ilə gürcüstanlı hərbi mütəxəssislər şimal sərhədlərinin, Abşeronun və Bakının müdafiə sistemlərinin yaradılmasına cəlb edildilər. Azərbaycan - Gürcüstan hərbi müdafiə sazişinin yerinə yetirilməsini həmin sazişə əsasən yaradılmış hərbi şura təmin edirdi (bax həmçinin *Azərbaycan - Gürcüstan ittifaq hərbi şurası).*

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Азербайджанская Демократиская Республика (1918-1920)., Армия (документы и материалы) B., 1998.

**AZƏRBAYCAN-GÜRCÜSTAN İTTİFAQ HƏRBİ ŞURASI** - Azərbaycan - Gürcüstan hərbi müdafiıə sazişinə (1919) uyğun olaraq iki respublikanın hərbi nazirlikləri tərəfindən yaradılmış (1919, 16 iyun) kollegial orqan. Hərbi şuraya hər iki respublikanın yüksək rütbəli iki nümayəndə daxil edilir və onlardan biri hökumətlərin qarşılıqlı razılığı əsasında sədr seçilirdi. Şurada Azərbaycanı generallar Əlağa Şıxlinski və Məmməd bəy Sulkeviç, Gürcüstanı isə generallar Odişelidze və Kutateladze təmsil edirdilər. General Odişelidze ittifaq hərbi şurasının sədri seçilmişdi. Şuranın səlahiyyətlərinə hərbi əməliyyatların və düşmənin imkanlarının dərindən öyrənilməsi, müdafiə planlarının işlənib hazırlanması, hər iki respublikanın ordusunun döyüş hazırlığı səviyyəsinə nəzarət edilməsi və qoşunların yerləşdirilməsi planının hazırlanması daxil idi. Şuranın strateji və hərbi-texniki qərarları tərəflər üçün icbari idi. Qarşılıqlı razılaşma əldə edilməyən məsələlərin həlli Gürcüstan hökumətinin və Azərbaycanın Dövlət Müdafiə Komitəsi sədrinin ixtiyarına verilirdi.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920), B., 1993; Азербайджанская Демократическая Республика (1918-1920)., Армия (документы и материалы) B., 1998.

**AZƏRBAYCAN GÜRCÜSTAN MÜQAVİLƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında iqtisadi, maliyyə, nəqliyyat və rabitə sahələri üzrə 1918-20 illərdə bağlanmış müqavilələr. Cənubi Qafqaz 100 ildən artıq Rusiya imperiyası tərkibində vahid iqtisadi məkanda olduğundan, Azərbaycan və Gürcüstan müstəqillik qazandıqdan dərhal sonra iqtisadi, maliyyə, nəqliyyat və rabitə sahələrində əməkdaşlığı tənzimləmək və dərinləşdirmək zərurəti ilə üzləşdilər. 1918 il iyunun 4-də Batumda Azərbaycan, Gürcüstan və Osmanlı hökumət nümayəndələri Bakı - Batum ağ neft kəmərinin normal işləməsini təmin etmək haqqında saziş bağladılar. Həmin gün Batumda həmçinin Azərbaycan və Gürcüstan nümayəndələri Osmanlı və Ermənistan nümayəndələri ilə birlikdə Cənubi Qafqaz dəmir yollarına aid vaqon-parovoz parkının bölüşdürülməsi haqqında saziş imzaladılar. Sazişə görə, tərəflər keçmiş Rusiya imperiyasının mülkiyyəti olan vaqon-parovoz parkını hər ölkənin ərazisindən keçən dəmir yolu xətlərinin uzunluğuna mütənasib şəkildə bölüşdürməli idilər.

1918 il iyunun 21-də Gürcüstan hökumətinin sədri N.Ramişvili keçmiş Zaqafqaziya hökumətinin əmlakının Azərbaycan və Gürcüstan arasında bölüşdürülməsini Azərbaycanın bu ölkədəki nümayəndəsi Məmməd Yusif Cəfərova təklif etdi. Gürcüstan tərəfi öz təklifini bununla əsaslandırdı ki, Ermənistan öz payını artıq götürmüşdür və sonradan Osmanlı dövlətinin nəzarəti altına keçmiş ərazilərdə yerləşdirmişdir. Azərbaycan tərəfi ümumi əmlakın bölüşdürülməsinə prinsipial razılıq verdi, avqustun 15-də isə təklif etdi ki, arbitraj yolu ilə, ilk növbədə, Qafqaz cəbhəsinin ləğvi nəticəsində qalmış daşınar əmlak və Cənubi Qafqazın mərkəzi dövlət idarə və təşkilatlarının daşınar əmlakı bölüşdürülsün.

1918 il sentyabrın 6-da Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri maliyyə və pul-kredit əməliyyatları üçün birlikdə 280 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması haqqında saziş imzaladılar. Həmin il noyabrın 15-də Azərbaycanla Gürcüstan arasında, əlavə olaraq, daha 160 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması haqqında Tiflisdə müqavilə bağlandı. Müqaviləyə görə, Dövlət bankının Tiflis kontoru 10 gün ərzində hər respublika üçün 100 və 250 rublluq əsginaslarla 80 milyon rubl məbləğində bon buraxmalı idi.

1918 il dekabrın 26-da Bakıda Azərbaycanla Gürcüstan arasında mal mübadiləsi haqqında müqavilə bağlandı.

Azərbaycan tərəfindən Behbud xan Cavanşirin, Gürcüstan tərəfindən həmin ölkənin Azərbaycan Hökuməti yanındakı diplomatik nümayəndəsi Nikolay Kartsivadzenin imzaladıqları bu sənədə görə, tərəflər dəmir yolu ilə daşınan yüklər üçün 1 il müddətində azad tranzitə, yəni gömrük rüsumu alınmamasına razılıq verdilər. Azərbaycan tərəfi Gürcüstan əhalisinin və dəmir yollarının ehtiyaclarını ödəmək üçün il ərzində 1 milyon pud ağ neft, mazut və sürtkü yağı göndərməyi, Gürcüstan tərəfi isə Azərbaycan dəmir yollarının ehtiyacını ödəmək üçün zəruri materiallar və daş kömür göndərməyi öhdəsinə götürdü.

1919 il yanvarın 3-də Tiflisdə Azərbaycanla Gürcüstan arasında teleqraf rabitəsi, yanvarın 4-də isə poçt xidməti haqqında sazişlər və poçt bağlamalarının dəmir yolu ilə daşınması haqqında konvensiya bağlandı. Hər iki ölkənin poçt-teleqraf idarəsi rəislərinin imzaladıqları bu sənədlər beynəlxalq teleqraf və poçt xidmətini nizama salmağa və inkişaf etdirməyə şərait yaratdı. Azərbaycanın və Gürcüstanın ən mühüm şəhərləri arasında daimi teleqraf rabitəsi yaradıldı, hər iki respublikanın vətəndaşlarına beynəlxalq teleqrafdan istifadə hüququ verilməsi, göndərilən teleqramların məzmununun gizli saxlanmasının təmin edilməsi haqqında razılaşma əldə edildi. Həmçinin, poçt ilə bağlama göndərilməsi, çap məhsulları daşınması üzrə tariflər müəyyənləşdirildi.

1919 il martın 8-də Azərbaycanla Gürcüstan arasında dəmir yolu rabitəsi haqqında saziş bağlandı. Azərbaycan yollar naziri Xudadat bəy Məlik-Aslanov və Gürcüstan yollar naziri vəzifəsini icra edən İsidor Malaniyanın imzaladıqları bu sənədə görə, 1918 mayın 26-nadək hər iki respublikanın ərazisində olmuş parovoz və vaqonlar, bu məsələ xüsusi arbitraj komissiyasında həll edilənə qədər, bütünlüklə həmin dövlətin ixtiyarında qalırdı. Sazişə əsasən, tərəflər arasında yük vaqonları mübadiləsi şərtləri, yükdaşıma tarifləri nizama salındı. Bakı ilə Tiflis arasında gündəlik birbaşa sərnişin qatarları hərəkət etməyə başladı.

1919 il iyunun 4-də Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında əlavə Zaqafqaziya bonu buraxılması haqqında saziş imzalandı. Bu sazişə görə, Dövlət bankının Tiflis kontoru Azərbaycan Xalq Cümhuriyyəti üçün 180 milyon rubl məbləğində bon buraxmalı idi.

Həmin gün Gürcüstanla Azərbaycan arasında imzalanmış başqa bir sazişə görə, Azərbaycan öz payına düşən 180 milyon rubl məbləğində Zaqafqaziya bonunun 60 milyon rublunu Gürcüstan hökumətinə verdi. Əvəzində Gürcüstan hökuməti öz ərazisində 15 milyon rubl məbləğində Azərbaycan və Bakı bonunun sərbəst dəyişdirilməsinə razılıq verdi.

1920 il fevralın 5-də Bakıda Azərbaycanla Gürcüstan arasında tranzit yüklər haqqında müqavilə imzalandı. Müqaviləyə görə, tərəflər hər iki ölkə arasında tranzit yüklərin dəmir yolu ilə 1 il müddətində azad, yəni heç bir gömrük rüsumu ödəmədən daşınmasını təmin etməyi öhdələrinə götürdülər. Azərbaycan Hökuməti bir il ərzində Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacını ödəmək üçün ixrac ediləcək neft və neft məhsullarının 16 milyon puda qədər həcmindən gömrük rüsumu tutulmamasına icazə verdi. Gürcüstan hökuməti də Azərbaycandan aldığı neft və neft məhsullarını öz ərazisindən kənara göndərməməyi öhdəsinə götürdü, həmçinin Azərbaycan dəmir yolunun ehtiyacı üçün lazım olan texniki avadanlığın, daş kömür və meşə materialının gömrük rüsumu ödənmədən daşınmasına razılıq verdi. 1918-20 illərdə Azərbaycanla Gürcüstan arasında imzalanmış bu sənədlər hər iki ölkə arasında əməkdaşlığı inkişaf etdirməyə və dərinləşdirməyə, dostluq və müttəfiqlik münasibətlərini möhkəmləndirməyə imkan verdi.

*Əd:*. Документы и материалы по внешней политике Закавказья и Грузии, Тифлис, 1919; Азербайджанская Демократическая Республика (1918-1920).Внешняя политика (документы и материалы), Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC),** A z ə r b a y c a n C ü m h u r i y y ə t i, A z ə r b a y c a n D e m o k r a t i k R e s p u b l i k a s ı - Birinci dünya müharibəsinin (1914-18) gedişində və Rusiyada Romanovlar mütləqiyyətinin devrilməsi (1917, fevral) nəticəsində Şimali Azərbaycanda (Rusiya Azərbaycanında) yaranmış müstəqil dövlət (1918, 28 may - 1920, 28 aprel). Dünya tarixinin ən demokratik dövlət qurumlarından biri. Türkmüsəlman Şərqində ilk parlamentli respublika. Paytaxtı Bakı şəhəri idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqr. 150 min *kv. km-ə* bərabər idi. 1918 ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Respublikası yaradıldı. AXC Hökuməti, həmçinin, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı da ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Respublikasının "siyasi mərkəzi" kimi tanımağa məcbur oldu. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min *kv. km-ni* əhatə edirdi. AXC-nin əhalisi 3,3 milyondan çox idi. AXC hüquqi, demokratik, dünyəvi dövlət idi. Dövlət hakimiyyəti üç qoldan ibarət idi: Parlament, Hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayca çox az olduğuna görə Parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da, öz deputatları ilə təmsil olunmuşdular (türk-müsəlman əhali - 80, ermənilər — 21; ruslar - 10, almanlar - 1, yəhudilər - 1, gürcülər - 1, polyaklar - 1, Bakı həmkarlar ittifaqları - 3, Bakı Neft Sənayeçiləri İttifaqı - 2). İcra hakimiyyəti Hökumətə məxsus idi. Hökumət Parlament qarşısında cavabdeh idi. AXC Hökuməti 1918 il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920 il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransı (1919-20) Ali Şurasının qərarına (1920, 11

yanvar) əsasən müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə (Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, Latviya, Lirva, Estoniya, Finlandiya, Rumuniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b.) səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti 1920 il aprelin 27-də beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində süquta uğradı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya ilhaq olundu. Sosializm sistemi və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqda Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi (1991, 18 oktyabr). Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir (ətraflı məlumat üçün bax *Azərbaycan Xalq Cümhuriyyəti* giriş məqaləsinə).

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİ** - Azərbaycan Xalq Cümhuriyyətinin ali icra hakimiyyəti orqanı. Parlament qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Milli Şurasının fəaliyyət göstərmədiyi dövrdə qanunvericilik fəaliyyətini də yerinə yetirmişdir. Cümhuriyyət Hökuməti son dərəcə ağır tarixi şəraitdə formalaşmışdı. Zaqafqaziya seymi buraxıldıqdan sonra 1918 il mayın 27-də seymin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. Mayın 28-də Zaqafqaziya seyminin fəaliyyət göstərmiş olduğu Tiflisdə - keçmiş Qafqaz canişininin iqamətgahında özünün ilk iclasına toplanan Azərbaycan Milli Şurası uzun və hərtərəfli müzakirələrdən sonra Azərbaycanın müstəqilliyi haqqında *İstiqlal bəyannaməsini* qəbul etdi. Bəyannamənin 6-cı maddəsində göstərilirdi ki,"Məclisi-Məbusan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyəyə qarşı məsul Hökuməti-müvəqqəti durur".

Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ***birinci hökumət kabinəsini*** təşkil etməyi Milli Şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra yığılan Milli Şuranın iclasında Fətəli xan Xoyskinin başçılığı ilə Cümhuriyyətin ilk Hökuməti təsdiq edildi. İlk Hökumətdə vəzifələr aşağıdakı kimi bölüşdürülmüşdü: ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri və daxili işlər naziri; ***Xosrov Paşa bəy Sultanov*** - hərbi nazir; ***Məmməd Həsən Hacınski*** - xarici işlər naziri; ***Nəsib bəy Yusifbəyli*** -maliyyə və xalq maarifi naziri; ***Xəlil bəy Xasməmmədov*** -ədliyyə naziri; ***Məmməd Yusif Cəfərov*** - ticarət və sənaye naziri; ***Əkbər ağa Şeyxülislamov*** - əkinçilik və əmək naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar, poçt və teleqraf naziri; ***Camo bəy Hacınski*** - dövlət nəzarəti naziri.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il mayın 30-da radioqram vasitəsilə Azərbaycanın öz istiqlaliyyətini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə -London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Tehran, Moskva, Roma, Vyana, Buxarest, Sofiya, Tokio, Haaqa, Kopenhagen, Kiyev, Kristianiya (Oslo) və Stokholma rəsmi bəyanatlar göndərdi. Həmin radioqramda yeni yaradılmış Hökumətin müvəqqəti olaraq Yelizavetpolda (Gəncə) yerləşdiyi bildirilirdi.

Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar ən ümdə təşkilati tədbirləri həyata keçirdikdən və bu haqda bütün dünyaya məlumat verdikdən sonra, Azərbaycan Milli Şurası və Hökuməti öz nüfuz dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədilə 1918 il iyunun 16-da Gəncəyə köçdü. Həmin dövrdə Gəncədə real hakimiyyət hələ

*Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin binası*
*(indiki Azərbaycan Dövlət Neft Şirkətinin binası)*





*Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər kabinəsinin iclası*

may ayının axırlarında 300 nəfər hərbi təlimatçı ilə Gəncəyə gəlmiş Türkiyənin *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoya bilmiş, şəhərdə qayda-qanun yaratmışdı. Azərbaycan Milli Şurası və Hökumətinin həyata keçirmək istədiyi tədbirlərin "həddindən çox demokratik" istiqamətindən narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin təsirilə Nuru paşa Azərbaycan Milli Şurası və Hökumətini şübhə ilə qarşıladı. İyunun 16-da Gəncəyə gələn Azərbaycan Milli Şurasının iyunun 17-də Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə iki iclası keçirildi.

Birinci qapalı iclas iyunun 17-də saat 12-də şəhər idarəsinin binasında toplandı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sədri Fətəli xan Xoyski söz alaraq bildirdi ki, Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacınski ilə birlikdə onlar Qafqazdakı türk ordusunun komandanı Nuru paşanın yanında olmuş və Tiflisdə yaradılmış Milli Şura və Azərbaycan Hökuməti haqqında ona məlumat vermişlər. Nuru paşa cavabında bildirib ki, bir əsgər kimi o, mülki işlərlə kifayət qədər tanış deyil, ona görə də bu barədə onun mülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğluna müraciət etsinlər. Əhməd bəy Ağaoğlu ilə görüşlərindən bəhs edən Fətəli xan Xoyski məlumat verdi ki, danışıq zamanı Əhməd bəy Ağaoğlu Türkiyə hökumətinin və onun Gəncədəki nümayəndəliyinin Azərbaycanın daxili işlərinə qarışmayacağını bildirdi, lakin Milli Şuranın yeni Hökumət yaradaraq özünü buraxmasını tələb etdi.

İyunun 17-də saat 2-də Milli Şuranın çox gərgin şəraitdə keçən ikinci iclasında Fətəli xan Xoyski Tiflisdə təşkil etdiyi Hökumətin fəaliyyəti barədə qısaca məlumat verərək Şura üzvlərindən onun Hökumətinin istefasını qəbul etməyi xahiş etdi. Uzun və gərgin müzakirədən sonra iclas Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin yeni yaradılacaq Azərbaycan Müvəqqəti Hökumətinə verilməsi haqqında iki mühüm qətnamə qəbul etdi.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq, Azərbaycan Milli Şurası bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə təşkil olunmuş Müvəqqəti Hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini tezliklə çağırılacaq Müəssislər Məclisindən başqa kimsəyə güzəştə getməsin.

Müvəqqəti Hökumətin hüquq və vəzifələri haqqındakı ikinci sənəddə qeyd olunurdu ki, Azərbaycan Hökumətinə Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişdirmək səlahiyyəti verilmir. Azərbaycan Hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalıdır. Hökumət qalan məsələlərdə bütün səlahiyyətlərindən istifadə etməkdə sərbəst idi.

Azərbaycan Milli Şurası iyunun 17-də Fətəli xan Xoyskinin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ***ikinci hökumət kabinəsinin*** tərkibini təsdiq etdi. İkinci Hökumətə ***Fətəli xan Xoyskidən*** başqa ***Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyli, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov,***

***Əbdüləli bəy Əmircanov*** və ***Musa bəy Rəfiyev*** daxil oldular.

İclasın sonunda çıxış edən Fətəli xan Xoyski bildirdi ki, onun yaratdığı yeni Hökumətin başlıca vəzifəsi Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır.

İyunun 19-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci Hökumət üzvləri arasında vəzifələr aşağıdakı kimi bölüşdürüldü: ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri və ədliyyə naziri; ***Məmməd Həsən Hacınski*** - xarici işlər naziri (eyni zamanda, müvəqqəti olaraq dövlət müfəttişi); ***Behbud xan Cavanşir*** - daxili işlər naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri (eyni zamanda, müvəqqəti olaraq poçt və teleqraf naziri); ***Əbdüləli bəy Əmircanov*** -maliyyə naziri; ***Xosrov Paşa bəy Sultanov*** - əkinçilik naziri; ***Nəsib bəy Yusifbəyli*** - xalq maarifi və dini etiqad naziri; ***Ağa Aşurov*** - ticarət və sənaye naziri (eyni zamanda, müvəqqəti olaraq ərzaq naziri); ***Xudadat bəy Rəfibəyli*** -səhiyyə və himayədarlıq naziri; ***Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov*** və ***Musa bəy Rəfiyev*** -portfelsiz nazirlər.

Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci Hökumət Gəncədə çox çətin və mürəkkəb bir şəraitdə fəaliyyətə başladı. Sonralar Azərbaycan Parlamentinin ilk iclasında Fətəli xan Xoyski demişdi: ***"Hökumətimiz öylə bir zamanda təşkil edilmişdi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi. Gecə yatanda sabaha çıxmağa ümid yox idi. Heç kəsin irzi, namusu, canı, malı əmniyyətdə deyildi... Poçt-teleqraf yox idi. Bir kağız yollamaq belə mümkün deyildi. O vaxt idi ki, maliyyatdan Hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış, xidmətçilər qaçmışdılar. İdarələrin adı var idisə də, özü yox idi. Hərə başına beş-on adam yığıb bir Hökumət, bir qanun düzəltmişdi".***

***H.b.Ağayevin F.x.Xoyskiyə baş nazir vəzifəsini qəbul etməsi barədə təkrar müraciətinin mətni. 1918, 18 dekabr***



Yaranmış çətin və mürəkkəb şəraitdə Fətəli xan Xoyski Hökumət aparatının təşkili işini davam etdirdi. Nazirlər Şurası və ayrı-ayrı nazirliklərin idarə aparatı yaradıldı. İyunun 27-də Fətəli xan Xoyski Hökuməti tərəfindən Azərbaycan dili dövlət dili elan olundu. Avqustun 28-də tədris müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul edildi. Fətəli xan Xoyski Hökumətinin Gəncədə 1918 il iyunun 19-da qəbul etdiyi ilk qərar bütün Azərbaycanda hərbi vəziyyətin elan edilməsi oldu. Avqustun 11 -də ümumi səfərbərlik elan edildi. 1894-99 illərdə anadan olmuş kişi cinsindən bütün müsəlman vətəndaşlar orduya çağırıldı.

Xoyski Hökumətinin Gəncə dövründə qəbul etdiyi ən mühüm qərarlardan biri də 1918 il iyulun 15-də *Fövqəladə Təhqiqat Komissiyasının* yaradılması idi. Bu qərara əsasən Birinci dünya müharibəsi (1914-18) illərində Cənubi Qafqaz ərazisində yerli müsəlman əhalisinə qarşı törədilmiş vəhşiliklər və onların əmlaklarına qəsd ilə bağlı məsələlər araşdırılmalı, bu işdə günahkar olan şəxslər aşkar olunub, cinayət məsuliyyətinə cəlb edilməli idilər.

1918 il sentyabrın 15-də Azərbaycan və türk hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu Bakını azad etdi. Sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü. Bakı müstəqil Azərbaycanın paytaxtı elan olundu. Bununla da bütün Şimali Azərbaycan ərazisi Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin hakimiyyəti altına keçdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən sonra, 1918 il oktyabrın 6-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci Hökumətdə dəyişikliklər edildi və vəzifələr aşağıdakı qaydada yenidən bölüşdürüldü. ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri; ***Behbud xan Cavanşir*** - daxili işlər naziri vəzifəsi ilə yanaşı ticarət və sənaye naziri vəzifəsini də icra edir; ***Əlimərdan bəy Topçubaşov*** - xarici işlər naziri; ***Məmməd Həsən Hacınski*** - maliyyə naziri; ***Nəsib bəy Yusifbəyli*** - xalq maarifi naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri; ***Xosrov Paşa bəy Sultanov*** - əkinçilik və dövlət əmlakı naziri; ***Ağa** Aşurov* - poçt və teleqraf naziri; ***Xəlil bəy Xasməmmədov*** -ədliyyə naziri; ***Xudadat bəy Rəfibəyli*** - xalq səhiyyəsi naziri; ***Musa bəy Rəfiyev*** - himayədarlıq və dini etiqad naziri; ***İsmayılxan Ziyadxanov*** - hərbi işlər üzrə müvəkkil; ***Əbdüləli bəy Əmircanov*** - dövlət müfəttişi.

Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti istər ictimai-siyasi, istərsə də təsərüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Müəssislər Məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili

işlər və xalq maarifi nazirlərindən ibarət komissiya yaradıldı. 1918 il noyabrın 9-da Azərbaycan Hökuməti Fətəli xan Xoyskinin təqdimatı ilə ölkənin üçrəngli bayrağını təsdiq etdi.

1918 il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başladı. İlk iclasda çıxış edən Fətəli xan Xoyski Milli Şura üzvlərinə müraciət edərək bildirdi ki, Hökumətin Müəssislər Məclisini çağırmaq işinin təşkilinə vaxtı çatmadığı üçün Milli Şuradan bu işin icrasını öz üzərinə götürməsini xahiş edir. Bu təkliflə razılaşan Milli Şura özünün noyabrın 19-da Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən iclasında 120 nəfərdən ibarət Parlament yaratmaq haqqında Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən təqdim olunmuş qanun layihəsini qəbul etdi. Milli Şuranın sədri tərəfindən imzalanmış "Bütün Azərbaycan əhalisinə!" müraciəti noyabrın 29-da dərc edildi. Həmin qanuna əsasən 1918 il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Nikolayev küçəsindəki (indiki İstiqlaliyyət küçəsi) qız məktəbinin (indiki Əlyazmalar İnstitutu) binasında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclası keçirildi. İclas Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin giriş nitqi ilə açıldı. Parlamentin rəhbər orqanları seçildikdən sonra Hökumətin fəaliyyəti barədə məruzə üçün söz Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sədri Fətəli xan Xoyskiyə verildi. O, öz Hökumətinin çox mürəkkəb tarixi şəraitdə gördüyü işlər barədə geniş hesabat verdi. Fətəli xan Xoyski məruzəsinin sonunda dedi. ***"Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, Hökumətin nöqsanları ilə bərabər, yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: Millətin Hüququ,İstiqlalı, Hürriyyəti! Fəaliyyətimizdə xətalar işlətmişiksə də, həmişə fikrimiz bu olmuşdur. Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin"'.***

Fətəli xan Xoyski öz Hökumətinin istefasını qəbul etməyi yeni yaranmış Parlamentdən xahiş etdi. Parlament ikinci Hökumətin istefasını qəbul etdi. Yeni - üçüncü Hökumət kabinəsinin təşkili və ona rəhbərlik yenə də Fətəli xan Xoyskiyə tapşırıldı. Parlamentin sədr müavini Həsən bəy Ağayevlə Fətəli xan Xoyskinin arasında gedən yazışmalardan da görünür ki, Fətəli xan Xoyski yeni Hökumətin təşkilindən imtina etmiş, yalnız Həsən bəy Ağayevin təkidli xahişindən sonra o, bu işə razılıq vermişdir.

Dekabrın 26-da Fətəli xan Xoyski ***iiçüncii hökumət kabinəsinin*** proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Müzakirələrdən sonra Parlament Fətəli xan Xoyski Hökumətinə etimad göstərdi. Hökumətdə Fətəli xan Xoyski Baş nazir portfeli ilə yanaşı xarici işlər naziri vəzifəsini də tutdu. Üçüncü Hökumət kabinəsində ***Xəlil bəy Xasməmmədov*** - daxili işlər naziri; ***İ.Protasov*** - maliyyə naziri***;*** ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri; ***Nəsib bəy Yusifbəyli*** - maarif və dini etiqad naziri; ***Aslan bəy Səfikürdski*** - poçt-teleqraf və əmək naziri; ***Səməd bəy Mehmandarov*** - hərbi nazir; ***Rüstəm xan Xoyski*** — himayədarlıq naziri; ***Y.Gindes*** - xalq səhiyyəsi naziri; ***Mirzə Əsədullayev*** - ticarət və sənaye naziri; ***Məmməd Həsən Hacınski*** -dövlət nəzarəti naziri; ***K.Lizqar*** - ərzaq naziri; ***Xosrov Paşa bəy Sultanov*** - əkinçilik və dövlət əmlakı naziri; ***Teymur bəy Makinski*** - ədliyyə naziri vəzifələrini tutdular.

Fətəli xan Xoyskinin təşkil etdiyi Hökumət kabinəsi ilə əlaqədar olaraq general Tomson bəyan etdi ki, "Fətəli xan Xoyski başda olmaqla yeni koalisiyalı Hökumətin təşkili ilə əlaqədar elan edirəm ki, müttəfiqlərin komandanlığı bu

*Cümhuriyyət dövrünün qız məktəblərindən biri*



Hökuməti Azərbaycan ərazisində yeganə legitim yerli hakimiyyət orqanı kimi tanıyır və onu tamamilə müdafiə edir". Məmməd Həsən Hacınskinin Azərbaycan nümayəndə heyətinin tərkibində Paris sülh konfransına getməsi ilə əlaqədar 1919 il yanvarın ikinci yarısından dövlət nəzarəti naziri vəzifəsini Əlağa Həsənov icra etmişdir.

Ölkədə möhtəkirliyin və qiymətlərin artdığı, əhalinin bir qisminin sürətlə varlandığı, digər qisminin isə var-yoxdan çıxdığı bir şəraitdə Parlamentdə müxalifətdə olan "İttihad", "Əhrar", "Sosial-demokrat" fraksiyalarının üzvləri Hökuməti bu işdə fəaliyyətsizlikdə təqsirləndirməyə başladı. 1919 ilin yanvar-fevral aylarında keçirilən Parlament iclaslarında onlar tərəfindən Fətəli xan Xoyski Hökuməti kəskin surətdə tənqid edilirdi. Fevralın 5-də onlara geniş və çox əhatəli cavab verən Fətəli xan Xoyski deyirdi: ***"Siz bunu bilməlisiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliniz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Belə mühüm zamanda Hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olmaz".***

Haqsız tənqidlərlə barışmayan Fətəli xan Xoyski öz Hökumətinin istefası barədə Parlamentə məktub göndərir. Parlamentin fevralın 25-də keçirilmiş iclasında Xoyski Hökumətinin istefası qəbul olunur və yeni Hökumət təşkilinə qədər onlardan öz fəaliyyətlərini davam etdirmək xahiş olunur.

Yeni - ***dördüncü hökumət kabinəsinin*** təşkili Nəsib bəy Yusifbəyliyə tapşırıldı. 1919 il aprelin 14-də o, yeni yaratdığı kabinənin üzvlərini Parlamentə təqdim etdi. ***Nəsib bəy Yusifbəyli*** təşkil etdiyi Hökumətdə Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini tutdu. Digər vəzifələr aşağıdakı kimi bölündü: ***Əlağa Həsənov*** - maliyyə naziri; ***Ağa Əminov*** - ticarət və sənaye naziri; ***Məmməd Yusif Cəfərov*** - xarici işlər naziri; ***Xudadat bəy Məlik-Aslanov*** -yollar naziri; ***Camo bəy Hacınski*** - poçt və teleqraf naziri; ***Səməd bəy Mehmandarov*** - hərbi nazir; ***Viktor Klenevski*** -himayədarlıq naziri; ***A. Dastakov*** - səhiyyə naziri; ***Rəşid xan Qaplanov*** - maarif və dini etiqad naziri; ***Aslan bəy Qardaşov*** - əkinçilik və dövlət əmlakı *naziri;* ***Nəriman bəy Nərimanbəyli*** - dövlət nəzarəti naziri; ***Aslan bəy Səfikürdski*** - ədliyyə və əmək naziri; ***X.Amaspür*** - portfelsiz nazir. Sonradan ***Məmməd Həsən Hacınski*** daxili işlər naziri olmuşdur.

Parlamentin 14 aprel tarixli iclasında çıxış edən Nəsib bəy Yusifbəyli elan etdi ki, xarici siyasət sahəsində onun kabinetinin başlıca məqsədi Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən tanınması və dövlətin ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda mübarizə, daxili siyasət sahəsində isə hər bir mədəni və demokratik ölkə üçün zəruri olan söz, mətbuat, yığıncaq və başqa azadlıqların təminatı, fəhlələrin əməklə, kəndlilərin torpaqla təminatı olacaqdır. Milli məsələdən bəhs edən Nəsib bəy Yusifbəyli qeyd etdi ki, Hökumət bütün qüvvəsini Azərbaycanın onun ərazisində yaşayan bütün millətlərin sevimli vətəni olmasına sərf edəcəkdir.

Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi Hökumət öz fəaliyyəti dövründə xaricdən Denikin ordusu, daxildən isə bolşeviklərin Azərbaycana qarşı törətdikləri təhlükələrlə üzləşmişdi. Belə ki, 1919 il mayın 6-da bolşeviklərin gizli təşkilatının təşəbbüsü ilə Bakı Fəhlə Konfransı tərəfindən hazırlanan tətil şəhəri bürümüşdü. Parlamentin həmin gün keçirilmiş iclasında Hökumət adından çıxış edən Nəsib bəy Yusifbəyli demişdi: ***"Güman edirəm, bu tətilin iqtisadi deyil, siyasi olduğunu, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların***

*Cümhuriyyət Hökumətinin ali təhsil almaq üçün xaricə göndərdiyi tələbələr*



***özləri də inkar etmirlər. Onlar məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda Şura Hökuməti təşkil edək".***

1919 ilin mayında Şimali Qafqazı və Dağıstanı ələ keçirən Denikin ordusu Cənubi Qafqazı, xüsusilə Azərbaycan və Gürcüstanı işğal təhlükəsi altında qoymuşdu. Yaranmış təhlükəli vəziyyət Azərbaycan Parlamentinin və Hökumətinin iclaslarında dəfələrlə müzakirə olunmuşdu.

Denikin təhlükəsi ilə bağlı Parlament tərəfindən qəbul edilmiş qərarda göstərilirdi ki, mövcud Hökumət daxilindən bir heyət seçilməli və həmin heyət ölkənin müdafiəsini təşkil etməlidir. Bununla əlaqədar olaraq 1919 il iyunun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə 5 nəfərdən ibarət Dövlət Müdafiə Komitəsi yaradıldı. Komitənin tərkibinə Nazirlər Şurasının sədri, hərbi, yollar, xarici işlər və ədliyyə nazirləri daxil edildilər.

1919 il iyunun 11 -də Dövlət Müdafiə Komitəsi fövqəladə vəziyyət haqqında qərar qəbul etdi. Ölkədə Denikin təhlükəsinə qarşı səfərbərlik elan olundu. Həmin il iyunun 27-də Denikin ordusunun hücumundan müdafiə məqsədilə Azərbaycan - Gürcüstan hərbi-müdafiə sazişi imzalandı.

1920 il dekabrın 22-də özünün ikinci, Cümhuriyyətin isə sayca ***beşinci hökumət kabinəsini*** təşkil edən Nəsib bəyYusifbəyli həmin Hökumətə 1920 il martın axırına qədərbaşçılıq etdi. ***Nəsib bəy Yusifbəylinin*** Hökumətində ***Fətəli xan Xoyski*** - xarici işlər naziri; ***Səməd bəy Mehmandarov***- hərbi nazir; ***Məmməd Həsən Hacınski*** - daxili işlər naziri;***Xəlil bəy Xasməmmədov*** - ədliyyə naziri; ***Rəşid xan Qaplanov*** - maliyyə naziri; ***Həmid bəy Şaxtaxtinski*** - maarif və dini etiqad naziri; ***Əhməd bəy Pepinov*** - əkinçilik və əmək naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri (eyni zamanda, müvəqqəti olaraq ticarət, sənaye və ərzaq naziri);***Camo bəy Hacınski*** - poçt və teleqraf naziri; ***Musa bəy Rəfiyev*** - səhiyyə və himayədarlıq naziri; ***Heybətqulu bəy Məmmədbəyov*** - dövlət nəzarəti naziri vəzifələrini tutdular. 1920 il fevralın 18-dən ***Mustafa bəy Vəkilov*** daxili işlər naziri və ***Məmməd Həsən Hacınski*** — ticarət, sənaye və ərzaq naziri, martın 5-dən isə ***Nurməmməd Şahsuvarov*** -maarif və dini etiqad naziri vəzifələrini tutmuşlar.

Nəsib bəy Yusifbəyli baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin Paris sülh konfransındakı gərgin əməyi sayəsində 1920 il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin böyük dövlətlər tərəfindən de-fakto tanınması olmuşdur. Bu dövrdə, həmçinin, Bakı Dövlət Universiteti açıldı. Müxtəlif ixtisaslar üzrə ali təhsil almaq üçün 100 nəfərə yaxın azərbaycanlı gənc Avropanın müxtəlif ali məktəblərinə göndərildi. Torpaq islahatları haqqında 29 maddədən ibarət qanun layihəsi hazırlanaraq, 1920 ilin fevralında ümumxalq müzakirəsinə verildi. Savadsızlıqla mübarizə üçün müvəqqəti pedaqoji kurslar açıldı, ibtidai və orta məktəblər üçün dərsliklərin hazırlanması və nəşri işinə başlanıldı və s. 1920 ilin əvvəllərində Şimali Qafqaz və Dağıstanda Denikin qüvvələrini məğlub edən Qırmızı ordu Azərbaycan sərhədlərinə yaxınlaşaraq Sovet Rusiyasının çoxdan ələ keçirmək arzusunda olduğu Bakını təhlükə altına aldı. Diplomatik əlaqələr yaratmaq haqqında Azərbaycan Hökumətinin bütün təkliflərini cavabsız qoyan Sovet Rusiyası ölkə daxilində bolşeviklərin vasitəsilə müdaxilə üçün zəmin hazırlayırdı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyəti dövründə yol verməyə məcbur olduğu səhvlərin (aqrar məsələnin həll olunmaması, bir sıra sosial problemlərin həllinin ləngidilməsi və s.) xalqın müxtəlif təbəqələri arasında yaratdığı narazılıqdan istifadə edən bolşeviklər vəziyyəti daha da gərginləşdirdilər.

1920 il martın sonunda Sovet Rusiyası tərəfindən xarici təhlükənin artdığı və işğal üçün zəmin hazırlayan daxili qüvvələrin fəallaşdığı şəraitdə Nəsib bəy Yusifbəyli Hökuməti istefa verməli oldu. Yeni Hökumətin təşkili Məmməd Həsən Hacınskiyə tapşırıldı. Onun Parlamentdəki fraksiyalarla apardığı danışıqlar müsbət nəticə vermədi. Xüsusilə "Müsavat" fraksiyası ilə sosialistlər fraksiyası arasında kəskin fikir ayrılığı yaranmışdı. Sosialistlər yeni Hökumətdə əsas nazirliklərin - hərbi, xarici və daxili işlər nazirlərinin portfellərini tələb edirdilər. Bir tərəfdən "Müsavat" partiyası bolşeviklərlə gizli əlaqəyə girən Məmməd Həsən Hacinskinin yeni Hökumət kabinəsi yaratmaq üçün sərbəst hərəkət etməsinə imkan vermir, digər tərəfdən isə Məmməd Həsən Hacınski özü də yeni Hökumət kabinəsini yaratmağa tələsmir, gözləmə mövqeyi tuturdu.

Yaranmış əlverişli şəraitdən istifadə edən Sovet Rusiyasının 11 -ci Qırmızı ordusu beynəlxalq hüquq normalarını kobudcasına pozaraq və qabaqcadan hazırlanmış hərbi müdaxilə planına uyğun olaraq (bax *Bakı əməliyyatı)* 1920 il aprelin 27-də Azərbaycanın sərhədlərini keçərək, Bakıya doğru hərəkət etdi. Aprelin 27-də gündüz saat 12-də AK(b)P MK, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Hökumətinə və Parlamentinə hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə Həmid Sultanov tərəfindən ultimatum təqdim olundu. Elə həmin günün axşamı yaranmış şəraiti və bolşeviklərin ultimatumunu müzakirə edən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin son iclası dinc əhali arasında qan tökülməməsi üçün hakimiyyəti bolşeviklərə təhvil vermək haqqında axşam saat 11-də qərar qəbul etdi. Hakimiyyəti təslim edərkən Azərbaycan Parlamentinin əsas tələblərindən biri keçmiş Hökumət üzvlərinin təqib olunmayacağı idi. Lakin bolşeviklər hakimiyyəti ələ keçirdikləri ilk gündən keçmiş Hökumət üzvlərinin həbsinə və repressiyaya başladılar. Sovet qoşunlarının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən onun süqutu gününə qədər fasiləsiz fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyətinə son qoyuldu (baxhəmçinin *Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti).*

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. (stenoqrafık hesabat), c.1-2, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Адрес-календары Азербайджанской Республики на 1920 год, Б., 1920; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN İŞLƏR İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ümumi fəaliyyətini tənzimləyən və həyata keçirən qurum. 1918 il mayın 28-də Azərbaycan Hökuməti fəaliyyətə başlayarkən yaradılmışdır. Azərbaycan Hökumətinin 1918 il 24 iyun tarixli qərarı ilə Hökumət dəftərxanasının ştat vahidlərinin və əmək haqlarının təyin edilməsi Nazirlər Şurasının sədrinə həvalə olunmuşdu. Əvvəlcə işlər idarəsinin ştatında idarənin müdiri, dəftərxananın direktoru və başqa işçiləri, Nazirlər Şurasının katibi, onun müavini, həmçinin Nazirlər Şurası sədrinin xüsusi tapşırıqlar üzrə məmuru nəzərdə tutulmuşdu. İdarə qulluqçularının ştat cədvəli və xərclər smetası Nazirlər Şurası sədrinin xüsusi tapşırıqlar üzrə böyük məmuru, xarici dillər üzrə tərcüməçisi, hüquq məsləhətçisi, məlumat bürosunun müdiri və binaya nəzarətçi hesabına genişləndirilmişdi,

Hökumətin 1919 il 7 may tarixli qərarı ilə işlər idarəsində direktor, redaktor, kargüzar, tərcüməçi, korrektor və dəftərxana xidmətçilərindən ibarət xüsusi şöbə də yaradılmışdı. 1918 il mayın 28-dən 1919 il yanvarın 1-nə qədər işlər idarəsinin müdiri Rüstəm xan Xoyski (Fətəli xan Xoyskinin kiçik qardaşı), daha sonra fevralın 5-dək Rəşid bəy Axundzadə, 1919 il fevralın 11-dən isə mühəndis Pərviz Mirzə olmuşdur.

Nazirlər Şurasının bütün kargüzarlıq sənədləri, nazirliklərdən və Cümhuriyyətin digər idarələrindən Nazirlər Şurası sədrinin adına göndərilən məktublar işlər idarəsinə daxil olurdu. Hökumətin 1919 il yanvarın 18-də təsdiq etdiyi qaydalara əsasən Parlament müzakirəsinə çıxarılan qanun layihələri müvafiq izahlı məktubla bərabər Nazirlər Şurasına təqdim edilirdi. Qanun layihəsi Hökumət tərəfindən baxılaraq Parlamentin müzakirəsi üçün hazır hesab edildikdə Nazirlər Şurasının iclas jurnalından çıxarışla bərabər, iradlar olduqda isə yenidən işlənilmək üçün Nazirlər Şurası sədrinin imzası ilə müvafiq nazirliklərə qaytarılırdı. Bundan əlavə, Hökumətin 1919 il 3 mart tarixli qərarı ilə təsdiq olunmuş Əsasnaməyə görə işlər idarəsi 1918 il noyabrın 22-dən yaradılmış nazir müavinlərindən ibarət Kiçik Nazirlər Şurasının da kargüzarlıq işlərini aparırdı.

İşlər idarəsi Hökumətin qərar və sərəncamlarını "Azərbaycan Cümhuriyyəti Hökumətinin xəbərləri" qəzetində və "Azərbaycan Cümhuriyyəti Hökumətinin qanun və binagüzarlıqları" məcmuəsində dərc etdirirdi.

*Əd.:* Адрес-календари Азербайджанской Республики на 1920 год, Б., 1920.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ NAZİRLƏR ŞURASININ SƏDRİ** - Azərbaycan Xalq Cümhuriyyəti ali icra hakimiyyəti orqanının rəhbəri. Hökumət başçısı. 1918 il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyi barədə İstiqlal bəyannaməsi elan edildikdən sonra, həmin bəyannamənin 6-cı maddəsinə əsasən, ölkədə Müəssislər Məclisi çağırılana qədər Milli Şura qarşısında məsul olan Müvəqqəti Hökumət təşkil edildi. Hökumətin təşkili Milli Şuranın üzvü Fətəli xan Xoyskiyə tapşırıldı. Bir saatlıq tənəffüsdən sonra öz işinə başlayan Milli Şura Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin birinci Müvəqqəti Hökumətini yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi 23 ay ərzində 5 Hökumət kabinəsi dəyişmişdir. Birinci 3 kabinəyə Fətəli xan Xoyski, sonrakı 2 kabinəyə isə Nəsib bəy Yusifbəyli başçılıq etmişdir. Hökumət başçısı, eyni zamanda, Nazirlər Şurasının sədri funksiyasını da yerinə yetirirdi. Ölkənin daxili və xarici siyasət məsələləri Nazirlər Şurası sədrinin rəhbərliyi ilə onun iclaslarında kollegial şəkildə müzakirə olunur və müvafiq qərarlar qəbul edilirdi. 1918 il iyunun 17-də Milli Şura Gəncədə öz fəaliyyətini dayandırarkən ölkə üçün bir sıra həyati əhəmiyyət kəsb edən məsələlər istisna olmaqla, bütün hakimiyyət funksiyalarını Müvəqqəti Hökumətə həvalə etmiş və Nazirlər Şurasının hüquq və vəzifələrini müəyyənləşdirmişdi. 1918 il dekabrın 7-də Azərbaycan Parlamenti Bakıda fəaliyyətə başladıqdan sonra ölkənin qanunvericilik hakimiyyəti Parlamentə, icra hakimiyyəti isə Nazirlər Şurasının səlahiyyətinə keçmişdir. Nazirlər Şurasının iclaslarında ayrı-ayrı nazirliklər tərəfindən hazırlanmış qanun layihələrinə baxılır və bəyənildikdən sonra qəbul olunaraq Parlamentin müzakirəsinə çıxarılırdı. Bütün bu işlərin icrasına isə bilavasitə Nazirlər Şurasının sədri rəhbərlik edirdi.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİ**, M ə c l i s i – M ə b u s a n - Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəli ali qanunvericilik orqanı. 1918 ilin dekabrından 1920 ilin aprelinədək fəaliyyət göstərmişdir. İlk iclası 1918 il dekabrın 7-də, sonuncu iclası 1920 ii aprelin 27-də keçirilmişdir. Şimali Azərbaycanın sovet qoşunları tərəfindən işğalı nəticəsində fəaliyyətini dayandırmışdır (bax həmçinin *Aprel işğalı (1920)).*

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli iclasında qəbul olunmuş "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una müvafiq olaraq formalaşdırılmışdır. Parlamentdə Azərbaycan Xalq Cümhuriyyətində yaşayan xalqlarm nümayəndələri aşağıdakı kimi temsil olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşayan xalqların sayı nəzərə alınaraq, azərbaycanlılardan 80 nəfər, ermənilərdən 21 nəfər, ruslardan 10 nəfər, yəhudilərdən 1 nəfər, almanlardan 1 nəfər nümayəndə göndərilməli idi. Qanunda sayları az olduğuna görə nümayəndə seçmək səlahiyyətləri olmayan, lakin Cümhuriyyət ərazisindəki digər azsaylı xalqlar arasında nisbətən çoxluq təşkil edən gürcü və polyak milli komitələrinin hərəsindən 1 nümayəndə göndərmələrinə razılıq verilirdi. Bundan əlavə, Parlamentə Bakı həmkarlar ittifaqları təşkilatları tərəfindən 3 nəfər və Bakı Neft Sənayeçiləri İttifaqından 2 nəfər nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti olduqca çətin tarixi şəraitdə fəaliyyətə başlamışdı. Parlamentin açı-



Cümhuriyyət Parlamenti beşinci iclasının protokolunun ilk səhifəsi. 1918. 26 dekabr

lışı 1918 il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları Azərbaycan Parlamentinin açılışına hər vasitə ilə mane olmağa çalışırdılar. Onlar məqsədlərinə nail olmaq üçün bu ərəfədə Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı ingilis generalı Tomsondan istifadə etməyə cəhd göstərirdilər. Azərbaycan Hökumətinin general Tomsonla apardığı danışıqların uzanması və qəzalardan bütün deputatların vaxtında Bakıya gələ bilməməsi nəticəsində Parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirildi. Həmin gün saat 13-də Hacı Zeynalabdin Tağıyevin Nikolay küçəsində (indiki İstiqlaliyyət) yerləşən qız məktəbinin (indiki Əlyazmalar İnstitutu) binasında bütün türk dünyasında və müsəlman Şərqində ilk Parlamentin birinci iclası təntənəli şəraitdə açıldı. İclası açan Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə böyük təbrik nitqi söylədi.

Parlamentin ilk iclasında "Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy *Topçıbaşov* Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, Həsən bəy *Ağayev* isə sədrin birinci müavini seçildilər. Əlimərdan bəy Topçubaşov bu vaxt İstanbulda olduğundan, Parlamentə Həsən bəy Ağayev sədrlik etdi. Dekabrın 28-də *Paris sülh konfransına (1919-20)* göndəriləcək Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinə sədr təyin olunan Əlimərdan bəy Topçubaşov İstanbuldan birbaşa Parisə yola düşdü. O, 1919 ilin dekabrında yenidən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri seçilsə də, taleyin hökmü ilə ömrünün sonuna

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasının açılışı. 1918, 7 dekabr





Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışına həsr olunmuş xatirə medalyonu

kimi bir daha Azərbaycana dönə bilmədi. Mehdi bəy *Hacınski* baş katib olmaqla, Parlamentin üç nəfərdən ibarət katibliyi seçildi.

İclasda Azərbaycan Xalq Cümhuriyyəti Müvəqqəti Hökumətinin başçısı Fətəli xan *Xoyski* Hökumətin fəaliyyəti haqqında hesabatdan sonra onun istefa verdiyini elan etdi.Parlament yeni Hökumətin təşkilini təkrarən Fətəli xan Xoyskiyə tapşırdı.

Azərbaycan Milli Şurasının Parlamentin təsis olunması haqqında qanununa uyğun olaraq erməni nümayəndələri üçün 21, rus nümayəndələri üçün 10, həmkarlar ittifaqları nümayəndələri üçün 3 yer ayrılmasına baxmayaraq, onlar Azərbaycan Parlamentinin açılışına gəlməkdən imtina etdilər. Bakıda fəaliyyət göstərən Rus Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində iştirak etməmək barədə xüsusi qərar qəbul etdi. Onlar sübut etməyə çalışırdılar ki, Azərbaycan öz müstəqilliyini elan etməklə "vahid və bölünməz Rusiya" ideyasına zidd çıxmışdır. Lakin Rus Milli Şurasının qərarı rus əhalisinin mövqeyini əks etdirmirdi. Belə ki, Bakıda fəaliyyət göstərən Slavyan-rus cəmiyyəti, Rus Milli Şurasının əksinə olaraq, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadəyə müraciət edərək onların nümayəndələrinin Parlamentə daxil olmalarına razılıq verməsini xahiş etdi.

Həmin müraciət nəzərə alınaraq Slavyan-rus cəmiyyəti üçün Parlamentdə 5 deputat yeri ayrıldı. Belə olduqda Rus Milli Şurası göstərilən cəmiyyətlə bütün əlaqələrini kəsmək barədə qərar qəbul etdi. Lakin buna baxmayaraq, Azərbaycanda yaşayan rus əhalisinin təzyiqi ilə Rus Milli Şurası 1919 il yanvarın 31-də Azərbaycan Parlamentinin işində iştirak etmək barədə qərar qəbul etməyə məcbur oldu. Erməni milli komitələri də Azərbaycan Parlamentinə qarşı sərt mövqe tutdular. Ermənilər iki aydan çox müddət ərzində Parlamentə gəlmədilər. Onlar, nəhayət, yalnız özlərinin sərsəm "Böyük Ermənistan" ideyasını təbliğ etmək üçün yeni tribuna əldə etmək məqsədilə Parlamentdə iştirak etmək qərarına gəldilər.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti yarandığı gündən öz işini demokratik prinsiplər üzərində qurmuşdu. Parlamentin təşkili haqqında qəbul edilmiş qanunda onun 120 nəfərdən ibarət olması nəzərdə tutulsa da, müxtəlif səbəblər üzündən Parlamentdə heç zaman bu sayda deputat iştirak etməmişdir.

1919 ilin axırına yaxın, artıq Parlamentdə 11 fraksiya və qrupu cəmi 96 deputat təmsil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində təmsil olunan siyasi partiya və qurumların qüvvələr nisbəti belə idi: "Müsavat" və bitərəflər fraksiyası - 38 nəfər, "İttihad" - 13 nəfər, "Əhrar" - 6

*Cümhuriyyət Parlamenti üzvlərindən bir qrup*



nəfər, sosialistlər fraksiyası - 13 nəfər, partiyasızlar - 4 nəfər, müstəqillər- 3 nəfər, sol müstəqillər- 1 nəfər, Slavyan-rus cəmiyyəti - 4 nəfər, erməni fraksiyası - 5 nəfər, "Daşnaksutyun" - 6 nəfər, milli azlıqlar fraksiyası - 4 nəfər. Azərbaycan Parlamentində təmsil olunan və ölkənin milli mənafeyini müdafiə edən fraksiyalar və qrupların öz fəaliyyət proqramları barədə verdikləri bəyanatlarda onların məqsəd birliyi diqqəti cəlb edirdi: gənc Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq, Azərbaycanla qonşu ölkələr arasında dostluq əlaqələri yaratmaq və bu əlaqələri möhkəmləndirmək, hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq, geniş sosial islahatlar həyata keçirmək.

## Azərbaycan Xalq Cumhuriyyəti Parlamentinin üzvləri

*(1918-20-ci illər)*

### I. "Müsavat" və bitərəflər fraksiyası

*1. Məhəmməd Əmin Rəsulzadə. 2. Həsən bəy Ağayev. 3. Nəsib bəy Yusifbəyli (Yusifbəyov). 4. Xəlil bəy Xas-məmmədov. 5.Məmməd Həsən Hacınski. 6. Abbasqulu Kazımzadə. 7. Musa bəy Rəfizadə (Rəfiyev). 8. Şəfi bəy Rüstəmbəyli (Rüstəmbəyov). 9. Cavad bəy Məlik- Yeqanov. 10. Mehdi bəy Hacınski. 11. Mehdi bəy Hacıbababəyov. 12. Rəhim bəy Vəkilov. 13. Hacı Səlim Axundzadə. 14. Mustafa Mahmudov. 15. Asəfbəy Şıxəlibəyov. 16. Əhməd Həmdi Qaraağazadə. 17. Abuzər bəy Rzayev. 18. Ağa Əminov. 19. Nəriman bəy Nərimanbəyli (Nərimanbəyov). 20. Mirzə Sadıx Axundzadə. 21. Müseyib bəy Axıcanov. 22. Mustafa bəy Vəkilov. 23. Məmməd Bağır Şıxzamanov. 24. Məmmədəli Rəsulzadə. 25. Murtuza Axundov. 26. Rza bəy Ağabəyov. 27. Məmmədrza Vəkilov. 28. Cəlil bəy Sultanov. 29. Əşrəf Tağıyev. 30. Məmməd Yusif Cəfərov. 31. Mirzə Əsədullayev. 32. Yusif Əhmədzadə (Əhmədov). 33. Baxış bəy Rüstəmbəyov. 34. Fətəlixan Xoyski. 35. Ağa bəy Səfərəliyev. 36. Əsədulla Əhmədov. 37. Ağa Aşurov. 38. Qulamhüseyn bəy Kazımbəyov. 39. Yusifəli Əliyev. 40. Mir Hidayət Seyidov.*

### II "İttihad" fraksiyası

*1.Qara bəy Qarabəyli (Qarabəyov). 2. Mir Yaqub Mehdi-yev. 3. Qazi Əhməd bəy Məhəmmədbəyov. 4. Cəmil bəy Ləmbəranski. 5. Bəhram bəy Vəzirov. 6. Sultanməcid Qənizadə (Qəniyev). 7. Həmdulla əfəndi Əfəndizadə. 8. Zeynal bəy Vəzirov. 9. Heybətqulu bəy Məmmədbəyli (Məmmədbəyov). 10. Əli bəy Zizikski. 11. Qara bəy Əliverdilər. 12. Əsəd bəy Əmirov. 13. İsgəndər bəy Axundov. 14. Ağa bəy Səfərəliyev*

### "Əhrar" fraksiyası

*1. Aslan bəy Qardaşov. 2. Hacı Molla Əhməd Nuruzadə. 3. Muxtar əfəndi Əfəndizadə. 4. Qərib Kərimoğlu. 5. Bayram Niyazi Kiçikxanlı (Kiçikxanov). 6. Hacı Hüseyn Əfəndiyev. 7. Qasımoğlu Hacı Əli. 8. Abdulla əfəndi Qabulov.*

### IV. Sosialistlər fraksiyası

*1. Səməd ağa Ağamalıoğlu (Ağamalov). 2. Əliheydər Qarayev. 3. Qasım bəy Camalbəyov. 4. Hacı Kərim Sanılı (Sanıyev)5. Əhməd bəy Pepinov. 6. Camo bəy Hacınski. 7. Rza bəy Qaraşarlı (Qaraşarov). 8. Aslan bəy Səfikürdlü (Səfi-kürdski). 9. İbrahim Əbilzadə (Əbilov). 10. Bağır Rzayev. 11. Vladislav Bakradze. 12. Əkbər ağa Şeyxülislamzadə (Şeyxülislamov). 13. İbrahim İsmayılzadə. 14. Abbas bəy Atamalıbəyov.*

### V. Bitərəflər fraksiyası

1. *Bəhram bəy Axundov. 2. Behbud xan Cavanşir. 3. Əbdüləli bəy Əmircanov. 4 Əhməd bəy Ağayev.*

### VI. Müstəqillər fraksiyası

*1. Əlimərdan bəy Topçubaşov. 2. Səməd bəy Mehmandarov. 3. Xudadat bəy Məlik-Aslanov. 4. Baba bəy Qəbul-zadə (Qəbulov).*

### VII. Sol müstəqillər fraksiyası

*1. Abdulla bəy Əfəndizadə (Əfəndiyev)*

### VIII. "Slavyan-rus cəmiyyəti" fraksiyası

*1. Viktor Klenevski. 2. Vasili Kravçenko. 3. Sergey Remizov. 4. M.N. Vinoqradov. 5. Fyodor Kotilevski.*

### IX. Milli azlıqlar fraksiyası

*1. Lorens Kun. 2. Moisey Quxman. 3. Vasil Kujim. 4. Stanislav Vonsoviç. 5. Dubrovski. 6. Ollonqren V.K. 7. Mixaylov S.M.*

### *X Erməni fraksiyası*

*1. Arşak Paronyan. 2. Yervan Taqionosov. 3. İsak Xocayev. 4. Stepan Taqionosov. 5. Georgi Şahnazarov.*

### XI. "Daşnaksutyun" fraksiyası

*1. Arşak Malxazyan. 2. Xoren Amaspür. 3. Poqos Çubaryan. 4. Abqar Papyan. 5. Aleksandr Ter-Azaryan. 6. Boq-dan Balayans. 7. Papyan İ.*

Parlamentdə fəaliyyət göstərən fraksiya və qruplar arasında ən iri və aparıcı fraksiya milli mənafelərin daşıyıcısı olan "Müsavat" fraksiyası idi. Bu fraksiya, demokratik bitərəflər qrupu ilə birlikdə, Parlamentin və Hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir, milli mənafe ilə bağlı bütün qanun və qərarların qəbul edilməsində həlledici rol oynayırdı.

Parlamentdə ikinci iri fraksiya "İttihad" partiyasına məxsus idi. Bu fraksiya 1919 ilin dekabrına qədər milli-demokratik cərəyana qarşı müxalifətdə olmuş və Hökumətlərin təşkilində iştirak etməmişdir.

Parlamentdə ifrat solçu mövqedən çıxış edən fraksiyalardan biri də sosialistlər bloku idi. Onlar Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsini, yalnız Qırmızı ordunun Azərbaycana əsl azadlıq gətirə biləcəyini, iqtisadi və sosial islahatların yalnız sosializm quruluşu şəraitində mümkün olacağını təbliğ edirdilər. Bu blok Şimali Azərbaycanı yenidən işğal etməyi qarşısına məqsəd qoymuş bolşeviklərin əlaltısı rolunu oynayırdı.

Ermənilər Parlamentdə iki fraksiya ilə təmsil olunsalar da, əslində bir mövqedən çıxış edir və ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün bütün imkanlardan istifadə edirdilər. Sovet işğalı reallaşdıqda erməni fraksiyaları bolşeviklərin tərəfinə keçdilər.

Parlamentin 17 aylıq fəaliyyəti dövründə 145 iclası keçirilmişdir. Yetərsay olmadığı üçün iclaslardan 15—i baş tutmamışdır. Qalan 130 iclasdan ikisi tarixi (Azərbaycamn istiqlalının və Bakının azad olunmasının 1-ci ildönümləri münasibətilə 1919 il 28 may və 15 sentyabr tarixli iclasları); dördü təntənəli (rus inqilabının 2-ci və 3-cü ildönümləri münasibətilə 1919 və 1920 il martın 12-də, Azərbaycanın Gürcüstanla hərbi əməkdaşlıq müqaviləsinə həsr olunmuş 1919 il 27 iyun və Paris sülh konfransı tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə 1920 il 14 yanvar iclasları); ikisi isə fövqəladə iclaslar (Ermənistanın Gürcüstana müharibə elan etməsi ilə əlaqədar 1918 il 20 dekabr tarixli və Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqi münasibətilə 1920 il 17 mart tarixli) olmuşdur. Qalan iclaslarda ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə vəziyyəti, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və s. məsələlər müzakirə olunmuşdur. Müzakirəyə çıxarılan qanun layihələri, bir qayda olaraq, yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyəti dövründə müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan təxminən 230-u qəbul edilmişdir. Parlamentin fəaliyyəti onun Nizamnaməsi rolunu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi: maliyyə-büdcə komissiyası; qanunvericilik təklifləri komissiyası; Müəssislər Məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya; mandat komissiyası; hərbi komissiya; aqrar məsələlər komissiyası; sorğular üzrə komissiya; təsərrüfat-sərəncamverici komissiya; ölkənin məhsuldar qüvvələrindən istifadə üzərində nəzarət komissiyası; redaksiya komissiyası və fəhlə məsələləri üzrə komissiya.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi bütün qanun və qərarlar müstəqil dövlətin ilk qanun və qərarları olduğu üçün böyük əhəmiyyətə malik idi. Bununla belə, onların arasında müstəsna əhəmiyyət kəsb edən, yəni Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətinin strateji istiqamətlərini müəyyənləşdirən bir sıra qanunlar da olmuşdur. Məsələn, vətəndaşlıq, ümumi hərbi mükəlləfiyyət, mətbuat, Milli Bankın təsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi haqqında və bir çox başqa qanunlar.

Parlamentdə ordu quruculuğuna aid qanunların müzakirəsi və qəbulu, demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında keçirilirdi.

Ölkədə xalq maarifinin inkişafı, tədris və teatr-tamaşa müəssisələrinin milliləşdirilməsi, yeni tədris müəssisələrinin açılması, orada dərs deyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələləri daim Parlamentin diqqət mərkəzində olmuşdur. Bakı Dövlət Universitetinin təsisi ilə bağlı müzakirələr xüsusilə qızğın keçmişdir və nəhayət, 1919 il sentyabrın 1-də müvafiq qanun qəbul edilmişdir.

Azərbaycanda elm və təhsilin inkişafı, milli kadrların yetişdirilməsi sahəsində də Parlament mühüm işlər görmüşdür. 100 nəfər azərbaycanlı gəncin xarici ali məktəblərdə dövlət hesabına təhsil almaları üçün hazırlanmış qanun layihəsi Parlamentdə geniş müzakirə edilərək qəbul olunmuşdu. Xaricə göndəriləcək tələbələri seçmək üçün Parlament üzvləri Məhəmməd Əmin Rəsulzadə, Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaradılmışdı.

Parlamentin qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycanın istiqlaliyyətinin beynəlxalq aləmdə tanınmasına nail olmaqdan ibarət idi. Buna görə də 1918 il dekabrın 28-də Parlamentin sədri, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasında əvəzsiz xidmətləri olmuş Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Fransaya - Paris sülh konfransına nüfuzlu nümayəndə heyəti göndərilmişdi. Nümayəndə heyəti 1920 il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin konfransdakı əsas ölkələr tərəfindən de-fakto tanınmasına nail olmuşdu. 1920 il aprelin 22-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Paris sülh konfransında öz missiyasını yerinə yetirmiş Azərbaycan nümayəndə heyətini buraxmaq, Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa, İtaliya, Sovet Rusiyası, Almaniya, İsveçrə, Polşa) və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gürcüstanla 1919 ilin yayında Denikinə qarşı birgə mübarizə, 1920 ilin martında isə iqtisadi və siyasi əməkdaşlıq haqqında müqavilələr imzalamış və bu müqavilələr Parlamentdə təsdiq olunmuşdu.

İranla münasibətlərin tənzimlənməsi sahəsində də bir sıra mühüm addımlar atılmışdı. Belə ki, 1920 il martın 20-də İran ilə Azərbaycan arasında, ilk dəfə olaraq, Azərbaycanın de-yure tanınmasını təsdiqləyən dostluq haqqında saziş, həmçinin konsulluq, ticarət, poçt-teleqraf əlaqələri, məhkəmə qərarlarının icrası və s. haqqında bir sıra ikitərəfli müqavilələr imzalanmış və Parlament tərəfindən 1920 il aprelin 15-də təsdiq edilmişdir.

"Müsavat" partiyası və bitərəflər fraksiyası tərəfindən hazırlanmış Torpaq islahatı haqqında 29 maddədən ibarət qanun layihəsi 1920 il fevralın 21 -də "Azərbaycan" qəzetində dərc olunmuş və ümumxalq müzakirəsinə çıxarılmışdı.

Lakin *Aprel işğalı (1920)* ilə əlaqədar həmin qanun layihəsinin reallaşdırılması mümkün olmadı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 17 aylıq fəaliyyəti dövründə yüksək işgüzarlıq nümayiş etdirdi, Azərbaycan xalqının həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəldiyini sübut etdi. Aprel işğalı nəticəsində fəaliyyəti yarımçıq qalsa da, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Azərbaycan xalqının dövlətçilik və ictimai-siyasi fikir tarixində misilsiz rol oynamışdır.

*Əd:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), 2 cilddə, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Mahmudov Y., Azərbaycanın dövlətçilik və parlamentarizm ənənələri tarixindən, "Müstəqil dövlətimiz və parlamentimiz" (məqalələr məcmuəsi), B., 2001.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN AÇILIŞI MÜNASİBƏTİ İLƏ SİYASİ AMNİSTİYA HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətə başlaması münasibətilə həyata keçirilmiş humanizm aktı. Bu barədə qanun 1918 il dekabrın 7-də Parlamentin birinci iclasında qəbul olunmuşdu. Amnistiya keçirmək məqsədilə Aslan bəy Qardaşov, Həmdulla Əfəndizadə, Ağa Zeynal Tağıyev, Aslan bəy Səfikürdski, S.Ağamalıoğlundan ibarət xüsusi heyət - "Əfvi-ümumi" komissiyası yaradılmışdı. Komissiya dekabrın 11, 13, 17 və 25-də keçirdiyi iclaslarda "Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı münasibəti ilə siyasi amnistiya haqqında" qanun layihəsini hazırlayaraq Parlamentin 1919 il yanvarın 8-də keçirilən 7-ci iclasının müzakirəsinə vermişdi. Qanuna görə 1918 il dekabrın 7-nə qədər həbs edilmiş və ölkədə qüvvədə olan keçmiş Rusiya qanunlarının həm cinayət, həm də mülki məcəllələrinin bir sıra maddələri ilə təqsirli bilinən şəxslər bağışlanırdı. Bu qanuna əsasən həmin il dekabrın 7-nə qədər törədilmiş və icraatda olan məhkəmə işlərinə də xitam verilirdi.

*Əd:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1, B., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN TƏSİS OLUNMASI HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaradılmasının əsaslarını təmin edən mühüm hüquqi sənəd. *Azarbaycan Milli Şurası* tərəfindən 1918 il noyabrın 19-da qəbul edilmişdir.

1918 il iyun ayının 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başladı. Cümhuriyyət Hökumətinin sədri Fətəli xan Xoyski Şuranın iclasında çıxış edərək bildirdi ki, Müəssislər Məclisini çağırmaq üçün hazırlığa vaxt çatmadığından Hökumət bu işi öz öhdəsinə götürməyi Milli Şuradan xahiş edir. Milli Şuranın 1918 il noyabrın 19-da Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən iclasında "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında" qanunun layihəsi müzakirə olundu. Şuranın müzakirələr nəticəsində qəbul etdiyi qanunda göstərilirdi ki, hələ 1917 ilin sonlarında Cənubi Qafqazın müsəlman partiyalarından ümumi səsvermə yolu ilə Rusiya Məclisi-müəssisanına seçilmiş 14 nəfər nümayəndənin siyahısı seçkilərdə iştirak etmiş partiyaların qazandıqları səslərə müvafiq olaraq genişləndirilərək 44 nəfərə çatdırılmışdı. Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi Azərbaycanda Məclisi-Müəssisan toplamağın mümkün olmadığını nəzərə alaraq bu məsələnin həllini Zaqafqaziya seymində Azərbaycanı təmsil etməkdə görmüşdü. Zaqafqaziya seymi və Zaqafqaziya Cümhuriyyəti Hökuməti öz fəaliyyətinə xitam verdikdə Seymdəki 44 nəfər müsəlman deputat özlərini Azərbaycan Milli Şurası elan etmiş və Azərbaycanın idarəsini öz üzərinə götürmüşdü.

Milli Şuranın qəbul etdiyi Azərbaycan Məclisi-Məbusanının (Parlamentinin) təsisi haqqında qanunda göstərilirdi ki, Azərbaycan təkcə azərbaycanlılarla məskun olmadığından,Azərbaycan Milli Şurası ölkədə yaşayan bütün millətləri təmsil edir. Digər tərəfdən, müxtəlif siyasi partiyaların nümayəndələri ilə bərabər, Azərbaycan xalqının müxtəlif təbəqələrinin də Parlamentdə təmsil olunmalarına böyük ehtiyac var.

Milli Şura Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmağı qərara aldı. Göstərilən qanuna əsasən Parlamentə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşayan xalqların sayı nəzərə alınaraq azərbaycanlılardan 80 nəfər, ermənilərdən 21 nəfər, ruslardan 10 nəfər, yəhudilərdən 1 nəfər, almanlardan 1 nəfər nümayəndə göndərilməli idi. Milli Şuranın qəbul etdiyi qanunda göstərilirdi ki, azlıq təşkil edən millətlərin bütün nümayəndələri yeni nümayəndələr olacaqdır. Müsəlmanlardan isə 44 nəfər Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildiklərindən yeni Parlamentin tərkibinə üzv daxil edilirlər. Qalan 36 nəfər isə, əlavə nümayəndələr kimi, Azərbaycanın ayrı-ayrı şəhər və qəzalarından göndəriləcəklər. Qanunda sayları az olduğuna görə nümayəndə seçmək səlahiyyətləri olmayan, lakin Cümhuriyyət ərazisindəki digər azsaylı xalqlar arasında nisbətən çoxluq təşkil edən gürcü və polyak milli komitələrinin hərəsindən 1 nümayəndə göndərmələrinə razılıq verilirdi. Bundan əlavə, Parlamentə Bakı Həmkarlar Təşkilatları tərəfindən 3 nəfər, Bakı Neft Sənayeçiləri İttifaqından 2 nəfər nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu. Qanuna qeydlərdə Cümhuriyyət Parlamentində təmsil

olunacaq üzvlərin müəyyən edilməsi qaydaları da əksini tapmışdı. Qeydlərə əsasən, Parlamentə daxil olan 44 nəfər Milli Şura üzvündən ölən, istefa verən və ya başqa səbəbdən Parlamentdən çıxan nümayəndənin yerinə onun mənsub olduğu partiyanın digər nümayəndəsi daxil olunurdu. Bələdiyyəsi və milli komitəsi olmayan qəzalardan Parlamentə nümayəndə kənd şuralarının göndərdiyi nümayəndələrin ümumi iclasında seçilirdi.

Erməni, rus və azlıqda qalan digər millətlərdən Parlamentə nümayəndələr həmin millətlərin milli şuraları və ya komitələri tərəfindən göndərilirdi.

Şəhər nümayəndələrinin sənədləri şəhərlərin bələdiyyə rəisi, qəzalardan göndərilənlərinki barışıq məhkəmələrinin sədri və ya onun müavini, azlıqda qalan millətlərdən isə onların Milli Şuralarının sədrləri tərəfindən şəxsən imzalanmış, müvafiq seçki protokolları və imza-möhürlə təsdiq olunmuş mandatla təmin edilməli idi.

Parlamentin çağırılması ilə əlaqədar *Azərbaycan Milli Şurası* adından onun sədri Məhəmməd Əmin Rəsulzadənin imzası ilə 1918 il noyabrın 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc olunmuşdu. Müraciətnamədə deyilirdi: ***"Vətəndaşlar! Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurai-Millisi iqtizai-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurai-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millini milli bir şəkildən çıxarıb dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurai-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan iralidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi-Müəssisani yığışıncaya qədər yurdumuzun sahibi olacaq,onun müqəddəratını həll, Hökumətini təşkil və mənafeyini müdafiə edəcək..."*** (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti*).

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.l, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN MÜHAFİZƏ DƏSTƏSİ** Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafızəsini təmin edən dəstə. Parlamentin 1919 il fevralın 18-də qəbul etdiyi qanuna əsasən yaradılmışdır. Həmin tarixdə keçirilmiş iclasda büdcə-maliyyə komissiyasının sədri Abuzər bəy Rzayev Parlamentin mühafizəsi haqqında qanun layihəsini müzakirəyə çıxarmış, layihə əsasında qanun qəbul edilmişdir. Qanuna əsasən, Parlamentin mühafızəsi üçün 200 nəfərlik dəstə yaradılmalı, onun şəxsi heyəti Parlamentin rəyasət heyəti tərəfindən formalaşdırılmalı və bilavasitə rəyasət heyətinə tabe edilməli, dəstənin saxlanılması üçün dövlət xəzinəsindən iki milyon iki yüz min manat vəsait ayrılmalı idi.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.l, B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN NİZAMNAMƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətini nizamlayan hüquqi sənəd. Parlament fəaliyyətə başladıqdan sonra Qara bəy Qarabəyli başda olmaqla Parlament Nizamnaməsini hazırlayan komissiya yaradıldı. Nizamnamə layihəsi 1919 il martın 6-da Parlamentin 20-ci iclasında Q. Qarabəyli tərəfindən müzakirəyə təqdim olundu. O, Nizamnamənin 8 fəsil ***(Parlamentin açılışı və onun üzvlərinin səlahiyyətlərinin yoxlanılması; vəzifəli şəxslərin Parlament tərəfindən***

*Parlamentin mühafizə dəstəsi*



***seçilməsi; Parlamentin komissiyaları; işlərin Parlamentdə icrası qaydaları; Parlamentin ümumi iclasının aparılması qaydaları; Parlament üzvlərinin şəxsi vəziyyəti; Parlamentin rəyasət heyəti; Parlamentin Nizamnaməsinə yenidən baxılması qaydaları)*** və 200 maddədən ibarət olması barədə məruzə etdi.

Q.Qarabəyli Parlamentin Nizamnamə layihəsini hazırlayarkən Rusiya Dövlət duması və Zaqafqaziya seyminin nizamnamələrindən istifadə olunduğunu bildirdi və Nizamnamənin rus dilindəki layihəsinin oxunmasını təklif etdi. Məhəmməd Əmin Rəsulzadə isə bunun əleyhinə çıxaraq, Nizamnamə layihəsinin Azərbaycan dilində oxunması təklifini irəli sürdü. Q.Qarabəyli öz təklifi barədə aydınlıq yaradaraq bildirdi ki, Nizamnamənin ruscadan Azərbaycan dilinə tərcüməsi mükəmməl deyildir. Bu təklif nəzərə alındı və bundan sonra Nizamnamə layihəsi Parlamentin həmin iclasında, ardı isə 10 mart tarixli iclasında fəsil-fəsil oxunub müzakirə olunmuş, əlavə və dəyişikliklərlə qəbul edilmişdir. Nizamnamə axırıncı - üçüncü oxunuşda Parlamentin martın 17-də keçirilən iclasında müzakirə olunmadan yekdilliklə qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1920 il aprelin 27-də keçirilən son fövqəladə iclasına qədər bu Nizamnamə əsasında fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Nizamnaməsinin tam mətni Parlamentin stenoqrafik hesabatlarının rus dilindəki cildində dərc edilmişdir.

*Əd.*: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c. 1, B., Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (стенографические отчеты),Б., 1998.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN SƏDRİ** - Azərbaycan Xalq Cümhuriyyətində ali nümayəndəli, qanunvericilik orqanın başçısı. Azərbaycan Xalq Cümhuriyyəti parlamentli respublika olduğundan Parlamentin sədri, eyni zamanda, dövlət başçısı funksiyasını yerinə yetirirdi. Azərbaycan Parlamentinin nakazına (təlimatına) görə Parlamentin iclaslarına onun sədri, sədr olmadıqda əvvəlcə Həsən bəy Ağayev, sonra isə Məmməd Yusif Cəfərov, onlar olmadıqda ikinci müavin Sultanməcid Qənizadə rəhbərlik edirdilər. Parlamentin iclas protokollarını, qanun və qərarlarını sədr, o olmadıqda, müavini və Parlament iclaslarının katibləri imzalayırdılar. Parlament aparatında bütün işlərə ümumi rəhbərliyi bilavasitə sədr və onun müavinləri həyata keçirirdilər. Onlar bu işləri Parlament dəftərxanası, Parlament komissiyaları və Parlamentdə yaradılmış digər qurumlar vasitəsilə həyata keçirirdilər.

1918 il dekabrın 7-də açılan Azərbaycan Parlamentinə, deputatların yekdil səsi ilə, həmin dövrdə İstanbulda danışıqlar aparan Əlimərdan bəy Topçubaşov sədr seçilmişdi. 1919 ilin dekabrında o, yenidən yekdil səslə ikinci müddətə Parlamentin sədri seçilmişdir. Lakin *Paris sülh konfransında* (1919-20) Azərbaycan nümayəndə heyətinin rəhbəri təyin edildiyi üçün Əlimərdan bəy Topçubaşov İstanbuldan birbaşa Parisə getmiş, Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər vətənə qayıda bilməmiş və mühacirətdə qalmışdı. 1918 il dekabrın 7-dən Parlamentin işinə rəhbərlik Parlament sədrinin birinci müavini seçilmiş Həsən bəy Ağayev tərəfindən həyata keçirilmişdir. 1919 ilin dekabrında o, yenidən Parlament sədrinin birinci müavini seçilmiş, 1920 il fevralın 2-də istefa verənə qədər bu vəzifəni icra etmişdir. Bundan sonra Məmməd Yusif Cəfərov Parlament sədrinin birinci müavini seçilmiş və Cümhuriyyətin süqutuna qədər Parlamentin iclaslarına sədrlik etmişdir.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TÜRK MÜƏLLİMLƏRİNİN QURULTAYI** - məktəb islahatı sahəsində əsaslı məsələləri ətraflı müzakirə etmək, lazımi təkliflər hazırlayaraq Hökumətə təqdim etmək məqsədilə çağırılmış Azərbaycan müəllimlərinin ali məclisi. 1919 il avqustun 20-də Bakı realnı məktəbinin (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin binası) akt zalında açılmışdır (bax *Azərbaycan müəllimlərinin birinci qurultayı).*

***Üçrəngli milli bayrağın təsdiq edilməsi haqqında Azərbaycan Cümhuriyyəti Hökumətinin qərarı. 1918, 9 noyabr***



ВЫПИСКА
из журнала постановлений Правительства Азербайджана от 9-го Ноября 1918 г.

СЛУШАЛИ:
Докладъ Председателя Совѣта Министровъ о национальномъ флагѣ.-

ПОСТАНОВИЛИ:
Национальнымъ флагомъ признать флагъ, состоящiй изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.-

Съ подлиннымъ вѣрно:
Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстицiи для свѣдѣнiя.
Ноября "11" дня 1918 г.
гор. Баку.
Секретарь Правительства
№ 2248.
Дѣлопроизводитель

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏT RƏMZLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyətinin əsas dövlət atributları - *Dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni* və *Dövlət möhürü.* Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi diqqət verildi. Ən mühüm dövlət rəmzlərindən biri kimi Dövlət bayrağının qəbul edilməsi daha tez həyata keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il iyunun 21-də Dövlət bayrağı haqqında qərar qəbul etdi. Həmin qərara əsasən qırmızı rəngli Dövlət bayrağı üzərində ağ rəngli aypara və səkkizgüşəli ulduz təsvir olunmuşdu. Bu bayraq cüzi fərqlə Osmanlı imperiyasının bayrağına bənzəyirdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti noyabrın 9-da Dövlət bayrağının təsvirini dəyişməyi qərara aldı. Yeni qərarla yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan milli



*Azərbaycan Xalq Cümhuriyyətinin ilk dövlət bayrağı.*
*Gəncə. 1918, 21 iyun*



*Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı.*
*Bakı. 1918, 9 noyabr*

bayraq qəbul edildi. Cümhuriyyətin Dövlət bayrağı *Aprel işğalı (1920)* nəticəsində ləğv edilsə də, Azərbaycan xalqının istiqlal mübarizəsində böyük rol oynadı. 1988 ildə Azadlıq hərəkatı başlandıqda üçrəngli bayraq yenidən qaldırıldı. Bununla da Məhəmməd Əmin Rəsulzadənin uzaqgörənliklə dediyi *"**Bir kərə yüksələn bayraq bir daha enməz*** "kəlamı özünü doğrultdu. Bu tarixi akt Azərbaycan SSR rəhbərliyinin də fəaliyyətinə ciddi təsir göstərdi. 1990 il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən 1-ci sessiyasında Azərbaycan Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu, 1990 il noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991 il fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiq olundu. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında əsasnamə hazırlandı. Dövlət bayrağı haqqında məsələ Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın 23-cü maddəsinin II bəndində göstərilir ki, ***"Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti l:2-dir".***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət bayrağı ilə birlikdə Dövlət gerbi, Dövlət möhürü və Dövlət himninin rəsmi qaydada qəbul edilməsi sahəsində müəyyən tədbirlər görülmüşdü. Dövlət gerbi və Dövlət möhürü haqqında ilk dəfə 1919 il martın 23-də müsabiqə elan olunmuşdu. 1920 il yanvarın 30-da Dövlət bayrağı istisna olmaqla, digər rəmzlər üzrə daha əhatəli müsabiqə keçirmək qərara alındı. Dövlət gerbinin layihəsi də sifariş verildi. Azərbaycan SSR Cümhuriyyət Hökumətinin bu sahədəki tədbirlərindən imtina etmiş, öz gerbini qəbul etmişdi. Azərbaycan müstəqilliyini bərpa edəndən (1991,18 oktyabr) sonra

*Azərbaycan Xalq Cümhuriyyəti dövlət gerbinin layihəsi*



*Milli marşın klaviri. Üzeyir Hacıbəylinin əlyazması*



dövlət gerbi haqqında yeni müsabiqə elan olundu. Müsabiqə komissiyasına daxil olan eskizlər Azərbaycan Respublikasının Milli Məclisində geniş müzakirə edildi, lakin onlar qənaətbəxş hesab olunmadı. Buna görə də yuxarıda bəhs olunan gerb layihəsini bərpa etmək qərara alındı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb layihəsi rəssam R.Məmmədov tərəfindən təkmilləşdirildi. 1993 il 19 yanvar tarixli Konstitusiya qanunu ilə Dövlət gerbinin rəngli və ağ-qara təsviri, fevralın 23-də isə Əsasnaməsi təsdiq edildi. Əsasnamədə göstərilirdi ki, "Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd yarpaqları yaşıl, sünbüllər sarı, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyd olunan müsabiqəyə baxmayaraq, Dövlət himni də rəsmən qəbul edilməmişdi. Lakin həmin dövrdə bəstəkar Üzeyir Hacıbəylinin "Azərbaycan marşı" məşhur olmuşdur. Bəstəkar Aydın Əzimov tərəfindən böyük xor və orkestr üçün aranjeman edilmiş "Azərbaycan marşı" (sözləri Əhməd Cavadındır) Milli Məclisin 1992 il 27 may tarixli qərarı ilə Dövlət himni kimi qəbul olunmuşdur. 1993 il martın 2-də Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dövlət müstəqilliyini təcəssüm etdirən müqəddəs atributların vətəndaş cəmiyyətinin formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində rolunu nəzərə alaraq 1998 il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncam imzalamışdır.

Azərbaycan Cümhuriyyətinin digər rəmzlərinin, o cümlədən dövlət möhürünün, orden və medallarının hazırlanmasına da xüsusi fikir verilmişdir. Müsabiqəyə təqdim olunmuş bəzi eskizlər Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar arxivində indiyədək saxlanılır. Xalq rəssamı Mikayıl Abdullayevin yazdığına görə, eskizlərin müəllifləri içərisində nəinki Bakıda, hətta Cənubi Qafqazın digər şəhərlərində yaşayıb yaradan rəssamlar da olub.

*Əd.:* Azərbaycan Respublikasının Konstitusiyası, B., 2002; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998. Azərbaycanda dövlətçilik və onun rəmzləri (tərtibçisi və mətnin müəllifi Nailə Vəlixanlı), B., 2000; Əliyev İ., Məhərrəmov E., Azərbaycan Respublikasının Dövlət rəmzləri, B., 2000; Mərdanov Misir, Quliyev Əsgər, Azərbaycan Respublikasının dövlət rəmzləri, B., 2001.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikasında fövqəladə və səlahiyyətli nümayəndəliyi.Nümayəndəlik iki dövlət arasında diplomatik münasibətlərin tənzimlənməsində, habelə Ermənistan Respublikası ərazisində keçmiş İrəvan quberniyasının türk-müsəlman əhalisinin mənafelərinin müdafiə olunmasında, onların vəziyyətinin öyrənilməsində, erməni millətçilərinin bölgədəki etnik təmizləmə-soyqırımı siyasətinin, qismən də olsa, qarşısının alınmasında mühüm rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti səfir vəzifəsinə əvvəlcə Məmməd Rza Vekilovun namizədliyini irəli sürmüş, lakin məsələnin həlli obyektiv və subyektiv səbəblər üzündən yubandığından, həmin vəzifəyə Hökumətin 1919 il 29 yanvar tarixli qərarı ilə Azərbaycan Fövqəladə Təhqiqat Komissiyasının (AFTK) üzvü Məmməd xan Təkinski təyin edilmişdir. O, tezliklə İrəvana gələrək, səlahiyyətlərinin icrasına başlamış və bu vəzifədə səmərəli fəaliyyət göstərmişdir. Məmməd xan Təkinskinin Azərbaycan Hökumətinə ünvanladığı məlumatlarda Ermənistanın daşnak hökumətinin yiyələndiyi Qərbi Azərbaycanda, həmçinin ələ keçirməyə can atdığı Naxçıvan mahalında yerli azərbaycanlı əhaliyə qarşı törətdiyi qanlı cinayətlərdən ətraflı danışılır və bunların qarşısını, qismən də olsa, almaq üçün zəruri tədbirlərin görülməsi vacib sayılırdı.

Məmməd xan Təkinskinin səmərəli diplomatik fəaliyyətindən çox narahat olan Ermənistan hökuməti müxtəlif əsassız bəhanələrlə onun geri çağırılmasına nail olmuşdu. Bundan sonra diplomatik nümayəndəliyə Əbdürrəhim bəy Haqverdiyev və M. Mirbabayev, 1920 ilin fevralında isə Teymur bəy Makinski başçılıq etmişlər. Nümayəndəlik *Aprel işğalından (1920)* sonra,1920 ilin mayında ləğv edilmişdir.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN HƏRBİ ORDENLƏRİNİN, MİLLİ HİMNİNİN, GERBİNİN VƏ MÖHÜRÜNÜN HAZIRLANMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti dövlət rəmzlərinin yaradılmasına həsr olunmuş mühüm qərar. 1920 il yanvarın 30-da Cümhuriyyət Hökuməti tərəfindən qəbul edilmişdir. Qərar iki bənddən ibarət idi: birinci bənddə hərbi nazirə ordenlərin eskizlərinin, ikinci bənddə isə maarif nazirinə milli himnin, dövlət gerbinin və möhürünün layihələrinin hazırlanması ilə bağlı olaraq müsabiqələr elan etmək tapşırılmışdı.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCDƏKİ NÜMAYƏNDƏLİKLƏRİ** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini xarici dövlətlərdə təmsil edən diplomatik missiyalar. Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik münasibətlər yaratdığı və dostluq müqaviləsi bağladığı ilk dövlət Osmanlı imperiyası olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Osmanlı imperiyası ilə geniş və hərtərəfli diplomatik münasibətlər yaratmaq üçün Əlimərdan bəy Topçubaşovu 1918 ilin avqustunda fövqəladə elçi və səlahiyyətli nazir kimi İstanbula göndərmiş və ona diplomatik nümayəndə kimi bütün səlahiyyət və hüquqlar verilmişdi. Əlimərdan bəy Topçubaşov Azərbaycan nümayəndə heyətinin başçısı kimi *Paris sülh konfransına (1919-20)* yola düşənə qədər, İstanbulda olduğu müddətdə, Osmanlı sultanı, Osmanlı dövlətinin baş

naziri, xarici işlər, ədliyyə, hərbi, maliyyə nazirləri ilə, həmçinin xarici dövlətlərin Türkiyədəki nümayəndələri ilə görüşmüş, geniş diplomatik danışıqlar aparmış, beynəlxalq sülh konfransına hazırlıqla bağlı məsələləri müzakirə etmişdir. Əlimərdan bəy Topçubaşov İstanbuldakı Antanta dövlətlərinin diplomatik nümayəndələrinə Azərbaycan Xalq Cümhuriyyəti adından memorandum təqdim etmişdir. Cənubi Qafqazın hər üç millətinin mənafeyinin ədalətlə nəzərə alındığı bu memorandumun surətləri erməni və gürcü nümayəndələrinə də təqdim olunmuşdu. Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi missiyaya Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin nümayəndəsi Səlim bəy Behbudov, Əlimərdan bəy Topçubaşovun iki katibi (Mustafa bəy Vəkilov və Rəşid bəy Topçubaşov) daxil idilər.

1918 ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Paris sülh konfransında iştirak etmək üçün tam səlahiyyətli və geniş hüquqa malik olan nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Paris sülh konfransında aparılacaq danışıqlar Azərbaycan Xalq Cümhuriyyəti üçün həyati əhəmiyyətə malik idi. Odur ki, həmin qərara əsasən, Parlamentin sədri, görkəmli dövlət xadimi Əlimərdan bəy Topçubaşov Parisə göndəriləcək nümayəndə heyətinə başçı təyin edildi. Nümayəndə heyəti aşağıdakı tərkibdə idi: Əlimərdan bəy Topçubaşov (sədr), Məmməd Həsən Hacınski (sədrin müavini - "Müsavat"), Əhməd bəy Ağayev (üzv - bitərəf), Əkbər ağa Şeyxülislamov (üzv -"Hümmət"), Məmməd Məhərrəmov (müşavir-sosialist), Mir Yaqub Mehdiyev (müşavir - "İttihad"), Ceyhun bəy Hacıbəyli (müşavir - "İttihad"). Nümayəndə heyətinə katiblər, tərcüməçilər və heyət sədrinin şəxsi katibi də daxil idi. Üç ay İstanbulda gözlədikdən sonra, nümayəndə heyətinin üzvləri (texniki işçilər və yeni əməkdaşlar istisna edilməklə) Parisə yola düşdülər. 1919 ilin payızında Parlamentin üzvü Abbas bəy Atamalıbəyov (sosialist) partiya yoldaşı M.Məhərrəmovu əvəz etmək üçün Versala ezam olundu. A.Atamalıbəyov Parisdə nümayəndə heyətinin tərkibinə qatıldı və katib kimi işə başladı. M.Məhərrəmov nümayəndə heyətinin tərkibində saxlanıldı və onun Bakıya qayıtmasına icazə verildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti, Antantanın Azərbaycanın müstəqilliyini *de-fakto* tanımasından əvvəl də bir sıra qonşu dövlətlərlə diplomatik əlaqələr saxlayırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi Məmməd Yusif Cəfərov idi. Sonra onu Fariz bəy Vəkilov əvəz etmişdi.

Cümhuriyyət Hökumətinin Ermənistan Respublikasında diplomatik nümayəndəsi Məmməd bəy Təkinski idi. Onu isə sonra Əbdürrəhim bəy Haqverdiyev əvəz etmişdi. Əbdürrəhim bəy Haqverdiyevin müşaviri Ağa Saleh Musayev olmuşdur. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın diplomatik nümayəndəsi kimi Dağlılar Respublikasında da fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda diplomatik nümayəndəsi Yusif bəy Vəzirov (Çəmənzəminli),onun müavini və maliyyə müşaviri isə Cahangir bəy Qayıbov idi.

Azərbaycan Xalq Cümhuriyyəti illərində Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndəsi Cəfər bəy Rüstəmbəyov, Batumda baş konsulu Mahmud bəy Əfəndiyev, Ukraynada konsulu Camal Sadıqov, Krımda konsul agenti Şeyx Əli Hüseynov olmuşlar.

1920 ilin fevral ayından Ənzəlidə (İran) Azərbaycan Xalq Cümhuriyyəti konsulluğu fəaliyyətə başlamışdı. Məhəmməd bəy Xəlilov Ənzəlidə vitse-konsul təyin olunmuşdu.

Türküstandakı Azərbaycan nümayəndəliyinə Ələkbər bəy Sadıqov başçılıq edirdi. 1920 il 20 mart tarixli müqaviləyə əsasən İran Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini *de-yure* tanıdı. Qısa müddətdə Tehranda Azərbaycan səfirliyi fəaliyyətə başladı. Adil xan Ziyadxan səfir, Ələkbər bəy Sadıqov isə onun müavini təyin olundular. Aprelin 1-dən Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradıldı. 1920 il yanvarın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Qərbi Avropa ölkələrinə, ABŞ-a, Polşaya, keçmiş Rusiya imperiyası ərazisində yaranmış yeni dövlətlərə də diplomatik missiya göndərmək haqqında qərar qəbul etdi.

Azərbaycanın müstəqilliyi *Antanta Ali Şurası* tərəfindən tanındıqdan sonra Hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi Parlamentdə müzakirə olundu və qəbul edildi. Həmin qanuna görə, 1920 il aprelin 1-dən etibarən B.Britaniya, Fransa, İsveçrə, İtaliya, ABŞ, Almaniya, Rusiya və Polşada (Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumuniya) Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri təsis olunmalı idi.

Fransa hökuməti yanında təsis ediləcək Azərbaycan diplomatik missiyası Parisə gəldikdən sonra Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyi ləğv edilməli idi.

Avropa ölkələrinə diplomatik nümayəndəliklər göndərilmədiyi müddətdə, Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Versal Ali Şurasının keçirdiyi beynəlxalq görüşlərdə Azərbaycan Xalq Cümhuriyyətini təmsil etməli idi. Lakin sovet-bolşevik rejiminin beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Şimali Azərbaycam işğal etməsi və *de-fakto* tanınmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətini aradan götürməsi nəticəsində Azərbaycanın xarici ölkələrlə diplomatik əlaqələrinə və beynəlxalq münasibətlər sistemində təmsil olunmasına son qoyuldu. Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti, habelə xarici ölkələrə ezam olunmuş bir çox Azərbaycan diplomatları vətənə dönə bilmədilər (bax həmçinin *Aprel işğalı (1920)*).

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Демократическая Республика. Документы и материалы, (1918-1920 гг.), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 год, Б., 1920;

Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Qasımov M., Abdullayev M., Beynəlxalq münasibətlər tarixi, B., 1998; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l, B., 2003; Азербайджанское нациолально- демократическое движение 1917-1920 гг., Б., 1990; Дипломатические беседы А. А. Топчибашева в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг., Б., 1994.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MÜSTƏQİLLİYİNİN BÖYÜK DÖVLƏTLƏR TƏRƏFİNDƏN TANINMASI MÜNASİBƏTİLƏ GÜZƏŞTLƏR HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə *de-fakto* tanınması münasibətilə həyata keçirilmiş humanizm aktı. Bu barədə qanun 1920 il fevralın 9-da Azərbaycan Parlamenti tərəfindən qəbul edilmişdir. Qanuna əsasən, 1920 il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin Antanta ölkələri tərəfındən de-fakto tanınması münasibətilə, cinayət törətmiş şəxslər və vergiödəyənlər barəsində müəyyən əsaslarla güzəştlər elan edilmişdi. Üç hissədən (ümumi, hərbi və vergilər üzrə kəsirlər) ibarət olan qanun Azərbaycanda yaşayan əcnəbilərə də şamil olunurdu.



*Cümhuriyyət dövründə işlədilən pul vahidi*

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN REALİYALARI** - Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk vaxtlardan müstəqilliyin dövlət rəmzləri olan *Dövlət bayrağı, Dövlət himni, Dövlət gerbi, Dövlət möhürü* ilə yanaşı, kağız pul (əsginas), qiymətli kağızlar, orden, medal, xatirə nişanları, poçt markaları və s. realiyaların hazırlanması sahəsində də ciddi addımlar atdı. Hökumət 1919 ilin əvvəllərindən dövlətin ən mühüm atributlarından sayılan kağız pullar buraxmağa başladı. 1919 il ərzində 25, 50, 100, 250 manatlıq kağız pullar buraxıldı. 1920 ilin əvvəllərində dövriyyəyə daxil olmuş ən iri nominalın - 500 manatlıq əsginasın üzərində Azərbaycan Xalq Cümhuriyyətinin və nominalın adı Azərbaycan, rus və fransız dillərində verilmişdi. 1919-20 illərdə buraxılmış pul vahidlərinin adları Azərbaycan dilində manatla, rus dilində isə rublla göstə-rilirdi. Bundan əsas məqsəd uzun illər boyu Rusiya kağız pullarma öyreşmiş əhalidə yeni milli pula tədricən inam yaratmaq idi. Azərbaycan Xalq Cümhuriyyətinin bu sahədə siyasətinin mahiyyəti milli valyutanı - manatı beynəlxalq miqyasda tanıtmaqla bağlı idi. 500 manatlıq əsginasın üzərində Cümhuriyyətin və nominalın adlarının fransızca verilməsi də bununla əlaqədar olmuşdur.

1919 il avqustun 20-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin icazəsi ilə Bakı bələdiyyə idarəsi tərəfindən hər biri 500 manat olmaqla, 100 min ədəd nəzərdə tutulan faizsiz və hərəsi 50 bilet olmaqla, 2 min seriyaya bölünmüş 550 milyon manatlıq uduşlu istiqrazlar da buraxıldı.

Cümhuriyyətin hərbi naziri, tam artilleriya generalı Səməd bəy *Mehmandarovun* əmri ilə Cümhuriyyətin ilk ordeninin - "İstiqlal" ordeninin layihəsi ilə əlaqədar müsabiqə elan edilmişdi. Müsabiqənin şərtlərinə əsasən, ordenin layihəsini iki variantda - hərbi xidmətə xidmətə görə hazırlamaq nəzərdə tutulmuşdu. Müsabiqəyə 100-ə yaxın layihə təqdim olunmuşdu. Həmin layihələrdən bir neçəsi Fətəli xan Xoyskinin arxivindən tapılmışdır. Görünür, onlar müsabiqəyə təqdim olunduqdan sonra seçilib saxlanmışdılar.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti müstəqil poçt markaları da buraxmışdır. Poçt və teleqraf nazirliyi Hökumətin tapşırığı ilə 1919 ilin iyununda ilk poçt markalarının hazırlanmasına başlamışdı. Markaların layihələrini hazırlamaq poçt və teleqraf nazirliyinin xüsusi tapşırıqlar üzrə məmuru, rəssam Zeynal Əlizadəyə həvalə olunmuşdu. 1919 il oktyabrın 20-də milli poçt markaları buraxıldı. Şərq naxışları və müxtəlif rəmzlərlə (əlində Azərbaycan bayrağı tutmuş əsgər, oraq tutmuş kəndli, Suraxanı Atəşgahı, İçərişəhərdən görünüş, Şirvanşahlar Sarayı kompleksi və s.) bəzədilmiş 10, 20, 40, 60 qəpiklik, 1, 2, 5, 10, 25, hətta 50 manatlıq markalar buraxılmışdı. Bütün markaların üzərində Azərbaycan və fransız dillərində "Azərbaycan Cümhuriyyəti" sözləri yazılmışdı. Markaların hazırlanmasında və buraxılmasında poçt və teleqraf naziri Camo bəy Hacınskinin mühüm əməyi olmuşdur. Milli markaların dövriyyəyə buraxılması ilə əlaqədar "Azərbaycan" qəzetinin 1919 il 11, 12 və 13 oktyabr tarixli saylarında hökumət məlumatları dərc olunmuşdu.

*Cümhuriyyətin poçt markaları*


*Əd.:* Azərbaycan Demokratik Respublikasının rəmzləri. B., 1992; Qasımova S., Əhmədov R., 1918-1923-cü illərdə Azərbaycan pul dövriyyəsində işlədilmiş kağız pullar və qiymətli kağızlar, "Azərbaycan

Tarixi Muzeyi - 80" toplusu, B., 2001; yenə onların, Azərbaycan Cümhuriyyətinin dövlət realiyaları haqqında, yenə orada, B., 2003; Касимова С., Ахмедов Р., Первые почтовые марки Азербайджана, yenə orada, E., 2002.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TANINMASI** - 1918 il mayın 28-də *Azərbaycan Milli Şurasının* qəbul etdiyi *istiqlal bəyannaməsi* ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edilmiş, Hökumət başçısı Fətəli xan Xoyski bu barədə radioteleqrafla xarici dövlət başçılarına məlumat vermişdi. İyun ayının 4-də Türkiyə ilə dövlətlərarası müqavilə imzalanmışdı. Cümhuriyyət daxili və xarici siyasət sahəsində qızğın fəaliyyətə başlamışdı. 1918 il oktyabrın 30-da bağlanmış Mudros barışığına görə Azərbaycanı tərk edən Osmanlı qoşunları əvəzinə, noyabrın 17-də ingilis qoşunları Bakıya daxil olmuş-du. İngilis hərbi komandanlığı dekabrın 28-də bundan iki gün əvvəl yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin yeni Hökumətini tanıdığını bəyan etmişdi. Təbriz, Xoy, Ənzəli, Batum, Kiyev, Aşqabad və b. şəhərlərdə, Krımda Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri açılmışdı. Bakıda isə Gürcüstan, İran, Belçika, ABŞ, İngiltərə və b. dövlətlərin rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918 il 7 dekabr tarixli qərarı ilə Parisə Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə tam səlahiyyətli və geniş hüquqlara malik olan nümayəndə heyəti göndərilmişdi. Bütün bunlar və digər müvafiq faktlar Azərbaycan Xalq Cümhuriyyətinin xarici ölkələr tərəfindən *de-fakto* tanındığını sübut edirdi. Paris Sülh Konfransı Ali Şurasının Azərbaycan Xalq Cümhuriyyətini tanınması haqqında 1920 il 11 yanvar tarixli qərarı isə, əslində, Cümhuriyyətin de-fakto deyil, *de-yure,* yəni hüquqi cəhətdən tanınması demək idi. Paris Sülh Konfransı Ali Şurasının həmin qərardan sonra həyata keçirdiyi tədbirlər də bunu təsdiq edir. Belə ki, 1920 il yanvarın 19-da Azərbaycan nümayəndələri Ali Şuranın iclasına dəvət olunmuş, burada hərbi-siyasi xarakterli məsələlər müzakirə edilmişdi. Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə de-yure tanınması onu Sovet Rusiyasının işğalından xilas edə bilməsə də, işğalçı dövlət üçün hüquqi məsuliyyət müəyyən edir.

*Əd.:* Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər., B., 1993; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h. 1, B., 2003.

**AZƏRBAYCAN XƏZİNƏ PALATASI** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin maliyyə sisteminə daxil olan mühüm dövlət qurumu. Cümhuriyyət Hökumətinin 1918 il 21 oktyabr tarixli qərarı ilə Bakı Xəzinə Palatası Azərbaycan Xəzinə Palatasına çevrilərək, onun fəaliyyət dairəsi həmin il oktyabrın 11-də ləğv edilmiş, Gəncə Xəzinə Palatası da daxil olmaqla bütün Cümhuriyyət ərazisinə şamil edilmişdi.

Azərbaycan Xəzinə Palatasının fəaliyyəti dövründə dövlət vergilərini toplamaq üçün Bakı şəhəri və Balaxanı,Sabunçu polis meysterliyi nəzdində vergi pristavları vəzifələri yaradılmışdı. Xəzinə vergiləri üzrə hərraca çıxarılan daşınar və daşınmaz əmlakın siyahıya alınması və satışı qaydaları Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il sentyabrın 27-də qəbul etdiyi qanunla tənzimlənirdi. Bu qanunla quberniyalarda daşınar və daşınmaz əmlakın hərracda satılması vəzifələri Azərbaycan Xəzinə Palatasına həvalə olunurdu. Şəhərlərdə və qəzalarda isə dəyəri 25 min manatdan çox olmayan daşınar və daşınmaz əmlakın hərracda satılması vəzifəsi polis idarələrinin hərrac müfəttişlərinə, əmlakın siyahıya alınması və satışının təşkili isə vergi polisinə həvalə olunurdu. Bunun nəticəsində ölkədə xəzinə vergilərinin yığılması işi canlanmış və dövlətin maliyyə ehtiyatları artmağa başlamışdı.

*Əd:* Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998;

**AZƏRBAYCAN İNQİLAB KOMİTƏSİ** - bax *Azərbaycan Müvəqqəti İnqilab Komitəsi.*

**AZƏRBAYCAN - İRAN BİRGƏ KOMİSSİYASI** iki dövlət arasında əməkdaşlıq haqqında müqavilənin əsaslarını hazırlamaq üçün Parisdə yaradılmış işçi qrup (1919, oktyabr). Komissiyanın tərkibinə Azərbaycan nümayəndələrindən Mir Yaqub *Mehdiyev* və Ceyhun *Hacıbəyli,* İran tərəfindən Zəkov Mülk və Mustan Sarüs-Səltənə daxil idi. Oktyabrın 29-da komissiyanın ilk iclası keçirilmişdi. Oktyabrın 30-31-i və noyabrın 1-də müzakirələr davam etdirilmiş, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Əlimərdan bəy *Topçubaşovun* Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədrinə göndərdiyi məlumata görə, sonuncu iclasda İran nümayəndələri Azərbaycan nümayəndəliyinin təqdim etdiyi saziş layihəsini qəbul etmişdi. Saziş 4 maddədən ibarət idi: 1) Qafqaz Azərbaycanı Azərbaycan nümayəndəliyinin Sülh konfransına təqdim etdiyi tələbnamə və xəritələrdə göstərilmiş sərhədlərdə, Rusiyada dövlət idarəsi və quruluşunun hansı şəkildə və formada quralmasından asılı olmayaraq, qəti və birdəfəlik ondan (Rusiyadan) ayrılır; 2) Qafqaz Azərbaycanının göstərilən hüdudlarında 1918 ilin 28 mayından mövcud olan Azərbaycan Cümhuriyyəti, Bakı şəhəri paytaxt olmaqla, Azərbaycan Hökuməti tərəfindən ümumi seçki hüququ əsasında çağırılan Azərbaycan Müəssislər Məclisinin müəyyən etdiyi qanunlarla fəaliyyət göstərən seçilmiş prezident və parlamentli müstəqil, demokratik respublika kimi tanınır; 3) Azərbaycan Xalq Cümhuriyyəti qonşu İran dövlətilə əsasları və formaları, eyni zamanda, həyata keçirilmə üsulları İran və Azərbaycan Hökumətlərinin hər iki dövlətin parlamentlərinin bəyəndiyi qarşılıqlı razılığına əsasən hazırlanan və müəyyən edilən siyasi-iqtisadi əlaqələr qurar. Bununla birgə xarici işlər sahəsində İran və Azərbaycan Hökumətlərinin fəaliyyətinin birləşdirilməsi arzu olunur; 4) Azərbaycan Cümhuriyyətinin 1-ci və 2-ci bəndlər üzrə yuxarıda göstərilən məqsədlərə çatmaq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin tanınması, onun bütövlüyü və müstəqilliyinə, siyasi, iqtisadi, mədəni və hərbi qüvvələrinin inkişafına hər cür təhdiddən təhlükəsizliyinə nail olmaq üçün İrana göstərilən şəkildə İngiltərənin həqiqi köməyinə ehtiyacı vardır.

Məlumatda qeyd edilirdi ki, bütün bu dörd maddə bir-birilə bağlıdır və Azərbaycan nümayəndələrinin özü tərəfindən kimə lazımdırsa, elan edilməlidir. Digər bir qeydə görə, Azərbaycan nümayəndələri ingilis hökumətinin nümayəndələri ilə görüşüb müvafiq izahat verməli idi. Azərbaycan - İran birgə komissiyasının Parisdəki fəaliyyəti az sonra bu ölkələr arasında əməkdaşlığın və işgüzar münasibətlərin yaradılmasında uğurlu başlanğıc oldu. 1920 ilin mart-aprelində Azərbaycan - İran konfransı (bax *Azərbaycan - İran müqavilələri)* keçirildi. İki tərəf arasında siyasi, iqtisadi, ticarət, poçt-teleqraf, gömrük, konsulluq mübadiləsi və digər məsələlərlə bağlı ikitərəfli müqavilələr imzalandı. İran Azərbaycan Respublikasının müstəqilliyini de-yure tanıyan dövlətlərdən biri oldu.

*Əd:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**AZƏRBAYCAN - İRAN MÜQAVİLƏLƏRİ** Azərbaycan Xalq Cümhuriyyəti bütün qonşu dövlətlərlə olduğu kimi, İranla da diplomatik münasibətlər yaradılmasına xüsusi diqqət verirdi. Lakin Şimali Azərbaycanda müstəqil dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilk vaxtlar İran tərəfindən soyuq qarşılandı. Azərbaycanın İstanbuldakı nümayəndə heyətinin 1918 ilin iyulunda Cümhuriyyətin yaranması haqqında İran konsulluğuna təqdim etdiyi bəyannamə geri qaytarıldı, İranın Azərbaycan adlı dövləti tanımadığı bildirildi. Lakin bu vəziyyət çox çəkmədi, İranın Azərbaycana münasibətində dəyişiklik yarandı. İran diplomatiyası hər iki ölkənin vahid dövlətdə birləşməsi ideyasını ortaya atdı. İran nümayəndələrinin 1918 ilin sonlarında Bakıda, 1919 ilin yanvarında isə İstanbulda irəli sürdüyü bu ideya müstəqil Azərbaycan dövləti tərəfindən müsbət qarşılanmadı. Bununla belə, Azərbaycan Hökuməti İranla diplomatik münasibətlər yaradılması sahəsində fəaliyyətini davam etdirdi. 1919 ilin yazında İsmayıl xan *Ziyadxanovun* rəhbərliyi ilə İrana fövqəladə missiya göndərildi, orada diplomatik nümayəndəlik yaradılması və b. məsələlər müzakirə edildi. İyulun 16-da İranda Azərbaycan diplomatik nümayəndəliyi təsis olundu. Adil xan Ziyadxanovun rəhbərlik etdiyi nümayəndəlik Azərbaycanla İran arasında ən mühüm sahələr üzrə müqavilə və sazişlər bağlanması üçün zəmin hazırlamağa başladı. Bu dövrdə Əlimərdan bəy *Topçubaşov* başda olmaqla, Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyəti ilə oradakı İran nümayəndəliyi arasında da danışıqlar aparılırdı. Danışıqlarda İran nümayəndə heyətinin irəli sürdüyü ərazi iddiaları ciddi qəbul edilmirdi. Lakin İran nümayəndə heyətinin tərkibində baş verən dəyişiklik bu işdə müəyyən irəliləyişə səbəb oldu. Parisdə Azərbaycan nümayəndələri ilə görüşən İran xarici işlər naziri Firuz Mirzə Qafqazda müstəqil Azərbaycanın mövcudluğunun zərüriliyini xüsusi qeyd etmiş və İranın Qafqaz Azərbaycanının heç bir hissəsini təhdid etmədiyini qətiyyətlə bildirmişdi. Azərbaycan - İran danışıqlarını davam etdirmək qərara alındı. 1919 ilin oktyabr ayında Parisdə *Azərbaycan - İran birgə komissiyası* yaradıldı. Komissiya iki dövlət arasında əməkdaşlığın əsasları haqqında saziş layihəsi hazırladı. Bu məqsədlə 1919 il noyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi yanında daimi müşavirələr, konfranslar keçirilməsi qərarlaşdırıldı. Dekabrın 1 -də Seyid Ziyaəddin Təbatəbai başda olmaqla, İran nümayəndə heyəti Bakıya gəldi. Azərbaycan - İran konfransının ilk iclası dekabrın 5-də Xarici İşlər Nazirliyində keçirildi. Elə həmin gün müqavilə layihələrini hazırlamaq məqsədilə qarşılıqlı hüquqi-siyasi, ticarət-gömrük-tranzit və poçt-teleqraf komissiyaları yaradıldı. Yollar naziri Xudadat bəy *Məlik-Aslanov* və poçt-teleqraf naziri Camo bəy *Hacınski* müvafiq komissiyaların sədrləri təsdiq olundular. Siyasi, hüquqi və hərbi problemlərə dair məsələlərin müzakirəsi zamanı danışıqlarda Səməd bəy *Mehmandarov* və Aslan bəy *Səfikürdski* də iştirak edirdi. Azərbaycanda Hökumət dəyişikliyi ilə əlaqədar müəyyən fasilə verilmiş konfransın işi dekabrın 28-də yenidən bərpa edildi. Azərbaycan - İran konfransının yekun iclası 1920 il martın 20-də keçirilmişdi. Azərbaycanla İran arasında danışıqlar nəticəsində aşağıdakı müqavilə və sənədlər imzalanmışdı.

A z ə r b a y c a n R e s p u b l i k a s ı (Q a f q a z) v ə İ r a n i m p e r i y a s ı a r a s ı n d a d o s t l u q m ü q a v i l ə s i. Müqavilə 4 maddədən ibarət idi. 1-ci maddəyə əsasən, İran Azərbaycan Respublikasının (Qafqaz) müstəqilliyini tanıdığını bəyan edirdi. 2-ci maddədə razılığa gələn hər iki tərəfin dostluq münasibətləri və sabit iqtisadi əlaqələr yaratmaq üçün ticarət-gömrük, poçt-teleqraf və i.a. konvensiyalar bağladığı qeyd olunurdu. 3-cü maddə iki dövlət arasında səfirlik səviyyəsində diplomatik münasibətlər yaradılmasına həsr edilmişdi. 4-cü maddədə müqavilənin 2 nüsxədə fransız dilində imzalandığı, həmin gündən bir ay müddətində ratifikasiya ediləcəyi və ratifikasiya aktlarının Bakıda mübadilə olunacağı bildirilirdi. Müqaviləni Cümhuriyyət adından xarici işlər naziri Fətəli xan *Xoyski,* ədliyyə naziri Xəlil bəy *Xasməmmədov,* yollar naziri Xudadat bəy Məlik-Aslanov, İran imperiyası adından Seyid Ziyaəddin Təbatəbai imzalamışdılar.

A z ə r b a y c a n R e s p u b l i k a s ı(Q a f q a z) v ə İ r a n i m p e r i y a s ı a r a s ı n d a k o n s u l k o n v e n s i y a s ı. 17 maddədən ibarət konvensiyanın 1 -ci maddəsi ilə tərəflərə bir-birinin ərazisindəki liman və ticarət şəhərlərində baş konsul, konsul, vitse-konsul və ya konsul agentləri təyin etmək hüququ verilirdi. Digər maddələr bu vəzifələrə təyin olunma, onların fəaliyyəti və bununla bağlı olan başqa məsələlərə həsr olunmuşdu.

Bir sıra konvensiya və müqavilə ticarət-gömrük məsələləri haqqında idi. T i c a r ə t-g ö m r ü k k o n v e n s i y a s ı 17 maddədən ibarət idi. Müqavilədə hər iki ölkə təbəələrinin digər ölkə ərazisində ticarətlə, istehsalla və nəzərdə tutulan başqa fəaliyyətlə məşğul olması, bu fəaliyyətin tənzimlənməsi, tranzit və sair məsələlər ətraflı şəkildə əhatə olunurdu. Ticarətlə bağlı məsələlər 9 maddədən ibarət xüsusi t i c a r ə t k o n v e n s i y a s ı n d a əksini tapmışdı. Azərbaycanla İran arasında 1 maddədən ibarət gizli müqavilədə il ərzində ərzaq mallarına ixrac rüsumunun artırılmaması nəzərdə tutulurdu.

G ö m r ü k m ü q a v i l ə s i 11 maddədən ibarət idi. Hər iki tərəf yeni tarifin qüvvəyə minməsini gözləməklə, İran və Rusiya arasında 1901 il 27 oktyabr tarixli gömrük bəyannaməsini, sonrakı leqal dəyişikliklərlə birlikdə, bu müqavilənin əsası kimi qəbul edir, gömrüklə bağlı digər məsələlər üzrə razılığa gəlirdi. Digər bir müqavilə qrupu poçt-teleqraf məsələlərinə həsr olunmuşdu. P o ç t m ü q a v i l ə s i II maddədən ibarət idi. Müqavilə tərəflər arasında birbaşa poçt əlaqəsinin yaradılmasını təsbit edirdi. Burada İran və Azərbaycanda xəbərlərin mübadilə məntəqələri, poçt xidmətinə görə tariflər və s. müəyyənləşdirilirdi. Xüsusi bir müqavilə iki dövlət arasında p o ç t b a ğ l a m a l a r ı m ü b a d i l ə s i haqqında idi. 19 maddədən ibarət olan bu müqavilədə İrandan Azərbaycana və əksinə, həmçinin tranzit vasitəsilə poçt bağlamaları göndərilməsi tənzimlənirdi. 18 maddəli t e l e q r a f m ü q a v i l ə s i ilə iki dövlət arasında teleqraf əlaqəsi yaradılırdı. Hər iki ölkənin sakinlərinə digər ölkənin ərazisi vasitəsilə tranzit teleqram göndərmək hüququ verilirdi. Müqavilədə teleqraf xəbərlərinin sirrinin qorunması, tarif və digər məsələlər də əksini tapmışdı. Bunlardan əlavə, Azərbaycan və İran arasında məhkəmə qərarlarının icrası, bəzi cəzaların Azərbaycan və İran təbəələrinə tətbiq edilməməsi, cinayətkarların bir-birinə verilməsi haqqında konvensiyalar da imzalanmışdı.

Azərbaycan-İran müqavilələrinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1920 il aprelin 15-də, yüz qırx birinci iclasında baxılmışdı. Parlamentdə çıxış edən xarici işlər naziri Fətəli xan Xoyski demişdi: ***"Biz İran ilə 6 müahidənamə bağlamışıq. Bunlarda ticarət, poçt və teleqraf, gömrük, tranzit və sairə məsələlər həll edilmişdir. Bu müahidənamələrin hər iki tərəf üçün əhəmiyyətlisi olan dostluq müahidənaməsidir. Çünki bu müahidənamə bir əsasdır ki, başqaları da bunun üzərində bina olmuşdur".*** Parlament müzakirələrdən sonra qeyd olunan müqavilələri yekdilliklə təsdiq etmişdi. Lakin 12 gün sonra Azərbaycan Cümhuriyyəti süquta uğradı. Azərbaycan SSR isə sovet hökumətinin diktəsi ilə bu müqavilələri tanımaqdan imtina etməyə məcbur oldu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), 2 clddə, c. 2, B., 1998; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**AZƏRBAYCAN İSTEHLAK CƏMİYYƏTLƏRİ İTTİFAQI,** Azərittifaq - Azərbaycan Xalq Cümhuriyyətində istehlak kooperasiyasının rəhbər təşkilat və təsərrüfat mərkəzi. Azərbaycanda kooperasiya hərəkatı neft mədənləri rayonlarında (Balaxanı, Bibiheybət) fəhlə istehlak kooperativlərinin təşkili ilə başlanmışdır. İlk istehlak cəmiyyəti Bakıda (1887), daha sonra isə Xankəndidə (1899) yaradılmışdır. 1915 ilin mayında Bakının 12 istehlak cəmiyyəti (10 mədən-zavod və 2 şəhər) birləşərək "Topdansatış Əməliyyatları Cəmiyyəti - Kooperasiya" adlı istehlak cəmiyyətləri ittifaqını yaratdılar. Həmin il dekabrın ortalarında cəmiyyət Bakı rayonunun 18 istehlak cəmiyyətini birləşdirirdi. 1916 ilin dekabrında onların sayı 48-ə çatmışdı.

1917 ilin iyulunda Tiflis və İrəvan quberniyalarının ittifaqın tərkibinə daxil olması ilə əlaqədar müvəkkillərin növbəti yığıncağında ittifaq "Xəzər İstehlak Cəmiyyətləri İttifaqı" (idarəsi Bakıda olmaqla) adlandırıldı.

1918 ilin əvvəlində Azərbaycanda artıq 287 istehlakı cəmiyyəti fəaliyyət göstərirdi. Onların yarıdan çoxunu, təxminən 56%-ni kənd istehlak cəmiyyətləri, 32%-ni 10%-ni isə mədən-zavod cəmiyyətləri təşkil edirdi. Rusiyada baş verən inqilabi sarsıntılar ərzaq böhranı yaratmaqla, istehlak cəmiyyətlərinin dağılmasına səbəb oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 ilin sentyabrında Bakıya köçməsi istehlak cəmiyyətlərinin də işində dönüş yaratdı, dağılmış təşkilatlar bərpa olunmağa başladı. Bunların 6-sı mədən-zavod, 5-i kənd, 8-i isə şəhər (Bakı) istehlak cəmiyyətləri idi.

1919 il yanvarın 1-nə ittifaqın 138574 manat pay kapitalı vardı. Pay kapitalının azlığı istehlak kooperasiyasının 1918 il ərzində zəif inkişaf etməsi ilə bağlı idi. Buna Baxmayaraq, 1919 il yanvarın 1-nə dövriyyəsi 41 milyon 500 min manat olmuşdu. İttifaq, ilk növbədə, özünün sənaye fəaliyyətini genişləndirməyə, konyunkturadan asılı olmayan möhkəm iqtisadi bünövrə yaratmağa başladı, sabun istehsalını genişləndirdi, sürtgü yağları istehsalını təşkil etdi, makaron fabriki, yeni mətbəə, habelə 1919 ildə Qafqazdakı ilk konserv zavodunu və Tənəkə fabrikini də aldı.

İttifaq qeyri-istehsal sahəsində də fəaliyyət göstərirdi. Belə ki, 1918 ilin sonu - 1919 ilin əvvəlində musiqi studiyası, orta təhsil müəssisəsi, əhaliyə ucuz tibbi xidmət göstərən ambulatoriya açmışdı. Nəşriyyat sahəsində də canlanma müşahidə olunurdu. "Yedineniye" ("Birlik") jurnalının əvəzinə, əvvəlcə "Vestnik prikaspiyskoy kooperasii" ("Xəzəryanı kooperasiya xəbərləri"), sonra isə "Trudovaya jizn" ("Zəhmət həyatı") çıxmağa başladı. 1919 ildə "Zəhmət həyatı" jurnalı (cəmi 5 nömrə) nəşr olundu, Azərbaycan dilində təqvim və kooperasiyaya dair bir neçə kitabça buraxıldı.

1918 ilin axırlarından ittifaqın təlimat şöbəsinin də işi fəallaşdı. Azərbaycan Xalq Cümhuriyyəti ərazisində kooperasiya cəmiyyətlərinin fəaliyyətini bərpa etmək üçün, əsasən, azərbaycanlı təlimatçılar işə cəlb olundular. 1920 ilin fevralında ittifaq növbəti qurultayında yenidən təşkil olunaraq "Azərittifaq" adlandı.

*Əd.:* Qaravəliyev Ə. M., Azərbaycanda istehlak kooperasiyasının tarixi, B., 1967.

**AZƏRBAYCAN KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASI (AK(b)P)** - Rusiya Kommunist (bolşeviklər) Partiyasının rəhbərliyi altında fəaliyyət göstərən və onun proqram vəzifələrini Şimali Azərbaycanda həyata keçirən siyasi təşkilat. 1920 il fevralın 11-12-də partiyanın birinci



Hüseyn Cavid




Salman Mümtaz

təsis qurultayında yaradılmış, 19-cu qurultaydan (1952, sentyabr) sonra Azərbaycan Kommunist Partiyası adı altında fəaliyyət göstərmiş, 1991 ildə özünü buraxmışdır. Partiyanın rəhbər özəyi uzun müddət, əsasən, qeyri-azərbaycanlılardan, xüsusən ermənilərdən, gürcülərdən və ruslardan ibarət olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ərəfəsində bolşeviklər Azərbaycanda açıq fəaliyyət göstərirdilər. Bakı Xalq Komissarları Soveti süquta uğradıqdan sonra gizli fəaliyyətə keçdilər. 1918 il noyabrın axırlarında Bakı bolşeviklər komitəsinin müvəqqəti bürosu yaradıldı. Büro İ.Anaşkin, İ.Dövlətov, L.Mirzoyan və İ.Çikaryovdan ibarət idi. 1919 il martın əvvəlindən bolşevik partiya təşkilatının fəaliyyətinə A.Mikoyan rəhbərlik etməyə başladı. 1919 ilin martında RK(b)P Qafqaz Ölkə Komitəsinin Bakı Bürosu seçildi. Bolşeviklər Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini kütlələr içərisində nüfuzdan salmaq və devirmək üçün *"Müstəqil Sovet Azərbaycanı"* şüarını irəli sürdülər. Məqsədlərinə çatmaq üçün Azərbaycandakı bütün kommunist təşkilatlarını vahid Azərbaycan Kommunist Partiyasında birləşdirmək qərarına gəldilər. Bu məsələ 1919 ilin mayında Bakı partiya konfransında müzakirə edildi. Məsələ ətrafında fikir ayrılığı yarandı. Bir qrup yalnız azərbaycanlı kommunistlərdən ibarət partiya yaradılmasını təklif edirdi. İkinci qrup RK(b)P Bakı təşkilatının yeni yaradılacaq Azərbaycan Kommunist Partiyasının tərkibinə daxil olunmamasını təklif edirdi. RK(b)P Qafqaz Ölkə Komitəsinin bir çox üzvləri Cənubi Qafqaz respublikalarında milli kommunist partiyaları yaradılmasınınn əleyhinə idilər. Bolşeviklərin başqa bir qrupu isə Azərbaycanda beynəlmiləl prinsip üzrə kommunist partiyası yaradılmasını təklif edir və ölkədə fəaliyyət göstərən bütün millətlərdən olan kommunistlərin bu partiyada birləşdirilməsində israr edirdilər. Beləliklə, ümumbakı partiya konfransı beynəlmiləl prinsip üzrə AK(b)P yaradılmasına razılıq verdi. 1919 il mayın sonlarında Bakıda RK(b)P Qafqaz Ölkə Komitəsinin plenumu oldu. Plenumda Azərbaycan Kommunist Partiyasının yaradılması məsələsi müzakirə edildi. Həmin məsələdə fikir ayrılığını aradan qaldırmaq mümkün olmadığından məsələnin həlli RK (b)P MK-sına keçirildi.

1919 ilin dekabrında RK(b)P MK-nın Siyasi Bürosu Azərbaycan Kommunist Partiyasının yaradılması barədə qərar qəbul etdi və Qafqaz Ölkə Komitəsinə təklif etdi ki, Gürcüstanda və Ermənistanda da bu cür kommunist partiyaları yaratsın və həmin partiyaların Qafqaz Ölkə partiya komitəsinin rəhbərliyi altında ümumqafqaz miqyasında vahid təşkilatda birləşməsinə icazə versin. 1919 il noyabrın 10-da RK(b)P Bakı Komitəsinin bürosu ümumazərbaycan partiya konfransı çağırılması haqqında qərar çıxardı və həmin konfransın çağırılmasına dair təlimatı təsdiq etdi. Lakin məsələnin qəti həlli RK(b)P Bakı Komitəsi, bolşevik "Hümmət" və "Ədalət" təşkilatlarının rəyasət heyətlərinin birgə iclasına keçirildi. RK(b)P Qafqaz Ölkə Komitəsi və Bakı Komitəsinin rəhbərliyi ilə işləyən bu təşkilatların 1920 il fevralın 8-də keçirilən birgə iclasında partiya konfransı əvəzinə, fevral ayında Azərbaycan kommunistlərinin qurultayının çağırılması haqqında qərar qəbul edildi.

1920 il fevralın 11-12-də Bakıda Fəhlə klubu binasında gizli şəraitdə Azərbaycan kommunist təşkilatlarının 1-ci

*Əhməd Cavad*



*Mikayıl Müşfiq*





СОВЕТ МИНИСТРОВ СССР

ПОСТАНОВЛЕНИЕ № 4083

от 23 декабря 1947 г. Москва, Кремль.

О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР.

Совет Министров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Переселить в 1948-1950 гг. на добровольных началах в Кура-Араксинскую низменность Азербайджанской ССР 100 тыс. колхозников и другое азербайджанское население из Армянской ССР, из них: 10 тыс. человек – в 1948 году, 40 тыс. человек – в 1949 году и 50 тыс. человек – в 1950 году.

11. Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Кура-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР.

Председатель Совета Министров Союза ССР И. Сталин

Управляющий Делами Совета Министров СССР Я. Чадаев

qurultayı oldu. Qurultayda 120-ə yaxın nümayəndə iştirak edirdi. Qurultay 43 nəfərdən ibarət Mərkəzi Komitə (MK) seçdi. MK-nın birinci plenumunda Mirzə Davud *Hüseynov* MK Rəyasət Heyətinin sədri seçildi. Qurultay fevralın 12-də təşkilati məsələni müzakirə etdi və bütün kommunist təşkilatlarını "Azərbaycan Kommunist (bolşevikler) Partiyası" adı ilə birləşdirmək haqqında qərar qəbul etdi. Qərara alındı ki "Azərbaycan Kommunist Partiyası Qafqaz ölkə təşkilatının bir hissəsi elan olunsun və o, Qafqaz Ölkə Komitəsini özünün rəhbər orqanı hesab etsin". Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ölkə daxilində pozuculuq işi aparan və xarici hərbi müdaxilədən ötrü əlverişli şərait hazırlayan ideoloji struktur yaradıldı.

AK(b)P-nın 1-ci qurultayı Azərbaycan partiya təşkilatını silahlı üsyan hazırlamağa istiqamətləndirdi, mövcud Hökuməti yıxmağı, "fəhlə və kəndli diktaturası" qurmağı başlıca vəzifə olaraq irəli sürdü: ***"Azərbaycan Kommunist Partiyasının qurultayı mövcud hökuməti yıxmaq və fəhlə-kəndli hakimiyyəti qurmaq üçün fəhlə və kəndliləri inqilabi çıxışa hazırlamağı lazım bilir".*** Qurultayın hazırkı vəziyyət haqqında qəbul etdiyi qətnamədə ***"Azərbaycanda hökumət çevrilişi üçün olduqca əlverişli bir şərait"*** yetişdiyi vurğulanırdı.

AK(b)P-nın 1-ci qurultayından sonra Bakıda rayon partiya komitələri, qəzalarda isə 14 partiya komitəsi yaradıldı. Bununla kommunistlər mütəşəkkil surətdə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı silahlı üsyan hazırlamağa başladılar. Hələ 1920 ilin yanvarından RK(b)P Bakı Komitəsi yanında Əliheydər Qarayevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün silahlı üsyan təşkil etmək məqsədilə "operativ qərargah" fəaliyyət göstərirdi. 1920 il aprelin 24-dən isə AK(b)P MK-nın hərbi-texniki komissiyası silahlı üsyana hazırlığı öz üzərinə götürdü. Azərbaycan Hökumətinə qarşı qiyamçı-təxribatçı dəstələrin silahlandırılmasında, əslində, daşnak olan erməni kommunist Kamo və onun başçılıq etdiyi qrup xüsusi fəallıq göstərirdi. Bakı, Gəncə, Qarabağ, Qaryagin, Qazax, Lənkəran qəzalarında, Gədəbəy, Tovuz və Zaqatalada silahlı bolşevik dəstələri yaradıldı. Onlar bolşevik-sovet qoşunlarının Azərbaycan sərhədini keçməsini gözləyirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində xüsusi rolu olan AK(b)P Bakı Komitəsi 1920 il aprelin 25-26-da bütün kommunistlərin rayon hərbi qərargahlarının tabeliyinə keçməsi haqqında göstəriş verdi.

RK(b)P Qafqaz Ölkə Komitəsi, AK(b)P MK-sı və Bakı Komitəsinin 24 aprel tarixli birgə qərarı ilə Bakı rayonunun partiya təşkilatlarında hərbi vəziyyət elan edildi və bu təşkilatlarda birləşmiş bolşeviklər tam döyüş hazırlığına gətirildi. Silahlı üsyana rəhbərlik Döyüş Qərargahına tapşırıldı, AK(b)P-nin Mərkəzi, Bakı və rayon komitələri bütünlüklə Qərargaha tabe edildi. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi üçün hazırlanan silahlı üsyan planını yerinə yetirmək məqsədilə kommunist partiyasının bütün üzvləri səfərbər olunmuşdu. Onlar qərargahın bütün sərəncamlarına sözsüz əməl etməli idilər. Həmin göstərişi pozanların güllələnməsinə belə icazə verilirdi.

*1948 ildə Ermənistandan deportasiya olunmuş azərbaycanlıların "təntənəli" surətdə qarşılanması*







*Kommunist rejiminin Azərbaycanda törətdiyi vəhşiliklər*



*Xalqın şəhidlərlə vida mərasimi*

Beləliklə, AK(b)P *Aprel işğalının (1920)* hazırlanması və həyata keçirilməsində, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində və 11 -ci Qırmızı ordunun Azərbaycan xalqına qarşı heyata keçirdiyi qanlı qırğınlarda fəal rol oynadı.

Aprel işğalından (1920) sonra AK(b)P respublikada yeganə hakim partiya oldu. İşğal olunmuş Şimali Azərbaycan ərazisində real hakimiyyət bu partiyaya məxsus idi. Kommunist partiyası diktaturasını təmin edən amillərdən biri də Azərbaycandakı sovet ordusu hissələri idi. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət strukturlarını dağıtmaq üçün Azərbaycanın hər yerində inqilab komitələri yaradıldı. Milli dövlətçilik ənənələrini, milli müstəqillik şüurunu məhv edən kommunist diktaturası formalaşdırılırdı. Yeni hakimiyyətin möhkəmləndirilməsi üçün xalq arasında böyük nüfuza və hörmətə malik olan Nəriman Nərimanov formal olaraq Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri təyin olunsa da, Azərbaycanın bütün xarici və daxili siyasətinə rəhbərlik Q.Orconikidzenin əlində cəmlənmişdi. Xalqa divan tutulmasında, Azərbaycan torpaqlarının parçalanmasında, milli rəhbər kadrları arasında nifaq salınmasında bolşeviklərin "ən möhkəm təşkilatı" sayılan Bakı Komitəsinə rəhbərliyi varisliklə bir-birinə ötürən ermənilər A.Mikoyan, Sarkis (A.Ter-Danilyan), L.Mirzoyan xüsusilə fərqlənirdilər. Onların arxasında duran Stalin, Orconikidze, Kirov, Stasova erməni-daşnak güruhunu fəal müdafiə edir, azərbaycanlı rəhbər kadrlar arasında ixtilaf yaradılmasına rəvac verirdilər. Rusiyanın Azərbaycanda yeritdiyi siyasətin əsl mahiyyətini başa düşən və ona kəskin müqavimət göstərən Nəriman Nərimanovu respublikadan uzaqlaşdırmaq üçün əvvəlcə Zaqafqaziya Federasiyasının rəhbərliyinə, sonra isə SSRİ Mərkəzi İcraiyyə Komitəsi sədrlərindən biri vəzifəsinə "irəli çəkdilər" (bax Nəriman *Nərimanov)*. Bundan sonra isə AK(b)P-nin kütləvi surətdə azərbaycanlılardan "təmizlənməsi"nə başlandı. 1921 ildə kommunist partiyası daxilində "təmizləmə" keçirilərkən, əsasən, Nəriman Nərimanovun tərəfdarlarından ibarət olan 35 min nəfər partiyadan çıxarıldı. Bakı partiya təşkilatında qeyri-müsəlmanların tam hegemonluğunu təmin etmək üçün Sarkis 500 nəfər "iranlını" (yəni, əslən Cənubi Azərbaycandan olan azərbaycanlı kommunistləri) partiya sıralarından xaric etmiş, Mirzoyan isə "iranlı" (Cənubi azərbaycanlı) fəhlələrin partiyaya qəbuluna qarşı süni sədd çəkmişdi. Beləliklə, Azərbaycanda, əslində, azərbaycanlıları təmsil edən kommunist partiyası yox idi, daha doğrusu, AK(b)P azərbaycanlıların mənafeyinə xidmət etmirdi.

AK(b)P Azərbaycanı milli-mənəvi baxımdan simasızlaşdırmaq siyasətini həyata keçirmək üçün daşnak-kommunistlərin əlində bir alət rolunu oynayırdı. Yeridilən siyasətin əsl mahiyyəti partiya sənədlərində də əksini tapmışdı. Daşnak-kommunistlər və onların tərəfdarları, AK(b)P 2-ci qurultayında qeyd olunduğu kimi, açıqca deyirdilər: "müsəlmana etibar etmək olmaz, o ola bilsin ki, yaxşı kommunistdir, ancaq müsəlmandır, onun qəlbində müsavat ruhu vardır". Siyasi sistemin bütün dairələri kommunist partiyasınının amiranə təzyiqi altında formalaşır və fəaliyyət göstərirdi. Respublikada başqa siyasi partiyalar qadağan edilmişdi. İctimai təşkilatlar bolşeviklərin rəhbərliyi altında və onların diktəsi ilə fəaliyyət göstərirdilər.

20-30-cu illərdə Azərbaycanda milli müstəmləkəçilik siyasəti daha da gücləndirildi. AK(b)P sənayeləşdirmə və kollektivləşdirmə (kolxozlaşdırma) siyasəti nəticəsində həm öz amirliyinin iqtisadi dayağını, qeyriiqtisadi xarakter daşıyan sosialist təsərrüfatçılıq sistemini yaratdı, həm də mövcud rejimə qarşı mübarizə apara biləcək sinfi və milli qüvvələrə ciddi zərbə endirdi. Kommunist rejimi 30-cu illərdə Azərbaycanda dəhşətli repressiyalar həyata keçirdi. Repressiyalara məruz qalanların sayı ailə üzvləri ilə birlikdə 200 mindən çox idi. "Qırmızı" terror illərində 29 min azərbaycanlı ziyalı məhv edildi, həbs və sürgün olundu. Ermənilər Qərbi Azərbaycanın aborigen əhalisi olan azərbaycanlılara qarşı kütləvi təqiblər həyata keçirirdilər. Bakıda rəhbərliyi ələ keçirmiş erməni-daşnak qrupu Ermənistanın partiya rəhbərliyi ilə əlbir hərəkət edirdi. Bu dövrdə həyata keçirilən "mədəni inqilab"ın əsas məqsədi cəmiyyətin mənəvi həyatında kommunist ideologiyasının inhisarını təmin etmək idi. İkinci dünya müharibəsi (1939-45) dövründə, yaranmış vəziyyətdən istifadə olunaraq, mövcud inzibati-amirlik üsul-idarəsi daha da sərtləşdirildi.

Ölkədə bütün siyasi hakimiyyət İ.Stalinin, milli respublikalarda isə birbaşa onun diktəsi ilə fəaliyyət göstərən respublika partiya mərkəzi komitələri birinci katiblərinin əlində cəmləşdirilmişdi. Odur ki, Mir Cəfər Bağırov AK(b)P MK-nin birinci katibi olduğu dövrdə də Azərbaycan rəhbərliyində möhkəm mövqe tutmuş Sumbatov-Qriqoryan-Markaryan-Malyan və b.-dan ibarət erməni-daşnak güruhu, əslində, Azərbaycanı azərbaycanlılardan "təmizləmək" kimi məkrli əməliyyatı davam etdirməkdə idilər. Onların başçılıq etdiyi kütləvi "təmizləmə" əməliyyatının əsas icraçıları da ermənilərin özləri idi. Belə ki, "KQB" və "NKVD"-nin mərkəzdəki və yerlərdəki strukturları da, faktik olaraq, ermənilərin əlində idi. Azərbaycan rayonlarının yarısından çoxunda "NKVD"-nin yerli strukturlarına ermənilər başçılıq edirdilər. 1946-53 illərdə Azərbaycan SSR-də qəsdən quraşdırılmış "siyasi ittihamlar" əsasında mindən çox adam həbsə alınıb sürgün edilmişdi. 1948-53 illərdə Ermənistan SSR ərazisindəki azərbaycanlılar öz ata-baba torpaqlarından deportasiya edildilər. İ.Stalinin ölümündən sonra Kommunist Partiyasının dövlət və siyasi təşkilatlar üzərində amirliyi prinsipinə toxunmadan ictimai təşkilatların, "xalq hakimiyyəti" orqanlarının fəaliyyətini canlandırmaq üçün yollar axtarılmasına başlandı. Məhz bu dövrdə Azərbaycanda, mərkəzin bilavasitə köməyilə, erməni lobbisinin fəaliyyəti daha da gücləndi. Ermənistan SSR-də qalmış olan azərbaycanlılara qarşı təzyiq tədbirləri daha da artırıldı. Dağlıq Qarabağ Muxtar Vilayətində erməni separatçılığının dərinləşdirilməsinə şərait yaradıldı.

1969 ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər

Əliyevin seçilməsi ilə respublikada ictimai-siyasi vəziyyətin əsaslı surətdə dəyişməsi, AKP-nin azərbaycanlılaşdırılması, partiya və dövlət orqanlarında azərbaycanlıların rolunun artırılması dövrü başlandı. Qısa müddətdə idarəçilik sistemi xeyli möhkəmləndirildi. Heydər Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969-82) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, qanunçuluğun norma və qaydalarına ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, sənayenin və kənd təsərrüfatının inkişafı və b. sahələrdə yüksək göstəricilər əldə edilməsilə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması üçün də çox böyük işlər görüldü. Nəticədə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında respublikada ictimai-iqtisadi və sosial-mədəni həyatın bütün sahələrində sürətli yüksəliş baş verdi, müstəqil Azərbaycanın təməli qoyuldu.

Heydər Əliyev 1976 ilin martında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982 ilin noyabrında isə Siyasi Büro üzvü seçildi və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Beləliklə, Heydər Əliyev Nəriman Nərimanovdan sonra SSRİ rəhbərliyində ən yüksək post tutan azərbaycanlı dövlət xadimi oldu. O, Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, doğma respublikanın yalnız keçmiş SSRİ məkanında deyil, həmçinin dünyada tanıdılması üçün əlindən gələni etmişdir. Ermənilərin Dağhq Qarabağa olan əsassız iddialarında SSRİ rəhbərliyinin tutduğu ədalətsiz mövqeyə etiraz əlaməti olaraq Azərbaycanda genişlənən milli azadlıq hərəkatını boğmaq məqsədilə Mərkəz Bakıya qoşun yeridərək, 1990 il yanvarın 20-də qanlı qırğın törətdi. Səhərisi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, bu cinayətə kəskin siyasi qiymət verən Heydər Əliyev onu törədən SSRİ rəhbərlərini "qatil" adlandırdı. Heydər Əliyev Dağlıq Qarabağda yaranmış gərgin münaqişəli vəziyyətlə bağlı Mərkəzin riyakar siyasətinə etiraz əlaməti olaraq 1991 ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etdi. Naxçıvan MR Ali Məclisinin sədri olarkən, məhz Heydər Əliyevin prinsipial və cəsarətli mövqeyi sayəsində Naxçıvan MR Ali Məclisinin qərarı (1991, 26 avqust ) ilə Sov. İKP-nin tərkib hissəsi kimi Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və onun bütün strukturları ləğv edildi. Bu zaman artıq qurtuluş mübarizəsinə başlayan Heydər Əliyevin ideyaları, əslində, Azərbaycan xalqının mövqeyini, mübarizəsini əks etdirirdi. Çünki hələ 20 yanvar faciəsinə etiraz əlaməti olaraq, Bakıda və bütün Azərbaycanda xalq hərəkatı genişlənmişdi. Bakıda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi binasının divarlarına "Rədd olsun Sov. İKP!" və s. şüarlar yazılmış, kommunist partiyası biletlərindən tonqallar çatılmışdı. Azərbaycan xalqına qarşı törədilən qanlı əməllərdən sonra da Azərbaycanın rəhbər kommunistləri "Sov. İKP-də demokratik platforma" mövqeyində dururdular. Lakin respublika kommunistləri içərisində Sov. İKP-də marksist platforması mövqeyində dayananlar da vardı. Bu mühafizəkar kommunistlər 1991 il 18-19 avqustda Moskvada dövlət çevrilişinə cəhd göstərən Dövlət Fövqəladə Vəziyyət Komitəsinin ("QKÇP") təşkilatçılarını müdafiə etdilər. Azərbaycanda demokratik qüvvələr "QKÇP"-nin qanuna zidd fəaliyyətinə qarşı çıxsalar da, respublika rəhbərliyi "QKÇP"-ni müdafiə edərək, ciddi siyasi səhvə yol vermişdi. Rusiyada dövlət çevrilişinin qarşısı alındı. Xalqın rəğbətini qazanmağa çalışan Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə 1991 il sentyabrın 14-də artıq tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb özünü buraxdı.

*Əd.:* Azərbaycan Kommunist Partiyasının tarixi, B., 1958; Azərbaycan tarixi, 3 cilddə. c.3, B., 1973; Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları, B., 1987; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Mahmudov Y., Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti, B., 2002; Əhmədova F., Nəriman Nərimanov-ideal və gerçəklik, B., 1998; Qaffarov T., Azərbaycan tarixi (1920-1991), B., 1999; Гулиев Дж. Б., К истории образования второй республики Азербайджана, Б., 1997.

**"AZƏRBAYCAN" MARŞI** - Üzeyir Hacıbəylinin 1919 ildə bəstələdiyi marş. Uzun illər Azərbaycan xalqına və musiqi ictimaiyyətinə naməlum qalmış bu marşın not yazısı ilk dəfə 1966 ildə, türk musiqişünası Etem Üngörün Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında çap olunmuşdur. Re minor tonallığında, səsaltı mətnlə birsəsli çap olunan bu marşı Etem Üngörünün hansı vasitə ilə əldə etməsi hələ məlum deyil. Müəllifin kitabda verdiyi məlumata görə, "Azərbaycan istiqlalı qeyb etməzdən (28 aprel 1920 il nəzərdə tutulur) öncəki illərdə bu marş hər səhər hərbi okullarda (məktəblərdə, hissələrdə) dərs başlanmazdan oxunardı". "Azərbaycan" marşı haqda müasir Azərbaycan oxucularına ilk məlumat S.Fərəcovun "Ədəbiyyat və incəsənət" qəzetinin 1989 il 14 iyul tarixli sayında dərc olunmuş "Ü.Hacıbəyovun iki marşı" məqaləsində verilmişdir. Marş tezliklə bəstəkar Aydın Əzimov tərəfindən böyük xor və simfonik orkestr üçün aranjeman edilərək lentə yazıldı və 1989 ilin payızında ilk dəfə xalq qarşısında səsləndirildi.1992 ildə "Azərbaycan" marşı Azərbaycan Respublikasının dövlət himni kimi qəbul edilmişdir (bax *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri).*

*Əd.:* Üzeyir Hacıbəyov ensiklopediyası, B., 1996.

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANININ TƏSİSİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti Məclisi - Məbusanının (Parlamentinin) formalaşdırılmasını təmin edən mühüm hüquqi sənəd. Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli iclasında qəbul olunmuşdur (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Təsis Olunması Haqqında Qanun).*

**AZƏRBAYCAN MƏHKƏMƏ PALATASI** Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil məhkəmə hakimiyyətini formalaşdırmaq məqsədilə yaradılmış mühüm dövlət strukturu, dövlət ədliyyə orqanı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qarşıya qoyduğu əsas vəzifələrdən biri də əvvəlki hərc-mərclik dövründə dağılmış məhkəmə aparatını bərpa etmək və müstəqil dövlətin ədliyyə sistemini yaratmaq idi. Bu baxımdan, yeni şəraitdə Cümhuriyyətin ayrıca məhkəmə palatasının yaradılmasına ehtiyac vardı. Bu məqsədlə 1918 il noyabrın 14-də Cümhuriyyət Hökuməti Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnaməni təsdiq etdi.

Əsasnaməyə görə, Azərbaycan Məhkəmə Palatası böyük sədr, departament sədri, 8 üzv, prokuror və onun 2 nəfər köməkçisindən ibarət tərkibdə yaradılmışdı.

Hökumətin 1919 il 28 fevral və 10 may tarixli qərarları ilə vəkil Ələkbər bəy Xasməmmədov palatanınn böyük sədri, keçmiş Simferopol dairə məhkəməsinin prokuroru Olgerd Kriçinski isə palatanın prokuroru təyin edilmişdilər.

Ali məhkəmə instansiyası olan Azərbaycan Məhkəmə Palatası dairə məhkəmələrinin fəaliyyətini yoxlayır, onların qərarlarından apellyasiya şikayətlərinə, vəzifə cinayətlərinə, mülklərə sahiblik hüququ, əmlaka qəyyumluq qoyulması haqqında işlərə baxır, notarius vəzifələrini yerinə yetirirdi.

**AZƏRBAYCAN MİLLİ MƏRKƏZİ (AMM),** İ s t a n b u l d a - sovet-bolşevik hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif xarici ölkələrə mühacirətə getməyə məcbur olan azərbaycanlıların istiqlal mübarizəsini vahid mərkəzdən idarə etmək məqsədilə yaradılmış qurum. Məhəmməd Əmin Rəsulzadə tərəfindən 1924 ildə İstanbulda yaradılmışdır. Milli Mərkəzin əsas məqsədi Şimali Azərbaycanda sovet hakimiyyətinin devrilməsi və müstəqil milli dövlətin bərpa edilməsi idi. AMM Türkiyədə gizli fəaliyyət göstərərək, türkçü ziyalıları öz ətrafında birləşdirirdi. Təşkilatın Mərkəzi Komitəsinə Məhəmməd Əmin Rəsulzadə (sədr), Xəlil bəy Xasməmmədov, Mustafa bəy Vəkilov, Əbdüləli Əmircanov, Əkbər ağa Şeyxülislamov daxil idilər. AMM təşkilatlanmaqla yanaşı, Şimali Azərbaycanda cərəyan edən hadisələri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə nəşriyyat fəaliyyəti də göstərirdi. Türkiyə hökuməti SSRİ-nin tələbi ilə 1927 ildə AMM-ə yardımı dayandırdı. Otuzuncu illərin əvvəlində AMM daxilindəki fikir ayrılıqları və ixtilaflar dərinləşdi. AMM-in İstanbuldan Parisə, yaxud Varşavaya köçürülməsi məsələsi də fikir ayrılığı doğururdu. AMM Azərbaycandakı gizli "Müsavat" təşkilatı ilə əlaqə yaradaraq ona təlimatlar göndərir, təşkilatın sovet hakimiyyətinə qarşı mübarizəsini istiqamətləndirirdi.

AMM-in nümayəndəliyi 1951 il noyabrın 30-da Münxendə Şərqi Avropa, Qafqaz və Türküstan mühacirlərinin toplantısında iştirak etmiş, 1952 il dekabrın 11-15-də orada Gürcüstan, Şimali Qafqaz milli mərkəzləri ilə birlikdə konfrans keçirmişdi. Konfransın qəbul etdiyi Qafqaz Xalqları Bəyannaməsini Azərbaycan tərəfindən Məhəmməd Əmin Rəsulzadə imzalamışdı. Konfrans keçmiş Qafqaz respublikalarının müstəqilliyini bərpa etmək uğrunda mübarizəni genişləndirmək məqsədilə müvafiq milli mərkəzlərin birgə fəaliyyətini təşkil etməyi zəruri saydı. Türkiyədəki mühacirlər arasında siyasi fəallığın artması ilə əlaqədar olaraq Məhəmməd Əmin Rəsulzadə 1953 ildə AMM-i yenidən təşkil etmiş və 25 nəfərdən ibarət genişləndirilmiş bir mərkəz formalaşdırılmışdı. Mərkəzin işinə, əsasən, gənclər cəlb edilirdilər.

Məhəmməd Əmin Rəsulzadənin vəfatından (1955) sonra AMM-ə Mirzəbala Məmmədzadə, o, dünyasını dəyişəndən sonra isə "müsavaf"çı Əbdülvahab Yurdsevər rəhbərlik etmişdir. 1976 ildə Əbdülvahab Yurdsevərin vəfatı ilə AMM sədrliyinə Kərim Odər seçildi. O, həm də "Müsavat" partiyasının başqam idi. Kərim Odərin vəfatından sonra 1981 ildə toplanan "Müsavat" və AMM Başqanlıq Divanı dr. Məhəmməd Azər Aranı hər iki təşkilatın başqanı seçdi.

Azərbaycan milli istiqlal ideyası naminə fəaliyyət göstərən AMM 1988 ildə erməni təcavüzkarlarının Azərbaycana qarşı qəsbkarlıq siyasətinin mahiyyətini dünya ictimaiyyətinə açıqlamaq məqsədilə fəal iş aparmış, Azərbaycanla əlaqələri gücləndirməyə səy göstərmişdir.

AMM Şimali Azərbaycandakı sovet-bolşevik rejiminə qarşı istiqlal ideyalarının yaşamasında və təbliğ olunmasında mühüm rol oynamışdır. AMM hazırda Türkiyədə fəaliyyətini davam etdirir.

*Əd.:* İbrahimli X., Azərbaycan siyasi mühacirəti, B., 1996; Oruclu M, Azərbaycanda və mühacirətdə "Müsavat" partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**"AZƏRBAYCAN MİLLİ MƏRKƏZİ" ("AMM"),** Bakıda - gizli təşkilat. Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin "Azərbaycan Milli Mərkəzinin işi" adı altında apardığı istintaq işinə görə, bu mərkəz sovet hakimiyyətini devirərək, müstəqil Azərbaycan Respublikası qurmaq məqsədilə 1924 ildə Bakıda yaradılmışdı. Mərkəzə ziyalılar, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin keçmiş nazirləri və üzvləri, "Müsavat" və "İttihad" partiyalarının nümayəndələri rəhbərlik edirdilər. İstintaqa görə "AMM" gələcək müstəqil Azərbaycan Respublikası üçün iqtisadi baza yaratmaq məqsədilə hakim partiya və dövlətin şüarlarından öz xeyrinə istifadə etməli idi. "AMM" ilk mərhələdə əməli fəaliyyətini sənaye və kənd təsərrüfatının bütün sahələri üzrə milli kapitalın yerləşdirilməsi məsələsinə yönəltmişdi. Sovet hakimiyyətinin özünü məhv edəcəyinə və yenidən doğulacağına olan bütün ümidlərin itdiyi bərpa dövrü başa çatdıqdan sonra mərkəzin fəaliyyət taktikası fəal mübarizəyə və sənayenin birbaşa dağıdılmasına yönəldilmişdi. İstintaq işinə görə "AMM"-in fəaliyyətinin ikinci dövrü üsyançı dəstələr yaratmaq, Azərbaycan diviziyasının milli hissələrində hərbi təşkilat yaratmaq və s. yollarla sovet hakimiyyətini devirmək uğrunda silahlı mübarizə dövrüdür. "AMM" sovet hakimiyyətinə qarşı birgə mübarizə aparmaq üçün "Birləşmiş Zaqafqaziya Komitəsi" yaratmış, "Müsavat" və "İttihad" partiyaları ilə birləşmişdi. Dağıstanda sovet hakimiyyətinə qarşı mübarizə aparan təşkilatla və kəndli partiyası ilə də əlaqə yaradılmışdı. "AMM" öz fəaliyyətində Parisdə Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi "Qafqaz Siyasi Mühacirlərinin Birləşmiş Komitəsi" və Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat"ın İstanbul bürosunun siyasi məramnamələrini rəhbər tutmuşdur. "AMM-in işi" üzrə hazırlanmış ittihamnamədə 53 nəfərin adı çəkilir.

Sovet Azərbaycanında yeridilən ayrı-seçkilik siyasəti, azərbaycanlılara inamsızlıq, dövlət və hakimiyyət orqanlarına işə götürülən zaman qeyri-azərbaycanlılara, xüsusən, ermənilərə üstünlük verilməsi narazılığa səbəb olan əsas amillər idi. "AMM"in əsas siyasi platforması sovet hakimiyyətini devirmək, yalnız bundan sonra baxışlardakı fikir ayrılıqlarını çözmək idi.

İstintaq materiallarından aydın olur ki, "AMM" Qərbi Avropa ölkələrinə, xüsusilə İngiltərəyə daha çox meyl göstərirdi. Bu meyl İstanbuldakı və Parisdəki Azərbaycan mühacir mərkəzlərinin fəaliyyəti ilə və göstərişləri əsasında formalaşmışdı. "AMM"in Mərkəzi Komitəsi vardı. MK-nın əsas vəzifəsi Parisdəki və İstanbuldakı mühacir mərkəzləri ilə, Ermənistan və Gürcüstandakı həmfikirləri ilə fəaliyyətlərini tənzimləmək üçün Zaqafqaziya Birləşmiş Komitəsi ilə, "Müsavat" və "İttihad" partiyaları ilə, Moskvadakı "Sənaye" və "Kəndli" partiyaları ilə əlaqə saxlamaq, üsyan zamanı fəaliyyətlərini tənzimləmək üçün Dağıstandakı antisovet təşkilatlarla müntəzəm əlaqə saxlamaqdan ibarət idi. Mərkəzin müxtəlif filialları vardı. Mərkəzin rəhbərliyi altında sənaye, kənd təsərrüfatı, nəqliyyat, ideoloji, üsyançı dəstələr hazırlayan qəza komitələri, hərbi təşkilatlarda, xüsusən Azərbaycan diviziyasında işləyən hərbi qrup fəaliyyət göstərirdi.

"AMM" MK rəhbərliyinin tərkibinə Məmməd Həsən Hacınski (Zaqafqaziya Dövlət Plan Komitəsinin sədr müavini), Xudadat bəy Məlik-Aslanov (Dövlət Plan Komitəsinin sənaye bölməsinin müdiri), Firuz bəy Ordubadski (ASSR DPK sədrinin müavini), Əhməd bəy Pepinov (DPK-nın məsul işçisi), Rza Şabanov (DPK-nın kənd təsərrüfatı bölməsinin müdiri), Çingiz İldırım, Məhəmməd Xəlilov (ZSFSR XTNS sədrinin müavini), Məhəmməd Mullayev (ASSR XTNS rəyasət heyətinin üzvü), Zeynal Tağıyev (V.İ.Lenin adına fabrikin keçmiş müdiri), Ələsgər bəy Bəylərbəyov (Bakı Sovetinin və "Azsutəsərrüfatı"nın keçmiş mühəndisi) və Mirzə Lətif Mirzəyev daxil idilər. Onlar bütün sahələri əhatə edən qruplarla əlaqə saxlayırdılar.

1928 ilin əvvəllərində Parisdəki siyasi mühacir mərkəzlərinin göstərişi əsasında yaradılmış Qafqazın Müstəqilliyi Komitəsinin analoji forması kimi Zaqafqaziya Birləşmiş Komitəsi yaradıldı. Komitəyə Azərbaycandan - Məmməd Həsən Hacınski, Məhəmməd Xəlilov və Cəfər bəy Rüstəmbəyov, Gürcüstandan - Çiçinadze və Alşibay, Ermənistandan - Ter-Qazaryan və İ.Arutyunov daxil idilər. "AMM" İstanbuldakı və Parisdəki türk siyasi mühacirləri vasitəsi ilə maliyyə köməyi alırdı. Maliyyə yardımı "AMM"-ə qeyri-leqal yolla çatdırılırdı.

"AMM" azərbaycanlı gənclər və ziyalılar arasında milli dirçəlişə nail olmağa çalışırdı. "AMM"ın qarşıya qoyduğu əsas vəzifələrdən biri də partiya-sovet aparatında milli kadrların yerləşdirilməsi idi.

"AMM" Parisdəki siyasi mühacirət mərkəzi və İstanbuldakı *Azərbaycan Milli Mərkəzi* ilə əlaqə saxlayır, onlardan müvafiq tapşırıqlar alırdı. Milli Mərkəzin xarici mühacirət mərkəzləri ilə əlaqəsi 1926 ildə keçmiş mühacirət Yaqub Vəzirov İstanbuldan qayıtdıqdan sonra yaradılmışdı. Xaricdəki mühacirət mərkəzləri ilə yanaşı, onların Ərdəbil və Təbriz filialları ilə də əlaqə saxlanılırdı. İstintaq materiallarına görə bu filiallar Paris və İstanbuldan gələn tapşırıqların çatdırılmasında ötürücü məntəqə funksiyasını yerinə yetirirdilər. Ərdəbil qrupuna siyasi mühacirlər Qafar Qafarov və Cəfər Cəfərov, Təbriz qrupuna Azərbaycan Xalq Cümhuriyyəti dövründə dəmir yol idarəsinin rəisi olmuş Teymur bəy Məlik-Aslanov və Kəlbalı xan Naxçıvanski daxil idilər.

"AMM" yeni iqtisadi siyasət (NEP) siyasətinin təsiri nəticəsində sovet hakimiyyətinin məhv olacağının "qaçılmazlığın"a ümid bağlayaraq, ittifaq maraqlarına qarşı çıxır və gələcək Azərbaycanın maksimum iqtisadi təminatına nail olmaq məqsədilə milli kapitalın möhkəmləndirilməsi üçün tədbirlər görürdü. Təşkilatın planına elektrikləşdirmə ilə bağlı Azərbaycanın müstəqil milli energetika bazasını yaratmaq vəzifəsi daxil idi. "AMM" nəqliyyat sahəsində də fəal iş aparırdı. Mərkəzin əsas məqsədi, ilk növbədə, Naxçıvanla iqtisadi əlaqə saxlanılmasında böyük əhəmiyyəti olan Bakı - Culfa dəmir yolu tikintisinin başa çatdırılması idi. Nuxa - Zaqatala, Şuşa - Qaryagin, Şuşa - Qubadlı şoselərinin salınması da diqqət mərkəzində idi.

1931 il sentyabrın 30-da Azərbaycan SSR Dövlət Siyasi İdarəsi kollegiyasının məhkəmə iclasında, 1932 il fevralın 2-də isə Tiflisdə Zaqafqaziya DSİ kollegiyası yanında məhkəmədə "Azərbaycan Milli Mərkəzinin işi"nə baxılmış, onun fəaliyyətinə son qoyulmuş, üzvləri isə müxtəlif müddətlərə həbs cəzasına məhkum olunmuşlar.

*Əd.:* Elşad Qoca, Sibir dərsi, B., 2000.

**AZƏRBAYCAN MİLLİ ŞURASI** - Rusiyada Fevral inqilabından (1917) sonra Cənubi Qafqazın türk-müsəlman əhalisi tərəfindən Ümumrusiya Məclisi-müəssisanına (Parlamentinə) seçilmiş deputatlardan ibarət qanunvericilik səlahiyyətinə malik olan hakimiyyət orqanı. *Zaqafqaziya seyminin Müsəlman fraksiyası* əsasında formalaşmışdı. Zaqafqaziya seymi dağıldıqdan bir gün sonra - 1918 il mayın 27-də Seymin Müsəlman fraksiyasının bütün üzvləri Azərbaycanın istiqlaliyyətini elan etmək və müstəqil dövlət yaratmaq məqsədilə Tiflisdə toplaşaraq, hərtərəfli müza-kirədən sonra, yaranmış tarixi şəraitdə Azərbaycanın idarəsini öz üzərlərinə götürmək qərarına gəldilər və Azərbaycan Milli Şurasının yaradıldığını elan etdilər. Milli Şuranın rəyasət heyətinə "Müsavat" partiyasından Məhəmməd Əmin Rəsulzadə, Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, sosialistlər blokundan Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski, Əkbər ağa Şeyxülislamov, "İttihad" partiyasından isə Xosrov Paşa bəy Sultanov daxil oldular. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri (bu zaman o, Batumda türklərlə danışıqlar aparırdı), doktor Həsən bəy Ağayev isə onun müavini seçildilər.

Mayın 28-də Tiflisdə, keçmiş Qafqaz canişininin iqamətgahında Həsən bəy Ağayevin sədrliyi ilə Milli Şuranın iclası keçirildi.

Uzun və hərtərəfli müzakirələrdən sonra Milli Şura Azərbaycanın *İstiqlal bəyannaməsini* qəbul etdi. Bəyannamədə Cənub-Şərqi Qafqazda müstəqil Azərbaycan dövlətinin yaradıldığı, müstəqil dövlətin idarə formasının xalq cümhuriyyəti olduğu, yeni yaranmış dövlətin xarici ölkələrlə, xüsusilə öz qonşuları ilə yaxın qonşuluq əlaqələri yaradacağı milli, dini, sinfi mənsubiyyətindən, cinsi və sosial vəziyyətindən asılı olmayaraq, ərazisində yaşayan bütün əhalinin vətəndaşlıq hüquqlarının təmin olunacağı, ölkədə yaşayan xalqların müstəqil inkişafı üçün şəraitin yaradılacağı, Müəssislər Məclisi çağırılana qədər ölkəyə siyasi rəhbərliyi ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət Milli Şuranın və Milli Şura qarşısında məsul olan Müvəqqəti Hökumətin həyata keçirəcəyi bildirilirdi.

Milli Şura elə həmin iclasında Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti Hökumətini - birinci Hökumət kabinetini də yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması və elan olunması ilə bağlı təşkilati işləri 1918 il mayın 28-dən Tiflisdə yerinə yetirən Azərbaycan Milli Şurası və Hökuməti ölkəyə real rəhbərliyi həyata keçirmək üçün iyunun 16-da Gəncəyə köçdü.

Azərbaycan Milli Şurası və Hökuməti Gəncədə ciddi çətinliklərlə üzləşdi. Bakıdan qaçmış milli burjuaziyanın və Gəncə quberniyasının müflisləşmiş mülkədarlarının nümayəndələri burada "daha çox inqilabi ruhlu Azərbaycan Milli Şurası və Hökumətinə" qarşı geniş təbliğat aparırdılar. Onlar hələ mayın axırlarında Gəncəyə gəlmiş və burada real hakimiyyətə malik olan *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşa ilə sıx əlaqə yaratmışdılar və ona Azərbaycan Milli Şurası və Hökuməti barədə yanlış məlumatlar vermişdilər. Həm bu səbəbdən, həm də digər mülahizələrə görə Nuru paşa Milli Şuraya və Azərbaycan Hökumətinə etimadsızlıq göstərdi.

Belə bir şəraitdə 1918 il iyunun 17-də Gəncədə Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Milli Şuranın iki tarixi iclası keçirildi. Bu iclaslarda Milli Şura və Azərbaycan Hökuməti ətrafında yaranmış mürəkkəb şərait çox gərgin vəziyyətdə ətraflı müzakirə olundu. Milli Şura, çox çətinliklə əldə olunmuş razılıqdan sonra, o zaman mümkün olan yeganə düzgün addım atdı: bütün səlahiyyətləri yeni yaradılacaq Müvəqqəti Hökumətə verməklə, daha münasib vaxta qədər özünü buraxmağı qərara aldı.

Fətəli xan Xoyski Tiflisdə yaratdığı birinci Hökumət kabinetinin qısa müddətdəki fəaliyyəti haqqında hesabat verərək, öz Hökumətinin istefasını qəbul etməyi Milli Şuradan xahiş etdi. Milli Şura Fətəli xan Xoyskinin birinci Hökumətinin istefasını qəbul edərək, Hökumətin təşkilini yenidən ona tapşırdı. Milli Şura Fətəli xan Xoyskinin təklif etdiyi yeni, ikinci Müvəqqəti Hökumətin tərkibini təsdiqlədi və iclasın sonunda ikinci Müvəqqəti Hökumətin hüquq və vəzifələri barədə, həmçinin Azərbaycan Milli Şurasının buraxılması haqqında iki mühüm qərar qəbul etdi.

1918 il iyunun 17-də Gəncədə fəaliyyətini dayandırmağa məcbur olmuş Azərbaycan Milli Şurası beş aydan sonra-həmin il noyabrın 16-da türk əsgərləri Azərbaycandan gedəndən sonra və ingilis generalı Tomson başda olmaqla müttəfiq qoşunların Bakıya gəlməsi ərəfəsində fəaliyyətini yenidən bərpa etdi. İclasda Azərbaycan Hökumətinin başçısı Fətəli xan Xoyski Milli Şura üzvlərinə müraciətlə çıxış etdi və Hökumətin Müəssislər Məclisinin çağınlmasının təşkilinə vaxtı çatmadığından bu vəzifəni Milli Şuranın öz üzərinə götürməsini xahiş etdi. Milli Şura bu təklifə razılıq verdi.

Azərbaycan Milli Şurasının 1918 il noyabrın 19-da Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən növbəti iclasında 120 nəfərdən ibarət Parlament yaratmaq haqqında Azərbaycan Hökumətinin təqdim etdiyi qanun layihəsi müzakirə və qəbul olundu.

Azərbaycan Parlamentinin təsisi ilə bağlı Milli Şuranın Məhəmməd Əmin Rəsulzadə tərəfindən imzalanmış *"Bütün Azərbaycan əhalisinə!"* müraciətnaməsi noyabrın 29-da həm Azərbaycan, həm də rus dillərində dərc edildi. Müraciətdə yeni yaradılacaq Azərbaycan Parlamentinin ilk iclasının 1918 il dekabrın 3-də açılacağı elan olunurdu. Lakin Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları general Tomsonun bu arada Bakıya gəlməsindən istifadə edərək, Azərbaycan Parlamentinin açılışına hər vasitə ilə mane olmağa cəhd göstərdilər. Azərbaycan Hökumətinin general Tomsonla apardığı danışıqların uzanması nəticəsində Parlament özünün ilk iclasını dekabrın 3-də deyil, 7-də keçirməli oldu. Parlamentin ilk iclasını giriş sözü ilə Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə açaraq geniş nitq söylədi. Azərbaycan Xalq Cümhuriyyətinin qanunverici orqanı olan Parlamentin işə başlaması ilə Azərbaycan Milli Şurasının fəaliyyətinə xitam verildi.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabat), c. I, B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**AZƏRBAYCAN MİLLİ ŞURASININ BURAXILMASI HAQQINDA QƏRAR-** 1918 il iyunun 17-də qəbul edilmişdir. Belə ki, iyunun 16-da Gəncəyə köçən *Azərbaycan Milli Şurasının* və Hökumətinin tərkibinə etimadsızlıq siyasi böhrana səbəb olmuşdu (bax *İyun böhranı (1918)).* Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olanlar Milli Şuranın və Hökumətin işini pozmağa cəhd etdilər. Yaranmış mürəkkəb siyasi şəraitdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq naminə Milli Şuranın buraxılması qərara alındı. Qərarda deyilirdi ki, Azərbaycanın ağır daxili və xarici vəziyyətini nəzərə alaraq, bütün hakimiyyət Fətəli xan Xoyskinin sədrliyi ilə təşkil olunan Hökumətə verilir və bu Hökumət öz hakimiyyətini qısa müddətə çağırılmalı olan Müəssislər Məclisindən başqa heç kəsə güzəştə getməməlidir.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**AZƏRBAYCAN MİLLİ ŞURASININ SƏDRİ** 1918 il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətini elan etmiş kollegial qurumun - ilk Azərbaycan Parlamentinin sədri.

Zaqafqaziya seymi dağıldıqdan sonra Seymin Müsəlman fraksiyasının üzvləri 1918 il mayın 27-də Tiflisdə toplanaraq yaranmış ağır tarixi şəraitlə bağlı hərtərəfli müzakirələr apardıqdan sonra Azərbaycanın idarəsini öz üzərlərinə götürmək qərarına gəldilər və özlərini Azərbaycan Milli Şurası elan etdilər. Beləliklə, Azərbaycanın ilk Parlamenti fəaliyyətə başladı. Həmin iclasda Milli Şuranın rəyasət heyəti və onun sədri seçildi. Gizli səsvermə yolu ilə Milli Şuranın sədri vəzifəsinə həmin vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan Məhəmməd Əmin *Rəsulzadə* seçildi. Milli Şuranın sədri Milli Şuranın və onun rəyasət heyətinin iclaslarına sədrlik edir, Şuranın işlərinə ümumi rəhbərliyi həyata keçirirdi. Milli Şuranın iclasları protokollar vasitəsilə rəsmiləşdirilir, Milli Şuranın sədri və katibi tərəfindən imzalanırdı. Milli Şura adından verilən bəyanatlar, müraciətlər və b. sənədlər də Milli Şuranın sədri tərəfindən imzalanırdı.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 год, Б., 1920;

**AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN BİRİNCİ QURULTAYI** - məktəb islahatı sahəsində əsaslı məsələləri ətraflı müzakirə etmək, lazımi təkliflər hazırlayaraq, Hökumətə təqdim etmək məqsədilə çağırılmış Azərbaycan müəllimlərinin ali məclisi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə 1919 il avqustun 20-dən sentyabrın 1-dək Bakıda, birinci realnı məktəbin (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) binasında keçirilmişdir. Qurultayın keçirilməsi üçün Hökumətin 1919 il 2 avqust tarixli qərarı ilə Xalq Maarifi Nazirliyinin sərəncamına 35600 manat məbləğində vəsait ayrılmışdı. Qurultayda Azərbaycanın bütün bölgələrini və tədris müəssisələrini təmsil edən nümayəndələr iştirak edirdi. Qurultayı Türk Müəllimləri İttifaqının sədri Ağa bəy İsrafilbəyov açaraq qurultay iştirakçılarını onun məqsəd və vəzifələri ilə tanış etmişdi.

Qurultayın Xalq Maarifi Nazirliyinə təqdim etdiyi təkliflər əsasında, bütövlükdə, məktəb islahatı, xüsusilə təhsilin məzmunca milliləşdirilməsini əsas tutan proqram və dərsliklərin nəşri üzrə müvafiq layihə hazırlamaq məqsədilə Hökumət komissiyası yaradıldı. 1919 il noyabrın 7-də Maarif Nazirliyi yanında yaradılan islahat komissiyasına xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtlı (sədr), Nurməmməd bəy Şahsuvarov, Azad bəy Əmirov, Fətulla bəy Rzabəyov, Sultanməcid Qənizadə, Abdulla bəy Əfəndizadə, Sara xanım Yaqubova, Sara xanım Xuramoviç, Əhməd bəy Pepinov, Xədicə xanım Ağayeva, Məhəmməd ağa Şahtaxtlı, Cabbar bəy Orucəliyev və Saleh bəy Vəkilov daxil idilər. Komissiya qarşısında növbəti dərs ilinin əvvəlinə kimi məktəb islahatı, o cümlədən təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə Hökumət proqramını hazırlamaq vəzifəsi qoyulmuşdu. Cümhuriyyət Hökumətinin devrilməsi nəticəsində komissiya öz işini başa çatdıra bilməsə də, həmin məsələlərin həlli üzrə müəyyən işlər də görülmüşdü.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Республика (документы и материаль, 1918- 1920) . Б., 1998;Mərdanov M ., Quliyev Ə., Azərbaycan təhsili Xalq Cümuhuriyyəti illərində (1918-1920), B., 2003.

**AZƏRBAYCAN MÜVƏQQƏTİ İNQİLAB KOMİTƏSİ** (AMİK), Azərbaycan Hərbi-İnqilab Komitəsi, Azərbaycan İnqilab Komitəsi - *Aprel işğalı (1920)* nəticəsində Şimali Azərbaycanda yaradılmış ali dövlət hakimiyyəti orqanı. 1920 il aprelin 28-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi tərəfindən elan olunmuşdu. AMİK-in tərkibinə Nəriman Nərimanov (sədr), Əliheydər Qarayev, Həmid Sultanov, Qəzənfər Musabəyov, A.Alimov, Mirzə Davud Hüseynov, Dadaş Bünyadzadə daxil idilər. Nəriman Nərimanov AMİK-in tərkibinə qiyabi olaraq daxil edilmişdi. AMİK Bakı şəhəri və Azərbaycan əhalisinə 1920 il 28 aprel tarixli müraciətində "Müsavat" partiyası hökumətinin devrildiyini, əvəzində fəhlə-kəndli hakimiyyətinin qurulmasını bəyan etdi. Müvəqqəti İnqilab Komitəsinin həmin tarixli qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin tərkibi təsdiq olundu. AMİK-in yerlərdəki orqanları qəza, nahiyə, kənd inqilab komitələri idi. Bu orqan Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin təşkilinə qədər (1921 il, 19 may) fəaliyyət göstərmişdir.

*Əd.:* Декреты Азревкома, Б.,1988.

**AZƏRBAYCAN ORDUSU,** Azərbaycan Xalq Cümhuriyyəti Ordusu - Şimali Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaratdığı milli ordu. Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən başlanmışdı.

Yeni yaradılacaq ordunun əsasını *Müsəlman korpusu* təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk Hökumət kabinəsinin tərkibində Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov Paşa bəy *Sultanov* hərbi nazir təsdiq edilmişdi. Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmiş və Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik Hökumətin qərarı ilə *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşaya həvalə olunmuşdu. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olunmuş və İsmayıl xan *Ziyadxanov* bu vəzifəyə təsdiq edilmişdi.

1918 il iyunun 26-da Hökumətin qərarı ilə Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusu* adlandırıldı və onun ştat cədvəlində qismən dəyişiklik edildi. General-leytenant Əlağa *Şıxlinski* korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirdi.

Ordu quruculuğu sahəsində irəliləyişə nail olmaq üçün Hökumət bir sıra tədbirlər həyata keçirdi. İyun ayının əvvəllərindən *Gəncə Hərbi Məktəbi* fəaliyyətə başladı. Hökumətin qərarı ilə çağırışçılar üçün yaş senzi 19 yaşa endirildi.

Sonra 1894-95 illərdə doğulmuş və islam dininə mənsub gənclərin xidmətə çağırılması barədə qərar qəbul edildi. Çağırış - səfərbərlik işinin təşkili, bu sahədə mövcud olan əyintilərin qarşısının alınması üçün Daxili İşlər Nazirliyinin sərəncamına 5 min rubl vəsait ayrıldı. Hökumətin qərarı ilə Yelizavetpol əxzi-əsgər (əsgərliyə çağırış və ya hərbi çağırış) idarəsi Azərbaycan əxzi-əsgər idarəsi adlandırıldı və bütün ölkə üzrə çağırış işinin təşkili bu idarədə cəmləşdirildi.

Ordu quruculuğunun ilkin mərhələsi S.Şaumyanın başçılıq etdiyi Bakı Komissarlığı daşnak-bolşevik hərbi qüvvələrinin Gəncə istiqamətində fəal döyüş əməliyyatlarına başlaması ilə bir vaxta düşdüyündən ciddi çətinliklərlə qarşılaşdı. Çünki yeni qoşun hissələrinin formalaşdırılması, çağırış və təchizat işlərinin yaxşılaşdırılması gərgin döyüşlərin aparılması ilə eyni vaxta düşmüşdü. Buna görə də *Nuru paşanın* başçılıq etdiyi türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə Cümhuriyyət ordusu zəruri döyüş hazırlığı səviyyəsinə malik deyildi.

Ordu quruculuğunu gücləndirmək məqsədilə 1918 il noyabrın 1 -də Hərbi Nazirliyin yenidən bərpa edilməsi qərara alındı. Hökumətin qarşısında duran tarixi vəzifələrin həllində bu struktura çox böyük əhəmiyyət verildiyi üçün ilk vaxtlar ona rəhbərliyi Nazirlər Şurasının sədri F.x.Xoyski öz üzərinə götürdü. Nazir müavini isə tam artilleriya generalı Səməd bəy *Mehmandarov* təyin edildi və nazirliyin formalaşdırılması ona tapşırıldı. Ordu quruculuğu prosesinə rəhbərlik edəcək mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə başlandı. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də ordunun Ümumi qərargahının təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı.

*Mudros barışığının (1918)* şərtlərinə görə müttəfiq dövlətlər adından Bakıya göndərilən ingilis qüvvələrinin komandanı general Tomson hələ Azərbaycana gəlməmiş türk qoşunları kimi, Azərbaycan qoşunlarının da 1918 il noyabrın 17-dək Bakıdan çıxarılmasını tələb etdi. Çünki Tomson, öz ölkəsinin xarici siyasətinə uyğun olaraq, Bakını istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan Hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918 il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçürüldü. İngilis komandanlığı nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi.

1918 il noyabrın 27-dən dekabrın 3-dək Gəncə və Ağdam ətrafındakı hərbi hissələrə səfər edən S.Mehmandarov şahidi olduğu nöqsanları ümumiləşdirərək, xüsusi əmrlə hissə komandirlərindən onların aradan qaldırılmasını tələb etdi.

1918 ilin sonu - 1919 ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi. Nazirlər Şurasının 25 dekabr 1918 il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918 il tarixli qərarı ilə isə general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Ordu quruculuğunda müsbət dəyişikliklər baş verdikcə mövcud idarəetmə strukturları da təkmilləşdirilirdi. Hərbi nazirin 1918 il 31 dekabr tarixli 40 saylı əmrilə Ümumi qərargahın tərkibindəki topçu şöbəsinin əsasında *Topçu idarəsi* yaradıldı. İdarə texniki və təftiş bölmələrindən ibarət idi. Texniki bölmə Azərbaycan ordusunun bütün nizami hissələrinin topçu texnikası, sursat və ləvazimatla təchiz olunması, bütünlükdə, topçu əmlakının mühafizəsi ilə məşğul olmalı, bunun üçün lazımi metodiki göstərişləri hazırlamalı, təftiş bölməsi isə topçu hissələrinin döyüş hazırlığı ilə məşğul olmalı və bunun üçün zəruri olan təlimatları, həmçinin metodiki sənədləri hazırlamalı idi.

*Azərbaycan ordusunun quruluşu*
*(1920, mart)*





Milli ordunun rabitəçiləri. 1919

Bir qədər sonra Ümumi qərargahın tərkibindəki İstehkamat şöbəsi də İstehkamat idarəsinə çevrildi.

Nazirliyin rəhbərliyi hərbi xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Azərbaycan ordusunun qanunvericilik bazasını qısa müddətdə yaratmaq mümkün olmadığı üçün, hərbi nazirin 1919 ilin əvvəlində imzaladığı əmrlə keçmiş Rusiya imperiyasında 1917 il yanvar ayının 1-dək qəbul edilmiş hərbi qanunvericilik aktları, müvəqqəti olaraq, qüvvədə saxlanıldı. Bura hərbi nizamnamələr, döyüş təlimatları, hərbi xidmətin bütün sahələrini tənzimləyən sənədlər, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə təlimatlar və s. daxil idi. Lakin bu qanunvericilik aktlarının Azərbaycanın müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri ilə uyğun gəlməyən cəhətləri ləğv edilir, həmin məqamlar təkmilləşdirilir və ya yenisi ilə əvəz olunurdu. Həmin qanunvericilik aktlarına uyğun olaraq, Rusiya ordusunda tətbiq edilən hərbi rütbələr olduğu kimi, hərbi rütbələrin fərqlənmə nişanları olan poqonlar isə təkmilləşdirilərək Azərbaycan ordusunda istinad edilməyə başlandı. Əsgər heyəti üçün çavuş və baş çavuş rütbələri tətbiq edildi. Zabit rütbələri isə aşağıdakı kimi idi: praporşik, podporuçik, poruçik, ştabs-kapitan, kapitan podpolkovnik, polkovnik, general-mayor, general-leytenant, tam general. Süvari qoşunlarında tətbiq edilən rütbələr qismən fərqli idi - praporşik, kornet, poruçik, ştabs-kapitan, rotmistr, podpolkovnik, polkovnik, general-mayor, general leytenant, tam genaral.

Rütbələrin fərqlənmə nişanları olan poqonlar da Rusiya ordusunda istifadə olunan poqonlar idi. Ancaq həmin pcqonların üzərində "Azərbaycan" sözü yazılmışdı. Hərbi nazirin 1918 il 27 dekabr tarixli 34 saylı əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlıların salamlaşma ənənələrinə uyğun aparılması təmin olundu.

Azərbaycan dili orduda da dövlət dili kimi qəbul edildi. Qeyri-azərbaycanlı zabitlərdən bir ay müddətində, heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənmək və əsgərlərə Azərbaycan dilində komanda vermək tələb olunurdu. Bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb olundu. Hərbi qulluqçularim geyim formasında milli üsluba uyğun dəyişikliklər edildi. Bununla əlaqədar yaradılan xüsusi komissiyaya general-leytenant Əlağa Şıxlinski sədrlik edirdi. Komissiyanm hazırladığı geyim forması 1919 il yanvarın 11-dən rəsmiləşdirildi.

Gəncə yunker məktəbinin əsgər və zabitləri. 1918





Milli ordunun zabitləri. 1919

Milli hərbi kadrların hazırlanması üçün tədbirlər həyata keçirildi. Gəncədə fəaliyyətə başlamış milli hərbiyyə (podpraporşiklər) məktəbinin fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq praporşiklər məktəbinə çevrildi. Bu statusun mahiyyəti ondan ibarət idi ki, əgər əvvəlcə bu məktəbi bitirənlər ilkin zabit rütbəsini yalnız hissələrdə bir neçə ay xidmət etdikdən və zabitliyə layiq olduqlarını sübuta yetirdikdən sonra alırdılarsa, praporşiklər məktəbini bitirənlərə ilkin zabit rütbəsi olan praporşik rütbəsi dərhal verilirdi. 1919 ilin sonunda isə praporşiklər məktəbinin bazasında *Hərbiyyə məktəbi* açıldı. Bundan başqa, milli hərbi kadrlar hazırlayan İstehkamçılar, *Hərbi dəmiryolçular* və *Hərbi feldşer məktəbləri* də açılmışdı.

1918 il dekabrın 25-də S.Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Müraciətdə əvvəllər çağırış işində yol verilən nöqsanlara, hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, ağır məişət şəraitinə toxunulmaqla bərabər, bu halların aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsinə başlandığı da bəyan edilirdi.

1919 il yanvarın 10-da Hərbi Nazirlikdə müvəqqəti hərbi şura yaradıldı (bax *Hərbi Şura).* Əsasnaməsi və daimi tərkibi təsdiq edilənə qədər Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirəsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olurdu. Onun tərkibinə piyada və süvari diviziyalarının komandirləri, Ümumi qərargahın rəisi, topçu, istehkamat və yeni yaradılmış ləvazimat idarələrinin rəisləri, *General-kvartirmeyster,* növbətçi general və tapşırıq generalı daxil idi.1919 ilin martında Azərbaycan ordusunun idarəetme orqanlarında mühüm keyfiyyət dəyişikliyi meydana gəldi. Hərbi nazirin əmri ilə mart ayının 26-da Baş ərkani-hərb (Baş qərargah) təsis edildi və general-leytenant Məmməd bəy *Sulkeviç* bu orqanın rəisi təyin edildi. Bundan sonra ordu hissələrinin formalaşdırılması daha ahəngdar xarakter aldı. 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi, 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdırıldı.

Azərbaycandakı ingilis qüvvələrinin komandanlığı 1919 il aprelin əvvəllərində milli qoşun hissələrinin azsaylı kontingentinin Bakıda da yerləşdirilməsinə icazə verdi. Hərbi nazirin əmri ilə Bakıda yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Bu qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Azərbaycan qoşun hissələrinin Bakıya daxil olması münasibətilə hərbi nazir S.Mehmandarov da paytaxta gəldi. Şəhər əhalisi Azərbaycan ordusunun qoşun hissələrini çox böyük ruh yüksəkliyi və təntənə ilə qarşıladı.

1919 ilin yayında və payızında Azərbaycan ordu hissələrinin formalaşdırılması böyük sürətlə davam etdirildi. İngilis qoşunlarının Azərbaycan ərazisini tərk etməyə başlaması ilə 1919 il iyunun sonu - iyulun əvvəllərində Hərbi Nazirliyin rəhbər orqanları yenidən Bakıya köçürüldü.

1919 ilin iyun - iyul aylarında Zaqatala və Bakı piyada alaylarının formalaşdırılması başa çatdıqdan sonra *İkinci piyada diviziyasının* təşkil edilməsi zərurəti yarandı. Hərbi nazirin 1919 il 14 iyul tarixli müvafiq əmri ilə 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə alayları *Birinci*



Milli ordunun orkestri

*piyada diviziyasında,* 4-cü Quba və 5-ci Bakı piyada alayları isə 2-ci piyada diviziyasında birləşdirildilər.

Milli ordunun qoşun hissələri 1919 il avqustun 12-dən sentyabr ayının 3-dək *Lənkəran əməliyyatında* iştirak edərək, ölkənin cənub bölgəsində respublikanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı döyüş tapşırığını uğurla yerinə yetirdilər.

1919 ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri *Bakı istehkamçılar hissəsi* idi. Bu strukturun yaradılmasından başlıca məqsəd şimaldan, xüsusən dənizdən ehtimal olunan Denikin təhlükəsinin qarşısını almaq və bütünlüklə, Bakı şəhərinin etibarlı müdafiəsini təşkil etmək idi.

Sentyabr ayında Bakı hərbi limanının, təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının, mövqe batareyasının ştatlarının formalaşdırılmasına başlandı. Sentyabrın 14-dən təyyarə dəstəsinin və zirehli avtomobillər dəstəsinin, sentyabrın 24-dən mövqe batareyasının, oktyabrın 1-dən isə "Astarabad" hərbi gəmisinin ştatlarının formalaşdırılması başa çatdırıldı.

6-cı Göyçay piyäda alayının formalaşdırılması böyük sürətlə aparılırdı. Qışlaların çatışmamasına, geyim, ərzaq çətinliklərinin olmasına baxmayaraq, 1919 il oktyabrın sonuna qədər alayın təşkili, demək olar ki, başa çatdırıldı.

Milli ordu hissələri 1919 il noyabrın 3-dən 7-əsasən, 1-ci piyada diviziyasının hissələrindən təşkil edilmiş *Zəngəzur ekspedisiyasının* tərkibində ermən qüvvələrinə qarşı döyüş tapşırığını yerinə yetirdilər. 1919 ilin sonuna kimi Lənkəran köməkçi (ehtiyat) taboru alaya çevrilərək, 7-ci Şirvan alayı adlandırıldı. Həmin il 8 -ci Ağdaş piyada alayının və Zəngəzurda yerli əhalidə ibarət xüsusi hərbi hissələrin formalaşdırılması başa çatdırıldı.

Hərbi nazirlik bütün bu təşkilati işləri həyata keçirməklə 1919 ilin sonunadək Azərbaycan ordusun heyətinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa, 1920 ildə isə ordunun sayını 40 min nəfərə, atların sayını 10 min başa çatdırmağı nəzərdə tuturdu. Buna nail olmaq üçün 1920 ilin ilk günlərindən etibarən çox geniş quruculuq işlərinin aparılması planlaşdırıldı. Tərtib edilmiş fəaliyyət planına görə il ərzində 9-cu piyada alayı, 4-cü süvari alayı, iki qaubitsa batareyası, qaubitsa divizionunun qərargahı, bir dağ-süvari batareyası, dağ-süvari divizionun qərargahı, üç batareyadan ibarət yüngül səhra divizionu və onun qərargahı, hər biri bir bölükdən ibarət olan məhəlli komanda və hər biri yarım bölükdən ibarət olan üç məhəlli komanda yaradılmalı idi.

Milli ordunun poqonu



1919 ilin yayından əvvəlcə Qarabağda, sonra Lənkəranda, daha sonra isə Zəngəzurda hərbi şəraitin kəskinləşməsinə baxmayaraq, hərbi nazirliyin rəhbərliyi on quruculuğu işindəki ahəngdarlığı saxlamağa çalışırdı. 1920 ilin elə ilk günündən 3-cü zirehli qatarın komplektləşdirilməsinə başlandı. 1920 ilin əvvəllərində növbəti çağırış

səfərbərlik kampaniyası başlandı və ordunun ali idarəetmə orqanlarında əsaslı struktur dəyişiklikləri aparıldı. Həmin ilin mart ayında Baş ərkani-hərblə (Baş qərargahla) Ümumi qərargah birləşdirilərək *Azərbaycan Ordusunun Qərargahı* yaradıldı. Mərkəzi təminat və təchizat orqanları isə birləşdirilərək *Azərbaycan ordusu təchizat rəisinin idarəsi* təşkil edildi.

1920 il bolşevik işğalı ərəfəsində Azərbaycan ordusunun əsas döyüş hissələri və birləşmələri aşağıdakılar idi: 8 alaydan ibarət iki piyada diviziyası, 3 alaydan ibarət süvari diviziyası və iki topçu briqadası. Bunlardan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilmişdi. Hər pulemyot bölüyünün tərkibində 8 pulemyot var idi. Bundan başqa, hər alayda bir süvari kəşfiyyat bölüyü, bir piyada kəşfiyyat bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Alayların ştat tərkibi onların hamısında eyni deyildi. Məsələn, 1-ci Cavanşir piyada alayının ştat tərkibi 2881 nəfər, 2-ci Zaqatala piyada alayınınkı isə 2834 nəfər idi.

Süvari alayları üç süvari bölüyündən, pulemyot bölüyündən, təlim və rabitə komandalarından ibarət idi. Süvari bölüyünün ştat tərkibi 356 nəfərdən, süvari alayının ştat tərkibi isə 744 nəfərdən ibarət idi.

Topçu briqadaları iki diviziondan təşkil edilmişdilər. Bu divizionlardan biri yüngül topçu divizionu, digəri isə dağ topçu divizionu idi. Yüngül topçu divizionunda üç batareya, dağ topçu divizionunda isə iki batareya vardi. Hər batareyanın sərəncamına dörd ədəd top verilmişdi.

1920 ilin mart ayında bu qüvvələr bütünlüklə Qarabağ əməliyyatına və Ermənistanla sərhəd xəttində irimiqyaslı erməni təcavüzünə qarşı mübarizəyə səfərbər olundular. Nəticədə, şimal sərhədinin müdafiə sisteminin zəifləməsi bolşevik işğalı üçün daha əlverişli şərait yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə ölkənin müstəqilliyinə və milli mənafelərə xidmət edən ordu quruculuğu yarımçıq qaldı. *Aprel işğalından (1920)* dərhal sonra Cümhuriyyət ordusunun hissələri ləğv edildi, müstəqillik dövründə milli ordu üçün yaradılmış maddi-texniki baza isə talan olundu.

**AZƏRBAYCAN ORDUSU TƏCHİZAT RƏİSİNİN İDARƏSİ -** Azərbaycan ordusunun təchizat məsələlərini həll edən qurum. Hərbi nazirlikdə təchizat sahəsində aparılan islahatlar nəticəsində 1920 il martın 15-də yaradılmışdı.Milli ordunun təchizat və təminat məsələlərini mərkəzləşdirilmiş şəkildə həll edən bu orqanın tərkibinə ləvazimat idarəsi, istehkam təchizatı idarəsi, topçu təchizatı idarəsi, hərbi-səhiyyə hissəsi rəisinin idarəsi və hərbi-baytar hissəsi rəisinin idarəsi daxil idi. Müstəqil şəkildə fəaliyyət göstərdikləri vaxtdan fərqli olaraq, yeni strukturun tərkibində bu idarələr baş idarə deyildilər. Hərbi nazirin 1920 il 15 mart tarixli əmri ilə general-mayor Məhəmməd Mirzə *Qacar* Azərbaycan ordusunun təchizat idarəsinin rəisi təyin edilmişdi.

**AZƏRBAYCN ORDUSUNUN QƏRARGAHI** Azərbaycan Xalq Cümhuriyyəti ordusunun ali hərbi idarəetmə orqanı. Qoşun hissələrinin yaradılması, komplektləşdirilməsi, təlim-tərbiyəsi, dislokasiyası, daxili təsərrüfat xidmətlərinin qurulması və döyüş tapşırıqlarının yerinə yetirilməsi işlərinə rəhbərlik edirdi. Hərbi nazirin 1920 il 17 fevral tarixli əmrinə əsasən, Baş ərkani-hərb və Ümumi qərargah birləşdirilmiş, hər iki qurumun funksiyaları Azərbaycan ordusu qərargahına həvalə olunmuşdu. General-mayor Həbib bəy Səlimov Azərbaycan ordusu qərargahının rəisi təyin edilmişdi.

Azərbaycan ordusu qərargahının strukturu belə idi: l.Növbətçi generalın idarəsi: a) ümumi bölmə, b) təftiş bölməsi, c) pensiya bölməsi, ç) qeyri-nizami bölmə, d) nəşriyyat; 2. General-kvartirmeyster idarəsi: a) əməliyyat-kəşfiyyat bölməsi, b) səfərbərlik bölməsi və məhəlli qoşunlar şöbəsi, c) hərbi əlaqələr (daşınmalar) bölməsi, ç) nizami və ümumi bölmə, d) rabitə komandası; 3. Hərbi topoqrafiya şöbəsi: a) xəritəçəkmə bölməsi, b) anbar; 4. Hərbi ədliyyə hissəsi; 5. Hərbi nazirliyin dəftərxanası: a) qanunvericilik -kodifikasiya bölməsi, b) maliyyə bölməsi.Hərbi nazirliyin aparatı da daxil olmaqla, Azərbaycan ordusu qərargahının ştatında 11 general, 33 qərargah zabiti, 25 baş zabit, 18 məmur və 270 əsgər, həmçinin 16 at və 26 nəqliyyat vasitəsi var idi.

*Əd.:* В., Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материаль), Б., 1998; Süleymanov M, Azərbaycan ordusu (1918-1920), B., 1998; yenə onun, Mehmandarov, B., 2000.

**AZƏRBAYCAN-OSMANLI MÜQAVİLƏLƏRİ-** (1918) - Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperatorluğu arasında bağlanmış sülh, dostluq və əməkdaşlıq müqavilələri. Batumda və Gəncədə bağlanmış bu müqavi-




Ümumi qərargah – general-mayor Həbib bəy Səlimov
Növbətçi generalın idarəsi – general-mayor H.Qaytabaşı
Ümumi bölmə podpolkovnik Kolin
Təftiş bölməsi podpolkovnik Pankov
Nəşriyyat – polkovnik Lısyakov
Pensiya bölməsi
Rabitə komandası
General-kvartirmeysterin idarəsi – polkovnik Karqaleteli
Əməliyyat-kəşfiyyat bölməsi – polkovnik Hacıbəylinski
Səfərbərlik bölməsi və məhəlli qoşunlar şöbəsi – polkovnik Seyfulin
Nizami və Ümumi bölmə – podpolkovnik Maqrubov
Hərbi əlaqələr – (daşınmalar) rotmistr Xudaverdov
Topoqrafiya şöbəsi – general-mayor İbrahim ağa Usubov
Xəritəçəkmə bölməsi
Anbar
Hərbi ədliyyə hissəsi – general-mayor Dubrovski
Hərbi nazirliyin dəftərxanası – Tahirov
Qanunvericilik kodifikasiya bölməsi
Maliyyə bölməsi – Vəzirov

lələrə əsasən iki dövlət arasındakı sərhədlər, ticarət, poçt-teleqraf əlaqələri və digər iqtisadi-siyasi məsələlər nizama salınırdı (bax *Batum müqavilələri (1918); Batum müqaviləsinə əlavə sazişlər),*

**"AZƏRBAYCAN RESPUBLİKASININ 1920 İL ÜÇÜN ÜNVAN-TƏQVİMİ"** - məlumat-soraq kitabı. 1919 il iyunun 28-də Azərbaycan Hökuməti rus və türk (Azərbaycan) dillərində məlumat kitabının nəşrini bəyənmiş və Parlamentə həmin toplunun nəşri barədə qanun layihəsi təqdim etməyi qərara almışdı (bax *"Adres-kalendar Azerbaydjanskoy Respubliki na 1920 qod").*

**AZƏRBAYCAN TELEQRAF AGENTLİYİ (AZƏRTAc)** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət informasiya orqanı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 3 mart tarixli qərarı ilə yaradılmışdır. Hə-min qərara əsasən, əvvəllər Maarif Nazirliyi yanında fəaliyyət göstərirdi. Sonra Poçt və Teleqraf Nazirliyinin sərən-camına verilmiş, yalnız 1919 ilin avqustundan müstəqil fəaliyyətə başlamışdı. Hökumət 1920 il fevralın 2-də poçt və teleqraf nazirinin təqdimatı ilə Azərbaycan Teleqraf Agentliyinin yaradılması haqqında yeni qərar qəbul etmişdi. Qərara əsasən agentliyin Əsasnaməsi və ştatı Parlament tərəfindən təsdiq edilənə qədər nazirlik onun xərclərini radio verilişlərindən əldə olunan gəlirlərin hesabına ödəməli idi. Beləliklə, AZƏRTAc 1920 il martın 1-dən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası yanında müstəqil quruma çevrilmişdi. Bu zaman Azərbaycanın müstəqilliyi artıq Antanta dövlətləri tərəfindən *de-fakto* tanınmış, Azərbaycan Xalq Cümhuriyyətinin xaricdə nümayəndəlikləri yaradılmışdı. Bakıda isə xarici dövlətlərin diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi. Xarici dövlətlərlə əlaqə yaratmaq üçün naqilsiz teleqraf aparatları da alınmışdı. Agentliyin xəbərləri qəzetlərdə dərc olunurdu. Həm Azərbaycanın daxilində, həm də ölkə xaricində baş verən hadisələr operativ işıqlandırılırdı. Agentliyin axırıncı xəbərləri

*Azərbaycanda ilk radiostansiyanın fəaliyyətə başlaması münasibətilə Əlimərdan bəy Topçubaşovun təbrik məktubu. 1919, 28 noyabr*


ТЕЛЕГРАММА, которая будет передана по РАДІО с Эйфелевой башни на РАДІОСТАНЦІЮ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ в городъ ГЯНДЖЪ / Елисаветполь /.

ГЯНДЖА / ЕЛИСАВЕТПОЛЬ

Предсѣдателю Совѣта Министров Азербайджанской Республики.

Привѣтствуем начало функціонированія первой азербайджанской радіостанціи, которой суждено играть большую роль в культурно-экономическом развитіи нашей дорогой родины.

Предсѣдатель Делегаціи

1920 il 28 aprel tarixli qəzetlərdə verilmişdi. *Aprel işğalından (1920)* sonra AZƏRTAc Azərbaycan Mətbuat Mərkəzinin tərkibində Rusiya Teleqraf Agentliyi Qafqaz Ölkə Müvəkkilliyinin şöbəsi kimi fəaliyyət göstərmiş, Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1921 ildən Azərbaycan Teleqraf Agentliyinə (Azər.TA) çevrilmişdi. 1972 ildən "Azərinform" adlanırdı. Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) tərkibinə daxil idi. Azərbaycan yenidən dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 1992 il 18 dekabr tarixli sərəncamı ilə bu qurumun tarixi adı (AZƏRTAc) özünə qaytarılmışdır. Azərbaycan Respublikası Prezidentinin 1995 il 3 mart tarixli fərmanı ilə ənənəvi adı saxlanılmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinə, 2000 il 17 yanvar tarixli fərmanla isə müstəqil Azərbaycan Dövlət Teleqraf Agentliyinə çevrilmişdir.

"AZƏRTAc" müasir Azərbaycan həqiqətlərini, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, iqtisadiyyatın inkişafını, sosial-mədəni sahədə qazanılmış uğurları, respublikanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini əks etdirən informasiya və fotoinformasiyaları yayır, dünyada cərəyan edən ən mühüm hadisələr barədə operativ məlumat verir.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B.,1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**AZƏRBAYCAN TÜRK DÖVLƏTİ** - 1918-20 illərin mətbuat səhifələrində Azərbaycan Xalq Cümhuriyyətinin adlarından biri. Dövrün bir çox ziyalıları öz yazılarında Azərbaycan Xalq Cümhuriyyətini Azərbaycan Türk Dövləti adlandırırdılar.

**AZƏRBAYCAN VƏTƏNDAŞLIĞI HAQQINDA ƏSASNAMƏ** - Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlıq normalarının müəyyən edən hüquqi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 23 avqust tarixli qərarı ilə təsdiq olunmuşdur. Əsasnamənin birinci maddəsinə görə, 1914 il iyulun 19-na qədər Azərbaycan Xalq Cümhuriyyətinin ərazisində yaşamış və hər hansı inzibati idarə və ya ictimai zümrə tərəfindən qeydə alınmış hər bir şəxs, həmçinin istər ölkə daxilində və ya onun xaricində Azərbaycan vətəndaşından doğulmuş, ölkə ərazisində 5 ildən yuxarı yaşamış və ölkədə məskunlaşmış, yəni evləri, iş yerləri olan şəxslər Azərbaycan vətəndaşı hesab edilirdi. Xarici vətəndaş Azərbaycan vətəndaşı ilə nikaha girdikdə o, Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşı hesab olu-nurdu. Azərbaycan vətəndaşı eyni vaxtda başqa ölkənin vətəndaşı ola bilməzdi. Yalnız Azərbaycan Xalq Cümhuriy-yətinin vətəndaşları ölkədəki bütün siyasi hüquqlara (mərkəzi qanunvericilik və yerli özünüidarə orqanlarına seçki-lərdə fəal və passiv iştirak etmək hüququna və s. hüquqlara) malik idilər. Əsasnaməyə görə, Hökumətə xarici ölkə və-təndaşlarının dövlət qulluğuna dəvət etmək səlahiyyəti verilirdi. Əsasnamədə xarici vətəndaşın Azərbaycan vətəndaş-lığını qəbul etməsi və ya Azərbaycan vətəndaşının digər ölkənin vətəndaşlığına keçməsi qaydalarının xüsusi qanunla müəyyən ediləcəyi qeyd olunmuşdu.

1919 il avqustun 11-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində *Azərbaycan Vətəndaşlığı Haqqında Qanun* qəbul edildikdən sonra Hökumətin Azərbaycan Vətəndaşlığı Haqqında Əsasnaməsi qüvvədən düşdü.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**AZƏRBAYCAN VƏTƏNDAŞLIĞI HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlıq normalarını müəyyən edən qanunvericilik aktı. 1919 il avqustun 11 –də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmişdir. Qanun 4 bölmədən ibarət idi: 1. Vətəndaşlığın müəyyən edilməsi; 2. Vətəndaşlığın verilməsi; 3. Vətəndaşlığın itirilməsi; 4. Azərbaycan vətəndaşlığı haqqında 1918 il 23 avqust tarixli Əsasnamənin qüvvədən düşməsi.

Qanunun birinci bölməsinin 1-ci maddəsinə əsasən, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, özləri və ya valideynləri Azərbaycan Xalq Cümhuriyyəti ərazisində doğulmuş keçmiş Rusiya imperiyası vətəndaşları Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşları hesab olunurdu.

Qanuna görə, Azərbaycan vətəndaşlarından doğulanlar, Azərbaycan vətəndaşlarına ərə getmiş xarici vətəndaşlar, 17 yaşı tamam olmamış və Azərbaycan vətəndaşı tərəfindən övladlığa götürülmüş xarici vətəndaşlar Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşı hüququ qazanırdılar. Xarici vətəndaşa ərə getmiş Azərbaycan vətəndaşı boşandıqda, 17 yaşına çatmamış Azərbaycan vətəndaşının xarici vətəndaşdan doğulmuş övladı, elmi və digər istedadı ilə Azərbaycana xüsusi xidmət göstərmiş və Azərbaycana köçmüş xarici vətəndaş, Azərbaycanda hərbi və mülki xidmətdə olan xarici vətəndaş da Azərbaycan vətəndaşlığı hüququ əldə edirdi. Azərbaycan vətəndaşlığını qəbul edən hər bir şəxs Azərbaycan dövlətinə sədaqət barədə Əsasnamədə olan xüsusi mətn əsasında and içməli idi (bax *Vətəndaşlıq haqqında and).*

Azərbaycan vətəndaşı başqa ölkənin vətəndaşlığını qəbul etdikdə o, Azərbaycan vətəndaşlığı hüququnu itirirdi. Azərbaycan vətəndaşlığından çıxmaq istəyən şəxslər yerli dairə məhkəmələrinin inzibati bölməsinə ərizə ilə müraciət etməli və öz ərizələrində hansı ölkənin vətəndaşlığını qəbul etdiklərini bildirməli idilər. Azərbaycan vətəndaşlığından çıxmış şəxs yenidən Azərbaycan vətəndaşlığına qayıtmaq barədə yalnız 5 ildən sonra ərizə ilə müraciət edə bilərdi. İcazəsiz olaraq xarici vətəndaşlığı qəbul etmiş şəxslər isə yalnız Cümhuriyyət Hökuməti daxili işlər nazirinin xüsusi icazəsi ilə yenidən Azərbaycan vətəndaşlığını qəbul edə bilərdilər.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**AZƏRBAYCANIN BATUM BAŞ KONSULLUĞU -** Türkiyə və Avropa ölkələri ilə normal iqtisadi və ticarət əlaqələri saxlamaq, beynəlxalq aləmdə baş verən hadisələrdən müntəzəm və operativ xəbər tutmaq üçün Azər-baycan Xalq Cümhuriyyətinin təsis etdiyi nümayəndəlik. Qara dəniz hövzəsində ən mühüm liman şəhəri, Azərbaycan dəmir yolu və ağ neft kəmərinin Avropaya çıxış məntəqəsi olan Batumda nümayəndəlik yaradılmasının zəruriliyini Məhəmməd Əmin Rəsulzadə 1918 ilin yayında İstanbulda Azərbaycan nümayəndə heyətinin başçısı kimi fəaliyyət göstərərkən bildirmişdi.

Azərbaycan Hökuməti Batumun ölkə üçün iqtisadi, ticarət və Avropa dövlətləri ilə əlaqələr qurmaq baxımından mühüm əhəmiyyətini nəzərə alaraq, 1918 il noyabrın 10-da orada konsulluq yaratmağı qərara aldı. Doktor Mahmud bəy Əfəndiyev Azərbaycanın Batumda konsulu təyin edildi. Konsulluğun katibi doktor Əziz bəy Qədimbəyov, kargüzarı Safuət əfəndi Ağayev idi.

Azərbaycanın Batumdakı konsulluğu ölkəyə aid yüklərin Batum limanında qəbul edilməsi və yola salınması, nəqliyyat vasitələri, xüsusən yük vaqonları və vaqon-sisternlərlə bağlı mübahisələrin tənzimlənməsi, diplomatik kuryer və poçtla əlaqədar məsələlərin nizama salınması sahəsində mühüm rol oynamışdı.

Konsulluq bölgədə türk və müsəlman əhalinin problemlərinin həllində də fəal iştirak edirdi. Məsələn, konsul-luq 1919 ilin mart ayında bölgədəki Azərbaycan təbəələrinə 10 min rubl, 1919 ilin mayında normal fəaliyyət göstər-məsi üçün Batumdakı türk məktəbinə 10 min rubl yardım etmişdi.

1919 il sentyabrın 27-də konsulluq nəzdində ticarət şöbəsi yaradıldı. Şöbənin tərkibinə yollar, ticarət və sənaye, həmçinin ərzaq nazirliklərinin nümayəndələri daxil edildi. Həmin ilin oktyabr ayında Batumdakı konsulluq baş konsulluğa çevrildi. Oktyabrın 18-də Batum baş konsulluğuna Azərbaycan Dövlət bankının müxbiri vəzifəsi həvalə edildi və Batumda Azərbaycan Hökumətinin hesabına daxil olan vəsaitin Dövlət bankına köçürülməsini təmin etmək ona tapşırıldı. Oktyabrın 22-də isə Batum baş konsulluğunun ticarət şöbəsi yanında Azərbaycan Maliyyə Nazirliyi nümayəndəliyinin təsis edilməsi qərara alındı.

Azərbaycanın Batum baş konsulluğu fəaliyyət göstərdiyi dövr ərzində Azərbaycan dövlətinin və vətəndaşlarının mənafeyinin qorunmasında mühüm rol oynamışdı.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920),Внешняя политика (документы и материалы), Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998.

**AZƏRBAYCANIN DAĞLILAR RESPUBLİKASINDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** Azər-baycan Xalq Cümhuriyyətinin xarici ölkələrdə yaratdığı diplomatik nümayəndəliklərdən biri. 1919 ilin fevral-sentyabr aylarında fəaliyyət göstərmişdir. Cümhuriyyət Hökuməti Dağlılar Respublikası ilə müntəzəm əlaqələr yaratmaq, Şimali Qafqazda baş verən siyasi və hərbi prosesləri yaxından izləmək üçün 1919 ilin əvvəlində Dağlılar Respublikasında diplomatik nümayəndəlik yaratmağı qərara aldı. Fevralın ilk günlərində Dağlılar Respublikası hökuməti Əbdürrəhim bəy *Haqverdiyevin* diplomatik nümayəndə təyin olunmasına razılıq verdi. Fevralın 25-də Azərbaycan Hökuməti Ə.Haqverdiyevi bu vəzifəyə təyin etdi və Temirxan-Şuraya göndərdi. Azərbaycan diplomatik nümayəndəliyi martın 28-də Temirxan-Şurada fəaliyyətə başladı və elə həmin gün Azərbaycan Xarici İşlər Nazir-liyinə Denikin ordusunun və rus kazaklarının Terek vilayətinə, həmçinin Çeçenistana hücum etmələri haqqında məlumat göndərdi. Ə.Haqverdiyev 1919 il martın 30-da öz etimadnaməsini Dağlılar Respublikası hökumətinin sədrinə təqdim etdi, 31-də isə bütün nazirlərlə görüşdü və Dağlılar parlamentinin iclasının iştirakçısı oldu.

Dağlılar Respublikası üçün son dərəcə ağır olan həmin günlərdə Azərbaycan diplomatik nümayəndəliyinin Temirxan-Şurada fəaliyyətə başlaması Dağlılar Respublikası və bütün Şimali Qafqaz xalqlarına böyük mənəvi və siyasi yardım idi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin bu addımı Şimali Qafqazda sevinclə qarşılanmış, ruh yüksəkliyi doğurmuşdu. Diplomatik nümayəndəlik Dağlılar Respublikasındakı Azərbaycan vətəndaşları ilə əlaqə yaratmış, onların hüquqlarının qorunması, ehtiyacı olanlara yardım göstərilməsi işini təşkil etmişdi.

Ə.Haqverdiyev aprel-may aylarında Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatlarda Denikin ordusunun Dağlılar Respublikasına qarşı hərbi əməliyyatları, Dağlılar parlamentində və ictimai dairələrdə Dağıstanın Azərbaycanla birləşməsi məsələsinin qaldırılması və bununla bağlı müzakirələrin gedişi, mayın 31-də Dağlılar Respublikasında general M.Xəlilovun hakimiyyət başına gəlməsi haqqında dəqiq və təfsilatlı informasiya vermişdi. O, iyunun 7-də göndərdiyi məlumatda Denikin ordusunun bütün Dağıstanı tutması, Port-Petrovsk və Dərbənddəki hərbi qüvvələrin sayı və tərkibi haqqında bilgi vermiş, yerli əhalinin əhvali-ruhiyyəsini nəzərə alaraq, Cənubi Dağıstanın Dərbəndlə birlikdə Azərbaycana birləşdirilməsi üçün təcili addımlar atılmasını məsləhət görmüşdü.

Azərbaycan diplomatik nümayəndəliyinin bu fəaliyyəti Denikin ordusunun komandanlığını qəzəbləndirmiş, Terek və Dağıstan vilayətlərinin hərbi rəisi general Erdelinin tələbi ilə Ə.Haqverdiyev 1919 il iyulun 3-də Temirxan-Şuranı tərk edərək Azərbaycana qayıtmalı olmuşdu. Azərbaycanın konsulluq nümayəndəsi yalnız Port-Petrovskdan Azərbaycana gəlmək istəyənlərə buraxılış vərəqələri verilməsini teşkil etmək üçün saxlanılmışdı. Lakin general Erdeli Azərbaycan konsulluq nümayəndəsinin də fəaliyyətini qadağan etdi. Bununla əlaqədar Azərbaycan xarici işlər nazirliyi 1919 il oktyabrın 1-dən Azərbaycanın Dağlılar Respublikasındakı diplomatik nümayəndəliyini ləğv etdi.

Əd.: Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998;

**AZƏRBAYCANIN DOVLƏT MÜSTƏQİLLİYİNİN ELAN EDİLMƏSİ HAQQINDA QƏRAR** *Azərbaycan Milli Şurasının* qərarına (1918, 28 may) əsasən, Azərbaycanın müstəqilliyini rəsmən elan edən sənəd. Ətraflı məlumat üçün (bax *İstiqlai bəyannaməsi).*

**AZƏRBAYCANIN GÜRCÜSTANDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - Azərbaycan Xalq Cümhuriyyətini Gürcüstan Respublikasında təmsil edən elçilik. 1918 ilin iyun ayında təsis edilmişdi. *Azərbaycan Milli Şurasının* üzvü Məmməd Yusif *Cəfərov* Azərbaycanın Gürcüstanda diplomatik nümayəndəsi təyin olunmuşdu. Azərbaycan Hökuməti Gəncəyə köçdükdən (1918,16 iyun) sonra iki ölkə arasında müntəzəm əlaqələrin qurulması və inkişaf etdirilməsində bu nümayəndəliyin misilsiz rolu oldu. M.Y.Cəfərovun 1918 il iyunun 21-də Xarici İşlər Nazirliyinə ünvanladığı məxfi məlumatında Gürcüstan hökumətinin Azərbaycanla münasibətləri yaxşılaşdırmaq istəyi, keçmiş Zaqafqaziya hökumətinin əmlakının bölüşdürülməsi təklifi, Gürcüstandakı alman alayının Bakıya hərəkət etmək niyyəti haqqında bilgi verildi. İyunun 22-də isə Azərbaycan xarici işlər naziri ona tapşırıq verdi ki, Azərbaycan Hökumətinin mübahisəli ərazilər məsələsinə baxılması üçün xüsusi komissiya yaradılması haqqında təklifini Gürcüstan və Ermənistan hökumətlərinə çatdırsın.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi ilk vaxtlar Azərbaycan Hökumətinin tapşırıqlarını Ermənistan hökumətinə çatdırmaq funksiyasını da icra etməli oldu. Çünki Azərbaycan Hökuməti yalnız 1918 il sentyabrın 12-də Ermənistan Respublikasında diplomatik nümayəndəlik yaratmağı qərara aldı. 1918 il avqustun 15-də Məmməd Yusif Cəfərov Azərbaycan Hökuməti adından Ermənistan Respublikasının Gürcüstandakı işlər vəkili A.Camalyana nota verərək, Andronikin başçılığı ilə erməni hərbi hissələrinin Zəngəzur və Şuşa bölgələrinə soxulmasını Azərbaycan Respublikasına qarşı düşmənçilik aktı kimi dəyərləndirmiş və bu hərbi birləşmələrin dərhal geri çağırılmasını tələb etmişdi.

Azərbaycan Hökumətinin 1918 il, 12 iyul tarixli qərarı ilə Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinin 1 katib, 1 kargüzar, 1 makinaçı və 1 kuryerdən ibarət ştat tərkibi müəyyən edildi. 1919 ilin yazında Denikin təhlükəsinə qarşı hərbi əməkdaşlığı təşkil etmək üçün diplomatik nümayəndəlik yanında hərbi attaşe vəzifəsi təsis edildi və Azərbaycan hərbi nazirinin təqdimatı ilə podpolkovnik Məmməd bəy Əliyev 1919 il aprelin 8-də bu vəzifəyə təyin edildi. 1919 il mayın 26-da isə Gürcüstandakı diplomatik nümayəndəlik yanında Azərbaycan Maliyyə Nazirliyinin agentliyi yaradıldı. Avqustun 25-də ona Tiflisdə Azərbaycan Dövlət bankının agenti vəzifəsini icra etmək də həvalə olundu.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyi Borçalı qəzasının azərbaycanlı əhalisinin hüquqlarının qorunması, onların erməni və gürcü silahlı dəstələrinin basqınlarından müdafiəsi üçün də fəal iş aparırdı. 1919 il avqustun sonunda M.Y.Cəfərov Almaniya hökumətinin Qafqazdakı nümayəndəsi general fon Kresso 3 dəfə müraciət etmiş, Borçalı qəzasında anarxiyaya və azərbaycanlı əhaliyə qarşı özbaşınalığa son qoyulması üçün beynəlxalq komissiya yaradılmasını və qəzanın özündə təhqiqat aparılmasını təklif etmişdi.

1918 ilin dekabrından M.Y.Cəfərov Azərbaycan Parlamentinin üzvü kimi Bakıda çalışdığından, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinə onun müavini Faris bəy Vəkilov rəhbərlik etmişdir. F.Vəkilov 1919 il yanvarın 16-da Azərbaycan Hökumətinin başçısı Fətəli xan Xoyskiyə göndərdiyi teleqramda türk qoşununun Qars vilayətindən geri çəkilməsindən sonra həmin ərazinin Gürcüstan və Ermənistan tərəfindən işğal olunmaq təhlükəsi haqqında məlumat vermiş, təcili tədbirlər görülməsi zəruriliyini qeyd etmişdi. Azərbaycan Hökumətinin tapşırığı ilə F.Vəkilov 1919 il iyulun 12-də Cənubi Qafqazdakı Britaniya qüvvələrinin komandanı general Q.N.Koriyə nota verərək İrəvan quberniyasında yaşayan azərbaycanlıların Ermənistan nizami ordusu tərəfindən qətl və qarətlərə məruz qalmasına qəti etiraz bildirmiş, dinc əhaliyə qarşı kütləvi zorakılıqlara son qoyulması üçün Ermənistan hökumətinə təsir göstərilməsini tələb etmişdi.

1920 il fevralın 6-da F.Vəkilov Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsi təyin edildi. O, 1920 il aprelin 9-da Tiflisdə işə başlamış Cənubi Qafqaz respublikaları nümayəndələrinin konfransında Azərbaycan nümayəndə heyətinin üzvü kimi iştirak etmişdi. Aprelin 19-da Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyi yanında konsulluq şöbəsi yaradıldı. Şöbəyə R.Nəcəfov müdir təyin edildi. Konsulluq şöbəsi Gürcüstandakı Azərbaycan vətəndaşlarına ticarət işlərində, əmlak, vərəsəlik məsələləri ilə bağlı mübahisələrdə qanun çərçivəsində yardım göstərməli idi.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyi öz fəaliyyəti ilə iki ölkə arasında normal münasibətlər qurulması və inkişaf etdirilməsində, Azərbaycan Hökuməti ilə Tiflisdəki Antanta təmsilçiləri və digər xarici missiyalar arasında əlaqələr saxlanılmasında mühüm rol oynadı.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Документы и материалы по внешней политике Закавказья и Грузии, Тифлис, 1919.

**AZƏRBAYCANIN İRANDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - Azərbaycan Xalq Cümhuriyyətini İran dövlətində təmsil edən elçilik. Azərbaycan müstəqillik qazandıqdan dərhal sonra İranla normal qonşuluq və dostluq münasibətləri yaratmağa başladı. Azərbaycan Hökuməti 1918 il sentyabrın 12-də İrana nümayəndə - işlər vəkili təyin etməyi qərara aldı. Lakin İran tərəfi ilk vaxtlar Azərbaycan Xalq Cümhuriyyətini tanımaq və onunla diplomatik əlaqələr qurmaqdan imtina etdi. 1918 il sentyabrın 6-da Azərbaycanın İstanbuldakı nümayəndə heyətinin başçısı Məhəmməd Əmin Rəsulzadə Azərbaycan xarici işlər nazirinə məlumat verdi ki, Şimali Azərbaycanda müstəqil dövlətin yaradılması barədə *İstiqlal bəyannaməsinin* surətini



*Azərbaycan Xalq Cümhuriyyətinin İranda diplomatik nümayəndəliyinin açılışı*

buradakı İran konsulluğuna təqdim etmiş, İran konsulu isə bu sənədi zərfə qoyub geri qaytarmış, ona əlavə olun-muş vərəqdə bildirmişdi ki, o, Azərbaycan adında dövlətin müstəqilliyini tanımır.

1918 ilin yazında Osmanlı qoşunlarının Cənubi Azərbaycana daxil olmasından sonra Şimali Azərbaycan təbəələrinin mənafeyini qoramaq məqsədilə Təbrizdə Azərbaycan konsulluğu fəaliyyətə başladı. Konsulluğa ilk dövrdə Teymur bəy Məlik-Aslanov, sonra Yusif Ziya və Rauf bəy başçılıq etmişdilər. Türk qoşunlarının 1918 ilin noyabrında Cənubi Azərbaycanı tərk etməsindən sonra İran hökuməti bu konsulluğu bağladı.

İranla ilk diplomatik münasibətlər 1919 ilin martında Azərbaycan Xalq Cümhuriyyətinin Tehrana fövqəladə missiya göndərməsi ilə quruldu. İsmayıl xan Ziyadxanın (Ziyadxanov) başçılıq etdiyi bu missiya şah hökuməti ilə İranın Bakıda və Gəncədə, Azərbaycanın isə Tehran, Təbriz, Rəşt və Məşhəddə diplomatik nümayəndəliklər açmaq təklifini müzakirə etdi. 1919 il iyulun 16-da Azərbaycan Hökuməti İranda diplomatik nümayəndəlik təsis etmək haqqında qərar çıxardı. Azərbaycan xarici işlər nazirinin müavini Adil xan Ziyadxan isə nümayəndəliyin başçısı təyin olundu. Azərbaycanın diplomatik nümayəndəsi Tehranda şah və hökumət üzvləri tərəfindən hörmətlə qəbul edildi. Şah Azərbaycan Xalq Cümhuriyyətinin Təbrizdə və digər şəhərlərdə daimi rəsmi nümayəndəliklərinin açılmasına razılıq verdi. 1920 il fevralın 4-də Ənzəlidə Azərbaycanın vitse-konsulluğu yaradıldı. 1920 il aprelin 1-dən isə Azərbaycan Xalq Cümhuriyyətinin Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Məşhəddə vitse-konsulluğu, Əhər və Xoy şəhərlərində konsul agentlikləri təsis edildi.

Azərbaycanın diplomatik nümayəndəliyi iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə müqavilələr bağlanması üçün danışıqlara başladı. A.Ziyadxan İranda yaşayan azərbaycanlıların mədəni-maarif işlərinə xüsusi diqqət yetirirdi. O, 1920 ilin əvvəlində Azərbaycan xarici işlər nazirinə ünvanladığı məktubda diplomatik nümayəndəliyin xeyriyyə cəmiyyəti və Azərbaycan türkcəsini öyrədən cəmiyyət yaratdığını, dul qadınlara və yetimlərə yardım göstərmək, türk dilində məktəb açmaq, türkcə qəzet nəşr etmək və sair işlər görə bilmək üçün maddi vəsaitə ehtiyacı olduğunu bildirmişdi. A.Ziyadxanov Naxçıvandan didərgin düşənlərə yardım göstərilməsi, İran ermənilərinin Naxçıvana hücumunun qarşısının alınması istiqamətində də fəal iş aparırdı.

İrandakı Azərbaycan nümayəndəliyi ölkədə baş verən ictimai-siyasi proseslər, İrandakı azərbaycanlıların vəziyyəti, onların Azərbaycan Cümhuriyyətinə münasibətləri haqqında Bakıya müntəzəm məlumat göndərirdi. A.Ziyadxanov 1920 ilin martında xarici işlər nazirinə məktubunda yazırdı: "İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Xalq Cümhuriyyətinə birləşmək istiqamətində... təbliğat gedir. Azərbaycan... bu hadisələrdən öz maraqları xeyrinə istifadə etməlidir". Aprelin 11-də göndərilən məktubda isə bildirilirdi: "İran sürünür; ...keçmiş əzəmətdən əsər-əlamət qalmayıb... Farsların bizim respublikaya münasibəti o qədər də yaxşı deyil, İran Azərbaycanı türkləri isə əksinə, bizə qardaşcasına və dostcasına münasibət bəsləyirlər. İran Azərbaycanı... müstəqilliyə və Farsistandan ayrılmağa can atır". Aprelin 12-də göndərilən məktubda Cənubi Azərbaycanda inqilabi əhvali-ruhiyyənin gücləndiyi daha aydın qeyd edilirdi: "İran azərbaycanlıları açıq de-

yirlər ki, Azərbaycan azərbaycanlılar üçündür, ...nə vaxta qədər Tehrandan göndərilən fars hakimlərini dolandıracağıq".

Azərbaycan diplomatik nümayəndəsinin bu məlumatları elə həmin dövrdə Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında milli-demokratik, azadlıq mübarizəsinin başlanması, Azərbaycanın cənubunda "Azadıstan" adlandırılan milli dövlətin yaradılması ilə təsdiqləndi. Azərbaycanın şimalı ilə cənubunun birləşməsi üçün real imkan yarandı. Lakin bir neçə gün sonra Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı, daha sonra isə Xiyabani hərəkatının qan içərisində boğulması bu imkanın reallaşdırılmasının qarşısını aldı. Azərbaycan Xalq Cümhuriyyətinin İranla diplomatik əlaqə yaratması, müvəqqəti də olsa, iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulmasına, bölgədə əminamanlığın bərqərar edilməsinə səbəb oldu.

*Əd:.* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**AZƏRBAYCANIN İSTİQLALİYYƏTİ HAQQINDA TELEQRAM** - Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Azərbaycanın istiqlaliyyətinin elan olunması barədə 1918 il mayın 30-da dünyanın əsas siyasi mərkəzlərinə (İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen, Tokio) radioteleqrafla göndərdiyi məlumat, mühüm tarixi sənəd.

Sənəddə bildirilirdi ki, Gürcüstanın ittifaqdan çıxması ilə Zaqafqaziya Federativ Respublikası dağılmış, Azərbaycan Milli Şurası 1918 il mayın 28-də Azərbaycanın müstəqilliyi haqqında *İstiqlal bəyannaməsi* qəbul etmişdir. Teleqramın göndərildiyi dövlətlərin xarici işlər nazirlərindən xahiş olunurdu ki, bu barədə öz hökumətlərini məlumatlandırsınlar. Həmin məlumatda Hökumətin müvəqqəti olaraq Yelizavetpolda (Gəncə) yerləşdiyi göstərilirdi. Bu məlumatı Tiflisdən xarici ölkə paytaxtlarına çatdırmaq çətin olduğundan, Fətəli xan Xoyski teleqramın rus və fransız dillərində mətnini birbaşa radio vasitəsilə İstanbula çatdırmaq və oradan dünyaya yaymaq üçün Batumda olan Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri Məmməd Həsən Hacınskiyə göndərmişdi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика, Б., 1998; Азербайджанская Республика. Документы и материалы (1918-1920 гг.) Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**AZƏRBAYCANIN KRIMDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** – Azərbaycan Xalq Cümhuriyyətinin Krım hökuməti və qardaş Krım türkləri (tatarları) ilə əlaqə saxlamaq üçün təsis etdiyi elçilik. Krım hökuməti 1918 il İyunun 25-də Simferopolda yaradılmışdı. Baş naziri general-leytenant Məmməd bəy *Sulkeviç,* xarici işlər naziri Cəfər əfəndi Seyid Əhməd idi. Azərbaycan Hökuməti 1918 il oktyabrın 23-də Krım türklərini və bölgədə yaşayan digər xalqları təmsil edən bu hökumət yanında diplomatik nümayəndəlik təsis etməyi qərara aldı. 1918 il noyabrın 1-dən Azərbaycanın Ukraynadakı diplomatik nümayəndəsi Mir Yusif Vəzirova (Çəmənzəminli) Azərbaycan Xalq Cümhuriyyətini Krımda da təmsil etmək tapşırıldı. Öz növbəsində, Krım hökuməti də qarşılıqlı əlaqələr yaratmaq, Qara dəniz hövzəsi, xüsusən də limanları ilə bağlı razılaşdırılmış siyasət məsələlərini müzakirə etmək üçün öz nümayəndəsiƏli Aleksandroviçi 1918 il noyabrın əvvəlində Azərbaycana göndərdi



Constantinople, Berlin, Vienne, Paris,
Londres, Washington, Sofia, Rome, Bucarest
Téhéran, Madrid, La Haye, Stockholm
Moscou, Kiew, Khristiania, Copenhague

Ministres des affaires Etrangères

La République Fédérative Transcaucasienne ayant été demembrée par la sortie de la Géorgie, le Conseil National d'Azerbaidjan a declaré le 28 courant l'independance d'Azerbeidjane composé de Transcaucasie d'Est et de Sud et a institué la République démocratique d'Azerbeidjane stop En vous faisant part du susmentionné j'ai l'honneur de prier Votre Excellence d'en informer Votre gouvernement stop
le 29 mai 1918

Khoïsky President du Conseil des Ministres de la République d'Azerbeidjane.

.

1918 il noyabrın 16-da Sulkeviçin başçılıq etdiyi Krım hökuməti istefa verdi. Keçmiş duma üzvü S.S.Krım yeni hökumət yaratdı. Kadetlerdən təşkil olunmuş bu hökumət 1919 ilin əvvəlində Denikin ordusu Krıma daxil olduqdan sonra yerli müsəlmanlara - türk-tatar əhalisinə qarşı repressiyaları gücləndirdi. Krım türkləri öz hüquqlarını qorumaq üçün bu hökumətə daxil olmayaraq, ayrıca milli hökumət-direktoriya və parlament yaratdılar. Azərbaycan Hökumətinin elçisi M.Y.Vəzirov 1919 ilin yanvarında Simferopolda Krım türk parlamentinin sədri Seyid Camal Xəttatovla və milli direktoriyanın başçısı S.Misxarlı ilə görüşdü və Cümhuriyyətin Krım türklərinin milli müstəqillik uğrunda mübarizəsini müdafiə etdiyini bildirdi. Azərbaycan Hökumətinin başçısı Fətəli xan Xoyski 1919 il yanvarın 14-də Krım türk milli direktoriyasının başçısı S.Misxarlıya göndərdiyi məktubda onun Hökumətinin Krımı müstəqil dövlət kimi görməyi arzu etdiyini və Paris sülh konfransında Krım nümayəndəsinin Azərbaycan nümayəndəliyi ilə sıx əlaqədə fəaliyyət göstərməsinin zəruriliyini bildirdi.

1919 il martın 19-da doktor Cəfər bəy *Rüstəmbəyov* Azərbaycan Cümhuriyyətinin Krımda və Kubanda diplomatik nümayəndəsi və ticarət agenti təyin edildi. Lakin 1919 il aprelin 9-da Krımın Qırmızı ordu tərəfindən işğalı, iyulun 1-də isə yenidən Denikin ordusunun əlinə keçməsi onun müstəqilliyinə qəti olaraq son qoyduğu üçün C.Rüstəmbəyovun bu missiyanı icra etməsi mümkün olmadı. Ona görə də, Azərbaycan Xarici İşlər Nazirliyi bölgədə baş verən prosesləri yaxından izləmək üçün 1919 il sentyabrın 22-də iqtisadçı alim Şeyx Əli Hüseynovu Azərbaycanın Krımda konsul agenti təyin etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Krıma göndərdiyi nümayəndələr bölgədə fəaliyyət göstərən hökumətlərlə, xüsusilə də Krım türkləri ilə sıx əlaqələr qurmaq məqsədi daşıyırdılar.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Возгрин В. Е. Историчиские судьбы крымских татар, М.. 1992. Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**AZƏRBAYCANIN KUBANDA VƏ DONDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - Azərbaycan Xalq Cümhuriyyətinin Kuban hökuməti və Şimali Qafqaz xalqları ilə əlaqə saxlamaq üçün təyin etdiyi diplomatik nümayəndəlik. Rusiyada bolşeviklər hakimiyyəti ələ keçirəndən sonra Kuban Qanunverici Radası və Kuban hökuməti yaradılmışdı. Mərkəzi Yekaterinodar (indiki Krasnodar) şəhəri idi. Azərbaycan Hökuməti 1919 il martın 19-dan doktor Cəfər bəy Rüstəmbəyovu Kuban hökuməti yanında diplomatik nümayəndə təyin etdi.

C.Rüstəmbəyov Azərbaycan Xarici İşlər Nazirliyinə ünvanladığı raportda 1919 il iyunun 1-də Yekaterinodarda ingilis hərbi missiyasının rəisi general Briqqslə görüşməsi, ingilis komandanlığının Azərbaycanla Cənubi Rusiya Silahlı qüvvələri (Könüllü ordu) baş komandanı general Denikin arasında normal münasibət qurulmasında maraqlı olması, iyunun 3-də Briqqsin vasitəçiliyi ilə Denikinlə görüşməsi və onun Azərbaycanla diplomatik nümayəndəlik mübadiləsinə hazır olması haqqında məlumat vermişdi. Azərbaycanın diplomatik nümayəndəsinin 1919 il iyunun 11-də göndərdiyi raportda Kuban Radasında federasiya və müstəqillk tərəfdarları ilə Denikin arasında münasibətlərin gərgin olması, Kuban hökumətinin Denikinə qarşı mübarizə məsələlərini müzakirə etmək üçün Rusiyanın cənubunda yeni yaranmış dövlətlərin, o cümlədən Cənubi Qafqaz respublikaları nümayəndələrinin iştirakı ilə konfrans çağırmaq haqqında xəbər verilirdi. Raportda kubanlıların Denikinə inanmamaları, kazakları öz tərəflərinə çəkməklə müstəqilliklərini qorumağa çalışmaları, yalnız Ukrayna hüdudlarında bolşeviklərə qarşı mübarizə aparmaq istəmələri də qeyd olunmuşdu.

1919 il iyunun 26-da Azərbaycan Xarici İşlər Nazirliyinin C.Rüstəmbəyova göndərdiyi təlimatda Azərbaycan Hökumətinin Denikinlə diplomatik nümayəndəlik mübadiləsinə razılıq vermədiyi, Denikin ordusu hissələrinin Dağıstandan çıxarılması tələbi əks olunmuşdu. Eyni zamanda, C.Rüstəmbəyova Azərbaycan Xalq Cümhuriyyətini *Don hökuməti* yanında da təmsil etmək mandatı verildi. Azərbaycan Hökuməti Kuban və Donla iqtisadi əlaqələr yaratmağa çalışır, ağ neft və digər neft məhsulları əvəzində taxıl almağı planlaşdırırdı. Həm də, bu zaman bütün Şimali Qafqazda real hakimiyyətin Denikinin əlində cəmlənməsi də nəzərdən qaçırılmırdı. Ona görə də, Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqaz arasında rabitə və nəqliyyat əlaqələrinin bərpası məsələsini Hökumət başçısı Nəsib bəy Yusifbəyli məhz Denikinin nümayəndəsi general N.Baratovla müzakirə etmiş və 1919 il sentyabrın 11-də ilkin saziş imzalanmışdı. Bu sənəddə Bakı ilə Rostov arasında teleqraf və radio rabitəsi yaradılması, poçt mübadiləsinin və dəmir yolu əlaqəsinin nizama salınması nəzərdə tutulurdu.

1919 il sentyabrın 24-də Azərbaycanın Kubanda və Donda nümayəndəsi C.Rüstəmbəyova Cənubi Rusiya Silahlı Qüvvələri baş komandanlığı yanında Azərbaycan Xalq Cümhuriyyətinin mənafeyini müdafiə etmək səlahiyyəti də verildi. Elə həmin gün Azərbaycan Hökuməti Paşa bəy Sultanovu Rostova konsul-agenti təyin etdi. Hökumət bu təyinatla həmin dövrdə ingilis komandanlığının Xəzər Hərbi-Dəniz Donanmasının bir hissəsini Denikinə verməsinə qarşı Azərbaycanın etirazları, digər tərəfdən isə Denikinin Azərbaycan hərbi-dəniz qüvvələrinin yaradılmasına qarşı çıxması ilə bağlı münasibətlərin gərginləşdiyi bir şəraitdə C.Rüstəmbəyovun işini qismən yüngülləşdirmək istəyirdi.

Paris sülh konfransında (1919-20) iştirak edən Kuban nümayəndəsi L.Bıç Azərbaycan, Gürcüstan, Ukrayna, Şimali Qafqaz və Baltikyanı respublikaların nümayəndələri ilə birlikdə 1919 il oktyabrın 8-də bəyannamə imzalayaraq, Antantanın Rusiya bolşeviklərinə qarşı mübarizə məqsədilə Kolçaka, Denikinə göndərdiyi böyük maddi yardımın təyinatı üzrə deyil, keçmiş imperiya hüdudlarında yeni yaranmış dövlətlərə qarşı yönəldildiyini bildirmişdi. Lakin Antanta bu bəyannaməni nəzərə almamış, o dövrdəki hərbi uğurlarına görə Denikinə yardımı daha da artırmışdı.

C.Rüstəmbəyov 1919 il oktyabrın 22-də Azərbaycan Xarici İşlər Nazirliyinə ünvanladığı məruzədə son günlərdə 4 dəfə Taqanroqa gedərək, Denikinlə görüşməyə cəhd göstərməsi, lakin rədd cavabı alması, Denikinin Azərbaycanı Dağıstan üsyançılarına yardım göstərməkdə günahlandırması, Yalamada güclü qarnizon saxlanması və Bakının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinin Könüllü orduya qarşı çevrilməsini iddia etməsinə dair ondan bilgi alması və bunlarla bağlı Denikinin Azərbaycana qarşı təcavüzünün açıq-aşkar artması haqqında məlumat vermişdi. Bu məlumatdan sonra Azərbaycan Xarici İşlər Nazirliyi Qafqazdakı ingilis, fransız nümayəndəliklərinə müraciət edərək Denikin ordusunun Azərbaycana hücum təhlükəsinə qarşı tədbirlər görülməsini istəmişdi. 1919 ilin sonunda Denikinin Kuban Radasına qanlı divan tutması və Azərbaycana qarşı açıq düşmənçilik münasibəti bəsləməsi nəticəsində Azərbaycanın diplomatik nümayəndəsi Yekaterinodarı tərk edərək Bakıya döndü.

*Əd:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti B., 1996.

**AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN AVROPA DÖVLƏTLƏRİ TƏRƏFİNDƏN DE-FAKTO TANINMASININ BAYRAM EDİLMƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin beynəlxalq aləmdə tanınması münasibətilə Hökumətin qərarı ilə keçirilmiş bayram tədbirləri. *Paris sülh konfransının (1919-20)* iştirakçısı olan dövlətlərin Ali Şurası tərəfindən 1920 il yanvarın 11-də Azərbaycanın müstəqilliyinin *de-fakto* tanınması münasibətilə yanvarın 14-də Bakıda və ölkənin digər bölgələrində təntənəli bayram mərasimləri keçirilmişdi. Nazirlər Şurasının qərarı ilə fabrik-zavod sahiblərinə tapşırılmışdı ki, Azərbaycan istiqlaliyyətinin təsdiq edilməsi münasibətilə xalq bayramında iştirak etmək üçün maaşları saxlanılmaqla bütün fəhlə və qulluqçular həmin gün işdən azad edilsinlər. Hökumət, eyni zamanda, bayram tədbirlərinin proqramını da elan etmişdi: səhər saat 11-də Təzəpir məscidində dualar oxunmalı, saat 12-də Parlamentin təntənəli iclası açılmalı, saat 13-də Hürriyyət meydanında Milli Ordunun rəsmi keçidi olmalı, saat 14-də Xarici İşlər Nazirliyində təbriklər qəbul edilməli idi. Bundan əlavə, şəhərətrafı qatarların səhər saat 7-dən 11-ə kimi və gündüz saat 3-dən axşama qədər camaatı pulsuz daşıması və gecə vaxtı paytaxtın çıraqban edilməsi barədə də sərəncam verilmişdi.

Proqrama əsasən, başda Nazirlər Şurasının sədri olmaqla Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin nazirləri, Parlament üzvləri, şəhər üləması Təzəpir məscidində toplandı. Şeyxülislam bayram xütbəsini oxuduqdan sonra təntənəli surətdə elan etdi: ***"Camaat, bu giin şərəfli və böyük gündür. İslamın əziz günüdür. Bayramdır!".*** Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli: ***"Bu sizin arzunuzdur. Hürr və müstəqil qalmaq istədiniz, nail oldunuz***— " Xarici işlər naziri Fətəli xan Xoyski: ***"28 may 1918 ildə Azərbaycan istiqlaliyyətini aləmə bildirdi. Bu gün o istiqlal təsdiq edilir".*** Məhəmməd Əmin Rəsulzadə: ***"Bir kərə yüksələn bayraq bir daha enməz! — deyirdik. Bu gün kamali-cürət və iftixarla küçə və bazarda deyiriz: bir dəfə yüksələn bayraq bir daha enməz! ".***

Bakı bayram libası geyinmişdi. Hətta, erməni vandallarının yandırdığı İsmailiyyə belə bayraq və şüarlarla bəzədilmişdi. Hər tərəfdən musiqi sədaları ucalırdı. Milli bayraqlarla bəzədilmiş avtomobillər küçələrdə şütüyür, aktyorlar milli və tarixi geyimlərdə keçmişi canlandırırdılar. Dəstənin önündə at üstündə Mirzağa Əliyev gedirdi. Təzəpirdən qayıdan Nəsib bəy Yusifbəylini xalq çiyinləri üstündə Parlamentə aparırdı. Parlamentin qarşısında yığılan izdiham isə Məhəmməd Əmin Rəsulzadəni tələb edirdi. Binaya axışan insanlar onu əl üstündə Parlamentin eyvanına çıxardı. Məhəmməd Əmin Rəsulzadə atəşin bir nitq ilə öz istiqlalını dünyaya qəbul etdirmiş Azərbaycan xalqını təbrik etdi.

*Əd:* Süleymanov M., Müsəlman dünyasında ilk xalq cümhuriyyəti, B., 1999.

**AZƏRBAYCANIN TÜRKİYƏDƏ DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** – Azərbaycan Xalq Cümhuriyyətini Osmanlı dövlətində təmsil edən elçilik. Azərbaycanla Türkiyə arasında ilk diplomatik təmaslar 1918 ilin yazında Trabzon və Batum sülh konfranslarından başlandı. 1918 il iyunun 18-də isə Azərbaycan Hökuməti İstanbula ilk nümayəndə heyəti göndərdi. Türkiyə hökuməti və rəsmi dairələrində yaxşı tanınan Məhəmməd Əmin Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyətinə Xəlil bəy *Xasməmmədov* və Aslan bəy *Səfikürdski* daxil idilər. Nümayəndəlik İstanbulda keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransda iştirak etməli idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti nümayəndə heyətinə, həmçinin, Osmanlı dövləti ilə hərbi, iqtisadi, nəqliyyat və maliyyə sahələri üzrə müqavilələr bağlamaq üçün etimadnamə vermişdi.

İyunun 24-də İstanbula çatan Azərbaycan nümayəndələri Osmanlı hökumətinin başçısı *Tələt paşa* və digər hökumət üzvləri ilə görüşlər keçirməyə, Azərbaycan Xalq Cümhuriyyəti haqqında türk ictimaiyyətinə məlumatlar çatdırmağa başladılar, mətbuata çoxsaylı müsahibələr verdilər. Nümayəndələr Azərbaycanın öz müstəqilliyini elan etməsini beynəlxalq aləmə bildirmək üçün də mühüm addımlar atdılar. *İstiqlal bəyannaməsinin* tam mətnini İstanbulda olan bütün səfirlik və konsulluqlara təqdim etdilər, Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan diplomatları ilə görüşlər keçirdilər. 1918 ilin yayında Birinci dünya müharibəsi (1914-18) cəbhələrində Dördlər ittifaqının uğursuzluqları İstanbul konfransının başlanmasına imkan verməsə də, Azərbaycan nümayəndəliyi Osmanlı hökuməti üzvləri ilə çox əhəmiyyətli razılaşmalara nail oldu. 1918 il sentyabrın 16-da İstanbuldakı nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə Osmanlı tərəfi ilə ticarət müqaviləsi, Azərbaycan Hökumətinə dərhal avans kimi 500 min türk lirəsi verilməsi haqqında məxfi müqavilə imzalamış, sentyabrın sonunda Türkiyə Dəniz Nazirliyinin mətbəəsində Azərbaycan pulları çap edilməsi haqqında razılıq əldə etmişdi.

Osmanlı dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinə 10 il müddətinə 2 milyon türk lirəsi həcmində borc verməsi, Azərbaycana xarici işlər, maliyyə üzrə məsələhətçilər gön-dərməsi, istənilən qədər dərslik və müəllim göndərməyə razılıq verməsi, başlıcası isə, Bakını düşməndən azad etmək üçün zəruri hərbi qüvvə ayırması İstanbuldakı Azərbaycan nümayəndəliyinin gərgin və səmərəli fəaliyyətinin nəticəsi idi.

Azərbaycan Hökuməti Osmanlı imperiyası ilə tam həcmdə diplomatik əlaqələr yaradılması üçün 1918 il avqustun 20-də Hökumət üzvü Əlimərdan bəy Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi İstanbula ezam etdi və ona bütün məsələlər üzrə Azərbaycan Cümhuriyyətinin maraqlarını təmsil etmək tapşırığı verdi. Əlimərdan bəy Topçubaşov, eyni zamanda, İstanbulda beynəlxalq konfrans başlanacağı halda Azərbaycan nümayəndə heyətinin tam-hüquqlu üzvü kimi onun işində iştirak etmək səlahiyyətinə malik idi. Ə.Topçubaşov bu missiyanı yerinə yetirmək üçün avqustun 23-də Gəncədən yola düşsə də, nəqliyyat çətinliklərinə görə yalnız sentyabrın 28-də İstanbula çata bildi. Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi birinci olaraq oktyabrın 2-də Tələt paşa ilə görüşdü və Berlin səfə-rində Azərbaycanın mənafeyini müdafiə etdiyinə, həmçinin türk əsgərlərinin Bakının azad edilməsində iştirakına görə ona Azərbaycan Hökuməti adından təşəkkür etdi. Elə həmin gün Ə.Topçubaşov xarici işlər naziri Əhməd Nəsimi bəylə, oktyabrın 3-də isə hərbi nazir *Ənvər paşa* ilə görüşdü. Oktyabr ayı ərzində Ə.Topçubaşov Türkiyənin rəsmi dövlət nümayəndələri ilə daha bir neçə görüş keçirdi. Lakin cəbhələrdə vəziyyətin sürətlə pisləşməsi, Osmanlı dövlə-tində hökumət kabinələrinin tez-tez istefa verməsi onunla sabit münasibətlər qurulmasına imkan vermirdi. Ə.Topçu-başov 1918 il noyabrın 14-də Azərbaycan Hökuməti başçısına göndərdiyi məktubda bunu etiraf edirdi: "Mənim gəl-diyim müddətdə artıq üçüncü kabinə yaradılır. .. .Bir kabinə ilə hər hansı bir əlaqə yaratmağa macal tapmamış, yeni kabinə yaranır".

Oktyabrın sonunda İstanbulda beynəlxalq konfrans çağırılmasının baş tutmayacağı tam aydınlaşdığı və Türki-yədə böhranlı vəziyyət yarandığı üçün Azərbaycan nümayəndə heyəti Bakıya qayıtdı. Ə.Topçubaşov isə missiyasını davam etdirdi. Noyabrın 4-də o, *Mudros barışığının (1918)* Azərbaycana aid hissəsi ilə əlaqədar Osmanlı hökumətinə etiraz notası təqdim etdi, noyabrın 5-də isə xarici işlər naziri Nəbi bəylə görüşdü. Bu etiraz notası Azərbaycan Cümhuriyyətinin müstəqilliyini qeyd etmək məqsədi daşıyırdı. Azərbaycanın diplomatik nümayəndəsi Türkiyənin yeni xarici işlər naziri Mustafa Rəşid paşa ilə noyabrın 16-da və sonrakı görüşlərində Türkiyənin Azərbaycana diplomatik nümayəndə göndərməsi məsələsini qaldırdı.

Ə.Topçubaşov Türkiyədə diplomatik nümayəndə kimi 1919 ilin yazına qədər fəaliyyət göstərdi və bu müddətdə İstanbuldakı azərbaycanlıların mənafeyini müdafiə etmək, viza məsələlərini yoluna qoymaq, orada təhsil alan azərbaycanlı gənclərə maddi yardım göstərmək, hərbi əsirlərlə bağlı məsələləri həll etmək sahəsində faydalı işlər gördü. **O,** *Paris sülh konfransına (1919-20)* göndərilən Azərbaycan nümayəndə heyətinin başçısı kimi İstanbulu tərk etməyə hazırlaşarkən, orada konsul funksiyasını müvəqqəti icra etmək üçün Səfvət bəy Məlikovu hazırladığını Azərbaycan Hökumətinə bildirdi.

1919 il mayın 18-də Azərbaycanın Ukraynadakı diplomatik nümayəndəsi Mir Yusif Vəzirov (Ç ə m ə n z ə m i n 1 i) burada yaranmış vəziyyətlə bağlı missiyasını başa vurub, vətənə qayıtmaq üçün Odessadan İstanbula getdi. O, buradakı Britaniya və İtaliya hərbi nümayəndələri ilə görüşlər keçirdi və vətənə qayıtmaq istəyən Azərbaycan vətəndaşları üçün viza almaq məsələsini onlarla həll etdi. M.Y.Vəzirov iyulun 12-də İstanbuldan Azərbaycan xarici işlər nazirinə göndərdiyi məktubda məlumat verirdi ki, şəhərdə bütün hakimiyyət müttəfiqlərə məxsusdur. Məktubda həmçinin türk naziri Əhməd Fərid bəylə görüşməsi və türk tərəfinə Əhməd bəy Ağayevin qanunsuz həbsi ilə bağlı qeyri-rəsmi etiraz etməsi bildirilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 il avqustun 1-də özünün Ukraynadakı keçmiş diplomatik nü-mayəndəsi Mir Yusif Vəzirovu İstanbula göndərilən diplomatik missiyanın başçısı təyin etdi. Diplomatik missiyanın maliyyə işi üzrə məsləhətçisi isə xarici işlər nazirliyinin dəftərxana rəisi Cahangir bəy Qayıbov təyin olundu. Lakin Batumdakı ingilis qüvvələrinin rəhbərliyi Azərbaycan nümayəndəliyinin İstanbula getməsinə icazə vermədiyindən, nümayəndələr ay yarım bu şəhərdə ləngiməli oldu, rəsmi icazə alınması mümkün olmadığına görə, xüsusi qaydada Türkiyəyə yola düşmək məcburiyyətində qaldılar. Ona görə də, İstanbulda Azərbaycan diplomatik nümayəndəliyinin rəsmi fəaliyyətini yenidən 1919 ilin oktyabrında bərpa etmək mümkün oldu. Noyabrda MY.Vəzirovu Türkiyə xarici işlər naziri qəbul etdi. Noyabrın 15-də "Təsviri-Əfkar" adlı türk qəzetinə müsahibəsində M.Y. Vəzirov Azərbaycanın İstanbulda səfirlik təşkil etməsi haqqında xəbərləri təkzib edərək, digər yeni yaranmış dövlətlər kimi, burada yalnız diplomatik nümayəndəliyə malik olduğunu bildirdi. Azərbaycan Cümhuriyyətinin İstanbuldakı diplomatik nümayəndəliyi *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmağa məcbur oldu.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**AZƏRBAYCANIN UKRAYNADA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - Azərbaycan Xalq Cümhuriyyətini Ukraynada təmsil edən elçilik. Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurası 1918 il sentyabrın 12-də Ukraynaya işlər vəkilinin göndərilməsi haqqında qərar qəbul etdi. Qərara uyğun olaraq, 1918 il noyabrın 1-də Mir Yusif Vəzirov (Yusif Vəzir *Çəmənzəminli)* Azərbaycan Hökumətinin Ukraynada diplomatik nümayəndəsi təyin edildi.

Elə həmin ay M.Y.Vəzirov Kiyevdə diplomatik fəaliyyətə başladı. Birinci dünya müharibəsində (1914—18) *"Dördlər ittifaqi"nın* məğlub olması, Ukraynadan Almaniya, Azərbaycandan isə Osmanlı qoşunlarının geri çəkilməsi və hər iki ölkəyə Antanta qoşunlarının yeridilməsi, keçmiş Rusiya imperiyası ərazisində yaranmış hər iki yeni dövlətin həm bolşevik hakimiyyəti, həm də Denikin tərəfindən təhdid olunması onların beynəlxalq aləmdə oxşar mövqedən çıxış etmələrini zəruriləşdirdi. Buna görə Ukrayna hökuməti də Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx diplomatik əlaqə qurmaq məqsədilə 1919 il fevralın 8-də Azərbaycana göndərilmək üçün keçmiş daxili işlər naziri İvan Kraskovskinin başçılığı ilə xüsusi diplomatik missiya yaratdı.

1919 ilin martında Azərbaycan və Ukrayna nümayəndəlikləri Antanta dövlətlərinin İstanbuldakı hərbi rəhbərliyinə müraciət edərək onlara *Paris sülh konfransında (1919-20)* iştirak etmək üçün şərait yaradılmasını xahiş etdilər. Həmin vaxt Odessa şəhərində müttəfiqlərarası komissiya fəaliyyətə başlamışdı. Azərbaycan Hökuməti bu komissiyada ölkənin mənafeyini təmsil etmək üçün 1919 il martın 14-də Rüstəm bəy Sultanovu nümayəndə təyin etdi.

1919 ilin yazında Ukraynanın Denikin ordusu tərəfindən tutulması nəticəsində Azərbaycanın Kiyevdəki diplomatik nümayəndəliyinin normal fəaliyyət göstərməsi pozuldu. M.Y.Vəzirov Odessaya getmək məcburiyyətində qaldı. Burada o, İngiltərə baş konsulu Kukla görüşərək, Azərbaycan haqqında ona ətraflı məlumat verdi. Lakin yeni yaranmış dövlətlərin diplomatik nümayəndələri burada da Denikin ordusu nümayəndələri tərəfindən təzyiqlərə və qaba münasibətə məruz qaldılar. İngilis və fransız nümayəndəlikləri isə baş verənlərə seyrçi münasibət bəslədilər. Nəticədə Mir Yusif Vəzirov (Çəmənzəminli) mayın 14-də vətənə dönmək üçün Odessanı tərk etdi və bolqar gəmisi ilə İstanbula yollandı.

Cümhuriyyət Hökuməti 1920 ilin yanvar ayında keçmiş Rusiya imperiyası ərazisində yeni yaranmış dövlətlərə, o cümlədən Ukraynaya diplomatik missiya göndərməyi qərara aldı. Lakin *Aprel işğalı (1920) nəticəsində* Azərbaycan Xalq Cümhuriyyətinin süqutu buna imkan vermədi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998.

**"AZƏRBAYCANIN VƏ BAKI ŞƏHƏRİNİN BÜTÜN ƏHALİSİNƏ" (1920, 28 APREL)** Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin Xalq Cümhuriyyətinin devrilməsi, sovet hakimiyyətinin qurulması haqqında müraciəti, Azərbaycanda sovet hakimiyyətinin ilk rəsmi sənədi. Azərbaycan Xalq Cümhuriyyəti öz yaranmasını, dünya təcrübəsinə uyğun olaraq *İstiqlal bəyannaməsi* vasitəsilə ifadə etmişdisə, İnqilab Komitəsi yalnız müraciətlə kifayətlənmişdi. Bu sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin tarixi əhəmiyyəti açıq aşkar təhrif olunur, sovet hakimiyyəti siyasətinin əsas istiqamətləri göstərilirdi. Müraciətdə inqilabi proletariat və kəndlilərin qabaqcıl hissəsinin ölkədə bütün hakimiyyəti İnqilab Komitəsinə verdiyi bəyan edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin mahiyyəti, ilk dəfə rəsmi olaraq, kobud şəkildə təftiş edilmiş, beləliklə, sonrakı saxtalaşdırmalar üçün ideoloji baza yaradılmışdı. Müraciətdə deyilirdi: "Yoldaşlar! "Müsavat" partiyasının cinayətkar hökuməti devrilmişdir". Bunun ardınca o zamankı bolşevik leksikonuna uyğun olaraq, siyasi rəqib ən kəskin ifadələrlə təhqir olunurdu. "İstismarçılar, qəsbkarlar və zalımlər güruhunun hakimiyyət günlərinin və saatlarının ömrünə az qalıb". İnqilab komitəsi Azərbaycan Sovet Respublikası adından RSFSR-lə ittifaq təklif edir, Sovet Rusiyası ilə Sovet Azərbaycanının fəhlə və kəndlilərinin qüvvələrinin birləşdirilməsini, qarşılıqlı köməyini Qafqazda və Şərqdə fəhlə inqilablarının qələbəsinin möhkəm rəhni hesab edirdi. Sovet Rusiyasının Qırmızı ordusu Azərbaycanın daxili işlərinə qarışmağa, ölkədə sovet hakimiyyətini möhkəmləndirməyə dəvət olunur, onun antiazərbaycan fəaliyyəti pərdələnirdi ("Yoldaş fəhlə və kəndlilər! Biz sizin azad olunmağınız üçün, burada, Qafqazda və müsəlman Şərqində inqilabın qələbəsi üçün Qırmızı ordunu buraya dəvət etmişik"). Azərbaycan ordusu əsgərlərinin Qırmızı orduya müqavimət göstərməməsi, sovet hakimiyyətinin tərəfinə keçməsi təbliğ olunurdu. İnqilab komitəsi vətəndaş müharibəsi tərəfdarı olmadığını bəyan etsə də, ona qarşı hər bir hərəkəti ağ terror elan edir və buna qarşı amansız kütləvi qırmızı terrorla cavab verməyə hazır olduğunu bildirirdi ("Biz burjuaziyanın və mülkədarların ağ terroruna amansız qırmızı terrorla cavab verəcəyik. Siz yüzlərlə fəhləni qətlə yetirə bilərsiniz, biz onların qanını bütöv qatillər sinfinin - ağ terrorçuların məhv edilməsilə alacağıq"). Müraciətin sonunda Azərbaycanda fəhlə və kəndlilərin qələbəsi, müstəqil Azərbaycan Sovet Respublikası, Sovet Azərbaycanı və Sovet Rusiyası fəhlə və kəndlilərinin inqilabi ittifaqına dair üç şüar verilmişdi. Sənəd Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin üzvləri (Nəriman Nərimanov, Əliheydər Qarayev, Həmid Sultanov, Qəzənfər Musabəyov, A.Əlimov, Mirzə Davud Hüseynov) adından imzalanmışdı.

*Əd.:* Декреты Азревкома (1920-1921 гг.) Сборник докунментов,Б., 1988.

**AZƏRBAYCANIN ZAKASPİDƏ KONSULLUĞU**- Azərbaycan Xalq Cümhuriyyətinin *Zakaspi müvəqqəti hökuməti* yanında nümayəndəliyi. Azərbaycan Hökuməti 1919 il aprelin 2-də Əkbər ağa Sadıqovu Zakaspi müvəqqəti hökuməti yanında konsul təyin etdi. İyunun 5-də Azərbaycan diplomatik missiyası Aşqabadda fəaliyyətə başladı. Konsulluq Zakaspi müvəqqəti hökuməti yanında Azərbaycan Xalq Cümhuriyyətinin maraqlarını təmsil etməli idi.

Konsulluq 1918 ildə Bakıda mart soyqırımı və bolşevik-daşnak ağalığı dövründə Türkmənistana qaçmış Azərbaycan vətəndaşlarına da, imkan daxilində, kömək edirdi.

Azərbaycan Hökuməti 1919 il 24 iyul tarixli qərarı ilə qaçqınlara yardımı təşkil etmək üçün konsulluğa 75 min manat vəsait və 50 pud un ayırmışdı. Bu vəsait və ərzaq Qızıl Arvadda yemək məntəqəsinin təşkili, Krasnovodskda bundan əvvəl açılmış yeməkxana və gecələmə evinin fəaliyyətinin davam etdirilməsi üçün nəzərdə tutulmuşdu. Azər-baycan Xalq Cümhuriyyəti həmin dövrdə Mərkəzi Asiyanın digər bölgələrinin türk-müsəlman əhalisinə də yardım göstərirdi. 1919 il iyunun 20-də Azərbaycan Hökuməti Türküstan Xalq Şurasına 500 min manat məbləğində faizsiz borc vermişdi. Türküstan Xalq Şurasının üzvü Mircəlilovla imzalanmış müqaviləyə görə, Türküstan tərəfi bu borcu 2 il ərzində qaytarmalı idi.

Zakaspi müvəqqəti hökuməti də Bakıda konsulluq açmışdı. Lakin 1919 il oktyabrın əvvəlində Zakaspi müvəq-qəti hökumətinin buraxılması ilə əlaqədar olaraq bu konsulluq Denikin ordusunun Bakıdakı nümayəndəliyi ilə birləşdi. Bununla bağlı, Azərbaycanın Zakaspidəki konsulluğu da fəaliyyətini dayandırdı. Azərbaycan Xarici İşlər Nazirliyinin əmri ilə 1919 il noyabrın 1-dən Azərbaycan Respublikasının Zakaspidəki konsulluğu ləğv edildi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998.

**AZƏRBAYCANLA DAĞLILAR RESPUBLİKASI ARASINDA MÜQAVİLƏLƏR** - Azərbaycan Xalq Cümhuriyyətinin Şimali Qafqaz Dağlılar Xalqları İttifaqı Respublikasına (qısaca - Dağlılar Respublikası) maliyyə, iqtisadi və hərbi yardım göstərməsi haqqında sənədlər. Azərbaycanın qabaqcıl ziyalıları, ictimai xadimləri, əvvəlki dövrlərdə olduğu kimi, 1917-18 illərdə də Şimali Qafqazın dağlı xalqlarının milli azadlıq mübarizəsini rəğbətlə izləyir və bütün vasitələrlə onlara yardım edirdilər. Zaqafqaziya seyminin Müsəlman fraksiyasına daxil olan deputatlar 1918 ilin mart ayında dağlı nümayəndəliyinin Zaqafqaziya seyminə qatılmaq və bolşevik təhlükəsinə qarşı birlikdə mübarizə aparmaq haqqında müraciətini dəstəklədilər. Lakin seymin erməni və gürcü nümayəndələri həmin təklifin əleyhinə çıxdıqları üçün bu iş nəticəsiz qaldı. Belə olduqda, Müsəlman fraksiyası üzvləri Şimali Qafqazdan gəlmiş nümayən-dələrlə ikitərəfli münasibətlər yaratmaq üçün Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Aslan bəy Səfikürdski, Məhəmməd Qazi Dibirov, Bammat Heydər, Əbdülməcid Çermoyevin daxil olduqları xüsusi komissiya yaratdılar. Məhz seymdəki azərbaycanlı ictimai xadimlərin səyi nəticəsində dağlı nümayəndələrinin Trabzon sülh danışıqlarında iştirakı mümkün oldu. Həmin danışıqlar uğursuzluqla bitdikdən sonra dağlı nümayəndələri İstanbula gedib Osmanlı dövləti ilə əlaqə yaratdılar və Şimali Qafqaz Dağlılar Xalqları İttifaqı Respublikasının yaradılması haqqında bəyannamə qəbul etdilər (1918,11 may). Mayın 24-də isə Gəncədə Əbdülməcid Çermoyevin başçılığı ilə Dağlılar hökuməti təşkil olundu.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən Dağlılar Respublikası ilə əlaqələri möhkəmləndirməyə başladı. 1918 ilin sentyabr-oktyabr aylarında Osmanlı və Azərbaycan Xalq Cümhuriyyəti Hökumətlərinin yardımı ilə Dərbənd və Dağıstanın xeyli hissəsi azad edildi. Vətənə qayıdan Dağlılar hökumətinə ilk maliyyə yardımını Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti göstərdi. Oktyabrın 8-də Azərbaycan tərəfi dağlılara 1 milyon rubl həcmində faizsiz kredit verdi. 1 ay sonra Dağlılar hökumətinin maliyyə naziri Vassan Gəray Cabagiyev Bakıya gələrək, bu dəfə 500 min rubl həcmində vəsait aldı. Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyəti Dağlılar Respublikasına təmənnasız olaraq yanacaq, silah-sursat və s. göndərirdi. Nəhayət, 1918 il noyabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlılar Respublikası arasında ***birinci müqavilə*** bağlandı. Müqaviləni Azərbaycan tərəfindən ticarət və sənaye naziri Behbud xan Cavanşir və maliyyə naziri Məmməd Həsən Hacınski, Dağlılar hökumətinin səlahiyyətli nümayəndələri - sənaye və ticarət naziri Bahadur bəy Malaçixan və yollar, poçt və teleqraf naziri İbrahim bəy Heydərov imzaladılar. Müqaviləyə əsasən, Azərbaycan tərəfi Dağlılar hökumətinə 10 milyon rubl məbləğində faizsiz kredit verdi. Dağlılar hökuməti bu borcu 2 il müddətində buğda ilə qaytarmalı idi.

Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlılar Respublikası arasında 1919 il yanvarın 9-da ***ikinci müqavilə*** imzalandı. Azərbaycan tərəfindən Fətəli xan Xoyskinin üçüncü Hökumət kabinəsində ərzaq naziri olmuş K.N.Lizqarın və Dağlılar Respublikasının Azərbaycandakı nümayəndəsi Əlixan Qantəmirin imzaladıqları bu müqaviləyə görə Dağ-lılar Respublikası hökuməti Azərbaycana 50 vaqon buğda göndərməli, Azərbaycan tərəfi isə pudu 60 rubldan haqqını dərhal ödəməli idi. Bütün taxılın müqavilənin imzalanmasından sonrakı 4 ay ərzində göndərilməsi razılaşdırıldı. 1919 il fevralın 23-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə Dağlılar Respublikası arasında ***üçüncü müqavilə*** bağlandı. Bu müqaviləyə əsasən, Azərbaycan tərəfi Dağlılar hökumətinə daha 10 milyon rubl faizsiz kredit verməyi öhdəsinə götürdü. Bu vəsaitin 5 milyonu dərhal verildi.

Azərbaycan Xalq Cümhuriyyəti 1919 ilin əvvəlində Şimali Qafqazın Denikin tərəfindən işğalına qarşı Dağlılar hökumətinə həm də diplomatik və hərbi yardım göstərdi. Fevralın 25-də öz səlahiyyətli elçisi Əbdürrəhim bəy Haq-verdiyevi Temirxan-Şuraya göndərdi. Martın 1-də Azərbaycan Hökuməti Denikinə qəti etirazını bildirdi. Şimali Qafqazın işğalını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün addımlar atdı. Martın 6-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Bakıdakı müttəfiq qoşunlarının komandanı general U.Tomsona nota təqdim etdi. Notada An-tanta dövlətlərindən "...qan tökülməsinin və bütün Qafqazı bürüyə biləcək böyük yanğının qarşısını almaq məqsədilə general Denikinin Könüllü ordusunun Şimali Qafqaz Dağlılar Xalqları İttifaqı Respublikasına qarşı təcavüzkar hərəkətlərinə dərhal son qoyması üçün ən qəti tədbirlər görülməsi" istənilirdi.

Aprelin 6-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Dağlılar Respublikasına hərbi yardım göstərməyi qərara aldı. Bu məqsədlə həm könüllü dəstələrin yaradılmasına və Şimali Qafqaza göndərilməsinə başlandı, həm də dağlı döyüşçülərinə tibbi yardım üçün sanitar briqadaları təşkil edildi. Aprelin 17-də isə Azərbaycan Cümhuriyyəti Parlamenti Dağlılar Respublikası hökumətinə daha 30 milyon rubl faizsiz kredit vermək haqqında qanun qəbul etdi. Beləliklə, 1918 ilin sonu- 1919 ilin ilk aylarında Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti, özünün çətin vəziyyətdə olmasına baxmayaraq, Dağlılar Respublikasına 50 milyon rubl həcmində maliyyə yardımı göstərdi. Denikin 1919 il mayın sonunda bütün Şimali Qafqazı ələ keçirdikdən sonra isə Dağlılar Respublikası hökumətinin üzvlərinə Bakıda sığınacaq verildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti, bundan əlavə, Dağıstan qaçqınlarına yardım göstərilməsi üçün 1 milyon rubl vəsait ayırdı.

Beləliklə, Azərbaycan, əvvəlki tarixi dövrlərdə olduğu kimi, 1918-20 illərin ağır şəraitində də Dağıstan xalqlarına arxa durdu.

*Əd:*. Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**AZƏRBAYCANLI TƏLƏBƏLƏR İTTİFAQI-** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Qərbi Avropa ölkələrinə ali təhsil almaq üçün göndərdiyi tələbələrin Almaniyada yaratdığı könüllü ictimai təşkilat. Almaniyada qeydiyyatdan keçmişdi. İttifaqın, üzərində Azərbaycan Xalq Cümhuriyyətinin əsas rəmzlərindən olan səkkizguşəli ulduzun ətrafında Azərbaycan və alman dillərində "Azərbaycan tələbələri komitəsi. Berlin" sözləri yazılmış möhürü var idi. İttifaqın bütün işlərini xaricdə ali təhsil alan azərbaycanlı tələbələrin ümumi yığıncağında seçilmiş idarə heyəti həyata keçirirdi. İttifaqın cari işlərinə idarə heyəti tərəfindən seçilən sədr rəhbərlik edirdi. İttifaq adından Azərbaycan Hökumətinə və digər təşkilatlara göndərilən rəsmi sənədləri idarə heyətinin sədri və katibi imzalayırdı.

1923 ildə ittifaqın tərtib etdiyi siyahıda xaricdəki azərbaycanlı tələbələrdən 54 nəfərinin Almaniyada, 13 nəfərinin Fransada, 3 nəfərinin İstanbulda və 1 nəfərinin İtaliyada təhsil aldığı bildirilirdi. Bu siyahıda onların ixtisasları və təhsil aldıqları ali məktəblərin adları, habelə təhsillərini başa çatdırmalarına nə qədər vaxt qaldığı da göstərilirdi.

**AZƏRİTTİFAQ** - istehlak kooperasiyasının rəhbər təşkilatı və təsərrüfat mərkəzi (bax *Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqı).*

**"AZƏRTAc"** (Azərbaycan Teleqraf Acentası) - bax *Azərbaycan Teleqraf Agentliyi.*

# B



**BAĞIRLI** Abdulla Sadıq oğlu (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına *(bax Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Kiyev Kommersiya İnstitutunda oxumuş, lakin Rusiyada Oktyabr çevrilişindən (1917) sonra təhsili yarımçıq buraxıb vətənə qayıtmışdır. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini iqtisadiyyat sahəsində davam etdirmək üçün Kiyev Kommeürsiya İnstitutuna göndərilmişdir. Sonrakı taleyı barədə məlumat aşkar olunmamışdı

**Bakı** - Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı (1918, sentyabr - 1920 aprel). Azərbaycanın ən qədim şəhərlərindən olan Bakı, həm də, Cənubi Qafqazda və bütün Rusiyada çox mühüm iqtisadi, siyasi və mədəniyyət mərkəzlərindən biri idi. Tarix boyunca Azərbaycanın Avrasiya məkanı, Yaxın və Orta Şərq ölkələri ilə ticarət və mədəni əlaqələrində mühüm rol oynamış Bakı qüdrətli Şirvanşahlar dövlətinin paytaxtı olmuş, 18 əsrin ortalarında Azərbaycanda xanlıqlar yarandıqda, eyniadlı xanlığın mərkəzinə çevrilmişdi. 1806 il oktyabrın 6-da Rusiyaya ilhaq edilmişdi. 1807 ildə Bakıda 4,5 min, 1859 ildə 13,0 min, 1886 ildə 45 min, 1890 ildə 105,0 min, 1897 ildə 111,9 min, 1909 ildə 222,7 min, 1920 ildə 312,7 min əhali qeydə alınmışdı. Şəhər 1806-40 illərdə Bakı əyalətinin, sonra isə qəzanın mərkəzi olmuşdu. 1859 il Şamaxı zəlzələsi nəticəsində quberniya mərkəzinin Bakıya köçürülməsi şəhərin həyatında mühüm rol oynadı. Zəngin neft ehtiyatlarının istifadəyə verilməsi 19 yüzilliyin sonlarına doğru şəhərin iqtisadi həyatında böyük dəyişikliklər yaratdı. Tarixən qısa müddət ərzində neft çıxarılması 3,9 milyon puddan (1873) 667,1 milyon puda (1901) çatdı. Bu, dünyada istehsal olunan neftin yarıdan çoxunu təşkil edirdi. Bakıda neft hasilatı ilə birgə neft emalı sənayesi, digər sənaye sahələri və şəhər infrastrukturu, nəqliyyat və rabitə sistemi də sürətlə inkişaf edirdi.

*Bakı. Qədim qala divarları*




Bakı. Qoşa qala qapısı üzərində Şirvanşahlar dövləti rəmzlərinin təsvirləri


Bakı. Şirvanşahlar sarayı. 15-ci əsr

20 yüzilliyin əvvəlində Bakı əsas iqtisadi mərkəz olmaqla bərabər, siyasi və mədəni mərkəz kimi də Rusiya imperiyasının həyatında mühüm rol oynayırdı. 19 əsrin ortalarından başlayaraq, Bakıda sosial-siyasi hərəkat da genişlənmişdi. Burada Ümumrusiya partiyalarının yerli təşkilatları və milli partiyalar fəaliyyətə başlamışdı. Çarizmin ağır müstəmləkə rejiminə qarşı milli azadlıq hərəkatı da genişlənməkdə idi. 1905-07 illər rus inqilabı şəhərin siyasi həyatında mühüm rol oynadı. 1905 ilin avqust-sentyabr aylarında çar hökumətinin yaxından iştirakı ilə şəhərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı törədildi. Lakin bu, Azərbaycan xalqının milli azadlıq mübarizəsinin qarşısını ala bilmədi. Çar II Nikolayın (1894-1917) 1906 il 28 oktyabr tarixli fərmanına əsasən, Bakı qradonaçalnikliyi (Bakı şəhər rəisliyi) yaradıldı. "Qafqaz təqvimi"nin (1917) məlumatına görə, Bakı qradonaçalnikliyində 405829 nəfər əhali yaşayırdı.Onlardan 173489 nəfəri yerli sakinlər, 232340 nəfəri müvəqqəti yaşayanlar idi.

Fevral inqilabından (1917) sonra Bakıda da ikihakimiyyətlilik yarandı.Müvəqqəti hökumətin yerli orqanı İctimai Təşkilatlarını İcraiyyə Komitələri və onların seçdiyi komissarlar oldu. Bakı şəhər icraiyyə komitəsi ictimai qradonaçalniki və onun köməkçisini seçməli idi. Martın 5-də Bakıda İctimai Təşkilatların İcraiyyə Komitəsi (sədri əvvəlcə kadet Bisç, sonra menşevik Frolov idi) yaradıldı. Martın 7-də Bakı fəhlə deputatları soveti seçildi. Martın 29-da Bakı Müsəlman Şurası (Məhəmməd Əmin Rəsulzadə, Məmməd Həsən Hacınski, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Mirzə Əsədullayev və b.) təşkil edildi. Oktyabrın sonunda *Bakı Şəhər dumasına* seçkilər keçirildi.

Petroqradda bolşeviklərin hakimiyyəti ələ keçirməsindən (1917, oktyabr) sonra oktyabrın 31-də (noyabrın 13-də) Bakı Sovetinin geniş iclasında hakimiyyətin Bakı Sovetinə keçməsi haqqında qətnamə qəbul olundu. Noyabrın 2 (15)-də Bakı Sovetinin İcraiyyə Komitəsi ali hakimiyyət orqanı elan edildi. Bununla İctimai Təşkilatların İcraiyyə Komitələrinin ləğv edilməsinə başlandı. Noyabrın 29-da Bakıda Müəssislər məclisinə seçkilər keçirildi. Seçkidə "Müsavat" partiyası da böyük uğur qazandı. Dekabrın 12-16-da isə Bakı Sovetinə yeni seçkilər oldu. 190 deputatdan 51-i bolşevik, 38-i sol eser, 41—i daşnak, 28-i sağ eser, 21-i "müsavat"çı, 11-i menşevik idi. 1918 il yanvarın 1-də P.A.Caparidze Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçildi. V.İ.Lenin başda olmaqla Sovet Rusiyası Bakı Soveti vasitəsilə bütün Azərbaycanda hakimiyyəti ələ keçirmək siyasəti yeridirdi. Bu məqsədlə Rusiya Xalq Komissarları Soveti (XKS) Bakı Sovetinə 500 min rubl pul ayırmaq haqqında qərar qəbul etmiş, S.Şaumyan Qafqaz işləri üzrə fövqəladə komissar təyin olunmuşdu. S.Şaumyanın başçılığı ilə Bakı Soveti bir sıra sosialist tədbirləri həyata keçirmiş, erməni-daşnak birləşmələrindən ibarət sovet hərbi qüvvələrini yaratmışdı. Bakı Soveti azərbaycanlıların *mart soyqırımının (1918)* təş-

Şirvanşah II Mənuçöhrün kitabəsi



Bakı. 1771. Rəssamı S.Qmelin





Balaxanı neft mədənləri. 19-cu əsr



Quyu üsulu ilə neft çıxarılması. 19-cu əsr

kilatçısı idi. Bakı Soveti hakimiyyətini möhkəmləndirməyə nail olduqdan sonra, aprelin 25-də *Bakı Xalq Komissarları Sovetini* təşkil etdi. Bakı Xalq Komissarları Soveti 1918 il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinə qarşı amansız mübarizə aparırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti isə Bakının azad edilməsinə və paytaxtın buraya köçürülməsinə böyük önəm verirdi. İyulun 31-də Bakı Xalq Komissarları Sovetinin süqutundan sonra şəhərdə hakimiyyət erməni-daşnaklardan və eser-menşeviklərdən ibarət olan Sentrokaspi diktaturasına keçdi, ingilislər Bakıya dəvət olundu. Şiddətli müqavimətə baxmayaraq, sentyabrın 15-də Bakı Azərbaycan Xalq Cümhuriyyətinin hərbi hissələri və ona qardaşlıq yardımı göstərən türk qoşunları tərəfindən azad edildi. Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncədən Bakıya köçürüldü. Bundan sonra Bakmının sosial-siyasi, iqtisadi və mədəni həyatında böyük hadisələr baş verdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il sentyabrın 14-də Bakı quberniyasında inzibati hakimiyyətin bərpası üçün vəsait ayrılması barədə qərar qəbul etdi. Sentyabrın 18-də Bakı şəhər ictimai özünüidarəsinin bərpası haqqında qərar verildi. Birinci dünya müharibəsində (1914-18) Türkiyənin məğlubiyyəti türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsinə səbəb oldu. İngilis qoşunları Bakıya daxil oldu və *Bakı ingilis general-qubernatorluğu* yaradıldı. Buna baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti dövlət quruculuğunu, fəal daxili və xarici siyasətini davam etdirməyə çalışırdı. Dekabrın 7-də Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti işə başladı. Şəhərin sosial-siyasi və mədəni həyatında böyük canlanmalar baş verdi. Parlament 1919 il sentyabrın 1-də Bakı şəhərində universitet açmaq haqqında qanun qəbul etdi, noyabrın 15-də universitetdə dərslər başlandı. 1920 ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyətinin dünya birliyi tərəfindən tanınması Bakıda təntənə ilə qeyd olundu. Lakin Sovet Rusiyası Bakını tutmaq planından əl çəkməmişdi. V.İ.Lenin 1920 il martın 17-də Qafqaz cəbhəsi hərbi inqilabi şurasına teleqramında yazırdı ki, ***"Bakını almaq bizə olduqca zəruridir. Biitün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır..."***. Buna uyğun olaraq, *Bakı əməliyyatı (1920)* hazırlandı və aprelin 25-dən 26-na keçən gecə Sovet Rusiyasının 11-ci Qırmızı ordusu Azərbaycan Xalq Cümhuriyyətinin sərhədini keçərək, Bakıya doğra irəlilədi. Aprelin 27-də Azərbaycan

*Köhnə Bakının dənizdən görünüşü. 1872*

Rəssamı P.P.Vereşşagin. Rüstəm Mustafayev adına İncəsənət Muzeyi. Bakı



Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından hakimiyyətin bolşeviklərə verilməsi haqqında Parlamentə ultimatum verildi. Parlament, hərbi müdaxilə şəraitində, axşam saat 11-də hakimiyyətin bolşeviklərə verilməsi haqqında qərar çıxarmağa məcbur oldu. Az sonra 11 -ci Qırmızı ordu hissələri Bakıya daxil oldu. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Hakimiyyət Azərbaycan Hərbi-İnqilab Komitəsinin əlinə keçdi. Bakı Azərbaycan Sovet Sosialist Respulikasının (Azərbaycan SSR-in) paytaxtı oldu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament, cild 1 -2, B., 1998; (1918-1920). Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Lenin V.İ., Əsərlərinin tam külliyyatı, c.51, B., 1984; Aşurbəyli S., Bakı şəhərinin tarixi (orta əsrlər dövrü), B.,1998; Декреты Азревкома (1920-1921 гг.) Сборник докунментов,Б., 1988; Интернаницициональная помощь XI армии в борьбе за победу советской власти в Азербайджане, Б., 1989; Мильман А., Политический строй в Азербайджане в XIX – начале XX веков, Б., 1966; Тагиев Ф. А. История города Баку в первой половине XIX века (1806- 1859), Б., 1999.

**BAKI AKSİZ İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətində gəlir mənbələrini möhkəmləndirmək məqsədilə yaradılmış qurum. Hökumətin qərarı ilə 1918 il oktyabrın 8-də, Zaqafqaziya Aksizlər İdarəsinin ləğv olunmuş 3-cü dairəsinin əvəzində yaradılmışdı. 3 sahəyə, sahələr isə rayonlara bölünürdü. İdarə yaradılana qədər spirtli içkilərin satışı və istehlakı qadağan olunmuşdu. 1919 il avqustun 24-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə qadağan götürüldü və Azərbaycan ərazisində spirtli içkilərin sərbəst satışına icazə verildi.

1918 il oktyabrın 21-də konyak, meyvədən araqçəkmə zavodlarında üzümdən, eləcə də digər meyvə və giləmeyvələrdən çəkilən spirtə görə aksiz təmiz spirtin hər vedrəsi üçün 50 manata, yüngül üzüm şərablarının hər vedrəsi üçün 10 manata və şampan şərabları üçün 20 manata çatdırılmışdı. 1919 il 6 mart tarixli qərarla həmin il yanvarın 1-dən etibarən içkilərdən və tütündən patent rüsumu 10 dəfə artırıldı.

**BAKI-BATUM DƏMİR YOLU** Bakın Qara dəniz sahili ilə birləşdirən dəmir yolu. Xəzər dənizi sahilindən Cənubi Qafqazın ortasından keçməklə, Qara dəniz sahilinə doğru dəmir yolu çəkilməsi ideyası ilk dəfə XIX əsrin 30-cu illərində irəli sürülsə də, bu yöndə əməli işə yalnız 50-ci illərin ortalarında başlandı. Bakı-Tiflis-Poti istiqamətində dəmir yolu magistralının inşası üçün gərəkli olan mühəndis-texniki və iqtisadi araşdırmalar aparıldı. Lakin Rusiya hökuməti maliyyə çətinlikləri ilə əlaqədar bu dəmir yolunun hissə-hissə çəkilməsinə qərar verdi. O zamankı Qafqaz canişininin irəli sürdüyü hərbi-strateji mülahizələr əsas götürüldü və 1865 ildə, bütün əvvəlki layihələrin əksinə olaraq, Cənubi Qafqazda dəmir yolu çəkilməsinə Bakıdan deyil, əks istiqamətdən - Potidən başlandı. 1867 ildə Poti-Tiflis dəmir yolunun inşası ingilis kapitalistləri T.Parkins və F.Pauerin yaratdıqları şirkətə konsessiyaya verildi. İngilis şirkəti 294 *km* uzunluğu olan bu dəmir yolu xəttini 1872 ildə istifadəyə verdi.

19 əsrin 70-ci illərində Abşeron yarımadasında neft sənayesinin sürətli inkişafı və Poti-Tiflis dəmir yolunun zərərlə işləməsi çar hökumətini tezliklə Bakı ilə Tiflis arasında dəmir yolu inşasına başlamağa vadar etdi. 1879 ildə çar II Aleksandr Bakı-Tiflis dəmir yolunun tikintisinə icazə verdi. 1883 il mayın 8-də bu dəmir yolunun rəsmi istismarına başlandı. Bakı-Tiflis dəmir yolunun ümumi uzunluğu 548,3 *km* idi, üzərində 26 stansiya, 53 körpü inşa edilmişdi.

Bakı-Tiflis dəmir yolu ilə eyni vaxtda Poti-Tiflis dəmir yolu üzərindəki Samtredi stansiyasından Batum limanına dəmir yolu xətti inşa edildi. Belə ki, Poti limanı o zaman böyük həcmdə yükləri qəbul edib yola salmağa imkan vermirdi, Batum isə Qara dənizin Qafqaz sahilində ən əlverişli liman idi. Samtredi-Batum xəttinin (uzunluğu 105,2*km)* rəsmi açılışı 1883 il mayın 21-də oldu və qatarların Bakıdan Batuma birbaşa hərəkəti başlandı. Həm Bakı-Tiflis, həm də Samtredi-Batum dəmir yolu xətlərini Rusiya kapitalı və çar ailəsi nümayəndələrinin aparıcı rol oynadıqları "Zaqafqaziya dəmir yolu cəmiyyəti" inşa etmişdi. Rusiya hökuməti 1889 ildə Bakını Tiflis və Qara dəniz sahilləri ilə birləşdirən Cənubi Qafqaz dəmir yolunu (CQDY) xəzinənin hesabına keçirdi.

CQDY Qafqaz diyarının sosial-iqtisadi inkişafında, xüsusən də Bakı neftinin dünya bazarına çıxarılmasında mühüm rol oynadı. Yük daşımalarının xeyli artması yük vaqonlarının, ilk növbədə, vaqon-sistern parkının sürətlə genişləndirilməsinə səbəb oldu. Məsələn, 1883 ildə istismar edilən vaqon-sisternlərin sayı 400 ədəd olduğu halda, 1890 ildə 5494 ədədə çatdırılmışdı. Bu artım sonrakı onilliklərdə də davam edirdi. Bu da, öz növbəsində, CQDY-nun buraxıcılıq qabiliyyətini yüksəltmək zərurəti yaratdı. Bu məqsədlə 1888-90 illərdə Bakı-Tiflis dəmir yolu üzərində əlavə 13 yarımstansiya inşa edildi, mövcud stansiyalar genişləndirildi, 1900-04 illərdə Bakı-Sabunçu, Biləcəri-Hacıqabul, Yevlax-Ağstafa sahələrində 302 *km* uzunluğunda ikinci yol çəkildi.

Lakin Birinci dünya müharibəsinin doğurduğu çətinliklər, ilk növbədə, son dərəcə çoxalmış hərbi yüklərin daşınması üçün dəmir yolu nəqliyyatının intensiv istismarı, gərgin qrafiklə işləyən parovoz və vaqonların hətta cari təmir üçün də saxlanmaması, ixtisaslı dəmiryolçuların cəbhəyə göndərilməsi böhranlı vəziyyət yaratdı. 1917-18 illərdə hərbi əməliyyatlar, xüsusən Qafqaz cəbhəsindən geri çəkilən 100 minlərlə rus hərbçisinin daşıma vasitələrini və stansiyaları korlamaları, Bakı Xalq Komissarları Sovetinin daşnak-bolşevik rəhbərliyinin Qafqaz İslam Ordusunun Bakı şəhərinə doğru irəliləməsini əngəlləmək üçün dəmir yollarını, körpüləri qəsdən dağıtması CQDY-nun Azərbaycan hissəsində vəziyyəti daha da pisləşdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra milli Hökumətin ilk addımlarından biri CQDY-nun Azərbaycan hissəsinin müəyyən edilməsi, ölkə daxilində və qonşularla normal nəqliyyat əlaqəsinin yaradılması oldu.

1918 il iyunun 4-də Batumda Azərbaycan nümayəndə heyəti Osmanlı, Gürcüstan və Ermənistan nümayəndələri ilə CQDY-nun nəqliyyat vasitələrinin bölüşdürülməsi haqqında saziş imzaladı. Bu sənədə görə, keçmiş Rusiya dövlətinin mülkiyyətində olmuş CQDY-nun parovoz və vaqon parkı hər ölkənin ərazisindəki dəmir yolunun uzunluğuna uyğun olaraq dörd tərəf arasında bölüşdürülməli idi. Həmin gün Batumda Azərbaycan və Osmanlı dövlətləri arasında bağlanmış dostluq müqaviləsinə əlavənin 2-ci maddəsinə görə, Osmanlı tərəfinə bütün hərbi yüklərini Azərbaycan dəmir yolları ilə maneəsiz daşımaq hüququ verildi. 1918 il sentyabrın 16-da isə İstanbulda Azərbaycan nümayəndə heyətinin başçısı Məhəmməd Əmin Rəsulzadə və Osmanlı hökuməti tərəfindən İsmayıl Haqqı paşa arasında ticarət müqaviləsi imzalandı.

Bu müqavilələrlə Osmanlı tərəfinin Azərbaycan yollarından hərbi yükdaşımalar üçün istifadə etməsi şərtləri tənzimləndi. Bu cəhət Əlimərdan bəy Topçubaşovun 1 noyabrın 4-də Osmanlı dövlətinin xarici işlər nazirliyinə göndərdiyi məktubda da qeyd edilmiş, *Mudros barışığının (1918)* 15-ci maddəsinə görə, Osmanlı tərəfinin CQDY-nu Antantanın istifadəsinə verməsinin beynəlxalq hüquq olması, bu maddənin Azərbaycanın müstəsna mülkiyyəti olan dəmir yoluna şamil edilməsinin yolverilməzliyi bildirilmişdi.

1918 il noyabrın 17-də Bakıya daxil olmuş mütəffiq qoşunların başçısı ingilis generalı U.Tomson Azərbaycanın neft sənayesi, maliyyəsi, həmçinin nəqliyyatı üzərində nəzarəti öz əlinə alsa da, Cümhuriyyət Hökuməti tədricən mövqeyini möhkəmlətdi və idarəçiliyi, o cümlədən nəqliyyata nəzarəti özü həyata keçirməyə başladı. 1918 ilin dekabrında dəmir yolu nəqliyyatının işi qismən qaydaya salındı. Yollar Nazirliyi nəqliyyat vasitələrinin təmirini təşkil etdi. 1919 ilin yanvarında Azərbaycana məxsus vaqonların bir qismini Gürcüstandan geri almaq mümkün oldu. Lakin Azərbaycanın yük vaqonlarının bir hissəsini ingilislər ələ keçirib Batuma və İrəvana apardılar.

Dəmir yolu nəqliyyatınınn normal fəaliyyətinin bərpa edilməsində 1919 il martın 9-da Azərbaycanla Gürcüstan arasında imzalanmış dəmir yolu əlaqəsi haqqında sazişin də böyük əhəmiyyəti oldu. Bu sazişə əsasən, Azərbaycan dəmir yoluna məxsus nəqliyyat vasitələrinin Tiflisdə dəmir yolu emalatxanalarında təmir edilməsinə başlandı. Yollar naziri X.Məlik-Aslanov 1919 il oktyabrın 20-də Azərbaycan Parlamentində çıxışında bildirdi ki, həmin vaxtadək 50- dən çox parovoz təmir edilmiş və işlək parovozların sayı 100-ü ötmüşdür. Bu da Bakı-Batum istiqamətində qatarların gündəlik hərəkət intensivliyini artırdı. Nəticədə, yolunun gəliri 1919 ilin yanvarında 5 milyon manat olduğu halda, həmin ilin dekabrında 40 milyon manata çatdı.1920 ilin əvvəlində Bakı-Batum dəmir yolunun Gürcüstan hissəsində 14270, Azərbaycan hissəsində 10779 nəfər işləyirdi. Poylu stansiyasından Bakıya kimi dəmir yolu xətti körpü və stansiyaların, qatarların mühafizəsinə 634 jandarm cəlb olunmuşdu

Azərbaycan Hökuməti 1920 ilin martında Avropadan yeni parovozlar almaq, dəmir yol nəqliyyatının işini yaxşılaşdırmaq üçün digər tədbirlər planı hazırlamışdı. Lakin *Aprel işğalı (1920)* bütün bu işləri yarımçıq qoydu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; ; Əliyev Q.Ə., Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr - XX əsrin ilk onillikləri), B., 2001.



*Bakı-Batum neft kəmərinin tikintisi*

**BAKI-BATUM NEFT KƏMƏRİ** Azərbaycan neftini Qara dəniz sahilinə nəql edən boru kəməri. Layihəsi, ilk dəfə, 19-cu əsrin 70-ci illərində irəli sürülmüşdü. Əsrin son onilliklərində xaricə ixrac olunan başlıca neft məhsulu ağ neft olduğundan 1896 ildə Bakıdan Batuma məhz ağ nefl nəql etmək üçün neft kəmərinin inşası qərara alındı. Mühəndis V.Q.Şuxovun layihəsi əsasında bu boru kəməri hissə-hissə 10 il ərzində çəkildi və 1907 il martın 26-da istifadəyə verildi. Bora kəmərinin inşasına və istismarına Cənubi Qafqaz dəmir yolu idarəsi rəhbərlik edirdi. Ümumi uzunluğu 839,36 *verst* olan Bakı-Batum magistral bora kəmərinə 16 ötürücü stansiya xidmət edirdi. Boruların diametri 8 düymə, divarlarının qalınlığı 4 *mm* idi. Boralards təzyiqin 50 atmosferə qədər olması nəzərdə tutulurdu. Boru kəməri ilə gündə 240 min pud, il ərzində isə 60 milyon pud kerosin nəql oluna bilərdi. Rusiya hökuməti o dövrdə ən uzun boru kəməri olan bu nəhəng texniki kompleksin inşasına 21046 min rubl xərcləmişdi. Birinci dünya müharibəsi ərəfəsində Bakı-Batum neft kəməri ilə ildə orta hesabla, 22 milyon pud kerosin ixrac edilirdi. Boru kəmərinin istismarı həmin dövrdə ağ neftin daşınma xərclərini 4 dəfəyə qədər aşağı saldı və hər il Rusiya xəzinəsinə 3 milyon rubldan artıq təmiz gəlir gətirdi. Lakin müharibə başlanandan sonra xarici bazara neft məhsulları ixracı kəskin surətdə azaldığı üçün, müharibənin ilk 2 ilində Bakı-Batum neft kəməri ilə cəmi 3 milyon pud kerosin nəql edilmişdi.

1917 ildə Qafqazın daxili ehtiyaclarının ödənilməsi üçün boru kəməri ilə kerosin əvəzinə xam neft vurulmasına keçildi.

Həmin il boru kəməri ilə 15,5 milyon pud xam neft nəql edildi. 1918 ilin mayında Cənubi Qafqazda müstəqil dövlətlər elan olunması ilə əlaqədar Bakı-Batum ağ neft kəmərinin müntəzəm və normal işləməsini təmin etmək zərurəti yarandı. Bu məqsədlə iyunun 4-də Batumda Azərbaycan, Gürcüstan və Osmanlı nümayəndələri ayrıca saziş imzaladılar. Sazişə görə, tərəflər öz ərazilərində ağ neft kəmərinin normal fəaliyyətini təmin etməyi öhdələrinə götürdülər. Tərəflər, həmçinin, boru kəmərinin istismarından əldə edilən gəliri kəmərin öz ərazilərindəki uzunluğuna uyğun olaraq bölməyi razılaşdırdılar və bu sazişin detallarını müəyyənləşdirmək üçün Məmməd Həsən Hacınski, Məhəmməd Əmin Rəsulzadə, N.Ramişvili, Q.Qvazava, Xəlil paşa və Vəhib paşadan ibarət komissiya yaradıldı. Lakin Bakıda hakimiyyəti ələ keçirmiş bolşeviklər və hərbi əməliyyatlar boru kəmərinin normal istismarına imkan vermədi, 1918 ilin noyabrında isə Cənubi Qafqaz dəmir yolları, eləcə də Bakı-Batum boru kəməri ingilis komandanlığının sərəncamına keçdi və ingilislər bunların vasitəsilə qısa müddət ərzində 21,1 milyon pud neft daşıyıb apardılar. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti isə yalnız 1919 ilin yazında Batum limanı vasitəsilə xarici bazara neft və neft məhsulları ixrac etmək imkanı əldə edə bildi. Bununla bağlı mayın 26-da Bakı-Batum boru kəməri ilə xam neft nəqlindən kerosin nəqlinə keçmək haqqında qərar verildi. Dünya təcrübəsində görünməmiş sürətlə boru kəməri təmizlənib kerosin vurulması üçün yararlı hala salındı.

1919 il oktyabrın 26-da Azərbaycan Parlamentinin iclasında bu barədə məlumat verən yollar naziri Xudadat bəy Məlik-Aslanov bildirdi ki, hazırda Bakı-Batum boru kəməri normal işləyir və Hökumətə ayda 4 milyon rubl gəlir gətirir. Boru kəməri ilə 1919 ilin ikinci yarısında 8,8 milyon pud, 1920 ilin ilk ayları ərzində isə 9,4 milyon pud kerosin nəql edilmişdi.

*Aprel işğalı (1920)* və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə bağlı olaraq Bakı-Batum boru kəmərindən istifadə olunması yenidən dayandırıldı və onun istismarı yalnız 1923 ildə bərpa olundu.

*Əd.*: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; Əliyev Q.Ə., Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr - XX əsrin ilk onillikləri), B., 2001.

**BAKI BONLARI** - pul nişanları, alıcılıq və ödəmə vasitəsi kimi istifadə olunan qısamüddətli borc öhdəliyi. İlk dəfə 1918 il fevralın 5-də Zaqafqaziya komissarlığı tərəfindən, sonra isə müstəqil Cənubi Qafqaz respublikaları arasında razılaşma əsasında buraxılmışdır. 1918 ilin yazında Bakı şəhər özünüidarə orqanı və şəhər təsərrüfatı şurası da bonlar buraxmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yeni bonlar buraxılması haqqında Gürcüstan və Ermənistanla apardığı danışıqlar, irəli sürülən şərtlər Azərbaycan üçün sərfəli olmadığından, uğursuzluqla nəticələndi. Bununla əlaqədar, 1918 il iyulun 18-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sədri Fətəli xan Xoyski İstanbuldakı Azərbaycan nümayəndə heyətinə Türkiyədə Azərbaycan bonlarının hazırlanmasını sifariş etməyi tapşırdı. Türkiyədəki danışıqlar nəticəsində kredit biletləri buraxmaq qərara alındı. Türkiyə Dəniz Nazirliyinin mətbəəsi bonların çapını öz üzərinə götürdü.

1918 il sentyabrın 22-də respublikada pul dövriyyəsi məsələsi həll olunana qədər 10, 25 və 50 manatlıq Bakı şəhər pul nişanlarının buraxılması qərara alındı. Həmin pulun nişanlarının buraxılması və dövriyyədən çıxarılması qaydaları müəyyən olunarkən, Bakı şəhər özünüidarə orqanının və keçmiş şəhər təsərrüfatı şurasının dövriyyədəki pul nişanları ilə əlaqədar qəbul etdiyi qaydalar əsas götürüldü.


اعلان

ОБЪЯВЛЕНІЕ

1918 il oktyabrın 9-da Hökumət respublikada dövriyyədə olan pul nişanları üçün vahid məzənnə müəyyən etdi. 1919 il yanvarın 27-də Gürcüstanla birgə Cənubi Qafqaz nümunəli 40 milyon bon buraxılması qərara alındı (respublikaların hərəsi 20 milyon bon almalı idi).

1919 il martın 30-da Cümhuriyyət Hökuməti mövcud pul nişanlarından əlavə, 100 manatlıq pul nişanı buraxmağı qərara aldı. İyunun 6-da 100 manatlıq pul əsginaslarının Hökumətinin 1919 il 3 mart tarixli qərarı ilə Bakı bonlarının Cənubi Qafqaz bonlarına sərbəst dəyişdirilməsinə icazə verildi. Martın 11-dən etibarən isə bonların buraxılması bərpa olundu. Buraxılan pul nişanlarının Bakı xəzinədarlığında

saxlanması və uçotunun aparılması qaydası Hökumətin 1919 il 2 aprel tarixli qərarı ilə müəyyən edildi. Aprelin 23-dən etibarən isə Bakı bonlarının Cənubi Qafqaz bonlarına sərbəst dəyişdirilməsi ilə yanaşı, onların Azərbaycan bazarına buraxılmasına da icazə verilirdi.

1919 il mayın 26-da Hökumətin qəbul etdiyi qərarda köhnəlmiş pul nişanlarının ödənişə qəbul olunması və dəyişdirilməsinin qaydaları, habelə belə pul nişanlarını qəbul etməkdən boyun qaçıran xəzinədarlıq kassaları işçiləri barədə görüləcək inzibati tədbirlər ətraflı şəkildə gösərilmişdi. 1919 il noyabrın 8-dən etibarən bütün idarələrin dövlət kassalarına yalnız Azərbaycan Xalq Cümhuriyyətinin, habelə Bakı şəhər özünüidarə orqanı, şəhər təsərrüfatı şurasının və Zaqafqaziya komissarlığının pul nişanlarını qəbul etmək icazəsi verilmişdi. 1919 il dekabrın 1-də Parlamentin qəbul etdiyi qanuna əsasən, Hökumətə Azərbaycan Xalq Cümhuriyyətinin 600 milyon manat məbləğində pul nişanlarını buraxmaq barədə icazə verildi. Bakı bonlarının buraxılması müstəqil dövlətin maliyyə-təsərrüfat işlərinin sahmana salınmasında və müstəqil maliyyə siyasətinin yeridilməsində əhəmiyyətli rol oynadı.

**BAKI DAİRƏ MƏHKƏMƏSİ** - məhkəmə orqanı. 1868 il fevralın 19-da fəaliyyətə başlamışdı. "1864 il 20 noyabr tarixli məhkəmə nizamnamələrinin Zaqafqaziya diyarında tətbiqi haqqında" qanuna (1867 il 9 dekabr) əsasən yaradılmışdı. 1918 ilin mayında Bakı Xalq Komissarları Sovetinin dekreti ilə ləğv olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsi və onun tabeliyindəki idarələr, habelə prokurorluğun fəaliyyəti bərpa edilmişdi.

Dairə məhkəməsi Bakı quberniyasında ali məhkəmə instansiyası olub Azərbaycan Məhkəmə Palatasına və Ədliyyə Nazirliyinə tabe idi. Sədr və 5 üzvdən ibarət olan dairə məhkəməsi nəzdində məhkəmə pristavları, böyük notarius və notariuslar, xüsusilə mühüm işlər üzrə iki məhkəmə müstəntiqi fəaliyyət göstərirdi. Məhkəmədə iki cinayət şöbəsi və iki mülki şöbə var idi. Mülki şöbələrdə mərz məsələləri ilə bağlı mübahisələrə də baxılırdı və bunu məhkəmənin hakimlərindən biri aparırdı. Bakı şəhər barışıq şöbəsi, istintaq şöbəsi, Bakı qəza barışıq şöbəsi, dairə prokuror nəzarəti Bakı dairə məhkəməsinin tabeliyində idi. 1919 il oktyabrın 22-də Azərbaycan Məhkəmə Palatasının üzvü Fətəli bəy Axundov Bakı dairə məhkəməsinin sədri təyin olunmuşdu.

**BAKI DAİRƏ MƏHKƏMƏSİNİN BARIŞIQ ŞÖBƏLƏRİ** - məhkəmə instansiyası, Bakı quberniyasında 1868 ildə təşkil olunmuşdu. Barışıq şöbələrinə Qafqaz canişininin təqdimatı ilə ədliyyə nazirinin təyin etdiyi barışıq hakimləri başçılıq edirdilər. Onlar, əsasən, yerli bəylərdən ibarət idi.

Barışıq şöbələri xırda cinayət işlərinə və çox da böyük olmayan mülki işlərə baxır, 300 rubldan çox olmayan cərimə və 3 ayadək həbs cəzası kəsilməsi barədə hökm çıxarırdılar. Bütün işlər, həm də məhkəmə müstəntiqi vəzifəsini yerinə yetirən barışıq hakimləri tərəfindən araşdırılırdı. Barışıq şöbələrinin fəaliyyətinə dairə məhkəməsi nəzarət edirdi. 1918 ilin mayında Bakı Xalq Komissarları Sovetinin dekreti ilə barışıq şöbələri ləğv olunmuşdu.

Cümhuriyyət Hökumətinin qərarları ilə anarxiya dövründə dağıdılmış məhkəmə aparatı, o cümlədən Bakı dairə məhkəməsinin və onun tabeliyindəki bütün idarələrin, eləcə də barışıq şöbələrinin fəaliyyəti bərpa olundu. 1918 il sentyabrın 18-də Cümhuriyyət Hökuməti Azərbaycanda barışıq məhkəmələri idarələrinin bərpasına vəsait ayrılması haqqında qərar qəbul etdi.

1919 il avqustun 18-də Parlament barışıq hakimlərinin baxdığı cinayət işlərinin genişləndirilməsi, onların səlahiyyətinin artırılması və özgəsinin mülkiyyətinə qarşı bəzi cinayətlərə görə cəzaların dəyişdirilməsi haqqında qanun qəbul etdi. Həmin qanuna əsasən, barışıq hakimlərinin baxdıqları işlər üzrə cərimələrin məbləği 300 rubldan 10000 rubla qaldırıldı. Dairə məhkəmələrinin bəzi səlahiyyətləri də barışıq hakimlərinə verildi.

**BAKI DAİRƏ MƏHKƏMƏSİNİN PROKUROR NƏZARƏTİ** - məhkəmə işləri üzrə nəzarət orqanı. 1867 ilin dekabrında təsis edilmişdi. 1918 ilin mayında Bakı Xalq Komissarları Sovetinin dekreti ilə ləğv olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin və tabeliyindəki təsisatların, eləcə də **prokurorluğun fəaliyyəti bərpa edildi.**


مجبوری قرارداد

فتحعلی خان

عبدالعلی بک امیرجانوف

**Обязательное постановленіе**

Согласно постановленія Правительства Азербайджанской Республики, всѣ денежные знаки, имѣющіе хожденіе въ предѣлахъ Республики как-то: общероссійскія деньги (Николаевскія, Керенскаго) и боны Бакинскія и Закавказскія имѣютъ одну и ту же цѣнность (стоимость) и совершенно одинаковую валюту; при чемъ одна турецкая бумажная лира обмѣнивается на двадцать рублей всѣхъ означенныхъ выше денежныхъ знаковъ (Николаевскихъ, Керенскихъ, Бакинскихъ и Закавказскихъ). Лица, уклоняющіяся отъ исполненія сего постановленія, будутъ подвергаться строгому преслѣдованію по закону.

Председатель Совѣта Министровъ Ф. Ханъ-Хойскій

Министръ Финансовъ Аб. Амирджановъ

O, prokurordan və onun iki yoldaşından ibarət olan Azərbaycan Məhkəmə Palatasının prokuror nəzarətinə tabe idi. Bakı dairə məhkəməsində prokuror nəzarəti ilə məşğul olan şəxslərin-prokurorun və onun beş yoldaşının fəaliyyəti haqqında Azərbaycan Məhkəmə Palatasının prokuroruna hər ay hesabat göndərilirdi. Prokuror nəzarəti icraatda olan işlərə nəzarət edir, onlara dair şifahi və yazılı təkliflər verir, polis meysterlərin gündəlik raportlarına baxırdı. Fövqəladə mühüm hallarda istintaqın gedişinə rəhbərlikdə bilavasitə iştirak etmək üçün, sahə müvəkkilindən əlavə, prokurorun məşğul olmayan bütün yoldaşları da hadisə yerinə gedirdi. Prokuror nəzarətinə həbslə, vəzifə pozuntuları ilə bağlı daha mühüm və 1919 il dekabrın 1-dək baş vermiş işlərə xüsusi diqqət yetirmək tapşırılmışdı.

*Əd:*. Азербайджанская Демократическая Республика (1918-1920), 1998; Законодательные акты (сборник документов), Б., 1998.

**BAKI-DƏRBƏND DƏMİR YOLU** - Bakını Dərbəndlə birləşdirən dəmir yol xətti. Mərkəzi Rusiyanı Qafqazla birləşdirən dəmir yolu magistralının inşasına dair təklif və layihələr 19 əsrin 50-ci illərindən irəli sürülməyə başlasa da, bu sahədə ilk addım Moskvadan Krıma doğru inşa edilən dəmir yolu üzərindəki Taqanroq stansiyasından Rostova xətt çəkilməsi oldu. 1872-75 illərdə isə Rostov-Vladiqafqaz dəmir yolu çəkildi. Bu yolu inşa etmiş "Vladiqafqaz dəmir yolu əmiyyəti" Vladiqafqaz-Petrovsk dəmir yolunu çəkməyə başladı və 1894 ildə onu rəsmən istifadəyə verdi.

19 əsrin 90-cı illərində Bakının və bütövlükdə Cənubi Qafqazın dəmir yolu vasitəsilə birbaşa Mərkəzi Rusiya ilə birləşdirilməsi dövlət əhəmiyyətli tədbir kimi qarşıya qoyuldu. Bunu nəzərə alan çar hökuməti 1896 ildə Port-Petrovsk-Dərbənd xəttinin, 1897 ildə isə Dərbənd-Bakı xəttinin inşasına icazə verdi. "Vladiqafqaz dəmir yolu cəmiyyəti" hər iki dəmir yolu xəttinin tikintisinə başladı. 1905 il aprelin 5-də Port-Petrovsk-Dərbənd (uzunluğu 130 *km),* iyulun 15-də isə Dərbənd-Bakı (uzunluğu 231,5 *km)* dəmir yolu xətləri istifadəyə verildi. Bakı-Port-Petrovsk dəmir yolu magistralının Biləcəri-Dərbənd sahəsində 11, Dərbənd-Petrovsk sahəsində 5 stansiya inşa edildi, həmçinin, qatarlara texniki xidmət, parovoz və vaqonların cari təmiri və sazlanması üçün Biləcəri, Dərbənd və Port-Petrovskda dövriyyə depoları yaradıldı.

Bakı-Dərbənd-Port-Petrovsk dəmir yolunun işə salınması ilə Cənubi Qafqaz dəmir yolu Ümumrusiya dəmir yolu şəbəkəsinə qoşuldu, Azərbaycanın və bütövlükdə, Cənubi Qafqazın sərvətlərinin ucdantutma Mərkəzi Rusiyaya daşınmasına başlandı. Bu da dəmir yolu nəqliyyatının işində gərginliyi ildən-ilə artırırdı. Məsələn, Birinci dünya müharibəsi (1914-18) ərəfəsində 5 il ərzində nəqliyyat vasitələrinin dövriyyəsi 1,5 dəfədən çox artmışdı. Müharibənin başlanması isə imperiyanın hər yerində olduğu kimi, Vladiqafqaz, o cümlədən Bakı-Dərbənd dəmir yol xəttində böhranlı vəziyyət yaratdı. Cəbhənin artmaqda olan ehtiyaclarını ödəmək, hərbi yüklərin ləngimədən daşınmasını təmin etmək üçün daşıma vasitələrinin intensiv istismarı vaqon və parovozların sıradan çıxmasına, nəticədə dəmir yolu nəqliyyatında böhranın dərinləşməsinə gətirib çıxardı. 1917 ilin sonunda Qafqaz cəbhəsindən Rusiyaya qayıdan yüz minlərlə rus hərbçisi də dəmir yolu stansiyalarına və daşıma vasitələrinə ağır ziyan vurdu.

Azərbaycan Xalq Cümhuriyyəti 1918 ilin payızında Bakı-Petrovsk dəmir yolunun işini qaydaya salmaq üçün addımlar atdı. Belə ki, Bakının taxılla normal təminatı bu xəttin işindən birbaşa asılı idi. 1919 il yanvarın 9-da Azərbaycan Hökuməti Şimali Qafqaz Dağlılar Respublikası hökuməti ilə 60 vaqon buğda alınması haqqında müqavilə bağladı. Lakin 1919 ilin iyununda Denikin ordusunun Dağıstanı və Dərbəndi tutması Azərbaycanın Şimali Qafqazla nəqliyyat əlaqəsini kəsdi. Azərbaycan tərəfi Bakı ilə Rostov arasında dəmir yolu əlaqəsini bərpa etmək üçün 1919 il sentyabrın 11 -də Denikinin Cənubi Qafqazdakı nümayəndəsi ilə ilkin razılaşma aktı imzaladı. Lakin Denikinin Azərbaycana düşmən münasibəti bunun reallaşmasına imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakı ilə Yalama stansiyası arasında qatarların normal hərəkətini 1919 il ərzində bərpa edə bildi. Həmin ilin əvvəlində Port-Petrovsk istiqamətində gündə 1 cüt qatar yola salınıb qəbul edildiyi halda, 1919 ilin sonunda gündə 4 cüt qatarın qəbul edilib yola salınması təmin olundu. 1920 ilin yazında bu istiqamətdə qatarların sayını artırmaq üçün Yollar Nazirliyi Avropadan parovoz və vaqonlar alınması məsələsini qaldırdı. *Aprel işğalı (1920)* bu sahədə çalışmaları yarımçıq qoydu.

*Əd:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), 2 cilddə, B,, 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998; Əliyev Q.Ə., Azərbaycan neqliyyatı və iqtisadiyyatı (XIX əsr-XX əsrin ilk onilliklər), B., 2001.

**BAKI DÖVLƏT UNİVERSİTETİ (BDU),** B a k ı Universiteti, B a k ı D a r ü l f ü n u n u-müsəlman Şərqində ilk Avropa tipli ali məktəb. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuş (1919), ölkədə ali təhsilin və elmin inkişafında əvəzsiz rolu olmuşdur. Hazırda Azərbaycan Respublikasının aparıcı təhsil ocağıdır.

BDU-nun açılması Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm xidmətlərindən biri olmuşdur. Çar mütləqiyyəti dövründə Rusiya imperiyası tərkibində Cənubi Qafqazda ali məktəb açılmadı. Fevral inqilabı (1917) nəticəsində yaradılmış Müvəqqəti hökumət Cənubi Qafqazda vahid və yeganə ali məktəbi-Tiflisdə "rus universiteti"ni açmaq niyyətində idi. Tiflisdə universitet açmaq üçün yerli Ali qadın kurslarının professorlarından ibarət komissiya yaradılmışdı. Komissiyaya sonralar Bakı universitetinin yaradılmasında mühüm rol oynamış professor V*X.Razumovski* başçılıq etdi. Komissiya universitetin layihə və smetasını hazırlayıb Zaqafqaziya Respublikası hökumətinin müzakirəsinə verdi.



*Bakı Dövlət Universitetinin möhürü. 1919*

V.İ.Razumovski xatırlayırdı: "İşimiz qurtarana yaxın (Rusiyada Oktyabr çevrilişindən sonra - *red.)* Qafqaz Zaqafqaziya Respublikası kimi Rusiyadan ayrıldı və gürcülərdən, ermənilərdən və türklərdən (azərbaycanlılardan - *red.)* ibarət qarışıq hökumət təşkil edildi. Xalq maarifi naziri bakılı Xan Xoyski (Fətəli xan Xoyski - *red.)* idi. Biz Tiflisdə "rus universiteti"nin təşkili üçün apardığımız işdən istifadə etməyi həmin hökumətə təklif etdik. Nazir (Xan Xoyski) bizi dinlədi, Qafqazda rus universitetinin təsis edilməsinə rəğbətini bildirdi, lakin əlavə edib dedi: ***"Bəs niyə Tiflisdə? Tiflisdə Politexnikum var, indi də gürcii universiteti... Bəlkə universiteti Bakıda açmaq daha düzgün olardı?".*** **O,** bizim məlumat məktubumuzu nəzərdən keçirmək üçün götürdü və bizim məqsədimiz barədə Nazirlər Şurasına məlumat verəcəyini vəd etdi". Lakin hökumət bu məsələyə baxmağa imkan tapmadı. Zaqafqaziya Respublikası üç müstəqil respublikaya parçalandı. Buna baxmayaraq, 1918 ilin iyulunda Ali qadın kursları üç fakültədən - təbiət, tarix-filologiya və tibb fakültələrindən ibarət, tədrisin rus dilində aparıldığı Zaqafqaziya universitetinə çevrildi. V.İ.Razumovski universitetin rektoru seçildi. Lakin Zaqafqaziya universiteti yarandığı ilk günlərdən böyük maliyyə çətinlikləri ilə rastlaşdı və çox keçmədən məlum oldu ki, onun Tiflisdə fəaliyyət göstərməsi mümkün olmayacaqdır. Beləliklə, yenicə açılmış universitetin Yekaterinodar, İrəvan və ya Bakıya köçürülməsi məsələsi meydana çıxdı. Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakı şəhərində universitetin açılmasına böyük əhəmiyyət verirdi. Bu xətti Nəsib bəy Yusifbəyli Hökuməti də davam etdirdi. V.İ.Razumovski yazmışdır: ***"1919 ilin əvvəlində Azərbaycan Respublikası xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski Tiflis şəhərinə gəldi. O, rus universitetini Bakıya köçürmək təklifl ilə gəlmişdi, ...yaxşı binalar, maddi təminat və s. vəd etdi".*** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təklifi ictimai tələbatı ifadə edirdi. Azərbaycanın bir çox ictimai xadimləri və ziyalıları öz mütərəqqi ideyalarını ali məktəblə bağlayırdılar. Azərbaycanın real intellektual potensialı ölkədə universitetin fəaliyyətə başlamasına imkan verirdi.

Zaqafqaziya universitetinin Tiflisdə fəaliyyət göstərə bilməməsi professorlar şurasını qətiyyətli hərəkət etməyə vadar etdi. 1919 ilin martında rektor V.İ.Razumovski universitet şurasının iclasında Bakıya köçmək haqqında təklif irəli sürdü. Çünki Bakıdan alınmış təkliflər daha real və sanballı idi. Universitet şurasında əksəriyyət universitetin Bakıya köçürülməsi tərəfdarı idi. Lakin bir qrup, xüsusən ermənilər, bunun əleyhinə çıxdılar. Məsələnin qəti həlli üçün komissiya yaradıldı və NA.Dubrovski, L.A.İşkov və İ.S.Sitoviçdən ibarət nümayəndə heyəti Cümhuriyyət Hökumətilə danışıqlar aparmaq, real vəziyyətlə yerində tanış olmaq üçün Bakıya göndərildi. Aydın oldu ki, Azərbaycan Hökuməti öz universitetinin olmasında o dərəcədə israrlıdır ki, ***"hətta Zaqafqaziya rus universiteti köçməsə də, Bakıda universitet yaradılacaqdır, ultimativ müddət də göstərilmişdi -1 may"*** (V.İ.Razumovski). Bu zaman Azərbaycan xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski V.İ.Razumovskiyə teleqram göndərib bildirdi ki, Bakıda yeni universitet açılır və bu universitetin təşkilini öz üzərinə götürsün. V.İ.Razumovski öz həmkarları ilə məsləhətləşmələr apardıqdan sonra, təklifi qəbul etdi, Zaqafqaziya Universitetinin rektoru vəzifəsindən imtina etdi və razılıq verdiyini teleqraf vasitəsilə Bakıya bildirdi. Az sonra Azərbaycan Xalq Maarifi Nazirliyi nəzdində universitet komissiyası haqqında əsasnamə qəbul edildi. 1919 il mayın 19-da Hökumət Xalq Maarifi Nazirliyi nəzdində universitet komissiyasını təsdiq etdi. Komissiyanın tərkibinə prof. V.İ.Razumovski (sədr), prof. A.M.Levin, prof. N.A.Dubrovski, İ.A.Babuşkin (katib) ilə yanaşı Xalq Maarifi Nazirliyindən V.İrzayev, M.A.Şahtaxtinski, şəhər özünü-idarəsindən şəhər idarəsinin üzvü Əlicabbar Orucəliyev, "Neft sənayeçiləri qurultayı" şurasından A.N.Sarapov, M.Sultanov daxil idilər. Bundan başqa, Bakı müalicəxanalarının üç baş həkimi də məşvərətçi səslə komissiyanın fəaliyyətinə cəlb olundular. Kimyaçı L.Q.Qurviç, zooloq A.N.Derjavin, əczaçılıq magistri İ.K.Qolberq də universitet komissiyasının fəaliyyətinə cəlb olunmuşdular. Komissiyanın 1919 il mayın 21-də keçirilən birinci iclasında xalq maarifi naziri Rəşid bəy Qaplanov çıxış edərək universitetin açılması barədə Azərbaycan Hökumətinin qəti qərarını bildirdi. Komissiyaya geniş hüquqlar verilmişdi. Komissiya üzvləri Hökumət başçısınadək hər bir yüksək vəzifə sahibinə birbaşa müraciət etmək səlahiyyətinə malik idi. Hökumət iyunun 16-da universitet komissiyasının ştatlarını təsdiq edib, maaşları müəyyənləşdirdi. Komissiya qısa müddətdə universitetin təsis edilməsi haqqında 1919 il 31 may tarixli bəyannaməni, qanun layihəsini, universitetin nizamnamə layihəsini, həmçinin, 1919-20-ci tədris ili üçün ştat və smeta layihəsini Hökumətə təqdim etdi. Hökumət komissiyanın təqdim etdiyi layihəni iyulun 7-də müzakirə etdi.

Ölkənin iqtisadi vəziyyətinin mürəkkəb olduğu bir şəraitdə universitet üçün tələb olunan maliyyə vəsaiti nəinki azaldılmadı, əksinə, 3,5 milyon manatdan 5 milyon manata qədər, müəllimlərin əmək haqqı isə, əlavə olaraq, nəzərdə tutulduğunun 1/3—i qədər artırıldı. 1919 il avqustun 21-də Parlamentdə universitetin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi göstərdi ki, universitetin açılmasına əksəriyyətin tərəfdar olması ilə yanaşı, bunun əleyhdarları da vardı.

Onlar rus dilində açılacaq universitetin ruslaşdırma ocağı olacağından ehtiyat edirdilər. Universitet açılmasının əleyhdarlarının fikrincə, milliləşdirilən orta məktəblərin hamısı universitet açıldıqdan sonra ləğv olub gedəcəkdir. Universitet olmalıdır, lakin Azərbaycan dilində, həm də onun açılışı orta məktəblərin milliləşdirilməsinin başa çatması ilə bir vaxta salınmalıdır. Universitetin təsisi əleyhinə olan əsassız iddialar mütərəqqi və uzaqgörən Parlament üzvləri və qabaqcıl ziyalılar tərəfindən rədd edildi. Həmin ziyalılar rus dilində açılacaq universitetin tədriclə milliləşdirilməsi və türkləşdirilməsi tərəfdarı idilər. Universitetin açılmasında onun ilk təşəbbüsçüsü F.x.Xoyskinin, həmçinin, N.Yusifbəylinin, R.Qaplanovun, H.Şahtaxtinskinin, M.Ə.Rəsulzadənin böyük xidmətləri olmuşdur. 1919 il sentyabrın 1-də Parlament "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında qanun" qəbul etdi (bax *Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun).* Elə həmin iclasda Parlament 1919-20-ci dərs ilində 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrin ali məktəblərinə göndərilməsi üçün vəsait ayrılması barədə qərar qəbul etdi (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar).* Universitetin açılması haqqında qanunda onun dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilmiş, 1919 il sentyabrın 1-dən başlayaraq birillik müvəqqəti ştat və smeta cədvəli, universitet komissiyasına üç il müddətinə ilk rektor və dekanları, kollegiyaya isə professorları dəvət etmək, elmi şuraya idarə heyəti təşkil etmək hüququ verildiyi öz əksini tapmışdı. Qanunda 1919-20-ci dərs ilində tədrisin təşkili, zəruri avadanlıqlarla təchiz olunması üçün universitetə dövlət büdcəsindən 5 milyon manat vəsait ayrılması nəzərdə tutulmuş, xüsusi olaraq göstərilmişdi ki, Azərbaycan (türk) dili bütün fakültələrdə icbari fənn kimi tədris olunmalıdır. BDU 1919 il sentyabrın 1-dən etibarən fəaliyyətə başlamış sayılırdı. Universitetə həm kişilər, həm də qadınlar bərabər hüquqla qəbul olunurdular. Qəbulda Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Universitetin təsisi haqqında qanunun Parlament tərəfindən təsdiq olunması münasibətilə V.İ.Razumovski Parlamentdəki çıxışında demişdi: ***"Azərbaycanda, hətta müsəlman dünyasında bu böyük hadisənin - Darülfünunun təsisi mərasimi təntənəsini qeyd etməyə, nəinki Parlamanı, buraya toplaşan kütlələrin şəxsində ictimai fikri də gördüyümə hədsiz xoşbəxtəm...".***

Universitetin təşkilat komissiyası V.İ.Razumovskini yekdilliklə universitetin rektoru, görkəmli tarixçi, publisist N.A.Dubrovskini tarix-filologiya fakültəsinin, prof. İ.İ.Şirokoqorovu isə tibb fakültəsinin dekanı seçdi. İ.İ.Şirokoqorov bu zaman Bakıda olmadığına görə prof. A.M.Levin tibb fakültəsinə müvəqqəti dekan seçildi. Sentyabrın 10-da universitet komissiyası A.A.Oşmanı, M.S.Milmanı, L.Q.Qurviçi, A.N.Derjavini tibb fakültəsinə, Y.İ.Baybakovu, L.A.İşkovu, L.Q.Lopatinskini, A.B.Selixanoviçi tarix-filologiya fakültəsinə professor vəzifəsində işə dəvət etməyi qərara aldı.

1920 il sentyabrın 15-də universitet komissiyasının son iclası oldu. İclasda Müvəqqəti Şura və Universitet İdarə Heyəti yaradıldı. 1919 il sentyabrın 29-da "Bakı Dövlət Darülfünunun Nizamnaməsi" Parlament tərəfindən təsdiq edildi (bax *Bakı Dövlət Universitetinin nizamnaməsi).* Beş fəsildən, 72 maddədən ibarət nizamnamədə universitetin təşkilati quruluşu, onun elm və tədris sahələrinin fəaliyyəti, professor-müəllim heyətinin vəzifə və hüquqları müəyyənləşdirilmişdir. Çatışmayan işçiləri cəlb etmək üçün V.İ.Razumovski və N.A.Dubrovski 1919 ilin sentyabrında Rusiyanın cənub universitetlərinin fəaliyyət göstərdiyi şəhərlərə getdilər. Rostov-Donda, Yekaterinoslavda və Xarkovda bir sıra görkəmli alimlərin razılığını aldılar. Universitet komissiyasının üzvü prof. B.K.Finkelşteyn avadanlıq, ədəbiyyat və s. almaq üçün Qərbi Avropaya getdi. 1919 il noyabrın 10-da Universitet Şurasının birinci iclası oldu. İclasda professorların və b. akademik heyətin tərkibi təsdiq edildi. 1919 il noyabrın 15-i universitetdə birinci dərs günü elan olundu. "Azərbaycan" qəzeti 17 noyabr tarixli nömrəsində"Darülfünunun açılması" başlığı altında dərc olunmuş məqalədə yazırdı: "Dün Azərbaycan Darülfünunu ilk dəfə olaraq açıldı və ilk gündür ki, məşğuliyyətə başladı". Bununla əlaqədar universitetin rektoru V.İ.Razumovski yazırdı: ***"Azərbaycan öz maarif ocağını yaratdı, tiirk*** (Azərbaycan *-red.)* ***xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı".***

*Tarix-filologiya fakültəsinin ilk binası. 1919*
*(indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti)*



*Tibb fakültəsinin ilk binası. 1919*
*(indiki 4 saylı M.Əfəndiyev adına şəhər klinik xəstəxanası)*



İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa, universitetə 217 azad dinləyici qəbul edilmişdi. BDU özünün ilk bəhrəsini 1922 ildə verdi: 30 nəfər gənc ali təhsilli həkim adına layiq olmaları barədə universitet diplomu aldı. Bu məzunların iki nəfəri azərbaycanlı qızlar idi: Ədilə xanım Şahtaxtlı tibb sahəsində ilk azərbaycanlı qadın elmlər doktoru, Cənnət xanım Sultanova isə respublikanın adlı sanlı həkimi oldu.

*Aprel işğalından (1920)* sonra BDU yeni tarixi şəraitdə fəaliyyət göstərdi. Universitetdə təlim-tərbiyə və elmi fəaliyyətin əsas istiqamətləri sinfilik və partiyalılıq prinsiplərinə əsaslanaraq yenidən qurulmağa başladı. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 1920 il 10 və 22 may tarixli dekretləri ilə universitetdə yenidənqurma işləri aparıldı. 1920 ildə qəbul edilmiş "Bakı Dövlət Universiteti haqqında" yeni Əsasnamədə bütün məcburi kursların və məşğələlərin müvəqqəti olaraq rus dilində aparılması nəzərdə tutulurdu. 1920 ilin dekabrında universitetdə fəhlə fakültəsi açıldı. Bununla belə, 1920-22 illər ərzində universitetin həyatında nisbi müstəqillik dövrü olmuşdur. 1920 ildə fizika-riyaziyyat, 1922 ildə şərqşünaslıq fakültələri təşkil edildi. Azərbaycan Xalq Maarifi Komissarlığının 1922 il 6 dekabr tarixli qərarı ilə universitetin əvvəlki adı dəyişdirilərək, Azərbaycan Dövlət Universiteti adlandırıldı. 1923 ildə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi, 1924 ildə isə ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradıldı. 1924 il yanvarın 23-də universitetə V.İ.Leninin adı verildi. 1927 ildə hüquq şöbəsi açıldı və həmin şöbə bir ildən sonra müstəqil fakültəyə çevrildi. Birinci onilliyin sonunda iqtisadiyyat fakültəsi yaradıldı. 1930 il yanvarın 12-də universitetin onillik yubileyi təntənəli surətdə qeyd edildi.

Onillik fəaliyyəti dövründə universitetin kafedra, laboratoriya və klinikalarında diqqətəlayiq elmi-tədqiqat işləri aparılmışdı. İlk əvvəllər elmi tədqiqat işinə "Elm cəmiyyəti", 1922 ildən etibarən isə "Elm komitəsi" rəhbərlik etmişdir. Universitetdə fəaliyyət göstərən cəmiyyətlərin Azərbaycanda elmin inkişafında və onun yeni istiqamətlərinin yaradılmasında misilsiz xidməti olmuşdur. "Təbiətşünaslar və həkimlər cəmiyyəti" (1920), "Cərrahlar cəmiyyəti" (1923), "Azərbaycan patoloqlar cəmiyyəti" (1924), "Otorinolarinqoloqlar cəmiyyəti" (1928) və digər cəmiyyətlər Azərbaycanda tibb elminin inkişafında mühüm rol oynamışlar.

1927 ildə universitetdə yaradılmış "Sosial-iqtisadi və humanitar elmləri öyrənən cəmiyyət" fəlsəfə, siyasi iqtisad, tarix, hüquq, pedaqoqika və digər humanitar sahələrə dair müxtəlif elmi problemlərin tədqiqi ilə məşğul olurdu.1921 ildən çıxmağa başlamış "Xəbərlər", elə həmin ildə çap edilən "Bakı Dövlət Universitetinin xəbərləri"nin ilk yarımcildi, 1922 ildə işıq üzü görən "Bakı Dövlət Universitetinin xəbərləri"nin ikinci nömrəsi və birinci yarımcildi, 1924 ildən nəşr olunan "Nəzəri və praktik təbabət" jurnalı universitetdə aparılan mühüm elmi axtarışların nəticələrini əks etdirirdi. 1921-22 illərdə "Sinir xəstəlikləri və ruhi xəstəliklər klinikasının salnamələri", 1923 ildə "Nəzəri və praktik təbabət arxivi"nin iki buraxılışı, 1924 ildə "Nevroloji qeydlər" kimi mühüm nəşrlər işıq üzü gördü. Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin 1926-29 illərdə çıxan dördcildlik "Şərqşünaslıq" adlı nəşrində öz dövrü üçün çox qiymətli məqalələr çap olunmuşdu.

İlk Azərbaycan universitetində elmi dərəcələr və elmi adların da verilməsinə başlanmışdı. Doktorluq elmi dərəcəsi almaq üçün universitetdə ilk dissertasiya 1921 il iyunun 15-də tarix-filologiya fakültəsinin elmi şurasında müdafiə olunmuşdur. Təkcə tibb elmi sahəsində 10 il ərzində 27 tədqiqatçı tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. 2 fakültə və 40 müəllimlə fəaliyyətə başlayan universitet 10 il ərzində respublika üçün ümumən 1500-dən artıq gənc mütəxəssis hazırlamışdı.

V.İ.Razumovskidən sonra İ.İ.Şirokoqorov, S.M.Davidenko, A.D.Qulyayev universitetin rektoru vəzifəsini icra etmişdilər. 1926-29 illərdə Azərbaycan Dövlət Universitetinə ilk azərbaycanlı rektor- görkəmli dövlət xadimi, yazıçı və alim Tağı Şahbazi başçılıq edirdi. 1930 ildə Azərbaycan Dövlət Universiteti bağlandı. Onun əsasında bir neçə müstəqil institut açıldı. 1934 ildə isə Universitet 4 fakültə (fizika-riyaziyyat, kimya, biologiya və tarix) əsasında yenidən bərpa edildi. 1939 ildə Azərbaycan Dövlət Universitetinə S.M.Kirovun adı verildi. 1938 ildə filologiya, 1940 ildə isə hüquq fakültələri də bərpa olundu. Böyük Vətən müharibəsinin (1941-45) əvvəlində respublikanın bir neçə ali məktəbi universitetlə birləşdirildi. 1943 ildə geologiya-coğrafiya fakültəsi, filologiya fakültəsi yanında Şərq şöbəsi təşkil edildi. Həmin dövrdə universitetdə müharibənin tələblərinə müvafiq olaraq elmi-tədqiqat işləri genişləndi. Bu məqsədlə bir sıra yeni kafedra və laboratoriyalar yaradıldı. Motor yanacaqları problemi sahəsində xüsusilə mühüm nəticələr əldə edildi. Müharibədən sonrakı dövrdə Azərbaycan Dövlət Universiteti daha sürətlə inkişaf etdi, tədris və elmi-tədqiqat bazası təkmilləşdi və möhkəmləndi, yeni fakültə, şöbə, kafedra və laboratoriyalar təşkil olundu. 1945-46-cı tədris ilində tarix fakültəsi nəzdində fəlsəfə şöbəsi açıldı, sonrakı ildə isə filologiya fakültəsinin şərqşünaslıq şöbəsi müstəqil fakültəyə çevrildi.

1950 ilin ortalarında universitet ölkədə ən güclü elmi mərkəzə çevrildi. Universitetin indiki binasının ilk növbəsi yalnız 1964 ilin sentyabrında istifadəyə verildi.

1960-cı illərdə universitet həyatında atılan mühüm addımlardan biri də müstəqil fizika fakültəsinin açılması oldu.

85 illik fəaliyyəti dövründə BDU-nun beş dəfə yubileyi keçirilmişdir: 1930 ildə 10 illiyi, 1969 ildə 50 illiyi, 1979 ildə 60 illiyi, 1994 ildə 75 illiyi və 2000 ildə 80 illiyi. Bunlardan dördü Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə keçirilmişdir.

1969 ildə universitetin 50 illik yubileyi mərasimində Heydər Əliyevin doğma Azərbaycan dilində çıxışı bütün respublikada böyük sevinc və razılıqla qarşılandı. Azərbaycan rəhbərinin cəsarətli hərəkəti yubileydə iştirak edən Moskvadan gəlmiş rəhbər işçiləri və xarici qonaqları təəccübləndirmişdi. Çünki hakim dilin rus dili, respublikanın Moskvanın nəzarəti altında olduğu o dövrdə belə bir addımı atmaq böyük cəsarət, eyni zamanda milli qeyrət tələb edirdi. Elə həmin il universitet Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu.

20 əsrin 70-ci illərində universitetin maddi-texniki bazası gücləndirildi və tədris prosesində texniki vasitələrdən istifadə olunmasında əsaslı dəyişikliklər baş verdi.

1974 ildə Azərbaycan Dövlət Universitetinin kitabxanasına elmi kitabxana statusu verildi (bax *Bakı Dövlət Universitetinin Elmi Kitabxanası)*. 1961 ildə fəaliyyəti dayandırılmış universitet nəşriyyatı 1980-ci illərdə yenidən fəaliyyətə başladı.

1970-ci illərdə universitetin beynəlxalq əlaqələri yeni mərhələyə daxil oldu. 70-90-cı illərdə universitetin 40-dan artıq müəllimi müxtəlif ölkələrə pedaqoji işə göndərilmiş, həmin müddət ərzində universitetin 300-dən artıq müəllim və tələbəsi Asiya və Afrika ölkələrində tərcüməçi işləmiş, 30 nəfər müəllim və elmi işçisi Avropa ölkələrinə, ABŞ və Yaponiyaya uzunmüddətli elmi məzuniyyətə göndərilmiş, 50-dən artıq müəllim xarici ölkələrdə qısamüddətli səfərlərdə olmuşdur. Universitetin professor və müəllimləri xarici ölkələrdə 50 müxtəlif beynəlxalq simpozium və konfranslarda iştirak etmişlər.

Respublika rəhbərliyinin universitetə diqqət və qayğısı nəticəsində universitetin əldə etdiyi müvəffəqiyyətlər Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1987 il 13 mart tarixli qərarı ilə yüksək qiymətləndirildi. Azərbaycan Dövlət Universiteti "İttifaqın aparıcı universitetləri" sırasına daxil edildi.

Universitetdə öz fədakar əməyi ilə fərqlənən və onun şöhrətini dünyaya yayan V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov, A.A.Qrossheym, A.N.Samoyloviç, S.F.Oldenburq, AY.Krımski, V.A.Qordlevski, Q.S.Qubaydullin, M.Qubaydullina, B.Çobanzadə, İ.M.Cəfərzadə, Y.A.Ratqauzer, İ.P.Tokin, M.Nağıyev, M.Mirqasımov, Y.Məmmədəliyev (1954-58 illərdə rektor), Ş.Mehdiyev, Ə.Hüseynov, M.Rəsulov, M.Qaşqay, A.O.Makovelski, P.K.Juze, V.Xuluflu, M.K.Ələkbərli (1934-35 illərdə rektor), S.Hüseynov, H.Hüseynov, A.Qarayev (1944-50 illərdə rektor), V.P.Qəhrəmanov, Ə.Ə.Əlizadə, Ə.S.Sumbatzadə, H.Araslı, A.Zamanov, Z.M.Bünyadov, Məmməd Arif, Z.Xəlilov, İ.Hüseynov, F.Məlikov, F.Qasımzadə, M.Rəfili, Ə.Sultanlı, C.Xəndan (1950-54 illərdə rektor), H.Dadaşov, C.Cəfərov, Z.İbrahimov, M.Erivanski, Ə.Şahmaliyev, Ə.Quliyev və b. görkəmli alimlər çalışmış, universitetdə mühazirələr oxumuş, dərs

*Bakı Dövlət Universitetinin binası. 1934–76 (İndiki Azərbaycan Dövlət İqtisad Universiteti)*





***HEYDƏR ƏLİYEV***

***Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu***




*Bakı Dövlət Universitetinin indiki binası*

*Azərbaycan Prezidenti İlham Əliyev universitetin tarix muzeyində*





*Tələbə auditoriyası*

demişlər. Görkəmli yazıçı, şair, mədəniyyət və dövlət xadimlərinin böyük bir dəstəsi Bakı Dövlət Universitetinin məzunlarıdır.

Bu gün Azərbaycanın aparıcı ali məktəbi olan universitet milli təhsil konsepsiyasının həyata keçirilməsində mühüm rol oynayır, həmçinin respublika prezidentinin qayğısı və diqqəti sayəsində BDU-nun beynəlxalq şöhrəti də günü-gündən genişlənir. Universitet bu günə qədər dövlət idarəçiliyinin, xalq təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışan 100 mindən artıq yüksək ixtisaslı milli kadr hazırlamışdır.

BDU-nun on minlərlə məzunları içərisində dünya şöhrətli mütəxəssislər az deyil. Ümumdünya tarixinin dahi şəxsiyyətləri sırasında layiqli yer tutan Heydər Əliyev BDU tarix fakültəsinin məzunudur. Universitetin çoxminli kollektivi öz dahi məzunu Heydər Əliyevlə fəxr etdiyi kimi, Heydər Əliyev də BDU-nun məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə bildirmişdir: ***"Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam".***

Universitetin 85 illik fəaliyyəti dövründə hazırladığı yüksək ixtisaslı mütəxəssislər respublikada, eləcə də Rusiya Federasiyasında, ABŞ-da, İngiltərədə, Fransada, Çində, Türkiyədə, İranda, Yaponiyada, Kubada, bir çox Asiya və Afrika ölkələrində çalışır, işlədikləri ölkələrdə Azərbaycan xalqının, onun elminin, mədəniyyətinin şöhrətlənməsində böyük rol oynayırlar.

Universitetin xarici elmi əlaqələri daim genişlənir. BDU-nun bir çox alimləri İranın, Türkiyənin və bir sıra başqa ölkələrin qabaqcıl elm və təhsil müəssisələrı işləməyə dəvət olunurlar. Universitet eyni zamanda uzun illərdən bəri xarici ölkələr üçün yüksək ixtisaslı kadr hazırlamaq işində yaxından iştirak edir. Hazırda universitetdə 500-dən artıq xarici ölkə vətəndaşı təhsil alır.

Son illərdə universitetdə aparılan geniş miqyaslı tədris elmi islahatlar, abadlıq işləri onun simasını tamamilə dəyişmiş, universitetin maddi-texniki bazası dünyanın qabaqcıl universitetləri səviyyəsinə yüksəldilmişdir.

Universitet elmini və təhsilini müasir tələblər səviyyəsinə qaldırmaq məqsədilə qabaqcıl dünya səviyyəsinə cavab verən müasir kompüter şəbəkəsi yaradılmış və qısa vaxt ərzində universitet alimləri haqqında informasiya "İnternet" vasitəsilə bütün dünyaya çatdırılmışdır. Universitet respublika elm və təhsil sisteminin beyin mərkəzinə çevrilmiş, ölkə və beynəlxalq miqyaslı tədris, elmi-nəzəri sinpoziumların keçirilməsilə universitet elminin və təhsilinin dünya birliyinə inteqrasiyası üçün zəmin yaradılmışdır. BDU-nun elmi potensialını qiymətləndirən inkişaf etmiş ölkələrin qabaqcıl universitetləri, o cümlədən ABŞ-ın İndiana, Fransanın Nitsa, İtaliyanın Genuya, Yaponiyanın Yokohama universitetləri onunla qrantlar və beynəlxalq proqramlar üzrə müştərək elmi axtarışlar aparmağa başlamışlar.

Azərbaycan müstəqillik əldə etdikdən sonra BDU- nun beynəlxalq nüfuzu artmış, dünya dövlətləri və xalqları ilə əlaqələri genişlənmişdir. Ölkəyə rəsmi səfərə gələn bir çox dövlət rəhbərləri, siyasət və mədəniyyət xadimlərinin



*Tədris laboratoriyası*

universitetin fəxri doktoru adına layiq görülməsi onun böyük nüfuza malik olduğunu sübut edir, dünya şöhrətini daha da artırır.

BDU-nun fəxri doktoru adını şərəflə daşıyan Süleyman Dəmirəl, İslam Kərimov, Marat Baqlay, Corc Robertson, Zbiqnev Bjezinski, Kotaro Matsuura, Eduard Şevardnadze, Frederiko Mayor, Petro Luçinski və başqaları kimi siyasi və dövlət xadimləri, Lütfizadə, İren Məlikova, Tadeuş Svyatoçovski, Cavad Heyət, İhsan Doğramacı, Əhməd Şimide, Xəlil Çin kimi görkəmli alimlər onun şöhrətinin bütün dünyaya yayılmasında yaxından iştirak edirlər.

Universitetin inkişafına göstərdiyi böyük qayğıya, onun şöhrətini və tərəqqisini yüksəklərə ucaltdığına, Azərbaycan xalqı və dövləti qarşısında böyük xidmətlərinə görə universitetin Böyük Elmi Şurası 1994 il 28 oktyabr tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyevə Bakı Dövlət Universitetinin Fəxri Doktoru adını vermişdir.

AMEA-ya keçirilən son seçkilərdə BDU-nun 15 alimi həqiqi və müxbir üzv seçilmişlər. BDU dünyanın 100-dən artıq universitetini birləşdirən Qaradəniz hövzəsi universitetlər assosiasiyasının üzvüdür. Universitetin rektoru, professor Abel Məmmədəli oğlu Məhərrəmov həmin assosiasiyanın prezidenti seçilmişdir. BDU, həmçinin nüfuzlu Avrasiya, Xəzəryanı və Avropa universitetlər assosiasiyalarının üzvüdür. Universitet bir çox konvensiyalara, o cümlədən tələbə və müəllim mübadiləsinə imkan verən məşhur Bolonya prosesinə qoşulmuş, dünyanın bir çox nüfuzlu ali məktəbləri ilə ikitərəfli tələbə və müəllim mübadiləsini tənzimləyən müqavilələr imzalamışdır. Son dövrlərdə BDU yeni kafedralar və ixtisaslarla daha da genişlənmişdir. Elmi tədqiqatlarda və tədris prosesində ən müasir texniki avadanlıqlardan və cihazlardan istifadə olunur, universitet kafedraları internet şəbəkəsi ilə dünyanın bir çox kitabxana və elm mərkəzləri ilə əlaqə saxlayır. BDU bir çox beynəlxalq qrantlar udmuşdur.

BDU-nun 80 illik yubileyi (2000) beynəlxalq səviyyədə qeyd olunmuş, bu münasibətlə universitetin 80 nəfərə yaxın alimi respublika hökuməti tərəfindən orden və medallarla təltif edilmiş, fəxri adlara layiq görülmüşdür.

Son illərdə BDU-da tədrisin və elmi tədqiqatların keyfiyyətini artırmaq istiqamətində mühüm islahatlar həyata keçirilmişdir. Beynəlxalq standartlara uyğun oxu zalları istifadəyə verilmiş, Qərbi Avropa və Şərq dillərinin daha mükəmməl tədrisi üçün mərkəz, linqafon kabinələri və dil otaqları yaradılmış, bir çox kafedra və laboratoriyalar yenidən qurulmuş, azərbaycanşünaslıq, amerikaşünaslıq elmi-tədqiqat mərkəzləri, türk odası, ərəb dili mərkəzi təşkil edilmişdir. Universitetdə həmçinin daxili televiziya şəbəkəsi yaradılmışdır. Universitetdə Heydər Əliyev, universitet tarixi, təkamül təlimi, arxeologiya və etnoqrafiya, velosiped muzeyləri fəaliyyət göstərir.

Dünyanın bir çox qədim tarixə, zəngin və böyük təcrübəyə, elmi potensiala malik universitetləri ilə müqayisədə BDU nisbətən cavan olsa da, şanlı yüksəliş yolu keçmişdir. 1919 ildə yaranarkən 44 əməkdaşı olan universitetdə hazırda 1300-dən çox professor-müəllim fəaliyyət göstərir. Bunlardan 250-ə qədəri elmlər doktoru, professor, 800-ə qədəri elmlər namizədidir.

Elmi-tədqiqat laboratoriyalarında 225 nəfər elmi işçi çalışır. Vaxtilə iki fakültədən ibarət olan BDU indi 17 fakültəni, 116 kafedranı, onlarla tədris laboratoriyasını, 2 milyondan çox kitab fondu olan zəngin kitabxananı, bir elmi-tədqiqat institutunu birləşdirən geniş tədris və elmi-tədqiqat kompleksi, mürəkkəb, çoxşaxəli elm və təhsil müəssisəsidir.



Tələbələr təcrübə keçərkən

Hazırda universitetdə 43 ixtisas üzrə 14 minə yaxın tələbə təhsil alır.

Universitetdə Milli Elmlər Akademiyasının 4 akademiki, 17 müxbir üzvü fəaliyyət göstərir. Universitet alimlərindən 14 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin (II çağırış) üzvüdür.

Bakı Dövlət Universitetinin rektoru (1999 ildən) AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, kimyaçı alim Abel Məmmədəli oğlu Məhərrəmovdur.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920 гг.), 1920), Законодательные акты (сборник документов), Б., 1998; Bakı Dövlət Darülfününunun təsisi (sənədlər toplusu), B., 1989; Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Vəkilov M., Azərbaycanda universitet təhsili tarixindən, ADU-nun Elmi əsərləri (tarix və fəlsəfə seriyası), 1967, № 5; Bağırzadə F.M., Azərbaycan Dövlət Universitetinin elmin tərəqqisindəki rolu, V.İ.Lenin adına ADPİ Elmi əsərləri, seriya XI, B., 1973; Azərbaycan Dövlət Universiteti, B., 1975; Atakişiyev A.M., Bakı Dövlət Universitetinin tarixi, B., 1991; Məhərrəmov A.M., Bakı Dövlət Universiteti (Bakı Dövlət Universitetinin 80 illiyinə həsr edilmiş məlumat kitabı), B., 2000; Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu (elmi məsləhətçi və redaktor akademik Cəlal Əliyev; ön sözün və məqalələrin müəllifi prof Abel Məhərrəmov), B., 2001; Маковельский А. О., Азербайджинский Госуниверситет им. Ленина, Б., 1930; Алимирзоев Х., Азербайджанский Государственный университет, Б., 1969; Азербайджанский государственный университет, Б., 1975.

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASI** - Azərbaycan Respublikasının ən böyük kitabxanalarından biri. 1919 ildə yaradılmışdır. Universitetin təşkilat komissiyası onun kitabxanasını da yaratmaq qayğısına qalmış və xüsusi kitabxana komissiyası təşkil etmişdi. Komissiya 1919 il iyunun 2-də Bakı şəhər bələdiyyə idarəsinə müraciət edərək, Mixail (indiki Musa Nağıyev) xəstəxanasının nəzdindəki kitabxananın universitetə verilməsini xahiş etmişdi. Bələdiyyə idarəsi komissiyanın xahişinə razılıq vermişdi. Həmin dövrdə universitet təşkilat komissiyasının Bakı Neft Sənayeçiləri Qurultayı Şurasına müraciətinə əsasən, Sabunçu xəstəxanası nəzdindəki kitabxana da 1920 ildə universitetə verilmişdi. Bundan əlavə, həmin dövrdə satışdan 120 min manatlıq kitab alınmışdı.



Kitabxana komissiyası, eyni zamanda, universitet kitabxanasını yaratmaq üçün əhaliyə və ilk növbədə, maarifpərvər ziyalılara da müraciət etmişdi. Müraciətdə kitab satmaq istəyənlərə təbabətə və tarix-filologiya elmlərinə dair bütün dillərdə olan kitabların siyahısını təqdim etmək təklif olunurdu. Komissiya əmin olduğunu bildirirdi ki, universitetin xidmət etdiyi böyük mədəni məqsəd naminə, digər mədəniyyət mərkəzlərində olduğu kimi, Bakıda da universitetə elmi kitablar bağışlanacaqdır. Universitet kitabxanasında xüsusi türk şöbəsi yaradılmışdı. Həmin şöbəni müvafiq ədəbiyyatla komplektləşdirmək məqsədilə İstanbuldan 212 adda kitab gətirilmişdi. Artıq, 1920 ilin əvvəllərində, kitabxananın fondunda 6 mindən çox kitab, 130 adda qəzet və jurnal vardı. Fondda Azərbaycan, türk, fars, ərəb, ingilis, fransız, alman, rus və tatar dillərində ədəbiyyat var idi. Məhəmməd Əmin Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Tağı Şahbazi, Mir Əsədulla Mirqasımov və başqa görkəmli şəxsiyyətlər kitabxananın ilk oxucuları arasında olmuşlar.

1919 ilin sonu - 1920 ilin əvvəllərində Bakı Dövlət Universitetinin elmi kitabxanası tədricən Cümhuriyyətin təhsil ocaqlarının kitabxanaları üçün metodik mərkəz rolunu oynamağa başladı. 1920 il yanvarın 16-da universitet kitabxanasında xalq maarifi nazirliyi kitabxanaları işçilərinin seminar-müşavirəsi keçirilmişdi.

Bakı Dövlət Universiteti Elmi Kitabxanası fondlarının zənginləşdirilməsi sonrakı illərdə də davam etdirildi. 1920-22 illərdə Xalq Komissarları Sovetinin göstərişi ilə ayrı-ayrı idarə və müəssisələrdən, təşkilatlardan kitabxanaya kitab verildi.



Universitetin elmi şurası 1922 ildə professorlardan F.N.İlyini və R.Rostovskini kitab almaq üçün Petroqrada ezam etdi. Onlar buradan, pulsuz olaraq, 200 puddan artıq qiymətli elmi ədəbiyyat, o cümlədən Rusiya Elmlər Akademiyasının bütün nəşrlərini alıb gətirmişdilər.

Kitabxananın Şərq şöbəsi universitetin Şərq fakültəsinin dekanı prof. R.K.Juzenin təşəbbüsü ilə təşkil edilmişdi. Bu məqsədlə Azərbaycan SSR Xalq Komissarları Soveti 1922 ildə 7 min manat qızıl pul buraxmışdı. Bu vəsait hesabına 1924 ildə İstanbuldan 2000-dən artıq kitab alındı. Şərq şöbəsi 1924 ilin mayında fəaliyyətə başladı.

1928-29 illərdə keçmiş Bakı fransız cəmiyyətinin 1000 nüsxədən ibarət kitabxanası universitet kitabxanasına daxil oldu. Bundan əlavə, "Maarif işçiləri evi" kitabxanasından 2000 dəstdən ibarət rus jurnalları komplekti kitabxanaya verildi.

Həmin illərdə professorlardan Bəkir Çobanzadə, R.X.Mudrov, D.Cəfərov, Tumbel, Rusanova və başqalarının şəxsi kitabları da kitabxananın fonduna əlavə olunmuşdur.

Bakı Dövlət Universitetinin kitabxanası 1919 ildə yaranarkən 250 kitabla fəaliyyətə başlamışdısa, hazırda onun fondunda 2,5 milyondan artıq çap vahidi vardır. Elmin müxtəlif sahələrinə aid olan bu kitablar Azərbaycan, Şərq, rus və Qərbi Avropa dillərindədir. 13-18 əsrlərə aid əlyazmaları, 16 əsrdən bəri müxtəlif xarakterli nəşrlər kitabxananın "qızıl fondu"na daxil olan nadir və qiymətli əsərlərdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1971 il 131 saylı əmrinə əsasən, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası ölkənin ali və orta ixtisas məktəbləri kitabxanalarının işini yaxşılaşdırmaq və tənzimləmək məqsədilə elmi-metodiki mərkəzə çevrilmişdir və indiyədək həmin funksiyanı yerinə yetirir. Elmi kitabxana 22 dövlət və özəl ali məktəb kitabxanasına metodik köməklik göstərdi.

Elmi kitabxana "Universitet alimlərinin əsərləri", "Universitetin görkəmli alimləri" seriyasından və s. mövzularda elmi-biblioqrafik göstəricilər hazırlayıb çap etmişdir.

Bakı Dövlət Universitetinin elmi kitabxanası hazırda 18 xarici dövlət, 50 universitet və elmi cəmiyyətlə beynəlxalq kitab mübadiləsi aparır, 1998 ildən Bakıda fəaliyyət göstərən Açıq Cəmiyyət İnstitutu Yardım Fondu ilə müqavilələr əsasında əməkdaşlıq edir. Kitabxana bu cəmiyyətin layihələrində fəal iştirakına görə 11 qrant udmuşdur.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra elmi kitabxana yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Kitabxanada kompüter texnologiyası tətbiq olunur, elektron kataloqun yaranması prosesinə başlanmışdır. Kitabxananın internetdə öz saytı vardır. Mark-Eskuel proqramı əldə olunmuşdur ki, bu da kitabxananın kompleks şəkildə avtomatlaşdırılmasına imkan verir. Elmi kitabxananın 14 şöbəsi, elmi, tədris və bədii ədəbiyyatdan ibarət 5 abunə, 14 oxu zalı və 42 kafedra kitabxanası vardır. Universitetin elmi kitabxanası 16 minlik universitet kontingentinə, MDB ölkələrinin və digər xarici dövlətlərin elm və təhsil müəssisələrinin əməkdaşlarına xidmət edir.

*Əd.:* Bax *Bakı Dövlət Universiteti* məqaləsinin ədəbiyyatına.

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN NİZAMNAMƏSİ** - Bakı Dövlət Universitetinin idarə olunması və onun tədris-elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən sənəd. Nizamnamənin Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin komissiyasında müzakirəsi 3 ayadək davam etmiş, 1919 il sentyabrın 29-da Parlamentin 79-cu

iclasında qəbul edilmişdir. 5 fəsildən, 72 maddədən ibarət Nizamnamədə Universitetin təşkilati quruluşu, onun elm və tədris sahələrinin fəaliyyəti, professor-müəllim heyətinin vəzifə və hüquqları müəyyənləşdirilir.

Nizamnamənin 2 maddədən ibarət olan birinci fəslində Bakı Dövlət Universitetinin muxtariyyət hüquqlu elm-tədris müəssisəsi olub, maarif nazirliyinin strukturunda fəaliyyət göstərdiyi, rektor, prorektor, dekanlar, şura və fakültə iclasları vasitəsilə idarə olunduğu təsbit edilir. İkinci fəsil Universitetin idarə sistemini əks etdirir, rektorun, prorektorun, dekanların, şuranın, idarə heyətinin, fakültələrin hüquq və vəzifələrini müəyyənləşdirir.

Nizamnaməyə əsasən Universitetin rəhbəri rektor idi. Nizamnamə çərçivəsində ona universitet idarəçiliyinin bütün sahələrinə rəhbərlik etmək səlahiyyəti verilirdi. Rektor professorlar arasından 3 il müddətinə seçilir, Xalq Maarifi Nazirliyi tərəfindən təsdiq olunurdu. Rektor öz fəaliyyətində şura tərəfindən hazırlanan və təsdiq edilən təlimatlara əsaslanır, rektorun olmadığı müddətdə onun vəzifəsini prorektor, yaxud dekanlardan biri icra edirdi. Prorektor tələbə işləri üzrə rektorun köməkçisi idi. Rektora Universitetin idarəsi işlərinin bir qismini prorektora həvalə etmək icazəsi verilirdi. Prorektoru Universitet şurası professorlar içəri-sindən 3 il müddətinə seçirdi. Hər fakültənin başında dekan dururdu. Dekan tədrisə nəzarət edir, rektora və şuraya həvalə edilən vəzifələri fakültə daxilində icra edirdi. Dekan da professorlar arasından 3 il müddətinə seçilir və şura tərəfindən təsdiq olunurdu. Şura Universitetin idarə edilməsinin ali və müstəqil orqanı idi. Nizamnamədə şuranı fəaliyyət dairəsi və səlahiyyəti ətraflı göstərilmişdi. Universitetin maddi və inzibati işlərinin icrası onun idarə heyətinə tapşırılırdı. Şuranın, fakültə iclaslarının və idarə heyətinin dəftərxana işlərinin aparılması qaydaları dəqiqləşdirilmişdi.

Nizamnamənin üçüncü fəsli Universitetin tədris hissəsi üzrə şəxsi heyətinə həsr edilmişdi. Heyət professorlar, dosentlər, privat-dosentlər,müəllimlər, dillər üzrə mühazirəçilər, prorektorlar və müavinləri, assistentlər və ordinatorlardan ibarət idi. Bu vəzifəli şəxslər həm seçilə, həm də dəvət oluna bilərdilər. Heyətin tələb edilən elmi dərəcəsi və adı, vəzifəyə seçilmə və əvəzedilmə qaydaları Nizamnamədə dəqiqləşdirilirdi.

Dördüncü fəsil tələbələrə həsr edilmişdi. Nizamnamənin həmin fəslində Universitetə hər iki cinsdən olan orta təhsilli şəxslərin qəbul edildiyi təsbit olunurdu. Mühazirə və əməli məşğələlərdə, tələbələrdən başqa, azad dinləyicilərin də iştirakına icazə verilirdi. Parlamentdə ciddi mübahisələrdən sonra, sağlam və demokratik düşüncəli Parlament üzvlərinin təkidilə, Universitetdə tələbə təşkilatlarının yaradılmasına icazə verilir və bu təşkilatların hüquq və fəaliyyət sahələri dəqiqləşdirilirdi.

Beşinci fəsildə Universitetdə qulluq edən şəxslərin hüquq və vəzifələrindən, imtiyazlarından bəhs olunurdu. Nizamnamənin təxminən 1/3-ni təşkil edən bu fəslə görə, Universitet şurasına fakültələrin təqdimatı ilə elmlər namizədi və doktoru elmi dərəcələri vermək səlahiyyəti verilirdi. Professor-müəllim və işçi heyəti üçün təqaüdün təyin edilməsi qaydaları və məbləği müəyyənləşdirilmişdi. 25 ildən 30 ilədək xidmət etmiş professorlar illik əmək haqlarının 2/3 hissəsi, 20 ildən 25 iledək xidmət edənlər maaşlarının yarısı, ağır sağalmaz xəstəliyə tutulan və işləyə bilməyən professorlar üçün 5-10 il stajı olduqda maaşlarının 1/3-i, 10-20 illədək xidmət edənlərə 2/3 hissəsi, 20 ildən artıq stajı olanlara isə tam maaşları həcmində təqaüd verilməsi nəzərdə tutulurdu. Təqaüd və birdəfəlik yardım almaqda əcnəbilər də Azərbaycan təbəələri ilə bərabər hüquqa malik idilər.

Nizamnamədə universitetdə xidmətdə olan qadınların əmək haqqı, təqaüd və yardımlarının miqdarı eyni vəzifəni icra edən kişilərə verilən məbləğlə bərabərləşdirilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən təsdiq olunmuş Nizamnamə universitet idarəçiliyinin təşəkkülündə mühüm rol oynamışdır (bax həmçinin *Bakı Dövlət Universiteti)*.

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏSİS EDİLMƏSİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakı şəhərində Avropa tipli ilk universitetin açılması haqqında Parlament qanunu. 1919 il sentyabrın 1-də Parlamentin 70-ci iclasında qəbul olunmuşdur.

***Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Bakı Dövlət Universitetinin açılması haqqında 1919 il 1 sentyabr tarixli qanunu (başlanğıcı və sonu)***



Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təşəbbüsü və tapşırığı ilə 1919 ilin mayında professor V.İ.Razumovski başda olmaqla, təşkil olunmuş komissiya Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun layihəsi hazırlamışdı. Geniş müzakirələrdən sonra Parlamentin qəbul etdiyi 10 maddəlik qanunda universitetdə 4 fakültənin - tarix-filologiya (Şərq şöbəsi ilə birlikdə), riyaziyyat (fizika-riyaziyyat), hüquq (müsəlman hüququ və tarixinin tədris edilməsi şərtilə) və tibb fakültəsinin açılması nəzərdə tutulurdu. 1919-20 tədris ilində tibb fakültəsinin ilk 4 kursu, tarix-filologiya fakültəsinin isə birinci kursu üçün müvəqqəti birillik ştat cədvəli və smeta təsdiq edilmişdi. Universitet şurasına, Azərbaycan Hökumətinin razılığı ilə, yeni fakültə və kursların açılmasına smeta üzrə hər il vəsait tələb etmək səlahiyyəti verilirdi. Bütün fakültələrdə Azərbaycan (türk) dilinin tədrisi məcburi idi.

Elm, maarif nazirliyi, şəhər idarəsi, neft sənayeçiləri qurultayı müvəkkillərindən təşkil olunmuş Universitet komissiyasına rektor, ixtisaslar üzrə professorlar, dekanlar dəvət etmək səlahiyyəti verilmişdi. Şuranın, idarə heyəti və fakültələrin səlahiyyətləri dairəsində təşkili ilk dəvət olunmuş professorlara həvalə olunurdu. Universitetə klinikalardan əlavə, Bakı şəhəri xəstəxanalarından istifadə etmək ixtiyarı verilirdi. 1919-20 tədris ili üçün dövlət xəzinəsindən smeta üzrə universitetin təşkili və təchizatına 5 milyon, universitet heyətinin və tədris hissəsinin təminatı, təsərrüfat xərcləri üçün isə 11 milyon manata yaxın vəsait ayrılmışdı. Vəzifəli şəxslər (rektor, şura katibi və b.) mənzillə təmin edilmədikdə, onlara maaşlarının 1/4—i məbləğində mənzil haqqı vermək nəzərdə tutulurdu.

Bakı Universitetinə Zaqafqaziya universitetinin və qeyri universitetlərin tələbələrini universitet kursunun davam etdiyi müddətdə, imtahan vermək şərti ilə, eyni kurslara qəbul etmək hüququ verilirdi.

Kişilər və qadınlar universitetə bərabər hüquqla qəbul olunurdular. Qəbulda Azərbaycan təbəələrinə üstünlük verilirdi (bax həmçinin *Bakı Dövlət Universiteti).*

**BAKI ƏMƏK BİRJASI** - tələb və təklif əsasında sahibkarlarla fəhlələr arasında vasitəçilik edən, habelə əmək bazarının uçotu və tənzimlənməsi sahəsində fəaliyyət göstərən müəssisə. Bakı şəhər ictimai idarəsi tərəfindən təsis olunmuşdu. Nizamnaməsi 1918 il yanvarın 13-də Bakı Şəhər Dumasında təsdiq edilən birja həmin ilin fevralından fəaliyyətə başlamışdı. Birjanın proqramının hazırlanmasında Petroqrad birjasının təcrübəsindən istifadə olunmuşdu. Rusiya birjalarında tətbiq olunan qaydalar isə Almaniya bələdiyyə əmək birjalarının təcrübəsinə əsaslanırdı. Əmək bazarını tənzimləyən birjanın yaradılması zərurəti təsərrüfatın dağılmasından və işsizlikdən irəli gəlirdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra fəaliyyətini davam etdirən Bakı Əmək Birjası əhalinin ümumi məşğulluğunun təmin edilməsində müəyyən rol oynamışdır. Bakı əmək birjası əməyə tələb və təklifləri qeydiyyata alır, işə götürülməkdə vasitəçilik xidməti göstərir, əmək bazarının statistikasını müəyyənləşdirdi. Birjanın fəaliyyəti bütün əmək növlərini əhatə edirdi. Birja hər iki tərəfə pulsuz xidmət göstərir, onları yalnız peşə və işə götürülmə şərtləri barədə məlumatlandırır, heç bir tövsiyə və zəmanət vermirdi.

Bakı birjası fəhlə peşə təşkilatlarının nümayəndələrindən və işə götürən təşkilatların təmsilçilərindən ibarət 8 nəfərlik komitə (hərəsindən 4 nəfər) tərəfindən idarə olunurdu. Onun sədrini və sədr müavinlərini Bakı şəhər duması seçirdi. Bütün fəaliyyəti dövründə (1918, fevral -1919, noyabr) əmək birjası tərəfindən 14660 işsiz qeydə alınmış və onların işlə təmin olunması üçün 8569 iş yeri təklif edilmişdi.

**BAKI ƏMƏLİYYATI (1920)** - Sovet Rusiyasının Bakını ələ keçirmək və Azərbaycan Xalq Cümhuriyyətini devirib, bütün Şimali Azərbaycanı işğal etmək məqsədilə həyata keçirdiyi təcavüzkar hərbi əməliyyat. Əməliyyata əsas hazırlıq tədbirlərinə 1920 ilin əvvəllərindən başlanmışdı. Bakı əməliyyatının planını Hərbi-İnqilab Şurasının üzvü Q.K.Orconikidzenin fəal iştirakı ilə Qafqaz cəbhəsinin komandanı M.Q.Tuxaçevski və qərargah rəisi S.A.Puqaçovun rəhbərliyi altında Qafqaz cəbhəsi qərargahı hazırlamışdı. Plana görə, 11-ci Ordunun Volqa-Xəzər Hərbi Donanması ilə Bakı üzərinə birgə hücum əməliyyatı yüksək sürətlə həyata keçirilməli idi.

*Bakı əməliyyatı. 11-ci Qırmızı ordunun Azərbaycanı işğal planı*




1920 il martın 23-də Rusiya Sovet Federativ Sosialist Respublikası silahlı qüvvələrinin Baş komandanlığı Qırmızı ordunun Bakı istiqamətində əməliyyatlarının genişlənməsi barədə hökumət direktivinin həyata keçirilməsinə başlandığını bildirirdi. Qafqaz cəbhəsi komandanlığının 1920 il 21 aprel tarixli 490 saylı direktivinə əsasən, 11-ci Ordunun komandanı M.K.Levandovski aprelin 27-də Azərbaycan sərhədini keçməli, qısa bir müddətdə Bakı quberniyasının ərazisini tutmalı idi. Yalama-Bakı əməliyyatını beş gün ərzində başa çatdırmaq nəzərdə tutulurdu. Kürdəmir bölgəsində Cənubi Qafqaz dəmir yol xətlərini tutmaq üçün

oraya süvari cinah dəstələri göndərmək əmri verilmişdi. Volqa-Xəzər Hərbi Donanmasının komandanı F.F.Raskolnikova 11-ci ordunun hissələri Abşeron yarımadasına yaxınlaşarkən Bakı neftdaşıma donanmasını ələ keçirmək və neft mədənlərinin dağıdılmasına imkan verməmək üçün Ələt stansiyası rayonuna desant dəstəsi çıxartmaq əmr olunmuşdu.

Aprelin 23-də 490 saylı direktivə əlavə olaraq verilən yeni əmrə görə, 11-ci ordu Bakı quberniyasının işğalı ilə kifayətlənməməli, Azərbaycanın bütün ərazisini ələ keçirməli idi. Aprelin ortalarında 11 -ci ordu birləşmələri Azərbaycan sərhədində cəmləşməyə başladı. 11 -ci ordunun komandanı M.Levandovski 25 aprel tarixli əmrlə hərbi hissələrə konkret tapşırıqlar verdi. 52 saylı bu əmrdə 11-ci ordunun nəinki Bakıya hücum günü göstərilir, hətta ölkənin hər bir yaşayış məntəqəsinin işğal olunması saatı da dəqiq göstərilirdi: "...aprelin 27-si saat 4-də hücuma keçmək və əsas qüvvələrlə Qusar, Quba, aprelin 28-də Qızılburun, aprelin 29-da Astraxanka, Şamaxı və Ağsunu tutmaq..." Göründüyü kimi, bu plan müstəqil dövlətə qarşı açıq hərbi müdaxilə planı, kobud təcavüzkarlıq aktı idi. M.Levandovski və digər hərbçilər göstərilən hərbi təcavüz planına əsasən tam əminliklə hərəkət edirdilər: "Mən aprelin 27-dək Dərbənddə, 27-də Xudatda, aprelin 28-də Dəvəçidə, 29-da Giləzidə, aprelin 30-da Yaşmada, mayın 1-də Biləcəri-Bakıda olacağam". Bu cür dəqiq proqnozlaşdırma yürüş ərəfəsində əldə olunan kəşfiyyat məlumatına söykənirdi. Bakı əməliyyatında 11 -ci ordunun tərkibinə daxil olan zirehli qatarlar qrupuna xüsusi əhəmiyyət verilirdi. Dəmir-yol döyüş məntəqəsinin rəisi M.Q.Yefremova 4 zirehli qatar və 28-ci diviziyanın 299-cu atıcı alayının 2 rotasından ibarət desantla birlikdə sürətli hərəkətlə Bakıya soxulmaq tapşırığı verilmişdi. Aprelin 27-də gecə saat 1-ə 5 dəqiqə işləmiş "III Beynəlmiləl" zirehli qatarı heç bir xəbərdarlıq etmədən Samur körpüsündən keçdi. Azərbaycan ordusunun əsas qüvvələri bu zaman Hökumətə qarşı qiyam qaldırmış və Ermənistan Respublikası tərəfindən müdafiə olunan erməni-daşnak quldur dəstələrinə qarşı hərbi əməliyyatda olduğundan ölkənin şimal sərhədi müdafiəsiz qalmışdı. Odur ki, müdaxiləçilər Cümhuriyyətin zəif və pərakəndə hərbi hissələrinin müqavimətini qıraraq, Bakıya doğru irəlilədi. İki saatlıq qanlı döyüşdən sonra zirehli qatar Yalama stansiyasını ələ keçirdi. Xudat stansiyası yaxınlığında da sovet zirehli qatarını dayandırmaq cəhdi baş tutmadı. Sonuncu qısamüddətli döyüş Xırdalan və Biləcəri stansiyaları arasında baş verdi. Aprelin 27-də axşam saat 9-da Biləcəri stansiyası sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də "III Beynəlmiləl" zirehli qatarı Bakı stansiyasını ələ keçirdi.

M.Levandovski aprelin 28-də Xaçmaz stansiyasında növbəti - 53 saylı əmr verərək, Bakı əməliyyatında qarşıya qoyulan vəzifələri daha da dəqiqləşdirdi. Aprelin 30-da 11 -ci ordunun əsas hissələri Bakıya daxil oldu. Mayın 1 -də sovet zirehli qatarları Azərbaycan milli hissələrinin müqavimətini qıraraq, Gəncə stansiyasını ələ keçirdilər. Elə həmin gün Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına

*İşğalçı 11-ci Qırmızı ordu Bakıya doğru irəliləyir. 1920, aprel*





*İşğalçı 11-ci Qırmızı ordu Bakıda. 1920, aprel*

daxil oldu. Mayın 3-də və 4-də Lənkərana və Astaraya hərbi-dəniz desantı çıxarıldı Mayın ortalarında 11-ci ordu, demək olar ki, Azərbaycan Xalq Cümhuriyyətinin bürün ərazisini nəzarət altına aldı. Beynəlxalq hüquq normalarını kobudcasına pozaraq ölkəyə soxulmuş işğalçı - 11 -ci Qırmızı ordunun "ildırım-sürətli məhvedici" müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti devrildi (bax *Aprel işğalı (1920)).* Bakıya daxil olan 11-ci ordunun acınacaqlı vəziyyətdə olan əsgərləri Azərbaycan Milli Ordusu üçün İtaliyadan yenicə gətirilmiş 25 min dəst hərbi geyimə sahib çıxdı. 11 -ci ordunun müdaxiləsi Bakı əhalisinin yaddaşına "qrabnedelya" - "qarət həftəsi" kimi həkk olundu. Mayın 16-da Azərbaycana gələn Nəriman Nərimanovu xalq "Azərbaycanı başdan-başa qarət edirlər, sağa-sola hamını güllələyirlər" sözləri ilə qarşıladı. Azərbaycanda olduğu təxminən bir il müddətində işğalçı 11 -ci ordu ölkəni aclığa, səfalətə düçar etdi. Ordunun siyasi idarəsi, əslində, real hakimiyyətə malik orqan idi. Bu idarənin rəisi "Pankratov, əslində, hər şeyi idarə edirdi" (N.Nərimanov). 11 -ci ordu yerli əhalinin həyat tərzinə, güzəranına müdaxilə edir, Azərbaycan Hökuməti ilə hesablaşmır, Azərbaycanın Müvəqqəti İnqilab Komitəsinin dekretlərinə məhəl qoymurdu.

11 -ci Qırmızı ordunun işğalçı hərbi əməliyyatları nəticəsində 23 ay yaşamış müstəqil Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı, onun dövlət və hökumət strukturları ləğv edildi, azadlıq mücahidləri qan içərisində boğuldu (bax həmçinin, *Azərbaycan Xalq Cümhuriyyəti* məqaləsinin Tarix bölməsinə, *Azərbaycan Kommunist (bolşeviklər) Partiyası* məqaləsinə).

*Əd:.* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; İbişov F., Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930), B., 1996; İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997; Əhmədova F., Nəriman Nərimanov - ideal və gerçəklik, B., 1998; Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921 гг.), Б., 1989.

**BAKI FƏHLƏ KONFRANSI (BFK)** Azərbaycan Xalq Cümhuriyyəti dövründə hakimiyyəti qeyri-qanuni yolla ələ keçirmək məqsədilə yaradılmış bolşevik təşkilatı. 1918 il dekabrın 15-də fəaliyyətə başlamışdı. BFK-da fəhlə təşkilatları 251 nümayəndə ilə təmsil olunmuşdu. Səsvermə hüququna yalnız Bakı şəhərinin fəhlə və qulluqçuları malik idilər. Mərkəzi BFK-dan əlavə, Bakı rayon fəhlə konfransları da yaradılmışdı. BFK-nın *"Bakı Fəhlə Konfransının Əxbarı"* adlı qəzeti nəşr olunmuşdur. BFK öz fəaliyyətinə iqtisadi tələblərlə başlamışdı. Belə ki, BFK yanında yaradılmış tətil komitəsinin başlıca vəzifəsi öz rəhbərlikləri altında tətillər təşkil etmək idi. Eser və menşeviklərin redaktorluğu ilə tətil komitəsinin orqanı olan "Bakı tətil komitəsinin xəbərləri" qəzeti nəşr olunurdu. Cəmi üç nömrəsi işıq üzü görmüş qəzetin ilk nömrəsi 1918 il dekabrın 25-də çıxmışdır. Bolşeviklərin təsirilə siyasi mübarizə yoluna keçən BFK-da liderlik uğrunda bolşeviklərlə eser-menşeviklər arasında gərgin mübarizə gedirdi. BFK 1918 il dekabrın 18-də keçirilən iclasında siyasi tələblərlə (həbs edilənlərin azadlığa buraxılması, həmkarlar ittifaqları, mətbuat, yığıncaq azadlıqları və s.) tətil keçirmək barədə qərar qəbul etdi. Tətil 1918 il dekabrın 24-də başlandı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti üçün ciddi müxalifətə çevrilmiş

BFK ingilis komandanlığından tələb edirdi ki, kollektiv müqavilənin bərpası üçün neft sənayeçiləri və fəhlə konfransı nümayəndələrindən ibarət saziş komissiyası yaradılsın. Tətilin gedişində BFK-nın xüsusi iclasında iştirak edən Məhəmməd Əmin Rəsulzadə BFK liderlərinin fəaliyyətinə kəskin etirazını bildirmiş, Azərbaycan Hökumətinin yeganə qanuni səlahiyyətli orqan olduğunu vurğulamışdı. Üçgünlük dekabr aksiyası tətilçilərin üstünlüyü ilə nəticələndi. İngilis komandanlığı həbs edilənlərin buraxılmasına razılıq verdi. Dekabrın 25-də Azərbaycan Parlamentinin iclasında siyasi məhbusların amnistiyası üzrə yaradılan komissiya inzibati qaydada həbs olunmuş bütün şəxsləri təxirə salmadan azad etməyə çağırdı. Dekabr tətilindən sonra müntəzəm keçirilən Bakı Fəhlə Konfransı iclasları əsasən, siyasi məzmun daşımışdır. 1919 ilin martında bolşeviklər eser-menşevikləri BFK-dan sıxışdıraraq öz nümayəndələrini rəyasət heyətinə daxil etdirdilər. 1919 il martın 11-də yeni seçilmiş rəyasət heyətinin 10 üzvündən 7-si kommunist, hümmətçi və ədalətçi idi. 1919 ilin mayında BFK-nın bolşevik liderləri ümumi iqtisadi tətil keçirilməsinə cəhd etdilər. Azərbaycan Xalq Cümhuriyyət Hökuməti BFK-nın elan etdiyi bu tətili siyasi tətil kimi qiymətləndirdi. Hökumətin qadağalarına baxmayaraq, 1919 il mayın 6-da tətil başlandı. Lakin BFK-nın eser-menşevik və bolşevik liderləri arasındakı ixtilaf, müsəlman sosialis partiyalarının Hökumətin xəttini müdafiə etməsi, hakimiyyətin qətiyyəti və ingilis komandanlığının onu dəstəkləməsi tətili ilk gündən uğursuzluğa düçar etdi. Tətil mayın 13-də tam iflasla sona çatdı. BFK rəhbərliyindəki eser menşeviklər bolşeviklərlə əvəz olundu. Bununla belə məğlubiyyətləri ilə heç cür barışmaq istəməyən bolşeviklər BFK-nı "Fəhlə parlamenti", "Deputatlar soveti" adlandırdılar. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası) Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosu ilə birlikə BFK da Azərbaycan Xalq Cümhuriyyəti Parlamentin hakimiyyəti təslim etmək barəsində ultimatum göndərmişdi.

*Əd.:* Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, B., 196 Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5,1 2001; Гусейнов К. А., Найдель М. И., Очерки истории профдвижения в Азербайджане, Б., 1966.

**"BAKI FƏHLƏ KONFRANSININ ƏXBARI"** gündəlik leqal bolşevik qəzeti, *Bakı Fəhlə Konfransının* orqanı 1919 il iyunun 8-dən avqustun 8-dək Azərbaycan dilində çıxmışdır. Cəmi 47 nömrəsi buraxılmışdır. Kütlələri Azərbaycan Xalq Cümhuriyyətinin qanuni hakimiyyətinə qarşı mübarizəyə çağıran materiallar dərc edirdi. Redaktoru Əliheydər Qarayev idi. Qəzetin işində Seyid Cəfər Cavadzadə (Pişəvəri), Həmid Sultanov ("H.S.Yoxsul") və b. iştirak etmişlər. Rusiya Kommunist (bolşeviklər) Partiyası Proqramının (1919) xeyli hissəsi Azərbaycan dilində ilk dəfə bu qəzetdə dərc olunmuşdur. Nəşri Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən dayandırılmışdır.

**BAKI GÖMRÜKXANASI** - dövlətin ticarət maraqlarını qoruyan, yüklərin daşınmasına nəzarət edən və gömrük rüsumları toplayan hökumət müəssisəsi. Rusiya senatının 1807 il 25 yanvar tarixli qanunu əsasında 1809 ildə yaradılmışdır. 1918 ilin fevralında gömrükxananın bazasında Bakı gömrükxanası nəzdində Fəhlə və Əsgər Deputatları Sovetinin Komissarlığı yaradılmış, martında isə komissarlıq yenidən Bakı gömrükxanasına çevrilmişdir. 1918 ilin mayında Bakı gömrükxanası kollegiyadan, əməliyyat-texniki şöbədən və sahil mühafizəsindən ibarət idi. Cümhuriyyət Hökumətinin apardığı islahatlarla əlaqədar Bakı gömrüxanası 1918 ilin avqustunda Ticarət və Sənaye Nazirliyinin gömrük idarəsinə, 1918 ilin dekabr - 1919 ilin yanvarında isə Maliyyə Nazirliyinin gömrük idarəsinə tabe edildi.

Bakı Gömrükxanasının mühafizə dəstəsi



Bakı gömrükxanası İran və Avropa dövlətləri ilə bağlanmış ticarət müqavilələrinin yerinə yetirilməsində öz səlahiyyətləri daxilində fəaliyyət göstərir, malların qəbulu, yoxlanılması, onlara gömrük rüsumu qoyulması, qaçaqmalçılıqla mübarizə, Bakı dəniz limanında olan bütün gəmilərin uçotu və qeydə alınması ilə məşğul olurdu. Həmin dövrdə Bakı gömrükxanası gəmi nəzarəti (kabotaj ticarətinə və xaricə ticarətə nəzarət), pakqauz komandası (malların qəbulu, SAXlanması, çeşidlənməsi və qaçaqmalın tutulması), mühasibat (pul və əmtəə kassası) və dəftərxanadan (ümumi kargüzarlıq, məhkəmə işləri, müsadirə işləri, inzibati hissə) ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919 il iyulun 29-da Maliyyə Nazirliyinin gömrük idarəsinin ləğvi əvəzində nazirliyin dəftərxanası nəzdində gömrük rüsumları şöbəsinin yaradılması haqqında qanun qəbul etdi.

**BAKI HƏMKARLAR İTTİFAQLARI ŞURASI (BHİŞ)** - könüllü ictimai təşkilat. Əsası 1917 il martın 24-qoyulmuşdu. Həmin tarixdə Bakı şəhəri həmkarlar ittifaqları nümayəndələrinin yığıncağı özünü təsis yığıncağı elan etmiş və Azərbaycanda ilk ittifaqlararası təşkilat olan Həmkarkarlar İttifaqlarının Mərkəzi Bürosunu seçmişdir. III Ümumrusiya konfransının qərarına əsasən, mərkəzi büro 1917 il 6 iyul tarixli iclasında Bakı Həmkarlar İttifaqları Şurasına çevrildi.

1918 il mayın 23-də BHİŞ-in yeni rəyasət heyəti seçilmişdir. Onun ilk tədbirlərindən biri sənayenin milliləşdirilməsində həmkarlar ittifaqlarının iştirakı məsələsinin həlli və bütün həmkarlar ittifaqları nümayəndələrinin ümumbakı konfransını çağırmaq olmuşdur. 22 həmkarlar ittifaqının idarə heyətlərinin iclaslarından birində - 1918 il iyulun 9-da həmkarlar ittifaqlarının nümunəvi nizamnaməsi qəbul edilmişdir.

1919 il noyabrın 1-nə olan məlumata görə, BHİŞ-ə 16həmkarlar ittifaqı daxil idi. Şura eser-menşeviklərin təsiri altında idi. Bakı Xalq Komissarları Sovetinin (BXKS) hakimiyyəti dövründə Şuraya rəhbərlik bolşeviklərin əlinə keçdi. BXKS-nin süqutundan sonra həmkarlar ittifaqlarına nəzarət etmək uğrunda bolşeviklərlə eser-menşeviklər arasında mübarizə yenidən qızışdı. Bu mübarizə 1919 ilin yazında bolşeviklərin həmkarlar ittifaqları üzərində tam nəzarəti ilə nəticələndi. Sentyabrda bolşeviklər sağ sosiallistlərin son dayağı olan BHİŞ-i ələ keçirdilər. Bolşeviklərin bu quruma rəhbərliyi həmkarlar ittifaqlarını Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı mübarizədə mürtəce alətə çevirdi.

BHİŞ Bakı proletariatının kollektiv müqavilənin bağlanması uğrunda mübarizəsində, mədən-zavod komissiyalarının təşkilində mühüm rol oynamışdı. O, sahibkarların qanunsuz hərəkətlərinə qarşı həmkarlar ittifaqlarının mübarizəsində fəal təşkilatçılıq işi görür, əmək haqqının artırılması, əməkçilərin müxtəlif kateqoriyaları üçün sabit əmək haqqı dərəcələrinin işlənib hazırlanmasında, həbs olunmuş rəhbərlərin azad edilməsində, həmkarlar ittifaqlarının fəaliyyətinin leqallaşdırılmasında fəhlələrin tələblərini dəstəkləyirdi.

1920 ilin iyununda vahid respublika orqanının – Azərbaycan Həmkarlar İttifaqları Şurasının yaradılmasındansonra BHİŞ ləğv edilmişdir.

**BAKI HƏRBİ GENERAL-QUBERNATORU** -Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı ətrafında müdafiə sistemi yaratmaq, şəhərdə asayişi təmin etmək, vətəndaşların əmin-amanlığını qorumaq, cinayətkarlığın və dövlətə qarşı təxribatların qarşısını almaq məqsədilə yaradılmış xüsusi qurum. Bakı hərbi general-qubernatoru vəzifəsi, bundan əvvəl Dövlət Müdafiə Komitəsinin qərarı ilə (1919, 13 sentyabr) Bakı İstehkamçılar hissəsinin rəisi təyin edilmiş general-mayor Murad Gəray *Tlexasa* (əvvəlki vəzifələrində qalmaqla) həvalə olunmuşdu. Bu orqan mülki idarəçiliklə inzibati idarəçiliyi özündə birləşdirməklə geniş səlahiyyətlərə malik idi. M.G.Tlexas Bakının hərbi general-qubernatoru kimi imzaladığı 1 saylı əmrində öz qarşısında aşağıdakı vəzifələrin durduğunu bildirirdi: Bakı general-qubernatorluğunda cinayətkarlığın aradan qaldırılması; general-qubernatorluqda şəxsi və ictimai maraqlara və dövlətin əmin-amanlığına meylli olan əhalinin işlərinə geniş yardım göstərilməsi; milliyyətindən, məzhəbindən, ictimai vəziyyətindən asılı olmayaraq, hər bir vətəndaşın mənafelərinin qorunması; asayişi, əmin-amanlığı və dövlət quruluşunu pozmağa çalışanlara qarşı amansız mübarizə aparılması və s.

Bakının hərbi general-qubernatoru Murad Gəray Tlexas şəhər ətrafının müdafiə sisteminin qurulmasına rəhbərlik etməklə yanaşı, onun daxilində asayiş yaradılmasını da ciddi nəzarət altında saxlayırdı. Onun 1919 il noyabrın 24-də imzaladığı xüsusi əmrlə, müvafiq icazə olmadan, küçə toplantılarının, mitinq və nümayişlərin keçirilməsi qadağan edildi. *Aprel işğalından (1920)* sonra Bakı hərbi general-qubernatoru M.G.Tlexas bolşeviklər tərəfindən həbs edildi və bolşevik Əli Bayramovun öldürülməsində ittiham olunaraq güllələndi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Mehmandarov, B., 2000.

**BAKI HƏRBİ QARNİZONU** - Bakı şəhərində və onun ətrafında yerləşdirilmiş bütün hərbi hissələri, təşkilatları, hərbi təhsil müəssisələrini özündə birləşdirən hərbi qurum. Bakı hərbi qarnizonu Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918 il sentyabrın 15-də Azərbaycan hərbi qüvvələri və *Qafqaz İslam Ordusu* şəhəri azad etdikdən sonra formalaşdırılmağa başlandı. Tərkibinə həm Azərbaycan, həm də türk hərbi hissələri daxil olan Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy Bakının ilk hərbi komendantı təyin edilmişdi. 1918 il noyabrın 17-də müttəfiq dövlətlər adından Bakıya daxil olan ingilis hərbi qüvvələri buradakı türk qoşun hissələri ilə bərabər, Azərbaycan ordusunun bütün hərbi hissələrinin, bölmə və strukturlarının da şəhərdən çıxarılmasını tələb etdilər. Beləliklə, Bakı hərbi qarnizonu ləğv edildi.

Bakı hərbi qarnizonu 1919 il aprelin 5-də yenidən formalaşdırılmağa başladı. İngilis qüvvələri komandanlığının razılığına əsasən, həmin gün Azərbaycan Xalq Cümhuriyyəti ordusunun Birinci tatar süvari alayı, bir piyada taboru və bir topçu batareyası Bakıya daxil oldu. Bakıya daxil olan qüvvələrə *Birinci tatar süvari alayının* komandiri polkovnik Ağalarov rəhbərlik edirdi. Ona, eyni zamanda, Bakı qarnizonunun rəisi vəzifəsi həvalə olunmuşdu. Bakı şəhərinin komendantı isə podpolkovnik Azad Vəzirov təyin edilmişdi (1919 il iyulun 9-da ona polkovnik rütbəsi verilmişdi).

Bakıda hərbi hissələrin sayının artması və hərbi strukturların genişlənməsi, həmçinin, şəhərin paytaxt kimi əhəmiyyəti nəzərə alınaraq hərbi nazirin 1919 il 7 avqust tarixli əmri ilə komendant vəzifəsinə general-mayor statusu verildi. İstefada olan general-mayor Firidun bəy Vəzirov Bakı komendantı təyin edildi və *Aprei işğalına (1920)* qədər bu vəzifəni daşıdı. Əvvəlki komendant polkovnik Azad Vəzirov müavin vəzifəsində saxlanıldı.

1919 il avqustun 16-da İkinci piyada diviziyasının komandiri general-mayor İbrahim ağa Usubov Bakı hərbi qarnizonunun rəisi təyin edildi. 1919 il sentyabrın 9-da Bakı İstehkamçılar hissəsinin rəisi təyin edilmiş general-mayor Murad Gəray Tlexas, eyni zamanda, Bakı qarnizonunun rəisi oldu. Həmin il dekabrın 10-dan isə Bakı İstehkamçılar hissəsinin və Bakı qarnizonunun rəisi vəzifəsi general-mayor Həbib bəy Səlimova həvalə edildi. 1920 ilin fevralında həm də Bakı İstehkamçılar hissəsinin rəisi təyin



*Azərbaycan milli ordu hissələrinin Bakıya daxil olması. 1919, 5 aprel*

edilmiş İkinci piyada diviziyasının komandiri general-mayor İbrahim ağa Usubov yenidən qarnizon rəisi oldu.

**BAKI XALQ KOMİSSARLARI SOVETİ (BXKS)** -Cənubi Qafqazda sovet hakimiyyətinin ilk səlahiyyətli hakimiyyət orqanı. S.Şaumyanın başçılığı ilə erməni-daşnak quldur dəstələrinin türk-müsəlman əhaliyə qarşı törətdiyi 1918 il mart soyqırımından sonra Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişdi. Soyqırımından sonra şəhərdə, demək olar ki, azərbaycanlı qalmamışdı. Şəhərin türk-müsəlman əhalisinin bir hissəsi silahlı bolşevik-daşnak dəstələrinin qırğın və talanlarından qurtulmaq üçün Mərkəzi Asiya və İrana qaçmış, qalan hissəsi isə ətraf kəndlərə dağılışmışdı. "Daşnaksutyun" rəhbərləri yüksək vəzifəli erməni "bolşeviklərinin" himayəsi ilə özlərini Bakının əsl sahibi kimi aparırdılar. Bakıda erməni-bolşevik siyasi partiyalarının mətbuat orqanlarından başqa bütün qəzet və jurnallar bağlanmışdı. Yeni yaradılan əmək komissarlığı, ərzaq direktoriyası, bütün nəqliyyat bolşeviklərin sərəncamına keçmişdi. Bütün milli şuraların fəaliyyəti qadağan edilsə də Erməni Milli Şurası fəaliyyətini davam etdirirdi. Aprelin 25-də hakimiyyət orqanı kimi Bakı Xalq Komissarları Soveti yaradıldı.

BXKS-nin sədri vəzifəsinə S.Şaumyan "seçildi". O, eyni zamanda, xarici işlər komissarı idi. Xalq daxili işlər komissarı P.A.Çaparidze, ədliyyə komissarı A.B.Karinyan, nəqliyyat komissarı Markaryan, fövqəladə komissiyanın sədri Ter-Qabrelyan, Dövlət nəzarəti komissarı A.S.Boqdanov, əmək komissarı Y.D.Zevin seçildilər. BXKS qatı millətçi ermənilərdən və onlarla sıx əməkdaşlıq edən rus bolşeviklərindən ibarət idi. Azərbaycanlı komissarlara, əsasən, təsərrüfatla bağlı sahələr "həvalə" olunmuşdu. Nəriman Nərimanov şəhər təsərrüfatı, Mir Həsən Vəzirov isə torpaq işləri üzrə xalq komissarları idilər. Beləliklə, yerli azərbaycanlı əhalinin nümayəndələri, demək olar ki, hakimiyyətə yaxın buraxılmadı. Mart soyqırımından sonra da müsəlman əhaliyə qarşı əvvəlki kimi qəddar düşmənçilik münasibəti bəslənilirdi. S.Şaumyan qarşısına "demokratiya" və "xalq hakimiyyəti" pərdəsi altında Azərbaycanı azərbaycanlılardan təmizləmək, onun yeraltı, yerüstü sərvətlərini çapıb-talamaq, torpaqlarını qəsb edib "Böyük Ermənistan" dövləti yaratmaq xülyasını reallaşdırmaq vəzifəsi qoymuşdu. O, BXKS-nin fəaliyyətini də bu məqsədə yönəltmişdi. BXKS Moskvanın birbaşa göstərişi ilə neft sənayesini milliləşdirdi və Bakı nefti Rusiyaya nəql olunmağa başladı. Təsadüfi deyil ki, Leninin göstərişi ilə BXKS-nə neftin hasilatı və daşınmasını sürətləndirmək üçün yüz milyon rubl pul ayrılmışdı. 1917 ilin noyabrından 1918 ilin martınadək Rusiyaya 4 milyon 313 min pud neft daşındığı halda, 1918 il aprelin əvvəllərindən iyulun axırlarınadək 80 milyon 25 min pud neft aparılmışdı. Bundan başqa, Bakıdan və Azərbaycanın qəzalarından Rusiyaya "qardaşlıq yardımı" adı altında 700 min pud pambıq, 100 min pud qura balıq, xeyli miqdarda düyü, duz və s. göndərilmişdi.

Bakı Soveti Fətəli xan Xoyskinin başçıllıq etdiyi Bakı şəhər dumasını buraxaraq, *Zaqafqaziya seymini* əksinqilabi qurum elan etdi. Moskva bütün vasitələrlə BXKS-ni hərbi-siyasi cəhətdən qüvvətləndirməyə çalışırdı. Lenin hərbi komissarlığa və inqilabi mübarizə şurasına Bakıdakı sovet qoşunlarını təcili surətdə bütün zəruri hərbi sursatla təmin etmək göstərişi vermişdi. Həmin göstəriş yerinə yetirilərək qısa müddətdə Bakıya 5 min tüfəng, 2 milyon patron, 35



*Bakı Xalq Komissarları Sovetinin yerləşdiyi bina. 1920*

pulemyot, 4 zirehli avtomobil, 13 təyyarə göndərildi. Bakıda isə BXKS ordusunun ermeniləşdirilməsi prosesi başa çatdırıldı. Moskvaya göndərdiyi məktubda Q.Korqanov yazırdı: "Kommuna ordusunun sayı 18 mindir, əsgərlərin böyük hissəsi, yəni 13 minə qədəri, zabitlərin isə demək olar ki, hamısı ermənilərdir". BXKS ordusuna komandanlıq edən Z.Avetisyan, N.Qararyan, Hamazasp və b. azərbaycanlılara qarşı ifrat vəhşiliyi ilə ad çıxarmış qaniçənlər idilər.

BXKS-ni istər milli tərkibi, istər yerli azərbaycanlılara qarşı yeritdiyi milli düşmənçilik və dözümsüzlük siyasəti Moskvanı tam qane edirdi. Belə ki, Moskva neft Bakısını, bütövlükdə Cənubi Qafqazı öz əlində və nüfuz dairəsində saxlamaq üçün bu antiazərbaycan hakimiyyət rejiminə özünün təsir mexanizmi kimi baxırdı.

BXKS-nin qarşısına qoyduğu ən böyük vəzifələrdən biri də Gəncəyə hücum edib Azərbaycan Xalq Cümhuriyyətini devirmək idi. Lakin iyunun 27-si ilə iyulun 1-i arasındakı dörd günlük gərgin vuruşma cəbhənin taleyini həll etdi. Bu döyüşdə xalq könüllüləri, Azərbaycan və türk hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* BXKS qoşunlarını darmadağın edərək, Bakı istiqamətində hərəkətə başladı. Tezliklə, BXKS Azərbaycan mühitinə yad bir qurum kimi tarix səhnəsindən çıxdı. Bakıda hakimiyyəti zorakı yolla zəbt edən Bakı Soveti dövlət "əmlakını mənimsədiyi üçün Sentrokaspi" hökuməti tərəfindən həbs edildi. Qafqaz İslam Ordusu sentyabrın 15-də Bakını azad edən zaman həbsdə olan Bakı Soveti rəhbərliyi Bakını tərk etməyə cəhd etdi. Eserlər tərəfindən həbs edilən Bakı Soveti rəhbərliyi sentyabrın 20-də Türkmənistanda güllələndi.

*Əd.:* Azərbaycan tarixi, 7cilddə, c. 5, B., 2001; Насиров Т., Борьба за власть большевиков Азербайджана, Б., 1983.

**BAKI XALQ KOMİSSARLARI SOVETİNİN 1MAY BƏYANNAMƏSİ** - 1918 il mayın 1-də "Bakı Sovetinin Xəbərləri" qəzetinin 81 sayında dərc edilmişdir. Bəyannamədə aprelin 25-də yaradılmış *Bakı Xalq komissarları Sovetinin* (BXKS) Ümumrusiya Xalq Komissarları Sovetinin bütün dekret və sərəncamlarını yerli şəraitə uyğun həyata keçirəcəyi və BXKS-nin fəhlə, əsgər, matros deputatları soveti qarşısında cavabdeh olacağı göstərilirdi. Ümumrusiya mərkəzi hakimiyyəti ilə möhkəm əlaqə yaratmaq BXKS-nin əsas vəzifələrindən biri kimi açıqlanır, sovet hakimiyyətinin qarşısında duran vəzifələr müəyyən edilirdi. Onların həyata keçirilməsi üçün güclü ordunun yaradılması vacib sayılırdı. Azərbaycanın Şamaxı, Lənkəran, Quba və b. yaşayış məntəqələrində türk-müsəlman əhaliyə qarşı həyata keçirilmiş kütləvi qırğınlar bəyənilir, "qalibiyyətlə başlanmış vətəndaş müharibəsini (yəni, soyqırımlarını — *red.)* davam etdirmək" nəzərdə tutulurdu. BXKS Bakı fəhlələrini "fəal və mütəşəkkil kömək" göstərməye çağırırdı. BXKS məsuliyyəti həm də fəhlə sinfinin üzərinə qoyur, "səhvlərin və müvəffəqiyyətsizliklərin tamamilə təbii və labüd" olduğunu bəyan edərək, fəhlələrin hakimiyyətlə birlikdə "ümumi məsuliyyət" daşıdığını vurğulayırdı. S.Şaumyan tərəfindən yazılmış, bəyannaməni özü və digər komissarlar imzalamışlar.

1 May bəyannaməsi Azərbaycan xalqına qarşı 1918 ilin martında S.Şaumyanın başçılığı ilə həyata keçirilmiş soyqırımlarının qabaqcadan düşünülmüş cinayətkarlıq aktı olduğunu bir daha təsdiq edir.

**BAKI XALQ TƏSƏRRUFATI ŞURASI (BXTŞ)** -Bakı Xalq Komissarları Sovetinin (BXKS) xalq təsərrüfatının təşkili və idarəsi orqanı. Bu barədə ilk dəfə Bakı fəhlə, əsgər və matros deputatları sovetinin 1918 il 19 aprel tarixli qətnaməsində bəhs edilmişdir. Burada BXTŞ sədrinin xalq təsərrüfatı işlərinə baxan komissar hüququ ilə XKS-nə daxil olması qeyd edilirdi. Aprelin 25-də BXKS təşkil olunduqda, onun tərkibində BXTŞ da yaradılmış, sədri İvan Fioletov təyin edilmişdi. BXTŞ-nın səlahiyyəti və hüquqi vəziyyəti onun hazırladığı və Bakı XKS-nin qəbul etdiyi bəyannamədə əks olunmuşdu. Bu orqan ikiqat tabeçilikdə idi. Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Təsərrüfatı Ali Şurasının (1917 il dekabrın 2 (15)-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi və XKS tərəfindən yaradılmışdı) yerli və Bakı Sovetinin təsərrüfatı idarə orqanı idi. Xalq təsərrüfatının idarə olunması sahəsində geniş hüquqlarla yanaşı müsadirə etmək, daşınar və daşınmaz əmlaka sekvestr qoymaq səlahiyyəti də var idi. Rəhbər orqanı plenum, plenar iclaslar arasındakı dövrdə rəyasət heyəti idi. BXTŞ plenumunun 1918 il 10 may tarixli qərarına görə, bu təşkilat neft, mexaniki istehsal, su nəqliyyatı, ticarət, texniki-təşkilat və statistika şöbələrindən ibarət idi. Yerli idarəni həyata keçirmək məqsədilə BXTŞ-nın rayon komitələri yaradılmışdı.

Bakı XKS-nin xalq təsərrüfatının əsas sahələrində milliləşdirmə siyasətini həyata keçirməsilə XTŞ-nin fəaliyyəti genişlənirdi. 1918 il mayın 12-də yeraltı sərvətlərin milliləşdirilməsi nəticəsində neftli orpaqlardan istifadənin icarə şərtlərinin müəyyənləşdirilməsi BXTŞ-na həvalə edildi. İyunun 1-də neft sənayesinin milliləşdirilməsi haqqında dekret verildi. Neft sənayesində yaradılmış fəhlə nəzarətinin hüquq və vəzifələri də BXTŞ-nın 1918 il 21 iyul tarixli təlimatı ilə müəyyən edilirdi. Milliləşdirilmiş müəssisələrdə bu nəzarəti fabrik-zavod (mədən) komitələri həyata keçirirdi. Bu komitələrə BXTŞ neft şöbəsinin fəhlə bölməsi rəhbərlik edirdi. Onun müdiri M.V.Basin idi. Milliləşdirilmiş neft sənayesi müəssisələrinin qorunması işi də ona həvalə olunmuşdu.

BXTŞ, əslində, milliləşdirilmiş müəssisələrin məhsullarını, xüsusilə nefti Sovet Rusiyasının mənafeyinə uyğun müsadirə etmək və ora göndərməklə antiazərbaycan siyasəti yeridirdi. 1918 ilin mayında Bakıdan 16609 min pud neft məhsulları aparıldığı halda, iyunda bu rəqəm 26449 min puda çatdı. 1918 ilin aprel-iyul aylarında Sovet Rusiyasına 80 min pud neft daşınmışdı. Bunun müqabilində RSFSR hökumətinin ayırdığı pul və taxıl olduqca az idi. BXKS-nin süqutu ilə BXTŞ ləğv edildi. BXTŞ-nın əli ilə Bakı neft sənayesi hesabına müəyyən ehtiyat yaradan Sovet Rusiyası vətəndaş müharibəsində qələbəni yaxınlaşdıra bildi, sonradan Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərində möhkəmlənərək onun devrilməsinə nail oldu.

*Əd:.* Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918, B., 1960; История государства и права Азербайджанской ССР. Великая Октябрьская социалистическая революция и создание советской государственности в Азербайджане, Б., 1964; Азизбекова П. и др., Советская Россия и борьба за установление и укрепление власти советов в Закавказье, Б., 1969.

**BAKI XƏZİNƏ PALATASI** - Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə sistemi tərkibində fəaliyyət göstərmiş qurum. 1918 il oktyabrın 21-də Cümhuriyyət Hökumətinin qərarı ilə Bakı Xəzinə Palatası Azərbaycan Xəzinə Palatasına çevrildi və onun fəaliyyət dairəsi bütün Cümhuriyyət ərazisini əhatə etdi (bax *Azərbaycan Xazinə Palatası).*

**BAKI İCTİMAİ TƏŞKİLATLAR ŞURASI VƏ ONUN MÜVƏQQƏTİ İCRAİYYƏ KOMİTƏSİ** Fevral inqilabından (1917) sonra Bakıda yaradılmış yerli hakimiyyət orqanı. 1917 il martın 5-nə keçən gecə Bakıda təşkil olunmuşdu. Yerli hakimiyyət orqanı olaraq, Müvəqqəti hökumətə etimad göstərmişdi. Tərkibinə fəhlə deputatları sovetlərinin, şəhər dumasının və müxtəlif ictimai təşkilatların nümayəndələri daxil idilər. İcraiyyə komitəsinin sədri L.L.Bıç, üzvlərinin əksəriyyəti qeyri-müsəlman millətlərin nümayəndələri idilər. Komitədə azərbaycanlı əhalini Məmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadə təmsil edirdilər. Milli neft sənayeçiləri komitəyə maddi yardım göstərirdilər. Rusiyada oktyabr çevrilişi nəticəsində bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Bakı Fəhlə və Əsgər Deputatları Sovetində əsas vəzifələrə yiyələnən bolşeviklər sovetin təkhakimiyyətliliyinə nail olmaq üçün digər siyasi hakimiyyət strukturlarının, o cümlədən İctimai Təşkilatların İcraiyyə Komitəsinin ləğvinə çalışırdılar. Bakı Sovetinin bolşeviklərdən ibarət İcraiyyə Komitəsi 1917 il noyabrın 13-də iclas keçirərək, ictimai təşkilatların icraiyyə komitəsinin ləğvi haqqında elan vermək barədə qərar qəbul etdi. Qərara görə, ictimai təşkilatların icraiyyə komitəsinin sədri vəzifəsinə S.Şaumyan seçilməli və o, komitəni ləğv etməli idi. Komitə 1917 il noyabrın 17-də özünü ləğvi barədə qərar çıxardı. Bununla Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirmiş S.Şaumyanın hakimiyyəti qəsb etməsinə yol açıldı.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.

**BAKI İNGİLİS GENERAL-QUBERNATORLUĞU** - *Mudros barışığının (1918)* şərtlərinə əsasən, 1918 il noyabrın 17-də Bakını zəbt etmiş ingilis qoşunları komandanlığının hərbi-inzibati hakimiyyət struktura. Belə ki, Birinci dünya müharibəsində (1914-18) məğlub tərəf kimi Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan çıxarmağa məcbur olmuş, Cənubi Qafqaz B.Britaniyanın təsir dairəsinə qatılmışdı. Öz tabeliyində kifayət qədər güclü qoşun hissələri olmayan Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və yenidən toplanmış Azərbaycan Milli Şurası istiqlal prinsipindən geri çəkilməmək şərti ilə Bakıya gələcək ingilis generalı U.Tomsonla danışıqlara başlamaq məcburiyyətində qalmışdı.

İrandakı ingilis qoşunlarının komandanı general U.Tomsonla danışıqlar aparmaq üçün Ənzəliyə Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağayev və Musa bəy Rəfiyevdən ibarət Azərbaycan nümayəndə heyəti göndərilmişdi. Danışıqların sonunda general U.Tomson 1918 il noyabrın 17-si gündüz saat 12-dən Bakı şəhərində hərbi vəziyyət elan olunacağını bəyan etmişdi. Hərbi vəziyyət müddətində U.Tomson Bakı şəhərinin hərbi qubernatoru elan edilirdi. Azərbaycan Hökuməti noyabrın 18-də rəsmi məlumatında bildirirdi ki, müvəqqəti olaraq, yalnız Bakıya daxil olmuş müttəfiq qoşunları ancaq hərbi hakimiyyəti təmsil edəcəklər. Lakin ingilis hərbi komandanlığı Bakıda yerləşdiyi vaxtdan ölkənin ictimai-siyasi və iqtisadi həyatının bütün sahələrinə müdaxilə etməyə başlamışdı. Belə ki, 1918 il noyabrın 29-dan Xəzər donanmasının bütün ticarət gəmiləri də ingilis komandanlığının sərəncamına keçmişdi. Ticarət donanmasını idarə etmək üçün başda mayor Braun olmaqla "İngiltərə Dəniz Nəqliyyatı" şirkəti təsis olunmuşdu. İngilislər sərəncamlarında olan Bakı ticarət limanının maliyyələşdirilməsini Azərbaycan Hökumətinin öhdəsinə buraxmışdı. Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər tezliklə "Britaniya Neft İdarəsi"ni təsis etdilər. 1918 ilin dekabrından 1919 ilin avqustuna qədər ingilislər Bakıdan 113, 5 milyon manatlıq 30 milyon puda qədər neft aparmışdılar. Onların göstərişi ilə Bakıdan daşınan bütün

neft məhsullarına heç bir aksiz rüsumları qoyulmur və bütün yüklər maneəsiz buraxılırdı. General U.Tomson ingilis zabitlərini yoxlamağı Azərbaycan Cümhuriyyətinin dəmir yolu işçilərinə qadağan etmişdi. Mülki idarəçilik sahələrinə də müdaxilə edən ingilislər pul əsginaslarının buraxılmasını öz nəzarətinə götürmüş, əhalinin ərzaqla təminatı sistemini yenidən qurmuş, neft hasilatı və dəmir yolu sahələrində mövcud əmək münaqişələrini özləri həll etmək üçün Əmək idarəsi yaratmışdılar. İngilis komandanlığının əmri ilə Azərbaycanın Hərbi Nazirliyi silahlı qüvvələri ilə birlikdə Bakıdan çıxarılaraq, Gəncəyə köçürülmüşdü. Bütün bunlarla yanaşı, general-qubernator U.Tomson Azərbaycandakı ictimai-siyasi reallıqla yaxından tanış olduqdan sonra, 1918 il dekabrın 28-də bəyanatla çıxış etdi: "Fətəli xan Xoyskinin sədrliyi ilə koalisiyalı Azərbaycan Hökuməti yaradıldığı üçün bəyan edirəm ki, Müttəfiqlərin Komandanlığı Azərbaycan ərazisində yeganə yerli qanuni hakimiyyət kimi bu Hökumətə tam dəstək verəcəkdir".

1918 ilin dekabrında ingilis general – qubernatorunun əmri ilə Qarabağ və Zəngəzurun Azərbaycan Hökümətinin idarəsinə verildiyi elan olundu.

1919 ilin əvvəllərindən başlayaraq, Azərbaycan Höküməti Bakı ingilis general-qubernatorluğunun ləğv edilməsi uğrunda mübarizə aparırdı. Bu məqsədlə Azərbaycan Hökümətinin *Paris sülh konfransındakı (1919-20)* nümayəndəheyətinin başçısı Əlimərdan bəy Topçubaşova da tapşırılmışdı ki, əldə olan bütün vasitələrlə ingilis general - qubernatorluğunun ləğvinə çalışsın. Azərbaycan Xarici İşlər Nazirliyinin Topçubaşova teleqramında göstərilirdi: "Nəyin hesabına olursa-olsun, Bakıda ingilis general-qubernatorluğunun ləğv edilməsinə nail olmaq lazımdır. Əks təqdirdə idarəçilik nöqteyi-nəzərindən dözülməz hesab edilən ikihakimiyyətlilik alınır. Sonra sizdən belə bir xahişimiz var ki, ingilis komandanlığının bizim maliyyə işlərinə qarışmamasına nail olasınız". Xarici İşlər Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini pozan bu məsələ ilə bağlı Avropa və Amerika dövlətlərinə etiraz notası göndərilməsini, Avropa mətbuatında bunun Azərbaycanın daxili işlərinə müdaxilə olduğu barədə yazı verilməsini vacib sayırdı.

Digər tərəfdən, uzun müddət Azərbaycanda qaldıqlarına görə narazılıq edən, vətənə qayıtmaq istəyən ingilis əsgərlərinin sıralarında intizamsızlıq güclənirdi. Artıq Azərbaycan Hökumətinin Azərbaycan xalqının iradəsini əks etdirdiyinə əmin olan müttəfiq komandanlıq 1919 il aprelin əvvəllərində Azərbaycan silahlı qüvvələrinin azsaylı kontingentinin Bakıda yerləşdirilməsinə razılıq vermişdi. İngilis komandanlığı Azərbaycanı tərk etməzdən əvvəl hərbi ləvazimatı *Könüllü orduya,* Xəzər hərbi donanmasını isə hələ 1919 ilin əvvəllərində Denikinə vermişdi. Azərbaycan Hökuməti buna qarşı kəskin etiraz notası ilə çıxış etdi. İngilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərinin bir hissəsini Azərbaycan Hökumətinə qaytarmışdılar.

Beləliklə, 1918 il noyabrın 17-də Bakıya daxil olmuş ingilis qoşunları 1919 ilin avqustunda Azərbaycanı tərk etdilər. Azərbaycan paytaxtında ingilis general-qubernatorluğunun mövcudluğu nə qədər acınacaqlı olsa da, o, obyektiv olaraq, ölkədə gedən demokratik proseslərin inkişafında, dövlət hakimiyyəti təsisatlarının möhkəmləndirilməsində, başlıcası isə, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün Rusiyanın imperiyapərəst qüvvələrinin hücumundan xilas olmasında, müvəqqəti də olsa, əhəmiyyətli rol oynamışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər), B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**BAKI İSTEHKAMÇILAR HİSSƏSİ** Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı *Dövlət Müdafiə Komitəsinin* 1919 il 13 sentyabr tarixli qərarı ilə yaradılmış hərbi müdafiə strukruru. Hərbi Nazirliyin Topçu idarəsinin rəisi general-mayor Murad Gəray Tlexas Bakı iskehkamçılar hissəsinin rəisi təyin edildi. Dövlət Müdafiə Komitəsinin 1919 il 13 sentyabr tarixli əmrinə əsasən Bakı iskehkamçılar hissəsinin rəisinə ölkənin müdafiəsi üçün zəruri olan hər hansı əmlakı müsadirə etmək hüququ verildi.

Bakı istehkamçılar hissəsi strateji əhəmiyyətinə görə birinci dərəcəli qalaya bərabər idi. Onun hüdudları Qızılburundan Ələtə qədər müəyyənləşdirilmişdi. Birbaşa hərbi nazirə tabe olan hissələrdən başqa, Bakı qarnizonunun digər hissələri də - Bakının hərbi limanı, oradakı üzən obyektlər, Nizovaya (Niyazabad) liman körpüsündən tutmuş Ələt stansiyasına qədər sahil boyunca yerləşdirilmiş toplar da istehkamçılar hissəsinin tabeliyinə verilmişdi. İstehkamçılar hissəsinin öz bayrağı var idi. Həmin bayraq Bayıl burnunda,



AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
BAKI QƏZASI
Miqyas 1: 630 000
QUBA QƏZASI
ŞAMAXI QƏZASI
CAVAD QƏZASI
X Ə Z Ə R
D Ə N İ Z İ
Bakı


TİFLİS QUBERNİYASI
BORÇALI QƏZASI
ETNOQRAFİK XƏRİTƏ
Miqyas 1: 840 000
QORİ QƏZASI
TİFLİS QƏZASI
AXALKƏLƏK QƏZASI
QARS VİLAYƏTİ
İRƏVAN QUBERNİYASI
GƏNCƏ QUBERNİYASI
Kür
Xramçay
Bolnisiçay
Borçalıçay
Toporovan gölü
Dumangöl
Xonçalıgöl
Tiflis
Arcevan
Sarvan
Avranlı
Beştaşen
Nərdivan
Aşqala
Başköy
Quntaqala
Barmaqsız
Aleksandersqilf
Dəmirbulaq
Yekaterinenfeld
Zol Güvəc
Arıxlı
Qızılhacılı
Gavurarx
Sarvan
Dəmirçi Həsənli
Darvaz
Kəpənəkçi
Faxralı
Saraclı
Baydar
Qırıxlı
Gəyliyən
Böyük Qəmərli
Dumanisi
Şulaveri
Saral
Qaçağan
Başkeçid
Almalı
Opreti
Körpülü
Şahnəzər
Sarçapet
2
Çoçkan
İlməzli
Privolnoye
Şınıx
Allahverdi
Heydərbəy
Axpat
Vorontsovka
Uzunlar
Novo-Pokrovka
Yaqdan
Cəlaloğlu
Güllüqıraq
Dızıx
Qarqar
Qurddan
Azərbaycanlılar
Gürcülər
Ermənilər
Ruslar
Yunanlar
"Kafkazski kalendar"da (1902) verilmiş xəritə əsasında hazırlanmışdir.




*Bakı istehkamçılar hissəsinin strukturu*

radiostansiyanın yanında qaldırılmışdı və onun mühafizəsi təmin edilirdi.

Bakı istehkamçılar hissəsinin tərkibində Topçu idarəsi, İstehkam idarəsi, Ləvazimat idarəsi, Hərbi-tibb idarəsi, rabitə qrupu və katerlər qrupu var idi.

1919 il dekabrın 10-da Murad Gəray Tlexas Bakının hərbi general-qubernatoru təyin olunduğu üçün Bakı istehkamçılar hissəsinin rəisi vəzifəsi general-mayor Həbib bəy Səlimova həvalə edildi. 1920 il fevralın 20-də Bakı istehkamçılar hissəsinin rəisi general-mayor İbrahim ağa Usubov oldu və o, Azərbaycan Cümhuriyyətinin süqutuna qədər bu vəzifədə fəaliyyət göstərdi.

**BAKI KOMMUNASI** - 1918 ilin yaz və yayında Bakı və ətraf bölgələrdə mövcud olmuş sovet hakimiyyətinə verilən ad. Petroqradda Oktyabr (1917) çevrilişindən sonra noyabrın 27-də (9) Bakı Soveti hakimiyyətin ələ alınması haqqında qətnaməni rədd etdi. Lakin 4 gün sonra, əksinə hakimiyyətin Bakı Sovetinə keçməsi elan edildi, noyabrın 2-də (15) Sovetin yeni seçilmiş İcraiyyə Komitəsi şəhərdə ali hakimiyyəti ələ aldı. Sovet hökuməti Bakıda hakimiyyətini möhkəmləndirmək üçün hər cür təxribatlara əl atdı. 1918 ilin martında Şaumyanın başçılığı ilə Azərbaycan xalqına qarşı soyqırımı törədildi (bax *Mart soyqırımı (1918)).* Aprelin 25-də proletariat diktaturası orqanı adı altında Bakı Xalq Komissarları Soveti yaradıldı (bax *Bakı Xalq Komissarları Soveti).* O, Qırmızı Ordu hissələrinin köməyilə hakimiyyətini Quba, Şamaxı, Lənkəran və Cavad qəzalarında qurmağa nail oldu. Bakı Xalq Komissarları Soveti Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin (RSFSR XKS) rəhbərliyilə birlikdə çalışır, antiazərbaycan fəaliyyətində ondan hərtərəfli kömək alırdı. RSFSR XKS-in sədri V.İ.Leninin göstərişi ilə 1918 ilin iyununda Bakı bolşeviklərinə 7 zirehli maşın, 13 təyyarə, 8 top, 160 pulemyot, 10 min tüfəng, sursat və s. göndərilmişdi. Rusiya sovet hökuməti Berlindəki sefiri A.A.İoffe vasitəsilə Almaniyadan Azərbaycan Xalq Cümhuriyyəti ilə birlikdə Bakının azad edilməsində iştirak edən Osmanlı hərbi qüvvələrinin fəaliyyətinə mane olmağa çalışırdı. Bütün bunların müqabilində RSFSR neft və digər sərvətləri Azərbaycandan daşıyıb əvəzsiz olaraq aparırdı. Lakin Bakı Xalq Komissarları Sovetinin Azərbaycan xalqı arasında nüfuzu və dayağı yox idi. Ona görə də RSFSR-in hərbi köməyi Bakı Xalq Komissarları Sovetini xilas edə bilmədi. Azərbaycan Xalq Cümhuriyyəti 1918 ilin iyununda Bakını azad etmək uğrunda mübarizəyə başladı. İyulun 25-də Bakı Soveti ingilislərin Bakıya çağırılması haqqında qərar qəbul etdi. Bakı Xalq Komissarları Soveti iyulun 31-də süqut etdi. Bakıda hakimiyyət "Sentrokaspi diktaturası"na keçdi. Avqustun 4-də ingilis qoşunları Bakıya daxil oldu. Avqustun 12-də Bakı bolşeviklərinin konfransı yenidən hakimiyyət uğrunda mübarizəyə başlamaq üçün Həştərxana getməyi qərara aldı.

*Əd.:* İbrahimov Z., Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi, B., 1957; Азимов Г.С., Бакинская коммуна, Б., 1982; yenə onun, Великий Октябрб в Азурбайджане, Б., 1987.

**BAKI QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı quberniyasının inzibati vahidlərindən biri. Rusiya imperiyası Bakı xanlığını işğal etdikdən (1806) sonra xanlıq üsuli-idarəsini ləğv edib, onu əyalətə çevirmişdi. 1840 il 19 aprel inzibati islahatı nəticəsində inzibati cəhətdən Kaspi vilayətinə daxil olan Bakı qəzası yaradıldı. Çar I Nikolayın 1846 il 14 dekabr tarixli fərmanı ilə Şamaxı quberniyası yaradıldıqda Bakı qəzası həmin quberniyanın tərkibinə verildi. 1859 il Şamaxı zəlzələsindən sonra quberniya mərkəzinin Bakıya köçürülməsilə eyni adlı quberniyanın qəzası oldu. 1888 il 10 may tarixli qərara əsasən Bakı qəzası Balaxam-Sabunçu, Maştağa və Saray məntəqələrinə bölündü. 1906 il 28 oktyabr tarixli fərmana görə Bakı və onun ətrafındakı fabrik-mədən rayonları əsasında Bakı qradonaçalnikliyi (Bakı şəhər rəisliyi) təşkil edildikdə qəzanın tərkibində ancaq kənd icmaları qaldı. Bakıda sovet hakimiyyəti qurulduqdan sonra S.Şaumyanın daşnak-bolşevik rejimi qəzalarda, o cümlədən Bakı qəzasında da möhkəmlənməyə can atırdı. 1918 il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyətinin öz hakimiyyətini bütün ölkə ərazisində bərqərar etmək siyasəti uğurla nəticələndi. Həmin il sentyabrın 15-də Bakı şəhəri azad edildikdən sonra Bakı qəzasında da Azərbaycan Cümhuriyyətinin hakimiyyəti quruldu. Qafqaz təqviminin (1917) məlumatına görə, Bakı qəzasının sahəsi 2610,22 *kv. verst* (2,77 min *kv.km),* əhalisi 15746 nəfər (o cümlədən, 533 nəfəri müvəqqəti yaşayan) idi.

Qəzanın bütün əhalisi azərbaycanlılardan ibarət idi. Bakı qəzasının təsərrüfat həyatında əkinçilik, bağçılıq və üzümçülük əsas yer tuturdu. 1920 il aprelin 28-də 11-ci Qırmızı ordu Bakını işğal etdikdən sonra qəzada Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinə son qoyuldu. Bakı qəzası 1929 ildə ləğvedildi.

*Əd.:* Bax *Bakı quberniyası* məqaləsinin ədəbiyyatına.

**BAKI QUBERNİYA ƏRZAQ KOMİTƏSİ (BQƏK)**- Bakıda və quberniyada ərzaq işinə ümumi nəzarəti həyata keçirən, əhalinin ərzaqla, ən zəruri tələbat malları ilə təchiz olunmasının təşkili ilə məşğul olan orqan. Müvəqqəti hökumətin 1917 il 15 mart tarixli qərarı ilə ümumdövlət ərzaq komitəsi yaradılmışdı. Onun vəzifəsi ərzaq planının, ərzaq işlərinə dair rəhbər prinsipləri və ümumi tədbirləri işləyib hazırlamaq idi. Quberniya, qəza və nahiyə komitələri tədarük və bölüşdürmə məsələləri ilə məşğul olurdu.

Bakı qəzasının gerbi. 1840



BQƏK, həmçinin, statistik və digər araşdırmalar da aparır, mövcud ərzağın miqdarını müəyyənləşdirir, onun bölüşdürülməsində qayda-qanun yaradır, taxıl emalı müəssisələri üzərində uçot və nəzarəti həyata keçirir, qiymətlərə nəzarət edirdi. Bakı quberniyasında ərzaq komitələrinin təşkili ilə şəhər dumaları və idarələri məşğul olurdu. Anarxiya dövründə ərzaq komitələrinin fəaliyyəti pozulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ilk tədbirlərindən biri ərzaq komitələrinin ləğv edilməsi və mövcud ərzaq təşkilatlarmm ərzaq nazirliyi müvəkkillərinin sərəncamına verilməsi oldu. 1918 il iyulun 29-da Hökumətin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətində ərzaq təchizatı işinin düzgün qurulması və yenidən təşkili üçün xüsusi komissiya yaradıldı. Həmin il avqustun 27-də quberniya, şəhər və qəza ərzaq komitələrinin ləğv olunması haqqında qərar qəbul edildi. Onların əmlakı ticarət və sənaye nazirliyinin sərəncamına verildi. Ərzaq komitələrinin ləğvindən sonra, ərzaq işlərinə rəhbərlik quberniya və qəza müvəkkillərinə həvalə edildi. Quberniya müvəkkili ləğv olunmuş komitələrin tamhüquqlu varisi idi.

1920 il fevralın 25-də Hökumət ticarət, sənaye və ərzaq nazirinin mərkəzi ərzaq komitəsinin təşkilinə dair məruzəsinin nəzərə alınması barədə qərar qəbul etdi. Ərzaq komitəsinin 1920 il 18 mart tarixli iclasında komitənin səlahiyyəti məsələsinə baxıldı. Komitə ticarət, sənaye və ərzaq naziri yanında məşvərətçi orqan olub, ərzaq əldə edilməsi ilə bağlı bütün məsələləri işləyib hazırlamalı idi. Qərar qəbul etmək səlahiyyəti əhalinin və ölkənin siyasi durumunun mənafeləri naminə ərzaqla əlaqədar vəzifələrin yerinə yetirilməsinə məsul olan ticarət, sənaye və ərzaq nazirinə məxsus idi. İclasda ticarət, sənaye və ərzaq nazirinin müavininə, şəhər rəisinə və "Kooperasiya" istehlak cəmiyyətləri ittifaqının nümayəndəsinə ərzaq komitəsinin fəaliyyətinə dair Əsasnamə hazırlanması tapşırılmışdı.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), 1998; Законодательные акты (сборник документов), Б., 1998.

**BAKI QUBERNİYA FABRİK MÜFƏTTİŞLİYİ** -Rusiya Dövlət Şurasının "Sənaye haqqında nizamnamədə bəzi dəyişikliklər" barədə 1899 il 7 iyun tarixli qərarına əsasən yaradılmışdı. Bakı Xalq Komissarları Sovetinin 1918 il 2 iyul tarixli qərarı ilə ləğv edilmiş, 1918 il oktyabrın 12-də Bakı sənaye rayonunda tənzimləyici orqan kimi bərpa olunmuşdu. Müfəttişlik prinsipial xarakterli məsələlərin həlli ilə yanaşı, sahibkarların qanunsuz hərəkətləri haqqında fəhlə və qulluqçuların ərizə və şikayətlərini də araşdırırdı.

1919 ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə əmək nazirliyi yaradılmış və həmin müfəttişlik onun sərəncamına verilmişdi. Bununla əlaqədar müfəttişliyin fəaliyyət dairəsi xeyli genişlənərək, muzdlu əməyin sənətkarlıq, kustar istehsal, tikinti, dəmir yolu, çay nəqliyyatı və digər sahələrini də əhatə edirdi. Lakin həvalə olunmuş texniki vəzifələr baxımından müfəttişlik bilavasitə ticarət və sənaye nazirliyinin tabeliyində idi.

Bütün Bakı sənaye rayonu 5 məntəqəyə bölünmüşdü. Onların hər birinə fabrik müfəttişi başçılıq edirdi. Fabrik müfəttişlərinin fəaliyyətini isə böyük fabrik müfəttişi əlaqələndirirdi.

**BAKI QUBERNİYASI** - inzibati ərazi vahidi. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini məhv etmək məqsədilə xanlıqlar ləğv olundu və müstəmləkə siyasətinin həyata keçirilməsinə xidmət edən inzibati-ərazi bölgüsü yaradılmasına başlandı. 1840 il 10 aprel tarixli inzibati-məhkəmə islahatı nəticəsində Bakı, Şuşa, Nuxa (Şəki), Lənkəran, Şamaxı əyalətləri qəzaya çevrilərək, yeni təşkil edilmiş Kaspi vilayətinə, Quba qəzası isə Dağıstan dairəsinə daxil edildi. Çar I Nikolayın 1846 il 14 dekabr tarixli



*Bakı quberniyasının gerbi, 1859*

fərmanı ilə Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə yeni dəyişikliklər həyata keçirildi. Diyar Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Keçmiş Kaspi vilayətinə daxil olan qəzalar Şamaxı quberniyasına birləşdirildi, Quba qəzası isə Dərbənd quberniyasında qaldı. 1859 il Şamaxı zəlzələsindən sonra quberniya mərkəzinin Bakıya köçürülməsi nəticəsində həmin quberniya Bakı quberniyası adlandırıldı. 1860 ildə Dərbənd quberniyasının ləğvindən sonra Quba qəzası da Bakı quberniyasına daxil edildi.

1867 ilin dekabrında Yelizavetpol (Gəncə) quberniyasının yaradılması ilə Şuşa və Nuxa qəzaları Bakı quberniyasından alınaraq onun tərkibinə qatıldı. Həmin fərman əsasında qəzaların ərazisinin kiçildilməsilə əlaqədar olaraq, Bakı quberniyası ərazisində Cavad və Göyçay qəzaları yaradıldı. Həmin vaxtdan Bakı quberniyası 6 qəzadan (Bakı, Şamaxı, Quba, Lənkəran, Cavad və Göyçay) və Xəzər dənizindəki bir sıra adalardan ibarət idi. Belə bir bölgü Azərbaycan Xalq Cümhuriyyəti dövründə də qalmışdı.

Bakı quberniyası şimalda Dağıstan vilayəti, qərbdə Nuxa və Şuşa qəzaları, cənubda Araz və Astara çayları, şərqdə isə Xəzər dənizi ilə hüdudlanırdı. Ərazisi 39075, 15 *kv km* idi. Bakı quberniyasını hərbi qubernator, 1872 ilin mayından isə qubernator idarə edirdi. Rusiyada 1905-07 illər inqilabı ərəfəsində və inqilab dövründə Bakıda sosial-siyasi vəziyyət gərginləşdiyindən, 1905 ilin fevral və sentyabr aylarında ermənilər müsəlmanlara qarşı soyqırımı törətdiyindən çar hökuməti Bakıda müvəqqəti general-qubernatorluq yaratdı. 1906 il oktyabrın 28-də Bakı və fabrik-mədən rayonları quberniyadan ayrılaraq, Bakı şəhər rəisliyinə (qradonaçalnikliyinə) birləşdirildi. Dekabr ayında Bakı general-qubernatorluğu ləğv olundu. Qafqaz təqviminin (1917) məlumatına görə, Bakı quberniyasında 875746 nəfər əhali yaşayırdı. Onlardan 465711 nəfəri kişi, 310035 nəfəri qadın idi. Kişilərin sayca belə üstünlüyü (+155676 nəfər) quberniyada gəlmə işçi qüvvəsinin çox olması ilə bağlı idi. Əhalinin etnik tərkibi müəyyənləşdirilərkən dini mənsubiyyət əsas götürülmüşdü. Müsəlmanların, əsasən, azərbaycanlılardan ibarət olduğu (Cənubi Azərbaycandan olanlar da daxil olmaqla) nəzərə alınarsa, onların sayı 692574 nəfər (79,08%) idi. Ruslar 72635 (8,3%), ermənilər 42207 (4,8%) idi və s.

Bakı quberniyası iqtisadi inkişaf səviyyəsinə görə nəinki Şimali Azərbaycanda və Cənubi Qafqazda, eləcə də bütün Rusiya imperiyasında öncül və mühüm yer tuturdu. Quberniyanın iqtisadi həyatında neft sənayesi və onunla bağlı sahələr böyük əhəmiyyətə malik idi. Quberniyada 20 mindən yuxarı fəhləsi olan 1200-dən çox fabrik və zavod vardı. Kənd yerlərində əhali taxılçılıq, texniki bitkilər becərməklə (tütün, pambıq), bağçılıq, bostançılıq, heyvandarlıq və s. ilə məşğul olurdu.

Fevral inqilabı (1917) nəticəsində çar hökuməti devrildikdən sonra yaradılan Müvəqqəti hökumət Cənubi Qafqazda Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM, 1917 il 9 mart) təsis etdi. Yerli orqanlar isə ictimai təşkilatların icraiyyə komitələri və onların seçdikləri komissarlar oldu. Oktyabr çevrilişi nəticəsində bolşeviklər hakimiyyəti əl aldıqdan sonra vəziyyət yenidən dəyişdi. Ümumi Zaqafqaziya orqanı olan Zaqafqaziya komissarlığı yaradıldı. Bakıda isə sovet hakimiyyəti elan edildi. S.Şaumyanın başçılıq etdi; Bakı Soveti öz hakimiyyətini bütün quberniyaya və Azərbaycanın digər bölgələrinə yaymağa, onu Sovet Rusiyasını birləşdirməyə çalışırdı. S.Şaumyanın başçılığı ilə türk müsəlman əhaliyə qarşı törədilmiş 1918 il mart soyqırımı bu siyasətin həyata keçirilməsində mühüm rol oynamalı idi. Bu siyasəti Bakı Xalq Komissarlan Soveti də (191 25 aprel) davam etdirdi. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Bakı Xalq Komissarları Soveti ona qarşı hərbi əməliyyatlara başladı. Azərbaycan Xalq Cümhuriyyəti Bakı şəhərində və bütün quberniyada hakimiyyətinin bərqərar olunmasına böyük önəm verirdi. Bakı Xalq Komissarları Sovetinin hərbi qüvvələrinə qarşı döyüşlərdə qazanılan qələbələr Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin mövqelərini möhkəmləndirdi, Bakı Xalq Komissarları Soveti süqut etdi (31 iyul). Bakıda hakimiyyət erməni-daşnaklardan və eser-menşeviklərdən ibarət olan "Sentrokaspi diktaturası"nın əlinə keçdi. Lakin onun hakimiyyəti uzun sürmədi. Azərbaycan Xalq Cümhuriyyəti və qardaşlıq köməyinə gəlmiş türk hərbi qüvvələri Bakı azad etdi (15 sentyabr). Dövlətin paytaxtı Gəncədən Bakı şəhərinə köçürüldü. Hakimiyyətin bütün quberniya ərazisində bərqərar edilməsi uğrunda mübarizə başlandı. "Muğan Sovet Respublikası" adlandırılan qurum (1919, 25 aprel 27 iyul) ləğv edildi. Bakı quberniyasında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin öz hakimiyyətini bərqər etməsi böyük tarixi əhəmiyyətə malik idi. Bakıda yerli hakimiyyətə qubernator başçılıq edirdi. Onun səlahiyyətinə aşağıdakılar daxil idi: tabeliyindəki bütün idarələrin və şəxslərin qanunları, nizamnamələri və rəhbərliyin tapşırıq-

larını icra etmələrinə, bütün dövlət mükəlləfiyyətlərinin yerinə yetirilməsinə, şəhər və kənd özünüidarəsinə nəzarət etmək, quberniyada təsərrüfatın inkişafını və əhalinin rifahını təmin etmək, ictimai asayişi və təhlükəsizliyi qorumaq.

Dövlət hakimiyyətinin tabeliyində olan yerli polisin baş rəisi kimi o, ictimai asayişin qorunması, cinayətkarlığın aşkara çıxarılması və qarşısının alınması sahəsində polisin fəaliyyətinə də rəhbərlik edirdi. Bu baxımdan polis, həm də, prokuror nəzarəti vasitəsilə məhkəmə hakimiyyətinin rəhbərliyi və nəzarəti altında idi. Qubernatorun müavini - vitse-qubernator qubernatorun sərəncamlarını, ayrı-ayrı tapşırıqlarını yerinə yetirir, qubernator hər hansı səbəbdən olmadıqda onu əvəz edirdi. Qubernator sədrlik etdiyi quberniya idarəsinin köməyi ilə fəaliyyət göstərirdi. Qubernatorun yanında atlı keşikçilər müfəttişi vardı. Onun vəzifəsi qayda-qanunun qorunmasında, ilk növbədə qarətçilik və quldurluğa qarşı mübarizədə kənd hakimiyyət orqanlarına kömək etməkdən ibarət idi.

Nazirlər Şurasının 1919 il 5 fevral tarixli qərarı ilə Bakı qubernatoru vəzifəsinə Rəşid bəy Axundzadə, 25 avqust tarixli qərarı ilə Əmir bəy Nərimanbəyov təyin edilmişdi.

Bakı quberniyasının strateji mövqeyi və iqtisadi potensialı fəal daxili və xarici siyasət üçün əlverişli şərait yaratdı. Lakin Sovet Rusiyası və onun yaxından kömək göstərdiyi yerli bolşeviklərin antimilli siyasəti vəziyyətin mürəkkəbləşməsinə və Azərbaycan Cümhuriyyəti hakimiyyətinin devrilməsinə yönəlmişdi. Sovet Rusiyasının 11-ci Qırmızı ordusu və Volqa-Xəzər hərbi donanmasının *Bakı əməliyyatı (1920)* nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti devrildi. Bakıda hakimiyyət Azərbaycan Müvəqqəti Hərbi-İnqilab Komitəsinə keçdi. Sovet hökuməti hakimiyyətini Bakı quberniyası ərazisinə yaymağa müvəffəq oldu. Quberniya inzibati ərazi vahidi ləğv edildi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), 1998; Законодательные акты (сборник документов), Б., 1998. Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Мильман А., Политический строй Азербайджана в XIX- начале XX веков, Б.,1966; Сумбатзаде А.С., Сельское хозяйство Азербайджана в XIX в., Б., 1958; yenə onun, Промышленность Азербайджана в XIX в., Б., 1964; Исмаилов М.А., Промышленность Баку в начале XX века, Б., 1976; Азимов Г.С., Великий Октябрь в Азербайджане, Б., 1987.

**BAKI QUBERNİYASININ MÜSƏLMAN ƏHALİSİNİ SAVADLANDIRMA CƏMİYYƏTİ** - 20 əsrin əvvəllərində çarizmin müstəmləkə əsarətinə qarşı Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət almaqda olduğu şəraitdə meydana gəlmiş maarifçi cəmiyyət. 1906 ildə yaradılmışdır (bax *"Nəşri-maarif"* cəmiyyəti).

**BAKI QUBERNİYASININ NEFT RÜSUMLARI ÜZRƏ AKSİZ İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə sistemini möhkəmləndirmək məqsədilə yaradılmış qurum. 1918 ilin oktyabrında fəaliyyətə başlamışdır. Vəzifəsi Bakı quberniyasında neft rüsumlanm toplamaqdan ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 20 yanvar tarixli qərarı ilə hər pud xam neftə 3, ağ neftə 5, benzin və sürtkü yağına 7 manat rüsum alınırdı. Hökumətin 1919 il 26 may tarixli sərəncamı ilə Neft Sənayeçiləri Şurası nəzdindəki büroya Batuma neft və neft məhsullarını güzəştli şərtlərlə göndərməyə icazə verilmişdi. Belə ki, Batuma ixrac olunan neft satılana qədər rüsumların alınması təxirə salınırdı.

**"BAKI MƏSƏLƏSİ"** - Osmanlı imperiyası, Almaniya və Sovet Rusiyası arasında Bakı nefti uğrunda 1918 ilin yayında gedən diplomatik mübarizənin şərti adı. Bakı neftinə yiyələnmək uğrunda mübarizə Dördlər ittifaqı ilə Antanta dövlətləri arasındakı qarşıdurmanın əsas səbəblərindən biri idi. S.Şaumyanın başçılıq etdiyi Xalq Komissarları Sovetinin (XKS) hakimiyyəti altında olan Bakının azad edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran başlıca vəzifə idi. XKS-nin hərbi qüvvələri ilə Bakını əldə saxlaya bilməyəcəyini nəzərə alan Rusiya diplomatik təz-yiqi gücləndirdi. Rusiya Sovet Federativ Sosialist Respublikasının (RSFSR) Berlindəki səfiri A.İoffe Almaniyaya nota verərək, Brest-Litovsk müqaviləsinin şərtlərinin pozulmasına etirazını bildirmiş və Osmanlı ordusunun Bakı istiqamətində hərəkətini dayandırmaq üçün işə qarışmasını tələb etmişdi. Müttəfiqi Osmanlı imperiyasının ona neft vəd etməsinə baxmayaraq, Almaniya bu təklifdən yararlanmaq qərarına gəldi və Sovet Rusiyasının ona neft verəcəyi təqdirdə Osmanlı ordusunun hücumunu dayandırmaq üçün işə qarışacağını bildirdi. Almaniya ilə Rusiya arasında ilkin razılıq əldə edildi. Almaniyanın müdaxiləsi ilə Osmanlı ordusunun fəal hərbi əməliyyatları müvəqqəti dayandırılsa da, iyulun sonlarında Osmanlı - Azərbaycan hərbi qüvvələrinin Bakıya yaxınlaşması Almaniya - Rusiya danışıqlarını yenidən canlandırdı. "Bakı məsələsi" ilə bağlı Berlində və Moskvada danışıqların davam etdiyi müddətdə Bakı uğrunda hərbi əməliyyatlar kəskinləşdi. Bakı XKS-nin L.Biçeraxovun köməyindən istifadə etməsi də uğurla nəticələnmədi. *"Sentrokaspi diktaturası* "nın dəvəti ilə ingilis qoşunlarının Bakıya gəlməsi Antantanın Qafqazı, xüsusən də Bakını ələ keçirməsi üçün əlverişli şərait yaradırdı. Lakin Bakıya gəlmiş ingilis qoşunları Osmanlı - Azərbaycan ordusunun qarşısını almaq üçün kifayət etmədi. "Bakı məsələsi" bey-nəlxalq əhəmiyyət kəsb etdi. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu məsələdə qəti və prinsipial mövqe tutdu: ***"Necə olursa-olsun Bakını almaq, almaq və almaq lazımdır"*** (M.Ə.Rəsulzadə).

1919 il avqustun sonlarında Almaniya Osmanlı qüvvələrinin Bakıya hücumunun dayandırılmasına bu şərtlə razılıq verdi ki, RSFSR Britaniya qüvvələrini Bakıdan çıxarsın. Üç ayadək davam edən Almaniya-Rusiya danışıqları 1918 il avqustun 27-də Almaniya ilə RSFSR arasında Brest-Litovsk müqaviləsinə əlavə olaraq məxfi sazişin imzalanması ilə nəticələndi (bax *Brest-Litovsk müqaviləsinə əlavə məxfi saziş).* Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünə qarşı yönəlmiş bu sazişə görə RSFSR Bakını ələ keçirdikdən sonra hər ay Bakıda çıxarılan neftin dörddə bir hissəsini Almaniyaya verməli idi. Almaniya 27 avqust sazişini müttəfiqlərindən gizlin imzalasa da, onun


BAKI QUBERNİYASI
ETNOQRAFİK XƏRİTƏ
DAĞISTAN VİLAYƏTİ
BAKI
Azərbaycanlılar
Tatlar
Talışlar
Ruslar
Ermənilər
Yəhudilər
Xınalıqlılar
Cəklər
Qrızlar
Buduqlular
QƏZALAR
1.QUBA
2.GÖYÇAY
3.ŞAMAXI
4.BAKI
5.CAVAD
6.LƏNKƏRAN
Qeyd: Ermənilər göstərilən ərazilərə, əsasən, çar Rusiyasının Cənubi Qafqazdakı işğallarından sonra köçürülmüşlər.



TİFLİS QUBERNİYASI
İRƏVAN QUBERNİYASI
GƏNCƏ
Yuxarı Salahlı
Aşağı Salahlı
Qaçaqçılar
Hoşlarak
Karvansaray
Annenfeld
Seyfəli
Yelenendorf
Borsunlu
Qoşqar
Gədəbəy
Saratovka
Zəylik
Dəstəfur
Çardaqlı
Xanlıq
Qaraçınar
Ağcakənd
Talış
Yuxarı Çaylı
Kasapet
Dovşanlı
Qozlu
Əsrik
Çıraqlı
Xankəndi
Şuşa
Zarıslı
Malbəyli
Dağkənd
Sisian
Əngləkənd
Darabas
Şəhrər
Tatev
Qatar
İşgəndərbəyli
Dargahlı
Pirşivan
Şəmur
Leqvaz
Əlidərə
Böyük Mehri
Mövraz
QƏZALAR
Qeyd: Ermənilər göstərilan ərazilərə, əsasən, çar Rusiyasının Cənubi Qafqazdakı işğallarından sonra köçürülmüşlər.



GƏNCƏ (YELİZAVETPOL)
QUBERNİYASI
ETNOQRAFİK XƏRİTƏ
DAĞISTAN VİLAYƏTİ
BAKI QUBERNİYASI
Ruslar
Udinlər
Yəhudilər
Almanlar

üstü açıldı. İstanbulda olan Azərbaycan nümayəndələri Almaniya - Rusiya məxfi sazişinə qarşı mübarizəyə başladılar. Onlar Osmanlı dövlətinin baş naziri Tələt paşa ilə "Bakı məsələsi"ndə Almaniyanın mövqeyini, Bakının tezliklə azad edilməsinin zəruriliyini müzakirə etdilər. Azərbaycan nümayəndələri 1918 il sentyabrın 12-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin etiraz notasını Almaniyanın Osmanlı dövlətindəki səfirinə təqdim etdilər. Berlinə gəlmiş Tələt paşa Almaniyadan 27 avqust sazişinin təcili olaraq ləğv olunmasını tələb etdi. Sentyabrın əvvəllərində beynəlxalq vəziyyət Antantanın xeyrinə dəyişdi. Rusiyanın ingilisləri Bakıdan çıxarmaq imkanının olmadığını görən və Britaniyanın Bakıda güclənəcəyindən ehtiyat edən Almaniya "Bakı məsələsi"ndəki mövqeyindən çəkildi. Bakının ingilislərdən azad olunmasında Almaniyanın iştirak etməsi cəhdi də baş tutmadı. 1918 il sentyabrın 15-də Bakının azad edilməsi xəbəri Tələt paşanın Berlində apardığı danışıqlara da ciddi təsir göstərdi. Tələt paşa türk hərbi hissələrinin Azərbaycanda çox qalmayacağını bildirdi. Sentyabrın 23-də Almaniya ilə Osmanlı dövləti arasında protokol imzalandı.

Almaniya 1918 il 27 avqust sazişindən rəsmi şəkildə imtina etdi, Azərbaycanı bir dövlət kimi tanıyacağını, Bakıda tezliklə konsulluq açacağını bildirdi.

1918 il sentyabrın 20-də Sovet Rusiyasının xalq xarici işlər komissarlığı Osmanlı dövlətinin xarici işlər nazirinə nota verərək, Bakının türk qoşunları tərəfindən alınmasını Rusiyanın ərazisinə təcavüz kimi qiymətləndirmiş, Brest-Litovsk müqaviləsinin Osmanlı dövlətinə aid hissəsinin qüvvədən düşdüyünü bildirmişdi. Rusiya Osmanlı dövlətindən Brest-Litovsk müqaviləsində göstərilən hüdudlara çəkilməyi, tərk etdiyi əraziləri Sovet Rusiyasına verməyi, Türkiyə ordusunun Rusiyaya vurduğu ziyanı müəyyən etmək üçün beynəlxalq komissiya yaradılmasını tələb edirdi. Rusiyanın iddiaları əsassız olduğundan, Berlində aparılan Osmanlı-Rusiya danışıqları baş tutmadı.

Beləliklə, "Bakı məsələsi" Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qətiyyətli və prinsipial mövqeyi, Qafqaz İslam Ordusu hissələrinin rəşadətli yürüşü və Azərbaycan diplomatiyasının uğuru sayəsində özünün ədalətli həllini tapdı. Bakının azad edilməsi ilə Cümhuriyyəti öz hakimiyyətini ölkə ərazisində bərqərar etdi. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olundu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**BAKI MÜDAFİƏ RAYONU HƏRBİ GENERAL-QUBERNATORUNUN İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin müdafiəsini möhkəmləndirmək məqsədilə yaradılmış xüsusi hərbi idarəçilik orqanı. Denikin ordusu və erməni-daşnak quldurları tərəfindən yaranmış təhlükə ilə əlaqədar 1919 ilin payızında Azərbaycan ordusu sərhəddə cəmləşdirilmişdi. Hərbi hissələrin və polisin fəaliyyətini əlaqələndirmək, Bakının müdafiəsini vahid idarə orqanında birləşdirmək məqsədilə 1919 il sentyabrın 13-də *Dövlət Müdafiə Komitəsi* Bakı müdafiə rayonunun rəisi vəzifəsini təsis etdi və onu hərbi general-qubernator vəzifəsi ilə birləşdirdi. Bakı şəhər rəisliyinin bütün ərazisi və şəhər rəisinin özü Bakı müdafiə rayonunun rəisinə, o isə hərbi nazirə tabe idi.

Müdafiə rayonunun rəisi hərbi nazirin təqdimatı ilə Nazirlər Şurasının sədri tərəfindən təyin edilirdi. General-mayor Həbib bəy *Səlimov* müdafiə rayonunun rəisi, general-mayor Murad Gəray *Tlexas* isə Bakı müdafiə rayonunun hərbi general-qubernatoru təyin olunmuşdu.

**BAKI MÜLK SAHİBLƏRİ İTTİFAQI** - mülk sahiblərinin mənafeyini qorumaq məqsədilə yaradılmış birlik

*Hacı Zeynalabdin Tağıyev mülk sahibləri ilə*



1917 ilin mayında təşkil olunmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmişdir. İttifaqın məqsədi mülk sahiblərinə kömək göstərmək, abadlıq, sanitariya və təhlükəsizlik məsələlərinə dair tədbirlər hazırlayıb həyata keçirmək, fərdi, kooperativ və səhmdar cəmiyyətləri vasitəsilə ev tikintisini təbliğ etmək, mülk sahibləri ilə kirayənişinlər arasında qarşılıqlı münasibətləri tənzimləmək və s. idi. İttifaqın İdarə şurası, həmçinin hüquq, texniki və məlumat vasitəçilik büroları fəaliyyət göstərirdi.

**BAKI MÜRSƏL PAŞA** (1881, Ərzurum - 1945, İstanbul; məzarı 1988 ilin noyabrında Ankaradakı dövlət qəbiristanlığına köçürülmüşdür) - türk generalı. Azərbaycana hərbi yardım üçün göndərilmiş *Qafqaz İslam Ordusunun* tərkibindəki *Beşinci Qafqaz firqəsinin* komandiri. 1898 ildə hərbi məktəbə daxil olmuş, 1901 ildə oranı poruçik (teğmen)



rütbəsində bitirmişdir. 1904 ildə Hərbi Akademiyanı bitirmiş, 1910 ildə hərbi biliklərini artırmaq üçün Almaniyaya ezam olunmuşdur. 1913 ilin sonunda 39-cu alayın komandiri, 1914 ilin yanvarında isə 11 -ci suvari briqadasının (tuğayının) komandiri təyin edilmişdir. Sonrakı bir neçə il ərzində Türkiyə ordusunun 34-cü piyada diviziyasına, 2-ci süvari diviziyasına, 32-ci və 12-ci piyada diviziyalarına komandirlik etmişdir. Mürsəl paşa 1918 il martın 28-də Qafqaz İslam Ordusunun yaradılması ərəfəsində, 5-ci Qafqaz firqəsinin komandiri təyin edildi və həmin firqə ilə Azərbaycana daxil oldu. Türkiyə hökumətinin qərarına əsasən, Azərbaycanda vəzifəsini icra edən türk zabitlərinin rütbəsi, fəxri olaraq, bir pillə qaldırılmalı idi. Buna görə də artıq 1918 il iyulun axırından polkovnik (albay) rütbəsini daşıyan Mürsəl paşaya general (paşa) rütbəsi verildi və o, Qafqaz İslam Ordusunun köməyi ilə düşmən qüvvələrindən azad edilmiş Bakıya o, qalib paşa kimi varid oldu. *Mudros barışığının (1918)* şərtlərinə görə, türk hərbi qüvvələri Azərbaycanı tərk etdi. 1919 ildə Mürsəl paşa Batumda ingilislər tərəfindən həbs olundu. Lakin tezliklə həbsdən azad olunan Mürsəl paşa Türkiyəyə qayıdaraq, Atatürkün başçılıq etdiyi İstiqlal savaşına qoşulmuşdur. 6-cı, 1 -ci süvari diviziyalarının və 2-ci süvari korpusunun komandiri olmuş, xidmətlərinə görə general rütbəsinə layiq görül-müşdür. 1922 il avqustun 31 -də Mürsəl paşa növbəti hərbi rütbə - tümgeneral rütbəsini almışdır. 1938 ildə istefaya çıxmışdır. 20 əsrin 30-cu illərində Türkiyədə soyadların tətbiqinə başlananda, Mürsəl paşa Bakı adını fəxarətlə özünə soyadı seçmişdir.

**BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ (BMXC)** - mədəni-maarif və sosial yardım sahələrində fəaliyyət göstərən könüllü ictimai qurum. Nizamnaməsi 1905 il oktyabrın 10-da Tiflisdə Qafqaz canişini qraf Voronsov-Daşkov tərəfindən təsdiq edilmişdi. Cəmiyyətin ilk iclasında onun 11 nəfərdən ibarət idarə heyəti seçilmişdi. Hacı Zeynalabdin Tağıyev idarə heyətinin sədri, İsrafil Hacıyev müavini, Hacı Mustafayev xəzinədar, Əhməd bəy Ağayev katib, Əsədulla Əhmədov, İsmayıl bəy Səfərəliyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov və b. idarə heyətinin üzvləri seçilmişdilər. Cəmiyyəti, əsasən, Hacı Zeynalabdin Tağıyev və digər Bakı milyonçuları maliyyələşdirirdi. BMXC-nin ideya istiqamətini Həsən bəy Zərdabi və onun həmfikirləri müəyyənləşdirirdi. Cəmiyyətin məqsədi, maliyyə mənbəyi, fəaliyyət mexanizmi onun nizamnaməsində dəqiq ifadə olunmuşdu. Cəmiyyətin idarə heyəti "İsmailiyyə"də (hazırda Milli Elmlər Akademiyası Rəyasət Heyətinin İstiqlaliyyət küçəsindəki binası) yerləşirdi və bütün tədbirləri bu binada keçirilirdi. Cəmiyyət əvvəllər, başlıca olaraq, Bakıda və onun ətrafında fəaliyyət göstərirdi. Birinci dünya müharibəsi (1914-18) illərində öz nizamnaməsində bəzi dəyişiklik edərək, geniş fəaliyyət göstərmiş, Qafqaz cəbhəsindən qaçqın düşənlərə, yetim uşaqlara, əsir düşmüş türk əsgərlərinə yardım etmişdir. "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilliyin" nəzdində BMXC-nin baş müvəkkili var idi. Bu vəzifə Xosrov Paşa bəy Sultanova həvalə olunmuşdu.

Müharibə dövründə cəmiyyətin onlarla şəhərdə məntəqələri fəaliyyət göstərirdi. Qars, Ərzurum və Tiflisdə xüsusi şöbələri açılmış, bu şəhərlərdə onun müvəkkilləri çalışırdı. Cəmiyyətin nəzdində "Fəlakət və hərbzədələrə yardım şöbəsi" yaradılmışdı.

Rusiyada Fevral inqilabından (1917) sonra BMXC müsəlman ictimaiyyətinin əsas dayaq nöqtəsi olmuşdur. 1917 il martın 9-da cəmiyyətin binasında Bakının bütün müsəlman təşkilatlarının və müsəlman ictimaiyyəti nümayəndələrinin yığıncağı keçirilmiş və Müvəqqəti hökumətlə həmrəylik haqqında qətnamə qəbul olunmuşdu.

Cəmiyyət Azərbaycan Xalq Cümhuriyyəti dövründə də fəaliyyətini davam etdirmişdir. Bu dövrdə cəmiyyətin sədri Qasım Qasımov olmuşdur. Cəmiyyət qaçqınlara, yaralı türk əsgərlərinə yardım göstərirdi. Qaçqınlar İçərişəhərdəki keçmiş əsgər kazarmasında, "Səfa" məktəbində, qaçqın uşaqları isə yetimxanalarda yerləşdirilmişdi. 1919 ilin yayında BMXC Bakını azad edərkən (1918, sentyabr) şəhid olmuş əsgərlərin qəbri üzərində abidə qoyulması və oraya Şollar su kəməri xəttinin çəkilməsi təklifi ilə çıxış etmişdi.

Cəmiyyət 1920 ilin əvvəlində Azərbaycan Xalq Cümhuriyyəti Xalq Maarifi Nazirliyinə ərizə ilə müraciət edərək, müsəlman yetimxanalarında dərzilik, çəkməçilik, xarratlıq sənətləri üzrə peşə emalatxanalarının yaradılmasını xahiş etmişdi. BMXC Azərbaycanın ictimai-siyasi, sosial və mədəni həyatında əhəmiyyətli rol oynamışdır.

*Əd.:* Cavadov C, Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə), B., 1999; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Гусейнова Л. Дж., Деятельность неправительственных общественных организаций в период АДР (1918-1920), автореф. Канд. Дисс., Б., 1996.

**BAKI MÜSƏLMAN İCTİMAİ TƏŞKİLATLARI KOMİTƏSİ** - Rusiyada Fevral inqilabından (1917) sonra baş verən proseslərdə müsəlmanların fəallığını təmin etmək, Azərbaycan milli qüvvələrini birləşdirmək məqsədilə təsis olunmuş qurum.

1917 il martın 29-da yaradılmışdı. Komitənin sədri Məmməd Həsən *Hacınski,* müavini Məhəmməd Əmin *Rəsulzadə* idilər. Komitənin "Kaspi" qəzetində dərc olunmuş "Müsəlmanlara!" müraciətində onun təşkil olunması səbəbləri izah edilir, müsəlman təşkilatlarının birləşməsinin zəruriliyi vurğulanırdı. Komitə bütün müsəlmanları şəxsi incikliklərı, ixtilafları unudub, milli-siyasi şüarlar ətrafında birləşməyə çağırırdı: ***"Əldə edilmiş azadhğı qorumaq və ondan məqsədə uyğun surətdə istifadə etmək iiçün birləşmək lazımdır".*** Müvəffəqiyyəti yalnız "İttihad və təşkilat yolunda" görən Komitənin qarşısına qoyduğu ən yaxın vəzifələrdən biri, özünün proqram məqsədlərini müəyyən etmək üçün ümummüsəlman qurultayını çağırmaq idi. Komitənin qurultay ərəfəsində Qafqaz müsəlmanlarına müraciətində deyilirdi: "Komitə ümummüsəlman qurultayı çağırılmadan, özünün milli-siyasi proqramını irəli sürməkdən imtina edir, lakin millətlərin mənafeyini ən yaxşı təmin edə biləcək dövlət idarəçiliyi haqqında fikrini məhz indi bildirməyi zəruri sayır... Belə bir idarə forması, söz yox ki, yalnız demokratik respublikadır".

Komitənin təşkili yerlərdə milli komitələrin yaranması prosesinə təkan verdi. Bu, xalq kütlələrinin maariflənməsində, birləşməsində mühüm rol oynadı. 1917 il mayın 21-də ərzaq komitələrinə keçirilən seçkilər komitənin nüfuzunu nümayiş etdirdi. Komitənin siyahısına 25550 səs, yəni səslərin ümumi sayının 51,6%-i verilmişdi. Bakı şəhərinin azərbaycanlı əhalisinin, demək olar ki, hamısı yekdilliklə komitənin siyahısına səs vermişdi. Komitənin uğuru digər siyasi qüvvələri, xüsusən eser-menşevikləri təşvişə salmışdı.

Fevral inqilabından sonrakı ilkin mərhələdə komitə və yerlərdəki milli qurumlar Azərbaycan milli hərəkatının təşkiledici və əlaqələndirici mərkəzi funksiyasını yerinə yetirirdi. Komitənin mətbuat orqanının nəşri haqqında "Kaspi" qəzetinin redaksiyası ilə əldə edilən razılığa əsasən, 1917 il 30 aprel tarixli 95-ci sayından etibarən qəzetin 4-cü səhifəsi "Bakı müsəlman ictimai təşkilatları komitəsinin xəbərləri" adı ilə çıxmağa başladı. "Xəbərlər"in müvəqqəti redaktoru iyunun 9-dan Ceyhun Hacıbəyli oldu.

*Qafqaz müsəlmanlarımın qurultayında (1917)* Qafqazda müsəlman milli komitələrinin və onların rəhbər orqanlarının təşkili haqqında qəbul edilən qərara görə, Cənubi Qafqaz üzrə Mərkəzi Büronun yaradılması Bakı Müsəlman İctimai Təşkilatlarının Komitəsinə tapşırılmışdı. Bu qərarı gerçəkləşdirmək üçün komitə Bakı Müsəlman İctimai Təşkilatları Şurasına çevrildi.

Şuranın tərkibinə əlavə olaraq müxtəlif müsəlman milli partiyalarının, ictimai-siyasi təşkilatların, mədəni-maarif müəssisələrinin və həmkarlar ittifaqlarının üzvləri daxil edildi. Şuranın tərkibinə siyasi partiyaların hər birindən üç, həmkarlar ittifaqlarının hər biri iki, rayon komitələri bir, mədəni-maarif və xeyriyyə cəmiyyətləri hər biri iki nümayəndə göndərdilər. Bundan əlavə, şəhər və kənd kooperativlərinin, neft sənayeçilərinin, tacirlərin, ziyalıların, tələbələrin, ruhanilərin, Bakı qarnizonu müsəlman əsgərlərinin təmsilçiləri Şuranın tərkibinə daxil oldular. 33 nəfər üzvdən ibarət bu şuranın tərkibinə "hümmət"çilər daxil edilmədilər. Şuraya nümayəndələrin seçkiləri gizli səsvermə ilə aparılırdı. Bakı Müsəlman İctimai Təşkilatları Şurasının rəhbər orqanları Komitə və İcraiyyə bürosu olmuşdur. 1917 il iyulun 12-də Komitənin sədri Əlimərdan bəy Topçubaşov, onun müavinləri Məmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadə, katibi isə Mir Həsən Vəzirov seçildilər. Azərbaycanın gələcək quruluşu problemi komitənin fəaliyyətində başlıca məsələ olmuşdur. Müsəlman milli komitəsinin sədri Əlimərdan bəy Topçubaşov 1917 il avqustun 12-də Moskvada A.F.Kerenskinin sədrliyi ilə keçirilən ümumrusiya müşavirəsində iştirakı zamanı, Rusiya müsəlmanları adından çıxış etmiş, həmin mərhələdə Rusiya müsəlmanlarının milli-mədəni muxtariyyət məsələsini, Müəssislər məclisi toplaşandan sonra isə müsəlman xalqlarının öz müqəddəratını təyin etməsi haqqında məsələ qaldıracaqlarını bildirmişdi.

Komitə əhalini narahat edən bir çox məsələlərlə məşğul olmuşdur: ticarət, kənd təsərrüfatı, təhsil və s. Kadr məsələlərinin həllinə də müdaxilə etmişdir. Belə ki, Müsəlman Komitəsi Petroqradda Qafqaz işləri üzrə komissarlıqda ermənipərəstliyi ilə məşhur olan Yevanqulovun təyinatına qarşı çıxmış, antimüsəlman mövqeyi ilə seçilən V.N.Taranovskinin və başqalarının hökumət strukturlarından kənarlaşdırılması məsələsini qoymuşdur. Müsəlman Komitəsinin aktiv fəaliyyəti sayəsində Azərbaycanın icra strukturlarının əksəriyyətinə azərbaycanlılar yerləşdirilmişdi.

1917 il sentyabrın 5-də Bakı Müsəlman İctimai Təşkilatları Şurasına əlave seçki keçirilmiş, şurada fəhlə və kəndli nümayəndələrinin sayı artmışdı. Lakin onların sayının yeni qaydaya görə 60 nəfər nəzərdə tutulduğu halda, 25 nəfər olması eser, "Hümmət", "Birlik" təşkilatlarının etirazına səbəb oldu. Seçilənlər arasında ziyalıların nümayəndələri də vardı. Şuranın mədəni-maarif bölməsi seçilmişdi. "Qaladakı Xan sarayı"nın (Şirvanşahlar sarayı) müsəlman komitəsinin sərəncamına vermək təklif olundu.

Bakı Müsəlman İctimai Təşkilatları Şurasının İcraiyyə Komitəsi 1917 il avqustun 29-da Kornilov əksinqilabi qiyamını qətiyyətlə pisləyərək, Müvəqqəti hökuməti tam müdafiə etdiyini bildirdi. "Müsavat" partiyasının 1917 ilin oktyabrında keçirilən birinci qurultayı Azərbaycanın ictimai-siyası həyatında əhəmiyyətli hadisə oldu. Müsəlman Milli Komitəsinin sədri Əlimərdan bəy Topçubaşov qurultaydakı çıxışında bəyan etdi ki, Milli Komitənin arzu və məqsədlər "Müsavat"ın arzu və məqsədləri ilə tamamilə uyğun gəlir. Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi ilə "Müsavat" partiyasının proqramları üst-üstə düşdüyündən onlar 1917 ili oktyabrında Bakı şəhər dumasına seçkilərə vahid siyahı il gedirdilər. *Oktyabr çevrilişindən (1917)* sonra Milli Komitə Rusiyadakı bolşevik hökumətinin hakimiyyətini tanımadı, hakimiyyətin ümumrusiya Müəssislər məclisinə verilmə tərəfdarı kimi çıxış etdi. 1917 il noyabrın 9-12-də "Müsavat" partiyasının rəhbərliyi altında Cənubi Qafqazın müsəlman milli komitələrinin konfransı keçirildi. Konfrans millətlərin öz müqəddəratlarını təyin etmə hüququnun həyata keçirilməsinə tərəfdar olduğunu bildirdi. Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi konfransının qərarına görə, Azərbaycan Məclisi-Müəssisanını bir ay ərzində toplamalı idi.

Milli şuraların vətənpərvər qüvvələri öz ətrafında birləşdirib, yerlərdə hakimiyyəti ələ aldıqları halda, Bakı Müsəlman Şurasının vəziyyəti çətin idi. Onun qarşısını bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kimi güclü bir rəqib kəsmişdi. Milli hərbi hissələrin yaradılması yerli milli şuraların əsas fəaliyyət istiqamətlərindən biri idi. Fevral inqilabından (1917) sonra müsəlman amilinin Qafqazda, Azərbaycanda, xüsusən də Bakıda hər hansı dərəcədə güclənməsinin qarşısını almaq məqsədilə bir çox qüvvələr, xüsusilə ermənilər və ruslar müsəlmanların silahlanması haqqında yalan şayiələr yaymağa başlamışdılar. Bununla əlaqədar Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi öz mətbu orqanı olan "Xəbərlər"də dəfələrlə təkzib bəyanatları verməli olmuşdu. Bolşeviklər hakimiyyətə gəldikdən sonra da azərbaycanlıların milli hərbi hissələr yaratmaq prosesinə əngəl törədilir, üstəlik, azərbaycanlı əhali, əsassız olaraq, zorakılığa məruz qalırdı. 1917 ilin dekabrında Dağıstanda antibolşevik qiyamı ilə əlaqədar Şimali Qafqazdan taxıl gətirilməsinin dayanması səbəbindən Bakıda yaranan ərzaq qıtlığı şəhərin müsəlman əhalisinin antiazərbaycan silahlı dəstələri tərəfindən kütləvi şəkildə ərzaq müsadirəsinə, qarətə, zorakılığa məruz qalması ilə nəticələndi. Azərbaycanlılar etiraz əlaməti olaraq 1917 il dekabrın 13-də "İsmailiyyə" binasında izdihamlı mitinq keçirib, Milli Komitədən şəhərdə qayda-qanun yaradılmasını, azərbaycanlıların mənzillərində özbaşına axtarışlara, talanlara son qoyulmasını tələb etdilər.

Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə mitinqdə Milli Komitənin beş nəfərdən ibarət komissiyasının seçilməsi və komissiyanın Hərbi-İnqilabi Komitə ilə birlikdə qəbul edilən qərarların həyata keçirilməsi üçün lazımi tədbirlər görməsi barədə qətnamə qəbul olundu. Həmin gün, dekabrın 13-də Milli Komitənin təcili iclası keçirilmiş, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, B.Aşurbəyov, İbrahim Heydərov və Məmməd Həsən Hacınskidən ibarət komissiya seçilmişdi. Komissiya üzvlərinin Bakı Soveti İcraiyyə Komitəsi ilə əlbir fəaliyyəti nəticəsində hərbi-inqilabi komitə azərbaycanlı əhaliyə qarşı törədilmiş qanunsuz hərəkətləri pisləmişdi. Müsəlman Komitəsinə ciddi siyasi rəqib kimi baxan bolşeviklər Azərbaycanın muxtariyyəti ideyasına qarşı qətiyyətlə mübarizə aparırdılar. S.Şaumyanın "milli komitələrə" qarşı əsas ittihamı bu komitələrin "müsəlman qoşunları yaratmaq və Bakı, Yelizavetpol və İrəvan quberniyalarında yeni müsəlman dövləti elan etmək" niyyəti ilə bağlı idi. 1918 ilin fevralında Şaumyan Cənubi Qafqazda mövcud olan iki real hakimiyyəti qarşı-qarşıya qoymuşdu: "demokratik təşkilatlar" və "milli komitələr". Bolşeviklərin Müsəlman Milli Komitəsinə qarşı apardığı mübarizə 1918 ilin martında türk-müsəlman əhaliyə qarşı kütləvi soyqırımı ilə nəticələndi.

Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi Azərbaycan siyasi qüvvələrinin rəhbər orqanına çevrilmiş, Azərbaycan milli hərəkatında görkəmli rol oynamışdır. Komitə mürəkkəb tarixi şəraitdə Azərbaycan xalqının maraqlarını ifadə və müdafiə etmişdir. Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin təbii varisi 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan edən *Azərbaycan Milli Şurası* oldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Агамалиева Н.А., "Комитет Бакинских мусульманских общественных организаций в политической системе Азербайджана в 1917 г.", в кн.: Труды научной конференции, посвященной дню восстановления Азербайджанской государственности, Б., 1991; Балаев А., Азербайджанское национальное движение 1917-1918 гг., Б., 1998; Гасанов Г., Комитет Бакинских мусульманских организаций, "Tarix və onun problemləri", Б., 2003, №2.

**BAKI MÜSƏLMAN QADIN XEYRİYYƏ CƏMİYYƏTİ** - valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım etmək məqsədilə yaradılmış qeyri-hökumət xeyriyyəçilik qurumu. 1914 il noyabrın 21-də təsis edilmişdi. Təsisçisi Rəhilə Hacıbababəyova idi. M.S.Tağıyeva cəmiyyətin idarə heyətinin sədri, Rəhilə Hacıbababəyova sədrin müavini, Əminə Ağayeva katib, Pəri Topçubaşova xəzinədar seçilmişdilər. Cəmiyyət xəstə və yaralı əsgərlərə, yetim və yoxsul uşaqlara yardım göstərir, tez-tez müxtəlif tədbirlər keçirirdi.

Rəhilə xanım Hacıbababəyova. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin təsisçisi





*Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin fəalları*

Cəmiyyət Birinci dünya müharibəsi (1914-18) illərində Rusiyaya əsir düşmüş yaralı türk əsgərlərinə də yardım göstərmişdir. 1917 ilin oktyabrında Liza xanım Muxtarovanın (neft sənayeçisi, milyonçu Murtuza Muxtarovun həyat yoldaşı) sədrlik etdiyi Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti yoxsul qızlar üçün peşə məktəbi açmışdı. Məktəbdə 4 ümumtəhsil sinfi və 6 peşə bölməsi fəaliyyət göstərirdi. Türk dili, hesab, əl işi, biçmə və tikiş üzrə dərslər keçilirdi. 1918 ilin qanlı mart qırğınları zamanı məktəb öz fəaliyyətini dayandırmışdı. 1919 ilin əvvəllərində cəmiyyət məktəbin işini yenidən bərpa etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti məktəbin səmərəli işləməsi üçün cəmiyyətə 30 min manat vəsait ayırmışdı. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynamışdır. *Aprel işğalından (1920)* sonra cəmiyyət fəaliyyətini dayandırmışdır.

*Əd.:* Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Гусейнова Л. Дж., Деятельность неправительственных общественных организаций в период АДР (1918-1920), автореф. Канд. Дисс., Б., 1996.

**BAKI MÜSƏLMAN MAARİF CƏMİYYƏTİ** – 20 əsrin əvvəllərində Azərbaycanda çarizmin müstəmləkə əsarətinə qarşı milli azadlıq hərəkatının geniş vüsət aldığı şəraitdə yaradılmış (1906) maarifçilik cəmiyyəti (bax *"Nicat"* mədəni-maarif cəmiyyəti).

**BAKI NEFT CƏMİYYƏTİ** - Bakıda neft hasilatı, emalı və satışı ilə məşğul olan qurum. 1874 ildə "V.A.Kokorevin Zakaspi ticarət şirkəti"nin əsasında yaradılmışdı. İdarə heyəti Sankt-Peterburqda, kontoru isə Bakıda yerləşirdi. Bakıda çoxlu mədənləri, neft emalı zavodları və nəqliyyat vasitələri vardı.

**BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYI ŞURASI (BNSQŞ)** - neft sənayeçiləri qurultayının daimi rəhbər orqanı, Rusiya burjuaziyasının ilk sahibkar təşkilatlarından biri. 1884 ildə Bakı neft sənayeçilərinin 1-ci qurultayında seçilmişdi. Şuraya ən iri neft şirkətlərinin nümayəndələri seçilirdilər. Şura qurultayların qərarlarını həyata keçirir, növbəti qurultayın proqramını tərtib edir və onu hökumət orqanlarının təsdiqinə verirdi. Şura, fəaliyyəti haqqında qurultaylara hesabat verir, neft sənayeçilərinin mənafeyini hökumət qarşısında müdafiə edir və neft maqnatlarının yüksək gəlirlərinin təmin olunmasına çalışırdı. 1890 ilin sonlarından şuranın Peterburqda daimi nümayəndəsi vardı.1899 ildən Şuranın orqanı *"Neftyanoye delo"* jurnalı nəşrə başladı. Şuranın statistika bürosu hər il "Obzorı Bakinskoy neftyanoy promışlennosti" ("Bakı neft sənayesinin icmalı") və s. çap edirdi. Şura fəhlə hərəkatına qarşı mübarizənin təşkili ilə də məşğul olurdu. 1918 ildə *Bakı Xalq Komissarları Soveti* (BXKS) Şuranın fəaliyyətinə nəzarəti ələ aldı. BXKS-nin neft müəssisələrinin və Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekretlərindən sonra BNSQŞ-nın Sovet hakimiyyətinə qarşı münasibəti kəskinləşdi və o, iqtisadi sahədə yeridilən siyasətə açıq etiraz etməyə başladı. "Sentrokaspi diktaturası" hakimiyyətini dəstəkləyən BNSQŞ xüsusi mülkiyyətin saxlanmasını, mənfəətinin artırılmasını milli və dövlətçilik dəyərlərindən üstün tutmuşdur. BNSQŞ-nın Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə münasibətləri sonadək gərgin səciyyə daşımışdır. Azərbaycan Parlamentində Şuranın nümayəndəsi var idi. Sovet Rusiyasına neft məhsullarının göndərilməsinə qadağa qoyulması ilə Rusiya bazarından məhrum olan Bakı neft sənayesi böhran vəziyyətinə çatmışdı.

BNSQŞ vəziyyətdən çıxmaq məqsədilə Cümhuriyyəti hakimiyyətinə tam etimadsızlıq göstərərək, ingilislərə müraciət etmiş, keçmiş Rusiya dövlətçiliyini bərpa etmək tərəfdarları ilə həmrəy olmuşdur. 1919 ilin payızında neft sənayesində böhran son həddə çatdıqda, BNSQŞ, demək olar ki, Hökumətə müxalif bir quruma çevrilmişdi.

Bu zaman neft sənayeçilərinin XXXVII qurultayı (1919 il, 30 sentyabr - 9 oktyabr ) keçirilmiş və *M.Əsədullayev*

(sədr), L.Manço, D.Landau, Y.Umansev, M.Səlimov, N.Vanebu, Q.Pokrovski, Q.Qurqenidze, A.Tağıyev, S.Ter-Krikoryandan ibarət tərkibdə Şura seçilmişdi. Artıq 1920 ilin yazı üçün BNSQŞ-in Hökumətdən təkidlə tələb etdiyi Həştərxan yolu açılsada, Şuranın fəaliyyəti də sona çatdı. Belə ki, *Aprel işğalından (1920)* az sonra *Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin* neft sənayesini milliləşdirmək haqqındakı 1920 il 27 may tarixli dekreti ilə Şura ləğv olundu.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.2, B., 1964; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Монополисческий капитал в нефтяной промышленности России (1883-1914).Документы и материалы, Москва – Ленинград, 1961; həmin adda (1914-17, M. – Л.,1973.

**BAKI POLİSMEYSTERLİYİ** - Bakı şəhərində asayişi və qayda-qanunu qoruyan qurum. Bakı qradonaçalnikliyi (şəhər rəisliyi) haqqında Rusiya senatının 1906 il 28 oktyabr tarixli müvəqqəti Əsasnaməsinə uyğun olaraq, Bakı şəhər polis idarəsi əsasında yaradılmışdı. Bakı polismeysterliyi 1907 il yanvarın 1-dən, Balaxanı-Sabunçu polis idarəsi ilə yanaşı, Bakı şəhər rəisliyinin polisi funksiyasını yerinə yetirirdi. 1917 ildə Bakıda sovet hakimiyyəti elan edilməsi ilə əlaqədar ləğv olunmuşdu. Cümhuriyyət dövründə, yerli idarəçiliyin təşkilinə qədər Rusiya qanunlarının Azərbaycan Xalq Cümhuriyyəti ərazisində qüvvədə saxlanması haqqında Azərbaycan Hökumətinin 1918 il 23 iyun tarixli qərarından sonra Bakı polismeysterliyi yenidən fəaliyyətə başlamışdı.

Bakı qubernatorunun tabeliyində olan Bakı polismeysterliyi nəzdində polismeysterin adından, yaxud onun, ya da köməkçisinin göstərişi ilə yazışmalar aparan idarə - dəftərxana vardı.

Bakı polismeysterliyi 11 polis məntəqəsinə (Bayıl, Aleksandr Nevski, İçərişəhər, Şamaxı, Mərkəz, Mixaylov, Romanov, Qanlıtəpə, Zavağzal, Qaraşəhər, Liman) bölünmüşdü. Məntəqələrə sərəncamlarında qorodovoylar olan pristavlar başçılıq edirdilər. Pristavlar qayda-qanunun, təhlükəsizliyin təmin olunması və abadlıq işləri üçün məsuliyyət daşıyırdılar.

1919 il aprelin 25-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti guya Bakı şəhərində ermənilərə qarşı zorakılıq hallarının baş verməsi ilə əlaqədar aparılmış təhqiqatlar barədə Bakı polismeysterinin məlumatını müzakirə etmişdi. Daxil olmuş ərizələrin tam əksəriyyətinin əsassız və böhtan olduğu aşkara çıxarıldı. Hökumət daxili işlər nazirinə tapşırmışdı ki, görülmüş tədbirlərdən asılı olmayaraq, yalan və əhali arasında gərginlik yaradan şayiələrin yayılmasında təqsirli bilinən şəxslər məhkəmə məsuliyyətinə cəlb edilsinlər.

1919 il iyunun 11-də Azərbaycan Hökuməti Bakı şəhər polisinin ştatlarını artırmaq barədə qərar qəbul etmişdi. Pristavların təyin olunması və işdən azad edilməsi qubernatorun səlahiyyətinə daxil idi, qalan polis işçilərini isə polismeysterin özü təyin və azad edirdi. Rüstəm bəy Mirzəyev Bakı polismeysteri təyin olunmuşdu.

**BAKI POLİTEXNİK MƏKTƏBİ** - orta ixtisas təhsili müəssisəsi. Məktəb bütün Cənubi Qafqaz sənayesi üçün texniklər və ixtisaslı ustalar hazırlayırdı. Qafqaz tədris dairəsinin 1888 il 26 aprel tarixli sərəncamı ilə həmin ilin iyulundan şəhər sənət məktəbi kimi fəaliyyətə başlamış, 1896 il sentyabrın 1-dən Bakı ibtidai mexanika-kimya-texnika məktəbinə çevrilmişdi.

1897 il oktyabrın 18-dən məktəbin nəzdində yerli əhali içərisindən yaşlılar üçün pulsuz kurslar açılmışdı. Kurslara yardım məqsədilə məktəbdə xeyriyyə konsertləri təşkil olunur, həvəskar aktyorlar tamaşalar göstərirdilər. 1901 ilin iyulundan məktəbdə kimya bölməsi əvəzində tikinti bölməsi açılmışdı. 1913 ilin yanvarından isə Bakı Politexnik Məktəbi Bakı Alekseyev orta mexanika və tikinti-texniki məktəbi adlanırdı.

1909 ilin yanvarından məktəbin nəzdində heykəltəraşlıq - daşyonma şöbəsi, 1911 ildən isə sürücülər kursu açılmışdı.1917 il mayın 30-dan üç şöbədən (neft sənayesi, elektromexanika və memarlıq-inşaat) ibarət politexnikuma çevrilmiş və Bakı politexnik məktəbi adlanmışdı.

**BAKI RAYONU FƏHLƏ DEPUTATLARI SOVETİ (BRFDS)** - 1917 il martın 7-də təşkil olunmuşdu. Sovetin təşkili və vəzifələri haqqında martın 8-də elan olunmuş müraciətdə bildirilirdi ki, Bakı fəhlələrinin 2/3-dən çoxu seçkilərdə iştirak etmişdir. Sovetin tərkibinə 52000 fəhlə və qulluqçu tərəfindən seçilən və əksəriyyəti ermənilərdən ibarət olan 52 deputat (9 nəfəri bolşevik, qalanları isə menşevik və eser idi) daxil idi. BRFDS fəhlə deputatları sovetinin icraiyyə komitəsini və komitəyə rəhbərlik üçün sədr, iki müavin və iki katibdən ibarət rəyasət heyəti seçmişdi. Sovetin birinci iclasının sədri menşevik Q.Ayollo, katibi isə o zaman hələ menşevik olan M.N.Mandelştam idi. Martın 8-də Şaumyan qiyabi olaraq sovetin sədri seçildi. Sovetin İcraiyyə komitəsinə iki bolşevik (İ.Fioletov və İ.Ter-Qabrielyan) və bir eser (V.İ.Soçnev) daxil idi. BRFDS özünü Bakı fəhlələrinin yeganə səlahiyyətli orqanı hesab edirdi. Sovet öz fəaliyyətini Petroqrad FDS və bütün Rusiya fəhlələrinin fəaliyyəti ilə uyğunlaşdırmaq niyyətini bildirmiş, sırf yerli xarakterli hər cür çıxışların əleyhinə olduğunu, Bakı qarnizonunun ordu və donanmasının BRFDS ilə həmrəyliyinə nail olmaq vəzifəsini elan etmişdi. BRFDS icraiyyə komitəsinin ilk müraciəti "Yaşasın Müəssislər məclisi! Yaşasın demokratik respublika!" şüarları ilə bitirdi.

Martın 7-də Bakı qarnizonunun əsgər və zabit deputatları sovetləri də yaradıldı və martın sonlarında vahid hərbi deputatlar soveti halında birləşdilər. Sovetlərdə əksəriyyət menşeviklərə, eserlərə məxsus idi.

BRFDS 1917 il mayın 1-dən Bakı rayonunda 8 saatlıq iş günü qoyulmasını özünün ilk qələbəsi hesab etmişdi. Mayın 10-da BRFDS ilə hərbi deputatlar sovetinin birgə iclasında bu sovetlər birləşdi və Bakı fəhlə və hərbi deputatları soveti yaradıldı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi (sənədlər, materiallar, 1917-1918-ci illər), B., 1960.

**BAKI SOVETİ (BS)** - Bakıda fəaliyyət göstərmiş hakimiyyət orqanı (1917, mart - 1918, 31 iyul). Rusiyada Fevral inqilabından (1917) sonra Bakıda və digər şəhərlərdə ikinci hakimiyyət orqanı kimi fəhlə və əsgər deputatları sovetləri yaradılırdı. *Bakı rayonu Fəhlə Deputatları Soveti* ilə hərbi deputatları sovetinin birləşməsi nəticəsində yaradılan BS onların içərisində ən nüfuzlusu hesab edilirdi. Sovetin tərkibində azərbaycanlılar yox dərəcəsində idi. Onun tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və ruslardan ibarət idi. Eser-menşevik-daşnak blokunun rəhbərlik etdiyi bu sovet "vahid və bölünməz Rusiya" ideyasını təbliğ edirdi. Sovetin fəaliyyəti Azərbaycan xalqının milli mənafeyinə zidd idi. Bakı bolşevikləri Sovetdə rəhbərliyi ələ almaq üçün gərgin mübarizə aparırdılar. Bolşeviklər Petroqradda hakimiyyəti ələ keçirən kimi, 1917 il oktyabrın 27-də BS-nin fövqəladə yığıncağı keçirildi. Sovetin eser-menşevik-daşnak bloku, bolşeviklərin kəskin etirazına baxmayaraq, 168 səsə qarşı 246 səslə Bakıda, ali hakimiyyət orqanı kimi, İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərarın qəbul edilməsinə nail oldu. Sovet Oktyabr çevrilişinin (1917) dinc yolla ləğvini tələb edirdi. Sovetin bu qərarı ilə razılaşmayan bolşeviklər, mədən-zavod komitələri üzvlərinin dəstəyinə arxalanaraq, oktyabrın 31-də Sovetin geniş iclasını çağırdılar. Onları müdafiəyə gələnlərin sayı Sovetin üzvlərindən xeyli çox idi. Hakimiyyətin sovetlərə keçməsi ilə razılaşmadıqlarını bildirən menşevik və eserlərin iclas zalından çıxıb getməsi bolşeviklərə olduqca sərfəli idi. İclas Bakı rayonunda bütün hakimiyyətin BS-nə keçməsi haqqında qətnamə qəbul etdi. Noyabrın 2-də bolşeviklər öz mövqelərini daha da möhkəmləndirmək məqsədilə yenidən bütün hakimiyyətin Sovetə verilməsi məsələsini qoydular, geniş iclas çağırmaq taktikasından bir daha istifadə edərək, siyasi qüvvələr nisbətini öz xeyirlərinə dəyişə bildilər. Sovetin eser-menşevik fraksiyası bolşeviklərsiz yeni icraiyyə komitəsi yaradılmasının zəruriliyi qənaətinə gələrək, icraiyyə komitəsindən çıxdığını elan etdi.

BS-nin 2 noyabr tarixli iclasında Sovetin icraiyyə komitəsi Bakıda ali hakimiyyət orqanı elan olundu. Həmin iclasda Bakı fəhlə və hərbi deputatları sovetinin adının dəyişdirilərək, Bakı fəhlə və əsgər deputatları soveti adlandırılması qərara alındı. Sovetin icraiyyə komitəsinin bolşeviklərdən ibarət yeni tərkibi seçildi. İcraiyyə komitəsinin sədri Şaumyan oldu. Eser və menşeviklərlə "müsavat"çılar arasındakı ziddiyyətlərdən istifadə edən bolşeviklər BS-də əsas vəzifələri asanlıqla ələ keçirə bildilər. Bakının digər siyasi hakimiyyət strukturları Sovetin təkhakimiyyətliliyinə əngəl törətdiyindən BS 1917 il noyabrın 12-də İctimai Təhlükəsizlik Komitəsinin, noyabrın 21-də isə *İctimai Təşkilatların İcraiyyə Komitəsinin* ləğvinə nail oldu. Lakin Fətəli xan Xoyskinin rəhbərlik etdiyi *Bakı şəhər duması* BS-nin rəqibi olaraq qalırdı. 1917 il dekabrın 12-13-də dəyişdirilmiş seçki qaydası əsasında BS-nə keçirilən seçkilərdə bolşeviklər səs çoxluğu qazandılar. "Müsavat" parti-yası Sovetin demokratik əsaslarda seçilmədiyinə etiraz etsə də, sonradan hakimiyyəti Sovetə vermək və icraiyyə komi-təsinə daxil olmaq qərarına gəldi. Beləliklə, Bakı Sovetinin yeni icraiyyə komitəsinə 6 bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 "müsavat"çı daxil oldu. 1917 ilin dekabrında S.Şaumyanın V.İ.Lenin tərəfindən Qafqaz işləri üzrə xüsusi komissar təyin edilməsi ilə əlaqədar olaraq BS-nin sədri vəzifəsini P.A.Caparidze tutdu. BS Azərbaycan milli qüvvələrinə qarşı mübarizə xətti yeritdi. Bu 1918 ilin yazında müsəlman əhalisinin kütləvi qırğınları ilə nəticələndi (bax *Mart soyqırımı).* BS-nin "Daşnaksutyun" və Erməni Milli Şurası ilə əlbir fəaliyyəti Azərbaycan milli hərəkatına qarşı yönəlmişdi. Azərbaycanın muxtariyyəti ideyasının qatı düşməni olan bolşeviklər, "Daşnaksutyun" və Erməni Milli Şurası daşnak hərbi qüvvələrini dinc türk-müsəlman əhalisi üzərinə qaldıraraq, kütləvi soyqırımları törətməklə Azərbaycan milli düşüncəsini və onun daşıyıcılarını məhv etmək yolunu tutdular. 1918 ilin mart soyqırımında türk-müsəlman əhaliyə qanlı divan tutulduqdan sonra, Bakı şəhərində və onun neft-mədən rayonunda BS-nin hakimiyyəti gücləndi. Bu zaman Bakı fəhlə, əsgər və matros deputatları sovetinin köhnə tərkibi hələ qalırdı. Belə çoxpartiyalı tərkib isə bolşevikləri qane etmirdi. Onlar yalnız sol eserlərə və "beynəlmiləlçi" daşnaklara üstünlük verirdilər.

1918 il aprelin 25-də Bakı fəhlə, əsgər və matros deputatları sovetinin iclasında *Bakı Xalq Komissarları Soveti* təşkil olundu. Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejimi "sovet hakimiyyəti" adı altında "qanuni status" aldı.

*Əd:* Azərbaycan tarixi, 3 cilddə, c. 3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Azərbaycan Kornmunist Partiyası tarixinin oçerkləri, B., 1964; İbrahimov Z., Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər), B., 1957.

**"BAKI SOVETİNİN XƏBƏRLƏRİ",** "Bakı Ətrafı Fəhlə, Əsgər və Matros Şurasının Əxbarı" - Bakı Sovetinin orqanı olmuş gündəlik bolşevik qəzeti. 1918 il aprelin 17-dən iyulun 31-dək nəşr edilmişdir. İlk qoşa nömrəsi 1918 il aprelin 17-də Azərbaycan dilində Bakıda buraxılmışdır. 6 nömrəsinin (4-9) 2 səhifəsi Azərbaycan, 2 səhifəsi isə erməni dilində çıxmışdır. 50-ci nömrədən "Bakı ətrafı fəhlə, qırmızı əsgər, matros və kəndli şurasının əxbarı" adı ilə nəşr olunmuşdur. Qezet Za-qafqaziya komissarlığının və Zaqafqaziya seyminin milli siyasətinə qarşı çıxış edir, azərbaycanlılara qarşı milli ayrıseçkilik və düşmənçilik təbliğatı aparır, 1918 ilin mart soyqırımına haqq qazandırır, soyqırımı hadisələrindən sonra ölkənin Qafqaz İslam Ordusunun birləşmiş Azərbaycan-türk hərbi qüvvələrindən "qətiyyətlə müdafiə olunması"nı təbliğ edirdi. Qəzetin sonuncu 86-cı nömrəsi iyulun 31 -də buraxılmışdır. Bakıda daşnak-bolşevik hakimiyyətinin süqutundan sonra nəşri dayandırılmışdır.

**BAKI SOVETİNİN 25 İYUL QƏTNAMƏSİ** 1918 il iyulun 25-də Bakı Sovetinin fövqəladə geniş iclasında ingilis qoşunlarının Bakıya dəvət olunması barədə qəbul olunmuş qətnamə. İclasda Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan siyasi və hərbi vəziyyət haqqında məruzə etdi.

Daşnaklar, menşeviklər və eserlər ingilis qoşunlarının Bakıya dəvət edilməsi haqqında məsələ qaldırdılar. Bu, Bakı neftinin Sovet Rusiyasının əlindən çıxması təhlükəsi yaradırdı. Odur ki, Şaumyan V Ümumrusiya Sovetlər Qurultayının qərarlarını yerinə yetirərək, həmin məsələnin müzakirədən çıxarılmasını tələb etdi. Elə həmin gün Rusiya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri Y.M.Sverdlov da Bakı Sovetinə teleqram göndərərək, "Bakı Sovetinin, bütün fəhlələrin, ordunun, donanmanın qurultayın qərarına, habelə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin göstərişlərinə danışıqsız tabe olmalarını qəti tələb etmişdi". Buna baxmayaraq, iclas Şaumyanın təklifini rədd etdi. M.Əzizbəyov, P.Çaparidze, Y.Zevin və b. bolşeviklər çıxış edərək, ingilislərin Bakıya çağırılmasının qəti əleyhinə çıxdılar. İclasda biri sol daşnakların, sol eserlərin və bolşeviklərin, digəri isə sağ eserlərin olmaqla, iki qətnamə layihəsi səsə qoyuldu. Sol daşnaklar, bolşeviklər və sol eserlərin qətnaməsində yeni hərbi səfərbərliyin keçirilməsi, Bakının müdafiəsini gücləndirmək məqsədilə qoşun göndərilməsi üçün Rusiyaya müraciət edilməsi, ingilislərin dəvət olunması lehinə hər cür təşviqata son qoyulması nəzərdə tutulurdu.

Bolşeviklərin bütün cidd-cəhdlərinə baxmayaraq, ingilis qoşunlarının Bakıya dəvət edilməsi haqqında sağ eserlərin qətnamə layihəsi azacıq səs çoxluğu ilə (236 səsə qarşı 259 səslə) qəbul edildi. Qətnamə qəbul edildikdən sonra elan olunmuş fasilə zamanı Bakı Sovetinin bolşevik fraksiyasının iclası keçirildi. Gecədən xeyli keçmiş, Bakı Sovetinin iclası yenidən başlandığı zaman Şaumyan bolşevik fraksiyası adından bəyanatla çıxış edərək bildirdi ki, qəbul olunmuş qərar Sovet Rusiyasına qarşı xəyanətdir; buna görə də bolşeviklər məsuliyyəti öz üzərlərindən götürərək, Sovetə daxil olan bütün partiyalardan ibarət koalisiyalı hökumətdə iştirakdan və xalq komissarları vəzifələrindən imtina edirlər. Bolşeviklərin 27 iyul tarixli Ümumbakı partiya konfransı Bakı Soveti bolşevik fraksiyasının qərarını düzgün saymadı (bax *Bakı Xalq Komissarları Soveti)*.

*Əd:.* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Kommunist Partiyasının tarixi, B., 1958; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.

**BAKI ŞƏHƏR DUMASI** - Bakı şəhər bələdiyyə idarəsinin sərəncamverici orqanı. Rusiya senatının 1877 il 24 may tarixli qərarına əsasən 1878 ildə yaradılmışdı. Çar hökumətinin şəhərlər haqqındakı 1870 il 16 iyun tarixli qərarı Bakıda 8 il sonra, həm də yarımçıq surətdə tətbiq edilmişdi. Bakının ilk şəhər dumasına 72 (sonralar 75) nəfər üzv seçilmişdi; Bakı şəhər dumasının üzvləri xüsusi seçki iclaslarında 4 il müddətinə seçilirdilər. Duma üzvlüyünə ancaq daşınmaz əmlakı olan və ya qiyməti 1500 manatdan az olmamaq şərti ilə, ticarət və ya sənaye müəssisələrinə malik olan, 25 yaşından yuxarı şəxslər seçilə bilərdilər. Qadınlar seçki hüququndan məhrum idilər. Seçki hüququnun məhdudluğu nəticəsində duma seçkilərində əhalinin ancaq 2-3%—i iştirak edə bilirdi. ***Bakı şəhər dumasında azərbaycanlıların sayı üzvlərin iimumi sayının yarısından çox olmamalı idi. 1892 il qanununa görə Bakı şəhər duması üzvlərinin 1/3-i, 1900 ildə isə yarısı xristianlardan seçilməli idi.*** Dumaya şəhər bələdiyyə idarəsinin rəisi sədrlik edirdi.

Duma üzvlüyünə, başlıca olaraq, iri neft sənayeçiləri, tacirlər, fabrik, gəmi sahibləri seçilirdilər. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Q.Lianozov, İsa bəy Hacınski və b. sahibkarlar müxtəlif illərdə Bakı şəhər dumasının üzvləri olmuşlar. Azərbaycanın tərəqqipərvər ziyalılarından Həsən bəy Zərdabi, Həbib bəy Mahmudbəyov, həmçinin Məşədi Əzizbəyov və b. ayrı-ayrı vaxtlarda Bakı şəhər dumasına üzv seçilmişlər.

Bakı şəhər duması sırf təsərrüfat məsələləri - abadlaşdırma, ticarət, şəhər vergilərinin təyin edilməsi, yığılması, xərclənməsi, yanğına qarşı ehtiyat tədbirləri görülməsi və s. ilə məşğul olurdu. Şəhər bələdiyyə orqanları qubernator və daxili işlər nazirinin nəzarəti altında fəaliyyət göstərirdi. Beləliklə, bu idarələr, əslində, hökumətin yerli təsərrüfat məsələlərinə baxan yardımçı orqanı idi. Rusiyada Fevral inqilabından (1917) sonra yerli idarələrin fəaliyyəti dayandırıldı. Bakı şəhər dumasının statusunda dəyişiklik edildi. Onun yeni heyətinin seçkilərində iştirak etmək üçün 12 müxtəlif partiya və qrup qeydiyyata alındı. 1917 ilin oktyabrında hakimiyyət uğrunda qızğın mübarizə getdiyi bir vaxtda dumaya yalnız şəhərin özündəki seçicilərin iştirakı ilə seçkilər keçirildi. Şəhər idarə dairəsi ərazisinə daxil edilməyən şəhərətrafı sənaye məntəqələrinin əhalisi seçicilərin siyahısına daxil edilmədi. Bolşeviklər bir qədər artıq (cəmi 16%) səs toplasalar da, heç bir partiya həlledici üstünlük qazana bilmədi. Digər təşkilatların siyasi bloklarda birləşə-rək iştirak etdiyi bu seçkilərdə müsəlman bloku 10 mindən çox səs aldı. Fətəli xan Xoyskinin rəhbərliyi ilə fəaliyyət göstərən şəhər duması bolşevik sovetinin yeganə mümkün rəqibi idi. 1918 ilin martında kütləvi türk-müsəlman soyqırımlarından sonra hakimiyyəti ələ almış bolşeviklər şəhər dumasını buraxdılar. 1918 il aprelin 10-da Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinin dekreti ilə Bakı şəhər duması ləğv olundu və funksiyaları xüsusi şəhər təsərrüfatı şöbəsinə verildi. Ləğv və talan olunmuş şəhər idarəsi Cümhuriyyəti Hökuməti bərqərar olan kimi bərpa edildi.

1918 il iyulun 30-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti şəhər özünüidarələrinin fəaliyyətinin bərpa olunması haqqında qərar qəbul etdi. Sentyabrın 18-də isə Bakı şəhər özünüidarəsi Rusiya Müvəqqəti hökumetinin 1917 il 9 iyun tarixli qanunu əsasında seçilmiş tərkibdə bərpa edildi. Şəhər dumasına tərkibini, öz mülahizəsinə görə, artırıb 80 nəfərə çatdırmaq, həmçinin, şəhər idarəsi işçilərinin sayını artırmaq hüququ verildi. Şəhər özünüidarəsinin fəaliyyəti bərpa edilərkən deputatların xeyli hissəsi olmadığından (anarxiya zamanı qaçıb dağılışmışdılar), Hökumətin icazəsi ilə, dumanın özünün daxil etdiyi şəxslər hesabına Bakı şəhər dumasının tərkibi tamamlanmışdı.

1918 il sentyabrın 22-də Hökumət şəhər özünüid-rəsi deputatlarının Bakı Şəhər İctimai Özünüidarəsi tərəfindən təqdim olunmuş siyahısını təsdiqləmişdi. Bu dövrdə, duma deputatlarının artıq yarıdan çoxu azərbaycanlılar idi. 1919 il yanvarın 27-də isə şəhərlərin, o cümlədən Bakı şəhər özünüidarəsi deputatlarının səlahiyyəti, aprelin 1 -dən gec olmayaraq, yeni seçkilər keçirilməsi şərti ilə uzadıldı. İdarənin fəaliyyətinə nəzarət qubernatora və daxili işlər nazirinə həvalə olunmuşdu. Şəhər başçısının rəhbərlik etdiyi idarə 7 şöbədən (təsərrüfat, tikinti, maliyyə, torpaq, məktəb, tibb-sanitariya, su kəməri) ibarət idi.

Maliyyə böhranı və ağır həyat şəraiti şəhər idarəsini Hökumətdən kömək istəməyə vadar edirdi və Hökumət ona dəfələrlə subsidiya və yardımlar ayırmışdı. 1919 il yanvarın 25-də səpmə yatalağa qarşı mübarizə üçün 2 milyon 200 min manat, fevralın 26-da isə şəhər təsərrüfatının ehtiyaclarına sərf olunmaqdan ötrü 4 milyon manat ayrılmışdı. 1919 il iyulun 27-də Parlament gətirilən və aparılan yüklərdən pud hesabı ilə şəhərlərin xeyrinə rüsum alınması barədə qərar qəbul etmiş, noyabrın 17-də isə "Bakı şəhər özünüidarəsi tərəfindən pud hesabı ilə rüsumlar yığılması qaydası"nı təsdiq etmişdi. Bu qaydaya əsasən, ixrac olunan neftin və neft qalıqlarının hər pudundan 10 qəpik, ağ neftdən və sürtkü yağlarından 20 qəpik rüsum alınırdı.

Şəhər təsərrüfatı bundan əvvəlki hərc-mərclik dövründə başlı-başına qalmış və dağılmışdı. Ona görə də Bakı şəhər özünüidarəsi çoxlu strukturlarının və qanunla təsbit edilmiş hüquqlarının olmasına, Hökumətin ona xeyli maddi yardım göstərməsinə, xəzinədən bir sıra borclar verilməsinə baxmayaraq, səmərəli fəaliyyət göstərə bilməmişdi.

*Əd.:*Свод законов Российской империи, кн. 1, ч. 2, СПб, 1911; Azərbaycan tarixi, 3 cilddə, c.2, B., 1964; Azərbaycan tarixi, 7 cilddə, c.5, B.,2001.

**BAKI ŞƏHƏR DUMASI ÜZVLƏRİNİN SİYAHISININ TƏSDİQ EDİLMƏSİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Bakı şəhər dumasının tərkibini təsdiq etmək barədə 1918 il 22 sentyabr tarixli qərarı. Rusiyada Fevral inqilabından (1917) sonra şəhər özünüidarələrinin fəaliyyəti dayandırılmış, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 18 sentyabr tarixli qərarı ilə (bax *Bakı şəhər ictimai özünüidarəsinin fəaliyyətinin bərpası haqqında qərar)* yenidən bərpa edilmişdi. Deputatların xeyli hissəsi qarışıqlıq vaxtı şəhəri tərk etdiyinə görə, şəhər dumasına öz tərkibini artırıb 80 nəfərə çatdırmaq səlahiyyəti verilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətii Hökuməti 1918 il 22 sentyabr tarixli qərarı ilə şəhər özünüidarəsi deputatlarının duma tərəfindən təqdim olunmuş siyahısını təsdiq etdi. Siyahıya dumaya seçilmiş 34 nəfərin və seçkisiz daxil edilmiş 46 nəfərin adı salınmışdı. Dumanın köhnə tərkibindən qalmış 34 deputatın 10 nəfərini, yeni daxil edilmiş 46 deputatın isə 33 nəfərini (cəmi 43 nəfər) azərbaycanlılar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətii Hökumətinin 1919 il 27yanvar tarixli qərarı ilə dumanın səlahiyyət müddəti uzadılmış, həmin il aprelin 1-nə yeni seçkilər təyin edilmişdi.

**BAKI ŞƏHƏR HƏKİMLƏR CƏMİYYƏTİ** - Bakıda qeyri-hökumət təşkilatı. Əsası 1893 ildə qoyulmuşdu. 1918-19 illərdə 110 üzvü, şəhər dumasının binasında əsaslı kitabxanası var idi.

Cəmiyyətin iclasları da həmin binada keçirilirdi. Əsas fəaliyyət istiqaməti sənaye gigiyenası idi. Cəmiyyətin sədri B.K.Finkelşteyn, katibi Y.K.Varşavski, əsaslı kitabxananın müdiri isə Əbülfəz Qarayev idi. 1917 ildə cəmiyyət öz fəaliyyətini dayandırmış, Azərbaycan Xalq Cümhuriyyətii dövründə yenidən bərpa etmişdi. Bu illərdə cəmiyyət yoluxucu xəstəliklərə, xüsusilə yatalaq epidemiyasına qarşı mübarizə aparmışdır.

1919 ildə B.K.Finkelşteyn Bakı Universitetinin tibb fakültəsi üçün tibbi avadanhq almaq, həmçinin ən yeni müalicə metodları ilə tanış olmaq üçün aparıcı Avropa klinikalarına (İtaliya, İsveçrə, Almaniya) ezam edilmişdi. O, Qərbi Avropaya ezamiyyətinin nəticələri haqqında üzvü olduğu tibb cəmiyyətində hesabat məruzəsi ilə çıxış etmişdi. Şəhərin aparıcı həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə müntəzəm məruzələr edirdilər.

1920 ildə Bakı şəhər həkimlər cəmiyyəti nəzdində həkimlərə yardım bürosu yaradılmışdı. Büronun məqsədi boş iş yerlərinin qeydiyyatını aparmaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara birdəfəlik, yaxud vaxtaşırı yardım göstərmək idi. Həkimlər cəmiyyətinin dövri nəşri çap olunurdu. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**BAKI ŞƏHƏR İCTİMAİ ÖZÜNÜİDARƏSİ** - Bakı şəhərinin özünüidarə orqanı. Rusiya senatının 1877 il 24 may tarixli qərarına əsasən 1878 ildə yaradılmışdı. Fevral inqilabından (1917) sonra ləğv edilmiş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918, sentyabr) fəaliyyəti bərpa olunmuşdu (bax *Bakı şəhər duması).*

**BAKI ŞƏHƏR İCTİMAİ ÖZÜNÜİDARƏSİNİN FƏALİYYƏTİNİN BƏRPASI HAQQINDA QƏRAR** - 1918 il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətii Hökuməti tərəfindən qəbul olunmuşdur. Qərara görə, Bakı şəhər ictimai özünüidarəsi Rusiya Müvəqqəti hökumətinin qanunu əsasında seçilmiş üzvlərdən ibarət tərkibdə öz fəaliyyətini bərpa etmişdi. Bərpa olunmuş quruma şəhər duması üzvlərinin sayını 80 nəfərə çatdırmaq, həmçinin şəhər özünüidarəsinin tərkibini genişləndirmək hüququ verilmişdi.

**BAKI ŞƏHƏR İDARƏSİ** Bakı şəhərinin yerli idarəetmə orqanı. 1877 ilin dekabrında təsis edilmişdi. İcra orqanı olan idarə şəhər başçısından, idarə üzvlərindən - onun bölmələrinin müdirlərindən, katibdən, muzdla işləyən memar, mühəndis, yerölçən, həkim, hüquq məsləhətçisi və başqa mütəxəssislərdən ibarət idi.

İdarəyə bilavasitə şəhər təsərrüfatı məsələləri ilə məşğul olmaq, idarə başçısına isə onun fəaliyyətinə və tabeliyindəki qurumlara ümumi nəzarət həvalə edilmişdi.



*Bakı şəhər idarəsinin əməkdaşları. 1918*

İdarə başçısını Daxili İşlər Nazirliyi təsdiq edirdi. İdarə üzvləri isə şəhər duması deputatlarından (qlasnılarından) təyin olunur, qubernator və şəhər rəisi tərəfindən təsdiq edilirdi.

İdarə 1918 il aprelin 10-da *Bakı şəhəri və onun rayonlarının inqilabi müdafiə komitəsinin* dekreti ilə ləğv olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra yenidən seçilmişdir (1918, sentyabr). Cümhuriyyəfi *dövr*ündə idarənin strukturu dəftərxanadan, statistika, torpaq, təsərrüfat, təhsil, su kəməri tikintisi şöbələrindən, məhkəmə, tikinti, maliyyə bölmələrindən və tibb-sanitariya bürosundan ibarət idi. İdarə *Aprel işğalından (1920)* sonra ləğv edildi.

*Əd.:* Путеводитель ЦГАОР Азерб. ССР, Б., 1959.

**BAKI ŞƏHƏR MƏRKƏZİ MƏNZİL KOMİTƏSİ** seçkili orqanlar olan mənzil, rayon və məntəqə komitələrinə rəhbərlik edən qurum. 1918 ilin aprelində təşkil edilmişdi. Komitə əhalinin şəxsi və əmlak təhlükəsizliyi, ərzaq təminatı və şəhərin sanitariya məsələləri ilə məşğul olurdu. 1918 il sentyabrın 27-də komitənin tərkibində qida məntəqələri şöbəsi yaradılmışdı. 1919 ilin noyabrınadək fəaliyyət göstərən şöbə Bakının və mədən rayonlarının müxtəlif yerlərində - Bayıl, Suraxanı, Ramana, Sabunçu, Maştağa və Bülbülədə 17 qida məntəqəsi, 2 yeməkpaylama məntəqəsi və 5 çayxana açmışdı. Bunların fəaliyyəti nəticəsində minlərlə adam aclıqdan və yatalaqdan ölmək təhlükəsindən xilas olmuşdu.

**BAKI ŞƏHƏR RƏİSİ YANINDA ZƏRURİ ƏRZAQLARIN UCUZLAŞDIRILMASI KOMİTƏSİ** - Bakı şəhərinin ehtiyacı olan əhalisinə yardım göstərən qurum. 1920 il yanvarın 5-də müxtəlif ticarət-sənaye, neft sənayesi, bank müəssisələri nümayəndələrinin, ayrı-ayrı sahibkarların təşəbbüsü ilə şəhər rəisinin yanında çağırılmış müşavirənin qərarı ilə yaradılmışdı. Müşavirədə neft sənayeçiləri, ticarət-sənaye müəssisələri, mülk sahibləri nümayəndələrindən ibarət 24 nəfərlik komissiya təşkil olundu. Komissiya 125 milyon manat vəsait toplamağı qərara almışdı. Bu məbləğin üçdə birini neft sənayeçiləri, qalanını mülk sahibləri ittifaqı və ticarət-sənaye ittifaqı öz üzərinə götürmüşdü. Ticarət-sənaye ittifaqı öz payına düşən məbləği 24 qrup arasında bölüşdürmüşdü.

Komissiya sonrakı fəaliyyəti zamanı öz üzvləri sırasından ayrıca komitə yaratmışdı. Ona neft sənayeçilərinin 4, ticarət-sənaye ittifaqının 8, mülk sahibləri ittifaqının 1 nümayəndəsi daxil idi. Şəhər rəisi komitənin sədri seçilmişdi. Bu qurum Bakı şəhər rəisi yanında zəruri ərzaqların ucuzlaşdırılması komitəsi adlanmağa başladı.

Komitənin hazırladığı nizamnaməni 1920 il fevralın 7-də ticarət, sənaye və ərzaq naziri təsdiq etdi. Komitə martın 4-də Bakı dairə məhkəməsində qeydiyyatdan keçdi. Komitə daha səmərəli işləmək üçün öz tərkibindən işgüzar komissiya yaratmışdı. Komissiya hər bir məsələni işləyib hazırlamalı, sonra isə komitənin müzakirəsinə və təsdiqinə verməli idi. Komitə toplanmış vəsaiti, əsasən, çörək, ət və balıq alınmasına sərf edirdi. Ərzaq Nazirliyi ilə razılaşmaya əsasən, taxıl bürosu, ilk növbədə, "Kooperasiya"ın və "Sentrdom"u unla təmin edir, çörəkxanaların bişirdiyi çörəyin bir funtunu 5 manata satırdı. Komitə, əvvəlcə, bunun 2 manatını, sonra isə 3,5 manatını ödəməyi öz üzərinə götürmüşdü. Hər gün 6 min pud çörək bişirilirdi. Komitə "Kooperasiya" vasitəsilə hər gün Bakı şəhər rəisliyinin daha çox ehtiyacı olan kəndlərinə 400 puda qədər ucuz arpa çörəyi də paylayırdı. Əhalinin 40%-nin hər nəfərinə 1 funt hesabı ilə buraxılan çörəyin bir funtunun qiyməti 3,5 manat idi ki, bunun da 2,5 manatını komitə ödəyirdi. Balığı ucuzlaşdırmaq üçün komitə "Kooperasiya"ya 300 min manat faizsiz borc vermişdi. "Kooperasiya" hər gün komitəyə 500 pudadək təzə balıq verirdi. Əhalini ətlə təmin etmək üçün komitə şəhərə ət gətirilməsini podrata vermişdi və bundan ötrü podratçılara 5 milyon manat avans ayırmışdı. Ətin qiyməti də ucuz idi: mal əti 18 manata, camış əti 15 manata satılırdı. Komitə podratçılara mədən rayonuna diri heyvan gətirməyi də tapşırmışdı. Onlar kəsildikdən sonra həmin rayondakı 12 bölüşdürmə məntəqəsinə paylanırdı. Ət burada da şəhərdəki qiymətə satılırdı.

*Bakı şəhər idarəsinin pul nişanı. 1918*




Ucuz isti xörək paylanmasının çox böyük əhəmiyyətini nəzərə alaraq, şəhərətrafı qəsəbələrdə və kəndlərdə yeməkpaylama məntəqələri açılmışdı. 1920 il martın 10-da komitə Ticarət, Sənaye və Ərzaq Nazirliyinin tabeliyinə keçdi.

**BAKI ŞƏHƏR RƏİSLİYİ** - Bakı şəhərində və onun ətrafındakı mədən və fabrik-zavod rayonlarında qayda-qanunu və təhlükəsizliyi qoruyan hakimiyyət orqanı. 1906 il oktyabrın 28-də Rusiya senatının qərarı ilə yaradılmışdı. Ərazisi Bakı qubernatorunun tabeçiliyindən çıxarılmış və qubernatorun idarəçilik hüquqları şəhər rəisinə verilmişdi. Bakı şəhər rəisliyinə aid işlərin müxtəlif quberniya idarələrində müzakirəsində şəhər rəisi sədrlik edirdi. Şəhər rəisliyi yanında iki idarə - inzibati işlər və neft işləri idarələri vardı. *Bakı Xalq Komissarları Sovetinin* dekreti ilə 1918 ilin mayında Bakı şəhər rəisliyi ləğv olunmuşdu.

Bakı şəhər və onun ətrafındakı mədən rayonunda (bütün Abşeron yarımadasında və Bakı yaxınlığındakı adalarda) Bakı qubernatorunun funksiyalarını eyni səlahiyyətlə, əvvəllər olduğu kimi, yenə Bakı şəhər rəisi icra edirdi. Şəhər rəisi vəzifəsi Bakıda və mədən rayonunda mövcud olan xüsusi şərait nəzərə alınaraq təsis olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olaraq Bakı şəhərindəki real şərait burada ictimai asayişi və təhlükəsizliyi qorumaq üçün qubernator hüququna malik ayrıca hakimiyyət orqanının olmasını tələb edirdi. Şəhər rəisinin müavini vardı. Şəhər rəisi yanında ümumi, tikinti və maliyyə şöbələrindən ibarət idarə yaradılmışdı.

1918 il sentyabrın 14-də Cümhuriyyəti Hökuməti Bakı quberniyası və şəhər rəisliyinin hüdudlarında inzibati hakimiyyətin təşkili üçün daxili işlər nazirinə 15 min manat məbləğində kredit ayırmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Quda Qudiyev Bakı şəhər rəisi təyin olunmuşdu.

**BAKI ŞƏHƏR VƏ XALQ MƏKTƏBLƏRİNİN ŞAGİRDLƏRİNƏ YARDIM CƏMİYYƏTİ** Qeyri-hökumət xeyriyyə təşkilatı. 1907 ilin aprel ayında yaradılmışdı. İdarə heyətinin üzvləri İ.Qasımov, Hənəfi Terequlov, İsa bəy Aşurbəyov; həqiqi üzvləri Əmir Aslanov, İ.Axundov, B.Aşurbəyov, İ.Aşurbəyov, M.Əsədullayev, A.Babayev, A.Vəlibəyov, D.Vəzirov, M.Hacıbababəyova, R.Hacıbababəyova, M.Hacıbəyova, B.Qayıbov, K.Kazımov, M.Mahmudbəyov, A.Mehdiyev və b. idilər. Cəmiyyətin məqsədi Bakı şəhər və xalq məktəblərinin ehtiyacı olan şagirdlərini geyim, yemək və mənzillə təmin etmək, onlara tibbi yardım göstərmək, valideynləri işdə olan şagirdləri gündüzlər sığınacaqla təmin etmək idi. 1919 ilin yayında cəmiyyət uşaq evlərinin yaradılması ilə məşğul olmuşdur. 7-8 türk və 5 rus məktəbi nəzdində uşaq evləri təşkil edilmişdi. Onların böyük həyətləri, geniş mətbəxləri var idi. Tədris ili başlanarkən cəmiyyət məktəblərdə isti səhər yeməkləri təşkil etmiş, həmçinin imkansız şagirdlərə dövlət hesabına dəftərxana ləvazimatının verilməsi, xalq məktəblərində xeyriyyəçilik tədbirlərinin həyata keçirilməsi, dərman alınması ilə məşğul olmuşdur.Cümhuriyyəti Hökuməti cəmiyyətin səmərəli fəaliyyət göstərə bilməsi üçün ona yaxından kömək göstərmişdir. Cəmiyyət azərbaycanlı məktəblilərin səmərəli istirahətində, savadlanmasında, sağlamlıqlarının qorunmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında əhəmiyyətli rol oynamışdır. 1920 ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra cəmiyyət öz fəaliyyətini dayandırmışdır.

**BAKI ŞƏHƏRİ VƏ ONUN RAYONLARININ İNQİLABİ MÜDAFİƏ KOMİTƏSİ** - 1918 il martın 30-dan 31-nə keçən gecə təşkil edilmiş daşnak-bolşevik hərbi-siyasi orqanı. Bakıda mart soyqırımı zamanı yaradılmış İnqilabi Müdafiə Komitəsi (İMK) martın 31-də özünün tərkibi və vəzifələri haqqında müraciətində Bakı şəhərinin və onun rayonlarının bütün sovet təşkilatlarını birləşdirən ali hərbi-siyasi orqan olduğunu elan etdi. Müraciət "hamını silaha sarılıb, sovet hakimiyyətini xalq düşmənlərindən müdafiə etməyə" çağırırdı. İMK öz fəaliyyəti haqqında Bakı Sovetinə vaxtaşırı məlumat və Qafqaz Fəhlə, Kəndli, Əsgər və Matros Deputatları Sovetlərinin qurultayı qarşısında hesabat verəcəyini bildirirdi. Komitənin tərkibinə Rusiya Xalq Komissarları Sovetinin Qafqaz işləri üzrə fövqəladə komissarı S.Şaumyan, Qafqaz ordusu Hərbi-İnqilab Komitəsinin sədri Q.Korqanov, Bakı Fəhlə, Əsgər və Martos Deputatları Sovetinin sədri P.Çaparidze, Bakı Hərbi-İnqilab Komitəsinin sədri İ.Suxartsev, S.Saakyan, S.Melik-Yolçyan və başqaları daxil idilər. Müraciətdə İMK tərkibinə daxil olmaq üçün "milli təşkilatların nümayəndələrinin rədd edildiyi" bildirilsə də, "əksinqilabla vuruşmada erməni milli hissələrindən istifadə etmək və hələ sağ eserlərin və daşnakların arxasınca gedən fəhlələri sovet hakimiyyəti tərəfində mübarizəyə cəlb etmək üçün İMK-ə həmin partiyaların nümayəndələrinin də dəvət olunduğu" göstərilirdi. Bu da təsadüfü deyildi, çünki S.Saakyan Bakı sağ eserlərinin, S.Melik-Yolçyan isə "Daşnaksutyun" partiyasının Bakı təşkilatının lideri idilər. "Əksinqilabla vuruşma" çağırışı daşnak-bolşevik güruhunun başçısı S.Şaumyanın qabaqcadan hazırladığı plana uyğun olaraq Azərbaycanın milli qüvvələrinə qarşı çevrildi və Bakının türk-müsəlman əhalisinin kütləvi soyqırımı ilə nəticələndi. Bolşevik-daşnak cəlladlarının bu qanlı cinayətləri tarixə Bakının türk-müsəlman əhalisinə qarşı mart soyqırımı kimi daxil oldu. Sovet qoşunları İMK-nin çağırışı ilə martın 31 -də topların, təyyarələrin və Xəzər hərbi donanmasının köməyi ilə Bakının silahsız türk-müsəlman əhalisinə qarşı hücuma keçdilər. S.Şaumyan, P.Çaparidze, Q.Korqanov ve İ.Suxartsev tərəfindən imzalanmış 1918 il 31 mart tarixli müraciətdə bildirilirdi ki, "bundan sonra silahlı qüvvələrin bütün əməliyyatına inqilabi müdafiə komitəsi rəhbərlik edəcəkdir". İMK-nin əmri ilə müsəlman məhəllələrinin Xəzər hərbi donanması gəmilərindən atəşə tutulması şəhərdə vahiməni daha da artırdı. İMK-nin qərarı ilə "Bakıda mühasirə vəziyyəti" elan olundu. Komitə, həmçinin, "Müsavat" partiyasına və milli müsəlman qruplarına ultimatum verərək, onlardan Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin hakimiyyətini danışıqsız tanımağı və onun bütün sərəncamlarına tabe olmağı tələb etdi. Çıxılmaz vəziyyət yarandığını görən "Müsavat" liderləri əhalini xilas etmək üçün İMK-nin ultimatumunu qəbul etməyə mecbur oldular. Buna baxmayaraq, danışıq aparmaq üçün Bakı Sovetinin İcraiyyə Komitəsinə gələn müsəlman heyətindən üç nəfər geri qayıdarkən yolda güllələndi. Azərbaycan milli qüvvələrinin fəaliyyəti qarşısına sədd çəkən, türk-müsəlman əhaliyə divan tutulmasına başçılıq edən İMK bir çox radikal tədbirlər həyata keçirdi:

Sarıtsından bütün hidroaeroplanların, döyüş aeroplanlarının təcili olaraq Bakıya göndərilməsini xahiş etdi; qırmızı ordu təşkil etmək üçün bütün iri müəssisə sahiblərinin üzərinə vergi qoyulması haqqında qərar çıxardı; səfərbərlik haqqında əmr verdi; şəhərdəki daşınmaz əmlak üzərində xüsusi mülkiyyətin ləğv edilməsi, Bakı şəhər dumasının buraxılması haqqında dekretlər verdi; bir çox qəzetləri ("Kaspi", "Baku", "Bakinets", "Vesti Baku", "Bakinskiye izvestiya", "Naş qolos", "Sosialist") bağladı. Bakı Soveti İMK-nin fəaliyyətini yüksək qiymətləndirdi, komitənin taktikasını tamamilə düzgün saydığını, ona tam etibar etdiyini bildirdi və hərtərəfli, fəal yardım göstərəcəyini vəd etdi. Beləliklə, o zaman Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qüvvələrinin əlində olan İMK, Bakı Soveti və Bakı Xalq Komissarları Soveti Azərbaycan xalqına qarşı soyqırımını birlikdə həyata keçirdilər.

*Əd.:* Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-I918-ci illər, B., 1960; Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B.,2001.

**BAKI TEXNİKA KOMİTƏSİ (BTK)** - Neft emalı sənayesinə dair statistika məlumatlarının hazırlanması, neft məhsullarının keyfiyyətinin yoxlanması zamanı qarşıya çıxan mübahisəli məsələlərin həlli ilə məşğul olan orqan. Əsası 1887 il martın 20-də qoyulmuşdu. Maliyyə nazirliyinin təsdiqlədiyi qaydalara əsasən, neft məhsullarının keyfiyyətinin yoxlanmasına və ixracına nəzarət üçün Bakı brakeraj komitəsi yaradılmışdı. Bakı Xəzinə Palatası müdirinin sədrlik etdiyi həmin komitəyə dövlət əmlak nazirliyinin nümayəndəsi, böyük brakçı (zay məhsulları çıxdaş edən işçi) və yerli sənayeçilərin 3 nümayəndəsi daxil idi. 1891 il iyunun 11-də Bakı brakeraj komitəsi BTK-yə çevrildi.

Ticarət, sənaye və ərzaq nazirliyi nəzdində olan komitə sədr, texnik, laborant və katibdən ibarət idi. Mədən nəzarəti idarəsinin və aksiz rüsumları idarəsinin nümayəndələri üzv hüququnda komitəyə daxil idilər.

Komitənin vəzifələrinə işıqlandırıcı mineral yağların sınaqdan keçirilməsi şərtlərinin, neft məhsullarının yoxlanılması və analizi qaydalarının müəyyən edilməsi, mineral yağların yoxlanmasında texniklərlə neft sənayeçiləri arasında yaranan mübahisələrin müzakirəsi, ixrac edilən neft məhsullarının miqdarı, istehsalın həcmi haqqında statistika məlumatlarının hazırlanması və digər məsələlər daxil idi. BTK 1918 il mayın 13-də Bakı Xalq Komissarları Sovetinin qərarı ilə ləğv olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətii qurulduqdan sonra komitə bərpa olundu və yenidən öz vəzifələrinin icrasına başladı. Neftin tərkibinin yoxlanması, onda kənar qarışıqların olub-olmamasının müəyyən edilməsi, yeni - aksiz rüsumundan azad olan neft emalı məhsullarının və tullantılarının yoxlanılması BTK-nin əsas vəzifələrindən idi. BTK öz fəaliyyətini *Aprel işğalından (1920)* sonra da davam etdirmişdir.

**BAKI TİCARƏT-SƏNAYE İTTİFAQI** - qeyri-hökumət təşkilatı. Əsası 1918 ilin martında qoyulmuşdur. Sənaye və ticarət şöbələri var idi. Bütün sənaye sahələrinin təmsil olunduğu 24 qrupu əhatə edirdi. İttifaqın sədri Yusif *Əhmədzadə* onun nümayəndəsi kimi Azərbaycan Parlamentinə seçilmişdi. Ticarət-sənaye ittifaqı 1919 ildə Parlamentə azad ticarət prinsipləri haqqında qanun layihəsi təqdim etmişdi. İttifaqın müzakirə etdiyi əsas məsələlər ticarət (ixrac və idxal məsələləri), valyuta məzənnəsi və valyuta əməliyyatları (kağız pullar çapının dayandırılması, daxili istiqraz vərəqələrinin buraxılması və i.a.) və s. olmuşdur. 1919 il oktyabrın ortalarında Azərbaycan Xalq Cümhuriyyətinin İranla müqavilə layihəsi İttifaqın iclaslarında müzakirə edilmişdi. Ticarət-sənaye ittifaqı İranla beynəlxalq poçt və qarşılıqlı dəmir yol əlaqələrinin bərpasını təmin edən müvəqqəti sazişin bağlanmasını zəruri hesab etmişdi. Ticarət sahəsində müxtəlif malların qiymətinin aşağı salınması, həmçinin məhsul idxalını vasitəçi təşkilatlar olmadan həyata keçirmək nəzərdə tutulurdu. Ticarət-sənaye ittifaqı möhtəkirliyə qarşı ardıcıl mübarizə aparırdı. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**BAKI TÜRK ŞƏHİDLİYİ** - Azərbaycanın ərazi bütövlüyü və Bakının azad olunması (1918, 15 sentyabr) uğrunda həlak olmuş *Qafqaz İslam Ordusu* döyüşçülərinin xatirəsinə Bakının Şəhidlər Xiyabanında ucaldılmış abidə. Tikintisinə 1999 il iyunun 24-də başlanmış, açılış mərasimi 2000 il aprelin 9-da olmuşdur. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl iştirak etmişlər.

Bakının daşnak və eser-menşeviklərin idarə etdiyi "Sentrokaspi diktaturası"ndan azad edilməsi zamanı həlak olmuş Azərbaycan və Türkiyə əsgərlərinin şərəfinə ucaldılacaq abidə kompleksinin layihəsi hələ 1918 ildə, Azərbaycan Xalq Cümhuriyyətii dövründə hazırlanmışdı. Bakının *Qafqaz İslam Ordusu* tərəfindən azad olunmasının ildönümü münasibətilə 1919 il sentyabrın 15-də Azərbaycan Parlamentinin xüsusi iclası keçirilmiş, millət vəkilləri Hökumət üzvləri ilə birlikdə Çənbərəkənd qəbiristanlığına (indiki Şəhidlər Xiyabanının ərazisi) gedərək, xatirə abidəsinin özülünü qoymuşdular. Lakin *Aprel işğalı (1920)* nəticəsində abidənin tikintisi yarımçıq qaldı.



*Türk–Azərbaycan şəhidlərinin qardaşlıq abidəsi. Bakı. 2000*

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycanın və Türkiyənin dövlət rəhbərlərinin qarşılıqlı razılaşması əsasında xatirə abidəsinin Şəhidlər Xiyabanında ucaldılması qərara alındı. 1918 ilin sentyabrında Bakının azad olunması uğrunda döyüşlərdə həlak olmuş türk və Azərbaycan hərbçilərinin bir çoxu da həmin ərazidəki Çənbərəkənd qəbiristanlığında dəfn edilmişdilər.

Abidənin müəllifi memar Hüseyn Bütünerdir. Tikinti işləri Türkiyənin Azərbaycandakı hərbi attaşesi tuğgeneral (briqada generalı) Sadıq Ercanın rəhbərliyi ilə aparılmışdır. Şəhidlər Xiyabanındakı məscidin qarşısında 854 kvadrat metrlik ərazidə ucaldılmış abidənin görünüşündə oğuz-səlcuq memarlıq elementlərindən istifadə olunmuşdur. Düzbucaqlı kompleks üç tərəfdən ağac və bəzək kolları ilə əhatələnmişdir. Daxili tərəfdən düz xətt boyunca üzərinə qızılı ulduz bərkidilmiş 1130 mərmər lövhədə Azərbaycanda həlak olmuş türk və Azərbaycan döyüşçülərinin adı həkk edilmişdir. Abidənin önünə aparan yol andezit ilə, yolun kənarları isə gülbağ daşı ilə örtülmüşdür. Kompleksin yuxarı başında ağ mərmərdən 8,25x8,25 *m* ölçülü kvadrat platformanın mərkəzində 7 metr hündürlüyündə abidənin qırmızı mərmərdən olan əsas hissəsi yerləşdirilmişdir. Səkkizguşə prizmanı xatırladan bu daşın eni aşağıda 2 metrdir. Daşın eni yuxarıya doğru daralır. Daşın dörd tərəfinə ay-ulduz, qarşı tərəfinə isə Azərbaycan və türk dillərində xatirə yazısı həkk olunmuşdur.

*Əd.:* Süleymanov M., Azərbaycanda türk şəhidlikləri, B., 2000.

**BAKI UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN QARŞILIQLI YARDIM CƏMİYYƏTİ** Azərbaycan Xalq Cümhuriyyətii dövründə yaradılmış qeyri-hökumət xeyriyyə təşkilatı. 1919 ildə fəaliyyətə başlamışdı. Cəmiyyətin əsas vəzifəsi ehtiyacı olan tələbələrə maddi yardım göstərmək, onların yaşayış şəraitini yaxşılaşdırmaq idi.

Cəmiyyətin nəzdindəki əmək bürosu ehtiyacı olan tələbələri işlə təmin edirdi. Bundan əlavə, kasıb tələbələrin nəfinə kütləvi mühazirələr təşkil olunurdu. Cəmiyyət *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**BAKIDA XARİCİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏR** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici dövlətlərin Azərbaycanın paytaxtı Bakı şəhərindəki diplomatik heyətləri. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda xarici diplomatik nümayəndəliklər fəaliyyətə başladılar. İngiltərənin vitse-konsulu Gevelke, Belçikanın konsulu Ayvazov, Yunanıstanın konsulu Kusis, Gürcüstanın diplomatik nümayəndəsi N.S.Alşibay, Ermənistanın diplomatik nümayəndəsi Q.A.Bekzadyan, Danimarkanın konsulu E.F.Biyerinq, İtaliyanın konsulu L.Qrikurov, Litvanın konsul-agenti V.İ.Miskeviç, İranın baş konsulu Səədül-Vəzir, Polşanın konsul-agenti S.Rılski, Şimali Amerika Birləşmiş Ştatlarının vitse-konsulu Randolf, Ukraynanın vitse-konsulu Qolovan, Finlandiyanın konsul-agenti Vegelius, Fransanın konsul-agenti Yemelyanov, İsveçrənin konsulu Klottyu, İsveçin konsulu R.K.Vanderpluq Azərbaycanda tam səlahiyyətlə diplomatik fəaliyyətə başlamışdılar.

Yaponiya hökuməti Azərbaycanla diplomatik münasibətlər yaratmağa hazır olduğunu bildirmiş, Antuan Delabus başda olmaqla Vatikan da öz nümayəndələrini Bakıya göndərmişdi.



*Əd.:* Азербайджанская Республика (1918-1920), Документы и материалы. 1918-1920 гг., Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**BAKIDA MART SOYQIRIMI** - Bakıda hakimiyyəti ələ keçirmiş daşnak-bolşevik güruhunun başçısı S.Şaumyanın rəhbərliyi ilə əvvəlcədən hazırlanmış plana əsasən, 1918 ilin martından etibarən "əksinqilabi ünsürlərlə mübarizə" çağırışı ilə *Bakı Xalq Komissarları Sovetinin* silahlı erməni-daşnak hərbi birləşmələrinin Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə həyata keçirdiyi soyqırımı. Həmin soyqırımı nəticəsində 1918 il martın 31-dən aprelin 2-dək təkcə Bakı şəhərində 12 min nəfərdən çox dinc və silahsız azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Bakının azərbaycanlılar yaşayan məhəllələri daşnaklar tərəfindən dəhşətli talana məruz qaldı (bax *Mart soyqırımı (1918)*.

**BAKININ AZAD OLUNMASI (1918)** - Bakı şəhərinin Azərbaycanın müstəqilliyinə qarşı barışmaz mövqe tutmuş qüvvələrdən azad olunması üçün türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş *Qafqaz İslam Ordusunun* və onun tabeliyinə verilmiş Azərbaycan könüllü dəstələrinin 1918 il sentyabrın 14-15-də həyata keçirdiyi döyüş əməliyyatı. Əməliyyat Bakı şəhərində hakimiyyəti ələ keçirmiş "Sentrokaspi diktaturası"nın əsasən daşnaklardan ibarət qoşunlarına və onun çağırışı ilə Bakıya gəlmiş ingilis hərbi qüvvələrinə qarşı aparılmışdır.

Bakı şəhərinin azad edilməsi üçün ilk ciddi-cəhd 1918 il avqustun 5-də göstərilmişdi. Həmin gün Qafqaz İslam ordusu Şərq cəbhəsi komandanı (bax *Şərq cəbhəsi komandanlığı)* Mürsəl paşanın rəhbərliyi ilə Qurd qapısı istiqamətindən Bakıya doğru hücum oldu. Hücumun əsas zərbə qüvvəsini Qafqaz İslam Ordusu hissələrinin Şimal qrupu təşkil edirdi. Bu qrupun qüvvələri 9-cu, 10-cu, 13-cü və 38-ci türk alaylarının bölmələrindən, iki Azərbaycan süvari alayından, Sumqayıt dəstəsindən və digər bölmələrdən ibarət idi. Azərbaycan hərbi qüvvələrinin üstünlük təşkil etdiyi Cənub qrupu isə Puta-Ələt arasında mövqe tutmuşdu. Polkovnik Həbib bəy *Səlimovun* rəhbərlik etdiyi bu qrupa Xəzərsahili ərazilərin və Bakıya aparan yolların təhlükəsizliyini təmin etmək tapşırılmışdı.

Avqustun 5-nə planlaşdırılan döyüşdə Qafqaz İslam Ordusu qüvvələri qarşısına qoyduğu vəzifələri yerinə yetirə bilmədi. General *Denstervillin* komandanlığı altında Bakıya gəlmiş ingilis hərbi hissələri ilə möhkəmləndirilmiş "Sentrokaspi" hərbi qüvvələri, habelə onların köməyinə yetişən Bakı Kommunasına sadiq qüvvələr Qafqaz İslam Ordusu hissələrinin hücumunun qarşısını ala bildilər. Gəncədən Bakıya qədər uzun və ağır döyüş yolu keçmiş türk-Azərbaycan hərbi qüvvələrinin yorğunluğu, maddi və canlı itkilərin vaxtında bərpa edilməməsi halları da "Sentrokaspi" cəbhəsində birləşən qüvvələrin müqavimət gücünü artırdı. Hücum kifayət qədər uğurlu başlasa da, sadalanan amillər, habelə döyüşün coğrafi baxımdan daha mürəkkəb olan bir istiqamətdən aparılması son nəticədə ciddi itkilərə gətirib çıxardı.

Bakının azad edilməsini uğurla başa çatdırmaq üçün 5 avqust döyüşünün nəticələri Qafqaz İslam Ordusu komandanı *Nuru paşa, Əlahiddə Azərbaycan korpusunun* komandanı Əlağa *Şıxlinski* və onların rəhbərlik etdikləri qərargahlar tərəfindən ciddi təhlil olundu, ordu hissələrinin və Azərbaycan xalqının iradəsinin reallaşdırılması, qüvvələrin düzgün istiqamətləndirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırıldı. Onların arasında hərbi qüvvələrin gücləndirilməsi, döyüş taktikasına yenidən baxılması, Bakıətrafı kəndlərin əhalisinin döyüşə səfərbər edilməsi, qoşun hissələrində və könüllü dəstələrdə döyüş ruhu və qələbə əzminin qaldırılması kimi tədbirlər var idi. Həmin tədbirlərin həyata keçirilməsi istiqamətində aparılan işlərin əsaslı surətdə götür-qoy edilməsi, məqsədyönlü şəkildə qurulması 1918 il sentyabrın 15-də Bakı şəhərinin Azərbaycan xalqının müstəqilliyinə yabançı olan qüvvələrdən təmizlənməsi ilə nəticələndi. Əməliyyatı qələbə ilə başa çatdırmaq üçün, hər şeydən əvvəl, Bakı ətrafındakı hərbi qüvvələr möhkəmləndirildi. Süleyman İzzət bəyin komandir olduğu 15-ci firqə Türkiyədən Azərbaycana göndərildi. Bu firqə Bakının şimalında, Biləcəri istiqamətində yerləşdirildi. Xidmətə çağırılmış azərbaycanlılar hesabına Beşinci Qafqaz firqəsinin canlı itkiləri qismən bərpa edildi. Qüvvələrin silah, sursat və ərzaq ehtiyaclarının aradan qaldırılması üçün Azərbaycan Hökuməti və Qafqaz İslam Ordusu




komandanlığı tərəfindən lazımi tədbirlər görüldü. Təchizat və təminat işlərinin aparılması ilə bərabər, 5 avqust döyüşündən sonra hissə və bölmələrdə yaranmış ağır mənəvi-psixoloji durum aradan qaldırıldı. Xalqın milli maraq və mənafeyindən irəli gələn son dərəcə gərəkli bir vəzifənin həyata keçirilməsinin, yəni Bakının azad edilməsinin vacibliyi hərbi hissələrin şəxsi heyətinin, könüllü dəstələrin üzvlərinin əzmində və iradəsində öz əksini tapdı. Əsgər və zabitlərin döyüş ruhunun qaldırılması üçün hərbi hissələrin şəxsi heyətinə ünvanlanmış xüsusi bir müraciət də qəbul edilmişdi.

Bakıətrafı kəndlərin əhalisi şəhərin azad edilməsinə səfərbər olundu.Bu kəndlərin silah tuta bilən sakinləri Maştağa dəstəsində, digər könüllü dəstələrdə, süvarı bölmələrində birləşdilər, Bakının şimal-şərqi boyunca uzanan döyüş xəttində mövqe tutdular.

Qafqaz İslam Ordusu komandanlığı Bakının azad olunması üçün daha çevik taktikanı nəzərdən keçirməyə başladı. Qurd qapısı istiqaməti əsas zərbə istiqaməti kimi saxlansa da, əməliyyatın şəhərətrafı dairəvi xətt üzrə aparılması məqsədəuyğun sayıldı. Bakının azad olunması əməliyyatına hazırlıq istiqamətində Abşeron yarımadasının bir sıra strateji əhəmiyyətli məntəqələrinin ələ keçirilməsi üçün mövqe döyüşləri keçirildi. Onların ən əhəmiyyətlilərindən biri *Binəqədi döyüşü* idi. 1918 il avqustun son günlərində keçirilən bu döyüşün uğurla başa çatdırılması Nuru paşaya "Sentrokaspi"-ingilis qüvvələrinin əhatə zolağını daha da daraltmaq imkanı verdi. Məhz bu döyüşdən sonra Bakıdakı ingilis qüvvələrinin komandanı general Denstervill 1918 il sentyabrın 1-də Qafqaz İslam Ordusu qüvvələrinə müqavimət göstərilməsinin mümkünsüzlüyünü etiraf etdi.

Bakının azad olunması üçün keçirilən həlledici hücumun planı Nuru paşa tərəfindən hazırlanmışdı. Hücuma lazımi hazırlıq işləri başa çatdıqdan sonra Nuru paşa, türk ordusu Şərq qrupunun komandanı *Xəlil paşa,* Əlahiddə Azərbaycan korpusunun komandanı Əliağa Şıxlinski və digər yüksək rütbəli zabitlər Bakı ətrafına gəldilər. Qafqaz İslam Ordusu komandanlığının qərargahı Güzdəkdə, 5-ci Qafqaz firqəsinin qərargahı Qobuda, 15-ci türk firqəsinin qərargahı isə Masazırda yerləşdirilmişdi. Hücum planına əsasən 5-ci firqə Qurd qapısı - Xırdalan xətii arasında, 15-ci firqə isə Biləcəri istiqamətindən başlayaraq Zığ burnuna qədər olan ərazidə yerləşdirilmişdi. Əlahiddə Azərbaycan korpusuna daxil olan milli hərbi hissələr və könüllü Azərbaycan dəstələri də bu firqələrin əməliyyat tabeliyinə verilmişdi. 4-cü Azərbaycan piyada alayı, süvari və topçu bölmələri 5-ci firqənin hücum sahəsində iştirak edirdilər. Azərbaycan milli qüvvələrinin süvari alayları, Maştağa dəstəsi və digər könüllü dəstələr isə 15-ci firqə komandanlığının əməliyyat tabeliyinə verilmişdi. Biləcəridən başlayaraq, Zığ burnuna qədər olan dövrələmə xətt boyunca, əsasən, Azərbaycanın milli qüvvələri döyüşürdülər. Ümumi hücum planma əsasən, 15-ci firqənin əməliyyat sahəsində yerləşdirilmiş türk-Azərbaycan qüvvələri qarşı tərəfin qüvvələrini parça-

lamaqla Qurd qapısı istiqamətindən hücuma keçən hissələrin sürətlə Bakıya girməsinə zəmin yaratmalı idilər. Sentyabrın 13-də axşam Nuru paşa tərəfindən imzalanan həlledici hücum əmrinə əsasən, türk hərbi hissələrinin 9-cu, 10-cu, 13-cü, 56-cı piyada alayları və topçu bölmələri Qurd qapısı istiqamətində qərar tutmuşdular. Əmrə əsasən, 9-cu və 56-cı alaylar gece başlanacaq hücumla atəş açmadan "Sentrokaspi" və ingilis qüvvələrinin ilk müdafiə xəttini ələ keçirməli, sonra hücumu davam etdirərək, qarşı tərəfin ikinci müdafiə xəttini də nəzarət altına almalı, yalnız bundan sonra ələ keçirdikləri mövqelərdə möhkəmlənməklə, səhərin açılmasını gözləməli idilər. Arxada qalan alayların və topçu bölmələrinin yetişməsi ilə Bakıya doğru hücum davam etdirilməli idi.

Qafqaz İslam Ordusu qüvvələri sentyabrın 14-nə keçən gecə başlanan hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdilər. "Sentrokaspi"-ingilis qüvvələrinin son dərəcə güclü müqavimətinə baxmayaraq, hissə və bölmələrin çevik və sürətli fəaliyyəti, əsgər və zabitlərin, habelə Azərbaycan könüllülərinin mərdlik və əzmkarlıqla döyüşməsi, Nuru paşanın əməliyyatı məharətlə idarə etməsi, ordunun ehtiyatda saxlanılan 106-cı və 107-ci alaylarının vaxtında və yerində döyüşə qatılması qarşı tərəfin bütün ümidlərini puça çıxardı. Sentyabrın 14-də "Sentrokaspi"-ingilis qüvvələrinə ağır zərbə endirildi. Elə həmin günün axşamı ingilis qüvvələri Bakını tərk etdilər. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Bakını nəzarətdə saxlamağa çalışan qüvvələr xarici ölkələrin konsulluqlarının nümayəndələrinin iştirakı ilə aparılan danışıqlarda şəhəri təhvil verməyə razı olduqlarını bildirməyə məcbur oldular. Bununla da, Bakının azad olunması üçün türk-Azərbaycan qüvvələrinin Bakının azad olunması üçün apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. Sentyabrın 16-da qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Paradda Xəlil paşa, Nuru paşa, Əlağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan Parlamentinin və Hökumətinin üzvləri, bu qələbəni sevinc və ruh yüksəkliyi ilə qarşılayan Bakı və ətraf kəndlərin sakinləri iştirak edirdilər.

Paraddan sonra adları çəkilən şəxslər, Hökumət rəsmiləri qoşun bölmələrinin müşayiəti ilə Bakıya daxil oldular. Müstəqil Azərbaycan dövlətinin yeni paytaxtına çevrilmiş Bakının azad edilməsi ilə bağlı Hökumətin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildimıişdi: ***"...Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrinizə və dünyanın ən cəsur və soylu əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim ".***

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Süleymanov M, Azərbaycan ordusu (1918-1920), B., 1998; yenə onun., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Yüccer N., Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı, Ankara, 1996.

**BAKININ QIRMIZI ORDU TƏRƏFİNDƏN İŞĞALI** - Sovet Rusiyasının Bakını ələ keçirmək və Azərbaycan Xalq Cümhuriyyətini devirib bütün Şimali Azərbaycanı işğal etmək məqsədilə həyata keçirdiyi təcavüzkar hərbi əməliyyat (bax *Bakı əməliyyatı (1920))*.



**BAKININ MÜDAFİƏ SİSTEMİ** - 1919 ilin yayında Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı Bakı şəhərinin qurudan və dənizdən müdafiəsinin təşkili üçün həyata keçirilmiş hərbi tədbirlər sistemi. *Bakı istehkamçılar hissəsinin* rəhbərliyi altında aparılırdı. Bakı ətrafında 14 müdafiə mövqeyi yaradılmışdı. Onlardan ilk yeddisi Abşeron yarımadasının müdafiə xətti boyunca qurulmuşdu. Bakının müdafiəsi üçün Biləcəri, Böyükşor - Razin dağı və Əhmədli yüksəkliyindən keçən xətt boyunca qurulmuş mövqelər Abşeron yarımadasının müdafiə mövqelərinin davamı kimi nömrələnmişdi. 8-ci dayaq qrupu Biləcəridə, 9-cu qrup Dərnəgüldə, 10-cu Keşlədə, 11-ci Güvüldağda, 12-ci Əhmədlidə, 13-cü Sultan (Zığ) burnunda, 14-cü isə Nargin adasında yerləşdirilmişdi. Bu qrupların hər biri üçün 2 piyada bölüyü, 8 ədəd pulemyot və 2 ədəd top ayrılmışdı. Dayaq qrupları üçün səngərlər qazılmış, onların arasında əlaqələr yaradılmış, atəş mövqeləri düzəldilmiş və ətrafında tikanlı məftillərdən maneələr qurulmuşdu. Bakı ətrafının müdafiə xəttinin ümumi uzunluğu 40 verstə qədər idi.

Bakının dənizdən müdafiəsinin təşkili üçün aşağıdakı tədbirlər həyata keçirilirdi: 1) dənizdən Bakıya girəcək marşrutlann müşahidəsi; 2) Bakı hüdudlarının dənizdən qorunması üçün artilleriya müdafiəsinin təşkili; 3) Bakı buxtasında dəniz polisinin yaradılması. Xəzərdəki hərbi gəmilər ingilislər tərəfindən alınaraq Denikinin tabeliyinə verildiyi üçün Bakının dənizdən müdafiəsi yuxarıdakı təd-

birlərin həyata keçirilməsindən asılı idi. Bakıya hücumun qarşısını almaq üçün iki buxar gəmisi, bir neçə barkas və motorlu gəmi silah və hərbi texnika ilə təchiz edilmiş, Şıx və Sultan (Zığ) burunlarında, həmçinin Nargin adasında müdafiə batareyaları yerləşdirilmişdi. Dəniz polisi isə Bakı buxtasının qorunmasını öz üzərinə götürmüşdü.

Şəhərdaxili telefon şəbəkəsi yenidən qurulmuş, müdafiə mövqeləri və batareyaları ilə Bakı istehkamçıları arasındakı rabitə əlaqəsi möhkəmləndirilmiş, Bakı ətrafında qazıma-istehkam işləri genişləndirilmişdi.

Denikin qoşunlarının Azərbaycana hücum təhlükəsi aradan qalxandan və 1920 ilin yazında Qarabağda genişmiqyaslı erməni təcavüzü başlanandan sonra, Bakının müdafiəsinə xüsusi qüvvə ayrılması qeyrimümkün oldu. Bakı ətrafında olan qüvvələr də Qarabağda erməni-daşnak qoşunları ilə mübarizəyə səfərbər olunduğundan, *Aprel işğalı (1920)* zamanı müdafiə sistemi işğalçılara güclü müqavimət göstərə bilmədi.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; yenə onun, Qafqaz İslam ordusu və Azərbaycan, B., 1999.

**"BAKİNETS"** - 1907-20 illərdə Bakıda rus dilində nəşr edilmiş həftəlik ictimai, siyasi və ədəbi qəzet. Qəzetin birinci nömrəsi 1907 il sentyabrın 3-də, sonuncu nömrəsi isə 1920 il aprelin 26-da çıxmışdır. Bakıda 1918 il mart soyqırımından sonra bolşeviklər "Baku", *"Kaspi", "Naş qolos "* və digər qəzetlərlə birlikdə "Bakinets" qəzetini də bağlamışdılar.

**"BAKİNSKİ RABOÇİ"** - bolşevik qəzeti. RSDFP Bakı Komitəsinin orqanı. Fasilələrlə 1906, 1908, 1917-18 illərdə nəşr olunmuşdur. 1-ci nömrəsi 1906 il mayın əvvəllərində Bakıda gizli çıxmışdı. 1-ci nömrədən sonra nəşri dayandırılmışdı. 1908 ilin sentyabrından neft sənayesi fəhlələrinin ictimai-peşə qəzeti kimi nəşr olunmağa başlasa da, əslində, Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Bakı Komitəsinin orqanı idi. Redaksiya heyətinə M.İ.Batırev, S.D.Vulfson, P.A.Caparidze, V.F.Yefimov, S.S.Spandaryan, S.Şaumyan daxil idilər. "Bakinski raboçi" Azərbaycan xalqının milli mənafelərini təmsil etməkdən çox uzaq idi. O, bolşevik partiyasının mərkəzi orqanı olan "Proletari" qəzeti ilə sıx bağlı idi və onun siyasi xəttini ciddi-cəhdlə həyata keçirirdi. 1908 il oktyabrın 31-də çıxan 18-ci nömrəsindən sonra "Bakinski raboçi" "ziyanlı istiqamətınə görə" çar hakimiyyəti orqanları tərəfindən bağlandı. Bundan sonra Bakı bolşevikləri 1909 ilin fevral-martında "Volna" adlı leqal jurnalın iki nömrəsini buraxdılar. Bu, faktik olaraq, əvvəlki redaksiya heyəti tərəfindən buraxılan elə həmin "Bakinski raboçi" idi. 1917 il aprelin 22-də (mayın 5-də) "Bakinski raboçi" RSDFP Bakı Komitəsinin həftəlik orqanı kimi bərpa edildi. 1917 ilin noyabrına qədər həftədə üç dəfə, noyabrdan isə hər gün (bayramsəhəri günlərdən başqa) çıxırdı. 1917-18 illərdə 4000 nüsxə tirajla 267 nömrəsi çıxmışdır. 1917 ilin mayından "Bakinski raboçi"nin redak-toru Azərbaycan xalqının qatı düşməni S.Şaumyan, həmin ilin oktyabrından isə A.M.Amiryan olmuşdur. Redaksiya heyətinə A.M.Amiryan, P.A.Caparidze, N.N.Kolesnikova, V.İ.Naneyşvili, S.G.Şaumyan daxil idilər. V.Q.Yeqorov, A.B.Karinyan, S.İ.Kasyan, İ.V.Malıgin, İ.T.Fioletov qəzetdə əməkdaşlıq edirdilər. 1917-18 illərdə "Bakinski raboçi" V.İ.Leninin, bolşeviklər partiyası MK-nın göstərişlərini rəhbər tutaraq, bolşevik təbliğatı aparır, bolşevik şüarlarını təbliğ edir, kütlələri sosialist inqilabına çağırırdı. Sözdə "proletar beynəlmiləlçiliyi və xalqlar dostluğu"nu bayraq edən "Bakinski raboçi" daşnakların Cənubi Qafqaz xalqları arasında ədavət və düşmənçilik toxumu yayması üçün geniş meydan açmışdı. "Bakinski raboçi" hər cür milli ideyaya milli özünüdərkə, milli partiyalara, o cümlədən *"Müsavat"* partiyasına qarşı barışmaz mübarizə aparır, Azərbaycar fəhlələrini hər vasitə ilə milli azadlıq hərəkatından uzaqlaşdırmağa çalışırdı. Qəzet Azərbaycan xalqının hürriyyə və cümhuriyyət arzularına qarşı çıxır, bu istəyin real olmadığını, onun qeyrimümkünlüyünü təbliğ edirdi. Sonradan 10 minlərlə azərbaycanlıya qarşı soyqırımının əsas təşkilatçılarından olan S.Şaumyan "müsavat"çıları və demokratik qüvvələri hədələyərək "Bakinski raboçi"də yazırdı "Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə bir xarabazar alacaqlar". "Bakinski raboçi" Bakıda və Azərbaycanın digər bölgələrində 1918 ilin mart soyqırımlar ərəfəsində bolşevik-daşnak qüvvələrinin ruporu kimi çıxış edirdi. Bakıda S.Şaumyanın Xalq Komissarları Sovet hakimiyyəti devrildikdən sonra, 1918 il avqustun 11 –də "Bakinski raboçi"nin sonuncu (267-ci) nömrəsi çıxmış və nəşri dayandırılmışdı. *Aprel işğalından (1920)* sonra, iyulun 15-dən "Bakinski raboçi" "Azerbaydjanskaya bednota" adı ilə, 1920 il noyabrın 7-dən isə öz əvvəlki adı ilə yenidə nəşr olunmağa başladı. Sovet hakimiyyəti illərində AK MK, Az.SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olmuşdur. Hazırda "Bakinski raboçi" müstəqil Azərbaycanın mühüm kütləvi informasiya vasitələrindən biridir. Qəzetin təsisçisi Azərbaycan Respublikası Prezident Aparatının işlər idarəsidir.

*Əd.:* Axundov N., Azərbaycan dövri mətbuatı (1832-1920), B., 1987.

**BAKRADZE** Vladimir Aleksandroviç (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. 1919 ilin iyunundan Parlamentdə "Sosialistlər" blokuna daxil olmuş və həmin bloku təmsil etmişdir.

**BALAXANI - SABUNÇU POLİSMEYSTERLİYİ** Bakının Balaxanı-Sabunçu ərazisindəki neft mədənlərini mühafizəsini təmin edən polis qurumu. 19 əsrin sonunda Bakıda neft sənayesinin sürətlə inkişaf etdiyi bir vaxtda - 1897 ildə yaradılmışdır. 1917 il aprelin 17-də Bakı Xalq Komissarları Soveti polismeysterliyi ləğv etmişdir. Bakı Qafqaz İslam Ordusu tərəfindən azad olunduqdan sonra Cümhuriyyəti Hökumətinin qərarı ilə yenidən bərpa edilmiş, şəhərin neft mədənləri rayonlarında qayda yaradılması ona həvalə olunmuşdu. Ərazisi 7 polis məntəqəsinə (Sabunçu, Ramana, Zabrat, Balaxanı, Suraxanı, Binəqədi Corat) bölünmüşdü. Məntəqələrə pristavlar başçılıq edirdilər.

**BALIQ SƏNAYESİ İDARƏSİ** - balıq ovu, xəzinə və töycü rüsumlarının artmasına nəzarət və rəhbərlik edən qurum. 1880 il aprelin 20-də yaradılmış, 1918 il iyulun 4-də Bakı Xalq Komissarları Soveti Xalq Təsərrüfatı Şurasının qərarı ilə ləğv edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən (1918 il 17 sentyabr) sonra Balıq sənayesi idarəsi öz fəaliyyətini ilk növbədə baxımsızlıqdan tənəzzülə uğrayan vətəgələrin bərpasına yönəltmişdi. Bankə vətəgəsi də Cümhuriyyəti Hökumətinin 1918 il 30 avqust tarixli qərarına əsasən, bütün varidatı ilə birlikdə müsadirə edilmiş və 1919 il yanvarın 1-dək xəzinə vəsaiti hesabına istismar olunmuşdur. Sonra isə xəzinə ilə imzalanmış müqaviləyə əsasən, 1920 il iyunun 1-dək xüsusi şəxsə, çay və göllərdəki digər məntəqələr isə hərrac vasitəsilə icarəyə verilmişdi. Balıq sənayesi idarəsi 1919 il oktyabrın 15-də xəzinəyə məxsus 44 siyənək ovu məntəqəsini 1920 il yanvarın 1-dən 6 il müddətinə icarəyə vermək barədə qərar qəbul etmişdi. Bundan əlavə, idarə xəzinənin xeyrinə rüsumların artmasına, xəzinə gəlirlərinin töycü hesabına çoxalmasına səbəb ola biləcək bir sıra tədbirlər görmüşdü.

**BAMMAT** (Bammatov) Heydər (?-?)- dağlı ictimai-siyasi hərəkatının liderlərindən biri, liberal-demokrat. Fevral inqilabından (1917) sonra Dağıstan əhalisinin Temirxan-Şurada seçdiyi (1917, 9 mart) Müvəqqəti Vilayət İcraiyyə Komitəsinin üzvü olmuşdur. 1917 il sentyabrın 1-dəTemirxan-Şurada təşkil edilən Dağıstan Milli Müsəlman Komitəsinin tərkibinə daxil idi. Ümumrusiya Müəssislər məclisinə, III Ümumdağıstan qurultayında (1918, yanvar) Dağıstan İcraiyyə Komitəsinə üzv seçilmişdi. Müvəqqəti Dağlılar hökumətinin üzvü, Cənubi Qafqaz birliyi ilə danışıqlar aparmaq üçün Tiflisə göndərilən nümayəndə heyətinin sədri olmuşdur. 1918 ilin martında Tiflisdə Zaqafqaziya seyminin Müsəlman fraksiyası ilə Şimali Qafqaz nümayəndə heyətinin birgə iclasında Azərbaycanla Şimali Qafqaz arasında münasibətləri tənzimləmək üçün yaradılan xüsusi komissiyanın dağlılar tərəfindən üzvlərindən biri də Bammat idi. *Trabzon konfransında* qeyri-rəsmi iştirak etmiş,*Ə.M.Çermoyevlə* birlikdə 1918 il mayın 11-də Qafqaz Dağlılar İttifaqı dövlətinin müstəqilliyini elan edən İstiqlal bəyannaməsini imzalamışdır. Şimali Qafqaz nümayəndə heyəti *Batum konfransında (1918)* rəsmən iştirak etmiş, Bammat burada Almaniyanın Türkiyədəki səfiri Bensdorf, Batum konfransında alman diplomatik heyətinin rəhbəri fon Lossov, Türkiyə və Cənubi Qafqaz dövlətlərinin nümayəndələri ilə Şimali Qafqaz Respublikasının müstəqilliyinin tanınması ilə bağlı danışıqlar aparmışdır. 1918 il iyunun 8-də Şimali Qafqaz Respublikası Osmanlı dövləti ilə dostluq haqqında müqavilə imzalamış və ondan hərbi yardım təminatı almışdı. Bammat xarici işlər naziri kimi Avropaya getmiş, 1918 ilin dekabrında təşkil edilən yeni hökumətin tərkibində də xarici işlər naziri təyin olunmuşdu. 1919 il iyunun 12-də Bammat Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinə Qafqaz ərazisində qarşılıqlı münasibətləri tənzimləmək və vəziyyəti yerində öyrənmək məqsədilə bu regiona xüsusi komissiya göndərilməsi üçün *Paris sülh konfransına* müraciət olunmasını təklif etmiş, iyunun 15-də isə bolşevizmlə mübarizə adı ilə Denikinə kömək göstərilməsinin dağlı xalqları və dövlətini məhvə sürüklədiyini bildirərək, Gürcüstan və Azərbaycanı Denikinin hərəkətlərinə qarşı etiraz notası verməyə çağırmışdır. Azərbaycan və dağlı nümayəndə heyətlərinin 18 iyun tarixli birgə iclasında Antantanın Kolçak hökumətini Ümumrusiya hökuməti kimi tanıması ilə əlaqədar Bammatın rəhbərlik etdiyi komissiyanın hazırladığı nota qəbul olunmuşdur.

Bammat Qafqaz Konfederasiyası tərəfdarı olmuş, Azərbaycana qarşı ərazi iddiaları qaldıran bəzi Dağlılar hökuməti nümayəndələrinə qəti etirazını bildirmişdir. 1919 il mayın 30-da Parisdə Azərbaycan və Şimali Qafqaz dağlılarının Paris sülh konfransındakı (1919-20) nümayəndələ-rinin Əlimərdan bəy *Topçubaşovun* sədrliyi ilə keçirilən iclasında Bammat Qafqaz Konfederasiyası yaradılmasının tərəfdarı olduğunu bildirmişdi.

Bammatın ərəb, türk və Azərbaycan dillərində çap edilən "Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu" kitabında islamın ümumdünya mədəniyyətinə təsirindən bəhs edilir. O, həmin əsərində Qərbə pərəstişin, "qərbmərkəzçilik" nəzəriyyəsinin əleyhinə çıxmışdır.

Əsəri: Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu, B., 1994.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920 illər), B., 1993; Göyüşov A., 1917-1920 illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**BARATOV N.N.** (?-?)- rus generalı. Birinci dünya müharibəsi (1914-18) illərində İrandakı rus ordusunun korpus komandiri olmuşdur. 1919 ilin yayında A.İ.Denikin hökumətinin Cənubi Qafqaz respublikalarında rəsmi nümayəndəsi idi. Denikin Baratova göndərdiyi təlimatda Cənubi Qafqaza Rusiyanın tərkib hissəsi kimi baxdığını bildirir, hələlik isə yerli hökumətlərin mövcudluğunun qəbul olunmasını tövsiyə edirdi. Bu təlimata əməl edən Baratov Azərbaycan Xalq Cümhuriyyəti rəsmilərinə bəyan etmişdi ki, Denikinin Könüllü ordusunun Cənubi Qafqaza münasibətdə təcavüzkar niyyətləri yoxdur; Cənubi Qafqaz məsələsi gələcək Rusiya Müəssislər məclisinin işi olacaq, amma Könüllü ordu tələb edir ki, Sovet Rusiyasına qarşı blokada siyasətinə əməl olunsun. Baratov bu missiya ilə Tiflisdə olarkən, 1919 il sentyabrın 13-də gürcü kommunisti A.K.Elbakidze tərəfindən ağır yaralanmışdı.

**BAŞ ƏRKANİ-HƏRB,** Baş qərargah- qoşun hissələrinin formalaşmasına, təlim-tərbiyəsinə, döyüş hazırlığına, hərbi əməliyyatların icrasına rəhbərlik edən ali hərbi idarəçilik orqanı. 1919 il martın 26-da hərbi nazir Səməd bəy *Mehmandarovun* əmri ilə yaradılmışdı. Həmin vaxta qədər Baş ərkani-hərbin funksiyalarını ümumi qərargah həyata keçirirdi. Azərbaycan ordusu inkişaf etdikcə onun gündəlik fəaliyyət məsələlərinin və təsərrüfat problemlərinin həllinin bir orqanda - ümumi qərargahda cəmləşdirilməsi səmərəli nəticə vermirdi. Ona görə də, Baş ərkani-hərb yaradılmaqla, qoşunların formalaşdırılması, təlim-



Milli ordu hissələri döyüş hazırlığı düşərgəsində. 1919

tərbiyəsi, dislokasiyası və b. məsələlər ona həvalə edildi. Çar Rusiyası ordusu tərkibində yaradılmış 1-ci *Müsəlman korpusunun* keçmiş komandiri general-leytenant Məmməd bəy *Sulkeviç* Baş ərkani-hərbin rəisi təyin edildi. Bu idarəetmə strukturunun tərkibində general-kvartirmeyster, hərbi topoqrafiya və hərbi daşınmalar idarələri var idi. *General-kvartirmeyster idarəsi* müharibəyə hazırlıq planlarının işlənilməsi, toplanış məntəqələrinin seçilməsi, onların hər cəhətdən hazırlanması və səfərbərlik planının tərtib edilməsi ilə məşğul olan əməliyyat-səfərbərlik bölməsindən, orduda təlim-tərbi - yəni təşkil edən nizami bölmədən ibarət idi. Hərbi topoqrafiya idarəsi qoşun hissələrini və qərargahları hərbi xəritələrlə təmin edirdi. Bir müddət sonra Baş ərkani-hərbin tərkibinə keçirilmiş hərbi daşınmalar idarəsi dəmir yollarını və digər yolları hərbi məqsədlər üçün hazırlayır, arxa cəbhəni bütün zəruri ləvazimatlarla təmin edirdi.

Baş ərkani-hərbin rəhbərliyi altında ordunun yeni hərbi hissələrinin yaradılması və möhkəmləndirilməsi sürətləndirildi, *Abşeronun müdafiə sistemi, Bakının müdafiə sistemi* yaradıldı, Bakının dənizdən müdafiəsi işlənib hazırlandı, şimal sərhədinin müdafiə sistemi quruldu.

1921 il fevralın 27-də general Məmməd bəy Sulkeviç Baş ərkani-hərbin rəisi vəzifəsindən azad edildi. Həmin vəzifənin icrası müvəqqəti olaraq general-mayor Həbib bəy *Səlimova* tapşırıldı. Azərbaycan ordusunun idarəetmə orqanlarında aparılan islahatlarla əlaqədar olaraq 1920 il martın 1-də Baş ərkani-hərb ləğv edildi və onun funksiyaları Azərbaycan ordusu baş qərargahına həvalə olundu.

1922 *Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**BAŞ TOPÇU İDARƏSİ** - Azərbaycan ordusunun topçu hissə və bölmələrinin formalaşdırılması və təlim-tərbiyəsinə, həmçinin atıcı və topçu ehtiyat əmlakının yaradılması, qorunması və qoşun hissələrinə çatdırılması işinə rəhbərlik edən hərbi qurum. Türk hərbi qüvvələri Azərbaycanda olarkən bu vəzifələr *Qafqaz İslam Ordusunun* müvafiq strukturları tərəfindən həyata keçirilirdi. Hərbi nazirlik bərpa edildikdən sonra 1918 il noyabrın 15-də Azərbaycan ordusu ümumi qərargahının tərkibində topçu şöbəsi yaradıldı və general-mayor Murad Gəray *Tlexas* həmin şöbənin rəisi təyin edildi. Qoşun hissələrinin təşkili sürətləndikcə, topçu şöbəsinin fəaliyyətinin və statusunun genişləndirilməsinə də ehtiyac artırdı. Hərbi nazirin 1918 il 31 dekabr tarixli əmri ilə topçu şöbəsinin bazasında Baş Topçu İdarəsi yaradıldı. Yeni qurum Ümumi qərargahın tərkibindən çıxarılaraq birbaşa hərbi nazirə tabe edildi. Baş Topçu İdarəsinin rəisi Əlahiddə Azərbaycan korpusunun tərkibinə daxil olmayan bütün topçu hissələrinin, müəssisələrinin rəisi idi. Korpusun topçu hissələri üçün isə o, müfəttiş funksiyasını yerinə yetirirdi. İdarə rəisi həmin hissələrdə təlim-tərbiyə işlərini nəzarət altında saxlamaqla, vaxtaşırı hərbi nazirə bu barədə məlumat verməli idi.

Baş Topçu İdarəsi iki bölmədən ibarət idi: 1-ci bölmə texniki, 2-ci bölmə isə müfəttiş bölməsi. Bölmələrə rəisin texniki və müfəttiş bölmələri üzrə müavinləri rəhbərlik edirdilər. Texniki bölmə Azərbaycan ordusunun bütün nizami hissələrini topçu texnikası, sursat və ləvazimatla təchiz


Milli ordunun topçusu

edir, topçu əmlakının mühafizəsini həyata keçirirdi. Müfəttiş bölməsi isə topçu hissə və bölmələrinin döyüş hazırlığına cavabdeh idi. Baş Topçu İdarəsinin tabeliyində iki topçu anbarı vardı. Mərkəzi anbar Ləki stansiyasında, digəri isə Kürdəmirdə yerləşirdi.

1919 il dekabrın 1-dən general-mayor Murad Gəray Tlexas *Bakı istehkamçılar hissəsinin* rəisi vəzifəsini icra etdiyindən, onun yerinə 1-ci topçu briqadasının komandiri general-mayor Məhəmməd Mirzə *Qacar* təyin olundu. 1920 ilin martında ordunun təchizat və təminat strukturlarında Azərbaycan ordusunun təchizat rəisinin idarəsi yaradıldı. Baş Topçu İdarəsi ordunun topçu təchizatı idarəsi adı ilə ordunun təchizat rəisinin tabeliyinə verildi. General-mayor Məhəmməd Mirzə Qacar Azərbaycan ordusunun təchizat rəisi təyin edildiyindən polkovnik Əlibəyov topçu təchizatı idarəsinin rəisi təyin olundu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**BATUM KONFRANSI** - Osmanlı Türkiyəsi və *Zaqafqaziya seymi* nümayəndələrinin iştirakı ilə keçirilmiş konfrans (1918, 11 may-4 iyun). 45 nəfərlik Cənubi Qafqaz nümayəndə heyətinə Zaqafqaziya hökumətinin sədri və xarici işlər naziri A.Çxenkeli başçılıq edirdi. Nümayəndəliyin həlledici səsə malik 6 üzvü arasında *M.Ə.Rəsulzadə* və *M.H.Hacınski* də vardı. Osmanlı nümayəndə heyətinə ədliyyə naziri Xəlil bəy Menteşe rəhbərlik edirdi; heyətə Qafqaz cəbhəsi Osmanlı ordularının Baş komandanı Mehmet Vehib paşa və b. da daxil idilər. Almaniya təmsilçisi fon Lossov müşahidəçi statusu ilə konfransa qatılmışdı.

Cəmi bir rəsmi toplantısı keçirilən konfransda Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəy Menteşe "Osmanlı imperiyası ilə Transqafqaz Konfederasion Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsini müzakirəyə çıxardı. Osmanlı tərəfinin bir sıra yeni tələb və təkliflərini özündə əks etdirən bu sənədə münasibətdə Cənubi Qafqaz nümayəndəliyində fikir ayrılıqları yarandı və mövqelərin qütbləşməsi, xarici güclərə meyllənmənin qüvvətlənməsi baş verdi.

Azərbaycandan olan təmsilçilər Osmanlı layihəsini dəstəklədilər. Çünki onlar ermənilərin də yaşadıqları bəzi ərazilərin (Axalkalaki və Ahısqa qəzalarının bütünlüklə, Sürməli, Aleksandropol, Eçmiədzin qəzalarının isə müəyyən hissələrinin) Osmanlı dövlətinə güzəştə gedilməsinin Cənubi Qafqazda Azərbaycanın mövqelərini qüvvətləndirəcəyi qənaətində idilər. Qafqaz türklərinin yaşadıqları müxtəlif ərazilərdən Osmanlı dövləti ilə birləşməyə dair çağırışlar, azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımları, *Bakı Xalq Komissarları Soveti* qoşunlarının Gəncəyə yürüşünün qarşısının alınması zərurəti, nəhayət, Türkiyəyə meylli siyasət də Xəlil bəyin mövqeyinin dəstəklənməsində az rol oynamadı.

Bu dövrdə Almaniya-Osmanlı münasibətlərində özünü göstərən gərginliyə ümid bağlayan ermənilər və gürcülər Almaniya nümayəndəliyinin konfransa daha yaxından cəlb edilməsinə yönəlmiş diplomatik gedişlərə əl atdılar. Bu, Cənubi Qafqaz nümayəndəliyinin Xəlil bəyin layihəsi müqabilində irəli sürdüyü təkliflər paketində özünü aydın göstərdi. Cənubi Qafqazın müqaviləni yalnız Türkiyə ilə deyil, Dördlər İttifaqının (Mərkəzin) digər dövlətləri ilə də bağlaması təklifi və s. Almaniyanın maraqları baxımından cəlbedici idi. Çünki bu halda, birincisi, Ənvər paşanın Şərq siyasəti hər vasitə ilə əngəllənər, ikincisi, Şimali Qafqazı Almaniyaya tabe etmək imkanı yaranar, üçüncüsü, Gürcüstanda Almaniyanın təsiri qüvvətlənər, dördüncüsü, Osmanlı dövləti bütün gücünü ingilislərin Bakıya yolunu bağlamağa yönəldərdi.

Bir sıra ciddi səbəb və amillər Batum konfransında, daha sonra isə Zaqafqaziya seymində siyasi qarşıdurmanı sürətləndirdi: Cənubi Qafqaz nümayəndəliyinin təklifləri Osmanlı sülh heyəti tərəfindən rədd edildi; Osmanlı hərbi hissələri Ermənistanın içərilərinə doğru irəlilədi; Xəlil bəy alman vasitəçiliyindən imtina etdi və Almaniya nümayəndəliyi (fon Lossov) Batumdan çıxdı; müsəlman fraksiyası Zaqafqaziya hökumətinin bolşeviklərin Bakıdan çıxarılması üçün tədbirlər görməyəcəyi halda, seymi tərk edəcəyi barədə bəyanat verdi; Türkiyə tərəfi mayın 26-da konfransa memorandum (ultimatum) təqdim etdi.

Bütün bunlar Qafqazın ictimai-siyasi həyatında keyfiyyətcə yeni mərhələyə keçidin yaxınlaşdığını göstərirdi. Vəziyyətdən çıxış yolları arayan tərəflər vahid dövlət şəklində birləşmək imkanlarının tükənməsində həmrəy idilər. Bu şəraitdə Azərbaycan nümayəndələrinin gürcülərə vahid dövlət yaratmaq təklifi də baş tutmadı. Gürcülər, artıq, almanların himayəsində ayrıca gürcü dövləti yaratmaq qənaətinə gəlmişdilər.

Dövlətçiliyə və xarici ölkələrin himayəsinə fərqli baxışların gerçəkləşməsi Zaqafqaziya seymi və hökumətinin dağılması, müstəqil Cənubi Qafqaz dövlətlərinin yaranması ilə nəticələndi. Yeni siyasi durum Batum konfransının yarımçıq qalması təhlükəsini yaratdı. Lakin müsəlman fraksiyasının Batum danışıqlarının davam etdirilməsinə dair qərarın (27.5.1918) digər tərəflərin dəstəkləməsi konfransı uğursuzluqdan xilas etdi.

Yeni yaranmış Cənubi Qafqaz cümhuriyyətləri Batum danışıqlarının davam etdirilməsi ilə razılaşdılar. Danışıqlar 1918 il iyunun 4-də Osmanlı dövləti ilə Cənubi Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilələr bağlanması ilə yekunlaşdı. *Batum müqavilələri* ilə Osmanlı dövləti, Brest-Litovsk sülhünə zidd olmasına baxmayaraq, 1828 il sərhədlərini bərpa etdi

Konfransın Azərbaycan Xalq Cümhuriyyətii üçün mühüm nəticəsi oldu. Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında Batumda ikitərəfli müqavilə bağlandı. Batum müqaviləsi Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsi üçün etibarlı hərbi-siyasi dəstək oldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h.2, B., 2001; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr),3 hissədə, h.l, B., 2003. Şahin E., Trabzon ve Batum Konfransları ve Anlaşmaları (1917-1918), Ankara, 2002.

**BATUM MÜQAVİLƏLƏRİ (1918)** Osmanlı imperatorluğu ilə Cənubi Qafqaz Respublikaları arasında müqavilələr. 1918 il martın 14-dən aprelin 14-dək keçirilən Trabzon və mayın 11-dən iyunun 4-dək keçirilmiş Batum konfranslarında aparılan danışıqlar nəticəsində iyunun 4-də imzalanmışdır.

O s m a n l ı d ö v l ə t i i l ə A z ə r b a y c a n X a l q C ü m h u r i y y ə t i a r a s ı n d a m ü q a v i l ə. Müqaviləni Osmanlı hökuməti tərəfindən ədliyyə naziri və Dövlət Şurasının sədri Xəlil paşa Menteşe, Qafqaz cəbhəsinin komandanı Mehmet Vehib paşa, Azərbaycan Xalq Cümhuriyyətii tərəfindən isə Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə və xarici işlər naziri Məmməd Həsən Hacınski imzalamışdılar. Batum müqaviləsi Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə imzaladığı ilk müqavilə idi və Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını təşkil edirdi. On bir maddədən ibarət müqavilənin giriş hissəsində göstərilirdi: "Bir tərəfdən Osmanlı imperator hökuməti, digər tərəfdən isə öz müstəqilliyini yenicə elan etmiş Cümhuriyyəti Hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməklə, qarşıklıqlı surətdə razılığa gəlirlər".

Müqavilənin birinci maddəsində Osmanlı İmperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında sülh və dostluqdan bəhs edilir. İkinci maddə isə Osmanlı İmperiyası ilə üç Cənubi Qafqaz respublikası arasında sərhəd xəttinin müəyyən edilməsinə aid idi. İkinci maddəyə əsasən, Azərbaycan Türkiyə ilə geniş sərhədləri olan dövlət idi. Üçüncü maddə yenə də sərhədlərə aid olub, Cənubi Qafqaz respublikaları arasında sərhədləri müəyyən edən protokolların imzalanmasını nəzərdə tuturdu.

Müqavilənin dördüncü maddəsi Azərbaycan üçün daha önəmli idi. Osmanlı hökuməti sülh və əmin-amanlığı, ölkənin təhlükəsizliyini təmin etmək üçün, ehtiyac yaranarsa, Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürürdü. Müqaviləyə əsasən, Azərbaycan Hökuməti onun sərhədboyu ərazilərində yaradılmış silahlı quldur dəstələrini (dinc türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirən silahlı daşnak dəstələri nəzərdə tutulur - *red.)* tərksilah etmək və qovmaq barədə öhdəlik qəbul edirdi.

Müqavilənin digər maddələrində dəmir yol yüklərinin daşınmasında tərəflərin öhdəliklərindən, konsulluq konvensiyası, ticarət müqaviləsi və s. aktların hazırlanmasından, sərbəst gediş-gəlişdən, poçt-teleqraf əlaqələrindən, Brest-Litovsk müqaviləsinin tərəflər arasında qüvvədə olmasından danışılırdı. Sonuncu maddədə müqavilənin bir ay ərzində ratifikasiya olunması və təsdiq edilmiş mətnlərin İstanbulda mübadiləsi nəzərdə tutulurdu. Müqavilə bağlandığı zaman Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hələ Tiflisdən Gəncəyə köçməmişdi. Özünü Sovet Rusiyasının yerli hökuməti elan edən və S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin daşnak-bolşevik ordusu Gəncə üzərinə hücuma başlamışdı. Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirilirdi. Hərbi vəziyyətin Azərbaycan Xalq Cümhuriyyəti üçün son dərəcə ağır olduğu belə məqamda Azərbaycan nümayəndələri Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacınski Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında Batum müqaviləsinin dördüncü maddəsinə əsasən, Azərbaycana hərbi yardım göstərilməsi barədə Osmanlı dövlətinə müraciət etdilər. Müraciət qəbul olundu və Azərbaycan Xalq Cümhuriyyətinə yardım göstərildi.

Batum konfransının yekunu kimi Osmanlı dövləti Gürcüstanla və Azərbaycan nümayəndələrinin yardımı ilə Ermənistanla da "sülh və dostluq müqavilələri" imzalayıb onların müstəqilliyini tanıyırdı.

1918 il iyunun 4-də O s m a n l ı d ö v l ə t i i l ə G ü r c ü s t a n a r a s ı n d a b a ğ l a n m ı ş m ü q a v i l ə 13 maddədən ibarət olmuşdur. Müqaviləni Gürcüstan Respublikası tərəfindən baş nazir və daxili işlər naziri N.Ramişvili və C.Odişelidze, G.Gvazava, G.Ritkiladze imzalamışdılar. Müqavilənin ikinci maddəsi sərhəd xəttinin müəyyən edilməsinə aid idi. Müqaviləyə əsasən, Qars, Ərdəhan və Batumun, həmçinin Axalsıx və Axalkalakinin Türkiyəyə keçdiyi təsdiq edilirdi. Lakin Türkiyə mayın 11-də elan etdiyi tələbləri yumşaldaraq Abastuman və Askurun Gürcüstanda qalmasına razılıq verdi. Müqavilənin altıncı maddəsinə əsasən, Gürcüstan Respublikası ərazisində məskun olan müsəlmanlar dini ayin və adətlərinə riayət edəcəkdilər. Bu müsəlmanlar da digər Gürcüstan vətəndaşları kimi bərabər mülki və siyasi hüquqlara malik olmalı və milli dil və dinləri üzrə təhsil ala bilərdilər.

Osmanlı dövləti ilə Ermənistan arasında bağlanmış müqaviləni Ermənistan tərəfindən O.RKaçaznuni, A.Xatisyan və M.Papacanov imzalamışdılar. 14 maddədən ibarət müqaviləyə əsasən, Ermənistan Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul etdi. Eçmiədzin və Aleksandropol (Gümrü) Türkiyəyə keçir, Türkiyə Aleksandropol-Culfa dəmir yolundan istifadə etmək hüququ alırdı. Ermənistanın sərhədi İrəvan yaxınlığından keçirdi. Onun ixtiyarında cəmi 6 *km-lik* dəmir yolu qalmışdı.

Batum müqaviləsinə görə, Ermənistan Respublikasının ərazisi 10 min *kv. km* müəyyən edilirdi. Gürcüstan və Ermənistan hökumətləri öz ərazilərində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini, azad inkişafını təmin etmək, ana dilində təhsil almaq, dini ayinlərin sərbəst icrasına şərait yaratmaq haqqında təəhhüd götürürdülər.

1918 il 4 iyun tarixli müqavilələrə əlavə sazişlər də imzalanmışdı (bax *Batum müqavilələrinə əlavə sazişlər).*

Batum müqavilələri və ona əlavə sazişlər Cənubi Qafqaz respublikalarının Osmanlı hökuməti tərəfindən tanınması demək idi.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B.,2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N, Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l, B., 2003.

**BATUM MÜQAVİLƏLƏRİNƏ ƏLAVƏ SAZİŞLƏR** - Batum müqavilələrinin (1918, 4 iyun) konkret detalları üzrə razılaşdırılmış sazişlər. Bakı-Batum neft kəmərinə aid saziş. Osmanlı imperiyası ilə Azərbaycan və Gürcüstan arasında, dəmir yollarına aid ikinci saziş isə dörd dövlət - Cənubi Qafqaz respublikaları ilə Osmanlı imperiyası arasında imzalanmışdı.

Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında "Sülh və dostluq" müqaviləsinə əlavə olaraq, 1918 il iyunun 14-də Batumda daha iki saziş imzalandı. Birinci sazişdə 4 iyun müqaviləsinin Almaniyaya və Avstriya-Macarıstana da aid olduğu bildirilir, Türkiyə öz müttəfiqləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınacağı haqqında üzərinə təəhhüdlər götürürdü. İkinci sazişə görə, Dördlər İttifaqı ilə müharibə edən ölkələrin hərbi və mülki məmurları təcili olaraq respublika ərazisindən çıxarılmalı və bu ölkələrin zabitləri hərbi xidmətə qəbul edilməməli idi. Osmanlı hərbi komendantlığı Azərbaycan dəmir yolundan hərbi məqsədlərlə istifadə hüququ alırdı.

Gəncədə 1918 il iyulun 14-də Osmanlı dövləti hərbi dəmir yolları və limanları baş idarəsinin rəisi İsmayıl Hakkı paşa və Azərbaycanın ticarət və sənaye naziri Ağa Aşurov 5 maddədən ibarət müqavilə imzalamışdılar. Müqaviləyə görə, Azərbaycan Hökuməti Osmanlı imperatorluğu hökuməti qarşısında dəmir yollarını və dəniz gəmiçiliyini neft və neft məhsulları ilə təmin və təchiz edilməsini öhdəsinə götürürdü; birinci maddə Bakı və neft rayonu Azərbaycan Hökumətinin tabeliyinə keçdiyi andan qüvvəyə minirdi; neft və neft məhsullarının qiyməti və texniki şərtlər *Batum müqavilələrinə (1918)* uyğun olaraq yaradılmış qarışıq komissiya tərəfindən hazırlanmalı idi; Osmanlı hökumətinə verilən yanacağın əvəzində qısa müddətdə Azərbaycan Hökumətinin hesabına kredit olaraq, 500 min türk lirəsi verilməli idi və s.

Həmin tarixdə İsmayıl Hakkı paşa, Azərbaycanın yollar naziri X.Məlik-Aslanov və xarici işlər naziri M.H.Hacınski 7 maddədən ibarət digər bir müqavilə də imzalamışdılar. Müqaviləyə görə, Azərbaycan yolları 5 il müddətinə Osmanlı dövlətinin istifadəsinə verilirdi. Azərbaycan Hökuməti respublikanın bütün yollarının daşınar və daşınmaz əmlakını və bütün materiallarını Osmanlı hərbi dəmir yolları baş idarəsinə verirdi. Dəmir yolları Osmanlı baş idarəsi tərəfindən yaradılan müəssisələr və qulluqçular tərəfindən onun vəsaiti ilə idarə olunmalı idi. Dəmir yollarının ilkin gəlirinin 75%-i Azərbaycan Hökumətinə verilməli idi; hərəkət heyətinin və digər materialların təhvil-təslimi qarışıq komissiya tərəfindən tədricən həyata keçirilirdi. Türk qulluqçuları Gəncəyə gələn kimi Azərbaycan Hökuməti müvafiq komissiya yaratmalı və təhvil-təslim aparmalı idi. Müqavilələr imzalandığı andan qüvvəyə minirdi.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Qasımov M.C., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h.2 (1917-ci il noyabr-1918-ci il noyabr), B., 2001; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l. B., 2003.

**BATUM VİLAYƏTİ** (Acarıstan) - Cənubi Qafqazda tarixi vilayət. 16 əsrdən Osmanlı dövlətinin tərkibinə daxil idi. 1877-78 illər Rusiya-Türkiyə müharibəsi nəticəsində Qars və Ərdəhanla birlikdə Rusiya imperiyasına ilhaq edilmişdi. Batum vilayəti Artvin və Batum dairələrindən ibarət idi. Qafqaz təqviminin (1917) məlumatına görə, ərazisi 6129,41 *kv. verst,* əhalisi 122811 nəfər idi (95292 nəfəri yerlilər, 27519-u müvəqqəti yaşayanlar). Əhalinin böyük çoxluğunu müsəlmanlar təşkil edirdi. Vilayət əhalisinin 16,3%-i (20020 nəfər) Batum şəhərində yaşayırdı. Batum Qafqaz cəbhəsinin arxa hissəsini təşkil etdiyindən, burada hərbi hissələr yerləşdirilmişdi. Fevral inqilabından (1917) sonra Batumda şəhər icraiyyə komitəsi yaradılmış, 13 (26) mayda *OZAKOM-a* tabe olan vilayət icraiyyə komitəsi seçilmişdi. Onunla yanaşı fəhlə və əsgər deputatları soveti də fəaliyyət göstərirdi. Oktyabr çevrilişindən (1917) sonra Batum vilayətində siyasi vəziyyət kəskinləşdi. Eser-menşeviklər və daşnaklar 2 (15) noyabrda ictimai təhlükəsizlik inqilabi komitəsi yaratdılar. Komitə dekabrın ortalarında Qafqaz cəbhəsindən qayıdan rus əsgərlərinin tərksilah olunması haqqında qərar qəbul etdi. 1918 il Brest sülhünə görə, Batum vilayəti, Ərdəhan və Qars Türkiyəyə keçməli idi. Zaqafqaziya komissarlığı və seymi Türkiyə ilə danışıqlara başlamağı qərara aldı. Danışıqlar martra 14-də Trabzonda başlandı (bax *Trabzon konfransı).* Zaqafqaziya seyminin nümayəndə heyəti Brest-Litovsk müqaviləsini tanıyıb-tanımamaq haqqında vahid fikrə gələ bilmədi.

Aprelin 13-də Seym Türkiyəyə müharibə elan etdi. Türk qoşunları aprelin 14-də Batumu tutdu, 22-də sülh təklifi irəli sürdü. Aprelin 22-də Seym müstəqil *Zaqafqaziya Demokratik Federativ Respublikasının* yarandığını bəyan etdi. Türkiyə aprelin 28-də yeni dövləti tanıdı. Tərəflər arasında danışıqlar mayın 11 -də Batumda başlandı (bax *Batum konfransı).*

Batumda Türkiyə idarə üsulu bərqərar edildi. Türkiyə hərbi qubernatorluğu ilə birgə şəhər duması və məclis fəaliyyətə başladı. Türkiyə ilə Gürcüstan Demokratik Respublikası arasında bağlanmış 1918 il 4 iyun müqaviləsinə görə, Batum vilayətinin Türkiyəyə keçməsi rəsmən qəbul edildi. Lakin Türkiyə Birinci dünya müharibəsində (1914-1918) məğlub olduğundan türk hərbi qüvvələri Cənubi Qafqazı tərk etməli oldu. Dekabrın 16-da ingilis gəmiləri Batum limanına daxil oldu. Vilayətdə hakimiyyət ingilislərin əlinə keçdi və burada Batum vilayətini idarə şurası yaradıldı. İngilislər Batum vilayətini özlərinin hərbi-siyasi dayaq məntəqəsinə çevirmək üçün onu müstəqil elan etdilər. Lakin vilayət şurası "vahid və bölünməz Rusiya" tərəfdarı kimi çıxış edirdi. İngilislər yaranmış vəziyyəti nəzərə alıb, aprelin 28-də şuranı ləğv etdilər. Batum vilayəti ingilislərin işğal zonası kimi idarə olunurdu. 1919 il sentyabrın 13-də "Gürcüstan müsəlmanlarının azadlıq komitəsi" Batumda Acariya məclisi yaratdı. 1920 il aprelin 8-də Antanta Ali Şurası Batumu azad liman (portofranko) elan etdi. Sovet Rusiyası Batum ətrafında gedən hadisələrdə fəal iştirak edirdi. Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Gürcüstan arasında bağlanmış 1920 il müqaviləsində də bu məsələdən bəhs olunurdu. İyulun 14-də müttəfiqlər Acarıstanı Gürcüstana verməyi qərara aldılar. Gürcü hökuməti burada "fövqəladə idarə" qurdu. Bolşevik müdaxiləsinin gücləndiyini görən hökumət 1920 ilin sonlarında Türkiyə ilə danışıqlara başladı. Türkiyənin köməyi müqabilində Acarıstanın ona verilməsi vəd olunurdu. Gürcüstanda sovet hakimiyyətinin qurulması ilə (1921, fevral) vəziyyət dəyişdi.

Türkiyə martın 11-də qoşunlarını Batuma yeritdi. Lakin 1921 il Sovet-Türkiyə müqaviləsinə əsasən, Türkiyə Gürcüstan Sovet Sosialist Respublikasının Batum vilayəti üzərində hüququnu tanıdı və öz qoşunlarını oradan çıxardı. Martın 18-də Batum vilayətində sovet hakimiyyəti elan olundu. İyunun 16-da Gürcüstanın tərkibində Acarıstan MSSR yaradıldı.

*Əd.:* Борьба за победу Советской власти в Грузии, Тбилиси, 1958; Российскай Советская Федеративная Социалистическая республика и Грузинская Демократическая Республика,М., 1922.



**BAYRAMƏLİBƏYOV** Teymur bəy Məmməd bəy oğlu (22.7.1862, Lənkəran qəzasının Yeddioymaq k. (indiki Masallı rayonu) - 4.9.1937, Bakı) - ictimai xadim, etnoqraf, folklorşünas və maarifçi. Lənkəran şəhər idarəsinin üzvü olmuşdur. İlk təhsilini kənd mollaxanasında, Lənkərandakı üçillik ikisinifli rus məktəbində almış, Tiflis feldşer məktə-bində oxumuşdur.Bayraməlibəyov *Qori müəllimlər seminariyasının* Azərbaycan şöbəsini bitirmiş ilk üç azərbaycanlıdan biridir. 1881 ildə seminariyanı bitirmiş, Lənkəran şəhər məktəbində müəllim və müdir işləmişdir. Xalq maarifi nazirliyi sistemində qüsursuz əməyinə görə 1898 ildə ordenlə təltif olunmuşdur. 19 əsrin sonlarından 1917 ilədək etnoqrafiya tarix və iqtisadi mövzularda 50-də çox məqaləsi, topladığı əfsanə, nağıl və lətifələr "Kaspi" qəzetində Qafqaz tədris dairəsinin məcmuələrində dərc olunmuşdur. Lənkəran qəzasının etnoqrafiyasına dair ilk əsərin müəllifidir. Lənkəranda dram dərnəyi yaratmış, rus-müsəlman qiraətxanası açmışdır.

Bayraməlibəyov Lənkəranda ilk rus-müsəlman məktəbinin banisidir. Çoxcəhətli maarifçilik fəaliyyəti, mütərəqqi fikirləri, fəal ictimai mövqeyi çar hakimiyyət orqanları tərəfindən təqiblə qarşılanan Bayraməlibəyov 1906 ildə Lənkəran şəhər məktəbi müəllimliyindən azad edilmiş, üzərinə siyasi nəzarət qoyulmuşdu. Bir müddət Lənkəranda"Behcət" adlı rus-fars, özünün təşkil etdiyi "Ziya" məktəblərində dərs demişdir. Bayraməlibəyov Lənkəran qəzasında orta təhsilin əsasını qoyaraq, dördsinifli progimnaziyanın açılmasına (1910) nail olmuşdur. Sonradan bu progimnaziya onun xahişi ilə üçsinifli gimnaziya kimi təşkil olunmuşdur. Bayraməlibəyovun pedaqoji və ictimai fəaliyyətinin 30 illiyi 1911 ildə Lənkəranda təntənəli şəkildə qeyd olunmuşdur. Həmin il onun fəal iştirakı ilə Lənkəranda rus-müsəlman məktəbi açılmış, 1917 ilədək orada çalışmışdır. Qadınların təhsilinə böyük əhəmiyyət verən Bayraməlibəyov 1917 ildə Lənkəranda "Ünas" (qızlar) məktəbi açmışdı. Qızı Məryəm *Bayraməlibəyova-Məlik-Yeqanov* həmin məktəbin müdiri və müəllimi olmuşdur. Bayraməlibəyovun inqilabi hərəkatda fəal iştirakı bəhanə göstərilərək, o, 1918 ildə Muğan Radası tərəfindən həbs edilmiş və Bakıya gətirilmişdir.

Teymur bəy Bayraməlibəyov 1917 ilin payızında "Müsavat" partiyasının Lənkəran şöbəsinin ilk sədri seçil-mişdir. Denikinçilərin Lənkəranda törətdiyi azğınlıqlara etiraz əlaməti olaraq, Lənkəran ictimaiyyətinin nümayəndəsi kimi 1918 ilin noyabrında ingilis konsuluna müraciət etmişdi. Avetisovun başçılığı ilə erməni-daşnak silahlı quldur dəstəsinin Muğanda və Lənkəranda dinc əhaliyə divan tutması, törətdiyi cinayətlər barədə B.Britaniyanın İrandakı konsuluna məlumat vermiş, bununla bağlı toplanmış sənədləri ona təqdim edərək təsirli tədbirlər görülməsini tələb etmişdi. Azərbaycan Xalq Cümhuriyyət hakimiyyəti devrildikdən sonra, 1920 ildə ailəsi ilə Bakıya köçmüş, 1929 ilədək 67 saylı orta məktəbdə müəllim işləmişdir. 1929 ildə təqaüdə çıxsa da, folklor sahəsində tədqiqatlarını davam etdirmişdir.

Bayraməlibəyov şəxsən repressiyaya məruz qalmasa da, kürəkəni *C.Məlik-Yeqanov*, qızı Məryəm Bayraməlibəyova "xalq düşməni" kimi cəzalandırılmışdılar.

*Əd.:* Ağazadə Y., Teymur bəy Bayraməlibəyov və folklor, B., 2003; Таирзаде Н., Просветительская и научная деятельность Теймурбека Байрамалибекова, Изв. АН Азерб. ССР (серия истории, философии и права), 1974, №2.



**BAYRAMƏLİBƏYOVA-MƏLİK-YEQANOVA** Məryəm Teymurbəy qızı (22.1.1898, Lənkəran-02.12.1987, Bakı) - maarif xadimi. İbtidai təhsilini *"Nicat"* xeyriyyə cəmiyyətinin hesabına Bakıda, Hacı Zeynalabdin Tağıyevin qız məktəbində almışdır (1906-11). Orta təhsilini "Müqəddəs Nina" qızlar məktəbində başa vurduqdan sonra, 1917 ildə 8-ci əlavə pedaqoji sinfi bitirmişdir. Moskvada tibb institutuna daxil olan Bayraməlibəyovanın təhsil xərclərini Bakı milyonçu - xeyriyyəçisi Murtuza Muxtarov öz üzərinə götürmüşdü. *Oktyabr çevrilişi (1917)* nə-ticəsində vəziyyətin dəyişməsi ilə əlaqədar vətənə dönmüş və müəllimlik fəaliyyətinə başlamışdır. Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbində dərs demiş, 1919 ilədək bu məktəbə rəhbərlik etmiş, dram və xor dərnəkləri təşkil etmişdi. Lənkəranda ilk qadın xeyriyyə cəmiyyəti yaratmışdır.

1919 ilin yayında Azərbaycan Xalq Cümhuriyyətinin cənub bölgəsində hərbi şəraitin xeyli kəskinləşməsi, ağ-qvardiyaçı rus zabitlərinin hakimiyyəti ələ keçirməsi ilə əlaqədar Cümhuriyyət Hökuməti Parlament üzvü Cavad bəy Məlik-Yeqanovu Lənkəranın general-qubernatoru təyin etmişdi. Lənkəranda elan edilmiş hərbi vəziyyət şəraitində əsgərlərin qız gimnaziyasına müdaxiləsi Bayraməlibəyovanın etirazına səbəb olmuş və o, Cavad bəy Məlik-Yeqanova yazılı müraciət etmişdi. Təsadüfi görüş onların gələcək ailə həyatının əsasını qoymuşdu.

*Aprel işğalından (1920)* sonra pedaqoji fəaliyyətini davam etdirən Bayraməlibəyova 1920-21 illərdə savadsızlığın ləğv olunması üzrə ilk qadın kursları təşkil etmiş, bütün qəzada yeganə qadın müəllim kimi siyasi maarif işində fəal çalışmışdır. 1921 ildə ailəliklə Bakıya köçmüş, 1921-23 illərdə Azərbaycan nümunəvi - təcrübə məktəbində türk qrupunun rəhbəri olmuşdur. 1922 ildə həbs olunmuş, Bakıdan kənara çıxmamaq barədə iltizam verdikdən sonra həbsdən azad olunmuş, pedaqoji fəaliyyətini davam etdirmişdir.

Müəllimlərin I Ümumittifaq qurultayının (Moskva, 1925), Bakıda keçirilmiş I Ümumittifaq türkoloji qurultayın (1926) nümayəndəsi olmuşdur. Nəriman Nərimanov adına sənaye texnikumunda, Azərbaycan Tibb İnstitutunda dərs demişdir. "Yeni məktəb" jurnalının fəal əməkdaşlarından olmuş, "Şərq qadını", "Maarif işçisi" və s. mətbuat orqanlarında pedaqoji mövzularda məqalələrlə çıxış etmişdir. Bayraməlibəyova bir sıra Azərbaycan ədiblərinin əsərlərinin rus dilinə tərcüməsində də yaxından iştirak etmişdir. 1931 ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi nəzdində Sovet quruculuğu və Hüququ İnstitutunun məhkəmə işi şöbəsini əla qiymətlərlə bitirmiş, "Azərbaycanda qadın əməyi" mövzusunda dissertasiya üzərində işləmişdir.

"Əksinqilabi müsavat mövqeyində", antisovet fəaliyyətində suçlandırılan Bayraməlibəyova 1937 il oktyabrın 15-də həbs edilərək, həmin il dekabrın 12-də, 5 il siyasi hüquqları alınmaqla, 10 il müddətinə azadlıqdan məhrum olundu. Bu zaman Bayraməlibəyovanm əri - Cavad bəy Məlik-Yeqanov sürgündə idi. Uzaq Şimalda, Arxangelskdə həbsxana şəraitində Bayraməlibəyovanın səhhəti pisləşmiş, gözləri tutulmuşdu. 1948 ildə həbsdən qayıdan Bayraməlibəyova əvvəlcə Gəncədə, sonra isə Rusiyanın Lipetsk şəhərində yaşamalı olmuşdu. Azərbaycan SSR Ali Məhkəməsinin 1956 il 27 aprel tarixli qərarı ilə Bayraməlibəyovaya bəraət verilmişdir. 1964 ildən ümumittifaq əhəmiyyətli fərdi pensiyaçı idi.

*Əd.:* Məmmədov S., Azərbaycanın ilk maarifpərvər qadınları, B., 1960; Elşad Qoca, Sibir dərsi, B., 2000.

**BAYRAMOV** Əli Bayram oğlu (1889, Şamaxı qəzasının Lahıc k. - 23.3.1920, Bakı) - Azərbaycanda sovet hakimiyyəti qurulması uğrunda fəal mübarizə aparmış siyasi xadim. 1912 ildə Bakı gəmiçilik məktəbini bitirmişdir. Sol eserlərin fəal nümayəndəsi olmuş, Fevral inqilabından (1917) sonra Bakı fəhlə və hərbi deputatları Sovetinin deputatı seçilmiş, 1917-18 illərdə Bakı, Salyan, Lənkəran, Şamaxı və s. qəzalarda sovet hakimiyyəti qurulması uğrunda fəaliyyət göstərmişdir. 1918 ildə *Bakı Xalq Komissarları Sovetinin* silahlı qüvvələri tərkibində gəmi kapitanı vəzifəsində döyüşmüş, Bakı Qafqaz İslam Ordusu tərəfindən azad edildikdən (15 sentyabr 1918) sonra Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Gəncədə gizli inqilabi iş aparmışdır. 1919 ilin əvvəllərində Bakıya qayıtmış, mayda Cümhuriyyət Hökumətinə qarşı fəhlə tətillərinin keçirilməsində fəal iştirak etmişdir. 1919-20 illərdə "Hümmət" təşkilatının rəhbərlərindən biri, RK(b)P Qafqaz Ölkə Komitəsi yanında gizli hərbi inqilab qərargahının və Bakı bolşevik partiya komitəsi tərəfindən yaradılmış hərbi təşkilatın üzvü olmuşdur. Komitənin gizli fəaliyyət göstərən "Xüsusi dəniz ekspedisiyası"nın iştirakçısı idi. Ekspedisiya Bakıdan Sovet Rusiyasına neft və neft məhsulları aparır, oradan isə Bakıya pul, döyüş sursatı, siyasi ədəbiyyat və s. gətirirdi. *Paris sülh konfransı (1919-20)* Ali Şurasının Azərbaycanın istiqlaliyyətini tanımasını Əli Bayramov Azərbaycan xalqına və bütün Şərqin müsəlman xalqlarına qarşı "böyük xəyanət" adlandırmışdı. "Paris cəlladlarının Zaqaf-qaziyada siyasəti" adlı məqaləsində o, Antanta dövlətlərinin bu addımını imperialist dövlətlərin qəsbkarlıq planları kimi qiymətləndirirdi. Bayramov Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının I qurultayında (1920, fevral) Mərkəzi Komitənin üzvü seçilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini silahlı üsyan yolu ilə devirməyə, dövlət çevrilişi etməyə çağıran bəyannaməni Əli Bayramov da imzalamışdı.



Silahlı üsyana hazırlıq və hakimiyyəti ələ keçirmək məqsədilə yaradılmış hərbi təşkilatın rəhbəri kimi Əli Bayramov 1920 il martın 20-də həbs olunmuş, əldə əsaslı dəlil-sübut olmadığından martın 22-də azad edilmiş, martın 23-ə keçən gecə isə qətlə yetirilmişdir. Onun cəsədi aprelin 3-də tapılmış, aprelin 5-də tanınmış və aprelin 7-də dəfn olunmuşdur. Əli Bayramovun şəxsi ədavət zəminində qoçular tərəfindən qətlə yetirilməsi tarixçəsi də məlumdur. Bununla belə, hakimiyyət çevrilişinə hazırlaşan bolşeviklər onun qətlində Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini ittiham etmiş, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Əli Bayramovun öldürülməsi ilə əlaqədar məsuliyyətə cəlb edilənlər Azərbaycan SSR Ali İnqilabi Tribunalının 28 may 1920 il tarixli hökmü ilə müqəssir sayılmış və onların 15 nəfəri güllələnməklə ölüm cəzasına, digərləri isə uzunmüddətli həbs cəzasına məhkum olunmuşdular. Hökm Azərbaycan İnqilab Komitəsinin sədr müavini Mirzə Davud Hüseynov tərəfindən elə həmin gün təsdiq edilmiş, mayın 29-a keçən gecə saat 2.30-da yerinə yetirilmişdir. Lakin Əli Bayramovun qatilinin kim olması konkret müəyyənləşdirilməmiş, hökm müxtəlif fərziyyələr əsasında çıxarılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1920 il 1 aprel tarixli iclasında Əli Bayramovun öldürülməsi ilə əlaqədar daxili işlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyli məlumat verərək, onun öldürülməsində Hökuməti günahkar bilənlərə etiraz etmişdir. Məhəmməd Əmin Rəsulzadə Əli Bayramovun qətlindən Hökumətə qarşı böhtan məqsədilə istifadə olunduğunu bildirmişdir.

*Əd:*. Борьба за победу Советской власти в Азербайджане.1918-1920. Документы и материалы, Б., 1967; Azərbaycan tarixi, 3 cilddə, c.3., B., 1973; Azərbaycan tarixi, 7 cilddə, C.5., B., 2001; Əli Bayramovu kim öldürüb?, "Yeni fikir", 1990, №5, 7,11.

**"BEDNOTA"** - gündəlik leqal bolşevik qəzeti. 1919 il sentyabrın 14-dən oktyabrın 26-sı daxil olmaqla Bakıda rus dilində çıxmışdır. Cəmi 30 nömrəsi buraxılmışdır. Məsul redaktoru Əliheydər Qarayev olmuşdur. Qəzetdə Bakı fəhlələrinin həyatından, həmkarlar ittifaqları, fəhlə konfransı, digər fəhlə təşkilatlarının fəaliyyətindən, fəhlələrin kollektiv müqavilə uğrunda mübarizəsindən bəhs edən materiallar, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin, Kommunist İnternasionalının bir sıra rəsmi sənədləri dərc olunmuşdur. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə aparmış, davamlı olaraq Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş məqalələrlə çıxış etmiş, buna görə də Cümhuriyyət Hökuməti tərəfindən bağlanmışdır.

. **BEHBUD XAN CAVANŞİR** (1886-1921) - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və ictimai xadimi (bax *Cavanşir Behbud xan).*

**BEHBUDOV** Lütfəli bəy Rəhim ağa oğlu (1879, Şuşa qəzasının Üçoğlan kəndi - 1918, Şuşa) - Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Zaqafqaziya seymi Müsəlman fraksiyasının üzvü olmuşdur. Bakı realnı məktəbini bitirdikdən (1903) sonra Peterburq Texnoloji İnstitutuna daxil olmuş, 1899 ildə kütləvi tələbə iğtişaşlarında iştirakına görə institutdan çıxarılmış, lakin sonra bərpa edilmişdir. 1903 ildə həmin institutu mühəndis-mexanik ixtisası üzrə bitirərək, Bakıya qayıtmışdır. 1904 ildən Xəzər ticarət donanması gəmi mexanikləri kursunda nəzəri mexanikadan dərs demiş, 1908 ildə Kür-Xəzər gəmiçilik cəmiyyətinin rəhbəri olmuşdur.

Lütfəli bəy Behbudov "Difai" partiyasının, Zaqafqaziya seyminin ("Müsavat" və demokratik bitərəflər qrupundan seçilmişdir) üzvü kimi ictimai-siyasi fəaliyyət göstərmiş, "Nicat" xeyriyyə cəmiyyətinin işində iştirak etmişdir. 1918 ildə Şuşada türk-müsəlman əhaliyə qarşı soyqırımı törədən erməni-daşnak quldurları tərəfindən qətlə yetirilmişdir.

**BEHBUDOV** Məcid Behbudalı oğlu (18.4.1870, Şuşa - 6.9.1945, Qazax) - Azərbaycan xanəndəsi. Məşhur müğənni Rəşid Behbudovun atasıdır. Uşaqlıq illərindən şerə, nusiqiyə həvəs göstərmiş, xanəndə olmaq arzusu ilə yaşamışdır. 1904 ldə xanəndəliyə başlamış, gözəl səsi və sənəti ilə tez bir zamanda əvvəlcə Qarabağda, sonra bütün Azərbaycanda, daha sonra Cənubi Qafqazda məşhurlaşmış, nəhayət, Tiflisə köçmüşdür. Məcid Behbudov uzun müddət xanəndə dəstələri ilə birlikdə konsertlərdə, toy məclislərində, el şənliklərində çıxış etmiş, opera tamaşalarında bir aktyor kimi məharət göstərmişdir. İstedadlı nüğənni 1914 ildə tarzən Məşədi Cəmilin müşayiəti ilə məharətlə ifa etdiyi "Mirzə Hüseyn segahı", "Şüştər", 'Çahargah" muğamlarını, bir çox təsnif və xalq mahnılarını Riqa şəhərində "Qrammofon" şirkətində vala yazdırmışdır.



Məcid Behbudov Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) xanəndə və çalğıçıların musiqili səhnəciklərində, konsert salonlarında xeyriyyə konsertləri vermiş, Üzeyir Hacıbəylinin opera və operettalarında çıxış etmişdir.O, Qafqazın bir çox şəhər və kəndini dolaşmış, Azərbaycan milli musiqisinin gözəl təbliğatçısı kimi fəaliyyət göstərmiş, Təbriz, İstanbul, Sofiya şəhərlərində konsertlər vermişdir.

**BEHBUDOV** Səlim bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyəyə göndərdiyi (1918, iyul) maliyyə missiyasının üzvü. Pul nişanlarının çatışmazlığı səbəbindən İstanbulda Azərbaycan Hökuməti bonlarını sifariş etmək və Osmanlı dövlətindən borc pul almaq məqsədilə Əsəd bəy Rüstəmbəyovla birlikdə İstanbula ezam edilmişdir. Onlar Tələt paşa və Ənvər paşanın simasında Osmanlı dövləti ilə danışıqlar aparmışlar. 1918 il sentyabrın 16-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin səlahiyyətli nümayəndəsi kimi Osmanlı hökumətinin Hicaz və hərbi dəmir yolları və limanları Baş idarəsinin rəisi Feriq İsmayıl Hakkı paşa ilə ticarət müqaviləsi və saziş imzalamışdır. Müqavilələri Səlim bəy, Əsəd Rüstəmbəyov və Məhəmməd Əmin Rəsulzadə imzalamışlar. Behbudov daha sonra Əlimərdan bəy Topçubaşovun İstanbuldakı mis-

siyası tərkibində fəaliyyət göstərmiş, 1919 ilin yanvarında Bakıya qayıtmışdır.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы), Б., 1998;

**BERKER** (N o v r u z o v) Cahangir Hüseyn oğlu (1894, Bakı - 17.7.1958, Barnova) - Türkiyə ordusunun generalı. Azərbaycan ordusunun süvari diviziyasının komandiri Teymur bəy *Novruzovun* nəslindəndir (bax *Novruzov* Cahangir Hüseyn oğlu).

**BEŞİNCİ HÖKUMƏT KABİNƏSİ**, A z ə r b a y c a n X a l q C ü m h u r i y y ə t i n in b e ş i n c i h ö k u m ə t k a b i n ə s i - Azərbaycan Xalq Cümhuriyyətinin 5-ci Hökumət kabinəsinin tərkibi. 1919 il dekabrın 22-də Azərbaycan Parlamentinin 108-ci iclasında Nəsib bəy Yusifbəyli özünün 2-ci, Cümhuriyyətin isə sayca 5-ci hökumətinin tərkibini müzakirəyə təqdim etdi. 5-ci hökumət kabinəsinin üzvləri Parlamentə sədrlik edən Həsən bəy Ağayev tərəfindən elan olundu: Nəsib bəy *Yusifbəyli* - Nazirlər Şurasının sədri, Səməd bəy *Mehmandarov* - hərbi nazir, Fətəli xan *Xoyski* — xarici işlər naziri, Məmməd Həsən *Hacınski* - daxili işlər naziri, Xəlil bəy *Xasməmmədov* - ədliyyə naziri, Xudadat bəy *Məlik-Aslanov* - yollar naziri, eyni zamanda müvəqqəti olaraq ticarət və sənaye naziri, Heybətqulu bəy *Mahmudbəyov* — dövlət nəzarəti naziri, Musa bəy *Rəfiyev* - səhiyyə və himayədarlıq naziri, Həmid bəy *Şahtaxtinski* - maarif və dini etiqad naziri, Rəşid xan *Qaplanov* - maliyyə naziri, Əhməd bəy *Pepinov* — əkinçilik və əmək naziri, Camo bəy *Hacınski* - poçt və teleqraf naziri. Göstərilən şəxslərin namizədliyi və Hökumətin gələcək fəaliyyətinə aid məsələlər Parlamentin ayrı-ayrı fraksiyalarının nümayəndələri tərəfindən geniş müzakirə edilərək bəyənildi.

1920 ilin fevral-mart aylarında Nəsib bəy Yusifbəylinin Hökumətində bəzi dəyişikliklər olundu; fevralın 18-də Məmməd Həsən Hacınski ticarət, sənaye və ərzaq naziri, onun müavini Mustafa bəy Vəkilov isə daxili işlər naziri təyin edildi. Martın 3-də maarif və dini etiqad naziri Həmid bəy Şahtaxtinskini onun müavini Nurməmməd bəy Şahsuvarov əvəz etdi.

1920 il martın 30-da Hökumət böhranı nəticəsində Nəsib bəy Yusifbəylinin 5-ci Hökumət kabinəsi istefa verdi. Yeni Hökumətin təşkili Məmməd Həsən Hacınskiyə tapşırıldı. Bu işdə yolverilməz ləngilik nümayiş etdirən Məmməd Həsən Hacınskinin yeni Hökuməti formalaşdırmaq məqsədilə atdığı gecikmiş addımlar hakimiyyət böhranını dərinləşdirdi. Yaranmış daxili mürəkkəb vəziyyətdə xarici qüvvələr də fəallaşdı, 11 -ci Qırmızı ordunun müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi (bax *Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti* məqaləsinə).

**BEŞİNCİ QAFQAZ FİRQƏSİ** (diviziyası) - Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında Batum müqaviləsinə (1918 il, 4 iyun) əsasən hərbi yardım üçün Azərbaycana göndərilmiş türk hərbi birləşməsi. 1918 il mayın 25-də Gəncəyə gələn Nuru paşa dərhal hiss etdi ki, azərbaycanlılardan və türk qoşunlarından ibarət olması planlaşdırılmış Qafqaz İslam Ordusunun təşkili çətin olacaq və çox vaxt aparacaqdır. Lakin Azərbaycanın düşdüyü ağır vəziyyət xilaskarlıq əməliyyatlarının tezliklə başlanmasını tələb edirdi. Buna görə də Nuru paşa 3-cü ordunun koman-

*Beşinci Qafqaz firqəsinin əsgər və zabitləri Bakıda*





*Beşinci Qafqaz firqəsinin zabitləri*

danı Mehmet Vehib paşadan təcili olaraq yüksək döyüş hazırlığına malik bir qoşun birləşməsinin göndərilməsini istədi. Vehib paşa da, öz növbəsində, hərbi nazir Ənvər paşaya 2 iyun 1918 il tarixli teleqramında bildirdi ki, Azərbaycan Hökuməti ondan bolşevik təcavüzünə qarşı mübarizə üçün yardım istəyir. Beləliklə, bu vaxtadək şanlı döyüş yolu keçmiş, böyük döyüş təcrübəsinə malik 5-ci Qafqaz firqəsinin albay Mürsəl bəyin komandası altında təcili olaraq Azərbaycana göndərilməsi qərara alındı. Qərargah rəisi minbaşı (mayor) Rüşdü bəy idi.

Azərbaycana gəlmək üçün daha münasib olan Gürcüstan ərazisi almanların nəzarəti altında olduğundan diviziya Batum-Artvin-Ərdəhan-Qarakilsə-Dilican yolu ilə Qazaxa doğru hərəkət etdi. Azərbaycan sərhədlərini birinci minbaşı Zehni bəyin komandir olduğu 2-ci süvari alayı və minbaşı Cəmil Cahid bəyin komandir olduğu 9-cu Qafqaz piyada alayı keçdi. 2-ci süvari alayının 1918 il iyunun 6-da, 9-cu piyada alayının isə iyunun 7-də Qazaxda qarşılanma mərasimi oldu. 5-ci Qafqaz diviziyasının tərkibinə, əlavə olaraq, qaimməqam (podpolkovnik) Osman bəyin komandir olduğu 10-cu Qafqaz piyada alayı, qaimməqam Əhməd Rza bəyin komandir olduğu 13-cü Qafqaz piyada alayı, minbaşı Abdulla bəyin komandir olduğu 5-ci Qafqaz topçu alayı, istehkam bölüyü, teleqraf taqımı, səhiyyə bölüyü və digər yardımçı bölmələr daxil idi. Diviziyada 330 zabit və 7403 əsgər, həmçinin 1939 baş heyvan var idi. Əsgərlərdən 5277-si döyüş hissələrində, 2126-sı isə qeyri-döyüş hissə və bölmələrində xidmət edirdilər. 5-ci firqənin sıralarının daha da möhkəmləndirilməsi və onun alaylarının tərkibinə verilmişdi. Diviziyanın hissələri Gəncədən başlayaraq, Bakıya qədər davam edən döyüşlərdə iştirak etmişdilər.

1918 ü iyunun 18-də diviziyanın 10-cu piyada alayı erməni-daşnak qüvvələrinə qarşı döyüşlərdə ilk itkilərə məruz qalsa da, qüvvələri səfərbər etməklə, qısa müddətdə Bakıya qədər uğurlu döyüşlər apardı. Qaraməryəmdən başlayaraq, Bakıya qədər Azərbaycan torpaqlarının bolşevik və daşnak qüvvələrindən təmizlənməsinin, Nuru paşanın döyüş planlarının reallaşdırılmasının əsas ağırlığı bu diviziyanın üstünə düşmüşdü. Qafqaz İslam Ordusu komandanı Nuru paşa bir neçə dəfə bu diviziyanın döyüş mövqelərində olmuş, onun əsgər və zabitlərini qələbəyə ruhlandırmaqla bərabər, bu diviziyanın Bakıya doğru uğurlu yürüşünün Həbib bəy Səlimovun başçılığı ilə Gəncə-Bakı dəmir yolu boyunca hərəkət edən Cənub qrupunun fəaliyyəti ilə uzlaşdırılması üçün zəruri addımlar atmışdı. 1918 il sentyabrın 14-də Bakı uğrunda döyüşdə də 5-ci Qafqaz diviziyası əsas zərbə qüvvəsi idi. Diviziyanın əməliyyat tabeliyinə verilmiş hissələr şəhərə birinci daxil olmuşdular. Bakı azad edildikdən sonra Azərbaycan ordusunun formalaşdırılmasını sürətləndirmək üçün diviziyanın 9-cu piyada alayı 1-ci, 10-cu piyada alayı isə 2-ci Azərbaycan piyada diviziyasının tərkibinə daxil edildi.

*Mudros barışığının (1918)* şərtlərinə əsasən, diviziya 1918 il noyabrın ortalarından etibarən Azərbaycanı tərk etməyə başladı. 20 əsrin 30-cu illərində Türkiyədə soyadlarının tətbiqi ilə bağlı olaraq diviziyanın komandiri Mürsəl paşa Bakı soyadını qəbul etmişdi (bax *Bakı Mürsəl paşa).*

*Əd.:* Süleymanov M., Nuru paşa, B., 2000; Böyük harpte Baku yollarında 5. Kafkaz Piyade firkası. 93 saylı Askeri Mecmuanın tarih kısmı, İstanbul, 1936; Birinci dünya harbinde türk harbi Kafkaz cephesi 3-cü ordu harekatı, c.2, Ankara, 1993; Yüceer Nasir, Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara, 1996.

**"BEŞLƏR DİKTATURASI"** - bax *Muğan Müvəqqəti hərbi diktaturası.*

**BƏDRİ SEYİDZADƏ,** Bədrəddin Kərbəlayı Mircavad oğlu Seyidzadə (1882,Bakının Keşlək k.- 11.1945) - Azərbaycan şairi. İlk təhsilini kənd məktəbində, sonra mədrəsədə almışdır. "Seyid" təxəllüsü ilə şeirlər yazan dayısı onu da yazmağa həvəsləndirmiş, klassik poeziya ilə tanış etmişdir. Bədri Seyidzadə 1909 ildə "Nəşri-maarif"in darülmüəlliminde təhsilini davam etdirmişdir. 1910-cu illərdən başlayaraq, "Tuti", "Övraqi-nəfisə", "Məzəli", "Babayi-Əmir" məcmuələrində "Bərqi-əyyar", "İgnə", "Sancaq", "Bayquş" imzaları ilə şeirlər çap etdirmişdir. Şeirlərində ("Bizə nə!..", "Şükür, xudaya" və s.) Sabir satiralarının ideya və bədii xüsusiyyətlərindən bacarıqla bəhrələnmişdir. Bədri Seyidzadə əruzun müxtəlif bəhrlərində qəzəl, müxəmməs, tərkibbənd və s. yazmış, Nizami, Sədi və Füzulidən təxmislər etmişdir.

1918 ildə Azərbaycanda milli istiqlal hərəkatının qələbəsindən sonra Bədri Seyidzadənin yaradıcılığında sosial-demokratiya ideallarını tərənnüm edən poetik nümunələrə rast gəlinir. Dövrün poeziyasında olduğu kimi, şairin yaradıcılığında da azad Vətən, müstəqillik rəmzi olan üçrəngli milli bayrağın tərənnümü mühüm yer tutur. Şair "Vətən" ("Azərbaycan" qəzeti, 1919, 7 avqust) şerində də vətəni yüksəkdə duran və əbədiyyətədək enməyəcək bayraqlı bir diyar kimi vəsf etmişdir.

*Əd.:* Qasımova E., Bədri Seyidzadə, "Bakı" qəzeti, 1978, 14 mart.

**"BƏSİRƏT"** - Bakıda Azərbaycan dilində nəşr edilmiş, həftəlik və bayram günlərində dərc olunmuş siyasi, ictimai, iqtisadi və ədəbi qəzet. İlk sayı 1914 il aprelin 12-də, son sayı 1920 il mayın 15-də çıxmışdır. 1918 ilin mart-sentyabr aylarında nəşr edilməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşri bərpa olunmuş, üç nömrəsi sovet hakimiyyəti dövründə (cəmi 286 nömrə) çıxmışdır. Baş redaktoru Hacı İbrahim *Qasımov,* naşiri Qulamrza Şərifzadə idi. Əsas müəllifləri Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Mirzəbala Məmmədzadə, Məhənməd Hadi, Səməd Mənsur, Mustafa bəy Əlibəyov, Məmməd Sadıq Axundov, Hacı İbrahim Qasımov, Xəlil İbrahim, Əlabbas Müznib, M.Muradzadə, H.Qasımzadə və b. olmuşlar.



"Bəsirət"in mövzu dairəsi geniş idi. Burada 20 əsrin 10-cu illərinin mühüm hadisələri əksini tapmış, xüsusilə bolşevik-daşnakların müsəlman-türk əhalisinə qarşı 1918 il mart qırğını zamanı törətdikləri görünməmiş cinayət və vəhşiliklər haqqında məlumatlar verilmiş, bu yazılarda Şaumyan mart qırğınlarının "məşhur qəhrəmanı" adlandırılmışdır. 1918-20 illərdə çıxan bu yeganə müstəqil, bitərəf qəzetin səhifələrində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin təsviri geniş işıqlandırılırdı. "Yeni kabinet və ondan nə gözləyirik?", "Milliləşmək", "Azərbaycan parlamanında", "Hökumət yapacaqmı?", "Kəndlilərimizin halı" kimi məqalələrdə, "Həftəbecər" başlıqlı felyetonlarda milli Hökumətin fəaliyyəti müxtəlif istiqamətlərdən təhlil olunmuşdur.

"Bəsirət"də Azərbaycan qəzalarında vəziyyət, Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistanda baş verən siyasi proseslər, Bakının mədəni həyatı ilə bağlı yazılar dərc olunmuşdur.

*Əd.:* Məmmədzadə M., Azərbaycan türk mətbuatı, B.,1922; Axundov N., Azərbaycan dövri mətbuatı (1832-1920), B., 1987.

**BIÇ L.L.** - sağ menşevik. "Yedinstvo" təşkilatının üzvü. Fevral inqilabı ərəfəsində Bakı şəhər rəisi olmuşdur.

Fevral inqilabından (1917) sonra o, Bakı şəhər duması adından vurduğu teleqramda yeni hökuməti salamlayaraq bildirirdi ki, Bakıda bu münasibətlə bir günlük təbrik tətili keçirilmişdir. Bıç 1917 il martın 5-də Müvəqqəti hökumətin Bakıda yaratdığı İctimai Təşkilatların İcraiyyə Komitəsinin sədri olmuşdur. 1917 ilin payızında Kuban vilayətində bolşeviklərə qarşı mübarizədə fəal iştirak etmiş, noyabrda müstəqil Kuban Respublikasının yaradıcılarından biri olmuş, ilk Kuban hökumətinin başçısı seçilmişdir. 1919 ildə Paris sülh konfransında Kuban Respublikası nümayəndə 'heyətinin başçısı kimi iştirak etmiş, keçmiş Rusiya imperiyası ərazisində yaranmış yeni dövlətlərin nümayəndələri ilə birlikdə həm bolşevik hakimiyyətinə, həm də Denikinin Rusiya imperiyasını bərpa etmək cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparmışdır.

**BİÇERAXOV** Lazar Fyodoroviç (1882-1934 ildən sonra) - çar ordusunda kazak qoşunları polkovniki. Milliyyətcə osetindir. Birinci dünya müharibəsi (1914-18) dövründə İranın şimalında hərbi əməliyyat aparan Rusiya qoşunları tərkibindəki kazak dəstəsinin komandiri olmuşdur. Oktyabr çevrilişindən (1917) sonra ingilis komandanlığı Biçeraxovun tabeliyində olan 1500 nəfərlik kazak dəstəsindən Bakını ələ keçirmək üçün istifadə etmək qərarına gəldi. Böyük məbləğ müqabilində buna razılıq verən Biçeraxov 1918 il iyunun 27-28-də ingilis generalı *Denstervillə* Bakıya hücum planını müzakirə etmişdi. Plana əsasən, Biçeraxov Şaumyanın başçılıq etdiyi *Bakı Xalq Komissarları Sovetinə* (BXKS) müraciətində Bakını türk qoşunlarından qorumaq üçün öz dəstəsinin sovet qoşunları tərkibinə daxil olunması təklifini vermişdi. Bolşeviklərə nifrət etməsinə və Qafqazda sovet hakimiyyətini devirmək istəməsinə baxmayaraq, Biçeraxov türk qoşunlarının Bakıya girməsinə də mane olmağa çalışırdı. Hətta öz sədaqətini sübut etmək üçün o, ingilislərin bir sıra gizli planları barədə Bakı Sovetinə məlumatlar da vermişdi.

*Qafqaz İslam Ordusuna* qarşı döyüşlərdə məğlubiyyət qarşısında qalan BXKS Biçeraxovun yardımından istifadə etməyə razılıq verdi. Lakin 1918 il iyulun sonunda Qafqaz İslam Ordusuna qarşı hərbi əməliyyatların ümidsiz olduğunu görən Biçeraxov cəbhə xəttini tərk edərək, öz dəstəsi ilə birlikdə Dağıstana keçmiş, Petrovsk-Port (Mahaçqala) şəhərini tutmuş, *A.Denikinlə* əlaqə yaratmışdı.

Biçeraxov Bakıdakı Erməni Milli Şurasının, "Daşnaksutyun" partiyasının liderləri ilə də sıx əlaqə saxlayırdı. Qafqazda hərbi diktatura yaratmaq istəyən Biçeraxovun əsl məqsədi Rusiyanın 1914 il hüdudlarında bərpasına kömək etmək idi. Biçeraxovun 1918 ilin noyabrında müttəfiq qoşunları ilə bir vaxtda yenidən Bakıya gəlişindən ruhlanan rus və erməni milli şuraları Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi və Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumət yaradılması barədə qərar çıxardılar. Artıq ingilis ordusunun general-mayoru rütbəsində Bakıya qayıdan Biçeraxov əhali içərisinə aeroplandan bəyannamələr səpdirmiş və onları "Qafqazın rus dəniz və quru qüvvələrinin baş komandanı" kimi imzalamışdı.

Böyük Britaniya hökumətinin Biçeraxova münasibəti antibolşevizm siyasətilə bağlı idi. Bu baxımdan Biçeraxovun Xəzər hövzəsi regionunda sərbəst fəaliyyəti, xüsusən, 1919 ilin yanvarında onun başçılığı ilə "Qafqaz – Xəzər Hökuməti"nin yaradılması B.Britaniya hökuməti tərəfindən cavabsız qalmadı. Bu dəfə ingilislər Biçeraxovun dəstəsinin tərksilah olunmasına çalışdılar. Odur ki, Biçeraxov Böyük Britaniya kraliçası tərəfindən qəbul və təltif edilmək adı ilə Londona çağırıldı.

Beləliklə, Biçeraxov 1919 ildə İngiltərəyə mühacirət etməyə məcbur oldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Юсифзаде С.З., Первая Азербайджанская Республикак: история, события, факты англо- азербайджанских отношений, Б.,1998.

**BİÇERAXOV ORDUSU** - Birinci dünya müharibəsində (1914-18) çar Rusiyasının İran ərazisində hərbi əməliyyat aparan kazak dəstəsi. Oktyabr çevrilişi ilə əlaqədar olaraq, 1918 ildə buraxılmışdır. İrandakı ingilis hərbi qüvvələrinin komandanlığı polkovnik L.Biçeraxovun başçılıq etdiyi 1500 nəfərlik kazak dəstəsindən öz mənafeyinə istifadə etmək qərarına gəldi. Biçeraxov general Denstervillə gizli razılığa gələrək, Bakı Xalq Komissarları Sovetinə müraciət edib, türk qoşunlarına qarşı birgə əməliyyat aparmağa hazır olduğunu bildirdi. Bakı Xalq Komissarları Soveti Biçeraxovun qüvvəsindən istifadə etməyə razılıq verdi. Biçeraxovun dəstəsi 1918 il iyulun 5-də Ələt stansiyası yaxınlığında sahilə çıxarıldı. İyulun 7-də Bakı müdafiə xəttinin sağ cinahının komandanlığını qəbul edən Biçeraxov iyulun 30-da məğlubiyyətin labüd olduğunu görərək, dəstəsini cəbhə xəttindən çıxarıb Port-Petrovsk istiqamətində şimala çəkildi.

1918 il noyabrın 17-də ingilis qoşunları ilə bir vaxtda Biçeraxovun hərbi dəstəsi də Bakıya daxil oldu. Şəhərin xristian əhalisi onu böyük rəğbətlə qarşıladı. Bu dəfə onun hərbi qüvvəsinin əksəriyyəti ermənilərdən ibarət idi. Buna görə də həmin azğınlaşmış dəstə Bakıda özünün qəddarlığı ilə fərqlənir, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərini də təhqir edirdilər. Biçeraxovun dəstəsi Denikinin *Könüllü ordusu* komandanlığına tabe idi. Odur ki, ingilis komandanlığı bu dəstənin Bakıdan çıxarılması, həmçinin onlara meylli erməni hərbi hissələrinin tərksilah edilməsi barədə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin notasını dəstəklədi. General Biçeraxov təltif olunmaq adı ilə Londona dəvət olundu və onu əvəz edən general Erdeliyə 1919 il fevralın 28-də öz qoşunlarını 24 saat ərzində Azərbaycan ərazisindən çıxarmaq haqqında ultimatum verildi. Bununla Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin tələbi yerinə yetirildi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Юсифзаде С.З., Первая Азербайджанская Республикак: история, события, факты англо- азербайджанских отношений, Б.,1998.

**BİNƏQƏDİ DÖYÜŞÜ** - Bakını azad etməyə gələn *Qafqaz İslam Ordusunun* şəhər ətrafındakı strateji əhəmiyyətli mövqeləri ələ keçirmək üçün 1918 il avqustun 26-31 -də Binəqədi ətrafında keçirdiyi hərbi əməliyyat. Məqsəd ingilis - "Sentrokaspi" hərbi qüvvələrinə zərbə endirməklə onları şəhərə doğru sıxışdırmaq, Bakının azad olunması üçün həlledici hücum ərəfəsində əlverişli mövqelər ələ keçirmək idi.

Şərq cəbhəsi komandanı Mürsəl paşanın əmrinə əsasən bu döyüşü Osman bəyin rəhbərliyi altında olan şimal qrupunun qüvvələri aparmalı idi. Döyüşdə *Beşinci Qafqaz firqəsinin* (diviziyasının) 10-cu və 13-cü piyada alayları, əsasən, Azərbaycan süvarilərindən və könüllülərindən təşkil olunmuş *Maştağa dəstəsi*, 5-ci Qafqaz firqəsinin əməliyyat tabeliyinə verilmiş 38-ci piyada alayının bölmələri və digər bölmələr, qarşı tərəfdən isə ingilislərin Şimali Stafford alayının bir bölüyü, Varvik taborunun bir bölüyü, Uorçester alayının bir bölüyü, Biçeraxovun dağ döyüş sahəsi adlandırılan mövqelərdəki nümunəvi alayının iki bölüyü, ingilis qüvvələrinin bir bölüyü, "Sentrokaspi" qüvvələrinin 4-cü və 5-ci taborları, bir yığma bölük, 6 ədəd topu olan 3 top taqımı, 6 topu olan ingilis batareyası, bir ədəd zirehli avtomobil, Maştağa istiqamətindəki mövqelərdən 7 ədəd pulemyotu olan 20-ci tabor, 7-ci taborun iki bölüyü, Keşlə dəstəsinin bir bölüyü, 6-cı səhra batareyasının 4 topu, ingilislərin üç pulemyotu, bir süvari bölüyü və iki zirehli avtomobili iştirak edirdi. "Sentrokaspi" - ingilis komandanlığı bir alay və iki tabordan ibarət ehtiyat qüvvəsi də yaratmışdı. Döyüş, əsasən, 311, 364 nömrəli təpələrin və Binəqədi yüksəkliyinin ətrafında baş verdi. Avqustun 26-da başlanan döyüşdə 13-cü piyada alayı 364 nömrəli təpəni ələ keçirərək, "Sentrokaspi" — ingilis qüvvələrini geri çəkilməyə məcbur etdi. 311 nömrəli təpəni isə ələ keçirmək mümkün olmadı. Avqustun 27-də "Sentrokaspi" - ingilis qüvvələri 364 nömrəli təpəni geri qaytarmağa cəhd göstərdilər: ingilis qüvvələri hücuma keçərək, Maştağa dəstəsinin və 13-cü alayın mövqelərini aramsız atəşə tutdu, 10-cu alayın mövqeləri "Sentrokaspi" təyyarələri tərəfindən bombardman edildi, hərbi gəmilər isə Abşeron yarımadasının şimalında mövqe tutaraq, "Sentrokaspi" qüvvələrini müdafiə etməyə çalışdılar.

Azərbaycan süvarilərinin və könüllülərinin çoxluq təşkil etdiyi Maştağa dəstəsi döyüşlərin ən qaynar yerində idi. Qaimməqam Həsən bəyin rəhbərliyi altında olan bu dəstə düşmən təyyarələrindən bombardman edilməsinə, dənizdə dayanan gəmilərdən top atəşinə tutulmasına baxmayaraq, döyüş mövqeyindən geri çəkilmədi. Avqustun 30-da Nasoslu yaxınlığında "Sentrokaspi" gəmilərindən quruya çıxarılmış desant Qafqaz İslam Ordusu qüvvələrinə arxadan zərbə vurmağa cəhd göstərdi. Lakin 364 nömrəli təpəni geri qaytara bilmədi. Qafqaz İslam Ordusu komandanlığı Bakı ətrafındakı qüvvələri yenidən qruplaşdıraraq, avqustun 31 -də 311 nömrəli təpə üzərinə yenidən hücuma keçdi.

"Sentrokaspi" - ingilis qüvvələri bu təpəni, həmçinin, bütünlükdə Binəqədi yüksəkliklərini qoruyub saxlaya bilmədilər və itki verərək geri çəkildilər. Qafqaz İslam Ordusunun hissə və bölmələri Binəqədi ətrafındakı mövqelərdən əlavə, Digah və Məhəmmədi kəndlərini də ələ keçirdilər. Binəqədi-Digah xətti üzrə mühüm mövqelərin itirilməsi oyuncaq "Sentrokaspi diktaturası"nın süqutunu sürətləndirdi.

General *Denstervil* döyüşdən sonra bəyan etdi ki, ***yer üzərində heç bir qüvvə Bakını türklərdən ala bilməz.*** Beləliklə, Bakının şimalında olan "Sentrokaspi" - ingilis qüvvələri Biləcəri yüksəkliyinə qədər geri sıxışdırıldı və Bakının azad olunması uğrunda həlledici hücumun təşkili üçün əlverişli mövqelər ələ keçirildi.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Rüştü, Büyük harpte Baku yollarında Ş.Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı, 1934; Yüceer N., Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı, Ankara, 1996.

**BİR MAY NÜMAYİŞİ (1919)** - Azərbaycan Xalq Cümhuriyyəti siyasi xadimlərinin iştirakı ilə 1 May bayramının Bakıda qeyd olunması. "Müsavat" partiyasının 1919 il aprelin 29-da təşkil etdiyi fəhlə konfransında 1 May nümayişinə ***"Yaşasın müstəqil Azərbaycan!"*** şüarı ilə çıxmaq qərara alındı. Konfrans nümayəndələri dünya demokratik qüvvələrinin səsinə səs vermək əzmi göstərdilər. Azərbaycanın siyasi xadimlərinin 1 May bayramında iştirak etmək arzusu, bu münasibətlə azərbaycanlı fəhlələrə müraciəti bolşeviklər üçün gözlənilməz oldu. Azərbaycanlı fəhlələr mütəşəkkil surətdə nümayişə çıxdılar. Bolşeviklərin "Yaşasın Sovet Rusiyası" şüarına qarşı azərbaycanlı fəhlələrin ***"Yaşasın istiqlalı qoruyan millət və partiya"*** şüarı nümayişdə alqışlarla qarşılandı. 1 May bayramının təntənəli qeyd olunması rəsmi dövlət qəzeti olan "Azərbaycan"da da işıqlandırıldı. Mayın 1-də səhər tezdən küçələrdə əmək təşkilatlarının qırmızı bayraqları ilə yanaşı, müsəlman təşkilatlarının üçrəngli bayraqları da dalğalanırdı. Şəhərin müsəlman fəhlələrinin nümayəndələri zurna sədaları altında rəqs edir, müsəlman natiqlərin çıxışları sürəkli alqışlarla qarşılanırdı. Dövlət opera teatrının xoru orkestrin müşayiəti ilə inqilabi mahnılar ifa edərək, bayram şənliyini daha da rövnəqləndirirdi. Həmin gün bolşeviklerin təşkilatçılığı ilı *Bakı Fəhlə Konfransının* rəyasət heyəti, Bakı Həmkarlar İttifaqları Şurası 1 May münasibətilə Bakı fəhlələrinə müraciət edərək, onları işğalçılar və daxili əksinqilab əleyhinə barışmaz mübarizəyə çağırdılar, "Rədd olsun ingilis işğalçıları", "Yaşasın Azərbaycanda sovet hakimiyyəti" şüarları ilə çıxış etdilər. Məqsəd 1 May nümayişini ümumi siyasi tətilə çevirmək olsa da, bolşeviklərin bu niyyəti baş tutmadı. Azərbaycan siyasi xadimlərinin səyi nəticəsində 1 May Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərində beynəlxalq bayram kimi qeyd olundu.

*Əd.:*. Азербайджанская Республика. Документы и материалы (1918-192 гг.), Б., 1998; 1918-1920 гг., В,, 1998; Azərbaycan tarixi, 3 cllddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**"BİR YAŞ"** - Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümü münasibətilə Üzeyir bəy Hacıbəylinin "Azərbaycan" qəzetinin 28 may 1919 il, 190-cı sayında dərc olunmuş məqaləsi. Azərbaycan xalqının şanlı istiqlal mübarizəsi sayəsində və çoxsaylı şəhidlərinin qanı bahasına əldə etdiyi azadlığın milli bayram səviyyəsində qeyd edilməsi, xoşbəxt gələcək naminə görüləcək işlər və arzular məqalənin əsas məğzini təşkil edirdi:

***"Bu gün, istiqlalını elan etmiş olduğumuz və istiqlah qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanı-manlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür...***

***Növzad dövlətimizin təvəllüdü, ana bətnindən doğulması - çətinliklə əmələ gəldi. Ana vətən, balasını doğarkən, özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xərabəzara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanının nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anası bətnindəki balasını çəkmə-lərinin təpikləri altında tapdalamaq, əzmək və xurdxaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər.***

***Lakin bu zəifsinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvətə haiz idi ki, zəif cism, qiivvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarini qeyb etmədi.***

***Ana Vətən doğdu...***

***Və bu gün, doğduğu övladının sənəyi-dövriyyəsi münasibətilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib nümayişkaranə bir surətdə bəyani-iftixar etmədədir.***

***Bir yaşlı dövlətimiz, — gələcəkdə — yaxın gələcəkdə - türklügün ümidgahı, islamlığın pənahı və aləm mədə-niyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda - hər kəsə bildirmədədir.***

***Azərbaycanın türkliklə istiqbal meyvələri yetişdirmək üçün münbit bir torpaq təşkil etdigini Osmanlı tiirk qar-daşlarımız dəxi iqrar və etiraf edib bizə ümidi - nəzər ilə baxmadadırlar. Fil-həqiqə, Azərbaycan idi ki, türk şərqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu millətini unutmuş türklərə bildirdi. Onlara - sən əvvəl-əvvəl bir türksən, dedi və "türkəm " dedirtdi...***

***Türk qövminin dəxi farslar, ərəblər kimi müstərif olduqları dini-mübin islamın - Allahımız bir, peyğəmbərimiz bir, Quranımız bir və binaən-ileh dinimiz də bir olmalıdır — deyə bu birligə feil və əql ilə qədəm qoyan Azərbaycan türkləri oldı desəm, əminəm ki, xəta etmərəm. Bu fikrin Azərbaycan türkləri arasında olduqca sürətlə intişarı və qüvvətlənməsini görərkən sözlərimin təsdiqinə məcbur olarlar.***

***Bizi vəhşi bilənlər və bizdən yalnız qaniçicilik gözləyənlər ilə və bizim vücudimizi aləmi-mədəniyyət üçün təhliikəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilis bizim içimizə girərkən, özlərini vəhşi bir heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir liizum olmadığını bir-iki gündən sonra kəmali-təəccüblə anladılar və haqqımızda bəsləməkdə olduqları nəzər və təsəvvüratın - bilməməzlik və ya diişmən təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər; əminəm ki, bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən cəbrən məhrum və cəhalətə məhkum edilmiş olan bir millət, azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətalarını ənzari-bəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...***

***AL rəngi türkligə, YAŞIL rəngi islamlığa və MAVİ rəngi mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur.***

***Adamlar var ki, bizim istiqlalımızı istəmiyordilər, halbuki bizə düşmən dəgil idilər və bu istəməməzlikləri də düşmənçilik yüzindən dəgil idi; fəqət, onlar qorxurdular. Qorxurdular ki, biz hökumət etməgə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayub da müxtəlif millətli təbəmizin can və malını mühafizə edə bilməyərək, siyasətdə bacarıqsızhq göstərub xalqın istirahətini pozaq...***

***Lakin, növzad dövlətimizin yeni başlamış ömrünün günləri və ayları gəlib keçdikcə, bu fikirdəki adamlar öz fikirlərini dəgişməgə məcbur oldular; bolşeviklər dövründə həsrətini çəkdigimiz çörək və çörəkdən artıq həsrətində olduğumuz əmin və asayişin yoxluğu və camaəti qoz və fındıq kimi bizar olan qətl və qarətin çoxluğu - o da, bu da dəf edildi; Azərbaycan dövləti çörək ilə bərabər əmin və asayişi də iadə etməklə əhalini həm aclıq, həm də qətl və qarət bəlalarından xilas qıldı; cavan dövlətimiz, dünyanı bürümüş olan sarı xəstəliklərlə də mədənizar bir surətdə mübarizəyə girişib zəfər və müvəffəqiyyət qazandı...***

***Düşmənlərimizin virdi-zəban etdiki "bəg, xan və şallaq hökuməti" əvəzinə ən demokratik və ən hürriyyətpərvər bir dövlət olduğunu bildirdi. Əhalisinə bir bu qədər geniş və genişligi heç bir hökumətdə görünməmiş bunca hürriyyət və azadlıqların vücudi qarsısında düşmənlərimizin gözləri heyrətlənib dilləri lal olacaq idi ki, hiylə və təzvirə əl atıb hökumətimizin bu qədər hürriyyətpərəstligini cəbunluğa və səhlənkarhğa isnad ilə bizi gənə də ləkələndirmək istiyordilər. Lakin bu axırki zabastovkanı - Azərbaycan istiqlalını məhv etmək və məmləkətimizi anarşı halına salmaq niyyətilə qurulmuş zabastovkanı yatırmaq işində hökumətimizin və millətimizin göstərmiş olduğu əzm və səbat, ustadlıq və məharət düşmənlərimizin bu ləkəsini üzərimizdən sildi və bu töhməti də rəf etdi...***

***İçərisində çıxan qırmızı təhlükəni rəf və izaləyə qadir olan bir hökumət və millət, xaricdən sədası gələn qara təhlükəni də dağıtmağa və darmadağın etməgə qadir olmazmı, zənn ediyorsınız? Siz onun bir yaşar olduğuna baxmayın;düşmən dəfində təcrübəsaz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxub da əmin olunuz ki, bu hökumət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir və bu qüdrətini lazım olduğu halda isbat edər. Bu təntənəli cəlal və şövkətli bayramımızı görənlər bunu yaqin bilsin ki, bir yaşar cavan Azərbaycan Türk Dövlətinin istiqlali-mühafizəsindəki şüarı budur ki: ÖLMƏK VAR,? fDÖNMƏK YOXDUR.***

***Bu əziz bayram giinü sidq dil ilə - yaşasın müstəqil Azərbaycan deyənlər, əmin olmalı; onu müstəqil yaşatmağa qadir olarlar."***

**BİRİNCİ DÜNYA MÜHARİBƏSİ (1914-1918)**-dünyanın yenidən bölüşdürmək, nüfuz dairəsi, xammal mənbələri və satış bazarları uğrunda böyük dövlətlərin iki koalisiyası arasında imperialist müharibəsi. Hərbi təlimləri izləmək üçün Sarayevoya gəlmiş Avstriya-Macarıstan taxt-tacının vəliəhdi Frans Ferdinandm "Gənc Bosna" təşkilatının üzvü Qavrilo Prins tərəfindən öldürülməsi (1914, 28 iyun) Birinci dünya müharibəsinin başlanmasına bəhanə oldu.

Avstriya-Macarıstan bu terror aktı üçün Serbiyanı təqsirkar saydı. Almaniya Avstriya-Macarıstanı müdafiə etdi. Avstriya-Macarıstanın Serbiyaya müharibə elan etmə-sinə cavab olaraq Rusiya avqustun 1 -də ümumi səfərbərlik keçirdi. Almaniya 1914 il avqustun 1-də Rusiyaya, avqustun 3-də isə onun müttəfiqi olan Fransaya müharibə elan etdi. Alman ordularının bitərəf dövlət olan Belçikaya müdaxiləsindən sonra, avqustun 4-də Böyük Britaniya Almaniyaya qarşı müharibəyə qoşuldu.

Birinci dünya müharibəsi (1914-18) Avropada bir-birinə zidd iki blokun - Üçlər İttifaqı (Almaniya, Avstriya-Macarıstan və İtaliya) ilə Antanta (İngiltərə, Fransa, Rusiya) arasında mövcud olan ixtilafların nəticəsində baş vermişdi. Antanta tərəfindən Yaponiya (1914), İtaliya (1915), Portuqaliya və Rumıniya (1916), ABŞ və Yunanıstan (1917), Üçlər İttifaqı tərəfindən isə Osmanlı dövləti (1914), Bolqarıstan (1915) müharibəyə qoşulmuşdular.

Müharibədə dünya əhalisinin 87%-nin yaşadığı 38 dövlət iştirak etmişdir. Döyüşən tərəflər hərbi əməliyyatları qışa qədər başa çatdırmağı düşünürdülər. Almaniya ordusu Şliffen planına uyğun olaraq hərəkət edirdi. Bu plana görə, alman qoşunları Belçikadan keçərək, Elzas və Lotaringiyaya girmək istəyən Fransa qüvvələrinin arxasına keçməli idi. Lakin Almaniya ordularının hücumları Marna döyüşündə dayandırıldı. Bundan sonra Qərb cəbhəsində Atlantik okeanından İsveçrəyə qədər ərazidə mövqe müharibəsi getmişdir. Səfərbərliyin başa çatmasını gözləmədən hücuma keçərək, Şərqi Prussiyaya və Qalisiyaya soxulmuş Rusiya orduları bu cəbhədə məğlubiyyətə uğramışdı.

Cənubi Qafqazda Osmanlı və Rusiya orduları arasında *döyüşlərin başlanması ilə Qafqaz cəbhəsi yaranmışdı. Qafqaz cəbhəsi Qara dənizdən Cənubi Azərbaycandakı Urmiya* gölünə qədər uzanırdı. Bu cəbhədə Osmanlı dövlətinin başlıca məqsədi Rusiyanın Türkiyə ilə bağlı işğalçılıq planlarının qarşısını almaq, mümkün olarsa, Azərbaycanı bütünlüklə, Xəzər dənizi hövzəsini və Qafqazı öz nüfuz dairəsinə salmaq, Mərkəzi Asiyaya və Hind okeanına yolları nəzarət altına almaq, Rusiya imperatorluğunun əsarəti altında olan türk və müsəlman xalqlarını müstəmləkə zülmündən xilas etmək və s. olmuşdur. Bu cəbhədə Rusiyanın yaratdığı və silahlandırdığı erməni quldur dəstələri Anadolunun və Azərbaycanın dinc türk-müsəlman əhalisinə qarşı kütləvi soyqırımları törətdilər (bax *Şərqi Anadoluda türklərin soyqırımı, Cənubi Azərbaycanda soyqırımı, Mart soyqırımı (1918)).*

İngilislər Süveyş kanalının təhlükəsizliyini təmin etmək məqsədilə Fələstinə ordu hissələri yeritdikdən sonra Fələstin cəbhəsi, Şətt-ül-ərəb çayının mənsəbinə ordu çıxardıqdan sonra isə Mesopotamiya cəbhəsi yaranmışdı. Bu cəbhələrdə ingilislərə qarşı türk orduları vuruşurdular.

Serbiya Avstriya-Macarıstanın hücumlarının qarşısını kəsmişdi. İngilislər Almaniya və Avstriya-Macarıstanı dəniz blokadasına almış, Almaniyanın Afrika və Okeaniyadakı müstəmləkələrinə nəzarət edirdilər.

Beləliklə, Antanta ölkələri hərbi əməliyyatlarda təşəbbüsü ələ keçirmişdilər. Almaniya 1914 ildə Fransanı məğlub edə bilməmiş və iki cəbhədə müharibə aparmağa məcbur olmuşdu. 1915 ildə Almaniya və Avstriya-Macarıstan komandanlığı Rusiyanı məğlub etməyi qərara almışdı. Ona görə də Almaniya Qərb cəbhəsində müdafiəyə keçmiş, əsas diqqətini Şərq cəbhəsinə yönəltmişdi. Almaniyanın hücumu uğurlu olsa da, Rusiyanı tam məğlub etmək mümkün olmamışdı. Bu zaman İtaliya da müharibəyə qatılmışdı. İtaliya cəbhəsi Avstriya-Macarıstan ordularını Şərq cəbhəsindən özünə doğru yönəltmişdi. Almaniya bloku tərəfindən müharibəyə qoşulan Bolqarıstan Avstriya-Macarıstan orduları ilə birlikdə serb ordusunu darmadağın etmişdi. Serb ordusunu fəlakətdən qurtarmaqdan ötrü Səlanikə Fransa qoşunları çıxarılmışdı. Onlar Serbiyanı xilas edə bilməsələr də, Birinci dünya müharibəsində Səlanik cəbhəsini yaratmışdılar. İngilislər osmanlıları məğlub etmək məqsədilə Çanaqqalaya (Dardanel) desant çıxarmışdılar. Lakin Vətənin müdafiəsinə qalxan türklər ingilislərin qarşısını uğurla kəsmişdilər. Çanaqqala döyüşü türk hərb sənətinin ən parlaq səhifələrindən biri olmuşdur. Bu döyüşdə Türkiyənin köməyinə gələn azərbaycanlılar da iştirak etmişlər. Almaniya hərbi əməliyyatların gedişini öz xeyrinə dəyişmək məqsədilə sualtı müharibəyə başlamışdı. 1916 ildə Almaniya Rusiyanın fəal müharibə apara bilməyəcəyini görüb, əməliyyatların ağırlığını Qərb cəbhəsinə keçirmişdi. Lakin Verden yaxınlığında Antanta cəbhəsini yarmaq mümkün olmamışdı. Antanta qüvvələri Somma çayı rayonunda alman ordularına qarşı hücuma keçmiş, hərbi əməliyyatlarda ilk dəfə tanklardan istifadə etmişdilər. Rusiya ordusu Qərb cəbhəsində uğurlu hücuma keçmişdi.

Qafqaz cəbhəsində ruslar tərəfindən sıxışdırılan türklərə qarşı ingilislər də hücuma keçmişdilər. Lakin türklər Mesopotamiya cəbhəsində əkshücumla ingilisləri İran körfəzinə qədər geriyə oturtmuş, Cənubi Azərbaycanı da azad etmişdilər. Birinci dünya müharibəsində ən böyük dəniz vuruşması Yutlandiyada olmuşdu. Döyüşdə ingilislər böyük itki versələr də, Almaniya donanması ingilis blokadasını yara bilməmişdi. 1917 ildə Antanta ölkələri bütün cəbhələrdə hücuma keçməyi planlaşdırmışdı. Lakin Rusiyada baş vermiş Fevral inqilabı vəziyyəti dəyişmişdi. İnqilab orduda müharibə əleyhinə əhvali-ruhiyyəni gücləndirdiyi üçün Şərq cəbhəsində hücum uğursuz olmuşdu. Böyük insan və sənaye potensialına malik olan ABŞ-ın 1917 ilin aprelində müharibəyə qoşulması qüvvələr nisbətini Antantanın xeyrinə əsaslı surətdə dəyişmişdi. İlin sonuna yaxın ABŞ orduları Qərb cəbhəsində mövqe döyüşünə başlamışdılar. Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər barışıq haqqında sazişə nail olmuşdular. Şərq cəbhəsində hərbi əməliyyatlar dayandırılmışdı. Qafqaz cəbhəsində əsas hərbi əməliyyatlar Bakı nefti uğrunda aparılırdı. Bakı neftinə yiyələnmək uğrunda Almaniya, B.Britaniya mübarizə aparır, bolşevik Rusiyası da onu əldən vermək istəmirdi. 1917 ilin dekabrında Rusiya və Türkiyə arasında Ərzincan barışığının imzalanması ilə Qafqaz cəbhəsində hərbi əməliyyatlar dayandırılmışdı. Lakin Fələstin və Mesopotamiya cəbhələrində fəallaşaraq türkləri şimala doğru sıxışdıran ingilislər Bakını ələ keçirməyə can atırdılar. Ordusunda ruh düşgünlüyü yaranmış Almaniya Qərb cəbhəsində müdafiəyə keçmişdi. 1918 ilin martında Almaniya Brest-Litovskda Rusiya ilə sülh müqaviləsi imzaladıqdan sonra ordularını Qərb cəbhəsində cəmləşdirərək, hücuma keçmişdi. Lakin Marna döyüşündə alman ordulan geri oturduldu. 1918 ilin avqustunda general Denstervil başda olmaqla Böyük Britaniyanın hərbi ekspedisiya qüvvələri Bakıya yeridildi. Lakin onlar Bakının türk-Azərbaycan hərbi qüvvələri və Azərbaycan xalq könüllülərindən ibarət *Qafqaz İslam Ordusu* tərəfindən azad edilməsinin qarşısını ala bilmədilər. 1918 il sentyabrın 15-də Bakı azad edildi və müstəqil Azərbaycan Cümhuriyyətinin paytaxtına çevrildi (bax *Bakının azad olunması əməliyyati).*

Payızda Antanta qüvvələri bütün cəbhələrdə geniş hücuma keçmişdi. Sentyabrın 29-da bolqarlar Səlanikdə, oktyabrın 30-da türklər Mudrosda, noyabrın 3-də Avstriya-Macanstan Padunda, noyabrın 11 -də Almaniya Kompyendə barışıq imzalamaqla müharibəni məğlubiyyətlə başa vurdular. *Mudros barışığına (1918)* görə türk orduları Cənubi Azərbaycandan və Bakıdan çıxarıldı. İngilis generalı Tomson başda olmaqda Bakıya müttəfiq qoşunları yeridildi.

Birinci dünya müharibəsi Antanta ölkələrinin qələbəsi ilə başa çatdı. Müharibə illərində, ilk dəfə olaraq, iqtisadiyyatın dövlət tənzimlənməsinə keçilmişdi. Vuruşan dövlətlərin ordularına 74 milyon insan cəlb edilmişdi. 10 milyonadək adam həlak olmuş, 20 milyonadək yaralanmış və əlil olmuşdu. 10 milyonadək adam epidemiyalardan və aclıqdan ölmüşdü.

Birinci dünya müharibəsində qarşılaşan bloklardan hər biri öz məqsədini güdürdü. Müharibənin başlanmasının həlledici amili müstəmləkələr və təsir dairələri üstündə Almaniya və İngiltərə arasındakı barışmaz ziddiyyətlər idi. Almaniyanın müdaxilə planlarına Qafqazı, ilk növbədə isə Azərbaycan neftini ələ keçirmək daxil idi. Belə ki, Almaniyanın hökumət məmuru Rudolf Martin hələ müharibədən xeyli əvvəl, 1907 ildə nəşr etdirdiyi "Berlin-Bağdad" adlı kitabında almanların hakimiyyəti altında Bakı və bütün Qafqazı əhatə edəcək "Tiflis canişinliyi" yaradılmasını Rusiya ilə gələcək müharibədə Almaniyanın əsas məqsədlərindən biri hesab edirdi.

Bakı neft sənayesi üzərində hökmranlıq uğrunda ingilis, fransız və alman kapitalları arasında başlayan və ilk dövrlərdə Rusiya neft ticarətində almanların nüfuzunun güclənməsinə gətirib çıxaran rəqabət, nəticə etibarilə, Azərbaycanın neft istehsalında əsas mövqelərin Almaniyanın rəqiblərinin əlinə keçməsi və alman kapitalının sıxışdırılması ilə başa çatdı. Cənubi Qafqazın əvvəlcə hərbi əməliyyatlar meydanına, sonra isə cəbhəyanı bölgəyə çevrilməsi buranın siyasi vəziyyətinə və iqtisadi həyatına böyük ziyan vurdu. Qara dəniz limanlarının bağlanması və neft məhsulları ixracının dayandırılması üzündən neftin qiyməti aşağı düşdü. Mərkəzi Rusiya ilə əlaqələr pozuldu və diyarın zəruri ərzaqla təchizatı çətinləşdi.

Birinci dünya müharibəsi (1914-18) dövründə Türkiyə və İran ərazilərində aparılan əməliyyatlar nəticəsində həmin ölkələrdə yaşayan yüz minlərlə erməni rusların himayəsi altında qədim Azərbaycan torpağı olan İrəvan quberniyasına, həmçinin, Gəncə (Yelizavetpol) və Bakı quberniyalarının ərazisinə köçürüldü. Bununla, Qərbi Azərbaycan torpaqlarında (indiki Ermənistan Respublikasının ərazisi) erməni dövlətinin yaradılması üçün növbəti addım atıldı. Birinci dünya müharibəsinin gedişində və Rusiyada Romanovlar mütləqiyyətinin devrilməsi nəticəsində Cənubi Qafqazda müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yaransa da, çox keçmədən, bolşevik Rusiyası Cənubi Qafqazı işğal etdi.

Birinci dünya müharibəsinin nəticələri *Paris sülh konfransında (1918-20)* yekunlaşdırıldı və rəsmiləşdirildi.

*Əd.:* Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə. h.1-2, B., 2000, 2001; yenə onun, Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, h.l (1918-1945-ci illər), B., 2003;Бовыкин В. И., Из истории возникновения первой мировой войны, М., 1972; История первой мировой войны 1914-1918, в 2 –х томах (под ред. И.И.Ростунова), М., 1975; Фей С., Происхождение мировой войны, т. 1- 2, М., 1934.

**BİRİNCİ HÖKUMƏT KABİNƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hökuməti. Azərbaycan Milli Şurası 1918 il mayın 28-də Tiflisdə Azərbaycanın müstəqilliyi haqqında *İstiqlal bəyannaməsini* elan etdikdən sonra Azərbaycan Cümhuriyyətinin ilk müvəqqəti Hökumətinin təşkilini Şuranın üzvü Fətəli xan *Xoyskiyə* tapşırdı. Xoyski Milli Şuranın həmin iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti Hökumət kabinəsinin üzvlərini elan etdi. 1-ci Hökumət kabinəsində Fətəli xan Xoyski Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini, Xosrov Paşa bəy *Sultanov* hərbi nazir, Məmməd Həsən *Hacınski* xarici işlər naziri, Nəsib bəy *Yusifbəyli* xalq maarifi və maliyyə naziri, Xəlil bəy *Xasməmmədov* ədliyyə naziri, Məmməd Yusif *Cəfərov* ticarət və sənaye naziri, Əkbər ağa *Şeyxülislamov* əkinçilik və əmək naziri, Xudadat bəy *Məlik-Aslanov* yollar və poçt-teleqraf naziri, Camo bəy *Hacınski* dövlət nəzarəti naziri vəzifələrini tutdular (bax *Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti).*

**BİRİNCİ QAFQAZ QIRMIZI KORPUSU** 1918 ilin mayında *Bakı Xalq Komissarları Sovetinin* rəhbərliyi altında yaradılmış silahlı qüvvə; hərbi birlik. Qırmızı korpusun yaradılmasından əsas məqsəd bolşevik-daşnak qüvvələrini vahid komandanlıq altında birləşdirərək Azərbaycanın milli qüvvələrinə zərbə endirmək və bütün Azərbaycanı nəzarət altına almaq idi. Əsasını erməni-daşnak qüvvələri və silahlı bolşevik dəstələri təşkil edirdi. Daşnak qüvvələrinin Qırmızı orduya birləşdirilməsi razılığı *Mart soyqırımından (1918)* sonra əldə edilmişdi. Bakıdakı İnqilabi Müdafiə Komitəsi ilə Erməni Milli Şurasının həmin razılığına əsasən, mart soyqırımında fəal iştirak etmiş 2-ci erməni ehtiyat piyada alayı ləğv olunaraq, bir hissəsi daşnak qulduru Hamazaspın taboruna, digər hissəsi isə Qırmızı sovet taborlarının tərkibinə daxil edildi. Hamazaspın taborları yenidən qurularaq 16-cı və 17-ci sovet taborları kimi Qırmızı orduya daxil edildi. Yenidən qurulan Qırmızı ordu 18 min əsgər və zabiti olan 19 atıcı tabordan ibarət idi. Bütün taborlar 4 atıcı briqadada birləşdirilərək, Birinci Qafqaz Qırmızı korpusunu təşkil edirdi. Korpusun rəhbər vəzifələrinə, əsasən, ermənilər təyin edilmişdi. Korpus komandiri polkovnik Qazarov, korpusun qərargah rəisi polkovnik Avetisov, komissarı isə Qanin idi. 1-ci atıcı briqadanın komissarı A.Quloyan, 2-ci briqadanın komissarı Ter-Sarkisov, 3-cü briqadanın komissarı A.Mikoyan, 4-cü briqadanın komissarı A.Qabişev, topçu qüvvələrinin komissarı A.Ter-Sarkisyan, süvari qüvvələrinin komissarı isə T.Şaumyan idi. Bakı Sovetinin tabeliyində olan hərbi-dəniz qüvvələrinə rəhbərlik də erməni Xaçikova həvalə edilmişdi. Bakı Xalq Komissarları Sovetinin tabeliyində olan bütün hərbi qüvvələrin baş komandanı hərbi və dəniz işləri üzrə komissar Q.Korqanov idi. Qırmızı korpusun 12 ədəd səhra, 3 ədəd dağ və 4 ədəd mortir topu, atıcı silahlar üçün 9 milyon ədəd gülləsi var idi. Korpusun möhkəmləndirilməsi üçün 1918 il iyunun əvvəllərində Moskvadan əlavə hərbi texnika yola salınmışdı. Korpusun əsas qüvvələri Hacıqabul stansiyasına toplaşaraq, 1918 il iyunun 10-da Gəncəyə doğru yürüşə başlamışdı. Bu qüvvələr yalnız Müsüslü-Qaraməryəm xəttinə qədər irəliləyə bilmişdilər. Türk-Azərbaycan hərbi qüvvələri və xalq könüllülərindən ibarət *Qafqaz İslam Ordusu* hissələrinin hücumu nəticəsində korpus tədricən Bakıya qədər geri çəkildi. Bakı Sovetinin süqutu ilə korpusu təşkil edən qüvvələr yenidən formalaşdırılaraq daşnaklardan və eser-menşeviklərdən ibarət *"Sentrokaspi diktaturası* "na tabe edildi. Azərbaycan xalqına qarşı yeni soyqrımları təhlükəsi yarandı.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; yenə onun, Qafqaz İslanı Ordusu və Azərbaycan, B., 1999.

**BİRİNCİ PİYADA DİVİZİYASI** Azərbaycan ordusunun tərkibində hərbi birləşmə. Əsası 1917 ilin sonlarında qoyulmuşdu. Diviziyanın formalaşması onun komandiri general-mayor Xəlil bəy Talışinskinin rəhbərliyi ilə aparılırdı. Birinci diviziyanın strukruru Əlahiddə Azərbaycan korpusunun tərkibində də saxlanmışdı. Lakin Azərbaycan hərbi hissələrinin formalaşması zəruri tələblərə cavab vermədiyindən *Qafqaz İslam Ordusu* komandanının 1918 il 13 avqust tarixli əmri ilə Əlahiddə Azərbaycan korpusunun və piyada diviziyalarının qərargahları ləğv olundu, piyada diviziyalarına daxil olan hərbi hissələr isə birbaşa Qafqaz İslam Ordusu komandanına tabe edildi.

*Milli ordunun əsgərləri təlimdə*



Bakının azad olunması uğrunda döyüş (1918, 15 sentyabr) uğurla nəticələndikdən sonra piyada diviziyalarının və Azərbaycan korpusu qərargahlarının bərpasına başlandı. Qafqaz İslam Ordusu komandanının 1918 il 23 sentyabr tarixli əmri ilə polkovnik *Cəmil Cahid* bəy diviziyanın komandiri təyin edildi və 1-ci, 2-ci və 3-cü piyada alayları bu diviziyanın tərkibinə qatıldı. Diviziyanın təşkilini sürətləndirmək üçün 5-ci Qafqaz firqəsinin 9-cu piyada alayı da bu diviziyanın tərkibinə daxil edildi. Alayın taborları 1-ci, 2-ci və 3-cü piyada alaylarının əsasını təşkil etdi. Türk hərbi qüvvələri 1918 il noyabrın ortalarından Azərbaycanı tərk edəndə, qərargahı Qarabağda olan Birinci piyada diviziyasına general-mayor İbrahim ağa Usubov komandir təyin olundu. 1919 il yanvarın 1-dən isə diviziyaya rəhbərlik general-mayor Süleyman bəy Əfəndiyevə tapşırıldı. Süleyman bəy Əfəndiyev 1919 il fevralın 21-də vəfat edəndən sonra, Cavad bəy *Şıxlinski* diviziyanın komandiri təyin edildi. Diviziyanın formalaşmasında və möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Nazirlər Şurasının 1919 il 25 iyun tarixli qərarı ilə Cavad bəy Şıxlinskiyə general-mayor rütbəsi verildi. Diviziyanın tərkibinə 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə piyada alayları daxil idi və qərargahı Gəncədə yerləşirdi. Diviziyanın alayları, başlıca olaraq, ermənilərlə təmas xəttində mövqe tutduğundan Zəngəzur ekspedisiyasında Qarabağ əməliyyatında, şimal müdafiə sisteminin yaradılmasında iştirak etmişdilər.

*Aprel işğalından (1920)* sonra xalq hərbiyyə və bəhriyyə komissarının 1920 il 16 may tarixli əmri ilə Azərbaycan ordusunun 1-ci və 2-ci piyada diviziyalarının əsasında Azərbaycan fəhlə-kəndli birləşmiş qırmızı diviziyası yaradıldı və bununla da Birinci piyada diviziyasının varlığına son qoyuldu.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998 Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995.

**BİRLƏŞMİŞ MÜVƏQQƏTİ KOMİTƏ - "ÜMUMŞƏHƏR MƏRKƏZİ"** - Bakıda bolşevik və menşeviklərin birləşmiş təşkilatı. Fevral inqilabının (1917) ilk aylarında müxtəlif siyasi cərəyanlar, partiyalar, sosial təbəqələr Müvəqqəti hökumətə etimad göstərir və onu müdafiə edirdilər. Bu dövrdə partiyalararası münasibətlərin getdikcə kəskinləşməsi və qüvvələrin parçalanması hakimiyyət orqanlarının işini pozur, onun fəaliyyətində qeyrisabitlik yaradırdı. Həmin mərhələdə sosial-demokrat yönlü siyasi qüvvələrin birləşməsi prosesi ciddi ixtilaflar doğurmadı. 1917 il martın 10-da bolşevik və menşevik nümayəndələrinin Birləşmiş Müvəqqəti Komitəsi - "Ümumşəhər Mərkəzi" seçildi. Mərkəzin tərkibinə ümumşəhər yığıncağından 10 nəfər və Bakı Fəhlə Deputatları Sovetinin partiya fraksiyalarından da eyni sayda nümayəndə daxil oldu. Birləşmiş komitədə menşeviklər üstünlük təşkil edirdilər.

Bolşeviklərin və menşeviklərin vahid sosial-demokrat təşkilatında birləşməsi onların eyni mövqedən çıxış etməsi demək deyildi. Təşkilatın mövcud olduğu 4 ay ərzində onların siyasi həyatın bütün məsələlərinə münasibəti bir-birindən fərqli idi. Bu fraksiyalar arasındakı daimi mübarizə Müvəqqəti komitənin mətbuat orqanı olan *"Bakinski raboçi"* qəzetində əksini tapırdı. Partiyanın Birləşmiş Müvəqqəti Bakı Komitəsinin orqanı olan qəzet 5-ci sayından bolşevik qəzeti kimi çıxdı. Menşeviklər isə öz mətbuat orqanlarını - "Sosial-demokrat" qəzetini nəşr etdilər. Qəzetin ilk sayı 1917 il iyunun 17-də işıq üzü gördü. Bolşeviklər daha çox nüfuza malik olduqları Balaxanıda özlərinin ayrıca konfransını keçirərək, xüsusi qətnamə qəbul etdilər və menşevikləri komitənin tərkibindən kənarlaşdırdılar. İyulun 1 –də isə menşeviklər özlərinin 14 nəfərdən ibarət müstəqil komitələrini yaratdılar və onun birləşmiş Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının Bakı Komitəsi adlanması haqqında qərar qəbul etdilər.

*Əd.:* Везиров Х.Г., Деятельность большевиков в Баку по налаживанию издания своих печатных органов в 1917 г., Труды Азербайджанского филиала ИМЭЛ, т. 29, Б., 1971.

**"BİTƏRƏFLƏR" FRAKSİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fraksiyalarından biri. 11 nəfər Parlament üzvündən ibarət fraksiyaya Fətəli xan Xoyski, Bəhram Axundov, Behbud xan Cavanşir, Mirzə Əsədullayev, Əbdüləli bəy Əmircanov, Yusif Əhmədov, Baxış bəy Rüstəmbəyov, Abuzər bəy Rzayev, Cəlil bəy Sultanov, Əsədulla Əhmədov və Ağa Aşurov daxil idi.

1919 ilin oktyabrında fraksiyada parçalanma baş verdi. 8 nəfərdən ibarət böyük əksəriyyət - Fətəli xan Xoyski, Mirzə Əsədullayev, Əsədulla Əhmədov, Cəmil bəy Sultanov, Yusif Əhmədov, Baxış bəy Rüstəmbəyov, Abuzər bəy Rzayev və Ağa Aşurov "Müsavat" fraksiyası ilə birləşərək Parlamentdə həlledici səsə malik olan "Müsavat" və bitərəflər fraksiyasını yaratdılar. "Müsavat"la birləşən bitərəflər, eyni zamanda, müstəqil səsvermə hüquqlarını özlərində saxladılar. "Bitərəflər" fraksiyasından ayrılmış 3 nəfər - Bəhram bəy Axundov, Behbud xan Cavanşir və Əbdüləli bəy Əmircanov isə müstəqil olaraq bitərəflər qrupu yaratdılar. 1919 ilin sonlarında Parlamentdə Əlimərdan bəy Topçubaşov, Səməd bəy Mehmandarov, Xudadat bəy Məlik-Aslanov və Baba bəy Qəbulzadədən (Qəbulov) ibarət müstəqillər qrupu yarandı. 1919 il noyabrın əvvəlində "Əhrar" fraksiyasından ayrılan Abdulla bəy Əfəndizadə (Ə f ə n d i y e v) isə özünü sol bitərəf elan etdi.

*Əd:*. Azərbaycan Cümhuriyyəti Parlamenti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). c.1-2,B., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., Б., 1920.

**BORÇALI** - Azərbaycan türklərinin elliklə yaşadığı qədim tarixi mahal. Cənubi Qafqazın tarixində mühüm rol oynayan qüdrətli Azərbaycan dövlətlərinin tərkibinə daxil idi. 18 əsrin əvvəllərində Səfəvilərin Gəncə bəylərbəyliyinin tərkibində idi. Bəylərbəyi Ziyadoğlunun 1736 ildə Nadirin Muğanda şah elan edilməsinin əleyhinə çıxması mahalın tarixi müqəddəratında ciddi dönüş yaratdı. Ziyadoğlunun hərəkətindən qəzəblənən Nadir şah (1736-47) Borçalı və Qazax mahallarını Gəncə bəylərbəyliyindən alınıb Kartli-Kaxeti çarlığına verdi. Nadir şahın ölümündən sonra Borçalıda müstəqil sultanlıq yarandı. Çar I Aleksandrın 1801 il 12 sentyabr manifesti ilə Şərqi Gürcüstan Rusiyaya birləşdirildikdə, Borçalı mahalı da onunla birlikdə Rusiya imperiyasına ilhaq olundu. Bununla, Borçalı mahalında, Gürcüstan tərkibində olmaqla, ayrıca distansiya yaradıldı.

Distansiyanın ərazisi 8 min *kv.verst* idi (1 *verst*= 1,0668 km). 1832 il kameral təsvirinə görə Borçalı distansiyasının145 kəndində 4092 həyət, 13762 nəfər kişi var idi. Borçalının Rusiyaya ilhaqından keçən 31 il ərzində burada həyata keçirilən ayrıseçkilik siyasətinə və həmin torpaqlara qeyri-türk əhalinin köçürülməsinə baxmayaraq əhalinin çox hissəsini yenə də azərbaycanlılar təşkil edirdi. Həmin dövrdə Borçalı əhalisinin sayı etnik tərkibinə görə belə idi: azərbaycanlılar 8479 (61,6%), ermənilər 3634 (26,4%), yunanlar 767 (5,6%), gürcülər 669 (4,86%), almanlar 313nəfər (2,27%). Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyev yazırdı ki, türklərin Borçalıda üstünlüyü o dərəcədə güclü idi ki, 1 Nikolay dövründə (1825-55) bu vilayət əlahiddə "tatar distansiyası" təşkil edib, müxtəlif səbəblərdən, başlıca olaraq, strateji mülahizələrə görə sonralar Tiflis quberniyasına birləşdirilmişdir. 1877 il martın 25-də distansiya Trialet və Lori pristavlıqları (Tiflis qəzası) ilə birləşdirilərək, Şüləver inzibati bölgəsinə daxil edildi. 1880 il mayın 6-da ayrıca Borçalı qəzası təşkil olundu. Qəza yaradılarkən qədim Borçalı torpaqları olan Qarayazı və Qaraçöp bölgələri Tiflis qəzasına verildi. Bunun nəticəsində Borçalının bir Azərbaycan mahalı kimi tarixi ərazi vahidliyi (bütövlüyü) pozuldu. Qəzanın tərkibində Borçalı (Şüləver), Yekaterinenfeld, Lori (Cəlaloğlu) və Trialet (Başkeçid) polis sahələri mövcud idi.

Qafqaz təqviminin (1917) məlumatına görə, Borçalı qəzasının ərazisi 6036,96 *kv. verst,* yaxud əvvəlkindən 1963,0 *kv. verst* az idi. Bu dövrdə Borçalı qəzasında 169351 nəfər əhali yaşayırdı, onun 160447 nəfəri yerli sakinlər, 8904 nəfəri müvəqqəti yaşayanlar idi. Qəza əhalisinin 51316 nəfərini (30,3%) müsəlmanlar təşkil edirdi. 1832 il kameral təsvirinin yekunları ilə müqayisədə aydın olur ki, qəza əhalisinin etnik tərkibi məqsədyönlü şəkildə dəyişdirilmişdir. Buna baxmayaraq, azərbaycanlılar bölgədə əsas etnik qüvvə idi. Borçalının mərkəzi hissəsində azərbaycanlılar 36615 nəfər (93%), Qarayazıda isə 7419 nəfər (88,8%) təşkil edirdi. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildikdən sonra, Borçalı mahalının əhalisi öz müqəddəratını təyinetmə hüququ əsasında Azərbaycana birləşmək haqqında məsələ qaldırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Borçalı qəzasının Borçalı və Yekaterinenfeld polis sahələrini bütünlüklə, Lori və Trialetin isə bir hissəsini öz ərazisi hesab edirdi. Bu ərazilər etnostrateji və iqtisadi baxımdan böyük əhəmiyyətə malik idi. Qazaxdan Qarsa və Batuma çəkilməsi nəzərdə tutulan dəmir yol xətti Azərbaycanın Qara dənizə çıxışını təmin etməli idi. Lakin Gürcüstan hökuməti onu dəstəkləyən alman qoşunlarının Borçalını tutmasından istifadə edərək, buranı öz hakimiyyətinə tabe etdi.

Borçalı əhalisi həmin dövrdə alman qoşunlarına və gürcü idarəçiliyinə etirazını bildirir, Azərbaycanla birləşməyə can atırdı. Almanlar, sonra isə türklər Cənubi Qafqazı tərk etdikdə Borçalı Gürcüstan Respublikasının hakimiyyəti altında qaldı. Ermənilər bu vəziyyətdən istifadə edib, Aleksandropol (Gümrü) qəzasını tutdular və Borçalının hüdudlarına çatdılar. Onlar işğalçılıq siyasətini davam etdirərək Borçalı torpaqlarını da ələ keçirmək üçün Gürcüstanla müharibəyə başladılar. Beləliklə, tarixi Azərbaycan torpağını ələ keçirmək uğrunda iki qonşu respublika öz aralarında müharibəyə başladılar (bax *Ermənistan-Gürcüstan müharibəsi).* İngilislərin fəal müdaxiləsi ilə müharibə 1918 il dekabrın 31-də dayandırıldı, 1919 il yanvarın 9-17-də Tiflisdə Ermənistan-Gürcüstan konfransı keçirildi. Konfransın qərarına əsasən, Borçalının şimal hissəsi Gürcüstana, cənub hissəsi Ermənistana verildi, Lori isə neytral zona elan olundu. Danışıqlar prosesində Borçalının tarixi sahibi olan azərbaycanlıların mənafeyi tapdalandı. Loridə yaşayan azərbaycanlıların vəziyyəti ağırlaşdı. Ermənistanın Türkiyəyə qarşı başladığı müharibənin (bax *Ermənistan-Türkiyə müharibəsi (1920))* gedişində türk qoşunları 1920 ilin sentyabrında Gümrünü və Qarakilsəni tutaraq, Lori neytral zonasına yaxınlaşdı.

Ermənistanla Gürcüstan arasında bağlanmış 13 noyabr müqaviləsinə görə, gürcü qoşunları Lori neytral zonasına daxil oldu. Noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, bu dəfə Sovet Rusiyasının köməyindən istifadə edən ermənilərin Lori uğrunda mübarizəsi gücləndi. 1921 il fevralın 11-dən 12-nə keçən gecə Lorinin erməni kəndlilərinin qiyamı təşkil olundu, gürcü qoşunları Borçalıdan çıxarıldı. 11 -ci qırmızı ordunun köməyi ilə Gürcüstanda da sovet hakimiyyəti quruldu. Sovet Rusiyası Lori neytral zonasının taleyini həll etmək üçün əlverişli imkan əldə etdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz bürosunun 1921 il 7 iyul tarixli qərarı ilə Lori neytral zonasının bütün ərazisi Ermənistan SSR-ə verildi. Gürcüstanla Ermənistanın sərhədini müəyyənləşdirən 1921 il 6 noyabr bəyannaməsinə əsasən, Lorinin Ermənistan SSR-ə verilməsi təsdiqləndi. Beləliklə, tarixi Azərbaycan ərazisi olan Borçalı mahalı Ermənistanla Gürcüstan arasında bölüşdürüldü. Gürcüstanın tərkibində qalan Borçalı torpaqları qəza adı ilə idarə olunurdu. Onun ərazisi 2655 *kv. km* idi. Bu, tarixi Borçalı distansiyası torpaqlarının 31,3%-ni təşkil edirdi. 1929 ildə, nəhayət, Gürcüstan SSR tərkibindəki Borçalı qəzası da ləğv olundu. Onun ərazisində Borçalı (1950 ildən Marneuli), Lüksemburq (Bolnisi), Başkeçid (Dmanisi) rayonları yaradıldı. Beləliklə, çar Rusiyası və Sovet Rusiyası dövründə yeridilmiş məqsədyönlü siyasət nəticəsində azərbaycanlıların qədim Borçalı mahalı etnik-ərazi vahidi kimi tarix səhnəsindən silindi və Azərbaycanın təsir dairəsindən çıxarıldı.

*Əd.:* Məmmədli Ş., Paralanmış Borçalı, B., 1991; yenə onun, Ulu Borçalı, B., 1998; Аргутинский – Долгоруков А.М., Район Тифлисско – Карсско – Эриванской железной дороги в экономическом и коммерческом отношениях, Тифлис, 1897; Ерицов Е.Д., Экономический быть государственных крестбян Борчалинского уезда: Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.VII, Тифлис, 1887; Обозрение Российских владения за Кавказом, ч. II, 1836; Щепотьев А., Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки: Изв. АН. Азерб. ССР, (серия истории, философии и правва), 1990, № 2.

**BOSNALIZADƏ** Məmməd Rəşid Mustafa oğlu (21.6.1892, Gəncə - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Gəncə (Yelizavetpol) ali ibtidai məktəbini bitirmiş, orada müəllimlik etməklə yanaşı, 3 il İstanbul Universitetinin hüquq şöbəsində oxumuşdur. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən hüquq sahəsində təhsilini davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Bosnalızadənin təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**BÖYÜK BRİTANİYA, ABŞ, İSVEÇRƏ, İTALİYA VƏ POLŞA HÖKUMƏTLƏRİ YANINDA DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN TƏSİS EDİLMƏSİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin xarici dövlətlərdə diplomatik nümayəndəliklər açmaq barədə qərarı. 1920 il yanvarın 7-də qəbul olunmuşdur. Həmin qərara əsasən adları çəkilən ölkələrin hökumətləri yanında Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəlikləri təsis olunur, xarici işlər nazirinə bu vəzifələrə namizədləri müəyyənləşdirmək və nümayəndəliklərin saxlanması üçün müvafiq xərclərin smetasını hazırlayıb təqdim etmək tapşırılırdı.

**BÖYÜK BRİTANİYA ƏKS-KƏŞFİYYATININ QAFQAZ-XƏZƏR MİSSİYASI** - B.Britaniyanın Qafqaz-Xəzər hövzəsi siyasətinə xidmət edən əks-kəşfiyyatı. Qafqaz regionunun, xüsusən də Bakının B.Britaniya hökumətinin siyasətində önəmli yer tutması ilə əlaqədar B.Britaniya əks-kəşfiyyatı 1917-21 illərdə ardıcıl, intensiv fəaliyyət göstərirdi. Bakının ələ keçirilməsində alman-türk blokunu qabaqlamaq və Xəzər hövzəsində nəzarətə sahib olmaq məqsədilə B.Britaniyanın xüsusi hərbi ekspedisiyası ilə yanaşı, kəşfiyyat xidməti də sistemli və məqsədyönlü iş aparırdı. B.Britaniya xüsusi xidmətinin Şərq üzrə ixtisaslaşmış təcrübəli əməkdaşlari diplomatik nümayəndə, sənaye şirkətinin əməkdaşları, iqtisadi müşavirlər kimi Bakıda xüsusi missiyalar həyata keçirirdilər. Ronald Mak-Donell, Edvard Noel, Payk, Stoks, Qoldemit, Klaterbek, Ueyn və b. daha geniş fəaliyyət göstərmiş, B.Britaniya hökumətinin Şərq, Qafqaz siyasətinin formalaşdırılmasına xidmət etmişlər. B.Britaniya əks-kəşfiyyatı 1917 ilin sonundan ingilis hərbi hissəsinin Qafqaza gəlişi üçün əlverişli şərait yaratmaq yönündə iş aparır, Denstervil missiyasının Bakıya gəlmək vasitələrini işləyib hazırlayırdılar.

B.Britaniya kəşfiyyatçıları hökumətə tövsiyələrində müsəlman əhalisinin əhvali-ruhiyyəsinin nəzərə alınmasına önəm verir, bu məsələnin əhəmiyyətsiz sayılmasını B.Britaniyanın Hindistanda və Mesopotamiyada yeritdiyi siyasətlə uyğun gəlmədiyini qeyd edirdilər. B.Britaniya kəşfiyyatçılarının Petroqrad-Bakı-Yekaterinodar-Tehran səfərləri, Bağdad-Dehli-London yazışmaları, müntəzəm məlumatları, məxfi agentlərə konkret göstərişləri ingilislərin Qafqaz-Xəzər hövzəsi siyasətini istiqamətləndirirdi.

İngilis kəşfiyyatının 1918 ilin yazından etibarən Bakıdakı vəziyyət haqqında əhatəli məlumatları B.Britaniya missiyasının Qafqazda əməkdaşlıq edə biləcəyi siyasi qüvvələri müəyyənləşdirməyə yardım göstərirdi. B.Britaniya əks-kəşfiyyatı Britaniya hərbi missiyası Qafqazı tərk edənədək bölgədə fəal iş aparmışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Əhmədova F., Azərbaycan Xalq Cümhuriyyətinin siyasi tarixində Böyük Britaniyanın yeri, "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları, B., 5 may 2003; Первая Азербайджанская Республикак: история, события, факты англо- азербайджанских отношений, Б.,1998.

**BÖYÜK BRİTANİYANIN HƏRBİ EKSPEDİSİYASI**- Bakını ələ keçirmək üçün alman-türk blokunu qabaqlamaq və Xəzər hövzəsinə nəzarətə sahib olmaq məqsədilə yaradılmış xüsusi ekspedisiya (1918). Qafqaz regionu, xüsusilə Bakı Azərbaycan Xalq Cümhuriyyəti ilə B.Britaniya arasında əlaqələrin yaranmasından xeyli əvvəl ingilis siyasətində önəmli yer tuturdu. Geostrateji və geoiqtisadi baxımdan mühüm əhəmiyyət daşıyan Qafqaz regionunun B.Britaniyanın xarici siyasət planlarında yer alması Birinci dünya müharibəsi (1914-18) dövründə daha aktual məzmun kəsb etməyə başladı. Bağdadda olan ingilis Baş Qərargahının qarşısında duran ən mühüm vəzifələrdən biri almanları və türkləri Qafqaza buraxmamaq idi. Oktyabr çevrilişi (1917) ilə hakimiyyəti ələ keçirən bolşeviklərin Qafqazı əldə saxlamaq yönündə cidd-cəhdləri Antanta dövlətlərini, xüsusilə B.Britaniyanı təşvişə saldı. 1917 il dekabrın 22-də Antanta Ali Hərbi Şurasının iclasında Qafqaz məsələsi yenidən müzakirəyə çıxarıldı və B.Britaniya nümayəndələrinin hazırladığı memorandum imzalandı. Dekabrın 23-də B.Britaniya və Fransa arasında Rusiyanın cənubunu nüfuz dairəsinə bölmək haqqında saziş imzalandı. Sazişin 3-cü maddəsinə əsasən Mərkəzi Asiya, Qafqaz ingilis zonasına, Bessarabiya, Ukrayna və Krım isə fransız zonasına daxil edilirdi. İngilislər, ilk növbədə, Bakını və *Bakı-Batum dəmir yolunu* ələ keçirmək istəyirdilər. Müttəfiqlər Xəzər sahillərindəki Bakı neft yataqlarından *Dördlər İttifaqı* dövlətlərinin hər hansı formada istifadə etməsinin qarşısını almalı idilər. Bu missiyanı həyata keçirmək üçün Qafqazda 1000 nəfərədək hərbi dəstənin kifayət edəcəyi güman edilirdi. Belə ki, ingilislər rus ordusunun buraxılmasından sonra türklərə qarşı erməni, gürcü və ruslardan ordu təşkil etmək niyyətində idilər. Tiflisdəki Britaniya hərbi missiyası polkovnik Paykın komandanlığı altında bu təşəbbüsə nəzarət və yardım edir, onu maliyyələşdirirdi. Bu məqsədlə Meso-potamiyadakı 350 B.Britaniya zabitini Bakı vasitəsilə Qaf-qaz cəbhəsinə göndərmək nəzərdə tutulmuşdu. 1917 il dekabrın 24-də general-mayor L.Denstervilə Bağdad-Bakı-Buxara istiqamətində hərəkət etmək əmri verildi. 1918 ilin yanvarında bu məqsədlə Mesopotamiyada general-mayor Denstervilin başçılığı ilə yaradılan xüsusi ekspedisiya - ordu "Densterfors" adlandırıldı (bax *Densterfors).* Ordu Mesopotamiya-İran sərhədini keçib, Kermanşah, Həmədan, Qəzvin yolu ilə Ənzəli limanına gəlməli və oradan da Tiflisə hərəkət etməli idi. 1918 ilin əvvəllərində ingilislər belə hesab edirdilər ki, Cənubi Qafqaz ordusunu yaratmaqla türk-alman müdaxiləsinin qarşısını almaq olar. İngilis ekspedisiyası sürətlə hərəkət edərək, 1918 il fevralın 17-də Xəzər dənizinin cənub sahillərinə çıxdı. Lakin ingilislərin Tiflisə doğru hərəkətinə mane olan bir sıra səbəblər var idi: Gilan vilayətində İran hökumətinə qarşı qiyam qaldırmış Kiçik xan ingilislərə düşmən münasibət bəsləyirdi. Digər tərəfdən, Ənzəli limanına bolşevik təmayüllü qüvvələr nəzarət edirdilər. Tiflisə getmək üçün ingilislərin desant çıxaracağı Bakı bolşeviklərin əlində idi. Bütün bu maneələrlə əlaqədar olaraq, ingilislər 1918 ilin avqustuna qədər İranda qalıb, Cənubi Qafqazda daha əlverişli dəyişiklikləri gözləməli oldular. "Sentrokaspi" hökuməti *Qafqaz İslam Ordusu* ilə mübarizədə Denstervildən kömək istədikdə polkovnik Stoksun başçılığı ilə ekspedisiyanın ilk dəstəsi avqustun 4-də Bakıya daxil oldu. Avqustun 17-də isə general Denstervil yeni ingilis hərbi hissəsi ilə Bakıya gəldi. İngilis mənbələrində qeyd edilir ki, Denstervilin Bakıdakı hərbçilərinin sayı 1000 nəfərdən artıq olmamışdır. 350 britaniyalı zabitin göndərilməsini və onların yerlilər hesabına ordu təşkil etməsini nəzərdə tutan ilkin plan baş tutmadı.

B.Britaniya hərbi ekspedisiyasının əsas məqsədlərindən biri döyüşən ordunu yanacaqla təmin etmək idi. Bakıda olduğu 41 gün ərzində ingilis komandanlığı cəbhəyə xeyli neft və neft məhsulları göndərə bildi. Hərbi ekspedisiya Bakıda bir sıra çətinliklərlə üzləşdi. Hərbi qüvvələr nisbətindən başqa, bir sıra şərtlər, o cümlədən Bakıda ərzaq qıtlığı, maliyyə böhranı, yerli müsəlman əhalisinin erməniləri dəstəkləyən ingilislərə mənfi münasibəti (müsəlman qırğınlarından az vaxt keçmişdi) və onların müharibə etdiyi Osmanlı dövlətinə rəğbət göstərməsi, hərbi əsirlərin sərgərdan dolaşdığı şəhərdə hərc-mərclik və s. təsirsiz qala bilməzdi. Qafqaz İslam Ordusunun güclü həmlələri qarşısında Bakını əldə saxlamağın mümkünsüzlüyünü görən hərbi ekspedisiya 1918 il sentyabrın 14-də şəhəri tərk etdi. Bakı məsələsi ilə bağlı Azərbaycan Xalq Cümhuriyyətinin birinci Britaniya missiyası ilə əlaqələri kəsilmişdi. Bu zaman tərəflər müttəfiq yox, əks cəbhələrdə dayanan dövlətlər olmuşlar.

*Əd.:* bax Böyük Britaniya əks-kəşfiyyatının Qafqaz-Xəzər missiyası məqaləsinin ədəbiyyatına.

**"BÖYÜK ERMƏNİSTAN"** - mürtəce dini-ideoloji və terrorçu "doktrina". Erməni millətçiləri tərəfindən özgə torpaqlarına yiyələnmək məqsədilə yaradılmışdır. Əsasında güya vaxtilə "dənizdən-dənizə" geniş əraziləri əhatə etmiş olan uydurma "Böyük Ermənistan" dövlətini dirçəltmək ideyası durur. Erməni millətçilərinin iddialarının əksinə olaraq, ilk mənbələrdə tarixdə "Böyük Ermənistan" adlı dövlətin olması barədə heç bir məlumat yoxdur.

Antropoloji, o cümlədən somotoloji (bədən ölçüləri), kranioloji (kəllə ölçüləri), odontoloji (diş quruluşu), seroloji (qan qruplarının tədqiqi) araşdırmalar sübut edir ki, uydurma "armenoid irqi" və ermənilər nəinki Cənubi Qafqazın aborigen əhalisi - yerli sakinləri deyillər, ümumiyyətlə Ön Asiyaya da sonradan gəlmişlər. Arxeoloji qazıntılar zamanı indiki Ermənistan Respublikası ərazisindən tapılan və Mis-Daş dövrünə aid olunan (Şenqavit və Cararat), həmçinin erkən Tunc dövrunə aid edilən (Berkaber ve Göyçə gölü sahillərindəki ərazilər) qədim insan qalıqları da bunu aydın sübut edir. Göstərilən qədim insan qalıqlarının morfoloji quruluşu ilə sonradan həmin ərazilərdə məskunlaşan ermənilər arasında heç bir bağlılıq yoxdur. Eyni fikri son Tunc və Dəmir dövrünə aid tapıntılar da təsdiq edir (Bunak V.V., Crania Armenica, M., 1927, səh. 26).

Kəllə quruluşuna görə aparılan antropoloji tədqiqatlar ermənilər qısabaşlılar və ya braxikranlar qrupuna aid edir. Antropoloqlar (Virxov və başqa məşhur alimlər) Qafqazın qədim qəbiristanlıqlarından tapılan kəllələrin ölçülməsinə əsasən müəyyənləşdirmişlər ki. bu diyarın aborigen əhalisi, yəni ən qədim yerli sakinləri uzunbaşlılar və ya dolixokranlar qrupuna aiddirlər. Bu da sübut edir ki, indiki ermənilər Qafqazın yerli əhalisi deyillər (Джавахашвили И.А., История грузинслого народа, Тифлис,1916, s.11-12).

İlk mənbələr və tədqiqatlar göstərir ki, müasir ermənilərin əcdadları olduğu güman edilən köçəri qəbilələr eramızdan əvvəl təxminən 12 əsrdə Balkan yarımadasından hərəkətə başlayıb Kiçik Asiyaya keçmiş və Yuxarı Fərat vadisində (Van gölünə doğru ərazilərdə) məskən salmışlar. Ermənilərin əcdadlarının bu əraziyə sonradan gəlmə olduqları tarix elmində İ.M.Dyakonov tərəfindən sübut edilmiş faktdır (Дьяконов И.М., Предыстория армянского народа, Ереван,1968). Ermənilərin əcdadları hesab edilən qəbilələrin yerləşdiyi həmin ərazi (Yuxarı Fərat vadisi) sonralar Urartu dövlətinin, Mada (Midiya) və İran-Əhəməni (Həxəmaniş) imperiyasının tərkibinə daxil olmuşdur. Əhəməni imperiyasının süqutundan sonra onların yuxarı Fərat vadisində kiçik bir knyazlığı yaranmış və tədriclə güclənən bu knyazlıq mənşəcə parfiyalı olan II Tiqranın (e.ə.95-55) hakimiyyətinin əvvəllərində qonşu ölkələrə (Kiçik Asiyanın qərbinə və Mesopotamiyaya doğru) işğalçı yürüşlər edərək, qısa bir müddət ərzində öz ərazisini genişləndirə bilmişdi. Lakin e.ə.66 ildə Roma sərkərdəsi Pompey II Tiqranın hərbi qüvvələrini darmadağın etdikdən sonra, Kiçik Asiyanın şərqində mövcud olmuş erməni knyazlığı müstəqil dövlət kimi tarix səhnəsindən silinmişdir.

Kiçik Asiyanın şərqində ermənilərin yenidən siyasi səhnəyə gəlməsi xristian dininin meydana gəlməsi və yayılması dövrünə təsadüf edir.

Xristianlığı qəbul etdikdən sonra vahid xristian kilsəsindən üz döndərən ermənilər təriqətçi monofizitlərin tərəfinə keçdilər və özlərinin əlahiddə qriqorian kilsəsini yaratdılar. Qriqorian kilsəsi, dövlətin olmadığı şəraitdə, erməni icmalarının təkcə dini deyil, eyni zamanda, siyasi himayəçisi funksiyasını da öz üzərinə götürdü. Qriqorian kilsəsinin idarə etdiyi ermənilər bu vaxtdan başlayaraq, öz mövqelərini qoruyub saxlamaq və təcavüzkar məqsədlərinə nail olmaq üçün həmişə daha güclü xarici qüvvəyə sığınmaq yolunu tutdular. Belə ki, ermənilər Bizansa qarşı ərəb xəlifələri ilə sövdələşməyə girdilər. Qriqorian kilsəsi "Böyük Ermənistan"ı dirçəltmək üçün ilk dəfə ərəb işğalları dövründə fəallaşdı. Öz qonşularına xəyanət edərək ərəb xəlifələrinə sığınan və yadelli təcavüzkarlar tərəfindən müdafiə olunan qriqorian kilsəsi Azərbaycan dövləti olan Qafqaz Albaniyasının qərb-dağlıq ərazilərində (indiki Dağlıq Qarabağda və indiki Ermənistan Respublikasının mövcud olduğu Qərbi Azərbaycan topraqlarında) yaşayan yerli alban-xristian əhali arasında qriqorianlığı yaymağa başladı. Zaman keçdikcə qriqorianlığı qəbul etmiş alban-Azərbaycan tayfalarının erməniləşdirilməsinə başlandı. Bununla da Xilafət dövründə qriqorian kilsəsinin dini təsir dairəsi Cənubi Qafqaza doğru genişlənməyə başladı. Qriqorian missionerlərinin gəlişi ilə Cənubi Qafqaz əvvəlcə dini toqquşmalar, sonralar isə etnik qarşıdurmalar dövrünə qədəm qoydu.

Ərəb xilafəti zəiflədikdən sonra qriqorian kilsəsi bu dəfə Azərbaycan türk dövlətlərinə və nəhayət, Osmanlı imperiyasına sığındı, qriqorian kilsəsi və ermənilər Osmanlı sultanları tərəfindən himayə olundu. Zaman keçdikcə ermənilər Osmanlı imperiyasının maliyyə-iqtisadi və hərbi-siyasi həyatında mühüm mövqelər ələ keçirdilər. Qriqorian kilsəsi və ermənilər, eyni zamanda, Azərbaycan dövlətlərindən, o cümlədən Ağqoyunlu və Səfəvi hökmdarlarından da geniş imtiyazlar qopara bildilər. Osmanlı sultanları kimi, Azərbaycan hökmdarları da qriqorian kilsəsinə sərbəstlik verdilər. Ölkənin müxtəlif yerlərində, o cümlədən indiki Ermənistan Respublikasının ərazisində erməni kilsələri tikildi. Ermənilər Səfəvi dövlətində, xüsusilə Şah Abbas (1587-1629) dövründə daha mühüm mövqelər ələ keçirdilər.

Beləliklə, Osmanlı, Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin himayəsi sayəsində Anadoluda, İran ərazisində, Cənubi Qafqazda qriqorian kilsəsi və ermənilərin mövqeyi xeyli gücləndi.

Qərb dövlətlərinin antitürkiyə siyasəti gücləndikcə ermənilər Osmanlı dövlətinə də xəyanət etdilər. Ağqoyunlu, Səfəvi və qərb hökmdarlarına "xidmət" edən ermənilər Osmanlı imperiyasına qarşı antitürkiyə koalisiyasının formalaşdırılmasında fəal iştirak etdilər. Beləliklə, ermənilərin qərb dövlətlərinin əlində Azərbaycana və Türkiyəyə qarşı alətə çevrilməsi dövrü başlandı.

Çar Rusiyası Cənubi Qafqazda işğalçılıq müharibələrinə başladıqda qriqorian kilsəsi və ermənilər bu dəfə yeni təcavüzkarın tərəfinə keçdilər, ilk dəfə silahlanaraq Rusiya qoşunlarının tərkibində Azərbaycan dövlətlərinə və Osmanlı imperiyasına qarşı hərbi əməliyyatlarda iştirak etdilər. Azərbaycanın xristian alban əhalisinin zorla qriqorianlaşdırılması və alban kilsəsinin təqib olunması gücləndi. Bununla yanaşı, silahlı erməni quldur dəstələrinin Azərbaycanda və Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı soyqırımları dövrü başlandı. Çar Rusiyası ermənilərin və qriqorian kilsəsinin bu "xidmətlərini" nəzərə alaraq Osmanlı imperiyası və Qacarlar İranı ərazisindən ermənilərin kütləvi surətdə şimali Azərbaycana, xüsusilə İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülməsini təmin etdi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, Azərbaycan torpaqları Rusiya ilə İran arasında bölüşdürüldükdən və Azərbaycanın müstəqil dövlətləri-xanlıqlar aradan qaldırıldıqdan sonra çar Rusiyası Azərbaycan torpaqlarında (Naxçıvan və İrəvan xanlıqlarının əraziləri əsasında) *"Erməni vilayəti"* adlı inzibati idarə vahidi yaratdı. Bununla da tarixi Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsası qoyuldu. 1836 ildə isə erməni qriqorian kilsəsinin təhriki ilə müstəqil alban kilsəsi ləğv olundu. Çar Rusiyası tərəfindən himayə və müdafiə olunan ermənilər bu vaxtdan etibarən Azərbaycanda və Anadoluda türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlara başladılar.

"Böyük Ermənistan" "doktrinası" ilə zəhərlənmiş erməni millətçiləri 19 əsrin sonlarında qriqorian kilsəsinin "xeyirduası" ilə daha mütəşəkkil fəaliyyətə başladılar. Millətçi-terrorçu erməni partiyaları *("Hnçak", "Daşnaksutyun "* və s.), cəmiyyətləri və qruplarının yaradılması dövrü başlandı. Rəsmi proqramlarında terroru qarşılarına vəzifə qoyan bu partiya və cəmiyyətlər "türkə ölüm" çağırışı ilə tarixin ən qanlı cinayətlərinə başladılar. Zaman keçdikcə "Böyük Ermənistan" xəstəliyinə tutulmuş erməni terrorçuları onların mənafeyini təmin etməyən qeyri-millətlərin nümayəndələrinə qarşı da qəsdlər törətməyə başladılar.

*Birinci dünya müharibəsi (1914-18)* dövründə Osmanlı imperiyasının aradan götürüləcəyinə ümid edən ermənilər Türkiyəyə qarşı vuruşan çar Rusiyası və digər böyük dövlətlərlə geniş əlaqə yaradaraq ümumdünya tarixinin ən qanlı cinayətlərini törətdilər. Çar Rusiyasının silahlandırdığı və digər böyük dövlətlər tərəfindən müdafiə olunan erməni-daşnak quldur dəstələri Şərqi Anadoluda və Azərbaycanda (həm şimalda, həm də cənubda) türk-müsəlman əhalini kütləvi surətdə qırmağa başladılar (bax *Soyqırımı, Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımı, Cənubi Azərbaycanda soyqırımı (1917-18))*. Bakıda hakimiyyəti ələ keçirən daşnak S.Şaumyan Birinci dünya müharibəsi cəbhələrindən qayıdan erməni zabit və əsgərlərini səfərbərliyə alaraq, Azərbaycan xalqına qarşı tarixin ən dəhşətli soyqırımlarından birini törətdi. Azərbaycanın bütün bölgələrində türk-müsəlman əhali kütləvi surətdə məhv edildi, xalqın min illər boyunca yaratdığı maddi və mənəvi sərvətlər məhv və talan olundu (bax *Mart soyqırımı (1918))*. Lakin böyük dövlətlərin həmişə bir alət kimi istifadə etdikləri erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq niyyəti baş tutmadı.

Bununla belə, o zamankı mürəkkəb tarixi şəraitdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti xoş məram nümayiş etdirdi; Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş Azərbaycan dövlətlərindən olan İrəvan xanlığının paytaxtı olmuş İrəvan şəhərini ermənilərin "bir siyasi mərkəzləri olması" xatirinə onlara güzəştə getdi. Tarixdə ilk dəfə olaraq, 1918 ildə Cənubi Qafqazda - tarixi Azərbaycan ərazisində erməni dövləti yaradıldı. Lakin daşnaklar bununla kifayətlənmədilər. Azərbaycana *Denikinin* hücum təhlükəsi yarandıqda, onun tərəfinə keçdilər. Bu "siyasət" iflasa uğradıqdan sonra da Azərbaycana və Türkiyəyə qarşı yeni-yeni ərazi iddiaları qaldırdılar. Sovet bolşevik rejimi çar Rusiyasının ənənəvi siyasətinin davamı olaraq erməniləri daim himayə və müdafiə etdi. Ermənistan Sovet Sosialist Respublikasının yaradıldığı Qərbi Azərbaycan torpaqlarında azərbaycanlıların kütləvi surətdə deportasiyası həyata keçirildi (bax *Deportasiya)*. Ermənilər Qərbi Azərbaycan torpaqlarında daha da möhkəmləndilər. Sovet dövründə Azərbaycan torpaqları hesabına daim yeni-yeni ərazilər ələ keçirən ermənilər Türkiyə Cümhuriyyətinə qarşı da ərazi iddialarını davam etdirdilər. Xarici ölkələrdə fəaliyyət göstərən türk diplomatlarına qarşı terror aktları həyata keçirildi.

Dünya sosializm birliyinin və Sovet İttifaqının dağılması ərəfəsində qarşılarına Azərbaycandan yeni ərazilər, o cümlədən Dağlıq Qarabağı qoparmaq məqsədini qoymuş erməni-daşnak millətçiləri və terrorçuları yenidən fəallaşdılar. Ermənilərin çirkin məqsədlərinə xidmət edən M.Qorbaçov Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi Sovet İttifaqının ali rəhbərliyindən - Siyasi Bürodan uzaqlaşdırdı. Azərbaycan xalqının qatili M.Qorbaçovu ələ alan erməni millətçilərinin təhriki ilə, 1918-20 illərdə olduğu kimi, Dağlıq Qarabağda sifarişlə separatçı-terrorçuların qiyamı təşkil edildi. Eyni zamanda, Qərbi Azərbaycanın yerli sakinləri olan azərbaycanlıların tarixi vətənlərindən deportasiyası da başa çatdırıldı. Bakıya iri qoşun kontingentinin yeridilməsinə və 20 Yanvar 1990 il qırğınının həyata keçirilməsinə nail oldular. 20 Yanvar qırğınında Şimali Qafqazdan səfərbərliyə alınmış erməni əsgər və zabitləri xüsusi "fəallıq" göstərdilər. Erməni millətçiləri və terrorçuları 1990-93 illərdə Azərbaycana rəhbərlik edənlərin xəyanətkarlığından, ölkədə baş alıb gedən hərc-mərclikdən və hakimiyyət çəkişmələrindən istifadə etdilər. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sər-hədlərini pozaraq, ölkəyə müdaxilə etmiş Ermənistan silahlı birləşmələri Rusiya hərbi qüvvələrinin bilavasitə yaxından köməyilə Dağlıq Qarabağı və ətraf rayonları, respublika ərazisinin 20 faizini işğal etdilər. Bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin salındı, öz Vətənində qaçqına və məcburi köçkünə çevrildi. 1992 ilin 26 fevralında - 20 yüzilliyin sonuna yaxın bütün dünyanın gözləri qarşısında qəddarlığı ilə misli görünməmiş Xocalı soyqırımını törətdilər. İşğal aktını pərdələmək üçün Dağlıq Qarabağda oyuncaq "respublika" yaradıldı. Dağlıq Qarabağ separatçı-terrorçu qruplarının rəhbərləri (R.Köçəryan və b.) Ermənistanda da hakimiyyəti ələ keçirdilər. İkili standartlar və "xristian həmrəyliyi"nin beynəlxalq münasibətlərdə mühüm rol oynadığı müasir dövrdə, beynəlxalq hüquq normalarına açıq-aşkar zidd olaraq, Azərbaycan torpağı olan Dağlıq Qarabağ erməni separatçı-terrorçularının əlində qalmaqdadır. Erməni millətçiləri isə Türkiyə və Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməkdə davam edirlər. Xarici qüvvələr tərəfindən müdafiə olunan erməni separatçı-terrorçuları və beynəlxalq terroru dəstəkləyən Ermənistan Respublikası Cənubi Qafqazda təhlükəli gərginlik ocağına çevrilmişdir. Beynəlxalq terrorun ən yaşlı və ən "təcrübəli" dəstələri olan erməni terror təşkilatları himayə olunduqca, "Böyük Ermənistan" "doktrinası" ilə zəhərlənən erməni-daşnak terror qrupları və təşkilatları Beynəlxalq antiterror alyansının diqqətindən kənarda qaldıqca, regionda və dünyada gərginlik də aradan qalxmayacaq, bəşəriyyət terror təhlükəsindən qurtulmayacaqdır.

**BÖYÜK NAZİRLƏR ŞURASI** - Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illərdə ölkədə ali icraedici hakimiyyət orqanı vəzifələrini yerinə yetirən qurum. 1918 il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın *İstiqlal bəyannaməsi* qəbul edildikdən sonra bəyannamənin 6-cı bəndinə uyğun olaraq, elə həmin gün Müəssislər Məclisi çağırılana qədər Milli Şura qarşısında məsul olan Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti hökuməti kimi yaradılmışdı. Böyük Nazirlər Şurasına hökumət başçısı sədrlik edirdi. Fətəli xan *Xoyski* 11 nazirlikdən ibarət olan ilk müvəqqəti Nazirlər Şurasının sədri təsdiq olunmuşdu. Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra burada F.x.Xoyskinin təşkil etdiyi ikinci müvəqqəti Hökumətin tərkibinə yenə də 11 nazirlik daxil idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918 il dekabrın 7-də açılan 1-ci iclasında F.x.Xoyski öz hökumətinin fəaliyyəti barədə hesabat verərək, hökumətin istefasını qəbul etməyi xahiş etmişdi. Parlament müvəqqəti hökumətin istefasını qəbul edərək, 3-cü hökumətin də təşkilini F.x.Xoyskiyə tapşırmışdı. Həmin il dekabrın 26-da F.x.Xoyski 14 nazirlikdən ibarət yeni hökumət kabinəsi təşkil etmişdi. 1919 ilin fevralında F.x.Xoyskinin 3-cü hökumət kabinəsi istefa verdi. Həmin il aprelin 14-də Nəsib bəy *Yusifbəylinin* sədrliyi ilə 14 nazirlikdən ibarət yeni, 4-cü hökumət kabinəsi yaradılmışdı. 1919 il dekabrın 22-də N.Yusifbəyli Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu - *Beşinci hökumət kabinəsini* formalaşdırmışdı.

Azərbaycan Cümhuriyyətinin fəaliyyəti dövründə ölkənin idarəçiliyi ilə bağlı bütün məsələlər Böyük Nazirlər Şurasının iclaslarında kollegial şəkildə müzakirə və həll olunur, müvafiq qərarlar qəbul edilirdi.

Böyük Nazirlər Şurasında ölkənin idarə olunması ilə bağlı bütün məsələlərə - dövlət quruculuğu, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, maliyyə, ümumiyyətlə, bütün təsərrüfat sahələri üzrə işlərin təşkilinə, elmin, təhsilin, mədəniyyətin və s. yenidən qurulmasına baxılırdı. Ölkənin xarici siyasəti, onun müdafiəsi və s. məsələlər məhz Böyük Nazirlər Şurasının iclaslarında geniş müzakirə edilir və müvafiq qərarlar qəbul olunurdu. Hökumətin 1918 il 12 noyabr tarixli qərarına əsasən, Böyük Nazirlər Şurası ilə bərabər *Kiçik Nazirlər Şurası* da yaradılmışdı. 1918 ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti qanunvericilik orqanı kimi fəaliyyətə başladıqdan sonra isə ayrı-ayrı nazirliklərdə hazırlanmış qanun layihələrinə əvvəlcə Böyük Nazirlər Şurasında baxılır, tam hazır vəziyyətə gətirildikdən sonra Parlamentin müzakirəsinə təqdim olunurdu.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920;

**BREST-LİTOVSK SÜLH MÜQAVİLƏSİNƏ ƏLAVƏ MƏXFİ SAZİŞ** - Almaniya-Rusiya sazişi (1918, 27 avqust). Azərbaycan Xalq Cümhuriyyəti yarandığı zaman onun ən yaxın və etibarlı müttəfiqi olan Osmanlı dövləti Birinci dünya müharibəsində (1914-18) Almaniya ilə bir cəbhədə vuruşurdu. Türkiyə ilə müttəfiq olmasına baxmayaraq, Almaniya Azərbaycana münasibətdə fərqli siyasət yeridirdi. Almaniya, türk-Azərbaycan qoşunlarının Bakını daşnak-menşevik qüvvələrindən azad edəcəkləri halda ciddi ehtiyac duyduğu neftdən məhrum olacağından narahat idi. Digər tərəfdən, Bakını yenidən ələ keçirməyə cəhd göstərən bolşevik Rusiyası da Almaniyanın diplomatik yardımına nail olmaq istəyirdi. Rusiya türklərin Bakıda, həmçinin bütün Azərbaycanda möhkəmlənməsinə hər vasitə ilə mane olmağa çalışırdı. Buna görə də ümumi maraqlarla bağlı olaraq, Azərbaycan məsələsində onların arasında yaxınlaşma baş verdi və bu, üç aya qədər çəkən danışıqlardan sonra, 1918 il avqustun 27-də Berlində Almaniya ilə sovet Rusiyası arasında Brest müqaviləsinə əlavə məxfi sazişin imzalanması ilə nəticələndi *(Bakı məsələsi* ilə bağlı olduğundan, bəzən Bakı barəsində saziş də adlandırılır).

8 fəsil və 17 maddədən ibarət Almaniya-Rusiya məxfi sazişini Berlindəki rus səfiri A.İoffe və Almaniya Xarici İşlər Nazirliyinin məsul şəxsləri, gizli müşavirləri - xarici işlər idarəsinin katibi, istefada olan kontradmiral Pavel fon Hintse və xarici işlər idarəsinin direktoru İohannes Krüge imzalamışlar. Sazişdə Ukrayna, Krım, Qara dəniz sahili, Qafqazla bağlı məsələlər və bir sıra digər məsələlər də əksini tapmışdır.

Sazişin altıncı fəslinə görə, Rusiya Sovet Federativ Sosialist Respublikası Gürcüstanın müstəqil dövlət kimi Almaniya tərəfindən tanınmasına öz razılığını bildirirdi. On dördüncü maddədə deyilirdi ki, Almaniya Gürcüstanın sərhədlərindən kənarda hər hansı üçüncü dövlətə hərbi əməliyyatlarda heç bir yardım etməyəcəkdir. Almaniya, həmçinin, üçüncü bir dövlətin silahlı qüvvələrinin Kür çayının mənsəbinden Petropavlovsk kəndinə qədər, Şamaxı qəza-sının sərhədləri boyunca Əyrioba kəndinədək, düz xətlə Bakı, Şamaxı, Quba qəzalarının kəsişdiyi nöqtəyə qədər, sonra Bakı qəzasının şimalından dənizə qədər olan ərazilərə keçməyəcəyini öhdəsinə götürürdü. Üçüncü dövlət dedikdə, bu zaman artıq Azərbaycan ərazisində fəal xilaskarlıq əməliyyatları aparan Türkiyə nəzərdə tutulurdu. Rusiya da, öz növbəsində, Bakını tutandan sonra burada neft hasilatını artırmağı, hər ay çıxarılan neftin dörddə bir hissəsini Donetsk hövzəsindən aparılan daş kömürün əvəzində Almaniyaya verməyi öhdəsinə götürürdü. Lakin sazişdə Almaniyaya veriləcək neftin miqdarı müəyyənləşdirilməmişdi. Bununla Almaniya, əslində, bolşeviklərin Azərbaycanla bağlı işğalçılıq planlarına, o cümlədən Bakı neftinin Rusiyanın əlinə keçməsinə razılıq verdi.

Almaniyanın Türkiyədən gizli imzaladığı saziş, bütövlükdə, müttəfiqi Türkiyəyə, habelə Azərbaycana qarşı yönəlmişdi. Bu isə həm Türkiyənin, həm də Azərbaycan ictimaiyyəti və rəsmi dairələrinin narazılığına səbəb oldu. Sentyabrın 1-də saziş haqqında İstanbuldan Azərbaycan hökumətinə məlumat verən Məhəmməd Əmin Rəsulzadə həyəcanla yazırdı: ***"Necə olursa-olsun, Bakını almaq, almaq və almaq lazımdır".***

İstanbuldakı Azərbaycan nümayəndələri sentyabrın 6-da sədrəzəm (baş nazir) *Tələt paşa* ilə görüşüb, Bakının tezliklə azad edilməsinin zəruriliyini müzakirə etdilər. Bundan az sonra Berlinə gedən Tələt paşa 27 avqust sazişinin təcili surətdə ləğv olunmasını Almaniya hökumətindən tələb etdi. Azərbaycan nümayəndələri sentyabrın 12-də İstanbulda Azərbaycan hökumətinin etiraz notasını Almaniyanın Osmanlı dövlətindəki səfirliyinə təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya-Macarıstan səfirliyinə, habelə diplomatik nümayəndəliklərə də verildi. Notada Azərbaycanın Bakı şəhərinə tarixi haqqı sübut edilirdi. Göstərilirdi ki, Bakı elm və mədəniyyət baxımından Azərbaycana bağlıdır. Siyasi, iqtisadi və ictimai təşkilatlar, xeyriyyə, mədəni-maarif mərkəzləri, milli ziyalı nümayəndələri, başlıca olaraq, Bakıda toplanmışdır. Bakısız Azərbaycan başsız bədəndir.

Cəbhələrdə vəziyyətin tezliklə kəskin surətdə Almaniyanın zərərinə dəyişməsi onun 27 avqust sazişindən imtina etməsinə səbəb oldu. Almaniya hökuməti, hətta Bakını azad etmək üçün Türkiyəyə öz hərbi yardımını təklif etdi. 1918 il sentyabrın 15-də Bakının azad edilməsi Tələt paşanın Berlində apardığı danışıqlara ciddi təsir göstərdi. Danışıqlar zamanı Tələt paşa türk qoşunlarının Azərbaycanda çox qalmayacağını bildirdi. Osmanlı hökumətinin bu vədi 1918 il sentyabrın 23-də imzalanmış alman-osmanlı protokolunda təsbit olundu. Almaniya hökuməti 27 avqust sazişindən rəsmi şəkildə imtina etdiyini açıqladı və Azərbaycanı müstəqil bir dövlət kimi tanıyacağını, ilk addım kimi, tezliklə Bakıda konsulluq açacağını bildirdi. Almaniya Azərbaycanın müstəqilliyinin sovet Rusiyası tərəfindən də tanınacağını vəd etdi.

27 avqust Almaniya-Rusiya məxfi sazişi ləğv edilsə də, Almaniya hökumətinin bu xəyanətkar addımı təsirsiz ötüşmədi. Almaniyanın bu addımına cavab olaraq, Azərbaycan hökuməti alman koloniyaları barədə imzalanmaq ərəfəsində olan Azərbaycan-Almaniya müqaviləsindən imtina etdi.

1918 ilin payızında Almaniya bloku dünya müharibəsində məğlub oldu. Oktyabrın 30-da Osmanlı dövləti *Mudros barışığının (1918)* ağır şərtlərinə imza atmaq məcburiyyətində qaldı. Noyabrın əvvəlində Avstriya-Macarıstan və Almaniya təslim aktını imzalayan kimi Rusiya Brest müqaviləsinin qüvvədən düşdüyünü bildirdi (bax *Brest sülhü (1918)).* Brest müqaviləsinin ləğv edilməsi ilə 27 avqust sazişi də qüvvədən düşdü. Yaranmış vəziyyətdə sovet Rusiyası özünün Cənubi Qafqazla bağlı işğalçılıq planlarını həyata keçirdi.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti 1918-1920, B., 1996; Qasımlı M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914—1918-ci illər), 3 hissədə, h.2 (1917-ci il noyabr- 1918-ci il noyabr), B., 2001.

**BREST SÜLHÜ (1918)** - Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə *Dördlər ittifaqı* (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) arasında sülh müqaviləsi. 1918 il martın 3-də Brest-Litovskda imzalanmış, martın 15-də 4-cü Ümumrusiya fövqəladə sovetlər qurultayı, Almaniya reyxstaqının razılıq verməsindən (22 mart) sonra, martın 26-da Almaniya imperatoru II Vilhelm tərəfindən təsdiq olunmuşdur. Brest sülh müqaviləsi aşağıdakı sənədlərdən ibarətdir: Rusiyanın Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Osmanlı dövləti ilə sülh müqavilələri; ayrı-ayrı malların tarifləri və gömrük rüsumları barədə müqaviləyə əlavə olaraq imzalanmış yekun protokolları; sülh müqaviləsinə əlavə olaraq Rusiya-Almaniya müqaviləsi; Rusiya-Avstriya-Macarıstan əlavə müqaviləsi; Rusiya-Bolqarıstan əlavə müqaviləsi; Rusiya-Türkiyə əlavə müqaviləsi. 14 maddədən ibarət əsas müqavilənin 4-cü maddəsi Qafqaza aid idi.

Dördlər ittifaqı ilə Rusiya arasındakı müqaviləyə görə Polşa, Litva, Kurlandiya, Latviya, Estoniya və Belorusiyanın bir hissəsi Rusiyadan alınır, Ukrayna və Finlandiya müstəqil dövlət olur, sovet qoşunları bu ərazilərdən çıxarılır, Qars, Batum, Ərdəhan Türkiyəyə verilirdi. Rusiya öz ordusunu tərxis etməli idi.

1918 il fevralın 16-da Bakı Sovetinin sülh məsələsinin müzakirəsinə həsr edilmiş iclası oldu. Menşevik, eser və daşnakların bəyanatı rədd edildi, bolşeviklərin təklif etdiyi qətnamə qəbul olundu. Qətnamədə RSFSR Xalq Komissarları Sovetinin sülh danışıqlarında mövqeyi bəyənildi.

*Zaqafqaziya seymi* Brest sülh müqaviləsinin Ərdəhan, Qars və Batumun Türkiyəyə verilməsi şərtini qəbul etmədi və Petroqrada - Xalq Komissarları Soveti adına teleqram göndərərək, Brest sülhünü tanımadığını bildirdi. Seym öz etirazını bununla əsaslandırdı ki, "Zaqafqaziya heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir".

Zaqafqaziya seymi Brest-Litovsk sülhü ilə bağlı etirazlarını dünyanın bir sıra əsas siyasi mərkəzlərinə bildirdi: "Zaqafqaziya hökuməti Zaqafqaziya və onun sərhədləri haqqında ondan xəbərsiz və özünün iştirakı olmadan imzalanmış hər hansı müqaviləni özü üçün qüvvədən düşmüş hesab edir". Türkiyə Brest sülhünün qərarlarına əsaslanaraq, Qars, Batum və Ərdəhanı dərhal boşaltması haqqında Zaqafqaziya seyminə ultimatum verdi. ***Brest müqaviləsinə görə, Rusiya nəinki Qars, Ərdəhan və Batumun Türkiyəyə keçdiyini təsdiq edirdi, həm də Rusiya ilə Türkiyə arasında imzalanmış əlavə müqaviləyə görə, rus qoşunlarının müharibə zamanı tutduğu türk torpaqlarında və Rusiya hüdudlarında yaradılmış erməni-daşnak silahlı dəstələrini tamamilə tərksilah edib buraxmağı öhdəsinə götürürdü.*** Əlavə müqavilənin 11-ci maddəsi Rusiya vətəndaşları olan müsəlmanlara, əmlaklarını da aparmaq şərti ilə, Türkiyəyə azad mühacirət etmək hüququ verirdi. Hələ 1918 ilin yanvarında Türkiyə Zaqafqaziya Komissarlığı ilə sülh danışıqlarına başlamağa təşəbbüs etmişdi. Türkiyə özünün dövlət maraqları səbəbindən təkcə Zaqafqaziya Komissarlığını tanımaqla kifayətlənmir, həmçinin onu Brest-Litovsk danışıqlarına cəlb etməklə, Dördlər ittifaqı və Rusiya tərəfindən də tanınmasına nail olmaq istəyirdi. Türkiyənin ciddi təkidinə və yardım göstərmək barədə vədinə baxmayaraq, Zaqafqaziya hökuməti Brest-Litovsk danışıqlarında iştirakdan, müstəqilliyinin elan olunmasından imtina etdi.

Zaqafqaziya hökuməti 1918 il 23 yanvar tarixli teleqramında Brest sülhündə iştirakdan imtina etməklə yanaşı, özünün Rusiyanın tərkib hissəsi olduğunu da bildirdi. Türkiyə nümayəndə heyəti Cənubi Qafqaz nümayəndəliyinin *Trabzon konfransında (1918)* Brest-Litovsk müqaviləsinin Qafqaza aid maddələrinə etirazını rədd etdi. Nümayəndə heyətinin fikrincə, Zaqafqaziya hökuməti ya Rusiyanın tərkib hissəsi kimi onun imzaladığı müqavilə ilə razılaşmalı, ya da Rusiyadan ayrılıb, müstəqilliyini elan etməli idi. Türkiyə tərəfi Zaqafqaziya hökuməti ilə mehriban qonşuluq münasibəti qurmağa hazır olduğunu bildirdi.

1918 il avqustun 27-də Almaniya ilə Rusiya Sovet Federativ Sosialist Respublikası arasında Brest-Litovsk müqaviləsinə əlavə olaraq, Türkiyədən gizli saziş imzalandı (bax *Brest-Litovsk müqaviləsinə əlavə məxfi saziş).* Almaniyada inqilab nəticəsində imperator II Vilhelm devrildi və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi 1918 il noyabrın 13-də Brest sülhünü ləğv etdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918—1920-ci illər), B., 1993; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, 3 hissədə, h.2 (1917-ci il noyabr - 1918-ci il noyabr), B„ 2001.

**BULLİT MİSSİYASI** - Rusiyada hərbi əməliyyatların dayandırılması məqsədilə *Paris süih konfransında (1919-20)* ABŞ nümayəndə heyətinin üzvü Uilyam Kristian Bullitin rəhbərliyi ilə 1919 ilin martında sovet Rusiyasına göndərilmiş nümayəndə heyəti. ABŞ prezidenti V.Vilson və B.Britaniyanın baş naziri C.Lloyd Corcun təklifi ilə martın 19-da Moskvaya gələn Bullit Leninlə görüşmüş, atəşkəs haqqında razılıq əldə etmişdi.

Görüş nəticəsində hazırlanmış layihədə göstərilirdi ki, keçmiş Rusiya imperiyası və Finlandiya ərazisində faktiki surətdə mövcud olan hökumətlər öz hakimiyyətlərini saxlayır, Rusiyanın iqtisadi blokadası dayandırılır, sovet respublikaları ilə xarici dövlətlər arasında rəsmi nümayəndələrin mübadiləsi bərpa olunur, Rusiya imperiyası və Finlandiya ərazisindəki dövlətlər xarici ölkələr qarşısında, bu ölkələrin vətəndaşları qarşısında Rusiya imperiyasının maliyyə öhdəlikləri üçün məsuliyyət daşıyır və s.

Lakin sonradan Antanta dövlətləri və ABŞ admiral Kolçakın hücumunun başlanması ilə əlaqədar razılaşmadan imtina etdilər. Osmanlı imperiyasının ABŞ-ın protektoratlığına verilməsi layihəsinin də müəllifi Bullit olmuşdur.

*Əd:*История дипломатии, 2 изд., т. 1-5, М., 1959-74.

**BURJUAZİYA** (fr. bourgeoisie, son lat. burqus-möhkəmləndirilmiş şəhər) - azad bazar münasibətlərinə əsaslanan cəmiyyətdə sahibkarlar zümrəsi. Orta əsrlərdə təşəkkül tapmış və inkişaf etmişdir. Fəaliyyət sahəsindən asılı olaraq sənaye, ticarət, bank və kənd burjuaziyası formalaşdı. Burjuaziyanın meydana gəlməsi və inkişafı ümumi cəhətlərlə yanaşı, müxtəlif ölkələrdə özünəməxsus xüsusiyyətlərə də malik olmuşdur. 16-18 əsrlərdə Niderland, İngiltərə, Fransa, ABŞ və b. ölkələrdə burjuaziya hakimiyyətə gəldi. Cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verdi, yeni münasibəflər yarandı.

Azərbaycan burjuaziyası. Azərbaycanda bazar iqtisadiyyatına əsaslanan münasibətlərin formalaşması olduqca mürəkkəb və ziddiyyətli tarixi şəraitdə baş vermişdir. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi bu prosesi daha da mürəkkəbləşdirmişdir. 19 əsrin 30-70-ci illərində Şimali Azərbaycanda ilkin kapitalist münasibətləri inkişafa başladı və 1870 ildən sonra daha da genişləndi. Azərbaycan burjuaziyası ölkənin müstəmləkə vəziyyətindən irəli gələn bəzi əlamətlərlə səciyyələnirdi. Azərbaycan burjuaziyası çoxmillətli tərkibə malik idi. Milli burjuaziyanın görkəmli nümayəndələri H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov və b. idi. Azərbaycan burjuaziyasının milli tərkibində rus və erməni sahibkarlar da üstün mövqe tuturdu. Çarizmin həyata keçirdiyi iqtisadi siyasət nəticəsində xarici kapitalın ölkəyə axını digər millətlərdən olan sahibkarların (Nobel, Rotşild və b.) artmasına şərait yaratmışdı. Burjuaziyanın milli tərkibinə görə fəaliyyət sahələri və mövqeləri də müxtəlif idi. Milli kapital neft və kimya sənayesinin müəyyən sahələrində, mexaniki istehsalda, yüngül və yeyinti sənayesində, gəmiçilik və ticarətdə nisbətən güclü idi. Sənaye və ticarət burjuaziyasının əsas mərkəzi Bakı idi. Bununla belə, Azərbaycanın digər bölgə və şəhərlərində (Gəncə, Şuşa, Şəki, Şamaxı, Lənkəran və s.) kapitalist münasibətlərinin inkişafı burjuaziyanın yaranması və yüksəlişinə şərait yaradırdı. Azərbaycan burjuaziyasının bir hissəsini də kənd burjuaziyası təşkil edirdi. Lakin onların mövqeyi çox da güclü deyildi. Azərbaycan burjuaziyasının formalaşdığı tarixi şərait, mənşə, məqsəd müxtəlifliyi və i.a. onun vahid siyasi qüvvə kimi çıxış etməsinə imkan vermirdi. Digər millətlərdən olan burjuaziya, xüsusilə erməni burjuaziyası milli burjuaziyaya qarşı düşmən mövqedə dururdu. Bütün bunlara baxmayaraq, Azərbaycan milli burjuaziyası öz varlığını və siyasi iradəsini ifadə etməyə çalışırdı. 1905-07 illər inqilabı dövründə milli burjuaziya içərisində liberal hərəkat genişləndi. 1905 ilin aprelində onlar Qafqaz canişini Vorontsov-Daşkova və nazirlər şurasının sədri S.Y.Vitteyə müraciət etdilər. Siyasi təşkilatlanma sahəsində də addımlar atıldı. Liberal yönümlü Müsəlman konstitusiya partiyası - *"İttifaqı müslimin"* (1905, avqust), *"Difai"* (1906), *"Müdafiə"* (1907), *"Müsavat"* (1911) kimi milli partiyalar yarandı. Rusiya Dövlət dumalarından siyasi vasitə kimi istifadə olundu. Rusiyada 1917 il fevral inqilabı nəticəsində burjuaziya hakimiyyəti ələ aldı. Müvəqqəti hökumətin və onun yerli orqanlarının yaradılmasına başlandı. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da burjuaziyanın mövqeyi gücləndi. Lakin Oktyabr çevrilişindən (1917) sonra vəziyyət dəyişdi. Bakıda sovet hakimiyyəti qalib gəldi. *Bakı Xalq Komissarları Soveti* fəaliyyətə başladı. Onun həyata keçirdiyi sosialist tədbirləri burjuaziyaya siyasi və iqtisadi cəhətdən zərbə vurmaq məqsədi güdürdü.

Azərbaycan milli burjuaziyası istiqlaliyyət uğrunda mübarizədə, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında və fəaliyyətində mühüm rol oynadı. Cümhuriyyət hökuməti də burjuaziyanın iqtisadi fəaliyyətini genişləndirmək üçün tədbirlər kompleksi həyata keçirməyə başladı. Hökumətin 1918 il 5 oktyabr tarixli qərarı ilə neft sənayesində milliləşdirmə ləğv olundu və müəssisələr əvvəlki sahiblərinə qaytarıldı. Burjuaziya nümayəndələri bir tərəfdən, bilavasitə hökumətin iqtisadi blokuna daxil olan nazirlik və komitələrin işində iştirak etməklə, digər tərəfdən, onların yaratdığı birlik və təşkilatlar vasitəsi ilə iqtisadi siyasətin hazırlanması və həyata keçirilməsində iştirak edirdi. Azərbaycan burjuaziyası, xüsusilə milli burjuaziya sosial-siyasi həyatda əhəmiyyətli rol oynayır, xeyriyyəçilik ənənəsini davam etdirirdi. ***Lakin Azərbaycan milli burcuaziyası yaranmış əlverişli şəraitdə də vahid siyasi qüvvə kimi birləşə və milli hökumətin mənafeyini sonadək müdafiə edə bilmədi.***

*Aprel işğalı (1920)* nəticəsində Azərbaycan Cümhuriyyətinin süqutu və bolşevik rejiminin qurulmasından sonra sosialist tədbirləri həyata keçirilməyə, burjuaziyaya qarşı repressiyalara başlandı. Azərbaycan burjuaziyasının bir hissəsi mühacirət etdi, qalanlar zümrə kimi ləğv olundu. 1991 il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra sahibkarlıq fəaliyyəti genişlənməyə və sahibkarlar zümrəsi yenidən formalaşmağa başladı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;Nuriyeva Z.N., Azərbaycan sənayesində milli burjuaziya, B., 1999; Исмаилов М.А., Социально – экономическая структура Азербайджана в эпоху капитализма, Б., 1982; Сеидзаде Д.Б., Из истории азербайджанской буржазии в начале XX века, Б., 1978; Сумбатзаде А.С., Социально – экономические предпосылки победы Советской власти в Азевбайджане, М., 1972; Рустамова Дж. Я., Экономическая политика АДР и национальная буржуазия (1918-1920). "Tarix və onun problemləri", 2000, №2.

**BÜNYADZADƏ** Dadaş Xoca oğlu (8.4.1888, Bakı yaxınlığındakı Fatmayı k. - 1938) - siyasi və dövlət xadimi. 1908 ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasına (RSDFP) daxil olmuş, *"Hümmət"* təşkilatının fəaliyyətində yaxından iştirak etmişdir. 1917 il Fevral inqilabından sonra "Hümmət" (bolşevik) təşkilatının rəhbərlərindən biri olmuş, Bakı Soveti İcraiyyə Komitəsinin, 1918 ilin mayında Bakı qəzası Kəndli deputatları Soveti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1918 il iyunun əvvəlində S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti onu Bakı qəzasında əksinqilaba və banditizmə qarşı mübarizə üzrə fövqəladə müvəkkil təyin etmişdi. Bakıda sovet hakimiyyətinin süqutundan sonra Həştərxana getmiş, Rusiya Kommunist (bolşeviklər) Partiyası (RK(b)P) Həştərxan quberniya komitəsinin üzvü seçilmiş, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri, "Hümmət"in Həştərxan təşkilatı bürosunun üzvü olmuşdur.



1919 ilin iyulunda RK(b)P Qafqaz Ölkə Komitəsi yanında Hərbi İnqilab Qərargahı sədrinin müavini təyin edilərək, sovet Rusiyasının xeyrinə gizli iş aparmaq üçün Azərbaycana göndərilmiş, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı fəal mübarizə aparmışdır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) I qurultayında (1920, fevral) Mərkəzi Komitə üzvü seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı silahlı çevrilişə rəhbərlik edən hərbi-inqilabi qərargahın üzvlərindən biri kimi *Aprel işğalından {1920)* sonra bir sıra yüksək vəzifələrdə, o cümlədən Azərbaycan SSR Dövlət Plan Komissiyasının sədri, Xalq Komissarları Soveti sədrinin müavini, daha sonra sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) xalq torpaq komissarı vəzifələrində çalışmışdır. AK(b)P daxilində baş verən ixtilaflarda milli təmayülçülər qrupuna mənsub olmuşdur. Hətta, SSRİ-də xarici və daxili çətinliklər yaranacağı və Azərbaycanda hakimiyyətin təmayülçülərə keçəcəyi təqdirdə onların qurmağı nəzərdə tutduqları "İctimai etimad" adlı hökumətin tərkibinə daxil idi.

Dadaş Bünyadzadə 1937-ci ildə saxta ittihamlar əsasında həbs edilərək, repressiyaya məruz qalmışdır.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c. 3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5-6, B., 2000-2001; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.

**"BÜTÜN AZƏRBAYCAN ƏHALİSİNƏ!"** - Azərbaycan Milli Şurasının Azərbaycan vətəndaşlarına 1918 il 29 noyabr tarixli müraciəti. Türkiyə ilə Antanta arasında bağlanmış *Mudros barışığına {1918)* görə, Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan çıxarmalı, Antantanın hərbi qüvvələri Bakı və Batuma daxil olmalı, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın dəmir yolu xətləri onların nəzarətinə keçməli idi. Belə bir fövqəladə şəraitdə Müəssislər Məclisini çağırmaq mümkün olmadığından, eyni zamanda, ümumxalq mənafeyini təmsil edən siyasi orqanın - parlamentin yaradılması zərurəti ilə bağlı olaraq Azərbaycan Milli Şurasını əvvəlki tərkibdə bərpa etmək qərara alındı. Milli Şura 1918 il noyabrın 19-də Azərbaycan parlamentinin yaradılması haqqında qanun qəbul etdi. Bu münasibətlə Milli Şura Məhəmməd Əmin Rəsulzadənin imzası ilə "Bütün Azərbaycan əhalisinə" müraciət qəbul etdi. Müraciətdə Milli Şuranın yenidən toplanması, onun parlamentə çevrilmə səbəbi göstərilir, parlamentin tərkibi və açılış vaxtı bəyan edilirdi.


بوتون آذربایجان اهالیسنه

Parlamentdə Azərbaycanın milli azlıqlarının, vilayət nümayəndələrinin də təmsil olunacağı bildirilir, ***"Şurayi-Millini milli bir şəkildən çıxarıb, dövləti bir şəklə salmaq"*** və Müəssislər Məclisi çağırılana qədər Azərbaycanın müqəddəratını həll etmək, hökuməti təşkil etmək səlahiyyətlərinin ***"Bu surətlə yığılacaq məclisi-məbusan*** "a - Parlamentə məxsusluğu bəyan edilirdi. Müraciət müttəfiq qoşunların Qafqaza gəlişi məramını əhalinin nəzərinə çatdıraraq, Azərbaycan xalqının öz müqəddəratını təyin etmək haqqına mane olunmayacağına təminat məzmunu daşımaqla yanaşı, Azərbaycan vətəndaşlarının üzərinə düşən vəzifələrə diqqət çəkirdi. ***Qarşılıqlı ehtirama əsaslanan birgə yaşayış, ümumvətən mənafeyini uca tutmaq, ölkədaxili asayişi qorumaq, parlamenti təsis etmək, hökuməti yenidən təşkil etmək kimi məsələlərin ümumsülh konqresinədək (Paris sülh konfransı nəzərdə tutulur —*** *red.)* ***təmin edilməsi nəzərdə tutulurdu.*** Müraciətdə şəraitin mürəkkəbliyi, dövrün əhəmiyyəti, təxirəsalınmaz taleyüklü yaxın vəzifələr diqqətə çatdırılmaqla yanaşı, başlıca məqsədin ümumsülh konqresində Azərbaycanın mənafelərinin uğurlu həllini təmin et-mək olduğu önə çəkilirdi.

Müraciətdə İstiqlal bəyannaməsindəki prinsiplər bir daha vurğulanırdı: "Bütün Azərbaycan vətəndaşları, bilafərq millət və məzhəb, bir vətənin övladlarıdırlar". Müraciətdə, eyni zamanda, Azərbaycan türklərinin torpağın əsas sahibi olduğu da nəzərə çatdırılır, bu baxımdan "ən böyük məsuliyyətin və ən ağır vəzifə"nin də onların üzərinə düşdüyü bildirilirdi.

Müraciət, gənc Azərbaycan dövlətinin sınaq anlarında vətəndaşların dəstəyini almaq, xalqa arxalanmaq ənənə-sinin daha bir nümunəsidir. O, eyni zamanda, hakimiyyətin xalqa məxsus olduğu prinsipinə sədaqətin göstəricisi də sayıla bilər.

Müraciət "Yaşasın Azərbaycan məclisi-məbusanı!", "Yaşasın Azərbaycan Cümhuriyyəti", "Yaşasın cəmiyyəti əqvam!" şüarları ilə bitirdi.

*Əd.:* Азербайджанская Республика. Документы и материалы (1918-192 гг.), Б.,“Элм”1998; 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

# C

**CABAQİYEV** Vəssan Gəray (1882, İnquşetiya, Nazran - 1961, Türkiyə) - Şimali Qafqaz siyasi və dövlət xadimi. Vladiqafqaz gimnaziyasında, Peterburq Universitetində, Riqa Politexnik İnstitutunda və Almaniyanın Yena Kənd Təsərrüfatı Universitetində təhsil almışdır. 1903 ildə Rusiyaya qayıtmış, əkinçilik və dövlət mülkiyyətləri nazirliyində mühüm vəzifələrdə çalışmışdır.

Fevral inqilabından (1917) sonra dağlı azadlıq hərəkatının rəhbərlərindən biri olmuş, inquş milli şurasına sədrlik etmişdir. 1917 ilin mayında dağlı xalqlarının 1-ci qurultayında Birləşmiş Şimali Qafqaz Dağlılar İttifaqı Mərkəzi Komitəsinin üzvü seçilmiş, komitənin işlər idarəsinə rəhbərlik etmişdir. 1918 il mayın 11 -də Şimali Qafqaz dağlılarının müstəqilliyi elan edildikdən sonra hökumət üzvü olmuş, maliyyə naziri vəzifəsini icra etmişdir. İstiqlal bəyannaməsinin və ilk dağlı konstitusiyasının müəlliflərindən biri olmuşdur. Qafqaz dağlılarının konfederasiyası ideyası ilə çıxış etmişdir. Dəfələrlə Bakıda olmuş, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən Dağlılar Respublikasına kömək məqsədilə verilən yardım və kreditləri almışdır.

1918 ilin payızında Dağlılar Respublikası parlamentinin sədri seçilmişdir. Sovetlərin Şimali Qafqazda möhkəmlənməsindən sonra, əvvəlcə Gürcüstana, 1922 ildə isə Türkiyəyə mühacirət etmişdir. Burada təşkil olunan Qafqaz Xalqlarının İstiqlaliyyəti Komitəsinin əsas təşəbbüsçülərindən idi.

20-ci illərin sonlarından Polşaya mühacirət etmiş, 1938 ildə Polşa hökuməti teleqraf aqentliyinin nümayəndəsi kimi Türkiyəyə göndərilmişdir. İkinci dünya müharibəsindən (1939-45) sonra Türkiyə vətəndaşlığını qəbul etmiş, publisistika ilə məşğul olmuşdur.

Əsəri: Qafqaz-Rus mücadiləsi, İstanbul, 1967.

*Əd.:* Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**CABBAR QARYAĞDI OĞLU** (C a b b a r M ə ş ə d i İ s m a y ı l o ğ l u; 31.3.1861, Şuşa-20.4.1944,Bakı)- məşhur xanəndə, musiqi xadimi. Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri (bax *Qaryağdı oğlu Cabbar).*

**CABBARLI** Cəfər Qafar oğlu (22.3.1899, Xızı k. -31.12.1934, Bakı) - şair, yazıçı, dramaturq. Yoxsul kəndli ailəsində doğulmuşdur. Bakıda 7-ci rus-tatar (Azərbaycan) məktəbində, Bakı politexnik (sənaye) məktəbində (1917-20), Bakı Dövlət Universitetinin Şərq fakültəsində təhsil almışdır. 1915 ildən lirik və satirik şeirlər, sosial ədalətsizliyi tənqid edən hekayə ("Aslan və Fərhad", "Mənsur və Sitarə" və s.) və pyeslər ("Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər") yazmışdır.



Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusilə coşqun ictimai və ədəbi fəaliyyət göstərmiş, bu dövr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti elan edilərkən cəmi 19 yaşı olmasına baxmayaraq, Cəfər Cabbarlı Azərbaycan Parlamentinin stenoqrafı və "Müsavat"ın Gənclər təşkilatının rəhbəri olmuşdur. Bu dövrdə əsərlərini "Cəfər Cabbarzadə" imzası ilə yazan ədib 1919 ildə təşkil edilmiş "Yaşıl qələm" ədəbi birliyinin üzvü olmuş, şair və dramaturq kimi məhsuldar yaradıcılıq fəaliyyəti göstərmişdir.

Müstəqil dövlətin yaranmasını ruh yüksəkliyi ilə qarşılayan şair "Sevdiyim" və "Azərbaycan bayrağına" adlı iki şerini müstəqil Azərbaycanın milli bayrağına həsr etmişdir. Milli azadlıq sevincinin tərənnümünə həsr olunmuş hər iki şeir Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzetində dərc edilmişdi.

Cəfər Cabbarlının şeirləri 1918-20 illərdə Azərbaycan ədəbiyyatında istiqlal rəmzi olan milli bayrağın vəsfinə həsr olunmuş onlarla silsilə şeirlərin ən uğurlu, ən səciyyəvi nümunələrindən idi. Gənc şair "yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim" deyərək, eşq elan etdiyi milli bayrağın rəng simvolikasını belə açıqlayırdı:

***Bu göy boya gök moğoldan qalmış bir türk***
***nişanı, bir türk oğlu olmalı!***
***Yaşıl boya islamlığın sarsılmayan inamı,***
***ürəklərə dolmalı!***

*Al boya da azadlığın, təməddünün gümanı,*
*mədəniyyət bulmalı!*
*Səkkiz guşə bu ulduz da səkkiz hərfli "Odyurdu".*
*Əsarətin gecəsindən fürsət bulmuş quş*
*kimi səhərlərə uçmuşdur.*
*Bu hilal da türk bilgisi, düzgün sevgi nişanı,*
*yurdumuzu qucmuşdur.*

Gənc şairin bu illərdə yazdığı şeirlərdə milli azadlıq, Azərbaycanın müstəqilliyi ("Sevimli ölkəm"), türkləşmək, islamlaşmaq və müasirləşmək, hətta turançılıq ideyaları ("Salam") tərənnüm edilirdi.

Cəfər Cabbarlı istiqlal dövründə dramaturq kimi də məhsuldar fəaliyyət göstərmişdir. Bakının erməni-daşnak və bolşevik işğalından azad olunması münasibətilə "Bakı müharibəsi" (1919) adlı ayrıca əsər yazmışdır. Əsər tamaşaya qoyulmuş, lakin təəssüf ki, sonradan itib-batmış, bugünədək gəlib çatmamışdır. "Bakı müharibəsi" əsəri müəllifin Türkiyənin yaxın tarixinə, qardaş türk və Yaxın Şərq xalqlarının milli azadlıq mübarizəsinə həsr etdiyi trilogiyanın - "Ədirnə fəthi" (1917), "Trablis müharibəsi, yaxud Ulduz" (1918) əsərlərindən sonra gələn üçüncü hissəsi olmuşdur. Həmin əsərlər Cəfər Cabbarlının istiqlal dövrü dramaturgiyasının başlıca meyllərini müəyyənləşdirmək baxımından səciyyəvidir. Lakin Sovet hakimiyyəti illərində bu əsərlər "mücərrəd romantizm"in təzahürləri hesab edilərək yasaq olunmuş, təbii ki, yazıçının əsərlərinin heç bir nəşrinə salınmamışdır.

Cəfər Cabbarlı Azərbaycan dramaturgiyasının ən dəyərli örnəklərindən olan "Aydın" (1919), "Oqtay Eloğlu" (1922), "Od gəlini" (1928) və s. dramların da müəllifidir. Bu əsərlərdə də yazıçının yaradıcılığının başlıca mövzularından olan şəxsiyyət azadlığı və milli azadlıq idealları tərənnüm olunur.

Əsərləri bədii sənətkarlıq məziyyətləri, güclü xarakterlər, müsbət və mənfi obrazlar silsiləsi, romantik, emosional, eyni zamanda, canlı, koloritli obrazlı dili ilə seçilir.

Əsərləri: Əsərləri, 3 cilddə, B., 1968-69; Əsərləri, 4 cilddə, c. 1-3, 1983-84; Ədirnə fəthi, B., 1996.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Elçin, Cəfər Cabbarlı: şəxsiyyəti və yaradıcılığı haqqında düşüncələr, B., 2000.



**CABBAROV** Ələkbər Məmmədəli oğlu (3.1.1898,Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1 -ci Bakı kişi gimna- ziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini təbiət elmləri sahəsi ndə davam etdirmək üçün Fransanın Nansi Universitetinə göndərilmişdir. Sonrakı taleyi barədə məlumat lat aşkar olunmamışdır.

**CAHANGİR ZEYNALOĞLU** (? - ?) - tarixçi. 1924 ildə İstanbulda "Müxtəsər Azərbaycan tarixi (elmi-publisistik və tarixi kitab)" əsərini çap etdirmişdir. Kitabda, Azərbaycanın qədim dövrlərdən 1920 ilə qədərki tarixi əhatə olunmuşdur. Müəllif yazırdı: ***"...tariximizi bilmək, şanlı keçmişimizi öyrənmək və istiqbal üçün də hazırlanmaq özümüzə bir borcdur. Biz azəri türkləri, kimsəyə təcavüz niyyəti bəsləmirik, gözəl cümhuriyyətimizin istiqlalını və milli varlığımızı mühafizədən başqa bir amalımız yoxdur, yeganə məqsədimiz budur. Bunun üçün çalışmaq, qüvvətli olmaq və sürətlə Avropa siyasi təşkilatlarına daxil olaraq Avropa ideyalarını qazanmaq biz azərilərə bir vəzifə olmalıdır. Əks təqdirdə, istiqlaliyyətimiz qeyb və qoca bir millət məhvə məhkum olar, bax bunu hər bir türk bilməli və anlamalıdır".***

Bakıda türk-müsəlman əhalisinə qarşı ermənilərin görünməmiş cinayət və vəhşiliklərinin, qarət və soyğunçuqlarının şahidi olmuş C.Zeynaloğlu daha sonra yazır: ***"Çar ordusuna mənsub olan alman və Avstriya cəbhələrindən otuz-qırx minə qəddər müsəlləh erməni əsgərləri öz evlərinə qayıtmaq üçün Bakıya gəlmişlərdi... "Daşnak" firqəsi bu əsgərləri əlinə alaraq xüsusi bir proqram daxilində müntəzəm şəkildə Bakıda müsəlmanları qırdı. Bu qırğına "bolşevik-müsavat firqə mübarizəsi" adı verildi. Azərbaycan istiqlalı yolunda ilk qurbanlar burada verildi. Daşnaklar bolşeviklərdən də istifadə etdikləri kimi, ingilis ordusunuBakıya dəvət edərək, Biçeraxov, Sentrokaspi və sair türk və müsəlman əleyhdarlarından növbə ilə bu qırğında istifadə etdilər.***

***İrəvan hadisəsi seymin 5, 7, 19, 20 fevral iclaslarında böyük gurultulara səbəb olmaqla İrəvana heyətlər göndərildi. Bu heyətlər təhqiqat apararaq qayıtdı və İrəvan vilayətində 211 türk köyünün təxrib və 100 minə qədər əhalinin məhv edildiyini isbat etdilər. Seym tərəfindən müharibələr üçün 15 milyon manat yardım təyin edildi isə də, 3 milyonu verildi və biçarələrin ehtiyacatı tamamilə dəf edilmədi. Beləcə, İrəvan vilayətində olan müsəlman və türklər məhv edildilər və çarizm zamanında İrəvan vilayətində üç yüz min türkdən indi üç min belə qalmamışdır".***

C.Zeynaloğlu Azərbaycan tarixinin dövrləşdirilmədə onun istiqlaliyyətini başlıca prinsip kimi götürür (istiqlal elan olunmasından əvvəlki dövr, Atabəylər dövrü, müstəqil Qaraqoyunlu və Ağqoyunlu dövrü, müstəqil xanlıqlar dövrü). Kitabın yeddinci bölməsi "Müstəqil Cümhuriyyət dövrü" adlandırılmışdır. Həmin bölmənin "Rusiyada böyük çaxnaşma" adlı birinci fəsli Zaqafqaziya seyminin fəaliyyəti, 8 il mart soyqırımı, Mavərayi-Qafqaz Cümhuriyyəti, onun hökumətinin ləğvi kimi məsələlərə həsr edilmişdir. Əsərdə Azərbaycan Cümhuriyyəti xüsusi fəsil kimi ayrıca verilmişdir.

Əsəri: Müxtəsər Azərbaycan tarixi, B., 1992.

*Əd.:*Сумбатзаде А.С., Азербайджанская историография XX веков, Б.,1987.

**CAMAL PAŞA** (1872, İstanbul - iyul, 1922, Tiflis) Türkiyə dövlət və hərbi xadimi. "Gənc türklər" inqilabının (1908) və "İttihad və tərəqqi" partiyasının liderlərindən



*Cəfər Cabbarlının abidəsi. Qranit. 1982. Bakı.*
Heykəltəraş Mirələsgər Mirqasımov

biri. 1913 ildə İstanbulun hərbi qubernatoru, 1914-18 illərdə dəniz naziri olmuşdur. Ənvər paşa və Tələt paşa ilə birlikdə hakim triumviratın (üçlüyün) üzvü olmuşdur. 1914-17 illərdə Suriya və Fələstindəki türk ordularına komandanlıq etmişdir. 1918-22 illərdə Almaniya, İsveçrə və Əfqanıstanda mühacirətdə olmuşdur. "Daşnaksutyun" partiyası uydurma "erməni soyqırımı"na görə, Tələt paşa kimi onun da qətlə yetirilməsi barədə hökm çıxarmışdı. Əfqanıstandakı səfirlikdə müşavir olan Camal paşa geri qayıdarkən Tiflisdə "Daşnaksutyun" partiyasının üzvü tərəfindən qətlə yetirilmişdi.

**CAMALBƏYOV** Qasım bəy (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri, *Azərbaycan Milli Şurasının* üzvü. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanunu* "na (1918, 19 noyabr) əsasən, Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. "Hümmət" partiyasının üzvü idi. Parlamentdə sosialistlər fraksiyasını təmsil edirdi.

**CAPARİDZE** Prokofi Aprasionoviç (partiya təxəllüsü Alyoşa; 15.1.1880, Kutaisi qub. Raça qəzasının Şardometi k. - 20.9.1918) - *Bakı Xalq Komissarları Sovetinin* (BXKS) rəhbərlərindən biri, daxili işlər komissarı. 1898 ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) Tiflis təşkilatına daxil olmuşdur. 1900 ildə Tiflis fəhlələrinin inqilabi hərəkatında fəal iştirakına görə müəllimlər institutundan xaric edilmiş, həbsə alınmış və bir il sonra Kutaisi quberniyasına sürgün olunmuşdu. 1901-04 illərdə RSDFP Qafqaz İttifaq Komitəsinin və İmereti-Minqreli Komitəsinin üzvü idi. Partiya işi aparmaq üçün 1904 ilin ortalarında Bakıya gəlmiş, Bakı bolşevik təşkilatının rəhbərlərindən biri, bu təşkilatdan RSDFP 3-cü qurultayının (1905) nümayəndəsi olmuşdur. 1906 ildə Neft Sənayesi Fəhlələri İttifaqının idarə heyətinin katibi seçilmişdir. 1906-08 illərdə onun yaxından köməyi ilə leqal və qeyri-leqal bolşevik qəzetləri olan "Bakinski raboçi", "Prizıv", "Dəvət-Qoç", "Qudok" və s. nəşr edilmişdir. 1909 ilin oktyabrında həbsə alınmış, 1910 ildə Bakıdan sürgün olunmuşdur. Caparidze 1914 ilin mayında Qafqaza qayıdaraq, Tiflis bolşevik təşkilatında işləmiş, 1915 ildə yenidən həbs olunaraq Yenisey quberniyasına sürgün edilmişdir. Oradan Petroqrada qaçmış (1916, iyul), partiya tapşırığı ilə Tiflisə gəlmiş, Trabzonda rus ordusu əsgərləri arasında inqilabi iş aparmışdır.



Caparidze Fevral inqilabından (1917) sonra Bakıya gəlmiş, Bakı bolşevik təşkilatının rəhbərlərindən biri olmuşdur. RSDF(b)P Bakı Komitəsinə və Bakı Sovetinə daxil idi. Bakı bolşevik təşkilatından RSDF(b)P 6-cı qurultayının nümayəndəsi olmuşdur. 1917 ilin sentyabrında Bakı fəhlələrinin ümumi tətilinə rəhbərlik edən tətil komitəsinin sədri idi. Caparidze RSDF(b)P Qafqaz Ölkə Komitəsinin üzvü seçilmiş (1917, oktyabr), 1917 ilin dekabrından Bakı Soveti İcraiyyə Komitəsi sədrinin müavini, 1918 ilin yanvarından isə sədri olmuşdur. 1918 ilin martında Bakıda bolşevik-daşnak quldurları tərəfindən türk-müsəlman əhalisinin soyqırımı zamanı bolşeviklərin ali hərbi-siyasi orqan kimi yaratdığı *İnqilabi Müdafiə Komitəsinin* üzvü olmuş, müsəlman milli hərəkatının qarşısının alınması işində fəal rol oynamışdır. 1918 il martın 31 -də müsəlman nümayəndələri İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etmələrinə baxmayaraq, P.Caparidze ilə aparılan damşıqlar müsbət nəticə verməmiş, hətta müsəlman heyətindən üç nəfər danışıqlardan qayıdarkən yolda güllələnmişdi. Mart soyqırımı günlərində azərbaycanlı siyasi və ictimai xadimləri ilə "sülh konfransı"nda sədrlik edən Caparidzenin irəli sürdüyü ultimatum tamamilə Azərbaycan milli hərəkatına qarşı yönəlmişdi. Caparidze aprelin 2-də Şaumyana yazırdı ki, Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar.

BXKS təşkil olunduqda (1918, aprel) Caparidze xalq daxili işlər, ərzaq komissarı kimi onun fəaliyyətində mühüm rol oynamış, həyata keçirdiyi tədbirlərin, o cümlədən, türk-müsəlman əhaliyə qarşı soyqırımlarının əsas təşkilatçılarından və rəhbərlərindən biri olmuşdur. Caparidze Bakı komissarları sırasında güllələnmişdir.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**CAVAD QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı quberniyasında inzibati ərazi vahidi. Mərkəzi Salyan şəhəri idi. Rus çarı II Aleksandrın (1855-81) Zaqafqaziya və Qafqaz diyarının idarəçiliyinin dəyişdirilməsi haqqında 1867 il 9 dekabr tarixli fərmanına əsasən, təşkil edilmişdi. Bakı quberniyasının ən böyük qəzası olmuşdur. 1870 il məlumatına görə, ərazisi 9837,5 *kv. verst* idi. Bu, quberniya ərazisinin 28,69%-ni təşkil edirdi. 1859-63 illər kameral təsvirinin yekunları əsasında aparılmış hesablamaya görə, Cavad qəzasında 13142 həyət, 60966 nəfər əhali var idi ki, onların da 33140 nəfəri kişi (54,36%), 27826 nəfəri (45,64%) qadın idi. Cavad qəzası əhalisinin sayına (13,02%) görə, Quba (27,81%), Şamaxı (20,57%) və Lənkəran (16,92%) qəzalarından sonra dördüncü yerdə dururdu. Qafqaz təqviminin (1917) məlumatına görə, Cavad qəzasının ərazisi 8396,97 *kv. verst* (1870 ilə nisbətən 1441,5 *kv. verst* az) təşkil edirdi. Həmin dövrdə qəzanın əhalisi 162305 nəfər olmuşdur, onlardan 83955 nəfəri (51,72%) kişi, 78350 nəfəri (48,27%) qadın idi. Qəzanın əhalisi əvvəlki dövrə nisbətən 101339 nəfər və ya 2,66 dəfə artmışdı. *Qəza idarə sistemi* mövcud idi. Əhalinin qədimdən bəri əsas məşğuliyyəti əkinçilik, maldarlıq və balıqçılıq idi. Cavad qəzasında çar üsul-idarəsinə qarşı çıxışlar baş vermişdi. Bolşeviklər Bakıda hakimiyyəti ələ aldıqdan sonra qəzalarda da möhkəmlənməyə çalışırdılar. Bakı quberniya komissarı Məşədi Əzizbəyov başda olmaqla, Qırmızı ordunun 240 nəfərlik dəstəsi Bakıdan Salyana gəlmiş və 1918 il aprelin 21-də Salyanda sovet hakimiyyəti qurmuşdu. Aprelin sonlarında sovet hakimiyyəti hərbi qüv-


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918-1920
CAVAD QƏZASI
Miqyas 1: 760 000
ŞAMAXI QƏZASI
XƏZƏR DƏNİZİ
İRAN
LƏNKƏRAN QƏZASI
Salyan
1
2
1.Göyçay qəzası
2.Bakı qəzası


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
CAVANŞİR QƏZASI
Miqyas 1: 670 000
GƏNCƏ QƏZASI
ƏRƏŞ QƏZASI
ŞUŞA QƏZASI
ZƏNGƏZUR QƏZASI
GÖYCƏ MAHALI
ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZASI
Göyçə gölü
Bərdə
Tərtər

vənin tətbiqi ilə bütün qəzaya yayılmışdı. Bakıda sovet hakimiyyətinin süqutu ilə qəzalarda da onun taleyi həll olundu. Bakı türk-Azərbaycan qüvvələri tərəfindən azad edildikdən sonra (1918, 15 sentyabr) Bakı quberniyasının qəzalarında, o cümlədən Cavad qəzasında Cümhuriyyət hakimiyyəti bərqərar edildi. Hökumətin 1919 il 28 aprel tarixli qərarı ilə Cavad qəzası bölgəsində İranla sərhədi qorumaq üçün 200 nəfərlik mühafizə dəstəsi yaratmaqdan ötrü 20 milyonluq fonddan daxili işlər nazirliyinin sərəncamına 602.400 manat vəsait ayrılmışdı.

*Aprel işğalından (1920)* sonra Azərbaycan SSR yaradıldıqda Cavad qəzası da yenidən sovetləşdirildi. Azərbaycan SSR-in rayonlaşdırılması zamanı (1929) Cavad (Salyan) qəzası ləğv edildi.

*Əd*.: Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Novruzlu Ə., Cavad bölgəsinin (Sabirabadın) tarixi, B., 1994.

**CAVADZADƏ** Seyid Cəfər Seyid Cavad oğlu - İranda, xüsusilə Cənubi Azərbaycanda inqilabi hərəkatın görkəmli xadimlərindən biri, publisist (bax *Pişəvəri)*.

**CAVANŞİR BEHBUD XAN** Azad oğlu (1886, keçmiş Tərtər nahiyəsinin (indiki Tərtər rayonu) Azad Qaraqoyunlu k. - 1921, İstanbul) - Azərbaycan Xalq Cümhuriyyətin dövlət və ictimai xadimi. Almaniyada və İngiltərədə təhsil almışdır. 1912 ildə Frayberqdə (Almaniya) Dağ-Mədən Akademiyasını bitirmiş, neft emalı müəssisələrində baş mühəndis işləmişdir. "Rusiya texnika cəmiyyətinin" üzvü idi. Elmi fəaliyyətlə də məşğul olmuşdur. "Müsəlman Xeyriyyə Cəmiyyəti"-nin rəhbərlərindən biri idi. Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvlərindən olmuşdur (1917). 1918 il Bakıda mart soyqırımı zamanı barışıq komitəsində iştirak etmişdir. 1918 ilin iyun-dekabr aylarında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində daxili işlər naziri olmuş, 1918 ilin oktyabrından isə, eyni zamanda, ticarət və sənaye naziri vəzifəsini icra etmişdir. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanunu"na* (1918,19 noyabr) əsasən, Cümhuriyyət Parlamentinə seçilmiş, bitərəflər fraksiyasının üzvü olmuşdur. 1919 ildə "Dəyanət" ticarət birliyinin təsis olunmasında yaxından iştirak etmişdir. Alman, ingilis, fransız, rus və gürcü dillərini mükəmməl bilirdi. *Aprel işğalından (1920)* sonra neft sənayesində çalışmışdır. Avadanlıq almaq üçün İstanbula göndərilən Behbud xan orada "Pera Palas" otelinin qarşısında erməni terrorçusu Toplaqyan tərəfindən odlu silahla yaralanmış. xəstəxanada vəfat etmişdir. Ölüm ayağında "mənim şəxsi düşmənim yoxdur. Məni ermənilər vura bilər" demişdir.



*Əd*:. Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, B., 1990; Балаев А., Азербайджанское национально – демократическое движение 1917-1920 гг., Б.,1990; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика – страницы политической истории 1918-1920 гг., Б., 1994; Qasımov M., Behbud xan Cavanşir necə öldürüldü? - "Yeni Müsavat", 1997, 20 may.



**CAVANŞİR** Əbdülhəmid Həmid oğlu (7.9.1897, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol kişi gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini aqronomluq sahəsində davam etdirmək üçün Fransanın Nansi Universitetinə göndərilmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilini başa vurmasına 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**CAVANŞİR QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yelizavetpol (Gəncə) quberniyası tərkibində inzibati ərazi vahidi. 1873 il qanununa əsasən təşkil edilmişdi. Mərkəzi Tərtər məntəqəsi idi. Qəza idarə sistemi mövcud idi. Qafqaz təqviminin (1917) məlumatına əsasən, ərazisi 4654,06 *kv.verst,* əhalisi 75730 nəfər idi; onlardan 1476 nəfəri kişi (54,79%), 34234 nəfəri qadın (45,20%) li. Əhali, əsasən, əkinçilik, bağçılıq, ipəkçilik və maldarlıqla məşğul olurdu. Qəzada çar idarə üsuluna və sosial ədalətsizliyə qarşı çıxışlar baş vermişdi. Çarizmin devrilməsindən sonra ermənilər qəzada möhkəmlənməyə və azərbaycanlılara qarşı soyqırımına başlamaq məqsədilə tədbirlər görməyə başlamışdılar. Azərbaycan *Fövqəladə Təhqiqat komissiyasının* üzvü N.M.Mixaylovun ermənilərin törətdikləri talanlardan və digər zorakılıq hərəkətlərindən zərər çəkmiş müsəlman kəndlərinin yoxlanılması haqqında məruzəsində Cavanşir qəzasına geniş yer ayırmışdır. Onun yazdığına görə, ***"Rusiyanın apardığı hərbi əməliyyatların başa çatmasından xeyli əvvəl erməni millətindən olan əsgərlər böyük dəstələrlə cəbhədən öz kəndlərinə qaçır və buraya cəbbəxanadan oğurladıqları çoxlu tüfəng, pulemyot və hər cür hərbi sursat gətirirdilər. Belə cinayətkar əməllərə bir tərəfdən, yerli erməni ziyalıları və erməni kənd icmaları, digər tərəfdən, Rusiya polis idarəsinin fəaliyyətsizliyi və hətta fürsət verməsi səbəb olmuşdur... Rusiyada dövlət çevrilişi baş verdiyi andan erməni kəndlərinə, demək olar, açıq şəkildə silah və hərbi sursat gətirilməsi halları artdı və o vaxtdan etibarən ermənilər açıq düşmənçilik münasibətləri və zorakılıq hərəkətləri göstərməyə başladılar".*** Erməni silahlı dəstələri 1917 ilin dekabrından Kolanı və digər qonşu kənd icmalarına qarşı basqınlara başlayır, dağ və aran kəndlərinin əlaqəsini kəsməyə çalışırdılar. Ermənilər 1918 ilin yaz və yay aylarında Tərtər su hövzəsi çaylarını bəndə salaraq, istiqamətini dəyişdirir, azərbaycanlıların əkinlərinə zərər vurmağa cəhd göstərirdilər. Ermənilərin qəddarlığı və düşmənçilik hərəkətləri nəticəsində qəzanın təkcə dağətəyi hissəsinin müsəlmanlarına qarşı ən azı onlarla milyon manat ziyan vurulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra burada hakimiyyətini möhkəmləndirməyə xüsusi fikir verirdi. Hökumətin 1918 il 23 iyun tarixli qərarı ilə əhali arasında yayılan xəstəliyin xarakterinin dəqiq müəyyənləşdirilməsi və bununla əlaqədar digər məsələlərin həlli üçün qəzaya tibb işçiləri göndərilmişdi. Erməni təcavüzünün artması nəzərə alınaraq, 1919 il 13 yanvar tarixli qərarla qəza Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ilə birgə müvəqqəti general-qubernatorluqda birləşdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ciddi səyləri nəticəsində qəzanı erməni işğalından qorumaq mümkün oldu. Cümhuriyyətin süqutundan sonra Qarabağda, o cümlədən Cavanşir qəzasında sovetləşməyə qarşı üsyanlar baş verdi. Bu üsyanlar 11 -ci Qırmızı ordu tərəfindən amansızlıqla yatırıldı, sovetləşmə həyata keçirildi. Respublikanın rayonlaşdırılması ilə əlaqədar Cavanşir qəzası 1929 ildə ləğv edildi.

*Əd:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Vəlixanlı N.,31 mart - azərbaycanlıların soyqırımı günüdür, "İpək yolu" jurnalı, 1998, №2; Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920), Ankara, 2001.

**CAVİD,** Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882, Naxçıvan - 5.12.1941, Rusiya, İrkutsk vilayəti) - şair, dramaturq (bax *Hüseyn Cavid).*

**CEYMS REY** (?-?)- Amerika Birləşmiş Ştatları (ABŞ) ordusunun polkovniki. Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdiyi Amerika polkovniki V.Haskelin müavini olmuşdur. 1919 ilin oktyabrında Haskel Parisə çağırıldıqda, onu əvəz edən Ceyms Rey Naxçıvanda və Şərur-Dərələyəzdə neytral zona məsələsini müzakirə etmək üçün Bakıya gələrək, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə danışıqlar aparmış, oktyabrın 24-də V.Haskelin Naxçıvanda neytral zona yaratmaq barədə bəyanatını Müsəlman Milli Şurası qarşısında elan etmişdir. Bəyanata əsasən, Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund Dellinin qubernator təyin edilməsi haqqında iki bənddən ibarət sərəncam imzalamış, lakin Milli Şuranın və Naxçıvan əhalisinin təkidilə qərarını dəyişdirərək, polkovnik Dellinin Naxçıvanda general-qubernator deyil, Amerika ali komissarının nümayəndəsi kimi qalmasına razılıq vermişdir. Ceyms Rey Naxçıvana səfərində neytral zona üçün nəzərdə tutulan bu ərazini Azərbaycandan ayırmağın mümkün olmadığını anlamışdır. 1919 il noyabrın 23-də Azərbaycanla Ermənistan arasında bağlanmış sazişi ABŞ tərəfindən təminatçı kimi Ceyms Rey də imzalamışdır. Sazişin 3-cü bəndinə görə, tərəflər hər hansı bir məsələni dinc yolla həll edə bilmədikdə neytral şəxslərdən ibarət münsiflər məhkəməsinin qərarını özləri üçün məcburi hesab etməli idilər. Sazişdə belə neytral şəxsin Ceyms olduğu göstərilirdi.

Ceyms Rey, həmçinin *Harbord missiyasının* Azərbaycan üzrə müvəkkili olmuşdur. Paris sülh konfransındakı Azərbaycan nümayəndələri Ceyms Reylə görüşüb, ona lazımi materiallar təqdim etmişdilər.

*Əd:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**CƏBİYEV** Həbib Pircan oğlu (1899, Bakı yaxınlığındakı Balaxanı k. - 1938) - siyasi və dövlət xadimi, publisist. 1915 ildə inqilabı hərəkata qoşulmuşdur. 1918 ildə "Hümmət"in üzvü olmuş, Balaxanı təşkilatının katibi seçilmişdir. Bakı, Gəncə, Şamxor (Şəmkir), Tovuz və Qazaxda inqilabi iş aparmışdır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) 1-ci qurultayının (1920, fevral) nümayəndəsi olmuşdur. 11-ci Qırmızı ordunu qarşılamaq üçün bolşeviklər tərəfindən Dərbəndə göndərilmiş, 1920 ilin aprelində müdaxiləçilərlə birlikdə "III internasional" zirehli qatarında Bakıya gəlmiş, bolşevik müdaxiləçilərinə qarşı *Gəncə üsyanının (1920)* yatırılmasında fəal iştirak etmişdir. Cəbiyev AK(b)P daxilindəki ixtilaflarda Nəriman Nərimanova qarşı duran qrupun üzvü idi. 1922-23 illərdə Moskvada "Qızıl Şərq" jurnalının, 1923-27, 1929-30 illərdə "Kommunist" qəzetinin redaktoru olmuşdur. 1927-29 illərdə AK(b)P MK-nın şöbə müdiri işləmiş, 1930 ildən SSRİ kolxoz mərkəzinin sədr müavini, SSRİ Xalq Yeyinti Sənayesi Komissarlığı siyasi idarəsinin rəis müavini olmuşdur. Kommunist İnternasionalının 5-ci konqresinin, partiyanın 16-cı qurultayının nümayəndəsi seçilmişdi. Repressiyaya məruz qalmışdır.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5-6, B., 2000-2001; Hüseynov A.Ə., Həbib Cəbiyev, B., 1975.

**CƏBRAYIL QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yelizavetpol (Gəncə) quberniyası tərkibində inzibati ərazi vahidi. 1873 il qanununa əsasən təşkil edilmişdi. Mərkəzi eyni adlı yaşayış məntəqəsi idi. 19 əsrin əvvəllərində Rusiyanın Azərbaycana qarşı işğalçılıq müharibəsində vuruşmuş rus zabitlərindən P.M.Karyaginin (1761-1807) adı ilə Karyagin qəzası (1905) adlandırılmışdı. *Qəza idarə sistemi* mövcud idi. Qafqaz təqviminin (1917) məlumatına görə, ərazisi 3276,31 *kv. verst* (1 *verst*=1,0668 *km)*, əhalisi isə 89584 nəfər idi. Qəza əhalisinin 44493 nəfəri (49,66%) kişi, 45091 nəfəri (50,33%) qadın idi. Əhali, əsasən, əkinçilik, bağçılıq, ipəkçilik və maldarlıqla məşğul olurdu. Qəzada çar idarəçilik rejiminə və sosial ədalətsizliyə qarşı kəndli çıxışları baş vermişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan az sonra, Hökumətin 1918 il 30 iyul tarixli qərarı ilə qəzanın əvvəlki adı bərpa edilmişdi. 1919 il 13 yanvar tarixli qərar əsasında Cavanşir, Şuşa və Zəngəzur qəzaları ilə birlikdə müvəqqəti general-qubernatorluqda birləşdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin və yerli idarə orqanlarının tədbirlərinə baxmayaraq, erməni-daşnak silahlı dəstələri qəzanın yerli türk-müsəlman əhalisinə qarşı soyqırımları törətməyə can atırdılar.

1918 il dekabrın ilk günlərində ermənilər qəzanın azərbaycanlı əhalisinə qarşı silahlı qətllərə başlamışdılar. Ermənilərin azərbaycanlılar üzərinə basqınları və soyqı-rımları 1919-20 illərdə də davam etmişdi. Azərbaycan Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.M.Mixaylovun erməni talanlarından və digər zorakılıq hərəkətlərindən zərər çəkmiş müsəlman kəndlərinin yoxlanılması haqqında məruzəsində Cəbrayıl qəzası üzrə də ətraflı məlumat verilir. Burada ermənilərin müsəlmanlara qarşı törətdikləri cinayətlərin yalnız bir qismi - adbaad 17 ciddi fakt göstərilir. Həmin faktlardan ermənilərin azərbaycanlı kəndlərini viran qoyması, əhalisini vəhşicəsinə qırması, mal-mülkünü qarət etməsi aydın olur. Ermənilərin bütün cəhdlərinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Qarabağda erməni təcavüzünün qarşısını ala bildi.

Respublikanın rayonlaşdırılması ilə əlaqədar Cəbrayıl qəzası 1929 ildə ləğv edildi.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Vəlixanlı N., 31 mart - azərbaycanlıların soyqırımı günüdür, "İpək yolu" jurnalı, 1998, № 2; Azerbaycan bölgelerinde ermeni sorunu (1918-1920), Ankara, 2001.

**CƏBRAYIL QƏZASI BARƏDƏ QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin tarixi adların bərpa olunması haqqında qəbul etdiyi qərarlardan biri. 1918 il 30 iyul tarixli qərarla Azərbaycana qarşı işğalçılıq müharibəsinin iştirakçısı rus generalı P.M.Karyaginin adını daşıyan qəzanın tarixi adı bərpa olunaraq *Cəbrayıl qəzası* adlandırılmışdır.

**CƏBRAYILBƏYLİ** Cəmo Adil oğlu (29.1.1887, Şamaxı - 30.7.1965, Şamaxı rayonunun Çuxuryurd k.) - maarifçi, pedaqoq, metodist, publisist, yazıçı, şair. Şamaxı şəhər məktəbini bitirmişdir (1901). 1908 ildən pedaqoji fəaliytə başlamış, Şamaxı (1908-14) və Bakı (1914 ildən) məktəblərində müəllimlik etmişdir. Cəbrayılbəyli və Zülfüqar bəy Hacıbəyli Şamaxıda "Nicat" maarif cəmiyyətinin şöbəsini açmaq məqsədilə 1915 ilin yayında Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşlar Bakı mətbuatında, əsasən, "Məktəb" jurnalında uşaq pyesləri, hekayələr,şeirlər dərc etdirmişdir. Ağalı bəy Naseh, Mirzə Ələkbər Sabir və Abbas Səhhətlə yaxın dost olmuşdur. "Cəmo" imzasıyla şeirlər yazmışdır (Azərbaycan Respublikasının hazırkı himninin mətninin müəllifinin Cəmo Cəbrayılbəyliyə məxsus olması fikri də var; belə ki, 1919 ildə Bakıda dərc edilən "Milli nəğmələr" kitabındakı "Vətən marşı" şerinin mətni indiki himnin sözləri ilə eynidir. Şerin sonunda isə "Cəmo bəy" imzası qeyd olunmuşdur). Cəbrayılbəyli 1922 ildə orta məktəb müəllimləri hazırlayan ali pedaqoji kursları bitirmiş, "Zükur" darülmüəlliminə (pedaqoji texnikumuna) müəllim, sonralar dərs hissə müdiri təyin edilmişdir (1922-31). 1931 ildə Azərbaycan Pedaqoji İnstitutuun biologiya fakültəsini bitirmiş, 1932-37 illərdə Sənaye Akademiyasında (Bakı), Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda, 1938-64 illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda işləmişdir. 1942 ildə namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi, dosent adı almış, elə həmin il Azərbaycanın əməkdar müəllimi adına layiq görülmüşdür. Cəbrayılbəyli Azərbaycanda pedaqoji kadrların hazırlanmasına və tərbiyə olunmasına böyük əmək sərf etmişdir. O, bir sıra dərsliklərin ("Təbiətə ilk addım", Müxtəsər nəbatat", "Heyvanat dərsləri" və s.), 30-dan çox elmi-metodik kitab və kitabçanın müəllifidir. "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif edilmişdir. 1964 ildə fərdi təqaüdə çıxmışdır. Şamaxıda "Şahixəndan" qəbiristanlığında M.Ə.Sabirin qəbri yanında dəfn edilmişdir.





*Cəmo Cəbrayılbəyli, Abdulla Şaiq və Səməd bəy Acalov*

Əsərləri: Botanikanın tədrisi haqqında, B., 1955; Xatirələrim, B., 966; Təbiət haqqında hekayələr, B,, 1972.

**CƏFƏROV** Əliyusif Abutalıb oğlu (14.1.1901, Bakı - ?) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə Təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar*) ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bbakı kişi gimnaziyasını bitirmişdir 1919).Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini fizika – riyaziyyat sahəsində davam etdirmək üçünTürkiyəyə göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**CƏFƏROV** (C ə f ə r z a d ə) Məmməd Yusif Hacıbaba (14.3.1885, Bakı-15.5.1938, Bakı, Şağan k.)-Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri; Cümhuriyyət Parlamentinin sədr müavini (2.2.1920 - 27.4.1920). Bakı kişi gimnaziyasını (1907) və Moskva Dövlət Universitetinin hüquq fakültəsini (1912) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil illərində Moskvada oxuyan azərbaycanlı tələbələrin yaratdığı "Azərbaycan etnoqrafik konsert gecələri"nin və "Azərbaycan həmyerlilər təşkilatı"nın üzvü, sonralar isə rəhbərlərindən biri olmuşdur.



Ali təhsilini başa vurandan sonra Bakıya qayıdaraq, məhkəmədə andlı hakim köməkçisi vəzifəsində çalışmışdır. Hüquqşünas kimi şəhər əhalisinin hörmətini qazanan 27 yaşlı Məmməd Yusif 1912 ildə Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən 4-cü Dövlət dumasına deputat seçilmişdir. O, 4-cü Dövlət dumasında Cənubi Qafqazdan yeganə müsəlman deputat idi. M.Cəfərov 1912-17 illərdə Sankt-Peterburqda fəaliyyət göstərən 4-cü Dövlət dumasının 5-ci bölməsinin, Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyalarının üzvü seçilmişdi. O, dumada Rusiya baş nazirinin hesabatı, gömrük departamentinin xərcləmə dərəcəsi, köçürmə idarəsi üzrə xərclərin smetasına dair büdcə komissiyasının hesabatı, 1913 ildə Cənubi Qafqazın bəzi yerlərində məhsulsuz qalmış əhaliyə kömək tədbirləri, müharibə və s. məsələlərin müzakirəsi zamanı çıxışlar etmiş, çar hökumətinin müstəmləkəçilik siyasətini, Cənubi Qafqaz əhalisinə, xüsusən müsəlmanların maariflənməsinə laqeyd münasibət göstərildiyini, hüquqlarının məhdudlaşdırıldığını, milli məktəblərin bağlandığını tənqid etmiş və kazarmaya çevrilmiş məscidlərin qaytarılmasını Müsəlman fraksiyası adından tələb etmişdir.

Çarizmin köçürmə siyasətinə öz mənfi münasibətini bildirən M.Cəfərov, bunun "yerli ünsürü sıxışdırmaq yolu "ilə ucqarlarda rus ünsürünü gücləndirmək" məqsədi daşıdığını göstərirdi. Köçürmə nəticəsində ən yaxşı torpaqların yerli əhalidən alınıb gəlmə əhaliyə verilməsini, yerli əhalinin yaşamaq imkanlarının əlindən alınmasını M.Cəfərov “dövlət işi yox", yerli əhaliyə qarşı yönəldilmiş "dövlət bəlası” hesab edirdi.

M. Cəfərov Sankt-Peterburqda olduğu dövrdə Lənkəran balıqçıları, Şamaxı müəllimləri, müsəlman ruhaniləri ona bir deputat kimi müraciət etmişlər. O, əhalinin irəli sürdüyü məsələləri həll etmək üçün bir sıra dövlət idarələri və nazirliklərlə əlaqə saxlamış, onların həllinə çalışmışdır. Fevral inqilabını (1917) rəğbətlə qarşılayan M.Cəfərov 1917 ilin martın 9-da Müvəqqəti hökumətin göstərişi ilə 4-cü Dövlət dumasının üzvlərindən yaradılan *Xüsusi Zaqafqaziya Komitəsinin* tərkibinə daxil idi. Həmin komitədə ona sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. Bu komitə “Müvəqqəti hökumət tərəfindən 1917 il martın 6-da bütün xalqa elan olunmuş prinsiplər əsasında Zaqafqaziya diyarında möhkəm qayda yaratmalı və diyarda hakimiyyət orqanını təşkil etməli idi".

M. Cəfərov Fevral inqilabı nəticəsində əldə olunmuş azadlığı müdafıə etmək, qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağırırdı: "Bu azadlığı əlinizdən verməyin onu əlinizdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq”. Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş 4-cü Duma tribunasından istifadə edən M.Cəfərov öz səsini müxalifətin səsinə qoşaraq "mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hisslərini" təhqir etdiyini tam açıqlığı ilə bildirmişdi.

M.Cəfərov 1917 il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında çıxış etmiş, müsəlmanları birliyə çağırmışdır. Həmin il noyabrın 15-də Tiflisdə yaradılan Zaqafqaziya Komissarlığında M.Cəfərov ticarət və sənaye komissarı vəzifəsini tutmuşdu.

M. Cəfərov 1918 il fevralın 23-dən Tiflisdə işə başlayan Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü, bu fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini idi. O, seymin və Müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək, Cənubi Qafqaz xalqlarını dostluğa, ədavəti aradan qaldırmağa, əldə edilmiş azadlığı qorumağa çağırmış,Türkiyə dövləti ilə danışıqlara başlamağı və sülh sazişi bağlamağı təklif etmişdir.

1918 il mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclasında Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə yaradılan Müvəqqəti Milli Şuranın İcraiyyə Komitəsinin tərkibində M.Cəfərov da seçilmişdi.

M.Cəfərov Azərbaycan Milli Şurasının 1918 il mayın 28 –dəki iclasında qəbul etdiyi *İstiqlal bəyannaməsini* imzayanlardan biri olmuşdur. Həmin iclasda Fətəli xan Xoyskinin təşkil etdiyi ilk Azərbaycan Hökumətinin tərkibində M.Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.Həmin il iyunun 17-də bu Hökumət istefa verdikdən sonra, *M.Cəfərov* Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik numayəndəsi olmuşdur (1918 il iyunun axırlarından 1919 il martın ortalarına kimi). O, bu vəzifədə Azərbaycan və Gürcüstan hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Zaqafqaziya Demokratik Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Gürcüstan və Dağlılar respublikaları nümayəndələrinin Tiflisdə keçirilmiş konfransında yaxından iştirak etmiş və Azərbaycanla Gürcüstan arasında əlavə müvəqqəti kağız buraxılması haqqında müqaviləni imzalamışdır.

1919 il martın 14-də Nəsib bəy *Yusifbəylinin* təşkil etdiyi 4 –cü hökumətdə M.Cəfərov xarici işlər naziri vəzifəsini tutmuş, bu vəzifədə 1919 il dekabrın 22-ə qədər çalışmışdır. M.Cəfərov bir diplomat kimi Azərbaycan Respublikasının mənafeyini müdafiə etmişdir. Bu onun imzaladığı Gürcüstan və Azərbaycan respublikaları arasında hərbi-müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilədə, Ermənistan, Gürcüstan və Azərbaycan respublikaları arasında sazişdə, azərbaycanlılara qarşı soyqırımı və ayrı-seçkilik siyasəti əleyhinə Ermənistan xarici işlər nazirliyinə, müsəlman əhalisinin mənafeyinin, əmlakının müdafiə edilməsi Azərbaycanın ərazi bütövlüyünün qorunması barədə B. Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlıqlarına göndərdiyi notalarda və s. aydın əksini tapmışdır.

M. Cəfərovun sərəncamı ilə çar Rusiyasının Cənubi Qafqazda siyasətinə dair sənədlər toplusunu hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı (bax *Dokumentı po russkoy politike v Zakavkazye).*

1920 il fevralın 2-də Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə Azərbaycan Parlamenti sədrinin birinci müavini seçilmiş və Cümhuriyyətin süqutunadək bu vəzifədə çalışmışdır. M.Cəfərov 1920 il aprelin 27-də Parlamentin son iclasında gərgin müzakirələrdən sonra hakimiyyətin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır.

Cümhuriyyətin süqutundan sonra Azərbaycanın pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmışdır.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Парламент (стенографические отчеты), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti. 1918-1920, B., 1990;Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər), B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 1998. Qasımov M., Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti, B., 2002.



**CƏFƏRZADƏ** Əlisgəndər Hacıbaba oğlu (14.10.1875, Bakı - 1941, Bakı) - görkəmli ictimai və maarif xadimi naşir, mühərrir. Məmməd Yusif *Cəfərovun* böyük qardaşıdır. Bakıda məhəllə və ilk xüsusi rus-müsəlman məktəbində (1887-90) oxumuşdur. İmperator III Aleksandr kişi gimnaziyasında xüsusi komissiya qarşısında imtahan verərək, Azərbaycan dili müəllimi hüququ almışdır (1897). Nəriman Nərimanovun Bakıda Ə.Cəfərzadənin evində təşkil etdiyi qiraətxanada müdir (1895-98), ikinci rus-müsəlman məktəbində, Aleksey ali ibtidai məktəbində müəllim (1897-1920), *"Nəşri-maarif"* cəmiyyətində katib (1906-18), Azərbaycan SSR Xalq Maarif Komissarlığında nəşriyyat şöbəsinin (1920-24), "Azərnəşr"də uşaq ədəbiyyatı bölməsinin müdiri, istehsalat şöbəsinin müdir müavini, texniki redaktor (1924-32), "Azərneft"də kadr şöbəsinin rəisi (1932-38) işləmişdir.

Cəfərzadə xalq maarifinin milli zəmində inkişafı sahəsində böyük xidmətlər göstərmiş, "Nəşri-maarif' cəmiyyətinin Bakı və onun kəndlərində açdığı ibtidai məktəblərin müəllim kadrları, dərslik və metodik vəsaitlərlə təmin olunması işinə rəhbərlik etmişdir. Azərbaycanda ana dilində müstəqil uşaq mətbuatının yaranması Cəfərzadənin adı ilə bağlıdır. O, "Dəbistan" (1906-08) adlı ilk pedaqoji jurnalın naşiri və mühərriridir. Qarşısına ***"türk milləti-nəcibəmizin balalarına bir xidmət göstərmək"***, onların ***"əql, zehin, əxlaqi-həsənə və hissiyyatlarını oyandırıb"*** inkişaf etdirməklə ***"zəhmətkeş, xadimi-din, millətpərəst və vətənpərəst cavanlar"*** yetirmək vəzifəsi qoyan Cəfərzadə əsrin gör-

*Əlisgəndər Cəfərzadə Azərbaycan ziyalıları arasında*



.

kəmli yazıçılarını ətrafına toplayaraq, jurnalda mükəmməl proqram əsasında zəngin bədii və elmi-kütləvi ədəbiyyat nümunələri dərc etmişdir. O, "Maarif" (1922) adlı ilk Azərbaycan sovet uşaq jurnalının da üç redaktorundan biri olmuşdur. Cəfərzadə Azərbaycan dövri mətbuatı və kitab nəşrinin inkişafına, xüsusilə onun mürəttiblik kimi ağır sahəsinin dirçəlişinə böyük əmək sərf etmişdir. "Həyat" qəzetinin (1905-06) baş mürəttibi, Rəşid bəy Əfəndiyevin "Bəsirə-tül-ətfal" müntəxabatının (1902), "Füqəra füyuzatı" jurnalının (1921), M.Ə.Sabirin "Hophopnamə"sinin (1922) naşiri olmuşdur.

Cəfərzadə bədii və elmi yaradıcılıqla da məşğul olmuşdur. Görkəmli adamların həyatına ("Əkbər şah", "Hacı Seyid Əzim Şirvani", "Müəllim Naci", "Əlişir Nəvai", "Əli bəy Hüseynzadə", "Həsən bəy Məlikov"), texnikaya və memarlığa ("Tac-Mahal, yaxud Mümtaz Mahal", "Məşhur böyük binalar") dair məqalələri, həmçinin hekayələri ("Balaca Firidun", "Ata və oğul", "Mərhəmətli Fatma", "Cəmilənin sərgüzəşti") uşaqların fikri və mənəvi inkişafında böyük rol oynamışdır. "Kilidi-ədəbiyyat" (1900) dərsliyinin (Sultanməcid Qənizadə ilə birgə) və "Müsləhəddin Sədi Şirazinin tərcümeyi-halı ilə bərabər onun "Gülüstan" kitabına bir nəzər" elmi əsərinin müəllifidir.

**CƏMİL CAHİD BƏY** (1883 - 15.7.1956) - türk zabiti, *Beşinci Qafqaz firqəsinin* tərkibinə daxil olan 9-cu Qafqaz alayının komandiri, *Qafqaz İslam Ordusunun* fəal xadimlərindən biri. Hərbi yardım üçün Azərbaycan ərazisinə hərəkət etmək göstərişi almış və Azərbaycana ilk yetişən hərbi hissələrdən birinin komandiri olmuşdur. *Batum müqavilələrinin (1918)* imzalanmasından əvvəl hissəsi ilə birlikdə Azərbaycana doğru hərəkət etmək əmri almışdı. Əmr Nuru paşanın Azərbaycandakı milli hərbi qüvvələrin vəziyyəti ilə tanışlıqdan sonra Türkiyənin 3-cü ordu komandanı *Vehib paşanın* adına yazdığı raportdan sonra verilmişdi. Vehib paşa 1918 il iyunun 2-də göndərdiyi cavab məktubunda Qazaxla Gəncə arasındakı stansiyaları və dəmir yol xəttini qorumaq üçün Azərbaycana qarışıq tərkibli bir dəstənin göndərilməsinə əmr veriləcəyini *Nuru paşaya* bildirirdi. Qarışıq tərkibli dəstəyə minbaşı (mayor) Cəmil Cahid bəyin komandir olduğu 9-cu Qafqaz alayı və minbaşı Zeyni bəyin komandir olduğu 2-ci süvari alayı daxil idi. Nuru paşanın tabeliyinə verilən bu alaylar 3-cü ordunun tabeliyindən çıxarılmamışdı. Azərbaycana ilk olaraq süvari alayı yola düşməli, Qazaxdan Gəncəyə qədər olan yolun mühafizəsini təmin etməli, sonra da 9-cu alay hərəkətə başlamalı idi. Tərkibində 2 piyada taboru, 10 ədəd pulemyot, 2 ədəd top olan alayını şəxsi heyətinin ümumi sayı 1336 nəfər idi.



Cəmil Cahid bəy alayı ilə 1918 il iyunun 4-də Azərbaycana doğru hərəkətə başladı. Həmin gün iki dövlət arasında Batumda imzalanan müqavilədən sonra Azərbaycana göstərilən hərbi yardımın xarakterində də dəyişiklik baş verdi. 9-cu alayın da daxil olduğu 5-ci Qafqaz firqəsi bütünlüklə Qafqaz İslam Ordusunun tabeliyinə verildi. Alay iyunun 7-də Qazaxda qarşılandı, iyunun 9-da isə Cəmil Cahid bəy artıq Gəncədə idi. Onun rəhbərliyi ilə iyunun 11-12-də Gəncədə erməni-daşnak silahlı dəstələri tərksilah edildi. Sonra bir müddət 9-cu alaya Gəncə ətrafının təhlükəsizliyinin təmin edilməsi vəzifəsi tapşırıldı.

1918 il avqustun 13-də Cəmil Cahid bəy Nuru paşanın əmri ilə *Şərq Cəbhəsi komandanlığının* tərkibinə daxil olan Cənub qrupunun komandanı təyin edildi və bununla o, Bakının azad edilməsi uğrunda döyüşlərə daha fəal cəlb olundu. Avqustun sonlarında Qafqaz İslam Ordusunun Bakı ətrafındakı qüvvələri yenidən qruplaşdırıldı və Cəmil Cahid bəy yeni yaradılan Qərb qrupunun rəhbəri təyin edildi. Bakı şəhəri azad olunduqdan sonra Cəmil Cahid bəy şəhərin komendantı olmaqla bərabər, həm də 1-ci Azərbaycan piyada diviziyasına komandanlığı öz üzərinə götürdü. Cəmil Cahid bəyin uzun müddət komandiri olduğu 9-cu Qafqaz alayı da 1-ci Azərbaycan diviziyasmm tərkibinə verildi. Onun 1-ci Azərbaycan diviziyasının komandiri təyin edilməsində məqsəd bu birləşmənin formalaşmasını və möhkəmləndirilməsini sürətləndirmək idi. Diviziyanın tərkibinə 3 piyada, 3 süvari, 1 sərhəd alayı və yardımçı bölmələr daxil idi. 1918 ilin oktyabrında Qarabağın erməni-daşnak qoşunlarından təmizlənməsinin əsas ağırlığı da 1-ci Azərbaycan diviziyasının üzərinə düşdü.

Türkiyəyə qayıtdıqdan sonra Cəmil Cahid bəy ölkədə aparılan istiqlal mücadiləsinə qoşuldu, 4-cü korpusun 5-ci firqəsinə komandanlıq etdi, general rütbəsinə layiq görüldü. 1940 ildə general-polkovnik rütbəsində jandarm qüvvələri komandanı, 1943-46 illərdə ordu generalı rütbəsində 1-ci ordu komandanı, 1946-47 illərdə Türkiyənin milli müdafiə naziri vəzifələrini icra etdi.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan B., 1999; yenə onun, Cəmil Cahid bəy, "Hərbi bilik" jurnalı, 2001, №5, 6; Rüştü, Büyük harpte Baku yollarında Ş.Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı, 1934; Y ü c e e r N., Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan harekatı, Ankara, 1996.

**CƏMİLLİNSKİ** Səməd bəy (?-?)- dövlət xadimi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) bir müddət Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkil olmuşdur. 1919 ilin avqustunda Qərbi Azərbaycanın (Naxçıvan mahalının) general-qubernatoru təyin edilmişdir; qərargahı əvvəl Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçürülmüşdü. Cəmillinski bölgənin idarə olunmasında, erməni-daşnak silahlı dəstələrindən təmizlənməsində, cari problemlərinin həllində Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin xəttini həyata keçirməyə səy göstərmiş, qaçqınların yerləşdirilməsi və təmin olunması məsələlərinə böyük diqqət yetirmişdi. Cəmillinski Naxçıvan mahalı və ətrafının İrandan müdafiəsi və onun ermənipərəst siyasətinin dəf olunması sahəsində mühüm işlər görmüşdür. O, İranın bölgə ilə bağlı niyyətlərini Naxçıvan diyarını Azərbaycan Xalq Cümhuriyyətindən ayırmaq məqsədi güdən ingilis siyasətinin astar üzü kimi qiymətləndirirdi.

Mahalın idarəçiliyi ilə əlaqədar olaraq yerli siyasi qüvvələrlə (Kəlbalı xan və b.) yaranan fikir ayrılıqları üzündən 1920 il fevralın sonunda vəzifəsindən getmək istəmiş və bu məqsədlə də hökumətdən başqa şəxslə əvəz olunmasını xahiş etmişdi. Azərbaycan Cümhuriyyətinin süqutunadək həmin vəzifədə qalmışdır.

**CƏNNƏTİ** Əbdülxalıq Əbdülqafar oğlu,Qafarzadə (1855, Bakı - 6.6.1931, Bakı) - şair. "Məcmə üş-şüəra"nın fəal üzvlərindən olmuşdur. Klassik üslübda, Azərbaycan və (fars dillərində şeirləri var. Rusiyada 1905-07 illər inqilabından sonra ictimai məzmunlu şeirlər ("Ey vətəndaşlar", "Vətən təranəsi", "Torpaq", "Ehda" ("Səttarxanın ruhi-pür fütuhinə") və s. yazmışdır (bəziləri "Təkamül" qəzetində dərc edilmişdir). "Qız qalası", "Qılınc və qələm" poemaları, təmsilləri var. 1910-cu illərdə milli istiqlal idealları Cənnətinin şeirlərində coşqun tərzdə əksini tapmışdır. İstiqlal dövrü (1918-20) şeirlərində müstəqillik rəmzi kimi üçrəngli bayraq tərənnüm olunur. Azərbaycan bayrağına məhəbbətini şair bir-birinin ardınca yazdığı "Bayraq", "Sancaq", "Bayrağımız" şeirlərində poetik dildə bildirir. Əsərləri Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılır.

Əsəri: Şeirlər, "Deyilən söz yadigardır" kitabında, B., 1980.
*Əd.:* Mir Cəlal, Əbdülxalıq Cənnəti, "Ədəbiyyat məcmuəsi", Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri, 1946, c. 1.

**CƏNUB-QƏRBİ AZƏRBAYCAN GENERAL-QUBERNATORLUĞUNUN YARADILMASI HAQQINDA QƏRAR** - Azərbaycanın cənub-qərb torpaqlarında (Naxçıvan) Azərbaycan Xalq Cümhuriyyətinin dövlət hakimiyyətini bərqərar etmək məqsədilə ayrıca inzibati-ərazi qurumu yaratmaq üçün qəbul olunmuş sənəd. General-qubernatorluğun yaradılmasını şərtləndirən mühüm amillərdən biri də bölgənin müsəlman əhalisinin problemlərini həll etmək zərurəti olmuşdur. Naxçıvanın Müvəqqəti hökuməti Azərbaycan torpaqları olan Naxçıvan, Şərur, Ordubad qəzalarının "Cənub-Qərbi Azərbaycan" adı altında Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün həm ingilis komandanlığına, həm də Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyinə müraciət etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il fevralın 28-də qəbul etdiyi qərara əsasən, Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski hərbi, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə general-qubernatorun müavinləri təyin olunmuşdular. General-qubernatorluğun nəzdində 7 nəfərdən ibarət Şura yaradılmışdı. Şuranın tərkibinə Naxçıvan qəzasından 2, Sürməli, İrəvan qəzalarının və Ordubad mahalının hərəsindən 1 nümayəndə daxil edilmişdi. Yerli hakimiyyətin təşkili üçün daxili işlər nazirliyinin 20 milyon manatlıq fondundan 500 min manatın general-qubernatorluq üçün ayrılması, Hökumətin bundan əvvəlki 1918 il 6 dekabr tarixli qərarına müvafiq olaraq ayrılmış bir milyon manatın 150 mininin Ermənistan ərazisində yaşayan müsəlman qaçqınlarının ehtiyacları üçün Ermənistandakı diplomatik nümayəndəyə, qalan 850 min manatın isə Cənub-Qərbi Azərbaycan qaçqınlarına yardım göstərmək üçün general-qubertorun sərəncamına verilməsi də qərarda öz əksini tapmışdı. Hökumətin 1919 il 3 mart tarixli qərarı ilə hərbi nazirliyə Cənub-Qərbi Azərbaycandakı silahlı qüvvələrin sayını və vəziyyətini aydınlaşdırmaq məqsədilə general-qubernatorluğa nümayəndə göndərilməsi, əlavə olaraq, bölgəyə daha 500 min manat vəsait ayrılması tapşırılmışdı. 19 ilin martında general-qubernatorluğun rəhbərliyində dəyişikliklər edildi. Hökumətin 16 mart tarixli qərarına əsasən, Cənub-Qərbi Azərbaycan general-qubernatoru Bəhram xan Naxçıvanski öz xahişinə görə tutduğu vəzifədən azad olundu. Zaqatalanın qubernatoru general Haşımbəyov general-qubernator, Kərim xan İrəvanski hərbi, Bəhram xan Naxçivanski isə mülki işlər üzrə müavin təyin edildilər. Martın 26-da bölgənin ümumi vəziyyəti haqqında Cümhuriyyət Hökumətinə məlumat vermək üçün Bakıya Teymur bəy Makinski (sədr), Q.Qənizadə və R.İsmayılovdan ibarət nümayəndə heyəti göndərmək qərara alındı. Kərim xan İrəvanski vəzifəsindən kənarlaşdırıldı. Onun yerinə namizəd keçmək general-qubernatora həvalə edildi. Cənub-Qərbi Azərbaycan general-qubernatorluğunun yaradılması bölgənin Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə əlaqələrinin möhkəmlənməsində əhəmiyyətli rol oynamışdır.

Əd.: ; Азербайджанская Демократиская Респу блика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**CƏNUB-QƏRBİ AZƏRBAYCAN MÜVƏQQƏTİ HOKUMƏTİ** - bax *Araz Türk Cümhuriyyəti.*

**CƏNUB-QƏRBİ QAFQAZ CÜMHURİYYƏTİ (CQQC),** Qars Demokratik Cümhuriyyəti -Birinci dünya müharibəsi (1914-18) dövründə erməni-daşnak silahlı quldur dəstələri tərəfindən türk-müsəlman əhalinin soyqırımına məruz qaldığı Cənub-Qərbi Qafqazda yaranmış demokratik respublika. Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında *Mudros barışığı (1918)* ərəfəsində və ondan az sonra Cənub-Qərbi Qafqazda bir neçə dövlət qurumu yarandı. 1918 il oktyabrın 29-da Ömər Faiq Nemanzadənin başçılığı ilə Axıska hökuməti quruldu. 1918 il noyabrın 5-də "Qars İslam Şurası" adı ilə milli hökumət

*Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin fərqlənmə nişanları*






yaradıldı. Bu hökuməti yaradanlar sırasında Piroğlu Fəxrəddin (Ərdoğan) bəy, əslən Borçalıdan olan Kəpənəkçi Emin ağa və b. vardı. Noyabrın 14-də birinci Qars konqresi çağırıldı. Bölgələrin milli şura rəhbərlərinin qatıldığı konqresdə Emin ağa hökumət funksiyasını yerinə yetirən "Qars İslam Şurası"na sədr seçildi. Noyabrın 30-da "Qars İslam Şurası"nın dəvəti ilə Naxçıvan, Ordubad, Qəmərli, Sürməli (İqdır), Şərdi Şorəyel, Axıska, Axalkələk və Batum bölgələrindən gələn 60 nəfərlik nümayəndə heyətinin iştirakı ilə *2-ci* Qars konqresi keçirildi. Batumdan Ordubada qədər ərazidə Qars İslam Şurası hökuməti quruldu. 12 nəfərdən ibarət hökumətə əslən gümrülü olan, sonralar Qarsa köçən İbrahim bəy Cahangirzadə rəhbərlik edirdi. İ.Cahangirzadə rus ordusunun zabiti olmuş və *Araz Türk Cümhuriyyətinin* hərbi naziri kimi, bölgə əhalisinin silahlandırılmasına və hərbi təlimlər keçməsinə rəhbərlik etmişdi. Qars Milli Şura hökumətinin əsas vəzifəsi daşnakların türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarının və bölgəni işğal etməyə çalışan gürcü qoşunlarının hücumlarının qarşısını almaq və əhalinin təhlükəsizliyini təmin etmək idi.

1919 il yanvarın 13-də ingilis generalı Bisç Qarsa gələrək, Ermənistan hökumətinin Stepan Korqanovu Qars vilatətinin başçısı təyin etdiyini bildirdi. Milli Şura hökumətinin rəhbərləri ingilis generalına bəyan etdilər ki, bölgə əhalisinin 85%-i türklərdən ibarətdir və vilayətin rəhbərliyinə erməninin təyin edilməsi Vilson prinsiplərinə ziddir. Bundan sonra general Bisç Milli Şura hökumətini tanıdığnı bildirdi və Gümrüyə qayıtdı.

Bölgə təmsilçilərinin 1919 il yanvarın 17-də Qarsda keçirilən toplantısında Cənub-Qərbi Qafqaz hökumətinin yaradıldığı elan olundu. Bu siyasi qurum Cənub-Qərbi Qafqaz və ya Qars Demokratik Cümhuriyyəti adlandı. CQQC-nin 18 maddədən ibarət Konstitusiyası qəbul olundu. Cümhuriyyətin 40 min *kv. km* ərazisi, 1,7 milyon nəfər (1,5 milyonu türk-müsəlman) əhalisi vardı. Dövlət dili olaraq türk dili qəbul olunmuşdu. Üçrəngli (ağ, yaşıl və qara), ay-ulduzlu bayrağı vardı. Batumda həftədə üç dəfə çıxan "Sədayi millət" qəzeti hökumətin rəsmi orqanı idi. Beləliklə, Rusiya imperiyasının dağılması ilə əlaqədar olaraq Qars, Batum, Axalsıx, Axalkələk, Şərur, Naxçıvan, Sürməli və İrəvan qəzasının cənub-şərq hissəsinin əhalisi öz müstəqilliyini elan etdi.

Qısa müddətdə CQQC-nin Müvəqqəti hökuməti təşkil edildi. İbrahim bəy Cahangirzadə cümhurbaşqanı seçildi. Nazirlər şurası beynəlmiləl tərkiblə təşkil olunmuşdu. Xarici işlər naziri vəzifəsinə türk Piroğlu Fəxrəddin bəy, xalq maarifi naziri vəzifəsinə əvvəlcə yunan M.Andreyanot, sonra isə türk, müəllim Mehmed bəy Kocaoğlu təyin edilmişdilər.

Partiyalar olmadığından, 65 bitərəf deputatdan ibarət parlament yaradıldı. Doktor Əsəd bəy Oktay (Əsəd bəy Hacıyev) parlamentin sədri seçildi. Parlament respublikanın

xarici və daxili siyasətinin aşağıdakı istiqamətlərini müəyyənləşdirdi: 1) CQQC bütün qonşuları ilə, xüsusən yeni yaradılmış Qafqaz dövlətləri ilə mehriban qonşuluq əlaqələri qurmaq niyyətindədir; 2) CQQC neytral dövlətdir; 3) CQQC-nın vətəndaşları milliyyətindən, dinindən, sosial mənşəyindən, siyasi əqidəsindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər.

Yeni yaranan dövlət ixtisaslı kadrlar və maliyyə baxımından çətinliklərlə üzləşirdi. CQQC-nin köməyinə ümid bəslədiyi ilk dövlət Azərbaycan Xalq Cümhuriyyəti idi. Azərbaycan Cümhuriyyətinin Batumdakı konsulu məsələ ilə bağlı Bakıya teleqram göndərərək bildirdi ki, CQQC əhalisi Azərbaycan Xalq Cümhuriyyətinin ona hərtərəfli yardım edəcəyinə böyük ümidlər bəsləyir. CQQC hökuməti 1919 il yanvarın 25-də Azərbaycan Xalq Cümhuriyyətinə müraciət edərək, hərbi və maddi yardım istəmişdi. Buna cavab olaraq, Azərbaycan Hökuməti CQQC-nə hərbi təlim keçmək üçün zabitlər və xeyli qızıl pul göndərdi.

CQQC, sülhsevər mövqeyinə baxmayaraq, yarandığı gündən Ermənistan və Gürcüstan hökumətlərinin təcavüzkar xarici siyasəti ilə üzləşdi. Respublikanın silahlı qüvvələri 15,5 min nəfərdən ibarət idi. Bu qüvvə ilə iki dövlətin -Ermənistan və Gürcüstanın təzyiqlərinə davam gətirmək mümkün deyildi. Digər tərəfdən, Ermənistan və Gürcüstanı ingilislər də dəstəkləyirdilər. İngilislər CQQC-nin ərazisini Ermənistan və Gürcüstan arasında bölüşdürmək isteyirdilər. Onlar üzdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini CQQC ilə bağlı status-kvonu saxlayacaqlarına inandırmağa çalışsalar da, əslində, CQQC-nin ləğvi istiqamətində fəaliyyət göstərirdilər. CQQC Müvəqqəti hökumətinin sədri Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə 1919 il 26 yanvar tarixli notasında bildirirdi ki, Gürcüstan Ərdəhan mahalını və Axalsıx qəzasını işğal etməyə cəhd göstərir. Bütün müsəlman əhalisi buna qarşı ayağa qalxmışdır. Ermənilər də Naxçıvan qəzasına hücumlar edirlər. Gürcülərin Axalsıx və Axalkələk qəzalarına hücumları zamanı 45 min davar aparılmışdı. Ermənilər 1919 il aprelin 12-də ingilislərin dəstəyi ilə Qars vilayətinə soxuldular. Azərbaycan Cümhuriyyəti Hökuməti ermənilərin Qarsda törətdiyi soyqırımı ilə bağlı Britaniya komandanlığına etirazını bildirdi. Buna baxmayaraq, CQQC-nə kömək göstərmək ingilislərin planlarına daxil deyildi. Əksinə, məhz ingilislər CQQC hökumətinin 35 üzvünü həbs edərək, zirehli qatarda Gümrüyə, oradan da Batum yolu ilə Malta adasına sürgünə göndərdilər. Bununla da, Cənub-Qərbi Qafqaz Cümhuriyyəti süqut etdi. Aprelin 14-də ingilis generalı Devinin tövsiyəsi ilə 6 türk, 1 rus, 1 yunandan ibarət yeni Milli Şura yaradıldı. Aprelin 19-da S.Korqanov Qarsda qubernator kimi fəaliyyətə başladı. Bunun ardınca, erməni qoşunları Qars vilayətinə soxuldular.Yerli müsəlman-türk əhali dəhşətli soyqırımına məruz qaldı. Aprelin 30-da qondarma Milli Şura ləğv edildi. 1920 ilin payızınadək Cənub Qərbi Qafqaz Cümhuriyyətinin ərazisi ermənilərin və gürcülərin işğalı altında qaldı.

İ.Cahangirzadə başda olmaqla, CQQC-nin Hökumət üzvləri yalnız 1921 il mayın 23-də Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun köməyi sayəsində Malta adasında əsirlikdən azad edilərək vətənə qayıtdılar.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Nəsibzadə N, Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Hacıyev A., Qars və Araz-Türk Respublikasının tarixindən, B., 1994; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.I, B., 2003; Gökdemir A., Cenubi Garbi Kafkas Hükumeti, Ankara, 1989; Kırzıoğlu F., Milli Mücadelede Kars, I kitab, İstanbul, 1960.

**CƏNUB QRUPU** - 1918 il iyulun 16-da Şərq cəbhəsi komandanlığının tərkibində təşkil edilmiş taktiki qrup. Onun bazasını Müsüslü dəstəsinə daxil olmuş Azərbaycan hissə və bölmələri təşkil edirdi. Bundan başqa, 10-cu türk alayının 26-cı taborunun bir bölüyü, 5-ci Qafqaz firqəsinin istehkam bölüyü, 2 ədəd top və bir zirehli qatar, Azərbaycana yenicə gəlmiş 38-ci türk piyada alayının bir taboru da Cənub qrupuna verilmişdi. Qrup Gəncə-Bakı dəmir yolu xətti boyunca Bakıya doğru hərəkət etməli idi. Onun komandiri vəzifəsinə Kürdəmir döyüşünün gedişində polkovnik rütbəsinə layiq görülmüş Həbib bəy *Səlimov* təyin edilmişdi.

1918 il avqustun 13-də Qafqaz İslam Ordusu qüvvələri Bakı ətrafında olarkən H.Səlimov Gəncəyə çağırıldı və onun yerinə *Cəmil Cahid bəy* təyin edildi. 1918 il avqustun sonunda Şərq cəbhəsi komandanlığında yeni taktiki qruplaşma aparıldıqdan sonra Cənub qrupuna komandir qaim-məqam Həlim Pərtov bəy təyin edildi. Bakıya həlledici hücum ərəfəsində 1918 il sentyabrın 11-də Cəmil Cahid bəy yenidən Cənub qrupunun komandiri təyin edildi. Həmin vaxt qrupun tərkibində 4-cü Ağdam piyada alayının 1 -ci və 2-ci taborları, iki süvari bölüyü, ayrıca bir Azərbaycan süvari bölüyü, 2 ədəd Krupp dağ topu və 2 ədəd rus səhra topu var idi. Bakıya həlledici hücum ərəfəsində qrup şəhərin cənub-qərbində (sahil boyunca) mövqe tutmuşdu.

**CƏNUBİ AZƏRBAYCANDA SOYQIRIMI (1917-18)** - erməni və assur (aysor) silahlı birləşmələrinin Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımı. Ermənilər öz məkrli niyyətlərinə çatmaq üçün rusların xristian təəssübkeşliyi ilə Cənubi Azərbaycan ərazisində yerləşdirilən assurlardan (yerli camaat onları cilo adlandırırdı) da istifadə edirdilər. Rusiya və Amerika Birləşmiş Ştatları (ABŞ) kimi iri dövlətlərin himayəsinə arxalanan erməni-assur hərbi birləşmələri öncə Urmiya şəhəri ətrafında hərbi mövqe tutaraq, yerli əhalini soyub-talayır, gündüz barışığa vəd versələr də, gecələr şəhərin ayrı-ayrı məhəllələrini yandırıb, viran qoyurdular. Onlar bu cinayətlərdə toplardan da istifadə edirdilər ki, bu da əhali arasında böyük tələfata səbəb olurdu. ABŞ-ın Urmiyadakı konsulu Şedin hiyləsi ilə tərksilah olunmuş və heç bir yerdən kömək görməyən azərbaycanlılar ailələrini başqa yerə köçürüb, döyüşə atılmaq qərarına gəldilər.Seyid Əhməd Kəsrəvinin yazdığına görə, şəhəri top atəşinə tutan ermənilər əhali arasında vahimədən istifadə edərək, şəhərə daxil olub, dinc əhaliyə divan tutur, evləri yandırır, kütləvi qətl-qarət törədirlər.

1918 il martın 17-də, axır çərşənbə günü erməni daşnakları və assurlar 500-dən çox evi odlayıb, 10 mindən çox azərbaycanlını qırmışlar. Xalq arasında "Urmi bəlvası" kimi yad olunan bu qanlı faciələr indi də xatirələrdən silinməmişdir.

Urmiya, Salmas, Xoy, Maku, Dilməqan şəhərlərində və onların ətrafındakı kəndlərdə Azərbaycan türklərinin soyqırımı davam etdiyi vaxt Osmanlı ordusu soydaşlarımızın yardımına gəldi. 1918 ilin iyununda Xoy şəhərinə çatan türk ordusu oradan Salmasa doğru hərəkət etdi. Bir neçə günlük döyüşlərdən sonra erməni ordusu darmadağın edilib, qaçmağa başladı. Lakin onlar geri çəkilərkən belə, kəndlərə od vurur, insanları qətlə yetirir, məğlubiyyətlərinin acığını dinc əhalidən çıxırdılar.

Həmin vaxt daşnak qaniçəni Andronik Xoy şəhərini ələ keçirmək və erməni-assur qoşunu ilə birləşmək üçün 8 min nəfərlik hərbi qüvvə ilə Culfa yolundan hərəkət etdi. Ermənilər Xoy şəhərini ələ keçirib, əhalini qırdıqdan sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və Azərbaycanın bu hissəsini Ermənistana birləşdirmək niyyətində idilər. 1918 il iyunun 24-də Andronikin ordusu Xoy şəhərini mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Lakin şəhər sakinləri silahlı müdafiə ordusu yaradaraq, düşmənə ciddi müqavimət göstərdi. Şəhərin müdafiəsində qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin bu vaxt Salmas tərəfdən Osmanlı ordusunun yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını hiss edib, gəldikləri yolla da geri döndülər. Ermənilər yeni-yeni məkrli planlar qurur, zəif müdafiə olunan şəhər və kəndlərə basqınlar edib, yeni faciələr törədirdilər. Onlar rusların Urmiya gölündəki hərbi gəmisindən də istifadə etməyi nəzərdə tuturdular. 180 nəfər yaxşı təlim görmüş erməni-assur hərbçisinin əlində olan bu gəmi vasitəsilə Şərəfxana limanına çıxmaq və oradakı gəmiləri ələ keçirmək istəyirdilər. Lakin onlar sahilə çıxarkən Osmanlı və Azərbaycan türkləri ilə döyüşdə məhv edildilər. Beləliklə, onların bu planı da baş tutmadı.

Ermənilər 1917-18 illərdə Cənubi Azərbaycanın qərb bölgələrindəki onlarla şəhər və kəndləri viran qoymuş, talan etmiş, kişi, qadın, uşaq və qocalara fərq qoymadan, ümumiyyətlə, 190 minə yaxın Azərbaycan türkünü qətlə yetirmişlər.

*Əd.:* Məmmədzadə M.B., Ermənilər və İran, B., 1993; Ordubadi M.S., Qanlı illər, B., 1991; RəsuloğluB., Azərbaycan yolunda (məqalələr toplusu). "Urmiyadan Şamaxıya mart qırğınları", B., 2001; Onullahi S., Erməni millətçiləri və İran, B., 2002; yenə onun, Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı soyqrımları, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri. Beynəlxalq elmi sessiyanın (mart-may, 2003) materialları, B., 2003; Xudiyev N., Cənubi Azərbaycanda ermənilərin törətdiyi soyqırımı, "Dirçəliş - XXI əsr" jurnalı, B., 2003, №61.

**CÖYRƏ** oğlu Qara (?, Borçalı mahalının Qızılhacılı kəndi - 1929, Borçalı) - xalq qəhrəmanı. 1918 ildə Borçalıda erməni-daşnak quldur dəstələrinə qarşı mübarizə aparmışdır. Cöyrə oğlu Qara 1918 ildə Borçalıya soxulan Andronikin daşnak quldur dəstələrini geri oturtmuşdu. Ermənilər Dürnik kəndi tərəfdən Qızılhacılıya hücum edərkən, Cöyrə oğlu Qara onların qabağını saxlamış, düşmən itki verərək, qaçmağa məcbur olmuşdu. Qanlı döyüşlərdən biri tarixə "Bolus döyüşü" adı ilə daxil olan və indiki Bolnisi uğrunda gedən döyüş idi. Qaniçən Andronikin 800 nəfərlik quldur dəstəsi Bolnisiyə hücum etdikdə, Xaçınlı kəndinin erməniləri də onlara qoşulmuşdu. Cöyrə oğlu Qara Qızılhacılıdan İsrafil ağanın köməyinə gəlmişdi. Ağ çərkəzi paltarda, ağ atın belində olan Cöyrə oğlu Qaranı görəndə, ermənilərin bir hissəsi silahlarını ataraq qaçmışdı. Yel dağı yaxınlığındakı vuruşmada Cöyrə oğlu Qaranın dəstəsi Axalkələkdə, Sağamoyda, Boqdanovkada azğınlıq edən erməni dəstəsini darmadağın etmişdi. Lakin bu yerlərdə Sovet hakimiyyəti qurulduqdan sonra, 1928 ildə Cöyrə oğlu Qara Şulaveri rayon partiya komitəsində məsul vəzifələr tutan ermənilərin əli ilə həbs olunaraq 1929 ildə qətlə yetirildi. Cöyrə oğlu Qara xalqın yaddaşında Borçalı mahalının Qaçaq Nəbisi kimi qalmış, onun haqqında rəvayətlər, mahnılar qoşulmuşdu. Mahalın igidləri çətinə düşəndə deyərdilər:

***Hardan alaq Cöyrə oğlu Qaranı,***
***Çəkə xəncərini, kəsə aranı.***

Sonralar erməni qisasçılığı öz mənfur işini davam etdirmiş, 1933 ildə Cöyrə oğlu Qaranın ailəsi həbs edilib Şimali Qazaxıstanın Akmolinsk vilayətinə sürgün olunmuşdu.

# Ç

**ÇANDLER** Valter - Nyu-York şəhərindən Amerika Birləşmiş Ştatları (ABŞ) Konqresi nümayendələr palatasının üzvü. Baltik ölkələri, Azərbaycan və Gürcüstanın mənafelərini müdafiə etmək haqqında bu ölkələrin nümayəndələri ilə müqavilələr imzalamışdır. Əlimərdan bəy Topçubaşov bütün nümayəndə heyətinin iştirakı ilə Çandlerlə iki müqavilə imzalamışdı (1919, sentyabr). Birinci müqaviləyə görə, Çandler təbliğat məsələləri ilə bağlı Azərbaycan nümayəndə heyətinə, hüquq məsləhətçisi qəbul edilirdi. O, 3 ay müddətinə Azərbaycan Respublikasının mənafeyini və müstəqilliyini müdafiə etməyi öz üzərinə götürürdü. Müqavilədə Çandlerə ödənilməli məbləğin miqdarı və müddəti göstərilmişdi. Çandler öz müqavilə öhdəliklərinin icrasına 1919 il oktyabrın 4-dən başlamalı idi. Az sonra 2-ci müqavilə imzalandı. Müqavilədə göstərilirdi ki, ABŞ Azərbaycanın tam müstəqilliyini tanımaqdan imtina edərsə, Azərbaycan tərəfindən Çandlerə heç bir kompensasiya ödənilməyəcəkdir. Əlimərdan bəy Topçubaşovun və Çandlerin imzaladığı müqavilə Azərbaycan Parlamentində təsdiq edildikdən və Azərbaycan Hökuməti tərəfindən möhürləndikdən sonra hüquqi cəhətdən qüvvəyə minirdi. Çandler Gürcüstanla da təxminən eyni məzmunda müqavilə imzalamışdı.

Əlimərdan bəy Topçubaşov 1919 il sentyabrın 26-da Çandler vasitəsilə prezident V.Vilsona məktub və Azərbaycanın iqtisadi, maliyyə vəziyyətinə dair material və xəritələr göndərmişdi. Çandler 1919 il oktyabrın 18-də Amerikadan Əlimərdan bəy Topçubaşova birinci məktubunu göndərmişdi. Məktubda o, Amerikada ermənilərin Azərbaycan əleyhinə geniş təbliğat aparmasından bəhs edir, noyabrın 1-də yazdığı növbəti məktubda isə ABŞ-da ermənilərə münasibətdə xristian həmrəyliyinin xeyli qüvvətləndiyini qeyd edirdi. Çandlerin 1919 il 10 noyabr tarixli məktubu daha konkret məzmuna malik idi. Çandler yeni respublikaların müstəqilliyinin tanınması ilə bağlı ABŞ Dövlət Departamentinə sorğu ilə müraciət etmiş və aldığı cavabda Departamentdə yeni yaranmış respublikaların xeyrinə rəyin dəyişməkdə olduğunu bildirmişdi. Çandler qeyd edirdi ki, kiçik xalqlar öz müstəqilliklərinin tanınmasını bir neçə ay, yəni çar generallarının tam məğlubiyyətinədək gözləməli olacaqlar. Çandler Azərbaycanın istiqlaliyyətini tanıtmaq üçün bütün vasitələrdən istifadə edəcəyini bildirirdi. Əlimərdan bəy Topçubaşov müntəzəm olaraq Çandlerə Paris sülh konfransında Qafqazla, o cümlədən Azərbaycanla bağlı cərəyan edən hadisələr barədə geniş məlumat verirdi.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**ÇERMOYEV** Əbdülməcid (Tapa) Orutseviç (15.3.1882, Qroznı - 1936) - dağlı azadlıq hərəkatı liderlərindən biri, çeçen siyasi və dövlət xadimi, neft sənayeçisi. Vladiqafqaz realnı məktəbini və Nikolay süvari məktəbini bitirmiş (1901), II Nikolayın şəxsi mühafizə dəstəsində xidmət etmişdir (1901-06). 1908 ildə Qroznı şəhərinə köçmüşdür. 1913 ildə "Aldanneft" şirkətini təsis etmiş və Çeçenistanın ən varlı neft sahibkarı olmuşdur. 1912 ildə 4-cü Dövlət dumasına seçilmiş və burada Şimali Qafqaz dağlılarının mənafelərinin müdafiəçisi kimi məşhurlaşmışdır. Çermoyev xeyriyyəçi kimi də tanınırdı. "Nəşri-maarif" cəmiyyətinin təşkil etdiyi "Müsəlman gecələri" tədbirlərində iştirak etmişdir. Birinci dünya müharibəsi (1914-18) dövründə Qafqaz yerli süvari diviziyasının zabiti olmuş, "Vəhşi diviziya"nın tərkibində döyüşən çeçen süvari alayını təşkil etmişdir. Fevral inqilabından (1917) sonra Şimali Qafqaz dağlı azadlıq hərəkatının liberal-demokrat qolunun liderinə çevrilmişdir. Şimali Qafqaz dağlılarının siyasi həmrəyliyi və istiqlaliyyətinin qızğın tərəfdarı olmuşdur. Balkar azadlıq hərəkatının rəhbəri Bəsyət Şaxanovla birlikdə Şimali Qafqaz Dağlı Xalqları İttifaqının yaradılmasının əsas təşəbbüsçülərindəndir. Çermoyev Şimali Qafqaz Dağlıları Mərkəzi İcraiyyə Komitəsinin üzvü idi. Şimali Qafqaz və Dağıstanın dağlı xalqlarının 1-ci qurultayında (1917, may) Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsinin sədri seçilmiş, dağlı xalqlarının 2-ci qurultayının (1917, sentyabr) sədri olmuşdur.

Rusiyada Oktyabr çevrilişindən (1917) sonra dağlıların kazaklarla birlikdə Terek-Dağıstan hökumətinin yaradılmasına etiraz olaraq, Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsinin sədrliyindən istefa vermişdir. 1918 ildə Vladiqafqazın və Terek vilayətinin Sovet hökumətinin nəzarətinə keçməsindən sonra Temirxan-Şuraya gəlmiş və burada Şimali Qafqazın Cənubi Qafqaz İttifaqına qoşulması istiqamətində siyasi fəaliyyət göstərmişdir.

Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Mərkəzi Komitəsi istiqlaliyyətini elan etdikdən sonra Çermoyev yeni dağlı hökumətinin tanınması üçün xarici ölkələrə müraciət etmişdi. 1918 ilin martında Tiflisdə Zaqafqaziya seyminin Müsəlman fraksiyası ilə Şimali Qafqaz dağlılarının nümayəndə heyəti birgə iclas keçirmişdi. Əldə olunmuş razılığa əsasən, ikitərəfli münasibətlərin tənzimlənməsi üçün Azərbaycan və Şimali Qafqaz nümayəndələrinin xüsusi komissiyası yaradılmışdı. Komissiyaya Azərbaycan tərəfindən Fətəli xan *Xoyski,* Nəsib bəy *Yusifbəyli,* Aslan bəy *Səfikürdski,* dağlılar tərəfindən Heydər *Bammat,* Çermoyev və M.-Q.Dibirov daxil olmuşdular. 1918 il mayın 11-də Qafqaz dağlı xalqlarının İstiqlal bəyannaməsini Çermoyev və H.Bammat imzalamış, *Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının* yarandığını bəyan etmişdilər. Mayın 24-də Gəncədə Çermoyevin sədrliyi ilə Şimali Qafqaz Respublikasının yeni hökuməti təşkil olunmuşdu. Hökumətin sədri Çermoyev Şimali Qafqazın bolşeviklərdən azad edilməsi üçün birgə hərbi tədbirlərə hazırlaşmağa başladı. Çermoyevin təkidli xahişlərindən sonra Osmanlı hərbi dəstəsi Dağıstana göndərildi. Oktyabrın 9-da Dərbənd azad edildi. Oktyabrın 13-də Dərbənddə Çermoyev tərəfindən hökumətin vətəndə fəaliyyətə başlaması haqqında rəsmi məlumat elan olundu. 1918 il oktyabrın 17-də Çermoyev Biçeraxova ultimatum göndərib, oktyabrın 20-dək bütün Dağıstan ərazilərini boşaltmağı tələb etdi. Rədd cavabı aldıqdan sonra osmanlı və dağıstanlılardan ibarət milli diviziyalar Petrovsk-Port uğrunda döyüşə başladılar. Oktyabrın 23-də Temirxan-Şura, noyabrın 7-də isə Petrovsk-Port azad edildi. Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının 11 may tarixli istiqlalı bir daha təsdiq olundu (bax *Qafqaz İslam Ordusunun Dağıstan hərəkatı).*

Osmanlı ordusu tərəfindən Dağıstanın biçeraxovçulardan və bolşeviklərdən təmizlənməsindən sonra Çermoyev rəhbərlik etdiyi hökumətlə birgə Temirxan-Şuraya gəlmiş və dövlət quruculuğu işlərinə başlamışdı.Çermoyev və Yusif İzzət paşanın ingilis nümayəndələri ilə görüşündə Dağlılar hökuməti hərbi əməliyyatları dayandırmağa razılıq vermişdi. Çermoyev Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışında iştirak etmişdir. Onun yardım üçün dəfələrlə Azərbaycana müraciətləri təmin edilmişdir.

1918 il dekabrın 10-da Bakıda Şimali Qafqaz hökuməti ilə kazaklar və rusdilli əhalinin müxtəlif qruplarının təmsilçiləri arasında müqavilə imzalandı. Razılaşmaya əsasən yeni koalisiya hökumətinin təşkili nəzərdə tutulduğundan 1918 il dekabrın 15-də Çermoyevin nazirlər kabinəsi istefa verdi. Çermoyev Avropa ölkələri ilə danışıqlara göndərilən yeni nümayəndə heyətinin sədri təyin olundu.

Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələrinin Antanta dövlətlərinin A.Kolçak hökumətini tanımasına etiraz bəyannaməsini Şimali Qafqaz nümayəndələri adından Çermoyev imzalamışdı.

1919 ilin mayında Dağıstanın denikinçilər tərəfindən işğalından sonra yaranmış vəziyyətlə əlaqədar Versalda Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri arasında siyasi və iqtisadi ittifaq bağlamaq haqqında danışıqlar başlandı. Mayın 30-da Versalda Çermoyevin mənzilində Azərbaycan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclası keçirilmiş, *Qafqaz Konfederasiyası* yaratmaq məsələsi müzakirə olunmuşdur. Qafqazda Sovet hakimiyyəti qurulduqdan sonra Türkiyəyə mühacirət etmişdir.

*Əd:.* Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**ÇƏMƏNZƏMİNLİ** Yusif Vəzir, Vəzirov Yusif Mirbaba oğlu (12.9.1887, Şuşa - 3.1.1943, Rusiya, Qorki vilayəti, Suxobezvodnoye k.) - yazıçı, ədəbiyyatşünas, tarixçı-etnoqraf, ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə səfiri. İbtidai təhsilini Şuşada, orta təhsilini isə Şuşa və Bakı realnı (edadiyyə) məktəblərində (1897-1909) almışdır. Kiyev Universitetinin hüquq fakültəsini bitirmiş (1915), Saratov, Rovno, Buqaç şəhərlərinin məhkəmə orqanlarında çalışmışdır.



Hələ məktəb illərindən dövri mətbuatda publisistik yazılar, hekayə və felyetonlar dərc etdirən Yusif Vəzir tələbəlik dövründə coşğun ədəbi yaradıcılıqla və ictimai fəaliyyətlə məşğul olmuş, bir-birinin ardınca "İki hekayə" (1911), "Məlik Məmməd" (1911)"Yeddi hekayə" (1912), "Üç hekayə" (1912), "Qanlı gözyaşları" (1913), "Həyat səhifələri" (1913), "Cənnətin qəbzi"(1913) hekayə kitablarını çap etdirmişdir. Kiyevdə türk tələbələrinin həmyerlilər cəmiyyətinin ən fəal üzvlərindən olan Yusif Vəzir tələbələr qarşısında müxtəlif mövzularda məruzələrlə çıxış edir, ana dilini bilməyən türk tələbələri üçün kurslar təşkil edirdi. "Açıq söz" qəzetində "Bizim studentlər", "Bizə ciddi mətbuat çoxdan lazım idi", "Hürriyyət", "İki aləm", "Zəruri məsələlər" kimi aktual mövzulu məqalələr dərc etdirirdi (1916-17). Kiyevdə "Müsavat partiyasının şöbəsini yaradan və ona sədrlik edən Çəmənzəminli burada yaşayan azərbaycanlıların siyasi təşkilatlanma işini canlandırır, bu münasibətlə çağırılmış iclaslar ana dilində keçirilir, sənədlər də milli dildə tərtib olunurdu. Ana dilinin öyrənilməsi, iclaslarda doğma dildə danışılması,milli məsələlərə və federasiya fikrinə dair əsərlərin toplanması, Azərbaycan türklərinin sayının, məskunlaşdıqları yerlərdə qeyri millətlərə nisbətdə müəyyənləşdirilməsi qərara alınmışdı. Çəmənzəminlinin Kiyevdə yazıb tamamladığı "Azərbaycan muxtariyyəti" kitabı Bakıda çapdan çıxanda (1917) Azərbaycanda Xalq Cümhuriyyəti hələ yaradılmamışdı. Beləliklə, müstəqil, muxtar Azərbaycan ideyasını ilk irəli



Yusif Vəzir Çəmənzəminli İstanbulda (ortada). 1919

sürənlərdən və onun uğrunda mübarizə aparanlardan biri də Çəmənzəminli olmuşdur. Kiyevdə yaradılan "Müsavat" şöbəsi və "Milli komitə" (1917) də bu sahədə atılan mühüm addımlardan idi. "Azərbaycan muxtariyyəti" əsərini yazmaq üçün müəllif tələbəlik illərindən tədqiqat aparmış və kitabında hələ o vaxtlardan ardıcıl surətdə izlədiyi qayəni əks etdirmişdir. Əsər "Ayılın, toplaşın" müraciəti ilə başlanır. Sonra isə ədib "Muxtariyyət nədir?", "Məhəlli muxtariyyət", "Muxtariyyət bizə nə verəcək?", "Muxtariyyətə layiqik", "Muxtariyyəti nə cür ala bilərik?", "Muxtariyyətimizin əsl əsası" başlıqları altında istiqlal arzularını və düşüncələrini şərh etmişdir. "Milli komitə" isə Azərbaycan Xalq Cümruriyyətinin Ukraynada ilk nümayəndəliyi rolunu oynamışdır. Çəmənzəminli Azərbaycanla yanaşı, Rusiyada yaşayan digər türk və ümumiyyətlə, müxtəlif müsəlman xalqları üçün "məhəlli və milli muxtariyyət" tərəfdarı idi. Bu məqsədlə "Milli komitə" tərəfindən Krıma göndərilən ədib burada ədliyyə müdirliyində əvvəlcə məsləhətçi, sonra isə müdir vəzifəsində çalışmışdır. Onun müdiri olduğu vəkillər heyəti krımlılara hüquq və məhkəmə işlərinə dair pulsuz məsləhətlər verir, Krımda denikinçilərə qarşı mübarizənin və milli hərəkatın güclənməsi sahəsində gərgin iş aparırdı. Çəmənzəminli burada ikən Azərbaycan Xalq Cümhuriyyətinin Ukraynada səfiri təyin edilir (1919, yanvar). Lakin bolşeviklər Kiyevi ələ keçirdiyindən, oraya gedə bilməyən və İstanbuldan keçərək Bakıya qayıdan (1919, yay) Çəmənzəminli milli dövlət quruculuğu və mədəni quruculuq işinə yaxından qoşulmuşdur. Ədibin "Milli və mədəni işlərimiz" adlı silsilə məqalələrində milli-mədəni quruculuğun vacib problemlərinə toxunulur. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət məsələlərinin qələmə alındığı "Xarici siyasətimiz" adlı silsilə məqalələrində isə dövlətçiliyin təşkili və möhkəmləndirilməsində mühüm rol oynayan amillərdən, dövlət quruculuğunda beynəlxalq əlaqələrin rolundan, xarici ölkələrlə, o cümlədən yaxın qonşularla münasibətləri yaxşılaşdırmağın zəruriliyindən, dövlət və xalq barədə geniş miqyasda ictimai fikir yaradılmasının vacibliyindən, gənc dövlətin qarşılaşa biləcəyi təhlükələrdən bəhs olunur. Bütün bu məsələlər ədibin Bakıda hökumət mətbəəsində çap etdirdiyi "Biz kimik və istədiyimiz nədir?"

Yusif Vəzir Çəmənzəminli ailəsi ilə birlikdə



(1918) adlı kitabında da əks olunmuşdu. Müstəqillik üçün əsas saydığı üç amildən - millət, hökumət və hakimiyyətdən, xarici əlaqələrin vacibliyindən, iqtisadi münasibətlərdən və mülkiyyət formalarından, hüquq və maarif məsələlərindən ardıcıllıqla söhbət açan müəllif xüsusi vurğulayırdı ki, "qanunlarımızın ən baş əsasları hürriyyət, müsavat və ədalətdir". Çəmənzəminli müstəqil milli dövlətin yaradılması üçün üç amili əsas götürürdü: millət, milli torpaq (yəni, ölkə) və bu torpaq üzərində milli hakimiyyət. Dövlətə və dövlətçiliyə bu baxış və tərif marksistlərin dövlətə sinfilik prinsipləri əsasında verdiyi tərifdən tamamilə fərqlənirdi. Demokratik cümhuriyyət, milli istiqlal məsələləri ilə əlaqədar çap etdirdiyi kitab, məqalə və məruzələri, gördüyü digər işlər (1917-19) Çəmənzəminlini artıq bir "cəmaət xadimi" və dövlət quruculuğu nəzəriyyəçisi kimi tanıtmışdı. Odur ki, vətənə qayıdıb, bir ay Bakıda qaldıqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə ilk səfiri vəzifəsinə təyin edilərək, İstanbula gedir (1919), Cümhuriyyətin 11-ci Qırmızı ordu tərəfindən istilasından sonra da səkkiz ay Azərbaycanın mühacirətdə olan hökumətinin Türkiyə səfiri kimi fəaliyyətini davam etdirir. 1921 ilin əvvəlindən bütün yaradıcılıq gücünü yenə Azərbaycanı öyrənməyə, onun varlığını, mənəvi-mədəni qüdrətini tanıtmağa, diqqəti türkologiyada xüsusi bir "azəroloji şöbə" yaratmaq ehtiyacı və imkanının mövcudluğuna cəlb etməyə çalışır. Beləliklə, İstanbulda "Yusif bəy Vəzirov. Azərbaycan Cümhuriyyətinin sabiq İstanbul elçisi" imzası ilə "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kitabları meydana gəlir (1921). Çəmənzəminli İstanbuldakı fəaliyyətini əks etdirən arxivini (özünün yazdığı kimi, "Azərbaycanın son istiqlal dövrünə dair bir çox övraq, məsələn, iki sənəlik rusca "Azərbaycan" qəzetəsi kolleksiyonunu, "Azərbaycan Cümhuriyyəti Hökumətinin əxbarı"nı, milli iqtisadiyyatımıza dair kitab və məcmuələri, Qafqasiya erməni - müsəlman vuruşmalarını təsvir edən vəsiqələri və s.) mühafizə edilmək üçün İstanbulda Süleymaniyyə nəzdindəki kitabxanaya təhvil verir. Bəzi "müsavatçılarla ixtilafına" görə İstanbuldan Parisə gedir, onun yaxınlığındakı kiçik Klişi şəhərindəki avtomobil zavodunda fəhləlik edir. Asudə vaxtlarında Fransa Milli Kitabxanasında Azərbaycanla əlaqədar materialların tədqiqi ilə məşğul olur, "Paris xəbərləri" adlı axşam qəzetində "Şərqdən məktublar" ümumi başlığı altında məqalələr dərc etdirir. 1926 ildə Berlində olan ədib "Əli və Nino" əsərinin əlyazmasını mühacir ədəbiyyatı nəşri ilə məşğul olan nəşriyyatın Vyanada yaşayan sahibinə verir. Azərbaycan Xalq Cümhuriyyətinin həyatından canlı lövhələri əks etdirən bu əsər Vyanada "Qurban Səid" imzası ilə çap olunur (1937) və 1970 ildən müxtəlif dillərə tərcümə edilərək, Amerika və Avropa ölkələrinə yayılır. 1926 il aprelin 3-də xaricdən vətənə qayıdan Çəmənzəminli 10 il ərzində "Studentlər" (h. 1-2, 1934-35), "Qızlar bulağı" (1934), "Qan içində" ("İki od arasında", 1936-37) tarixi romanlarını, "Keçmiş səhifələr" (1926), "Qazanc yolunda" (1930), "Qaranlıqdan işığa" (1935) və s. hekayə toplularını, "Həzrəti-Şəhriyar" (1935) komediyasını, "Altunsaç" (1937) və "Həqiqətin təntənəsi" (1938) ssenarilərini və digər əsərlərini nəşr etdirir.

Çəmənzəminli həm də geniş diapazona və erudisiyaya malik alim idi. 10-a yaxın Şərq və Avropa dillərini bilən

*Yusif Vəzir Çəmənzəminli, Səməd Vurğun, Cəfər Xəndan və başqa Azərbaycan ziyalıları əsgər və zabitlər arasında*



alimin ədəbiyyata, folklora, tarixə, etnoqrafiyaya dair tədqiqatları, çoxsaylı məqalələri bu gün də elmi dəyərini saxlamaqdadır.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) "xalq düşmənləri"nə qarşı bütün cəbhə boyu hücum elan edən 13-cü qurultayı (1937, iyun) başa çatan kimi Azərbaycan yazıçılarının tələsik keçirilən üçgünlük iclasında repressiya qurbanı olan digər yazıçılarla birlikdə Çəmənzəminli də Yazıçılar İttifaqından xaric edildi. 1937 il iyunun 27-də AK(b)P MK-nın bürosu qadağan olunmuş əksinqilabi, pantürkist, millətçi ədəbiyyatın siyahısını təsdiq edir. 44 yazıçı, şair və alimin əsərləri daxil edilmiş bu siyahıda Çəmənzəminlinin adı səkkizinci yerdə idi. Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizliyi İdarəsində onun həbsi barədə order imzalanmışdı (1938, 9 avqust). Lakin bu zaman Çəmənzəminli Bakıda yox idi. Özbəkistanın Ürgənc şəhərindəki pedaqoji institutunun elan etdiyi müsabiqəyə əsasən, Çəmənzəminli bu ali məktəbdə, əvvəlcə müəllim, sonra isə rus və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri (1938-40, yanvar) işləyirdi. 1940 ilin yanvarında Ürgəncdə həbs edilib Bakıya gətirilən ədib həmin ilin yayında Qorki vilayətinin Suxobezvodnoye kəndinə sürgün edildi.

Əsərləri: Əsərləri, 3 cilddə, B., 1976-77; Xarici siyasətimiz, B., 1993; Müstəqillik istəyiriksə..., B., 1994; Qurban Səid, Əli və Nino, B., 1993.

*Əd.:* Hüseynoğlu T., "Ədəbiyyatla yaşayıram...", B., 1993; yenə onun, Qurban Səid... mübahisələr... həqiqətlər..., "Yeni Azərbaycan" qəzeti, 2003, 27,28, 30 may, 1,3 iyun.

**ÇXEİDZE** Nikolay (Karlo) Semyonoviç (1864, Gürcüstan - 1926, Paris) - Gürcüstanda istiqlal hərəkatının görkəmli xadimi. Rusiyada menşevik liderlərindən biri. 19 əsrin sonundan inqilabi hərəkata qoşulmuşdu. 3-cü və 4-cü Dövlət dumalarının deputatı, 4-cü dumada menşevik fraksiyasının sədri olmuşdur. 1917 il Fevral inqilabından sonra Dövlət duması Müvəqqəti komitəsinin üzvü, Petroqrad fəhlə və əsgər deputatları sovetinin,Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin (1-ci çağırış) sədri idi. Oktyabr çevrilişindən (1917) sonra Gürcüstan Müəssislər məclisinin, Zaqafqaziya seyminin, 1919 ildən Gürcüstan hökumətinin sədri idi. Gürcüstan Respublikasına dəstək almaq məqsədilə Antanta Şurası ilə danışıqlarda iştirak etmişdir (1918-21). Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra xaricə getmiş, Parisdə intihar etmişdir.

**ÇXENKELİ** Akaki İvanoviç (1874, Gürcüstan - 1959, Paris) - Gürcüstanda istiqlal hərəkatının görkəmli xadimi, gürcü menşevik liderlərindən biri. 4-cü Dövlət dumasının üzvü idi. Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin Cənubi Qafqazda komissarı, Xüsusi Zaqafqaziya Komitəsinin, Zaqafqaziya komissarlığının üzvü idi. 1918 ilin aprelində Zaqafqaziya Federativ Respublikası hökumətinin baş naziri və xarici işlər naziri təyin edilmişdi. Trabzonda (1918, mart) və Batumda (1918, may) Türkiyə ilə danışıqlarda Zaqafqaziya nümayəndə heyətinə başçılıq etmişdir. Gürcüstan hökumətinin xarici işlər naziri olmuşdur. 1921 ildən mühacirətdə yaşamışdır.

**ÇİÇERİN** Georgi Vasilyeviç (24.11.1872, Rusiyanın Tambov qub. - 7.7.1936, Moskva) - Rusiya dövlət xadimi, diplomat. Peterburq Universitetini bitirmişdir (1896). 1904 ildə Almaniyaya mühacirət etmiş, 1905 ildə orada Rusiya Sosial Demokrat Fəhlə Partiyasına (RSDFP) daxil olmuşdur. 1918 ilədək Fransa, Almaniya və İngiltərədə yaşamışdır. 1918 ildə RSFSR xalq xarici işlər komissarının müavini təyin edilmiş, sovet nümayəndə heyətinin tərkibində Brest-Litovsk sülh müqaviləsini (1918) imzalamışdır. 1918-22 illərdə RSFSR, 1922-30 illərdə xalq xarici işlər komissarı olmuşdur. 1920-21 illərdə Türkiyə, İran və Əfqanıstanla danışıqlar aparmış, Genuya (1922) və Lozanna (1922-23) konfranslarında sovet nümayəndə heyətinə başçılıq etmişdir.

1919 il sentyabrın 15-də Bakının Osmanlı - Azərbaycan birləşmiş hərbi qüvvələri tərəfindən azad edilməsindən dərhal sonra (sentyabrın 20-də) Çiçerin Türkiyə xarici işlər nazirinə nota verərək, Osmanlı dövlətini Brest-Litovsk müqaviləsini pozmaqda ittiham etmiş, sentyabrın 21-də isə Almaniyanın baş konsuluna nota təqdim etmiş və "Rusiya respublikasının çox əhəmiyyətli şəhərlərindən birinin" - Bakının tutulmasına etirazını bildirmiş, bu akta qarşı müqavimət göstərmədiyi üçün Almaniyanı təqsirləndirmişdir. Çar Rusiyasının işğalçı imperiya siyasətini davam etdirən Sovet Rusiyası da xarici siyasətində Şərqə "önəm" vermiş, xalq xarici işlər komissarlığı nəzdində Yaxın Şərq şöbəsi yaratmışdı (1919). Çiçerin şöbə müdiri Nəriman Nərimanovla birgə İran, Türkiyə, Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və kəndlilərinə ünvanlanmış müraciətlər imzalamışdır. RSFSR-in Azərbaycan Cümhuriyyəti ilə münasibətləri Çiçerinin Azərbaycan xarici işlər nazirliyinə 1920 il 2 yanvar tarixli teleqramı ilə rəsmiləşdi. Bu sənədin və Çiçerinin sonrakı notalarının əsas məqsədi Denikinə qarşı hərbi ittifaq yaratmaqdan ibarət olmuşdur (bax *Çiçerin notaları).* Cümhuriyyət Hökumətinin xarici işlər naziri F.x.Xoyski cavab notalarında hər hansı danışıqlara yalnız Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyinin qeyd-şərtsiz tanınması əsasında başlamağın mümkünlüyünü vurğulasa da, Çiçerin tərəfindən bu mövqe qəbul edilməmişdir. Çiçerin RSFSR-in mürəkkəb beynəlxalq vəziyyətini nəzərə alaraq, Azərbaycana münasibətdə təmkinli davranmaq tərəfdarı olmuşdur: ***"Azərbaycanın müstəqilliyini tanımaq, hələ indiki hökuməti tanımaq deməkdeyildir... Antantanın Azərbaycanın müstəqilliyini tanımasından sonra biz geridə qala bilmərik".*** Çiçerin 1920 ilin martında Bakının fəthini zəruri sayan V.İ.Leninə yazmışdı: ***"Azərbaycana qarşı zorakılıq aktı beynəlxalq münasibətlərdə dostlarımızı bizə qarşı qoyar... Bizi imperialist hesab etmələrinə yol verməməliyik".*** Lakin bütün diplomatik manevrlər "Bakı rayonuna cəld və gözlənilməz hücum" qədər effektli sayılmadığından, əsas diqqət işğal amilinə yönəldildi. 11-ci Qırmızı ordu bu "cəld və gözlənilməz hücumu" həyata keçirdi. *Aprel işğalı (1920)* Azərbaycan Cümhuriyyətinin varlığına son qoydu. Sovet hakimiyyəti illərində Çiçerinin Azərbaycanla, ümumiyyətlə Şərqlə bağlı məsələlərdəki mövqeyini Nəriman Nərimanov ardıcıl surətdə tənqid etmişdir.

Əsəri: Статьи и речи по вопросам международной политики, М., 1961.

*Əd.:* Азербайджанская Республика. Документы и материалы (1918-192 гг.), Б., 1998; Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Зорькин В. Д., Чичерин, М., 1984.

**ÇİÇERİN NOTALARI** - 1920 ilin yanvarından *Aprel işğalınadək (1920)* Rusiya adından xarici işlər komissarı G.V.Çiçerinin Denikine qarşı birgə mübarizə təklifi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə göndərdiyi notalar. Bu notalar Azərbaycana diplomatik təzyiq səciyyəsi daşıyırdı. 1920 il 2 yanvar tarixli ***birinci notada*** çar generalı Denikinin Azərbaycan və gürcü xalqlarının düşməni olduğu vurğulanır, onun qoşunlarına yubanmadan cənubdan zərbə endirmək təklif olunurdu. Nota amiranəlik və üstüörtülü hədə xarakteri daşıyır: ***"Biz, nə qədər ki, gec deyil, Denikinə qarşı mübarizəyə başlamaq çağırışı ilə Azərbaycana və Azərbaycan xalqına müraciət edirik. Azərbaycan dövlətinin düzgün dərk edilmiş maraqları və onun zəhmətkeş siniflərinin sosial-siyasi maraqları Azərbaycanı bizim təklifimizə razılıqla cavab verməyə məcbur etməlidir".***

Çiçerinin birinci notasını Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan Xoyski yanvarın 6-da aldı. Həmin gün Nəsib bəy Yusifbəylinin sədrliyi ilə Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi və qərara alındı ki, cavab notasında Azərbaycan Cümhuriyyətinin azad və müstəqil dövlət kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara başlamağa hazır olduğu bildirilsin. F.x.Xoyski yanvarın 14-də G.Çiçerinə cavab notasında yazırdı: ***"...Azərbaycan Hökuməti öz daxili həyatını qurmaq işində rus xalqının mübarizəsinə müdaxiləni yolverilməz hesab edir. ...danışıqlar yolu ilə rus və Azərbaycan xalqları arasında hər iki dövlətin müstəqilliyi prinsipindən irəli gələn mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".***

Çiçerin 1920 il yanvarın 23-də Fətəli xan Xoyskiyə ***ikinci notasını*** göndərdi. Azərbaycanın müstəqilliyi artıq Antanta dövlətləri tərəfindən tanınmışdı. Buna baxmayaraq, Çiçerinin ikinci notası birinci notaya nisbətən daha amiranə və daha təcavüzkar məzmuna malik idi. İkinci notada Azərbaycan Hökuməti Denikinlə əməkdaşlıqda ittiham olunur, F.x.Xoyskinin birinci notaya cavabı Denikinə qarşı mübarizədən imtina kimi qiymətləndirilir, Denikinin Azərbaycanın müstəqilliyi üçün təhlükə olmasından, milli müqəddəratın həllində sovet hökumətinin prinsiplərindən bəhs edilirdi. Notada Denikinə qarşı birgə mübarizə təklifi yenə təkrarlanır, lakin Azərbaycan Xalq Cümhuriyyətinin tanınması məsələsinin üstündən keçilirdi. Sovet Rusiyasının bu notası Azərbaycana silahlı müdaxilə və Bakını ələ keçirmək üçün açıq-aşkar diplomatik hazırlıq idi. V.İ.Lenin 1920 il 17 mart tarixli teleqramında sovet hökumətinin həmin niyyətini açıqladı: ***"Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin ".***Teleqramın surətində Q.Orconikidze yazmışdı: ***"Teleqram Bakıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı...".*** F.x.Xoyski yeni notaya cavabında Denikinlə əməkdaşlıq barəsində Çiçerinin fikirlərinin əsas-sız olduğunu göstərmiş, rus və Azərbaycan xalqlan arasında mehriban qonşuluq münasibətləri yaradılmasının vacibliyini qeyd etmiş, Azərbaycan-Rusiya danışıqlarının yalnız Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin və suverenliyinin sovet hökuməti tərəfindən qeyd-şərtsiz tanınması əsasında mümkün olacağını vurğulamışdı. Çiçerinin 1920 il 21 fevral tarixli növbəti notasında əvvəlki notalarının məzmunu bir daha xatırladılır, F.x.Xoyskinin cavabları təhlil olunur və sonda yenə də Denikinə qarşı birgə mübarizədə yubanmadan əməli razılığa gəlmək təklif edilirdi. Lakin həmin notada Rusiya diplomatı "Sovet Rusiyası və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərə aid müxtəlif məsələlər üzrə mürəkkəb danışıqları" günün vacib məsələsi sayırdı. F.x.Xoyski 1920 il martın 7-də göndərdiyi cavab notasında Çiçerinin məhz bu fikrini diqqət mərkəzinə çəkərək, onun iradlarını əsassız saymış, Azərbaycan Hökumətinin mövqeyini bir də açıqlamış, xalqların öz müqəddəratını təyinetmə prinsipinin sovet hökuməti üçün qarşı tərəfə təzyiq vasitəsi olduğuna işarə edərək, belə vasitədən imperialist dövlətlərinin tez-tez istifadə etdiyini göstərmişdi. Bununla, F.x.Xoyski Azərbaycan Hökumətinin mövqeyini əvvəlki cavablarından daha qətiyyətlə nümayiş etdirərək, istiqlaliyyətinin qeyd-şərtsiz tanınması şərti ilə sovet hökumətinin Azərbaycan Hökuməti ilə danışıqlara başlamaq niyyətində olub-olmadığı haqqında qəti cavab verməsini xahiş etdi. Sovet Rusiyasının Azərbaycana hərbi müdaxiləsi yaxınlaşırdı. Bunu görən F.x.Xoyski aprelin 15-də Çiçerinə sonuncu notasını göndərdi və sovet qoşunlarının Azərbaycan sərhədləri yaxınlığında cəmlənməsinin səbəb və məqsədləri haqqında təcili məlumat verməyi xahiş etdi. Lakin nota cavabsız qaldı. 11-ci Qırmızı ordu Azərbaycana müdaxilə ərəfəsində idi. Bununla belə, sovet hökuməti formal xarakter daşıyan diplomatik manevrdən də imtina etmədi. F.x.Xoyskinin teleqramından iki gün sonra RSFSR xalq xarici işlər komissarının müavini L.Qaraxandan Sovet Rusiyasının ticarət-iqtisadi münasibətlərə dair danışıqlara hazır olması barədə teleqram alındı. Bolşevik Rusiyasının bu addımı diqqəti bir neçə gün sonra müstəqil Azərbaycan dövlətinə qarşı həyata keçiriləcək hərbi müdaxilə planından yayındırmaq məqsədilə atılmışdı. Aprelin 27-də Azərbaycan 11-ci Qırmızı ordu tərəfindən işğal olundu.

*Əd.:* Азербайджанская Республика. Документы и материалы (1918-192 гг.), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N, Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**ÇİNGİZ İLDIRIM** - bax *İldırım* Çingiz.

**ÇÖRÇİLL** Uinston Leonard Spenser (30.11.1874, Oksfordşir - 24.1.1965, London) - B.Britaniya dövlət, siyasi və hərbi xadimi. 1900 ildə parlamentin deputatı seçilmişdir. 1911-22 illərdə müxtəlif nazir vəzifələrində işləmişdir. 1917-18 illərdə hərbi təchizat naziri, 1919-21 illərdə hərbi nazir və aviasiya naziri olmuşdur. 1920 il yanvarın 15-də Parisə dəvət olunmuş, yanvarın 17-də Antanta Ali Şurasının iclasında müstəqilliyi de-fakto tanınmış Qafqaz respublikalarına maddi yardım göstərilməsi məsələsinin müzakirəsində iştirak etmişdir. İclasda Əlimərdan bəy Topçubaşov Qafqaz respublikalarının üzləşdiyi bolşevik təhlükəsindən danışmışdır. Çörçillin iştirak etdiyi 19 yanvar iclasında Cənubi Qafqaz respublikalarına xarici təcavüz təhlükəsinə qarşı Ali Şuranın maddi yardım göstərəcəyinə müvafiq qərarla təminat verilmişdi. Çörçill bolşevik basqınını dəf etmək üçün Qafqaza qoşun göndərmək tərəfdarı olmuşdur. Sovet hakimiyyətinin barışmaz əleyhdarı və antisovet hərbi müdaxilənin başlıca tərəfdarı olan Çörçill 1920 ildə mövcud vəziyyəti nəzərə alaraq, hərbi əməliyyatların dayandırılmasının vacibliyini bəyan etmişdir. 1924-29 illərdə maliyyə naziri idi. 1940-45 illərdə baş nazir olmuş, 1941 ilin iyununda faşist Almaniyasına qarşı birgə hərbi əməliyyatlar barədə Sovet Sosialist Respublikaları İttifaqı ilə saziş, 1942 ilin mayında isə müttəfiqlik haqqında müqavilə imzalamışdır. 1951-55 illərdə yenidən baş nazir olmuş, sonra istefaya çıxmışdır.

Bununla belə, Çörçill ömrünün sonuna qədər parlamentin deputatı olmuş, Böyük Britaniyanın dövlət siyasətinə böyük təsir göstərmişdir. Publisistik və memuar janrında bir sıra qiymətli kitabların müəllifidir. 1953 ildə Nobel mükafatına layiq görülmüşdür.

# D



**DADAŞOV** Ağa Abdulla Ələsgər oğlu (1.4.1902, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1-ci Bakı realnı məktəbini bitirmişdi (1918).Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün İngiltərəyə göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdı.

**DADAŞOV** Yusif ağa Hacı ağa oğlu (18.3.1870, Bakı -26.3.1918, Bakı) - Azərbaycan milyonçusu, xeyriyyəçi. Əsilzadə ailəsində doğulmuşdur. Stokholm Universitetini (İsveç) əla qiymətlərlə bitirmiş, rus, fransız və digər Avropa dillərini mükəmməl öyrənmişdi. Çar Rusiyasında həqiqi mülki müşavir rütbəsində olmuşdur. Ölkə xaricindəki fəaliyyətinə və xeyriyyə işlərinə görə Rusiyanın "Müqəddəs Anna", "Müqəddəs Stanislav", 2 dəfə İranın "Şiri-Xurşid", Buxara əmirliyinin "Buxarayi-şərif" ordenləri və bir çox medallarla təltif edilmiş, Dadaşov Rusiyanın "fəxri vətəndaşı" titulunu almışdır. Onun gəmiçilik ticarətindən əldə etdiyi gəlirin əksəriyyəti xalqın maariflənməsinə (Qori Müəllimlər Seminariyası və "Qız məktəbi"nə) sərf edilirdi. Bakı-Batum neft kəmərinin çəkilməsinə, Bakı duması binasının inşasına xeyli vəsait sərf edən Dadaşov Maksim Qorkinin, D.İ.Mendeleyevin, neft geologiyası mütəxəssisi İ.M.Qubkinin Bakıya səfərlərini maliyyələşdirmişdi. Azərbaycanın maddi mədəniyyət abidələrinin qorunub saxlanmasında yaxından iştirak edən Dadaşov Bibiheybət məscidini bərpa etdirmiş, həmçinin Buxara əmirinin Moskvada tikdirdiyi məscidə qırxçıraqlı qəndil və qiymətli xalılar bağışlamışdı.

Azərbaycanda milli hökumətin yaradılmasına, "Müsavat" partiyasının geniş fəaliyyət göstərməsinə maddi yardım edən Dadaşov 1918 ildə Bakıda mart soyqırımı zamanı dəstəsi ilə birgə ermənilərə qarşı silahlı mübarizə aparmışdır. Silah ardınca Rusiyaya göndərdiyi gəmiləri qarşılamağa gedən Dadaşov silahları arabalara yüklətdirib geri qayıdarkən, daşnak S.Lalayanın quldur dəstəsi ilə qarşılaşmışdır. S.Lalayan ona qılıncının altından keçməyi əmr edərkən, Dadaşov ***"Mən türkəm. Türk ölər, ancaq erməni dığasının qılıncının altından keçməz"*** cavabını vermişdir. Hiddətlənən daşnaklar onu işgəncə ilə öldürmüşlər. İşgəncələrə mətanətlə tab gətirən Dadaşov erməniləri burada yubadaraq, silahların daşnaklara yox, əliyalın döyüşən azərbaycanlılara çatmasına nail olmuşdur. Ölümündən sonra ermənilər onun üzəri brilyant, zümrüd və yaqutla bəzədilmiş, yaxasından orden və medallar asılmış mundirini ələ keçirmişlər. Qəbri indiyədək aşkar edilməmişdir.

**DAĞISTAN HÖKUMƏTİ** - 1919 ilin yazında Dağıstan vilayətində yaradılmış hökumət. Dağıstan vilayəti Rusiya imperiyasının Şimali Qafqazı işğalı zamanı Qafqaz canişininin 1860 il aprelin 5-də təsdiq etdiyi "Dağıstan vilayətinin idarə edilməsi haqqında əsasnamə"yə uyğun olaraq yaradılmışdı (bax *Dağıstan vilayəti).* Vilayətin əhalisi 1917 ilin sonunda, Sovet Rusiyasının bolşevik hakimiyyətini qəbul etməyərək, Şimali Qafqazın digər xalqları, ilk növbədə Terek vilayətinin əhalisi ilə birlikdə müstəqil dövlət yaratmaq uğrunda mübarizəyə qalxdı. 1918 il mayın 11-də Dağıstan və Terek vilayətlərinin əhalisini təmsil edən ictimai xadimlər Şimali Qafqaz Dağlılar Xalqları İttifaqı Respublikası (Dağlılar Respublikası) yaradılmasını elan etdilər. Elə o zamandan bu respublikanın Azərbaycanla sıx ittifaq yaratması, hətta bir dövlətdə birləşməsi təklifləri irəli sürülməyə başlandı.

1919 il aprelin əvvəlində Denikinin Könüllü ordusu Terek vilayətini işğal etdikdən sonra, Dağıstanda artıq süqut etməkdə olan Dağlılar Respublikasından ayrılıb Azərbaycana birləşmək ideyası sürətlə yayılmağa başladı. Dağıstanın ictimai xadimləri Azərbaycan Xalq Cümhuriyyətinin Dağlılar Respublikasındakı diplomatik nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyevə müraciətlər edərək, bu haqda Azərbaycan Hökumətinin prinsipial razılıq verməsini xahiş etdilər. Haqverdiyevin aprelin 15-də xarici işlər naziri Məmməd Yusif Cəfərova göndərdiyi məlumatda bildirilirdi ki, Dağıstanın 10 dairəsindən 4-ü açıq şəkildə Azərbaycana birləşmək tərəfdarıdır, qalanları isə bunu gizlində arzu edirlər. Dağıstanlı zabitlər, o cümlədən Dağlılar hökumətində hərbi nazirin müavini olmuş general M.Xəlilov da bu mövqedən çıxış edirdilər.

Denikin ordusunun cənuba doğru irəliləməsi ilə əlaq-dar Dağıstanda Azərbaycana birləşmək tərəfdarları da sürətlə artırdı. Kürə, Qaytaq, Tabasaran, Avar və Dərbənd bölgələrini təmsil edən nümayəndələr tarixən, həm də iqtisadi cəhətdən

Azərbaycanla sıx bağlı olduqlarını bildirir və siyasi ittifaq yaradılmasını zəruri sayırdılar. Aprelin 29-da Temirxan-Şurada Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsi Dağlılar parlamenti üzvlərinin, zabitlərin, ruhanilərin və ziyalıların birgə iclasında müzakirə edildi. Zabitlər Denikinə qarşı mübarizənin davam etdirilməsini və hərbi əməliyyatlar başa çatdıqdan sonra Dağıstanla Azərbaycanın federasiya və ya konfederasiya formasında birləşməsini təklif etdilər. Dağıstan deputatlarının lideri Məhəmməd Qazi Dibirov, nüfuzlu din xadimi *Şeyx Uzun Hacı* da bu təklifə tərəfdar çıxdılar.

1919 il mayın 5-də Bakıdakı müttəfiq qoşunlarının komandanı general Tomson da Fətəli xan Xoyski ilə görü-şündə Dağıstanın iqtisadi, topoqrafik və digər cəhətlərdən Azərbaycanla bağlı olduğuna görə, onun Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsini labüd saymışdı.

Dağıstanın öz taleyini Azərbaycanla bağlamaq üçün addımlar atması, müttəfiqlərin bu məsələyə müsbət yanaş-ması Denikinin bölgədə fəallaşmasına, təxribatçılıq fəaliyyətini gücləndirməsinə səbəb oldu. Əhalinin rəğbətini qazanmaq üçün Dağıstana yerli özünüidarəçilik verilməsi vəd edildi, Denikin ordusunun bölgədə başlıca vəzifəsinin bolşeviklərlə mübarizə olduğu bildirildi. Yüksək rütbəli dağlı zabitlərinin Şimali Qafqazın müsəlman bölgələrinin idarəsinə cəlb edilməsi isə zabit heyətinin mövqeyində dəyişiklik yaratdı.

Belə bir şəraitdə mayın 12-də Pşemaxo Kotsevin başçılıq etdiyi Dağlılar hökuməti istefa verdi. Parlament zabit-lərin təzyiqi ilə yeni hökumətin təşkilini general M.Xəlilova tapşırdı. General Xəlilov Denikinin nümayəndəsi ilə danışıqlara girdi, Dağlılar Respublikası hökumətini buraxdı və ayrıca Dağıstan hökuməti yaradıldığını elan etdi. Mayın sonunda Denikin Dağıstanı müqavimətsiz ələ keçirdi.

Əbdürrəhim bəy Haqverdiyevin iyunun 7-də Dağıstanda baş verən son hadisələr haqqında Azərbaycan Höku-mətinə məlumatında Denikinin bölgədə cəmi min nəfərdən bir qədər çox hərbi qüvvəsi olduğu bildirilir və əhalinin arzusunu nəzərə alıb, Petrovsk-Porta (indiki Mahaçqala) qədərki ərazini Azərbaycana birləşdirmək üçün hərəkətə başlamaq təklif edilirdi. Britaniya hökumətinin iyunun 11-də bəyan etdiyi demarkasiya xəttinə görə də, Denikin ordusu Petrovskdan 5 mil cənubda dayanmalı, Dağıstanın cənubuna keçməməli idi.

Azərbaycan Hökuməti Dərbəndi və demarkasiya xəttinə qədərki Dağıstan ərazisini denikinçilərdən təmizləmək üçün dərhal diplomatik və hərbi hazırlığa başladı. Lakin Denikin ordusu Cənubi Dağıstanı tərk etməkdən qəti boyun qaçırdığından avqustun 4-də Britaniya hökuməti demarkasiya xəttini Dağıstanın cənub sərhədinə çəkərək, bölgəni bütünlüklə Denikin ordusunun təsir dairəsinə aid etdi. Azərbaycan Hökuməti yaranmış mürəkkəb vəziyyəti nəzərə alaraq, Dağıstanın birləşdirilməsi ilə bağlı hazırlığı dayandırmalı oldu.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы), Б., 1998; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi. B., 2000.

**DAĞISTAN VİLAYƏTİ** - Rusiya imperiyasında inzibati vahid. Dağıstan torpaqları 1813 il *Gülüstan müqaviləsi* ilə Rusiyaya ilhaq edilmişdi. Çar hökuməti burada Dağıstan hərbi dairəsi (mərkəzi *Dərbənd* olmaqla) yaratmışdı. Dağıstan dairəsi Bakı, Quba və Dərbənd əyalətlərindən ibarət idi. 1840 il inzibati-məhkəmə islahatı nəticəsində Dərbənd qəzası (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba qəzası (Samur dairəsilə birgə Quba əyaləti) xüsusi hərbi dairədə birləşdirildi. Dağıstan və Şimali Qafqazda 1834-59 illər xalq azadlıq hərəkatı yatırıldıqdan sonra Dağıstan vilayətinin idarə edilməsi haqqında 1860 il 5 aprel "Əsasnamə"si elan olundu. Əsasnaməyə görə, Dərbənd quberniyası ləğv edildi. Quba qəzası Bakı quberniyasının tərkibinə qatıldı, Car-Balakən hərbi dairəsi Zaqatala hərbi dairəsinə çevrildi. Qafqaz təqviminin (1917) məlumatına görə, Dərbənd vilayətinin ərazisi 26105,45 *kv.verst*, əhalisi 713342 nəfər idi. Vilayətdə Dərbənd, Petrovsk və Temirxan-Şura şəhərləri var idi. Dərbənd vilayəti Avar, Əndi, Qunib, Dargi, Qazıqumıq, Qaytaq, Tabasaran, Kürə, Samur, Temirxan-Şura dairələrindən ibarət idi.

Dairələrin əhalisi 643369 nəfər idi. Vilayətin etnokonfessional tərkibinə dair məlumatlar açıq-aşkar təhrif olun-muşdur. Əhali Qafqaz dairələri ilə birlikdə, müxtəlif Asiya xalqları adı altında müsəlman şiə (hər iki cinsdən 15615 nəfər) və sünnilərə (91977 nəfər) ayrılmışdır (cəmi 107592 nəfər). Onların, əsasən azərbaycanlılardan ibarət olduğunu qeyd etmək mümkündür. Dərbənd vilayəti Qafqaz hərbi dairəsinə daxil idi. Əhali əsasən, əkinçilik, maldarlıq, üzümçülük və s. təsərrüfat sahələri ilə məşğul olurdu. Sənaye istehsalı sahəsində kustar peşələr üstünlük təşkil edirdi.

Fevral inqilabından (1917) sonra Dərbənd vilayəti şəhərlərində və bir sıra dairələrdə fəhlə, əsgər və kəndli deputatları sovetləri yaranmağa başladı. Sovetlərdə menşevik və eserlər üstünlük təşkil edirdi. Martın 9 (22)-da Dərbənd vilayəti Müvəqqəti hökumətin orqanı olan Müvəqqəti Vilayət İcraiyyə Komitəsi yaradıldı. 6 (19) apreldə yerli hakimiyyət orqanı olan xüsusi komissarlıq (vilayət komissarı İ.Heydərov idi) fəaliyyətə başladı. O, *Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM)* tabe idi. Müstəqillik tərəfdarı olan qüvvələr Dərbənd vilayətini Rusiyadan ayırmağa çalışırdılar. Apreldə "Cəmiyyətül islamiyyə" (sədri D.Araşev), sentyabrda isə Dağıstan milli komitəsi təşkil olunmuşdu. 1917 ilin mayında isə Terek vilayəti ilə birlikdə Şimali Qafqaz Dağlı Xalqları İttifaqı yaradılmışdı.




Dərbənd vilayət şəhərlərində Rusıya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi və Bakı bolşevik komitəsi, Dərbənddəki "Hümmət" qrupu ilə əlaqədə fəaliyyət göstərən bolşevik komitəsi də meydana gəlmişdi. Mayda Dağıstan sosialist qrupu yaradıldı. 1917 il Oktyabr çevrilişindən sonra Petrovsk-Port Soveti hakimiyyətin sovetlərə keçməsi haqqında qətnamə qəbul etdi. Noyabrda Dərbənd vilayətinin qalan hissəsində Dağlı Respublikası, 1 (14) dekabrda Terek-Dağıstan hökuməti yaradıldı. 1918 ilin martında Petrovsk-Portu da tutuldu. Lakin *Bakı kommunası* Dağıstanda da sovet hakimiyyətinin qurulmasına xüsusi əhəmiyyət verir, dağlı xalqlarının milli azadlıq mübarizəsinin boğulmasına çalışırdı. Bu məqsədlə Dağıstana 3 min nəfərlik dəstə göndərilmişdi. Onlar yerli qırmızı qvardiyaçılarla birgə Petrovsk-Portu və Dərbəndi tutmuşdular. Dərbənddə Qazıməmməd *Ağasıyev* başda olmaqla, Hərbi inqilab komitəsi yaradılmışdı.

Gürcüstana köçmüş Dağlı Respublikası hökuməti 1918 ilin mayında yenidən təşkil olunmuş, hakimiyyətini bərpa etmək üçün tədbirlər görmüşdü. Yayda Dağıstanda sovet hakimiyyətinə son qoyulmuş, noyabrda Dağlı Respublikası hökuməti Temirxan-Şuraya köçmüşdü. Dağlı Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında siyasi və iqtisadi münasibətlər mövcud idi. 1918 il noyabrın 28-də Azərbaycanla Dağlı Respublikası arasında müqavilə imzalanmışdı (bax *Azərbaycanla Dağlılar Respublikası arasında müqavilələr)*. Denikin işğalına qarşı mübarizədə də Dağlı Respublikasına maddi və mənəvi kömək göstərilmişdi. Lakin Dağlı Respublikası Denikin işğalından xilas ola bilməmiş, 1919 ilin mayında özünü buraxmış, iyulda Denikinin qoşunları Dağıstana daxil olmuşdu. 1920 il martın 30-da 11-ci Qırmızı ordu Petrovsk-Port şəhərini ələ keçirdi. Dağıstanda sovet hakimiyyəti quruldu.

*Əd:*. Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-20-ci illər), B., 1993;Nəsibzadə N, Azərbaycanın xarici siyasəti (1918-1920), B.,1996; История народов Северного Кавказа (конец XVIII в. - 1917), М., 1988.

**DAĞLI RESPUBLİKASI** - Dağıstan və Terek vilayətlərində mövcud olmuş (1918-19) müstəqil dövlət (bax *Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası)*.

**DAĞLIQ QARABAĞ ERMƏNİLƏRİNİN AZƏRBAYCAN HÖKUMƏTİ QARŞISINDA TƏƏHHÜD-LƏRİ** - Dağlıq Qarabağ ermənilərinin bölgədə separatçılığa son qoymaları barədə 1919 il avqustun 22-də imzaladığı sənəd. Sənəd Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Qarabağda genişlənməkdə olan erməni təcavüzünün və separatçılığın qarşısını almaq məqsədilə həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində imzalanmışdı. Sazişin imzalanması ərəfəsində Qarabağda vəziyyət yenidən kəskinləşmişdi. Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanovun əmri ilə vəziyyətin nəzarət altında saxlanması üçün Şuşanın erməni hissəsindəki xəzinədarlığın və poçtun Azərbaycan məhəlləsinə köçürülməsi, şəhər ətrafındakı səngərlərə əlavə postlar qoyulması, Şuşa-Yevlax yolunun təhlükəsizliyinin təmin edilməsinə cəhd göstərilməsi erməni millətçilərinin rəhbərləri tərəfindən hiddətlə qarşılandı. Azərbaycan hakimiyyət orqanlarının bölgədə möhkəmlənməsinə yol verməmək üçün onlar silahlı təxribatlara əl atdılar.

1919 il iyunun 4-də Şuşa və ətraf kəndlər silahlı qarşıdurma mərkəzinə çevrildi. İyunun 5-də bölgədəki ingilis komandanlığının köməyi ilə silahlı təxribatların təşkilatçıları olan Erməni Milli Şurasının üç fəalı həbs edilərək Azərbaycan ərazisindən çıxarıldı. İyunun 6-da Azərbaycan qoşun bölmələri Şuşanın erməni məhəlləsindəki qışlalarda yerləşdikdən sonra, ermənilər təxribatın törədilməsində kənardan gəlmə qüvvələrin təqsirkar olduğunu, Azərbaycan Hökumət orqanları ilə əməkdaşlığı genişləndirməyə meylli olduqlarını bildirdilər.

Azərbaycan Hökumətinə münasibət məsələsi Qarabağ ermənilərinin 1919 il avqustun 16-da çağırılan 7-ci qurultayında da müzakirə edildi. Qurultay nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin Hökumət orqanları ilə danışıqlar aparmağa və saziş imzalamağa razı oldular. Həmin gün qurultay nümayəndələrindən 20 nəfər Şuşaya gəlib, Azərbaycan Hökumət orqanları ilə imzalanacaq sazişin məzmunu barədə danışıqlar apardılar.

Saziş 26 bənddən ibarət idi. Əsas məzmunu tərəflər arasında etimadın genişləndirilməsi, münaqişələrin sülh yolu ilə həlli üçün zəmin yaradılması ilə bağlı idi. Sazişə əsasən, Qarabağ general-qubernatorluğu yanında, hər iki tərəfdən, bərabər sayda olmaqla, 6 nəfərlik Şura yaradılmalı, millətlərarası məsələlər ilkin olaraq, bu Şurada müzakirə edilməli, general-qubernatorun mülki işlər üzrə müavini vəzifəsi təsis edilməli və həmin vəzifəyə erməni təyin olunmalı idi. Sazişdə digər məsələlər də əksini tapmışdı. Lakin sazişin imzalanması bölgədə sülhü təmin etmədi. Az sonra ermənilər öz niyyətlərinə nail olmaq üçün Zəngəzurda və Qarabağda türk-müsəlman əhaliyə qarşı qətlləri, təxribatları yenidən genişləndirdilər.

*Əd.:* Məmmədova H., Qarabağ general-qubernatorluğunun erməni təcavüzünə qarşı mübarizəsi tarixindən səhifələr, B., 1999; Süleymanov M., Azərbaycan ordusu (1918-1920). B., 1998.

**DAXİLİ İŞLƏR NAZİRLİYİ (DİN),** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Daxili İşlər Nazirliyi - ölkədə ictimai asayişi, qanunçuluğu və hüquq normalarını qoruyan dövlət orqanı. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə Fətəli xan Xoyski tərəfindən Tiflisdə təşkil edilmiş birinci Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində F.x.Xoyski Nazirlər Şurasının sədri vəzifəsi ilə yanaşı, həm də daxili işlər naziri vəzifəsini icra edirdi. Həmin il Hökumət Gəncəyə köçdükdən sonra, iyunun 17-də F.x.Xoyskinin burada təşkil etdiyi ikinci Hökumətdə daxili işlər naziri vəzifəsini Behbud xan *Cavanşir* tutdu. Noyabr-dekabr aylarında isə Behbud xan Cavanşirin sənaye və ticarət naziri vəzifəsinə təyin olunması ilə əlaqədar daxili işlər naziri vəzifəsini müvəqqəti olaraq general-mayor Məmməd Sadıq bəy *Ağabəyov* icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti fəaliyyətə başladıqdan sonra Parlamentin tapşırığı ilə 1918 il dekabrın 26-da F.x.Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinəsində daxili işlər naziri vəzifəsi Xəlil bəy *Xasməmmədova* həvalə olundu.1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin dördüncü Hökumət kabinəsində o, özü Hökumətin sədri vəzifəsi ilə yanaşı, həm də daxili işlər naziri vəzifəsini icra etdi. 1919 ilin dekabrında N.Yusifbəylinin yaratdığı beşinci Hökumət kabinəsində daxili işlər naziri vəzifəsini əvvəlcə Məmməd Həsən *Hacınski,* sonra isə Mustafa bəy *Vəkilov* tutmuşdur.

DİN mürəkkəb tarixi dövrdə ölkədə hökm sürən anarxiyanın qarşısının alınması, qanunçuluğun və hüquq normalarının bərqərar edilməsi, ölkə vətəndaşlarının şəxsi və əmlak təhlükəsizliklərinin təmin olunması, cinayətkarlıqla mübarizə aparılması, bununla, ölkədə sabitlik yaradılmasında mühüm rol oynamışdır.

DİN-in fəaliyyətini şərti olaraq üç dövrə bölmək olar: birinci dövr Behbud xan Cavanşirin nazirliyə rəhbərlik etdiyi dövrdür. Bu dövrdə DİN-in funksiyası bir tərəfdən müstəqil dövlətin müstəqil nazirliyi tərəfindən həyata keçirilirdisə, digər tərəfdən, bu struktur Türkiyə hərbi komandanlığından xeyli dərəcədə asılı idi. Ölkədə anarxiyaya son qoymaq, qanunçuluğu və vətəndaş təhlükəsizliyini təmin etmək məqsədilə bir tərəfdən, keçmişdə fəaliyyət göstərmiş inzibati idarə sisteminin quruluşu və şəxsi heyəti olduğu kimi saxlanılır, digər tərəfdən isə, onların vəzifəsi, imkan düşdükcə, Hökumətin 1918 il iyunun 19-da qəbul etdiyi hərbi vəziyyət haqqındakı qərarının müəyyən etdiyi səlahiyyətlərdən istifadə olunmaqla hərbi qüvvə vasitəsilə həyata keçirilirdi.

1918 il iyunun 23-də nazirlik tərəfindən işlənib hazırlanmış məcburi qərar dərc olundu. Qərara əsasən, şəxsiyyətə, şəxsi, dövlət, yaxud ictimai əmlaka qarşı ağır cinayətlərə hərbi-məhkəmə orqanlarında baxılır, ictimai sabitlik üçün təhlükə törədən cinayətlərin araşdırılması isə Daxili İşlər Nazirliyinin və yerli inzibati idarə orqanları rəhbərlərinin (qubernatorlar, qəza rəisləri) sərəncamına verilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 24 iyun tarixli qərarına əsasən, bütün keçmiş inzibati idarə işçiləri iyulun 1-nədək öz iş yerlərinə qayıtmaləı idi, əks halda, işdən azad ediləcəkdilər. Həmin vaxtdan etibarən qəzalarda yerli əhali hesabına inzibati-idarə orqanlarının şəxsi heyəti formalaşmağa başladı. Cümhuriyyət Hökuməti iyulun 2-də DİN-in məruzəsi əsasında polis işçilərinin əmək haqqını artırmaq barədə qərar qəbul etdi. Gəncə quberniya idarəsi işçilərinin sayı ixtisar edildi. Zaqatala mahalı Azərbaycan Cümhuriyyətinə birləşdirildikdən sonra ayrıca quberniyaya çevrildi və quberniya idarəsi yaradıldı. DİN-in Gəncədə həyata keçirdiyi ilk tədbirlərdən biri Gəncə şəhər özünüidarəsini bərpa etmək oldu. İyunun 22-də Gəncə şəhər rəisinin müavininə şəhərdəki işçi qüvvələrini təcili olaraq bir yerə toplayıb fəaliyyətə başlamaq tapşırıldı. İyunun 27-də Azərbaycan Cümhuriyyəti Hökuməti Gəncə şəhər özünüidarəsini təşkil etmək üçün şəhər idarəsinə 150 min manat faizsiz borc vermək, vəba ilə mübarizə aparmaq üçün qaytarılmamaq şərti ilə 100 min manat kömək ayırmaq barədə qərar qəbul etdi. 1918 il iyulun 30-da Hökumət digər şəhərlərdə də özünüidarə orqanları yaratmaq haqqında DİN tərəfindən təqdim olunmuş məruzə əsasında qərar qəbul etdi.

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918 il 7 və 27 iyul tarixli qərarları ilə DİN-ə yerlərdə inzibati idarə orqanları yaradıldıqca, anarxiyanın hökm sürdüyü dövrdə Gəncədə və digər şəhərlərdə əhalinin təşkilinin yeganə mərkəzi orqanı olan Müsəlman Milli Komitələrinin ləğv edilməsi tapşırıldı.

1918 il sentyabrın 15-də *Qafqaz İslam Ordusu* Bakını daşnak və eser-menşevik hərbi qüvvələrindən azad etdikdən sonra, Cümhuriyyət Hökuməti Bakıya köçdü, DİN-in fəaliyyət dairəsi daha da genişləndi.

1918 ilin dekabrında *Azərbaycan Cümhuriyyəti Parlamentinin* işə başlaması ilə əlaqədar Hökumətdə edilən dəyişikliklər nəticəsində daxili işlər naziri vəzifəsi Xəlil bəy Xasməmmədova həvalə olunduqdan sonra nazirliyin fəaliyyətində bir sıra ciddi struktur dəyişiklikləri edildi. Nazirlik bir tərəfdən, təşkilati işləri, digər tərəfdən isə, xarici dövlətlərin ölkənin daxili işlərinə müdaxiləsini dəf etmək tədbirlərini gücləndirdi.

Qarabağ bölgəsində hakimiyyəti möhkəmləndirmək üçün Azərbaycan Cümhuriyyəti Hökumətinin 1919 il 15 yanvar tarixli qərarı ilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında general-qubernatorluq yaradıldı və həmin ayın 29-da X.Sultanov general-qubernator təyin olundu.

DİN-in yerli idarələrinin ştat cədvəli, onların əmək haqlarının artırılması barədə qanun layihələri aprelin 8-də və mayın 26-da Parlamentdə təsdiq olundu. Bu dövrdə DİN-in yerli qurumlarının təşkili, vəzifəli şəxslərin fəaliyyəti və s. haqqında təlimatlar da hazırlanaraq yerlərə göndərildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 2 yanvar tarixli qərarı əsasında 1919 il üçün DİN-in smetası hazırlandı. Həmin ilin martında Bakıda müttəfiq dövlətlərin polis komissarlıqlarının ləğvi ilə ölkənin daxili siyasətinə xarici təzyiqin aradan qalxması da daxili işlər orqanlarının fəaliyyətinin güclənməsinə səbəb oldu.

1919 il aprelin 14-də təşkil olunmuş 4-cü Hökumət kabinəsində Hökumətin sədri Nəsib bəy Yusifbəylinin həm də daxili işlər naziri vəzifəsini tutması ilə nazirliyin fəaliyyətinin 3-cü dövrü başlandı. Nazirlik və onun yerli orqanları ölkədə xarici hərbi qüvvələrin müdaxiləsi olmadan sərbəst və müstəqil fəaliyyət göstərməyə başladılar. Bu işdə nazirliyin hazırladığı və 16 aprel tarixli əmrlə elan etdiyi təlimatın mühüm əhəmiyyəti olmuşdur. Təlimatda qanunçuluğun və intizamın möhkəmləndirilməsi, ölkənin bütün vətəndaşlarına eyni münasibət göstərilməsi, milli qırğın təzahürlərinin qarşısının qətiyyətlə alınması, vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə hallarına qarşı kəskin mübarizə aparılması və s. məsələlər öz əksini tapmışdı. Yerli hakimiyyət orqanları əvvəlki dövrə nisbətən öz fəaliyyətlərində mərkəzi hakimiyyətin göstərişlərinə daha ciddi əməl edirdilər.

Bu dövrdə DİN-in fəaliyyətində bir sıra təşkilati xarakterli tədbirləri həyata keçirildi. Nazirliyin təklifi ilə Dövlət Müdafiə Komitəsi yaradıldı. Bakı və ətraf sənaye rayonlarının daha etibarlı mühafizəsi üçün *Bakı Şəhər Rəisliyi* təsis olundu, *Bakı Şəhər Polisinin* ehtiyat qüvvələri təşkil edildi. Azərbaycan Xalq Cümhuriyyətində hərbi çağırışın icrası haqqında Azərbaycan Parlamentinin 26 may tarixli qanununa uyğun olaraq, hərbi çağırış barədə Əsasnamə təsdiq olundu. Nazirlik tərəfindən hazırlanmış Azərbaycan polis inspektoru haqqında Əsasnamə də Dövlət Müdafiə Komitəsi tərəfindən təsdiqləndi.

Şəhərlərə gətirilən və aparılan yüklərdən onların xeyrinə cari yığım haqqında nazirliyin hazırladığı qanun layihəsi 1919 il iyulun 27-də Azərbaycan Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul edilmişdi. Nazirliyin təqdimatı ilə mətbuat haqqında nizamnamə, icarəyə verilmiş binalar üçün qiymətlərin müəyyənləşdirilməsi və onlardan istifadə qaydaları və s. məsələlərlə bağlı qanun layihələrinə Parlamentdə baxılmış və qəbul olunmuşdu. Nazirliyin fəaliyyətinin sonuna yaxın işləyib hazırladığı ən mühüm sənədlərdən biri də Azərbaycanda torpaq məsələləri ilə məşğul olan idarələr haqqında Əsasnamə idi. Sənəddə torpaqların idarəçilik formasının, Qərbdəki demokratik əsaslara uyğun olaraq, tamamilə yenidən qurulması nəzərdə tutulurdu.

Lakin 1920 il aprelin 27-də Sovet Rusiyasının Azərbaycanı işğal etməsi Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin də fəaliyyətinə son qoydu.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920; Azərbaycan Xalq Cümhuriyyəti. (1918-1920), Parlament (Stenoqrafik hesabatlar), c.l, 2, B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Əliyarlı İ., Behbudov T., Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər), B., 1998.

**DAXİLİ İŞLƏR NAZİRLİYİNİN QAZAX QƏZASINDA XÜSUSİ MÜVƏKKİLİ** - Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyi (DİN) tərəfindən təyin edilmiş xüsusi səlahiyyətləri olan vəzifəli şəxs. Gəncə quberniyasının Qazax qəzasında milli-etnik toqquşmaların genişləndiyi və adi inzibati tədbirlərlə qayda qanun yaratmağın mümkün olmadığı şəraitdə yerli qəza idarəsinə nəzarət etmək üçün 1919 il fevralın 17-də müvəqqəti general-qubernator səlahiyyətləri ilə DİN-in xüsusi müvəkkili vəzifəsi təsis edildi. Sərəncamında xalq milisi dəstəsi var idi.1919 il mayın 7-də Rza bəy Qaraşarov Qazax qəzasına xüsusi müvəkkil təyin olunmuş, ona qəza hakimiyyət nümayəndələrinə nəzarət etmək, lazım gəldikdə onları vəzifədən kənarlaşdırmaq səlahiyyəti verilmişdi.

**DAXİLİ İŞLƏR NAZİRLİYİ YANINDA POLİS MÜFƏTTİŞLİYİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyət dövründə polis orqanlarının qanun əsasında fəaliyyət göstərməsinə nəzarətə dair hüquqi sənəd. 1919 il sentyabrın 16-da Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi tərəfindən təsdiq edilmişdir. Polis müfəttişliyi quberniya və qəza polis orqanlarının fəaliyyətinin qanuniliyinə nəzarət məqsədi ilə yaradılmışdı. Polis müfəttişliyi rəisi bilavasitə daxili işlər nazirinə, müfəttişlər və dəftərxana isə rəisə tabe idi. Müfəttişlik ildə bir dəfədən az olmayaraq, daxili işlər nazirliyinin bütün idarələrini və nazirliyin vəzifəli şəxslərinin fəaliyyətini yoxlayır, vəzifə cinayətlərini aşkar edir və araşdırırdı.



**DAQİROV** Zaur bəy Yusif oğlu (11.5.1902, Vladiqafqaz - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1918 ildə Tiflis kadet korpusunu bitirmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini etnoqrafiya sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir.



**DARABLI** (Hüseynov) Rza Nəcəfəli (Nəcəfqulu) oğlu (1883, Bakı- 23. 3. 1942, Bakı) - aktyor, rejissor, Azərbaycanın əməkdar artisti (1933). 1915 ildən Bakıda müxtəlif teatr truppalarında çıxış etmiş, komik rollar ifaçısı kimi məşhurlaşmış, Üzeyir Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyalarında Vəli, Soltan bəy, Hambal, Səfi rollarında oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Türk (Azərbaycan) Dövlət Dram Teatrının repertuarındakı əsərlərdə çıxış xeyriyyə konsertləri vermişdir. 1925-28 illərdə Moskvada Teatr Sənəti Texnikumunda oxumuşdur. 1929 ildən Azərbaycan Dram Teatrında aktyor və rejissor işləmişdir. Bakı Türk İşçi Teatrında da rejissorluq etmiş, kinofilmlərə ("Kəndlilər", "Səbuhi" və s.) çəkilmişdir. Bakı Teatr Texnikumunda pedaqoji fəaliyyət göstərmişdir.

**"DAŞNAKSUTYUN"** ("İttifaq") - millətçi-terrorçu erməni partiyası (digər adı "Erməni inqilabi ittifaqı"). 1890 ildə Tiflisdə yaradılmışdır. Liderləri S.Zavaryan, S.Zoryan, X.Mikaelyan və b. idi. Partiyanın mətbuat orqanı 1891 ildən Cenevrədə çıxan "Droşak" ("Bayraq") qəzeti idi. Partiyanın proqramı "Daşnaksutyun"un 1892 ildə keçirilən 1 -ci qurultayında qəbul edilmişdi. Proqramda ermənilərin məskunlaşdığı Türkiyə ərazisində müstəqil dövlət qurulması partiyanın başlıca məqsədi elan olunmuşdu. "Silahlı üsyan, inqilabi təbliğat, terror, silahlı dəstələrin təşkili, hökumət idarələrinin talan və qarət edilməsi" bu məqsədin həyata keçirilməsi vasitələri idi. Partiyanın 2-ci qurultayında qəbul olunmuş proqramda daha sərt məxfilik tətbiq edildi. Partiyanın mərkəzi Tiflis olmaqla Şərq (fəaliyyət dairəsi Qafqaz, Rusiya, İran) və mərkəzi Cenevrə olmaqla Qərb (fəaliyyət dairəsi Kiçik Asiya, Balkanlar, Amerika, Misir) büroları təsis edildi və inqilabi mübarizədə terrordan daha geniş şəkildə istifadə tələbi irəli sürüldü. Bu məqsədlə daşnaklar silahlı dəstələr yaratmışdılar. "Erməni inqilabi ittifaqının hərbi nizamnaməsi"nə ciddi əməl etməyə borclu olan hər bir daşnak, həmin nizamnaməyə uyğun olaraq, düşmənə (əsasən, müsəlmanlara, türklərə - *red.)* ziyan vurmaq yollarını tapmaq barədə düşünməli idi. Partiyanın nizamnaməsində göstərilirdi ki, daşnaklar hər biri 10 döyüşçüdən ibarət dəstələrə bölünür. Hər bir döyüşçünün terror aktını həyata keçirməsi bütünlüklə partiya hesabına maliyyələşdirilirdi. Təkcə 1907 ildə partiyanın büdcəsinin 35%-i (1 milyon frank) terrorçuların silahlandırılması üçün nəzərdə tutulmuşdu. Terror aktının həyata keçirilməsi haqqında qərarı yalnız partiyanın mərkəzi komitələri və məsul təşkilatları qəbul edə bilərdi. Daşnaklar Türkiyədə və Cənubi Qafqazda terror aksiyalarının hazırlanması və həyata keçirilməsi üçün özlərinin xarici bazalarından geniş istifadə edirdilər.

"Daşnaksutyun" kütlələrin beyninə dənizdən-dənizə uzanan, demək olar ki, bütün Cənubi Qafqaz ərazisini əhatə edən "Böyük Ermənistan" yaratmaq ideyasını yeridirdi. Cənubi Qafqazda "Daşnaksutyun"un komitələri 19 əsrin 90-cı illərində meydana gəldi və onlar Türkiyə ərazisində qiyamçı dəstələrinin yaradılması üçün təbliğatçılar və yaraqlılar göndərilməsini qarşılarına başlıca məqsəd qoydular.

"Daşnaksutyun"un Bakı komitəsi 1903 ildə, erməni kilsə torpaqlarının xəzinənin xeyrinə dünyəviləşdirilməsi haqqında 12 iyun tarixli qanun verildikdən sonra, ermənilərlə Rusiya hakimiyyət orqanları arasında münasibətlərin kəskinləşdiyi vaxt yaradıldı. "Mirzəyev qardaşları" neft kəmərinin müdiri S.F.Ter-Mkrtıçyan Bakı komitəsinin sədri oldu. Elə həmin il "Hayastan" komitəsi adlanan Yelizavetpol komitəsi yaradıldı. Onun başında arximandrit Benik və hərbi həkim M.Beqlyarov dururdu. Bu dövrdə daşnakların qarşısında duran əsas vəzifələrdən biri təşkilatın ehtiyacları və getdikcə daha çox əl atdıqları terror aktlarının törədilməsi üçün pul toplanması idi. Bu dövrdəki terror aktları içərisində Qafqazın mülki işlər üzrə baş rəisi knyaz Qolitsına qarşı daşnakların hnçaqçılarla (bax *Hnçaq)* birgə törətdikləri sui-qəsd, Bakı general-qubernatora knyaz Nakaşidzenin, general Alixanovun, Qarsda pristav Ş.Laçınbekovun, Yelizavetpol (Gəncə) vitse-qubernatoru Andreyevin, qəza başçıları Boquslavski və Şmerlinqin və başqalarının qətlə yetirilməsi diqqəti cəlb edir.

"Daşnaksutyun"un 1904 ildə Vyanada keçirilən 3-cü qurultayında kəşfiyyat funksiyaları olan gizli "Deli" terror təşkilatı yaradıldı, habelə daşnakların müharibə elan etmək hüququ olan mütəşəkkil hərbi təşkilatının əsasını qoyan hərbi nizamnamə qəbul olundu. Partiyanın əsl məqsədi - dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq niyyəti çoxsaylı proqramlarının heç birində açıqlanmasa da, hərbi təşkilatın və daşnakların istər Osmanlı imperiyası, istərsə də Cənubi Qafqaz ərazisində yerli əhalinin məhv edilməsi və didərgin salınması sahəsində fəaliyyəti onların məhz bu niyyətdə olmalanna şübhə yeri qoymurdu.

1905 il fevralın 6-da Bakıda erməni mauzerçisinin Sabunçu qəsəbəsinin sakini olan azərbaycanlını qətlə yetirməsi o vaxta qədər görünməmiş erməni-azərbaycanlı toqquşmalarının başlanğıcı oldu. Üç gün ərzində hər iki tərəfdən 1000 nəfərə yaxın adam öldürüldü. Daşnaklar türk-müsəlman əhaliyə qarşı soyqırımına ciddi hazırlıq görmüşdülər. 1905 ildə Bakıda daşnaklara məxsus olan gizli silah anbarlarının aşkar edilməsi bunu təsdiqləyir. Əsas zərərçəkənlərin azərbaycanlılar olduğu bu toqquşmaların dalğası bütün Cənubi Qafqaza - Şuşaya, İrəvana, Naxçıvana, Qazaxa, Zəngəzura, Tiflisə yayıldı.

1906-07 illərdə "Daşnaksutyun"un sıralarında təfriqə yarandı. Nəticədə, "mşakçılar" ("Mşak" qəzetinin tərəfdarları) qrupu partiyadan ayrıldı. Onlar kadetlərə yaxın olan mötədil mövqedən çıxış edir və partiyanın Rusiyadakı döyüş dəstələrinin buraxılmasını təklif edirdilər. Partiyanın sol qanadı - "gənc daşnaklar" sərt radikal-inqilabi mübarizə üsullarının tərəfdarı idilər. L.Atabekyan, A.Amiryan və C.Bekzadyanın başçılıq etdikləri "gənc daşnaklar" bu zəmində Bakı eserləri ilə yaxınlaşdılar. 1907 ildə "gənc daşnaklar" sosialist-inqilabçılar partiyasının (SİP) Bakı komitəsi ilə birləşməyi qərara aldılar. Bununla da, daşnaklar beynəlxalq aləmə çıxmağa nail oldular. SİP-in tövsiyəsi ilə "Daşnaksutyun" 1907 ildə II İnternasionala qəbul edildi. "Gənc daşnaklar" ümumrusiya parlament kürsüsünə çıxmaq niyyətilə eserlər və kadetlərlə birgə "Zemlya i volya" seçki blokuna da daxil oldular. Həmin blok 1907 ilin fevralında 2-ci Dövlət dumasına seçkilərdə məğlub oldu. Bu dövrdə daşnaklar fəhlələr arasında, həmkarlar ittifaqlarında və onların milli mənsubiyyət əsasında yaratdıqları mədəni-maarif cəmiyyətlərində güclü iş aparmağa başladılar. Daşnaklar Cənubi Qafqazda üzvlərinin ümumi sayı 10.990 nəfər olan 110 həmkarlar ittifaqı təşkilatı yaratmışdılar. Partiyanın Bakı təşkilatı üzvlərinin sayı 2000 nəfərə çatırdı. 1908 ildə isə bütün dünyada "Daşnaksutyun"un 165.000 üzvü var idi. Daşnakların törətdikləri terror aktlarının və basqınların geniş miqyas alması ilə əlaqədar partiyaya qarşı kütləvi həbslər və 1912 ildə Peterburqda məhkəmə ilə nəticələnən polis təqibləri başlandı. Nəticədə, 1000-dən çox daşnak sürgünə göndərildi. 1908 ildən daşnaklar fəaliyyətlərini inqilab gedən İranda və hakimiyyətə gəlmiş gənc türklərdən muxtariyyət umduqları Türkiyədə davam etdirdilər. Lakin "Daşnaksutyun"un Türkiyədən gözlədikləri ümidlər özünü doğrultmadı və bundan sonra onlar Türkiyə əleyhinə pozucu fəaliyyətlərini Rusiya hakimiyyət orqanları ilə ittifaqda davam etdirməyi qərara aldılar. Qafqaz canişini İ.İ.Voronsov-Daşkov bu işdə daşnaklara ciddi himayədarlıq etdi. 1912 ildə Tiflisdə Erməni Milli Şurası və onun icra orqanı - Milli büro yaradıldı. Milli büronun nümayəndələri canişinin vasitəçiliyi ilə müharibə baş verdiyi halda, Türkiyə ərazisində Rusiya, İngiltərə və Fransanın protektoratı altında muxtar Ermənistan yaradılması barədə Rusiya hakimiyyət orqanlarından vəd almağa nail oldular. "Daşnak-sutyun"un 4-cü qurultayında bütün "zinvorların" (daşnak yaraqlıları) Qafqazdan Türkiyə ərazisinə göndərilməsi qərara alındı. Müsəlman əhalisini Rusiya əleyhinə üsyana qaldırmaq və beləliklə, onları kütləvi repressiyalara məruz qoymaq məqsədilə daşnakların panislamizm emissarları sifətilə Qafqaza göndərilməsi kimi məkrli plan da qəbul edildi. Onlar buna qismən nail oldular.

Daşnakların fəaliyyəti Birinci dünya müharibəsi (1914-18) illərində xüsusilə gücləndi. Bu zaman onlar böyük dövlətlərin, ilk növbədə Rusiyanın köməyi ilə Osmanlı imperiyasının şərq vilayətlərinin ərazisində öz dövlətlərini yaratmağa ümid bəsləyirdilər. 1914 ildə müharibə başlayandan dərhal sonra II Nikolay 1909-12 illərdə həbs olunmuş daşnaklara amnistiya verdi. Eyni zamanda, Türkiyə ərazisində muxtar, yaxud müstəqil Ermənistan dövləti yaratmaq üçün, başlıca olaraq, daşnaklardan ibarət silahlı könüllü dəstələrin səfərbərliyə alınmasına başlandı. Dəstələr, əsasən, Cənubi Qafqaz ərazisində yaradılırdı. Məşhur terrorçular və "generallar" Andronik (Ozanyan), Dro (Drazdamat Kanayan), Xeço (Q.Amirov) həmin məqsədlə buraya gəldilər. Döyüş dəstələrinin yaradılmasının əsas təşkilatçılarından biri Abram Gülxəndanyan, habelə Bakıda nəşr edilən daşnak qəzeti "Arev"in redaktoru Simon Hakopyan başda olmaqla "Daşnaksutyun"un Bakı komitəsi oldu. Rusiya qoşunlarının yerli türk əhalisinin qırılması ilə müşayiət olunan hücumunun ardınca daşnaklar 1915 ilin mart-aprel aylarında Türkiyənin Van vilayətində yerli türk-müsəlman əhalini qırmağa başladılar. Buna cavab olaraq, Türkiyə hökuməti ermənilərin cəbhəyanı vilayətlərdən Suriyaya köçürülməsi haqqında qərar qəbul etdi. Ermənilər indiyədək bunu "soyqırımı" adlandırırlar. O zaman ermənilərin özlərinin bir çox həm liberal, həm də sosialist ictimai xadimləri daşnakların başçılıq etdikləri bu "özünü məhvetmə" siyasətini pislədilər. Lakin 1915 ildə özləri tərəfin-dən törədilmiş faciəli hadisələr daşnaklara ibrət dərsi olmadı və onlar 1916 ilin yanvarında Tiflisdə konfranslarını keçirərək, könüllü dəstələrinin atıcı batalyonlara çevrilməsini qərara aldılar. 1916 ilin yayında rus ordusunun hücumları nəticəsində Türkiyənin Qars, Ərzurum, Trabzon, Ərzincan və s. şəhərləri tutuldu. Rus qoşun hissələri ilə eyni vaxtda buraya daşnak birləşmələri də soxularaq, həmin şəhərlərin, bütün bölgənin türk və azərbaycanlı əhalisinə vəhşicəsinə divan tutdular. Deputat Məmməd Yusif Cəfərov 4-cü Dövlət dumasında çıxış edərək, bu vəhşiliklərə qarşı kəskin etirazını bildirdi. Antanta ölkələri, o cümlədən Fransa da daşnakların əməllərindən narazılıqları bildirdilər. "Mşak" qəzetinin redaktoru A.Arakelyan bununla əlaqədar 1917 ilin yanvarında Tiflisdə Cənubi Qafqazın görkəmli erməni ziyalıları nümayəndələrinin müşavirəsini çağırdı. Müşavirədə daşnakların erməniləri məhvə aparan avantürist siyasəti pisləndi. Daşnaklara qarşı liberal "Milli xalq partiyası" yaratmaq qərara alındı, lakin layihələr kağız üzərində qaldı. Fevral inqilabı və 1918 ildə Brest-Litovsk sülh müqaviləsinin bağlanması "Böyük Ermənistan" xülyalarına son qoydu.

1917 ilin martında Bakıda 50 nəfərdən ibarət Erməni Milli Şurası yaradıldı. Şuranın tərkibinə "Daşnaksutyun" partiyasının 17 nümayəndəsi daxil oldu. Şura "Arev" qəzetinin nəşrini davam etdirdi. Bu qəzet və "Daşnaksutyun"un Bakıdakı Mərkəzi Komitəsinin 1918 ildən rus dilində nəşr olunmağa başlayan mətbuat orqanı "Vperyod" qəzeti millətçiliyi və şovinizmi təbliğ edir, antiazərbaycan siyasəti yeridirdilər. Müvəqqəti hökumətin Azərbaycandakı orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsində və Bakı Fəhlə Deputatları Sovetində də Şuranın nümayəndələri var idi.

1917 il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə daşnaklar 4-cü yeri tutdular. Oktyabr çevrilişindən (1917) sonra eserlərlə birlikdə bolşeviklərə qarşı çıxış etmələrinə baxmayaraq, daşnaklar 1917 ilin dekabrında Bakı Sovetinə seçkilərdə 41 deputat yeri qazanaraq, bolşeviklərdən sonra 2-ci yeri tutdular. Eyni zamanda, "Daşnaksutyun"un nümayəndələri T.Ter-Qazaryan, X.Karçiyan, A.Ağacan Tiflisdə yaradılmış Zaqafqaziya komissarlığının, 1918 ilin fevralından isə 27 nəfərlik heyətlə Zaqafqaziya seyminin tərkibinə daxil oldular.

Bakı kommunasının hakimiyyəti dövründə daşnaklar Bakı Sovetinə başçılıq edən S.Şaumyanla ittifaqa girərək, 1918 ilin martında Azərbaycan xalqına qarşı dəhşətli soyqırımı törətdilər. 1918 ilin martınadək Bakıda daşnak silahlı birləşmələrinin 7 minə yaxın erməni əsgəri toplanmışdı. 12 minlik bolşevik "Qırmızı qvardiya"sının 70%-ini də daşnaklar təşkil edirdi. 1915 ildə daşnak döyüş dəstələrinə qarşı kəskin çıxışlar edən S.Şaumyan öz məqsədinə - Bakını getdikcə daha çox nüfuz qazanan "Müsavat" partiyasından və onunla birlikdə azərbaycanlı əhalisindən təmizləməyə nail olmaq naminə daşnaklarla sıx ittifaqa girdi. Bakı Soveti qoşunlarının və daşnak quldur dəstələrinin guya "Azərbaycan döyüş hissələrinin qiyamını yatırmaq" bəhanəsilə martın 30-da ağır artilleriyadan və hidroaeroplanlardan istifadə etməklə, başladıqları hərbi əməliyyatlar şəhərin müsəlman məhəllələrində dinc azərbaycanlı əhaliyə vəhşicəsinə qanlı divan tutulması ilə nəticələndi. Üç gün ərzində 12000-dək azərbaycanlı qətlə yetirildi. Qırğın bununla qurtarmadı. Dinc azərbaycanlı əhalisinə qarşı erməni "sərkərdələri" S.Lalayanın, T.Amiryanın, Q.Hamazaspın başçılıq etdikləri cəza əməliyyatları Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul və Salyanda da aparıldı. Azərbaycan xalqı kütləvi soyqırımına məruz qaldı.

Şamaxı daha çox zərər çəkdi. Buraya 2 min erməni əsgəri və 60 araba silah göndərilmişdi. Bu qəzada 80 kənd məhv edilmiş, *Fövqəladə Təhqiqat Komissiyasının* məlumatına görə, onların 53-də 8027 adam qətlə yetirilmişdi. Zaqafqaziya seymindəki Azərbaycan nümayəndə heyəti Bakıda və qəzalarda baş vermiş hadisələrlə əlaqədar kəskin etirazlarını bildirərək, Bakıya qoşun göndərilməsini tələb etdi, lakin seymin qoşunları sovet-daşnak dəstələri tərəfindən məğlubiyyətə uğradıldı. Azərbaycan nümayəndə heyətinin kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəsi qalmadı.

Bakı kommunasının süqutundan sonra hakimiyyət ingilis qoşunlarının köməyi ilə ayyarımlıq bir müddət ərzində menşevik və eserlərlə yanaşı, daşnakların da təmsil olunduğu "Sentrokaspi diktaturası" hökumətinin əlinə keçdi. Bakını azad etməyə gələn Türkiyə-Azərbaycan ordusuna qarşı əsasını daşnak dəstələri təşkil edən 50 minlik qoşun çıxarmasına baxmayaraq, yeni hökumət şəhəri əlində saxlaya bilmədi və Bakı 1918 il sentyabrın 15-də azad olundu. Daşnaklar və onlara kömək edən xeyli erməni xalqın qəzəbindən qorxaraq, şəhərdən qaçdı.

1918 ilin dekabrında fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti bütün milli azlıqların onun tərkibində təmsil olunmasını təmin etdi. Lakin daşnakların başçılıq etdiyi Erməni Milli Şurası Parlamentin fəaliyyətində iştirakdan imtina etdi. Ancaq ingilis generalı Tomson Fətəli xan Xoyski hökumətini və parlamenti tam dəstəklədiyini bəyan edəndən sonra ermənilər Parlamentin fəaliyyətində iştirak etdilər. Parlamentdə fəaliyyət göstərən 11 fraksiyadan ikisi erməni fraksiyası idi. Bunlar A.Malxazyan başda olmaqla "Daşnaksutyun"u və A.Paronyan başda olmaqla Erməni Milli Şurasını təmsil edən fraksiyalar idi. Nəsib bəy Yusifbəylinin 4-cü Hökumət kabinəsində isə daşnak X.Amaspür portfelsiz nazir vəzifəsi tuturdu.

Cümhuriyyət dövründə "Daşnaksutyun"un təsiri Azərbaycanda xeyli zəifləsə də, o, Ermənistanda hakim partiya oldu və bu, iki ölkə arasında qarşılıqlı münasibətləri xeyli mürəkkəbləşdirdi. Demək olar ki, iki il ərzində Azərbaycan Xalq Cümhuriyyəti ilə daşnak Ermənistanı arasında ərazi münaqişələri davam etdi. "Böyük Ermənistan" xülyalarından əl çəkməyən daşnak quldur birləşmələri Andronik, Dro və Njdenin başçılığı ilə Naxçıvan, Zəngəzur və Qarabağ qəzalarının azərbaycanlı əhalisinə qarşı məqsədyönlü soyqırımı və etnik təmizləmə aparmağa başladılar. Naxçıvan əhalisinin ciddi müqavimətilə üzləşən Andronik 1918 ilin avqustunda Zəngəzur qəzasına soxularaq, yerli əhaliyə vəhşicəsinə divan tutdu. Təkcə 1918 ilin yayında və payızında Zəngəzurda 10.068 adam qətlə yetirildi. Zəngəzurda möhkəmlənən Andronik özünü buranın erməni qubernatoru, Gorus şəhərini isə onun mərkəzi elan etdi. Sonra isə o, Şuşaya soxulmaq və onu "Kiçik Ermənistan"ın paytaxtı etmək istəyirdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin hakimiyyətinin bütün Azərbaycan ərazisində bərqərar olması buna imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 ilin yanvarında Xosrov Paşa bəy Sultanovun başçılığı ilə Qarabağ general-qubernatorluğunun yaradılması haqqında qərar qəbul etdi. Azərbaycan Parlamentinin erməni fraksiyaları və Ermənistan hökuməti bu qərarı kəskin etirazla qarşıladılar. İngilis komandanlığının bu qərarı dəstəkləməsi onları daha da məyus etdi. Şatelvort 1919 il 3 aprel tarixli bəyanatında general-qubernator X.Sultanovun təyin edilməsinin düzgün olduğunu bildirdi və Andronikin silahlı birləşməsinin Qarabağdan çıxarılmasını tələb etdi. Daşnakların daha bir avantürası nəticəsində erməni qoşunları 1919 ilin mayında Naxçıvanı ələ keçirə və orada öz "idarəçiliyini" elan edə bilərdilər. Lakin Azərbaycan Hökumətinin həyata keçirdiyi hərbi-maliyyə tədbirləri, iyulun sonlarında apardığı uğurlu döyüşlər bu bədnam niyyətin baş tutmasına imkan vermədi. Naxçıvanın və az sonra Qarabağın erməni əhalisi Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini tanıdı.

1920 ilin əvvəlində daşnak Ermənistanının Qarabağda, Zəngəzurda, Gəncə və Qazax qəzalarındakı Azərbaycan torpaqlarını işğal etmək cəhdləri gücləndi. Martın 22-də, Novruz bayramı günü, erməni silahlı dəstələri qəflətən Şuşa qarnizonuna basqın etdi. Eyni zamanda, Xankəndinə və Əsgərana hücum başlandı. Qarabağdakı Azərbaycan qoşunlarının komandanı general-mayor Həbib bəy Səlimov bütün qüvvələri bu şəhərlərin alınmasına yönəldərək, Bakıdan ordunun, demək olar, bütün əsas qüvvələrinin, hətta Parlamentin mühafizə dəstəsinin də Qarabağa göndərilməsini xahiş etmişdi. Azərbaycan ordusu aprelin axırlarında Əsgəranı, Xankəndini və Zəngəzuru daşnaklardan azad edərək, respublikanın ərazi bütövlüyünü qoruyub saxladı. Lakin bu, ölkənin şimal sərhədlərinin zəifləməsinə gətirib çıxardı və 11 -ci Qırmızı ordunun Azərbaycan ərazisini, demək olar ki, maneəsiz işğal etməsinə imkan yaratdı. Beləliklə, Qırmızı ordu ilə sövdələşən Ermənistan hökumətinin fitnəkar fəaliyyətini aprelin 27-də Azərbaycanın işğal olunmasının başlıca amillərindən hesab etmək olar. Daşnaklar bu faktı sonralar özləri də etiraf etmişdilər. Lakin özlərinin dünənki düşmənləri ilə daim müvəqqəti ittifaq bağlayan daşnaklar bu dəfə də aldandılar. Belə ki, sovet qoşunları Azərbaycanı işğal edəndən sonra bütün Cənubi Qafqazı, o cümlədən Ermənistanı (1920, noyabr) nəzarət altına aldılar, bununla da daşnakların hakimiyyətinə son qoyuldu. Həmin vaxtdan "Daşnaksutyun" partiyası gizli fəaliyyətə keçdi, üzvlərinin əksəriyyəti mühacirətə gedərək, xaricdə qızğın fəaliyyət göstərdi. "Daşnaksutyun" 1988 il Qarabağ münaqişəsində, ən son dövrlərdə çoxsaylı terror aktlarının törədilməsində fəal rol oynamışdır.

1998 ildə, düz 80 ildən sonra R.Koçaryan hakimiyyətə gələndən "Daşnaksutyun" bu ölkədə, əslində, yenidən hakim partiyaya çevrilmişdir. Hazırda daşnakların fəal siyasi rol oynadığı Ermənistan beynəlxalq terroru dəstəkləyən və ona rəvac verən dövlətlərdən biridir.

*Əd.:*Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Məhərrəmov N., Daşnaksutyun və Azərbaycanın taleyi, B., 1995; Азербайджанская Демократическая Республика Б., 1998; Наджафов Б., Лицо врага. История армянского национализма в Закавказье в XIX нацале – XX вв., кн. 1, Б., 1993; Мамедова Л., Февраль 1917: Новая фаза подьема политического экстремизма в Азербайджане, Б., 1995; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997; Шавров Н.Н., Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, Б., 1990.

**DAVUD,** Ağamirzadə Davud Əsgər oğlu (? - ?) -Azərbaycan şairi. 1918-20 illər milli istiqlal poeziyasının nümayəndələrindən biri. Bu dövrdə "Azərbaycan" qəzeti öz ətrafında Cümhuriyyəti ruh yüksəkliyi, sevinclə qarşılayan görkəmli sənətkarlarla yanaşı, gənc ədəbi qüvvələri də birləşdirirdi. Davud da Azərbaycan Xalq Cümhuriyyəti dövrü ədəbi mühitində seçilən şairlərdən idi. Yaradıcılığında əsgər şeirləri, azad vətəni, milli bayrağı tərənnüm, xalqı birliyə çağırış ruhlu şeirlər mühüm yer rutur. Şair Azərbaycan bayrağını, onun üzərində parlayan ay-ulduzu belə vəsf edirdi:

***Üzərində göründükcə ulduzun***
***Şeir söylər sənə nazlı tiirk qızı***
***Sən çırpındın, sən yüksəldin, göründün***
***Və tanıtdın millətlərə sən bizi***

Davudun əsgər şeirlərində ("Əsgər şərqisi", "Məqsədimiz", "Bir əsgərin dilindən", "Azərbaycan ordusuna", "Əsgər") vətənə sonsuz sevgi, torpağımızın hər qarışı uğrunda canını qurban verən Azərbaycan əsgərinin şücaəti, milli istiqlalımızın qorunması tərənnüm edilir.

Davud müstəqillik rəmzi kimi tərənnüm etdiyi üçrəngli milli bayrağı xalqın əsarət və köləliyinə qoyulan nöqtə kimi mənalandırır.

*Əd.:* Azərbaycan Xalq Cürnhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Ağayev İ., XX əsrin əvvəllərində Azərbaycan şeri, B., 2002.

**DE-FAKTO** (latınca de-facto - "əslində", "faktiki olaraq") - beynəlxalq hüquqda dövləti, yaxud hökuməti tanıma formalarından biri; rəsmi olsa da, qəti tanıma deyil. De-fakto tanıma müəyyən hüquqi nəticənin əmələ gəlməsini nəzərdə tutsa da, müvəqqəti xarakter daşıyır və de-yure tanımaya bir növ keçid mərhələsidir.

**DE-YURE** (latınca de-jure - "hüquqa görə", "hüquqi baxımdan") - beynəlxalq hüquqda dövləti, yaxud hökuməti tam, qəti və rəsmi tanıma (bax həmçinin De-fakto).

**DENİKİN** Anton İvanoviç (16.12.1872, Varşava yaxınlığında - 8.8.1947, ABŞ, Miçiqan ştatı, Ann-Arbor) - rus hərbçisi, Oktyabr çevrilişindən (1917) sonra sovet hakimiyyətinə qarşı mübarizə aparmış hərbi qüvvələrin başçılarından biri, general-leytenant (1916). Birinci dünya müharibəsində (1914-18) briqada, diviziya, korpus komandiri, cəbhə komandanı olmuşdur. Generallar L.G.Kornilov və M.Alekseyevlə birlikdə Donda *Könüllü ordunun* yaradılmasında iştirak etmiş, Kornilov öldürüldükdən sonra ordunun komandanı olmuşdur (1918). "Rusiyanın cənubundakı silahlı qüvvələr"in baş komandanı kimi bolşevik hakimiyyətinə qarşı barışmaz mübarizə aparmışdır. Denikin 1918 ilin iyulunda Moskva üzərinə hücuma keçərək, sovet hökuməti üçün ciddi təhlükə yaratmışdı. Denikin qoşunları 1919 ilin yazında bütün Şimali Qafqazı tutub, Dağıstana girmiş, Azərbaycan sərhədlərinə gəlib çatmışdı. "Vahid və bölünməz Rusiya" şüarı ilə çıxış edən Denikin Rusiya imperiyasının əsarəti altında olan xalqların öz müqəddəratını təyin etmək hüququnu qətiyyən qəbul etmirdi. Denikin təhlükəsinə qarşı Azərbaycanda Dövlət Müdafiə Komitəsi yaradıldı, ölkədə hərbi vəziyyət elan olundu. Denikin ordusu ilə Azərbaycan arasında demarkasiya xətti müəyyənləşdirildi (bax *Könüllü ordu ilə Azərbaycan arasında demarkasiya xətləri).* 1919 il iyunun 16-da Denikin təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında hərbi-müdafiə paktı imzalandı. Azərbaycan Xalq Cümhuriyyəti Dağıstan xalqlarının Denikinə qarşı mübarizəsini dəstəkləmişdi. Hərbi uğursuzluqlar, sovet

ordusunun qaçılmaz qələbəsi şəraitində Denikin 1920 il fevralın 7-də Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanıdığını bildirmişdi.

1920 ilin martında Könüllü ordu Şimali Qafqazda sovet ordusu tərəfindən məğlub edildikdən sonra Denikin Krıma qaçmış, komandanlığı general Vrangelə təhvil verərək (1920, 4 aprel), xaricə mühacirət etmişdir.

1921

*Əd.* Азербайджанская Демократическая Республика (1918-1920); Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001.

**DENİKİN ORDUSU** - bax *Könüllü ordu.*

**"DENSTERFORS",** D ə n s t e r f o r s - Birinci dünya müharibəsi (1914-18) zamanı, 1918 ilin yanvarında general-mayor Denstervilin (Dənstervil) başçılığı ilə Mesopotamiyada yaradılmış B.Britaniya xüsusi hərbi ekspedisiyası. Rəsmən "Densterfors" adlanırdı. Denstervil missiyası B.Britaniya hökuməti üçün olduqca əhəmiyyətli idi (bax *Böyük Britaniyanın hərbi ekspedisiyası).* "Densterfors"un əsas məqsədi alman-türk qoşunlarının Əfqanıstan və Hindistana doğru hərəkətinə mane olmaq idi. Bağdad-Bakı-Buxara istiqamətində hərəkət etmək əmri aldıqdan sonra, Denstervil 12 zabit, 40 əsgər və "Ford"markalı 41 avtomobildən, həmçinin bir zirehli maşından ibarət dəstəsi ilə 1918 il fevralın 11-də Həmədana, 16-da Qəzvinə, 18-də Ənzəliyə çatdı. Ənzəli bolşevik əhvali-ruhiyyəli rus hərbçilərinin əlində olduğundan, Denstervil fevralın 25-də öz dəstəsi ilə Həmədana qayıtdı. Həmədan-Ənzəli yolu ilə yanaşı, Qafqaza Zəncan və Təbriz vasitəsilə də çıxmağın mümkünlüyü müzakirə olundu. Beləliklə, Denstervil Həmədandan Bakıya yürüş üçün bir neçə istiqamətdə qızğın fəaliyyətə başladı. 1918 ilin yazınadək ingilislər Cənubi Azərbaycanın bir sıra vilayətlərini tutdular və Xəzərin cənub sahillərində möhkəmləndilər. Rus ordusunun İranda qalmış kazak hissələrinin komandiri podpolkovnik L.Biçeraxovla yaxınlaşan Denstervil 1918 il martın ortalarında onunla saziş imzaladı. İngilislər L.Biçeraxovun kazak dəstələrinə Xəzər dənizinə nəzarəti təmin edəcək qüvvə kimi baxırdı. Göstərəcəyi xidmət müqabilində Denstervildən böyük məbləğdə pul alan L.Biçeraxov öz dəstəsiylə Denstervilin hərbi qüvvələrinə qatıldı və hazırlanmış plana uyğun olaraq, martın 28-də Qəzvini tutdu (bax *Biçeraxov ordusu).*

1918 il avqustun əvvəllərində B.Britaniya qoşunlarının Bakıya daxil olması üçün əlverişli şərait yarandı. Avqustun 1-də daşnak və eser-menşevik tör-töküntülərindən qurulan oyuncaq *"Sentrokaspi diktaturası"* hökuməti *Qafqaz İslam Ordusu* ilə mübarizədə Denstervildən yardım istədi. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi 300 zabit və əsgərdən ibarət ilk ingilis dəstəsi Bakıya gəldi. Avqustun 9-17 arası üç batalyon, bir səhra artilleriya batareyası və bir neçə zirehli maşından ibarət olan ingilis hərbi qüvvələri də Bakıya daxil oldular.

Denstervilin Bakıdakı hərbçilərinin sayı 1000-ə qədər idi. Ordu qərargahı "Avropa" (indiki Lukoyl şirkətinin binası) otelində, ordunun digər xidmətləri isə "Metropol" (indiki Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin binası) otelində yerləşdirilmişdi. “Sentrokaspi diktaturası” nın başçıları cəbhənin ingilislərə tabe etdirilməyəcəyini, yalnız onların nümayəndələrinin cəbhə qərargahına daxil ediləcəyini bildirsələr də, əslində, ingilislərin gəlməsi ilə Bakının qorunmasının təşkili onların nəzarəti altına keçdi. Cəbhə xəttinin ən vacib nöqtələrinə ingilis bölmələri yerləşdirildi. Müdafiə xəttinin sol cinahı Şimali Stafford alayına tapşırıldı. Bu alayın 100 nəfərlik bir dəstəsi cəbhə xəttinin mərkəzində yerləşdirildi. Denstervil yerli hərbi qüvvələrin hazırlıq səviyyəsindən, qeyri-peşəkar döyüş qabiliyyətindən narazı qaldı. İngilislərin bütün müdafiə xəttini qorumağa imkanı olmadığı üçün cəbhənin ən vacib sahələrinin qorunmasını öz üzərlərinə götürmüşdülər. Cəbhənin sol cinahından başqa Qurd qapısı yüksəkliyi də Şimali Stafford alayının nəzarəti altında idi. Bundan başqa bu alayın kiçik bir dəstəsi Palçıq Vulkanı yaxınlığına göndərilmişdi. Sonradan Bakıya gələn Vervik və Uorçester taborları məhz bu istiqamətə göndərilərək, oranın müdafiəsi gücləndirilmişdi. Ön xətdəki qoşunlara rəhbərlik polkovnik Keyvorta, bütün briqadaya rəhbərlik isə polkovnik Faviele həvalə olunmuşdu. Avqustun sonu üçün döyüşlər, başlıca olaraq, Binəqədi yüksəklikləri ətrafında cərəyan edirdi. İngilis qüvvələri ilə "Sentrokaspi" hissələri Bakıya doğru sıxışdırıldı. Şəhərin müsəlman əhalisi türklərə xilaskar kimi baxırdı. Britaniya komandanlığı aclıq çəkən şəhərdə əsgərlərini ərzaqla belə təmin edə bilmirdi. İngilislərin İrandan Bakıya hərbi sursat daşıması getdikcə çətinləşirdi. L.Biçeraxovdan yardım almağa çalışan Denstervil avqustun 20-də Dərbəndə yola düşsə də, yerli bolşeviklər buna mane oldular. Avqustun 25-də Ənzəliyə gələn Denstervil, avqustun 27-də oradan silah və sursatla Bakıya qayıtdı. Avqustun sonu üçün Bakını qorumağın faydasız olduğunu görən Denstervil geniş müşavirə keçirərək ordunu şəhərdən çıxarmaq qərarına gəldi. Qafqaz İslam Ordusunun qəti hücumu ərəfəsində ingilislər gəmiləri səfər üçün hazırlayırdılar. Sentyabrın 14-də axşam şəhəri tərk etmək qərara alındı. Xəstələr, yaralılar "Kursk" və "Abo" gəmilərində, silah, sursat və şəxsi heyətin əsas hissəsi isə "Prezident Kryuger"də yerləşdirilmişdi. Bakıdan çıxarılan adamların sayı 1300 nəfərə çatırdı. Onların 900 nəfəri döyüşçü, 400 nəfəri isə arxa cəbhədə çalışanlar idi. Denstervilin gəmisi Bakını sonuncu tərk etdi. Sentyabrın 19-da Ənzəliyə çatdıqdan sonra "Densterfors" rəsmən buraxıldı, bir qismi isə Şimali İran ordusu adlanan 14-cü diviziyaya qatıldı. Şimali İran ordusuna general U.Tomson komandan təyin edilmişdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Əhmədova F., Azərbaycan Xalq Cümhuriyyətinin siyasi tarixində Böyük Britaniyanın yeri, "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları, B., 5 may 2003; Денстервиль, Поход на Кавказ и Персию. Мемуары, Тифлис , 1925; Юсифзаде С.З., Первая Азербайджанская Республика: история, события, факты англо – азербайджанских отношений, Б., 1998.

**DENSTERVİL,** D ə n s t e r v i l (?-?)- B.Britaniya hərbçisi, general-mayor. 1918 ilin yanvarında Mesopotamiyada yaradılmış B. Britaniya xüsusi hərbi ekspedisiyasına



*Dərbənd qalasının ümumi görünüşü. 19 əsrin sonuna aid açıqca*

(bax *Böyük Britaniyanın hərbi ekspedisiyası)* başçılıq etmişdir. Denstervilin başçılıq etdiyi hərbi qüvvə "Denster-fors" adlandırılmışdı. Denstervil 1918 ilin avqustundan sentyabrın 15-dək Bakını işğal etmiş B.Britaniya hərbi hissələrinin komandanı olmuşdur. Türk-Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusunun təzyiqinə davam gətirməyərək, 1918 il sentyabrın 14-dən 15-nə keçən gecə Bakını tərk etmişdir.

Əsəri: Поход в Кавказ и Персию. Мемуары, Тифлис, 1925.

**DEPORTASİYA** (latınca deportatio - məcburi köçürülmə, qovulma, sürgün) - Azərbaycan hüquqi sənədlərində azərbaycanlıların tarixi-etnik torpaqlarından, əsasən, Ermənistan ərazisindəki əzəli torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olunması nəzərdə tutulur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "1948-1953 illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997 il 18 dekabr tarixli fərman imzalamışdır. Ətraflı məlumat üçün bax *Köçürmə siyasəti.*

**DƏRBƏND** - qədim Azərbaycan şəhəri, dünyanın ən qədim şəhərlərindən biri. Şimalı Cənubla, Avropanı Yaxın və Orta Şərqlə əlaqələndirən mühüm hərbi-strateji məntəqə. Dərbənd Azərbaycan dövlətləri olan Qafqaz Albaniyası, Şirvanşahlar, Səfəvilər və Fətəli xanın başçılıq etdiyi Şimali-Şərqi Azərbaycan dövlətinin tərkibində olmuşdur. 1796 ildə rus qoşunları tərəfindən işğal olunduqdan sonra, Dərbəndi daim Azərbaycan torpaqlarından təcrid etmək siyasəti yeridilmişdir. Buna baxmayaraq, Dərbənd və Şimali Qafqazdakı digər Azərbaycan torpaqları Bakı ilə sıx iqtisadi əlaqələrini həmişə davam etdirmişlər. Azərbaycan Xalq Cümhuriyyəti onu öz ərazisi hesab etdiyini bildirmişdi.

Petrovsk-Port (Mahaçqala)-Dərbənd-Biləcəri dəmir yol xəttinin çəkilişinin (1900) Dərbəndin Azərbaycanla iqtisadi əlaqələrinin davam və inkişaf etdirilməsində mühüm əhəmiyyəti oldu. Qafqaz təqviminin (1917) məlumatına görə şəhərin əhalisi 31168 nəfərə bərabər idi. Onlardan 18438 nəfəri yerli, 12730 nəfəri müvəqqəti yaşayanlar idi. Şəhər əhalisinin 19864 nəfəri kişi, 11304 nəfəri qadın idi. Əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. 1917 ilin fevralında Dərbənd fəhlə və əsgər deputatları soveti yaradıldı, dekabrda sovet hakimiyyəti elan olundu. 1918 ilin iyulunda L.Biçeraxovun 12 minlik ordusu Dərbəndə hücum edərək, avqustun 3-də şəhəri tutdu. Oktyabrın 6-da türk qoşunları Dərbəndi tutsalar da, Birinci dünya müharibəsinin (1914-18) yekunlarına görə dekabrda şəhəri tərk etməli oldu. 1919 ilin mayında Dərbənd Denikin ordusunun işğalına məruz qaldı. 1920 il martın 25-də 11-ci Qırmızı ordunun köməyi ilə Dərbənddə sovet hakimiyyəti elan olundu. 1921 ildə yaradılmış Dağıstan Muxtar Sovet Sosialist Respublikasının tərkibinə daxil edildi. Bununla Dərbənd, faktiki olaraq, Azərbaycanın inzibati-ərazi tərki-bindən ahnaraq Rusiya Sovet Federativ Sosialist Respublikasının tərkibinə qatıldı. Sovet Sosialist Respublikaları İttifaqı dağıldıqdan sonra isə Dərbənd Rusiyanın tərkibində qaldı.

*Əd.:* Həsənov Cənubi Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Султанов С.А., Дербент. История возникновения и развития, Дербент, 2003.

**DƏRƏLƏYƏZ** - Azərbaycanın Naxçıvan mahalında tarixi bölgə; şimalda Basarkeçər yaylası, şərqdə Zəngəzur silsiləsi, cənubda Ələyəz dağları, qərbdə isə Səlim aşırımı yerləşən hündür dağlarla əhatə olunmuşdur. Ümumi sahəsi 2304 *kv.km-dir.*



Dərələyəz silsiləsi

Ən qədim dövrlərdən başlayaraq Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş türk tayfalarının məskunlaşdığı Dərələyəz-Ələyəz dərəsi toponimi orta əsrlərdə inzibati-ərazi bölgüsü mənasında işlənməklə, geniş ərazini əhatə etmişdir. 18 əsrin əvvəllərində Osmanlı dövlətinin idarəsi altında olmuş Naxçıvan sancağının 14 nahiyəsindən biri də Dərələyəz idi. Bu dövrdə Dərələyəz nahiyəsi 102 kəndi əhatə edirdi. Xalq bölgüsünə görə, 3 hissəyə ayrılırdı: Şərqi Dərələyəz, Qərbi Dərələyəz və inzibati-ərazi bölgüsünə əsasən tarixən Dərələyəzə aid edilən Şərurun dağlıq hissəsi.

Rusiya ilə İran arasında imzalanmış *Türkmənçay müqaviləsindən {1828)* sonra Rusiyanın tərkibinə qatılan Dərələyəz bölgəsi İran və Türkiyədən buraya köçürülən ermənilərin hesabına etnodemoqrafik dəyişikliklərə məruz qalmışdır; köçürmələrə qədər bölgədəki ailələrin böyük əksəriyyətini - 94,1%-ni azərbaycanlılar, cəmisi 5,8%-ni ermənilər təşkil edirdisə, köçürmələrdən sonra erməni ailələri 25,8%-ə çatmışdı. Çar hökumətinin Cənubi Qafqazda apardığı inzibati islahata əsasən, 1870 ildə Dərələyəz İrəvan quberniyasının tərkibində yaradılan Şərur-Dərələyəz qəzasına daxil edilmişdi. 1897 il məlumatına görə, Dərələyəzin sahəsi 2972,3 *kv.km,* əhalisi 76.551 nəfər idi; həmin məlumata görə, əhalinin 70,5%-i azərbaycanlı, 27,5%-i erməni olmuşdur. Ermənistanda daşnak ağalığı dövründə (1918-20) Dərələyəzin azərbaycanlı əhalisi dəhşətli soyqırımına məruz qalmış, sağ qalanlar isə öz doğma yerlərini tərk etməyə məcbur edilmişlər. Sovet hakimiyyəti illərində Dərələyəz bölgəsi, heç bir əsas olmadan, Azərbaycandan qoparılıb Ermənistana verilmişdir.

Azərbaycanlılara qarşı soyqırımı siyasəti bütün 20 əsr boyu davam etdirilmiş və nəhayət, əsrin sonunda onlar indiki Ermənistan ərazisindən, o cümlədən Dərələyəzdən zorla deportasiya olunmuşlar.

Dərələyəz Naxçıvan mahalının qədim mədəniyyət mərkəzlərindən olmuşdur. Qəbiristanlıqlardakı daş qoç heykəlləri, memarlıq abidələri bölgənin əzəli Azərbaycan torpağı olduğunu sübut edir. Tarix boyu ermənilər Azərbaycan torpaqlarını "özününküləşdirmək" məqsədilə buradakı abidələr üzərindəki kitabələri saxtalaşdırmış və yaxud məhv etmişlər. Dərələyəzdəki Azərbaycan-türk abidələri də bu cür məhv edilmiş, kitabələr isə saxtalaşdırılmışdır.

*Əd.* Hacı Qədir Qədirzadə, Naxçıvanın tarixi türk diyarı-Dərələyəz. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 1999, №4; Dərələyəzli K., Dərələyəz od içində. B., 2001.

**"DİFAİ"** - Azərbaycan milli partiyası. 1906 ilin ortalarında yaranmışdı. Əsasını Əhməd bəy *Ağayev* qoymuşdur.

1905 ilin erməni-müsəlman qırğınlarından sonra ermənilərlə azərbaycanlıları barışdırmaq məqsədilə fevralın 20-dən martın 6-dək Tiflisdə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun sədrliyi ilə qurultay keçirildi. Qurultayda ermənilərin inadkarlığı və barışmaz mövqeyi ilə üzləşən azərbaycanlı nümayəndələrin bir hissəsi erməni tenorçularına qarşı duruş gətirə biləcək mütəşəkkil müsəlman təşkilatının yaradılması haqda qərar qəbul etdi. Qurultaydan sonra 1906 ilin qış, yaz və yayında daşnaklar Şuşada və bütün Qarabağda, Naxçıvan və İrəvanda azərbaycanlılara qarşı soyqırımları törətdilər. Dinc azərbaycanlı əhaliyə divan tutuldu. Avqustun ilk günlərində Əhməd bəy Ağayev Şuşaya gəlib, nüfuzlu şəhərlilərin iştirakı ilə yığıncaq keçirdi və onun təşəbbüsü ilə Qafqaz ümummüsəlman müdafiə komitəsi -"Difai" partiyasının yaradılması haqqında qərar qəbul edildi. Ə.Ağayevin özünün rəhbərlik etdiyi Mərkəzi Komitə Bakıda yerləşirdi. Polis sənədlərində Mərkəzi Komitənin tərkibinin 6 nəfərdən ibarət olduğu göstərilmişdir. "Difai"yə "hümmətçilər - Qara bəy Qarabəyov, Məmməd Həsən Hacınski, İsa bəy Aşurbəyov, Behbud xan Cavanşir, N.Behbudov və b. da daxil idilər. Lakin onların partiya işində iştirakı daha çox rəmzi xarakter daşıyırdı, çünki "Difai" əsasən, Bakıdan kənarda, Azərbaycanın şimal-qərb qəzalarında fəaliyyət göstərirdi. "Difai" partiyasının ilk çağırışları 1906 il oktyabr ortalarına aiddir.

“Difai” təşkilatının emblemi



Azərbaycanın əksər qəzalarında geniş fəaliyyət göstərən və əhali arasında kifayət qədər məşhurlaşan "Difai" partiyası üzvlərinin ümumi sayı 1000 nəfərə çatırdı. "Difai" 1917 ilədək üzvlərinin sayına, eləcə də kütlə arasında nüfuzuna görə, əslində, ən böyük milli partiya idi. Partiyanın sosial bazasını cəmiyyətin orta təbəqələri, eləcə də ruhanilər təşkil edirdi. Partiyanın möhüründə tiyəsi yuxarı yönələn iki çarpaz qılınc və aypara təsvir olunmuşdu.

"Difai"nin ən fəal və nüfuzlu komitələrindən biri Gəncə (Yelizavetpol) komitəsi idi. Komitəyə Yelizavetpol kişi gimnaziyasının hüquq müəllimi axund Məhəmməd Pişnamazzadə sədrlik edirdi. Onun köməkçisi vəzifəsini Gəncənin tanınmış ictimai xadimi Ə.Rəfibəyli yerinə yetirirdi. Komitəyə H.Usubbəyov (Nəsib bəy *Yusifbəylinin* qardaşı), Ə.Xasməmmədov (Xəlil bəy *Xasməmmədovun* qardaşı), M.Ə.Rəfiyev, M.Qazıyev, Molla İsmayılzadə, Q.M.Həmzəyev və b. daxil idilər.

"Difai" partiyasının ən çoxsaylı və fəal şöbəsi Şuşada yerləşirdi. Bu şöbə 1907 ilin ortalarından "Qarabağ birlik məclisi" adlandırıldı. Məclisin təsir dairəsinə Azərbaycanın Zəngəzur, Qaryagin, Cavanşir qəzaları daxil idi. Doktor Kərim bəy Mehmandarovun rəhbərlik etdiyi Məclisin Şuşa komitəsinin tərkibinə Cahangir xan Nuribəyov, X.Quliyev, M.Ş.Hacıyev, M.Muradov, M.Ə.Əzimov, H.Münşiyev və b. (cəmi 18 nəfər) daxil idi.

Ağdam komitəsinə Zülfüqar bəy Haqverdiyev rəhbərlik edirdi. Komitənin üzvləri S.Rüstəmbəyov, B. və Ş.Kazımbəyovlar, C.Vəzirov, M.M.İbrahimov, D.Ağamirzəyev, Q.Cavanşir və b. idilər. Bərdə komitəsinin rəhbəri Məşədi Mehdi Hacı Şərif, eyni zamanda, daşnak təcavüzünə qarşı yaradılmış silahlı drujinaya başçılıq edirdi. Bərdə, Tərtər, Cəbrayil, Qaryagin komitələrinə 15 nəfərdən 30 nəfərə qədər üzv daxil idi.

"Difai"nin əsas vəzifələrindən biri də silahsız türk-müsəlman əhalini yaxşı təşkil edilmiş və silahlanmış daşnak quldur dəstələrindən ("xumbalarından") qorumaq üçün hərbi drujinalar yaratmaq, həmçinin silahlı əməliyyatlar, terror aktlarının və qırğınların əsas təşkilatçısı olan çar hökumətini öz təxribatçı əməllərindən əl çəkməyə məcbur etmək idi.

"Difai" partiyası proqramının əsas müddəaları Ə.Ağayev tərəfindən nəşr edilən "İrşad" qəzetində işıq üzü görmüş layihədə öz əksini tapmışdı. Partiya əsas məqsədini öz xalqını son zamanlar meydana çıxmış erməni-müsəlman toqquşmalarından, sosial-siyasi və mədəni gerilikdən xilas etməkdə görürdü. Partiya erməni terrorçularına qarşı silahlı mübarizəni öz məqsədlərinin həyata keçirilməsi metodlarından biri kimi elan etməyə məcbur olmuşdu. Proqramda deyilirdi ki, "erməni bombalarının qorxusu altında iş görən hökumət adamlarının qanunsuz əməllərinə qarşı Difai bomba və qılıncla çıxacaq". Bununla yanaşı, proqramda bildirilirdi ki, "Difai" hər hansı bir xalqın hüquqlarına təcavüz edən təşkilat deyil. "Difai" daşnaklara bəyan etmişdi ki, öz çirkin əməllərindən əl çəkib, Qafqaz xalqlarının bərabər inkişafına çalışacaqları halda, onlarla da əməkdaşlıq etməyə hazırdır.

1907 ildə "Qarabağ birlik məclisi"nin də 52 bənddən ibarət proqrafnı çap olundu. Bu proqram "Difai"nin birinci proqramının daha geniş variantı sayıla bilər. Proqramda müsəlmanların məzhəblərə ayrılması qətiyyətlə pislənilir, bu hallara yol verənlərin cəmiyyətdən uzaqlaşdırılmalı olduğu göstərilirdi. Müsəlman icmasından heç kim Məclisin icazəsi olmadan hökumət idarələrinə səlahiyyətli nümayəndə seçilə bilməzdi. Erməni-müsəlman toqquşmalarına səbəb ola biləcək şayiə yayanlar və təhlükəli əşyalar satanlar cəzalandırılıb şəhərdən çıxarılmalı idilər. Aqrar məsələ proqramda radikal həllini tapmışdı: torpaq zəhmətkeşlərin arasında bərabər şəkildə bölünməli idi. 1906-08 illər ərzində "difai"çilər bu istiqamətdə, yəni torpaqların mülkədarlardan alınıb, kəndlilər arasında bölüşdürülməsində bir sıra tədbirlər həyata keçirmişdilər.

"Difai"çilərin təbliğat fəaliyyəti cəmiyyət həyatının bütün sahələrini əhatə edirdi. 1907 ilin avqustunda tərtib edilmiş polis raportunda, "Difai"nin artıq ən ucqar kəndlərdə belə nümayəndələrinin olmasından və onların əhalini mütləqiyyətin siyasəti ilə tanış etdiklərindən, sadə xalqın məktəbə inanmağa başladığından, bir sözlə, son bir-iki il ərzində yerli əhalidə, xüsusilə Qarabağda ictimai işlərə marağın artmasından bəhs olunur. Yelizavetpol (Gəncə) quberniyasının bir çox yerlərində əhali ən ciddi problemlərlə bağlı hakimiyyət strukturlarına deyil, "Difai"nin komitələrinə müraciət edirdi. Məsələn, 1907-08 illərdə Cavanşir qəzasında 38 kənd icmasından yalnız 8-i hakimiyyət orqanlarına tabe olurdu, qalan kəndxudalar isə "Difai"nin rəhbərliyi altında işləyirdi. Bərdə qəzasında Məşədi Mehdinin rəhbərliyi ilə "Difai" komitəsi kəndlilərin bəylərə qarşı çıxışlarını təşkil etmiş və komitə üzvləri buna görə polis tərəfindən həbs olunmuşdular.

1906 ilin sonunda "difai"çilər Şuşa qeneral-qubernatoru V.N.Qoloşapovu və onun dəftərxana müdiri Kleşinskini qətlə yetirdilər. Onlar 1906 ildə Şuşada ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınların qarşısını almamaqda, əksinə, ermənilərə kömək göstərməkdə günahlandırılırdılar. 1907 ildə Naxçıvan qəza rəisi podpolkovnik Enqel də eyni ittihamla qətlə yetirilmişdi. Hər bir aksiyadan sonra "difai"çilər bəyanat verir, məsuliyyəti öz üzərlərinə götürürdülər. Qəzetlərə göndərilən bəyanatlarda bu qətllərin səbəbini izah edir, müsəlmanlar əleyhinə siyasət yeridənlərin hamısını bu cür aqibətin gözlədiyini bildirirdilər. Aksiyaları, əsasən, Şuşa və Gəncə komitələri həyata keçirirdi. Əlamətdar haldır ki, bu qisas aksiyalarından sonra azərbaycanlılara qarşı təxribatlar və qırğınlar səngiyirdi.

"Difai"çilərin topladığı böyük məbləğdə vəsaitin bir hissəsi İran və Türkiyə inqilabçılarına köməyə göndərilirdi. Gənc türklərə canlı qüvvə və silahla yardım edilirdi.

1908 ildə çar hakimiyyət orqanları "Difai"nin üzvlərinə qarşı repressiyalara başladı. Qafqaz canişini 1908 il 4 mart tarixli fərmanla "Difai" partiyasını qadağan etdi. ƏAğayev repressiyalara məruz qaldı, onun qəzetləri bağlandı, özü təqib edilməyə başladı. Nəticədə, Ə.Ağayev Türkiyəyə mühacirətə getməyə məcbur oldu. "Qarabağ birlik məclisi"nin, Gəncə, Bərdə komitələrinin üzvləri kütləvi surətdə həbs edildilər. Repressiyalar, faktiki olaraq, partiyanı başsız qoydu. Lakin partiyanın fəaliyyəti, passiv də olsa, 1917 ilə kimi davam etmişdi. Balkan və Birinci dünya müharibəsi illərində "Difai"nin fəaliyyətində canlanma baş verdi. Bəzi sənədlərə əsasən, hələ 1915 ildə "Difai" və türk komandanlığı nümayəndələrinin Bakı, Gəncə, İrəvan quberniyaları və Dağıstan da daxil olmaqla, müstəqil respublika yaratmaq barədə danışıqları olmuşdu.

"Açıq söz" qəzetinin 1917 il oktyabrın 13-də yazdığına görə, Azərbaycan siyasi partiyalarının Gəncə müşavirəsində "Nicat" və "Difai" inqilabi partiyalarının nümayəndələri proqramları uyğun gəldiyi üçün "Müsavat" partiyasına daxil olmuşdular.

*Əd:.* Seyidzadə D.B., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 1998; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat, B., 1999; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997; Ахмедов А., Азербайджанские тюрки в революции 1905 г., В., 2002.

**"DİKAYA DİVİZİYA"** - Birinci dünya müharibəsi (1914-18) dövründə Qafqazın müsəlman əhalisindən təşkil edilmiş süvari diviziya. Çar Rusiyasında müsəlman əhali, o cümlədən Qafqaz müsəlmanları kütləvi şəkildə hərbi xidmətə cəlb olunmurdular. Lakin müharibənin gedişində cəbhənin möhkəmləndirilməsi üçün Qafqaz müsəlmanlarının süvari qoşunda döyüşmək bacarıqlarını nəzərə alaraq, onlardan ibarət yeni atlı diviziyanın yaradılması qərara alındı. 3-cü süvari korpusun (Qərb cəbhəsi) tərkibində olan "Dikaya diviziya" (diviziyanın adı həm şəxsi heyətin şücaəti, həm də onların nizami döyüş hazırlığı keçməməsi ilə əlaqədar idi) 6 kiçik tərkibli alaydan - Dağıstan, Kabarda, Tatar (azərbaycanlı), Çeçen, İnquş və Çərkəz alaylarından ibarət idi. Diviziyanın tabeliyinə, həmçinin, Osetin piyada briqadası və 8-ci Don topçu divizionu verilmişdi. "Dikaya diviziya"nın komandiri general D.P.Baqration idi.

Diviziyanın zabit heyətini, əsasən, rus qvardiya zabitləri, həmçinin, yerli zadəgan nümayəndələri təşkil edirdi. "Dikaya diviziya"nın ümumi sayı 1350 süvaridən ibarət idi. Xüsusi hərbi hazırlıq görmədiyinə və könüllülük əsasında yaradıldığına görə, diviziyanın şəxsi heyətinə müəyyən güzəştlər verilmişdi. Onların hər biri ayda 25 rubl məvacib alırdı. Rusiyada çar hakimiyyəti devrildikdən və Müvəqqəti hökumət yaradıldıqdan sonra korpusun siyasiləşdirilməsinə cəhd göstərilməsi, bir tərəfdən, bolşeviklərin, digər tərəfdən, Müvəqqəti hökumətin ondan öz siyasi maraqları üçün istifadə etməyə çalışması bu hərbi qurumun dağılmasına gətirib çıxardı. Nəticədə 1917 ilin sonlarında "Qafqazın yerli əhalisindən təşkil edilmiş atlı korpus" ləğv edildi.

"Dikaya diviziya"ın Azərbaycanla bağlayan onun tərkibindəki *"Tatar süvari alayı"* idi. Alayın əsgərləri, əsasən, Qarabağ və Gəncəbasar bölgələrindən toplanmışdı. Korpusun ləğvindən sonra alayın atlıları vətənə döndülər. *Müsəlman korpusunun* formalaşdırılmasına başlananda, tatar alayında xidmət etmiş süvarilərin böyük hissəsi könüllü şəkildə Gəncəyə toplaşdılar. Həmin süvarilərin əsasında yenidən "Tatar süvari alayı" təşkil olundu və Müsəlman korpusunun süvari briqadasının tərkibində müəyyən dəyişikliklərlə Cümhuriyyətin süqutuna qədər öz mövcudluğunu saxladı.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999; Великая Октябрьская Социалистическая Революция. Энциклопедия. М., 1987.

**DİNİ ETİQAD NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Dini Etiqad Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyətinin dini etiqad məsələləri ilə məşğul olan icra hakimiyyəti orqanı. Milli ənənələrə qayıtmaq, əhalinin dini ehtiyaclarını ödəmək məqsədilə yaradılmışdı. 1918 il iyunun 19-da Fətəli xan Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci Hökumət kabinəsində Azərbaycan Cümhuriyyəti Xalq Maarifi və Dini Etiqad Nazirliyi adı ilə formalaşdırılmış və Nəsib bəy Yusifbəyli nazir təsdiq olunmuşdu.

*"Dikaya diviziya"nın Azərbaycan (tatar) süvari alayı günorta namazında. Öndə alayın baş axundu şair Məhəmməd Hadi*



Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il sentyabrın 17-də Bakıya köçdükdən sonra oktyabrın 6-da Fətəli xan Xoyskinin 2-ci Hökumət kabinəsində dəyişiklik aparılmış, himayədarlıq və dini etiqad nazirliyi yaradılmış, Musa bəy Rəfiyev nazir təyin edilmişdi. 1918 il dekabrın 26-da Fətəli xan Xoyski 3-cü Hökumət kabinəsini təşkil edərkən himayədarlıq nazirliyi müstəqil nazirlik kimi təsis olunmuş, dini etiqad məsələləri yenə də xalq maarifi nazirliyinə həvalə olunaraq, xalq maarifi və dini etiqad nazirliyi yaradılmış, Nəsib bəy Yusifbəyli nazir təyin olunmuşdu.

Nəsib bəy Yusifbəylinin 1919 il aprelin 14-də və dekabrın 22-də təşkil etdiyi 4-cü və 5-ci Hökumət kabi-nələrində də Xalq Maarifi və Dini Etiqad Nazirliyi birlikdə olmuş, nazir vəzifəsini 4-cü Hökumət kabinəsində Rəşid bəy Qaplanov, 5-ci Hökumət kabinəsində isə əvvəlcə Həmid bəy Şahtaxtinski, sonra Nurməmməd bəy Şahsuvarov icra etmişdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin 1920 il üçün buraxılmış Ünvan-təqvimində başqa nazirliklərin fəaliyyəti haqqında məlumatlar verildiyi halda, dini etiqad nazirliyi barədə yalnız bunlar deyilmişdir: dini etiqad naziri (o, həm də xalq maarifi naziri idi) Həmid bəy Şahtaxtinski, nazirliyin katibləri Rza Şahbazbəyov və Q.A.Çerqeştov, xüsusi tapşırıqlar məmuru Yusif əfəndi Əfəndizadə və qeydiyyatçı Mahmud Mahmudovdur.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календари Азербайджанской Республики на 1920 г.,В., 1920; Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti. 1918-1920, B., 1990.

**DİVANBƏYOĞLU,** Sübhanverdixanov Abdullabəy Vəli ağa oğlu (1.1.1883, Qazax qəzasının Hüseynbəyli k.- 2.9.1936, Bakı) - Azərbaycan yazıçısı, maarif xadimi, etnoqraf, folklorşünas. Müflisləşmiş bəy ailəsində doğulmuşdur. *Qori müəllimlər seminarıyasını* bitirmiş, Bakı Dövlət Universiteti tarix fakultəsinin Şərq şöbəsində təhsil almışdır. Bir müddət Acarıstanda, 1904 ildən isə Bakıda müəllimlik etmiş,"Nəşri-maarif" və "Nicat" xeyriyyə cəmiyyətlərində yaxından fəaliyyət göstərmişdir. AzərbaycanXalq Cümhuriyyəti dövründə daxili işlər nazirliyində tərcüməçi işləmiş, qeyri-türk məmurların yenidən hazırlanması üçün dövlət tərəfindən təşkil edilmiş kurslarda Azərbaycan dili fənnindən dərs demişdir.



Sovet hakimiyyəti illərində xalq maarif komissarlığında fəaliyyət göstərmiş, qəzalarda məktəblərin təşkilində iştirak etmiş, dərslik və sinifdənkənar oxu üçün ədəbiyyat hazırlayan şöbənin üzvü olmuşdur. Ali Pedaqoji İnstitutda, Zaqafqaziya hərbi məktəbində müəllim, nümunəvi pedaqoji texnikumda müdir, Azərbaycan Dövlət Universitetində, Sənaye institutunda, Xalq təsərrüfatı institutunda assistent və dosent vəzifələrində çalışmışdır. Azərbaycan Dövlət Arxivinin müdiri, Azərbaycan Elmi Tədqiqat İnstitutunun tarix şöbəsinin elmi katibi olmuşdur. Tarix, etnoqrafiya, folklor və təbiətşünaslıq sahəsində elmi tədqiqat aparmış, "Elmi-heyvanat" dərsliyini, "Müctəhid feodal Ağa Mir Fəttah", "Şəki xanlarının tarixi və onların nəsli", "Folklor materiallarının təsnifi", "Türk sistemli kəndlərdə totemizm", "İran və Osmanlı məsələsi" əsərlərini yazmış, beş cildlik Azərbaycan tarixini yazmaq üçün material toplamışdır.

Divanbəyoğlu bədii yaradıcılığa 20 əsrin əvvəlində başlamış, "Əbdül və Şahzadə" (1902), "Canyanğısı" (1903), "İlan" (1906), "Fəhlə" (1907), "Ərdoy dərəsi" (1920), "Cəng" (1911) və s. romantik povest və hekayələrin müəllifi kimi məşhurlaşmışdır. Əsərləri mövzu aktuallığı və orijinallığı, təhkiyə üslubunun yeniliyi ilə seçilir.

Əsərləri: Əbdül və Şahzadə, B., 1966; Can yanğısı, B., 1981.
*Əd.:* Bəktaşi İ., Abdulla bəy Divanbəyoğlu, B., 1985.

**"DOKUMENTI PO RUSSKOY POLİTİKE V ZAKAVKAZYE"** ("Rusiyanın Zaqafqaziya siyasətinə dair sənədlər")-19 əsrin sonları - 20 əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqaz siyasətinə dair Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunmağa başlanmış sənədlər toplusu. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti çar Rusiyasının Cənubi Qafqaz siyasətinin öyrənilməsinə böyük əhəmiyyət verirdi. Bu elmi-tarixi maraqla bərabər, praktik cəhətdən də zəruri hesab olunurdu. Cənubi Qafqaz müsəlmanlarına münasibətdə Rusiyanın həyata keçirdyi siyasətə dair materialların toplanması və nəşri üçün xarici işlər naziri Məmməd Yusif Cəfərovun sərəncamı ilə xüsusi komissiya yaradılmışdı. Komissiyaya Arslan Kriçinski (sədr), Məhəmməd Ağayev, Konstantin Sulkeviç və Əli Yusif (sonra onu Hüseyn bəy Mirzəcamalov əvəz etmişdi) daxil idi. Xüsusi komissiya Bakı şəhəri və onun hüdudlarından kənarda olan bir sıra arxivlərdə araşdırmalar aparmışdı. Arxivlərdən toplanmış materialların ayrı-ayrı buraxılışlarda nəşri nəzərdə tutulurdu. İlk buraxılış yaxın onilliklərdə Rusiya siyasətinin icmalını, sonrakı nəşrlər Cənubi Qafqazın Rusiya tərəfindən işğalından sonrakı dövrü əhatə etməli idi. Keçmiş Qafqaz canişinliyinin digər bölgələrinə dair materiallar da çap olunmalı idi. Nəzərdə tutulan materialların yalnız birinci hissəsi işıq üzü gördü. Sənədlər toplusunda çap olunan materiallar aşağıdakı şəkildə qruplaşdırılmışdı: 1) milli hərəkatla mübarizə; 2) dini tədbirlər; 3) maarif və mədəniyyətlə mübarizə; 4) millətlər-arası münasibət; 5)immiqrasiya; 6) müstəmləkələşdirmə və iqtisadi siyasət; 7) əhalinin tərksilah edilməsi; 8) hərbi mükəlləfiyyət və məcburi işlər; 9) inzibati polis qəyyumluğu.

Hər bir hissədə sənədlər xronoloji ardıcıllıqla verilmişdi. Ön sözdə göstərilirdi ki, hazırda Azərbaycanın müstəqil həyat keçirdiyi bir şəraitdə, tarixin bütün gedişi ilə mühakimə olunan köhnə qaydaları bərpa etməyə cəhd göstərən siyasi qruplar tapılır.

Nəşr olunan sənədlər keçmiş imperiyanın elə cinayətlərini açmalıdır ki, keçmişə qayıtmağın qeyri-mümkünlüyü aydın olsun. Bununla yanaşı, həmin sənədlər ictimai dairələri Azərbaycan türklərinin siyasi və milli arzuları ilə tanış etməli idi. Naşirlərin fikrincə, bu, türk və rus demokratiyası arasında qarşılıqlı anlaşmaya gətirməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sənədlər toplusunun nəşri yarımçıq qaldı. Sovet hakimiyyəti dövründə Rusiya çarizminin Azərbaycanda müstəmləkəçilik siyasətinə dair sənədlər toplusu çap olunsa da, burada əvvəlki təcrübə nəzərə alınmamış, sənədlərin təsnifatı başqa cür aparılmış, məqsəd də əvvəlkindən tamamilə fərqli olmuşdur.

*Əd.:* Документы по русской политике в Закавказье. Вып. первый. Изд. Особой Комисси при Министерстве Иностранных дел Азербайджанской Республики, Б., 1920; Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в., т. 1-2, М.-Л, 1936-1937.

**DON HÖKUMƏTİ,** Don Respublikası hökuməti - Rusiyada Oktyabr çevrilişindən (1917) sonra Don bölgəsində yaranmış hökumət. Rusiya hökumətinin 1887 ildə keçirdiyi inzibati-ərazi bölgüsünə əsasən, Rostov vilayəti ilə Taqanroq şəhəri Don Qoşunu vilayətinə daxil edilməklə, Şimali-qərbi Qafqazın bir hissəsi Don kazaklarının idarəsinə keçdi. Oktyabr çevrilişindən sonra Sovet hakimiyyətinə tabe olmaqdan boyun qaçıran Don kazakları öz hakimiyyət orqanlarını yaratdılar. 1918 il maym 8-də alman ordusunun köməyilə bolşeviklər Don vilayəti ərazisindən qovuldu, mayın 26-da isə Don kazaklarının dairəsi "Böyük Don Qoşunu" hökuməti yaradılmasını elan etdi. Ataman P.Krasnovun başçılıq etdiyi bu hökumətin 65 minlik ordusu var idi. 1919 ilin yanvarında bu ordu general A.Denikinə tabe edildi və həmin ilin payızında Moskva üzərinə yürüşdə iştirak etdi.

Don Respublikası hökuməti Paris sülh konfransında (1919-20) iştirak etmək üçün öz nümayəndə heyətini 1919 ilin əvvəlində İstanbula göndərmiş, lakin onlar da Rusiyanın cənubunda yeni yaranmış dövlətlərin nümayəndələri ilə birlikdə bu şəhərdə ləngiməli olmuşdular. Bu nümayəndələrin müttəfiq dövlətlərin İstanbuldakı komandanlığına ünvanladıqları müraciətdə Don əhalisinin həm bolşeviklərin, həm də köhnə rejimi bərpa etmək istəyən bir qrup məsuliyyətsiz adamların yaratdığı qurama təşkilatların təhlükəsi altında qaldığı bildirilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 il iyunun 26-da özünün Kubandakı diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəyova əlavə mandat göndərərək, ona Don hökuməti yanında Azərbaycan Xalq Cümhuriyyətini təmsil etmək səlahiyyəti verdi. Həmin il sentyabrın 24-də isə Xosrov bəy Sultanov Azərbaycan Hökumətinin Rostovda konsul-agenti təyin edildi.

1920 ilin yanvarında Qırmızı ordu Rostovu və Novoçerkasskı tutdu, martda isə bütün Don vilayətini ələ keçirərək, Don Respublikası hökumətinin varlığına son qoydu.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Борьба за власть Собетов на Дону в 1917 – 1920 гг. (сборник документов), Ростов на/ Д., 1957; Хмелевский К. А., Лрах красновщины и немецкой интервенции на Дону (апрель 1918 март 1919 года), Ростов на/Д., 1965.

**DÖRDLƏR İTTİFAQI** - Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və Bolqarıstan arasında bağlanmış hərbi ittifaq və Birinci dünya müharibəsində (1914-18) Antantaya qarşı vuruşmuş koalisiya. 1879-82 illərdə Almaniya, Avstriya-Macarıstan və İtaliyanın hərbi-siyasi bloku yaranmışdı.

Dünya müharibəsi başladıqda, İtaliya "Üçlər İttifaqı"ndan çıxaraq ona daha çox qənimət vəd edən Antantaya qoşulmuşdu. Əvəzində Bolqarıstan və Osmanlı dövləti Almaniya və Avstriya-Macarıstan ittifaqına qoşulmuş, beləliklə, Üçlər İttifaqı Dördlər İttifaqına çevrilmişdi.

Lakin Dördlər İttifaqının öz daxilində, xüsusilə Osmanlı dövləti ilə Almaniya arasında da mənafe ziddiyyətləri vardı.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; История дипломатии (второе, переработонное издание), т. 1, М., 1959.

**DÖRDÜNCÜ HÖKUMƏT KABİNƏSİ** Azərbaycan Xalq Cümhuriyyətinin dördüncü Hökuməti. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət hakimiyyətinin ali icraedici orqanı. 1919 ilin fevralında Fətəli xan Xoyskinin 3-cü Hökumət kabinəsi istefaya getdikdən sonra, yeni - 4-cü Hökumət kabinəsinin təşkili Nəsib bəy *Yusifbəyliyə* tapşırıldı. Parlamentin aprelin 14-də keçirilən 29-cu iclasında N.Yusifbəyli formalaşdırdığı yeni Hökumət kabinəsinin üzvlərini təqdim etdi və Hökumətin gələcək fəaliyyəti barədə proqram bəyanatı ilə çıxış etdi. N.Yusifbəylinin Hökumət proqramı Parlament üzvləri tərəfindən geniş müzakirə edildi və 4-cü Hökumət kabinəsi aşağıdakı tərkibdə təsdiq olundu: Nəsib bəy Yusifbəyli - Nazirlər Şurasının sədri və daxili işlər naziri; Səməd bəy *Mehmandarov* hərbi nazir; Məmməd Yusif *Cəfərov* - xarici işlər naziri; Ağa *Əminov* — ticarət və sənaye naziri; Əlağa *Həsənov* maliyyə naziri; Xudadat bəy *Məlik-Aslanov* - yollar naziri; Cəmo bəy *Hacınski* - poçt və teleqraf naziri; Rəşid bəy *Qaplanov* - xalq maarifi və dini etiqad naziri; Viktor *Klenevski* - himayədarlıq naziri; Aslan bəy *Qardaşov* - əkinçilik və dövlət əmlakı naziri; A.Dastakov - səhiyyə naziri; Nəriman bəy *Nərimanbəyli* - dövlət nəzarəti naziri; X.Amaspür - portfelsiz nazir. Sonradan daxili işlər naziri vəzifəsinin icrası Məmməd Həsən Hacınskiyə tapşırılmışdı (bax *Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti* məqaləsinə).

**DÖVLƏT BANKI** - Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə vəsaitini tənzimləyən əsas dövlət qurumu (bax *Azərbaycan Dövlət bankı).*

**DÖVLƏT BAYRAĞI** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ölkənin suverenlik rəmzi olan dövlət bayrağının təsisi haqqında ilk qərarı 1918 il iyunun 21-də Gəncədə qəbul etmişdi. Cümhuriyyətin qırmızı rəngli ilk bayrağının üzərində ağ rəngli aypara və ağ rəngli səkkizguşəli ulduz təsvir olunurdu.

Bugünkü Azərbaycan Respublikasının dövlət rəmzi olan üçrəngli milli bayraq isə 1918 il noyabrın 9-da Cümhuriyyət Hökumətinin iclasında Hökumətin sədri F.x.Xoyskinin məruzəsi əsasında qəbul edilmişdir. Hökumətin həmin iclasında Azərbaycanın dövlət bayrağının "yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət" olması qərara alındı. Bayraqdakı üç rəng - yaşıl islamın, qırmızı (al) müasir azadlıq ideologiyasının, mavi isə türklüyün rəmzi idi. 1918 ilin iyununda təsdiq edilmiş bayraqdakı aypara və səkkizguşəli ulduz isə olduğu kimi saxlanılmışdı.

Cümhuriyyətin Dövlət bayrağı *Aprel işğalı (1920)* nəticəsində ləğv edilsə də, Azərbaycan xalqının istiqlal mübarizəsində böyük rol oynadı. 1988 ildə Azadlıq hərəkatı başlandıqda, üçrəngli bayraq yenidən qaldırıldı. Bu tarixi akt Azərbaycan Sovet Sosialist Respublikası rəhbərliyinin də fəaliyyətinə ciddi təsir göstərdi. 1990 il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən 1-ci sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu, 1990 il noyabrın 29-da isə "Azərbaycan SSR adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991 il fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiq olundu (bax *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri).*

*Əd:.* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, B., 1990; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Mərdanov M., Quliyev Ə., Azərbaycan Respublikasının dövlət rəmzləri, B., 2001.

**DÖVLƏT GERBİ** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri. Cümhuriyyət Hökuməti 1919 il martın 23-də, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövlət gerbinin və dövlət möhürünün layihələrini hazırlamaq üçün müsabiqə elan etmək barədə qərar qəbul etdi. Qərara əsasən, layihələr həmin il aprelin 20-sinə qədər təqdim olunmalı idi. Çox güman ki, müsabiqəyə təqdim olunmuş layihələr bəyənilməmiş və qəbul edilməmişdir. Buna görə də 1920 il yanvarın 30-da Hökumət hərbi ordenlər, milli himn, dövlət gerbi və möhürü layihələrinin hazırlanması üçün müsabiqə elan etmək barədə yenidən qərar çıxarmışdı. Ordenlərin layihəsinə baxılması işi hərbi nazirliyə, himn, gerb və möhür layihələrinə baxılması isə xalq maarifi nazirliyinə tapşırılmışdı. Xalq maarifi nazirliyi bu məqsədlə "Azərbaycan" qəzetində dəfələrlə elan verərək bildirmişdi ki, təqdim ediləcək ən yaxşı dövlət himni layihəsinə görə 50 min manat, ən yaxşı gerb və möhür layihələri üçün isə 25 min manat mükafat müəyyən olunmuşdur. Elanda bildirilirdi ki, müsabiqədə iştirak etmək istəyənlər həmin il mayın 1-nə qədər öz layihələrini məxfi zərflərdə xalq maarifi nazirliyinin dəftərxanasına təqdim etməlidirlər. Müsabiqənin nəticələrinin elan olunması Azərbaycanın İstiqlalının ikinci ildönümünə, yəni 1920 il mayın 28-nə nəzərdə tutulurdu. Lakin 1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı bu mühüm dövlət tədbirinin başa çatdırılmasına imkan vermədi.

Azərbaycan müstəqilliyini bərpa edəndən (1991, 18 oktyabr) sonra dövlət gerbi haqqında yeni müsabiqə elan olundu. Müsabiqə komissiyasına daxil olan eskizlər Azərbaycan Respublikasının Milli Məclisində geniş müzakirə edildi, lakin onlar qənaətbəxş hesab olunmadı. Buna görə də yuxarıda bəhs olunan gerb layihəsini bərpa etmək qərara alındı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb layihəsi rəssam R.Məmmədov tərəfindən təkmilləşdirildi. 1993 il 19 yanvar tarixli konstitusiya qanunu ilə dövlət gerbinin rəngli və ağ-qara təsviri təsdiq edildi (bax *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri).*

*Əd.* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Mərdanov M., Quliyev Ə., Azərbaycan Respublikasının dövlət rəmzləri, B., 2001.

**DÖVLƏT HİMNİ** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri. Cümhuriyyət Hökumətinin 1920 il yanvarın 30-da qəbul etdiyi dövlət rəmzləri layihələrinin hazırlanması haqqındakı qərarda Azərbaycan Xalq Cümhuriyyəti dövlət himninin layihəsini hazırlamaq üçün müsabiqə elan olunması Xalq Maarifi Nazirliyinə tapşırıldı.Xalq Maarifi Nazirliyi bu məqsədlə müsabiqənin şərtlərini "Azərbaycan" qəzetində dəfələrlə elan edərək bildirmişdi ki, təqdim ediləcək ən yaxşı dövlət himni layihəsinə görə 50 min manat mükafat müəyyən edilir. Müsabiqə iştirakçıları layihələrini həmin il mayın 1-nə qədər xalq maarifi nazirliyinin dəftərxanasına təqdim etməli idilər. Müsabiqənin nəticələri mayın 28-nədək, yəni Azərbaycanın İstiqlalının ikinci ildönümünə qədər elan edilməli idi. Lakin 1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı nəticəsində milli dövlətçiliyin süqutu Azərbaycan Xalq Cümhuriyyətinin dövlət himninin qəbul olunmasına imkan vermədi.

1991 ildə Azərbaycanın dövlət müstəqilliyi yenidən bərpa olunduqdan sonra Üzeyir bəy Hacıbəylinin Xalq Cümhuriyyəti illərində yazdığı "Azərbaycan marşı" Azərbaycan Respublikasının 1992 il 27 may tarixli qanunu ilə dövlət himni kimi təsdiq olunmuşdur (bax *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri).*

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Mərdanov M., Quliyev Ə., Azərbaycan Respublikasının dövlət rəmzləri, B., 2001.

**DÖVLƏT MÖHÜRÜ** - Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi sənədlərində üzərində dövlətin adı və gerbi təsvir olunan əsas dövlət rəmzi. Cümhuriyyət Hökuməti 1919 il martın 23-də Azərbaycan Xalq Cümhuriyyətinin dövlət möhürünün layihəsini hazırlamaq üçün müsabiqə elan olunması barədə qərar qəbul etdi. Qərara əsasən, layihələr həmin il aprelin 20-nə qədər poçt və teleqraf nazirliyinə təqdim edilməli idi.

Lakin həmin müsabiqənin nəticələri barədə hələlik məlumat aşkar edilməmişdir. İkinci dəfə isə Cümhuriyyət Hökuməti 1920 il yanvarın 30-da Dövlət himni və gerbi ilə yanaşı, Dövlət möhürünün də layihəsini hazırlamaq barədə qərar qəbul etdi. Qərara əsasən, bu məsələ ilə bağlı müsabiqə elan olunması xalq maarifi nazirinə həvalə olundu. Xalq maarifi nazirliyi müsabiqə barədə qəzetlərdə verdiyi elanlarda Dövlət himni, gerbi və möhürü üçün müsabiqəyə təqdim olunacaq layihələrin həmin il mayın 1-nə qədər məxfi zərflərdə xalq maarifi nazirliyinin dəftərxanasına göndərilməsini xahiş edirdi. Müsabiqənin nəticələri Azərbaycan İstiqlalının ikinci ildönümünə, yəni 1920 il mayın 28-nə qədər elan olunmalı idi. 1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı müsabiqənin başa çatmasına imkan vermədi (bax *Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri).*

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİ (DMK)** - 1919 ilin yazında Denikin ordularının Azərbaycana hücum təhlükəsi ilə bağlı olaraq ölkənin müdafiəsi məqsədilə yaradılmış xüsusi hərbi qurum. 1919 il mayın axırlarında Şimali Qafqazı və Dağıstanı tutan Denikin ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı. Azərbaycan Xalq Cümhuriyyəti xarici təcavüz təhlükəsi qarşısında qaldı. Bu vaxt Cümhuriyyət Parlamentinin bir neçə iclasında hökumətin sədri Nəsib bəy Yusifbəylinin iştirakı ilə Denikin ordularının Azərbaycana hücumu məsələsi müzakirə olundu. 1919 il iyunun 5-də parlamentin 45-ci iclasında müxtəlif fraksiyaların üzvləri Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cövdət Pepinov, Səməd ağa Ağamalıoğlu, Əsədulla Əhmədzadə, Abdulla bəy Əfəndizadə, Qara bəy Qarabəyov, V.Bakradze və b. çıxış edərək, partiya və fraksiya mənsubiyyətlərindən asılı olmayaraq, Parlament üzvlərinin və xalqın bütün qüvvələrinin Denikin ordusuna qarşı mübarizəyə səfərbər olunmasının zəruriliyini vurğuladılar. Bununla bağlı iyunda "Müsavat" partiyası ilə sosialistlər bloku Bakıda Denikinə qarşı izdihamlı mitinq - küçə yürüşü keçirdilər.

Denikin təhlükəsi ilə bağlı Parlament Hökumət daxilində ölkənin müdafiəsini təşkil edə biləcək işlək heyətin yaradılması barədə qərar qəbul etdi. Beləliklə, 5 nəfər Hökumət üzvündən ibarət DMK yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 9 iyun tarixli qərarı ilə yaradılmış həmin komitənin tərkibinə Nazirlər Şurasının sədri, hərbi nazir, yollar naziri, xarici işlər naziri və ədliyyə naziri daxil idilər.

DMK 1919 il iyunun 11 -də Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan etdi. DMK-nın digər qərarına əsasən, hakimiyyətə və hakimiyyət nümayəndələrinə qarşı cinayət əməlləri, dövlətə xəyanətlə bağlı bütün işlər ümumi məhkəmələrdən alınaraq, hərbi məhkəməyə verildi. Sentyabrın 13-də Bakı müdafiə rayonunun rəisi vəzifəsi təsis olundu və o, həm də əvəzçiliklə Bakı hərbi general-qubernatoru vəzifəsini tuturdu. Bakı şəhər rəisliyinin ərazisi və şəhər rəisinin özü hərbi general-qubernatora, Bakı müdafiə rayonunun rəisi isə hərbi nazirə tabe idi. 1919 il oktyabrın 26-da Bakı şəhər rəisliyi ərazisindəki bütün yerli polis orqanları, o cümlədən əksinqilabla mübarizənin təşkili Bakı müdafiə rayonunun rəisinə tabe edilmişdi.

Təşkilati tədbirlərlə yanaşı, Komitənin bütün qalan tədbirləri də həm Denikin ordusu, həm də bolşeviklər tərəfindən gözlənilən təhlükəyə qarşı respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə yönəldilmişdi. Bu məqsədlə Azərbaycanın şimal sərhədləri möhkəmləndirildi, Bakıya dənizdən gözlənilən hücuma qarşı artilleriya müdafiəsi quruldu.

*Əd.:*Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar), c.2, B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Парламент (стенографические отчеты), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920;

**DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN İCBARİ QƏRARI** - Dövlət Müdafiə Komitəsinin Azərbaycan Xalq Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan olunması haqqında 1919 il 11 iyun tarixli qərarı. Azərbaycan sərhədinə doğru irəliləyən Denikin qoşunlarının təcavüz təhlükəsinin qarşısını almaq məqsədilə verilmişdi. Qərara əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisində hərbi vəziyyət elan olunur və müvəqqəti olaraq bir sıra məhdudiyyətlər tətbiq edilirdi. Hərbi vəziyyətlə əlaqədar bir sıra cinayət əməlləri (dövlət hakimiyyətinə qarşı qiyam, silahlı müqavimət, Azərbaycan Parlamenti və Hökuməti üzvlərinin həyatına sui-qəsd, hərbi hissələrə və hərbi qarovullara basqın, dəmir yollarına, rabitə əhəmiyyətli tikililərə ziyan vurmaq və s.) ümumi təhqiqatdan alınaraq, hərbi məhkəmənin icraatına verilirdi. Hakimiyyət tərəfindən razılıq verilməmiş kütləvi, siyasi mitinqləri təşkil və onlarda iştirak etmək, odlu silah, sursat və partladıcı maddələrdən istifadə, onların saxlanılması və ticarəti qadağan olunurdu. Silah saxlanılması ilə əlaqədar əvvəllər verilmiş icazələr qüvvədən düşmüş hesab edilir və silahı olan şəxslərdən üç gün ərzində onları yaxınlıqdakı hərbi hissəyə və ya polis orqanına təhvil vermək tələb olunurdu. Qərarla müəyyən edilmiş məhdudiyyətlərin icra olunması ilə bağlı daxili işlər nazirliyinə, qubernatorlara, polis orqanlarına müvafiq səlahiyyətlər də verilmişdi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN YARADILMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkəyə Denikinin hərbi müdaxiləsi təhlükəsinə qarşı hərbi quruculuq sahəsində yüksək səlahiyyətlərə malik Hökumət qurumunun fəaliyyətə başlamasını təmin edən sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumə tərəfindən 1919 il iyunun 9-da qəbul edilmişdir. Onun yaradılması Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 5 iyun tarixli iclasında Denikin təhlükəsinin qarşısının alınması məqsədilə aparılmış müzakirələrdən sonra tövsiyə olunmuşdu. Hökumət qərarında komitəyə səfərbərlik keçirilməsi, ölkədə və onun bir hissəsində müharibə və ya mühasirə vəziyyətinin elan edilməsi, qüvvədə olan qanunların fəaliyyətinin müvəqqəti dayandırılması və ya onun dəyişdirilməsi, könüllü dəstələrin yaradılması, hesabat əsasında qeyri-məhdud maliyyə vəsaitlərinin xərclənməsi və s. Fövqəladə səlahiyyətlərin verilməsi təsbit edilmişdi.

*Əd:.* Азербайджанская Демократическая Республика (1918-1920), Парламент (стенографические отчеты), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998;

**DÖVLƏT NƏZARƏTİ İDARƏSİ (DNİ)** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə mülki və hərbi idarələrin, müəssisələrin, digər idarəçilik strukturlarının fəaliyyətinə nəzarət edən Hökumət orqanı. Bu orqanı formalaşdırmaq məqsədilə Bakı Nəzarət Palatası 1918 ilin oktyabrında DNİ adlandırılmışdır. DNİ-yə əvvəlcə xarici işlər naziri Məmməd Həsən Hacınski, sonra, müvəqqəti olaraq, yollar naziri Xudadat bəy Məlik-Aslanov, daha sonra 1918 il dekabrın 28-dək Əbdüləli bəy Əmircanov rəhbərlik etmişdi.

İdarənin nəzdində dəftərxana yaradılmış, mülki və hərbi idarələrə, habelə dəmir yoluna dair bütün təftiş kargüzarlığı burada cəmləşdirilmişdi. Təftiş xarakterli bütün işlər DNİ-yə verilmişdi. Sonralar müstəqil nazirliyə çevrilmişdi. 1918 il dekabrın 28-də Məmməd Həsən Hacınski nəzarət naziri təyin olunmuş, lakin o, Paris sülh konfransına ezam olunduğundan, nazirliyə Əlağa Həsənov, 1919 il aprelin 15-dən dekabrın 22-dək isə Nəriman bəy Nərimanbəyli rəhbərlik etmişdir.

**DÖVLƏT NƏZARƏTİ NAZİRLİYİ (DNN),** Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Nəzarəti Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkədə icra strukturlarının qərarlarının yerinə yetirilməsi üzərində dövlət nəzarətini təmin edən orqan. 1918 il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azər-baycanın müstəqilliyi elan edildikdən sonra Fətəli xan Xoyskinin təşkil etdiyi Cümhuriyyətin birinci müvəqqəti Hökumətində dövlət nəzarəti naziri vəzifəsinə sosialist Cəmo bəy Hacınski təyin olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra 1918 il iyunun 17-də F.x.Xoyskinin təşkil etdiyi ikinci Hökumət kabinəsində dövlət nəzarəti naziri vəzifəsinin icrası müvəqqəti olaraq xarici işlər naziri Məmməd Həsən *Hacınskiyə* həvalə olundu.

1918 ilin sentyabrında Bakı *Qafqaz İslam Ordusu* tərəfindən azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncədən Bakıya köçdü və oktyabrın 6-da F.x.Xoyskinin ikinci Hökumətinin tərkibində dəyişikliklər edilərkən bu vəzifənin icrası Əbdüləli bəy Əmircanova tapşırıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti fəaliyyətə başladıqdan (1918, dekabr) sonra Parlamentin tapşırığı ilə Fətəli xan Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinəsində dövlət nəzarəti naziri vəzifəsi M.Hacınskiyə həvalə olundu. 1919 ilin yanvarında M.Hacınskinin *Paris sülh konfransına (1919-20)* göndərilən Azərbaycan nümayəndə heyətinin tərkibində xaricə getməsi ilə əlaqədar bu vəzifənin icrası Əlağa Həsənova tapşırıldı. 1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin dördüncü Hökumət kabinəsində dövlət nəzarəti naziri vəzifəsinə "Müsavat" partiyasından Nəriman bəy Nərimanbəyli, 1919 il dekabrın 24-də yenə N.Yusifbəylinin beşinci Hökumət kabinəsində isə "İttihad" partiyasının üzvü Heybətqulu Məmmədbəyov təyin olundu.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti fəaliyyət göstərdiyi ilk vaxtlarda ölkədə heç bir yerli nəzarət məntəqəsi yarada bilməmişdi. Bunun da başlıca səbəbi o idi ki, ölkə ərazisində Nəzarət palatası Bakı şəhərində yerləşirdi. Bu dövrdə isə Bakı bolşevik-daşnak güruhunun əlində idi. 1918 il sentyabrın 15-də Bakı *Qafqaz İslam Ordusu* tərəfindən azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü və sentyabrın 28-də DNN təcili olaraq ilkin və əsaslı təftiş haqqında qərar layihəsi hazırlayaraq Cümhuriyyət Hökumətinə təqdim etdi. 1918 il oktyabrın 29-da layihə Hökumət tərəfindən təsdiq olundu. Göstərilən qərar əsasında əvvəllər Bakıda fəaliyyət göstərmiş Bakı nəzarət palatası Dövlət nəzarəti idarəsinə çevrildi. Bu vaxta qədər DNN-də nəzarət işlərinin təşkili bir neçə nəfərdən ibarət olan nazirliyin dəftərxanasında aparılırdı. Mülki və hərbi işlərin, habelə dəmir yolu idarəçiliyinin təftişi üzrə bütün kargüzarlıq işləri həmin dəftərxanada cəmləşdirilmişdi.

Dövlət nəzarəti idarəsi yarandıqdan sonra nazirliyin dəftərxanasında saxlanılan bütün nəzarət-təftiş materialları həmin idarəyə verildi. Beləliklə, artıq 1919 il üçün nazirliyin strukturu dəftərxana və Dövlət nəzarəti idarəsindən ibarət idi. Nazirliyin dəftərxana direktoru Nemət bəy Şahtaxtinski, Dövlət nəzarəti idarəsinin rəisi isə A.P.Delitsin idi.

1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı ilə Dövlət Nəzarəti Nazirliyi ləğv olundu.

*Əd.:* Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920;

**DÖVLƏT TEATRI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət teatrı statusu almış ilk Azərbaycan peşəkar teatrlarından biri. H ö k u m ə t  t e a t r ı da adlandırılırdı. Azərbaycan peşəkar teartının tarixi 1873 ildən başlansa da yalnız Azərbaycan Xalq Cümhuriyyəti dövrundə dövlət teatrı statusu almışdır. 1918 il oktyabrın 18-də Cümhuriyyət Hökuməti xalq maarifi nazirinin Azərbaycan Dövlət Teatrının yaradılması haqqında məruzəsini dinləyərək, teatr üçün Mayılov qardaşları teatrı binasını (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası) almaq barədə qərar qəbul etdi. Qərarda göstərilirdi ki, Bakıda Dövlət Teatrının yaradılmasının vacibliyini və bu məqsəd üçün daha çox Mayılov qardaşları teatrı binasının yararlı olduğunu nəzərə alaraq, xalq maarifi nazirinə tapşırılsın ki, Mayılov qardaşları teatrını məcburi surətdə, lakin ədalətli qiymətlə, dövlət teatrı üçün öz sərəncamına alsın, onun satınalma qiymətini müəyyənləşdirmək üçün xüsusi komissiya yaratsın və həmin teatr bundan sonra Dövlət Teatrı adlandırılsın.

Cümhuriyyət dövründə Dövlət Teatrı səhnəsində opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsert-lər keçirilməklə yanaşı, ondan mühüm dövlət tədbirləri üçün istifadə etmək də nəzərdə tutulurdu. Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları truppasının bütün tədbirləri Dövlət teatrının səhnəsində keçirilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Dövlət teatrı öz pərdələrini ilk dəfə 1918 il noyabrın 4-də Hacıbəyli qardaşları truppasının hazırladığı, Nəriman Nərimanovun "Nadir Şah" faciəsinin tamaşası ilə açdı. 1919-20 illərdə teatrın səhnəsində daha çox Üzeyir Hacıbəylinin opera ve operettaları göstərilirdi. 1920 ilin aprelində Sovet Rusiyası Azərbaycanı işğal etdikdən sonra da bu teatr Sovet Azərbaycanının dövlət teatrı kimi fəaliyyət göstərmiş və uzun illər həmin binadan təkcə teatr-sənət ocağı kimi deyil, həm də ictimai-siyasi və dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi üçün istifadə edilmişdir.

*Əd:*. Azərbaycan Xalq Cümhuriyyəti (Ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Cəfərov C, Azərbaycan dram teatrı, B., 1959; Azərbaycan teatr salnaməsi (1850-1920) (toplayanı və tərtib edəni Qulam Məmmədli), B., 1975.

**DÖVLƏTİ TANIMA,** beynelxalq hüquqda-yeni dövlətlərin beynəlxalq hüquq münasibətlərinin subyekti kimi beynəlxalq aləmə çıxması prosesini tənzimləyən normaların məcmusu. Əsas formaları *de-fakto* və *de-yure* tanımadır. Geniş mənada tanıma dövlətin hər hansı konkret faktı təsdiq edən formal aktı, yaxud hərəkətidir.

**DUBROVSKİ** Nikolay Aleksandroviç (?-?)- rus tarixçisi, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təklifi əsasında Bakı Dövlət Universitetinin təsis olunması üçün yaradılmış komissiyanın üzvü. Komissiyanın 1919 il mayın 21də keçirilən ilk iclasında universiteti lazımi avadanlıq və vəsaitlə təmin etmək üçün yaradılan kitabxana yarımkomissiyasının sədri, mənzil yarımkomissiyasının isə üzvü seçilmişdi.

Dubrovski Bakı Dövlət Universiteti tarix-filologiya fakültəsinin ilk dekanı olmuş, universitetin yüksək ixtisaslı professor-müəllim kadrları ilə təmin edilməsində fəal çalışmışdır. Bu məqsədlə sentyabrın sonlarında rektor V.İ.Razu-movski ilə birlikdə Rusiyanın cənubundakı universitet şəhərlərinə ezam olunmuşdu. 1919 il noyabrın 15-də - universitetin açılış günü ümumi tarixdən ilk mühazirəni Dubrovski oxumuşdu. O, universitetin ümumi tarix kafedrasının professoru idi. Dubrovski 1922 ilin noyabrınadək tarix-filologiya fakültəsinin dekanı olmuş, 1923 ilin yanvarından Moskva Universitetinə keçməsi ilə əlaqədar olaraq Bakı Dövlət Universitetindən ayrılmışdır.

*Əd:* Atakişiyev A., Bakı Dövlət Universitetinin tarixi, B., 1991.

**DURSUNZADƏ** Məmmədzəki (1890, Axalsix rayonu, Azqur kəndi - 1937, Tiflis) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Müəllimlər institutunun hüquq fakültəsini bitirmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixlı qərarına əsasən təhsilini tarix-filologiya sahəsində davam etdirmək üçün İstanbul Universitetinə göndərilmişdi. Sonradan təhsilini öz hesabına davam etdirmiş, Türkiyədən Almaniyaya getmişdir. Təhsilini başa vurduqdan sonra Bakıya qayıtmış, qadın müəllimlər seminariyasında və yer quruluşu texnikumunda müəllimlik etmişdir. 1937 ildə doğma kəndinə getmiş, orada həbs olunaraq güllələnmişdir.



# E

**EDMUND** L.Delli - Amerika hərbçisi, polkovnik, mühəndis. Birinci dünya müharibəsi (1914-18) dövründə Şərur və Naxçıvan mahallarında yaradılmış müttəfiq idarəçiliyi zonasına Antanta dövlətlərinin Ermənistandakı ali komissarı, amerikalı polkovnik V.Haskel tərəfindən təyin edilmiş qubernator. 1919 il oktyabrın 23-də vəzifəsinin icrasına başlayacağı bildirilsə də, yalnız Naxçıvanın deyil, bütün İrəvan quberniyasının türk-müsəlman əhalisi Haskelin bu təyinatına qarşı çıxdı. 1919 il oktyabrın ortalarında Haskel Parisə çağırılmış, onun müavini polkovnik Ceyms Rey isə neytral zona məsələsini müzakirə etmək üçün Bakıya getmişdi. Oktyabrın 24-də o, Naxçıvana gələrək, Haskelin bəyanatını elan etmiş və bu bəyanata uyğun olaraq, Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund L.Dellinin qubernator təyin edilməsi haqqında sərəncam imzalamışdı. Lakin bundan narazı qalan Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceyms Rey qərarını dəyişməli olmuş, polkovnik Edmund L.Delli Naxçıvanda general-qubernator kimi deyil, ali komissarın nümayəndəsi kimi qalmışdı. Ermənistanda olan ABŞ zabitlərinin noyabrda Edmund L.Delliyə köməyə gəlməsi Naxçıvan və Şərur əhalisinin narazılığını daha da artırmış və Delli ona köməyə gəlmiş zabitləri yenidən İrəvana qaytarmağa məcbur olmuşdu. Amerikalılar 1920 ilin yanvarında Şəruru və Naxçıvanı tərk etmişdilər.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**ERDELİ** İvan Georgiyeviç (1870-1939) - rus hərbi xadimi, süvari qoşunları generalı (1917). Denikin ordusunda süvari diviziyaya komandanlıq etmişdir. 1919 ildə Şimali Qafqaz və Çərkəz-Dağıstan diyarında hərbi əməliyyat aparan Denikin qoşunlarının baş komandanı olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti dağlıların azadlıq mübarizəsinə yardımlarını davam etdirdiyi üçün Erdeli Cümhuriyyətin diplomatik nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyevdən Dağıstandan çıxmasını tələb etmişdi. 1920 ildə Fransaya mühacirət etmişdir.

**ERMƏNİ FRAKSİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fraksiyalarından biri; Azərbaycan Xalq Cümhuriyyətinin ümumbəşəri demokratiya ənənələrinə hörmət və sədaqətinin bariz nümunəsi. Azərbaycan Milli Şurasının 1918 il noyabrın 19-da, Cümhuriyyət Parlamentinin formalaşdırılması ərəfəsində Bakıda keçirilmiş iclasında qeyd edilirdi ki, ölkədə yaradılacaq qanunvericilik və idarəçilik hakimiyyəti orqanlarında Azərbaycan ərazisində yaşayan bütün millətlərin nümayəndələri təmsil olunmalıdır. Azərbaycan Milli Şurasının noyabrın 19-da qəbul etdiyi *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"*da Azərbaycan ərazisində yaşayan millətlərin onların sayına müvafiq surətdə Parlamentdə təmsilçiliyi təsbit olunurdu. Həmin qanuna əsasən, Azərbaycan Parlamentində 21 erməni nümayəndəsi təmsil olunmalı idi. Azərbaycan Milli Şurasının Parlamentin çağırılması ilə bağlı "Bütün Azərbaycan əhalisinə!" müraciətində deyilirdi ki, ***"bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix bizdən asılı olmayaraq, hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Bütün Azərbaycan vətəndaşları millət və məzhəb fərqinə baxmayaraq, bir vətənin övladlarıdı, onlar öz səadətlərini qurmaq üçün bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər".***

Lakin Azərbaycan Milli Şurasının səylərinə baxmayaraq, Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları nəinki Parlamentə öz nümayəndələrini göndərmədilər, əksinə, Azərbaycan Parlamentinin fəaliyyətə başlamasına cidd-cəhdlə mane oldular. Onlar 1918 il dekabrın 7-də açı-lan Azərbaycan Parlamentinin ilk iclasında iştirakdan imtina etdilər. Ermənilər Azərbaycan Parlamentini boykot etmək taktikasını iki aydan artıq davam etdirərək, yalnız 1919 ilin fevralından Parlamentin iclaslarına qatıldılar. Özü də ermənilər Azərbaycan Parlamentində iki fraksiya - 5 nəfərdən ibarət erməni fraksiyası və 6 nəfərdən ibarət "Daşnaksutyun" fraksiyası ilə təmsil olunmuşdular. Bu fraksiyaların Parlamentdəki sonrakı fəaliyyətləri göstərdi ki, ermənilərin Azərbaycan Parlamentində iştirakı Azərbaycan dövlətçiliyinin formalaşmasına, ümumən, Azərbaycan iqtisadiyyatı və mədəniyyətinin inkişafına, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər vəchlə mane olmaq, özlərinin millətçi - separatçı "Böyük Ermənistan" yaratmaq xülyasının təbliği üçün yeni bir tribuna əldə etmək məqsədi güdmüşdür.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., B., 1920; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**ERMƏNİ MİLLİ ŞURALARI** - Rusiyada Fevral inqilabından (1917) sonra erməni siyasi təşkilatlarının təşəbbüsü və maddi yardımı ilə Azərbaycanda yaradılan və fəaliyyət göstərən Şuralar: Bakı, Gəncə, Şuşa, Naxçıvan, Culfa, Ordubad və digər şəhərlərdə, həmçinin Zəngəzurda Azərbaycan əleyhinə fəaliyyət göstərirdilər. Bu məqsədlə terrorçu hərbi dəstələr yaradılmışdı. Erməni milli şuraları həm də ermənilərə təsir göstərən və onları səfərbərliyə alan siyasi mexanizm rolunu oynayırdılar.

Bakıdakı Şuranın sağ cinahı tərəfindən erməni burjuaziyasının vəsaiti hesabına həftədə iki dəfə ifrat millətçiliyi ilə fərqlənən "Naşe vremya" qəzeti nəşr olunurdu. Qəzet türk-müsəlman əhaliyə qarşı böhtan, iftira yaymaq, təxribat törətmək, daşnak cinayətlərinə bəraət qazandırmaqla məşğul olurdu.

1918 il mart soyqırımı ərəfəsində erməni Milli Şuraları və "Daşnaksutyun" partiyası Azərbaycanda yaşayan ermənilər arasında türk-müsəlman əhaliyə qarşı nifrət təbliğatı aparır, çirkin məqsədlərinə çatmaq üçün bütün vasitələrdən: adamları aldatmaq yolu ilə ələ almaqdan, hədə-qorxudan, fitnə-fəsaddan, məramı, qayəsi erməni xisləti ilə yoğrulan qəzet və kitabçaların nəşrindən istifadə edirdilər.

Bakı Sovetinin milli tərkibinin ermənilərin xeyrinə dəyişdirilməsi türk-müsəlman əhaliyə qarşı 1918 ilin mart soyqırımına siyasi hazırlıq oldu. Həmin dəyişiklik S.Şaumyanın və Bakıdakı erməni Milli Şurasının fəal dəstəyi ilə baş verdi. Bu hadisəyə qiymət verən şahidlərdən biri xəbər verirdi ki, ***"Demə, bütün ermənilər bolşevik imiş! Çox tezliklə məlum oldu ki, Fəhlə, Əsgər və Matros Deputatları Soveti İcraiyyə Komitəsinin bütün heyəti (təqribən 90%-i) ermənilərdən ibarətdir".*** Eyni zamanda, erməni Milli Şurası, Bakı Soveti və onlarla birləşən daşnaklar türk-müsəlman əhaliyə qarşı soyqırımına ciddi hazırlaşmağa başladılar. Azərbaycan əleyhinə fəaliyyətin hərbi-siyasi mexanizmi aydın şəkil aldı. Erməni siyasi təşkilatlarının hamısı mümkün qədər çox azərbaycanlını məhv etmək planını yekdilliklə müdafiə edirdi. Erməni Milli Şuraları "sağ daşnaklar"ın fikrini ifadə edirdilər. "Sağ daşnaklar" isə ***Azərbaycanın bütün türk-müsəlman əhalisinin məhv edilməsini və burada öz siyasi hakimiyyətlərinin qurulmasını zəruri sayırdılar.*** "Daşnaksutyun" partiyasının Mərkəzi Komitəsi, onun rayon bölmələri, erməni Milli Şuralarının qərargahları həmin günlərdə partiya qərargahlarına deyil, hərbi qərargahlara bənzəyirdi.

1918 il martın əvvəllərində erməni Milli Şurası özünün "Erməni döyüşçülərinə" adlı müraciətində zinvorları (erməni terrorçu dəstələrinin yaraqlıları) "əsrlik düşmənlə" (yəni türk-müsəlman əhali ilə - *red.)* silahlı mübarizəyə hazır olmağa çağırırdı.

Erməni Milli Şurası soyqırımının əvvəlində öz bitərəfliyini elan etdi. Lakin vəziyyətin S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti silahlı qüvvələrinin xeyrinə dəyişdiyi məlum olduqda, öz hərbi hissələrini "İnqilabi Müdafiə Komitəsi"nin sərəncamına verdi. Martın son günlərində Azərbaycanın on minlərlə türk-müsəlman əhalisi daşnak-bolşevik quldurları tərəfindən məhv edildi, Bakı şəhərinin məhəllələri yerlə yeksan olundu. Azərbaycanlılara qarşı soyqırımında "xeyli pul vəsaiti, ciddi hərbi qüvvəsi" olan erməni Milli Şurası da mühüm rol oynadı (bax həmçinin *Mart soyqırımı (1918)).*

Sonralar, Azərbaycan Xalq Cümhuriyyəti dövründə erməni Milli Şurası azərbaycanlılara qarşı mart soyqırımını saxtalaşdırılmış şəkildə təsvir etməyə cəhd göstərdi. Ermənilərin Bakıda Amerika missiyasının başçısına müraciətində qeyd edilirdi ki, 1918 ilin martında Bakıda guya bolşevik qoşunları ilə Azərbaycan Milli Şurası arasında silahlı mübarizə olmuşdur. Həm də xüsusi olaraq nəzərə çatdırılırdı ki, ***"ermənilərin... bu hakimiyyətə heç bir iddiası ola bilməzdi, çünki onlar* (ermənilər - *red.) Bakı quberniyasında yalnız cüzi azlıq təşkil edirlər".*** Lakin bolşevik maskası altında Bakının azərbaycanlı əhalisinin erməni-daşnaklar tərəfindən məhv edilməsi faktı o qədər təkzibedilməz idi ki, hətta erməni Milli Şurasının sağ cinahının nəşr etdiyi "Naşe vremya" qəzeti də 1919 ildə bunları etiraf etməyə məcbur olmuşdu: ***"Keçən ilin mart günlərində ayrı-ayrı şəxslər, yaxud dəstə-dəstə ermənilər... tərəfindən Bakı şəhərinin müsəlman əhalisinə münasibətdə... yol verilmiş vəhşilikləri heç kim inkar etmir"*** (1919, 2 aprel).

Bakı şəhəri və rayonlarının İnqilabi Müdafiə Komitəsi erməni Milli Şurasına təklif etmişdi ki, xüsusi erməni milli qoşun hissələrini ləğv edib, onları mövcud olan və yeni yaradılan "beynəlmiləl" sovet qoşunları ilə birləşdirsin. Bununla erməni Milli Şurası hərbi hissələrinin mövcudluğuna son qoyulmalı, erməni Milli Şurası da buraxılmalı idi. Lakin erməni "milli qoşun hissələrinin" ləğv edilməsi işi sona çatdırılmadı. Onlar Bakı Sovetinin silahlı qüvvələri tərkibində də müstəqil qalmaqda idilər.

1918 ilin may-iyun aylarında S.Şaumyanın daşnak-bolşevik rejiminin Gəncəyə hərbi yürüş təşkili zamanı bir mərkəzdən idarə olunan erməni Milli Şuraları B.Britaniya generalı Denstervillə əlaqələr yaratmış, eyni zamanda, Qafqaz İslam Ordusunun komandanlığı ilə danışıqlar aparmaq üçün imkanlar axtarmışdılar. Salyandakı erməni Milli Şurası türk qoşunları ilə birbaşa əlaqəyə girmişdi.

Zəngəzurdakı erməni Milli Şurası 1918 ilin yanvarından bu diyarın idarəçiliyini zorla ələ keçirmişdi. Dro, Andronik kimi qaniçənlər burada türk-müsəlman əhalisinin soyqırımına başçılıq edirdilər.

Qarabağdakı erməni Milli Şurası birbaşa, açıq-aşkar Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyət göstərirdi. Ermənistan hökuməti bu Milli Şuraya hər ay 400000 rubl vəsait göndərirdi. Beləliklə, həmin şura Azərbaycan ərazisində Ermənistan hökumətinin diktəsi ilə fəaliyyət göstərirdi. Qarabağdakı erməni Milli Şurasının mövqeyini ingilislər belə qiymətləndirirdilər: ***"erməni daşnakları sülhün bərqərar olmasını istəmirlər və rahatlığı pozan elementlər kimi həbs olunmalı və Qarabağ ərazisindən çıxarılmalıdırlar".*** 1919 il martın 13-də Milli Şura və onun sədri Şahnazaryan öz səlahiyyətlərini dayandırdığını elan etsə də, azərbaycanlılara qarşı gizli fəaliyyətlərini davam etdirdilər.

Qarabağdakı erməni Milli Şurası B.Britaniya komandanlığı tərəfindən tanınmamasına baxmayaraq, bir neçə dəfə Qarabağda məskunlaşan ermənilərin qurultaylarını keçirmişdi. 4-cü qurultayda (1919, fevral) uydurma "Böyük Ermənistan"a birləşmək haqqında qərar qəbul olundu və Azərbaycana tabe olmamaq haqqında təkliflər səsləndi ("Vperyod" qəzeti, 1919, 26 fevral). Bakı erməni Milli Şurasının üzvləri qurultaya fəal təsir göstərir, Qarabağdakı erməniləri Azərbaycan dövlətinə qarşı yönəldirdi. Qarabağ ermənilərinin 5-ci qurultayında (Şuşa, 1919, 23 aprel) Azərbaycan hakimiyyətini tanımamaq haqqında qətnamə qəbul edilmiş, lakin bu qətnaməni qurultayın cüzi azlığı -rəyasət heyəti və 48 nümayəndə imzalamışdı.

1919 il iyunun əvvəllərində Qarabağdakı erməni Milli Şurası Şuşada vəziyyəti yenidən gərginləşdirdi. Şuşanın ermənilər yaşayan məhəlləsinə gizli yolla xeyli silah gətirilmişdi. Lakin Qarabağ general-qubernatora Xosrov Paşa bəy Sultanovun qətiyyətli hərəkəti ermənilərə öz çirkin niyyətlərini həyata keçirməyə imkan vermədi. X.Sultanovun erməni Milli Şurasının üzvlərinin həbs edilməsi və Qarabağdan çıxarılması barədə göstərişinə cavab olaraq, silahlı ermənilər iyunun 4-də Azərbaycan əsgərlərinə atəş açdılar və 3 əsgər qətlə yetirildi. Bundan sonra X.Sultanov Şuşada və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və ilk addım kimi erməni Milli Şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Həmin vaxt Şuşada hərbi toqquşma baş verdi və hər iki tərəfdən itkilər oldu. İyunun 6-da Şuşada sülh əldə edildi. Baş vermiş hadisə ilə bağlı Şuşa erməniləri X.Sultanova üzrxahlıq məktubu yazaraq bildirdilər ki, ***"çox hörmətli Xosrov bəy, icazə verin Sizin şəxsinizdə Şuşa şəhərinin müsəlman camaatından dünən törədilmiş hadisə ilə bağlı üzr istəyək. Biz adını erməni qoymuş xuliqanların Sizin əsgərlərə qarşı törətdiyi zorakılıq faktından çox həyəcanlanmışıq və bu, haqlı olaraq, Sizin ordunun və zabitlərin həyəcanına səbəb olmuşdur".***

Erməni Milli Şurasının üzvləri Qarabağdan çıxarıldıqdan sonra Qarabağ ermənilərinin 7-ci quraltayı (1919, avqust) Azərbaycan Hökumətinin hakimiyyətini tanımaq haqqında qərar qəbul etdi.

Erməni Milli Şuraları Azərbaycana qarşı ərazi iddialarına Qarabağla yanaşı, Gəncə quberniyasının cənub hissəsini, Zəngəzura və Naxçıvanı da daxil etmişdilər və "öz tarixi vətənləri" haqqında Amerika generalı Harborda məktub hazırlamışdılar (bax *Harbord missiyası).*

Azərbaycan dövlətçiliyinə qarşı çıxan erməni Milli Şuraları əvvəlcə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə daxil olmaqdan imtina etmiş, lakin sonralar taktikalarını dəyişərək Parlamentdə iki fraksiyada (5 nəfərdən ibarət erməni fraksiyası və 6 nəfərdən ibarət "Daşnaksutyun" fraksiyası) təmsil olunmuş, onun tribunasından öz siyasi maraqlarını və şovinist niyyətlərini həyata keçirmək üçün istifadə etmişdilər.

*Əd:.* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Мамедова Л., Февраль 1917: Новая фаза подьема политического экстремизма в Азербайджане, Б., 1995.

**"ERMƏNİ VİLAYƏTİ"** - 1826-28 illər Rusiya-İran müharibəsi nəticəsində Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı başa çatdıqdan sonra çar hökumətinin Naxçıvan və İrəvan xanlıqlarının ərazisi əsasında yaratdığı müvəqqəti inzibati-idarə vahidi. Müharibə zamanı Azərbaycan dövlətləri olan Naxçıvan (1827, iyun) və İrəvan (1827, oktyabr) xanlıqlarının ərazisi işğal olundu. Qafqazda hərbi əməliyyat aparan rus qoşunlarının baş komandanı İ.F.Paskeviç, hələ müharibə başa çatmamış, 1827 il oktyabrın 6-da İrəvanda "müvəqqəti idarə" təşkil etdi. İdarə üç üzvdən ibarət idi: general-leytenant Krasovski (sədr), N.Aştaraketsi və İrəvan qalasının komendantı podpolkovnik Borodin. Türkmənçay müqaviləsi (1828, 10 fevral) bağlandıqdan sonra, Naxçıvan və İrəvan xanlıqlarının idarəçiliyi dəyişdirildi. Çar I Nikolayın (1825-55) sərəncamı ilə (1828, 21 mart) həmin xanlıqlar əsasında "Erməni vilayəti" yaradıldı. Vilayət idarəsi vilayət rəisindən, iki rus müşavirindən (biri polis, digəri maliyyə üzrə) və iki asessordan (iclasçıdan) ibarət idi. Asessorlardan biri azərbaycanlı, digəri erməni icmasından idi. Çar hökumətinin tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti" yaratması ilə I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyi təsdiq olunurdu. "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycanın Rusiya tərəfindən işğal olunmuş digər torpaqları ilə Osmanlı imperiyası arasında "xristian səddi" çəkildi. Digər tərəfdən, bununla Naxçıvan və İrəvan xanlıqları ərazilərinin erməniləşdirilməsinə haqq qazandırmaq cəhdi göstərilirdi (guya bu yerlər "əvvəldən də ermənilərə məxsus olmuşdur!"). "Erməni vilayəti" iki əyalətdən - İrəvan və Naxçıvan əyalətlərindən ibarət idi.

*1828 ildə ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi*
V.Maşkovun rəsm əsəri



Çarizmin və onunla əlbir olan ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan bölgələrini "Erməni vilayəti" kimi qələmə verməsini təkzibedilməz tarixi faktlar rədd edir. Çünki çar Rusiyasının erməniləri İran və Türkiyədən həmin ərazilərə kütləvi surətdə köçürməsindən əvvəl, sonradan "Erməni vilayəti" adlandırılan ərazinin əhalisi 107224 nəfər idi.



*İrəvandakı Göy məscidin qərbdən görünüşü*

Əhalinin 76,24%-ni azərbaycanlılar, 23,45%-ni ermənilər təşkil edirdi. Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlüyü təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edən inkarolunmaz faktdır. 1826-28 illər Rusiya-İran müharibəsi dövründə və müharibədən sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülməsi nəticəsində əhalinin etnik tərkibi dəyişdi. Fransız mənşəli rus tədqiqatçısı İ.İ.Şopenin 1829-32 illərdə rəsmən həyata keçiridiyi kameral təsvirin nəticələrinə görə, artıq burada 31201 ailə, 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 16078 ailə (51,53%), 81749 nəfər (49,71%) müsəlmanlar (azərbaycanlılar); 4428 ailə (14,19%), 25151 nəfər (15,29%) köçürməyədək burada yaşayan ermənilər; 6949 ailə (22,27%), 35560 nəfər (21,62%) İrandan köçürülmüş ermənilər; 3682 ailə (11,80%), 21666 nəfər (13,17%) Türkiyədən köçürülmüş ermənilər idi. Bu faktlardan aydın olduğu kimi vilayətə İran və Türkiyədən birgə 10631 ailə (bütün ailələrin 34,07%-i), 57226 nəfər (34,79%) erməni köçürülmüşdü. Beləliklə, çar hökuməti Şimali Azərbaycanın işğalı zamanı erməni amilindən bir alət kimi istifadə etdi. Ermənilərin çar ordusuna göstərdiyi "xidmət" müqabilində onlara işğal olunmuş Azərbaycan torpaqlarında - Naxçıvan və İrəvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan torpaq "bəxşiş" verdi. Bununla ermənilər çar Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratdılar. Bundan sonra ermənilər çar Rusiyasının, sonralar isə sovet-bolşevik Rusiyasının antiazərbaycan və antitürkiyə siyasətinin həyata keçirilməsində fəal rol oynadılar.Çar hökuməti Cənubi Qafqazın işğalını və burada möhkəmlənməklə bağlı siyasətini həyata keçirdikdən sonra 1840 il 10 aprel qanunu ilə "Erməni vilayəti"ni ləğv etdi, İrəvan və Naxçıvan əyalətləri qəzalara çevrildi. Bu qəzalar Gürcü-İmeret quberniyasına tabe edildi. 1849 il iyunun 9 -da isə *İrəvan quberniyası* yaradıldı.

*Əd.:*Шопен И., Исторический памятник состояния Армянской области в эпоху присоединения ее к Российской империи, СПб., 1852; Əliyev F., Əliyev M., Naxçıvan xanlığı, B., 1996; Əliyev F., Həsənov U., İrəvan xanlığı, B., 1997; Агаян Ц.П., Победа советской власти и возрождение армянского народа, М., 1981.

**ERMƏNİSTAN-GÜRCÜSTAN MÜHARİBƏSİ (1918)** - Zaqafqaziya seyminin dağılmasından sonra yaranmış erməni-daşnak hökumətinin işğalçılıq siyasəti nəticəsində baş vermiş müharibə. Ermənistan keçmiş Tiflis quberniyasının Axalkalaki (A x a 1 k ə 1 ə k) və Borçalı qəzalarına qarşı əsassız iddia irəli sürdü. Azərbaycan Xalq Cüm-huriyyəti tarixi torpaqlarının öz sərhədləri daxilində birləşdirilməsi üçün fəal xarici siyasət yeritsə də, müharibəyə qoşula bilmədi. Lakin Ermənistan öz işğalçılıq planlarını müharibə yolu ilə həll etmək yolunu tutdu. Osmanlı imperatorluğu ilə Cənubi Qafqaz respublikaları arasında bağlanmış *Batum müqavilələrinə (1918)* əsasən, Gürcüstanla Ermənistanın sərhəd zolağında türk qoşunları yerləşmişdi. Oktyabrın 18-də türk qoşunları oradan çıxdılar və həmin yerləri Gürcüstanı müdafiə edən alman qoşunları tutdu. Birinci dünya müharibəsində (1914-18) məğlub olmuş Almaniyanın hərbi qüvvələri bu əraziləri tərk etdikdə, Borçalı qəzasının xeyli hissəsi Gürcüstan hökumətinin nəzarətinə keçdi. Ermənistan Gürcüstana nota verərək, onun Axalkalakidən çıxmasını tələb etdi. Oktyabr-noyabr aylarında tərəflər arasında qarşılıqlı ittihamlar kəskinləşdi, ermənilər Axalkalaki və Borçalıda təxribatlar, silahlı toqquşmalar törətməyə başladılar. Ermənistan Axalkalakiyə süvari es-kadron, Borçalıya isə 4-cü erməni polkunun hissələrini göndərdi. Dekabrın 9-da hərbi əməliyyatlar başlandı. Döyüşlər azərbaycanlıların elliklə yaşadığı və tarixən onlara məxsus olan Borçalı qəzasında gedirdi. Ermənistanın notasına görə, Gürcüstan Borçalı, Axalkalaki qəzalarından və Tiflis də daxil olmaqla, eyniadlı qəzanın bir hissəsindən imtina etməli idi. Dekabrın 17-də Gürcüstan Ermənistana rəsmən müharibə elan etdi, Ermənistanla diplomatik əlaqələri kəsdi. Dekabrın 18-31-də tərəflər arasında hərbi əməliyyatlar baş verdi. Müharibə Azərbaycanın tarixi torpaqlarına və onun əhalisinə ciddi ziyan vurdu. Birinci dünya müharibəsində qələbədən sonra Qafqazda mövqeyi güclənən İngiltərə Ermənistan-Gürcüstan müharibəsinin dayandırılmasında fəal iştirak etdi. Ermənistan tərəfi dekabrın 31-də hərbi əməliyyatları dayandırmağa razı olduğunu bildirdi. Gürcüstan hökuməti də bununla razılaşdı. 1919 il yanvarın 9-17-də Tiflisdə Ermənistan-Gürcüstan konfransı keçirildi. Ermənistan və Gürcüstan arasında sərhəd məsələsi Antanta Ali Şurası tərəfindən həll edilənədək Borçalı qəzasının şimal hissəsinin Gürcüstana, cənub hissəsinin isə Ermənistana verilməsi, Allahverdi mis mədənlərinin olduğu orta hissədə isə "neytral zona" yaradılması qərara alındı. Neytral zonanın idarəsi ingilis general-qubernatoruna həvalə edildi. Azərbaycanın qanuni iddiası olan Borçalının müqəddəratının həll olunduğu konfransa Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti dəvət edilməmişdi. Ona görə də Azərbaycanın Tiflisdəki nümayəndəsi öz ölkəsinin bu qərarı tanımayacağını bildirdi. Sonralar Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz bürosunun 1921 il 7 iyul tarixli qərarı ilə "neytral zona" da Ermənistana birləşdirildi. Beləliklə, Borçalının azərbaycanlı əhalisinin öz müqəddəratını təyin etmək hüququ kobudcasına pozuldu, əzəli Azərbaycan torpağı olan və azərbaycanlıların elliklə yaşadığı Borçalı Gürcüstanla Ermənistan arasında bölüşdürüldü.

*Əd.:* Rəsulzadə M., Azərbaycan Cümhuriyyəti, B.,1990; Nəsibzadə N, Azərbaycan Demokratik Respublikası, B., 1990; Məmmədli Ş., Parçalanmış Borçalı və ya 1918 il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi, B., 1991; Победа Советской власти в Закавказье. Тбилиси, 1971.

**ERMƏNİSTAN-TÜRKİYƏ MÜHARİBƏSİ (1920)** - Rusiya imperiyasının dağılmasından sonra yaranmış erməni-daşnak hökumətinin işğalçılıq siyasəti nəticəsində baş vermiş müharibə. Müharibənin başlanmasında böyük dövlətlərin antitürkiyə siyasəti də az rol oynamamışdı. Versal-Vaşinqton sisteminin tərkib hissəsi kimi Paris sülh konfransında (1919-20) hazırlanmış *Sevr sülh müqaviləsi (1920)* Osmanlı imperiyasının bölüşdürülməsini nəzərdə tuturdu. Müqavilənin imzalanmasına Birinci dünya müharibəsinin (1914-18) qalib dövlətləri ilə yanaşı, Ermənistan (Ararat) Respublikası da cəlb edilmişdi. Müqaviləyə görə Türkiyənin Van, Bitlis, Ərzurum və Trabzon vilayətlərinin bir hissəsi erməni-daşnak hökumətinə verilməli idi. Türkiyə Böyük Millət Məclisi ölkənin ərazisini bölüşdürən bu müqaviləni rədd etmiş, sultan da onu ratifikasiya etməmişdi. Ermənistan isə Türkiyəyə qarşı əsassız ərazi iddialarını həyata keçirmək üçün müharibəyə başladı. 1920 il iyunun 18-də daşnaklar Oltu şəhərini tutdular. Rusiya hökuməti Ermənistanla may-iyun və Türkiyə ilə iyul-avqust aylarında Moskvada keçirilən konfranslarda hadisələrə müdaxilə etməyə çalışdı. Lakin hər iki tərəf onun təkliflərini qəbul etmədi. Türk ordusu işğal olunmuş torpaqların azad edilməsinə başladı; sentyabrın 29-da Sarıqamışı, sonra Ərdəhanı azad etdi. Çıxılmaz vəziyyətə düşdüyünü görən erməni-daşnak hökuməti türklərin azadlıq yürüşünü dayandırmaq üçün Qərb dövlətlərinə, "bütün sivilizasiyalı dünyaya", müttəfiqlərə müraciət etdi, lakin türklərin uğurlu, ədalətli mübarizəsi bu cür "müraciətləri" cavabsız qoydu. Oktyabrın 30-da türklər Qarsa daxil olaraq, Aleksandropol (Gümrü) istiqamətində hücumu davam etdirdilər. Ermənistanın ABŞ, B.Britaniya, Fransa və İtaliyaya yeni müraciətləri də cavabsız qaldı. Gürcüstan Respublikası isə noyabrın 6-da neytrallığını elan etmişdi. Sovet Rusiyası bu müharibədən istifadə edərək, Ermənistanda möhkəmlənməyə çalışırdı. Lakin erməni-daşnak hökumətinin onun hərbi kömək təklifini rədd etməsi bu niyyəti boşa çıxartdı. Türklər uğurlu hərbi əməliyyatlar nəticəsində noyabrın 7-də Aleksandropolu azad etdilər. İrəvan üzərinə yürüş başlandı. Noyabrın 18-də Ermənistan barışıq imzalamağa məcbur oldu. Noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Sovet Rusiyasının hərbi əməliyyatları nəticəsində devrilmiş daşnak hökuməti qüvvələrini sovet hakimiyyətinə qarşı səfərbər etmək üçün dekabrın 2-də *Gümrü müqaviləsini (1920)* imzaladı. Türkiyənin müharibədəki qələbəsi onun nüfuzunu xeyli möhkəmləndirdi və 1921 il Moskva və Qars müqavilələrinin bağlanmasını sürətləndirdi (bax *Qars müqavilasi (1921)* və *Moskva müqaviləsi (1921))*.

*Əd.:* Hüseynov Q.H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970.

**ERMƏNİSTANIN ƏRAZİ İDDİALARI** Azərbaycanın və Gürcüstanın tarixi torpaqlarını ələ keçirmək üçün erməni-daşnak hökuməti tərəfindən irəli sürülmüş əsassız ərazi iddiaları. Rusiya imperiyasının dağılmasından sonra Cənubi Qafqazda yaranmış Ermənistan (Ararat) Respublikası erməni millətçilərinin sərsəm "Böyük Ermənistan" ideyalarını həyata keçirmək üçün əlverişli şərait yarandığını güman edərək, Azərbaycan və Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Azərbaycan Milli Şurasının 1918 il 29 may tarixli iclasının qərarı ilə İrəvan şəhərinin siyasi mərkəz kimi ermənilərə güzəşt edilməsi onları şirnikləndirdi. Ermənilər Göyçə bölgəsinə (Yeni Bəyazid qəzasının şərq hissəsi), Naxçıvan bölgəsinə (Naxçıvan, Şərur-Dərələyəz qəzaları və İrəvan qəzasının bir hissəsi), Qazax qəzasının dağlıq hissəsinə, Qarabağa və Zəngəzura qarşı ərazi iddiaları qaldırır, xəritələr tərtib edirdilər. Lakin onlar bununla da kifayətlənməyərək, Azərbaycan Respublikasını və dünya ictimaiyyətini fakt qarşısında qoymaq məqsədilə, Azərbaycanın göstərilən tarixi torpaqlarında soyqırımlarına başladılar. Azərbaycan Xalq Cümhuriyyəti olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə Ermənistanın ərazi iddialarını rədd edir, Cümhuriyyətin ərazi bütövlüyünü təmin etmək üçün hərtərəfli iş aparır, mümkün olan bütün tədbirləri görürdü.

*Əd.:* Щепотьев А., Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки, Изв. АН Азерб. ССР (серия истории, философии и права), 1990, № 2.

**ESERLƏR,** s o s i a l i s t  i n q i l a b ç ı l a r - Rusiyada sosialist partiyası (1901-22). Bakıda eserlərin ilk dərnəyi 1903 ildə fəaliyyətə başlamışdı. 1904 ildən özəl mətbəəyə malik idilər. Bakı eserlərinin sosial bazası, əsasən, fəhlələrdən, Xəzər ticarət gəmiçiliyi donanmasının dənizçilərindən, həmçinin tələbə gənclərdən ibarət idi. 1904-07 illərdə Şuşa, Yelizavetpol (Gəncə) və Zaqatalada da eser təşkilatları yaradıldı.

Eserlərin əsas mübarizə üsulu fərdi terror idi. 1905 ildə eserlərin Bakı komitəsi nəzdində hərbi drujina yaradıldı. Həmin il onlar bir neçə terror aktı törətdilər.

Eserlərin proqramında milli məsələyə xüsusi əhəmiyyət verilirdi. Partiyanın ayrı-ayrı millətlər arasında federativ münasibətlərin yaradılmasına çalışacağı qeyd edilirdi. Müəyyən əraziyə malik xalqların milli dövlətlərini yaratmaq da nəzərdə tutulurdu. Bu plan Qafqaza da aid idi. Bakı eserləri öz partiyalarının bu müddəaları ilə tam razı idilər. Bakı eserlərinin təşəbbüsü ilə *"İttifaq"* (1905) və *"Əş-Səms "* (1906) adlı milli sosialist inqilabçılar təşkilatları yaradılmışdı.

1906-07 illərdə, çoxsaylı həbslərə baxmayaraq, eserlərin Azərbaycandakı mövqeləri xeyli möhkəmləndi. Onların təsir dairəsində 60-dək müəssisə və 10 minədək fəhlə var idi. Partiya üzvlərinin sayı isə 1500-ə çatırdı. 1906-09 illərdə Bakı eserləri "Molot" ("Çəkic"), "Dlya naroda" ("Xalq üçün"), "Trud" ("Əmək"), "Volna" ("Dalğa") qəzetlərini, "Trudovoy qolos" ("Əməkçi səsi") leqal jurnalını nəşr etdirirdilər.

1913 ilin yazında Bakı eserləri dənizçilərin yeni tətilini hazırlayarkən şəhər jandarm idarəsi Bakı təşkilatının icraiyyə komitəsini ləğv etdi. Komitənin sədri İ.A.Suxartsev başda olmaqla, 22 nəfər həbs edildi. Birinci dünya müharibəsi (1914-18) dövründə icraiyyə komitəsi yenidən bərpa olundu. Partiya üzvlərinin bir hissəsi müharibəyə qarşı çıxan bolşeviklərlə birgə fəhlə tətillərində iştirak edir, müharibə əleyhinə vərəqələr yayırdılar. Eserlərin bu qanadı 1917 ildən sonra meydana çıxmış sol eserlər təşkilatının əsasını qoydu.

Fevral inqilabından (1917) və Rusiyada çar hakimiyyətinin süqutundan sonra Bakı eser təşkilatının dirçəliş dövrü başlandı. Martın 7-də Bakı Sovetinin ilk iclası keçirildi və onun tərkibinə daxil olan 52 deputat yerinin çoxunu eser və menşeviklər tutdular. Həmin ayda Bakıda eserlər partiyasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. Əsas diqqəti kəndli məsələsinə yönəldən eserlər milli məsələdə xalqların öz müqəddəratını təyinetmə hüququnu rədd edirdilər. Onlar yalnız sosialist partiyalarının tərkibində olan ayrı-ayrı millətlərin nümayəndələri ilə taktiki saziş bağlanmasını mümkün sayırdılar. "Panislamizmə" qarşı kəskin çıxış edirdilər. Eserlərin nüfuzu rus və erməni fəhlələri arasında çox yüksək idi. Mayda onlar Bakı Sovetinin sədrliyinə S.Şaumyanın yerinə eser Sako Saakyanın seçilməsinə nail oldular. Oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə eserlər 6305 səs toplayaraq, müsavatçılardan sonra ikinci yerə çıxdılar.

1917 il Oktyabr çevrilişindən sonra eserlər, menşeviklər və daşnaklar Bakı Soveti tribunasından Petroqrad üsyanının dinc yolla ləğv edilməsini, bütün hakimiyyətin Müəssislər məclisinə, ona qədər isə demokratik yolla koalisiyaya verilməsini tələb etdilər. Eyni zamanda, eserlər daşnaklarla birləşərək, müsəlman partiyalarının bu koalisiyaya daxil olmasının qəti əleyhinə çıxırdılar. Hakimiyyətin, bolşeviklər başda olmaqla, Bakı Sovetinə verilməsinin əleyhinə çıxan eser və menşeviklər Soveti tərk etdilər. 1917 ilin dekabrında Sovetə keçirilən yeni seçkilərdə bolşeviklər 51, daşnaklar 41 səs aldığı halda, sol eserlər 38, sağ eserlər isə 28 səs aldılar. Sovetin İcraiyyə Komitəsinə 6 bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser və 2 müsavatçı daxil oldu.

1918 ildə Bakıda türk-müsəlman əhaliyə qarşı mart soyqırımları zamanı eserlər bütünlüklə S.Şaumyan başda olmaqla, bolşeviklərin tərəfində çıxış etdilər. Onların lideri S.Saakyan "panislamizmə" qarşı vuruşacaqlarını bəyan etdi. Bakıda türk-müsəlman əhaliyə qarşı üç gün davam edən soyqırımından və azərbaycanlıların kütləvi surətdə qətlindən sonra eser İ.Suxartsev Bakı Sovetinin iclasında "Müsavat" firqəsinin "darmadağın olduğunu" və "Türkiyənin Bakı cəbhəsinin alındığını" elan etdi.

Bakı kommunası S.Şaumyan başda olmaqla, sol eserlərlə və "beynəlmiləlçi" daşnaklarla əməkdaşlıq taktikasını seçmişdi. 1918 ilin iyulunda *Qafqaz İslam Ordusu* Bakıya doğru irəliləyərkən Bakı Sovetinin daşnak-eser-menşevik bloku bolşeviklərə qarşı çıxış edərək, buraya general L.Denstervilin başçılığı ilə ingilis qoşunlarını dəvət etməyə üstünlük verdilər. Bakı Sovetinin 25 iyul tarixli iclasında bolşeviklər ingilis qoşunlarının çağırılmasına etiraz olaraq zalı tərk etdikdən sonra bütün hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi. Bu blok 1918 il avqustun 1-də "Sentrokaspi diktaturası" hökumətini formalaşdırdı. Avqustun 4-də Ənzəlidən Bakıya gələn ingilis qoşunlarının komandanı L.Denstervilin dediyinə görə, o, eser partiyasının nümayəndələri ilə dəfələrlə danışıqlar aparmışdı. İngilis generalı bəyanat vermişdi ki, "partiyanın (yəni eser partiyasının - *red.)* proqramı bizim məqsədlərimizə uyğun gəldiyinə görə, onlar bizim köməyimizə əmin ola bilərlər". Lakin ingilislərlə "Sentrokaspi" hökumətinin münasibətləri qarşılıqlı ittihamlarla və etimadsızlıqla müşayiət olunurdu. Türk-Azərbaycan hərbi hissələrinin əməliyyatları nəticəsində sentyabrın 15-də Bakı azad olundu. Denstervilin qoşunları və onların arxasınca "Sentrokaspi diktaturası" hökumətinin üzvləri Bakını tərk etdilər.

1918 ilin dekabrında fəaliyyətə başlayan Azərbaycan Parlamentinin işində iştirak məsələsini müzakirə edərkən eserlər Azərbaycanın öz müqəddəratını təyin etməsi ideyasını yalnız vahid Federativ Rusiya tərkibində mümkün saydılar. Eserlər parlamentə demokratik seçkilərin tərəfdarı olduqlarını bildirsələr də, bu seçkilərin əsası kimi milli təmsilçiliyi deyil, yalnız partiya prinsiplərini qəbul edirdilər. Cümhuriyyət Parlamenti 1919 il yanvarın 25-də eser partiyası Bakı komitəsinin ona 5 yer ayrılması barədə xahişini müzakirə edərək, onlara milli azlıqlar fraksiyasında yer verilməsini qərara aldı. Lakin müstəqil eserlər Azərbaycan Parlamentinin fəaliyyətində iştirak etmədilər. Eserlərin yalnız azərbaycanlılardan ibarət "Xalqçı" partiyasının nümayəndələri parlamentdə təmsil olundular.

1918-20 illərdə eserlər *Bakı Fəhlə Konfransı,* fəhlə və dənizçilərin həmkarlar ittifaqları çərçivəsində fəaliyyət göstərirdilər. Eserlər öz mətbu orqanları "Znamya truda", "Nabat" və sair qəzetlərin səhifələrində Azərbaycan Hökumətinin daxili və xarici siyasətini açıq şəkildə tənqid edir, Rusiya ilə birləşmək ideyalarını yayırdılar. Bolşevik və menşeviklərlə yanaşı, eserlərin də daxil olduğu Bakı Fəhlə Konfransı 1919-20 illərdə söz və yığıncaq azadlığı, əmək haqqının artırılması, milli hökumətə etimadsızlıq göstərilməsi tələbləri ilə bir neçə ümumşəhər tətili keçirməyə müvəffəq oldular. Lakin 1919 ilin may tətili zamanı Bakı Fəhlə Konfransının eser və menşeviklərdən ibarət qrupu azərbaycanlı fəhlələrin milli hökumətlə həmrəyliyini və ingilis qoşunlarının da hakimiyyəti dəstəklədiyini görüb, tətilin və onun əsas təşkilatçısı olan bolşeviklərin əleyhinə çıxdı. Bu vaxtdan etibarən Bakı Fəhlə Konfransını öz əllərinə keçirmək uğrunda kəskin mübarizəyə başlayan bolşeviklər həm bu təşkilatda, həm də həmkarlar ittifaqlarında üstünlüyə nail oldular.

Belə bir şəraitdə bolşeviklərə ilk müttəfiqlik əli uzadan azərbaycanlı sol eserlər oldu. Ruhulla Axundovun başçılıq etdiyi bu təşkilat inqilabi sosializm və Sovet hakimiyyətini dəstəkləmək platformasında dayanmaqla yanaşı, Azərbaycanın dövlət quruluşunu müstəqil sovet respublikası formasında görürdülər. Son nəticədə, sol eserlər "Hümmət" və "Ədalət" partiyaları ilə birlikdə 1920 ilin fevralında Azərbaycan Kommunist Partiyasının təməlini qoydular, 11-ci Qırmızı ordunun Azərbaycana müdaxiləsinin və *Aprel işğalının (1920)* bilavasitə iştirakçıları oldular. Lakin Sovet hakimiyyəti qurulandan sonra həm sağ, həm də sol eserlər yeni Hökumət tərəfindən təqiblərə məruz qalıb, qeyri-leqal işə keçməyə məcbur oldular. 1922 ildə Bakıda eserlərə qarşı məhkəmə prosesi başladı. Onların bir hissəsi Sovet hakimiyyətinə qarşı fəaliyyətdə təqsirləndirilərək güllələndi, digər hissəsi isə sürgün edildi.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920), B., 1998; Адрес-календари Азербайджанской Республики на 1920 г., B., 1920;

**"EVELİNA" MÜNAQİŞƏSİ** - "Evelina" gəmisinin daşnak-bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi. 1918 ilin martında Bakıda ictimai-siyasi vəziyyət son dərəcə gərgin idi. Şəhərdə Azərbaycan hərbi qüvvələrinin zəif olduğunu yaxşı bilən Bakı Sovetinin rəhbərliyi, S.Şaumyan başda olmaqla, müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı. Bu məqsədlə zavod və mədənlərdə erməni və rus fəhlələri müxtəlif bəhanələrlə "Qırmızı ordu" sıralarına qəbul edilirdilər. Erməni Milli Şurası cəbhədən qayıdan erməni əsgərlərini Bakıda saxlamaq üçün martın əvvəllərində "Erməni əsgərlərinə" müraciət etdi. Erməni milyonçusu Mantaşevin zavodları isə ermənilərin silah-sursat cəbbəxanası rolunu oynamağa başladı. İrandan və Orta Asiyadan Sovet hökumətinin adına göndərilən silahlar da ermənilərin əlinə keçdi. 1918 il martın 17-də qırğın törətmək üçün bəhanə yaratmaq məqsədilə "Müsavat" partiyası üzvlərinin və azərbaycanlı əsgərlərin-yunkerlərin olduğu "Avetik" gəmisi Şaumyanın əmri ilə atəşə tutuldu. Elə həmin gün B.Avakyan "Astoriya" mehmanxanasında Hərbi İnqilabi Komitə adından daşnaklara silah payladı. Martın 24-də şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən və təsadüfən əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuş oğlu Məhəmmədin dəfnində iştirak etmək üçün Bakıya gəlmiş müsəlman alayının zabitləri dəfn mərasimindən sonra "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər Lənkəranda olan müsəlman hərbi hissələri ilə birlikdə Muğandakı rus-molokan kəndlərini "məhv etmək" haqqında tapşırıq almışlar. Bu təxribat öz "bəhrəsini" verdi, Bakıdakı bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərksilah edilməsinə tərəfdar oldu. Martın 30-da təcili olaraq Bakı şəhəri mədən-zavod rayonlarının inqilabi müdafiə komitəsi yaradıldı. Komitəyə S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan, M.Yolçuyan, Nəriman Nərimanov daxil idilər.

İnqilabi komitənin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah olundu. Müsəlman əhalisi məscidlərə toplaşaraq, silahların qaytarılmasını tələb etdi. Vəziyyətin çox ciddi xarakter aldığını görən Azərbaycan milli təşkilatlarının nümayəndələri inqilabi komitəyə gələrək, alınmış silahları "Hümmət" müsəlman bolşevik təşkilatı vasitəsilə qaytarmağa cəhd göstərdilər. Lakin bolşevik-daşnak koalisiyası əvvəlcədən bağladıqları sövdələşmə əsasında müsəlman əhaliyə qarşı hücuma başladı. Martın 30-da axşam saat beşdə Bakıda ilk atəşlər açıldı. Bu, Bakıda türk-müsəlman əhaliyə qarşı *Mart soyqırımının (1918)* başlanğıcı oldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; İsgəndərov A., Azərbaycan Xalq Cümhuriyyəti, B., 2003; Балаев А., Азербайджанское национально – демократическое движение 1917- 1920 гг., Б., 1990; Насиров Т., Борьба за власть большевиков Азербайджана (1917 - 1920), Б., 1993; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика. Страницы политической истории 1918 – 1920 гг., Б., 1994.

**EYNULLAYEV** Sənətulla İbrahim oğlu (1881, Simbirsk quberniyasının Buin qəzası, Əski Yukal k., - ?, Bakı) - mətbuat xadimi, naşir, redaktor, publisist. Ev təhsili almış, orduda xidmət etmişdir. Yaradıcılığa Simbirskdə başlamış, 20 əsrin 10-cu illərində Bakıya köçərək, "Məlumat" (1911), "Yeni İrşad" (1911-12) qəzetlərinin redaksiyalarında işləmiş, "Səda" (1909-11), "Açıq söz" (1915-18) və s. qəzetlərdə məqalələr dərc etdirmişdir. Müstəqil jurnalistlik fəaliyyəti göstərmiş, 1912 il martın 6-da "İqbal" gündəlik qəzetinin nəşrinə başlamışdır. Qəzetin 459 nömrəsi çıxandan sonra hərbi qulluğa çağırılmış, naşirlik və mühərrirlik hüququnu *Seyid Hüseynə* vermişdir. Ordudan tərxis olunduqdan sonra Məhəmməd Əmin Rəsulzadə ilə "İqbal", "Yeni iqbal" və "Açıq söz" qəzetlərində işləmiş və gündəlik redaktor vəzifəsini icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə *"Azərbaycan "* qəzetinin redaksiyasında işləmiş, qəzetin aparıcı müəlliflərindən biri olmuşdur. Əsasən publisistika sahəsində çalışmışdır. İmperialist ölkələrinin Balkan yarımadasında törətdikləri müharibələrin, Asiya və Afrika ölkələrini iqtisadi və siyasi asılılıqda saxlamaq cəhdinin, çarizmin köçürmə siyasətinin tənqidi, müsəlmanların iqtisadi və mədəni dirçəlişinin, ana dili, ədəbiyyat və maarifinin inkişafı uğrunda mübarizə Sənətulla Eynullayevin publisistik məqalələrinin əsas mövzuları idi. Rusiya müsəlmanlarının mədəni muxtariyyəti ideyasını ardıcıl surətdə təbliğ etmişdir.

# Ə



**ƏBDÜRRƏHMANOV** Ağacəfər Məşədi Cəfər oğlu(30.7.1896, Şamaxı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şamaxı realnı məktəbini bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kimya sahəsində davam etdirmək üçün Almaniyanın Berlin Universitetinə göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat yoxdur.

**ƏBİLOV** İbrahim Məhərrəm oğlu (1882, Ordubad ş. -23.2.1923, Türkiyə, İzmir ş.; Bakıda dəfn olunmuşdur) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı, sosialistlər fraksiyasının üzvü. İlk Azərbaycan diplomatlarından biri; Sovet Azərbaycanının Türkiyədə səfiri. Ordubadda M.T.Sidqinin "Əxtər" məktəbində oxumuş, atasının vəfatından sonra ailəsini dolandırmaq üçün təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. 1903 ildən Port-Petrovskda (indiki Mahaçqala) və Bakıda fəhləlik etmiş, inqilabi hərəkata qoşulmuş, "Hümmət"in (menşevik) üzvü olmuşdur. 1907 ildə Bakı Xəzər Ticarət donanması dənizçilərinin tətilinin təşkilatçılarından idi. 1908 ildə Cənubi Qafqazda və Cənubi Azərbaycanda iranlı zəhmətkeşlər arasında inqilabi iş aparan "İctimaiyyun-amiyyun". ("Mücahid") sosial-demokrat təşkilatının sədri Nəriman Nərimanovun tapşırığı ilə İrana göndərilmişdir. Bakıya qayıtdıqdan (1909) sonra burada çıxan "Bakı həyatı" qəzetinin redaktoru (1912) olmuşdur. Çar hökuməti tərəfindən dəfələrlə həbs olunan Əbilov 1913 ildə Həştərxana sürgün edilmişdir. Çarizm devrildikdən sonra sürgündən qayıdan Əbilov Tiflisdə menşevik "Hümmət" təşkilatının görkəmli xadimlərindən biri kimi fəaliyyət göstərmişdir.



1918 ilin axırlarında Bakıya gələn Əbilov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə deputat seçilmiş və onun sosialistlər fraksiyasının üzvü olmuşdur. 1920 ildə Bakı menşeviklərinin orqanı olan "İskra" qəzetinin redaktoru idi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920) sonra Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) daxili işlər nazirinin müavini təyin olunmuş, Şərq xalqlarının Bakıda çağırılan I qurultayında Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının katibi seçilmişdir. 1921 ilin iyulunda Azərbaycan nümayəndə heyətinin tərkibində Kommunist İnternasionalının 3-cü konqresində iştirak etmişdir. 1921 ildən N.Nərimanovun tövsiyəsi ilə Azərbaycan SSR-in, sonra isə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuş, Sovet-Türkiyə, o cümlədən Azərbaycan-Türkiyə dostluq münasibətlərinin möhkəmləndirilməsində böyük rol oynamışdır. Onun təşəbbüsü ilə Türkiyənin Trabzon və Samsun şəhərlərində Azərbaycanın konsulluqları açılmışdı. Əbilovun səmərəli diplomatik fəaliyyəti və bilavasitə iştirakı sayəsində sovet respublikaları ilə Türkiyə arasında bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalanmışdır. Naxçıvan muxtariyyətinin təməlini qoymuş 1921 il Moskva və Qars müqavilələrini digər Azərbaycan diplomatı, Sovet-Türkiyə danışıqlarında Azərbaycan nümayəndə heyətinin başçısı Behbud ağa Şahtaxtinski ilə birlikdə Əbilov da imzalamışdır. Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürk ilə Əbilov arasında sıx dostluq münasibətləri var idi. Əbilov Azərbaycan Hökuməti adından dostluq və qardaşlıq rəmzi olaraq Atatürkə qızıl xəncər hədiyyə etmişdir. Atatürk Ankarada Azərbaycan səfirliyinin binası üzərində ölkəmizin bayrağının qaldırılması mərasimində iştirak etmişdir.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5., B., 2001; Багиров Ю.А., Из истории советско – турецких отношений в 1920-1922 гг., Б., 1965; Аралов С.И., Воспоминания советского дипломата, М., 1960.

**"ƏDALƏT"** - inqilabi fəhlə təşkilatı. 1914 ildə fəaliyyətə başlamış, 1916 ildə təşkilat kimi formalaşmışdır. Rəsmi yaranma tarixi Bəhram Ağayevin başçılıq etdiyi bir qrup iranlı (əsasən Cənubi azərbaycanlı) fəhlənin *"Hümmət"* partiyasından ayrıldığı 1917 il sayılır. "Ədalət" özünü *"İctimaiyyun-amiyyun"un* varisi hesab edir, Cənubi Azərbaycanda müntəzəm surətdə fəal inqilabi iş aparırdı. Təşkilatın Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Bakı Komitəsində və "Hümmət"də daimi nümayəndələri var idi.

"Ədalət" 1917 ildən Azərbaycan və fars dillərində *"Bayraqi-ədalət"* adlı jurnal nəşr etməyə başlamışdı. Burada, əsasən, İranın daxili siyasi vəziyyətinə dair problemlər, Qacar sülaləsinə qarşı mübarizə, şahlıq hakimiyyətinin devrilməsi və demokratik respublika qurulması tələbi işıqlandırılırdı. 1917-18 illərdə təşkilat xeyli möhkəmləndi və Cənubi Azərbaycan fəhlələri içərisindən silahlı dəstə təşkil etdi. Bu dəstə 1918 ilin mart soyqırımı zamanı mədən-zavod rayonlarında asayişə nəzarət edir, burada qırğın düşməsinin qarşısını alırdı. 1919 ilin əvvəlində Ə.Qafarzadə başda olmaqla, partiyanın Mərkəzi Komitəsinin yeni tərkibi seçildi. Mərkəzi Komitəyə B.C.Ağayev, S.C.Cavadzadə (Pişəvəri), R.Kərimov və b. daxil oldular. "Ədalət"in Bakıdan əlavə, Gəncədə, Lənkəranda, Astarada və Tiflisdə də komitələri var idı.

"Ədalət" 1919 ildən Rusiya Kommunist (bolşeviklər) Partiyası (RK(b)P) Bakı Komitəsi və "Hümmət"lə daha sıx əməkdaşlığa başladı. Həmin ilin iyunundan RK(b)P Qafqaz Ölkə Komitəsinin maliyyə yardımı ilə partiyanın qeyri-leqal "Hürriyyət" qəzeti nəşrə başladı. Azərbaycan kommunist təşkilatlarının 1920 il fevralın 11-12-də keçirilən birinci qurultayı Azərbaycan Xalq Cümhuriyyətini devirməklə hakimiyyəti ələ keçirmək məqsədilə *"yerli şəraitdən və taktiki mülahizələrdən çıxış edib"* RK(b)P Bakı Komitəsini, "Hümmət"i və "Ədalət"i vahid Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) halında birləşdirməyi qərara aldı. Qurultayın seçdiyi Mərkəzi Komitəyə "Ədalət"dən K.C.Ağazadə, D.X.Bünyadzadə, Ə.Qarayev, A.Yusifzadə daxil oldular. Həmin il "Ədalət"in Azərbaycanda və onun hüdudlarından kənarda fəaliyyət göstərən bütün komitələri də AK(b)P-yə daxil oldu.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5., B., 2001; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Əfəndiyev S.M., Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən,B.,1957; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997;

**ƏDLİYYƏ NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyətinin bütün məhkəmə və hüquq idarələri sisteminə və onların fəaliyyətinə nəzarət edən hökumət orqanı. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə yaradılmışdı. Fətəli xan *Xoyskinin* Tiflisdə təşkil etdiyi 1-ci hökumət kabinəsində ilk ədliyyə naziri Xəlil bəy *Xasməmmədov* olmuşdur. Həmin il iyunun 17-də Fətəli xan Xoyski tərəfindən Gəncədə təşkil olunmuş 2-ci Hökumət kabinəsində özü Nazirlər Şurasının sədri vəzifəsi ilə yanaşı, ədliyyə naziri vəzifəsini də icra etmişdir. 1918 il iyunun 27-də keçmiş Tiflis məhkəmə palatasının üzvü Teymur bəy *Makinski* nazirin müavini təyin olunmuşdu. *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti* fəaliyyətə başladıqdan (1918, dekabr) sonra F.x.Xoyskinin dekabrın 26-da təşkil etdiyi 3-cü Hökumət kabinəsində ədliyyə naziri vəzifəsi boş qaldı və 1919 il aprelin 14-də Nəsib bəy *Yusifbəyli* yeni Hökumət təşkil edənə qədər həmin vəzifənin icrası T.Makinskiyə tapşırıldı. N.Yusifbəylinin təşkil etdiyi Cümhuriyyətin 4-cü Hökumət kabinəsində bu vəzifəni sosialist Aslan bəy *Səfikürdski* tutdu. N.Yusifbəylinin təşkil etdiyi 5-ci Hökumət kabinəsində isə ədliyyə naziri vəzifəsi X.Xasməmmədova həvalə olundu.

Yarandığı ilk günlərdə Ədliyyə Nazirliyinin ştatı yalnız nazirdən ibarət idi. Gəncəyə köçdükdən sonra isə Cümhuriyyət Hökumətinin 1918 il 26 və 30 iyun tarixli qərarları ilə nazir müavini ştatı verilməklə, nazirliyin idarə strukturu, dəftərxanası yaradıldı. Həmin ilin sentyabrın 15-də Bakı *Qafqaz İslam Ordusu* tərəfindən azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti sentyabrın 17-də Bakıya köçdü. Ədliyyə Nazirliyi sentyabrın 26-dan Bakıda fəaliyyətə başladı. Noyabrın 22-də nazirliyə yeni ştat vahidləri - dəftərxanasına 5 nəfər kargüzar və 8 nəfər dəftərxana xidmətçisi ştatı verildi, bu struktura direktor və direktor müavini təyin olundu. 1919 il avqustun 11-də Hökumətin qərarı ilə Ədliyyə Nazirliyi sistemində həbsxana işləri şöbəsi də yaradıldı. Cümhuriyyət Parlamentində qəbul olunan qanun layihələrinin əksəriyyətinə Ədliyyə nazirliyində baxıldığından, 1919 il noyabrın 28-də nazirliyin ştatını artırmaq barədə qanun layihəsi hazırlanıb, Parlamentin müzakirəsinə təqdim olundu. Layihə üzrə qəbul edilmiş qanuna əsasən, Ədliyyə Nazirliyi sistemində tərcüməçilər, hüquq məsləhətxanası şöbələri və mühasiblik yaradılır. Ədliyyə Nazirliyi ilk günlərdən ölkədə anarxiya zamam dağıdılmış mehkəmə aparatı sistemini, birinci növbədə, Bakı və Gəncə dairə məhkəmələrinin və onlarm yanmdakı prokuror nəzarətinin, habelə yerlərdə barışıq məhkəmələrinin fəaliyyətini bərpa etməyə başladı. Fəaliyyətinin birinci ilində nazirlikdə şəxsi heyət üzrə 272 nəfər işə təyin edilmiş, 153 nəfər işdən azad olunmuş, 20 nəfər isə müxtəlif vəzifələrə keçirilmişdi. 1918 il oktyabrın 9-da *Fövqəladə Təhqiqat Komissiyası* Ədliyyə Nazirliyinin sərəncamına verildi. Məhkəmə sahəsində işlərin bərpa olunması ilə əlaqədar Ədliyyə Nazirliyi Məhkəmə Palatasının yaradılması barədə məsələ qaldırdı. 1918 il noyabrın 14-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış *Azərbaycan Məhkəmə Palatasının* Əsasnaməsini təsdiq etdi. 1919 il mayın 21-də nazirlik ayrı-ayrı idarələrdə vəzifədən sui-istifadə hallarının və xidməti cinayətlərin təhqiqi ilə əlaqədar xüsusi Təftiş-İstintaq Komissiyasının yaradılması barədə qanun layihəsini Parlamentə təqdim etdi. İyulun 27-də Parlament həmin layihə əsasında qanun qəbul etdi. Qısa müddətli fəaliyyəti dövründə Ədliyyə Nazirliyi ölkədə hüquq mühafizə orqanlarının təşkili ilə yanaşı, hüquq mühafizəsi, qanunvericilik, normativ aktların hazırlanması və tətbiqi sahəsində də böyük iş gördü.

1920 il aprelin 27-də Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Ədliyyə Nazirliyi də fəaliyyəti dayandırdı.

*Əd.:* Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920; Азербайджанская Демократическая Республика (1918-1920), Б., 1998;

**ƏDLİYYƏ NAZİRLİYİNİN FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASI** - bax *Fövqəladə Təhqiqat Komissiyası.*



**ƏFƏNDİYEV** Abdulla Molla İbrahim oğlu (30.9.1897, Dağıstan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmiş (1916), Moskva Kommersiya İnstitutunun iqtisadiyyat şöbəsində 2-ci kursa qədər oxumuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq qoymağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Berlin Kommersiya institutuna (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏFƏNDİYEV** Hacı Hüseyn (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Göyçay qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi.



**ƏFƏNDİYEV** Məmmədəmin (14.2.1897, İrəvan - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflisdəki imperator I Aleksandr kişi gimnaziyasını bitirmiş (1916), Moskva Universitetinin fizika-riyaziyyat şöbəsində təhsil almış, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq qoymağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən təhsilini yol nəqliyyatı sahəsində davam etdirmək üçün Darmstadt institutuna (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında M. Əfəndiyevin təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏFƏNDİYEV**,Əfəndizadə Rəşidbəy İsmayıloğlu(1863, Şəki-31.8.1942, Şəki) - maarif xadimi, yazıçı, alim.Ruhani məmur ailəsində doğulmuşdur. Nuxada (Şəkidə)cümə məscidindəki mollaxanada ibtidai (1870-76), dörd sinifli şəhər məktəbində orta (1876-79), Qori Müəllimlər Seminariyasında orta pedaqoji (1879-82), Aleksandr Müəllimlər İnstitutunda (Tiflis) ali təhsil almışdır. Nuxa qəzasının Qutqaşen ikisinifli məktəbində (1882-92), Xaçmaz kənd məktəbində (1890-92) müdir, Qafqaz Müsəlmanları Ruhani İdarəsində katib müavini (1892-1900), Qori Müəllimlər Seminariyasının "tatar şöbəsi"ndə Azərbaycan dili və şəriət müəllimi (1902-16), İrəvan quberniyası xalq məktəblərinin müfəttişi (1916-18) işləmişdir. Əfəndiyev 1918 ildə Bakıya gələrək, Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifi sahəsində tədbirlərinin həyata keçirilməsinə yaxından kömək göstərmiş, maarif nazirinin əmri ilə Bakı kişi seminariyasının direktoru təyin olunmuşdur. Maarif nazirliyi yanında əlifba komissiyasının tərkibində latın qrafikasına keçmək üçün təqdim olunmuş layihələrin müzakirəsində fəal iştirak etmişdir. Sovet hakimiyyəti illərində Şəki pedaqoji texnikumunda müəllim işləmişdir.



Əfəndiyev geniş yaradıcılıq diapazonuna malik yazıçı, alim idi. Əsasən, uşaq ədəbiyyatı, dramaturgiya və bədii tərcümə sahəsində çalışmışdır. Əfəndiyev pedaqoji fəaliyyətinin ilk günlərindən məktəblərin milli zəmində hazırlanmış dərsliyə, uşaqların sağlam məzmunlu ədəbiyyata ehtiyacı ilə qarşılaşmış, orijinal əsərlərdən iqtibas və tərcümələrdən ibarət "Uşaq bağçası" (1898), "Bəsirətül-ətfal" (1901) dərsliklərini nəşr etdirmişdir. Hər iki dərslik Qafqazda və türk xalqları yaşayan digər bölgələrin məktəblərində tədris olunmuşdur. Əfəndiyevin adı Mirzə Fətəli Axundzadənin dramaturgiya ənənələrini inkişaf etdirən komediyanəvislər arasında şərəfli yer tutur. Məşhur pedaqoq A.O.Çernyayevskinin tövsiyəsi ilə "Qan ocağı" adlı ilk pyesini Qori seminariyasında yazıb tamaşaya qoyan Əfəndiyev 20 əsrin əvvəllərində "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Saqqalın kəraməti", "Pul dəlisi", "Bir saç telinin qiyməti", "Tiflis səfərləri", "Qızılgül" əsərlərini nəşr etdirmişdir. İ.A.Krılovun təmsillərinin mühüm bir qismini, A.S.Puşkinin, M.Y.Lermontovun şeir və poemalarını, F.Şillerin "Cam" mənzuməsini, Firdovsinin "Şahnamə" epopeyasından "Rüstəm və Söhrab" dastanının dilimizə çevirmişdir. Əfəndiyevin "Arvad məsələsi" adlı kitabı qızların təhsilinə və qadının cəmiyyətdə yeri probleminə həsr olunmuşdur. O, iki hissədən ibarət "Müxtəsər şəriət" dərsliyinin də müəllifidir. Əfəndiyev etnoqrafiya ("Nuxada evlənmək adətləri", "Qəbələ mahalı", "Qutqaşen kəndi haqqında bir neçə məlumat"), ədəbiyyatşünaslıq ("Azərbaycan türklərinə məxsus ədəbiyyat", "Azərbaycan ədəbiyyatı nümunələri", "Lev Nikolayeviç Tolstoy", "Seyid Əzim Şirvani"), publisistika ("İbtidai savad təlimi haqqında müsəlmanın rəyi", "Bizə kitab" nidası") sahəsində də fəaliyyət göstərmişdir.

Əfəndiyev Azərbaycan xalq əfsanə və rəvayətləri, adət və ənənələri barədə, həmçinin xalq sənətkarlığı və təbabətinə aid məlumatlar toplayıb, "Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza" məcmuəsində çap etdirmişdir. Əfəndiyev 1924 ildə Azərbaycanın 1-ci ölkəşünaslıq qurultayının nümayəndəsi və etnoqrafiya cəmiyyəti Şəki şöbəsinin elmi katibi seçilmişdi. Rəşid bəy Əfəndiyev Azərbaycan xalqının milli oyanışında mühüm rol oynamışdır.

Əsərləri: Dram əsərləri, B., 1961; Seçilmiş əsərləri, B., 1979.

*Əd.:* Abdullayev Ə., Görkəmli maarifçi-demokrat yazıçı Rəşid bəy Əfəndiyev, B., 1960; Abdullayev A., Azərbaycan dilinin tədrisi tarixindən, B., 1966; Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı (XIX-XX əsrlər) (tərtib edənləri X.Məmmədov, A.Həsənov), B., 2002; Əhmədov C, Azərbaycan ədəbiyyatının tədrisi tarixindən, B., 1971; Qurbanov Ş., Ömrün fikir karvanı, B., 1991.



**ƏFƏNDİYEV** Sultanməcid Məcid oğlu (26.5.1887,Şamaxı - 21.4.1938) - Azərbaycanın sovetləşməsində fəal iştirak etmiş partiya və dövlət xadimi.1903 ildən fəhlə hərəkatına qoşulmuş, marksist dərnəklərdə iştirak etmişdir. 1904 ildə Rusiya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyasına (RSDF(b)P) daxil olmuşdur. "Hümmət" bolşevik Əfəndizadə", "Məhbus", "Səma" və b. imzalarla mətbuatda yazıları dərc olunmuşdur. İnqilabi fəaliyyətinə görə 1907 ildə həbs olunaraq, Kazan quberniyasına sürgün edilmişdir. Kazan universitetinin tibb fakültəsini bitirdikdən sonra (1915) Nijni-Novqorod və Həştərxan quberniyalarında həkimlik etmişdir. Fevral inqilabından (1917) sonra Bakıya qayıdaraq, Bakı Fəhlə Deputatları Sovetinə üzv seçilmiş, onun nəzarət heyətinin tərkibinə daxil olmuşdur. 1917-18 illərdə RSDF(b)P BK bürosunun və "Hümmət"in Mərkəzi Komitəsinin tərkibinə, "Hümmət" qəzetinin redaksiya heyətinə daxil idi. Oktyabr çevrilişindən (1917) sonra hakimiyyəti ələ alan Bakı Sovetinin iclasında (2 noyabr) iştirak etmiş, yeni seçilən Sovetin İcraiyyə Komitəsinin tərkibinə daxil olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi fəaliyyətini Həştərxanda davam etdirmiş, 1919 ilin mayında Azərbaycanda və Qafqazda vəziyyət haqqında məlumat vermək üçün Rusiya Kommunist (bolşeviklər) Partiyası (RK(b)P) Mərkəzi Komitəsinə ezam olunmuş, Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Milli İşlər Komissarlığında çalışmışdır. Şərq xalqları kommunist təşkilatlarının Moskvada keçirilən birinci (1918, noyabr) və ikinci (1919, noyabr-dekabr) Ümumrusiya qurultaylarının hazırlanması və keçirilməsində iştirak etmişdir. *Aprel işğalından (1920)* sonra Azərbaycana qayıtmış, bolşevik işğalına qarşı Gəncə üsyanının yatırılmasında iştirak etmişdir. 1920 ilin iyunundan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Gəncə quberniyasında fövqəladə müvəkkili və quberniya fövqəladə komissarı olmuşdur. Birinci Ümumazərbaycan Sovetlər qurultayında (1921, may) Azərbaycan Xalq Komissarları Sovetinin tərkibinə seçilmiş və xalq torpaq komissarı təyin edilmişdi. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) və Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) təşkilinin fəal iştirakçısı olmuş, 1922-37 illərdə müxtəlif məsul partiya və dövlət vəzifələrində çalışmış, 1938 ildə repressiya olunmuşdur.

Əsərləri.: Seçilmiş əsərləri, B., 1977; yenə onun, Seçilmiş əsərləri, c.1-2, B., 1988-1990.

**ƏFƏNDİYEV** Süleyman bəy Əlisüleyman oğlu (1864, Ağdam - 21.2.1919, Gəncə) - hərbi xadim, Azərbaycan ordusunun general-mayoru. İlk təhsilini Gəncədə almış, Yelizavetqrad süvari məktəbini bitirmişdir (1885). 1912 ildə polkovnik rütbəsinə layiq görüləndə, Əfəndiyev Qafqaz ordusunda polis-keşikçi dəstəsinin təftiş-yoxlama işləri üzrə baş nəzarətçisi idi. Nümunəvi xidmətinə görə "Müqəddəs Anna" ordeninin 2-ci və 3-cü, "Müqəddəs Stanislav" və "Müqəddəs Vladimir" ordenlərinin 3-cü dərəcələri ilə təltif edilmişdi.

1917 ilin iyulunda Zaqafqaziya komissarlığı tərəfindən Gəncəyə ezam olunan Əfəndiyev burada öz vəzifəsini yerinə yetirməklə bərabər, Gəncə müsəlman milli komitəsinin köməyi ilə şəhərdə hərbi kurslar açır və 150 nəfər azərbaycanlı gənci həmin kurslara cəlb edir. Əfəndiyev dərs dediyi tələbələrilə bərabər gecələr Gəncədə asayişi qoruyurdu. Müsəlman korpusu təşkil edilməyə başlayanda, Əfəndiyev korpusun 2-ci nişançı diviziyasının 5-ci nişançı alayının komandiri təyin olundu, bir müddət isə korpus komandirinin əmri ilə diviziya komandirinin vəzifələrini icra etdi. Onun komandir olduğu 5-ci nişançı alay *Şamxor hadisəsi* zamanı rus hərbi eşalonlarının tərksilah olunmasında fəal iştirak etdi.

*Əlahiddə Azərbaycan korpusu* formalaşdırılarkən Əfəndiyev Qazaxda yerləşən 1 -ci piyada alayının komandiri idi. *Qafqaz İslam Ordusu* komandanının 1918 il 13 avqust tarixli əmri ilə Əlahiddə Azərbaycan korpusu yenidən qurularkən, alay komandirləri vəzifələrinə türk zabitləri gətirildi. Bununla əlaqədar olaraq Əfəndiyev Qafqaz İslam Ordusu komandanlığının mənzil müfəttişliyinə dəyişdirildi. 1918 ilin noyabrında Hərbi Nazirlik bərpa olunduqda, Əfəndiyev 2-ci Qarabağ süvari alayının komandiri idi. Hərbi nazir Səməd bəy Mehmandarov 1918 il dekabrın 2-də 2-ci Qarabağ süvari alayı ilə tanışlıqdan son dərəcə razı qalmış, bunu 1918 il 5 dekabr tarixli əmrində də xüsusi qeyd etmişdi.

1918 ilin dekabrında Əfəndiyev Hərbi Nazirlikdə tapşırıq generalı vəzifəsinə təyin olundu və həmin ayın 29-da Nazirlər Şurasının iclasında hərbi nazir S.Mehmandarovun təqdimatı əsasında ona general-mayor rütbəsi verildi.

1919 il yanvarın 1-dən Əfəndiyevə 1-ci piyada diviziyasına rəhbərlik etmək tapşırıldı. Diviziyanın formalaşdırılmasının bütün çətinliyi Əfəndiyevin üzərinə düşdü. Onun rəhbərliyi ilə diviziya hissələrində dövlətə itaətsizlik hallarının qarşısı alındı, şəxsi heyəti bürümüş yoluxucu yatalaq xəstəliyinin aradan qaldırılması üçün əməli tədbirlər görüldü. Lakin ən çətin günlərdə şəxsi heyətdən aralanmayan Əfəndiyev özü də yatalaq xəstəliyinin qurbanı oldu.

*Əd.:* Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M., Mehmandarov, B., 2000.



**ƏFƏNDİZADƏ,** Ə f ə n d i y e v Abdulla İsmayıl oğlu (1873, Şəki - ?, Bakı) - maarif xadimi, tərcüməçi, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Ruhani məmur ailəsində doğulmuşdur. Rəşid bəy *Əfəndiyevin* qardaşıdır. Nuxada (Şəkidə) evdə və məhəllə məktəbində (1880-88) ibtidai təhsil, Yelizavetpolda (Gəncə) sənət məktəbinində kənd təsərrüfatı üzrə orta ixtisas təhsili (1888-94).Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda ali pedaqoji (1895-98) təhsil almışdır.

1898 ildə Bakıda pedaqoji fəaliyyətə başlamış, müxtəlif məktəblərdə müəllim və müdir (1898-1920) işləmişdir. Qafqaz müsəlman müəllimlərinin birinci (1906) və ikinci (1907) qurultaylarında fəal iştirak etmiş, Süleyman Sani Axundov və Fərhad Ağazadə (Şərqli) ilə birgə tərtib etdiyi yeni əlifba layihəsini müzakirəyə çıxarmış, onlarla birlikdə həmin əlifba layihəsi və qurultayda qəbul olunmuş proqram əsasında "İkinci il" (1908) dərsliyini yazıb nəşr etdirmişdir.

Əfəndizadə Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən Nuxa (Ş ə k i) şəhərindən Azərbaycan Parlamentinin deputatı seçilmişdir. Parlamentdə əvvəlcə "Əhrar" fraksiyasına daxil olmuş, 1919 il noyabrın əvvəllərində bu fraksiyadan ayrılaraq, özünü sol müstəqil elan etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əfəndizadə Maarif Nazirliyinin əlifba islahatına dair təşkil etdiyi komissiyanın tərkibində çalışmışdır. Müzakirəyə təqdim etdiyi əlifba layihəsi komissiya tərəfindən bəyənilmişdi. Əfəndizadənin tərtib etdiyi əlifba əsasında müstəqil dövlətin "Son türk əlifbası" adlı əlifba dərsliyinin (1919) nəşrinə icazə verilmişdi.

"Rüstəmin yuxusu, yaxud röyası" (1906), "Şagirdlərə hədiyyə" (1914) kitabları nəşr olunmuşdur. Birinci kitab haqqında M.Ə.Rəsulzadə rəy dərc etdirmişdir. Əfəndizadə tərcümə ilə də məşğul olmuş, İ.A.Krılovun, M.Y.Lermontovun şeirlərini ana dilinə çevirmişdir.



**ƏFƏNDİZADƏ** Həmdulla əfəndi İsmayıl oğlu (1888, Quba qəz., Dəvəçi nahiyəsinin Qələgah k. - 1928) – ictimai xadim, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. İlk təhsilini kənd mollaxanasında və Qubadakı mədrəsədə almışdır. Daha sonra ikisinifli rus məktəbini bitirmiş (1906), ərəb, fars və rus dillərini öyrənmişdir. 1918 ilin aprelində Dəvəçi nahiyəsinə soxulmuş erməni daşnakları dinc azərbaycanlılara qarşı soyqırımına başladıqda, Həmdulla əfəndi dostu Qaçaq Mayılla birlikdə ayağa qaldıraraq ermənilərə qarşı vuruşmuşdur. Əfəndizadə Azərbaycanın siyasi həyatında yaxından iştirak etmiş,*"İttihad"* partiyasının fəal üzvlərindən olmuşdur. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Quba qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmiş, "İttihad" fraksiyasının üzvü olmuşdur. 1920 il aprelin 27-də bolşeviklərin zirehli qatarı Azərbaycana soxulduqda, Əfəndizadə öz tərəfdarları ilə birlikdə onun qarşısını kəsməyə cəhd göstərmiş, lakin qüvvələr qeyri-bərabər olduğundan geri çəkilməyə məcbur olmuşdu. 1928 ildə repressiyaya məruz qalaraq, Sibirə sürgün olunmuş, orada vəfat etmişdir.

*Əd.:* Qaffarov T., Azərbaycan tarixi (1920-1991), B., 1999; Rəhmanlı N., Çıraqqala yurdunun övladlan, B., 2002.

**ƏFƏNDİZADƏ** Muxtar İsmayıl oğlu, Muxtar əfəndi (1.1.1880, indiki Ağdaş rayonunun Şəmsabad k. - 17.10.1975, Bakı; Şəmsabadda dəfn olunmuşdur) - maarif xadimi, müəllim, şərqşünas-tərcüməçi. Azərbaycanda milli azadlıq hərəkatının fəal iştirakçısı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Atası İsmayıl əfəndi 19 əsrin 2-ci



yarısında Ərəş mahalının məşhur alim və müdərrislərindən olmuş, "Zeynəddin" ədəbi məclisinə rəhbərlik etmiş, Azərbay-can və fars dillərində şeirlər yazmışdır. Muxtar Əfəndizadə (daha çox Muxtar əfəndi kimi tanınmışdır) ilk təhsilini atasından almış, 9 il atasının dostu Hacı Məhəmməd əfəndinin mədrəsəsində, daha 9 il Ağdaş, Nuxa (Şəki), Quba, Bakı, Şamaxı alimlərinin yanında təhsil almışdır.

20 əsrin əvvəllərində Ağdaşda maarifçiliyin inkişafında müstəsna rol oynamış Muxtar əfəndi uşaqlar üçün yeni təlim və tədris üsulu əsasında "Oxu" adlı dərslik yazmış, "Kimsəsiz uşaqlar evi", "Yaşlılar üçün kurs" (1906), "Darülirfan" məktəbi (1906), qiraətxana (1906), teatr (1908), "Səadət" adlı qız məktəbi (1909) açmış, Qubada təşkil etdiyi üsuli-cədid məktəbində dərs demiş, üsuli-cədid məktəbləri üçün "Şəraye-ül-islam" kitabını yazmışdır(1911).

1918 ildə Şamaxı, Ağsu, Qutqaşen (indiki Qəbələ), İsmayıllı bölgəsində bir çox kəndləri viran qoymuş erməni-daşnak quldurlarının Göyçaya, sonra isə Ağdaşa hücumları zamanı Muxtar əfəndi 200 nəfərlik dəstə təşkil edərək, onların qabağını kəsib, geri oturtmuşdu. Vətənsevər, mil-lətsevər şəxsiyyət kimi dəyərləndirilən Muxtar əfəndi Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Ərəş qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmiş, "Əhrar" fraksiyasının üzvü olmuşdur. Muxtar əfəndi dövrünün qabaqcıl maarifpərvər ziyalısı kimi gənc nəslin təlim və tərbiyəsinə, xalq maarifinin və elmin inkişafına, ictimai həyatın müxtəlif sahələri üçün ixtisaslı kadrların hazırlanmasına böyük əhəmiyyət vermişdir.

1920 ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Ağdaşa qayıdaraq, maarifçilik fəaliyyətini davam etdirmişdir. O, dəfələrlə fiziki və mənəvi təqiblərə məruz qalmış, "müsavatçı" damğası ilə evində axtarış aparılmış, şəxsi arxivinə təcavüz olunmuş, həbs edilərək, Qazaxıstana sürgün edilmişdir.

1939 ildə sürgündən qayıtdıqdan sonra pedaqoji və elmi fəaliyyətini davam etdirmiş, ali və orta məktəblər üçün dərsliklər yazmış, orta əsrlər Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyəti olan bir sıra qiymətli mənbələri (Mirxond, İsgəndər Münşi, İbn əl-Əsir və b.) fars və ərəb dillərindən tərcümə etmişdir. 1944-50 illərdə Azərbaycan Dövlət Universitetində ərəb dilindən dərs demişdir. Onun "Miftah ül-lisan ül-ərəb" ("Ərəb dilinin açarı") kitabı (1947) Sovet Sosialist Respublikaları İttifaqında ali məktəb tələbələri üçün ilk ərəb dili dərsliklərindən olmuşdur.

*Əd.:* Ağayev A., Muxtar Əfəndi, B., 1994.

**ƏFƏNDİZADƏ** Rəcəb Əsədulla oğlu (1893, Şəki -20.12.1956, Bakı) - maarif xadimi, pedaqoq-alim, yazıçı, tərcüməçi. Şəkidə mollaxanada (1900-01), altısinifli şəhər məktəbində (1902-10), Qori Müəllimlər Seminariyasında (1910-14) təhsil almışdır. Ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin pedaqogika fakültəsini bitirmişdir (1930). Göyçay ikinci dərəcəli şəhər məktəbində (1914-15), Şəki kişi-qadın gimnaziyasında müəllim (1915-22), Şəki Pedaqoji Texnikumunda (1922-27), Tiflis Pedaqoji Texnikumunda (1928-29) direktor, Ali Pedaqoji İnstitutda müəllim ve dosent (1929-34), Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda tədris və elmi işlər üzrə direktor müavini, pedaqogika kafedrasının müdiri (1945-49) işləmişdir.

Rəcəb bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nuxa qəzasında Hökumətin xalq maarifi sahəsində tədbirlərini həyata keçirmiş, "Türk qiraəti" (1918) dərsliyini nəşr etdirmişdir. "İş otağı" (1933), "Müəllimlərin ixtisasını artırma işinin təşkili" (1934), "Xalq maarifi üzrə məlumat kitabı" (1935), "Fiziki coğrafiya" (1935), "Qiyabi təhsil sistemində şifahi konsultasiya" (1936), "İzahlı pedaqoji lüğət" (1939), "Şagirdlərin fiziki tərbiyəsi və hərbi hazırlığı" (1942), "Uşaqlarda səhiyyə vərdişləri tərbiyəsi" (1947) və s. əsərləri Azərbaycanda xalq maarifi və tərbiyə işlərinin elmi-metodik əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır.

Avropa və rus pedaqogikasının klassikləri Y.A.Komenski ("Didaktik prinsiplər"), İ.H.Pestalotsi ("Seçilmiş pedaqoji əsərləri") və K.D.Uşinskinin ("Məktəbdə təlim-tərbiyə işləri haqqında") irsi Azərbaycan pedaqoji fikrinə ilk dəfə Əfəndizadənin tərcümələri vasitəsilə daxil olmuşdur. Əfəndizadə ali və orta məktəblər üçün Moskvada nəşr olunmuş "Psixologiya" və "Pedaqogika" dərsliklərinin də ilk tərcüməçisidir.

Əfəndizadə bədii yaradıcılıqla da məşğul olmuş, uşaqlar üçün "İnsanlar bir-birinə möhtacdır" (1911), "Gimnazist Vahid" (1911), "Kimdir o", "Namus" (1915), "İntiqam" (1915) hekayələrini, "Axır çərşənbə" (1913) pyesini və s. yazmışdır.

*Əd:.* Hikmət çələngi (tərtib edən X.Məmmədov), B., 1997; XX əsr Azərbaycan nəsri (tərtib edən X.Məmmədov), B., 1992; Qiyasbəyli M., Rəcəb Əfəndiyev, B., 2001.

**ƏFƏNDİZADƏ** Şəfiqə Hafız Məhəmmədəmin əfəndi qızı, Şeyxzadə Əsma Sultan (19.3.1883, Tiflis quberniyasının Azqur k. - 29.7.1959, Bakı) - Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, maarif xadimi, publisist yazıçı. Ailə təhsili almış, Qafqaz Müsəlmanları Ruhani idarəsində və Bakıda III Aleksandr kişi gimnaziyasında imtahan verərək, ibtidai məktəbdə türk dili və şəriət müəllimi vəsiqəsi almışdır. Aleksandr qız "Rus – müsəlman" məktəbində (1909-18) müəllim işləmişdir. Cənubi Qafqaz müsəlman qadın müəllimlərinin Kazan şəhərində çağırılmış (1917) qurultayına nümayəndə seçilmiş, qurultayda çıxış etmişdir. 1918 ilin martında bolşevik-daşnak quldurları tərəfindən türk-musəlman əhalisinə qarşı törədilən soyqırımından sonra qaçqın düşmüş, Qubada, Azqurda, İstanbulda yaşamışdır. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra, 1919 ilin aprelində Bakıya dönmüş, pedaqoji işə bərpa olunmuş, 1920 ilin fevralında ərizə verərək, istefaya çıxmışdır.



Sovet hakimiyyəti illərində mədəni quruculuq işlərinə cəlb olunmuş, darülmüəllimatda (qadın müəllim kadrları hazırlayan pedaqoji məktəb) dərs demiş (1920-26), 1923 ildə nəşrə başlayan "Şərq qadını" jurnalı redaksiya heyətinin üzvü seçilmişdir. Şəfiqə xanım bədii-publisistik yaradıcılıqla məşğul olmuş, "Dəbistan", "Məktəb" jurnallarında təlim-tərbiyə məsələlərinə dair məqalələr, uşaqlar üçün hekayələr dərc etdirmişdir. 1914 ildə "İki yetim, yaxud Kərimin himməti" adlı kitabı nəşr olunmuşdur.



*Bakı şəhəri 2 saylı qız məktəbi. Şəfiqə Əfəndizadə, Sara Vəzirova (müdir) və Nigar Vəlibəyova şagirdlər arasında*

*Əd.:* Məmmədov S., Azərbaycanın maarifpərvər qadınları, B., 1960.

**ƏFQANİ** Cəmaləddin, Seyid Cəmaləddin Əfqani, Cəmaləddin Hüseyni (əsl adı Seyid Məhəmməd ibn Səftər; 1838-39, Həmədan yaxınlığındakı Əsədabad kəndi - 9.3.1897, İstanbul) - görkəmli Azərbaycan mütəfəkkiri. "İslam birliyi" ("İttihadi-islam") dini-siyasi mübarizə cəbhəsinin banisi, islam dini islahatçısı, filosof və ictimai xadim.



Qəzvin və Tehran şəhərlərində yaşamış, sonralar dini-islahatçılıq baxışlarına görə Əfqanıstana köçmüş, orada "Əfqani" təxəllüsü ilə tanınmışdır. Cəmaləddin Əfqaninin həyatı dünya müsəlman xalqlarının milli ictimai oyanış və milli-siyasi müstəqillik idealları ilə sıx bağlı olmuşdur. O, 19 əsrin elmi-texniki tərəqqisi dövründə hələ də orta əsr həyat tərzində yaşayan müsəlman xalqlarını ictimai oyanışa və Avropa müstəmləkəçilərinə qarşı milli azadlıq mübarizəsinə çağırırdı. Müsəlman xalqlarının milli soykökünə, dininə, mədəniyyətinə böyük əhəmiyyət verən Əfqaninin bu baxışları "Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti" adlı əsərində öz əksini tapmışdır. Əfqani dinin fəlsəfi mahiyyəti barədə nəinki müsəlman dünyası, bütövlükdə dünya üçün maraqlı və orijinal mülahizələr söyləmişdir. Həmin mülahizələrin əsası ondan ibarətdir ki, ***"din birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz..."*** Əfqani həm də, Avropa mədəniyyətinin və dövlətçiliyinin mütərəqqi ənənələrini müsəlman xalqları arasında təbliğ edirdi. Məhz belə siyasi, ictimai və dini baxışlarına görə Əfqani öz dövrünün mühafizəkar müsəlman dövlətləri, müstəmləkəçiliyə qarşı mübarizəsinə görə isə Avropa hökumətləri tərəfindən "qəbuledilməz" bir adam kimi qarşılanırdı. Əfqani özünün "islami oyanış" və milli birlik ideyalarını yaymaq üçün Bombey, Kəlkətə, Heydərabad, Qahirə, Ciddə, İstanbul, Peterburq, Moskva, Paris, London, Münxen kimi şəhərlərdə, həmçinin 1889 ilin sentyabrında Tehrana gedərkən Bakıda olmuşdur. Cəmaləddin Əfqaninin "İttihadi-islam" və "Milli vəhdət fəlsəfəsi..." əsərləri, müxtəlif ölkələrdə oxuduğu mühazirələri və ayrı-ayrı adamlara yazdığı məktubları onu bütün dünyada məşhurlaşdırmışdır.

Cəmaləddin Əfqaninin müsəlman Şərqini tənəzzüldən xilas etmək uğrunda mübarizə ideyaları 19 əsrin sonu - 20 əsrin əvvəllərində daha geniş yayıldı. Bu ideyalar 20 əsrin əvvəllərindən aşağıdakı kimi ümumiləşdirildi: ***milliləşmə, İslamlaşma, müasirləşmə...*** Şərqi tənəzzüldən xilas etməyin bu məşhur formulu gərgin fəlsəfi-ideoloji axtarışlar prosesində müəyyənləşmişdi ki, həmin prosesin mənbəyində təkcə Azərbaycanın deyil, bütün türk-islam dünyasının böyük mütəfəkkiri Cəmaləddin Əfqaninin inqilabi təfəkkürü dayanırdı.

19 əsrin sonu - 20 əsrin əvvəllərində, hətta sonralar da Azərbaycanda, Türkiyədə, ərəb ölkələrində, İranda bütün milli hərəkatların ideoloji əsasında birinci növbədə məhz Əfqaninin fəlsəfəsi dayanırdı.

Azərbaycan yazıçıları hələ 19 əsrin sonlarında Əfqani ideyaları ilə tanış olmuş, görkəmli publisist və ictimai xa-

dim Əhməd bəy *Ağayev* (Ağaoğlu) 1894 ildə İstanbulda onunla görüşmüşdür. 19 əsrin sonu - 20 əsrin əvvəlinin ziyalıları Əfqani ideyalarından geniş şəkildə faydalanmışlar. Cəmaləddin Əfqaninin görüşləri Azərbaycanın, ümumən, türk-müsəlman dünyasının böyük ideoloqları İsmayıl bəy Qasprالı, Ziya *Göyalp,* Əli bəy *Hüseynzadə,* Əhməd bəy Ağayev, Məhəmməd Əmin *Rəsulzadə*... üçün böyük ideya məktəbi olmuşdur. Cəmaləddin Əfqani ideyalarının təsiri 20 əsrin əvvəllərinin dövri mətbuatında özünü açıq şəkildə göstərir. Görkəmli yazıçı və publisist Nəcəf bəy Vəzirovun "Tazə həyat" (1907-08), Ceyhun *Hacıbəylinin* "İttihad" (1917-20) qəzetlərində dərc olunmuş məqalələrində Əfqani ideyaları öz əksini tapmışdır. Əfqaninin təsiri Ə.Hüseynzadə, Ə.Ağayev, xüsusən M.Rəsulzadənin yaradıcılığında özünü daha qabarıq göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə hələ 1910-cu illərin ortalarında öz ictimai-siyasi mübarizəsində Əfqaninin fəlsəfi və siyasi irsindən faydalanmışdır. Əfqani ideyaları onun 1914 ildə görkəmli türkçü şair və publisist Əlabbas Müznibin rəhbərliyi ilə çıxan "Dirilik" (1914-16) jurnalındakı "Dirilik nədir" silsilə məqalələrindən qırmızı xətt kimi keçir. M.Rəsulzadə milli özünüdərk, din, milli dil, tarixi keçmişə münasibət, müasirlik kimi atributlardan bəhs edərkən, Cəmaləddin Əfqaninin ictimai-siyasi və fəlsəfi baxışlarını inkişaf etdirmişdir. 19 əsrin sonu - 20 əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan mədəniyyətinin və ədəbiyyatının bir çox xadimlərinin əsərlərində Əfqani ideyaları müxtəlif şəkildə öz əksini tapmışdır.

*Əd.:* Qurbanov Ş., Cəmaləddin Əfqani və türk dünyası, B., 1997; Göyalp Z., Türkçülüyün əsasları, B., 1991; Cəfərov N., Azərbaycanşünaslığa giriş, B., 2002.



**ƏHMƏD CAVAD,** Axundzadə Cavad Məhəmmədəli oğlu (5.5.1892, Şəmkir rayonunun Seyfəli k. - 12.10.1937) - şair, müəllim və ictimai xadim. Ruhani ailəsində doğulmuşdur. İlk təhsilini evdə almış, uşaq yaşlarında türk, ərəb, fars dillərini və Şərq ədəbiyyatını öyrənmişdir. 1912 ildə Gəncə ruhani seminariyasını ("Məktəbi-ruhaniyyə") bitirmiş, müəllimlik fəaliyyəti göstərmiş, eyni zamanda, Gəncənin ədəbi, bir qədər sonra isə ictimai-siyasi həyatında yaxından iştirak etmişdir.

Balkan və Birinci dünya müharibələri dövründə şair üç dəfə (1912, 1916 və 1918 illərdə) nümayəndə heyətinin tərkibində (iki dəfə üzv, bir dəfə başçı kimi) Türkiyəyə getmişdir. Əhməd Cavad Balkan müharibəsində qardaş türk xalqına yardıma gələn Qafqaz könüllüləri sırasında Trakiya cəbhəsində Abdulla Şaiqlə birlikdə türk əsgərləri ilə çiyin-çiyinə vuruşmuş, 1914 ildə Türkiyənin Şərq hissəsini işğal etmiş rus ordusunun və onların havadarlıq etdiyi ermənilərin Qars və Ərzurum vilayətlərində törətdikləri soyqırımı qırğınlarının qurbanı olan yerli türk əhalisinə yardım göstərən "Azərbaycan xeyriyyə cəmiyyəti'nin fəaliyyətində yaxından iştirak etmişdir. Şair həmin dövrdə Qarsda rastlaşdığı ürək parçalayan dəhşətli mənzərəni 1915 il Novruz bayramı günü yazdığı "Nə gördümsə" şerində belə dilə gətirmişdi:

***Ərməğanım yaslı nəğmə,***
***Bir quş oldum, çıxdım yola.***
***Getdim gördüm dost elində***
***Nə bir səs var, nə bir layla.***
***Sordum qərib minarədən:***
***"Axşam olmuş, azan hanı?***
***Bayquş qonmuş minbərlərə,***
***Deyən hanı, duyan hanı?"***

Əhməd Cavad xalqımızın qəddar düşmənləri Andronik və Şaumyanın bilavasitə iştirakı və başçılığı ilə törədilən soyqırımlarının qarşısının alınmasında yaxından iştirak etmişdir. Şair Azərbaycan xalqını xilas etməyə gələn türk ordusunun əsas qoşun başçılarından olan Nuru paşa ilə yaxın dost olmuşdur.

Bakını azad etməyə gələn Azərbaycan-türk hərbi hissələri ilə birlikdə Yasamal dağındakı səngərlərdə əsgərlər arasında olan şair döyüş meydanında yazırdı:

***Atıldı dağlardan zəfər topları,***
***Yürüdü irəli əsgər, Bismillah!***
***O, Xan sarayında çiçəkli bir qız,***
***Bəkləyir bizləri zəfər, Bismillah!***
***Ey hərbin taleyi, bizə yol ver, yol.***
***Sən ey coşan dəniz, gəl, türkə ram ol.***
***Sən ey sağa, sola qılınc vuran qol,***
***Qollarına qüvvət gəlir, Bismillah!***

Əhməd Cavad uzun illər pedaqoji fəaliyyət göstərmiş, Nəsib bəy Yusifbəyli Azərbaycan Xalq Cümhuriyyətinin maarif naziri olarkən mədəni-maarif quruculuğu işlərində ona yaxından kömək etmişdir. O, Bakı Darülfünunun təşkilində də yaxından iştirak etmiş, ali təhsil müəssisələrində tədris olunmaq üçün ilk dərslik kimi "Türk dilinin sərfi və nəhvi" (1919) adlı sanballı kitab yazmışdır.


Əhməd Cavad ailəsi ilə

Əhməd Cavadın həyat və yaradıcılığının ən parlaq və məhsuldar dövrü 20 əsrin 10-cu illərinin ortalarına, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Bu illərdə onun "Qoşmalar" (1916) və "Dalğa" (1919) adlı şeir topluları nəşr edilmişdir. Həmin dövrdə istiqlal şairi kimi məşhurlaşan Əhməd Cavadın fəaliyyəti bilavasitə Məhəmməd Əmin Rəsulzadə ilə bağlı olmuşdur. Əhməd Cavad məhz M.Ə.Rəsulzadənin təklifi ilə "Müsavat" partiyasına daxil olmuşdur.

Uğrunda mübarizə apardığı və böyük sevinclə qarşıladığı Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazdığı şeirlər Əhməd Cavad yaradıcılığının zirvəsidir. Daim ictimai-siyasi hadisələrin mərkəzində olan Əhməd Cavad Cümhuriyyətin qurulmasını "Azərbaycan, Azərbaycan!" və"Canım, gözüm, gözüm, canım Azərbaycanım" şeirləri ilə alqışlamışdır.

Həyatını, taleyini və yaradıcılığını Azərbaycan Cümhuriyyəti ilə bağlayan şairin bu dövr şeirləri arasında müstəqil dövlətimizin rəmzi olan üçrəngli milli bayrağımıza həsr olunmuş şeirlər ("Elin bayrağı", "Yol ver türkün bayrağına", "Azərbaycan bayrağına", "Al bayrağa" və s.) sözün həqiqi mənasında, orijinallığı və yüksək bədii-emosional təsir gücü ilə seçilir. "Qardaş" şerində "Vətən bir fidandır, enməz bayrağı!" deyən şairin "Marş" şerində də azadlıq bayrağı tərənnüm edilir. Azərbaycan Cümhuriyyətinin ay-ulduzlu, yaşıl, qırmızı və mavi rəngli bayraq obrazı Əhməd Cavad yaradıcılığının ideya istiqamətini müəyyənləşdirmişdir. Onun "Azərbaycan bayrağına" şeri milli marş kimi dillər əzbəri idi:

***Türküstan elləri öpüb alnını,***
***Söyləyir dərdini sana bayrağım!***
***Üç rəngin əksini Quzğun dənizdən***
***Ərməğan yolla sən yara, bayrağım!***

Cümhuriyyətin himninin yazılması da Üzeyir Hacıbəyli və Əhməd Cavadın adı ilə bağlıdır.

Milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, əski adət və inamlara, xalqın yaddaşına qayıdış kimi duyğular Əhməd Cavad şeirlərinin ruhuna hopmuşdur. Onun yaradıcılığında Azərbaycan, Turan, Qafqaz, Türk dünyası obrazları çox qabarıq verilmişdir.

Əhməd Cavadın şeirləri Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi dövrdə həm xalqa, həm də onun siyasi liderlərinə təsir göstərirdi. Belə ki, M.Ə.Rəsulzadə hətta Azərbaycandan getdikdən sonrakı illərdə yazdığı bir çox məqalə və kitablarında Əhməd Cavadın yaradıcılığına dönə-dönə müraciət etmiş, şeirlərini təhlil edərək, onların "çağdaş ədəbiyyat" tariximizdə yüksək yer və mövqe tutduğunu göstərmişdir.

"İngilis", "Gəlmə" şerilərində torpağımızı işğal etməyə gələnlərə layiqli cavab verən şair "Ey əsgər" şerində bunun əksinə, Azərbaycan xalqını soyqırımından xilas etməyə gələn türk ordusunu tərənnüm etmişdir. "Ağlayırdım, gülürəm" şerində (1920, 6 aprel) şair Azərbaycan Cümhuriyyətini gözləyən təhlükəni əvvəlcədən acı-acı xəbər verir, istiqlalımızı qorumağa çağırırdı. Əhməd Cavadın yaradıcılığı bədii sənətkarlığı, dilinin heyrətamiz sadəliyi, təsvir və ifadə vasitələrinin əlvanlığı, yüksək şeriyyəti ilə seçilir.

Əhməd Cavad ömrünün sonuna qədər milli istiqlal ideallarına sadiq qalmış və bu yolda şəhid olmuşdur. Bunu onun Cümhuriyyətin süqutundan - *Aprel işğalından (1920)* sonra yazdığı əsərlər də təsdiq edir.

1925 ildə yazdığı "Göygöl" şerində Əhməd Cavad müstəqil Azərbaycanın dövlət bayrağındakı Ay-ulduza işarə edərək deyirdi:

***Sənin gözəlliyin gəlməz ki saya,***
***Qoynunda yer vardır ulduza, Aya.***
***Oldun sən onlara mehriban daya,***
***Fələk büsatını quralı Göygöl.***

Şair bu şerə görə həbs olunmuşdu.

Rəmzi xarakterli "Səsli qız" (1928-29) poemasında şair, eyhamla da olsa, işğal olunmuş "cənnət kimi" ölkəsinin "məzarlığa döndüyünü", "evlərin yıxılıb", "xanimanların söndüyünü", "işlənməmiş bir cinayətin qalmadığını", "yurdunu verməyənlərin xıncaxınc doğrandığını", gülüş olmayan bu ölkədə "ağlamağın belə yasaq olduğunu" yana-yana dilə gətirirdi. O, 1920-37 illər arasında üç dəfə həbs olunmuş, hətta adı güllələnəcək adamların siyahısına salınmışdı. Şair 1924 ilin yanvarında Fövqəladə Komissiyanın həbsxanasında yazdığı "Ay ellər" şerində:

***Hanı yaz mövsümü gülüm, çiçəyim?***
***Tez düşdü yurduma xəzan, ay ellər.***
***Mən yaza bilmədim, əllərim bağlı,***
***Yoxmu bu dərdimi yazan, ay ellər?***

- deyə fəryad edirdi.

Daim təqib və təhdid olunan şair, nəhayət, 1937 ildə məhz Azərbaycan Xalq Cümhuriyyəti dövrünün görkəmli ideoloqu və parlaq şəxsiyyəti kimi məhkum edilmişdir. 1936-37 illərdə o, Azərbaycan Şura Yazıçılar İttifaqında dəhşətli şəkildə "mühakimə" olunmuş və bu, Əhməd Cavadın repressiyaya məruz qalaraq, güllələnməsinə səbəb olmuşdur. Onun ailəsi də həbs edilmiş, həyat yoldaşı 8 il sürgündə qalmışdır.

Əsərləri: Şeirlər, B.,1958; Sən ağlama, mən ağlaram..., B., 1991; Seçilmiş əsərləri, 2 cilddə, B., 1992.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Bayramoğlu (Məmmədov) A., Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat, "Ulduz" jurnalı, 1990, №5; yenə onun, İstiqlalımız və istiqbalımız naminə, "Dünya" jurnalı, 1993, №3; Baykara H., Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Saləddin Ə., Əhməd Cavad, B., 1992; Nəbiyev B., Əhməd Cavad, "Gəncə" nəşriyyatı, 1993.



**ƏHMƏDBƏYOV** Zivər bəy Gəray bəy oğlu (1873, Şamaxı - 16.2.1925, Bakı) - ali təhsilli ilk azərbaycanlı memar, rəssam. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhərinin baş memarı. Peterburq Mülki Mühəndislər İnstitutunu bitirdikdən (1902) sonra Bakı quberniya idarəsinin İnşaat şöbəsində, Bakı şəhər idarəsində memar işləmişdir. 1907 ildə Şamaxı şəhərinin baş memarı təyin edilmiş, məhəllələrin düzgün planlaşdırılması və tikilməsinə, zəlzələ zamanı (1908) dağılmış Cümə məscidinin yeni layihəsinin hazırlanmasına böyük əmək sərf etmişdir. Layihələrində milli memarlıq ənənələrindən geniş istifadə etmişdir. Onun layihələri əsasında Bakıda Təzəpir (1905-14), Göy məscid (1912-13), Göyçayda məscid (1906), Şamaxıda İmam məscidi (1909), Cümə məscidi (1909-18), "Səadət" məktəbi (indiki akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Oftalmologiya İnstitutu; 1911-12) və s. inşa edilmişdiir. Əhmədbəyov öz yaradıcılığında milli irslə yanaşı Avropa klassisizminə də müraciət etmişdir. Bakıda "Doğum evi" (1910-cu illər), "Uşaq xəstəxanası" (indiki Elmi-Tədqiqat Ana və Uşaq Mühafizəsi İnstitutu; 1914-16), həmçinin Bakıda və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini yaratmışdır. Əhmədbəyov Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. O, milli memarlıq abidələrinin mühafizəsi ilə əlaqədar 1917 ildə mülki mühəndis Ömər bəy Abuyevlə birgə "İslam incəsənəti abidələrini sevənlər və qoruyanlar cəmiyyəti"ni yaratmış, 1919 ildə isə Şamaxının bərpası üçün "Yeni Şirvan" cəmiyyətini təşkil etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakının baş memarı vəzifəsində çalışan Əhmədbəyov şəhərin daşnaklar və eser-menşeviklərdən ibarət *"Sentrokaspi diktaturası"*ndan azad olunması (1918, 15 sentyabr) zamanı şəhid olmuş azərbaycanlı və türk əsgərlərinin xatirəsini əbədiləşdirmək üçün Çənbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabanı) ucaldılacaq abidə kompleksinin layihəsini hazırlamışdı. Altıbucaqlı türbə görünüşündə olan həmin layihədə orta əsr Azərbaycan memarlıq incilərindən məharətlə istifadə olunmuşdu. *Aprel işğalından (1920)* sonra Azərbaycan Xalq Maarifi Komissarlığının qərarı (1920, 13 noyabr) ilə, ikinci dəfə yanmış, Tağıyev teatrının bərpa və yenidənqurma layihəsini hazırlamaq da Əhmədbəyova tapşırılmışdı.

*Əd.:* Fətullayev Ş., Memar Zivərbəy Əhmədbəyov, "Qobustan" incəsənət toplusu, 1970, №2.

**ƏHMƏDOV** Əsədulla (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Cümhuriyyət Parlamentinə seçilmişdi. Bundan əvvəl Bakı şəhər dumasının üzvü olmuş, geniş xeyriyyəçilik işi aparmışdır. *Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin* ilk iclasında 11 nəfərdən ibarət idarə heyətinə seçilmişdir. Əhmədov "Nəşri-maarif" cəmiyyətinin təsisçilərindən biri, Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü idi. Parlamentdə əvvəlcə *"Bitərəflər" fraksiyasının* üzvü olan Əhmədov 1919 ilin oktyabrında bu fraksiyada baş vermiş parçalanmadan sonra bir neçə bitərəflə birlikdə "Müsavat" fraksiyasına keçmişdir.

*Əd.:* Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Cavadov C, Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə), B., 1999.



**ƏHMƏDZADƏ** Yusif (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"*una (1918, 19 noyabr) əsasən, ticarət-sənaye ittifaqından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasını təmsil edirdi.

**"ƏHRAR"** ("Azadlıqsevər") - siyasi partiya. 1918 ilin payızında Bakıda yaradılmışdı. Sədri Aslan bəy Qardaşov idi. "Əhrar"ın fəaliyyəti, əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunan eyni adlı fraksiya çərçivəsində keçirdi. Fraksiyanın üzvləri Aslan bəy Qardaşov, Rəşid bəy Qaplanov, Abdulla bəy Əfəndizadə, Qərib Kərim oğlu, Bayram Niyazi Kiçikxanlı və başqaları idilər.

"Əhrar"ın bəyannaməsi Abdulla bəy Əfəndizadə tərəfindən dekabrın 26-da Parlamentin iclasında açıqlandı. Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması alqışlanmaqla yanaşı, Hökumətin fəaliyyəti tənqid edilirdi. "Əhrar" aqrar islahatlarla bağlı mülkədar torpaqlarının kəndlilər arasında bölüşdürülməsi, fəhlə məsələsində isə 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinin tərəfdarı idi. Xarici siyasət sahəsində qonşu respublikalarla dostluq münasibətlərinin qurulmasına və inkişaf etdirilməsinə üstünlük verən partiya, Azərbaycan xalqı ilə yanaşı, bütün Qafqaz xalqlarının müstəqilliyinin və onların hüquqlarının müdafiə edilməsinin vacibliyinə xüsusi diqqət yetirirdi.

1919 il aprelin 14-də "Əhrar" fraksiyasından R.Qaplanov maarif və dini etiqad naziri, A.Qardaşov isə əkinçilik naziri kimi Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi 4-cü hökumət kabinəsinə daxil oldular. Aqrar islahatların keçirilməsinin ləngidilməsinə görə Hökuməti tənqid edən sosialistlərə "Əhrar" fraksiyası da qoşulmuşdu. N.Yusifbəylinin 5-ci koalisyon kabinəsində R.Qaplanov ticarət, sənaye və ərzaq naziri təyin olundu. *Aprel işğalı (1920)* ərəfəsində bir neçə partiya - *"İttihad",* sosialistlər və "Əhrar" birləşərək Hökumətə etimadsızlıq göstərdilər və bununla da, 11 -ci Qırmızı ordunun müdaxiləsi ərəfəsində hakimiyyət böhranını gücləndirdilər. "Əhrar"ın bəyanatında deyilirdi ki, Hökumətin əksəriyyəti radikal (yəni, sosialist yönümlü) addımlar atmaq istəmədiyindən, vəziyyəti daha da gərginləşdirirlər. 1920 il aprelin 15-də A.Qardaşov "Əhrar" nümayəndələrinin koalisyon Hökumətdən çıxması barədə bəyanat verdi. Bundan sonra "Əhrar" və "İttihad" fraksiyaları Məmməd Həsən Hacınskinin baş nazir vəzifəsinə təyin olunmasına və bolşeviklərlə birgə yeni Hökumət formalaşdırılmasına razılıq versələr də, artıq gec idi. Bolşeviklər heç bir koalisiyaya razı olmadılar və hakimiyyətin təhvil verilməsi barədə Parlamentə ultimatum göndərdilər. Gərgin mübahisələrlə qarşılanan bu sənədin müzakirəsində "Müsavat"dan başqa, bütün partiya liderləri ilə birgə A.Qardaşov da ultimatumun qəbul edilməsinə və hakimiyyətin bolşeviklərə təhvil verilməsinə səs verdi. 11-ci Qırmızı ordu aprelin 28-də Bakıya daxil olduqdan sonra Parlament və bütün siyasi partiyalar buraxıldı. Bununla "Əhrar" partiyasının da fəaliyyətinə son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat, B., 1999.

**"ƏHRAR" FRAKSİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fraksiyalarından biri. "Əhrar" partiyası deputatlarından ibarət idi. 1919 ilin əvvəlində "Əhrar"ı 9 deputat təmsil edirdi (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti).* "Əhrar" partiyasının bəyannaməsini 1918 il dekabrın 26-da keçirilmiş Parlament iclasında Abdulla bəy *Əfəndizadə* açıqlamışdı. Fraksiya Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını alqışlamaqla yanaşı, fəaliyyətini kifayət qədər qənaətbəxş hesab etmədiyinə görə Hökuməti tənqid edirdi. Bəyannamədə tələb edilirdi ki, hər bir nazirliyin başında müvafiq sahənin mütəxəssisi dursun. Aqrar islahatlarla bağlı "Əhrar" fraksiyası iri mülkədar torpaqlarının özəlləşdirilərək kəndlilərə paylanmasını düzgün sayırdı. "Əhrar", həmçinin, 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinə tərəfdar idi. Qonşu respublikalarla dostluq münasibətlərinin qurulması və inkişaf etdirilməsinə üstünlük verirdi. "Əhrar"ın üzvləri Müəssislər Məclisinin çağırılması üzrə mərkəzi komissiyada, Parlamentin maliyyə-büdcə, redaksiya, aqrar və sorğu komissiyalarında təmsil olunmuşdular.

*Əd:.* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**ƏXZİ-ƏSGƏR TƏŞKİLATLARININ YARADILMASI HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti ərazisində hərbi mükəlləfiyyətin təşkilinə məsuliyyət daşıyan orqanların fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsi haqqında qanun. *Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti* tərəfindən 1919 il mayın 26-da qəbul edilmişdi. Qanunda təsbit olunurdu ki, ölkə ərazisində hərbi mükəlləfiyyətin həyata keçirilməsinə rəhbərlik edən orqan Azərbaycan Mərkəzi Əxzi-əsgər İdarəsidir. Bu idarə vətəndaşların hərbi xidmətə çağırılması və onların natural hərbi mükəlləfiyyətlərini (əsasən at və qoşqu vasitələri ilə) yerinə yetirməsinə nəzarət etməli idi. Mərkəzi Əxzi-əsgər İdarəsi, eyni zamanda, çağırış yaşlı şəxslərin tibbi müayinədən keçirilməsinə nəzarət etməli, qəza, şəhər və dairə əxzi-əsgər şöbələrinin işi ilə bağlı şikayətlərə baxmalı, həmin şöbələrin fəaliyyəti haqqında hesabatları təhlil etməli, hərbi mükəlləfiyyətin yerinə yetirilməsi üçün zəruri olan büdcə layihəsini hazırlamalı, ayrılmış büdcə vəsaitini şöbələr arasında bölüşdürməli və digər məsələləri həll etməli idi. Azərbaycan Mərkəzi Əxzi-əsgər İdarəsinin rəisi daxili işlər nazirinin müavini, üzvləri isə idarənin işlər idarəsinin müdiri, həmçinin hərbi nazirliklə ədliyyə nazirliyinin nümayəndələri olmalı idilər.

Yerlərdə vətəndaşların hərbi mükəlləfiyyətlərini yerinə yetirmələri ilə qəza, dairə və şəhər əxzi-əsgər şöbələri məşğul olmalı idi. Bu orqanlara aşağıdakı vəzifələr həvalə olunurdu: çağırışçıların siyahısının tərtib edilməsi; çağırışçı siyahılarının yoxlanılması; çağırışçıların qeydiyyatı və xidmətə çağırılanların sayı barədə Mərkəzi Əxzi-əsgər İdarəsinə məlumat verilməsi; çağırışçıların hərbi xidmətə çağırılması; çağırışçıların tibbi müayinəsinin aparılması; çağırışçıların hərbi xidmətə qəbul edilməsi; məsuliyyətə cəlb edilməli olan çağırışçılar haqqında polis orqanlarına məlumat verilməsi; yerlərdə atların və qoşqu vasitələrinin qeydiyyatının aparılması və onların xidmətə cəlb edilməsi; səfərbərlik planlarının hazırlanması; hərbi xidmət zamanı xəsarət almış əsgərlərin tibbi müayinədən keçirilməsi. Qəza, dairə və şəhər əxzi-əsgər şöbəsinin rəisi yerli qəza rəisi və ya daxili işlər naziri tərəfindən təyin edilmiş şəxs ola bilərdi. Hərbi nazirlik tərəfindən ezam edilmiş zabit və kəndlərdən seçilmiş nümayəndələr qəza əxzi-əsgər şöbələrinin üzvü olmalı idilər. Qanuna əsasən, bütün qəza mərkəzlərində qəza əxzi-əsgər şöbələri təsis edilməli idi. Bu şöbələr hərbi nazirliklə razılaşdırıldıqdan sonra daxili işlər nazirliyinin qərarı ilə açılmalı idi. Qəza əxzi-əsgər şöbələri tədriclə açıla bilərdi. Lakin qanuna əsasən, Gəncə, Qazax, Nuxa (Şəki), Tərtər, Cəbrayıl, Bakı, Göyçay, Salyan, Şamaxı, Zaqatala və Şuşa qəzalarında isə əxzi-əsgər şöbələri dərhal açılmalı idi.

Parlamentin "Azərbaycan Respublikasında hərbi mükəlləfiyyətin icrasına rəhbərlik edən təşkilatların yaradılması haqqında qanun"una (1919, 26 may) əsasən, Mərkəzi Əxzi-əsgər İdarəsinin və qəza əxzi-əsgər şöbələrinin fəaliyyəti üçün zəruri olan büdcə təsdiq edilmişdi.

*Əd:*. Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**"ƏKİNÇİ"** - Azərbaycanda ilk milli qəzet. 1875-77 illərdə Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875 il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875 ildə-12, ildə-24, 1877 ildə-20) buraxılmışdır. Qəzetin 1877 il nəşrinə kiçik formatlı beş əlavə nüsxə də çıxmışdır (№ 1, 6, 7, 13, 15). Azərbaycanda peşəkar dövri mətbuatın başlanğıcı sayılan "Əkinçi"nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən hətta mürəttibi Həsən bəy Zərdabi ohnuşdur. Qəzetdə 1200-ə qədər məqalə, məktub, xəbər, felyeton, şeir, redaksiya qeydi və s. verilmişdir. Maarifçi-demokratik ideyaların carçısı və tribunası olan "Əkinçi"nin ətrafında toplanmış qabaqcıl ziyalılar - M.F.Axundzadə, onun davamçıları N.Vəzirov, S.Ə.Şirvani, Ə.Gorani (Adıgözəlov), Əhsənül-Qəvaid, Ə.Heydəri, Məhbus Dərbəndi və b. mürtəcə və mühafizəkar qüvvələr, cəhalət, nadanlıq, gerilik, köhnəlmiş adət-ənənələr, çarizm və yerli feodal istismarı əleyhinə, elm, maarif və mədəniyyətin tərəqqisi uğrunda ardıcıl mübarizə aparmışlar. "Əkinçi"nin Azərbaycan mədəniyyəti tarixindəki mühüm xidmətlərindən biri maarifçi realist ədəbiyyat və incəsənətin inkişafı uğrunda mübarizə aparmasıdır.

*"Əkinçi" qəzetinin ilk nömrəsi. 1875*



"Əkinçi"nin nəşri Azərbaycan dilinin saflığı və zənginləşməsi yolunda mühüm hadisə olmuşdur. Qəzetin dili canlı xalq dilinə yaxın idi. Mürtəce qüvvələrin arasıkəsilməz hücumlarına, senzuranın təqiblərinə məruz qalan qəzetin nəşri 1877 ilin sentyabrında dayandı. "Əkinçi" Azərbaycan ictimai, elmi və ədəbi-bədii fikri tarixində, 19 əsrin sonu - 20 əsrin əvvəllərində milli ziyalılığın və milli azadlıq ideyalarının formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin və ideoloqlarının nəzəri görüşlərinin əsasını təşkil edən Azərbaycançılıq ideologiyasının təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. "Əkinçi"nin nəşri milli istiqlala doğru gələn yolda mühüm hadisə idi. 1979 ildə Bakıda "Əkinçi"nin tam mətni kitab halında (ərəb əlifbası ilə) buraxılmışdır.

*Əd.:* Məmmədov B., "Əkinçi" qəzeti, B., 1976; Axundov H., Mətbuatımızın ilki, B., 1976; Hüseynov C, "Əkinçi" qəzetinin izahlı biblioqrafiyası, B., 1977.

**"ƏKİNÇİ"** - Azərbaycanda sol eserlər partiyası. Fevral inqilabından (1917) sonra sol eserlər partiyasının müsəlman bölməsi kimi təsis edilmiş, 1918 ilin martından isə sol eserlər partiyasının "Əkinçi" müsəlman təşkilatı kimi fəaliyyət göstərmişdir. Təşkilatın sədri Mir Həsən Vəzirov idi. O, 1918 il aprelin 25-də yaradılmış Bakı Xalq Komissarları Sovetində (XKS) torpaq komissarı vəzifəsinə seçilmişdi. Partiyanın "Əkinçi" adlı qəzeti nəşr olunurdu.

1920 ildə Bakıda kommunistlərə ilk yaxınlaşan və onlarla sıx əməkdaşlıq edən məhz Azərbaycan sol eserləri idi. Bu partiya sağ eserlərdən ("xalqçı"lardan) fərqli olaraq, Cümhuriyyət Parlamentində inqilabi sosializm və sovet hakimiyyəti mövqeyində dururdu. Onlar rus sol eserlərindən fərqli olaraq, milli məsələdə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tam tanınması tərəfdarı idilər. Bu partiya bir çox cəhətdən Ukrayna sol eserlərinə bənzəyirdi. Ruhulla Axundov, Əhməd Əhmədov, Rəhim Hüseynov, Həbib Cəbiyev, Əli Bayramov, Eyyub Xanbudaqov və b. partiyanın fəal üzvləri idilər. Partiya, əsasən, Bakı fəhlələri arasında fəaliyyət göstərir və solçu taktika yürüdürdü. Digər sosialist partiyaları kimi, sol eserlər də, ayrı-ayrı ziyalı qrupları istisna olmaqla, zəhmətkeş azərbaycanlı kütlələri arasında güclü nüfuza malik deyildi. Partiya sonralar kommunistlərə qovuşsa da, bu, sol eserləri repressiyalardan xilas etmədi. *Aprel işğalından (1920)* sonra onların bir hissəsi güllələndi, digər qismi isə mühacirətə getməyə məcbur oldu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat, B., 1999.

**ƏKİNÇİLİK VƏ DÖVLƏT ƏMLAKI NAZİRLİYİ (ƏDƏN),** Azərbaycan Xalq Cümhuriyyeti Hökumətinin Əkinçilik və Dövlət Əmlakı Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyətində kənd təsərrüfatının, maddi sərvətlərin və mülkiyyətin nizamlanmasına rəhbərlik edən icra orqanı. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə yaradılmışdı. Fətəli xan Xoyskinin Tiflisdə təşkil etdiyi 1-ci Hökumət kabinəsində ilk əkinçilik və dövlət əmək naziri vəzifəsinə Əkbər Ağa *Şeyxülislamov* təyin olunmuşdu.

Azərbaycan Milli Şurası və Hökuməti 1918 il iyunun 16-da Gəncəyə köçdükdən sonra iyunun 17-də F.x.Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci Hökumət kabinəsində əkinçilik naziri vəzifəsinin icrası Xosrov Paşa bəy Sultanova tapşırıldı. 1918 ilin dekabrında Azərbaycan Parlamenti işə başladıqdan sonra Parlamentin tapşırığına əsasən dekabrın 26-da F.x.Xoyskinin təşkil etdiyi 3-cü Hökumət kabinəsində də əkinçilik və dövlət əmlakı naziri vəzifəsi Xosrov Paşa bəy Sultanova həvalə edildi.

1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumət kabinəsində bu vəzifə Aslan bəy Qardaşova həvalə olundu. Həmin il dekabrın 26-da yenə də N.Yusifbəylinin təşkil etdiyi 5-ci Hökumət kabinəsində əkinçilik və dövlət əmlakı naziri vəzifəsini Əhməd Cövdət Pepinov tutdu.

ƏDƏN-in strukturu nazir və nazir müavinindən, nazirin şurasından, nazirliyin dəftərxanasından, əkinçilik, aqrar islahatlar, kənd təsərrüfatı, meşəçilik, su təsərrüfatı şöbələrindən, balıq sənayesi idarəsindən, mühasibat bölməsindən və nazirliyə tabe olan əkinçilik və dövlət əmlakı üzrə Gəncə idarəsindən ibarət idi.

ƏDƏN Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin işinin çoxluğuna, mürəkkəbliyinə və məsuliyyətinə görə ən ağır nazirliklərindən biri idi. Fevral inqilabından (1917) Azərbaycan İstiqlalının elan olunmasına (1918, 28 may) qədər keçən vaxt ərzində ölkədə ən çox zərər çəkmiş təsərrüfat sahəsi məhz kənd təsərrüfatı idi. 1917 ilin axırlarından, xüsusilə 1918 ilin fevralından Azərbaycanda silahlı erməni-daşnak quldur dəstələrinin xalqımıza qarşı törətdiyi soyqırımları nəticəsində ölkədə yüzlərlə kənd viran qalmış, yüz minlərlə mülki əhali, xüsusilə kənd əhalisi öz yurd-yuvasından, təsərrüfatlarından didərgin düşüb qaçqınlara çevrilmişdilər. Erməni-daşnak quldur dəstələri tərəfindən kəndlərin yandırılması, talan olunması, təsərrüfatların dağıdılması, mal-qaranın oğurlanması Azərbaycan kəndlilərini tamamilə müflisləşdirmişdi. Boş qalmış kəndlərdə torpaqlar əkilib becərilmirdi. Digər tərəfdən, ölkədə yaranmış anarxiya nəticəsində həm dövlət torpaqları, həm də xüsusi torpaqlar ayrı-ayrı şəxslər tərəfindən qanunsuz zəbt olunurdu. Zaqafqaziya komissarlığının 1917 il 16 dekabr tarixli Əsasnaməsinə və Zaqafqaziya seyminin 1918 il 7 mart tarixli qanununa əsasən yaradılmış və fəaliyyət göstərən torpaq komitələri işini düzgün qura bilmədiyindən kənd əhalisinin bütün təbəqələrdən olan nümayəndələrinin etibarını itirmişdi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 22 iyun tarixli qərarı ilə Zaqafqaziya seyminin torpaq islahatı haqqında qanununun icrası Müəssislər Məclisi çağırılana qədər dayandırıldı. Bu qərarla həmin vaxta qədər ayrı-ayrı şəxslərin qanunsuz zəbt etdiyi torpaqların, o cümlədən dövlət torpaqlarının geri qaytarılması tələb olunurdu. Həmin qərara əsasən, əvvəllər yaradılmış torpaq komitələri ləğv olundu, əvəzində ilk vaxtlar nazirliyin əkinçilik şöbəsi yanında, sonra isə nazirliyin struktur hissəsi kimi aqrar islahatlar şöbəsi yaradıldı. Şöbə material toplayır və onun əsasında aqrar islahatlar üçün dekret layihələri hazırlayırdı. Əkinçilik şöbəsi kənd təsərrüfatı vergilərinin yığılması üçün lazımi qaydalar yaradır, kənd əhalisinin cari ehtiyaclarını və sorğularını təmin etməyə, qanunsuz zəbt olunmuş torpaqların geri qaytarılmasına, əhalinin tərk etdiyi torpaqların mühafizəsi və istifadəsinin təşkilinə çalışırdı.

Buna görə, ilk növbədə, istifadəsiz və tərk edilmiş torpaqlar müvəqqəti olaraq xəzinə hesabına götürüldü. Əkinçilik şöbəsi və onun daxili işlər və maliyyə nazirliklərinin yerlərdəki nümayəndələrinin iştirakı ilə yaradılmış komissiyaları həmin torpaqları ehtiyacı olan kənd icmalarına və kəndlilərə, onlar götürmədikdə, ayrı-ayrı şəxslərə icarəyə verirdi.

Nazirliyin əkinçilik şöbəsi kəndlilər arasındakı torpaq mübahisələrini də həll edir, aqrar islahatı barədə qanun həyata keçirilənə qədər aztorpaqlı və torpaqsız kəndliləri, müvəqqəti olaraq, torpaqla təmin etmək üçün tədbirlər görürdü.

1919 ildə Cavad qəzasının Muğan düzündə baş vermiş hərc-mərclik nəticəsində rus əhalisi tərəfindən tərk edilmiş 5 min desyatin suvarılan torpaqlar icarəyə verildi. İcarədarın əldə etdiyi məhsuldan icarə haqqı natura ilə alınırdı. Natura ilə icarə haqqı bu bölgədə, habelə Quba və Göyçay qəzalarında özbaşına əkilmiş torpaqlardan da alınırdı. Naturadan icarə haqqını müəyyənləşdirmək məqsədilə əkinçilik şöbəsi yerlərdə mövsümi işçilərdən istifadə edirdi. Həmin işçilər əkinçilik nazirinin xüsusi müvəkkili, onun katibi, rayonlar üzrə müdirləri, onların kargüzarları, aqronom, yerölçən, anbar müdiri, qapançı və yükdaşıyanlardan ibarət idi. Bir sıra üzürlü səbəblərə, xüsusilə işçilərin təcrübəsizliyinə, məhsuldarlığın az olmasına və s. baxmayaraq, 1919 ilin taxıl yığımı zamanı əkinçilik nazirliyi tərəfindən 50 min pud taxıl tədarük olunmuşdu. Yığılan taxılın bir hissəsi Cümhuriyyət Hökumətinin 1919 il 11 avqust tarixli qərarı ilə hərbi nazirliyin sərəncamına verilmişdi. Bazar qiyməti ilə pula çevirəndə bu 10 milyon manata bərabər idi. 1919 ilin payızında əkinçilik nazirliyinin xüsusi komissiyaları 1920 ildə Muğan düzündə və Salyan qəzasında 25 min desyatin suvarılan torpaqların icarəyə verilməsi nəticəsində buradan götürülən məhsulun satışından xəzinəyə 13 milyon manata qədər gəlir verməli idi. Nazirliyin əkinçilik şöbəsi Şamaxı, Göyçay, Nuxa (Şəki) və Ərəş qəzalarında sahibsiz üzüm və meyvə bağlarını da qeydiyyata almışdı. Buradan dövlət xəzinəsinə Şamaxı qəzası üzrə 400 min manat, qalan qəzalardan isə 100 min manat gəlir daxil olmuşdu.

Ölkədə 1918 ildə baş vermiş hərc-mərclik nəticəsində evlərini, torpaqlarını, kəndlərini tərk etmiş əhali arasında nazirlik tərəfindən aparılan izahat işləri nəticəsində qaçqınlar və köçkünlər tədricən öz dədə-baba yurdlarına qayıtmağa başlayırdılar. Digər tərəfdən, əkinçilik nazirliyinin qarşısında duran ən ağır məsələlərdən biri Ermənistandan qovulmuş azərbaycanlı qaçqınları kənd yerlərində yerləşdirmək idi.

Əkinçilik Nazirliyi hələ 1919 ilin fevralında ölkə ərazisində qaçqınlar problemini tənzimləmək məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə xüsusi məruzə təqdim etmişdi. Məruzədə qaçqınların Muğanın suvarılan torpaqlarında yerləşdirilməsinin bu bölgə üçün mühüm əhəmiyyəti olduğu bildirilirdi. Beləki, bu yerlərin iqliminə və topoqrafik şəraitinə görə yerli əhali həmin torpaqların əkilib-becərilməsinə o qədər də həvəs göstərmirdi. Buna görə də qaçqınları qəbul etmək və yerləşdirmək üçün idarələrarası xüsusi orqan yaratmaq lazım idi. Bir çox təşkilati çətinliklərlə bağlı olaraq, göstərilən məruzədə qaldırılan məsələlər yalnız 1919 ilin avqustunda öz həllini tapdı. Hökumət Əkinçilik Nazirliyinə yerlərdə qaçqınların vəziyyətini müəyyənləşdirmək üçün mərkəzi və yerli komissiyalar yaratmağı tapşırdı, eyni zamanda, mərkəzi komissiyaya göstəriş verildi ki, milliyyətindən asılı olmayaraq, Azərbaycan ərazisində olan bütün qaçqınların boş torpaqlarda yerləşdirilməsi üçün layihə hazırlasın. Nazirliyin əkinçilik şöbəsi müdirinin rəhbərlik etdiyi mərkəzi komissiya, Qərbi Azərbaycandan (Ermənistandan) qovulmuş 40 min azərbaycanlı da daxil olmaqla, bütün qaçqınların boş və istifadəsiz torpaqlarda yerləşdirilməsi barədə layihə hazırladı. 1919 il oktyabrın 20-də Cümhuriyyət Hökuməti həmin layihəni və onun üçün tərtib edilmiş smetanı bəzi düzəlişlərlə qəbul etdi və təsdiq üçün Parlamentə göndərdi. Sənədin Parlament tərəfindən təsdiqinə qədər qaçqınların yerləşdirilməsi məsələsi Hökumətin 8 noyabr və 10 dekabr tarixli qərarları ilə himayədarlıq nazirliyinə tapşırıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1920 il yanvarın 8-də qəbul etdiyi qanunla xüsusi ehtiyacı olan qaçqınları yerləşdirmək və onları əkin üçün toxumla təmin etmək məqsədilə Dövlət Xəzinəsindən Himayədarlıq Nazirliyinin sərəncamına smetadan əlavə 21 milyon manat vəsait ayrıldı.

ƏDƏN-in əkinçilik şöbəsinin 1919 il üçün təxmini gəliri 4573182 manat oldu. Hərbi nazirliyin sərəncamına verilmiş taxıl da nəzərə alındıqda bu gəlir daha çox idi. Əkinçilik şöbəsinin nazirliyin şurasına təqdim etdiyi 1920 il üçün smetanın mədaxil hissəsi 26789872 manat, məxaric hissəsi isə 4596460 manat idi (Gəncə quberniyası əkinçilik şöbəsinin mədaxil və məxarici daxil olmaqla).

Nazirliyin kənd təsərrüfatı şöbesi 1919 ildə həm mərkəzi orqanın, həm də onun əyalətlərdəki idarələrinin formalaşdırılması ilə məşğul olurdu. Şöbə kənd təsərrüfatı sahəsində nümunəvi təsərrüfat və təcrübə sahələrinin yaradılmasına, kənd təsərrüfatı zərərvericilərinə qarşı mübarizəyə, şərab və şərab məhsulları komitəsinin formalaşdırılmasına, habelə kənd təsərrüfatı texnikasının inkişafına və əhalinin kənd təsərrüfatı alətlərilə təmin edilməsinə və s. işlərə rəhbərlik edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 8 may tarixli qanunu ilə aqronom xidməti və kənd təsərrüfatı ziyanvericilərinə qarşı mübarizə idarəsi daxili işlər nazirliyinin tabeliyindən alınıb ƏDƏN-in sərəncamına verildi və nazirliyin kənd təsərrüfatı şöbəsi ilə birləşdirildi.

ƏDƏN-in aqrar islahatlar şöbəsi Azərbaycan Hökumətinin 1919 il 6 iyun tarixli qərarı ilə yaradılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaqla təminatı və şəxsi istifadədə olan meşələrin dövlət mülkiyyəti elan edilməsi haqqında qanun layihələrinin hazırlanması şöbənin fəaliyyətində mühüm hadisə olmuşdu.

ƏDƏN-də uzun müddət ərzində hazırlanan Torpaq islahatı haqqında 29 maddədən ibarət qanun layihəsi 1920 il fevralın 21-də ümumxalq müzakirəsi məqsədi ilə mətbuatda dərc olundu. Həmin qanun layihəsinə görə, torpaq üzərində xüsusi mülkiyyət hüququ saxlanılmaqla torpaqların onların sahibləri tərəfindən istifadə olunmayan hissəsi hökumət tərəfindən pulla alınaraq torpaqsız kəndlilərə paylanmalı idi. Digər tərəfdən həmin torpaqları almaq üçün kəndlilərə dövlət tərəfindən güzəştli şərtlərlə kredit verilməsi nəzərdə tutulurdu. Lakin yaxınlaşan sovet işğalı nəticəsində bu qanunu qəbul etmək mümkün olmadı.

1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal olunması nəticəsində ƏDƏN-in həyata keçirməyə başladığı islahatlar yarımçıq qaldı.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**ƏKSİNQİLABLA MÜBARİZƏ TƏŞKİLATI (ƏMT)** - Azərbaycan Xalq Cümhuriyyətinin *Dövlət Müdafiə Komitəsi* ilə eyni vaxtda (1919, 11 iyun) və ona tabe qurum kimi yaradılmış əks-kəşfiyyat orqanı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən böyük təhlükələrlə qarşılaşmalı oldu. Belə ki, müxtəlif dövlətlər mühüm geosiyasi bölgədə yerləşən Azərbaycanı özünün nüfüz dairəsinə salmaq məqsədilə açıq mübarizə aparırdılar. Ən böyük təhlükə mənbələri "vahid və bölünməz Rusiya" uğrunda mübarizə aparan Denikin ordusu, proletar beynəlmiləlçiliyini əldə bayraq edən bolşevik Rusiyası və "Böyük Ermənistan" yaratmaq xülyası ilə azərbaycanlılara qarşı tarixdə görünməmiş vəhşiliklər və soyqırımları törədən daşnaklar və daşnak Ermənistanı idi. Bu qüvvələrin hər biri Azərbaycanda, xüsusilə də Bakıda geniş təxribatlar törədir, Azərbaycan Xalq Cümhuriyyətinin möhkəmlənməsinə, ölkədə qayda-qanun yaradılmasına mane olmağa çalışırdılar. Denikin qüvvələri Şimali Qafqazı tutduqdan sonra Azərbaycan üçün daha böyük təhlükə yarandı. 1919 il fevralın 18-də Parlamentin iclasında çıxış edən Fətəli xan Xoyski Azərbaycanda, xüsusilə də Bakıda general Prjevalskinin rəhbərliyi ilə Denikinə yardım göstərən qüvvələrin gizli surətdə silahlı hərbi dəstələr təşkil etdiklərini, ağqvardiyaçılar üçün əsgər yazılışı aparıldığını bildirdi. Denikin qüvvələrinin 1919 il mayın axırlarında Dərbəndi tutması nəinki Azərbaycanı, həmçinin bütün Cənubi Qafqazı böyük təhlükə qarşısında qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il iyunun 9-da keçirilən iclasında Parlamentin tövsiyəsi ilə dövlətin müdafiəsi üçün xüsusi orqan - 5 nəfər hökumət üzvündən (baş nazir, hərbi, xarici işlər, yollar və ədliyyə nazirləri) ibarət Dövlət Müdafiə Komitəsinin yaradılması qərara alındı.

Azərbaycanda təxribatlara qarşı xüsusi mübarizə strukturunun - Əks-inqilabla Mübarizə Təşkilatının yaradılması da bununla eyni vaxta təsadüf edir. Azərbaycanda əks-kəşfiyyat işi ilə hələ 1919 ilin yanvarından hərbi kəşfiyyat məşğul olurdu. Həmin il martın 26-da hərbi nazir Səməd bəy Mehmandarovun əmri ilə Baş qərargahın Baş idarəsi yaradıldı. Baş idarənin strukturunda isə 4 bölmədən ibarət general-kvartirmeyster idarəsi yaradılması nəzərdə tutulurdu. İdarəyə daxil olan 4 bölmədən biri kəşfiyyat və əks-kəşfıyyat bölməsi idi. ƏMT-na gəlincə, qurumun formalaşdırılması parlamentin "Müsavat" fraksiyasının üzvü Məmmədbağır bəy Şeyxzamanlıya həvalə edilmiş, onun müavini isə sonralar naməlum şəxslər tərəfindən qətlə yetirilmiş sosialist Mir Fəttah Musəvi təyin olunmuşdu. M.Şeyxzamanlı təşkilata həmin il avqustun 20-dək başçılıq etmiş, istefa verdikdən sonra yerinə qardaşı Nağı bəy Şeyxzamanlı təyin edilmişdi. 1919 il noyabrın 19-dan qurum başçısının müavini Mahmud bəy Səfikürdski idi.

Təşkilatın əməkdaşları arasında müxtəlif partiya və siyasi cərəyanların nümayəndələri var idi. Onun agentləri sırasında Lavrenti Beriya da olmuşdur. Təşkilatın arxiv sənədlərindən, ayrı-ayrı şəxslərə göndərilmiş məktublardan aydın olur ki, Bakıda Denikin ordusunun casusları ilə erməni-daşnak casusları sıx əlaqədə işləmiş, geniş casusluq şəbəkəsi yarada bilmişdilər. Denikin ordusunun Azərbaycana qarşı təxribatı ilə əlaqədar ƏMT-nin saxladığı və həbs etdiyi şəxslərin əksəriyyəti ermənilər idi.

ƏMT rəhbərinin müavini M.F.Musəvinin 1919 il avqustun 7-də tərtib etdiyi protokoldan aydın olur ki, onun həbsə aldığı Yevgeni Rojdestvenski soyadlı zabit ingilis komandanlığında Denikinin nümayəndəsi polkovnik Lazarevin yanında işləyir, Azərbaycan ordusunun sayı və mövqeləri barədə məlumatlar toplayır. O, çoxlu erməni zabitlərinin də onlarla birlikdə işlədiyini bildirir. Denikinçilər Bakıda təbliğat aparmaq, təxribatlar törətmək üçün bütün vasitələrdən istifadə edirdilər. Onlar Bakıda yerləşən müxtəlif səhmdar cəmiyyətlərinin, firma və müəssisələrin köməyindən bəhrələnir, həmin təşkilatlarda öz agentlərini yerləşdirirdilər. 1919 il dekabrın 16-da M.Şeyxzamanlı Azərbaycandakı ingilis nümayəndəsi polkovnik Stoksa məktubla bildirirdi ki, Cənubi Rusiya Silahlı Qüvvələri Baş Komandanlığının təbliğat şöbəsi tərəfindən hazırlanmış intibahnamələrin mətni və qəzetlər olan zərflər Bakı şəhərində "Qafqaz və Merkuri", "Samolyot" cəmiyyətlərinə "işgüzar kağızlar" adı ilə göndərilirdi. Denikinçilərin və daşnakların Bakıda və Azərbaycanın digər bölgələrində törətdikləri təxribatlar haqqında arxiv sənədlərində xeyli məlumatlar toplanmışdır. Lakin təəssüflər olsun ki, gənc Azərbaycan Cümhuriyyəti Hökuməti, Denikin təhlükəsindən fərqli olaraq, bolşevik təhlükəsinə ciddi əhəmiyyət vermirdi. Buna görə də, Denikin təhlükəsi sovuşan kimi, 1920 ilin martında ƏMT ləğv olundu. Bu səhv addım idi. *Aprel işğalı (1920)* bunu sübut etdi.

*Əd.:* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**ƏQDNAMƏ** - *Azərbaycan Milli Şurasının* 1918 il 28 may tarixli qərarına əsasən Azərbaycanın müstəqilliyini rəsmən elan edən sənəd. Ətraflı məlumat üçün bax *İstiqlal bəyannaməsi.*

**ƏLABBAS** Müznib - Azərbaycan şairi, publisist və tərcüməçi (bax *Müznib* Əlabbas Mütəllimzadə).

**ƏLAGA VAHİD** - görkəmli Azərbaycan şairi, əməkdar incəsənət xadimi (bax *Vahid Əlağa).*

**ƏLAHİDDƏ AZƏRBAYCAN KORPUSU (ƏAK)** - *Müsəlman korpusunun* bazasında yaradılmış hərbi birlik; müstəqil ordu quruculuğunun ilkin mərhələsi. Həmin mərhələnin səciyyəvi xüsusiyyəti çox mürəkkəb hərbi-siyasi şəraitdə aparılan ordu quruculuğuna türk hərbçilərinin rəhbərlik etməsi idi.

Əsası 1917 ilin dekabrında qoyulmuş Müsəlman korpusu Zaqafqaziya komissarlığının ordu strukturu kimi formalaşmağa başlamışdı. 1918 il iyunun 26-da Azərbaycan Hökuməti Müsəlman korpusunu Əlahiddə Azərbaycan korpusu adlandırmaqla özünün bu hərbi struktura sahibliyini hüquqi cəhətdən təsdiqlədi. Hökumətin həmin tarixli başqa bir qərarı ilə ƏAK qərargahının ştatında qismən dəyişiklik edildi və korpus komandirinin yanında diviziya səlahiy-yətində xüsusi tapşırıqlar üçün general vəzifəsi təsis edildi.

ƏAK bu zaman Azərbaycanda xilaskarlıq missiyasını həyata keçirən *Qafqaz İslam Ordusunun* tərkibinə daxil edildi. Azərbaycana hərbi yardıma gəlmiş 5-ci Qafqaz firqəsi də ilk vaxtlar ƏAK-ın tərkibinə daxil edilmişdi. Həmin firqə (diviziya) ƏAK vasitəsilə Qafqaz İslam Ordusunun komandanlığına bağlanırdı. 5-ci Qafqaz firqəsinin komandiri xidməti vəzifələri, döyüş tapşırıqlarının icrası haqqında Qafqaz İslam Ordusunun komandanı ilə bərabər ƏAK-m komandanı Əlağa *Şıxlinskiyə* də hesabat verirdi.

Müsəlman korpusu ƏAK adlandırılandan sonra korpus komandirinin əmri ilə hissələrdə və hərbi müəssisələrdə yeni möhürlərin tətbiq edilməsinə başlandı. Müsəlman korpusunun möhürlərində rus qoşun hissələri möhürlərindəki ikibaşlı qartal təsviri var idi, dövrəsində isə hissənin adı və nömrəsi yazılmışdı. Yeni möhürlər gümüş manatlıq ölçü-sündə, ortasında səkkizguşəli ulduz və aypara təsviri olmalı, yuxarı kənarı boyunca isə həm rusca, həm də azərbaycanca hissənin adı və nömrəsi yazılmalı idi.

Korpusun strukturlarının da yenidən qurulmasına başlandı. Sənədlər ƏAK tərkibində diviziya qərargahlarının ləğv olunduğunu göstərir. Qafqaz İslam Ordusu komandanının 1918 il 13 avqust tarixli əmri ilə ƏAK-ın qərargahı da, müvəqqəti olaraq, ləğv olundu, onun tərkibinə daxil olan hissələr birbaşa Qafqaz İslam Ordusu komandanlığına tabe edildi. ƏAK-ın ləğvi ilə onun sıralarında fəaliyyət göstərən zabitlər də xidmətdən kənarlaşdırıldı, hissələrdə yazışmanın Azərbaycan dilində aparılması məcburi şərt kimi irəli sürüldü.

1918 il sentyabrın 2-ci yarısında ƏAK-m qərargahı bərpa edildi. General-leytenant Ə.Şıxlinski korpusun komandiri, polkovnik Həbib bəy Səlimov isə qərargah rəisi idi. İlkin olaraq, ƏAK-ın tərkibində iki piyada diviziyası formalaşdırıldı. 1-ci diviziyanın komandiri polkovnik (albay) *Cəmil Cahid bəy,* 2-ci diviziyanın komandiri isə Qafqaz İslam Ordusunun qərargah rəisi olmuş Nazim bəy təyin edildi. Hər diviziya üç piyada alayından ibaret idi. 1918 il oktyabrın ortalarında 1-ci diviziyanın tərkibində üç süvari alayı, bir sərhəd və bir topçu alaylan var idi. Qafqaz İslam Ordusu komandanının tabeliyində 4-cü Azərbaycan süvari alayının da formalaşdırılmasına başlanmışdı. Bununla yanaşı Əlahiddə Azərbaycan korpusunun tabeliyində 1-ci ağır topçu taboru, 1-ci qaubitsa taboru, teleqraf taboru, dəmir yol taboru və təyyarə dəstəsi də var idi.

1918 il noyabrın əvvəllərində hərbi nazirlik bərpa edildikdən sonra, ƏAK-ın mövcudluğu formal xarakter aldı. Qoşun hissələrinin təşkilinə və fəaliyyətinə rəhbərlik bütünlüklə hərbi nazirliyin əlində cəmləşdirildi. 1918 il noyabrın 15-də ƏAK-ın qərargah rəisi H.Səlimov Ümumi qərargahın rəisi təyin edildi. ƏAK-ın komandiri Ə.Şıxlinski isə 1918 il dekabrın 29-da hərbi nazirin müavini təyin olundu. Korpusun qərargah zabitlərinin bir çoxu yeni vəzifələrə təyin edildilər. Nazirlər Şurasının 1919 il 2 yanvar tarixli qərarı ilə Əlahiddə Azərbaycan korpusu ləğv olundu. Onun qərargahında xidmət edən zabitlər hərbi nazirliyin aparatına və qoşun hissələrinə göndərildilər.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Стеклов А., Армия Мусаватского Азербайджана, Б., 1928.

**ƏLAHİDDƏ NAXÇIVAN GENERAL-QUBERNATORLUGU** - Cənubi Qafqazda nüfuz dairəsi qazanmağa çalışan Amerika Birləşmiş Ştatlarının əlverişli hərbi-strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək məqsədilə yaradılmış general-qubernatorluq (bax *Naxçıvan general-qubernatorluğu).*

**ƏLƏT-CULFA DƏMİR YOLU** Bakı ilə Azərbaycanın cənub-qərb bölgələrini birləşdirən dəmir yolu xətti. Culfa istiqamətində dəmir yolu çəkilməsi təklifini ilk dəfə 1898 ildə rus sahibkarları F.Y.Yenakiyev və A.M.Qoryainov irəli

sürmüşdülər. Onların tapşırığı ilə 1900 ildə Hacıqabuldan Araz çayı boyunca Culfaya qədər ərazidə texniki-kəşfıyyat işlərinə başlandı. Rus sənayeçiləri həmin dəmir yolu xəttini gələcəkdə İrana və Türkiyəyə doğru uzatmaq niyyətində idilər. Tərtib olunmuş layihə sonradan "Təbriz dəmir yolu cəmiyyəti" nin rəhbərlərindən olan S.Podqurskiyə verildi.

Culfa-Hacıqabul dəmir yolu xəttinin çəkilməsinin zəruriliyi Birinci dünya müharibəsi (1914-18) başlandıqdan dərhal sonra özünü göstərdi. Rusiya Qafqaz cəbhəsindəki qoşunlarını ərzaq və döyüş sursatı ilə təchiz etməkdə ciddi çətinliklərlə üzləşdi. 1914-16 illərdə Qafqazın cənubuna doğru daşınan yüklərin həcmi 2 dəfədən çox artmışdı və Aleksandropol-Culfa xətti bu qədər yükü daşımağa qadir deyildi. Bu vəziyyət Qafqazdakı rus ordusunun komandanı və Qafqaz canişini Nikolay Nikolayeviçi Culfanın Cənubi Qafqaz dəmir yolunun şərq hissəsindəki stansiyalardan biri ilə birləşdirilməsini təklif edən layihələrə ciddi diqqət yetirməyə məcbur etdi. Canişin bu layihələr içərisində Culfanın Ələtlə birləşdirilməsi təklif edilən varianta üstünlük verdi və 1916 il fevralın 4-də Nazirlər Şurasına müraciət edərək, Ələt-Culfa dəmir yolu xəttinin çəkilməsi məsələsini irəli sürdü.

Culfanı məhz Ələt stansiyası ilə birləşdirmək təklifi onunla bağlı idi ki, bu stansiya hələ Bakı-Tiflis dəmir yolu çəkildiyi zaman dəmir yolu xətti vasitəsilə Ələt buxtası ilə birləşdirilmişdi. Buxtanın özündə isə gəmilərin yan alması üçün körpü inşa edilmişdi. Bu da tikinti materiallarını və sonrakı dövrdə həm də hərbi yükləri onsuz da yüksək gər-ginliklə işləyən Cənubi Qafqaz dəmir yolundan, Bakı yük stansiyasından yan keçməklə daşımağa imkan verərdi.

Dəmir yolu xətti Ələt stansiyasından başlayaraq Şirvan, Muğan, Mil düzlərindən çəkilməli, 46-cı verstdə Kür çayını, 91-ci verstdə Araz çayını keçməli idi. Təqribən Bəhmənli stansiyası yaxınlığından (165-ci verstdən) başlayaraq Araz çayı vadisi ilə, Xudafərin körpüsündən Ordubada kimi isə 90 verstlik məsafədə ensiz çay yatağı boyunca inşa edilməli idi. Bu yeni dəmir yolu xətti 383-cü verstdə İran sərhədi yaxınlığında - Culfada Uluxanlı-Culfa və Culfa-Təbriz dəmir yolları ilə qovuşmalı idi. İşçi layihəsində dəmir yolu xəttinin keçəcəyi dağlıq bölgədə ümumi uzunluğu 460 sajın (1 sajın=2,13360 *m)* olan 13 tunel inşası planlaşdırılmışdı. Layihədə həmçinin 13 yeni stansiya tikintisi də nəzərdə tutulurdu.

Çar hökuməti bu yolun çəkilməsinə dərhal icazə verdi. Artıq 1916 il mayın 14-də Ələt-Culfa dəmir yolunun Qafqazdakı rus ordusunun təchizi üçün fövqəladə dərəcədə vacibliyini nəzərə alaraq, tikinti xərclərinin hərbi fondun hesabına ödənilməsi barədə yollar naziri A.F.Trepova göstəriş verildi. Həmçinin, inşaat işləri üçün lazım olan bütün materialın və avadanlıqların hərbi yük kimi növbədənkənar qəbul edilib, yola salınması əmr olundu. Yolun çəkilməsinə cəlb edilən qeyri-müsəlmanlara hərbi xidmətdən möhlət hüququ verilirdi.

1916 il iyulun 30-da dəmir yolu xəttinin inşasına başlandı. Tikintinin podratçısı Cənubi Qafqazda yerli şəraitə və dəmir yolu inşası işinə yaxından bələd olan S.Podqurski, baş mühəndisi isə A.Treskinski idi. Dəmir yolu inşası üçün zəruri olan materiallar həm ölkə daxilində, həm də xaricdə sifariş edilmişdi. Yolun çəkilişində 50 min nəfərə qədər adam çalışırdı. Bu da tikinti işlərini yüksək sürətlə aparmağa imkan verirdi. 1917 ilin sonuna kimi torpaq işlərinin 73 faizi, süni tikililərin 60 faizi, qalereya və tunel çəkilişinin 80 faizi artıq başa çatdırılmışdı. Kür çayı üzərindən Qafqazda ən böyük - 152 sajın uzunluğunda körpü inşa edilmişdi. Həmçinin, Ələt stansiyasından başlayaraq, hazırlanmış dəmiryolu yatağına sürətlə rels döşənirdi. 1918 ilin əvvəlində Ələtdən Bəhmənli stansiyasına qədər 165 verstlik sahədə rels döşənməsi işi, əsasən, başa çatdırılmış, işçi qatarların hərəkəti başlanmışdı. Lakin 1917 ilin sonu - 1918 ilin əvvəlində Rusiyada və Qafqazda baş verən siyasi hadisələr tikinti işlərini davam etdirməyə imkan verməmişdi.

1918 il mayın sonunda isə o zaman Naxçıvana gəlmiş Osmanlı qoşununun Culfa-Bakı istiqamətində irəliləmə-sinin qarşısını almaq üçün, Bakı Xalq Komissarları Sovetinin daşnak-bolşevik rəhbərliyinin göstərişi ilə artıq dəmir yolu xətti çəkilmiş sahələrdə relslər sökülmüş, digər dəmir yolu əmlakı ilə birlikdə başqa yerə daşınmışdı. Sonralar bu sahədən sökülmüş relslərin çoxundan Bakı-Tiflis dəmir yolu xəttinin təmirində istifadə edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti çox ağır iqtisadi və maliyyə böhranı keçirməsinə baxmayaraq, Ələt-Culfa dəmir yolunun inşasını davam etdirməyə xüsusi diqqət yetirirdi. 1919 ilin büdcə layihəsində bu məqsəd üçün 100026000 çervon vəsait ayrılması bunu sübut edir. Lakin o zaman tikinti işlərini canlandırmaq mümkün olmadı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yalnız Ələtlə Zubovka (indiki Əli Bayramlı) arasındakı dəmir yolu xətti (48 verst uzunluğunda) normal işləyirdi.

Sovet hakimiyyəti qurulduqdan sonra Culfa istiqamətində dəmir yolu xəttinin inşasını davam etdirmək qərara alındı. Bununla əlaqədar, Nəriman Nərimanov 1921 il avqustun 30-da RSFSR Xalq Komissarları Sovetinə teleqram vuraraq, Cənubi Qafqaz dəmir yolunun Azərbaycan sahəsindən 117 verst uzunluğunda ikinci yolun sökülmüş relslərinin respublikadan kənara çıxarılmasının dayandırılmasını tələb etmişdi. Azərbaycan rəhbərliyi bu relslərdən Ələt-Culfa dəmir yolunun inşasında istifadə etməyi nəzərdə tuturdu. 1921 ilin payızında bu dəmir yolunun çəkilməsinə yenidən başlansa da, yalnız 1941-45 illər müharibəsi başlandıqdan sonra bütövlüklə istifadəyə verildi.

*Əd.:* Əliyev Q.Ə., Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsrin sonu - XX əsrin ilk onillikləri), B., 2001;Самойлов А., Алят – Джульфинская железная дорого. “Закавказский транспорт”, 1924, №10.

**ƏLI FUAD PAŞA,** Cəbəsoy (1882, İstanbul - 1968, orada) - Türkiyənin dövlət, hərbi və siyasi xadimi. Ali hərbi təhsil almış, Balkan müharibələrində (1912-13) və Birinci dünya müharibəsində (1914-18) iştirak etmişdir. Kazım Qara Bəkir paşa, Bəkir Sami bəy və digər türk milli azadlıq mücadiləsi xadimləri ilə birlikdə Mustafa Kamal *Atatürkün* 1919 il iyunun 20-də bəyan etdiyi Amasya təlimatını imzalamışdı. 1920 il aprelin 23-də Ankarada işə başlamış Türkiyə Böyük Millət Məclisi (TBMM) hökumətinin Moskvadakı ilk fövqəladə və səlahiyyətli sefiri olmuş və 1921 il fevralın 18-də Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) hökuməti ilə danışıqlar aparmaq üçün göndərilmiş Türkiyə nümayəndə heyəti ilə birlikdə Moskvaya gəlmişdir; fevral-mart aylarında Yusif Kamal bəy və doktor Riza Nuru bəylə birlikdə Moskvada RSFSR xarici işlər naziri G.Çiçerinlə, Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü C.Qorxmazovla danışıqlar aparmışdır.

Əli Fuad paşa Moskva konfransında Azərbaycanın himayəsi altında Naxçıvana muxtariyyət verilməsi məsələsinin uğurla həll edilməsi sahəsində gərgin və səmərəli diplomatik fəaliyyət göstərmişdir. Danışıqlarda məhz Türkiyə diplomatlarının, o sıradan da Əli Fuad paşanın səyləri sayəsində "Dostluq və qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsinin (Moskva, 16 mart 1921 il) 3-cü maddəsinə və 1 (V) əlavəsinə əsasən, Naxçıvan vilayətinə Azərbaycanın himayəsi altında muxtariyyət verilməsi razılaşdırıldı. Əli Fuad paşa sonralar millət vəkili, 1948 ildə isə TBMM başqanı seçilmiş və Türkiyə Cümhuriyyətinin daxili və xarici siyasətinin işlənib hazırlanmasında fəal rol oynamışdır. 60-cı illərdən elmi fəaliyyətlə məşğul olmuşdur. "Sinif yoldaşım Atatürk", "Moskva xatirələri" və s. əsərlərin müəllifidir.

**ƏLİ NƏZMİ**, Əli Məhəmməd oğlu Məmmədzadə (1878, Gəncə qəzasının Sərab k. - 2.1.1946, Bakı) - şair, publisist, tərcüməçi. Kəndli ailəsində doğul kənd mollaxanasında almışdır. Kənd təsərrüfatında işləmiş, Buxara, Səmərqənd (1898-1900), Gəncə, Tiflis şəhərlərində ticarətlə məşğul olmuşdur. 1920 ildə Gəncədə qısamüddətli pedaqoji kurs bitirərək, müəllimlik (1920-24),-"Yeni Gəncə" qəzetində əməkdaşlıq etmiş, vergi idarəsində, şəhər təsərrüfatı şöbəsində işləmişdir.1926 ildə Bakıya köçərək "Kəndçi qəzetəsi", "Molla Nəsrəddin", "Yeni yol", "Kommunist"və s. dövri nəşrlərin redaksiyalarında çalışmışdır. "Şahnamə"-dən "Səyavuş və Əfrasiyab" dastanının, "Dünya və insanın yaradılışı" bölməsinin tərcüməsi (1935), "Sijimqulunamə" (1927), "Bəlkə bu yaxşı oldu" (1930), "Satira mərmiləri" (1945) kitabları nəşr olunmuşdur.



Əli Nəzmi yaradıcılığa 20 əsrin əvvəllərindən başlamış, ilk şeir və məqalələrini "Şərqi-Rus" qəzetində (1903-05) dərc etdirmişdir. Birinci rus inqilabından (1905-07) sonra"Əli Məmmədzadə", "Kefsiz", "Məşədi Sijimqulu", "Şəmşir", "Bikəs", "Əlidəyənəkli" və s. açıq və gizli imzalarla "Molla Nəsrəddin", "Bəhlul", "Zənbur", "Babayi-Əmir", "Məzəli", "Tuti", "Məktəb", "İqbal" və s. məcmuələrdə lirik-satirik əsərləri dərc olunmuşdur. "Molla Nəsrəddin" və M.Ə.Sabir ədəbi məktəbinin numayəndəsi olan Əli Nəzminin yaradıcılığında əski dünyaya, köhnə şüur və məişət tərzinə qarşı mübarizə, istibdadın tənqidi, azadlıq ideyalarının tərənnümü aparıcı istiqamət təşkil edir ("Fələkdən giley", "Hürriyyətin lüzumu", "İstibdad", "Olacaqmı", "Sizə nə", "Ey füqərə", "Od tutub, odlandı Vətən", "Ağaya cavab", "Qorxuram", "Amali-hürriyyət" və s. şeirlər). Əli Nəzmi 20 əsrin birinci yarısını əhatə edən qırx illik bir müddətdə Azərbaycan və ona yaxın olan regionda baş verən ictimai-siyasi hadisələrə çevik, həssas münasibət bil-dirmişdir. Bu baxımdan şairin 1917 ildən sonra baş verən hadisələrə münasibəti maraq doğurur. "Olarmış" şerində çar istibdad üsuli-idarəsinin yıxılmasını alqışlayan şair ölkənin müsəlman əhalisinin işinin nizama düşəcəyinə ümid bəsləyir, "Muxtar" şerində vətəndaşların hüquq bərabərliyinin təmin olunacağından söhbət açır. Lakin çox keçmədən məyus olan şair "Hürriyyətdən kim nə pay aparsın?" şerində inqilabdan Rusiyanın məzlum müsəlman xalqlarına "yumruqdan", "buyruqdan" başqa bir pay düşmədiyini bəyan edir.

Azərbaycan Xalq Cümhuriyyəti illərində Əli Nəzmi doğma Sərab kəndində yaşamışdır. Bakıda çıxan "Zənbur" jurnalında "Kefsiz" imzası ilə "İnsaf", "Bələdiyyə" satiralarını dərc etdirmiş, dövlət tədbir və qanunlarından şəxsi mənfəətləri üçün istifadə edən məmurları və möhtəkirləri tənqid etmişdir. Şairin "Keçmiş günlər" mənzum xatirələrində Gəncə üsyanı, həmin günlərdə Gəncədə xəstəxanada müalicə olunan Məhəmməd Hadi ilə görüşləri haqqında məlumat vardır.

Əsəri: Seçilmiş əsərləri, B., 1979.

*Əd.:* Hüseynov F., Əli Nəzmi, B., 1970.

**ƏLİ RAZİ,** Şamçızadə Əli Yəhya oğlu (1886, Gəncə - 1938, Bakı) - şair, publisist, dramaturq, mühərrir. Gəncədə mollaxanada, "Məktəbi-ruhaniyyə", "Cəmiyyəti-xeyriyyə" məktəblərində oxumuşdur. Gəncə "İslam qiraətxanası"nda müdir (1907-08), Bakıda "Günəş" (1910-11), "Yeni həqiqət" (1911) qəzetlərinin, satirik "Tuti" (1914-16) jurnalının redaksiyasında mühərrir işləmişdir. "Molla Nəsrəddin" jurnalında satiralar dərc etdirmişdir. Siyasi baxışlarına görə təqib olunaraq, Dağıstana sürgün olunmuş (1917), beş aydan sonra Gəncəyə qayıdaraq, "Türk Ədəmi-mərkəziyyət "Müsavat" partiyasında çalışmış, "Müsavat" qəzetində "Müsavatçı Əli Razi" imzası ilə şeirlər dərc etdirmişdir. Azərbaycan Cümhuriyyətinin kəşfiyyat xidmətində fəaliyyət göstərmişdir. Elə buna görə də sovet hakimiyyəti illərində repressiya olunaraq, güllələnmişdir. Yaradıcılığa lirik şeirlərlə başlayan Əli Razi Birinci rus inqilabından (1905-07) sonra müxtəlif dövri mətbuat orqanlarında çoxlu satirik şeirlər, felyeton və publisist məqalələr dərc etdirmişdir.



Əli Razinin "Eşq və məhəbbət" (1908), "İslam kitabxanası" (1908), "Yaman qardaş" (1908), "Nalələrim" (1908), "Dabamçatdaq xala və heyvərə" (1912) kitabları nəşr olunmuşdur.

Əsəri: Nalələrim, fəğanlarım. Seçilmiş əsərləri (toplayıb tərtib edəni, müqəddimə və şərhlərin müəllifi İ.Ağayev), B., 1992.



**ƏLİ SƏBRİ,** Qasımov Əli Camal oğlu (15.4.1892, indiki Babək rayonunun Nehrəm k. - 19.2.1983, Bakı) - yazıçı, jurnalist. Qori Müəllimlər Seminariyasını bitirmiş (1913), bir müddət Bakıda müəllimlik etdikdən sonra Naxçıvana qayıdaraq, həmyerlilərinin erməni-daş-nak təcavüzünə qarşı mübarizəsinə qoşulmuş, könüllü xalq dəstələrinin yaradılmasında təşəbbüskarlıq göstərmişdir. Nümayəndə heyətinin tərkibində Naxçıvan əhalisinin 17 maddədən ibarət tələblərini 1919 il sentyabrın 9-da Tiflisdə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının neytral zona elan olunaraq, onların ərazisində Naxçıvan general-qubernatorluğu yaradılmasını nəzərdə tutan "Haskel layihəsi"nin müəllifi, Antanta dövlətlərinin Ermənistandakı ali komissarı, amerikalı polkovnik V.Haskelə təqdim etmiş və bildirmişdir ki, ***"əgər bu tələblər qəbul olunmasa, naxçıvanlılar öz istiqlaliyyətlərini əldə silah qoruyacaqlar".*** Naxçıvan, Ordubad, Şərur, Sürməli, Milistan və Vedibasar mahallarının əhalisi adından Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərlərinə göndərilən 1919 il 9 sentyabr tarixli sənədi Əli Səbri də imzalamışdır. Sənəddə Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması, Zəngəzura gedən yolun açılması və s. tələblər irəli sürülürdü. 1919 ilin yayında ingilis-daşnak hərbi hökuməti Şərur-Naxçıvan ərazisində repressiyaya başladı və apardığı kütləvi həbslər zamanı demokratik fikirli adamlar içərisində Əli Səbri də həbs olunaraq, Aleksandropola (Gümrü) sürgün edildi.

Ədəbi yaradıcılığa 1914 ildən başlamış, "Molla Nəsrəddin" jurnalında "Taqiyanuszadə" imzası ilə çıxış etmişdir. "Solğun çiçək" adlı ilk kitabı 1914 ildə nəşr olunmuşdur. Əli Səbri Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır (1925-30). "Maarif işçisi" jurnalının redaktoru, "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində redaktor, Azərbaycan Yazıçılar İttifaqı ədəbi fondunun sədri olmuşdur. Povest və hekayələri, xatirələri var. Rus və dünya ədəbiyyatlarından Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatından rus dilinə tərcümələr etmişdir.

Əsərləri: Povest və hekayələr, B., 1978; Ömürdənyarpaq düşür, B., 1983.

**ƏLİ ŞÖVQİ** (?-?)- şair, milli istiqlal dövrü (1918-20) poeziyasının istedadlı nümayəndələrindən biri. Şeirləri "Azərbaycan", "İstiqlal", "Qurtuluş", "Hürriyyət", "Bəsirət", "Övraqi-Nəfisə", "Gənclər yurdu" və s. mətbuat orqanlarında çap olunurdu. Daha çox klassik poeziya, aşıq şeri üslubunda şeirlər yazırdı. Azərbaycan istiqlalının, vətən məhəbbətinin, milli dövlətin, müstəqillik rəmzi üçrəngli bayrağın tərənnümü yaradıcılığında mühüm yer tuturdu. Şair dünyaya nur saçan Vətənini iftixarla tərənnüm edirdi:

***Fəxr etməyə yarar bir türk elidir,***
***Aləm çeşmi-çırağıdır Vətənim!***

Azad Azərbaycanın şan-şöhrətinin və nüfuzunun yüksəlişi də şairi düşündürürdü. "Azərbaycan" şerində şair yazırdı:
***Türk eliyəm, deyib bayraq qaldırdın,***
***Aslan kimi düşmən üstə saldırdın.***
***Vətən üçün can verdin, can aldırdın,***
***Bəs indi bu şövkət, bu şan nə oldu!!***

***Hərəkət et, qoy, bir səni görsünlər,***
***Türk övladı kim olduğun bilsinlər.***
***Düşmən qəmnak olub, dostlar gülsünlər,***
***Deməsinlər Azərbaycan nə oldu!!***

Yaxud:
***Qarabağdan duşmənləri atdınmı?***
***Naxçıvanın imdadına çatdınmı?***

Əli Şövqi şeirlərində türkçülük ideyasının, ümumbəşəri islami dəyərlərin təbliğinə üstünlük verirdi. Başqa şairlərlə yanaşı, onun da şeirləri elliklə yayılır, oxunur, marşa, himnə, nəğməyə çevrilirdi.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Ağayev İ, XX əsrin əvvəllərində Azərbaycan şeri, B., 2002.

**ƏLİ YUSİF**, Yusifzadə Ağəli Cəlal oğlu (1.1.1900, Şuşa - 1926) - şair, Cümhuriyyət dövrü poeziyasının istedadlı nümayəndələrindən biri. Hələ Şuşa realnı məktəbinin 6-cı sinfində oxuyarkən, "Qurtuluş" jurnalında Əli Rai (Rai - çoban) təxəllüsü ilə dərc edilmiş "Qüruba qarşı bir yetimin lisanından" şeri mükafata layiq görülmüşdü. Əli Yusif 1918-19 illərdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Xalq Maarifi Nazirliyində kargüzar işləmiş və bu dövrdə yazdığı şeirlərini "Yusifzadə Əli Rai", "Əli Yusif", "Əli Yusif Rai" və "Ə.Y." imzaları ilə dərc etdirmişdir. İlk şeirlərində, əsasən, həyatın, azadlığın, varlıq və yoxluğun, həqiqi idealını, insan ömrünün mənasını dərk etməyə can atır, vəfasızlığa, xəyanətə qarşı etiraz səsini ucaldırdı. Əli Yusif də Seyid Hüseynin 1919 ildə təşkil etdiyi "Yaşıl qələm" ədəbi birliyinin Cəfər Cabbarlı, Ümmügülsüm, Salman Mümtaz və digər şairlərlə bərabər fəal üzvlərindən idi.

Əli Yusif istiqlal dövrü poeziyasında öz orijinallığı ilə seçilən simalardan idi. Bu dövrdə yazdığı "İdeal", "Bayraq", "Azərbaycanlıya - hörmətli Nəsib bəyə" (Nəsib bəy Yusifbəyliyə), "Ey türk oğlu" və s. şeirlərində, həmçinin *1918-20 illər* mətbuatında tez-tez dərc olunan məqalələrində Azərbaycanda milli dövlət quruculuğunu tərənnüm etmişdir. İstiqlalı, cümhuriyyəti, azad vətənə sonsuz sevgini böyük məhəbbətlə, ruh yüksəkliyi ilə qarşılayan gənc şair istibdad zəncirindən qurtulmağı Azərbaycan üfüqündə doğan sönməz bir ulduz kimi mənalandırır, ilk dəfə milli dövlət elan edilməsindən öyünürdü:

***Ey vətəndaş, bu gün sənin taleyinə***
***Bir əbədi sönməyəcək ulduz doğur.***
***...Bundan sonra Azərbaycan ölkəsində,***
***Azadlığın, istiqlalın kölgəsində***
***Sənin dəxi bir müqəddəs vətənin var,***
***Bayrağın var, buludlardan uca qalxar!***

Əli Yusif 1920 il yanvarın 14-də dövlət hesabına təhsil almaq üçün Parisə göndərilmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin maddi vəziyyətini, təhsilin gedişini və məişət məsələlərini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunan nümayəndənin məlumatına görə, Əli Yusif təhsilini müvəffəqiyyətlə davam etdirirdi. 1922 ildə o, Parisdə Siyasi Elmlər İnstitutunu əla qiymətlərlə bitirib, Bakıya qayıtmışdır.

Əli Yusif bir müddət sonra mühacirətdə olan müsavatçılarla əlaqə saxlamaqda, "proletar dövlətinə qarşı yönəldilmiş digər cinayətlərdə" təqsirləndirilərək, Sibirə sürgün edilmiş, orada qətlə yetirilmişdi. Avropaya təhsil almağa getməzdən əvvəl şair sanki taleyini qabaqcadan görürmüş kimi yazırdı:

***Ey müqəddəs, şanlı, sevimli ölkə!***
***Kim bilir qəzayı?***
***Dönmədik, bəlkə...***
***Haqqını həlal et, biz gedər olduq.***

Məhəmməd Əmin Rəsulzadə mühacirətdə yazdığı əsərlərində Əli Yusifin şeirlərinə dönə-dönə müraciət etmiş, onlardan nümunələr gətirmişdir.

*Əd:*. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Abdullayev A., Əli Yusif, "Ədəbiyyat və İncəsənət" qəzeti, 1989, 28 iyul; Ağayev İ., XX əsrin əvvəllərində Azərbaycan şeri, B., 2002; Абутальбов Р., "Азербайджанские студенты в Западной Европе","ПАНОРАМА"qəzeti, 1996, 15 mart.

**ƏLİBƏYOV** Mustafa bəy Cabir oğlu (1872, Nuxa -1943, Daşkənd) - ictimai xadim, hüquqşünas, naşir, publisist, dramaturq. Bəy ailəsində doğulmuşdur. Mollaxanada, üçüncü dərəcəli şəhər məktəbində oxumuş, Tiflis gimnaziyasını bitirmişdir (1892). Bakı quberniyası dairə məhkəməsində baş müstəntiqin tərcüməçisi və vəkil (1892-1920) işləmişdir.

Əlibəyov 20 əsrin əvvəllərində Bakının ictimai-mədəni həyatında fəal iştirak etmiş, 1905 ildə Hacı Zeynalabdin Tağıyevin sədrliyi ilə yaradılan "Hidayət" xeyriyyə cəmiyyətinin katibi olmuşdur. Bakı neftini xarici kapitalın inhisarından qurtarıb xalqın rifahına sərf etmək məqsədilə cəmiyyətin nəzdində *"Hidayəti-islamiyyə" neft şirkəti* yaratmağa təşəbbüs göstərmiş, onun *27 bənddən ibarət nizamnaməsini tərtib etmişdir. Əlibəyov* 1907 ildə həyat yoldaşı, həkim Xədicə xanım Əlibəyova-Sübhanquliyevanın redaktorluğu ilə "İşıq" adlı ilk qadın jurnalını (1911-12) nəşr etmişdir.



Rusiyada Fevral inqilabından (1917) sonra fəal siyasi həyata qoşulan Mustafa bəy "Əhrar" partiyasına daxil olmuşdur. "Möhtaclara kömək" cəmiyyətinin üzvü olaraq, erməni-bolşevik-daşnaklarının 1918 ildə Bakıda törətdikləri qanlı mart soyqırımı ərəfəsində "Dikaya diviziya" əsgərlərinin əllərindən alınmış silahların qaytarılmasını Bakı komissarlığından tələb etmiş, xüsusi tapşırığa əsasən, türk hərbi əsirlərini Türkiyəyə təhvil verməyə aparmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Möhtaclara kömək" təşkilatının xəttilə əhalinin ərzaq və paltarla təmin olunmasına yardım göstərmişdir. İranın Rəşt vilayətində inqilabi hərəkatla əlaqə saxlamış, Kiçik xanla görüşmüş, haqqında Bakı mətbuatında məqalə dərc etdirərək, fədailərin döyüş əzmini alqışlamışdır. "Yaşıl qələm" ədəbi birliyinin üzvü olmuşdur.

*Aprel işğalından {1920)* sonra Nuxaya (Şəkiyə) köçmüş, mühüm işlər üzrə xalq hakimi, hüquq bürosunun müdiri, Gəncə "müdafüyün heyəti"nin üzvü olmuşdur. Əlibəyov mətbuatda açıq və gizli imzalarla çıxış etmiş, "Məhkəmələr qapısında tökülən qanlı yaşlarımız" faciəsinin, "Cəllad mülkədarın qurbanı" kinossenarisinin, "Abşeron neft cəzirəsi" publisist əsərinin müəllifidir.

*Əd:* Məmmədov X., Mustafa bəy Əlibəyovun irsi qiymətli söz xəzinəmizdir, "Təzə həyat" qəzeti, 2000, 19 sentyabr; Ağabəyli F., Vəkil Mustafa bəy Əlibəyov. O bizə şərəfdir, biz ona övlad, B., 2003.

**ƏLİBƏYOVA** Xədicə (1884, Tiflis - 1958) - maarifçi, publisist, ictimai xadim. Atası Ələddin Sübhanquliyev ruhani olmasına baxmayaraq, qızını Tiflis rus qız gimnaziyasına qoymuş, mükəmməl təlim-tərbiyə vermişdir. Xədicə xanım gimnaziyanı bitirdikdən sonra Zaqafqaziya Olqa mama-ginekologiya İnstitutunda oxumuş, 1907 – ci ildə 1- ci dərəcəli mama ixtisası almışdır. Hüquqşünas Mustafa bəy Əlibəyovla ailə qurandan sonra ictimai-mədəni həyatda iştirak etməyə başlamış, 1911-12 illərdə Azərbaycanda ilk qadın "İşıq" jurnalının (cəmi 68 sayı buraxılmışdır) redaktoru (naşiri Mustafa bəy Əlibəyov idi), həmçinin *Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin* fəal üzvlərindən biri olmuşdur.



Əlibəyova "İşıq" jurnalında "Hüququmuz" sərlövhəli silsilə məqalələr yazmışdır. Qadınların hüquq bərabərliyi, onları maarif və mədəniyyətə, ictimai həyatda iştiraka çağırış, qadın klublarının, savad kurslarının açılması, uşaqların tərbiyəsi, ev işləri və sağlamlıq məsələləri ətrafında gedən mübarizə və s. onun publisistik məqalələrinin əsas mövzuları idi. 1920 ildən 1946 ilədək Şəkidə həkim-ginekoloq işləmiş, savad kurslarının, qadın klubunun təşkilində yaxından iştirak etmişdir.



"İşıq" jurnalının üz qabığı

**ƏLİFBA İSLAHATI KOMİSSİYASI** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ölkə əhalisinin maarifləndirilməsini sürətləndirmək məqsədilə həyata keçirdiyi tədbir.

1919 il martın 21-də Cümhuriyyət Hökumətinin qərarı ilə Xalq Maarifi Nazirliyinə ərəb əlifbasının islahatı üzrə xüsusi Hökumət komissiyası yaratmaq və komissiyanın hazırladığı təklifləri baxılmaq üçün Nazirlər Şurasına təqdim etmək tapşırılmışdı. Bu qərara əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin üzvü Xudadat bəy Məlik-Aslanovun sədrliyi ilə Xalq Maarifi Nazirliyi yanında ərəb əlifbasının islahatı üzrə xüsusi komissiya yaradılmışdı. Əlifba islahatı, hər şeydən öncə, maarifçilik, xalq təhsilinin milliləşdirilməsi sahəsində Hökumətin qarşısında duran vəzifələrin həyata keçirilməsinə birbaşa xidmət etməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət və qayğısı ilə fəaliyyət göstərən komissiya tezliklə bir neçə əlifba layihəsi hazırlayaraq Hökumətə təqdim etmişdi. Həmin layihələr arasında müəllim Abdulla bəy *Əfəndizadənin* hazırladığı variant bəyənilmiş və yeni əlifba üçün əsas kimi qəbul olunmuşdu.

A.Əfəndizadə əlifba islahatı, xüsusilə latın əlifbasına keçidin zəruriliyi ilə bağlı 1919 ildə Bakıda "Son türk əlifbası" adlı dərslik də nəşr etdirmişdi. Dərslikdə o, ilk dəfə olaraq, ərəb və latın əlifbalarını müqayisəli şəkildə vermiş, birincinin ana dilimizə uyğunsuzluğunu, ikincininisə daha münasib olduğunu zəngin dil faktları ilə əsaslandırmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin əlifba islahatı sahəsində həyata keçirdiyi ilk əməli addımlar *Aprel işğalı (1920)* nəticəsində yarımçıq qaldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə artıq reallaşmaq ərəfəsində olan əlifba islahatı ideyasına 1921 ildə Sovet Azərbaycanında yenidən qayıdıldı. Bu məsələnin geniş müzakirəsindən sonra Nəriman Nərimanovun imzaladığı xüsusi dekretlə Azərbaycanda əlifba islahatı üzrə Yeni Türk Əlifba Komitəsi yaradıldı. Komitənin latın qrafikası əsasında hazırladığı Azərbaycan əlifbasının layihəsi ümumxalq müzakirəsi üçün "Yeni yol" qəzetində dərc edildi.

Gərgin keçən və uzunmüddətli müzakirələrdən sonra 1929 ildən etibarən Azərbaycanda tamamilə latın əlifbasına keçildi. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin öz qarşısına qoyduğu müqəddəs amallardan biri də reallaşdırıldı. Bu işdə Cümhuriyyət dövründə əlifba islahatları üzrə Hökumət komissiyasının üzvləri olan Xudadat bəy Məlik-Aslanovun, Həmid bəy Şahtaxtlının, Fərhad Ağazadənin, Azad bəy Əmirovun, Əhməd bəy Pepinovun və başqalarının səy və zəhmətləri az olmamışdır.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; MərdanovM., Quliyev Ə., Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920), B., 2003.



**ƏLİMURADOV** Cavad bəy Cümşüd bəy oğlu (6.7.1898, Qaryagin, indiki Füzuli - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı kişi məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini memarlıq sahəsində davam etdirmək üçün Fransaya göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr*

*İttifaqının* 1923-25 illər üçün məlumatında Cavad Əlimuradovun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏLİVERDİLİ** (Əliverdilər) Qara bəy (? - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Şuşa qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. "İttihad" fraksiyaının üzvü olmuşdu.



**ƏLİYEV** Abbas Mirzə Əhməd oğlu (28.7.1897, Şamaxı - 1972, Moskva, Bakıda dəfn olunmuşdur) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmişdir (1916). Kiyev Politexnik İnstitutunun inşaatçı-mühəndis şöbəsində təhsil almağa başlamış (1916 ildən), lakin Rusiyada Oktyabr çevrilişi baş verdiyindən təhsilini yarımçıq qoyub, 1918 ildə geri qayıtmağa məcbur olmuşdur. Parlamentini l919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Almaniyanın Berlin Kommersiya İnstitutuna göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduq-dan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi.

Abbas Əliyev təhsilini başa vurduqdan sonra (1925) Azərbaycana qayıtmış, 1928 ilədək burada işləmiş, sonra Moskvaya köçmüşdür. 1938 ildə həbs olunaraq, Bakıya gətirilmiş, 6 aydan sonra həbsdən buraxılmışdır. Moskvaya qayıdan Abbas Əliyev İkinci dünya müharibəsinin (1939-45) iştirakçısı olmuşdur. 1947 ildə Abbas Əliyev ikinci dəfə həbs olunmuş, 1953 ildə bəraət almışdır.

Azərbaycanın Moskvadakı nümayəndəliyinin göndərişi ilə "Bakı" restoranında inzibatçı, direktor müavini işlə-mişdir.



**ƏLİYEV** Ələkbər Qəhrəman oğlu (25.8.1897, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı kişi məktəbini bitirmişdir (1916). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Ələkbər Əliyevin təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏLİYEV** Əşrəf Ağəli oğlu (2.4.1900, Vladiqafqaz (bəzi məlumatlara görə Şuşa) - 1937) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərarı)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Vladiqafqaz gimnaziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ-mə-dən sahəsində davam etdirmək üçün Almaniyanın Frayberq Akademiyasına göndərilmişdi.



Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə l ay qaldığı göstərilirdi.

Təhsilini başa vurduqdan sonra Əşrəf Əliyev, əlavə olaraq, Hannover və Elzasda dörd ay ixtisasını təkmilləşdirmişdir. Azərbaycana qayıtdıqdan sonra Əşrəf Əliyev "Azərneft" İstehsalat Birliyində çalışmış, Bibiheybət neft mədənləri rəisinin müavini, "Kaqonoviçneft" trestinin qazıma kontorunun direktoru işləmişdir. Repressiya olunmuşdur.

*Əd.:* Джафаров М.Ш., Политический террор и судьбы азербайджанских немцев, Б., 1998.



**ƏLİYEV** Firidun Əzim oğlu (3.12.1898, Şuşa - ?) -Azərbaycan Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı poli-texnik məktəbinin elektrotexnika şöbəsini bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Almaniyaya göndərilmişdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Firidun Əliyevin təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏLİYEV** Heydər Əlirza oğlu (10.5.1923, Naxçıvan ş. - 12.12.2003, Klivlend, ABŞ; Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur) - dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimi. Dünya azərbaycanlılarının ümummilli lideri, Azərbaycan xalqının qurtuluş mübarizəsinin (1990-93) qalibi. Yeni Azərbaycan Partiyasının (1992) banisi, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi olan müasir Azərbaycan dövlətinin qurucusu və

Azərbaycan Respublikasının Prezidenti (1993-2003). Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-41 illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941 ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) Xalq Daxili İşlər



Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944 ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, leytenantlıqdan general rütbəsinədək yüksəlmişdir. 1957 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964 ildə Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967 ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. ***Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir.***

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) iyul (1969) plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi, MK-nin büro üzvü seçilmişdir. Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ***birinci dövrii*** başlanmışdır. Heydər Əliyev AKP MK-nin avqust (1969) plenumundakı məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmağın yeni xəttini müəy-yən etmişdir. Bu xətt Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərar olunması uğrunda uzunmüddətli mübariz fəaliyyət proqramına çevrilmişdir. Heydər Əliyevin AKP-nın 28-ci (1971, mart) və 29-cu (1976, yanvar) qurultaylarında MK-nın hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm əməli rol oynamışdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının (Sov. İKP) 24-cü (1971, mart-aprel) və 25-ci (1976, fevral-mart) qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sov. İKP MK-nın üzvü seçilmişdir. Heydər Əliyev 1976 ilin martında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982 ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. ***Türk-müsəlman xalqlarına qarşı ayrıseçkilik siyasətinin yeridildiyi şəraitdə SSRİ kimi nəhəng bir dünya dövlətinin ali rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir.***

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev yeni Konstitusiyanın hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir (1977, oktyabr). Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yeni konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi, ***Azərbaycan dilinin Azərbaycan SSR-in dövlət dili olması haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur*** (1977, iyul). Azərbaycan SSR Ali Sovetinin sessiyasında "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə etmişdir (1978, aprel).

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin, istiqamətlərinin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Nəticədə, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-82 illər) idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanunçuluğa ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahələrində yüksək göstəricilər əldə edilməklə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün də çox mühüm işlər görülmüşdür. Nəticədə, 1970-80-ci illərin birinci yarısı respublikanın ictimai-iqtisadi və sosial-mədəni həyatında sürətli yüksəliş mərhələsi olmuş, müstəqil Azərbaycanın təməli qoyulmuşdur. ***Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-82) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdır.***

Heydər Əliyev SSRİ-nin ali rəhbərliyi tərkibində fəaliyyət göstərdiyi dövrdə xalq təsərrüfatına rəhbərliyin bütün sahələrində tükənməz dövlət idarəçiliyi istedadı nümayiş etdirmiş, xüsusilə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına böyük qayğı göstərmişdir. Heydər Əliyev dövlətçilik fəaliyyətinin Moskva dövründə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız SSRİ məkanında deyil, həmçinin bütün dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10-cu çağırışlar) deputatı seçilmiş, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9 və 10-cu çağırışlar) deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuş, Lenin ordeni (4 dəfə), Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına (1979, 1983) layiq görülmüşdür.

1970-80-ci illərdə Sov. İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Meksika, Almaniya, Vyetnam, Koreya Xalq Demokratik Respublikası, Rumıniya, Yuqoslaviya, İtaliya, Misir, Suriya və Hindistana rəsmi səfərlər etmişdir.

Heydər Əliyev 1987 ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun və şəxsən Baş katib M.S.Qorbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və mövcud rejimə qarşı müxalif mövqe tutmuşdur.

***Heydər Əliyev sovet qoşunlarının 1990 ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləmiş, Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçmişdir***. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991 ilin iyulunda Sov. İKP sıralarını tərk etmişdir.

Heydər Əliyev doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990 ilin iyulunda Azərbaycana qayıtmış, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda ***Qurtuluş mübarizəsini*** davam etdirmiş, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1992 ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı illər (1991-93) muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda, əlamətdar dövrüdür. Heydər Əliyev, birinci növbədə, Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Bu illərdə Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından "sovet, sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20) üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında qərarlar qəbul etdi. Blokada şəraitində olan muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirildi. Qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid körpüsü", İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı-Poldəşt körpüsü inşa edildi və s.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı (1991, fevral) çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürmüş, prinsipial və konkret fikirlər söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan etmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarları dəqiq ünvanını göstərərək demişdir: ***"Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur".***

Xalqının müstəqilliyi uğrunda dönmədən mübarizə aparan Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991 il 7 mart tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa çağıran təklifinə qarşı çıxmış, bununla bağlı referendumda iştirak edib-etməmək məsələsində öz qətiyyətli mövqeyini belə ifadə etmişdir: ***"Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır"*** Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında referendum boykot edilmiş, rus sovet qoşun hissələri buradan çıxarılmış, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmiş, Naxçıvan müstəqillik və milli dövlət quruculuğu nümunələri göstərərək, xalqın inamını sarsılmağa qoymamış, müstəqilliyə ümid yaratmışdır.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi müddətdə bütün Azərbaycan xalqı və Vətən üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirmişdir: Kommunist Partiyasının Naxçıvanda fəaliyyət göstərən bütün strukturları ləğv edilmiş (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991 il 26 avqust tarixli qərarı), Azərbaycan Ali Sovetinin 1991 il 29 avqust tarixli sessiyasının qərarına əsasən, Azərbaycanda həmin il sentyabrın 8-nə təyin edilmiş prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazisində keçirilməsinin dayandırılması (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991 il 4 sentyabr tarixli qərarı) haqqında qərar çıxarılmışdır. Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sabitlik təmin olunmuş, demokratik dövlət quruculuğu formalaşmışdır. 1993 ilin may-iyununda respublikada hakimiyyət böhranı, hərc-mərclik son həddə çatdıqda, ölkə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldıqda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, əsl mənada, milli hərəkata çevrildi və nəticədə, Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. ***Heydər Əliyev 1993 il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil oldu. Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş mübarizəsi zəfər çaldı.*** **Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin** ***ikinci dövrü*** başlandı. Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxdı. İyunun 24-dən isə Heydər Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993 il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: ***"Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq iiçün əlimdən gələni əsirgəməyəcəyəm ".***


ATTESTAT













Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, Azərbaycan dövlətçiliyinin varlığı üçün böyük təhlükə olan 1994 il oktyabr və 1995 il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s. ümummilli, ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Prezidentin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklərə başlandı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994 ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. Bununla, xalqımızın genefondunun məhv edilməsinin qarşısı alındı. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyindən ölkənin milli mənafelərinə uyğun olan irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. 1994 ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi bağlandı. Bundan sonra Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar yeni-yeni sazişlərin imzalanması belə müqavilələrin sayını 21-ə, iştirak edən dövlətlərin və iri şirkətlərin sayının isə müvafiq surətdə 15 və 33-ə çatdırılmasına imkan verdi ki, bu da yaxın illərdə Azərbaycana qoyulacaq xarici sərmayənin 60 milyard dollardan çox olacağını nəzərdə tutur. Bütün bunlar ölkənin iqtisadi sistemini canlandıracaq güclü maliyyə kanalıdır. Bu müqavilələr, eyni zamanda, çox mühüm siyasi məna kəsb edir və Azər-



baycanın beynəlxalq aləmdə rolunu gücləndirən amil funksiyası daşıyır. Heydər Əliyevin yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycan neftinin dünya bazarlarına nəqli sahəsində də uğurlu addımlar atılmış, "Bakı-Supsa" boru kəməri tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəmərinin inşa olunması haqqında müqavilə imzalanmış və onun həyata keçirilməsi reallaşmaq üzrədir.

Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamış, 1998 ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli nümayəndələrinin Bakıda konfransı keçirilmiş, konfrans proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul etmişdir.

Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın daxil olduğu GUÖAM birliyinin yaradılmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin böyük xidməti olmuşdur. 1999 ilin aprelində GUÖAM ölkələri başçılarının Vaşinqton görüşündə Heydər Əliyev təşkilatın ilk sədri seçilmişdir.

Heydər Əliyevin çoxşaxəli və geniş miqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, ölkə iqtisadiyyatında ilk artım meyllərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi və inflyasiyanın qarşısının alınması, manatın alıcılıq qabiliyyətinin davamlı surətdə sabit saxlanması prioritet sahələrdir.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995 ilin noyabrında ümumxalq səsverməsi yolu ilə ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000 illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında qanun"un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində, demək olar ki, bütün beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Heydər Əliyevin "İnsan hüquq və azadhqlarmm təmin edihnəsi haqqmda" 1998 il 22 fevral tarixli fərmanı Azərbaycan Respublikasının dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratmış, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasəti səviyyəsinə qaldırmış, 1995 ilin mayında əfvetmə təsisatı bərpa edilmiş, 1995-2003 illərdə əfv fərmanlarına və amnistiya aktlarına əsasən minlərlə məhbus cəzaçəkmədən tam və ya qismən azad edilmiş, Azərbaycan 1996 ilin



iyunundan Avropa Şurasına "xüsusi qonaq" statusu almış, 2001 il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan 1 milyondan artıq soydaşımızın didərgin salınması və çadırlarda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur olması, Azərbaycan ərazisinin 20%-dən çoxunun Ermənistan silahlı birləşmələrinin işğalı altında qalması və s. haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox gərgin və geniş miqyaslı fəaliyyət göstərmişdir. Heydər Əliyevin Azərbaycan Prezidenti kimi, BMT-nin sessiyalarında, ATƏT-in zirvə toplantılarında çıxışları, Fransa, ABŞ, İngiltərə, Belçika, Almaniya, İran, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Misir, Rusiya, Qazaxıstan, Pakistan, Qırğızıstan, Özbəkistan, Yaponiya və b. ölkələrə rəsmi səfərləri də bu məqsədə xidmət etmişdir.

Prezident Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlıfaydalı əməkdaşlıq prinsipləri təşkil edir. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirmiş, bu yolda ardıcıl mübarizə aparmış, problemin sülh yolu ilə həlli baş tutmadıqda, Qarabağın silahla azad ediləcəyini əzmlə bəyan etmişdir.

Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, türk dövlətləri başçılarının 1992 ildən işə başlamış zirvə toplantılarında müntəzəm olaraq fəal iştirak etmiş, türk xalqlarının birliyi naminə bir sıra dəyərli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Türk dövlətləri başçılarının 6-cı zirvə toplantısının (2000, aprel) Bakıda keçirilməsi və bu böyük tədbirin türk dünyasının böyük ədəbi abidəsinin - "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin beynəlxalq miqyasda qeyd edilməsi ilə eyni vaxta düşməsi də bu baxımdan çox əlamətdardır. Heydər Əliyevin rəhbərliyi ilə hər iki tədbirin çox yüksək səviyyədə keçirilməsi və bütün türk xalqlarının əsl bayramına çevrilməsi Azərbaycan Prezidentini həm də çağdaş türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrətləndirmişdir.

Heydər Əliyevin tarixin acı və amansız sınaq dövrlərində, ermənilərin xüsusi qəddarlıqla həyata keçirdikləri soyqırımları nəticəsində dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində müstəsna xidmətləri vardır. Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən onun təşəbbüsü ilə 1991 il dekabrın 16-da Ali Məclis dekabrın 31 -ni Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi Günü elan etmişdir. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı, istisnasız olaraq, hər bir ölkədə yaşayan azərbaycanlıların nümayəndələri ilə çox önəmli görüşlər keçirmiş, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası altında ana Vətən - Azərbaycan ətrafında sıx birləşməsi üçün misilsiz



xidmətlər göstərmişdir. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001 il noyabrın 9-10-da dünya azərbaycanlılarının Bakıda I qurultayı keçirilmiş, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm tarixi qərarlar qəbul edilmişdir.

Heydər Əliyev 1998 il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1%-ni toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident Heydər Əliyev Azərbaycanın digər bölgələri kimi, blokada şəraitində yaşayan Naxçıvanı da daim diqqət mərkəzində saxlamış, "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 1999 il 12 fevral tarixli sərəncamında muxtar respublikanın gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Heydər Əliyevin muxtar respublikanın yubiley şənliklərində şəxsən iştirak etməsi Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişaf proqramının həyata keçirilməsinə yeni güclü təkan vermişdir.

Heydər Əliyev dahi siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin gözəl bilicisi, elmin və mədəniyyətin himayəçisi idi. Onun bilavasitə təşəbbüsü və iştirakı ilə neçe-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdır. Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan qocaman sənətkarlara, istedadlı gənc şair və yazıçılara, müxtəlif yaradıcılıq sahələrində ümidverici yeniyetmələrə fərdi təqaüdlər təyin etməsi də mədəniyyətimizin inkişafına Heydər Əliyevin böyük qayğısının bariz nümunələrindəndir.

Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001 ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri, türk xalqları və dövlətləri arasında əlifba və dil birliyinin təmin edilməsi və bir çox digər sahələrdə çoşğun fəaliyyəti Heydər Əliyevə böyük şöhrət gətirmişdir. O, Bakı Dövlət Universitetini ***"Azərbaycan xalqının milli sərvəti"***, Elmlər Akademiyasını isə ***"Azərbaycan xalqının tarixi nailiyyəti"*** adlandırmış və respublikada elmin, təhsilin inkişafına daim diqqət və qayğı göstərmişdir; Heydər Əliyev 2001 il 15 may tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verməklə bu nəhəng elm ocağının Azərbaycan xalqı qarşısındakı xidmətlərini və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu faktını bir daha yüksək səviyyədə təsdiqləmişdir.

Zəngin, hərtərəfli və dərin tarixi biliyə malik olan Heydər Əliyev doğma tarixin doğru-düzgün araşdırılması, öyrədilməsi və təbliğ olunmasını daim diqqət mərkəzində saxlamış, bu mühüm sahəyə böyük qayğı göstərmiş, metodoloji göstərişləri və apardığı çox dəyərli ümumiləşdirmələrlə tarix elminin inkişafına güclü təkan vermişdir. Onun müxtəlif tarixi hadisələr, proseslər, görkəmli tarixi simalar barədə çıxışları, məruzələri, irəli sürdüyü dövrləşdirmələr, 1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası (1997, 18 dekabr) və soyqırımı (1998, 26 mart) haqqında fərmanları, "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" və "31 Mart - azərbaycanlıların soyqırımı günü" münasibətilə Azərbaycan xalqına müraciətləri (2000, 29 dekabr və 2001, 27 mart) və s. bunun parlaq nümunələridir.

Heydər Əliyev öz əsərlərində, məruzə, çıxış və xalqa müraciətlərində, imzaladığı fərman və sərəncamlarda Azərbaycan xalqının dövlətçilik tarixində parlaq rol oynamış Azərbaycan Xalq Cümhuriyyətinin, Cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət vermiş, müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dönə-dönə qeyd etmişdir. Prezident Heydər Əliyevin 1998 il 30 yanvar tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi bütün ölkədə geniş qeyd olunmuşdur. ***"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz, iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyik rol oynamışdır"*** (Heydər Əliyev).

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 85-ci ildönümü münasibətilə imzaladığı sərəncamla (2003, 1 fevral) Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutduğunu nəzərə alaraq, Bakı şəhərində Azərbaycan Xalq



Cümhuriyyətinə abidə ucaldılması haqqında göstəriş vermişdir. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair arxiv sənədləri və fundamental nəşrlər işıq üzü görmüş, 2003 ilin mart-may aylarında Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyinə həsr olunmuş beynəlxalq elmi-sessiya keçirilmiş, "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın nəşr olunması üçün hazırlıq işlərinə başlanmışdır.

1998 ilin mayında Azərbaycan xalqı, mütərəqqi beynəlxalq ictimaiyyət Heydər Əliyevin anadan olmasının 75 illiyini yüksək təntənə ilə qeyd etmişdir. Azərbaycanda və bir sıra xarici ölkələrdə Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyi və tərəqqisi naminə titanik fəaliyyətindən bəhs edən silsilə kitablar, kitab-albomlar nəşr olunmuş, kinofilmlər yaradılmışdır.

Heydər Əliyev bir sıra xarici ölkələrin yüksək ordenlərinə, beynəlxalq mükafatlara, o cümlədən, Türkiyənin Sənaye və İş Adamları Vakfının 1997 ilin insan haqları və ilin dövlət adamı mükafatına, ən nüfuzlu televiziya kanallarından biri - "Nərgiz TV"nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında "Dünyada ilin adamı" fəxri adına (1997), "İpək Yolu Fondu"nun təsis etdiyi "İpək Yolu Xidmət Mükafatı"na (1998), Beynəlxalq Atatürk Sülh Mükafatına (1999), müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara, mükafatlara layiq görülmüşdür. Dövlətlərarası əlaqələrin inkişafında, regional münasibətlərin, siyasi sabitliyin tənzimlənməsində yorulmaz səylərinə görə Heydər Əliyev "Qızıl fortuna" Beynəlxalq Reytinq Təşkilatının ali mükafatı - "Qızıl Ulduz" ("Qloriya populi") ilə təltif olunmuşdur (2001).

Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün Azərbaycan xalqının, bütün türk-islam dünyası və mütərəqqi bəşəriyyətin tarixinə ən ağır hüzn günü kimi daxil oldu. Dahi rəhbər əbədiyyət dünyasına arxasınca irəliləyən milyonlarla azərbaycanlını - doğma xalqını birləşdirərək qovuşdu.

Azərbaycan xalqı Heydər Əliyevin adını geniş miqyasda əbədiləşdirmişdir. Anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstü ucaldılmış (1983), Heydər Əliyev muzeyi yaradılmışdır. Azərbaycan Respublikasının bütün rayon, şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyev bağ və parkları, meydanları salınmış, bulaq-abidə kompleksləri, pannolar inşa edilmişdir. Kiyevdə Heydər Əliyev adına Siyasi Elmlər və Beynəlxalq Münasibətlər İnstitutu fəaliyyət göstərir. Heydər Əliyev məktəbləri və universitetlərində elmi-nəzəri mühazirələr, məruzələr dinlənilir, seminarlar keçirilir. Bakının beynəlxalq hava limanı, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Respublika sarayı, Bakı idman-konsert kompleksi və s. Heydər Əliyevin adını daşıyır.

Heydər Əliyev Bakıda Fəxri Xiyabanda, ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.



Əsərləri: Müstəqilliyimiz əbədidir, 1-11-ci kitablar, B., 1997-2003; Müstəqillik yolu (seçilmiş fikirlər), B., 1997; Azərbaycan bütün azərbaycanlıların vətənidir (Azərbaycan və rus dillərində), B., 2000; Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, B., 2001.

*Əd.:* Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı, B., 1994; Qayıdış. 1990-1993 (məsləhətçi və buraxılışına məsul Vasif Talıbov), B., 1996; Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1999-cu illərdə xarici ölkələrə səfərlərinə dair materiallar), c.1-5, B., 1996-99; Heydər Əliyev və Bakı Dövlət Universiteti (tərtibçi Əli Əhmədov), B., 1997; Xudiyev N., Heydər Əliyev və Azərbaycan dili, B., 1997; Mahmudov Y., Azərbaycan dövlətçiliyinin xilaskarı, B., 1998; Heydər Əliyev - 75. "Azərbaycan Universiteti" (məsul redaktor Ramiz Mehdiyev), B., 1998; Həbibbəyli İ., Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti, Naxçıvan, 1998; Maqsudov F., Heydər Əliyev və Azərbaycan elmi (redaktoru akademik Cəmil Quliyev), B., 1998; Abdullazadə F., Heydər Əliyev. Siyasi portret (Azərbaycan və rus dillərində), B., 1998; Əliyev R., Heydər Əliyev. Din və mənəvi dəyərlər, B., 1998; Hacıyev Ə., Novruzov V., Allahverdiyev H., Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, B., 1998; İsmayılov Ə., Əliyev Q., Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi, B., 1998; Əkbərov B., Heydər Əliyev milli konstitusiyamızın banisidir, B., 1998; Mirzəyev R., Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyası (ingilis və Azərbaycan dillərində),B., 1999;Məmmədov Z.,Heydər Əliyev və Azərbaycan dəmir yolları, B., 1999; Mustafayev R., Fikir azaddır, B., 2000; Mehdiyev R., Azərbaycanın inkişaf dialektikası, B., 2000; yenə onun, Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi, B., 2001; Həsənov Ə., Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), B., 2000; Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu (elmi məsləhətçi və redaktor akademik Cəlal Əliyev; ön sözün və məqalələrin müəllifi AMEA-nın müxbir üzvü, prof. Abel Məhərrəmov), B., 2001; Azərbaycan Respublikası. 1991-2001-ci illər, B., 2001; Mahmudov Y., Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti, B., 2002; Heydər Əliyev və Şərq, kitab 1-2, B., 2002; Təhsil millətin gələcəyidir (tərtibçi Misir Mərdanov), B., 2002; Heydər Əliyev və azərbaycançılıq məfkurəsi (elmi redaktoru R. Mehdiyev), B., 2002; Yeni Azərbaycanın qurucusu (tərtibçi X. Kazımlı), B., 2002; Mehdiyev R., XXI əsrdə milli dövlətçilik, B., 2003; Böyük siyasət zirvəsi (elmi redaktoru Yaqub Mahmudov), B., 2003; Heydər Əliyev (biblioqrafik məlumat kitabı; Abel Məhərrəmovun redaktorluğu ilə), B., 2003; Heydər Əliyev və Azərbaycan parlamenti (məsul redaktoru Murtuz Ələsgərov), B., 2003; Hüseynova İ., Müstəqilliyimizin təminatçısı, B., 2003; Heydər Əliyev dünyanın gözü ilə, B., 2003; Sadıqov B., Həqiqət və yalan, B., 2003; Аббасбейли А., Аббасбейли Э., Гейдар Алиев и мировая политика, Б., 1997; Алиев Н. А., Мирзоев М. А., Шахбазов Э. К., ОЭТ Баку – Тбилиси – Джейхан: от видения к реальности, Б., 2001.

**ƏLİYEV** İlham Heydər oğlu (d. 24.12.1961, Bakı) -Azərbaycan Respublikasının Prezidenti (2003 ildən), görkəmli siyasi və dövlət xadimi. Azərbaycan xalqının ümummilli lideri, dahi dövlət xadimi Heydər *Əliyevin* oğludur. Peşəkar siyasətçidir. 1982 ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Orada elmi-pedaqoji fəaliyyətə başlamış (1982), aspirant, müəllim olmuşdur. Tarix elmləri namizədidir (1985). 1991 ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994 ildən) və birinci vitse-prezidenti (1997 ildən), Azərbaycan Resbulikasının baş naziri (2003) vəzifələrində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994-2000 illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərir. 2000 ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə








CNN CNN
WASHINGTON














parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır.

İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsinin əlillərinə qayğısı, Qaradağ rayonunda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlament-lərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətlə xidmət etmək nümunəsidir. Onun AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına çox güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri var. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları İlham Əliyevə qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazandırmışdır. O, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir (2003, yanvar).

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997 ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində qısa müddət ərzində Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrəti qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda regionlarda (Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Quba) da olimpiya idman-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətin parlaq təzahürləridir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Fransa, Rusiya, Ukrayna, İsveçrə, Qazaxıstan, Özbəkistan, Slovakiya, Polşa, Gürcüstan və b. ölkələrdə rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir.

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003 ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O ,2003 ilin prezident

seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-08 illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Prezident İlham Əliyev ölkədə insan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını diqqət mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (2004, 12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir. İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi".

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Əsərləri: Azərbaycan nefti dünya siyasətində, c.1-5, B., 1997-98 (A.Muradverdiyevlə birgə); Каспийская нефть Азербайджана, М., 2003.

*Əd.:* Abdullayev V., O, böyük siyasətə hazırdır. B., 1999; İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur (buraxılışa məsul Fəzail Ağamalı), B., 2001; İlham Əliyev: Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram (buraxdışa məsul Fəzail Ağamalı), B., 2001; Bəsirət ünvanı (redaktoru Əli Əlirzayev), B., 2002; Diplomatiya və iqtisadiyyat (elmi redaktoru Yaqub Mahmudov), B., 2003; Siyasət zirvəsində (tərtibçi Etibar Nəsibov; elmi redaktoru Seyfəddin Qəndilov), B., 2004; Valeh Mirzə, Azərbaycan dövlətçiliyinin qoşa qanadı, B, 2003; Quliyev İ. Sabaha inamla və İlhamla, B, 2003.

**ƏLİYEV** Məmmədtağı Hacı Əbdülsəməd oğlu - ictimai və siyasi xadim, Rusiyanın 1-ci Dövlət dumasının deputatı (bax *Əlizadə* Məmmədtağı Hacı Əbdülsəməd oğlu).

**ƏLİYEV** Mirzə Bağır Yusif oğlu (1882, Naxçıvan ş. - 1.9.1938, orada) - Azərbaycanın milli istiqlal hərəkatının fəal iştirakçısı. Naxçıvanın erməni təcavüzündən və xarici müdaxilədən azad olunmasında fəal iştirak etmişdir. Gimnaziya təhsili almış, ərəb, fars və rus dillərini mükəmməl öyrənmiş, "Səyyar" təxəllüsü ilə şerilər yazmışdır. Dövrünün ziyalıları ilə ünsiyyət saxlamış, onların bir çoxu, xüsusilə Hüseyn Cavidlə dostluq etmişdir. 1918-20 illərdə Naxçıvan erməni təcavuzünə məruz qalarkən burada yaradılmış Müsəlman Milli Komitəsinin katibi olmuşdur. Sonralar Naxçıvanda müəllim və vəkil işləmişdir. 1937 ildə qardaşı Nağı Əliyevlə (xaricdə təhsil almış, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabiti, qoşun komandiri olmuş, *Aprel işğalından (1920)* sonra mühacirət etmişdir) əlaqədar 2 dəfə Dövlət Təhlükəsizlik Komitəsində saxlanılan Mirzə Bağır Əliyev ruhi sarsıntıdan ağır ürək xəstəliyinə tutulmuş, qəflətən vəfat etmişdir. Ərəb əlifbası ilə 250 səhifəlik şagird dəftərində gündəlik şəklində yazılmış xatirələrində Mirzə Bağır Əliyev erməni təcavüzkarlarının Azərbaycana və xalqımıza qarşı törətdikləri vəhşilikləri, habelə xarici dövlətlərin (İran, Rusiya, İngiltərə, Fransa və Amerika Birləşmiş Ştatları) Naxçıvanda baş verən hadisələrə müdaxiləsi, Türkiyənin Naxçıvana qardaşlıq köməyi ilə bağlı iştirakçısı və şahidi olduğu hadisələri təfərrüatı ilə qələmə almışdır.

Əsəri: Qanlı günlərimiz (1918-1920-ci illər), B., 1993.



**ƏLİYEV** Mirzağa Əli oğlu (1883, Bakı yaxınlığındakı Hövsan k. - 25.10.1954, Bakı) - görkəmli teatr xadimi, aktyor, xalq artisti (1949), Dövlət mükafatları laureatı (1943, 1948). Səhnəyə ilk dəfə 1901 ildə Şahmar bəy "Müsibəti-Fəxrəddin", N.B.Vəzirov) rolunda çıxmışdır.

1906-07 illərdə "Həmiyyət" teatr truppasının aktyoru və rəhbəri olmuş, 1907 – 12 illərdə "Nicat" cəmiyyətinin teatr truppasında çıxış etmişdir. 1912 ildə milli –ayrıseçkiliyə qarşı çıxdığına, qabaqcıl ictimai ideyaları yaydığına görə Həştərxana sürgün olunmuş, 1912-16 illərdə Volqaboyu şəhərlərində, Tiflisdə, İran və Türkiyə şəhərlərində tamaşalar göstərmişdir. Azərbaycan Xalq Cümhu-riyyəti dövründə teatr işinə dövlətin fəal müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Milli mədəniyyət mücahidlərindən biri olan Mirzağa Əliyev 1919 ilin sentyabrında aktyorların peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə açılmış türk



Mirzağa Əliyev
Mirzə Səməndər ("Almas", C.Cabbarlı) rolunda

dram kurslarının komediya şöbəsində müəllim kimi çalışmışdır. Bu illərdə o, eyni zamanda, dövlət teatrının repertuarındakı əsərlərdə çıxış edir, xeyriyyə tamaşaları verirdi. Üzeyir Hacıbəylinin "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan", Zülfüqar Hacıbəylinin "Evliykən subay", "Əlli yaşında cavan" musiqili komediyalarında son dərəcə realist, milli koloritli, unudulmaz səhnə obrazları yaratmışdır.

*Aprel işğalından (1920)* sonra Mirzağa Əliyev Bakı Azad Tənqid-Təbliğ Teatrının təşkilatçısı olmuş, 1924 ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Dram Teatrında çalışmışdır. Fitri komik istedada, ifadəli yumor boyalarına, zəngin səhnə çalarlarına və mədəniyyətinə malik aktyor olan Mirzağa Əliyev Azərbaycan teatr sənətinin ənənələrini davam və inkişaf etdirmişdir.

*Əd.:* Məmmədov M., Mirzağa Əliyev, B., 1949; yenə onun; Mirzağa Əliyev, "Teatr düşüncələri" kitabında, B., 1977; Cəfərov C, Azərbaycan teatrı, B., 1974.



**ƏLİYEV** Zeynalabdin bəy Hacağa bəy oğlu (24.4.1894, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilənazərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini memarlıq sahəsində davam etdirmək üçün Roma Kral Rəssamlıq Akademiyasına (İtaliya) göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏLİZADƏ** Ağa Cavad oğlu (1871, Bakı yaxınlığındakı Pirşağı k. - 15.12.1954, Bakı) - maarifçi ruhani və ictimai xadim. Atası Axund Hacı Məhəmməd Cavad dövrünün tanınmış din xadimlərindən idi. Əlizadə İçərişəhərdəki Qüdsi mədrəsəsində dini təlimlə yanaşı, dünyəvi elmləri - riyaziyyat, astronomiya, tarix elmlərini də öyrənmiş, təbabət elminə xüsusi maraq göstərmişdir. Mədrəsəni uğurla bitirdikdən sonra təhsilini Bağdad yaxınlığındakı Nəcəfül Əşrəf islam mərkəzində davam etdirmişdir. Ağa Əlizadə təhsilini başa vurub, axund rütbəsinə layiq görülmüş, 1896 ildə Bakıya qayıtmışdır. İçərişəhərdə məhəllə məscidlərindən birinə təyinat alan Ağa Əlizadə savadı və davranışı ilə yerli ruhanilər içərisində böyük hörmət qazanmış, Qafqaz Şeyxülislamı Əbdüssəlam Axundzadənin zəmanəti ilə Bakının Təzəpir məscidinə baş dini xadim təyin edilmişdir. 1903 ilədək bu məsciddə fəaliyyət göstərən Ağa Əlizadə 1904 ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin üzvü seçilmişdir.



1905 ildə erməni daşnakların Bakıda müsəlman əhaliyə qarşı soyqırımının qarşısının alınmasında böyük fəallıq göstərmişdir. 1907 ildə "Səadət" müsəlman xeyriyyə cəmiyyətinin yaranmasında iştirak etmiş, sonra bu cəmiyyətin sədri seçilmişdir.

1918 ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük ruh yüksəkliyi ilə qarşılayan Ağa Əlizadə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, eyni zamanda, Şeyxülislam seçilmişdir.

Ağa Əlizadənin 1918-20 illər dövründəki bütün fəaliyyəti gənc müstəqil dövlətin möhkəmləndirilməsinə yönəlmişdi. Ölkə gənclərini vətənin müdafiəsi üçün milli ordu sıralarına daxil olmağa çağırmış, Cümhuriyyətin ildönümü münasibətilə keçirilən təntənələrdə çıxış edərək, istiqlaliyyətin əhəmiyyətindən danışmışdır. 1919 il sentyabrın 15-də Azərbaycanın istiqlalı uğrunda şəhid olanların Dağüstü (Çənbərəkənd) qəbiristanlığında keçirilən yadetmə mərasimini idarə etmişdir.

*Aprel işğalından (1920)* sonra Ağa Əlizadə təqibə məruz qalmışdır. 1944 ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsi bərpa olunarkən Axund Ağa Əlizadə yenidən Şeyxülislam vəzifəsinə seçilmişdir. Ağa Əlizadə bir sıra xarici ölkələrdə olmuş, beynəlxalq sülh konfranslarında işti-

rak etmişdir. Onun 1945 ilin mayında İrana səfəri xüsusi maraq doğurmuşdur. Ağa Əlizadə Təbriz məscidində moizə oxumuş, Qum səfərindən sonra Məşhəddə, Rəştdə olmuş, çoxsaylı görüşlər keçirmiş, Tehran Universitetinin ilahiyyat fakültəsində mühazirə oxumuşdur.

1952 ilin may ayında Vyanada sülhü müdafie konqresində Qafqaz müsəlmanları adından məruzə ilə çıxış etmişdir.

*Əd.:* Abasov M., Şeyxülislam Axund Ağa Əlizadə, B., 2000.

**ƏLİZADƏ** Məmmədtağı Hacı Əbdülsəməd oğlu (10.1.1858, Şamaxı - mart, 1918, Şamaxı) - ictimai-siyasi xadim, iqtisadçı alim, publisist; Birinci Dövlət dumasının deputatı. Şamaxı məhəllə məktəbində (1864-68), Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdindəki altısinifli məktəbdə (1868-74), Bakı realnı məktəbində (1874-78) oxumuşdur. Moskvada Petrovski-Razumovski kənd təsərrüfatı və meşəçilik akademiyasını aqronom və iqtisadçı ixtisası üzrə bitirmişdir. Təkmilləşmək üçün Avropaya getmiş, bir il Fransa və Almaniyada yaşamış, Sileziya vilayətinin iqtisadiyyatına dair elmi əsər yazıb nəşr etdirmişdir. Rusiya imperiyası maliyyə nazirliyinin rüsum və töycü şöbəsində işləmişdir (1883-88). Nazir Rixtenin islahat layihələri bürokratiyanın müqaviməti ilə qarşılaşarkən, digər mütərəqqi məmurlarla birlikdə istefa verib Şamaxıya qayıtmış, xeyriyyə işləri ilə məşğul olmuşdur. İrana səyahət etmiş, müşahidələri əsasında Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanına bənzər bir əsər yazmışdır.



1906 ildə Bakı quberniyasından 1-ci Dövlət dumasına deputat seçilmişdir. Əlizadə iqtisadçı alim kimi "Trudoviklər" partiyasına rəğbət bəsləmiş, müsəlman fraksiyasının üzvü olaraq, qeyri-rus xalqların milli muxtariyyəti ideyasını müdafiə etmişdir. Fevral inqilabından (1917) sonra Şamaxının siyasi həyatında fəal iştirak etmiş, erməni-daşnak dəstələri şəhər əhalisinə vəhşicəsinə divan tutarkən həlak olmuşdur.

Əlizadə erkən yaşlarından siyasi və ədəbi fəaliyyətə başlamış, Həsən bəy Zərdabinin təşəbbüsü ilə Nəcəf bəy Vəzirovun Petrovski-Razumovski akademiyasında yaratdığı "İmdadiyyə" siyasi dərnəyinin üzvü olmuş, "Əkinçi" qəzetində və digər dövri mətbuat orqanlarında məqalələr dərc etdirmişdir. İqtisadiyyat və kənd təsərrüfatına dair əsərləri 1918 il mart soyqırımı zamanı daşnaklar tərəfindən məhv edilmişdir.

*Əd.:* Məmmədov X., "Əkinçi"nin övladları, "Ədəbiyyat və incəsənət" qəzeti, 1970, 25 aprel; Геюшов З.Б., Архивные материалы об обществе "Имдадиййе", Доклады АН Азербайджанской ССР, 1963, №10.

**ƏLİZADƏ** Zeynal (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) milli mədəniyyətin tərəqqisində yaxından iştirak etmiş mədəniyyət xadimi. Əlizadə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 23 mart və 1920 il 30 yanvar tarixli qərarları ilə dövlət gerbinin, hərbi orden-medalların və dövlət möhürünün layihələrinin hazırlanması məqsədilə elan olunmuş müsabiqədə fəal iştirak etmişdir. Onun layihəsi əsasında buraxılmış döş nişanları və xatirə medallarında Parlamentin binası, bayraq, aypara, səkkizguşəli ulduz, günəşin doğması, gül çələngi həkk olunmuşdur.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998.

**ƏLYARBƏYOV** Tərlan bəy Abdulla bəy oğlu (28.11.1892, Şamaxı - 15.2.1956, Bakı) - hərbi xadim, general-mayor (1944). Tiflis hərbi məktəbini bitirmişdir (1914). Hərbi xidmətə rus ordusunda başlamış, Birinci dünya müharibəsində (1914-18) Şamaxı polku tərkibində rota və batalyon komandiri olmuş, alman cəbhəsində döyüşlərdə iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ordusu yaradılmağa başlayanda onun sıralarına qoşulmuş, əvvəlcə piyada alayında xidmət etmiş, sonra isə Bakı şəhəri və onun rayonlarının hərbi rəisi təyin edilmişdir. Bu vəzifədə o, Bakı şəhəri və onun ətraf rayonlarının əhalisi arasında hərbi çağırış işinin təşkilinə başçılıq etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun təşəbbüsü ilə təsis edilmiş yeddi hərbi rəislikdən biri olan həmin vəzifənin yaradılmasından məqsəd də hərbi çağırış və səfərbərlik işində mövcud nöqsanları aradan qaldırmaq, bu sahədə yol verilən əyintilərin qarşısını almaq idi. Cümhuriyyətin süqutuna qədər Bakı və onun rayonlarının hərbi rəisi vəzifəsini icra edərkən T.Əlyarbəyov podpolkovnik rütbəsində idi.



*Aprel çevrilişindən (1920)* sonra çağırış və səfərbərlik sahəsində kifayət qədər təcrübəyə malik olduğu üçün Tərlan bəy Əlyarbəyov yüksək hərbi vəzifələrdə işləmiş, 1923-29 illərdə Azərbaycan Sovet Sosialist Respublikası hərbi komissarının köməkçisi və ərazi idarəsinin rəisi vəzifəsində çalışmışdır. 1927 ildə M.V.Frunze adına Hərbi Akademiya (Moskva) yanında Ali komanda heyəti kursunu bitirmişdir. 1930-38 illərdə Cənubi Qafqazın müxtəlif hərbi məktəblərində işləmişdir. M.V.Frunze adına Hərbi Akademiyanı bitirmişdir (1941). Əlyarbəyov Böyük Vətən müha-ribəsi (1941-45) illərində 416-cı atıcı diviziyanın komandiri, Azərbaycan SSR xalq maarif komissarının müdafiə işləri üzrə müavini, 402-ci atıcı diviziyanın komandiri, 58-ci korpusun komandir müavini, 1946-48 illərdə Azərbaycan SSR maarif nazirinin müdafiə işləri üzrə müavini olmuş, 1948 ildə istefaya çıxmışdır. 1925-31 illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvlüyünə namizəd seçilmişdir. Azərbaycan SSR Ali Sovetinin (2-ci çağırış) depu-

tatı olmuşdur. Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və medallarla təltif olunmuşdur.

*Əd:*. Nəzirli Ş., Azərbaycan generalları, B., 1991; Боков Ф.Е., Бессмертный подвиг сынов Азербайджана, Б., 1971; Азербайджанская ССР в период Великой Отечественной войны 1941 – 1943 гг., сб. документов и материалов, в двух томах, т 1, Б., 1976.

**ƏMANƏT KASSALARI VƏ KİÇİK KREDİT MƏSƏLƏLƏRİ İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətinin təsərrüfat-iqtisadi həyatını canlandırmaq və pul dövriyyəsini tənzimləmək məqsədilə yaradılmış qurum. Bu qurumun funksiyasını həyata keçirən vəzifə, əsasən, Dövlət bankına həvalə olunmuşdu. Bank həmin vəzifəni daha mükəmməl şəkildə yerinə yetirmək üçün onunla əlaqədə işləyən və ya onun göstərişləri əsasında fəaliyyət göstərən digər idarələrlə əməkdaşlıq etməli idi. Bunların sırasında əmanət kassaları birinci yer tuturdu. Ona görə də Azərbaycanın əmanət kassalarını işə salmaq üçün 1919 il oktyabrın 11-də Parlament Azərbaycan dövlət əmanət kassalarının nizamnamələrini, ştat cədvəlini və smetalarını təsdiq etdi. Bakı, Gəncə, Ağdaş, Göyçay, Zaqatala, Qazax, Quba, Nuxa (Şəki), Salyan, Şamaxı, Şuşa və s. xəzinədarlıqları və onların qeydiyyatında olan poçt-teleqraf kassalarındakı mərkəzi əmanət kassalarını açdı.

Əmanət kassalarının vəzifəsi artıq pul kütləsini dövriyyəyə cəlb etmək idi. Bundan əlavə, Dövlət bankına əmanət kassaları vasitəsilə daxil olan vəsait hökumətin göstərişinə uyğun olaraq, bank tərəfindən istifadə edilirdi. Azərbaycanın dövlət əmanət kassaları Rusiyadakı əmanət kassaları üçün səciyyəvi olan forma və prinsiplər əsasında fəaliyyət göstərsə də, bu kassaların ölkə həyatının iqtisadi və siyasi şəraitindən doğan bəzi özəllikləri də vardı:

Azərbaycan Xalq Cümhuriyyətinin özünün faizli kağızları olmadığına görə, əmanət kassalarının öz passivlərini yerləşdirmək, habelə maliyyə nazirinin təsdiq etdiyi siyahıya əsasən və ya onun göstərişi ilə əmanətçilər üçün onların tapşırığına görə hər cür faizli kağızlar almaq hüququ vardı. Dövlət faizli kağızlar buraxacağı təqdirdə bu tədbir əhəmiyyətli ola bilər, eləcə də yerli ipoteka kağızlarının məzənnəsinin möhkəmlənməsinə xidmət edərdi.

Əmanət kassalarının əməliyyatlarını inkişaf etdirmək və pul dövriyyəsinin qaydaya salınmasına, yəni əmanət kassalarında çek dövriyyəsinin tətbiqinə kömək etmək məqsədi ilə maliyyə nazirliyi bu sahədə dəyişikliklər aparılmasını nəzərdə tutmuşdu. Əmanət kassalarına nəzarət və rəhbərlik üçün Azərbaycan dövlət əmanət kassaları idarəsi yaradılmışdı. Ona kiçik kredit idarələrinə rəhbərlik və nəzarət etmək də həvalə olunmuşdu.

1920 il yanvarın 15-də Parlamentin təsdiq etdiyi qanuna uyğun olaraq, əsas kapitalın yaradılması və artırılması üçün kiçik kredit idarələrinə borc verilməsi nəzərdə tutulmuşdu. Bundan ötrü Azərbaycan əmanət kassaları və kiçik kredit idarələrinin sərəncamındakı xüsusi fonda xəzinə vəsaitindən 2 milyon manat ayrılmalı idi. *Aprel işğalı (1920)* nəticəsində digər maliyyə qurumları kimi əmanət kassaları və kiçik kredit idarələrinin fəaliyyəti də yarımçıq qaldı.

**ƏMƏK MÜFƏTTİŞLİYİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə əməyin mühafizəsi, əmək haqqının dərəcələrini və əmək münaqişələrini tənzimləyən hökumət qurumu. 1919 il avqustun 5-də yaradılmışdı. Əmək nazirliyi bundan əvvəl ticarət və sənaye nazirliyi nəzdindəki fabrik müfəttişliyinin xidmətindən istifadə edirdi. Yeni müfəttişliyin yaradılması ilə əməyin mühafizəsinə nəzarət işi bir idarədə cəmləşdi; onun nəzarət funksiyası Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisinə şamil olunurdu.

Ölkənin 8 bölgəsinin hər birində rayon müfəttişi vardı və onlar Azərbaycan Xalq Cümhuriyyəti əmək müfəttişliyinin tabeliyində fəaliyyət göstərirdilər. Mürəkkəb münaqişələr yarandıqda, tətilləri dayandırmaq, kollektiv müqavilələr hazırlamaq və əmək haqqının ödənilməsi dərəcələrini müəyyən etmək üçün razılaşdırıcı komissiyalar çağırılması kimi tədbirlər həyata keçirilirdi.

**ƏMƏK NAZİRLİYİ,** A z ə r b a y c a n X a l q C ü m h u r i y y ə t i H ö k u m ə t i n i n Ə m ə k N a z i r l i y i -Azərbaycan Xalq Cümhuriyyətində əmək münasibətlərini və bununla bağlı digər prosesləri tənzimləyən hökumət orqanı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 21 yanvar tarixli qərarı ilə təsis olunmuşdu. Ölkədə hakimiyyətin tez-tez dəyişməsi nəticəsində Azərbaycan sənayesinin xaotik vəziyyətə düşməsi əmək nazirliyinin yaranmasına səbəb oldu. Müxtəlif qurumlar arasında yaranmış münaqişəli məsələlərin düzgün həllində əmək nazirliyinin üzərinə çox ağır və məsuliyyətli vəzifə düşürdü. Bu məqsədlə əmək nazirinin 1919 il 26 yanvar tarixli qərarı ilə kollektiv müqavilənin şərtləri bir sıra dəyişikliklərlə bərpa olundu, iş verənlərlə işə götürülənlər arasındakı münasibətləri tənzimləyən bir sıra dekrət və qərarlar qəbul edildi, əməyin mühafizəsi üzərində bütün nəzarət işləri nazirliyin tabeliyində cəmləşdirildi. Fəaliyyət dairəsini daha da genişləndirən nazirlik bütün imkanlardan istifadə edərək, əməklə kapital arasında qarşılıqlı münasibətləri tənzimləmək funksiyasını da öz üzərinə götürmüşdü.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti əmək nazirliyinin təşəbbüsü ilə 1919 il martın 10-da nazirlik yanında fəhlə məsələlərinə dair xüsusi məşvərət şurasının yaradılması haqqında qanun qəbul etdi. Qanuna əsasən, həmin məşvərət şurası bilavasitə əmək nazirinin sədrliyi ilə 10 nəfər üzvdən (5 nəfəri iş verənlər, 5 nəfəri isə işə götürülənlər tərəfindən) ibarət olmalı idi. Nazirlik, tədricən, köhnə rejimin fəhlə məsələlərinə aid normativ aktlarının qanunvericilikdə əhəmiyyətini itirmiş maddələrini dəyişdirir, ölkədə istehsalın səviyyəsinin yüksəldilməsi, əməyin müdafiəsi, işçi bazarının yaradılması üçün bir sıra mühüm tədbirlər görməyə başlayırdı. Bu vəzifələri yerinə yetirmək üçün əmək müfəttişliyinin təşkili, mədənlərdə münaqişələrin həlli, məhkəmələrin yaradılması, xəstələrə yardım kassalarının açılması, Qafqaz Sığorta Cəmiyyətini yaradılması, həmkarlar ittifaqları haqqında təlimatların hazırlanması və s. tədbirlər həyata keçirildi. Nəticədə, neft sənayesi və neft sənayesi yanında yardımçı təşkilatlarda arbitraj yaradılması barədə qərar layihəsi hazırlanaraq hökumətə təqdim olundu. 1919 il mayın 31-də Hökumət arbitraj orqanının təsisi barədə qərar qəbul etdi. Bundan əlavə, nazirliyin yenidən qurulması, mədənlərdə məhkəmələrin təşkili, həmkarlar ittifaqları və zavod komitələri barədə qərar layihələri, habelə yeni kollektiv müqavilənin layihəsi hazırlandı.

Nazirlər Şurası 1919 il 5 avqust tarixli qərarı ilə əmək nazirliyinin yeni idarə strukturunu yaratdı, həmin strukturun əmək müfəttişliyinə aid hissəsi təsdiq olundu, ümumi dəftərxananın strukturuna baxıldı və onun tərkibində yeni şöbələr (qanunvericilik təklifləri, mədəni-maarif, münaqişə məsələləri) və ümumi icra - nəzarət orqanı olan əmək müfəttişliyi yaradıldı.

Nazirliyin mədəni-maarif şöbəsi rayonların əmək müfəttişləri və müəssisələrin inzibati aparatlarının nümayəndələri ilə birlikdə Azərbaycan Cümhuriyyəti ərazisində, ixtisasa və milli tərkibə görə bölunməklə, hər iki cinsdən və bütün kateqoriyalardan olan fəhlələrin əmək haqqı və maddi vəziyyətlərinin dəqiq qeydiyyatını aparır, fəhlələrə türk dilində savad öyrətmək üçün məktəblərin açılması barədə layihə hazırlayır, habelə mədən-zavod rayonlarında, təşkilatlarda Azərbaycan xalqının tarixi və mədəniyyətini, həmçinin iqtisadiyyatı, kooperativ və həmkarlar hərəkatı tarixini öyrətmək üçün xüsusi kurslar təşkil edirdi.

1919 il oktyabrın 1-dən fəaliyyətə başlayan münaqişə məsələləri şöbəsi əmək müfəttişliyinə bilavasitə rəhbərlik edən orqan olmaqla, qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun şəkildə iş verənlərlə işə götürülənlər arasında baş verən münaqişələrə və onların həllinə nəzarət edirdi.

Əmək müfəttişliyi şöbəsindən başqa, bütün şöbələrin kargüzarlıq sənədləri ümumi şöbədə cəmləşmişdi. Nazirliyin hazırladığı kollektiv müqavilə, bəzi əlavələr və dəyişiklərlə, Nazirlər Şurası tərəfindən təsdiq olunmuşdu. Nazirlik mədənlərdə məhkəmələrin təşkili barədə qərar layihəsi, həmkarlar ittifaqı və zavod komitələri haqqında da təlimatlar hazırlayırdı.

Əmək müfəttişliyi şöbəsi 1919 il avqustun 5-də təşkil olundu. O vaxta qədər bu iş üçün sənaye və ticarət nazirliyinin fabrik müfəttişliyinin xidmətlərindən istifadə edilirdi. Əmək müfəttişliyinin yaranması Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisində əməyin müdafiəsi məsələlərinə nəzarətin vahid təşkilatın sərəncamında cəmləşdirilməsinə imkan yaratdı. Bu məqsədlə bütün Cümhuriyyət ərazisi 8 rayona bölündü. Onlara ümumi rəhbərliyi Azərbaycan Xalq Cümhuriyyətinin baş əmək müfəttişliyi həyata keçirirdi.

İş verənlərlə işə götürülənlər arasında mürəkkəb münaqişələr yarandıqda, tətillər baş verdikdə kollektiv müqavilələr hazırlamaq və əmək haqqının ödənilməsi üçün maaş dərəcələrini müəyyənləşdirmək məqsədilə razılaşdırıcı komissiyalar da yaradılırdı. 1919 il yanvarın 1-dən oktyabrın 15-nə qədər 30 belə komissiya yaradılmış və onların 98 iclası keçirilmişdi. Bu müddətdə fəhlələr tərəfindən nazirliyə 1537 şikayət daxil olmuşdu ki, onlardan da 922-si fəhlələrin xeyrinə həll olunmuş, 145-nə rədd cavabı verilmiş, 14-ü məhkəməyə verilmiş, 456-sı həll olunmamış qalmışdı.

1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumət kabinəsində Aslan bəy Səfikürdski ədliyyə nazirliyi ilə bərabər əmək nazirliyinə də rəhbərlik edirdi. 1919 il dekabrın 24-də yenə də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 5-ci Hökumət kabinəsində Əhməd Cövdət Pepinov əkinçilik nazirliyi ilə bərabər əmək nazirliyinə də başçılıq etdi. Başqa nazirliklər kimi, əmək nazirliyinin də öz fəaliyyətini getdikcə genişləndirdiyi və nizama saldığı bir zamanda, 1920 il aprelin 27-də, Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Cümhuriyyətinin varlığına son qoyuldu.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920;



**ƏMİN ABİD,** Əhmədov Əmin Mütəllibzadə (1898,Bakı - 1938) - folklorşünas-ədəbiyyatşünas alim, şair. Bakıdakı rus gimnaziyasında, 1918-21 illərdə İstanbul müəllimlər seminariyasında (Darülmüəllimin), 1922-26 illərdə İstanbul Universitetinin tarix-filologiya fakültəsində təhsil almışdır. 1926 ilin sonunda Bakıya dönən Omin Abid Türkiyədə tamamladığı "Azərbaycan türklərinin ədəbiyyat tarixi"əsərini xalq maarif komissarı Ruhulla Axundova təhvil vermişdir. 1927 ildən başlayaraq, Əmin Abid müəllimliklə yanaşı, mətbuatda məqalələr dərc etdirmiş, həm də fundamental tədqiqatlar aparmışdır. O, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" nəzdində bayatı külliyyatını hazırlayaraq, nəşriyyata təqdim etmişdir. 1931 ilin nəşriyyat planına Əmin Abidin"Bayatının türk xalqları ədəbiyyatında qədim mövqeyi","Azərbaycan ədəbiyyatının qədim abidələrindən" monoqrafiyaları daxil edilmişdi. Məhəmməd Füzulinin "Söhbətül-əsmar" əsərini elm aləminə ilk dəfə məlum edən də Əmin Abid olmuşdur. Türkiyədə təhsil alarkən Nafiə Şükrü qızılə evlənən Əmin Abid 1931 ildə yenidən Türkiyəyə getmiş və yalnız 1935 ildə qayıtmışdır. Əmin Abid 1938 ildə"millətçi", "pantürkist" adı ilə həbs dilmiş və güllələnmişdir. Əmin Abidin yaradıcılığını 2 qismə bölmək olar: bədii əsərlər və elmi araşdırmalar. Cümhuriyyət dövrünə qədər, əsasən, kiçik şeir və hekayələr yazan Əmin Abid Cümhuriyyət dövründən sonra Türkiyədə "Gültəkin" imzası ilə qələmə aldığı istiqlal şeirləri ilə mühacirətdə mübariz istiqlal poeziyasının əsasını qoymuşdur. Bu şeirlər 1927 ildə "İstiqlal uğrunda" kitabında dərc olunmuşdur. 1949 ildə İstabbulda Mirzəbala Məmmədzadənin müqəddiməsi ilə Əmin Abidin "Buzlu cəhənnəm" kitabı nəşr edilmişdir.

Əmin Abidin elmi araşdırmaları çoxşaxəlidir. O, həm folklor, həm ədəbiyyat tarixi, həm də milli mətbuat tarixi ilə bağlı çoxsaylı tədqiqatlar aparmışdır. "Azəri ədəbiyyatında türkcənin təkamülü" (1923), "Azərbaycan türklərinin ədəbiyyat tarixi" (1922-27), "Heca vəzninin tarixi" (1927), "Azərbaycan sözünün mənşəyi" (1926), "Dərəbəylik dövrü azəri ədəbiyyatı" (1927), "Azərbaycan folkloru" (1929), "XVII əsr Azərbaycan ədəbiyyatı" (1935-37), "Mirzə Şəfi haqqında yapılan tədqiqlərə bir baxış" (1929), "Türk el ədəbiyyatına elmi bir baxış" (1928), "Əşirət dövrü Azərbaycan ədəbiyyatına dair vəsiqələr" (1930), "Türk xalqları ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyətləri" və onlarla digər məqalələri dərc olunmuşdur. Əmin Abid "Kitabi-Dədə Qorqud" dastanının və Orxon-Yenisey abidələrinin Azərbaycanda ilk tədqiq edən araşdırıcıdır. O, Mirzə Şəfi Vazeh və Mirzə Fətəli Axundzadə haqqında tədqiqatlar aparmış, əsərlər yazmışdır.

Əsərləri: Gültəkin, Buzlu cəhənnəm. İstanbul, 1949; Ə.Abid (Gültəkin), Buzlu cəhənnəm, B., 1999.

**ƏMİNOV** Ağakərim Məşədi Kərim oğlu (1888, Bakı -1921, Bakı) - siyasi və dövlət xadimi. Bakı kişi gimnaziyasını (1907), Peterburq Dağ-Mədən Mühəndisləri İnstitutunu (1911) bitirmişdir. Peterburqda azərbaycanlı tələbələrdən ibarət həmyerlilər cəmiyyətinin üzvü olmuşdur. Bakıya qayıtdıqdan sonra Sabunçu-Suraxanı neft mədənlərində mühəndis işləmişdir. 1912 ildə "Müsavat" partiyasına daxil olmuşdur. Rusiyada Fevral inqilabından (1917) sonra siyasi fəaliyyəti genişlənmişdir. Qafqaz müsəlmanları qurultayının (1917, aprel) iştirakçısı olmuş, "Müsavat" partiyasının 1-ci qurultayının (1917, oktyabr) keçirilməsində fəal rol oynamışdır.

Əminov *Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, "Müsavat" partiyasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə seçilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü Hökumət kabinəsində ticarət və sənaye naziri olmuşdur. Əminov iqtisadiyyatda liberallaşma xəttinə təşəbbüs etmiş, bu sahədə bir sıra mühüm tədbirlər görülməsinə nail olmuşdur: neft və neft məhsul-larının mal mübadiləsi aparmadan Azərbaycandan kənara sərbəst çıxarılması haqqında Hökumət qərarı; mal mübadiləsi üzrə komitənin ləğvi haqqında maliyyə-iqtisad komitəsinin qərarı; 1919 ilin sonu üçün xammalın Azərbaycandan kənara ixrac şərtləri haqqında yeni, liberal məzmunlu qanunun qüvvəyə minməsi və s. O, sərbəst ticarət, dövlətin iqtisadi inkişaf prosesinə müdaxiləsinin məhdudlaşdırılması tərəfdarı olmuşdur.

Əminov 1918-19 illərdə "Müsəlman gecələri" tədbirinin əsas təşkilatçılarından idi. O, Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının (1919, may) yaradılmasında da fəal rol oynamışdır. *Aprel işğalından (1920)* sonra "Azərneft" sistemində işləmişdir.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Республика. Документы и материалы, 1918 – 1920 гг., Б., 1998;

**ƏMİRCANOV** Əbdüləli bəy Şirəli bəy oğlu (1870, Şəki- 1948, İstanbul) - ictimai-siyasi xadim, maarifçi. Şəki şəhər məktəbində oxumuş (1876-83), Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş (1888), Şəki şəhər məktəbinə müəllim təyin edilmişdir. 19 əsrin sonunda Lənkəranda müəllim işləmiş, Teymur bəy *Bayraməlibəyovla* birlikdə bir çox mədəni-maarif tədbirlərini həyata keçirmişdir. Əmircanov 20 əsrin əvvəllərindən Bakıda müəllim, dövlət idarələrində və müxtəlif şirkətlərdə mühasib işləmiş, mədəni-maarif cəmiyyətlərinin işində yaxından iştirak etmiş, "Nəşri-maarif" cəmiyyəti təftiş komissiyasının üzvü, Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti sədrinin müavini olmuşdur. Rusiyada Fevral inqilabından (1917) sonra siyasi proseslərə qoşulmuşdur. Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi. 1918 ilin martında bolşevik-daşnakların müsəlman-türk əhalisinə qarşı həyata keçirdiyi soyqırımının qarşısını almağa çalışmışdır.



Əmircanov Azərbaycan Xalq Cümhuriyyətinin 2-ci Hökumət kabinəsində (1918, iyun-oktyabr) maliyyə naziri, dövlət nəzarətçisi (1918, oktyabr-dekabr) olmuşdur. *Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə seçilmişdi (1918, dekabr). Bitərəflər qrupuna daxil olan Əmircanov Parlamentdə maliyyə-büdcə və sorğu komissiyalarının üzvü olmuşdur. O, xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün 1919 ilin ortalarında Bakıda "Dəyanət" şirkətinin təşkilində yaxından iştirak etmişdir. *Aprel işğalından (1920)* sonra İstanbula mühacirət etmiş, orada fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzinin üzvü olmuşdur.

*Əd.:* Азербайджанская Республика. Документы и материалы, 1918 – 1920 гг., Б., 1998; Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920), B., 1990.

**ƏMİRCANOV** Əliyar (?, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1-ci Bakı kişi realnı məktəbini bitirmiş (1915), müsabiqə yolu ilə Moskva Ali Texniki Məktəbinin mexanika şöbəsinə daxil olmuş, 5 semestr orada təhsil almışdır. Rusiyada Oktyabr çevrilişindən (1917) sonra geri qayıtmağa məcbur olmuşdur. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Rusiyaya göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**ƏMİROV** Əsəd bəy (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü olmuşdur. *Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən "İttihad" partiyasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi.

**ƏMİROV** Məşədi Cəmil Əmiraslan oğlu (1875, Şuşa - 1928, Gəncə) - musiqi xadimi, tarzən, bəstəkar. Böyük



Azərbaycan bəstəkarı Fikrət Əmirovun atasıdır. Musiqiçi kimi yetişməsinə məşhur musiqişünas Mir Möhsün Nəvvabın musiqi məclislərinin böyük təsiri olmuşdur. Məşədi Cəmil ilk vaxtlar Şuşa məc-lislərində xanəndə Qaragöz Zülfuqarla çıxış etmiş, sonralar Qarabağ, Şirvan məclislərində həm tarzən, həm də xanəndə kimi tanınmışdır. 1907 ildən Gəncədə yaşamış, məşhur xanəndələrdən Məşədi Məmməd Fərzəliyevi, Malıbəyli Həmidi və başqalarını tarda müşayiət etmişdir. 1910 ildə Riqanın "Qrammofon" şirkətində Əmirovun Azərbaycan musiqiçiləri ilə birgə ifa etdiyi bir sıra muğam və mahnılar qrammofon valına yazılmışdır.

Məşədi Cəmil 1911-13 illərdə İstanbulda musiqi təhsili almış, Avropa və Şərq bəstəkarlarının əsərləri ilə tanış olmuşdur. Türkiyədə milli Azərbaycan musiqisinin qızğın təbliğatçısı kimi çıxış etmiş, çoxlu konsertlər vermiş, "Heyratı" muğamını nota salmış və çap etdirmişdir. 1913 ildə vətənə qayıdan Məşədi Cəmil qədim Şərq musiqi alətləri ud və kanonda da çalmağı öyrənmişdi. Onun kanonda məharətlə çaldığı "Bayatı-Şiraz" muğamı yüksək qiymətləndirilirdi. 1915 ildə Məşədi Cəmil "Seyfəlmülk" operasını bəstələmiş və əsər Sidqi Ruhullanın rejissorluğu ilə Gəncədə tamaşaya qoyulmuşdu. O, teatr sənətinin inkişafında da müəyyən rol oynamış, Şuşada və Gəncədə Üzeyir Hacıbəylinin opera və operettalarında Məcnun, Zeyd, Kərəm, Rza bəy və b. rolları ifa etmiş, teatr orkestrlərinə dirijorluq etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) ölkənin mədəni həyatında, musiqi məclislərində, bayramlarda, xeyriyyə konsertlərində və digər el şənliklərində yaxından iştirak etmişdir. *Aprel* ***işğalından*** *(1920)* sonra Gəncədəki musiqi məktəbinin təşkilatçılarından olan Əmirov 1923 ildən ömrünün sonunadək bu məktəbin direktoru və müəllimi olmuşdur.

*Əd.:*Şuşinski F., Azərbaycanın xalq musiqiçiləri.B., 1970; yenə onun, Народные певцы и музыканты Азербайджана , M., 1979.

*Məşədi Cəmil Əmirovun ansamblı. Gəncə. 1909*



**ƏMİROV** Umbay (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1916 ildən Odessa Universitetində təhsil almış, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb geri qayıtmışdı. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün yenidən həmin universitetə göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**ƏNVƏR PAŞA,** Killigil (1880, İstanbul - 4.8.1922, Tacikistan) – Türkiyənin görkəmli dövlət xadimi, Osmanlı dövlətinin hərbi naziri; 1918 ildə erməni-daşnakların soyqırımına məruz qalmış Azərbaycan xalqına hərbi yardım göstərilməsinin əsas təşkilatçılarından biri. Birinci dünya müharibəsində (1914-18) Böyük dövlətlərin Osmanlı imperiyasını bölüşdürmək siyasətini həyata keçirməkdə olduğu mürəkkəb tarixi şəraitdə Böyük Turan imperatorluğu yaratmaq ideyasını irəli sürmüş və əqidəsi yolunda şəhid düşmüşdür. İstanbulda hərbi təhsil almışdır. 1903 ildə kapitan, 1907 ildə mayor, 1913 ildə qaymaqam, 1914 ildə polkovnik, elə həmin ildə - 34 yaşında ikən general-mayor, 1916 ildə isə general-leytenant rütbəsi almışdı. Osmanlı ordusunun Baş qərargah rəisi (1914), Osmanlı ordusu Baş komandanının müavini (1915), Osmanlı sultanının xüsusi yavəri (1916), hərbi nazir (1917) və Baş komandan müavini təyin edilmişdi. "İttihad və tərəqqi" partiyasının liderlərindən biri, türk xalqlarının mənəvi-siyasi birliyi ideyasının - turançılığın fəal tərəfdarlarından idi. Fevral inqilabı (1917) nəticəsində Romanovlar mütləqiyyətinin devrilməsindən sonra Rusiya ərazisindəki türk xalqlarının milli azadlıq hərəkatının güclənməsi Ənvər paşada turançılıq ideyalarının reallaşmasına ümidi artırdı. Rusiyanın türk-müsəlman xalqlarının, o cümlədən, Azərbaycan xalqının həyatında baş verən ictimai-siyasi prosesləri yaxından izləyirdi. 1917 ilin sonlarında Qafqaz cəbhəsində və Cənubi Qafqazdakı hadisələr haqqında aldığı məlumatlardan sonra Ənvər paşada Rusiyanın müsəlman xalqlarına, o cümlədən, Azərbaycan türklərinə konkret hərbi-siyasi kömək göstərmək meyli gücləndi. Ənvər paşa ilk vaxtlar qardaşı *Nuru paşanın* rəhbərliyi ilə Tehranda xüsusi bir qurum yaratmaq və həmin qurum vasitəsilə Azərbaycan, Dağıstan, Türküstan və hətta Əfqanıstanda cərəyan edən proseslərə fəal təsir göstərmək niyyətində idi.



Ənvər paşa, ataları Hacı Əhməd bəy və Nuru paşa

Bu planı bütünlüklə reallaşdıra bilməsə də, *Qafqaz İslam Ordusunun* yaradılması ilə Azərbaycan və Dağıstandakı milli azadlıq hərəkatını dəstəkləməyə müvəffəq oldu. Ənvər paşa Qafqaz İslam Ordusu adı altında türk zabitlərinin rəhbərliyi və iştirakı ilə Azərbaycanda üç piyada diviziyadan ibarət hərbi korpus yaradılmasını planlaşdırırdı. 1918 ilin əvvəllərində Nağı *Şeyxzamanlının* başçılığı altında Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə görüşdükdən sonra Ənvər paşa, qəti olaraq, Azərbaycan türklərinə hərbi yardım göstərmək qərarına gəldi. Həmin qərarın uğurla həyata keçirilməsinə, Azərbaycan türklərinin böyük ümid bəslədiyi hərbi yardımın vaxtında və yetərincə çatdırılmasına qətiyyətlə girişən Ənvər paşa bu mühüm və çətin vəzifəni yerinə yetirəcək zabitlərin seçilməsinə də xüsusi diqqət yetirirdi. Qəbul olunmuş qərara əsasən, Azərbaycana göndəriləcək zabitlərin rütbəsi bir pillə artırılmalı və onlara ikiqat əmək haqqı verilməli idi.

Ənvər paşa Qafqaz İslam Ordusuna kimin başçılıq edəcəyinə də böyük əhəmiyyət verirdi. Bu vəzifəyə başqa namizədlərin də olmasına baxmayaraq, Ənvər paşa Qafqaz İslam Ordusu komandanı vəzifəsini qardaşı Nuru paşaya etibar etmişdi. Qafqaz İslam Ordusunun struktur baxımından tabe olduğu Şərq ordular qrupunun komandanı vəzifəsinə isə Ənvər paşanın yaxın qohumu Xəlil paşa təyin edildi. Bununla o, Azərbaycan türklərinə hərbi yardım göstərilməsini özünün daha çox etibar etdiyi yaxın qohumlarına həvalə etdi. 1918 il aprelin 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkil olunması vəonun qarşısında duran vəzifələrə dair təlimnaməni təsdiqlədi. Bu təlimnamədə Qafqaz İslam Ordusunun təşkili prinsipləri və onun qarşısında duran vəzifələr konkret olaraq müəyyənləşdirilirdi.

Nuru paşa Gəncəyə yetişdikdən sonra aydın oldu ki, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş Bakı Soveti qoşunlarının artıq Gəncə istiqamətində başladıqları hücum əməliyyatının qarşısını almaq üçün yerli qüvvələrdən qısa müddətdə güclü ordu yaratmaq mümkün olmayacaqdır. Odur ki, Nuru paşa Türkiyə rəhbərliyi, o cümlədən Ənvər paşa qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırdı. 1918 il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Ənvər paşa Azərbaycana hərbi qüvvələr göndərilməsinə dair göstəriş verdi.

Türk hərbi qüvvələri və Azərbaycan milli qoşun hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun təchizatını, fəaliyyətini daim nəzarət altında saxlayan Ənvər paşa Azərbaycana hərbi yardım göstərilməsinin dayandırılmasını tələb edən Almaniyanın ciddi təzyiqi ilə üzləşdi. Osmanlı dövlətinin müttəfiqi olan Almaniya Türkiyənin Azərbaycana hərbi yardım göstərməsinə qəti etirazını bildirdi. 1918 il iyulun sonu - avqustun əvvəllərində Almaniya hərbçiləri Qafqaz İslam Ordusu hissələrinin Bakıya doğru irəliləməsinin və Bakı neftinin Osmanlı hökumətinin nəzarəti altına keçməsinin qarşısını almaq üçün Ənvər paşa qarşısında sərt tələblər qoydular. Almaniyanın tələbinə görə, türk hərbi hissələri Bakıya doğru hücumu dayandırmalı və geri çəkilməli idi. Əks təqdirdə, türk ordusunda xidmət edən alman zabitləri geri çağırılmalı və Almaniya türk hərbi hissələrinin Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün konkret tədbirlər həyata keçirilməli idi. Odur ki, Ənvər paşa türk ordusunda kifayət qədər yüksək vəzifələrdə olan alman zabitlərinin diqqətini Bakını azad etmək əməliyyatından yayındırmaq üçün, rəsmi olaraq, 1918 il avqustun 4-də 3-cü ordu komandanına göndərdiyi məktubunda yazırdı: ***"Nuru paşaya çatdırılması lazımdır: əmri qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən düçari-təərrüz (hücum) olmayacaqdır. Bundan başqa hansı çətə (silahlı dəstə) olursa-olsun və haradan gəlirsə-gəlsinlər Bakıya qarşı heç kimsənin irəliləməməsi haqda təkmili-nüfuzunuzu istemal etməlisiniz...".*** Bununla alman hərbçilərini duyuq düşməyə qoymayan Ənvər paşa, eyni zamanda, Nuru paşanın yanına şəxsi nümayəndəsini göndərib tələb etdi ki, rəsmi məktublara fikir verməsin və Bakının azad olunmasını tezliklə başa çatdırsın. Bundan əlavə, Ənvər paşa Bakının azad olunması əməliyyatını qələbə ilə başa çatdırmaq üçün 15-ci türk diviziyasının da Azərbaycana göndərilməsinə nail oldu.

Ənvər paşanın Bakının azad edilməsinə nə qədər böyük önəm verdiyi onun Nuru paşaya göndərdiyi teleqramdan da aydın görünür: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Bakı azad edildikdən sonra Ənvər paşa onun mühafizəsinin gücləndirilməsinə də xüsusi əhəmiyyət verirdi. 1918 il oktyabrın 1-də Nuru paşaya məktubunda o, Bakının dənizdən mühafizəsinin gücləndirilməsini tələb etdi. Bu məsələnin həlli və bütünlükdə Azərbaycan milli hərbi qüvvələrinin möhkəmləndirilməsi üçün, Ənvər paşanın əmri ilə, 1918 il oktyabrın əvvəllərində Azərbaycana çoxlu silah və sursat göndərildi. Türk hərbi qüvvələri Azərbaycanı tərk etməyə məcbur olduqda, Osmanlı dövlətinin Qafqaz siyasətinin əsas təşəbbüsçülərindən biri olan Ənvər paşa Nuru paşanın diqqətini Azərbaycanın müstəqilliyinin qorunma-




*Ənvər paşanın məzarı. İstanbul*

sına və möhkəmləndirilməsinə yönəltməyə çalışırdı. O, 1918 il oktyabrın 15-də Nuru paşaya ünvanladığı məktubunda yazırdı: ***"Düşmənlərlə...sülh yapmaq məcburiyyətinə girdim. ...Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür".***

Birinci dünya müharibəsinin nəticələrinə əsasən, Osmanlı hökuməti istefa vermək məcburiyyətində qaldıqda, Ənvər paşa Azərbaycana gəlmək və ölkənin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət göstərmək niyyətində idi. O, 1918 il oktyabrın 23-də Xəlil paşaya göndərdiyi məktubda yazırdı: ***"Ümumi vəziyyətin sülhə getməmizi icab etdiyini yazmışdım. Bu vəziyyətdə Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla, oranın təşkilatının ikmalı üçün adam, silah, cəbbəxana ilə həmən yardım edilsin. Buradan ora 700 min lirə göndəririm. ...Başladığımız hərbi iyi bitirmədiyimiz üçün çəkilmək üzrəyiz. Mən işsiz indi sıxılacağımdan bəlkə Azərbaycana indilik səyahət üçün, bilaxərə də orada bir həyat əsəri görərsəm, büsbütün qalmaq üçün hərəkəti düşünürəm ".***

Müttəfiqlər tərəfindən məğlub edilmiş Osmanlı dövləti üçün təslim aktı olan *Mudros barışığı (1918)* imzalanandan sonra Ənvər paşanın həyatına təhlükə yarandı. Belə olduqda o, 1918 il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmək məcburiyyətində qaldı. Alman gəmisi ilə Krıma gələn Ənvər paşa Şimali Qafqazda hərbi şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilmədi və Moskvaya getdi. Ənvər paşa burada "İslam ihtilal cəmiyyətləri ittihadı"nı yaratdı. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəldi və 1920 il sentyabrın 1 - 7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etdi. Qurultayda iştirak edən türk kommunistlərinin tələbi ilə onun çıxışına imkan verilmədikdə, Zinovyevin təklifi ilə Ənvər paşanın çıxışının mətni bolşevik Ostrovski tərəfindən oxundu.

Lakin bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu anlayan Ənvər paşa 1922 ildə yenidən Bakıya gəldi və buradan Türküstana keçdi. Türküstanda sovet-bolşevik işğalçılarına qarşı azadlıq mübarizəsinə qoşuldu. Ənvər paşa 1922 il avqustun 4-də indiki Tacikistan ərazisində, Abi-Dərya çayı kənarında bolşevik qüvvələrinə qarşı döyüşdə şəhid oldu. 20 əsrin 90-cı illərində onun cənazəsinin qalıqları İstanbula gətirilərək burada torpağa tapşırıldı.

*Əd.:* Şeyxzamanlı N., Azərbaycan istiqlal mücadiləsi xatirələri, B., 1997; Süleymanov M., Nuru paşa, B., 1999; Aydemir Ş.S., Makedoniyadan Ortaasiyaya Enver paşa, c.3, İstanbul, 1993; Kantemir F., Enver paşanın son günleri, İstanbul, 1943.

**ƏRƏB ƏLİFBASININ İSLAH OLUNMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ərəb əlifbasının islah olunmasını həyata keçirmək məqsədilə qəbul etdiyi sənəd (bax *Əlifba islahatı komissiyası).*


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
ƏRƏŞ QƏZASI
Miqyas 1: 540 000
ZAQATALA MAHALI
NUXA QƏZASI
GƏNCƏ QƏZASI
CAVANŞİR QƏZASI
GÖYÇAY QƏZASI
Yevlax
Üçqovaq
(Ağdaş)
Kür


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
CƏBRAYIL QƏZASI
Miqyas 1: 500 000
SUSA QƏZASI
ZƏNGƏZUR QƏZASI
CAVAD QƏZASI
İRAN
Cəbrayıl



**ƏRƏBLİNSKİ,** Xələfov Hüseyn (Hüseynbala) Məmməd oğlu (1881, Bakı - 17.3.1919, Bakı) - Azərbaycanın aktyoru və rejissoru. Azərbaycan peşəkar teatr sənətinin banilərindən biri. Mollaxanada, rus-müsəlman (Azərbaycan) məktəbində oxumuşdur. İlk dəfə səhnəyə 1897 ildə Cahangir Zeynalovun hazırladığı "Lənkəran xanının vəziri" (M.F.Axundzadə) komediyasında mehtər Kərim rolunda çıxmışdır. 1905 ildə "Müsəlman Artistləri Cəmiyyəti"nin Lənkəran qastrolu zamanı oynadığı Fəxrəddin ("Müsibəti-Fəxrəddin", N.B.Vəzirov) obrazı ona şöhrət qazandırmışdı. Ərəblinski 1906-13 illərdə "Nicat" cəmiyyəti nəzdindəki teatr truppasının, sonralar "Səfa" cəmiyyətinin, 1918 ildən isə Zülfüqar və Üzeyir Hacıbəyli qardaşlarının teatr truppasının aktyoru və rejissoru (1918 ildən baş rejissor) olmuşdur. Ərəblinski teatr həvəskarları dərnəklərinə də rəhbərlik etmişdir.

Azərbaycan teatrının təşəkkülündə, repertuara Azərbaycan tarixi və milli müstəqillik uğrunda hərəkatla bağlı səhnə əsərlərinin daxil edilməsində, aktyorların peşəkarlıq səviyyəsinin artmasında və püxtələşməsində Ərəblinskinin böyük xidməti olmuşdur. Yaradıcılığında milli teatr ənənələri ilə müasir teatr mədəniyyəti üzvi surətdə birləşmişdi. Ərəblinski müxtəlif janrlı əsərlərdə inandırıcı və parlaq obrazlar yaratmışdır. Lakin onun aktyor təbiətinə faciəvilik və romantik pafos daha yaxın olmuşdur. O, Əhmədbəy Şamxal ("Qəzavat", S.Lanskoy), Gavə ("Dəmirçi Gavə", Ş.Sami), Fərhad, Qacar, Nəcəf bəy ("Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", "Dağılan tifaq" Ə.Haqverdiyev), Frans Moor ("Qaçaqlar", F.Şiller), Nadir şah ("Nadir şah", N.Nərimanov) kimi faciəvi rolları yüksək sənətkarlıqla ifa etmişdir. 1910 ildə yaratdığı Otello ("Otello", U.Şekspir) obrazı Ərəblinski yaradıcılığının zirvəsi sayılır. Obrazın daxili aləmini dərindən duymaq və açmaq, əsərin səciyyəvi xüsusiyyətlərini incəliklə verə bilmək qabiliyyəti Ərəblinski sənətinin əsas məziyyətlərindən olmuşdur. Ərəblinski Azərbaycan teatrı tarixində ilk peşəkar rejissor olmuşdur. O, ədəbi-dramaturji materialın ifaçılar tərəfindən düzgün dərk edilməsinə və tamaşada vahid ansambl yaradılmasına nail olmuşdur: "Müfəttiş", "Evlənmə" (1906, 1910, N.Qoqol), "Nadir şah" (1906, N.Nərimanov), "Qaçaqlar" (1907, F.Şiller), "Dəmirçi Gavə" (1908, Ş.Sami), "Otello" (1910, U.Şekspir) və s. Ərəblinski musiqili teatr səhnəsində də fəaliyyət göstərmiş, "Leyli və Məcnun" (1908; operanın ilk quruluşçu rejissoru), "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Şah Abbas və Xurşid banu" (hamısı 1912, Ü.Hacıbəyli), "Aşıq Qərib", "Evliykən subay", "Əlli yaşında cavan" (hamısı 1918, Z.Hacıbəyli) və s. əsərləri tamaşaya qoymuşdur. Azərbaycanda peşəkar səhnə ustalarının yetişməsində Ərəblinskinin böyük xidməti var. O, Azərbaycan dramaturgiyası və teatrının fəal təbliğçisi olmuş, Cənubi

*Xalq Hüseyn Ərəblinskini son mənzilə yola salır. Bakı. 1919*



Qafqaz, Şimali Qafqaz, Volqaboyu, Orta Asiya və Krıma qastrol səfərləri etmişdir. "Neft və milyonlar səltənətində" (1916) adlı ilk Azərbaycan bədii filmində baş rolda (Lütfəli bəy) çəkilmişdir.

Xaincəsinə qətlə yetirilmişdir. Ərəblinski ilə uzun müddət dost olan Ü.Hacıbəyli onun ölümünü "əvəzolunmaz itki" adlandırmış, qatilin ciddi cəzalandırılmasını tələb etmişdi. Məhəmməd Əmin Rəsulzadə matəm mərasimində çıxış edərək, Azərbaycan səhnə sənətinin inkişafında və çiçəklənməsində, azadlıq və istiqlal ideallarının xalqa aşılanmasında Ərəblinskinin böyük xidmətlərini qeyd etmiş, mədəniyyət xadimlərinin fəaliyyəti sayəsində Azərbaycanın müstəqilliyi ideyasının gerçəkləşdiyini göstərmişdir.

Sumqayıt Dövlət Dram Teatrına, Bakı küçələrindən birinə Ərəblinskinin adı verilmişdir. Sabit Rəhmanın "Son faciə" povesti Ərəblinskiyə həsr olunmuşdur.

*Əd.:* Hüseyn Ərəblinski, B., 1949; Hüseyn Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi, B., 1967; Cəfərov C, Əsərləri, c.2, B., 1968; yenə onun, Azərbaycan teatrı, B., 1974; Məmmədov M, Hüseyn Ərəblinski, B., 1973; Алиева А., Азербайджанский театр за 100 лет, Б, 1974.

**ƏRƏŞ QƏZASI** - Gəncə quberniyasında inzibati vahid. 1873 ildə yaradılmışdı. Ərazisi 2308,10 kv.verst idi. Qafqaz təqviminin (1917) məlumatına görə qəzada 99400 nəfər əhali yaşayırdı; onların 53144 nəfəri (53,46%) kişi, 46256 nəfəri (46,54%) qadın idi. Qəza idarə sistemi fəaliyyət göstərirdi. Əhali, əsasən, kənd təsərrüfatında çalışırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il avqustun 26-da Ərəş qəzasının Ağdaş yaşayış məntəqəsinə şəhər statusu vermiş, daxili işlər nazirinə şəhərin ərazisi və burada tətbiq ediləcək özünüidarənin forması haqqında xüsusi məruzə təqdim olunmasını tapşırmışdı. Bununla əlaqədar olaraq, 1919 il dekabrın 10-da Hökumətin qərarı ilə Ərəş qəzası Ağdaş qəzası adlandırılmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra qəzanın adının necə işlədilməsində fikir aydınlığı olmamışdır. Azərbaycan Mərkəzi Statistika İdarəsi tərəfindən 1922 ildə nəşr olunan Azərbaycanın yaşayış məskənlərinin siyahısında qəzanın adı Ağdaş (keçmiş Ərəş), 1921 il kənd təsərrüfatı siyahıya almasının 15-ci buraxılışında isə, sadəcə olaraq, "Ərəş" kimi verilmişdir. 1929 ildə Azərbaycan Sovet Sosialist Respublikasının rayonlaşdırılması zamanı ləğv edilərək, Ağdaş rayonu təşkil olunmuşdur.

*Əd:.* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**ƏRZİNCAN BARIŞIĞI (1917)** - hərbi əməliyyatların dayandırılması haqqında Türkiyə hökuməti ilə Zaqafqaziya Komissarlığı (ZK) nümayəndələri arasında dekabrın 5 (18)-də Türkiyənin Ərzincan şəhərində imzalanmış saziş. Barışığın şərtlərinə görə, onun maddələri sülh müqaviləsi bağlanana qədər tərəflərin hər biri üçün məcburi idi. Sazişi pozan tərəflərdən biri hərbi əməliyyata başlamasını 14 gün əvvəldən bildirməli idi, əks halda, barışıq ümumi sülh müqaviləsi bağlananadək qüvvədə qalmalıydı. Döyüşən tərəflər arasında elə həmin gün demarkasiya xətti müəyyən edilməli, tərəflər öz ordularının strateji yerdəyişməsinə yol verməməli və xüsusən, türk ordusu Qafqaz cəbhəsindən Mesopotamiyaya aparılmalı idi. Qeyd edilirdi ki, Rusiya ilə Mərkəz dövlətləri arasında ümumi barışıq sazişi imzalanacağı halda, onun maddələri Qafqaz cəbhəsi üçün də məcburi olmalıdır. Ərzincan barışığına əsasən Qara dənizdə vuruşan ölkələrin hərb gəmiləri arasında hərbi əməliyyatlar da dayandırılırdı. Osmanlı Baş komandanlığı Ərzincan barışığını Sovet Rusiyası ilə deyil, Zaqafqaziya Komissarlığı ilə imzalamaqla, dolayısı ilə onu Zaqafqaziya hökuməti kimi tanımış olurdu. Ərzincan barışığından sonra Rusiya üçün Qafqaz cəbhəsi dağıldı, rus qoşunları işğal altında saxladıqları Şərqi Anadolu torpaqlarını tərk edərək, geri çəkilməyə başladı. Rusiya qoşunları geri çəkilərkən silahlarının xeyli hissəsini Azərbaycan və Anadolu türklərinə qarşı soyqırımı həyata keçirən erməni-daşnak quldur dəstələrinə verdilər.

*Əd.:* Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998.

**ƏSƏDULLAYEV** Mirzə Şəmsi oğlu (1875, Bakı - 1936, Paris) - sahibkar, ictimai xadim. Azərbaycanın neft sənayeçisi Şəmsi Əsədullayevin (1840-1913) oğlu. Gimnaziyə təhsili aldıqdan sonra atasının neft şirkətində əmək fəaliyyətinə başlamışdır. Məşhur sahibkar Musa Nağıyevin qızı Ümmülbanu ilə evlənmişdir. Şirkətin işi ilə bağlı müəyyən vaxtlarda Rusiyanın Peterburq, Moskva şəhərlərində yaşadığından, rus təhsili gördüyündən Azərbaycan dilini mükəmməl bilməyən Əsədullayev 1912 ildə Moskva

*Yazıçı Ümmülbanu Mirzə qızı Əsədullayeva*



Konservatoriyası nəzdində xüsusi musiqi kurslarının dinləyicisi olan Üzeyir Hacıbəylidən ana dili dərsi almışdır. "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin sədri olmuş, mədəni-maarif tədbirlərinə maddi dəstək vermişdir. 1915 il martın 11 -də "Qardaş köməyi" adlı qəzet buraxmağa başlamışdır (cəmi 1 sayı çıxmışdır). Əsədullayev Fevral inqilabından (1917) sonra 1917 ilin martında Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1918 ildən Bakı neft sənayeçiləri qurultayı şurasının sədri olmuşdur. Əsədullayev *Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, neft sənayeçiləri qurultayı şurasından Cümhuriyyət Parlamentinə seçilmişdir. "Müsavat" və bitərəflər fraksiyasına daxil idi. 3-cü Hökumət kabinəsində ticarət və sənaye naziri vəzifəsini icra etmiş (1918, dekabr - 1919, mart), Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına və yerli sənayenin inkişaf etdirilməsinə ciddi səy göstərmişdir. 1920 ilin mayında həbs olunmuş, qısa müddətdən sonra azad edilmiş, hökumətdən rəsmi icazə alaraq xaricə getmiş, ömrünün sonuna kimi Parisdə yaşamışdır. Qəbri şəhərin müsəlman qəbiristanlığındadır. Qızı Ümmülbanu Avropada tanınmış yazıçı (B a n i n) olmuşdur.

*Əd.:* Əliyev M., Əsədullayev M., "Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920)" kitabında, B., 1990.

**ƏSƏDULLAYEV ŞƏMSİ** (1841, Bakı yaxınlığındakı Əmircan k. - 21.4.1913, Bakı) - iri sahibkar, neft sənayeçisi, ictimai xadim. 1874 ildə cüzi kapitalla neft çıxaran və emal edən kiçik müəssisə (kontor) açmış, həmin kontoru sonralar iri "Şəmsi Əsədullayev və K°" şirkətinə çevirmişdi (1893). Əsədullayevin Bakıda bir neçə neftayırma zavodu, mexaniki emalatxanası, Suraxanı, Sabunçu və Ramanada 37 buruğu, Xəzər dənizində neft və məhsulları daşıyan gəmiləri vardı. Xeyriyyəçilik fəaliyyəti də göstərmiş, "Nəşri-maarif" cəmiyyətinin fəal üzvü olmuşdur.



Əsədullayev 1903 ildə Moskvaya köçmüş, Peterburqda və Moskvada bir neçə yerdə mülk tikdirmiş, xeyriyyə işləri ilə məşğul olmuş, yoxsul uşaqlar üçün məktəb açdırmışdı. Moskvada Kiçik Tatar döngəsində tikdirdiyi evi o zaman təzə yaradılmış Tatar Mədəniyyət Cəmiyyətinə bağışlamışdır. Bu binada tatar məktəbi, kitabxanası, konsert salonu və yetimlər üçün uşaq evi fəaliyyət göstərmişdir.

Ümumrusiya müsəlmanlarının Nijni-Novqorodda keçirilmiş 1-ci qurultayında (1905, avqust) iştirak etmişdir. O, 1913 ildə Romanovlar xanədanının 300 illiyi ilə əlaqədar Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etmişdi.

Ümumrusiya müsəlmanlarının qurultayı (1917, may) Əsədullayevin Moskvadakı müsəlmanlara bağışladığı binada keçirilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqda "Şəmsi Əsədullayev" firmasının mülkiyyəti milliləşdirilmişdir.

**ƏSGƏRAN DÖYÜŞÜ** - Azərbaycan ordusu hissələrinin 1920 ilin mart-aprelində erməni qoşunlarına qarşı apardığı hərbi əməliyyatın tərkib hissəsi. Bu məntəqə hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edirdi. Onun nəzarətə alınması Qarabağda hərbi təşəbbüsün əldə saxlanması üçün başlıca amil idi. Buna görə də 1920 il martın 21-də, Novruz bayramı gecəsi erməni-daşnak qüvvələri Qarabağın bir sıra məntəqələri ilə bərabər, Əsgərandakı Cümhuriyyət ordusu postlarının üzərinə hücuma keçmiş və bu postlarda dayanan azsaylı qüvvələri məhv etmişdi. Bununla da, Əsgəran keçidi bağlanmış, Xankəndidə və Şuşada yerləşən hərbi qarnizon çətin vəziyyətə düşmüşdü. Qarabağın Azərbaycandan qoparılmasına yol verməmək, bölgədəki erməni-daşnak silahlı qüvvələrinə güclü zərbə endirmək üçün, ilk növbədə, Əsgəran keçidini açmaq lazım idi. Ona görə də Qarabağ əməliyyatına rəhbərlik etmək üçün 1920 il martın 26-da Ağdama gəlmiş general-mayor Həbib bəy Səlimov əvvəlcə Əsgəran yolunun kəşfiyyatını apardı. Erməni qüvvələrinin müqavimətini qırmaq üçün H.Səlimov hərbi nazirdən Ağdama bir zirehli avtomobil göndərilməsini xahiş etdi. Müəyyən hazırlıq işləri görüldükdən sonra martın 29-da Azərbaycan qoşun hissələrinin Əsgəran üzərinə ilk hücumu başlandı. Döyüşdə 5-ci Bakı piyada alayının bölmələri, Parlament mühafizə dəstəsi və partizan dəstələri iştirak edirdilər. Süvari qüvvələrə isə 1-ci Azərbaycan süvari alayının bölmələri cəlb olunmuşdu. Döyüşün gedişində Xramord kəndi, Daşbaşı yüksəkliyi, Fərrux kəndi ələ keçirildi və qüvvələr Xanabad kəndinə xeyli yaxılaşdılar. Döyüş planına əsasən, qüvvələr bu mövqelərdə dayanıb möhkəmlənməli olduqları halda, daha irəliyə getməyə can atırdılar. Nəticədə, Əsgərandan əlavə kömək alan erməni-daşnak dəstələri Azərbaycan qüvvələrinin qarşısını saxlayıb, hətta geri çəkilməyə məcbur etdilər. Bununla da ilk hücumda Əsgəranı azad etmək mümkün olmadı.

Döyüşün aparılmasında partizanlara deyil, nizami hərbi hissələrə daha böyük yer verilməsi üçün Zaqatala piyada alayının, 7-ci Şirvan alayının, 1-ci Azərbaycan süvari alayının, bir dağ topçu batareyasının Ağdama gətirilməsi qərara alındı. Bu qüvvələrin Ağdama yetişməsi ilə Əsgəran üzərinə növbəti hücum təşkil edildi. Hücum 1920 il aprelin 3-də başladı. Dəqiq planlaşdırılan döyüş Azərbaycan ordusu hissələrinin qələbəsi ilə nəticələndi. İlk hücumdakı marşrut üzrə irəliləyən Azərbaycan qüvvələri daşnakların bütün müqavimətini qıraraq, əvvəlcə Əsgəranı, sonra isə Xocalını erməni silahlı dəstələrindən təmizlədi. Azərbaycanın qoşun bölmələri gün ərzində Ağdam-Əsgəran yolunun kənarında yerləşən Kətik, Aranzəmin və Naxçıvanik kimi möhkəmləndirilmiş məntəqələri erməni silahh dəstələrindən azad etdilər. Əsgəran döyüşünün uğurla başa çatması Azərbaycan ordusu hissələrinin tezliklə Şuşaya daxil olmasına zəmin yaratdı.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**ƏSGƏRİ MÜKƏLLƏFİYYƏT HAQQINDA MÜVƏQQƏTİ QANUN** - Azərbaycan Xalq Cümhuriyyətində orduya çağırış və hərbi səfərbərlik işini tənzimləyən hüquqi sənəd. Azərbaycan Hökuməti tərəfindən 1918 il oktyabrın 11-də qəbul edilmişdir. Azərbaycan Hökumətinin hərbi qanunvericilik sahəsində qəbul etdiyi ilk mühüm sənədlərdən biri idi. Həmin qanuna görə 17 yaşına çatmış hər bir gənc hərbi mükəlləfiyyətli hesab edilirdi. 18 və 19 yaşlarında olanlar xidmətqabağı 2-ci dərəcəli ehtiyatda sayılırdılar. Bu gənclər yalnız müharibə vaxtı xidmətə cəlb olunurdular. 20 yaşlı gənclər zərurətdən asılı olaraq ya tam, ya da qismən xidmətə çağırılırdılar. Hərbi xidmət müddəti piyada və nəqliyyat qoşunlarında 2 il, digər qoşun növlərində isə 3 il idi. Hərbi xidməti başa vurduqdan sonra keçmiş əsgərlərin 1-ci dərəcəli ehtiyatda xidməti piyadalar üçün 40 yaşına, digər qoşun növlərində olanlar üçün isə 38 yaşınadək davam edirdi.

Müvəqqəti qanunun böyük hissəsi çağırışdan möhlətə və güzəştlərə həsr edilmişdi. Ailə vəziyyətinə, səhhətinə, tutduğu vəzifələrə görə kimlərə möhlət və güzəştlər verildiyi konkret göstərilirdi. Çağırışa Əxzi-əsgər idarəsi rəhbərlik bu qanunun yerlərdə izahı və təbliğ olunması, xidmət yaşı çatanların toplanılaraq qəza əsgər idarələrinə göndərilməsi, əsgərlikdən yayınanların və fərarilərin axtarılıb tapılması qəza qayməqamlarına (rəislərinə) həvalə olunurdu. Müvəqqəti qanuna əsasən Əxzi-əsgər şöbələrinin nəzdində həkim-müayinə komissiyaları yaradılmışdı. Çağırışçıların qoşun növləri üzrə bölüşdürülməsi həkim komissiyasının qərarına əsasən həyata keçirilirdi.

Türk hərbi qüvvələrinin Azərbaycanda olduğu vaxt qəbul edilmiş bir sıra hüquqi sənədlər, o cümlədən Müvəqqəti qanun natamam və yerli şəraitə uyğun olmadığı üçün hərbi nazir Səməd bəy Mehmandarovun 1919 il 5 fevral tarixli əmri ilə ləğv edildi. Azərbaycan Hökuməti tərəfindən yeni qanun layihəsi hazırlanana qədər çağırış işi çar Rusiyası dövründə qəbul edilmiş hüquqi sənədlər əsasında tənzimlənirdi.

*Əd:* Bax *Əsgəran döyüşü* məqaləsinin ədəbiyyatına.

**"ƏŞ-ŞƏMS"** ("Günəş") - eserlərin (sosialist-inqilabçıların) milli tələbə gənclər qrupu. 1906 ildə Bakı eseri S.Rayetskinin təşəbbüsü ilə yaradılmışdı. Əsasən, azərbaycanlı tələbələr və yuxarı sinif şagirdlərindən ibarət idi. 1905-07 illər inqilabı dövründə vərəqələr buraxmaqla, erməni-müsəlman qarşıdurmasına son qoymaq, mövcud hakimiyyətə qarşı çıxışları gücləndirmək və Ümumrusiya tətillərinə qoşulmaq çağırışları ilə çıxış edirdi. Təşkilat üzvlərinin azsaylı olması onun fəaliyyət dairəsini məhdudlaşdırırdı. Birinci Rusiya inqilabından sonra "Əş-Şəms" barədə sənədlərə rast gəlinmir.

*Əd:*. Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века, Б., 1997;



**ƏŞRƏFOV** İsrafil İsmayıl oğlu (30.5.1900, Bakı - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kommersiya məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**ƏZİMZADƏ** Əzim Aslan oğlu (7.5.1880, Bakı yaxınlığındakı Novxanı k. - 15.6.1943, Bakı) - xalq rəssamı, pedaqoq. Azərbaycan realist qrafika sənətinin banisi. Satirik qrafika, illüstrasiya, siyasi plakat, tarixi və məişət janrlarında, həmçinin teatr-dekorasiya sənəti sahəsində fəaliyyət göstərmişdir. İlk təhsilini mollaxanada (1888-91) və "Rus-müsəlman" məktəbində (1891-94) almışdır. Kiyev şəhərində rəssamlıq məktəbində oxumuşdur. Uşaq yaşlarından rəsm çəkməyə maraq göstərmiş, "İrşad"ın müştərisi" adlı ilk karikaturası "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur. 1906 ildən "Molla Nəsrəddin" jurnalında satirik rəsmləri və siyasi karikaturaları ("Millət dərdi çəkməkdən əriyib çöpə dönmüş müsəlman dövlətlisi", "Cənab Vitte" və s.) ilə çıxış edən Əzim Əzimzadə "Hümmət" təşkilatının, *"Nicat", "Nəşri-maarif"* cəmiyyətlərinin mədəni-maarif tədbirlərinin fəal iştirakçısı olmuşdur. Rusiyaya və Şərq ölkələrinə səyahətdən (1910-cu illər) sonra bir müddət müəllimlik etmiş, Bakıda çıxan satirik jurnallar ("Zənbur", "Kəlniyyət", "Baraban, "Məzəli", "Tuti", "Babayi-Əmir") üçün karikatura və yumoristik rəsmlər çəkmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) "türk məktəbi" adlandırılan köhnə "rus-müsəlman" məktəblərində rəsm müəllimi işləmişdir. 1919 ildə "Türk nəşriyyat cəmiyyəti" tərəfindən nəşr edilən "Zənbur" jurnalında əməkdaşlıq etmiş, siyasi-ictimai mövzularda 100-dən artıq karikatura dərc etdirmişdir. Bu dövrdə Əzim Əzimzadə yaradıcılığında milli istiqlal mövzusu mühüm yer tutmuşdur. Rəssamın dövri mətbuat səhifələrində zamanın ictimai-siyasi problemləri ilə səsləşən karikaturaları çap olunurdu. Azərbaycana axışıb gələn xarici müdaxiləçilər əleyhinə yönəlmiş karikaturalarından birində silahlı Denikini, Kolçak və cəllad Androniki ciblərində gəzdirən ingilis qəsbkarları təsvir olunur. O, rəsmlərində vətən və xalq təəssübkeşliyini ön plana çəkmiş, cəhaləti, nadanlığı, milli ədavəti, erməni millətçilərinin-daşnakların vəhşi və iyrənc əməllərini ifşa etmişdir.

Əzim Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda xalq yaradıcılığına xas olan



Əzim Əzimzadə: *"Varlı evində toy", 1930; "Kasıb evində toy", 1931. Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı.*



yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstündür. O, tənqid hədəflərini gah öldürücü satira, gah kəsərli yumor, gah yumşaq kinayə atəşinə tuturdu. Mirzə Ələkbər Sabirin "Hophopnamə"sinə illüstrasiyalar çəkmiş, teatr tamaşalarına tərtibat

və geyim eskizləri vermişdir (Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları; Z.Hac-bəylinin "Aşıq Qərib" operası və s.).

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Əzim Əzimzadə Azərbaycan Xalq Maarif Komissarlığının incəsənət şöbəsinə rəhbərlik etmiş, Bakıda rəssamlıq məktəbinin (1920), teatr və rəssamlıq emalatxanalarının təşkilində mühüm rol oynamış, Mirzə Ələkbər Sabir, Əbrürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Yüsif Vəzir Çəmənzəminli və b.-nın əsərlərinə bədii tərtibat vermiş, illüstrasiyalar çəkmişdir. Əzim Əzimzadənin yaratdığı əsərlər içərisində satirik portretlər ("Hacı", "Köhnə Bakı tipləri" və s.), bədii əsərlərə illüstrasiya (Nizaminin "Yeddi gözəl", "Xosrov və Şirin" poemaları mövzusunda) və teatr tamaşalarına geyim eskizləri (M.F.Axundzadənin "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", "Mürafiə vəkillərinin hekayəti", C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "1905-ci ildə" pyesləri və s.), tarixi şəxsiyyətlərin portretləri (Cəlaləddin Rumi, Səlahəddin Əyyubi və b.), eləcə də mənzərələr ("Görədil", "Tut ağacı", "Qürub", "Bakı bağlarında" və s.) mühüm yer tutur. 1940 ildə Bakıda fərdi sərgisi açılmış, burada rəssamın 1200-dən artıq əsəri göstərilmişdir.

*Əd.:* Qazıyev A.Y., Xalq rəssamı Əzim Əzimzadə, B., 1953; Həbibov N., Rəssamlıqdan söhbət, B., 1961; Nəcəfov M., Əzim Əzimzadə, B., 1972; yenə onun, Rəssam və zaman, B., 1977.



**ƏZİZ ŞƏRİF,** Şərifzadə Əbdüləziz Məşədi Qurbanəli oğlu (28.3.1895, Naxçıvan ş. - 28.5.1998, Moskva; Naxçı-vanda dəfn olunmuşdur) - ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, maarif və mətbuat xadimi. Filologiya elmləri doktoru (1958), professor (1962), Azərbaycan Respublikasının əməkdar elm xadimi (1963). Naxçıvanda "Tərbiyə" məktəbində (1901-04), Tiflis və İrəvanda xüsusi pansion və gimnaziyalarda (1904-15) təhsil almışdır. 1915 ildə Moskva Kommersiya İnstitutuna daxil olmuş, ailə vəziyyəti ilə əla-qədar ikinci kursdan (1917) çıxmışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu (1943) bitirmişdir. Tələbə ikən siyasi hərəkata qoşulmuşdur. 1918 ildə sosial-demokrat "Hümmət" partiyasına daxil olmuşdur. Zaqafqaziya seymində sosial-demokrat fraksiyasında (1918), Borçalı qəzasında torpaq idarəsində (1919) çalışmış seçkiqabağı kampaniyada təbliğat aparmaq üçün İrəvana ezam olunmuşdur. "Hümmət" partiyasının Tiflisdə nəşr etdirdiyi "Gələcək" (1918-19) və "Probujdeniye" (1918) qəzetlərinin redaktoru olmuşdur.

Sovet hakimiyyəti illərində Tiflisdə mətbuat və nəşriyyat sahəsində çalışmış, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi (1920-35) olmuşdur. Tiflis Müəllimlər İnstitutunda müəllim, Sovet Sosialist Respublikaları İttifaqı Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda və M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda baş elmi işçi (1950-61) işləmiş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetində SSRİ xalqları ədəbiyyatı kafedrasının professoru (1962-88) və müdiri (1960-64) olmuşdur.

Ədəbi yaradıcılığa 1906 ildə "Molla Nəsrəddin" jurnalında dərc olunmuş "Naxçıvandan məkrublar"la başlamışdır. Klassik və müasir Azərbaycan ədəbiyyatının tədqiqi, ədəbi tənqid, bədii tərcümə və publisistika ilə məşğul olmuşdur.

Bakı və Moskva şəhərlərində nəşr olunmuş "Molla Nəsrəddin" (1946), "Sabirin həyatı və yaradıcılığı" (rus dilində, 1951), "Vaqif məhəbbət və gözəlliyin tərənnümçüsüdür" (rus dilində, 1968), "Atam və mən" (1983), "Keçmiş günlər" (iki cilddə, 1977-1986), "Molla Nəsrəddin necə yarandı?" (1986), "Tapıntılar" (1987) kitablarının müəllifidir.

Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Süleyman Rəhimov, Mirzə İbrahimov, Mir Cəlal və b. Azərbaycan yazıçılarının əsərlərini rus dilinə, rus yazıçılarının əsərlərini, habelə gürcü yazıçılarının bəzi əsərlərini (orijinaldan) Azərbaycan dilinə tərcümə etmişdir.

*Əd.:* Cəfərov M.C., Əziz Şərif və xatirələri. Əziz Şərif, "Keçmiş günlər" kitabında, B., 1977; Teymurov M., Məni xatırlarsınız. Əziz Şərif. Tapıntılar, B., 1987.

**ƏZİZBƏYOV** Məşədi bəy Əziz bəy oğlu (18.1.1876, Bakı - 20.9.1918, Türküstan yaxınlığında, indiki Türkmənistan) - Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) ilk üzvlərindən biri, Azərbaycanın sovetləşməsi uğrunda fəal mübarizə aparmış ictimai-siyasi xadim. Bakı realnı məktəbini bitirdikdən (1896) sonra mülki mühəndislər institutuna daxil olmaq üçün Peterburqa getmiş, gizli marksist dərnəyinin məşğələlərində, tələbə nümayişlərində iştirak etmiş, 1898 ildə RSDFP-yə daxil olmuşdur. 1899 ildə Peterburq Texnologiya İnstitutuna qəbul edilmiş, 1900 ildə Peterburq ali məktəblərində oxuyan azərbaycanlı tələbələrin həmyerlilər cəmiyyətinin sədri seçilmişdir.



1902 ildə Peterburq fəhlələrinin inqilabi çıxışlarında iştirakına görə həbs edilmiş, 1905 ildə "Hümmət" sosial-demokrat təşkilatının rəhbər özəyinə daxil olmuşdur. Elə həmin il Bakı fəhlələrinin ümumi tətilində fəal iştirak etmiş,

"Elektriçeskaya sila" səhmdar cəmiyyətinin şəhər kontorunda işə girmiş, şəhərdə erməni-müsəlman toqquşmalarının qarşısını almağa çalışmışdır. 1906 ildə RSDFP Bakı təşkilatının tapşırığı ilə "Bayraği-nüsrət" ("Zəfər bayrağı") adlı partiya döyüş drujinasını yaratmışdı. Əzizbəyov bolşevik "Dəvət-Qoç" və "Prizıv" qəzetləri nəşrinin təşkilində və yayılmasında fəal iştirak etmiş, 1906 ildə İran sosial-demokrat "İctimaiyyun-amiyyun" ("Mücahid") partiyası MK-nın üzvü, Bakı şəhər dumasına seçki kampaniyasının rəhbərlərindən biri seçilmişdi. 1908 ildə Peterburq Texnologiya İnstitatunu bitirərək, mühəndis-texnoloq və energetik diplomu almışdır. Bakıya qayıdan Əzizbəyov "Nicat" mədəni-maarif cəmiyyəti idarə heyəti sədrinin müavini seçilmişdir. 1908-10 illərdə RSDFP Bakı komitəsinin tapşırığı ilə İran inqilabına (1905-11) kömək etmək üçün bir neçə dəfə oraya getmiş, inqilabçılar üçün gizli ədəbiyyat və silah aparmışdır. 1909 ildə Bakıda yaradılan İran İnqilabçılarına Yardım Komitəsinə başçılıq etmişdir. Həmin ildə yenidən "Nicat" cəmiyyəti sədrinin müavini seçilən Əzizbəyov 1910 ildə Bakı şəhər duması üzvlüyünə namizəd irəli sürülmüş, şəhər özünüidarəsi rəisi vəzifəsində çalışmaq üçün Rəştə dəvət edilməsi ilə əlaqədar olaraq İrana getmiş, Ənzəlidə və Rəştdə inqilabi iş aparmışdır. 1911 ildə Bakı şəhəri əhalisinin yoxsul təbəqələrinə yardım göstərmək üçün şəhər özünüidarəsi yanında tikinti bürosu açmış, həmin il Bakı şəhər dumasının üzvü seçilmiş, burada yoxsulların mənafeyinin müdafiəçisi kimi çıxış etmişdir. Əzizbəyov şəhər elektrik texniki vəzifəsində çalışmış, şəhər memarı olmuş, Şollar-Bakı su kəməri çəkilişinə baxan icraiyyə komissiyasının və elektrik komissiyasının üzvü seçilmiş, 1914 ildə Bakı fəhlələrinin ümumi tətilinin hazırlanmasında iştirak etmişdir.

Əzizbəyov 1915 ildə "Milliyyətindən asılı olmayaraq, qaçqınlara yardım komitəsi" sədrinin müavini, 1917 ildə "Hümmət" bolşevik təşkilatı müvəqqəti komitəsinin üzvü seçilmişdir. Bakı müsəlman sosialist partiyaları bürosunun sədri olan Əzizbəyov Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında iştirak və çıxış etmişdir. 1917 ildə Bakı quberniyası ərzaq komitəsinin müvəkkili kimi qəzalara ezam edilmiş, bolşevik Bakı Komitəsinin heyətinə cəlb olunmuş, yerli hümmətçi bolşeviklərlə əlaqə yaratmaq üçün Tiflisə getmişdir. Mərkəzi tətil komitəsinin üzvü kimi, 1917 il sentyabrın sonunda Bakı fəhlələrinin ümumi tətilinə rəhbərlik etmişdir. Oktyabr çevrilişindən (1917) sonra isə sovet Rusiyasının tərəfdarı olmuşdur. Oktyabrın sonunda bolşevik Bakı Komitəsinin və "Hümmət" təşkilatının siyahısı ilə şəhər dumasına üzv seçilmişdir. Bolşevik partiyasının Qafqaz Diyar Komitəsi tərəfindən Cənubi Qafqazdan Müəssislər məclisinə namizədliyi irəli sürülən bolşeviklər içərisində Əzizbəyovun da adı var idi.

Əzizbəyov 1917 il oktyabrın 31-də "Qənaət" kooperativ cəmiyyətinin sədr müavini seçilmiş, 1918 il yanvarın 31 -də Bakı quberniyası ərzaq təşkilatlarının nəzarətçi-təlimatçısı təyin olunmuşdur. Elə həmin vaxt Qırmızı qvardiya dəstələri yaradan təşkilat komissiyasının tərkibinə seçilmişdir. 1918 ilin martında Azərbaycan milli qüvvələrinə qarşı mübarizədə fəal rol oynamışdır. İnqilabi Müdafiə Komitəsi tərəfindən Bakı şəhəri müsəlman hissəsinin mühafizə komissarı, az sonra isə quberniya komissarı təyin edilmiş, Bakı kəndlərinə gedərək, əhalini sovet hakimiyyəti uğrunda mübarizəyə çağırmışdır. 1918 ilin aprelində Şamaxı qəzasında vəziyyəti yoxlamaq üçün yaradılan fövqəladə təhqiqat komissiyasına seçilmiş, Şamaxıda ermənilərin törətdikləri vəhşiliklərdən sarsılmış, burada baş verənlər haqqında ürək ağrısı ilə məlumat vermişdir.

Əzizbəyov S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetində (BXKS) quberniya komissarı idi. O, 1918 il mayın 9-da BXKS daxili işlər komissarının müavini təyin olunmuş, mayın 26-29-da Bakı qəzası kəndli deputatları sovetinin 1-ci qurultayının işində fəal iştirak etmiş və icraiyyə komitəsinin sədri seçilmişdir. İyunun 9-da "Hümmət" təşkilatı komitəsinin yeni heyətinin fəxri sədri seçilmişdir.

Bakı Sovetinin 25 iyul tarixli fövqəladə iclasında ingilis qoşunlarının Bakıya dəvət olunması əleyhinə çıxış etmişdir. BXKS-nin süqutundan sonra qırmızı əsgər dəstələrinin Bakıdan sovet Həştərxanına köçürülməsini təşkil etmiş, Bakının azad olunması uğrunda vuraşan *Qafqaz İslam Ordusuna* qarşı döyüşlərdə iştirak etmişdir.

Avqustun 17-də Bakı komissarları ilə birlikdə *"Sentro-kaspi diktaturası"* tərəfindən həbs edilmiş, sentyabrın 14-dək həbsxanada saxlanmışdır. Sentyabrın 17-də BXKS-nin digər üzvləri ilə birlikdə Zakaspi hökuməti tərəfindən həbs edilib, Krasnovodskda (indiki Türkmənbaşı) həbsxanaya salınmış, sentyabrın 20-də Krasnovodskın 207 kilometrliyindəki Ağcaqum çölündə güllələnmişdir.

*Əd.:* Sovet hakimiyyəti uğrunda alovlu mübariz Məşədi Əzizbəyov. Nitqlər, sənədlər və materiallar, B., 1976; Qazıyev M.A., Məşədi Əzizbəyov. Həyat və fəaliyyəti, B., 1976; Азизбеков П.А., Мешади Азизбеков, Б, 1956.

# F

**FEVRAL İNQİLABI (1917)** - Rusiyada monarxiyanın devrilməsi ilə nəticələnən demokratik inqilab. 1917 il fevralın 23-də başlamış, 28-də qalib gəlmişdir. Həmin gün Dövlət dumasının Müvəqqəti Komitəsi yaradıldı və bu komitə hökumət funksiyalarını öz üzərinə götürdü. Romanovlar mütləqiyyətinə son qoyuldu.Martın 2-də knyaz G.Y.Lvov başda olmaqla Müvəqqəti hökumət təşkil edildi. Hökumətin qarşısına qoyduğu əsas vəzifə ölkədə qayda-qanun yaratmaq, Müəssislər məclisinə seçkilər keçirmək idi.

Petroqradda inqilabın qələbəsi xəbəri Bakıya martın 2-də çatdı. Martın 3-də Bakı fəhlələri birgünlük tətil keçirməklə Petroqrad inqilabçıları ilə həmrəy olduqlarını bildirdilər. Martın 5-də *Bakı İctimai Təşkilatları Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi* təşkil edildi. Martın 7-nə keçən gecə Bakı rayonu fəhlə deputatları soveti formalaşdı. Beləliklə, Rusiyanın digər yerlərində olduğu kimi, Azərbaycanda da ikihakimiyyətlilik meydana gəldi. Martın 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə - OZAKOM-a verildi (bax *OZAKOM).*

Fevral inqilabı azərbaycanlıların siyasi fəallığını artırdı. Martın 27-də Bakı Müsəlman İctimai təşkilatlarının İcraiyyə Komitəsi yaradıldı. "Müsavat" partiyasının üzvü Məmməd Həsən Hacınski onun sədri seçildi.

Yeni inqilabi şəraitdə Azərbaycan xalqının arzu və istəklərini müəyyənləşdirmək məqsədilə 1917 il aprelin 15-20-də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi.

1917 ilin mayında Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı oldu. Qurultay nümayəndələrinin əksəriyyəti Rusiya müsəlmanlarının milli-məhəlli muxtariyyəti ideyası lehinə səs verdilər.

1917 ilin yayı və payızında Rusiyada, o cümlədən Cənubi Qafqazda, xüsusən Bakıda siyasi qüvvələr arasında mübarizə kəskinləşməkdə idi. Azərbaycan milli hərəkatının aparıcı siyasi təşkilatı olan "Müsavat" partiyasının nüfuzu getdikcə artmaqda idi. Partiyanın 1917 ilin oktyabrında keçirilən 1-ci qurultayı Azərbaycanın ictimai həyatında əhəmiyyətli hadisə oldu. Qurultayın qətnaməsində partiyanın Mərkəzi Komitəsinə Azərbaycana muxtariyyət əldə edilməsi üçün bütün tədbirləri görmək və Mərkəzi Müsəlman Komitəsi qarşısında Azərbaycan Müəssislər Məclisini çağırmaq tələbini qoymaq tapşırılırdı. Fevral inqilabının qələbəsindən sonra Azərbaycanda milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblər irəli sürülməsi, əhalinin bütün təbəqələrinin milli dövlətçilik ideyası ətrafında birləşməsi kimi yeni mərhələ başlandı.

Fevral inqilabından sonra "Hümmət" təşkilatının da fəaliyyəti gücləndi. İnqilabdan dərhal sonra Bakı və digər şəhərlərdə ikinci hakimiyyət orqanı kimi yaradılan Fəhlə və Əsgər Deputatları Sovetləri içərisində nisbətən nüfuzlusu Bakı Soveti hesab edilirdi. Bakı Sovetinin tərkibində azərbaycanlılar yox dərəcəsində idi. Sovetin tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və ruslardan ibarət idi. 1917 ilin oktyabrında Rusiyada bolşeviklər hakimiyyət çevrilişi etdikdən sonra Bakı bolşevikləri eser-menşeviklərlə müsavatçılar arasında ziddiyyətlərdən istifadə edərək, Bakı Sovetində əsas vəzifələri asanlıqla ələ keçirə bildilər. Bakı Soveti bütün bölgədə təkhakimiyyətliliyə nail olmağa çalışırdı. Bu dövrdə Cənubi Qafqaz şərti olaraq iki hissəyə parçalanmışdı: Rusiya bolşeviklərinin dayağına çevrilməkdə olan Bakı şəhəri və Cənubi Qafqazın qalan ərazisi. 1917 ilin dekabrında V.Lenin S.Şaumyanı Qafqaz işləri üzrə xüsusi komissar təyin etdi. Lakin menşeviklər, sağ eserlər, "Müsavat", "Daşnaksutyun" partiyaları Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina edərək, "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı.

1917 ilin sonlarında baş vermiş mühüm hadisələrdən biri Umümrusiya Müəssislər məclisinə seçkilər keçirilməsi oldu. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə bolşeviklər cəmi 4,4 faiz səs toplaya bildilər. Menşeviklər, müsavatçılar və daşnaklar isə 73 faiz səs qazandılar.

Ümumrusiya Müəssislər məclisi bolşeviklər tərəfindən buraxıldıqdan sonra, 1918 ilin fevralında Cənubi Qafqazdan seçilmiş deputatlar Zaqafqaziya seymini yaratdılar. Seymdə Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi var idi. Seymin azərbaycanlı üzvlərinə Cənubi Qafqaz Müsəlman Milli Komitəsi tərəfindən Azərbaycan Müəssislər Məclisini çağırmaq tapşırılmışdı.

Azərbaycan muxtariyyəti uğrunda mübarizə genişləndikcə, Azərbaycan milli hərəkatının artan nüfuzundan təşvişə düşən Bakı bolşevikləri, başda S.Şaumyan olmaqla, daşnaklarla ittifaqda 1918 ilin yazında dinc türk-müsəlman əhalisinə

qarşı kütləvi soyqırımı törətdilər. Nəticədə, bolşeviklər Bakıda hakimiyyəti müvəqqəti olaraq ələ keçirə bildilər (1918 il iyulun 31-dək). Türk-müsəlman soyqırımları Azərbaycan milli hərəkatını sarsıtmadı. Cənubi Qafqazın türk-müsəlman əhalisini fiziki cəhətdən məhv olmaq təhlükəsindən xilas etmək üçün müstəqil Azərbaycan dövlətinin yaradılması zərurəti meydana çıxdı. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

*Əd.:* Azərbaycan tarixi,7 cilddə, c.5, B., 2001.

**FƏHLƏ MƏSƏLƏSİ,** işçi məsələsi - Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ən mürəkkəb məsələlərindən biri. Cümhuriyyət Hökuməti aqrar məsələ kimi, fəhlə məsələsini də həll edə bilmədi. Nəticədə, həmin məsələlərlə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökumətinə qarşı ciddi narazılıqlar yarandı. Hökumətlə müxalifətdə olan qüvvələr, ilk növbədə, Parlamentin sosialistlər fraksiyası bundan istifadə edərək, xalq arasında Cümhuriyyət hakimiyyətinə qarşı geniş təbliğata başladı, narazılıqları daha da artırdı, tətil və nümayişlər təşkil etməyə müvəffəq oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il sentyabrın 17-də Gəncədən Bakıya köçdükdən sonra oktyabrın 1-də Bakı Xalq Komissarları Sovetinin neft sənayesinin milliləşdirilməsi haqqındakı dekret və sərəncamlarını ləğv etdi. Bütün neft sənayesi müəssisələri və onların hazır məhsulları keçmiş sahiblərinə qaytarıldı. Sənaye müəssisələri üzərində xüsusi mülkiyyət hüququnun bərpa edilməsi fəhlələr arasında narazılığa səbəb oldu.

1918 il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti fəaliyyətə başladığı zaman Fətəli xan Xoyskinin müvəqqəti hökuməti Parlament qarşısında istefa verdi və dekabrın 10-da Parlamentin ikinci iclasında ayrı-ayrı fraksiyalar Hökumətin fəaliyyəti ilə bağlı öz partiyalarının bəyannamələrini elan etdilər. İlk olaraq, ən iri fraksiyanın -"Müsavat" fraksiyasının bəyannaməsi ilə fraksiyanın rəhbəri, "Türk ədəmi-mərkəziyyət "Müsavat" partiyasının sədri Məhəmməd Əmin Rəsulzadə çıxış etdi. O, "Müsavat" partiyasının proqramında daha geniş yer almış "Torpaq məsələsi" və "İşçi məsələsi" barədə geniş məlumat verdi. "Müsavat" partiyasının bəyannaməsində göstərilirdi ki, fəhlələri ağır, məşəqqətli zəhmətdən qurtarmaq üçün, hər bir muzdur, qulluqçu, əmələ və fəhlənin iş günü 8 saatdan artıq olmamalı, onlara kişi və qadınlığından asılı olmayaraq, qanunla həftədə 24 saatlıq istirahət günü müəyyənləşdirilməlidir. 16 yaşına qədər uşaqların işləməsi qadağan olunmalı, 16-18 yaşında uşaqlar gündə yalnız 6 saat işləməlidirlər. Qadınların onların sağlamlığı üçün zərərli olan işlərdə çalışması qadağan edilməli, hamilə qadınlar doğuşdan 4 həftə qabaq və 6 həftə sonra, əmək haqları saxlanılmaqla, işdən azad olunmalıdırlar. Qadınların işlədiyi fabrik və zavodların yanında südəmər uşaqlar üçün körpələr evi yaradılmalı, uşaq əmizdirən ana hər 3 saatdan bir yarım saat işdən azad edilməlidir. İş qabiliyyətini tamamilə və ya qismən itirmiş fəhlələr üçün sərmayədarlardan alınan vergi hesabına dövlət tərəfindən xüsusi sığorta fondu yaradılmalı və əmək haqqı naqd pulla ödənilməlidir. Emalatxanalarda, fabrik və zavodlarda fəhlə əməyindən istifadəyə nəzarət məqsədilə müfəttişlər təyin edilməlidir. Sahibkarlar tərəfindən fəhlələrin yaşayışı üçün ayrılmış evlərin və iş yerlərinin fəhlələrin sağlamlığına müvafiq olmasına iş verənlərin nüfuzundan asılı olmayan səhiyyə orqanlarının nəzarəti təmin edilməli, əmək qanunlarını pozan iş sahibləri cinayət məsuliyyətinə cəlb olunmalıdır. Hər bir emalatxana, fabrik və zavodlarda yarısı iş sahibləri, yarısı isə fəhlələrdən ibarət xüsusi komissiyalar yaradılmalıdır və s.

Həmin iclasda sosialistlər fraksiyasının aqrar və fəhlə məsələsinə dair proqramı barədə Aslan bəy Səfikürdski, Əkbər ağa Şeyxülislamov və Əhməd Cövdət Pepinov çıxış etdilər. Onlar öz çıxışlarında torpaq və fəhlə məsələsinin Sovet Rusiyasının təcrübəsindən istifadə etməklə həll olunmasını məsləhət görürdülər. "İttihad" fraksiyasının rəhbəri Qarabəy Qarabəyov isə öz çıxışında onların partiyasının fəhlə məsələsinə münasibətindən bəhs edərkən dedi: "...Partiyamız geniş bir dairədə fəhlələrin səadətini təmin etməyə səy edəcəkdir. Yalnız iş və sənaye aləmində anarxiya və keyfi-mayəşəyə meydan verməmək üçün sərmayə ilə cəmiyyət miyanında vaqe olan mübarizənin qanun üsuluna tabe olmasını tələb edir".

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində yaranmış siyasi şəraitdən istifadə edən sosialistlər fraksiyası tez-tez Cümhuriyyət Hökumətinin həyata keçirdiyi bu və ya digər siyasətə qarşı çıxır, çox vaxt isə fəhlə məsələsinin həlli ilə bağlı müzakirələrdən hökumətə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. Digər tərəfdən, məhz Rusiya bolşeviklərinin təsiri ilə Azərbaycanda, xüsusilə Bakıda tez-tez fəhlə tətilləri keçirilirdi. Parlamentin demək olar ki, elə bir iclası olmurdu ki, orada sosialistlər fraksiyasının nümayəndələri fürsət tapıb fəhlə və ya torpaq məsələsini qaldırmasınlar. Hətta, vəziyyət o yerə çatdı ki, 1919 il mayın 6-da keçirilən Parlament iclasında gündəlikdə duran məsələlər təxirə salınaraq həmin gün Bakıda keçirilən ümumbakı fəhlə tətili barədə məsələ müzakirə olundu.

Bu barədə ilk olaraq çıxış edən Məhəmməd Əmir Rəsulzadə dedi: ***"Bu tətili elan edən fəhlə konfransı adından sui-istifadə edən təşkilatdır. Onlar bu tətilin məqsədinin iqtisadi tətil olduğunu deyirlərsə də, fəqət onların məqsədlərinin nədən ibarət olduğu kimsədən ötrü gizli deyil".*** Parlamentin həmin iclasında Hökumət adından çıxış edən baş nazir Nəsib bəy Yusifbəyli bəyan etdi ki, bu tətillər iqtisadi tətillər deyil, Hökumətə qarşı yönəldilmiş sırf siyasi tətillərdir. Tətilin təşkilatçıları ***"hər vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər".***

İclasda sosialistlər fraksiyası adından çıxış edən Səməd ağa Ağamalıoğlu dedi: ***"Fəhlələr Sizə zakonnu saldat deyillər ki, dədənizin qulu deyillər ki, (ümumi gülüş) istəmirlər, işləmirlər, vəssalam".***

Sənaye müəssisələri üzərində xüsusi mülkiyyət hüququnun saxlanılması Cümhuriyyət Hökumətinə və Parlamentinə fəhlə məsələsində köklü dəyişikliklər həyata keçirməyə imkan vermirdi. Bu vəziyyətdən istifadə edən sosialistlər fraksiyası fürsət düşən kimi məsələ qaldırır, onların həll olunmamasından istifadə edərək, fəhlələr arasında açıq və gizli

təbliğat aparır, fəhlə tətili və nümayişləri keçirməyə təhrik edirdilər. Sovet Rusiyasında torpağın və sənaye müəssisələrinin milliləşdirildiyi, onların əvəzsiz olaraq fəhlə və kəndlilərə verildiyi haqqındakı təbliğatla sosialistlər fraksiyası Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə və Hökumətinə qarşı pozuculuq siyasəti yeridir, Azərbaycanın nicat yalnız Sovet Rusiyası ilə birləşməkdə olduğunu açıq və gizli şəkildə təbliğ edirdilər.

Bununla onlar Sovet Rusiyasının müdaxiləsi üçün ölkənin daxilində əlverişli zəmin hazırlayırdılar. Məhz rusiyapərəst müxalifətin ölkədə apardığı pozuculuq siyasətinin nəticəsi idi ki, 1920 il aprelin 27-də Azərbaycan işğalçı Sovet Rusiyasının ordusu tərəfindən asanlıqla ələ keçirildi.

*Əd.:*Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Müstəqil dövlətimiz və Parlamentimiz. B., 2001; Paşayev A., Açılmamtş səhifələrin izi ilə, B., 2001.

**FƏHLƏ MƏSƏLƏSİNƏ DAİR MƏŞVƏRƏT ŞURASI** - əmək nazirliyi nəzdində yaradılmış xüsusi qurum. Azərbaycan Parlamentinin 1919 il 10 mart tarixli qanunu əsasında təsis olunmuşdu. Əmək nazirinin sədrlik etdiyi şura əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasında münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olurdu. 10 nəfərdən (5 nəfər fəhlə və 5 nəfər müəssisə sahibi) ibarət tərkibdə fəaliyyət göstərirdi. Şura üzvlərinin seçilməsi haqqında əsasnamə təsdiq olunana qədər onlar əmək naziri tərəfindən ticarət-sənaye müəssisələri və fəhlə təşkilatlarından dəvət olunurdular.

Şuranın sədri fəhlə müfəttişliyinin, mədən nəzarətinin nümayəndələrini və digər məlumatlı şəxsləri məşvərətçi səslə iclaslara dəvət edə bilərdi. İclaslar müntəzəm keçirilmir, ehtiyac olduqda sədr tərəfindən çağırılırdı. Məsələlər şuranın müzakirəsinə əmək nazirinin tapşırığı ilə çıxarılır, müzakirələrin qaydasını da o müəyyən edirdi. Əmək naziri vəzifələrini bütünlüklə və ya qismən öz mülahizəsinə görə, xüsusi olaraq təyin etdiyi şəxsə həvalə edə bilərdi.

Məşvərət şurasına əməyin mühafizəsi və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönələn qanunların icrasına nəzarət hüququ verilmişdi. Şuranın müvəqqəti nizamnaməsində deyilirdi ki, əmək nazirinin sədrliyi ilə fəaliyyət göstərəcək bu orqan "istər əməyin mühafizəsi, istərsə də əmək şəraiti və zəhmətkeş siniflərin məişətinin yaxşılaşdırılmasına yönələn məsələlərlə bağlı mövcud qanunların dəqiq icra edilməsi üzrə tədbirlərin ilkin müzakirəsi məqsədilə təsis edilir".

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**FƏHLƏLƏR** - istehsal alətləri və vasitələrindən məhrum olan və muzdla çalışan sosial təbəqə. Cəmiyyətin əsas məhsuldar qüvvəsini təşkil edir. Azad bazar iqtisadiyyatının meydana gəlməsi ilə təşəkkül tapmışdır. Başlıca sosial bazası kəndlilər, sənətkarlar, şəhər yoxsulları olmuşdur.

Azərbaycanda fəhlələr müstəqil sosial zümrə kimi 19 əsrin son qərinəsində formalaşmışdır. Əsas hissəsi Bakı neft mədənlərində çalışanlar idi. 1901 ildə onların sayı 28 minə çatmışdı, Bakının bütün sənaye sahələrində çalışan fəhlələrin sayı, bütövlükdə 65-70 min nəfər idi. Fəhlələrin sayı qəzalarda da artırdı. Azərbaycan fəhlələrinin tərkibi çoxmillətli, əsas fərqli cəhətlərindən biri isə yüksək dərəcədə təmərküzləşməsi idi. Bəzi hesablamalara görə, Birinci dünya müharibəsi ərəfəsində (1913) Azərbaycanda bütün fəhlələrin sayı 570 min nəfərə çataraq, əhalinin 14,3%-ni, digər bir hesablamaya görə isə 305 min nəfər olmaqla, əhalinin 12,4%-ni təşkil etmişdir. Fəhlələrin tərkibində azərbaycanlıların sayı üstünlüyə malik idi. Müharibə ərəfəsində Bakı fəhlələrinin 37,6%-i (42,4 min nəfər) azərbaycanlılar, 24,7%-i ruslar və digər millət və xalqların nümayəndələri idi. Birinci dünya müharibəsi fəhlələrin say və tərkibində ciddi dəyişikliklər yaratdı. Bakı fəhlələrinin sayı müharibə ərəfəsində olduğu kimi, artmaqda davam etmiş, 1917 ildə 110 min nəfər olmuşdu. Qəzalarda isə fəhlələrin sayı azalmışdı. Bütün imperiyada olduğu kimi, Azərbaycanda da fəhlələrin maddi vəziyyəti ağır idi. Fəhlələr vəziyyətlərini yaxşılaşdırmaq üçün müxtəlif forma və üsullarla mübarizə aparırdılar. Fəhlələrin siyasi cəhətdən təşkilatlanması geniş hal almışdı, müxtəlif yönümlü siyasi partiya və təşkilatlar bu istiqamətdə iş aparırdı.

Fevral inqilabından (1917) sonra Azərbaycanda Müvəqqəti hökumətin orqanları ilə yanaşı, fəhlə və əsgər deputatları sovetləri də yaranmağa başladı. 1917 il martın 6-da Bakı Fəhlə və Əsgər Deputatları Soveti təşkil olundu. Bakıda və Azərbaycanın qəzalarında fəhlə hərəkatı genişləndi. Bakıda fəhlə hərəkatının əsas məqsədlərindən biri kollektiv müqavilə uğrunda mübarizə idi. Mədən-zavod komissiyaları bu mübarizədə mühüm yer tuturdu. 1917 ilin sentyabrında Bakıda keçirilən tətil kollektiv müqavilə bağlanması ilə başa çatdı. Oktyabr çevrilişindən (1917) sonra Bakı Soveti hakimiyyəti ələ aldı. 1917 ilin sonlarında fəhlə nəzarəti uğrunda hərəkat böyüdü. Bakı Sovetinin rəhbərliyini ələ keçirmiş bolşevik-daşnak güruhu Sovetin silahlı qüvvələrinin yaradılmasında əsasən, ermənilərdən olan fəhlələrə üstünlük verirdi. Həmin silahlı qüvvələr azərbaycanlıların 1918 il mart soyqırımında fəal iştirak etmişdilər. Aprelin 25-də yaradılmış Bakı Xalq Komissarları Soveti də bu xətti davam etdirirdi.

O, fəhlələri öz tərəfinə çəkmək üçün onları milliləşdirilmiş müəssisələrin idarəsində fəal iştirak etməyə çağırırdı. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması Bakı Xalq Komis-sarları Sovetinin süqutunu sürətləndirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakının azad edilməsindən sonra paytaxtı buraya köçürtdü və sosial iqtisadi siyasətində önəmli yer tutan fəhlə məsələsinin həllinə başladı. Hökumət 24 sentyabrda neft sənayesinin və Xəzər ticarət

donanmasının milliləşdirilməsini ləğv etdi. Fəhlələrlə sahibkarlar arasında əvvəlki münasibətlər bərpa olundu. *Bakı Fəhlə Konfransı BFK),* faktiki olaraq, Hökumətə qarşı müxalifətə çevrildi. BFK-nın qərarı ilə dekabrın 24-də üçgünlük tətil keçirildi. tətil fəhlələrin qələbəsi ilə başa çatdı və onun təşkilatçıları olan sosialist partiyalarının nüfuzunu artırdı. Cümhuriyyət Hökuməti fəhlələrin vəziyyətinin ağır olduğunu etiraf etməklə bərabər, onun həlli üçün tədbirlər görməyə çalışırdı. 1919 il yanvarın 25-də *Fəhlə məsələsinə dair məşvərət şurasının* təşkilinə başlandı, onun statusu isə Parlament tərəfindən martın 10-da təsdiq olundu. Lakin fəhlələrin vəziyyətinin getdikcə pisləşməsi və sosialist partiyalarının siyasəti nəticəsində 1919 ildə tətil hərəkatı genişləndi. Mayda fəhlələrin siyasi fəallığı daha da artdı. Hökumətin səyi nəticəsində 1 May nümayişi beynəlxalq bayram kimi qeyd edildi. BFK isə ümumi iqtisadi tətil keçirməyi qərara aldı. Tətilin qarşısının alınması üçün ciddi tədbirlər görüldü, mayın 13-də tətil uğursuzluqla nəticələndi. Buna baxmayaraq, fəhlə hərəkatından məqsədləri üçün istifadə edən bolşeviklər BFK-da daha da möhkəmləndilər. Müsavat partiyasının ikinci qurultayında (1919, dekabr) fəhlə məsələsi diqqət mərkəzində olsa da, bu, problemlə bağlı siyasətdə köklü dəyişiklik yaratmadı. Azərbaycan Kommunist partiyası yaradıldıqdan sonra (1920, fevral) bolşeviklər fəhlə məsələsindən daha çox yararlanmağa çalışdı. Cümhuriyyətin süqutunda fəhlə məsələsinin həll edilməməsinin də müəyyən rolu oldu (bax həmçinin *Fəhlə məsələsi).*

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Vəliyev T.T., İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı, B., 1987; Исмаилов М., Социально – элономическая структура Азербайджана в эпоху империализма, Б., 1982; Очерки истории равочего класса Азербайджанской ССР, т- 1 (1917 – 1940 гг.), Б., 1974; Сумбатзаде А. С., Социально – элономические предпосылки победы Советской власти в Азербайджане, М., 1972.

**FƏTƏLİ XAN XOYSKİ** - Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, görkəmli ictimai-siyasi və dövlət xadimi. Cümhuriyyətin 1-ci, 2-ci, 3-cü Hökumət kabinələrində baş nazir olmuşdur (bax *Xoyski* Fətəli xan).

**FOŞ** Ferdinand (2.10.1851, Tarb - 20.3. 1929, Paris) - Fransa hərbi xadimi, marşal (1918), B.Britaniya feldmarşalı (1919) və Polşa marşalı (1923). Fransa Akademiyasının üzvü (1918). Ali Hərbi Akademiyanı bitirmiş (1887), akademiyanın professoru (1895-1900) və rəisi (1908-11) olmuşdur. Birinci dünya müharibəsində (1914-18) Baş qərargah rəisi, 1918 ilin aprelindən müttəfiq qoşunlarının ali baş komandanı təyin edilmişdir. 1920 ilin yanvarında Paris sülh konfransı (1919-20) Ali Şurasının iclaslarında Cənubi Qafqaz respublikaları problemlərinin müzakirəsində iştirak etmişdir. Antantanın Ali Hərbi Şurasının sədri olan Foş məruzə ilə çıxış edərək Qafqaza bir neçə diviziya göndərməyi zəruri saymışdı. O, hesab edirdi ki, yalnız hərbi qüvvə göndərməklə Qafqazı bolşevik işğalı təhlükəsindən xilas etmək olar.

**FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSIYASI** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin əvvəlcə xarici işlər, sonra isə ədliyyə nazirlikləri yanında 1918 il iyulun 15-dən 1920 ilin aprelinə qədər fəaliyyət göstərmiş rəsmi təhqiqat orqanı. Erməni daşnakların azərbaycanlıların həyatına və onların əmlakına qarşı cinayətlərini təhqiq etmək üçün yaradılmışdı.

1918 il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Gəncədə keçirilən iclasında çıxış edən xarici işlər naziri Məmməd Həsən *Hacınski* bildirir ki, "Artıq 4 aydan çoxdur ki, Azərbaycan ərazisinin müxtəlif bölgələrində bolşevik adı ilə məsuliyyətsiz erməni hərbi hissələri və b. mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda, həmin quldur dəstələri tərəfindən göndərilən yalan məlumatlar əsasında Avropada bütün ictimai fikir tamamilə əks istiqamətə, azərbaycanlılara qarşı yönəldilir. Ümumi dövlət mənafeyi və əhalinin zərərçəkən qruplarının mənafeyi elə bir təşkilatın yaradılmasını tələb edir ki, o: 1) bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatını aparsın; 2) bu zorakılıqların həyata keçirildiyi şəraiti müəyyənləşdirsin; 3) cinayətkarları aşkar etsin və onların vurduqları zərərin həcmini müəyyənləşdirsin".

M.H.Hacınskinin təklifinə görə ***"bu təşkilat fövqəladə təhqiqat komissiyası"*** xarakteri daşımalı idi. Özü də, ***"bu komissiyanın işinin nəticələri başlıca Avropa dillərində — rus, fransız, alman dillərində və əlbəttə ki, türk dilində elan edilməlidir".***

Daha sonra məruzəçi qeyd edirdi ki, "... ***komissiyanın təşkilinə bu gündən başlamaq lazımdır. Çünki bir çox şeyləri indi isti-isti adamlardan soruşmaq, fotoşəkilləri çəkmək və hələ ki, mövcud olan digər əşyayi-dəlillər əsasında sübuta yetirmək olar. Sonralar bu təhqiqat işi çətinləşə və hətta sübutu tamamilə imkan xaricində ola bilər".***

Məsələni geniş və ətraflı müzakirə edən Hökumət qərara alır ki, ***"xarici işlər nazirinin məruzəsi bəyənilsin və ona tapşırılsın ki, Avropa müharibəsi başladığı vaxtdan bütün Zaqafqaziya ərazisində müsəlmanlara və onların əmlakına qarşı işlənilmiş zorakılıq hallarını təhqiq etmək üçün Fövqəladə Təhqiqat Komissiyası yaratsın ".***

Həmin il avqustun 31 -də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sədri, həm də ədliyyə naziri Fətəli xan *Xoyskinin* Gəncədə imzaladığı qərara əsasən, 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Komissiyanın sədri andlı iclasçı Ələkbər bəy Xasməmmədov, üzvləri isə dairə məhkəməsinin müavinləri İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatski, dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixayloviç Mixaylov, həqiqi mülki müşavir V.V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə təyin olundu.

Qərarla komissiyanın sədri və üzvlərinin əmək haqları və ezamiyyə xərclərinin miqdarı da müəyyənləşdirildi. Komissiya sədrinə, həmçinin zəruri hallarda komissiyanın işinə katib, ekspert və digər şəxsləri də cəlb etmək səlahiyyəti verildi. Hökumətin həmin il 22 sentyabr tarixli başqa bir qərarına əsasən, komissiyanın üzvləri yalnız bu məqsədlə işlədikləri günlər üçün əmək-haqqı almaq hüququna malik idilər. Fövqəladə Təhqiqat Komissiyası xarici işlər nazirliyi yanında təşkil edilsə

də, artıq həmin ilin sentyabrından, faktiki olaraq, ədliyyə nazirliyi nəzdində fəaliyyət göstərirdi. Bu da tamamilə təbii idi, çünki bu işlə bilavasitə məşğul olanlar, əsasən, hüquqşünaslar idilər.

Komissiyanın fəaliyyətinin sonuna qədər onun sədri Ə.Xasməmmədov, üzvlərdən isə A.F.Novatski və N.M.Mixaylov daha səmərəli fəaliyyət göstərmişlər. Bundan başqa, müxtəlif vaxtlarda Bakı dairə məhkəməsi prokurorunun müavini Aleksandr Yevgenyeviç Klige, andlı iclasçı Məmməd xan Təkinski, Gəncə dairə məhkəməsinin xüsusi əməliyyat işləri üzrə müstəntiqi Məhyəddin bəy Şahmalıyev, Bakı quberniya dairə məhkəməsinin üzvü Hidayət bəy Sultanov, andlı iclasçılar Aley Aleksandroviç Litovski, Çeslav Boleslavoviç Klossovski, hüquqşünas Abbasəli bəy Hacırzayev, Bakı dairə məhkəməsinin üzvü B.Yusifbəyov komissiya üzvü kimi fəaliyyət göstərmişlər.

Komissiya artıq 1918 ilin sentyabr-oktyabrından geniş təhqiqat işlərinə başlamışdı. Komissiyanın üzvü N.M.Mixaylov 1918 il oktyabrın 26-da həmin ilin sentyabrın 22-dən oktyabrın 23-nə qədər olan müddətdə Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat verirdi. Məlumata görə, göstərilən müddət ərzində 500 nəfərdən çox şahid dindirilmiş, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə (Kürdəmir, Qarabucaq, Mustafalı, Xəlilli, Qasımbəy, Ərəb Mehdibəy, Dadalı) baxış keçirilmişdir.

1918 il noyabrın 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirliyinə göndərdiyi məruzələrdə Bakı quberniyası, Göyçay qəzasının Kürdəmir, Qarabucaq, Ərəb Mehdibəy və b. kəndlərində, Şamaxı şəhəri və Şamaxı qəzasının müsəlman kəndlərində, habelə Bakı şəhərində azərbaycanlılara qarşı törədilmiş zorakılıqların təhqiqinin ilkin vəziyyəti haqqında ətraflı məlumat verirdi.

1919 il yanvarın 6-da Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Paris sülh konfransına (1919-20) gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Quba və Şamaxı şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Quba qəzalarında ermənilər tərəfindən müsəlmanlara qarşı törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatları məktubla birlikdə xarici işlər nazirinə göndərmişdi. Məlumatda göstərilirdi ki, Lənkəran qəzasında daşnak polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsində isə polkovnik İllarinoviç başda olmaqla ruslar tərəfindən, həmçinin İrəvan quberniyasında, Gəncə quberniyasının 4 qəzasında (Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur) böyük dağıntılar törədilmiş, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir. Komissiya xaricə göndərilən nümayəndə heyəti üçün əşyayi-dəlil kimi altı cilddən ibarət ilkin təhqiqat materialı və 95 ədəd fotoşəkil hazırlamışdı.

Komissiya fəaliyyətinin ilk dövrlərində çox gərgin işləyirdi. 1919 il yanvarın 16-da komissiyanın üzvü N.M.Mixaylov Gəncə quberniyasının Ərəş və Nuxa (Şəki) qəzaları, A.F.Novatski isə həmin ilin iyununda Quba şəhəri, Quba qəzası kəndlərində ermənilərin törətdiyi soyqırımları, qətl-qarətlər və digər zorakılıq hərəkətləri haqqında təhqiqat materialları əsasında ətraflı məruzələr hazırlayaraq, komissiyaya təqdim etmişdilər. 1919 il avqustun 27-də Fövqəladə Təhqiqat Komissiyasının üzvü Ç.B.Klossovski komissiyanın fəaliyyəti ilə əlaqədar tərtib etdiyi arayışda göstərirdi ki, toplanmış materiallar 36 cild və 3500 vərəqdən ibarətdir. Azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətlərinin təşkilatçıları və iştirakçıları olan şəxslərə qarşı cinayət işi qaldırmaq haqqında 128 məruzə və qərar layihəsi hazırlanmış, 194 nəfər erməninin cinayət məsuliyyətinə cəlb edilməsi barədə məsələ qaldırılmışdı.

1919 il avqustun 23-də komissiyanın sədri Ə.Xasməmmədov ədliyyə nazirinə Bakı və Şamaxı şəhərlərində və Şamaxı qəzasında azərbaycanlılara qarşı törədilmiş vəhşiliklərdə müqəssir olan şəxslərin artıq məsuliyyətə cəlb edilməsi işinə başlanıldığını bildirərək qeyd edirdi ki, Bakı şəhərində hələlik 24, Şamaxı şəhəri və Şamaxı qəzasında isə 100 nəfərə yaxın müttəhim istintaqa cəlb olunmuşdur.

1919 il martın 21-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Fövqəladə Təhqiqat Komissiyasının səlahiyyətlərini genişləndirmək haqqında ədliyyə nazirinin məruzəsini dinləmiş və müvafiq qərar qəbul etmişdi.

Fövqəladə Təhqiqat Komissiyası azərbaycanlılara qarşı törədilmiş, soyqırımı və zorakılıq hallarının günahkarlarını istintaqa cəlb etməyə başlayan kimi, Bakıda Erməni Milli Şurası və "Daşnaksutyun" partiyasının parlament fraksiyası, həmişə olduğu kimi, ermənilərin müdafiəsinə qalxmış, onların günahsız olduqlarını sübut etməyə çalışmışlar. 1919 il avqustun 23-də Erməni Milli Şurasının ədliyyə nazirliyinə göndərdiyi məktubda deyilirdi ki, avqustun 18-də Bakıda Telefonnaya (indiki 28 may) küçəsində Şamaxı şəhəri sakinləri Martiros Gülbəndiyants, Mixail Arzumanov və Yenok İvanyants sonuncuya məxsus mağazada həbs edilmişlər. Həbs edilənlərin hamısının Şamaxının "ən hörmətli" adamları və uzun müddət Şamaxı şəhər dumasının üzvləri olduqlarını qeyd edən erməni liderləri onlardan M.Gülbəndiyantsın Şamaxı şəhər poçt-teleqraf kontorunun rəisi, M.Arzumanovun Şamaxı erməni kilsəsinin hamiktikoru, Y.İvanyantsın isə "məşhur tacir" olduğunu bildirirdilər. Halbuki, Fövqəladə Təhqiqat Komissiyasının zərərçəkənlərin və şahidlərin dindirilməsi protokollarında azərbaycanlılara qarşı zorakılıqların təşkilatçıları və fəal icraçıları sırasında cəllad S.Lalayandan sonra, məhz bu "hörmətli" adamların adları çəkilirdi. "Daşnaksutyun" liderləri riyakarcasına bəyanatlar verir, Azərbaycan Hökumətini keçmişləri yada salmaqla "intiqam və düşmənçilik" hisslərini daha da qızışdırmaqda ittiham edirdilər. Lakin *Aprel işğalından (1920)* sonra erməni-daşnak terrorçuları 1920-21 illərdə məhz qisasçılıq niyyəti ilə Tiflis və İstanbulda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ilk sədri Fətəli xan Xoyskini, Parlament sədrinin müavini Həsən bəy Ağayevi və 2-ci Hökumət kabinetində daxili işlər naziri olmuş Behbud xan Cavanşiri qətlə yetirmişlər.

1920 ilin yanvarında Paris sülh konfransında Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə həmin il fevralın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti amnistiya haqqında qərar qəbul etdi və milli ədavət zəminində qaldırılmış cinayət işlərinə xitam verdi. Amnistiyadan sonra Fövqəladə Təhqiqat Komissiyası, zəif də olsa, fəaliyyətini davam etdirmişdir. Lakin Aprel işğalı (1920) komissiyanın işinə son qoydu. Təxminən 20 ay fəaliyyət göstərmiş və böyük

çətinliklərlə qarşılaşsa da, ermənilərin törətdikləri cinayətlər haqqında çoxlu faktiki materiallar toplamağa müvəffəq olmuş Fövqəladə Təhqiqat Komissiyası Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizə tarixində şərəfli yer tutur.

Fövqəladə Təhqiqat Komissiyasının materialları S.Şaumyanın başçılıq etdiyi erməni-daşnak rejiminin Azərbaycan xalqına qarşı törətdiyi kütləvi soyqırımı cinayətlərini sübut edən təkzibolunmaz ilk mənbələrdir.

*Əd.:* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**"FRANSA-QAFQAZ" KOMİTƏSİ** - Azərbaycanın və Gürcüstanın Fransa tərəfindən tanınması üçün fəaliyyət göstərmiş qeyri-hökumət qurumu. "Fransa-Qafqaz" komitəsi Azərbaycan və Gürcüstanla iqtisadi əlaqələr yatarmaqda marağı olan "Aique Navale Fransanse" cəmiyyətinin tərkibində yaranmışdı. Komitənin sədri Fransa parlamentinin üzvü, keçmiş ticarət naziri de Monzye Qafqaz respublikaları ilə, xüsusilə Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verirdi. Onun fikrincə, müsəlman ölkəsi olan Azərbaycan bütün İslam dünyası ilə əlaqələrin inkişafında mühüm rol oynaya bilərdi. Komitənin üzvü Labri 1919 il avqustun 27-də Azərbaycan və gürcü nümayəndələrilə keçirilən iclasda Rusiyadan ayrılmış millətlərin müdafiə edilməsinin zəruriliyini bildirdi. Azərbaycan nümayəndələrindən Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev, Ceyhun bəy Hacıbəyli, gürcülərdən Qobeçia, knyaz Sumbatov və knyaz Avalov "Fransa-Qafqaz" komitəsinin işinə cəlb edilmişdilər. Komitənin avqustun 27-də keçirilən iclasında de Monzye Azərbaycan və Gürcüstan barəsində Fransa parlamentində çıxış etməyə razılıq verdi. Avqustun 28-də Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinin sədrləri komitənin üzvü Labri ilə görüşüb de Monzyenin parlament çıxışının forma və xarakterini müzakirə etdilər. Bundan əlavə, de Monzye Fransa rəsmi dairələrinin Qafqaz respublikalarına, o cümlədən Azərbaycan və Gürcüstana münasibəti barədə Fransa xarici işlər nazirliyinə deputat sorğusu ilə müraciət etdi. Sorğuya cavabdan aydın oldu ki, Fransa hökuməti Azərbaycanla iqtisadi əlaqələr, o cümlədən ticarət münasibətləri yaratmağa meyl göstərir. Lakin bu, Fransa hökumətinin rəsmi və qəti mövqeyi demək deyildi, çünki "Fransa-Qafqaz" komitəsinin səylərinə baxmayaraq, Fransa hökumətinin Qafqaz mandatına sahib olmaq niyyəti olmamışdır.

*Əd:.* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B.,1993.

**"FÜQƏRA FÜYUZATI"** (1920-21) - ədəbi, elmi, ictimai-siyasi, şəkilli toplu, Azərbaycan Hərbi inqilab komitəsinin orqanı (Bakı). Nəşri iki həftədə bir dəfə nəzərdə tutulmuşdu. Lakin cəmi üç, 1920 ildə (I.IX, I.XI) 2, 1921 ildə (28.IV) 1 nömrəsi çıxmışdır. Ağababa Yusifzadənin müdirliyi və Məmməd Səid Ordubadinin baş redaktorluğu ilə nəşr olunurdu. "Füqəra füyuzatı" Nəriman Nərimanovun şəkli və "Kommunizm nə verəcəkdir?" məqaləsilə açılırdı. Jurnalın məqsəd və məramı məsul müdirin "Füqəra Füyuzatı" nə edəcəkdir?" və baş mühərririn "Pərdə eniyor, pərdə qalxıyor" məqaləsində şərh olunmuşdur. A.Yusifzadə jurnalın proletar ədəbiyyatı yaratmaq məramını açıqlayaraq yazırdı: "Məcmuəmizin başlıca məqsədlərindən biri də məmləkət içrə qeyri-mütəşəkkil halda bulunan üdəba və şüəranı bir yerdə toplayaraq, füqəra nəfinə olmaq şərtilə onların qələmlərindən tərşih edən abdar kəlamlardan istifadə etməkdir. İştə təqib etdiyimiz məram, iştə məcmuəmiz!" "Pərdə eniyor, pərdə qalxıyor" məqaləsi ilə 1907 ilin noyabrında fəaliyyətini dayandıran "Füyuzat" jurnalı ilə yenicə nəşrə başlayan "Füqara füyuzatı" arasında əlaqələri aydınlaşdıran Məmməd Səid Ordubadi yazırdı: "ünvanımızda yazdığımız "Pərdə eniyor, pərdə qalxıyor" kəlmələri gərək ki, qarelərimizi əvvəlcə bir az düşündürmüşdür. Ona görə də bir neçə kəlmə izahat vermək istiyoruz. "Pərdə eniyor, pərdə qalxıyor" dedikdə, zənginlərin tamaşagah ədəbiyyatımızdakı nüfuzlarının pərdəsi enib, ədəbiyyatın füqəra öhdəsində olaraq, bütün aləm füqərasına tamaşa göstərəcək teatronun pərdəsi qalxıyor demək istiyoruz. Əvət, "Füyuzat" kimi böyük bir ədəbiyyatı havi olan zəngin bir məcmuə zənginlər xahişinə məhkum olduğu üçün, onun mühəniri kəmali-məyusiyyətlə "Pərdə eniyor" deməyə məcbur olacaq idi... İndiki halda mövqeyi-intişara qoyduğumuz "Füqəra füyuzatı"nın adını fəqət bir kəlmə olaraq "Füyuzat" qoymaqla da iktifa edə bilərdik. Lakin "Füqəra füyuzatı" namını verməklə Əli bəy cənablarına, yaxud Əli bəy ədəbiyyatına həvəskar olan zatlara bildirmək istiyoruz ki, bu "Füyuzat" əvvəlki kimi zənginlər nüfuzunda olan "Füyuzat" olmayıb, "Füqəra füyuzatı"dır. Yəni, füqarə öz ədəbiyyatına sərbəstanə bir surətdə malik olmuş və öz vücuda gətirdiyi, fəqət sonraları zənginlər mühitinə girən ədəbiyyatını azad eləmişdir" ("Füqəra füyuzatı" jurnalı, 1920, № l).

"Füqəra füyuzatı" geniş bir proqramla nəşr olunurdu. Jurnalda siyasətə, ədəbiyyata, tarixə, pedaqogikaya, coğrafiyaya, qadın problemlərinə dair məqalələr dərc edilirdi.

Məmməd Səid Ordubadinin və Dadaş Bünyadzadənin siyasətə ("Bir sənəlik siyasət", "İcmasi-siyasi", "Bütün dünya Şərq hesabına yaşamaq istəmiş"), Salman Mümtazın ədəbiyyat tarixinə ("Azərbaycan şairi - Nəşə", "Sultan-üşşüəra Həbibi"), Sultanməcid Qənizadənin pedaqogikaya ("Körpə uşaqların tərbiyəsi"), Q.R.Mirzəzadənin coğrafiyaya ("Azərbaycan coğrafiyası"), Ş.Əfəndizadənin qadın hüququna ("Bəşəriyyətin nəşvü-nüması", "Şərq qadınları") və sair məqalələr mövzu aktuallığı və məzmunu dolğunluğu ilə seçilirdi. "Füqəra füyuzatı"nın ədəbiyyat rubrikasında Hüseyn

Cavidin "İblis" faciəsi, S.Manafzadənin "Ey inqilab, ey naciyi-miləl", M.S.Ordubadinin "Eşq və şeir", Feyzulla Sacədin "Aclıqdan ölən bir fəqir cocuqun qarşısında", Ümmügülsümün "Hicran" və s. şeirləri dərc olunmuşdur. "Füqəra füyuzatı"nın son nömrəsində *Aprel işğalı (1920)* xadimlərinin tərcümeyihalları və portretləri dərc olunmuşdur.

*Əd.:* "Füqəra füyuzatı" 1920-1921 komplekti, Azərbaycan sovet ədəbiyyatı tarixi, 2cilddə, c.l, B., 1967; Axundov N., Azərbaycan dövri mətbuatı (biblioqrafiya), B., 1965.

**"FÜQƏRA SƏDASI"** - gündəlik leqal bolşevik qəzeti. 1-ci nömrəsi 1919 il avqustun 14-də, sonuncu 12-ci nömrəsi həmin il avqustun 28-də çıxmışdır. Turan mətbəəsində çap olunurdu. Redaktoru və naşiri Əliheydər *Qarayev* idi. Qəzetdə *S.C.Cavadzadə* (Pişəvəri), H.Sultanov, M.S.Ordubadi, H.Ziya və b. əməkdalıq edirdilər. "Füqarə sədası" Cümhuriyyətə qarşı açıq-aşkar düşmən mövqe tutaraq Hökuməti kəskin tənqid edirdi. Qəzetin 4-cü nömrəsindəki "Hökumət böhranı", 11-ci nömrəsindəki "Azərbaycanda vəziyyət" və bir sıra başqa materiallarında Cümhuriyyətin hakimiyyəti illərində ölkədə sinfi mübarizənin kəskinləşməsindən bəhs olunurdu."Füqarə sədası" Cümhuriyyət Hökumətinin guya xalqa zidd siyasət yeritdiyini kütlələrə aşılamağa çalışır, milli istiqlaliyyət əleyhinə çıxır, Sovet Rusiyasının "demokratik", inqilabi tədbirlərini, daxili və xarici düşmənlərə qarşı "müvəffəqiyyətli" mübarizəsini işıqlandırırdı. Xalqa və Hökumətə zidd mövqeyinə görə "Füqarə sədası" Cümhuriyyət Hökuməti tərəfindən bağlanmışdır.

*Əd.:* Axundov N., Azərbaycan dövri mətbuatı (1832-1920). B., 1987.

**"FÜYUZAT"** - həftəlik elmi, ədəbi, ictimai-siyasi, şəkilli jurnal. 1906 il noyabrın 1-dən, 1907 il noyabrın 1-dək Bakıda Azərbaycan dilində nəşr edilmişdir. Cəmi 32 nömrəsi çıxmışdır. "Füyuzat" Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə nəşr olunurdu. Jurnalın müdiri və baş mühərriri Əli bəy *Hüseynzadə* idi. Redaksiyası H.Z.Tağıyevin Nikolay (indiki İstiqlaliyyət) küçəsindəki evində yerləşir, "Kaspi" mətbəəsində çap olunurdu.

Müsəlman-türk vətəndaşlarını maarifləndirib, mədəni səviyyələrini yüksəltmək, ictimai və milli şüurunu oyadıb, dövlətçilik hisslərini qüvvətləndirmək, bu yolla siyasi birliyini yaradıb, xoşbəxt həyata qovuşdurmaq "Füyuzat"ın əsas amalını təşkil edirdi. Baş mühərrir jurnalın birinci sayında "Həyat və meyli-Füyuzat" adlı baş məqaləsində məsləki haqqında məlumat verərək yazırdı: "Füyuzat" ləfzən "feyz"in cəmi, əlcəməsi olub, rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqiyyat və kamalatın şəşeyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsl məfhumu səadət, ələlxüsus səadəti-mənəviyyədir. Həqiqi zövqü-səfalarından ibarət bir səadəti-mənəviyyədir. Həyat isə mənayi-batinisilə daimi bir meyli-səadət, bir meyli-Füyuzatdır".

"Füyuzat"ın ideya istiqamətini "turançılıq" ideologiyasının təbliği təşkil edirdi. "Türk dilinin vəzifeyi-mədəniyyəsi", "Türklər üçün şiveyi-ümumiyyə", "Lisan qovğası", "Məcnun və Leylayi-islam", "Müxtəsər bir cavab", "İntiqad ediyoruz, intiqad olunyoruz" məqalələrində Çin səd-dindən Səhrayi-Kəbirə qədər qurulması nəzərdə tutulan böyük "Turan" imperiyasının siyasi, inzibati və mədəni əsasları işlənib hazırlanmışdır. "Füyuzat"ın "türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa libaslı fədai" yetişdirmək düsturu "türk aləminin hər tərəfinə yayılmış", "türkləşmək, islamlaşmaq, müasirləşmək" şəklində Azərbaycanda milli azadlıq hərəkatının şüarına çevrilmişdi. Azərbaycan Cümhuriyyətinin dövlətçilik atributları "Məcnun və Leylayi-islam" əsərində müsəlmanlıq və türklüyün rəmzi kimi təsvir edilən "yaşıl rəngli şərarə", "ay-yıldızlı müzəyyən bir qırmızı örtü" və s. əsasında yaradılmışdır.

"Millətimizi... cəmi füyuzati-vicdaniyyəyə məzhər" etmək məqsədi izləyən "füyuzatçı"lar "fikir və zehni tənvir, ruh və qəlbi təhyic" etməklə, xalq kütləsinin maariflənməsi və milli şüurun oyanması işinə xüsusi diqqət yetirirdilər. Jurnalda Rusiya və dünya miqyasında cərəyan edən siyasi hadisələrə dair icmallar verilirdi. "İcmal", "Vəqiyyeyi-aləmə bir nəzər", "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar", "İkinci Dövlət Duması", "Kasablanka faciəsi və osmanlı-iranlı komediyası" və s. məqalələrdə azadlıqla irtica, inqilabla istibdad, Şərqlə Qərb, müsəlmanlıqla xristianlıq arasında gedən mübarizələrin mənzərəsi əks olunmuş, əsl həqiqət müsəlman vətəndaşlara aşkar edilmişdir.

"Füyuzat"da bədii ədəbiyyat mərkəzi yer tuturdu. Bir il ərzində jurnal 102 şeir, 3 pyes dərc etmiş, romantik ədəbiyyatın yaranmasına qüvvətli təsir göstərmişdir.

Azərbaycan xalqının mədəni üfüqlərini genişləndirmək, dünya ədəbiyyatını təbliğ etməklə milli ədəbiyyatın inkişafına yeni istiqamət vermək "Füyuzat"ın fəaliyyətində önəmli yer tuturdu. Jurnalda, ilk dəfə, yaradıcılıq metodu ("Qırmızı qaranlıqlar içində yaşıl işıqlar"), ədəbi prosesdə tənqidin rolu ("İntiqad ediyoruz, intiqad olunyoruz"), rus, Avropa, türk, fars klassiklərinin həyat və yaradıcılığı haqqında məlumat və məqalələr dərc edilmiş, ədəbiyyatşünaslıq məsələlərinə müasir mövqedən elmi-nəzəri aydınlıq gətirilmişdir. Jurnal Bayron, Höte, Heyne, Milton, Prudon, Şekspir, Tolstoy, Sədi, Hafiz və başqaların əsərlərindən tərcümələr dərc etməklə, azərbaycanlıların dünya klassiklərinin yaradıcılığı ilə ana dilində tanış olmasına imkan yaratmışdır.

"Füyuzat" Azərbaycanda milli istiqlal ideyalarının formalaşmasında mühüm rol oynamışdır.

*Əd.:* Hüseynzadə Ə., Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, B., 1996; İsrafilov H., "Füyuzat" və bədii ədəbiyyat. Ədəbiyyat məcmuəsi, B.,1999; Vəliyev Ş., "Füyuzat" ədəbi məktəbi, B., 1999; "Füyuzat" jurnalının biblioqrafiyası, B., 2002.

# G

**GEGEÇKORİ** Yevgeni Petroviç (1879-1954) - Gürcüstanın istiqlal hərəkatı xadimi, sosial-demokrat. 3-cü Dövlət dumasının deputatı olmuşdur (1907-12). Fevral inqilabından (1917) sonra Xüsusi Zaqafqaziya Komitəsinin üzvü idi. 1917 ilin noyabrında Zaqafqaziya Komissarlığının sədri seçilmişdir. 1918 ilin fevralında Zaqafqaziya seymi, Gegeçkori başda olmaqla, Zaqafqaziya hökumətini təşkil etmişdir. 1918 ilin aprelində yaradılan Ali Müdafiə Şurasına daxil idi. 1918 ilin mayından Gürcüstan Respublikasının xarici işlər naziri olmuşdur. Gürcüstanda Sovet hakimiyyəti elan edildikdən (1921) sonra Fransaya mühacirət etmişdir.

**GENERAL-KVARTİRMEYSTER** - Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyində yüksək vəzifəli zabit. Qoşun hissələrində əməliyyat və səfərbərlik, kəşfiyyat və əks-kəşfiyyat, rabitə xidmətinin təşkili işlərinə baxırdı (bax həmçinin *General-kvartirmeyster idarəsi).*

**GENERAL-KVARTİRMEYSTER İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun *Baş ərkani hərbinin* (qərargah) tərkibində mövcud olan idarələrdən biri. Əsası 1918 il noyabrın 15-də qoyulmuşdur. Hərbi nazirin həmin tarixli əmrinə əsasən, əvvəlcə şöbə kimi Ümumi qərargahın tərkibində, 1919 il martın sonlarında isə Baş ərkani hərbin tərkibində fəaliyyət göstərmişdir. Başlıca vəzifəsi qoşun hissələrinin komplektləşdirilməsi, onların döyüş hazırlığının təşkili, kəşfiyyat və əks-kəşfiyyat işlərinin aparılması idi.General-kvartirmeyster idarəsinin strukturu müntəzəm surətdə təkmilləşdirilmişdir. Onun ilkin strukturundakı səfərbərlik bölməsi hərbi mükəlləfiyyət haqqında sənədlərin hazırlanması, hərbi qeydiyyatın aparılması, səfərbərlik planlarının və cədvəllərinin tərtib edilməsi, hərbi strukturlarda və mülki təşkilatlarda səfərbərlik hazırlığının yoxlanması, könüllü, partizan, həmçinin digər dəstələrin qeydiyyatının aparılması, qoşun hissələrinin təşkili, onların idarə edilməsi, qoşunların döyüş hazırlığının gücləndirilməsi istiqamətində tədbirlərin müəyyənləşdirilməsi ilə məşğul olmalı idi.

General-kvartirmeyster idarəsinin əməliyyat bölməsinin qarşısında ümumqoşun hazırlığı, müdafiə xarakterli işlərin planlaşdırılması, əməliyyatların hazırlanması və həyata keçirilməsi kimi vəzifələr dururdu.

Qoşun hissələrindən döyüş rayonları haqqında məlumatlar toplanması, agentura şəbəkəsinin yaradılması və inkişafı, əks-kəşfiyyatın təşkili, hərbi attaşelərlə yazışmaların aparılması işləri ilə kəşfiyyat və əks-kəşfiyyat bölməsi məşğul olurdu.

General-kvartirmeyster idarəsinin tərkibində nizami bölmə və rabitə xidməti bölməsi də var idi. Hərbi nazirin 17 avqust 1919 il tarixli əmrinə əsasən, təşkili başa çatdırılmış 1 -ci və 2-ci zirehli qatarlar da Ümumi qərargahın tərkibindən çıxarılaraq general-kvartirmeyster idarəsinin tabeliyinə verilmişdi. 1920 ilin martında aparılan geniş islahatdan sonra yaradılmış Azərbaycan ordusu qərargahının struktur tərkibi kimi general-kvartirmeyster idarəsi də dəyişikliyə uğradı. Onun tərkibinə əməliyyat-kəşfiyyat bölməsi (rəisi polkovnik Hacıbəylinski), səfərbərlik və məhəlli qoşunlar şöbəsi (rəisi polkovnik Seyfullin), nizami və ümumi bölmə (rəisi podpolkov Hacıbəylinski), səfərbərlik və məhəlli qoşunlar şöbəsi (rəisi polkovnik Seyfullin), nizami və ümumi bölmə (rəisi podpolkovnik Maqrubov), hərbi əlaqələr-daşınmalar bölməsi (rəisi rotmistr Xudaverdov) şöbə və bölmələri və rabitə komandası daxil idi. General-kvar-tirmeyster idarəsinin rəisi polkovnik V.Karqaleteli idi (bu vəzifəni o, 1919 il iyulun 15-dən icra edirdi). Ondan qabaq bu vəzifəni polkovnik Sokolov və podpolkovnik Zeynalov icra etmişdilər. V.Karqaleteli Azərbaycan Hökumətinin 24 mart 1920 il tarixli qərarı ilə general-mayor rütbəsinə layiq görülmüşdü.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**GENOSİD** (yun. genos - nəsil, soy və lat. caedere - öldürmək) - 1) bütöv əhali qruplarının, etnosların irqi, milli, etnik, yaxud dini əlamətlərə görə tamamilə və ya qismən məhv edilməsi, soyqırımı. Müasir beynəlxalq hüquqda (BMT-nin 1948 il Konvensiyası və s.) genosidə beynəlxalq cinayət kimi baxılır; 2) 19-20 əsrlərdə erməni millətçiləri və daşnak terrorçu quldur dəstələri Şimali, Cənubi və Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisində) azərbaycanlılara, Şərqi Anadoluda isə türklərə qarşı dəfələrlə kütləvi genosid cinayətləri törətmişlər (ətraflı məlumat üçün bax *Soyqırımı).*



Şah Abbas məscidi

**GƏNCƏ** - Azərbaycanın qədim şəhərlərindən biri, Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı (1918 il iyunun ortaları - sentyabrın ortaları). Gəncə orta əsrlərdə bütün Yaxın və Orta Şərqdə çox mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi idi. Azərbaycan və dünya ədəbiyyatının dahi nümayəndəsi Nizami Gəncəvi bu şəhərdə doğulub, yaşayıb yaratmışdır. Gəncə Azərbaycanın dövlətçilik tarixində də böyük rol oynamış, yadelli təcavüzlərinə qarşı çox mühüm mübarizə mərkəzi idi. Nadir şah imperiyasının süqutundan sonra Gəncə eyni adlı Azərbaycan xanlığının mərkəzi olmuşdur. 1804 il yanvarın 3-də Cavad xanın başçılığı ilə Gəncədə işğalçı çar Rusiyası qoşunlarına qəhrəmancasına müqavimət göstərilmişdir. İşğalçılar şəhəri ələ keçirdikdən sonra Qafqazdakı rus qoşunlarının baş komandanı P.D.Sisianovun təklifi ilə Gəncə çar I Aleksandrın arvadı Yelizaveta Alekseyevnanın adı ilə Yelizavetpol adlandırılmışdı. Rusiya işğalçıları onlara inadlı müqavimət göstərmiş Gəncənin adını xalqın yaddaşından silmək üçün "Gəncə" sözünün işlədilməsini belə yasaq etmişdilər. Gəncənin işğalından sonra, 1804 il martın 2-də aparılmış kameral təsvirə görə, burada 213 ev, hər iki cinsdən olan 7303 nəfər (3922 kişi, 3381 qadın) əhali qeydə alınmışdı. Birinci dünya müharibəsi (1914-18) ərəfəsində şəhər 120 *kv.km* ərazini əhatə edirdi. Yaşayış evləri və təsərrüfat tikililərinin sayı 13 minə çatırdı. Qafqaz təqviminin (1917) məlumatına görə, şəhərdə 57731 nəfər əhali var idi. Onların 48592 nəfəri yerli sakinlər, 9139 nəfəri müvəqqəti yaşayanlar idi. Şəhər əhalisinin 28503 nəfərini kişilər, 29228 nəfərini qadınlar təşkil edirdi. Yelizavetpol eyni adlı dairənin, sonra isə qəza və quberniyanın mərkəzi olmuşdur. Şəhərdə dairə məhkəməsi yaradılmış, məhkəmə islahatından sonra (1868-69) bu orqan yenidən təşkil olunmuşdu. Burada əsas idarə orqanı polis idarəsi idi. 19 əsrin sonlarında Gəncədə şəhər duması fəaliyyətə başladı. Şəhərin iqtisadi həyatının əsasını sənətkarlıq və ticarət təşkil edirdi. Bakı-Tiflis dəmir yol xəttinin çəkilməsi (1883), dəmir yol stansiyası və depo tikintisi şəhərin iqtisadi həyatında ciddi dəyişikliklər yaratdı. Poçt-teleqraf əlaqəsi inkişaf etməyə başladı. 1887 ildə ilk telefon xətti çəkildi, 1910-11 illərdə Bakı və Tiflis şəhərləri ilə telefon əlaqəsi yaradıldı. Şəhərin sosial-siyasi və mədəni həyatında da dəyişikliklər baş verirdi. 1905-07 illər inqilabı dövründə Gəncə sosial-siyasi zülmə və müstəmləkə əsarətinə qarşı mübarizə mərkəzlərindən birinə çevrilməyə başladı. Ermənilərin azərbaycanlılara qarşı soyqırımına kəskin müqavimət göstərildi, siyasi təşkilatlanma sahəsində mühüm addımlar atıldı. *"Qeyrət"* (1905), *"Difai"* (1906), *"Müdafiə "* (1907) kimi siyasi partiya və təşkilatlar fəaliyyətə başladı. Xəlil bəy *Xasməmmədov,* Xudadat bəy *Rəfibəyli,* Həsən bəy *Ağayev,* Nəsib bəy *Yusifbəyli* və digər görkəmli siyasi xadimlər yetişdi. Şəhərdə sosial-demokrat qrupu və *"Hümmət"* təşkilatı da iş aparırdı. Fevral inqilabından (1917)

*Gəncə darvazasından fraqment.*
Usta İbrahim Osman oğlu



*Qədim Gəncə körpüsü*





Gəncə xanlığının gümüş abbasiləri. Gəncədə zərb edilmişdir (1775-76). Azərbaycan Tarixi Muzeyi.

sonra şəhərdə Yelizavetpol quberniyası icraiyyə komitəsi təşkil olundu, şəhər başçısı X.Xasməmmədov onun sədri seçildi. 1917 ilin martında Nəsib bəy Yusifbəylinin başçılığı ilə *Türk ədəmi-mərkəziyyət partiyası* yaradılmışdı. Bu partiya federativ şəkildə qurulacaq Rusiyada Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparırdı. Şəhərdəki Şah Abbas məscidinin həyətində ***"Yaşasın Demokratik Respublika", "Yaşasın Azərbaycanın muxtariyyəti"*** kimi şüarlarla mitinq keçirilmişdi. Apreldə Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayında da muxtariyyət ideyası müdafiə olunmuşdu. İcraiyyə Komitəsi ilə bərabər Fəhlə və Əsgər Deputatları Soveti də fəaliyyət göstərirdi. Bolşeviklər tədricən mövqelərini möhkəmləndirməyə çalışırdılar. Onların sırası ermənilər hesabına artırdı. Aprelin 10-da bolşeviklərlə menşeviklərin Rusiya Sosial-Demokrat Fəhlə Partiyası birləşmiş Yelizavetpol komitəsi yaradılmışdı. Oktyabr çevrilişindən (1917) sonra şəhərdə milli azadlıq ideyaları daha da gücləndi. Şəhər Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsində və onun erməni-daşnak və bolşevik qüvvələrindən azad edilməsində tarixi rol oynadı. 1918 il mayın 25-də Azərbaycanda təşkil olunan *Qafqaz İslam Ordusunun* komandanı *Nuru paşa* Gəncəyə gəldi və qərargahını formalaşdırmağa başladı.

Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması böyük ruh yüksəkliyi ilə qarşılandı, hökumətin Tiflisdən buraya köçürülməsi üçün tədbirlər görüldü. 18 günlük Tiflis fəaliyyətindən sonra Azərbaycan Milli Şurası və Hökuməti buraya köçdü. Gəncənin paytaxt olduğu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti əsas diqqəti Bakının azad edilməsi uğrunda mübarizənin təşkilinə yönəltdi. Hökumətin burada olduğu dövrdə bütövlükdə dövlət, o cümlədən şəhərin həyatına dair 120-dən çox müxtəlif qərarlar qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 22 iyun tarixli qərarı ilə Yelizavetpol şəhərinin ictimai idarəsinin fəaliyyətinin bərpasına başlandı, onun işinə kömək üçün 150 min manat faizsiz borc ayrıldı. 27 iyun tarixli qərarla Yelizavetpol şəhər milisi yerli idarəçiliyin tabeliyinə verildi, 11 iyul qərarı ilə Yelizavetpol hərbi mükəlləfiyyət idarəsi yaradıldı. Hökumətin 30 iyul tarixli qərarı ilə Yelizavetpol adı ləğv olundu, Gəncənin tarixi adı özünə qaytarıldı. Sentyabrın 15-də Bakı azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti həmin ayın 17-də Bakıya köçdü. Paytaxtın Bakıya köçürulməsinə baxmayaraq Gəncə ölkənin həyatında mühüm rol oynamaqda davam edirdi. *Mudros barışığına (1918)* əsasən, türk qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilis qoşunları ölkəyə daxil oldu. Gəncədə ingilis hərbi hissələri yerləşdirildi. İngilislərin tələbi ilə hərbi nazirlik də noyabrın 22-də Bakıdan Gəncəyə köçürüldü. Milli ordunun formalaşdırılması prosesi Gəncədə davam etdirildi, Qarabağda ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımlarına qarşı fəal mübarizə təşkil olundu. Gəncədə ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırımları üzündən qaçqın düşmüş azərbaycanlıların yerləşdirilməsində və onlara qayğı göstərilməsində mühüm

Cavad xan Ziyad oğlu. 19 əsrə aid xalça üzərindəki təsvir əsasında çəkilmişdir





*Gəncə xanlığının bayrağı. XVIII–XIX əsrlər*

iş görüldü. 1919 ilin əvvəllərində Gəncə və ətrafında 20 mindən çox qaçqın yerləşdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən sonra da Gəncənin problemlərinə xüsusi diqqət yetirməkdə davam edir, sosial-siyasi, iqtisadi və mədəni həyatın canlandırılması üçün tədbirlər görürdü. Hökumətin 1 oktyabr tarixli qərarı ilə Gəncə sənət məktəbi hərbi məktəbə çevrilmiş, bunun üçün müvafiq maddi vəsait ayrılmışdı. Şəhərdə xəstəliklərlə mübarizə və səhiyyənin təşkili də diqqət mərkəzində saxlanırdı. Parlament 1919 il yanvarın 25-də səpmə yatalaqla mübarizə üçün Gəncə şəhər özünüidarəsinə 450 min manat faizsiz borc verilməsi haqqında qanun qəbul etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirlərə baxmayaraq, antimilli qüvvələr, xüsusilə erməni daşnaklar və bolşeviklər pozuculuq fəaliyyətlərini davam etdirirdilər. 1919 ilin yazında Gəncədə Fərhad Əliyev başda olmaqla, Rusiya Kommunist (bolşeviklər) Partiyası dairə komitəsi yaradıldı. İyulun 13-də Gəncədə fəhlə konfransı işə başladı. Qəzada Cümhuriyyət Hökumətinə qarşı kəndli çıxışlarının qızışdırılmasına cəhd göstərilirdi.

*Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin binası. 1918, iyun–sentyabr*



Bakıda Sovet hakimiyyətinin qurulması Gəncədə vəziyyətə ciddi təsir göstərdi. Aprelin 28-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Gəncə dairə komitəsi F.Əliyevin sədrliyilə Quberniya İnqilab Komitəsi yaratdı. O, hakimiyyətin bolşeviklərə verilməsi haqqında Gəncə qubernatoruna ultimatum verdi. Ultimatum qəbul olundu və ayın 29-da hakimiyyətin Quberniya İnqilab Komitəsinə verilməsi haqqında akt imzalandı. Mayın 1-də 11-ci Qırmızı ordu hissələri Gəncəyə daxil oldu. Lakin Gəncə mübarizəni davam etdirirdi. Mayın 26-da Gəncədə sovet işğalına qarşı güclü üsyan baş verdi (bax *Gəncə üsyanı (1920)).* Bolşevik rejimi Gəncə üsyanını yalnız mayın 31-də yatıra bildi. Azərbaycan Sovet Sosialist Respublikası Hökuməti Gəncədə sovet hakimiyyətinin möhkəmləndirilməsi üçün cəza tədbirləri ilə yanaşı, inzibati-siyasi dəyişikliklər də həyata keçirdi. İyulun 3-də Gəncədə Qəza İnqilab Komitəsi yaradıldı. 1935 ildə Gəncə şəhəri S.M.Kirovun adı ilə Kirovabad adlandırıldı. Beləliklə, çar Rusiyası zamanında olduğu kimi, sovet dövründə də Gəncə özünün tarixi adın-

dan məhrum oldu. Sovet İttifaqı dağıldıqdan və Azərbaycanın istiqlaliyyəti bərpa olunduqdan (1991) sonra şəhərin tarixi adı yenidən özünə qaytarıldı.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Gəncə (tarixi çerk), B., 1994; İsayev Ə., Gəncə və gəncəlilər, B., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Бабаев Э., Из истории Гянджинского ханства, Б., 2003.

**GƏNCƏ AKSİZ İDARƏSİ** - Gəncə quberniyası və Zaqatala dairəsi üçün yaradılmış qurum. 1918 il oktyabrın 8-də təsis olunmuşdur. Zaqafqaziya Aksiz İdarəsinin Azərbaycan ərazisində mövcud olan və sonra ləğv edilmiş 3,5, 7-ci və qismən 4 və 6-cı aksiz dairələrini əvəz edən idarə məntəqələrə, məntəqələr isə rayonlara bölünmüşdü. Məntəqələrə nəzarət məntəqə müfəttişlərinə həvalə olunmuşdu.

**GƏNCƏ DAİRƏ MƏHKƏMƏSİ NƏZDİNDƏ HƏRBİ MƏHKƏMƏ YARADILMASI HAQQINDA QƏRAR** - 1918 il dekabrın 5-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmiş sənəd. Həmin qərara əsasən, Gəncə dairə məhkəməsi nəzdində hərbi məhkəmə yaradılmışdı. Tərkibinə sədr, iki üzv, prokuror, prokuror müavini, katib, katibin iki köməkçisi və dörd nəfər dəftərxana işçisi daxil idi.

**GƏNCƏ ƏKİNÇİLİK VƏ DÖVLƏT ƏMLAKI İDARƏSİ** - əkinçiliyin, digər kənd təsərrüfatı sahələrinin yayılmasına və təkmilləşdirilməsinə, dövlət əmlakının qorunmasına, xəzinə və töycü rüsumlarının toplanmasına, meşələrin mühafizəsinə rəhbərlik və nəzarət edən qurum. 1903 il mayın 1-də yaradılmışdı. Əkinçilik və dövlət əmlakı nazirliyinə tabe idi. 1918 ilin 2-ci yarısında idarə 1917 ilin sonu- 1918 ilin əvvəllərində baş vermiş hadisələrlə əlaqədar xüsusi mülkiyyətdə olan malikanələrə və torpaqlara, eləcə də dövlət əmlakına dəymiş ziyanı müəyyənləşdirməyə, torpaq və meşə sahələrində qayda yaratmağa başlamışdı.

Meşələrin amansızcasına qırılmasını dayandırmaq üçün ağac materiallarına və oduna kəndlər üzrə məhdudiyyət qoyulmuşdu. 1919 ilin əvvəlində 1919-20 illər üçün yeni smetalar tərtib edilmişdi. Meşə təsərrüfatı məsələlərini tam həll etmək üçün meşə sahələrinin qorunması, ağac materiallarının verilməsi qaydasının dəyişdirilməsi və s. haqqında qərarlar qəbul olunmuşdu. Torpaq və töycü sahəsində istər köçürülmüş rus kəndlilərinin, istərsə də yerli sakinlərin tərk etdikləri torpaqların müəyyən edilməsinə dair tədbirlər görülürdü. 1919 ildə xüsusi şəxslərin tərk etdikləri mülklərin və torpaqların qeydiyyatı həyata keçirilir, onlardan səmərəli istifadəyə dair tədbirlər işlənib hazırlanırdı.

İdarə xəzinə torpaqlarının gəlirliliyini artırmaq üçün xəzinə torpaqları, yerləri və otlaqlarından istifadə haqqını qaldırmışdı. İstifadə haqqı torpaq sahələrinin gəlirliliyi nəzərə alınmaqla müəyyənləşdirilmişdi. Meşə materiallarının da qiyməti qaldırılmışdı. Gəlirləri tam və düzgün hesablamaqdan ötrü hökumət 1920 il üçün xəzinə torpaqları və meşələrinin idarə olunmasına dair ətraflı smeta tutmuşdu.

Qarşıdakı aqrar islahatı düzgün aparmaq məqsədilə quberniyada torpaqlardan istifadəyə dair bir sıra cədvəl və siyahılar tərtib olunmuş, aqrar islahata aidiyyəti olan müxtəlif təsərrüfat məsələləri barədə arayışlar toplanmışdı.

**GƏNCƏ HƏRBİ MƏKTƏBİ**, Gəncə podpraporşiklər məktəbi - Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli hərbi kadrlar hazırlayan təhsil müəssisəsi. 1918 ilin iyununda Gəncədə fəaliyyətə başlamışdı. Hələ 1918 ilin əvvəllərində *Müsəlman korpusunun* komandanlığı Bakıda hərbi məktəb açmağı planlaşdırmışdı. Korpusun komandiri general Ə.Şıxlinski və qərargah rəisi polkovnik Menşukov 1918 il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına göndərdikləri raportda 1-ci müsəlman diviziyasının nəzdində Bakıda hərbi məktəbin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Məktəbdə, əsasən, 18-25 yaşlı müsəlmanlar, həmçinin Cənubi Qafqazda yaşayan ruslar təhsil ala bilərdilər. Hərbi məktəb 100 nəfər yunker üçün nəzərdə tutulmuşdu. Məktəbin təşkilati işləri Tiflisdə aparıldıqdan sonra Bakıya köçürülməsi qərara alınmışdı. 1918 il martın 1-də poruçik Nəsirbəyov hərbi məktəbin (rusca arxiv sənədlərində "Musulmanskaya şkola podpraporşikov" adlanır) rəisi təyin edildi. Bakıda azərbaycanlılara qarşı 1918 il mart soyqırımlarından sonra hərbi məktəbin Yelizavetpola (Gəncəyə) köçürülməsi qərara alındı. 1918 il aprelin 2-də əvvəlcə Yelizavetpol dəmir yolu məktəbinin binasında, aprelin 9-da isə sənət məktəbinin binasında yerləşdirildi. Az sonra Gəncə hərbi məktəbi yenidən bağlandı və onun zabitləri artıq polkovnik Maqalovun dəstəsində olan poruçik Nəsirbəyovun sərəncamına göndərildi.

1918 ilin aprelində Zaqafqaziya Komissarlığı daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin qoşunlarına qarşı polkovnik Maqalovun rəhbərliyi altında Hacıqabula silahlı dəstə göndərmişdi. Dəstəyə Gəncə hərbi məktəbinin zabit heyəti də cəlb edilmişdi. Məktəbin müvəqqəti bağlanması barədə əmrdə bildirilirdi ki, kursantlar könüllülük əsasında sanitar kimi dəstəyə cəlb oluna bilərlər. Azərbaycanın müstəqilliyi elan olunandan sonra məktəbin fəaliyyətinin bərpasına şərait yarandı. 1918 il iyunun əvvəlində türk hərbçilərinin yardımı və yaxından iştirakı ilə əsası Müsəlman korpusu tərəfindən qoyulmuş hərbi məktəb Gəncədə fəaliyyətə başladı. Məktəbə qəbul norması 100 nəfər olsa da, orada oxumaq istəyən azərbaycanlıların sayı xeyli çox idi. Təlim prosesinə Gəncədə olan türk hərbi qüvvələrinin zabitləri cəlb edilmişdi. Gəncə hərbi məktəbinə albay (polkovnik) Atif bəy rəhbərlik edirdi. 1918 ilin oktyabrında Gəncə hərbi məktəbinin ilk buraxılışı oldu. Bu, Azərbaycan ordusunun milli kadrlarla təmin edilməsində tarixi əhəmiyyətli bir hadisə idi.

Gəncə hərbi məktəbinin buraxılış mərasimində iştirak etmək üçün Nəsib bəy Yusifbəyli, Əlağa Şıxlinski, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy, Nuru paşanın atası Hacı Əhməd bəy və başqa rəsmi şəxslər Gəncəyə gəlmişdilər. 1918 il dekabrın 1-də Gəncə hərbi məktəbinin statusu dəyişdirildi və onun bazasında *Praporşiklər məktəbi* yaradıldı.



Gəncə Hərbi Məktəbinin zabit və əsgərləri. 1918

*Əd:.* Süleymanov M., Azərbaycanda ilk milli hərbiyyə məktəbi, B., 2000.

**GƏNCƏ XƏZİNƏ PALATASI** - Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə sistemi tərkibinə daxil olan qurum. Cümhuriyyət Hökumətinin 1918 il 11 oktyabr tarixli qərarı ilə ləğv olunmuş və həmin il oktyabrın 21-də yaradılmış Azərbaycan Xəzinə Palatasının tərkibinə daxil edilmişdir (bax həmçinin *Azərbaycan Xəzinə Palatası).*

**GƏNCƏ QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasında inzibati-ərazi vahidi. Rusiya imperiyası Gəncə xanlığını işğal etdikdən (1804 il, yanvar) sonra xanlıq ləğv edildi, Yelizavetpol dairəsi yaradıldı. Dairə Gürcüstan quberniyasının tərkibinə daxil edildi. 1840 il 10 aprel islahatı nəticəsində dairə qəzaya çevrildi. Yelizavetpol qəzası Gürcü-İmereti quberniyasının tərkibinə verildi. Qəza Yelizavetpol, Qazax, Şəmşəddil və Ayrım məntəqələrinə bölündü. Yelizavetpol qəzasında qəza idarə sistemi təşkil olundu. 1846 il 14 dekabr tarixli inzibati-ərazi bölgüsündən sonra Yelizavetpol qəzası yeni yaradılmış Tiflis quberniyasının tərkibinə daxil edildi. Çar II Aleksandrın 1867 il 9 dekabr tarixli fərmanı ilə Yelizavetpol quberniyası yaradıldıqda, Yelizavetpol qəzası Tiflis quberniyasından alınaraq onun tərkibinə verildi, yeni Qazax qəzası təşkil edildi. Qafqaz təqviminin (1917) məlumatına görə, qəzanın ərazisi 8726,0 *kv.verst* idi. Qəzada 214746 nəfər əhali yaşayırdı. Onların 191096 nəfəri yerli sakinlər, 23650 nəfəri müvəqqəti yaşayanlar idi. Əhalinin 111610 nəfəri kişi, 103136 nəfəri qadın idi. Azərbaycanlılar (140 mindən çox) əhalinin 65,2%-ni təşkil edirdi. Çarizmin köçürmə siyasəti nəticəsində qəzada 12,3 min rus yaşayırdı. Qəza əhalisi kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olurdu. Fevral inqilabından (1917) sonra Xəlil bəy Xasməmmədovun rəhbərliyi ilə icraiyyə komitəsi təşkil olundu. Oktyabr çevrilişindən (1917) sonra qəzada bolşeviklərin pozuculuq fəaliyyəti gücləndi. Cümhuriyyət Hökumətinin Yelizavetpola köçməsinin qəzanın da həyatında böyük rolu oldu. Hökumətin 1918 il 30 iyul tarixli qərarı ilə Yelizavetpol Gəncə adlandırıldıqdan sonra, qəza da, müvafiq olaraq, eyni adı aldı. Gəncə qəzasında sabitliyin yaradılması və iqtisadi inkişafın təmin edilməsi üçün tədbirlər görüldü. Bolşeviklər qəza əhalisinin əksər hissəsinin kəndlilərdən ibarət olduğunu nəzərə alaraq, kəndli hərəkatının genişləndirilməsinə çalışırdılar. Dövlət qəzanın idarəçiliyini təkmilləşdirmək məqsədilə Gəncə qəzasını iki yerə bölməyi qərara aldı. Parlament 1920 il aprelin 22-də Gəncə qəzasına daxil olan 34 kənd icması əsasında Şamxor qəza-

Gəncə qız məktəbinin binası




G Ü R C Ü S T A N
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
GƏNCƏ QƏZASI
Miqyas 1: 672 000
1.ZAQATALA MAHALI
2.GÖYCƏ MAHALI
3.CAVANŞİR QƏZASI
QAZAX QƏZASI
ƏRƏŞ QƏZASI
Gəncə
Yelenendorf
1
2
3


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
GÖYCƏ MAHALI
Miqyas 1:440 000
QAZAX QƏZASI
GƏNCƏ QƏZASI
CAVANŞİR QƏZASI
ERMƏNİSTAN
Basarkeçər
1.Şərur-Dərələyəz qəzası



Gəncə qəzasının gerbi. 1840.
Azərbaycan Tarixi Muzeyi



Gəncə quberniyasının gerbi. 1867.
Azərbaycan Tarixi Muzeyi

sının yaradılması haqqında qanun qəbul etdi. Lakin qısa müddətdən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Gəncə qəzası da sovetləşdirildi. 1929 ildə Azərbaycan SSR-də həyata keçirilən rayonlaşdırma zamanı Gəncə qəzası ləğv olundu.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Gəncə (tarixi oçerk), B., 1994; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Бабаев Э., Из истории Гянджинского ханства, Б., 2003.

**GƏNCƏ QUBERNİYASI** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə ən iri inzibati-ərazi vahidi. Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında 1867 il 9 dekabr tarixli çar fərmanı əsasında Yelizavetpol quberniyası yaradılmışdı. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi onun tərkibinə daxil edildi, yeni Qazax və Zəngəzur qəzaları yaradıldı. 1873 ildə Yelizavetpol quberniyası tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olundu. Sonralar Cəbrayıl qəzasına Azərbaycana qarşı işğalçılıq müharibəsində iştirak etmiş rus zabiti P.M.Karyaginin adı verildi. Qafqaz təqviminin (1917) məlumatına görə Yelizavetpol quberniyasında 4 şəhər (Gorus, Yelizavetpol, Nuxa, Şuşa) və 8 qəza (Ərəş, Cavanşir, Yelizavetpol, Zəngəzur, Qazax, Karyagin, Nuxa, Şuşa) var idi. Yelizavetpol quberniyasının ərazisi 38922,43 *kv. verst* idi. Quberniyada 1275,131 nəfər əhali yaşayırdı, onların 1213,626 nəfəri yerli sakinlər, 61505 nəfər müvəqqəti yaşayanlar idi. Əhalinin 676377 nəfəri kişi, 598754 nəfəri qadın idi. 156,044 nəfər (12,24%) şəhərlərdə, 1119,087 nəfər (87,76%) qəzalarda yaşayırdı. Əhalinin etnik tərkibi belə idi: azərbaycanlılar 783065 nəfər (61,41%), ruslar 36957 (2,90%) və s. Yelizavetpol quberniyasında quberniya idarə sistemi mövcud idi Quberniyanı hərbi qubernator, 1872 ilin martından isə qubernator idarə edirdi. Xanların, bəylərin, ağaların əlində 440,7 min, kəndlilərin əlində 124,3 min desyatin torpaq vardı. Əhali müxtəlif kənd təsərrüfatı sahələri (taxılçılıq ipəkçilik, üzümçülük, heyvandarlıq və s.), sənətkarlıq sənaye fəaliyyəti və ticarətlə məşğul olurdu. Quberniyada dağ-mədən və əlvan metallurgiya sənayesi müəssisələr (Yelizavetpol və Zəngəzur qəzaları) yerləşirdi. İpəkçiliyin əsas mərkəzi (Nuxa qəzası) də burada idi. Azərbaycan pambığının xeyli hissəsi Yelizavetpol quberniyasının pambıqtəmizləmə zavodlarında emal edilirdi. Üzümçülük və şərabçılıq inkişaf etmişdi. Birinci dünya müharibəsi (1914 18) quberniyanın iqtisadiyyatına ağır zərbə vurmuşdu. Fevral inqilabından (1917) sonra Yelizavetpolda və digər qəza şəhərlərində ictimai təşkilatların icraiyyə komitələri yaradılmış, quberniya və onun qəzalarına *Müvəqqəti hökumətin* komissarları təyin olunmuşdu. Bununla bərabər Yelizavetpolda Fəhlə və Əsgər Deputatları Soveti də yaranmışdı Eyni zamanda, qəza şəhərlərində (Şuşa, Nuxa, Karyagin və b. də sovetlər təşkil edilmişdi. Sovetlərdə bolşeviklərin nüfuzu zəif idi.

Yelizavetpol quberniyası Azərbaycan milli azadlıq hərəkatında mühüm yer tuturdu. 1905-07 illər inqilab dövründən genişlənən milli-siyasi təşkilatlanma davam edirdi. Milli azadlıq hərəkatının görkəmli xadimləri Nəsib bəy *Yusifbəyli,* Xəlil bəy *Xasməmmədov,* Xudadat bəy *Rəfibəyli,* Həsən bəy *Ağayev* və b. böyük iş aparırdılar Nəsib bəy Yusifbəyli 1917 ilin martında *Türk ədəmi-mərkəziyyət partiyasının* əsasını qoymuşdu. Milli azadlıq hərəkatına qarşı mübarizədə erməni-daşnak və bolşevik siyasi partiya və təşkilatları birləşərək, eyni mövqedən mübarizə aparırdılar. Oktyabr çevrilişindən (1917) sonra



Gəncə quberniya idarəsinin binası.
19 əsrin sonları – 20 əsrin əvvəlləri

Bakıda sovet hakimiyyətinin elan edilməsi milli azadlıq hərəkatının gedişində Yelizavetpol quberniyasının mövqeyini daha da möhkəmləndirdi. 5 (18) noyabrda Yelizavetpolda keçirilən Qafqaz müsəlmanlarının hərbi qurultayı azərbaycanlılardan ibarət hərbi hissələr yaradılması haqqında qərar çıxardı. Knyaz Maqalov başda olmaqla, müsəlman süvari polku yaradıldı. Cənubi Qafqazda Zaqafqaziya komissarlığı təşkil edildikdən sonra Yelizavetpol quberniyasında hakimiyyət milli şuralara keçdi. Milli hərbi hissələrin silahla təmin edilməsi üçün 1918 ilin yanvarında Qafqaz cəbhəsindən qayıdan rus qoşunları Şamxor stansiyasında tərksilah edildi. Apreldə *Zaqafqaziya Demokratik Federativ Respublikasının* yaranması elan edildikdə, Yelizavetpol quberniyası onun tərkibinə daxil oldu. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə quberniya onun əsasını təşkil etdi və Azərbaycan torpaqlarının bütünlüklə azad edilməsinin mərkəzinə çevrildi. İyunun 16-da Azərbaycan Milli Şurası və Hökuməti Yelizavetpola (Gəncəyə) köçdü. Azərbaycana hərbi yardım üçün dəvət olunmuş türk qoşunları da mayın axırı - iyunun əvvəllərində burada toplanmağa başladı. İyunun 17-də Gəncədə Fətəli xan Xoyskinin sədrliyi ilə 2-ci hökumət kabinəsi təşkil edildi. Hökumətin 30 iyul tarixli qərarı ilə Yelizavetpolun tarixi adı - Gəncə bərpa edildi. Bundan sonra quberniya da Gəncə quberniyası adlandırıldı. Gəncə şəhəri 1918 il iyunun 17-dən sentyabrın 17-dək olan dövrdə dövlətin paytaxtı oldu. Azərbaycan Xalq Cümhuriyyətinin inzibati-ərazi bölgüsündə mühüm yer tutan Gəncə quberniyası, keçmiş Yelizavetpol quberniyasına yeni əlavə edilmiş ərazilər hesabına xeyli genişləndirilmişdi. Bakı və Zaqatala quberniyalarının ərazisi istisna olmaqla, qalan 10 qəza (Qazax, Gəncə, Nuxa, Ərəş, Cavanşir, Şərur-Dərələyəz, Naxçıvan, Zəngəzur, Cəbrayıl, Şuşa) və 1 dairə (Göyçə) Gəncə ətrafında birləşmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti erməni separatizmi və azərbaycanlılara qarşı soyqırımı şəraitində ölkəni daha səmərəli idarə etmək üçün müvafiq vasitələrdən istifadə edirdi. 1919 il yanvarın 13-də *Qarabağ general-qubernatorluğu,* fevralın 28-də isə *Cənub-qərbi Azərbaycan general-qubernatorluğu* yaradılmışdı. Gəncə quberniyasını qubernator idarə edirdi.

Gəncə qız məktəbinin müəllim və şagirdləri.



Hökumətin 1919 il 30 mart tarixli qərarı ilə Gəncə qubernatoru İbrahim ağa *Vəkilova* general-mayor, köməkçisi Hüseynqulu xan *Xoyskiyə* isə polkovnik rütbəsi verilmişdi. İ.Vəkilov Azərbaycan ordusu Baş qərargahı Baş idarəsinin topoqrafiya şöbəsinin rəisi təyin olunduğuna görə, 6 may tarixli qərarla Xudadat bəy Rəfibəyli Gəncə qubernatoru təyin edilmişdi. Quberniyada quberniya idarəsi yaradılmışdı. Quberniya idarəsinə vitse-qubernator, müşavirlər, quberniya tibb müfəttişi, quberniya mühəndisi, memarı, yerölçəni daxil idi. Quberniya idarəsi geniş miqyaslı məsələlərlə məşğul olurdu: kəndlərdə vəzifəli şəxslərin seçilməsi və pay torpaqlarının sənaye müəssisələri və tikililər üçün ayrılması haqqında kənd icmalarının qərarlarını təsdiqləyir, inzibati-polis idarələri məmurlarının vəzifə cinayətləri haqqında işlərə, kassasiya şikayətlərinə və kənd məhkəmələrinin qərarlarına və s. baxırdı. İdarə ayrı-ayrı struktur hissələrindən ibarət idi: katiblik bölməsi, 1-ci bölmə (müşavir Mikayıl bəy İsrafilbəyov), 2-ci bölmə (müşavir Aleksandr Konstantinoviç Boqatko), zemstvo bölməsi (Georgi Yefimoviç Çernyayevski), həkim, baytar, tikinti (mühəndis Vasili Yakovleviç Aqunakov) bölmələri.

Cümhuriyyət Hökuməti Gəncə quberniyasının sosial-iqtisadi və mədəni inkişafına diqqətlə yanaşırdı. Erməni-daşnak quldur birləşmələrinin azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti nəticəsində İrəvan quberniyası qəzalarından qaçqın düşmüş azərbaycanlılar daha çox Gəncədə və onun ətrafında yerləşdirilmişdi. Onların ərzaqla təmin olunması və sağlamlıqlarının qorunması üçün tədbirlər görülmüşdü. Lakin düşmən qüvvələr bütün vasitələrdən istifadə edərək, quberniyada siyasi sabitliyi pozmağa cəhd göstərirdi. Bu sahədə xüsusilə fərqlənən bolşeviklər, quberniyanın xüsusiyyətini nəzərə alaraq, burada kəndli hərəkatının genişləndirilməsinə çalışırdılar. Hələ 1917 ilin dekabrında Qovlar stansiyasında bolşevik Müseyib Əliyevin evində S.Şaumyan və H.Sultanovun iştirakı ilə gizli müşavirə keçirilmişdi. 1918 ilin yanvarında Bakı komitəsinin göstərişi ilə Məşədi Əzizbəyov də Gəncəyə gəlmiş, buradakı vəziyyət haqqında "Hümmət"in iclasında çıxış etmişdi. Cümhuriyyət dövründə də bu pozuculuq işləri davam etdirilirdi. 1919 ilin yazında Gəncədə F.Əliyevin başçılığı ilə Rusiya Kommunist (bolşeviklər) Partiyasının gizli dairə komitəsi təşkil olunmuşdu. Gəncə quberniyasında fəhlə və kəndlilər Hökumətə qarşı çıxışlara təhrik edilirdi. 1919 ilin yanvarında Gəncə quberniyası dəmiryolçularının tətili baş vermişdi. Qatır Məmmədin rəhbərlik etdiyi və Cümhuriyyət Hökumətinə qarşı çevrilmiş qaçaq hərəkatı təhlükəli şəkil almışdı. 1920 il aprelin 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin süqutu və Azərbaycan Sovet Sosialist Respublikasının qurulmasının elan edilməsi Gəncə quberniyasında vəziyyətə təsir göstərdi. Elə həmin gün F.Əliyevin sədrliyi ilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Gəncə Dairə Komitəsi Quberniya İnqilab Komitəsini yaratdı və hakimiyyətin təhvil verilməsi haqqında Gəncə qubernatoruna ultimatum verdi. Ultimatum qəbul olundu. Aprelin 29-da hakimiyyətin Quberniya İnqilab Komitəsinə verilməsi

*Gəncə oğlan gimnaziyası. 19 əsrin sonları – 20 əsrin əvvəlləri.*



haqqında akt imzalandı. Mayın 1-də 11 -ci Qırmızı ordu hissələri Gəncəyə daxil oldu. Lakin Gəncə quberniyasında sovet hakimiyyəti güclü müqavimət hərəkatı ilə üzləşdi. Gəncədə, Qarabağda və digər bölgələrdə sovet bolşevik işğalına qarşı üsyanlar baş verdi (bax *Gəncə üsyanı (1920)).* 11-ci ordu hissələri bu üsyanları amansızlıqla yatırdı, sovet hakimiyyəti bərpa olundu. Gəncə quberniyası ləğv edildi.

*Əd.*: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). c.1-2, B,, 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B, 1960; Gəncə (tarixi oçerk), B., 1994; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**GƏNCƏ MÜƏLLİMLƏR SEMİNARİYASI** - Azərbaycanda müəllim kadrları hazırlayan ilk seminariya (1914). İki il sonra belə bir seminariya Bakıda da fəaliyyətə başlamışdı. 1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sorğusuna cavabında xalq maarifi nazirliyi bildirirdi ki, Cümhuriyyət hakimiyyəti yaranana qədər Azərbaycanda yeganə olaraq Gəncə şəhərində müəllimlər seminariyası fəaliyyət göstərmişdir. Cümhuriyyət Hökuməti həmin müəllimlər seminariyasını milliləşdirmişdi. Xalq maarifi nazirliyinin 1919 il üçün məlumatında nazirlik sistemində üç müəllimlər seminariyasının - Gəncə və Qazaxda kişi, Bakıda isə qadın seminariyalarının olduğu bildirilirdi.

Gəncə müəllimlər seminariyasında azərbaycanlılarla yanaşı, Daşkənd və Səmərqənd şəhərlərindən gəlmiş özbək gəncləri də təhsil alırdı. Yusif Məmmədəliyev, Mikayıl Rzaquluzadə, Əhməd Cavad Gəncə seminariyasında dərs demiş, Həmid Araslı, Mir Cəlal və b. görkəmli ziyalılar bu seminariyanı bitirmişlər. Seminariya 1927 ildə qız seminariyası ilə birləşdirilmiş və Gəncə pedaqoji texnikumu adlandırılmışdı.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001.

**GƏNCƏ MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ**- qeyri-hökumət humanitar qurumu. Ələkbər bəy *Rəfibəylinin* təşəbbüsü ilə yaradılmışdı. Nizamnaməsi 1906 il iyunun 30-da Gəncə qubernatoru tərəfindən təsdiq edilmişdi. Cəmiyyət idarə heyəti və ümumi iclas tərəfindən idarə olunurdu. Nizamnaməyə görə, idarə heyəti sədr, onun müavini, xəzinədar, katib və cəmiyyət üzvləri sırasından ümumi iclasda bir il müddətinə seçilən 3 üzvdən ibarət idi. Cəmiyyətin 4 nəfər ömürlük-fəxri üzvü vardı. Nizamnamədə cəmiyyətin kasıb müsəlman uşaqlarının Rusiya və onun hüdudları xaricindəki orta və ali təhsil müəssisələrinə daxil olub oxumalarına, habelə xəstəxana və başqa səhiyyə ocaqlarında müalicə olunanlara yardım etmək məqsədilə yaradıldığı göstərilirdi.

Cəmiyyətin vəsaiti üzvlük haqlarından, habelə şəhər sakinlərinin köçürdüyü ianələrdən, cəmiyyətin təşəbbüsü və iştirakı ilə keçirilən tamaşalardan, konsert və rəqs gecələrindən və s.-dən əldə edilən gəlirlərdən ibarət idi. Xeyriyyə məqsədi ilə keçirilən hər bir konsert və ya digər tədbir üçün əvvəlcədən Gəncə qubernatorundan icazə alınmalı idi. Cəmiyyət şəhərdəki ikisinifli müsəlman mək-

*Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyəti*



təbinin şagirdlərinə, Qarabağ və Zəngəzurda erməni-daşnaklar tərəfindən soyqırıma məruz qalmış türk-müsəlman əhaliyə yardım məqsədilə tamaşalar və konsertlər təşkil edirdi.

Cəmiyyət Novruz bayramında Gəncənin 18 məhəlləsində ehtiyacı olan 2163 nəfərə 5292 manatlıq, Mövlud bayramında isə 2748 nəfərə 5496 manatlıq miqdarında yardım göstərmişdi. Cəmiyyət Gəncədə əhalinin kasıb təbəqələri üçün xüsusi ərzaq mağazası açmışdı.

**GƏNCƏ MÜSƏLMAN MİLLİ KOMİTƏSİ** - qeyri-hökumət ictimai təşkilatı. Fevral inqilabından (1917) sonra Azərbaycanın Bakı və digər şəhərləri ilə yanaşı, Gəncədə də Müsəlman Milli Komitəsi yaradılmışdı. Ölkədə hakimiyyətsizlik və anarxiyanın hökm sürdüyü 1917-18 illərdə (Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncəyə köçənə qədər) başqa yerlərdə olduğu kimi, Gəncədə də azərbaycanlıların vəziyyəti və onların müdafiəsi ilə əlaqədar bütün məsələlər bilavasitə bu komitə tərəfindən həll edilirdi. Gəncə Müsəlman Milli Komitəsinə Nəsib bəy *Yusifbəyli* başçılıq edirdi. Ələkbər bəy *Rəfibəyli,* Xəlil bəy *Xasməmmədov,* Həsən bəy *Ağayev,* Aslan bəy *Səfikürdski,* Məmmədbağır *Şeyxzamanlı* və b. Milli Komitənin üzvləri idilər. Komitənin silahlı mühafizə dəstələri yaradılmışdı. Qaçaq Qəmbər, Sarı Ələkbər kimi nüfuzlu qaçaqlar Komitəni müdafiə edirdilər.

1918 ilin birinci yarısında erməni-daşnaklarının xalqımıza qarşı soyqırımlarının qarşısını almaq üçün Gəncədəki Müsəlman Milli Komitəsi xüsusi fəallıq göstərmişdi. Məhz Gəncə Müsəlman Milli Komitəsinin səyləri nəticəsində şəhərdə və qəzada ermənilərin törətdikləri qırğınların qarşısı alınmışdı. Onlar hətta şamaxılıların da köməyinə getmişdilər.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il iyunun 16-da Gəncəyə köçdükdən sonra, iyunun 27-də Gəncə Milli Komitəsinin sərəncamındakı bütün ərzaq ehtiyatının ərzaq nazirliyinə təhvil verilməsi barədə qərar qəbul etdi. Hökumətin 1918 il 7 iyul tarixli digər qərarı ilə daxili işlər, maliyyə və ərzaq nazirliklərinə Gəncə Müsəlman Milli Komitəsini ləğv etmək, onun əmlakını aşkarlamaq və qəbul etmək üçün xüsusi ləğvetmə komissiyası yaratmaq. Hökumətin həmin gün qəbul etdiyi digər qərarında isə daxili işlər nazirliyinə tapşırılırdı ki, Azərbaycan Xalq Cümhuriyyəti ərazisində dövlət hakimiyyət orqanları yaradıldıqca, həmin ərazilərdəki milli komitələri ləğv etsin.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**GƏNCƏ ŞƏHƏR ÖZÜNÜİDARƏSİ** 1892 ildə yaradılmış şəhər idarəetmə orqanı. 1917-18 illərdəki hərbi əməliyyatlar, soyqırımları, hərc-mərclik və anarxiya dövründə fəaliyyətini dayandırmışdı.

1918 il iyunun 22-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncə şəhər başçısının müavininə şəhər özünüidarəsini çağırmaq və dərhal öz işinə başlamaq barədə tapşırıq verdi. Lakin son illərin hadisələri nəticəsində şəhər təsərrüfatının tənəzzülə uğraması, ölkədəki maliyyə böhranı, şəhərdə çoxsaylı qaçqınların olması və epidemiyalar şəhər idarəsinin fəaliyyətini əngəlləyirdi. Buna görə də Gəncə şəhər özünüidarəsinə kömək məqsədilə hökumət dəfələrlə xəzinədən vəsait ayırmalı olmuşdu.

1919 il yanvarın 25-də Azərbaycan Parlamenti səpmə yatalaq epidemiyası ilə mübarizə üçün Gəncə şəhər özünüidarəsinə 450 min manat faizsiz borc ayrılması barədə qərar qəbul etdi. Hoyabrın 1-də Gəncə sakinlərinə tibbi yardım üçün daha 50 min manat ayrıldı. Noyabrın 5-də isə səpmə yatalaq xəstəliyinə tutulmuş qaçqınlara tibbi yardımdan ötrü yenidən vəsait ayrılmışdı. Yaxınlaşan aclıqla mübarizə məqsədilə 1919 il mayın 25-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti təkcə taxıl və digər zəruri ərzaq məhsulları alınmasına 1 milyon manat məbləğində faizsiz borc verilməsi barədə qərar qəbul etdi.

Azərbaycan şəhərlərinin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün 1919 il iyulun 27-də "Gətirilən və aparılan yüklərdən şəhərlərin xeyrinə pud hesabı ilə rüsumlar toplamaq haqqında müvəqqəti qaydalar" barədə qanun qəbul olundu. Dekabrın 10-da isə hökumət Gəncə şəhər özünüidarəsinə bu qanunda nəzərdə tutulan şərtlərlə 1921 il yanvarın 1-dək, yəni 1919 il 27 iyul tarixli qanunun qüvvədə olduğu vaxtadək, şəhərin xeyrinə rüsumlar toplamağa icazə verdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti şəhər dumasına seçkilər və deputatların saxlanılması xərcləri üçün də vəsait ayırmışdı. Hökumətin şəhərə kömək üçün xəzinədən dəfələrlə xeyli vəsait ayırmasına baxmayaraq, Gəncə şəhər özünüidarəsi o zamankı mürəkkəb tarixi şəraitdə fəal və səmərəli fəaliyyət göstərə bilmirdi. Şəhər özünüidarəsinin fəaliyyətinə Gəncə qubernatoru və daxili işlər naziri nəzarət edirdilər.

**GƏNCƏ ŞƏHƏR POLİS İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə şəhəri üzrə polis qurumu. 1917 il aprelin 27-də Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən ləğv edilmiş Gəncə şəhər polis idarəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə bərpa olundu. Hökumətin 1918 il 23 iyun tarixli qərarına əsasən, iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyası üzrə polis əməkdaşlarının müvəqqəti maaşları müəyyən edildi. Qəza polisinə daxili işlər naziri tərəfindən təyin olunan qəza rəisi başçılıq edirdi.

Gəncə qəzası 4 polis məntəqəsinə bölünmüşdü. Bu məntəqələrə pristavlar başçılıq edirdilər. Onların tabeliyindəki polis nəzarətçiləri asayişin, təhlükəsizliyin təmin olunması və abadlıq işləri üçün məsuliyyət daşıyır, müvafiq yuxarı hakimiyyət orqanlarının göstərişlərini yerinə yetirirdilər. Pristavları qubernator, qalan polis işçilərini isə qəza rəisi təyin və azad edirdi.

**GƏNCƏ ŞƏHƏRİNİN ADININ BƏRPASI BARƏDƏ QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin tarixi adların bərpa olunması barədə qəbul etdiyi qərarlardan biri. 1804 il yanvarın 3-də rus qoşunları Gəncəni işğal etdikdən sonra şəhərin adı dəyişdirilərək rus çarı I Aleksandrın arvadı Yelizavetanın adı ilə Yelizavetpol adlandırılmışdı.

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918 il 30 iyul tarixli qərarı ilə ədalətsizlik ləğv olunaraq Gəncə şəhərinin adı bərpa edilmişdi.

**GƏNCƏ ÜSYANI (1920)** - sovet işğalına qarşı 1920 il mayın 26-31-də Gəncədə baş vermiş xalq üsyanı. Üsyan Azərbaycanın işğal edilməsinə, onun dövlət müstəqilliyinə son qoyulmasına qarşı xalqın ən kütləvi və mütəşəkkil müqaviməti idi. ***"Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən qəsbi-etibar qazandığı bir dastandır"*** (Ceyhun Hacıbəyli). Üsyanın təşkilatçıları və istiqamətverici qüvvəsi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri idi. Mayın 23-də üsyan başçılarının sonuncu müşavirəsi keçirildi. Müşavirədə Azərbaycan ordusunun təchizat rəisi general Məhəmməd Mirzə *Qacar,* 1 -ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy *Şıxlinski,* süvari diviziyasının komandiri Teymur bəy *Novruzov,* 3-cü Şəki süvari alayının komandiri polkovnik Cahangir bəy *Kazımbəyov* və başqaları iştirak edirdilər.

Üsyanın təşkilində başlıca olaraq, Azərbaycan ordusunun 1-ci piyada diviziyası, 3-cü Gəncə alayının şəhərdə olan bölmələri, 3-cü Şəki süvari alayının təlim komandası, bir topçu batareyası, diviziya qərargahına tabe olan komendant bölməsinin şəxsi heyəti iştirak edirdi. Qaçaq Qəmbər, Sarı Ələkbər, qaçaq Qasım Kolaxani, qaçaq Mikayıl və başqaları da öz silahlıları ilə birlikdə Gəncə üsyanında iştirak edirdilər. Şəhər əhalisindən qoşuları könüllülərlə birlikdə üsyançıların sayı 10 mindən artıq idi.

Üsyan ərəfəsində şəhərin daxilində və ətrafında 11-ci Qrrmızı ordunun 20-ci atıcı diviziyasının hissələri mövqe tutmuşdu. Diviziyanın 178-ci və 180-ci atıcı alayları şəhərin erməni məhəlləsində, 3-cü briqadanın rabitə taboru və komendant bölməsi isə şəhərin azərbaycanlılar yaşayan məhəlləsində idi. 40-cı süvari briqadası Zurnabad kəndinin ətrafında dayanmışdı. Mayın 25-də Taman süvari briqadasının 2-ci alayı da Gəncəyə gətirildi.




Üsyan 1920 il mayın 25-dən 26-na keçən gecə başladı. Üsyançılar qısa müddətdə şəhərin mühüm obyektlərini, azərbaycanlılar məhəlləsindəki qırmızı qoşun hissələrini nəzarət altına götürdülər. Hərbi anbar, şəhər həbsxanası, dəmir yolu stansiyası, fövqəladə komissarlığın binası da ələ keçirildi. Üsyanın başlama tarixinin seçilməsi də təsadüfi deyildi. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 2 ili tamam olurdu. Həmin gün Gəncə üsyanının rəhbərləri və şəhər ictimaiyyəti dairə məhkəməsinin binasına toplaşıb, Azərbaycanın istiqlaliyyətinin elan olunmasının iki illiyini qeyd etdilər.

11-ci Qırmızı ordu komandanlığı üsyanın yatırılması üçün təcili tədbirlər gördü. Üsyan başlanan kimi 179-cu alay və 20-ci diviziyanın süvari briqadası dərhal Gəncəyə gətirildi. Mayın 28-də 18-ci süvari diviziyası da Zaqatala bölgəsindən gətirilərək, Gəncə ətrafında yerləşdirildi. Mayın 29-da kifayət qədər möhkəmləndirilmiş qırmızı qüvvələrin üsyançılar üzərinə hücumu uğursuzluqla başa çatdı. Bir neçə istiqamətdən həyata keçirilən hücumda bolşevik qüvvələri qarşıya qoyduqları vəzifəni yerinə yetirə bilmədilər. Əksinə, üsyançıların əks-hücumları bolşevik qüvvələrini ağır vəziyyətə saldı. Belə olduqda 11-ci Qırmızı ordu komandanlığı Gəncəyə əlavə qüvvələr gətirməyi qərarlaşdırdı. 20-ci diviziyanın Gürcüstan sərhədində olan 2-ci briqadası, Bakıdakı zirehli avtodivizion Gəncəyə göndərildi. Mayın 30-da növbəti döyüşlər başlamazdan əvvəl 11-ci Qırmızı ordunun Gəncədə 5 piyada alayı, 6 süvari alayı, 7 əlahiddə hissə və dəstələri, 57 ədəd topu və 2 zirehli avtomobili var idi. Bu qüvvələrin çoxu şəhərin şimalında yerləşdirildi və mayın 31-də əsas hücum buradan başladı. Hücumun bütün istiqamətlərdən gücləndirilməsi, çoxlu sayda topların və zirehli avtomobillərin işə salınması şəhərdə son dərəcə böyük dağıntılara səbəb oldu. Yalnız bundan sonra vətənin azadlığı uğrunda ölüm-dirim mübarizəsinə girən üsyançıların müqavimətini qırmaq mümkün oldu. Onlara dəhşətli divan tutuldu. Şəhəri tərk etmək imkanları olmayan üsyançılar, habelə dinc əhali mühasirəyə alınaraq kütləvi şəkildə güllələndilər. Üsyan yatırıldıqdan sonra Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu bolşeviklər tərəfindən güllələndi.

Gəncə erməniləri və silahlı daşnak dəstələri üsyançılara divan tutulmasında bolşeviklərə növbəti dəfə xidmət göstərdilər.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; İbişov F., Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). B., 1996.

**GƏNCƏ YUNKER MƏKTƏBİ** Azərbaycan Xalq Cümhuriyyəti ordusu üçün milli hərbi kadrlar hazırlayan təhsil müəssisəsi (bax *Gəncə hərbi məktəbi).*

**"GƏNCLƏR YURDU"** - Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan (1918, 28 may) sonra nəşrə başlayan ictimai-siyasi jurnal; *"Müsavat"* partiyasının nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanı. 1918 ilin iyunundan noyabrın 15-dək (əvvəlcə həftəlik, sonra isə ayda 2 dəfə) Bakıda Azərbaycan dilində nəşr olunmuş, cəmi 35 nömrəsi çıxmışdır. Redaktorları T.F.Hacızadə və Mirzəbala Məmmədzadə idilər. Jurnalda gənc ədəbi qüvvələrin milli istiqlalın, müstəqilliyin qorunmasına çağırış ruhlu şeirləri, ictimai həyatın müxtəlif məsələləri, xüsusilə gəncliyin problemləri ilə bağlı yazıları çap edilirdi.



Ağasadıq Gəraybəyli *"O olmasın, bu olsun" ("Məşədi İbad") filmində Rüstəm bəy rolunda*



**GƏRAYBƏYLİ** Ağasadıq Ağəli oğlu (15.3.1897, Şamaxı - 5.12.1988, Bakı) - teatr xadimi, aktyor. Azərbaycan xalq artisti (1940). 1910-12 illərdə Bakıda Hüseyn Ərəblinskinin rəhbərlik etdiyi həvəskar dram dərnəyində, sonralar *"Nicat", "Səfa"* cəmiyyətlərinin, Zülfüqar və Üzeyir Hacıbəyli qardaşlarının teatr truppası-dəstələrində çıxış etmiş, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Üzeyir Hacıbəylinin əsərlərində yaddaqalan surətlər yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Ağasadıq Gəraybəyli Bakıda və onun ətraf rayonlarında, Azərbaycanın digər ərazilərində həyata keçirilən bir sıra mədəni-maarif tədbirlərinin iştirakçısı olmuş, eyni zamanda türk dram teatrının repertuarındakı əsərlərdə çıxış etmiş, xeyriyyə tamaşaları göstərmişdir.

*Aprel işğalından (1920)* sonra Azad Tənqid-Təbliğ Teatrının, sonralar isə Azərbaycan Dram Teatrının aktyoru olmuş, unudulmaz səhnə obrazları yaratmışdır.

***Əd.:*** Rəhimli 1, Ağasadıq Gəraybəyli, B., 1979.



**GİNDES** Yevsey Yakovleviç (1872, Kiyev - 1952, Bakı) - görkəmli həkim-pediatr, Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq səhiyyə naziri. Kiyev Universitetinin tibb fakültəsini bitirmiş (1897), Kiyevdə professor Çernovun uşaq klinikasında ordinator (1897-1905), Aleksandr xəstəxanasının yoluxucu xəstəliklər uşaq klinik şöbəsinin müdiri (1902-05) işləmişdir. 1905 ildə Bakıya köçmüş, neft sənayeçiləri qurultayı şurasının Qaraşəhərdəki xəstəxanasının uşaq şöbəsinin müdiri (1905-14), 1914 ildən isə uşaq xəstəxanasının direktoru və baş həkimi olmuşdur (bu xəstəxana 1922 ildən Pediatriya İnstitutuna, sonralar isə Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilmişdi). Gindes uşaq sümük vərəmi evinin - Zuğulbadakı sanatoriyasının təşkilatçısı və baş həkimi olmuşdur (1913-30). Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fətəli xan Xoyskinin 3-cü Hökumət kabinəsində xalq səhiyyə naziri işləmişdir. Slavyan-rus cəmiyyətinin üzvü idi. Gindes Bayıldakı uşaq xəstəxanasının təşkilatçısı və baş həkimi olmuş (1932-45), 1941 ildə dissertasiya müdafiə etmədən tibb elmləri doktoru, professor təsdiq edilmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda uşaq xəstəlikləri kafedrasının professoru (1945-52) olmuşdur. Qafqazda ilk uşaq məsləhətxanası, süd məhsulları ("Süd damcısı") mətbəxi (fəhlə rayonları olan Bayılda və Sabunçuda filialı var idi) təşkil etmişdir. O, Bakıda ilk dəfə məktəb şagirdləri üçün uşaq yay düşərgələri təşkil etmiş (1906), fəhlə uşaqları üçün körpələr evi açmışdır. Bakıda Gindesi "Uşaq allahı" adlandırırdılar. 150-dən artıq əsərin müəllifidir. Gindesə Azərbaycanın əməkdar həkimi adı verilmişdir.

**GORANİ** Əsgər ağa, Adıgözəlov Əsgər ağa Haqverdi ağa oğlu (3.6.1857, Yelizavetpol quberniyası, Goran k.- mart, 1910, Gəncə) - yazıçı, ictimai xadim, maarifçi, teatr xadimi. Tarixçi Mirzə Adıgözəl bəyin nəvəsidir. 1874 ildə Bakı realnı məktəbini qızıl medalla bitirmişdir. 1873 ildə məktəbdə Həsən bəy Zərdabinin təşəbbüsü, Nəcəf bəy Vəzirovun rəhbərliyi ilə hazırlanmış Mirzə Fətəli Axundzadənin "Mərdi-xəsis" ("Hacı Qara") komediyasının ilk tamaşasında baş rolda oynamışdır.



Təhsilini Moskvada Petrovski-Razumovski kənd təsərrüfatı və meşəçilik akademiyasında davam etdirmişdir. Tələbəlik illərində siyasi fəaliyyətə başlamış, azərbaycanlı gənclərin yaratdıqları "İmdadiyyə" cəmiyyətinin fəal üzvlərindən olmuşdur. "Əkinçi"nin redaksiyası ilə sıx əlaqə yaratmış, orijinal məqalələr yazmış və Azərbaycanda kəndli təsərrüfatlarının dirçəldilməsinə kömək edən materialları rus dilindən tərcümə edib, nəşr olunmaq üçün qəzetə göndərmişdir. Həsən bəy Zərdabi ilə müntəzəm məktublaşır, gələcəkdə xalq maarifini inkişaf etdirmək üçün nəzərdə tutduğu tədbirləri onunla müzakirə edirdi. 1878 ildə akademiyanı torpaqşünas ixtisası üzrə bitirsə də, Qafqazda aqrar münasibətlərdə hərc-mərclik hökm sürdüyündən ixtisası üzrə işləməmişdir. Ədliyyə orqanlarında fəaliyyət göstərmiş, Kutaisi və Tiflis dairə məhkəmələrində prokuror müavini vəzifəsində çalışmış, Suxumi, Gəncə və Cəbrayılda mühüm ədliyyə xidmətləri icra etmişdir.

1905 ildə Gəncə şəhər bələdiyyə idarəsinin sədri vəzifəsinə seçilmiş, beş illik fəaliyyəti ərzində iki oğlan, bir qız məktəbi, bir ümumi, bir sarılıq xəstəxanası açmış, şəhərdə abadlıq işləri aparmış, Nizami Gəncəvinin məqbərəsini təmir etdirmişdir.

Gorani bədii yaradıcılıqla müntəzəm məşğul olmuşdur. O, Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza hücumlarını təsvir edən "Qara yel" tarixi romanının, "Hənək, hənək, axırı dəyənək" pyesi və "Qocalıqda yorğalıq" vodevilinin, A.S.Puşkin və M.Y.Lermontovdan tərcümələrin müəllifidir.

Gorani öz həmfikirləri və müasirləri kimi Azərbaycanda milli azadlıq hərəkatının yüksəlişində mühüm rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən milli azadlıq hərəkatının tarixi Goraninin mənsub olduğu ziyalı nəslinin maarifçilik fəaliyyəti ilə sıx bağlıdır.

Əsərləri: Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX - XX əsrlər), 3 cilddə, c.1 (tərtib edənlər: Xeyrulla Məmmədov, Ağahüseyn Həsənov), B., 2001; Pyeslər (tərtib edəni Dilarə Məmmədova), B., 1984.

*Əd.:* Qasımzadə F., XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, B., 1974; Tarverdiyeva G., Əsgər ağa Gorani, B., 1977; Zeynalov A., "Kəşkül" qəzetində ədəbiyyat, B., 1978.

**GÖMRÜK XİDMƏTİ DƏSTƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə yaradılmış sərhəd mühafizə və yoxlanış qurumları. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yol stansiyasında sərhədi qaçaqmalçılıqla ərzaq keçirilməsindən qorumaq məqsədilə gömrük postları yaradılmışdı.

Parlamentin 1918 il 18 avqust tarixli qanununa əsasən, qaçaqmalçılıqla mübarizə, Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 post yaradılmışdı və bunlarda 992 muzdlu keşikçi vardı. Zabit komanda heyəti olan postlar quberniyalar üzrə sərhəd mühafizəsi rəislərinin tabeliyində birləşirdilər. Sərhəd mühafizəsinin təşkilinə rəhbərlik etmək və onun işini gömrük idarəsi ilə uzlaşdırmaq üçün maliyyə nazirliyinin dəftərxanasında xüsusi sərhəd mühafizəsi şöbəsi yaradılmışdı. 1919 ilin mayında Zaqatala mahalının Qabaqçöl və Mazımçay kəndlərində, Gəncə quberniyası Qazax qəzasının Şıxlı və Salahlı kəndlərində gömrük postları vardı. 1919 il iyulun 10-da Azərbaycan Parlamenti Ağstafa gömrükxanasından keçən nəqliyyat vasitələrini və sərnişinləri yoxlamaq məqsədilə Qazax qəzasının Poylu dəmir yol stansiyasında və Çaxmaqlı kəndində də ön gömrük postlarının yaradılması haqqında qanunlar qəbul etdi.

1919 il sentyabrın 29-da Cümhuriyyət Hökuməti Qızılağac gömrük postunun fəaliyyətinin bərpası barədə qərar qəbul etdi. Parlamentin və Hökumətin qanun və qərarlarına əsasən, sərhəd mühafizə və yoxlanış məntəqələrinin sayı artırılmaqda idi. Aprel işğalı (1920) bu sahədə də işlərin başa çatdırılmasına imkan vermədi.

**GÖMRÜK XİDMƏTİNİN YARADILMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənəd. 1918 il avqustun 10-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmişdi.

Qərara əsasən, ilk vaxtlar ən çox ehtiyac duyulan yerlərdə və zəruri sayda işçilər götürülməklə, gömrükxanalar yaradılırdı. Gömrükxanalar yaradılarkən müvafiq təşkilati strukturlar da formalaşdırılırdı.

**GÖYÇAY DÖYÜŞÜ** - *Qafqaz İslam Ordusu* qüvvələri ilə Bakı Xalq Komissarları Sovetinin tabeliyindəki bolşevik-daşnak quldur dəstələrindən təşkil edilmiş Qafqaz Qırmızı Ordusu hissələri arasında baş vermiş döyüş (1918, iyun). Döyüş türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun bolşevik və daşnak silahlı qüvvələri ilə ilk ciddi döyüşü idi. İyunun sonunda döyüş Qaraməryəmin azad edilməsi ilə başa çatdı (bax *Qaraməryəm döyüşü).*

**GÖYÇAY QƏZASI** - Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi. Göyçay qəzası Zaqafqaziya və Qafqaz diyarının idarəçiliyində dəyişikliklər haqqında 1867 il 9 dekabr tarixli çar fərmanı əsasında yaradılmışdı. Göyçay qəzasının mərkəzi Göyçay yaşayış məntəqəsi idi. Qəza idarə sistemi mövcud idi. Qafqaz təqviminin (1917) məlumatına görə, Göyçay qəzasının sahəsi 4676,58 *kv.verst* idi. Qəza əhalisinin (134,098 nəfər) 127650 nəfəri yerli sakinlər, 6448 nəfəri müvəqqəti yaşayanlar idi. Əhalinin 112,6min nəfərini azərbaycanlılar, 17,2 minini ermənilər, 3,3 minini ruslar təşkil edirdi. Qəza əhalisinin 73891 nəfəri kişi, 60207 nəfəri qadın idi. Əhali kənd təsərrüfatı ilə məşğul olurdu. Kustar sənaye sahələri (xalçaçılıq, ipəkçilik və s.) inkişaf etmişdi.

Oktyabr çevrilişindən (1917) sonra Bakıda hakimiyyəti ələ keçirən daşnak-bolşevik güruhundan ibarət olan Bakı Soveti bütün Azərbaycan ərazisində möhkəmlənməyə çalışırdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun 1918 il iyunun ortalarında Gəncəyə köçməsi daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetini narahat edirdi. Odur ki, S.Şaumyan Sovet Rusiyasına arxalanaraq, Cümhuriyyət Hökumətini aradan qaldırmaq üçün Gəncəyə hücuma keçməyi qərara aldı. Türk-Azərbaycan hərbi qüvvələrindən ibarət olan Qafqaz İslam Ordusu ilə Bakı Xalq Komissarları Sovetinin hərbi qüvvələri arasında həlledici döyüşlər Göyçay qəzası ərazisində baş verdi. İlk döyüş iyunun 16-18-də Göyçaydan 20 verst şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında oldu. Lakin burada üstünlük düşmənin əlinə keçdi. Vəziyyəti belə görən Nuru paşa, Əlağa Şıxlinski və 5-ci diviziyanın komandiri Göyçaya yola düşdü. Qələbə üçün ciddi tədbirlər görüldü. İyunun 27-30-da Göyçay və Qaraməryəm ətrafındakı döyüşlərdə daşnak-Sovet ordu hissələri məğlubiyyətə uğradıldı (bax *Qaraməryəm döyüşü).* Bu qələbə cəbhədə


AZƏRBAYCAN
XALQ
CÜMHURİYYƏTİ
1918–1920
GÖYÇAY QƏZASI
Miqyas 1:510.000
QUBA QƏZASI
NUXA QƏZASI
ŞAMAXI QƏZASI
ƏRƏŞ QƏZASI
CAVAD QƏZASI
Xanagə
Qəlincaq
Mican
Tabstan
Vəng
Ruşankənd
Göytəpə
İsmayıllı
Diyallı
Balıq
Kürt
İvanovka
Quşyengicə
Qoşakənd
Girdədul
Gərmaxana
Tubukənd
Bozavənd
Şükürlü
Aşıq Bayramlı
Təklə
Mollaisaqlı
Keşxurt
Qarabəyli
Göyçay
Qarayazı
Əhmədli
Yekaxana
Qarabaqqal
Qaramaryam
Çayarx
Hacalıkənd
Bəgirbəyli
Alxasava
Qaramaryam
Abdullabəyli
Şəkər
Dobranlı
Dobranlı
Şıxnəsir
Musabəyli
Qızılağac
Yalman
Ətikənd
Qaramaryam
Çərəkə
Murtı
Dədəli
Kürdşaban
Mollahacılı
Malikkəndi
Bəydəvil
Alpout
İbrahimbəyli
Qaralıxçı
Ucar st.
Çaxırlı
Yengikənd
Alpout Mehdibəy
Pirkənd
Bərgüşadlı
Qarabucaq
Qulabənd
Qaracallı
Müsüslü stansiyası
İsmayıllı
Kürdəmir
Qarasaqqal
Qəryan
Bərgüşad
Qarabucaq stansiyası
Kürdəmir stansiyası
Şilyan
Lək
Sultanbaba piri
Kərrar stansiyası
Çallı
Xələc
Muradxanlı
Seyid Mahmud
Kiş
Zərdab
İsaqbağı
Qaramahmudlu
Nəzərli
Cəyirli
Hacılı
Nərrə
Türkədi
Mirzəbağı
Cavad
Əlvənd

Qafqaz İslam Ordusunun xeyrinə dönüş yaratdı. İyulun 10-da Kürdəmir, 14-də isə Kərrar stansiyası düşməndən azad olundu. Göyçay qəzası azad edildikdən sonra burada dinc quruculuq işlərinə başlandı. Azərbaycan Parlamenti 1919 il noyabrın 3-də Göyçay şəhərində realnı məktəb açmaq üçün qanun qəbul etdi. Bu məqsədlə müvafiq maliyyə vəsaiti ayrıldı. 1920 il martın 4-də Göyçay şəhərinin seldən qorunması üçün qanun layihəsi hazırlandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəzərdə tutulan bütün bu tədbirləri həyata keçirməyə imkan vermədi. Göyçay qəzası 1929 ildə Azərbaycan Sovet Sosialist Respublikasının rayonlaşdırılması ilə əlaqədar olaraq ləğv olundu.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**GÖYÇƏ MAHALI,** G ö y ç ə d a i r ə s i - Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Göyçə Azərbaycanın tarixi-coğrafi bölgələrindəndir. Göyçə adının ilk dəfə 5 əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501-24) fərmanında (1510) "Göyçə mahalı" qeyd edilmişdir. İrəvan xanlığının mahallarından biri olmuşdur. *Türkmənçay müqaviləsinə (1828)* əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829-32 illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14354 nəfər əhali qeydə alınmışdı. Əhalisi, əsasən, azərbaycanlılardan ibarət idi. Çar Rusiyası İrəvan xanlığını işğal edəndən sonra bu əraziyə kütləvi surətdə ermənilərin köçürülməsi nəticəsində əhalinin etnik tərkibi dəyişməyə başladı. İrəvan quberniyası yaradıldıqdan (1849) sonra Göyçə mahalı onun tərkibində təşkil olunmuş Nor-Bayazet (Yeni Bəyazid) qəzasına daxil edilmişdi. Qafqaz təqviminin (1917) məlumatına görə həmin qəzanın ərazisi 4122,76 *kv. verst* idi. Qəzada 174111 nəfər əhali yaşayırdı. Çarizmin həyata keçirdiyi erməni və rusların köçürülməsi siyasətinə baxmayaraq, yenə də qəza əhalisinin üçdə birinə qədərini müsəlmanlar, əsasən, azərbaycanlılar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ərazi məsələsinə baxıldıqda, Yeni Bəyazid qəzasının 1 -ci və 2-ci polis sahələri mübahisəsiz Azərbaycan ərazisi, 3-cü polis sahəsinin bir hissəsi isə mübahisəli ərazilər sırasına daxil edilmiş, Azərbaycan daxilində Göyçə dairəsi yaradılmışdı. Xarici işlər nazirliyinin məlumatına görə, "Göyçə rayonu" adı altında Göyçə gölü və Kiçik Qafqaz dağları arasında yerləşən İrəvan quberniyası Yeni Bəyazid qəzasının şərq hissəsi nəzərdə tutulurdu. Əhalisi başdan-başa müsəlmanlardan ibarət idi. Göyçə mahalının əhalisi özünü Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı. Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. 1919 ildə Zod, Daşkənd, Basarkeçər və başqa kəndlərdə azərbaycanlılara qarşı soyqırımları törədilmişdi. Dairənin əhalisi kənd təsərrüfatı ilə məşğul olurdu, bölgə iqtisadi cəhətdən Azərbaycanın digər torpaqları - Qazax, Qarabağ və Naxçıvanla sıx bağlı idi. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra respublikalararası sərhədlər sovet-bolşevik rejiminin himayəsi ilə Ermənistanın xeyrinə dəyişdirildi. Göyçə dairəsinin ərazisi, demək olar ki, bütünlüklə Ermənistana verildi. Ermənistan Sovet Sosialist Respublikası bu ərazidə Azərbaycan-türk adlarını dəyişərək, Kamo (Kəvər), Martuni (Qaranlıq), Vardenis (Basarkeçər), Krasnoselsk (Çəmbərək) kimi rayonlar təşkil etdi. Sonralar Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

*Əd.:* Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920; Щепотьев А., Доклад о спорных кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки, Известия АН Азерб. ССР (серия истории, философии и права), 1990, № 2; Bayramov L, Qərbi Azərbaycanın türk mənşəli toponimləri B., 2002; Budaqov B., Qeybullayev Q., Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, B., 1998.

**GÜLÜSTAN MÜQAVİLƏSİ (1813)** - Rusiya imperiyası ilə İran şahlığı arasında 1804-13 illər müharibəsinin yekunlarını və Azərbaycanın həmin dövlətlər arasında birinci dəfə bölüşdürülməsini təsdiq edən sənəd. Gülüstan müqaviləsinə əsasən, Şimali Azərbaycan (İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla) Rusiyanın, Cənubi Azərbaycan isə İranın tərkibinə qatıldı.

18 əsrdən başlayaraq, Rusiyanın Qara dəniz və Xəzər sahillərindəki torpaqlara doğru irəliləməsi Qafqazda vəziyyəti xeyli mürəkkəbləşdirdi. 1801 il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında çar manifestindən sonra bütün Cənubi Qafqazı ələ keçirmək üçün strateji meydan yarandı. 1803 ildə Car-Balakən, 1804 ildə Gəncə inadlı müqavimətdən sonra Rusiya tərəfindən işğal olundu. 1804 ilin mayında Azərbaycana bütövlükdə yiyələnməyə çalışan İran rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Rusiya buna rədd cavabı verdi. Həmin il iyunun 16-da iki dövlət arasındakı diplomatik münasibətlər kəsildi, müharibə başlandı. Müharibə hər iki tərəfdən ədalətsiz idi, çünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi. Qeyd etmək lazımdır ki, həm Rusiya, həm də İran, eyni zamanda, yerli Azərbaycan xanlıqlarına qarşı da mübarizəni davam etdirir, onların ərazisini işğal edib öz ərazilərinə qatırdılar.

1805 il mayın 14-də Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığı Rusiya ilə müqavilələr imzaladılar. Lakin bu müqavilələr dövlətlərarası münasibətləri müəyyən edilmiş şərtlər əsasında, hüquqi yolla nizama sala bilmədi. Çünki Rusiya üzərinə götürdüyü təəhhüdləri sonadək yerinə yetirmədi. Qarabağ xanı İbrahim xan 1806 ildə Rusiya işğalçıları tərəfindən xaincəsinə qətlə yetirildi və 1822 ildə xanlıq ləğv edildi.

Şimali Azərbaycanın ən böyük xanlığının - Şirvanın Rusiyaya qatılması (1805) nəticəsində növbə Bakı xanlığına çatdı. 1806 ildə Bakı xanlığı, az sonra Quba xanlığı ələ keçirildi. Beləliklə, 1806 ildə demək olar ki, bütün Şimali Azərbaycan Rusiyanın hakimiyyəti altına keçirildi. 1806 ildə Rusiya ilə Türkiyə arasında da müharibənin başlanması Rusiya-İran cəbhəsində rusların vəziyyətini nisbətən ağırlaşdırdı.

Hərbi əməliyyat meydanındakı uğursuzluqlar və Napoleonun Rusiya sərhədlərindən qovulması ilə rus qoşunlarının Avropa səfərinin başlanması nəticəsində beynəlxalq vəziyyətdə yaranan dəyişikliklər İranın Rusiya ilə müqavilə bağlamasını sürətləndirdi. İngiltərə danışıqlarda vasitəçilik edirdi. 1813 il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində Rusiya və İran arasında müqavilə imzalandı. 11 maddədən ibarət olan müqaviləyə əsasən İran şahlığı Azərbaycanın Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqlarına, Şərqi Gürcüstan və Dağıstana olan iddialarından əl çəkir, onların Rusiyanın hakimiyyəti altına keçməsini təsdiq edirdi (maddə 3). Gülüstan müqaviləsinə əsasən, yalnız Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ verilir (maddə 5), ticarət malları üçün beş faizlik gömrük qoyulur, hər iki dövlətin tacirləri daxili gömrük vergilərindən azad olunurdular (maddə 8-10).

Rus çarı I Aleksandr İranla sülh bağlanması haqqında manifestin ilkin layihəsini 1813 il dekabrın 12 (24)-də Friburda (İsveçrə) imzaladı. Xarici işlər naziri N.P.Rumyansev Sankt-Peterburqda manifesti alarkən, orada səhv olduğunu müəyyən etdi, çünki manifestdə Rusiyaya keçən Qarabağ və Gəncə xanlıqlarının adı yox idi. Odur ki, manifest 1814 il yanvarın 4 (16)-də geri göndərildi. Müqavilənin ratifikasiya fərmanları tərəflər arasında növbəti dəfə mübadilə olundu. İranla sülh haqqında çar manifesti yalnız 1818 il iyulun 16 (28)-da, müqavilənin mətni isə avqustun 7 (19)-də elan edildi.

Gülüstan müqaviləsi ümumdünya tarixində özgə torpaqlarının bölüşdürülməsi məqsədilə bağlanılmış rüsvayçı və antihumanist müqavilələrdən biridir. Bu müqavilə, eyni zamanda, iki işğalçı dövlət arasındakı ziddiyyətləri də həll edə bilmədi. Müqavilənin birinci maddəsində dəbdəbəli ibarələrlə bəyan edilən sülh uzun sürmədi. 1826 ildə tərəflər arasında ikinci müharibə başlandı. Azərbaycan ərazisi yenidən iki qəsbkarın qanlı döyüş meydanına çevrildi.

**GÜMRÜ** - Qərbi Azərbaycanda yaşayış məntəqəsi. Gümrü kimmer (kimmerlər) tayfasının adından yaranmışdır. 1728 ildə Şirəkel (Şörəyel) nahiyəsinə, sonra İrəvan xanlığına daxil idi. Əhalisi, əsasən, türk-müsəlmanlardan ibarət idi. Xanlığın işğalından sonra Türkmənçay müqaviləsinə (1828) əsasən çar Rusiyasına ilhaq olunmuşdu. 1837 ildə rus çarının şərəfinə Aleksandropol adlandırılmışdı. 1840 ildə şəhər statusu almışdı. Aleksandropol qəzasının mərkəzi idi. Qafqaz təqviminin (1917) məlumatına görə, burada 51874 nəfər əhali yaşayırdı, onların 43464 nəfəri yerlilər, 8410 nəfəri müvəqqəti yaşayanlar idi. Çarizmin köçürmə siyasəti nəticəsində hərbi-strateji məntəqə olan Gümrüdə erməni və rusların sayı artırıldı. Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin Gümrüdə yerli hakimiyyət orqanı ilə yanaşı, Fəhlə və əsgər deputatları soveti də yaradılmışdı. Qərbi Azərbaycanda daşnak hökuməti qurulduqdan (1918, 28 may) sonra Aleksandropolda erməni hakimiyyətinin möhkəmlənməsinə mühüm əhəmiyyət verilmişdir. 1920 ilin mayında burada sovet hakimiyyəti qurulmuş, lakin daşnaklar tezliklə onu yıxmağa nail olmuşdular. 1920 il noyabrın 7-də türk qoşunları Aleksandropolu tutdu. Noyabrın 17-də burada sovet hakimiyyəti elan edildi, ancaq bu formal xarakter daşıyırdı. Dekabrın 2-də Türkiyə hökuməti ilə Ermənistan Respublikası arasında *Gümrü müqaviləsi (1920)* bağlansa da, artıq noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan olunduğundan, yeni hökumət həmin müqaviləni tanımaqdan imtina etdi. Ermənistan Sovet Sosialist Respublikasının tərkibində qalan Aleksandropol 1924 ildə Leninakan adlandırıldı. 1990 ildə şəhərin tarixi Gümrü adı erməni tələffüzünə uyğunlaşdırılaraq təhrif olunmuş Kumayr şəklində bərpa edildi.

*Əd.:* Budaqov B., Qeybullayev Q., Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüqəti, B., 1998; Агаян Ц.П., Победа Советской власти и возрождение армянского народа, М., 1981; Победа Советской власти в Закавказье, Тб., 1971.

**GÜMRÜ MÜQAVİLƏSİ (1920)** - Türkiyə ilə Ermənistan Respublikası arasında müharibəni dayandırmaq və uzunmüddətli sülh yaratmaq məqsədilə bağlanmış müqavilə. Ermənistan Respublikasının Ermənistan-Türkiyə müharibəsində (1920) məğlubiyyətindən sonra, dekabrın 2-də Gümrü şəhərində imzalanmışdır. Müqaviləni Türkiyə hökuməti tərəfindən Fərid Kazım Qarabəkir paşa, Ərzurum valisi Hamid bəy, Ərzurumdan deputat Süleyman Nicati bəy, Ermənistan Respublikası tərəfindən baş nazir A.Xatisyan, maliyyə naziri A.Gülxəndanyan, daxili işlər nazirinin müavini S.Qordanyan imzalamışlar. Müqavilə 18 maddədən ibarət idi. 1-ci maddə ilə müharibəyə son qoyulduğu və tərəflərin daimi sülh üçün danışıqlara başladığı bildirilirdi. 2-ci maddədə Türkiyə ilə Ermənistan Respublikası arasındakı sərhəd dəqiqləşdirilirdi. Ermənistan Respublikasının ərazisi İrəvan və Göyçə gölü bölgələrindən ibarət olmaqla əvvəlki sərhədlərinə - 1918 il 21 iyun sərhədlərinə qaytarılırdı. Həmin maddənin ikinci hissəsində deyilirdi: "Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Kömürlü dağı, Saraybulaq, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistan qarışmayacaq, həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır". Ermənistan Respublikasının təcavüzkar siyasəti nəzərə alınaraq müqavilədə onun silahh qüvvələrinin həddi müəyyən edilirdi. 4-cü maddəyə görə Ermənistan hökuməti "daxili təhlükəsizliyini qorumaq üçün lazımi səviyyədə yüngül silahlı jandarm qüvvəsi və ölkəni qorumağa ayrılan 8 dağ və ya səhra topu ilə 20 pulemyota malik 1500 muzdlu əsgərdən ibarət birlikdən artıq hərbi qüvvəyə malik olmayacağını öhdəsinə götürürdü".

Ermənistan Respublikası hərbi mükəlləfiyyət keçirə bilməzdi. 5-ci maddəyə görə, müqavilə şərtlərinin yerinə yetirilməsinə nəzarət Türkiyənin İrəvandakı siyasi nümayəndəsi və ya səfirinə həvalə olunurdu. Bunun müqabilində Türkiyə hökuməti Ermənistan Respublikasının istəyinə əsasən, ona silahlı yardım etməyi öhdəsinə götürürdü. Ermənistan Respublikası ərazisindən Türkiyə üçün təhlükə yarandıqda, Türkiyə hökuməti Ermənistana qoşun yeridə bilərdi. Müqavilənin 6 və 7-ci maddələri köçkünlərlə bağlı idi. Hər iki tərəf, müharibə zamanı düşmən ordusu tərəfinə keçərək, öz dövlətinə qarşı silah işlədənlərdən və ya işğal olunmuş torpaqlarda kütləvi qırğınlarda iştirak edənlərdən başqa, qalan köçkünlərin əvvəlki sərhəd daxilindəki yurdlarına dönmələrinə razılıq verirdi. Türkiyə hökumətinin müharibənin əsas səbəbkarı olan məğlub tərəfdən - Ermənistan Respublikasından təzminat tələb etməyə tam haqqı olsa da, o humanizm prinsiplərinə hörmət edərək, bundan imtina etdi (8-ci maddə), habelə 2-ci maddədə göstərilən sərhədlər daxilində suverenliyini bütünlüklə inkişaf etdirmək və gücləndirməkdə ermənilərə yardım göstərməyi öhdəsinə götürdü. 10-cu maddəyə əsasən, Ermənistan hökuməti Antanta dövlətlərinin Türkiyə Böyük Millət Məclisi tərəfindən qəti surətdə rədd edilmiş qarətçi Sevr müqaviləsini (1920, 10 avqust) etibarsız saydı və bununla da özünün Batum müqaviləsi (1918, 4 iyun) ilə nəzərdə tutulan əraziləri hüdudlarında mövcudluğunu təsdiqlədi. 11-ci maddə Ermənistan Respublikası ərazisində yaşayan türk-müsəlman əhalinin hüquqlarına aid idi. Ermənistan hökuməti öz ərazisində yaşayan türk-müsəlman əhalinin mədəni və dini inkişafı üçün şərait yaratmağı öhdəsinə götürürdü. 12-ci maddə nəqliyyat məsələlərini, xüsusilə tranzit nəqliyyatını tənzimləməli idi. Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit əlaqələrinin sərbəstliyinin təminatını öz üzərinə götürürdü. Türkiyə hökuməti Ermənistan Respublikası daxilində müvəqqəti olaraq hərbi qüvvə saxlamaq hüququ əldə edirdi (13-cü maddə). Ermənistan hökuməti hər hansı bir dövlətlə bağlanan müqavilələrin Türkiyənin mənafeyinə, yaxud maraqlarına zidd olan maddələrini etibarsız saymağı qəbul edir və bunu öhdəsinə götürürdü (14 maddə). Sonrakı maddələrdə iqtisadi-siyasi münasibətlərin nizama salınmasından və müqavilənin təsdiqindən bəhs olunurdu. Müqavilənin sonunda hər iki tərəfin qəbul etdiyi belə bir fikir də diqqəti cəlb edir: tərəflər arasında anlaşılmazlıq meydana gəldikdə, müqavilə türkcə mətnə əsasən təhlil olunmalı idi. Gümrü müqaviləsinin Naxçıvan mahalına münasibətdə müəyyən ədalətsiz müddəaları (qədim türk torpaqları olan Uluxanlı, Qəmərli kəndlərinin və ən başlıcası isə, Böyük Vedi ətrafındakı bir çox Azərbaycan kəndlərinin Ermənistana verilməsi) nəzərə alınmazsa, bu müqavilə Naxçıvan Muxtar Respublikasının indiki sərhədlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı. 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduğundan, daşnaklar isə öz hakimiyyətini bərpa edə bilmədiyindən, Gümrü müqaviləsi qüvvəyə minmədi. Regiondakı münasibətləri tənzim etmək məqsədilə 1921 il Moskva və Qars müqavilələri imzalandı.

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ.Hacıyev), B., 1999; Qasımov M., Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (1920-ci il aprel-dekabr, 1922-ci il), B., 1998; İsmail Soysal, Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasat anlaşmaları, c.1 (1920-1945), Ankara, 1983.

**GÜRCÜ MİLLİ ŞURASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Bakıda fəaliyyət göstərən milli şuralardan biri. 1918 ilin aprelində gürcü icması tərəfindən yaradılmışdı. Şura Bakıda yaşayan gürcülər arasında geniş mədəni-maarif işi aparmış, o cümlədən gürcü məktəbi açmış, öz soydaşlarına himayədarlıq etmiş, imkan daxilində hər cür yardım göstərmişdir. Şuranın sədri Konstantin Dmitriyeviç Mikeladze idi. Sayca az olmalarına baxmayaraq, ölkədə yaşayan gürcülərin mənafeyini təmsil etdiyi üçün Gürcü Milli Şurasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə 1 nəfər deputat (Tsxokaya Qriqori İvanoviç) daxil edilmişdi. Erməni Milli Şurasından fərqli olaraq, Gürcü Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq fəaliyyətində iştirak etməmişdir.

**GÜRCÜSTANIN ƏRAZİ İDDİALARI** 1918 il mayın 26-da elan olunmuş Gürcüstan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinə qarşı irəli sürdüyü ərazi iddiaları. Gürcüstan müstəqil respublika elan edildikdən sonra, yeni yaranmış dövlətin ərazisi və sərhədlərinin müəyyənləşdirilməsinə başlandı. Gürcüstan hökuməti vaxtilə çar Rusiyasının xüsusi məqsədlə Tiflis quberniyasının tərkibinə daxil etdiyi tarixi Azərbaycan torpaqlarına iddialarla çıxış etdi. Bu məqsədlə həm müvafiq xəritələr tərtib olunur, həm də əməli addımlar atılmasına cəhd edilirdi. Gürcüstan Sığnaq qəzasının cənub-şərq hissəsinə, Tiflis qəzasının Qarayazı düzünə, Borçalı qəzasının orta (türk) hissəsinə, həmçinin Zaqatala dairəsinə ərazi iddiaları qaldırırdı.

Statistik məlumatlara görə, Gürcüstanın iddia irəli sürdüyü ərazilərin bütün əhalisinin (147362 nəfər) 135898 nəfərini (92,3%) türk-müsəlmanlar, 6526 nəfərini isə (4,4%) gürcülər təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti mürəkkəb tarixi şəraitdə özünün tarixi-coğrafi torpaqlarında suveren hüquqlarını bərpa etmək üçün fəal siyasət yeritdi. Zaqatala dairəsi əhalisinin arzusu nəzərə alınaraq, orada Cümhuriyyət idarəçiliyi yaradıldı. Digər torpaqlar uğrunda da diplomatik fəaliyyət davam etdirildi.

*Əd.:* Щепотьев А., Доклад о спорных кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки, Известия АН Азерб. ССР (серия истории, философии и права), 1990, № 2;

# H

**HACI ƏLİ** Qasım oğlu (?-.?)- Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının "Azərbaycan *Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən,Gəncə qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi.

**HACI SƏLİM SƏYYAH,** Qasımzadə Hacı Səlim Hacı Qasım oğlu (1869, Vilnüs - 1943, Bakı) - maarif xadimi, şair. Vilnüsdə rus (1883-85), İstanbulda türk və fars dillərində (1885-87) ibtidai, Misirdə "Cameyi-əzhər"də ərəb dilində (1887-1900) orta təhsil almışdır. Bakıda "Nəşri-maarif" cəmiyyətinin təşkil etdiyi ikiillik pedaqoji kurslarda (1906-07) dinləyici olmuş, ibtidai məktəb müəllimi hüququ qazanmışdır. İstanbulda təhsil aldığı illərdə mühacir komissiyasında işləmiş, Robert Lens adlı bir səyyahın yanında xidmətə başlamış, Türkiyə, Rusiya, Misir, Hindistan və Bolqarıstan, Ərəbistan, Afrika ölkələrinə səyahət etmişdir. Bombey şəhərində ingilislərin təşkil etdiyi "Ölüm qəhvəsi" cəmiyyətinə yazılmış, mason lojasının üzvü olmuşdur. Səyahətinin ilk çağlarında Ərəbistanda muzdlu hərbi xidmətə qəbul olunmuş, dağıstanlı Məhəmməd paşanın komandası altında ərəb üsyanının yatırılmasında iştirak etmişdir.



"Nəşri-maarif" cəmiyyətinin Bakıda açdığı bir sıra məktəblərdə müdir işləmişdir. 1913 ildə vəsait olmaması üzündən məktəblər şəhər idarəsinin ixtiyarına keçərkən, Hacı Səlim 9-cu "rus-müsəlman" məktəbinə müəllim təyin edilmişdir.

1917 ildə Anadolu hərbzədələri haqqında ilk kitab nəşr etdirmiş, "Qardaş köməyi" toplusunda "Hamı ağlayır, mən də ağlayıram" şerini dərc etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə şəhər 3-cü türk məktəbində ana dili, nəğmə, idman müəllimi işləmişdir. Hacı Səlim zəngin ədəbi irs yaratmışdır. Pedaqoq-şair "Korlar məktəbi" (1915), "Küçə uşaqları" (1916), "Bahar" (1916), "Xəzan" (1916), "Buz sındıran" (1917), "Eşq" (1917), "Suri-İsrafil" (1917), "Şeyx və intiligent" (1917), "Ənuşiravanın nəsayihi", "Həyyi-əla xeyrül-əməl", "Siratəl-müstəqim", "Məkkə xatiratım", "Mey, məşuqə və qumar, yaxud bir əyyaşın macərası", "Hesab əyləncələri" və s. əsərlərin müəllifidir.

**HACIBABABƏYOV** Mehdi bəy (1871-1925) - ictimai-siyasi xadim. Azərbaycanın istiqlal mübarizəsinin fəal iştirakçılarından biri. *Zaqafqaziya seyminin,* Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra Azərbaycan *Milli Şurasının* (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın Azərbaycanın *İstiqlal bəyannaməsini* qəbul edən 26 üzvündən biri idi.

Bakı realnı məktəbini bitirmiş, 1901 ildən 1-ci Bakı rus-tatar məktəbində dərs demişdir. "Nicat" xeyriyyə cəmiyyətinin katiblərindən biri olmuş, axşam kurslarında dərs demiş, "Nicat" cəmiyyətinin teatr bölməsinə başçılıq etmiş, eyni zamanda, "Nicat" cəmiyyətinin 1-ci şəhər rus-tatar məktəbinin direktoru seçilmişdir. Müəssislər Məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü idi. Hacıbababəyov Azərbaycan Milli Şurasının "Azərbaycan *Məclisi-Məbusanının təsis edilməsi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdi. "Müsavat" fraksiyasının (sonralar "Müsavat" və bitərəflər fraksiyası) üzvü idi.



**HACIBƏYLİ** Ceyhun bəy Əbdülhüseyn oğlu (2.2.1891, Şuşa - 22.10.1962, Paris) - ictimai xadim, dilçi, tarixçi, jurnalist, tərcüməçi. Üzeyir bəy Hacıbəylinin kiçik qardaşıdır. İbtidai təhsilini Şuşada rus-tatar məktəbində almış, orta təhsilini Bakıda tamamlamışdır. "Leyli və Məcnun" operasının yaradılmasında yaxından iştirak etmiş, ilk tamaşada (1908) iki rolda - İbn Səlam və Nofəl rollarında çıxış etmişdir. 1908 ildə Üzeyir bəylə birlikdə Əli bəy *Hüseynzadənin* müdir olduğu "Səadət" məktəbində müəllim işləmişdir.

Ceyhun bəy Hacıbəyli milyonçu-xeyriyyəçi Murtuza *Muxtarovun* vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuş (1909), oradan Parisə gedərək, Sorbonna Universitetində oxumuşdur. C.Hacıbəylinin Parisdən göndərdiyi məqalələr Bakıda rus dilində çıxan qəzetlərdə dərc olunmuşdur. O, 1909 ildə "Bakı" qəzetində dərc olunmuş "Müsəlmanlar və incəsənət" məqaləsində dövrün aktual məsələlərinə toxunurdu. C.Hacıbəyli "Leyli və

Məcnun" operasının yaranması və ilk tamaşası haqqında Fransa mətbuatında çıxış etmiş, opera barədə Qərbi Avropa xalqlarına geniş məlumat vermişdir ("Revyü de Monde müzülman" jurnalı, aprel, 1910).

1916 ildə ali təhsilini başa vurub Bakıya qayıdan Hacıbəyli mühərrirliklə məşğul olmuş, doğma xalqının acınacaqlı vəziyyəti haqqda mətbuat səhifələrində çoxlu məqalə dərc etdirmişdir ("Kaspi", № 18, 22, 24, 28, 34, 1917). Məqalələrini, əsasən, "C.Dağıstani" təxəllüsü ilə yazırdı. "Bakı müsəlman ictimai təşkilatları komitəsinin xəbərləri"ni (rus dilində) redaktə etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Hacıbəyli Cümhuriyyət Hökumətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Qəzet Azərbaycan dilində çıxan altmcı nömrəsindən, rus dilində isə beşinci nömrəsindən "mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bey Rüstəmbəyli" imzalan ilə buraxıl-mışdır. 1918 il noyabrın 28-dən Azərbaycan dilində olan nömrələr C.Hacıbəylinin, rus dilindəki nömrələr isə Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə çıxmışdır. Paris sülh konfransında (1919-20) iştirak etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir kimi "Azərbaycan" qəzetinin redaktoru C.Hacıbəyli də daxil edilmişdi. Qəzetin 1919 il 9 yanvar tarixli 83-cü nömrəsində Ceyhun bəy Hacıbəyli "Möhtərəm qarelərimizə" müraciətində yazırdı: ***"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.***

***Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə, qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim".***

Bununla əlaqədar olaraq, 1919 il yanvarın 16-da buraxılmış 89-cu nömrəsindən etibarən "Azərbaycan" qəzetini redaktor kimi Üzeyir bəy Hacıbəyli imzalamışdır.

Parisdə C.Hacıbəylinin fransız dilində "İlk müsəlman respublikası Azərbaycan" (1919) adlı kitabı çapdan çıxmışdır. Həmin ildə C.Hacıbəylinin Parisdə "Revyü de Monde müzülman" jurnalında 1918 ildə Bakıda, eləcə də Şamaxı, Kürdəmir və Xaçmazda erməni-daşnak quldur dəstələrinin azərbaycanlı əhalini kütləvi şəkildə qırmasını kəskin ifşa edən məqaləsi çap olunmuşdur. O, Parisdə "Fransa-Qafqaz" komitəsinin işinə cəlb edilmişdi. C.Hacıbəyli *Aprel işğalından (1920)* sonra Vətənə dönə bilməmiş, Parisdə qalmağa məcbur olmuş, ömrünü mühacirətdə başa vurmuşdur. Parisdə Azərbaycan mədəniyyətinin təbliği yönündə qızğın fəaliyyət göstərmişdi. 1920 ilin əvvəllərində Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını fransız dilinə tərcümə etmiş və əsər həmin il tamaşaya qoyulmuşdur. 1926 ildə çap etdirdiyi "Azərbaycan teatrı" adlı məqaləsində o, fransız oxucularına Hüseyn Cavid və Cəfər Cabbarlının yaradıcılığı haqqında məlumat vermişdir ("Revyü de Monde müzülman", №3). "Ümumi yenidənqurma problemində Azərbaycanın iqtisadi bərpası" əsərində (1922-23) C.Hacıbəyli təbii sərvətlərdən səmərəli istifadə edilməklə Azərbaycanın müstəqil iqtisadi inkişafı ideyasını əsaslandırmışdır. 1928 ildə nəşr etdirdiyi "XIX əsrin əvvəlləri Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov" məqaləsində Azərbaycan tarixşünaslığı və arxeologiyasının banisi, ensiklopedik biliyə malik Abbasqulu ağa Bakıxanovu fransız oxucularına tanıtmışdır ("Jurnal Aziatik", iyul-sentyabr, 1928). Onun 1905-10 illər Azərbaycan mətbuatı tarixinə dair məqaləsi ("Aziatik Revyü" jurnalı, 27-ci cild, №90, 1931) isə xalqımızın mədəniyyətini öyrənən Qərbi Avropa alimləri üçün istiqamətverici mənbə rolu oynamışdır. C.Hacıbəylinin 1933 ildə çap etdirdiyi "Qafqaz Azərbaycanının Qarabağ dialekti" adlı elmi məqaləsi ("Jurnal Aziatik" yanvar-may, 1933) Azərbaycan və Qərbi Avropa dilçiliyi üçün indi də öz əhəmiyyətini itirməmişdir.

Məşhur fransız şərqşünasları A.Beniqsen və Ş.Lemerse Kelkejenin 1964 ildə Parisdə fransız dilində nəşr etdirdikləri "Rusiyada 1920 ilə qədər çıxan müsəlman mətbuatının tarixi" adlı əsərin müqəddiməsindən məlum olur ki, Azərbaycan mətbuatına dair fəslin hazırlanmasında C.Hacıbəyli də iştirak etmişdir.

C.Hacıbəyli Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin təşkil etdiyi "Azərbaycan Milli Birlik Məclisi" idarə heyətinin üzvü, Məclisin orqanı olan "Azərbaycan" jurnalının (Münxen) redaktoru olmuşdur (1954 ildə nəşri dayandırılmışdır).

Ceyhun bəy Hacıbəyli ömrünün son illərində SSRİ-ni öyrənən institutun Parisdə fransızca nəşr etdiyi "Qafqaz" jurnalının Azərbaycan bölməsində gedən yazıların redaktəsi ilə məşğul olmuşdur. 1959 ildə həmin institutun xətti ilə Münxendə Ceyhun Hacıbəylinin "Azərbaycanda islam əleyhinə təbliğat və onun metodları" əsəri çap olunmuşdur.

Ceyhun Hacıbəylinin şəxsi fondunu YUNESKO-nun əməkdaşı Ramiz Abutalıbov böyük zəhmət və çətinliklər bahasına toplamış və Azərbaycana gətirmişdir. Həmin materiallar hazırda Salman Mümtaz adına Respublika Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunur.

Əsərləri: Избранное, Б., 1993.

*Əd.:* Əliyev M., Ceyhun Hacıbəyli, "Azərbaycan Demokratik Respublikası: Azərbaycan Hökuməti (1918-1920)" kitabında, B., 1990.

**HACIBƏYLİ** (Hacıbəyov) Üzeyir Əbdülhüseynoğlu (18.9.1885, Şuşa qəzasının Ağcabədi k. - 23.11.1948,Bakı) - dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan peşəkar musiqisinin və milli operasının banisi. Xalq artisti (1938), Dövlət mükafatları Elmlər Akademiyasının həqiqi üzvü (1945), professor (1940). Bəstəkarlar İttifaqının sədri (1938-48), Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) rektoru 1928-29; 1939-48), Azərbaycan Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru (1945-48) olmuşdur.



Üzeyir bəy Hacıbəyli kənd mirzəsi ailəsində doğulmuş, valideynləri Ağcabədidən Şuşaya köçdükdən sonra ilk təhsilini buradakı ikisinifli rus-Azərbaycan məktəbində almışdır. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Üzeyir Hacıbəylinin musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. Onun ilk musiqi müəllimi xalq musiqisinin gözəl bilicisi, dayısı Ağalar Əliverdibəyov olmuşdur. Üzeyir bəy Hacıbəyli 1897-98 illərdə Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi və məşhur xanəndə Cabbar Qaryağdı oğlunun ifası ilə Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" səhnəciyində xorda iştirak etmişdi. 1899-1904 illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Onun dünya-görüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. Üzeyir bəy Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti, rus və Qərbi Avropa musiqi klassiklərinin əsərləri ilə yaxından tanış olmuş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Seminariyanı bitirdikdən sonra Üzeyir bəy Hacıbəyli 1904 ildə Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilmişdi.1905 ildə Bakıya köçərək, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907 ildə Bakıda "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir.

Üzeyir bəy Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlamış, "İttihad", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, sosial, mədəni-maarif məsələlərinə dair çoxlu publisistik məqalə, felyeton, hekayə və satirik miniatürlər dərc etdirmiş, N.B.Qoqolun "Şinel" povestini Azərbaycan dilinə çevirmişdir.

Üzeyir bəy Hacıbəylinin 1908 il yanvarın 12 (25)-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Bəstəkar operanın librettosunu Məhəmməd Füzulinin eyni adlı poeması əsasında özü yazmışdır. Üzeyir bəy Hacıbəyli 1909-15 illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşid banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operalarını bəstələmişdir. Bu operaların da librettolarını xalq dastanları, rəvayətləri və Firdovsinin "Şahnamə" eposunun motivləri əsasında bəstəkar özü yazmışdı. Üzeyir bəy Hacıbəylinin dramaturgiya sahəsindəki fəaliyyəti Azərbaycan ədəbiyyatında mühüm yer tutur. O, Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır (komediyalarının mətninin də müəllifi özüdür). Onun "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913) musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri əksini tapmışdır. Üzeyir bəy Hacıbəyli 1912 ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmoniya cəmiyyətinin musiqi kurslarında, 1914 ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü bəstəkarın yaradıcılığında mühüm rol oynamışdır. Lakin Birinci dünya müharibəsinin (1914-18) başlanması və maddi çətinliklər Üzeyir bəy Hacıbəylini təhsilini yarımçıq qoymağa məcbur etdi. Üzeyir bəy Hacıbəylinin Azərbaycan teatr sənətinin inkişafında da mühüm xidmətləri olmuşdur. Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının hələ 1916 ildə yaratdıqları *"Hacıbəyli qardaşlarının opera-operetta artisləri dəstəsi"* Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusilə coşğun fəaliyyət göstərmişdir. Dövrünün müqtədir aktyor və rejissorlarını ətrafında toplayan truppa həftədə üç gün növbə ilə dram, komediya, opera və operetta tamaşaları göstərmişdir. Truppa ilk tamaşalardan biri (1918, 26 oktyabr) kimi Şəmsəddin Saminin "Gaveyi-ahəngər" əsərini seçmiş və tamaşanın gəliri Azərbaycanın müstəqilliyi və istiqlaliyyəti uğrunda şəhid olanların ailələri üçün ayrılmışdı. 1918 il dekabrın 7-də, Azərbaycan Parlamentinin açılış günü "Hacıbəyli qardaşları" teatrı müdiriyyəti milli Parlamentə təbrik teleqramı göndərərək ***"...vətən və millətimizin azad istiqlalı uğrunda var qüvvəsi ilə çalışmaqla milli ədəbiyyat, milli mənəviyyat və sənayeyi-nəfisəmizin azad və sərbəst tərəqqi və inkişafına bir vəsilə olacağına qüvveyi-imanda etimad"*** etdiyini bildirmişdi.

Hərtərəfli istedadını doğma xalqının milli və sosial-siyasi azadlığı, tərəqqisi uğrunda mübarizəyə həsr etmiş Üzeyir bəy Hacıbəyli milli istiqlalın təcəssümü olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılamış, var qüvvə və bacarığı ilə milli dövlətçiliyin təşəkkülü və inkişafı işinə qoşulmuşdur. Onun 1918-20 illərdəki fəaliyyəti Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzeti ilə bilavasitə sıx bağlıdır. Üzeyir bəyin publisistik məqalə və felyetonları hər gün, yaxud günaşırı "Azərbaycan" qəzetində çap olunur, bəzən isə bir nömrədə müxtəlif imzalarla iki yazısı çıxırdı. Qəzetin ilk redaktoru Üzeyir Hacıbəylinin kiçik qardaşı Ceyhun bəy olmuşdu. Üzeyir bəy Hacıbəylinin özü isə 1919 il yanvarın 16-da çıxmış 89-cu sayından başlayaraq "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. Bu vaxtdan "Azərbaycan" qəzeti "Müvəq-qəti müdir: Üzeyir bəy Hacıbəyli" imzası ilə buraxılmış və bu imza qəzetin həmin il 30 iyun tarixli 215-ci sayına qədər davam etmişdir. Üzeyir bəy iki aylıq müalicədən qayıtdıqdan sonra, 1919 ilin sentyabrından etibarən yenidən "Azər-baycan" qəzetində işə başlamış və 1920 il aprelin 27-nə kimi qəzetin müdiri işləmişdir.

Üzeyir bəy Hacıbəyli qəzetə rəhbərlik etməklə, onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmışdır. "Azərbaycan"dakı fəaliyyətində Üzeyir bəy Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və milli məsləkli publisist kimi göstərmişdir. Qəzetin səhifələrində Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə (xüsusilə, neft sənayesinə), maarif və mədəniyyətinə və s. aid 100-dən çox məqaləsi dərc olunmuşdur. Müasir ictimai-siyasi durumla yaxından səsləşən "Mühüm məsələlər", "Partiyalarımıza", "Təəssürat", "İstiqlal və istiqbal ümidi", "Tarixi günümüz", "Andronik məsələsi", "Vəzifəmiz nədir", "Lənkəran faciəsi", "Kim nəyin fikrində imiş", "Fitnələr qarşısmda", "Naxçıvan və Qarabağ", "Qarabağ haqqında", "İçimizdəki denikinlər",




*Üzeyir Hacıbəylinin abidəsi. Tunc, qranit. 1960. Bakı*
Heykəltəraş Tokay Məmmədov



*Üzeyir bəy atası Əbdülhüseynlə. 1890*



*Üzeyir bəy yaxın qohumları ilə. 1911*

"Ermənistan və Azərbaycan münasibəti" və s. yazılar Üzeyir bəy Hacıbəylinin uzaqgörən siyasətçi, əqidəli publisist olduğunu bariz şəkildə göstərir. Üzeyir bəy Hacıbəyli redaktor işlədiyi müddətdə Azərbaycan və onun ətrafında baş verən hadisələri qəzetin səhifələrində əks etdirməklə yanaşı, burada dərc etdirdiyi çoxsaylı məqalələrində həmin hadisələrə özünün şəxsi münasibətini bildirirdi. Bu məqalələrdə o, Azərbaycan Cümhuriyyəti Parlamentinin, Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Hökumətlərinin yeritdiyi siyasi xətti qızğın müdafiə edirdi.

"Bir yaş" məqaləsində Üzeyir bəy Hacıbəyli yazırdı: ***"Bu gün, istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni* Azərbaycan *Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür...***

***Bir yaşlı dövlətimiz - gələcəkdə - yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahi və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir"***

***"...ÖLMƏK VAR, DÖNMƏK YOXDUR. Bu əziz bayram günü sidq dil ilə yaşasın müstəqil* Azərbaycan *deyənlər əmin olmalı: onu müstəqil yaşatmağa qadir olarlar"*** ("Azərbaycan", 1919, 28 may).

"Qara təhlükə" məqaləsində Üzeyir bəy həyəcanla bildirirdi: ***"İstiqlalımızın bir ilinin bayramını yenicə keçirmişdik ki, üfüqümüzdən qəflətən nümayan olan bir qara əl haman istiqlalımızı qırmaq və bizi murdar pəncəsi altında əzmək xəyalilə şimalımızdan uzanmağa başladı".***

İncəsənətin mənasını xalqa xidmətdə görən Üzeyir bəy Hacıbəyli *Aprel işğalı (1920)* nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da fəaliyyətini eyni vətəndaşlıq qeyrəti və əzmi ilə davam etdirmiş, milli musiqi xəzinəsini yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını bəstələmişdir. Üzeyir Hacıbəyli Azərbaycan Respublikası Dövlət himnlərinin (1945, 1992) musiqisinin müəllifidir. O, eyni zamanda, elmi musiqişünaslığın, xüsusilə, musiqi nəzəriyyəsinin ("Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası, 1945), musiqi təhsilinin əsasını qoymuş və musiqi mədəniyyətimizin inkişafına ömrünün sonunadək fasiləsiz rəhbərlik etmiş, onun bu günkü yüksək professional səviyyəyə yüksəlməsinin, müasir bəstəkarlıq məktəbinin beşiyi başında durmuş, qabaqcıl dünya bəstəkarlıq məktəbləri ilə yanaşı dura bilməsi üçün fədakarcasına çalışmış, habelə ictimai xadim kimi geniş fəaliyyət göstərmişdir. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyəti xəzinəsinin qızıl fonduna daxil olmuşdur. Görkəmli musiqi xadimləri onu ***"professional Şərq musiqisinin atası"*** adlandırmışlar. Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan"




*Üzeyir bəy Hacıbəyli. "Əsli və Kərəm", "Leyli və Məcnun" operalarının afişaları*

musiqili komediyası dünyanın bir çox dillərinə, o cümlədən ingilis, alman, rus, Çin, ərəb, fars, gürcü, Ukrayna dillərinə tərcümə olunaraq, Moskvada, Nyu-York, Paris, London, İstanbul, Tehran, Qahirə, Berlin, Varşava, Sofiya, Budapeşt və Buxarestdə, habelə başqa yerlərdə, "O olmasın, bu olsun" ("Məşədi İbad") musiqili komediyası Cənubi Qafqazda, Dağıstan, Orta Asiya, Türkiyə, Bolqarıstan, İran və Yəməndə, "Koroğlu" operası isə Aşqabadda (türkmən dilində), Yerevanda (erməni dilində), Daşkənddə (özbək dilində) uğurla tamaşaya qoyulmuşdur. "Arşın mal alan" 1916, 1917, 1945 və 1965 illərdə, "O olmasın, bu olsun" ("Məşədi İbad") isə 1956 ildə ekranlaşdırılmışdır. "Arşın mal alan"ın motivləri əsasında ABŞ-da da film çəkilmişdir (1937).

Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan Üzeyir bəy Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd edilmişdir.

Əsərləri: Əsərləri, c.14, B., 1964-68; Beş manat əhvalatı. Hekayələr və miniatürlər, B., 1974; Ordan-burdan, B., 1981; Azərbaycan xalq musiqisinin əsasları, B., 1985 (rus və ingilis dillərində də buraxılmışdır); Избранные произведения, Б, 1985.

*Əd.:* Köçərli F., Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri, B., 1965; Məmmədli Q., Üzeyir Hacıbəyov. Həyat və yaradıcılığının salnaməsi, B., 1984; Aslanov M., Üzeyir Hacıbəyov-jurnalist, B., 1985; Qasımova R., Üzeyir Hacıbəyovun komediyaları, B., 1984; Səfərova Z., Üzeyir Hacıbəyov, B., 1985 (rus, ingilis, fransız, ərəb, türk, fars dillərində də buraxılmışdır); Üzeyir Hacıbəyov ensiklopediyası, B., 1996; Виноградов В., Узеир Гаджибеков , М.-Л., 1947; Абассова Э., Узеир Гаджибеков, Б., 1975.

*Üzeyir bəy Hacıbəylinin ev-müzeyi; qonaq otağı və yazı masası*





*Üzeyir bəy Hacıbəyli (soldan birinci) Azərbaycan Elmlər Akademiyasının ilk həqiqi üzvləri və SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin bir qrup üzvü ilə. Bakı. 1945*



**HACIBƏYLİ** Zülfüqar Əbdülhüseyn oğlu (17.4.1884,Şuşa - 30.9.1950, Bakı) - bəstəkar. Azərbaycanın əməkdar incəsənət xadimi (1943). Üzeyi *Hacıbəylinin* böyük qardaşı, məşhur dirijor və bəstəkar Niyazinin atasıdır. Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləriolmuşdur. İlk Azərbaycan operalarından olan "Aşıq Qərib"də (1915, tamaşası 1916) muğamlara əsaslanmış, xalq musiqi folkloru ilə Avropa musiqisini əlaqələndirməyə çalışmışdır. Öz librettoları əsasmda bəstələdiyi "Əlli yaşında cavan" (1909), "Varlı" ("On bir yaşında gəlin", 1911), "Evliykən subay" (1911) musiqili komediyaları musiqi dilinin sadəliyi, aydınlığı, eləcə də dramaturgiya baxımından diqqətəlayiqdir. Bir sıra mahnı, simfonik orkestr, nəfəs alətləri və xalq çalğı alətləri üçün əsərlər, dram tamaşalarına, "Almaz" kinofilminə (Niyazi ilə birgə) musiqi yazmışdır. "Nüşabə" və "Üç aşıq" (Məlikməmməd) operaları yarımçıq qalmışdır.1918 ilin martında Bakıda erməni daşnakları tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı hadisələri zamanı Z.Hacıbəyli İrana mühacirət etməyə məcbur olmuşdu. Həmin ilin sentyabrında Bakı *Qafqaz İslam Ordusu* tərəfindən azad olunduqdan və Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən sonra mart soyqırımı zamanı şəhəri məcburi surətdə tərk etmiş digər teatr və musiqi xadimləri kimi Z.Hacıbəyli də həmin il oktyabrın 11-də İrandan Bakıya döndü. Mart soyqırımı zamanı böyük dağıntılara və talanlara məruz qalmış Bakının teatr və musiqi aləmi yavaş-yavaş canlanmağa başladı. *"Hacıbəyli qardaşlarının opera-operetta artistləri dəstəsi"* bu işdə mühüm rol oynadı. "Azərbaycan" qəzetinin məlumatına görə, Hacıbəyli qardaşlarının təşəbbüsü ilə Bakıda müsəlman dram-opera və operetta truppası yaradıldı. Səhnə fəaliyyətlərinin istiqamətindən asılı olmayaraq, bütün müsəlman teatr xadimləri bu truppaya qəbul olundular. 1918 il noyabrın 4-də Cümhuriyyət Hökumətinin təşkil etdiyi Dövlət teatrının binasında (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet teatrı) Hacıbəyli qardaşları teatr truppası tamaşalarının açılışı oldu. Bu illərdə Hacıbəyli qardaşları teatr truppasının fəaliyyətinə, əsasən, Zülfüqar Hacıbəyli rəhbərlik edirdi. Bununla yanaşı, 1918-20 illərdə Zülfüqar Hacıbəylinin "Aşıq Qərib", "Evliykən subay" və "Əlli yaşında cavan" opera və musiqili komediyaları da Bakı teatr səhnələrində tamaşaya qoyulmuşdur.

*Əd.:* Cəbrayılbəyli C, Zülfüqar Hacıbəyov, B., 1985.

**"HACIBƏYLİ QARDAŞLARININ OPERA-OPERETTA ARTİSTLƏRİ DƏSTƏSİ"** - Azərbaycanda fəaliyyət göstərmiş müstəqil opera-operetta artistləri truppası. 1914 ildə "Nicat" cəmiyyəti ilə Üzeyir Hacıbəyli arasında "Leyli və Məcnun" operasına sahiblik barədə münaqişədən sonra Hacıbəyli qardaşları müdiriyyəti yaradılmışdı. 1916 il avqustun 31-dən isə Üzeyir və Zülfüqar "Hacıbəyli qardaşlarının opera-opererta artistləri dəstəsi" təşkil edilmişdi. Dəstəyə Üzeyir Hacıbəyli rəhbərlik edirdi. "Açıq söz" qəzeti bu barədə ilk xəbərində yazmışdı: "Üzeyir bəy Hacıbəyli tərəfindən öz təhti-idarəsində olmaq üzrə "Hacıbəyli

*Zülfüqar, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları. 1918.*





"Hacıbəyli qardaşlarının opera–operetta artistləri dəstəsi"ndən bir qrup. 1919

qardaşlarının opera-operetta dəstəsi" adında bir truppa təşkil edilibdir. Məşhur artistlərimizin hamısı həmin dəstəyə daxildir. Dram artistlərindən Abbas Mirzə Şərifzadə dəxi Üzeyir bəy tərəfindən cəlb edilib, rejissorluq cəhəti ona tapşırılıbdır..." ("Açıq söz", 1916, 31 avqust). Truppa həm Bakıda tamaşalar verir, həm də Qafqaz, Volqaboyu və Orta Asiyanın bir çox şəhərlərinə qastrol səfərlərinə gedirdi. Truppanın repertuarında Hacıbəyli qardaşlarının opera və operettaları ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" və b. operalar, "Ər və Arvad", "Evliykən subay", "Arşın mal alan", "O olmasın, bu olsun" və b. musiqili komediyalar) əsas yer tururdu.

1918 ilin martında Bakıda S.Şaumyan başda olmaqla erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi soy-qırımı vaxtı Hacıbəyli qardaşlarının opera-operetta truppasına da böyük zərər dəyir. Bu hadisə nəticəsində Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları İrana mühacirət etməyə məcbur olurlar.

1918 il sentyabrın 15-də Bakı *Qafqaz İslam Ordusu* tərəfindən azad edildikdən, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdükdən sonra müsəlman teatrı yenidən fəaliyyətə başlayır. Bu işdə Cümhuriyyət Hökuməti tərəfindən Mailov qardaşları teatrı binasının alınaraq ona Dövlət Teatrı statusunun verilməsinin də mühüm rolu olmuşdur. Həmin ilin oktyabrında Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları Bakıya qayıtmış və tezliklə Bakıda olan artistlərdən bir dəstə təşkil etmək üçün ayrı-ayrı sənətkarlarla danışıqlar aparmışlar. "Azərbaycan" qəzetinin 1918 il 21 oktyabr tarixli nömrəsində Hacıbəyli qardaşlarının təşəbbüsü ilə Bakıda, səhnə fəaliyyətlərinin istiqamətindən asılı olmayaraq, bütün dram, opera və operetta artistlərinin daxil olduğu bir truppa yaratdığı bildirilirdi. Bu truppaya 26 nəfərdən yuxarı görkəmli səhnə xadimi daxil olmuşdu. Hacıbəyli qardaşlarının yaratdığı truppanın tamaşaları əsasən Bakıda Dövlət Teatrının binasında keçirilirdi.

Azərbaycan Cümhuriyyəti süqut edən kimi 1920 il aprelin 28-də Türk Aktyorları İttifaqı təcili iclas çağıraraq, uzun illər uğurlu fəaliyyət göstərən truppa müdiriyyətinin guya "mövqeyi-etibarını itirdiyindən" ləğv edilməsi və İttifaqın müvəqqəti olaraq onun yerinə keçməsi barədə qərar qəbul etdi. Bütün işləri öz öhdəsinə götürmək ittifaqa tövsiyə olundu. Məmmədəli Sidqi isə İttifaq adından müvəkkil təyin edildi.

*Əd.:* Üzeyir Hacıbəyov ensiklopediyası, B., 1996; Azərbaycan teatrının salnaməsi (toplayanı, tərtib edəni və izahların müəllifi Qulam Məmmədli), B., 1974.

**HACINSKİ** Camo bəy Süleyman oğlu (14.6.1888, Quba - 1942, Rusiya, Kirov vil., Vyatka) - ictimai-siyasi xadim, publisist, teatr tənqidçisi, sənətşünas. *Mehdi bəy Hacınskinin* qardaşıdır. Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir (1912). 1907-15 illərdə "Kaspi" qəzetinin müxbiri və əməkdaşı olmuşdur. 1915-17 illərdə Batum vilayətində və Dənizkənarı rayonda Birinci dünya müharibəsi (1914-18) dövründə zərər çəkənlərə yardım edən müsəlman qaçqın komitəsinin müvəkkili işləmişdir. "Nicat" mədəni-maarif cəmiyyətinin işində iştirak etmiş, müsəlman dram cəmiyyətinin (1916) və Azərbaycan arxeoloji cəmiyyətinin (1917) yaradıcılarından olmuşdur.



1917 ilin iyulunda Cənubi Qafqaz Kəndli Deputatları Şurası İcraiyyə Komitəsi sədrinin müavini seçilmiş, oradan nümayəndə kimi Rusiya Müəssislər məclisinə seçkilər üzrə Cənubi Qafqaz mərkəzi komissiyasının sədri vəzifəsinə təyin edilmişdir.

Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, seym buraxıldıqdan (1918, 26 may) sonra isə yeni yaradılmış Azərbaycan *Milli Şurasının* (1918, 27 may) üzvü olmuşdur. Hacınski Milli Şuranın Azərbaycanın istiqlal bəyannaməsini qəbul edən 26 üzvündən biri idi. Azərbaycan Milli Şurasının "Azərbaycan *Məclisi Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən Azərbaycan Cümhuriyyəti Parlamentinə daxil edilmişdi.



Hacınski Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumət kabinəsində dövlət nəzarətçisi vəzifəsini icra etmiş, 4-cü və 5-ci hökumət kabinələrində (1919 aprel -20 mart) poçt və teleqraf naziri vəzifəsində çalışmış, Respublikada rabitə sahəsinin inkişafında xüsusi xidməti olmuşdur.

Hacınski "Türk yurdu" cəmiyyətində Azərbaycan incəsənətindən mühazirələr oxumuş (1918), Azərbaycan və s mətbuatında "Qubalı" imzası ilə çıxış etmişdir. Üzeyir Hacıbəylinin əsərlərinin tamaşaları, həmçinin Nəcəf bəy Vəzirov və b. haqqında məqalə və resenziyalar yazmışdır. "Milli nəğmələr" kitabçalarında (1919-20) şeirləri dərc olumuşdur.

*Aprel işğalından (1920)* sonra xalq ədliyyə komissarlığında inzibati-maliyyə şöbəsinin rəisi təyin olunmuş, mədəniyyət və maarif sahəsində fəaliyyətini davam etdir-mişdir. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin işində yaxından iştirak etmiş, qədim mədəniyyət abidələrinin mühafizəsi məsələləri ilə məşğul olmuşdur. 1922 il aprelin 21-də həbsə alınmış, 3 il məhbəsdə saxlandıqdan sonra Solovki (Rusiya, Arxangelsk vilayəti) həbs düşərgəsinə göndərilmişdir. 1928 ilin iyununda azad edilərək Bakıya qayıtmış, həmin ilin iyulundan respublika Kənd Təsərrüfatı Kooperasiyası İttifaqında ("Köybirliyi") plan şöbəsinin katibi olmuş, sonra şöbə müdiri vəzifəsini icra etmişdir. Hacınski 1933 ilin noyabrından Azərittifaq sistemində işləmiş, bir ildən sonra sənaye kooperasiyasında baş məsləhətçi vəzifəsinə keçirilmişdir. 1937 ilin yanvarında həmin vəzifə ləğv olunduğundan işdən çıxarılmış, 1938 il noyabrın 24-də yenidən həbs edilərək sürgün olunmuşdur. Kirov vilayətinin Vyatka həbs düşərgəsində vəfat etmişdir.

1956 il iyunun 13-də SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən ona bəraət verilmişdir.

*Əd:.* Əliyev M., Cəmo bəy Hacınski, "Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti (1918-1920)" kitabında, B., 1990.



**HACINSKİ** Mehdi bəy Süleyman oğlu (24.5.1879,Quba - iyun, 1941, Bakı) - teatr xadimi, aktyor, publisist, ictimaı-siyasi xadim. Bakıda realnı məktəb kursunu bitmiş, Şərq dilləri kurslarının dinləyicisi olmuşdur. Bakı Dövlət Universitetinin filologiya və hüquq fakültələrində təhsil almışdır. 1896 ildə Bakıda müsəlman truppasının təşkilində fəal rol oynamışdır. 1906 ildə isə ikinci teatr truppasının, sonralar Artistlər Şurasının üzvü olmuşdur. Hacınskinin ilk çıxışı Nəriman Nərimanovun "Nadanlıq" əsərində olmuşdur. Qastrollarda türk artistlərinə rəhbərlik etmişdir. Hacınski Bakı şəhər idarəsinin üzvü (1905) olmuşdur. Müsəlman xeyriyyə cəmiyyətinin ("Cəmiyyəti-xeyriyyə"), "Nicat" və "Səfa" mədəni-maarif cəmiyyətlərinin təşkilatçılarındandır. "Nicat" cəmiyyəti idarə heyətinin üzvü idi. "Nicat"ın teatr bölməsinin rəhbəri (1906 ildən), "Nəşri-maarif" cəmiyyətinin sədr müavini, üç il "Səfa" cəmiyyəti xalq məktəblərinin rəisi, 1914 ildən teatr bölməsinin sədr müavini olmuşdur. Bakı teatrlarında müxtəlif xarakterli obrazlar - Karl Moor ("Qaçaqlar",F.Şiller), Nadir şah ("Nadir şah", N.Nərimanov) və s.yaratmışdır.

İlk məqaləsi İsmayıl bəy Qaspralının "Tərcüman" qəzetinin 1898 il 8 dekabr tarixli sayında Azərbaycan və rus dillərində dərc olunmuşdur. "Kaspi", "Həyat", "İqbal", "İrşad" və s qəzetlərdə, "Zənbur", "Molla Nəsrəddin" jurnallarında "Ürfüzadə", "Dəmdəməki", "Avara", "Estet" və s. imzalarla Azərbaycan teatrına, aktyor sənətinə dair məqalələr, hekayə, oçerk və felyetonlar dərc etdirmişdir. 1906-07 illərdə bir müddət "Hümmət" təşkilatının orqanı "Təkamül" qəzetinin naşiri olmuşdur. "Sultan Əbdüləzizin xəli, yaxud ilk Türk Cümhuriyyəti" adlı dram əsəri var.

Bir sıra pyesləri ("Əl-Mənsur", H.Heyne; "Qaçaqlar", F.Şiller; "Nadan övlad", D.İ.Fonvizin və s.) Azərbaycan

M.S.Hacınski. ***Karl Moor***
***("Qaçaqlar", F. Şiller)*** ***rolunda***



dilinə çevirmişdir. Xalq yaradıcılığı nümunələrinin toplanıb, Azərbaycan və rus dillərində nəşr edilməsində də xidməti var. Mirzə Ələkbər Sabirlə dost olmuş, onun ölümündən sonra əsərlərinin nəşrində yaxından iştirak etmişdir.

Hacınski siyasi xadim kimi də fəaliyyət göstərmişdir. "Müsavat" partiyasının üzvü olmuş, partiyanın Bakı bürosunun tərkibinə seçilmiş (1917), Zaqafqaziya seyminin, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın Azərbaycanın istiqlal bəyannaməsini qəbul edən 26 üzvündən biri idi. Milli Şuranın "Azərbaycan *Məclisi Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmiş, rəyasət heyətinin katibi olmuşdur (1918-20).

Sovet hakimiyyəti illərində Tiflisdə çıxan "Yeni fikir", "Yeni kənd" qəzetlərində, "Dan ulduzu" jurnalında əməkdaşlıq etmişdir. Azərbaycan SSR Xalq Maarif Komissarlığının tapşırığı ilə türk (Azərbaycan) "Satir-Agit" teatrını təşkil etmiş, teatr müdiriyyətinin üzvü olmuşdur.

Azərbaycan Sovet Sosialist Respublikası məhkəmə xadimlərinin 1-ci qurultayında xalq hakimləri şurası rəyasət heyətinin üzvü seçilmişdir. Xalq ədliyyə komissarlığın təlimatçısı kimi, məhkəmə idarələrinin təşkili üçün Naxçıvan Muxtar Respublikasına ezam edilmişdir. Xalq ərzaq komissarının, xalq maarif komissarının müavini təyin edilmiş, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali İqtisadi Şurasının üzvü və muxtar respublikanın tədqiqi üzrə komitənin sədri seçilmişdir. Azərbaycan Xalq Təsərrüfatı Şurası (AXTŞ) Baş idarəsi rəisinin Gürcüstanda müavini təyin edildiyindən, Tiflisə çağırılmışdır. AXTŞ-nin "Xalq təsərrüfatı" jurnalı redaksiya kollegiyasının üzvü olmuş, Azərbaycanın dövlət qulluqçuları üçün türk dili kurslarına rəhbərlik etmişdir.

*Əd.:* Məmmədli Q., Mehdibəy Hacınski, "Jurnalist" jurnalı, 1969, №1; Unudulmaz səhnə ustaları, B., 1981.

**HACINSKİ** Məmməd Həsən Cəfərqulu oğlu (3.3.1875, Bakı - 9.2.1931, Tiflis) - Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimi. Peterburq Texnologiya İnstitutunu bitirmişdir (1902). Bir müddət



*Şəmsi Əsədullayevin* Moskvadakı neftayırma zavodunda mühəndis işləmişdir. Bakıya qayıdan Hacınski 1908 ildən Bakı şəhər idarəsində tikinti şöbəsinə başçılıq etmiş, Bakının abadlaşdırılması və inşaat işlərinin genişlənməsinə səy göstərmişdir; şəhərin baş planının (1898, müəllifi fon der Nonne) layihəsini təkmilləşdirmişdir. 1909-10 illərdə Bakı dənizkənarı parkının salınması (tikintisi 1912 ildə başa çatdırılmışdır) və dəniz hamamının tikilməsi Hacınskinin fəaliyyəti ilə bağlıdır. Şəhərsalma və tikinti-inşaat sahəsində görkəmli təşkilatçı kimi tanınmışdır. 1912 ildə şəhər idarəsi Hacınskinin redaktəsi ilə Bakı küçələrinin abadlaşması haqqında kitab buraxmışdır. O, 1913 ildə qısa müddət Bakı şəhər idarəsinin rəisi olmuş, Şirvanşahlar sarayının qorunması və bərpasına dair təşəbbüs irəli sürmüşdür. Həmin təşəbbüsə əsasən, 1918 ildə memarlar Zivər bəy Əhmədbəyov və Ö.Abuyev Şirvanşahlar sarayının bərpa layihəsini hazırlamaq üçün elmi-tədqiqat işləri aparmışlar.

Hacınski 1902-17 illərdə Bakı şəhər dumasının üzvü olmuş və onun bir çox iclaslarına sədrlik etmişdir. O, 1904 ildə "Hümmət" sosial-demokrat təşkilatını yaradanlardan biridir. Hacınski, eyni zamanda, *"Nəşri-maarif"* cəmiyyətinin (1906) yaradılmasının təşəbbüsçülərindən biri, həmçinin "Nicat" cəmiyyəti idarə heyətinin, "Müsəlman xeyriyyə cəmiyyəti" Mərkəzi Komitəsinin üzvü olmuşdur. Hacınski "Müsavat" partiyasının ilk üzvlərindən idi.

1917-20 illər Hacınskinin ictimai-siyasi fəaliyyətinin qızğın dövrü olmuşdur. 1917 il martın 5-də təşkil edilən Bakı İctimai Təşkilatları Şurasının İcraiyyə Komitəsinə daxil idi. Hacınski martın 27-də yaradılmış Bakı Müsəlman İctimai Təşkilatları Müvəqqəti Komitəsinin sədri seçilmişdi. 1917 ilin aprelində *Qafqaz müsəlmanlarının Bakı qurultayında* iştirak etmişdi. O, qurultayı açmış və onun rəyasət heyətinə seçilmişdi. Həmin ilin mayında Hacınski Rusiya müsəlmanlarının Moskvada keçirilmiş qurultayında da fəal iştirak etmişdi. Hacınski "Müsavat" partiyasının birinci qurultayında (1917, 26-31 oktyabr, Bakı) Mərkəzi Komitənin üzvü seçilmişdi. 1917 il noyabrın 15-də yaradılmış *Zaqafqaziya komissarlığında* ticarət və sənaye komissarının müavini vəzifəsində çalışmışdır. Rusiya Müəssislər




məclisinə üzv seçilmiş Hacınski *Zaqafqaziya seymi* təşkil edildikdə "Müsavat" partiyasından bu qurumun üzvü olmuşdur. Seymdə Osmanlı dövləti ilə danışıqlar aparmaq üçün seçilən nümayəndə heyətinə daxil idi. *Trabzon konfransında (1918)* iştirak etmiş, konfransda Zaqafqaziya seyminin danışıqları dayandırmaq haqqında qərarına qarşı çıxmış, bu qərarı sülhü pozmağa yönəldilmiş cəhd kimi qiymətləndirmiş və bu qərarı "beynəlxalq münasibətlər tarixində tayı-bərabəri olmayan bir təxribat" adlandırmışdı. *A.Çxenkeli* Hacınskinin məsləhətilə danışıqları tamamilə kəsməmiş, nümayəndə heyətinin bir neçə üzvü, o cümlədən, Hacınski Trabzonda qalmışdı. Hacınski Trabzonda *Ənvər paşa* ilə görüşündə Osmanlı dövlətinin Cənubi Qafqazla bağlı mövqeyi ətrafında danışıqlar aparmışdır. Osmanlı dövlətinin yeni sülh təşəbbüsü ilə çıxış etməsində Hacınskinin mühüm rolu olmuşdur.

Hacınski *Zaqafqaziya Demokratik Federativ Respublikası* (ZDFR) hökumətində ticarət və sənaye naziri vəzifəsini icra etmişdir. Seymin Batum konfransında iştirak edən 6 əsas nümayəndəsindən biri olmuş, Məhəmməd Əmin Rəsulzadə ilə

birlikdə Azərbaycan tərəfini təmsil etmişdir. ZDFR-in süqutundan sonra (1918, 26 may) Hacınski mayın 27-də yaradılan Azərbaycan Milli Şurasının üzvü olmuşdu. O, Milli Şuranın Azərbaycanın *İstiqlal bəyannaməsini* qəbul edən 26 üzvündən biri idi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci Hökumət kabinəsi təşkil olunarkən, Batumda olmasına baxmayaraq, Hacınski Azərbaycanın ilk xarici işlər naziri təyin edilmişdi. O, Osmanlı dövləti xarici işlər nazirliyindən Azərbaycanın müstəqilliyinin Rusiya və Avropa ölkələri tərəfindən tanınmasında vasitəçi olmasını xahiş etmişdi. Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsini *(Batum müqavilələri (1918)* Azərbaycan tərəfindən M.Ə.Rəsulzadə ilə birlikdə Hacınski imzalamışdır. Müqavilənin 4-cü bəndinə əsaslanan Rəsulzadə və Hacınski Osmanlı dövlətindən erməni-daşnak soyqırımlarına məruz qalan Azərbaycana hərbi yardım üçün müraciət etmişdilər. Osmanlı dövləti ilə *Bakı-Batum neft kəmərinin* istismarına dair, Cənubi Qafqaz dəmir yollarından istifadə haqqında sazişlər də imzalanmışdı. Hacınski 1918 il iyunun 14-də Gürcüstan Respublikası hökumətinə etiraz notası göndərmiş, gürcü qoşunlarının Borçalı qəzası hüdudlarından dərhal çıxarılmasını tələb etmişdi. Hacınski Cənubi Qafqaz respublikaları arasında sərhədlərin dəqiqləşdirilməsi üçün müştərək komissiyalar yaratmaq təklifi ilə Gürcüstan və Ermənistan respublikaları hökumətlərinə müraciət etmişdi. O, iyulun 15-də Hökumət başçısı Fətəli xan Xoyskiyə müraciət edərək, ermənilərin dinc türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımlarını təhqiq etmək üçün fövqəladə təhqiqat komissiyası yaradılmasının zəruri olduğunu bildirmişdi. Hacınski İstanbuldakı Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə ilə müntəzəm rəsmi əlaqə saxlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 2-ci Hökumət kabinəsində xarici işlər naziri olmuş Hacınski 1918 il oktyabrın 6-dək həm də, müvəqqəti olaraq, nəzarət nazirliyinə rəhbərlik etmiş, 6 oktyabrdan isə maliyyə naziri olmuşdur. Hacınski maliyyə naziri kimi 1918 il noyabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası arasında müqavilə imzalamışdır. Müqaviləyə görə, Dağlılar Respublikasına 10 milyon rubl faizsiz borc vermişdi. O, 3-cü Hökumət kabinəsində dövlət nəzarətçisi vəzifəsini tuturdu.

Hacınski Azərbaycan Parlamentinin üzvü olmuşdur. O, Əlimərdan bəy Topçubaşovun başçılığı ilə *Paris sülh konfransında (1919-20)* iştirak edən nümayəndə heyətinin tərkibinə daxil idi. Paris sülh danışıqları zamanı Ə.Topçubaşovla birlikdə ABŞ, B.Britaniya, Almaniya, İtaliya, Türkiyə, İran və b. ölkələrin başçıları, dövlət nümayəndələri, diplomatları ilə görüşərək, Azərbaycan xalqının istiqlal mübarizəsi, ölkənin ağır iqtisadi vəziyyəti, zəngin neft ehtiyatı haqqında məlumat vermişdir.

1919 il sentyabrın 16-da Parisdə ABŞ vətəndaşı M.Robinovun Azərbaycan nümayəndə heyətinin maliyyə müşaviri təyin edilməsi haqqında Ə.Topçubaşovla birlikdə saziş imzalamışdır. Hacınski Parisdə də Azərbaycan Xalq Cümhuriyyəti və Dağlılar Respublikası arasında ikitərəfli sazişin hazırlanmasında iştirak etmişdir.

Azərbaycana qayıdan Hacınski 1919 ilin noyabrında baş nazir Nəsib bəy Yusifbəyli ilə birlikdə Ermənistan hökuməti ilə danışıqlar aparmaq üçün Tiflisə getmiş, noyabrın 23-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistan Respublikası arasında sülh sazişinin imzalanmasında iştirak etmişdir. Səfər zamanı Hacınski Parisdə Azərbaycan-gürcü birgə iqtisadi bölməsinin sədri kimi Gürcüstan hökumətinə məruzə etmiş, iri ingilis və amerikan cəmiyyətləri ilə Azərbaycan və Gürcüstan üçün çox mühüm və sərfəli olan iqtisadi müqavilələrin layihələrini gətirdiyini bildirmişdir. Hacınski Dövlət Müdafiə Komitəsinin 1919 il 9 dekabr tarixli qərarı ilə Fətəli xan Xoyski və Məmmədrza bəy Vəkilovla birlikdə Azərbaycan-Ermənistan konfransında iştirak edəcək hökumət nümayəndə heyətinə daxil edilmişdi. Konfransda (1919, 14-21 dekabr) çıxış edən Hacınski bildirmişdi ki, Azərbaycan və Ermənistan respublikaları arasında dostluq münasibətlərinin yaranmasına əsas maneə mübahisəli ərazilər məsələsidir. Qafqaz respublikaları müstəqil dövlət kimi ittifaqda - konfederasiyada birləşsələr, bu mübahisəli məsələlər öz-özünə həll ediləcəkdir.

Hacınski "Müsavat" partiyasının 2-ci qurultayında (1919, 2-11 dekabr) partiyanın siyasi komissiyasının və MK

üzvü seçilmişdi. Dekabrın 24-də N.Yusifbəylinin yeni Hökumət kabinəsində Hacınski daxili işlər naziri, 1920 il fevralın 18-dən isə ticarət, sənaye və ərzaq naziri vəzifəsini tutmuşdu. 1920 il fevralın 5-də Hacınski yollar naziri Xudadat bəy Məlik-Aslanovla Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında sərbəst yük daşınması haqqında tranzit müqaviləsi və ona əlavə saziş imzalamışdır.

1920 il martın 30-da Hökumət istefa verdikdə, Azərbaycan Cümhuriyyəti Parlamenti yeni Hökumətin təşkilini Hacınskiyə tapşırdı. O, bir müddət Parlamentdə fəaliyyət göstərən partiya və fraksiya nümayəndələri ilə danışıqlar apardı, hətta bolşeviklərlə də görüşdü və onlara öz hökumətində nazir vəzifələri də təklif etdi. Bolşeviklərdən müsbət cavab almayan Hacınski aprelin 22-də yeni hökumət təşkil etməyin mümkün olmadığını, Parlamentin sədrini əvəz edən Məmməd Yusif Cəfərova bildirmiş, həmçinin "Müsavat" partiyasından çıxdığını və bolşeviklər partiyasına daxil olduğunu bəyan etmişdi.Azərbaycan Xalq Cümhuriyyətinin taleyi üçün son dərəcə məsuliyyətli bir zamanda Hacınskinin lənglik göstərərək hökuməti təşkil edə bilməməsi hakimiyyət böhranını daha da dərinləşdirmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Hacınski Azərbaycan Sovet Sosialist Respublikası Ali Xalq Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komitəsində müxtəlif rəhbər vəzifələrdə çalışmış, Azərbaycan şəhərlərinin abadlaşdırılmasında iştirak etmişdir. 1920 il mətbuatında Hacınskinin Azərbaycanın tikinti-quruculuq işlərinə dair məqalələri dərc edilmişdir.

Sovet hakimiyyəti dövründə Azərbaycanın başqa görkəmli ictimai-siyasi xadimləri kimi Hacınski də repressiyaya məruz qalmışdır. L.Beriyanın göstərişi ilə 1930 il dekabrın 3-də Tiflisdə Zaqafqaziya Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən həbs edilərək, ağır işgəncələr verilən Hacınski "Azərbaycan Milli Mərkəzinin" işi üzrə ittiham olunmuşdur (bax "Azərbaycan *Milli Mərkəzi* "(Bakı)).

Ağır həbsxana həyatına dözməyərək ürək xəstəliyinə və vərəmə tutulan Hacınski, istintaq sənədlərinə görə, "özünü asmaqla" intihar etmişdir.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Azərbaycan Demokratik Respublikası: Azərbaycan Hökuməti (1918-1920), B., 1990; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Elşad Qoca, Sibir dərsi, B., 2000; Qasımlı M., Hüseynova E., Azərbaycanın xarici işlər nazirləri, B., 2003.



**HACIYEV** Bayram İbrahim oğlu (30.6.1900, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini iqtisadiyyat sahəsində davam etdirmək üçün Parisə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**HACIYEV** Xasbulat İsmayıl oğlu (21.1.1900, Şuşa - ?) – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haq-qında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1917 ildə İrəvan kişi gimnaziyasını bitirmiş, Petroqrad dağ-mədən institutuna daxil olmuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb geri qayıtmağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Rusiyaya göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**HACIYEV** Məmməd bəy Kərim bəy oğlu (6.3.1896, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdi (1916). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini maşın-qayırma sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**HACIZADƏ** Mirzə Məşədi Yusif oğlu, Mirzə bəy Göy-Göl (1897, Gəncə - 1980, İstanbul) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri.Yelizavetpol kişi gimnaziyasını bitirmiş (1915), Xarkovdakı Novo-Aleksandr İnstitutunun kənd təsərrüfatı və meşəçilik şöbəsində oxumuşdur. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Təhsilini başa vurduqdan sonra Hacızadə artıq sovet işğalına məruz qalmış Azərbaycana dönə bilməmişdir. O, 1926 ildə Berlində doktorluq dissertasiyası müdafiə etmişdir. Bu illərdə bütün cəhdlərinə



*Hacızadə Mirzə həyat yoldaşı Zöhrə xanım (Nəsib bəy Yusifbəylinin qızı) ilə*

baxmayaraq, Hacızadənin Azərbaycana qayıtmaq arzusu baş tutmamışdır. Bir müddət Almaniyada seleksiyaçı alim kimi fəaliyyət göstərdikdən sonra Türkiyəyə dəvət olunmuş, 1961 ilədək İstanbulun Halkalı toxumçuluq stansiyasında işləmiş, ali məktəblərdə dərs demişdir.

Hacızadə İstanbulda Nəsib bəy Yusifbəylinin qızı Zöhrə xanımla ailə qurmuşdur. Məhəmməd Əmin Rəsulzadə, Adil xan Ziyadxanov, Cahangir bəy Kazımbəyli, Mustafa Vəkilov, Nağı Şeyxzamanlı və Türkiyədə yaşayan başqa azərbaycanlı mühacirlərlə dostluq etmiş, evində müntəzəm toplantılar, müşavirələr keçirmişdir. Hacızadənin ali məktəb tələbələri üçün dərslik kimi istifadə olunan 34 kitabı, həmçinin 300-dək elmi məqaləsi çap olunmuşdur.

Gəncədə yaşayan Hacızadələr nəsli 1950-ci illərədək təqiblərlə üzləşmiş, bu nəslin onlarla nümayəndəsi sürgün həyatı keçirmişdir. Anası Sibirə sürgün edilmiş, sürgündən sonra Gəncəyə qayıtmasına icazə verilməmiş, Gədəbəydə yaşamağa məcbur olmuş və orada da vəfat etmişdir.

Hacızadə Azərbaycanı bütün varlığı ilə sevirdi. Sovet dövründə Türkiyəyə səfər edən Azərbaycan mədəniyyət xadimləri dəfələrlə onun qonağı olmuş, maestro Niyazi ilə tanışlığı ailəvi dostluğa çevrilmişdi. Hacızadə Niyazinin dəvəti ilə 1968 ildə həyat yoldaşı Zöhrə xanımla birlikdə Bakıya gəlmiş, respublika alimləri qarşısında mühazirələr oxu-muşdur. Bütün cəhdlərinə baxmayaraq, Gəncəyə getməsinə, anasının qəbrini ziyarət etməsinə icazə verilməmişdir.



**HADİ** Məhəmməd, Əbdülsəlimzadə Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu (1879, Şamaxı - may, 1920, Gəncə) - şair, müəllim, jurnalist, publisist. Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi. Şamaxı məhəllə məktəbində və mədrəsədə (1886-98) təhsil almışdır. Şamaxı zəlzələsində (1902) Kürdəmirə köçüb müəllimlik (1902- 06) etmişdir. 1906 ilin aprelində keçmiş müəllimi və qohumu məşhur maarif və mətbuat xadimi Mustafa Lütfi İsmayılzadənin dəvətilə Həştərxana getmiş, "Darül-ədəb" məktəbində müəllim, "Bürhani-tərəqqi" qəzetində mühərrir işləmişdir. Həmin ilin oktyabr ayında Bakıya dönərək, "Füyuzat" jurnalında (1906-07), "Təzə həyat" (1907-08), "İttifaq" (1908-09), "Tərəqqi" (1908-09), "Həqiqət" (1909-10) qəzetlərinin redaksiyala-rında əməkdaşlıq etmişdir. Mətbuatda lirik şeirlər, publisist məqalələrlə çıxış edən Hadi 1908 ildə "Firdovsi-ilhamat" adlı şeirlər məcmuəsini nəşr etdirmişdir. 1911-14 illərdə İstanbulda yaşamış, "Tənin" qəzeti, "Sərvəti-fünun" jurnalı redaksiyalarında işləmiş, müxtəlif qəzetlərdə şeir və məqalələr dərc etdirmiş, istibdad əleyhinə şeirlərinə görə Səlanik (Saloniki) şəhərinə (Yunanıstan) sürgün olunmuşdu. 1914 ildə Bakıya dönərək, "İqbal" qəzetinin redaksiyasında işləmiş, "Eşqi-möhtəşəm, yaxud Əflatun sevgisi" (1914), "Şükufeyi-hikmət" (1914) kitablarını nəşr etdirmişdir. Məhəmməd Hadi "Dikaya diviziya"nın baş axundu kimi Birinci dünya müharibəsində iştirak etmiş, Karpatda, Qalisiyada, Polşada, habelə Peterburqda olmuşdur. Tərxis olunduqdan sonra Gəncədə və Bakıda yaşamışdır.

Yaradıcılığı boyu məşəqqətli həyata üsyan edən, zülm və istibdada qarşı mübarizə aparan, bütün insanların azad, xoşbəxt yaşadığı, "nə hakim, nə də məhkum olan" cəmiyyət arzulayan Məhəmməd Hadi xalqın qanını içən zalımlara, müstəbidlərə müraciətlə deyirdi:

***Ye, iç nə qədər istər isən qanımı, zalım,***
***Bir gün görərəm qanını səhbalar içində.***

"Dad istibdaddan", "El fəryadı" şerilərində Məhəmməd Hadi məzlumların azadlıq, səadət və hüquq bərabərliyi arzularını tərənnüm etmişdir. Üsyankar ruhlu bu əsərlər bolşevik qəzetləri "Yoldaş" və "Təkamül"də çap olunmuşdur. Məhəmməd Hadinin poeziyasında milli oyanış ideyaları qüvvətlidir:

***Qoymuş miləl imzasını övraqi-həyatə,***
***Yox millətimin xətti bu imzalar içində.***

Azadlıq və hürriyyət mücahidi olan şair məzlum millətləri əsarətdə saxlayan çar Rusiyasının süqutundan sonra yaranmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını böyük ruh yüksəkliyi ilə qarşılamış, ona "Şühədayi-hürriyyətimizin ərvahma ithaf", "Əsgərlərimizə, könüllülərimizə", "Məfkureyi-aliyyəmiz" ("Azərbaycan dövləti-növzadımıza") şeirlərini həsr etmişdir. Hadi sonuncu şerdə xalqımızın milli istiqlal mücadiləsinin yekunu kimi meydana gələn müstəqil Azərbaycan dövlətinə müraciətlə yazırdı:

*Ey dövləti-novin, yaşa nəzmü-nizam ilə,*
*Parlaq əməllərinlə, məzhərü-məram ilə.*
*Türk aləmində parlasın ənvari-intibah,*
*Gülsün həyatimizdə izhari-intibah.*

Şair həmvətənlərimizin canı və qanı bahasına qazanılmış istiqlalı qorumaq əzmini belə ifadə edirdi:

***Məfkurəmiz yolunda nə lazımsa etməli,***
***Məqsudə doğru əzmü-xürusanla getməli.***
***...Çıxsın, diləsə, qarşımıza həp məzarımız,***
***Dönməz məzaridən bu dili-əzmkarımız...***
***Vicdani-millətə yazılıbdır bu ayəmiz,***
***Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz.***

"Əsgərlərimizə, könüllülərimizə" silsiləsində isə şair vətən övladlarını istiqlalımızı qorumağa çağırır, bu yolda ölməyi belə şərəf adlandırırdı:

***Qoymayın olsun xəzan gülzarı-istiqlalımız,***
***Sizdən istiqlalımız parlaq təzarət gözləyir.***
***Şanlı ölmək ölməməkdir...***
***Pürşərəf kim can verərsə, anı rəhmət gözləyir.***

"Şühədayi-hürriyyətimizin ərvahına ithaf" şerində şair azadlıq şəhidlərinə müraciətdə deyirdi:

***Sizin məzarınız iştə qülubi-millətdir,***
***... Əmin olun buna, ey ziynəti-cəhani-fəna,***
***Mübəddən diridir namınız bu dünyada.***

1918-20 illərdə Hadi ən çox Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan "Azərbaycan" qəzetində çap olunurdu, qəzet onu "əski ədəbiyyatda inqilab yaradan sənətkar", "Qafqasiyanın görkəmli şairlərindən biri" kimi təqdim edirdi. 1918 ilin noyabr-dekabr aylarında Bakıda "Turan" mətbəəsində "Əlvahi-intibah, yaxud insanların tarixi faciələri" poemasını üç kitabda nəşr etdirmişdir.

Əsərləri: Seçilmiş əsərləri, 2 cilddə, c.l, B., 1979; El fəryadı. Seçilmiş şeirlər, B., 1980.

*Əd.:* Cəfər M., Azərbaycan ədəbiyyatında romantizm, B., 1963; Mirəhmədov Ə., Məhəmməd Hadi, B., 1985; Qəribli İ., Məhəmməd Hadinin "İnsanların tarixi faciələri, yaxud Əlvali-intibah" poeması, B., 2001; Əliyeva A., Məhəmməd Hadi və Azərbaycan Demokratik Respublikası, "Elm" qəzeti, 1991, 30 avqust.

**HAKİMİYYƏTİN BOLŞEVİKLƏRƏ TƏHVİL VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN QƏRARI (27 aprel 1920 il, saat 20:45 - 23:25)** - bolşevik Rusiyasının hərbi müdaxiləsi və Bakının 11-ci Qırmızı ordu hissələri tərəfindən mühasirəyə alındığı şəraitdə işğalçıların hakimiyyəti təslim etmək barədə ultimatumunun müzakirəsindən sonra Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin zorakı məcburiyyət qarşısında qəbul etdiyi qərar. Qərar 1920 il mayın 6-da, artıq bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra "Kommunist" qəzetində dərc olunmuşdu. Qərara əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hakimiyyəti aşağıdakı şərtlərlə bolşeviklərə təhvil verirdi:

***1. Sovet hökuməti tərəfindən idarə olunan* Azərbaycanın *tam istiqlaliyyəti saxlanılır;***

***2.* Azərbaycan *kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;***

***3.* Azərbaycanın *son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputat-ları sovetləri şəxsində* Azərbaycanın *ali qanunverici orqanı müəyyənləşdirəcəkdir;***

***4. Hökumət idarəsinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;***

***5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti parlament və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;***

***6. Qırmızı ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcəkdir;***

***7. Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq,* Azərbaycanın *istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir.***

Azərbaycan Parlamenti özünün fövqəladə iclasında həmin şərtləri səs çoxluğu ilə qəbul etmişdi. Lakin bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra həmin şərtlərə əməl etmədilər.

**HAQVERDİYEV** Əbdürrəhim bəy Əsəd bəy oğlu (17.5.1870, Şuşa - 11.12.1933, Bakı) - yazıçı, dramaturq, teatr xadimi və ictimai xadim, Azərbaycanın əməkdar incəsənət xadimi (1928). Bəy ailəsində doğulmuşdur. Şuşa realnı məktəbində oxumuş, Tiflis realnı məktəbini bitirmişdir. 1891 ildə Peterburq Yol Mühəndisləri İnstitutuna daxil olmuş, lakin bitirməmiş, Peterburq Universitetinin Şərq fakültəsində mühazirələr dinləmişdir. Peterburqda Müsəlman Xeyriyyə Cəmiyyətində katib (1895-99), Bakıda ikinci dərəcəli şəhər məktəbində müəllim, Müsəlman teatr truppasında rejissor (1901-04), Şuşa bələdiyyə idarəsinin üzvü (1904-06), 1-ci Dövlət dumasının deputatı (1906), Bakıda Kür-Xəzər səhmdar gəmiçilik cəmiyyətində müfəttiş (1907-13), Ağdam yetimlər evinin müdiri (1913-16), Tiflisdə şəhərlər ittifaqının Qafqaz şöbəsində məmur və onun "Əxbarı"nın redaktoru (1916-17), Borçalı qəzasında müvəkkil olmuş, Gürcüstan parlamentinin üzvü (1917-1918) seçilmişdir.



Haqverdiyev 1919 ildə Dağlılar Respublikasında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin nümayəndəsi təyin olunmuşdur. Lakin fəaliyyəti Denikini qane etmədiyindən, Bakıya geri dönmüşdü. Növbəti dəfə, Ermənistana təyinat alan Haqverdiyev "xətti-hərəkəti" daşnak hökumətinin siyasi mövqeyinə müvafiq gəlmədiyinə görə istefa vermişdir. Sovet hakimiyyəti illərində xalq maarif komissarlığında incəsənət şöbəsinin müdiri, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sədri olmuş, Azərbaycan Dövlət Universitetində müəllim işləmişdir. Haqverdiyev 19 əsrin sonu - 20 əsrin birinci qərinəsində (1892-1933) geniş yaradıcılıq fəaliyyəti göstərmiş, "Həyat", "İrşad", "Təzə həyat", "Tərəqqi", "Yeni İrşad", "Açıq söz" və s. dövri mətbuat orqanlarında "Ə.Haqverdiyev", "Ə.H.", "Xortdan", "Ceyranəli", "Həkimi Nuni-Səğir" imzaları ilə hekayə, pyes, məqalə və tərcümələr dərc etdirmişdir. M.F.Axundzadənin realist ənənələrini inkişaf etdirərək, Azərbaycan dramaturgiyasını "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri-cadu", "Ağa Məhəmməd şah Qacar" və s. səhnə əsərləri ilə zənginləşdirmişdir. Ədibin "Xortdanın cəhənnəm məktubları" səyahətnamə-povesti, "Marallarım" hekayələr silsiləsi, "Ata və oğul", "Ayın şahidliyi", "Şeyx Şaban" hekayələri realizmin dərinliyi, hadisə və obrazların tipikliyi, satirik gülüşün kəskinliyi baxımından ədəbi prosesdə hadisə kimi səciyyələndirilmişdir.

Haqverdiyev bədii tərcümə ilə də məşğul olmuş, U.Şekspirin "Hamlet", F.Şillerin "Məkr və məhəbbət", "Qaçaqlar", Y.Çirikovun "Yəhudilər", F.Volterin "Soltan Osman", E.Zolyanın "Qazmaçılar", A.Çexovun "Dəhşətli gecə", Qorkinin "Makar Çudra", "İzergil qan", Cek Londonun "Tətil etdi" və s. əsərləri tərcümə etmişdir. Onun "Müsəlmanlarda teatr", "M.F.Axundovun həyatı və fəaliyyəti", "M.Qorkinin həyatı və yaradıcılığı", "Ədəbi dilimiz haqqında" və s. məqalələri ciddi elmi araşdırmaların məhsuludur.

Yaradıcılığının janr baxımından rəngarəngliyinə baxmayaraq, əsərlərini ümumi ideya - əski həyat və məişətin, onun rəzalətlərinin, insan şəxsiyyətini və mənliyini alçaldan ictimai mühitin tənqidi birləşdirir.

Əsəri: Seçilmiş əsərləri, 2 cilddə. B., 1971.

*Əd:.* Məmmədov K., Ə.Haqverdiyev, B., 1970; Şərif Ə., Keçmiş günlərdən, B., 1977; Mütəllimov T., Ə.Haqverdiyevin poetikası, B., 1988.

**HARBORD MİSSİYASI** - Qafqazda və Kiçik Asiyada hərbi-siyasi vəziyyəti, coğrafi, iqtisadi, idarəçilik və digər məsələləri ətraflı öyrənmək üçün göndərilmiş xüsusi Amerika missiyası. 1919 ildə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Qafqaza marağının artdığı, Amerika siyasi dairələrində Qafqaz mandatı məsələsi müzakirə edildiyi şəraitdə ABŞ prezidenti Vilson regiona xüsusi missiya göndərmək qərarına gəldi. 1919 il avqustun ortalarında Birləşmiş Ştatların Versalda olan nümayəndəliyinin başçısı F.Polk Qafqaz respublikalarının Parisdəki nümayəndələrinə xüsusi məktubla müraciət edərək, Harbord missiyası barədə məlumat verdi. Avqustun 13-də Azərbaycan nümayəndəliyinə göndərilən məktubda qeyd edilirdi ki, briqada generalı Ceyms Q.Harbord 12 zabitin müşayiətilə yaxın vaxtlarda Cənubi Qafqaza yola düşəcəkdir. Azərbaycan nümayəndələrindən bu barədə öz hökumətinə məlumat verilməsi və general Harborda yerlərdə öz vəzifəsini yerinə yetirməkdə hökumətin yardım göstərilməsi xahiş edilirdi. Məktubun sonunda xatırladılırdı ki, missiyanın göndərilməsi Azərbaycanın və Cənubi Qafqazın başqa respublikalarının tanınması kimi qəbul edilməməlidir. Bundan sonra, Versaldakı Azərbaycan nümayəndələri Harbord missiyasının Azərbaycan üzrə müvəkkili polkovnik Rey ilə görüşüb, onu lazımi materiallarla təchiz etmişdilər.

General Ceyms Q.Harbord ABŞ siyasi dairələrində tanınmış şəxslərdən biri idi. O, Birinci dünya müharibəsinin (1914-18) sonlarında Avropada Almaniyaya qarşı vuruşmuş, müharibə qurtardıqdan sonra Amerika ordusunun vətənə qayıtması işinə rəhbərlik etmişdi. Harbord missiyası 1919 il avqustun sonlarında Fransanın Brest şəhərindən yola düşmüş və sentyabrın 12-də İstanbula gəlmişdi. Qısa müddətdə Harbord İngiltərə, Fransa, İtaliya komissarları, habelə Yaxın Şərqdə Amerika mənafeyini müdafiə edən İsveç səfiri ilə görüşmüşdü.

Sentyabrın ortalarında general Harbord Sivasda Qazi Mustafa Kamal paşa Atatürklə görüşdü. Dörd saata qədər davam edən danışıqlar zamanı Harbordu əsasən, kamalçıların Qafqaz siyasəti maraqlandırmışdı. Görüş zamanı Atatürk bildirmişdi: "Mərkəzi İrəvan olan Erməni Cümhuriyyətinə qarşı bizim heç bir düşmənçiliyimiz yoxdur". Mustafa Kamal paşa, eyni zamanda, Ermənistan hökumətinin öz ərazisində müsəlmanlara qarşı vəhşiliklər törətdiyini, digər yerlərdəki ermənilәri də bu işə təhrik etdiyini və hətta Türkiyənin hüdudlarına müdaxilə etdiyini Harborda bildirmişdi. O, bu fikirdə idi ki, Ermənistandakı müsəlman əhalisinin xilas edilməsi xeyli dərəcədə Qafqazda Azərbaycan hökumətinin qüvvətlənməsindən asılıdır. General Harborda təqdim edilən raportda göstərilirdi ki, 1918 il martın 11-12-də ermənilər təkcə Ərzurumda üç min dinc türk əhalisini qətlə yetirmişlər. Ərzurum valisi Zakir əfəndi ermənilərin soyqırımı törətdiyi yerləri Harborda göstərmişdi.

Sonra köhnə Rusiya-Türkiyə sərhədləri boyunca Qarsa gələn Harbord İstanbula göndərdiyi məlumatda yol boyu türklərin onlara böyük xeyirxahlıq göstərdiyini və bu yerlərdə az miqdarda erməni əhalisi olduğunu yazırdı. O qeyd edirdi ki, sərhəd boyunca tez-tez ermənilər tərəfindən yurd-yuvalarından didərgin salınmış müsəlman köç karvanları ilə rastlaşır. Türkiyənin erməni talanlarına və soyqırımlarına məruz qalmış şərq vilayətlərində gördüyü dəhşətli vəziyyət haqqında Harbord sentyabrın 28-də Qarsdan müttəfiqlərin İstanbulda olan nümayəndələrinə məlumat vermişdi.

Harbordun başçılıq etdiyi Amerika missiyası İrəvan və Tiflisdən sonra oktyabrın əvvəllərində Bakıya gəldi. Ermənistan və Gürcüstanda olduğu kimi, Azərbaycanda da Amerika missiyası onları maraqlandıran siyasi, dövlət quruluşu, maliyyə, ticarət, sənaye, səhiyyə, əhali, təbii sərvətlər, coğrafiya, poçt-teleqraf, hərbi və başqa məsələləri, həmçinin Amerika mandatlığına münasibəti öyrənməli idi. Hacı Zeynalabdin *Tağıyevin* evində qalan general Harbord Baş nazir Nəsib bəy *Yusifbəyli*, xarici işlər naziri Məmməd Yusif *Cəfərov*, yollar naziri Xudadat bəy *Məlik-Aslanov* və digər rəsmi şəxslərlə danışıqlar aparmışdı. Harbord Bakıda keçirdiyi görüşlər zamanı Azərbaycan Parlamenti və Hökuməti, xalq maarifinin

vəziyyəti, məhkəmə orqanlarınının quruluşu və fəaliyyəti, əyalət idarəçilik formaları, seçki sistemi ilə bağlı onu maraqlandıran məsələlər haqqında ətraflı məlumat almışdı. Harbord missiyasına daxil olan polkovnik Hill və digərləri Bibiheybətdə, Qaraşəhərdə və digər sənaye rayonlarında da olmuşdular. "Azərbaycan" qəzeti Amerika missiyası ilə danışıqlar barədə məlumatında qeyd edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və iqtisadi vəziyyətindən razı qalan Harbord Azərbaycanın istiqlaliyyətinin Paris sülh konfransı tərəfindən tezliklə tanınacağını söyləmişdi.

Harbordun Bakıya qısa müddətli səfərindən şəhərin erməni əhalisi və onların milli təşkilatları da istifadə etdilər. Ermənistan hökuməti general Harbordun Tiflisə və Bakıya səfər edəcəyini nəzərə alaraq, hər iki şəhərdə olan erməni milli təşkilatlarına və erməni kilsələrinə ümumerməni tələbləri ilə bağlı ona sənədlər təqdim etmək barədə qabaqcadan tapşırıq vermişdi. Bu təşkilatlar şəhərin erməni əhalisi adından general Harborda müraciət təqdim etdilər. Müraciət elə tərtib edilmişdi ki, guya Azərbaycanda hər şey ermənilərə məxsus olmuşdur və ən maraqlısı odur ki, müraciətdə "Azərbaycan" adı bir dəfə də olsun çəkilmirdi. Bakı erməniləri 1918-19 illərdə cərəyan edən hadisələri, o cümlədən Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri soyqırımlarını da Amerika missiyasına saxtalaşdırılmış şəkildə təqdim etmişdilər.

Oktyabrın 8-də Harbordun missiyası Batumdan Fransaya yola düşməli olduğu üçün Bakıdan birbaşa Batuma getdi. Azərbaycan xarici işlər naziri Harbordu Batuma qədər müşayiət edərək, Cümhuriyyətin xarici və daxili siyasətinin bir sıra mühüm məselələrini ona aydmlaşdırdı. Amerikanlar Batumda olan "m. Vaşinqton" gəmisində Azərbaycan xarici işlər nazirinin şərəfinə ziyafət verdilər. Oktyabrın 8-də isə Azərbaycan konsulluğunda gürcülərlə birlikdə Ceyms Harbordun şərəfinə ziyafət məclisi təşkil edildi. Azərbaycan və Gürcüstan nümayəndələri ilə Batum danışıqlarında amerikanlar bacarıqlı və işgüzar adamlardan təşkil olunmuş Azərbaycan hökumətinin, bir sıra maneələrə baxmayaraq, çox iş görə bildiyini xüsusi qeyd etdilər. General Harbord Azərbaycanın sülhsevər xarici siyasətinin onda xoş təəssürat yaratdığını xüsusi qeyd etdi. Batumdan yola düşməzdən əvvəl general Harbord Azərbaycan Xalq Cümhuriyyətinə səfər zamanı aldığı xoş təəssürata görə Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə təşəkkür məktubu göndərdi. Harbord yazırdı: ***"Mən və mənim missiyamda olan zabitlər xalqınız və ölkəniz haqqında ən yaxşı fikirləri özümüzlə aparırıq ki, qonşularınızın böyiik dövlətlər arasında yaratdığı narazılıq sizin tərəqqinizə mane olmasın ".***

Harbordun başçılıq etdiyi Amerika missiyası oktyabrın 16-da Parisə gəldi və Birləşmiş Ştatların Versalda olan dövlət katibinin müavini F.Polka, az sonra isə ABŞ dövlət departamentinə məruzə təqdim etdi. Harbordun məruzəsinin qısa mahiyyəti ondan ibarət idi ki, hər üç respublika Qərb nöqteyi-nəzərindən o qədər də yaxşı vəziyyətdə deyildir. Onun fikrincə, Qafqazda iqtisadiyyat və maliyyə sistemi fəlakətli dərəcədə dağılmışdır, Gürcüstanda "qırmızı təhlükə" - bolşevizm təhlükəsi güclüdür, Azərbaycanda idarəçilik üçün yerli kadrlar çatışmır, Ermənistan isə xarabalığı xatırladır. Hər üç respublikanın siyasi istiqaməti Harbord tərəfindən belə müəyyən edilirdi: Gürcüstan müstəqillik üzərində israr edir, Ermənistan, yəqin ki, Rusiya mandatına tərəfdardır, Azərbaycan isə Türkiyəyə meyllidir və xristianlara etibar etmir, lakin onların təhsil görmüş nümayəndələri xarici əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini başa düşürlər. Ümumiyyətlə, mandat məsələsində Harbordun fikri belə idi ki, Cənubi Qafqaz vahid bir mandatlıqda birləşməlidir. Lakin bu mandatın Amerikaya verilməsi məsələsində onun fikri müsbət deyildi.

General Harbord öz məruzəsində ermənilərin toruna düşmüş ABŞ siyasi xadimlərinə bildirirdi ki, ermənilər üçün nəzərdə mtulan ərazilərdə türklər hələ ermənilər oradan çıxanlmazdan əvvəl çoxluq təşkil edirdilər və bütün erməni qaçqınlarının ora qayıdacağı halda da, türklər yenə çoxluq təşkil edəcəklər. Harbord erməni məsələsi ilə tanış olduqdan sonra qəti surətdə bu fikrə gəlmişdi ki, ABŞ Ermənistana hər hansı vəkalət verməkdən imtina etməlidir.

General Harbordun missiyanın yekunları barədə hazırladığı məruzə belə bir nəticə çıxarmağa əsas verir ki, o, Cənubi Qafqazın və İstanbulun bir mandatlıqda birləşdirilməsinə tərəfdar olmuşdur. Harbord bu mandatın ABŞ tərəfindən götürülməsinə etiraz edirdi.

Harbord missiyası Amerika Birləşmiş Ştatlarının Qafqaz mandatlığına olan marağına son qoydu və Amerika siyasi dairələrində geniş yayılmış ermənipərəst əhvali-ruhiyyəyə də ağır zərbə vurdu.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**"HASKEL LAYİHƏLƏRİ"** - Antanta dövlətlərinin "Ermənistan" adlandırılan əraziyə ali komissar təyin etdikləri amerikalı polkovnik V.Haskel tərəfindən 1919 ilin sentyabrında hazırlanmış sənəd. Həmin sənəddə Amerika Birləşmiş Ştatlarının əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları öz əksini tapmışdı. Layihədə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazidə Naxçıvan general-qubernatorluğunun yaradılması nəzərdə tutulurdu. Ətraflı məlumat üçün bax Naxçıvanda *Amerika general-qubernatorluğu.*

**HAŞIMBƏYOV** Əliyar bəy Mehdi oğlu (8.3.1856, Bakı - 1920) - hərbi xadim, general-mayor (1908). İlk təhsilini realnı məktəbində almış, 1871 ildə Tiflisdə hərbi-piyada məktəbinə daxil olmuş, çar ordusunda xidmət etmiş, qüsursuz xidmətlərinə görə üçüncü dərəcəli "Müqəddəs Stanislav" (1889), üçüncü dərəcəli "Müqəddəs Anna" (1894), ikinci dərəcəli "Müqəddəs Stanislav" (1895), ikinci dərəcəli "Müqəddəs Anna" (1898) və "Müqəddəs Vladimir" (1904) ordenləri ilə təltif olunmuşdur. Birinci dünya müharibəsində (1914-18) artilleriya qoşunlarının piyada hissələrində xidmətə başlamış, 3-cü Qafqaz araba-karvan briqadasının komandiri olmuşdur.

1917 ildə istefaya çıxan Haşımbəyov 1918 ildə Azər-baycan Xalq Cümhuriyyətində könüllü xidmətə başlamışdır. Haşımbəyov Cümhuriyyət dövründə daxili işlər nazirinin müavini, Zaqatala general-qubernatoru, Cənub-qərbi Azərbaycan general-qubernatoru, Hərbi intendant (ləvazimat) idarəsinin rəisi vəzifələrində işləmişdir. 1920 ildə bolşeviklər tərəfindən güllələnmişdir.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999.

**HEYDƏROV** İbrahim Qasım bəy oğlu (1879, Dərbənd - ?) - Temirxan-Şurada realnı məktəbi, Peterburqda yol mühəndisliyi institutunu (1904) bitirmişdir. Dağıstandan və Zaqatala dairəsindən 3-cü Dövlət dumasına üzv seçilmişdir. Heydərov Bakı şəhər idarəsinin üzvü, idarənin təsərrüfat şöbəsinin müdiri idi.

1907 ildə "Nəşri-maarif" cəmiyyətinin idarə heyətinə daxil olmuşdur. 1913 ildə A.Babayevlə birlikdə "Dəyanət" neft-sənaye cəmiyyətini təşkil etmişdir. 1914 ilin yanvarında "Səfa" xeyriyyə cəmiyyəti idarə heyətinin üzvü, 1916 ilin martında isə "Nicat" cəmiyyətinin sədr müavini seçilmişdir.

Heydərov Fevral inqilabından sonra müsəlman ziyalılarının 1917 il martın 16-da Bakıda keçirilən iclasına sədrlik etmiş, Qafqaz müsəlmanları qurultayı (1917, 15-20 aprel, Bakı) rəyasət heyətinin üzvü seçilmişdi. Xüsusi Zaqafqaziya Komitesi (1917) Heydərovu Dağıstan vilayətində Müvəqqəti hökumətin komissarı təyin etmiş, lakin Dağıstan İcraiyyə Komitəsinin sosialist üzvləri, sosial-demokrat olmasına baxmayaraq, onun namizədliyinə qəti etiraz etmişdilər. Xüsusi Zaqafqaziya Komitəsi güzəştə gedərək, Dağıstanda idarəçiliyi həyata keçirmək üçün Heydərovun da daxil olduğu üç nəfərdən ibarət xüsusi heyət yaratmışdı.

Bir çox dağlı liderləri, ictimai xadimləri kimi Heydərov da məhz Bakı mühitində yetişmiş, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatına rəhbərlik etmişdir. Fevral inqilabından (1917) sonra vətənə dönmüş, azadlıq hərəkatını təşkilatlandırmaq istiqamətində iş aparmışdır. Heydərov türk dilinin təhsil dilinə çevrilməsi ideyasını dəstəkləmiş, hətta 1917 il iyunun 15-də Temirxan-Şurada müəllimlər üçün türk dili kursları açanlardan biri olmuşdur. Heydərov Dağıstan Müsəlman Milli Komitəsinin üzvü idi. Komitənin siyahısı ilə Rusiya Müəssislər məclisinə seçilmişdi.

İbrahim Heydərov *Zaqafqaziya seymində* sosialist blokunun üzvü, 1918 il aprelin 26-da yaradılmış Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində dövlət nəzarəti naziri idi. Seymin nümayəndə heyətinin tərkibində Trabzon konfransında iştirak etmişdir. Bakıda türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik qüvvələri tərəfindən törədilmiş soyqırımı ilə bağlı 1918 il aprelin 20-də Hey-dərov Zaqafqaziya seyminin adından Bakı Soveti ilə danı-şıqlara göndərilmiş, Bakıya çatan kimi bolşeviklər tərəfindən həbs olunmuşdu. Bununla əlaqədar olaraq, Zaqafqaziya seyminin üzvü Camo bəy Hacınski Heydərovun azad edilməsi üçün təcili tədbirlər görməyi təklif etmişdi. Bir müddət Bakı Xalq Komissarları Sovetində quberniya komissarı vəzifəsində işləmişdir, bu vəzifədən "Hümmət" təşkilatının təklifi ilə kənar edilmişdir. Heydərov Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətinin səlahiyyətli nümayəndəsi kimi, 1918 il noyabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası arasında müqaviləni imzalayanlardan biri olmuşdur.

Dağlılar Respublikası hökumətinin 1918 il dekabrın 19-da təşkil olunan yeni tərkibində yollar və poçt-teleqraf naziri təyin olunmuşdur. Hökumət tərəfindən Avropa dövlətləri ilə danışıqlara göndərilən yeni nümayəndə heyətinə daxil edilmişdir. Denikin qoşunlarının müdaxiləsi nəticəsində Dağlılar Respublikası hökumətinin buraxılması ilə və sabiq hökumət üzvlərinə qarşı təqiblərlə əlaqədar Bakıya qayıtmış, Azərbaycanın ictimai-siyasi həyatında, xeyriyyə konsertlərinin, teatr tamaşalarının, o cümlədən Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasının, Ağa Əminovla birlikdə "Azərbaycan gecələrinin" təşkilində fəal iştirak etmiş, 1920 ildə Fransaya mühacirət etmişdir.

*Əd.:*Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**HƏBİBULLA XAN** (?-?)- İranın Azərbaycan Xalq Cümhuriyyətində konsulu. 1918 ilin iyulunda, *Qafqaz İslam Ordusunun* hərbi uğurları şəraitində ölkənin türk-müsəlman əhalisinin nifrətini qazanmış S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti istefa verməyə məcbur oldu. Hakimiyyətə keçən daşnak və eser-menşeviklərdən ibarət "Sentrokaspi diktaturası" ingilislərdən gözlənilən köməyi ala bilmədi. Qafqaz İslam Ordusuna müqavimət göstərə bilməyən "Sentrokaspi diktaturası" əlverişli təslim şərtlərinə nail olmaq üçün bu zaman İranın Bakıdakı konsulu olan Həbibulla xanı vasitəçi seçdi.

Sentyabrın 1-də İran konsulu Bakını müdafiə edən Qərb cəbhəsinin komandanı ilə birlikdə *Beşinci Qafqaz firqəsinin* qərargahına getdi. Bakının təslim şərtlərinin müzakirəsi zamanı "Sentrokaspi" hökumətinin, İran, ABŞ, İsveç və Danimarka konsullarının və bir ingilis zabitinin də iştirak etdiyi beynəlxalq heyətin yaradılması təklifi irəli sürüldü. Türk qaymaqamı Rüşdi bəy Bakıya gələrək, buradan sülh heyəti ilə geri qayıtdı. Bakıdan gələn heyətlə şəhərin qeyd-şərtsiz təslim edilməsi, dövlət əmlakının təhvil verilməsi, türk, Avstriya və alman əsirlərinin azad olunması şərtilə saziş bağlandı.

Bağlanmış saziş və Qafqaz İslam Ordusunun sürətli hücumu erməni birliklərini tələm-tələsik gəmilərə dolub şəhəri tərk etməyə məcbur etdi. Təslim aktı nəticəsində tərəflər arasında küçə döyüşlərinin baş verməməsi Bakını geniş miqyaslı dağıntılardan xilas etdi.

*Əd:.* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Yüceer Nəsir, Birinci dünya müharibəsində osmanlı ordusunun Azərbaycan və Dağıstan əməliyyatı, B., 1999.

**HƏKİMLƏRƏ YARDIM BÜROSU** Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyri-hökumət tibb cəmiyyəti. 1920 ildə Bakı şəhərində həkimlər cəmiyyəti nəzdində yaradılmışdı. Büronun vəzifəsi boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara birdəfəlik yaxud vaxtaşırı pul yardımı göstərmək idi. Büro şəhər idarəsi tibb-sanitar şöbəsinin nəzdində fəaliyyət göstərirdi. Şəhər idarəsi tibb-sanitar şöbəsinin üzvü Şərifov və həkimlər A.Neşeretov, A.İ.Okinşeviç büronun üzvləri idilər. 1920 ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra həkimlərə yardım bürosunun fəaliyyəti dayandırıldı.

**HƏRB DÖVRÜ ÜÇÜN QANUNLARIN TƏTBİQİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən 1918 il iyunun 23-də qəbul edilmiş sənəd. Hökumətin Azərbaycan Xalq Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan olunması barədə 1918 il 19 iyun tarixli qərarına əsasən hazırlanmışdı. Qərara əsasən, mövcud mürəkkəb hərbi-

siyasi şəraitlə əlaqədar ölkə vətəndaşları üçün bir sıra məhdudiyyətlər müəyyənləşdirilirdi. Bəzi cinayət əməlləri (qətl, soyğunçuluq, talan, hakimiyyətə silahlı müqavimət göstərilməsi, qadınların oğurlanması və onlara təcavüz edilməsi, yaşayış binalarının yandırılması, dəmir yolunun, telefon və teleqraf xətlərinin xarab edilməsi və s.) ümumi təhqiqatdan alınaraq, müharibə dövrünün qanunları əsasında mühakimə olunmalı idi. Bu cinayət əməllərini törədənlər hərbi-istintaq komissiyaları tərəfindən məsuliyyətə cəlb edilməli, təhqiqatın nəticələri hərbi məhkəmələrə göndərilməli idi. Bundan əlavə, aşağıdakı əməllərin törədilməsinə qadağa qoyulurdu: milli hissləri və əhalinin müxtəlif təbəqələrini bir-birinə qarşı qızışdıran yalan məlumatların və şayiələrin yayılması; hökumətin fəaliyyəti və qərarları, hərbi hissələrin əməliyyatları haqqında yalan məlumatların yayılması; hakimiyyət orqanlarının razılığı olmadan kütləvi yığıncaqların və mitinqlərin keçirilməsi; müxtəlif odlu silahların, patronların, sursatın, partlayıcı maddələrin gəzdirilməsi, saxlanması və ticarəti. Qərarın elan edilməsindən sonra iki həftə ərzində vətəndaşlar malik olduqları silah-sursatı dövlət orqanlarına təhvil verməli idilər. Qərarın qarşıya qoyduğu tələbləri yerinə yetirməyənlərə qarşı cəza tədbirləri də müəyyənləşdirilmişdi.

*Əd:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B,, 1998

**HƏRB DÖVRÜ ÜÇÜN QANUNLARIN TƏTBİQİ HAQQINDA QƏRARA ƏLAVƏLƏR** - Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının *Hərb Dövrü Üçün Qanunların Tətbiqi Haqqında Qərara* əlavə olaraq qəbul etdiyi sənədlər. Göstərilən sənədə iki dəfə əlavə qəbul edilmişdir. 1918 il iyulun 15-də imzalanmış birinci əlavə iki bənddən ibarətdir. 1-ci bənddə Hərb Dövrü Üçün Qanunların Tətbiqi Haqqında Nazirlər Şurasının 23 iyun 1918 il tarixli qərarına əsasən, müharibə dövrünün qanunları görə mühakimə olunan cinayət əməllərinin sırasına yeniləri də əlavə edilmişdi. Bura dövlət hakimiyyəti əleyhinə üsyan, dövləti xəyanət və güc tətbiq etməklə dələduzluq daxil idi. 2-ci bənddə *Əlahiddə* Azərbaycan *korpusu* məhkəməsinin fəaliyyət normaları dəqiqləşdirilirdi: korpus məhkəməsinin çıxardığı hökm təsdiq üçün korpus komandirinə təqdim olunmalı idi. Korpus komandirinə hökmü dəyişdirmək, müəyyən edilmiş cəzaları yüngülləşdirmək və ya tamamilə ləğv etmək səlahiyyəti verilirdi. Müttəhimlərin əfv ərizələrinə də korpus komandiri baxmalı idi.

Nazirlər Şurasının 1918 il iyulun 18-də qəbul etdiyi ikinci əlavədə isə inzibati qaydada cəzalandırılan şəxslərin sırası tamamlanmışdı. Bura ərzaq məhsullarının və ilkin tələbat mallarının qiymətlərinin süni yolla qaldırılmasında, onların gizlədilməsində, satışının dayandırılmasında və ya yuxarıda göstərilən məhsulların satışından imtina edilməsində günahkar bilinən şəxslər də daxil edilmişdi.

*Əd:* Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998;

**HƏRBİ-BAYTAR İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoşun hissələrində istifadə olunan atlar və qoşqu heyvanlarının bəslənilməsi, mühafizəsi, müalicəsi və bundan ötrü müəyyən edilmiş xidmətlərin icrasını təşkil edən orqan. Müstəqil struktur kimi 1919 ilin əvvəlində fəaliyyətə başladığı güman edilir. Hərbi-baytar idarəsi qoşun hissələrində baytar xidməti göstərirdi. Bu xidmətdən əsasən, süvari və topçu hissələrində, həmçinin piyada və təchizat bölmələrində istifadə olunurdu.

1919 ilin martından başlayaraq hərbi baytar idarəsinin rəhbərliyi ilə nalbəndlər hazırlayan 4 təlim dəmirçixanası açılmışdı. Həmin dəmirçixanalar 1-ci Tatar süvari alayında, 2-ci Qarabağ süvari alayında, 1-ci topçu briqadasında və nəhayət, 2-ci dağ topçu divizionunda fəaliyyətə başlamışdılar. Bunlardan başqa, hərbi-baytar idarəsinin tabeliyində baytar xəstəxanası da fəaliyyət göstərirdi. Hərbi-baytar idarəsinə baytar həkimləri Yermonski və Kvitaşvili rəhbərlik etmişlər.

1920 il martın 15-də hərbi nazirliyin digər təminat və təchizat strukturları kimi hərbi-baytar idarəsi də Azərbaycan ordusunun təchizat rəisinin tabeçiliyinə verildi.

**HƏRBİ DƏMİRYOLÇULAR MƏKTƏBİ** hərbi xarakterli yükləri daşımaq, dəmir yolu nəqliyyatı işinin hərbi tələblərə uyğun qurulması üçün mütəxəssislər hazırlayan təhsil müəssisəsi. Məktəbin açılması ilə bağlı təşkilati işlərə 1919 ilin yazında başlanılmışdı. Hərbi nazirlik strateji nəqliyyat vasitəsi kimi, bu sahənin təşkilinə xüsusi diqqət yetirirdi. Həm də, dəmir yolu nəqliyyatında çalışanların əksəriyyəti qeyri-azərbaycanlılar olduğundan onların etibarlılığı şübhə doğururdu. Hərbi yüklərin daşınmasında fasiləsiz iş rejiminə və sabit vəziyyətə nail olmaq üçün 1919 il avqustun 10-da hərbi dəmiryolçular məktəbi təsis edildi. *Baş ərkani-hərbin* rəisi Məmməd bəy Sulkeviçin 1919 il 28 may tarixli məktubuna əsasən, praporşiklər məktəbinin 20 nəfər məzunu yeni ixtisasa yiyələnmək üçün hərbi dəmiryolçular məktəbinə göndərildi. Məktəbdə 120 nəfər əsgərin təhsil alması planlaşdırılmışdı. Hərbi nazirin əmrinə əsasən, məktəb 1919 il sentyabrın 4-dən fəaliyyətə başladı. Məktəbin rəisi vəzifəsi poruçik Qluxova həvalə olunmuşdu.

**HƏRBİ-DƏNİZ QÜVVƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tərkibində formalaşdırılmış silahlı qüvvələr növü. Cümhuriyyət Hökuməti obyektiv çətinliklər üzündən hərbi-dəniz qüvvələrinin təşkilinə 1919 ilin sonlarında başladı. 1918 ilin sentyabrında Bakının "Sentrokaspi diktaturası" və ingilis müdaxiləçilərindən təmizlənməsi ərəfəsində buradakı əsas hərb gəmiləri - "Qars", "Ərdəhan" və "Astrabad" Petrovsk-Porta (Mahaçqala) aparılmışdı. 1918 ilin noyabrında Bakını zəbt edən ingilis hərbi qüvvələri adları çəkilən gəmiləri geri qaytarsa da, onları Azərbaycan Hökumətinə verməmiş, öz nəzarətində saxlamışdı. Cümhuriyyət Hökuməti bir neçə dəfə həmin gəmilərin Azərbaycana qaytarılması barədə vəsatət qaldırmışdı. Belə ki, xarici işlər naziri Məmməd Yusif Cəfərov 1919 il avqustun 4-də Bakıdakı müttəfiq qoşunlarının komandanı, ingilis generalı D.Şatelvorta müraciət edərək, paytaxtın və dəniz sərhədlərinin mühafizəsi, dövlətin ərazi bütövlüyünün qorunması üçün bir neçə hərb gəmisinin Azərbaycana verilməsini xahiş etmişdi. Xəzərdəki hərbi-dəniz qüvvələrinin əsas hissəsi Denikinin tabeliyində olsa da, silahları sökülmüş bəzi hərb gəmiləri, o cümlədən "Qars", "Ərdəhan" və "Astrabad" 1919 il sentyabrın əvvəllərində Azərbaycan Hökumətinin sərəncamına keçmişdi.

Hərbi nazirlik dərhal hərbi-dəniz qüvvələrinin formalaşdırılmasına başlayaraq, nazirliyin hərbi-dəniz şöbəsini təşkil etdi. Hərb gəmiləri heyətlərinin formalaşdırılması barədə də qərar verildi. Azərbaycan Hökumətinin Ukraynadakı diplomatik nümayəndəsi rus donanmasının admiralı, Şimal qütbünə ekspedisiyanın iştirakçısı, tatar əsilli İslamov milli donanmanın yaradılması işinə yardım göstərmək üçün1919 ilin yayında Azərbaycana dəvət olundu. Donanma üçün avadanlıq almaq məqsədilə dəniz zabiti İ.Maqsudov Krıma və Novorossiyskə ezam olundu. Eyni zamanda, yollar nazirliyinə məxsus 2 buxar gəmisi artilleriya ilə təchiz edilərək, azərbaycanlılardan ibarət komanda heyəti ilə birlikdə hərbi-dəniz qüvvələrinin sərəncamına verildi. Bu məqsədlə daha bir neçə barkas və motorlu qayıq da ayrıldı. Azərbaycanın öz hərbi-dəniz qüvvələrini yaratması Denikin ordusunun komandanlığı tərəfindən düşməncəsinə qarşılandı. Komandanlığın 1919 il sentyabrın 21-də Azərbaycan Hökumətinə ünvanladığı notasında Türkmənçay müqaviləsinə (1828) görə Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququna malik olması bildirilir, Azərbaycanın hərbi və ticarət donanmasının milli bayraq altında üzməsinin dayandırılması tələb olunurdu. Azərbaycan Hökuməti bu tələbi dövlətin suveren hüquqlarına qarşı yönəlmiş təcavüzkar çıxış kimi qətiyyətlə rədd etdi və hərbi-dəniz qüvvələrinin təşkilini davam etdirdi.

1919 il oktyabrın 1-də "Astrabad" hərb gəmisinin heyəti təsdiq edildi. Gəminin kapitanı vəzifəsinə azərbaycanlı mütəxəssis Kitabçızadə təyin edildi. "Ərdəhan" gəmisinin komandiri vəzifəsi isə kapitan Həsən Çilingərzadəyə tapşırıldı. Dekabrın 5-də "Qars" və "Ərdəhan" gəmiləri heyətlərinin vəziyyətinin yaxşılaşdırılması üçün xüsusi komissiya yaradıldı.

1920 ilin əvvəllərində hərbi dəniz qüvvələrinin tərkibində 8 ədəd 75 mm-lik və 100 mm-lik toplarla təchiz edilmiş "Qars" və "Ərdəhan" hərb gəmiləri, "Astrabad", "Göytəpə", "Araz", "Nargin" köməkçi gəmiləri, "Orion" nəqliyyat gəmisi, silahlarla təchiz edilmiş "Puşkin" buxar gəmisi və bir neçə kater var idi. 1920 ildə xaricdən saatda ən azı 23 dəniz mili sürətilə hərəkət edən 6 ədəd katerin, 47 *mm*-lik və ya 57 mm-lik topla, 2 ədəd mina qurğusu ilə silahlanmış 12 ədəd katerin, həmçinin sualtı qayıqlarla döyüş üçün nəzərdə tutulmuş, iki topla təchiz edilmiş, saatda 26-36 dəniz mili sürətilə hərəkət edən katerin alınması planlaşdırılmışdı. Düşmən gəmilərinin dənizdən hücumlarının qarşısının alınması üçün mina düzən gəminin, çox da böyük olmayan 6 ədəd sualtı gəminin, mövcud hərb gəmilərinin döyüş imkanlarını artırmaq üçün müxtəlif çaplı 92 ədəd topun alınması da nəzərdə tutulmuşdu. *Aprel işğalı (1920)* bu planların həyata keçirilməsinə imkan vermədi.

Milli hərbi donanmanın yaradılması zamanı qarşıya çıxan ən ciddi çətinlik azərbaycanlı zabit kadrların çatışmazlığı idi. Ona görə də, hərb gəmilərinin komanda heyəti əsasən, ruslardan, qismən də osmanlılardan ibarət idi. Bu amil Aprel işğalı (1920) zamanı Azərbaycanın hərbi-dəniz qüvvələrinin bolşeviklər tərəfinə keçməsini şərtləndirdi. 1920 il aprelin 27-də hərbi limanın rəis müavini Çingiz İldırımın başçılığı ilə hərb gəmiləri qırmızı bayraq qaldırıb dənizə çıxdılar və toplarını Azərbaycan Xalq Cümhuriyyəti Parla-mentinin və Hökumətinin binalarma tuşladılar. Gündüz saat 4-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə hakimiyyətin təhvili haqqında ultimatum verildi.

Sovet komandanlığı öz sərəncamında olan qüvvələrlə, həmçinin Azərbaycan hərbi-dəniz qüvvələrindən istifadə etməklə, 1920 il mayın 18-də İranın Ənzəli limanına hücum etdi. İngilislərin və ağqvardiyaçıların 1918-1920 illərdə ələ keçirdikləri və həmin limanda saxladıqları 23 hərb gəmisi bütünlükdə sovet Rusiyasının əlinə keçdi.

Əd.: Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920 illər), B., 1993.

**HƏRBİ FELDŞER MƏKTƏBİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada təsis edilmiş hərbi-tibb təhsili müəssisəsi. Qoşun hissələrində tibbi xidmətin yaxşılaşdırılması üçün hərbi nazirin 1919 il 22 yanvar tarixli əmri ilə Gəncə əsgər xəstəxanası nəzdində bölük feldşer şagirdləri hazırlayan kurs, 1919 il 15 fevral tarixli əmri ilə isə bütün hərbi hissələrin nəzdində 2 aylıq sanitar kursları açılmışdı. Kurslar hərbi-tibb kadrlarına olan ehtiyacı ödəmədiyi üçün, hərbi nazir 1-ci Cavanşir piyada alayının Şuşada yerləşən 1-ci taborunun həkimi Mehmandarovun Şuşa şəhərində hərbi feldşer məktəbinin açılması barədə təklifini müdafiə etdi. Hərbi nazirin 1919 il 3 sentyabr tarixli 406 saylı əmrində göstərilirdi ki, Şuşa hərbi feldşer məktəbi, ştat cədvəlinin rəsmən təsdiqlənməsini gözləmədən, dərhal fəaliyyətə başlasın. Məktəb nazirliyin hərbi-tibb idarəsinə tabe idi və onun ştatı 1919 il avqustun 31-də Hərbi şurada təsdiq olunmuşdu.

Məktəbə 40 nəfərin qəbulu nəzərdə tutulmuşdu. Təhsil müddəti 6 ay idi. Tədris işinə Mehmandarovdan əlavə, həkimlər Ağayev və Ağakişibəyov da cəlb olunmuşdular. Hərbi feldşer məktəbinə ilkin hərbi hazırlıq keçmiş və feldşer olmağı arzulayan əsgərlər, həmçinin 30 yaşınadək mülki şəxslər qəbul edilə bilərdi. Mülki şəxslər məktəbə qəbul edilməzdən əvvəl onların hərbi xidmətə yararlı olub-olmamaları müəyyənləşdirilməli idi. Məktəbdə dərslər təsdiq edilmiş proqram əsasında Azərbaycan dilində aparılmalı, buraxılış imtahanını uğurla verənlər hissələrə təyinat aldıqları gündən başlayaraq iki il xidmət etməli idilər.

Məktəbin tədris proqramında anatomiya və fiziologiya, cərrahiyyə, zöhrəvi xəstəliklər, göz xəstəlikləri, daxili xəstəliklər, xəstəyə qayğı, bədbəxt hadisələr və qəfil xəstəliklər zamanı ilkin yardım, gigiyena haqqında ümumi məlumat, dezinfeksiya, əczaçılıq fənlərinin keçilməsi nəzərdə tutulmuşdu.

Hərbi feldşer məktəbinin smeta və ştat cədvəli qanunvericilik səviyyəsində Azərbaycan Parlamentinin son iclaslarının birində - 1920 il aprelin 26-da təsdiq olunmuşdu.

**HƏRBİ-HAVA QÜWƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tərkibində formalaşdırılmış qoşun növü. *Mudros barışığının (1918)* şərtlərinə əsasən, 1918 ilii noyabrında Bakını zəbt etmiş ingilis qüvvələri Xəzər dənizindəki hərbi gəmiləri hidrotəyyarələrlə birlikdə öz nəzarətləri altına aldılar. Sonra isə Xəzərdəki hərbi-dəniz qüvvələri Denikinə təhvil verildi və bununla Azərbaycan mövcud olan az-çox aviasiya texnikasından da məhrum edildi.

Hərbi-hava qüvvələrinin təşkilinin zəruriliyini nəzər alaraq, hərbi nazirlik bu işə ən əvvəl müvafiq kadrlar hazırlanmasından başladı. Hərbi nazir Səməd bəy Mehmandarov 1919 il yanvarın 22-də Azərbaycanın Gürcüstandakı nümayəndəsi Məmməd Yusif Cəfərova məktubla müraciət edərək, azərbaycanlıların Tiflisdəki Aviasiya məktəbinə göndərilməsinin mümkünlüyünü öyrənməsini xahiş etdi. Azərbaycan-*Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi (1919)* bağlandıqdan sonra Azərbaycandan bir qrup əsgər və zabit Gürcüstana ezam olundu. Onlardan 9 nəfəri hərbi təyyarəçi peşəsinə yiyələnməli idi. Kapitan Firidun Mirzə Qacar, praporşiklər Əlihüseyn Dadaşov, Teymur Mustafayev, Gəncinski, Həsənzadə və Qaraşarov həmin zabitlərdən idi.

Milli ordunun hərbi-hava strukturunun formalaşdırılmasından əvvəl onun rəhbərliyi müəyyənləşdirildi. Hərbi nazirin 1919 il 19 avqust tarixli əmri ilə podporuçik Teymur xan Əfşar Aviasiya dəstəsinin rəis müavini təyin edildi. Dəstə birbaşa *Baş ərkani-hərbə* tabe idi. 1919 il sentyabrın 14-də Aviasiya dəstəsinin ştatı təsdiq olundu. Ştatda 5 zabit, 4 məmur, 54 nizami əsgər və 4 qeyri-nizami əsgər var idi.

Milli kadrlara olan ehtiyacın ödənilməsi üçün hərbi nazirlik 1920 ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbi açmağı qərara aldı. Hərbi nazir Səməd bəy Mehmandarov 1919 il noyabrın 27-də xarici işlər nazirliyinə məktub yazaraq, Aviasiya məktəbində tədrisin təşkili üçün İngiltərədən və İtaliyadan təcrübəli mütəxəssislərin dəvət olunması imkanlarının öyrənilməsini xahiş etdi. Lakin 1920 ilin əvvəlindən hərbi şəraitin mürəkkəbləşməsi və *Aprel işğalı (1920)* hərbi-hava qüvvələrinin möhkəmləndirilməsi sahəsindəki işləri yarımçıq qoydu.

**HƏRBİ İNQILAB KOMİTƏSİ,** Bakı şəhərinin müvəqqəti hərbi inqilab komitəsi - 1917 il dekabrın 12-də Bakı qarnizonunda və şəhərdə asayişi bərpa etmək adı altında yaradılmış hakimiyyət orqanı. Bakı Fəhlə və Əsgər Deputatları Soveti İcraiyyə Komitəsinin təcili iclasında təşkil edilmişdi. Bakı Soveti yanında yaradılmış Hərbi inqilab komitəsinə "ən geniş səlahiyyət" verilmişdi. Hərbi inqilab komitəsinin hakimiyyəti, bütünlükdə, qarnizon və şəhərə şamil edilmişdi. Bakı Soveti İcraiyyə Komitəsinin qərarına əsasən, "qarnizonun rota, polk və s. komitələri özlərini hissələrdə hərbi inqilab komitələri elan edir" və hərbi inqilab komitəsinin "qərar və sərəncamlarını rəhbər tutaraq, yerlərdə ən ciddi surətdə hərtərəfli fəaliyyət" göstərirdilər. Hərbi inqilab komitəsi öz tərkibindən hərbi inqilab məhkəməsi təşkil etmişdi. Komitə əhaliyə müraciətlərində qərarlarının danışıqsız yerinə yetirilməsini tələb edir, sovet hakimiyyətinin düşmənlərinə qarşı amansız mübarizə aparmağa çağırır, lazım gəldikdə silahlı qüvvə də tətbiq ediləcəyini bildirirdi.

Bakı şəhərinin müvəqqəti hərbi inqilab komitəsi *Bakıda mart soyqırımı* zamanı yaradılmış inqilabi müdafiə komitəsi tərkibində işini davam etdirmişdir. Bakı şəhərinin müvəqqəti hərbi inqilab komitəsinin sədri İ.Suxartsev inqilabi müdafiə komitəsinin (bax *Bakı şəhəri və onun rayonlarının inqilabi müdafiə komitəsi)* üzvü idi.

Bakı şəhərinin müvəqqəti hərbi inqilab komitəsi Azərbaycan xalqına qarşı 1918 il mart soyqırımını həyata keçirən hakimiyyət orqanı olmuşdur.

*Əd.:* Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.

**HƏRBİ LƏVAZIMAT (İNTENDANT) İDARƏSİ**- Azərbaycan Xalq Cümhuriyyəti ordusunu ərzaq və ləvazimatla təmin edən orqan. Əsası 1918 il noyabrın 15-də *Ümumi qərargahın* şöbəsi kimi qoyulmuşdur. Polkovnik Seyfulla Mirzə hərbi nazirin əmri ilə ləvazimat şöbəsinin rəisi təyin edilmişdi. Qoşun hissələrinin təşkili sürətləndikcə, həmin şöbənin üzərinə düşən məsuliyyət də artırdı. Ona görə tezliklə ləvazimat şöbəsinin strukturu və səlahiyyətləri genişləndirildi, ümumi qərargahın tərkibindən çıxarılaraq idarə kimi hərbi nazirə tabe etdirildi. İdarənin rəisi vəzifəsinə polkovnik Serebrennikov təyin olundu.

Qoşun hissələrinin milli geyim formasına keçirilməsi, gündəlik iaşənin milli kulinariya əsasında təkmilləşdirilməsi hərbi ləvazimat idarəsinin qarşısında dayanan başlıca vəzifələr idi. Bu vəzifələri həll etmək üçün hərbi ləvazimat idarəsinin nəzdində əlbəsə (paltar) anbarı, dəri aşılayan zavod, geyim və çəkmə emalatxanası açıldı, Azərbaycanın toxuculuq fabriklərinə hərbi xarakterli sifarişlər verildi, ərzaq təminatının yaxşılaşdırılması üçün yeni sistem tətbiq edildi. Müsabiqə yolu ilə alınmış ərzaq yeni yaradılmış Gəncə, Ağdam, Hacıqabul, Bakı, Zaqatala, Xankəndi, Qusar və Lənkərandakı ərzaq anbarlarına toplanır və buradan hissələrə paylanırdı.

Polkovnik Serebrennikov 1919 ildə istefaya çıxdıqdan sonra, hərbi ləvazimat idarəsinin rəisi vəzifəsini bir müddət polkovnik Əlibəyov icra etdi. Həmin il iyulun 31-də Azərbaycan ordusuna xidmətə qəbul olunan general-mayor Sisianov bu vəzifəyə təsdiq olundu, daha sonra isə hərbi nazirin 1919 il 4 oktyabr tarixli əmri ilə hərbi ləvazimat idarəsinin rəisi vəzifəsinə general-mayor Həşimbəyov təyin edildi. Hərbi nazirin 1920 il 14 fevral tarixli 99 saylı əmri ilə qoşun hissələrinin ərzaq və ləvazimatla təmin olunmasının zəruri tələblər səviyyəsinə qaldırılması üçün hərbi ləvazimat idarəsinin strukturlarında ciddi islahatlar aparıldı. Nəticədə, hərbi ləvazimat idarəsi yeni statusda Azərbaycan ordusunun təchizat rəisi idarəsinin tərkibinə daxil edildi.

*Əd.:* Bax Azərbaycan *Xalq* Cümhuriyyət *ordusu* məqaləsinin ədəbiyyatına.

**HƏRBİ MƏHKƏMƏ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusu tərkibində məhkəmə işlərinə baxan ədliyyə orqanı. İlk dəfə Nazirlər Şurasının 1918 il 5 dekabr tarixli qərarı ilə Gəncə (Yelizavetpol) dairə məhkəməsinin nəzdində yaradılmışdı; tərkibinə sədr, iki üzv, prokuror, prokuror müavini və başqa şəxslər daxil idilər. Sonradan hərbi məhkəmə, strukturu və səlahiyyətləri daha da genişləndirilməklə, müstəqil quruma çevrildi. 1919 il yanvarın 12-də general-mayor Dubrovski hərbi məhkəmənin sədri təsdiq edildi. Hərbi məhkəmənin sədri hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurası tərəfindən təsdiq edilir və nazirin əmrilə bütün orduya elan olunurdu. 1919 il iyulun 14-də general-mayor Dubrovski hərbi nazirliyin hərbi ədliyyə hissəsinin rəisi təyin edildiyindən, hərbi məhkəmənin rəisi vəzifəsinə Teymur bəy Makinski təyin olundu.

Azərbaycanda baş hərbi məhkəmə təsis edildikdən sonra hərbi dairə məhkəmələrinin qərarlarına kassasiya qaydasında şikayət verilməsi ləğv olundu. Hərbi məhkəmə haqqında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin1919 il 14 aprel tarixli qanununa əsasən, belə şikayətlər birbaşa hərbi nazirin özünə verilə bilərdi. Hərbi məhkəmələrin qərarlarının icrası ilə bağlı hərbi nazirin geniş səlahiyyətləri var idi. O, məhkəmə işinin yenidən və yeni heyət tərəfindən aparılmasına qərar verə bilər, təyin edilmiş cəzaları dəyişdirə və ya yüngülləşdirə bilərdi. Belə ki, 1919 il martın 14-də, Novruz bayramı ərəfəsində imzaladığı əmrlə hərbi nazir silahlı soyğunçuluğa görə barələrində ölüm hökmü çıxarılmış 6 nəfər əsgərin cəzasını 6 illik həbslə əvəz etmişdi. Hərbi nazir digər bayramlar ərəfəsində də əfv əmri imzalayaraq, məhkumları ya bağışlayır, ya da onların cəzasını yüngülləşdirirdi.

**HƏRBİ MƏHKƏMƏNİN VƏ ALAY MƏHKƏMƏLƏRİNİN YARADILMASI HAQQINDA QANUN** Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Məhkəməsinin və alay məhkəmələrinin təşkilini və fəaliyyətini tənzimləyən qanun. Azərbaycan Parlamenti tərəfindən 1919 il aprelin 14-də qəbul edilmişdir. Qanuna görə, bütün əlahiddə alaylarda alay məhkəmələri yaradılmalı idi. Məhkəmələrin öz işində əsaslanacağı normativ sənədlər də qanunda təsbit olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Məhkəməsi isə öz fəaliyyəti ilə Azərbaycan ordusunun bütün strukturlarını əhatə etməli idi. Hərbi nazirliyin tabeliyində olan Hərbi məhkəmə daimi və müvəqqəti seçilən üzvlərdən ibarət idi. Hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurası tərəfindən təsdiq edilən sədr, iki üzv məhkəmənin daimi üzvləri idilər. Hərbi məhkəmənin 4 müvəqqəti üzvü isə qoşun hissələrindən seçilir və hərbi nazirin əmri ilə təsdiqlənirdi.

Qanuna əsasən Hərbi Məhkəmənin nəzdində hərbi prokurorun aparatı fəaliyyət göstərirdi. Hərbi prokuror, onun müavini, hərbi müstəntiqlər bu vəzifələrə hərbi nazirin əmri ilə təyin edilirdi. Müstəntiqlər təhqiqat işini komandir və rəislərin məlumatı, hərbi prokurorun vəsatəti, məhkəmə işçilərinin və vəzifəli şəxslərin raportları, hərbi qulluqçuların və mülki şəxslərin şikayəti əsasında qaldıra bilərdi. İş məhkəməyə prokurorun ittiham aktı əsasında verilirdi. Hərbi Məhkəmənin qərarı ilə təhqiqat dayandırıla bilərdi. Qanunda qeyd olunurdu ki, Azərbaycan Hərbi Məhkəməsinin qərarları Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin adından çıxarılır.

**HƏRBİ MÜKƏLLƏFİYYƏT** - çağırış yaşlı vətəndaşın öz ölkəsinin silahlı qüvvələrində qanunla müəyyən edilmiş hərbi xidmət borcu. Azərbaycan Hökumətinin 1918 il 3 iyul tarixli qərarı ilə 19 yaşı tamam olmuş vətəndaşlar hərbi mükəlləfiyyətin yerinə yetirilməsinə cəlb olunurdular.

*Əd.:* Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;

**HƏRBİ NAZİRLİK,** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyi-ölkənin müdafiəsi, ordu qurumlarının yaradılması və fəaliyyətinə bilavasitə rəhbərlik edən icra orqanı. 1918 il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan edildiyi gün Milli Şuranın tapşırığı ilə Fətəli xan Xoyskinin təşkil etdiyi Müvəqqəti Hökumət kabinəsində yaradılmışdır. İlk hərbi nazir vəzifəsi Xosrov Paşa bəy *Sultanova* həvalə edilmişdi. Lakin o dövrdə yaranmış beynəlxalq və daxili şərait hərbi nazirliyin təşkilinə imkan vermədi. Tiflisdə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti Hökuməti həmin il iyunun 16-da Gəncəyə köçdü. Bu vaxt Gəncədə real hakimiyyət hələ mayın axırlarında bir qrup hərbi mütəxəssislə Gəncəyə gəlmiş türk generalı Nuru paşanın əlində idi. Nuru paşanın təkidi ilə Gəncədə Azərbaycan Milli Şurası buraxıldı. İyunun 17-də burada Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci Müvəqqəti Hökumətdə hərbi nazir vəzifəsi nəzərdə tutulmadı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 26 iyun tarixli qərarı ilə Müsəlman korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan korpusu adlandırıldı və elə həmin gün Hökumətin qəbul etdiyi digər qərarla Azərbaycan korpusu komandanı yanında diviziya rəisi hüququnda xüsusi tapşırıqlar üzrə general vəzifəsi təsis olundu.

1918 il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Türkiyə arasında bağlanmış dostluq və əməkdaşlıq haqqında müqaviləyə uyğun olaraq həmin il iyulun əvvəllərində Azərbaycan korpusu 5-ci Qafqaz və 15-ci Çanaqqala diviziyaları ilə birləşərək, Nuru paşanın komandanlığı altında *Qafqaz İslam Ordusu* yaradıldı. Qafqaz İslam Ordusunun Kürdəmirdən başlayan müzəffər yürüşü 1918 il sentyabrın 15-də Bakının azad edilməsi ilə başa çatdı. *Mudros barışığına (1918)* əsasən, həmin il oktyabrın sonlarından türk ordusu Azərbaycanı tərk etməyə başladı. Belə bir şəraitdə 1918 il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi nazirlik təşkil etmək haqqında qərar qəbul etdi, hərbi nazir vəzifəsi Nazirlər Şurasının sədri F.x.Xoyskiyə həvalə olundu, müavini vəzifəsinə isə artilleriya generalı Səməd bəy *Mehmandarov* təyin olundu. S.Mehmandarov noyabrın 7-də verdiyi əmrlə öz vəzifələrinin icrasına başladığını bildirdi. Ümumi qərargahın rəisi vəzifəsi isə polkovnik Həbib bəy Səlimova tapşırıldı. 1918 il dekabrın 13-də general-leytenant Əlağa Şıxlinski hərbi nazirliyin təşkili haqqında layihə ilə S.Mehmandarova müraciət etdi.

Mudros barışığına (1918) görə, türk ordusu Azərbaycanı tərk etdikdən sonra 1918 il noyabrın 17-də Bakı general-mayor U.Tomson başda olmaqla, ingilis hərbi qüvvələrinin nəzarətinə keçdi və o, özünü Bakının general-qubernatoru elan etdi. Tomsonun tələbi ilə Azərbaycan hərbi hissələri şəhərdən çıxarıldı. Hərbi Nazirliyin idarə aparatı Gəncə şəhərində fəaliyyət göstərdi (1918, noyabr -1919, aprel).

1918 ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti fəaliyyətə başladıqdan sonra Hökumətin 25 dekabr tarixli qərarı ilə hərbi nazir vəzifəsini general S.Mehmandarov tutdu. Dekabrın 29-da general-leytenant Ə.Şıxlinski onun müavini təyin olundu. 1919 il yanvarın 10-dan hərbi nazirin yanında yüksək rütbəli hərbi xadimlərdən ibarət Hərbi Şura yaradıldı. 1919 il fevralın 25-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Hərbi Nazirliyin ştatı barədə nazir S.Mehmandarovun məruzəsini müzakirə etdikdən sonra Hərbi Nazirliyin ştat cədvəlinin təsdiq olunması haqqında qanun qəbul edildi. Qanuna əsasən, Hərbi Nazirliyin strukturuna dəftərxana, Baş qərargah, Baş qərargahın idarəsi, Bakı müdafiə rayonunun idarəsi, Baş artilleriya, mühəndis-ləvazimat, hərbi-sanitar və hərbi məhkəmə idarələri daxil idi. 1919 ilin martında isə general leytenant Məmməd bəy Sulkeviç Baş qərargahın baş idarəsinin rəisi təyin olundu.




**Hərbi nazirlik aparatının strukturu. 1918, noyabr**

Azərbaycan Xalq Cümhuriyyətinin 1919 il aprelin 14-də və dekabrın 24-də Nəsib bəy Yusifbəyli tərəfindən təşkil olunmuş 4-cü və 5-ci Hökumət kabinələrində də hərbi nazir vəzifəsini S.Mehmandarov tutmuşdur. Bu müddətdə onun müavini Ə.Şıxlinski olmuşdur. Hərbi Nazirliyin əsas vəzifəsi vətənin ərazi bütövlüyünün təmin edilməsindən ötrü lazım olan ordu qurumlarını yaratmaq idi. Bu vəzifənin yerinə yetirilməsində hərbi nazirlik böyük çətinliklərlə üzləşdi. Nazirlik yaradılarkən ordu üçün geyim, ayaqqabı, hərbi sursat, zabitlər, hətta unter zabitlər və əsgerlər belə yox idi. Əhali öz uşaqlarını orduya vermək istəmirdi.

Görkəmli generallar S.Mehmandarov, Ə.Şıxlinski, M.Sulkeviç və başqaları Azərbaycan Xalq Cümhuriyyəti ordusunu formalaşdırmaq, təlimatlandırmaq, çar Rusiyası dövründə uzun müddət hərbi işdən uzaqlaşdırılmış azərbaycanlılara hərb sənətinin sirlərini aşılamaq sahəsində gərgin iş aparırdılar. 1919 il avqustun axırlarında B.Britaniya hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra Nazirlik ölkənin müdafiəsini möhkəmləndirmək üçün ciddi tədbirlər gördü. Bu dövrdə Ermənistan Respublikası Azərbaycana qarşı açıq təcavüzə başladı. Ermənistanın nizami ordu hissələri və daşnak quldur dəstələri Azərbaycanın Zəngəzur, Naxçıvan və Qarabağ bölgələrinə basqınlar edirdi. Kəndləri dağıdır, türk-müsəlman əhalisinə qarşı soyqırımları törədir, onları öz ata-baba yurdlarından qovurdular. Ermənilər bu hərəkətlərini bütün 1919 il boyu və 1920 ilin əvvəllərində davam etdirdilər. Dağlıq Qarabağ erməniləri 1920 il martın 22-də Novruz bayramı gecəsi Xankəndindəki Azərbaycan ordusu qarnizonu üzərinə xaincəsinə basqın etdilər. Bundan istifadə edən ermənilər bütün Dağlıq Qarabağ ərazisində qiyam qaldırdılar. 1920 il aprelin 27-də Sovet Rusiyası orduları Azərbaycan sərhədlərini keçərək, Bakını işğal etdiyi

*Azərbaycan milli ordusu hərbi hissələrindən biri*



vaxt Azərbaycan ordusunun əsas qüvvələri Dağlıq Qarabağda ermənilərin qiyamını yatırtmaqla məşğul idi.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Армия (документы и материалы), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., B., 1920; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; yenə onun, Mehmandarov, B., 2000.

**HƏRBİ NAZİRLİYİN ŞTATI HAQQINDA QANUN** - Hərbi Nazirliyin ilkin struktur heyətinin - ştatının təsdiq edilməsi barədə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 25 fevral tarixli qanunu. Qanunla Hərbi Nazirlik sistemində olan 38 struktur bölməsinin ştat vahidləri təsdiq edilmişdi. Bunlar, əsasən, hərbi nazirliyin idarə və xidmətlərini, onların tabeliyində olan xidmətləri, piyada, süvari və topçu hissə və bölmələrini, təminat-təchizat anbarlarını, tibb obyektlərini əhatə edirdi.

Qanun layihəsi Parlamentə Qara bəy Qarabəyov tərəfindən təqdim olunmuşdu. Hərbi nazir Səməd bəy Mehmandarovun proqram xarakterli çıxışında zabitlərin məvaciblərinin lazımi səviyyədə saxlanılmasının vacibliyi əsaslandırılmış, türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsindən sonra hərbi hissələrdə yaranmış mürəkkəb vəziyyət və onun aradan qaldırılması yollarına, çağırış işinin təşkilinə, ordunun təminat-təchizat məsələlərinə, qarşıda duran digər vəzifələrə də toxunulmuşdu. Cümhuriyyət Parlamenti və Dövlət Müdafiə Komitəsi sonralar yaradılan bir sıra hərbi strukturların da ştatını təsdiq etmişdi.

**HƏRBİ NAZİRLİYİN YARADILMASI HAQQINDA QƏRAR,** Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Hərbi Nazirliyinin yaradılması haqqında qərar - Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918 il 1 noyabr tarixli qərarı. Qərara əsasən, hərbi nazir vəzifəsi Nazirlər Şurasının sədrinə həvalə olunmuşdu. Səməd bəy *Mehmandarov* hərbi nazirin müavini təyin edilmiş və nazirliyin formalaşdırılması ona tapşırılmışdı.

**HƏRBİ ORDENLƏRİN, MİLLİ HİMNİN, GERBİN VƏ MÖHÜRÜN HAZIRLANMASI HAQQINDA QƏRAR,** Azərbaycan Xalq Cümhuriyyəti hərbi ordenləri, milli himni, gerbi və möhürünün hazırlanması haqqında qərar - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1920 il 30 yanvar tarixli qərarı. İki bənddən ibarət idi. Birinci bənddə ordenlərin eskizləri üçün müsabiqə elan olunması hərbi nazirə, ikinci bənddə isə milli himnin, dövlət gerbinin və möhürünün layihələri üçün müsabiqə elan edilməsi maarif nazirinə tapşırılmışdı.

**HƏRBİ RÜTBƏLƏR** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə xidməti vəzifəsinə, hərbi və ixtisas hazırlığına, xidmət müddətinə, xidmət dövründə əldə etdiyi nəticələrə və qoşun növlərinə görə hərbi qulluqçulara fərdi qaydada verilən rütbələr. Hərbi rütbələr hərbi qulluqçuların dərəcəsini, onlar arasındakı münasibətləri, xidmət müddətini müəyyənləşdirir, maddi və maliyyə hüquqlarını təmin edir, tənzimləyirdi. Azərbaycan Xalq Cümhuriyyəti ordusunda çar Rusiyasında qüvvədə olmuş hərbi rütbələr tətbiq edilir və qoşun növlərinə görə fərqlənirdi. Piyada qoşunlarında praporşik, podporuçik, poruçik, ştabs-kapitan, kapitan, podpolkovnik, polkovnik, general-mayor, general-leytenant, general (tam general), süvari qoşunlarında isə praporşik, kornet, poruçik, ştabs-rotmistr, rotmistr, podpolkovnik, polkovnik, general-mayor, general-leytenant, general (tam general) rütbələri işlədilirdi.

İlkin zabit rütbəsi olan praporşik rütbəsi hərbi nazirin əmri ilə verilirdi. Bunun üçün hərbi qulluqçular müvafiq təhsil bazasına malik olmalı idilər. Digər hərbi rütbələr hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurasının qərarı ilə verilirdi.

Hərbi qulluqçuların istifadə etdiyi poqonlar və onların üzərindəki fərqlənmə nişanları çar Rusiyası ordusunun poqonlarındakı kimi idi. Lakin Rusiya poqonlarından fərqli olaraq Azərbaycan Xalq Cümhuriyyəti poqonlarının üzərində "Azərbaycan" sözü yazılırdı.

**HƏRBİ ŞURA** - Azərbaycan Xalq Cümhuriyyəti Hərbi nazirliyinin nəzdində kollegial orqan. Hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələləri müzakirə edir və müvafiq qərarlar çıxarırdı. Əsası 1919 il yanvarın 10-da qoyulmuşdu. Hərbi şuranın əsasnaməsi və daimi tərkibi təsdiq edilənədək *Müvəqqəti Hərbi Şura (MHŞ)* yaradılmışdı. Hərbi nazir və onun müavini, piyada və süvari diviziyalarının komandirləri, Ümumi qərargahın rəisi, topçu, ləvazimat və istehkamçı idarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı MHŞ-nın üzvləri idilər. MHŞ-nın iclaslarına hərbi nazir və ya onun müavini sədrlik edirdi.

Hərbi şuranın əsasnaməsi işlənib hazırlandıqdan sonra 1920 ilin əvvəlində şuranın daimi tərkibi təsdiq edildi. Hərbi nazir Səməd bəy Mehmandarovun əmri ilə iki hərbi şura yaradıldı: Böyük hərbi şura (BHŞ) və Kiçik hərbi şura (KHŞ). Təcili həllini tələb edən məsələlərə KHŞ-da baxılırdı. Tərkibinə hərbi nazirin müavini, Ümumi qərargahın, *Baş ərkani-hərbin* və Bakı İstehkamçılar hissəsinin rəisləri daxil idi. Hərbi nazirin rəhbərlik etdiyi BHŞ-ya isə Ümumi qərargahın, Baş ərkani-hərbin, Bakı istehkamçılar hissəsinin rəisləri, qərargahları Bakıda yerləşən piyada və süvari diviziyalarının komandirləri, topçu, istehkam və ləvazimat idarələrinin rəisləri, hərbi-ədliyyə, hərbi-tibb və hərbi-baytar idarələrinin rəisləri daxil idi. BHŞ-nın işində dövlət nəzarət orqanının nümayəndəsi də iştirak edirdi. Hərbi şuranın qərarları hərbi nazirin imzası ilə qüvvəyə minirdi.

**HƏRBİ-TİBB İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qoşun hissələrində tibb xidmətinin təşkilinə rəhbərlik edən orqan. Əsası 1918 il noyabrın 15-də qoyulmuş və əvvəlcə şöbə kimi Ümumi qərargahın tərkibində fəaliyyətə başlamışdı. Azərbaycanda tibbin kifayət qədər inkişaf etmədiyi bir vaxtda hərbi-tibb idarəsinin fəaliyyəti hərbi nazirin ciddi nəzarətində olmuşdur. Nazir Səməd bəy Mehmandarovun müvafiq əmri ilə həkim A.Sulakov 1918 il noyabrın 27-də hərbi-tibb şöbəsinin rəisi təyin edildi. Həmin tarixdə daha 15 nəfər tibb işçisi orduya qəbul edilərək, müxtəlif qoşun hissələrinə təyinat aldılar.

Qoşunlarda tibb xidmətinə olan ehtiyacın aradan qaldırılması üçün S.Mehmandarovun əmri ilə 1918 il dekabrın 14-də Gəncə *Praporşiklər məktəbində* 10 nəfərlik qəbul otağı, dekabrın 15-də Hacıqabulda yerləşən 2-ci Bakı alayında 60

nəfərlik əsgər xəstəxanası, 1919 il yanvarın 1 -də 1-ci Cavanşir piyada alayında 60 nəfərlik əsgər xəstəxanası, 2-ci Qarabağ süvari alayında 20 nəfərlik müayinə otağı, 1919 il fevralın 4-də isə Əlahiddə Zaqatala taborunun 20 nəfərlik əsgər xəstəxanası fəaliyyətə başladı. Bakı, Gəncə və Xankəndidə hərbi xəstəxanalar təşkil edildi. Gəncə hərbi xəstəxanası nəzdində bölük feldşer köməkçiləri hazırlayan 4 aylıq kurslar yaradıldı.

1919 ilin payızından isə hərbi nazirin əmrilə *Şuşa feldşer məktəbi* fəaliyyətə başladı. Hərbi hissələrdə, xüsusən Qarabağ bölgəsində yerləşən qoşun hissələrinin şəxsi heyəti arasında yayılan yoluxucu xəstəliklərin qarşısının alınmasında məsuliyyətsizlik göstərdiyi üçün idarənin rəisi Sulakov vəzifəsindən azad edildi və onun yerinə həkim Qabayev təyin edildi.

Hərbi nazirin əmri ilə 1919 il iyulun 19-da həkim Bahadur bəy Qayıbov strukturun rəhbəri təyin olundu. Onun rəhbərliyi ilə 1919 il noyabrın 5-də Şuşada 5 nəfər zabit və 100 nəfər əsgər üçün nəzərdə tutulmuş 105 nəfərlik əsgər xəstəxanası, 1920 il yanvarın 1-də Bakı şəhərində 5-ci Bakı piyada alayının əsgər xəstəxanası, 1920 il yanvarın 13-də Xankəndidə 2-ci Qarabağ süvari alayının 30 nəfərlik müayinə otağı, 1920 il fevralın 1-də Xankəndidə 1-ci Cavanşir piyada alayının 30 nəfərlik müayinə otağı açılmışdı. Hərbi nazirin əmri ilə 1919 il oktyabrın 20-də hərbi-tibb idarəsinin və yerli lazaretlərin strukturu genişləndirildi. 1920 ilin martında bu qurum təchizat idarəsinin tərkibinə daxil edildi.



Hərbiyyə məktəbinin gənc zabitləri

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**HƏRBİ VƏZİYYƏT ELAN OLUNMASI HAQQINDA QƏRAR** - yenicə elan olunmuş istiqlalın təhlükə qarşısında qaldığı şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin əl atmağa məcbur olduğu fövqəladə tədbir. Bütün ölkə ərazisində fövqəladə vəziyyət elan olunması barədə qərar Cümhuriyyət Hökuməti tərəfindən 1918 il iyunun 19-da qəbul edilmişdi. Buna səbəb Azərbaycanın yenicə elan edilmiş dövlət müstəqilliyinin təhlükəyə məruz qalması idi. Belə ki, S.Şaumyanın başçılığı ilə Bakıda hakimiyyəti ələ keçirmiş *Bakı Xalq Komissarları Sovetinin* tabeliyində olan 18 min nəfərlik daşnaklardan ibarət olan 1-ci Qafqaz Qırmızı korpusunun 1918 il iyunun 10-dan Gəncəyə doğru yürüşə başlaması bu təhlükəni reallaşdıra bilərdi. Qardaşlıq köməyinə gələn türk hərbi hissələrinin hələ bütünlüklə Azərbaycana gəlib çatmadığı bir vaxtda, Qafqaz Qırmızı korpusunun qarşısını gürcü knyazı polkovnik *Maqalovun* rəhbərliyi altında Müsəlman və Gürcü korpuslarının məhdud heyətdə olan birgə qüvvələri kəsirdi. Qafqaz Qırmızı korpusunun hissələri özlərinin say üstünlüyündən istifadə edərək, iyunun 11-də Sığırlını, iyunun 12-də isə Kürdəmiri işğal etdi. Qırmızı korpusun digər bir qolu isə Bakı-Şamaxı yolu boyunca Qaraməryəmə qədər irəliləmişdi. İyunun 16-da baş vermiş Qaraməryəm döyüşündə azərbaycanlı, gürcü və dağıstanlılardan ibarət müdafiə dəstəsi də məğlub oldu. Qırmızı korpus sürətli hücumunu davam etdirərək, Yevlaxda Kür çayı üzərindəki körpünü ələ keçirməyə can atır və bununla *Qafqaz İslam Ordusu* qüvvələrinin şərqə doğru irəliləməsinin qarşısını kəsmək istəyirdi. Odur ki, Qafqaz İslam Ordusunun tərkibinə qatılmış 5-ci Qafqaz firqəsinin 10-cu Qafqaz piyada alayı Gəncəyə yetişən kimi dərhal Qaraməryəmə göndərildi. İyunun 18-də bu alayın Qırmızı korpusa müqaviməti də uğursuzluqla nəticələndi. Qırmızı korpusun bu uğuru Azərbaycan ərazisində hərbi-siyasi şəraiti daha da ağırlaşdırdı. Dövlətin bütün gücünü Qırmızı korpusun təcavüzünün qarşısının alınmasına səfərbər etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il iyunun 19-da bütün ölkə ərazisində hərbi vəziyyət elan olunması barədə qərar qəbul etməyə məcbur oldu. Hərbi vəziyyətin elan olunması ilə əlaqədar olaraq iyunun 23-də *Hərb dövrü üçün qanunların tətbiqi haqqında qərar* qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti fövqəladə vəziyyət şəraitində dövlətin bütün potensialını səfərbərliyə alaraq, ölkənin müstəqilliyi üçün yaranmış real təhlükəni aradan qaldıra bildi. İyunun sonlarında Azərbaycan-Türkiyə birləşmiş qoşunlarından ibarət Qafqaz İslam Ordusu Göyçay və Qaraməryəm ətrafında bolşevik-daşnak hərbi birləşmələrini ağır məğlubiyyətə uğratdı. Bu qələbə Bakının bolşevik-daşnak işğalından azad olunması və Cümhuriyyət hakimiyyətinin bütün ölkə ərazisində bərqərar edilməsi uğrunda aparılan müharibədə dönüş nöqtəsi oldu.

**HƏRBİYYƏ MƏKTƏBİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli zabit kadrları hazırlayan hərbi təhsil müəssisəsi. 1919 ilin oktyabrında *Praporşiklər məktəbinin* əsasında yaradılmışdı. Praporşiklər məktəbinin rəisi polkovnik Rüstəm bəy Şıxlinski Hərbiyyə məktəbinin rəisi vəzifəsində saxlanılmış və məktəbin yenidən qurulmasının təşkilati işləri ona həvalə olunmuşdu. Yeni məktəbdə təhsil müddəti uzadılmış və statusu genişləndirilmişdi. Praporşiklər məktəbinin məzunlarına ilkin zabit rütbəsi olan praporşik rütbəsi verilirdisə, Hərbiyyə məktəbini uğurla başa vuranlara növbəti rütbə olan podporuçik rütbəsi verilirdi. Bu rütbə məzunlara hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurasının qərarı ilə verilirdi.

1919 il dekabrın 1-də polkovnik R.Şıxlinskinin 2-ci topçu briqadasının komandiri təyin edilməsi ilə əlaqədar 4-cü Quba alayının zabiti, polkovnik *K.D.Çxeidze* Hərbiyyə məktəbinin rəisi təyin edildi. Məktəb üç şöbədən - piyada, topçu və istehkamçı şöbələrindən ibarət idi. Piyada şöbəsi iki bölüklü bir tabor, topçu və istehkamçı şöbələrinin isə hərəsi bir taqım olmalı idi. Məktəbdə oxuyanlar "yunker" adlanırdılar. Təhsil müddəti 2 il nəzərdə tutulmuşdu. Hərbiyyə məktəbinə 17-28 yaş arasında olan gənclər daxil ola bilərdi. Bunun üçün onlar müvafiq təhsil bazasına malik olmalı idilər. Məktəbə qəbul elanı "Azərbaycan " qəzetində dərc edilirdi. Tədris dövründə təhsildə və davranışda yaxşı nəticə göstərən yunkerlər baş çavuş (feldfebel), baş portupey-yunker, kiçik portupey-yunker rütbələrinə layiq görülə bilərdilər.

Hərbiyyə məktəbində hərbi fənlərdən taktika, artilleriya, istehkam işi, topoqrafiya, hərbi inzibatçılıq, qanunşünaslıq, ümumtəhsil fənlərindən isə ilahiyyat, türk (Azərbaycan) dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, coğrafiya, ümumi tarix və türk xalqlarının tarixi tədris edilirdi.

Yaranmış şəraitlə əlaqədar olaraq, 1920 il aprelin 24-də Hərbiyyə məktəbinin vaxtından qabaq buraxılışı oldu. Məktəbi 104 nəfər uğurla bitirdi. Hərbiyyə məktəbi sovet dövründə də bir neçə il fəaliyyətini davam etdirdi.

*Əd:*. Süleymanov M., Azərbaycanda ilk milli hərbiyyə məktəbi, B., 2000.



**HƏSƏNOV** Əlağa Hacı Süleyman oğlu (1871, Bakı- 18.3.1933, Bakı) - ictimai və dövlət xadimi. Bakı şəhər gimnaziyasını və kommersiya məktəbini bitirmişdir. Bakı taciri olan Həsənov "Nəşri-maarif"cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmişdir. Şəhər dumasının üzvü idi.Həsənov Bakıya Şollar su kəmərinin çəkilməsində, şəhər kanalizasiya şəbəkəsinin yaradılmasında, dənizkənarı parkın salınmasında böyük xidmət göstərmişdir. Fevral inqilabından (1917) sonrakı siyasi hadisələrdə yaxından iştirak etmiş, 1918 ilin martında Bakıda türk-müsəlman əhaliyə qarşı soyqırımlarının qarşısını almağa çalışmışdır. Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi. Azərbaycan Milli Şurasının "Azərbaycan *Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Bakı şəhərindən bitərəf kimi Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin 3-cü Hökumət kabinəsində maliyyə nazirinin müavini, 4-cü kabinədə isə maliyyə naziri təyin olunmuşdur. 1919 il sentyabrın 30-da Həsənovun rəhbərliyi ilə Azərbaycan Dövlət Bankı fəaliyyətə başlamışdır. Cümhuriyyətin əsginasları üzərində baş nazirlə yanaşı maliyyə naziri Həsənovun da imzası var idi. Milli pulların qiymətdən düşməməsi, emissiya həcminin artmaması, devalvasiyaya uğramaması üçün Həsənov böyük səy göstərmişdir. Həsənov həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də Sovet hakimiyyəti dövründə Azərbaycan Dövlət Bankına rəhbərlik etmişdir. Azərbaycanın ictimai-mədəni həyatında fəal iştirak etmişdir. Həsənovun dövri mətbuatda, o cümlədən "Füyuzat" jurnalında çoxlu məqalələri dərc edilmişdir. Böyük rus yazıçısı L.N.Tolstoyla dostluq münasibətləri olmuşdur.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Əliyev M., Əliağa Həsənov "Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920)" kitabında, B., 1990.



**HƏSƏNOV** Əlimuxtar Yaqub oğlu (1896, Bakı - ?)-Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kişi gimnaziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tarix-filologiya sahəsində davam etdirmək üçün İstanbul Universitetinə (Türkiyə) göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**HƏSƏNOV** Rzaqulu İsmayıl oğlu (27.9.1889, Quba - ?)-Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Orta texniki məktəbin mexanika şöbəsini bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Frayberq Universitetinə (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**HİMAYƏDARLIQ NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Himayədarlıq Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin məcburi qaçqın və köçkünlərinə himayədarlıq tədbirlərini həyata keçirən icra hakimiyyəti orqanı. Cənubi Qafqazda üç müstəqil respublika yaranana qədər Azərbaycanda qaçqın və köçkünlərlə iş bilavasitə Müsəlman Milli Şurasının müvafiq şöbəsi tərəfindən aparılırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra, 1918 il iyunun 17-də Fətəli xan Xoyskinin təşkil etdiyi 2-ci Hökumət kabinəsində Xalq Səhiyyə və Himayədarlıq Nazirliyi təsis edilmiş və Xudadat bəy *Rəfibəyli* Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ilk səhiyyə və himayədarhq naziri təyin olunmuşdu. 1918 il sentyabrın 15-də Bakı *Qafqaz İslam*

*Ordusu* tərəfindən azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncədən Bakıya köçdü və oktyabrın 6-da F.x.Xoyski hökumətində dəyişikliklər edildi; səhiyyə və himayədarlıq naziriliyi iki müstəqil - səhiyyə və himayədarlıq nazirliklərinə ayrıldı və himayədarlıq naziri vəzifəsinə Musa bəy *Rəfiyev*, onun müavini vəzifəsinə isə Rüstəm xan *Xoyski* təyin olundu.

1918 il dekabrın 26-da F.x.Xoyskinin təşkil etdiyi 3-cü Hökumət kabinəsində himayədarlıq naziri vəzifəsini Rüstəm xan Xoyski icra etdi. Nəsib bəy Yusifbəylinin 1919 il aprelin 14-də təşkil etdiyi 4-cü Hökumət kabinəsində bu vəzifəyə Slavyan-Rus Cəmiyyətindən olan V.Klenevski təyin edildi. N.Yusifbəylinin 1919 il dekabrın 24-də təşkil etdiyi 5-ci Hökumət kabinəsində himayədarlıq və səhiyyə naziri vəzifəsini yenidən Musa bəy Rəfiyev tutdu. Himayədarlıq sahəsi üzrə onun müavini isə Rüstəm xan Xoyski oldu.

Yarandığı ilk günlərdən nazirlik anarxiya və hərc-mərclik dövründə zərər çəkmiş əhali ilə bağlı əvvəllər ayrı-ayrı rayonların səlahiyyətində olan bütün işləri öz tabeliyində birləşdirmiş, doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmış, əmlakı əlindən çıxmış qaçqınlara yardım göstərilməsini təşkil etmişdir.

Birinci dünya müharibəsi (1914-18) dövründə yaranmış anarxiya, özbaşınalıq, 1918 ildə ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları Azərbaycana böyük zərər vurmuş, əhalinin böyük əksəriyyəti tamamilə müflisləşmiş, var-yoxundan, yaşayış yerlərindən, əmək haqqı mənbələrindən məhrum olmuş, yalnız dövlət qayğısına möhtac qalmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin və Himayədarlıq Nazirliyinin qaçqınlarla bağlı əsas vəzifəsi təkcə onların fiziki yaşayışını təmin etmək deyil, həm də əvvəlki iş yerlərinə qaytarmaq, yeni iş yerləri açmaq, yetim qalmış uşaqları daimi yaşayış yerləri ilə təmin etmək idi. Bununla əlaqədar himayədarlıq nazirliyinin qarşısında iki başlıca vəzifə dururdu: 1) daşnaklar tərəfindən öz ata-baba yurdlarından qovulmuş və qaçqına çevrilmiş soydaşları qəbul etmək, onları ən zəruri ərzaq və yaşayış vasitələri ilə, habelə əkin üçün toxum və iş heyvanları ilə təmin etmək, qaçqınların yerləşdirildiyi rayonlarda onları ictimai işlərə cəlb etmək, bir sıra kənd icmalarına öz təsərrüfatlarını bərpa etmək üçün faizsiz kreditlər vermək; 2) azyaşlı yetimlər və sahibsiz uşaqlar üçün sığınacaqlar və koloniyalar, yoxsul əhali üçün gecələmə evləri və ucuz yeməkxanalar təşkil etmək. Bütün bu işləri həyata keçirmək üçün himayədarlıq nazirliyinin mərkəzi idarəsi üç şöbəyə ayrılırdı: himayə, qaçqınlar və təsərrüfat şöbələri. Yerlərdə himayədarlıq işlərinin təşkili üçün ölkənin ərazisi 6 dairəyə bölünmüşdü: Bakı (Bakı şəhəri, Bakı və Quba qəzaları), Gəncə (Gəncə şəhəri, Gəncə və Qazax qəzaları), Şamaxı (Şamaxı və Göyçay qəzaları), Nuxa (Nuxa və Ərəş qəzaları, Zaqatala dairəsi), Qarabağ (Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları) və Lənkəran (Lənkəran və Cavad qəzaları). Hər dairəyə himayədarlıq nazirliyinin inspektoru rəhbərlik edirdi. Qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək üçün himayədarlıq nazirliyi üç əsas istiqamətdə iş aparırdı: 1) sənaye rayonları da daxil olmaqla, Bakı şəhərində; 2) respublikanın başqa ərazilərində; 3) ölkədən xaricdə.

Sənaye rayonları da daxil olmaqla, Bakı şəhərində 1919 ilin fevralından təkcə qaçqınlara deyil, həm də əhalinin yoxsul təbəqələrinə və sənaye fəhlələrinə Mərkəzi Yardım Evi xətti ilə ərzaq paylanır, pulsuz və ya cüzi qiymətə isti yemək və çay, həmçinin digər zəruri avadanlıqlar verilirdi. 1919 ilin dekabrına qədər nazirliyin himayədarlıq şöbəsi bu məqsəd üçün 3082000 manat vəsait xərcləmişdi. Bundan əlavə, yerli xeyriyyə cəmiyyətləri tərəfindən sahibsiz və yetim uşaqlar üçün yaradılmış uşaq evlərinə də himayədarlıq nazirliyi tərəfindən yardım göstərilirdi. Təkcə 1919 ildə xeyriyyə cəmiyyətlərinin sahibsiz və yetim uşaqlar üçün yaratdıqları evlərə 2114501 manat vəsait ayrılmışdı. 1918 ilin soyqırımları nəticəsində zərər çəkmiş ailələrə 300 min manat məbləğində birdəfəlik yardım göstərilmişdi.

Himayədarlıq Nazirliyi Müsəlman Xeyriyyə Cəmiyyəti vasitəsilə Qarsdan Azərbaycana pənah gətirmiş 700 nəfərə yaxın qaçqını Bakıda yerləşdirmək, gündəlik yeməklə təmin etmək vəzifəsini də öz üzərinə götürmüşdü. 1919 ilin noyabrından 1920 il yanvarın 1-nə qədər bu məqsəd üçün 526195 manat vəsait xərclənmişdi. 1919 ilin sonlarında Dağlılar Respublikası ərazisində baş vermiş hərbi əməliyyatlar nəticəsində Dağıstandan Azərbaycana gəlmiş qaçqınlara nazirlik 1 milyon manatlıq maddi yardım göstərmişdi.

Himayədarlıq Nazirliyi ölkənin ayrı-ayrı bölgələrində qaçqınlara pul əvəzinə daha çox ərzaq və manufaktura məmulatı ilə köməklik göstərirdi. Onlara adambaşına, yaşından asılı olaraq, 20-25 funt taxıl (buğda, arpa, çəltik), imkan daxilində sabun, duz və s. manufaktura məmulatları verilirdi. Bu işləri yerlərdə qaçqınlardan və yerli əhalidən ibarət qaçqın komitələri həyata keçirirdi. Eyni zamanda, qaçqınların istifadə olunmayan boş yerlərə və yaşayış məntəqələrinə yerləşdirilməsi imkanları da öyrənilirdi.

Himayədarlıq Nazirliyinin fəaliyyətinin ilk dövrlərində qəbul etdiyi qaçqınlar yenicə yaradılmış Ermənistan Respublikasının Yeni Bəyazid, Üçkilsə (Eçmiədzin) və İrəvan qəzalarından zorla qovulmuş azərbaycanlılar idi. Onlar Azərbaycanın Qazax, Gədəbəy, Gəncə, Şamaxı və b. bölgələrində yerləşdirilirdilər. 1919 ilin yanvarından daşnakların Zəngəzura silahlı təcavüzü nəticəsində bu ərazidən zorla qovulmuş 40 mindən yuxarı azərbaycanlı Qarabağın Cəbrayıl, Şuşa və Cavanşir qəzalarında və Cümhuriyyətin başqa ərazilərində yerləşdirildi. 1919 ildə bütün il boyu Ermənistanda həyata keçirilən soyqırımları nəticəsində Azərbaycana pənah gətirən türk-müsəlman əhalinin sayı günbəgün artırdı.

1918 ildə S.Şaumyanın silahlı daşnak quldur dəstələrinin Bakı şəhərində, Şamaxı, Quba və Lənkəran qəzalarında azərbaycanlılara qarşı törətdiyi soyqırımları və talanlar nəticəsində qarət edilmiş və müflisləşmiş əhalinin də, Ermənistandan gəlmiş qaçqınlar kimi, köməyə böyük ehtiyacları var idi. 1919 ilin sonuna qədər Gəncə dairəsində 21098 nəfər, Şamaxı dairəsində 26877 nəfər, Nuxa (Şəki) dairəsində 5100 nəfər, Qarabağ dairəsində 20 min nəfər, Lənkəran dairəsində 8205 nəfər Himayədarlıq Nazirliyi tərəfindən qeydiyyata götürülmüş və onlara kömək göstərilmişdi.

Himayədarlıq Nazirliyinin qaçqınlarla bağlı 1920 il üçün qarşısına qoyduğu başlıca vəzifələrdən biri də əksəriyyəti kənd əhalisindən ibarət olan qaçqınları Ərəş, Nuxa (Şəki), Şamaxı, Göyçay və b. qəzaların kənd ərazilərində yerləşdirməklə, onları kənd təsərrüfatı işlərinə cəlb etmək, öz təsərrüfatlarını yaratmaqda onlara kömək göstərmək idi. Bu barədə Himayədarlıq Nazirliyi tərəfindən hazırlanmış təkliflər Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən

bəyənildi və 1920 ilin yanvarında bu məqsəd üçün Himayədarlıq Nazirliyinə 21 milyon manat vəsait ayrılması barədə qanun qəbul edildi.

Naxçıvan, Sürməli və Üçkilsə qəzalarında, 1919 il yayın axırlarında Vedibasarda azərbaycanlılara qarşı törədilən soyqrımları Cənub-qərbi Azərbaycan və Ermənistan Respublikasındakı müsəlmanların vəziyyətini son dərəcə ağırlaşdırdı. Bu qanlı qırğınlar nəticəsində Ermənistan Respublikası ərazisində yaşayan türk-müsəlman əhali bütün var-yoxundan məhrum olaraq, qaçqına çevrildilər. Yeni Bəyazid, Üçkilsə və İrəvan qəzalarından qaçqın düşmüş müsəlman əhalinin sayı 200 min nəfərə çatdı. Himayədarlıq Nazirliyinin Ermənistan Respublikasındakı müvəkkili bu ərazidəki müsəlmanların acınacaqlı vəziyyəti haqqında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə və Hökumətinə məlumat verərək bildirirdi ki, onların yeməyə çörəkləri, əkməyə toxumları və iş heyvanları yoxdur. İrəvanda müsəlman əhali uzun müddətli aclıq nəticəsində kütləvi surətdə qırıldı. Onlara yardım məqsədilə nazirlik 3 milyon manatlıq vəsait ayırmaq barədə qanun layihəsini Parlamentə təqdim etdi. Parlamentin qərarı ilə ayrılmış həmin vəsait əsasında 1919 il iyulun axırlarında İrəvana 15 vaqon un, buğda, arpa və darı göndərildi. Bundan əlavə, 1919 ilin sentyabrında İrəvanda müsəlmanlar üçün ambulatoriya, yetim uşaqlar üçün isə 85 nəfərlik uşaq evi açıldı. İrəvan quberniyası və Qars vilayətindən qaçqın düşmüş türk-müsəlman əhaliyə yardım məqsədilə 1919 ilin noyabrında himayədarlıq nazirliyinin nümayəndəsi yol boyu ağır vəziyyətdə olan qaçqınları yeməklə təmin etmək üçün Tiflisə ezam edildi. Azərbaycanlı qaçqınlar iki yerdə - Aşağı Seral stansiyasında və Tiflisdən 300 verst aralıda yaradılmış qaçqın düşərgələrində yeməklə təmin olunurdular.

Himayədarlıq Nazirliyi qaçqınlarla bağlı fəaliyyətini 1920 il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına və Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər davam etdirmişdir.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Демократиская Республика (1918-1920), Внешняя политика (документы и материалы) , Б., 1998; Адрес-календары Азербайджанской Республики на 1920 г., В., 1920; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**"HNÇAQ"** ("Zəng") - erməni millətçi partiyası. Özünü sosial-demokratiya yönlü partiya adlandıran "Hnçaq" bir qrup erməni tələbəsi tərəfindən 1887 ildə Cenevrədə yaradılmışdır. Lakin partiyanın mərkəzi komitəsi eyni adlı qəzetin redaksiyası ilə birlikdə Londona köçmüşdü.

Partiyanın 1897 ildə dərc olunmuş proqramında o, sosialist partiyası adlandırılır və qarşısına mütləqiyyətin çevriliş yolu ilə məhv edilməsi, demokratik quruluş elan olunması və fəhlə sinfinin bütün istehsal vasitələrinə sahib olması vəzifəsi qoyulurdu. Lakin proqramın əsas hissəsi "erməni xalqının inqilabi fəaliyyətinə" həsr edilmişdi. Proqrama görə, bu fəaliyyət müstəsna olaraq, ermənilərin taleyinin Osmanlı imperiyasından ayrılmasına və milli müstəqilliyə nail olmağa yönəldilməlidir.

"Hnçaq"ın Bakı təşkilatı 19 əsrin 90-cı illərinin əvvəlində X.S.Melik-Ağamiryan tərəfindən yaradılmışdı. Sonradan onun başçısı H.Hovanesyan oldu. 1902 ildə "Hnçaq"ın Şuşada və Gəncədə də şöbələri yaradıldı. Partiyanın sosial bazası, ermənilərin xırda burjua təbəqələri, sənətkarlar, alverçilər, ziyalılar, fəhlələr idi. Fəhlələr partiyada sayca üstünlük təşkil edirdilər.

Erməni partiyaları siyasi konyunkturadan asılı olaraq, taktikalarını bu və ya digər qonşu dövlətin müttəfiqləri kimi qururdular. 1903 ildə knyaz Qolitsinin təkidi ilə verilmiş fərmana əsasən, erməni kilsə torpaqlarının böyük hissəsi və mülkiyyəti dövlət xəzinəsinin xeyrinə müsadirə olundu. Bununla əlaqədar olaraq erməni katolikosu bütün çar sülaləsini lənətlədi. Eyni zamanda, təşkilatçılarından biri "Hnçaq" olan erməni inqilabi hərəkatı ruslar əleyhinə açıq-aşkar fəaliyyətə başladı. Bununla bağlı, "Hnçaq"ın Bakı və Yelizavetpol quberniyalarındakı şöbələrinin fəaliyyəti gücləndi. 1904 ildə Bakıda partiyanın artıq üç şöbəsi var idi. Elə həmin il Bakıda "hnçaqçılar ittifaqı"nın vərəqəsi yayıldı. Burada ermənilər əhalini hökumətə müqavimət göstərməyə çağırılırdılar. Əsas müqavimət vasitələrindən biri də terror aktları idi. Bu terror aktlarının ən böyüyü erməni kilsə mülkiyyətinin müsadirə olunması haqqında qanunun təşəbbüsçüsü olan, Qafqazın mülki işlər üzrə baş rəisi general-adyutant knyaz Qolitsına qarşı idi. Həmin qəsd 1903 il oktyabrın 14-də həyata keçirildi. Knyaz Qolitsına qarşı qəsdi daşnakların köməyi ilə "hnçaq"çı Q.Hovanesyants həyata keçirmişdi. Eyni zamanda, Osmanlı dövləti ərazisində də iş aparılırdı. Osmanlı imperiyasında terror aktları hazırlamaq və hökumət əleyhinə çıxışları təşkil etmək üçün "hnçaq"çılar varlı ermənilərdən şantaj vasitəsilə və zorla müntəzəm olaraq pul toplayırdılar. "Hnçaq"çılar Qafqazda, xüsusilə Bakı sənaye rayonunda fəal iş aparırdılar. Fəhlə hərəkatının güclü inkişafı şəraitində özünü sosial-demokrat adlandıran "Hnçaq" partiyası burada daha geniş əl-qol açmışdı "Hnçaq"çılar vərəqələr buraxmaqla, Rusiyada və xaricdə çıxan qəzetlərinin nömrələrini çoxaltmaq və yaymaqla, tətillərdə iştirak etməklə erməni fəhlələri arasında qızğın fəaliyyət göstərirdilər. Mübarizə metodlarına görə eserləri daha yaxın olmalarına baxmayaraq, onlar 1904 ildən sosial-demokratlarla, xüsusən bolşeviklərlə sıx əməkdaşlığa başladılar. Bu əməkdaşlığın ilk təzahürü özünü "Hnçaq"ın Bakı fəhlələrinin məşhur 1904 il dekabr tətillərində iştirakında göstərdi. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının bolşevik Bakı komitəsinin tətil zamanı yaratdığı təşkilat komitəsinə "Hnçaq"ın nümayəndələri də daxil oldular. 1905 ildə "Hnçaq"ın, əsasən, fəhlələrdən ibarət bütün üç şəhər şöbəsini birləşdirən Bakı rayonu komitəsi RSDFP-yə daxi olduğunu və millətçilərlə əlaqələrini kəsdiklərini bəyan etdilər. RSDFP-yə "hnçaq"çıların ancaq bolşevik meylli hissəsi - S.Kasyan, S.Sultanyants, O.Ovakimov və b. daxil oldular. Lakin bu "hnçaq"çılar da bir çox hallarda özlərini ənənəvi terrorçuluq metodlarına sadiq qaldılar. Məsələn onlar (Q.Hayrapetov və b.) RSDFP-nin döyüşçü dəstələri nin yaradılmasında fəal iştirak edirdilər. 1906 ildə O.Ovakimov sosial-demokrat təşkilatının iradəsinə zidd olaraq, "terrorçular qrupu" yaradıb, varlılara müntəzəm surətdə basqınlar edirdi. Belə basqınların birindən sonra RSDFP Bakı təşkilatının qərarı ilə qrup buraxıldı.

"Hnçaq"ın Bakı, Gəncə və Tiflisdəki şöbələri isə "Daşnaksutyun"la rəqabətə dözməyərək, ermənilər arasında nüfuzlarını xeyli dərəcədə itirsələr də, fəaliyyətlərini davam etdirirdilər. Kütlələr içərisində nüfuz qazanmaq uğrunda "Hnçaq"la "Daşnaksutyun" arasında həmişə mübarizə getmişdir. Yelizavetpol və İrəvan quberniyalarında isə bu mübarizə iki erməni millətçi partiyası arasında bütöv kəndlərin əldən-ələ keçməsi ilə nəticələnən silahlı toqquşmalara gətirib çıxarırdı. Lakin istər Cənubi Qafqazda, istərsə də Türkiyədə "müsəlman təhlükəsi" yarandıqda, "hnçaq"çılar, bir qayda olaraq, "özünümüdafiə" məqsədilə daşnaklarla eyni cəbhədən çıxış edirdilər. Ermənilərin böyük ümidlər bəslədiyi 1908 il Gənc türklər inqilabı zamanı "Hnçaq" Türkiyə hökumətinə daha loyal münasibət göstərməyə başladı, hətta partiyanın İstanbulda keçirilən 5-ci qurultayında qəbul olunmuş proqramında parlament fəaliyyəti və təbliğatı əsas mübarizə metodu elan edildi. 1910 ildə "Hnçaq" yenidən iki fraksiyaya - liberal xətt tərəfdarı olan "Türkiyə ermənilərinin Hnçaq partiyası"na və ənənəvi ekstremist-terrorçu mübarizə yolu seçmiş "Yeniləşmiş Hnçaq" fraksiyalarına parçalandı. "Yeniləşmiş Hnçaq" 1913 ildə İstanbulda keçirilən qurultayında Ermənistanın muxtariyyətinin yenə də partiyanın başlıca məqsədi elan olunmuş proqramını qəbul etdi və onun həyata keçirilməsi üçün gizli mübarizə metodlarını seçdi. Fəhlələri çaş-baş salan aramsız partiyadaxili parçalanmalar nəticəsində "Hnçaq"ın Cənubi Qafqaz, o cümlədən Bakı erməniləri arasında nüfuzu xeyli zəiflədi, onların bir hissəsi RSDF(b)P-yə qoşuldu, digər qismi isə daha mütəşəkkil olan daşnakların tərəfinə keçdi.

Birinci dünya müharibəsi (1914-18) dövründə "hnçaq"-çılar daşnakların Rusiya ordusu tərəfində Türkiyəyə qarşı vuruşan silahlı dəstələrinin yaradılması ideyasının əleyhinə çıxdılar. 1915 il hadisələrindən sonra "Hnçaq" artıq öz xalqını dəhşətli bəlalara düçar etmiş daşnakların ağılsız və bəsirətsiz siyasətini pisləyən erməni partiyalarının ("hnçaq"çılar, ramkavarlar, klerikallar, tərəqqiçilər) sırasında idi. Bütün bu partiyalar 1916 ilin mayında Petroqradda konfrans çağıraraq, birinciliyi daşnakların əlindən almaq və ermənilərin yeganə təmsilçisi olmaq məqsədilə "Müharibə qurbanlarına yardım göstərən təşkilatların mərkəzi erməni komitəsinin" yaradıldığını elan etdilər. Lakin onların bu niyyəti nəticəsiz qaldı. Çünki Rusiyanın hakimiyyət dairələri komitəni dəstəkləmədilər. Bundan sonra liberal yönlü ümumerməni partiyası yaratmaq üçün göstərilən digər cəhdlər də uğur qazanmadı.

"Yeniləşmiş Hnçaq" 1916 ildə yaranmış şəraitdə yeni proqram - nizamnamə qəbul etdi. Muxtariyyət haqqında bütün tələblər bu sənəddən çıxarıldı, Türkiyə Ermənistanı Osmanlı dövlətinin ayrılmaz tərkib hissəsi sayıldı. Proqramda silahlı erməni hərbi birləşmələri qadağan olunur və göstərilirdi ki, ermənilərin hamısı nizami qoşunlarda hərbi xidmət keçməlidirlər. "Hnçaq" partiyası bunun əvəzində ermənilərin 1915 ilə qədər yaşadıqları torpaqların qaytarılmasına və dövlətdən müavinət alınmasına ümid bəsləyirdilər.

Fevral inqilabından (1917) sonra "hnçaq"çıların bir hissəsi martda Bakıda yaradılmış Erməni Milli Şurasına daxil oldu. Lakin Erməni Milli Şurası əvvəlcə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunmaqdan imtina etdi, Parlamenti boykot etmək xətti yeritdi. Parlamentə qatıldıqdan sonra isə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı pozuculuq işi apardı və işğalçı sovet-bolşevik Rusiyasının mövqeyini müdafiə etdi. Elə həmin vaxtlar, çox keçmədən, "Hnçaq"ın Azərbaycanda fəaliy-əti, praktik olaraq, dayandı.

*Əd.:*Azərbaycan tarixi.7 cilddə. c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Наджафов Б., Лицо врага. История армянского национализма в Закавказье в XIX нацале – XX вв., кн. 1, Б., 1993; Мамедова Л., Февраль 1917: Новая фаза подьема политического экстремизма в Азербайджане, Б., 1995; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997; Шавров Н.Н., Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, Б., 1990.

**HÖKUMƏT QƏZETİNİN NƏŞRİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il iyunun 25-də qəbul etdiyi qərar. Qərarda xalq maarifi nazirinə qəzetin smetasını tutaraq Hökumətin təsdiqinə vermək və qəzetin nəşri üçün Gəncədə mətbəə hazırlamaq tapşırıldı. Böyük çətinliklərə baxmayaraq, belə bir mətbu orqanın yaradılması üçün Cümhuriyyət Hökuməti həmin qərara əsasən, cidd-cəhdlər göstərir və nəticədə, 1918 il sentyabrın əvvəllərində Gəncədə "Azərbaycan" adlı Hökumət qəzetinin nəşri haqqında qərar qəbul edir. Həmin qərara əsasən, "Azərbaycan" qəzetinin ilk nömrəsi 1918 il sentyabrın 15-də Gəncədə çap olundu. Qəzetin Gəncədə cəmi dörd nömrəsi nəşr edilmişdir.

**"HÜMMƏT"** - Azərbaycanda ilk milli sosial-demokrat təşkilatı. 1904 ilin oktyabrında fəaliyyətə başlamışdı. Təşkilat bir qrup azərbaycanlı demokrat ziyalının təşəbbüsü ilə yaradılmışdı. Onların arasında Sultanməcid *Əfəndiyev*, Əhməd bəy *Ağayev*, Məhəmməd Əmin *Rəsulzadə*, Məşədi bəy *Əzizbəyov*, Mir Əsədulla Mirqasımov, Məmmədəli Rəsulzadə (Rəsuloğlu), İsa bəy Aşurbəyov, Qara bəy Qarabəyov, Məmmədbağır Axundov, Məmməd Həsən Hacınski, Mir Həsən Mövsümov və başqaları var idi. "Hümmət" formal olaraq *Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFF) Bakı Komitəsinin* şöbəsi kimi yaransa da, əslində, müstəqil fəaliyyət göstərirdi. S.M.Əfəndiyevin sözlərinə görə, ***"bu qrupun müstəqilliyini müsəlman fəhlələri ilə işin xüsusiyyətləri şərtləndirirdi. Təşkilatın məhz bu formada fəaliyyət göstərməsi çox uğurlu idi, çünki bizim işimizdə elə məqamlar var idi ki, "Hümmət" müstəqil şəkildə çıxış etməyə məcbur idi".***

Bəzi mənbələrə əsasən, hələ 1903 ildə M.Ə.Rəsulzadə və onun həmfikirləri tərəfindən tələbə gənclərdən ibarət olan və sonradan "Hümmət"in əsasını təşkil edən "Azərbaycanın gənc inqilabçıları dərnəyi" yaranmışdı.



*"Hümmət"in yaradıcılarından Məşədi bəy Əzizbəyov, Əjdər Məlikov, Əsədulla Axundov və Məhəmməd Əmin Rəsulzadə*

"Hümmət" vərəqələrində çox vaxt özünü partiya adlandırırdı. Bolşeviklərin proqramındakı millətlərin öz müqəddəratını təyinetmə prinsipinin cəlbediciliyi və ümumiyyətlə, sosial-demokratiyanın mövcud hakimiyyətə müxalifliyi öz xalqını milli əsarətdən qurtarmaq ümidi ilə yaşayan ziyalıları onun sıralarına cəlb edirdi. M.Ə.Rəsulzadənin dediyi kimi, "bu cavan nəsil müxalif sosializmdə

çarizmə qarşı ən sadiq olmasa da, ən əlverişli müttəfiqini görürdü".

RSDFP Bakı Komitəsinin "Hümmət"in iclaslarında təmsilçisi P.A.Caparidze, "Hümmət"in isə RSDFP-də təmsilçisi S.M.Əfəndiyev idi. "Hümmət"in RSDFP Bakı Komitəsi və "Balaxanı və Bibiheybət fəhlələrinin ittifaqı" təşkilatı ilə birlikdə təşkil etdiyi ilk siyasi aksiyalardan biri 1904 ilin dekabr tətili olmuşdu. Bu tətil, Rusiyada ilk dəfə olaraq, fəhlələrlə mədən-zavod sahibləri arasında kollektiv müqavilənin ("Mazut konstitusiyası"nın) imzalanması ilə nəticələndi.

1905 ilin fevral və avqust aylarında erməni-daşnakların azərbaycanlılara qarşı törətdikləri soyqırımları zamanı "Hümmət" əhalinin sakitləşdirilməsində və qırğınların qarşısının alınmasında böyük rol oynadı. 1905 ilin fevralınadək çıxan "Hümmət" qəzeti 6-cı nömrəsindən sonra "zərərli istiqamətinə görə" bağlandı. M.Ə.Rəsulzadənin sözlərinə görə, bu qəzet partiya orqanı olan ilk türk qəzeti idi.

1905 ildə İran inqilabının başlanması ilə əlaqədar "Hümmət"in fəaliyyəti xüsusilə genişləndi. Cənubi Azərbaycanın azad edilməsinə olan ümidlərini İran inqilabının qələbəsinə bağlayan "hümmət"çilərin, demək olar, hamısı bu inqilabda iştirak etdilər.

"Hümmət"in fəaliyyətində Azərbaycan dilində qəzetlərin nəşri əhəmiyyətli yer tuturdu. 1906-07 illərdə təşkilat "Dəvət-Qoç", "Təkamül" və "Yoldaş" qəzetlərini buraxırdı. Onların böyük hissəsi milli maariflənmənin ənənəvi problemlərinə, zəhmətkeşlərin ağır şəraitinə və ayrı-ayrı hallarda cahil ruhanilərin tənqidinə həsr olunmuşdu.

1907 ilin iyununda üzvlərinin əksəriyyətinin həbs edilməsi nəticəsində təşkilat xeyli zəiflədi. "Hümmət"in Bakı şöbəsinin həmin dövrdəki fəaliyyəti barədə son məlumatlar 1910 ilə aiddir, bundan sonra isə təşkilat 1917 ilə kimi, demək olar, fəaliyyət göstərməmişdir.

1907 il repressiyalarından sonra "Hümmət"in Bakıdakı fəaliyyəti məhdudlaşsa da, şəhərdən kənarda apardığı iş davam etməkdə idi. Təşkilatın şöbələri Gəncədə (Yelizavetpol), Şuşada, Naxçıvanda, Culfada fəaliyyət göstərirdi. Lakin onların arasında həm üzvlərinin sayına, həm də siyasi fəallığına görə ən əhəmiyyətlisi "Hümmət"in 1905 ildə yaranmış Tiflis şöbəsi idi (bax "Müsəlman *sosial-demokrat (menşevik)* Hümmət *partiyası").*

"Hümmət"in Tiflis təşkilatı yerli sosial-demokratlarla İran inqilabçılarını Bakı təşkilatına nisbətən daha çox birləşdirirdi. Tiflisdə "İctimaiyyun-amiyyun" və ya "Mücahid" partiyasının şöbələri də fəaliyyət göstərirdi. 1906 ildə Bakıda və Tiflisdə İran inqilabçılarına yardım komitələri yaradılmışdı. Bakı komitəsinə M.Ə.Əzizbəyov, Tiflis komitəsinə isə Nəriman Nərimanov rəhbərlik edirdi. İran inqilabçılarına yardım göstərilməsi 1909 il Təbriz üsyanı zamanı daha da gücləndi. Təbriz üsyançılarına köməyə gedən və əksəriyyəti azərbaycanlılardan ibarət olan Cənubi Qafqaz könüllülərinin sayı 800 nəfərə çatırdı. Onlardan 50 nəfəri Təbrizin müdafiəsi zamanı həlak olmuşdu. 1911 ilin dekabrında inqilab yatırıldıqdan sonra Təbrizdə və Rəştdə hərbi-səhra məhkəmələri təşkil edilmişdi. 200-dək könüllü yayına bilsə də, çoxları həbs olunmuşdu. O zaman İranda olan M.Ə.Rəsulzadə və Seyid Həsən Tağızadə

təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə getməyə məcbur olmuşdular.

İranda, eləcə də Rusiyada "hümmət"çilərin təqib edilməsi, həbs və sürgün olunması Tiflis "Hümmət"inə və onun Azərbaycanın müxtəlif bölgə və şəhərlərindəki şöbələrinə ağır zərbə vurdu. Tiflis təşkilatının Bakı "Hümmət"indən daha uzun müddət mövcud olmasına baxmayaraq, 1911 ildən sonra onun fəaliyyəti barədə də məlumat, demək olar ki, yoxdur. Bu təşkilat yalnız 1917 ilin martından bərpa olundu.

1917 ilin martında, Rusiyada Fevral inqilabından bir neçə gün sonra, "Hümmət"in bir çox keçmiş üzvü təcili olaraq konfrans keçirib, təşkilatn RSDF(b)P-nin Bakı Komitəsi ilə birləşməsi məsələsini müzakirə etdilər. Lakin təşkilatın öz ənənələri olduğu və müsəlman kütlələrinin psixologiyası nəzərə alınaraq, səs çoxluğu ilə, partiyanın RSDF(b)P ilə birləşməməsi və "Hümmət" adının saxlanılması qərara alındı. Təşkilatın müvəqqəti komitəsi yaradıldı. 1917 il iyunun 16-da, N.Nərimanov başda olmaqla, "Hümmət"in daimi şəhər komitəsi seçildi. Komitəyə 14 üzv, o cümlədən Sultanməcid Əfəndiyev, Həmid Sultanov, Əsədulla Axundov, Məşədi Əzizbəyov, Ağababa Yusifzadə, Bünyad Sərdarov, Möhsün İsrafilbəyov (Qədirli), Tağı Şahbazi daxil idi. Bolşeviklərin proqramını təşkilatın əsas proqramı kimi qəbul etmək qərara alındı. İyulun 3-dən N.Nərimanovun redaktorluğu ilə "Hümmət" adlı qəzet çap olunmağa başladı. Bakının Binəqədi, Suraxanı, Sabunçu rayonlarında, Gəncə, Lənkəran, Şamaxı və Naxçıvanda təşkilatın şöbələri yaradılmışdı. İyulun sonlarında isə Azərbaycan xalqının milli oyanışı və təşkilatlanmasından ehtiyat edən Bakı bolşeviklərinin təzyiqi nəticəsində "Hümmət" təşkilatında parçalanma baş verdi. Sol qanadı təşkil edən "hümmət"çilər bolşeviklərlə sıx əlaqədə işləyirdilər, sağ qanad isə menşevikyönlü "hümmət"çilərdən ibarət idi. Onlar sosial-demokrat menşevik Tiflis "Hümmət"i ilə və onun liderləri olan İbrahim Əbilov, Səməd ağa Ağamalıoğlu, Əhməd Pepinov və b. ilə əməkdaşlıq edirdilər. Tiflis hümmətçiləri 1918 ilin ikinci yarısında Bakıya köçdükdən sonra Azərbaycan Parlamentinin sosialist fraksiyasını təşkil etmişdilər.

1918 ilin aprel ayında Bakıda "Hümmət"in hər iki qanadının gərgin polemika şəraitində konfransı keçirildi. Əsas mübahisə mövzusu Hökumətə və Parlamentə münasibət idi. Mübahisələrə baxmayaraq, konfrans "Hümmət" təşkilatının 11 nəfərdən ibarət vahid Mərkəzi Komitəsini seçdi (onların 7-si - Mirzə Davud Hüseynov, Əliheydər Qarayev və b. "Hümmət"in sol qanadını təmsil edirdilər). Lakin 1919 ilin yayında bolşeviklərin Bakı komitəsinin "Hümmət"i Rusiya Kommunist (bolşeviklər) Partiyasına (RK(b)P) birləşdirmək niyyəti məlum olduqdan sonra menşevik "hümmət"çilər təşkilatdan çıxdılar. Bolşevik "hümmət"çilər R.Axundovun rəhbərlik etdiyi azərbaycanlı sol eserlərlə birləşməyə də meyl göstərirdilər. Lakin bu cəhdlər uğursuzluqla nəticələndi. Bolşevik "hümmət"çilər RK(b)P-nin Qafqaz Diyar Komitəsinin və RK(b)P Bakı Komitəsinin təşəbbüsü ilə Azərbaycan Kommunist *Partiyasının* yaradılması məsələsini dəstəklədilər. 1919 ilin yayından etibarən bu istiqamətdə fəal iş aparıldı. 1920 il fevralın 8-də bolşevik "Hümmət"in, "Ədalət" partiyasının və RK(b)P Bakı Komitəsinin birgə iclasında Azərbaycan kommunist təşkilatlarının təsis qurultayının keçirilməsi haqqında qərar qəbul olundu. Azərbaycan kommunist təşkilatlarının (RK(b)P Bakı Komitəsi, "Hümmət", "Ədalət") fevralın 11-12-də keçirilən 1-ci qurultayında bu təşkilatlar birləşərək, M.D.Hüseynovun sədrliyi ilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) yaradılması haqqında qərar qəbul etdilər. Bu vaxtdan etibarən bolşevik "Hümmət"in müstəqil fəaliyyətinə son qoyuldu. Parlamentdə yalnız S.Ağamalıoğlunun rəhbərlik etdiyi menşevik "Hümmət" fraksiyası fəaliyyət göstərirdi.

AK(b)P 1920 il aprelin əvvəlindən etibarən RK(b)P Qafqaz Diyar Komitəsi ilə birgə Bakının 11-ci Qırmızı ordu tərəfindən işğalı və kommunist çevrilişi planını hazırlamağa başladılar. Aprelin 27-də, Bakının işğalçı sovet qoşunları tərəfindən mühasirəyə alındığı şəraitdə, Həmid Sultanov AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyətin N.Nərimanovun rəhbərliyi ilə sovet fəhlə-kəndli hökumətinə təhvil verilməsi haqqında ultimatum təqdim etdi. Parlament buraxılandan dərhal sonra, aprelin 28-də, N.Nərimanovun sədrliyi ilə, M.D.Hüseynov, D.Bünyadzadə, A.Əlimov, Ə.Qarayev, H.Sultanov və Q.Musabəyovun daxil olduğu Azərbaycan Müvəqqəti İnqilab Komitəsi (AMİK) yaradıldı. AMİK-in tərkibinin "hümmət"çi bolşeviklərdən ibarət olması təsadüfi deyildi. Yerli azərbaycanlı kommunist-bolşeviklərdən təşkil olunan bu hakimiyyət qurumu Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsini pərdələmək və xalqda yeni hakimiyyətə rəğbət oyatmaq məqsədilə yaradılmışdı.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.2, 3, B., 1964; 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, B., 1964; Rəsulzadə M.Ə., Əsərləri, c.l, B., 1992; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997; Очерки истории Коммунистической партии Азербайджана, т. 1, Баку, 1985; Отчет сенатора Кузминского, проделанный в Баку и Бакинской губернии в 19058 г., Баку, 1906.

**"HÜMMƏT"** - Azərbaycan dilində ilk qeyri-leqal qəzet, sosial-demokrat "Hümmət" təşkilatının orqanı. 1904 ilin sonlarından 1905 ilin fevralına qədər Bakıda nəşr olunmuşdur. Cəmi 6 nömrəsi çıxmışdır. "Hümmət"in səhifələrində inqilabi ideyalar yayılırdı. Qəzet 1905 il fevralın ortalarında "zərərli istiqamətinə görə" polis tərəfindən bağlandı, bəzi əməkdaşları isə həbs edildi. 1906 ilin dekabrında "hümmət"çilər "İrşad" mətbəəsində Mehdi bəy Hacınskinin adına 1907 ilin martına qədər çıxmış "Təkamül" qəzetinin buraxılmasına icazə ala bildilər. Elə həmin ilin avqustundan sentyabrınadək "hümmət"çilər "Yoldaş" qəzetini nəşr etdirdilər. Bu qəzetlər, əslində, "Hümmət"in varisi və ideya davamçıları idi. Məhəmməd Əmin Rəsulzadə, Sultanməcid Əfəndiyev, Məmməd Həsən Hacınski, Məşədi Əzizbəyov və başqaları qəzetin səhifələrində müntəzəm olaraq çıxış edirdilər. M.Ə.Rəsulzadə və M.Hacınski öz məqalələrində milli vəhdətə, xalqın öz müqəddəratını təyin etmək hüququ uğrunda mübarizəyə, müsəlman xalqlarının birliyinə çağırışa üstünlük verirdilər.

Qəzet 1917 il iyulun 3-də "Hümmət" təşkilatının orqanı kimi yenidən nəşrə başladı. Ancaq bu zaman M.Ə.Rəsulzadənin başçılıq etdiyi bir qrup ziyalı artıq "Hümmət" təşkilatından uzaqlaşmışdılar.

Bu zaman "Hümmət"in redaktoru Nəriman Nərimanov idi. Redaksiya heyətinə müxtəlif vaxtlarda Dadaş Bünyadzadə, Sultanməcid Əfəndiyev, Həmid Sultanov, Tağı Şahbazi və b. daxil olmuşlar. Yeni nəşrin sonuncu - 113-cü nömrəsi (ilk 35 sayı həftəlik, 36-43-cü sayları günaşırı, sonrakı sayları isə gündəlik) 1918 il iyulun 30-da çıxmışdır.

"Hümmət"in səhifələrində, əsasən, fəhlələri sosialist inqilabına səsləyən məqalələr dərc edilirdi. Bakıda sovet hakimiyyəti qurulduqdan sonra qəzet daşnak-bolşeviklərin rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin tədbirlərini işıqlandırmışdır. 1918 il iyulun 31-də Bakı Xalq Komissarları Sovetinin ("Bakı kommunası") süqut etməsi ilə "Hümmət"in nəşri dayandırıldı. Qəzet 1919 ilin mayından 1920 ilin mayına qədər Həştərxanda çap olunmuşdur. Bu müddət ərzində "Hümmət"in cəmi 44 nömrəsi çıxmışdır. Həştərxan nəşrinin redaktorları müxtəlif vaxtlarda Dadaş Bünyadzadə, Məmməd Səid Ordubadi olmuşlar.

*Əd:.* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Siyasi tarix, c.l., B., 1995.

**"HÜMMƏT" FRAKSİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Hümmət" (menşevik) partiyasını təmsil edən fraksiya. Fraksiyaya Səməd ağa Ağamalıoğlu başçılıq edirdi. "Hümmət" (menşevik) partiyasını Parlamentdə 5 deputat təmsil edirdi (bax Azərbaycan *Xalq* Cümhuriyyəti Parlamenti). Fraksiyanın üzvü Əkbər ağa Şeyxülislamov Paris sülh konfransında iştirak edən nümayəndə heyətinə daxil edilmişdi. "Hümmət" fraksiyasının üzvləri Parlamentin maliyyə-büdcə, təsərrüfat, aqrar, sorğu komissiyalarının tərkibinə daxil edilmişdilər. Fraksiyanın üzvü Qasım bəy Camalbəyov Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi komissiyanın üzvü idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti açılarkən, "Hümmət" fraksiyası tərəfindən Ə.Şeyxülislamov çıxış edərək, Parlament üzvlərini partiyanın bəyannaməsi ilə tanış etmişdi. Bəyannamədə fəhlə hüququ, qadın azadlığı, torpaq məsələsi kəskin şəkildə qoyulurdu. Fraksiya Hökumət qarşısında konkret tələblər irəli sürürdü. Fraksiya rəhbəri Səməd ağa Ağamalıoğlunun başçılıq etdiyi aqrar komissiyanın yaradılması da təsadüfi deyildi. Belə ki, kəndlilərin ağır vəziyyəti Parlamenti xüsusi komissiya yaratmağa məcbur etdi. Lakin aqrar komissiyanın işləri başa çatmadı, aqrar qanun layihələrinin heç biri qanun statusu almadı və bununla, Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün zəruri olan ən mühüm məsələlərdən biri həll olunmamış qaldı. "Hümmət" partiyasından olan deputatlar da sosialistlər fraksiyası tərkibində Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyətinə münasibətdə kəskin müxalifətdə olmuş və Şimali Azərbaycanın yenidən Rusiyanın tərkibinə qatılmasında fəal rol oynamışlar.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**HÜSEYN CAVİD,** Hüseyn Abdulla oğlu Rasizadə (24.10.1882, Naxçıvan- 5.12.1941, Rusiya, İrkutsk vilayətinin Tayşet rayonu, Şevçenko kəndi) - şair, dramaturq, maarif xadimi. Tanınmış ruhani ailəsində doğulmuşdur. İlk təhsilini Naxçıvanda moilaxanada (1891-95) sonra isə Məhəmmədtağı Sidqinin məktəbində almışdır (1895-98). Klassik üslubda ilk şerlərini də “Gülçin” və "Salik" imzaları ilə burada yazmışdır. 1899-1903 illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmişdir (1909). Təsəvvüf fəlsəfəsini, Şərq-Qərb ədəbiyyatı və tarixini, ərəb, fars və türk dillərini öyrənmişdir. Təbrizdə ticarətlə məşğul olmuş, universiteti bitirdikdən sonra Naxçıvanda açdığı xüsusi məktəbdə, Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin altısinifli məktəbində, Gəncədə "Məktəbi-ruhaniyyə"də müəllim işləmişdir.



İlk yazıları 20 əsrin əvvəllərində "Şərqi-Rus" və "İrşad" qəzetlərində, "Füyuzat" jurnalında çap olunan Hüseyn Cavid əsrin 10-cu illərindən etibarən "Həqiqət", "Məktəb", "İqbal", "Yeni İqbal" və s. qəzet və jurnallarda lirik-romantik şeirlərini,"Zavallı qadın" ("Maral") faciəsini, "Naxçıvanda nələr gördüm", "Naxçıvana nə lazım", "Həsbi-hal", "Nakamlıq", "Mirzə Abdulla Məhəmmədzadə" məqalələrini dərc etdirmişdir. 1913 ildə "Ana" faciəsi, "Keçmiş günlər" şeirlər toplusu nəşr olunmuşdur.

Hüseyn Cavid sənəti bədii növ, janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik poemalarını, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. Yaradıcılığının ilk dövrlərində ictimai-siyasi lirikaya daha çox diqqət vermişdir. "Öksüz Ənvər", "Çoban türküsü", "Kiçik sərsəri", "Dün və bugün", "Qadın", "Görmədim", "Vərəmli qız" və s. şerilərində sosial ədalətsizliyin hökm sürdüyü cəmiyyətdə əməkçi insanların faciəli həyatı təsvir edilir. "Məsud və Şəfiqə" şerində Bakı neft mədənlərində çalışan fəhlələrin dözülməz vəziyyəti sahibkarları tüfeyli, firavan həyatı ilə qarşılaşdırılır. "Sən nəsin, kimsin deyən ariflərə" (1912) poemasında şair insanlara işıqlı həyat, azad gələcək yolu arayırdı. "Məzlumlar üçün" (1914), "Hər ilahı qarşısında" (1917) şeirlərində imperialist müharibələrinə nifrət əksini tapmışdır.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdı Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı manerası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli *teatr* mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. Mənzum "Ana" (1910) pyesində nəciblik, sədaqət, mərdlik kimi keyfiyyətlərin yalnız sadə insanlarda olduğu göstərilir. "Maral" (1912) faciəsində şəxsiyyət və qadın azadlığı məsələsi qaldırılır, ailə münasibətlərində mürtəce əxlaqi görüşləri tənqid edilir. Azərbaycan ədəbiyyatında ilk məzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir- birindən ayıran dini və milli təəssübkeşlik əleyhinə üsyankar etiraz ruhu hakimdir.



Hüseyn Cavidin cənazəsi Bakıdan Naxçıvana yola salınmazdan əvvəl vida mərasimi. 1982

1915 ildən Bakıda yaşamış, Məhəmməd Əmin Rəsulzadə və Seyid Hüseynin rəhbərlik etdiyi "Səfa" xeyriyyə cəmiyyətinin eyni adlı məktəbində müəllimlik, "Açıq söz" qəzetində əməkdaşlıq etmişdir. Burada "Şeyx Sənan" faciəsindən parçalar çap etdirmiş, "Qardaş köməyi" jurnalının redaksiya heyətinin, "Mühərrirlər və ədiblər cəmiyyəti"nin üzvü seçilmişdir. Hüseyn Cavid bu dövrdə tədriclə "Haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdı. Həmin ideya "Şeyda" (1917) dramında, "Haqqını sən mübarizə ilə ala bilərsən" (1918) poemasında daha bariz ifadəsini tapmışdır. "Şeyda"da Hüseyn Cavid yalnız ideya və mənəviyyatlardakı ziddiyyəti deyil, real sosial ziddiyyətləri də göstərir, "füqərayi-kasibə"ni, "qabarlı əllər"i istismarçılarla mübarizəyə çağırırdı. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) faciəsində dövrün bütün mürtəce qüvvələri -"insan insanın canavarıdır" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan imperialist dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. Hüseyn Cavid 1918 ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri mart soyqırımının bütün dəhşətlərinin şahidi olmuş, bir müddət Bakıdan uzaqlaşaraq, Naxçıvanda yaşamış, "Rüşdiyyə" məktəbində müəllim işləmiş, Araz Türk Cümhuriyyətinin təşkilində iştirak etmişdir. Araz Türk Cümhuriyyəti hökumətinin Azərbaycan Xalq Cümhuriyyətinə ezam etdiyi geniş səlahiyyətli nümayəndə heyətinin tərkibində Hüseyn Cavid də var idi. 1919 ilin əvvəllərində Bakıya dönərək, Azərbaycan Xalq Cümhuriyyətinin maarif, təhsil işlərində fəal çalışmışdır. Birinci realnı məktəbdə təşkil edilmiş "türk sinfi"ndə, Bakı darülmüəlliminində müəllim işləmiş, "Bakı və ətraf rayonlarının müəllimlər ittifaqı" idarə heyətinin üzvü seçilmiş, "Yaşıl qələm" ədəbi birliyinə daxil olmuşdur. 1919 ildə Abdulla Şaiqlə birgə ədəbiyyat nəzəriyyəsinə dair "Qəvaidi-ədəbiyyat" ("Ədəbiyyat dərsləri") adlı dərslik nəşr etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cavidin yaradıcılığı məktəb proqramlarına daxil edilmiş, Rüşdi və Edadi məktəblərin 3-cü və 4-cü siniflərində tədrisi nəzərdə tutulmuşdu. Abdulla Şaiq "Türk çələngi" (1919) dərsliyinə Cavidin tərcümeyi-halını, "Bakıda" ("Məsud və Şəfiqə"), "Kiçik sərsəri", "Öksüz Ənvər", "İlk bahar", "Qız məktəbində", "Çiçək sevgisi" şeirlərini də daxil etmişdi.

Mürtəce qüvvələrlə azadlıq, bərabərlik, sülh, beynəlmiləlçilik, maarif və mədəniyyət dostlarının toqquşması Hüseyn Cavidin 1920 ilədək yazdığı əsərlərin başlıca konflikt məqamları idi. Bu əsərlərin bədii qayəsini bəşəriyyətin fəlakətinə ədalətsiz, istismarçı ictimai quruluşların səbəb olması fikri təşkil edir. Estetik ideallarına sadiq qalan Hüseyn Cavid bununla yanaşı, 20-30 illərdə dövrün nəbzi ilə səsləşən bir sıra əsərlər yaratmışdır. "Azər" dastanı (1920-37) bu əsərlər arasında xüsusi yer tutur. 1926 ildə müalicə üçün Almaniyaya gedən və bir müddət Berlində yaşayan Hüseyn Cavid vətənə Qərb dünyasının sosial-mənəvi ziddiyyətlərini əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıtdı. "Nil yavrusu" əsərində Hüseyn Cavid müstəmləkə zülmünü qəzəb və nifrətlə damğalayırdı. 20-30-cu illərdə Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922), "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi bir dönüş oldu. Şair bu əsərlərində




*Hüseyn Cavidin abidəsi. 1993. Bakı.* Heykəltəraş akademik Ömər Eldarov



Heydər Əliyev Hüseyn Cavidin məqbərəsini açarkən. 1996, 29 oktyabr

istibdada qarşı üsyan edən kütləni, üsyan başçılarını və Xəyyam kimi azadfikirli bir mütəfəkkiri baş qəhrəman seçmişdir. Faşizm və İkinci dünya müharibəsi təhlükəsinin artması 30-cu illərin əvvəllərində Hüseyn Cavidi narahat edən problemlər idi ("İblisin intiqamı" dramı, 1936). Cənubi Azərbaycandakı soydaşlarımızın "şahənşahlıq" üsuli-idarəsinin əsarəti altında əzab çəkməsi, ən adi insan hüquqlarından məhrum edilməsi də vətənpərvər şair kimi Hüseyn Cavidi düşündürürdü ("Telli saz" dramı, 1930; "Kor neyzən" poeması, 1930). Hüseyn Cavidin fəlsəfi, ictimai-siyasi görüşləri "ümumi məhəbbət" ideyasından yüksək humanizmə qədər böyük bir inkişaf yolu keçmişdir. Poeziyası yüksək bədii sənətkarlığı, dərin emosionallığı, səmimiyyəti ilə seçilir.

1937 ildə Stalinin "böyük terroru" başladıqda, Cavid ilk həbs edilənlər arasında oldu. Bir müddət Türkiyədə yaşadığından, onu Türkiyə casusluğunda, pantürkizm və panturanizmdə ittiham etdilər. Sovet cəza maşınının bütün dəhşətlərini yaşasa da, Cavid ona qarşı irəli sürülən ittihamların heç birini qəbul etmədi. Günahsız şairə 8 il həbs cəzası kəsildi və 1938 ildə cəzasını çəkmək üçün Maqadana, 1940 ildə isə İrkutsk vilayətinə sürgün edildi. Ağır işgəncələrə, sərt və amansız həbsxana həyatına dözməyən həssas, incə ruhlu şair orada da vəfat etdi.

Hüseyn Cavidin məqbərəsi. 1996. Naxçıvan şəhəri.
Memarı akad. Ömər Eldarov



Saxta ittihamlarla həbs edilmiş Hüseyn Cavidə Azərbaycan SSR Ali Məhkəməsinin 1956 il 6 mart tarixli qərarı ilə ölümündən sonra bəraət verilmişdir.

Anadan olmasının 100, 110 və 120 illik yubileyləri geniş qeyd olunmuşdur. Naxçıvanda və Bakıda ev-muzeyləri yaradılmış, Bakıda, vaxtilə yaşadığı binaya (indiki Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstimtunun binası) üzərində şairin barelyefi olan xatirə lövhəsi vurulmuşdur. 100 illik yubileyi ərəfəsində cənazəsi Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin təşəbbüsü ilə İrkutsk vilayətindən Naxçıvana gətirilmiş, buradakı ev-muzeyinin yaxınlığında dəfn edilmiş, qəbri üzərində möhtəşəm məqbərə ucaldılmışdır (1996). 1982 ildə Naxçıvanda "Hüseyn Cavid poeziya teatrı" açılmışdır. Adına Bakıda, Naxçıvanda və respublikanın digər şəhər və rayonlarında küçə, bağ, məktəb, kitabxana, kinoteatr və s. mədəni-maarif müəssisələri var. Bakıda əzəmətli abidəsi ucaldılmışdır.

Əsərləri: Seçilmiş əsərləri, B., 1958; Pyeslər, B., 1963; Seçilmiş əsərləri, c.1-3, B., 1968-71; Dram əsərləri, B., 1975; Seçilmiş əsərləri, 4 cilddə, B., 1982-84; Əsərləri, 3 cilddə, B., 2003; Женщина Востока, Стихи и пьесы, Б., 1982; Пьесы, кн. 1-2, Б., 1982-1983.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c.2, B., 1960; Məmməd Cəfər, Hüseyn Cavid, B., 1960; yenə onun, Azərbaycan ədəbiyyatINda romantizm, B., 1963; Cəfərov C,, Azərbaycan dram teatrı, B., 1974; Cavid M., Cavidi xatırlarkən, B., 1976; Məmmədli Q., Cavid ömrü boyu, B., 1982; Hüseynov R., Cavidlər, onun "Vaxdan uca" kitabında, B,, 1987; Məmmədov M,, Acı fəryadlar, şirin arzular, B,, 1983; Xəlilov S,, Cavid fəlsəfəsi, B,, 1996; Ənvər Uzun, H.Cavid və Türkiyə ədəbiyyatı, B,, 1998.



**HÜSEYNOV** Əlihüseyn Ağahüseyn oğlu (1898,Salyan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusui qərarına (bax *Xarıcə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Lənkəran kişi gimnaziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Rostok Universitetinə (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**HÜSEYNOV** Rəhim Məmmədcəfər oğlu (1891, indiki Gədəbəy rayonunun Qarabulaq k. - 1938) - Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizənin iştirakçısı. 1905 ildən inqilabi hərəkata qoşulmuşdur. 1917 ilin martında Gəncə sovetinin üzvü seçilmiş, 1918 ilin mayında erməni daşnaklar tərəfindən soyqırımına məruz qalmış Azərbaycan xalqına kömək məqsədilə Gəncəyə gələn türk qoşunları əleyhinə gizli iş aparmışdır. 1918 ilin sonunda Bakıya gələrək, sol eserlərə (R.Axundov və b.) yaxınlaşmışdır. 1919 ilin əvvəllərində bolşevik partiyası sıralarına keçmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil dövlətə qarşı 1919 il may ümumi tətilinin hazırlanması və keçirilməsində iştirakına görə həbs olunmuşdu. Azad edildikdən sonra ordu içərisində, Gəncə və Qazax qəzaları kəndliləri arasında bolşevik Rusiyasının xeyrinə inqilabi təbliğat aparmışdır. RK(b)P Qafqaz Diyar Komitəsinin məsul təşkilatçısı və təşviqatçısı olmuş, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının 1-ci qurultayında (1920 il, fevral) iştirak etmişdi. Sovet hakimiyyəti illərində Azərbaycan, Cənubi Qafqaz və Ümumittifaq miqyasında müxtəlif partiya və dövlət vəzifələrində çalışmışdır. İnqilabi hərəkat tarixinə dair yazıları var.

Əsəri: Очерки революциооного движения в Азербайджане (1905 – 1907 гг.), вып. 1, Б., 1926.
*Əd.:* Активные борьцы за советскую власть в Азербайджане, Б., 1957.



**HÜSEYNOV** Salman Hüseyn oğlu (4.1.1901, İsfahan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* ilə dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflisdəki İ.M.Maçaidze gimnaziyasını bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Firtsburq İnstitutuna (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanh tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**HÜSEYNOV** Zeynalabdin Adil oğlu (1900, Bakı - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Lənkəran kişi gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı *Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.





**HÜSEYNZADƏ** Bəhram İsmayıl oğlu (4.3.1901, Salyan - ?, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Almaniyanın Darmştadt Ali Texniki Məktəbinə göndərilmişdi. Bəhram Hüseynzadə təhsilini başa vurduqdan sonra 1926 ildə Azərbaycana qayıtmış, Gəncə toxuculuq kombinatında elektrik təsərrüfatının rəisi işləmiş, Azərbaycan SSR Xalq Torpaq Komissarlığında "Azərkəndelektrik" bölməsinin rəhbəri olmuşdur. 1941 ildə repressiyaya məruz qalmış, 15 il azadlıqdan məhrum edilmişdir. 1956 ildə bəraət almışdır.

*Əd.* : Джафаров М.Ш., Политический террор и судьбы «азербайджанских немцев», Б., 1998.



**HÜSEYNZADƏ** Əli bəy Hüseyn bəy oğlu (24.2.1864, Salyan - 17.3.1940, İstanbul) - görkəmli ictimai xadim, pedaqoq, həkim, jurnalist, yazıçı publisist, rəssam, musiqişünas, tibb professoru. Ruhani müəllim ailəsində doğulmuşdur. Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadənin qız nəvəsidir. Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində altısinifli məktəbdə (1870-75), birinci şəhər gimnaziyasında (1875-85) oxumuş, Peterburq Universitetinin fizika-riyaziyyat (1885-89), İstanbul Universitetinin hərbi tibb fakültəsində (1890-95) ali təhsil almışdır. İstanbulda Heydərpaşa xəstəxanasında yüzbaşı rütbəsində dermatoloq (dəri xəstəlikləri) ixtisası üzrə həkim (1895-97) işləmişdir. 1897 ildə Türkiyə-Yunanıstan müharibəsi başlanarkən "Hilal-Əhmər" heyətində türk ordusu tərkibində Tesaliyaya ezam edilmiş, 3 il hərbi xidmətdə olmuşdur. 1900 ildə müsabiqə yolu ilə İstanbul Universitetinin dəri-zöhrəvi xəstəlikləri kafedrasında professor köməkçisi (dosent) vəzifəsinə seçilmişdir. Eyni zamanda, bədii və elmi yaradıcılıqla da məşğul olmuşdur. Abdulla Cövdətin nəşr etdiyi "Ramazan bağçası" məcmuəsində "Ə.H." kriptonimilə alman alimi F.Bodenştedttin Ömər Xəyyam haqqında əsərini və şairin bir neçə rübaisini, "Səlyani" imzası ilə "Məlumat" məcmuəsində, V.Hötenin "Faust" əsərindən parçalar, habelə tibbə dair "Sifilis", "Vəba və mikrobu" (Mehmed Rəfi bəylə birlikdə), "Ensiklopedik türk lüğəti" (Kamal Berksoyla birlikdə) əsərlərini



*Əli bəy Hüseynzadə və görkəmli Azərbaycan maarifçisi Mirzə Əbdürrəhim Talıbzadə*

dərc etdirmişdir. Hələ təhsil illərində Peterburqda tələbə siyasi dərnəklərində iştirak edən Əli bəy Hüseynzadə siyasi fəaliyyətini İstanbul Universitetində də davam etdirmiş, tələbə yoldaşları Abdulla Cövdət, İsak Sükuti, İbrahim Temo və b. ilə birlikdə Sultan Əbdülhəmid rejiminə qarşı məşhur "İttihad və tərəqqi" partiyasının əsasını qoymuşdur. Siyasi fəaliyyətinə görə sultan xəfiyyələri tərəfindən təqib edilən Əli bəy 1903 ilin əvvəlində Bakıya köçməyə məcbur olur. Xarici ölkədə təhsil aldığına görə Rusiya ərazisində həkim işləməsinə icazə verilmədiyindən Əli bəy Hüseynzadə jurnalistika sahəsində çalışmış, "Kaspi" və "Baku" qəzetlərində əməkdaşlıq etmişdir. Birinci rus inqilabı günlərində nəşrinə milyonçu Hacı Zeynalabdin Tağıyev tərəfindən icazə alınan və maliyyələşdirilən "Həyat" (1905-06) qəzetinin, *"Füyuzat"* (1906-07) jurnalının, 1-ci Dövlət duması buraxıldıqdan sonra Viborq bəyannaməsini imzaladığına görə həbs olunan Əlimərdan bəy Topçubaşovun əvəzinə "Kaspi" qəzetinin baş mühərriri olmuşdur.

Əli bəy Hüseynzadə jurnalistliklə bərabər, siyasi-ictimai fəaliyyətini də genişləndirmişdir. 1905 ilin aprelində "Ümumrusiya müsəlmanlarının ehtiyaclarına dair" qraf Vitteyə təqdim etmək üçün Peterburqa göndərilən Rusiyanın müsəlman liderlərindən ibarət 11 nəfərlik heyətdə təmsil olunmuş, Rusiya Müsəlman İttifaqının gizli şəkildə çağırılmış qurultaylarının işində iştirak etmişdir.

Birinci rus inqilabının təsiri ilə genişlənən xalq hərəkatı, məzlum xalqların ən adi hüquqlar uğrunda mübarizəyə qoşulması Əli bəy Hüseynzadə yaradıcılığının ictimai-siyasi yönünə və məzmununa qüvvətli təsir göstərdi. Şərq müstəbidlərinin, Avropa müstəmləkəçilərinin siyasi-inzibati və ideoloji təxribatları, bəy, xan, məmur zülmü, mövhumat və xurafatın təzyiqi altında müstəqilliyini, iqtisadi qüdrətini itirmiş türk-müsəlman xalqlarının dirçəlişi, azadlığı və hüquqları uğrunda mübarizə Əli bəy Hüseynzadənin ictimai, ədəbi-publisistik və elmi fəaliyyətinin əsas məqsədini təşkil edirdi. O, məramını bəyan edərək yazırdı: ***"Biz insanız. Məzlum olan sinifləri, zalım siniflərin təcavüzatından azad etməyə çalışacayız. Biz Qafqazlıyız. Qafqaz əhlinə və ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn müxtariyyət tələb ediniz. Biz müsəlmanız. Binaən-əleyh öz əqaidi-diniyyəmizə, hürriyyəti-vicdanımıza hər nə lazımsa, onu istəyiniz. Biz türküz. Dilimizin, lisanımızın tərəqqisinə mane olan hər növ sədlərin, divarların yıxılmasına, rəf olunmasına qeyrət ediniz,"*** ("Həyat" qəzeti, 2.6.1905).

Əli bəy Hüseynzadənin çoxşaxəli fəaliyyətinin təməlində turançılıq məfkurəsi dururdu. O, türk xalqlarının milli birliyi, müstəqil dövlətçilik fikrini, ilk dəfə, irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləyib hazırlayaraq, qüvvətli ideoloji hərəkata çevrilməsini təmin etmişdir. 1892 ildə ***"sizlərsiniz, ey qövmi-macar, bizlərə əxvan"*** misrası ilə başlanan şerilə türkçülük məramnaməsini elan edən Əli bəy Hüseynzadə 1905 il inqilabından sonra "Həyat" qəzetində, "Füyuzat" jurnalında dərc etdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?", "Türk dilinin vəzifeyi-mədəniyyəsi", "Məcnun və Leylayi-islam", "Yazımız, dilimiz", "İkinci il"imiz məqalələrində məqsəd və məramını geniş surətdə şərh etmişdir:

***Eylər dili Çin səddinədək hökmünü icra,***
***Bir ucudur Altay bu yerin, bir ucu səhra.***

misralarında türk dilinin yayıldığı geniş əraziləri göstərirdi. Əli bəy Hüseynzadə Turanın hüdudlarını nişan verərək yazırdı: ***"Tulən Mancuriyadan və Sibiriyanın əqsayi-şərq şimalında cərəyan edən Lena nəhri sahilindən başlayıb, Altay, Qaraqurum, Pamir, Hindiquş, Qafqaz, Krım dağlarından keçərək, Balkan dağlarının müntəhayi-qərbinə qədər, ərzən Ural dağlarının müntəhayi-şimalından Afrikanın səhrayi-Kəbirinə qədər olan yerlərdə sakin bulunan əhalinin ismi-əzimi türk dili ilə mütəkəllüm bulunurlar"*** ("Füyuzat" jurnalı, 1907, № 9).

"Məcnun və Leylayi-islam" məqaləsində beyni Türkiyədən, qəlbi Ərəbistandan, ciyərləri İrandan ibarət olan və xəstəliyə tutulan islam coğrafiyasını müalicə etmək və sağlam Turan imperiyası yaratmaq, orada müsəlman dövlətlərinin mövqeyini müəyyənləşdirmək məsələsi qoyulmuşdur.

Əli bəy Hüseynzadə yaradılmasını nəzərdə tutduğu milli cəmiyyət quruculuğunda müasir insan amilinə böyük əhəmiyyət verirdi. ***"Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli Avropa qiyafəli fədai"*** tərbiyə edib yetişdirmək ideyasını irəli sürürdü. Əli bəy Hüseynzadənin düşündüyü fədai "ata-babalarımızı "hakəmiyyat" deyə sandıqları sözlərə, "təriqi-nicat deyə tutduqları" yollara, "milli" deyə geydikləri libaslara qarşı cəsarətlə mübarizə aparmalı, "ingilis, amerikan kimi tizrəftar, yeni yaponlar kimi kutəhdamən" insanlardan ibarət cəmiyyət quruculuğuna nail olmalıdır. Əli bəyin fikirləri 20 əsrin 10-cu illərində milli dirçəliş uğrunda mü-



Əli bəy Hüseynzadə. *"Bibiheybət məscidinin görünüşü".*
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı

barizələrin qida mənbəyinə çevrilmiş, ***"türkləşmək, islamlaşmaq, müasirləşmək"*** şəklində siyasi şüara çevrilərək, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarında reallaşmışdır.

1907 ildə Sultan Əbdülhəmidin təzyiqi altında "Füyuzat" jurnalı bağlandıqdan sonra Əli bəy Hüseynzadə pedaqoji fəaliyyət göstərmiş, Bakıda "Səadət" məktəbinin müdiri olmuş, "Tərəqqi" və "Həqiqət" qəzetlərində çalışmış, məşhur "Siyasəti-fürusət" əsərini hissə-hissə nəşr etdirmişdir. Türkiyədə Sultan Əbdulhəmid taxtdan salındıqdan iki il sonra inqilabçı yoldaşları olan gənc türklərin dəvətilə 1910 ildə Türkiyəyə getmiş, İstanbul Universitetində professor vəzifəsində pedaqoji fəaliyyətini davam etmişdir. Türkiyənin siyasi, ictimai və mədəni həyatında yaxından iştirak etmiş, Əhməd Ağaoğlu, Yusif Akçura, Ziya Göyalp, Məhəmməd Əmin Rəsulzadə ilə "Türk ocağı" dərnəyində çalışmış, Birinci dünya müharibəsi (1914-18) illərində "Turan" heyətində Qərbi Avropanın bir neçə ölkəsinə gedərək, türkçülük təbliğatı aparmış, 1916 ildə Berlində "Türk qövmləri konqresi"ndə, 1917 ildə Stokholmda beynəlxalq sosialist konqresində, 1926 ildə Bakıda türkoloji qurultayda iştirak etmişdir.

1918 ildə Türkiyə hökumətinin tapşırığı ilə ***"Azərbaycanın yeni bir dövlət halında qurulması məsələsini oranın irəli gələnləri ilə birlikdə müzakirə"*** etmək üçün Əhməd Ağaoğlu ilə Qafqaza göndərilmiş, Gəncədə Nuru paşa ilə görüşmüşdür. Türkiyə Cümhuriyyətini alqışlamış, Mustafa Kamal paşa Atatürkə "Ona inan" adlı şeir həsr etmişdir.

Ə.Hüseynzadə geniş yaradıcılıq diapazonuna malik mütəfəkkir alim və yazıçıdır. O, müxtəlif sahələrdə çalışmış, tibbə, fəlsəfəyə, tarixə, siyasətə, sosiologiyaya, ədəbiyyatşünaslığa dair zəngin irs yaratmışdır. Bunlarla yanaşı, rəsm ("Bibiheybət məscidinin görünüşü" və s.) və musiqiyə dair əsərləri də vardır. Onun zəngin ədəbi-publisistik və elmi irsi Azərbaycan milli təfəkkürünün böyük nailiyyətidir. Əli bəy Hüseynzadə çoxsahəli fəaliyyəti ilə Azərbaycan ədəbi-elmi fikir tarixində M.F.Axundzadənin ardınca yeni mərhələnin başlanğıcını qoymuş, onun sayəsində "füyuzat"çılar adlı orijinal ədəbi-fəlsəfı məktəb yaranmışdır.

Əli bəy Hüseynzadə 19 əsrin sonu - 20 əsrin əvvəlində türk-müsəlman dünyasının yetirdiyi nadir siyasi və ədəbi simadır. O, ilk dəfə türkçülük ideyasını irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləyib hazırlamaqla turançılığın məfkurə hərəkatına çevrilməsinə nail olmuşdur.

Əsərləri: Siyasəti-fürusət, B., 1994; Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, B., 1996; Türklər kimdir və kimlərdən ibarətdir? B., 1997; Qərbin iki dastanında türk, B., 1998.

*Əd.:* Əbdi-qlaf və məhfəzə, "XX əsr Azərbaycan nəsri" kitabında (tərtib edəni X.Məmmədov), B., 1992; Məmmədov X., Əli bəy Hüseynzadə "Molla Nəsrəddin" haqqında, "Pedaqoji Universitetin xəbərləri" (humanitar elmlər seriyası), B., 1992, №1; yenə onun, Əli bəy Hüseynzadə və ədəbi proses, "Ədəbiyyat qəzeti", 26.3.1999; Bayramova O., Əli bəy Hüseynzadə və "Siyasəti-fürusət" əsəri, "Hüseynzadə Ə. Siyasəti-fürusət" kitabında, B., 1994; yenə onun, Ə.Hüseynzadənm həyatı və türkçülük fəaliyyəti, "Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işiqlar" kitabında, B., 1996; Qarayev Y., Əli bəyin irsi və varisləri, yenə orada, B., 1996; Xəndan R.Z., Unudulmuş dahi, B., 1994.

## CİLDƏ DAXİL EDİLMİŞ MƏQALƏLƏRİN MÜƏLLİFLƏRİ

Ramiz Abutalıbov
Ağamusa Axundov
Fəridə Aslanova
İslam Ağayev
Tofiq Bababyev
Azər Bağırov
İradə Bağırova
Xanlar Bayramov
Nizami Cəfərov
Mədinə Eldarova
Bədirxan Əhmədov
Firdovsiyyə Əhmədova
Səidə Əliqızı
Qabil Əliyev
Aybəniz Əliyeva
Altay Göyüşov
İsmayıl Hacıyev
İsa Həbibbəyli
Rövşən Hətəmov
Cəmil Həsənli
Tofiq Hüseynov
Lalə Hüseynova
Sara İbrahimova
Anar İsgəndərov
Maisə İsgəndərova
Xosrov Kərimov
Musa Qaasımlı
Seyfəddin Qəndilov
Nazif Qəhrəmanov
Yaqub Mahmudov
Nigar Maksvell
Abel Məhərrəmov
Alxan Məmmədov
Xeyrulla Məmmədov
Elmira Məmmədova
Lətifə Məmmədova
Mirheydər Mirzəyev
Tofiq Mustafazadə
İsmayıl Musaqyev
Ataxan Paşayev
Seyidağa Onullahi
Əli Rəcəbli
Rauf Sadıqov
Əli Saləddin (Mehdiyev)
Mehman Süleymanov
Ələmdar Şahverdiyev
Kərim Şükürov
Nərmin Tahirzadə


Buraxılışa məsul: Əziz Güləliyev

Texniki redaktor: Rövşən Ağayev

Dizayner: Səbuhi Hüseynov

Xəritələrin tərtibçisi: İlyas Süleymanov

Tərtibatçı – rəssam: Nərgiz Əliyeva

Yığı operatorları: Səidə Quliyeva
Aliyə Ələsgərova
Nazilə Məmmədova
Sayad Əyyubova
Rəna Şahbazova

Kompyuter səhifələyicisi: Emil Məmmədov

Korrektorlar: Əxtər Zeynalova
Elmira Məmmədyarova

Yığılmağa verilmişdir 03.07.2004. Çapa imzalanmışdır 11.12.2004.
Formatı $84x108^1/_{16}$. Fiziki çap vərəqi 27,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 189.

Kitab “Şərq – Qərb” mətbəsində çap olunmuşdur.